İBRAHİM BAYRAMOV

AZƏRBAYCAN DİALEKTOLOGİYASI

İKSAD®
Publishing House

İBRAHİM BAYRAMOV

AZƏRBAYCAN DİALEKTOLOGİYASI

ANKARA – 2022

İKSAD
Publishing House

Copyright © 2022 by iksad publishing house
All rights reserved. No part of this publication may be reproduced, distributed or transmitted in any form or by any means, including photocopying, recording or other electronic or mechanical methods, without the prior written permission of the publisher, except in the case of
brief quotations embodied in critical reviews and certain other noncommercial uses permitted by copyright law.
Institution of Economic Development and Social
Researches Publications®
(The Licence Number of Publicator: 2014/31220)
TURKEY TR: +90 342 606 06 75
USA: +1 631 685 0 853
E mail: iksadyayinevi@gmail.com
www.iksadyayinevi.com

It is responsibility of the author to abide by the publishing ethics rules.
Iksad Publications – 2022©

ISBN: 978-625-8377-30-9
Cover Design: İbrahim KAYA
April / 2022
Ankara / Turkey
SIZE: 21X29,7 CM

Elmi redaktor: **Mahirə Hüseynova,**
filologiya elmləri doktoru, professor

Redaktor: **Könül Səmədova,**
filologiya üzrə fəlsəfə doktoru, dosent

Rəyçilər: **Məhərrəm Məmmədli**
filologiya elmləri doktoru, professor

Həcər Hüseynova
filologiya elmləri doktoru, professor

Kifayət İmamquliyeva,
filologiya üzrə fəlsəfə doktoru

Sevinc Sadıqova,
filologiya üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu Elmi Şurasının 31 yanvar 2022-ci il tarixli iclasının 2 №-li protokolunun qərarına əsasən çap olunur.

İbrahim Məhəmməd oğlu Bayramov. Azərbaycan dialektologiyası, Ankara: 2022, 456 səh.

Kitabda Azərbaycan dili şivələrinin tədqiqi tarixindən, təsnifi prinsiplərindən, Azərbaycan dili şivələrinin fonetikası, morfologiyası, sintaksisi və leksikologiyasından bəhs edilir. Dərbənd, Təbriz şivələri, Qərbi Azərbaycanın və Gürcüstanın Azərbaycan dili şivələrinə aid nümunələr kitabda əksini tapmışdır. İlk dəfə olaraq Zəngəzur şivələrindən ayrıca bəhs olunur. Kitabdan filologiya, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası üzrə təhsil alan bakalavrlar, eyni zamanda Azərbaycan dili ixtisası üzrə təhsil alan magistrantlar, dialektologiya ilə bağlı tədqiqat aparan doktorant, dissertantlar və gənc tədqiqatçılar istifadə edə bilər.

˘ – saitin üstündə ağzı yuxarı yarımdairəcik qoymaqla səsin qısalığı göstərilir;

: – saitdən sonra qoyulmaqla səsin uzun tələffüz edildiyi göstərilir;

~ – saitin üstündə qoyularaq burun səsini bildirir;

–ᶜ – samitin üst kənarında üzü sağa yarımdairəcik qoymaqla səsin nəfəsli tələffüz olunduğu göstərilir;

⁀ – iki sözü bir-birinə bağlayan işarədir;

η – (sağır nun) dilarxası sonor (burun) səsi göstərir;

ц – dişarası affrikat kar samitdir, t və s samitlərinin qovuşmasından yaranmışdır, rus dilindəki ц səsinin tələffüzünə uyğundur;

dz – dişarası affrikat cingiltili samitdir, d və z samitlərinin qovuşmasından yaranmışdır;

x′ – dilortası novlu kar samitdir. Azərbaycan ədəbi dilindəki dilortası novlu **y** samitinin kar qarşılığıdır;

k′ – dilarxası kipləşən-partlayan kar səsi göstərir;

$\dot{q}$ – karlaşmaya meyilli **q** səsini göstərir;

$\hat{z}$ – dişarası cingiltili səsi ifadə edir;

aᵒ – saitin a ilə o arasında orta bir vəziyyətdə tələffüzünü bildirir;

aᵊ – saitin a ilə ə arasında orta bir vəziyyətdə tələffüzünü bildirir;

– h səsinin daha arxa və dərindən tələffüzü üçün işlədilir;

• –hərfin altında nöqtə qoyulmaqla səsin karlığı göstərilir: $\underset{\bullet}{b}$, $\underset{\bullet}{d}$.

KİTABIN İÇİNDƏKİLƏR

MÜƏLLİFDƏN 1
G İ r İ ş 2
Dialektologiyanın Başqa Elmlərlə Əlaqəsi 2
DİALEKTOLOJİ TERMİNLƏR 5
Dialektologiyanın Növləri 6
Azərbaycan dİlİ şİvələrİnİn öyrənİlməsİ tarİxİ 7
Azərbaycan Dili Şivələrinin Ekspedisiya Yolu İlə Öyrənilməsi 8
Azərbaycan Dili Şivələrinin Monoqrafik Yolla Öyrənilməsi 10
Konkret Bir Şivənin Tədqiqi 11
Şivələrin Müəyyən Bir Bölməsinin Tədqiqi 14
Şivə Leksikasının Ədəbi-Bədii Dildəki Mövqeyi İlə Bağlı Tədqiqi 17
Azərbaycan Dili Şivələrinin Tarixi Aspektdə Tədqiqi 18
Azərbaycan Dili Şivələrinin Leksikoqrafik Yolla Öyrənilməsi 19
QƏRBİ AZƏRBAYCAN ŞİVƏLƏRİNİN 21
TƏDQİQİ TARİXİ 21
Qərbi Azərbaycan Şivələrinin Ümumi Şəkildə Tədqiqi 21
Qərbi Azərbaycanın Ayrı-Ayrı Bölgələrinin Şivələrin Tədqiqi 22
Konkret Bir Kəndin Şivəsinin Tədqiqi 26
Qərbi Azərbaycan Şivələrinin Azərbaycan Dili Şivələrində Yeri 27
Azərbaycan Dilinin Şivələrinin Təsnifi Prinsipləri 30
Azərbaycan dilinin dialektoloji atlası 45
FONETİKA 49
SAİT SƏSLƏR 50
Uzun Saitlər 50
Qısa Saitlər 59
Burun Saitləri 63
Diftonqlar 68
SƏSLƏRİN ƏVƏZLƏNMƏSİ 73
Saitlərin Əvəzlənməsi 73
Qalın Saitləri İncə Saitlərin Əvəz Etməsi 73
İncə Saitlərin Qalin Saitləri Əvəz Etməsi 77
Dodaqlanan Saitlərin Dodaqlanmayan Saitləri Əvəz Etməsi 80
Dodaqlanmayan Saitlərin Dodaqlanan Saitləri Əvəz Etməsi 83
Açiq Saitlərin Qapali Saitləri Əvəz Etməsi 86
Qapali Saitləri Açiq Saitlər Əvəz Etməsi 91
Açiq Saitlərin Açiq Saitləri Əvəz Etməsi 92
SAMİT SƏSLƏR 95
Samit Səslərin Təsnifi 95
Şivələrimizdə İşlənən Samitlər Və Onların Variantları 95
Samitlərin Əvəzlənməsi 101
Kar Samitlərin Cingiltili Samitlərlə Əvəzlənməsi 101
Cingilitili Samitlərin Kar Samitlərlə Əvəzlənməsi 104
Kar Samitlərin Kar Samitlərlə Əvəzlənməsi 108
Cingiltili Samitlərlə Cingiltili Samitlərin Əvəzlənməsi 111
Söz Köklərində Samitlərin Qoşalaşması 118
VURĞU 120
AHƏNG QANUNU 124
Damaq Ahənginin Pozulması 124
Dodaq Ahənginin Pozulması 130

FONETİK HADİSƏLƏR 132
Assimilyasiya 133
DİSSİMİLYASİYA 141
SƏS ARTIMI 141
SƏS DÜŞÜMÜ 148
Sait Səslərin Düşümü 148
Samit Səslərin Düşümü 150
Heca Düşümü (Qapologiya) 155
YERDƏYİŞMƏ 156
M O R F O L O G İ Y A 162
Azərbaycan Dili Şivələrinin Morfoloji Xüsusiyyətləri 162
NİTQ HİSSƏLƏRİ 166
ƏSAS NİTQ HİSSƏLƏRİ 167
İsim 167
İsmin Qrammatik Kateqoriyaları 177
Hal Kateqoriyası 177
İsimlərin Hallanmasına Aid Nümunələr 183
Mənsubiyyət Kateqoriyası 188
Mənsubiyyət Şəkilçili İsimlərin Hallanması 195
Kəmiyyət Kateqoriyası 199
Xəbərlik Kateqoriyası 200
Xəbərlik Kateqoriyası Aid Nümunələr 206
SİFƏT 209
Sifətlərin Quruluşca Növləri 209
Sadə Sifətlər 209
Düzəltmə Sifətlər 209
Sifətin Dərəcələri 213
SAY 219
Miqdar Sayları 220
Sıra Sayları 221
Kəsr Sayları 222
ƏVƏZLİK 222
Şəxs Əvəzlikləri 223
Şəxs Əvəzliklərinin Hallanması 224
İşarə Əvəzlikləri 228
Sual Əvəzlikləri 229
Qayıdış Əvəzlikləri 231
Qeyri-Müəyyən Əvəzliklər 232
İnkar Əvəzlikləri 232
FEIL 234
Sadə Feillər 234
Düzəltmə Feillər 234
Mürəkkəb Feillər 239
Hər İki Komponenti Feillərin İştirakı Əsasında Əmələ Gələn Mürəkkəb Feillər 241
Feilin Şəkilləri 241
Feilin Əmr Şəkli 242
Əmr Şəklinin Təsriflənməsinə Aid Nümunələr 245
Feilin Xəbər Şəkli 249
Keçmiş Zaman 249
Nəqli Keçmiş Zamanın Şəxsə Görə Dəyişməsinə Aid Nümunələr 249
İndiki Zaman 253
Gələcək Zaman 260

Qəti Gələcək Zaman Feillərinin Təsrifi 268
Qeyri - Qəti Gələcək Zaman Feillərinin Təsrifi 270
Feilin Arzu Şəkli 272
Feilin Arzu Şəklinin Təsriflənməsinə Aid Nümunə 274
Feilin Vacib Şəklinin Təsriflənməsinə Aid Nümunə 277
Feilin Lazım Şəkli 279
Feilin Lazım Şəklinin Təsrifinə Aid Nümunə 279
Feilin Şərt Şəkli 280
Feilin Şərt Şəklinin Təsrifinə Aid Nümunə 282
Feili Bağlama 287
Məsdər 289
ZƏRF 290
KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ 295
Qoşma 296
Bağlayıcı 300
Ədat 303
XÜSUSİ NİTQ HİSSƏLƏRİ 305
Modal Sözlər 305
Nida 306
S İ N T A K S İ S 308
Azərbaycan Dili Şivələrinin Sintaktik Xüsusiyyətləri 308
SÖZ BİRLƏŞMƏLƏRİ 309
SİNTAKTİK ƏLAQƏLƏR 311
Uzlaşma Əlaqəsi 311
İdarə Əlaqəsi 312
Yanaşma Əlaqəsi 314
CÜMLƏ ÜZVLƏRİ 315
Mübtəda 315
Xəbər 316
Tamamlıq 317
Təyin 317
Zərflik 318
Cümlədə Sözlərin Sırası 319
SADƏ CÜMLƏ 321
Məqsəd Və İntonasiyaya Görə Sadə Cümlənin Növləri: Sual Cümləsi 321
Cümlə Üzvlərini İştirakına Görə Sadə Cümlənin Növləri 321
Qrammatik Cəhətdən Cümlə Üzvləri İlə Bağlı Olmayan Sözlər Və Əlavələr 325
Xitab 325
Ara Sözlər 326
Əlavələr 328
MÜRƏKKƏB CÜMLƏ 329
Tabesiz Mürəkkəb Cümlələr 329
Tabesiz Mürəkkəb Cümlələr Arasında Məna Əlaqələri 330
Tabeli Mürəkkəb Cümlələr 331
Mübtəda Budaq Cümləsi 331
Xəbər Budaq Cümləsi 332
Tamamlıq Budaq Cümləsi 333
Təyin Budaq Cümləsi 333
Tərzi-Hərəkət Budaq Cümləsi 334
Zaman Budaq Cümləsi 335
Yer Budaq Cümləsi 336
Kəmiyyət Budaq Cümləsi 336

Səbəb Budaq Cümləsi 337
Məqsəd Budaq Cümləsi 337
Şərt Budaq Cümləsi 337
Qarşılıq-Güzəşt Budaq Cümləsi 338
L E K S İ K O L O G İ Y A 339
Müasir Azərbaycan Ədəbi Dilinin Lüğət Tərkibinin Zənginləşməsinin 347
Mənbə Və Yolları 347
Müasir Azərbaycan Ədəbi Dilinin Lüğət Tərkibinin Dialekt Süzləri Hesabına Zənginləşməsi 352
Azərbaycan Dili Şivələrində Qədim Türk Sözləri 376
Tayfa Və Nəsil Mənasını İfadə Edən Sözlər 395
Qohumluq Münasibətlərini Bildirən Sözlər 395
Terminoloji Səciyyə Daşıyan Sözlər 396
Terminoloji Səciyyə Daşımayan Sözlər 398
AZƏRBAYCAN DİLİ ŞİVƏLƏRİNDƏ SÖZÜN MƏNA NÖVLƏRİ 399
Omonomlər 399
Sinonimlər 402
Antonimlər 403
F R A Z E L O G İ Y A 404
Azərbaycan Dili Frazeologiyasının Tədqiqi Tarixi Haqqında 404
Xalq Frazeologiyası 405
Azərbaycan Dili Şivələri Frazeologiyasının Qrammatik Təsnifi 407
İsmi Frazeoloji Vahidlər 407
Feili Frazeoloji Vahidlər 408
Dialekt Frazeologiyasının Semantikası 410
Omonim Frazeoloji Vahidlər 412
Sinonim Frazeoloji Vahidlər 415
Antonim Frazeoloji Vahidlər 416
L E K S İ K O Q R A F İ Y A 417
Dilin Bütün Şivələrini Əhatə Edən Dialektoloji Lüğət 417
Dilin Şivələrinin Müəyyən Bir Qrupunu Əhatə Edən Dialektoloji Lüğət 422
Konkret Bir Şivəni Əhatə Edən Dialektoloji Lüğət 424
Şivələrin Omonimlər Lüğəti 424
Şivələrin Frazeoloji Lüğəti 425
S Ö Z Y A R A D I C I L I Ğ I 425
Leksik Üsulla Söz Yaradıcılığı 426
Morfoloji Üsulla Söz Yaradıcılığı 427
Sintaktik Üsulla Söz Yaradıcılığı 431
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT 434
Dialektoloji Mətnlər 443

Azərbaycan dialektologiya məktəbinin yaradıcısı, görkəmli dilçi-türkoloq, akademik Məmmədağa Şirəliyevin xatirəsinə ithaf edirəm.

MÜƏLLİFDƏN

Azərbaycan dili şivələri dilimizin tarixini mühafizə etməklə yanaşı ədəbi dildən fərqlənən xüsusiyyətlərə malikdir. Bunu şivələrin fonetikasında, leksikasında, morfologiyasında, sintaksisində müşahidə etmək olur.

Azərbaycan dili şivələri ilə bağlı yazılmış namizədlik, fəlsəfə doktorluğu, elmlər doktorluğu dissertasiyalarında, ayrı-ayrı monoqrafiyalarda, dərslik, dərs vəsaitləri və metodik vəsaitlərdə bəhs olunmuş, müasir Azərbaycan ədəbi dilindən fərqli xüsusiyyətləri göstərilmişdir.

Azərbaycan dili şivələri tələbələrə 45 ildir ki, görkəmli dialektoloq, Azərbaycan dialektologiyası məktəbinin yaradıcısı M.Şirəliyevin "Azərbaycan dialektologiyasının əsasları" dərs vəsaitindən, eyni zamanda A.Hüseynovun "Azərbaycan dialektologiyası" adlı dərs vəsaitindən, şivələrimizin ayrı-ayrı bölmələri ilə bağlı yazılmış dərs və metodik vəsaitlərindən öyrədilir. Keçən bu dövr ərzində dilektologiyaya aid neçə-neçə dissertasiyalar müdafiə edilmiş, kitablar yazılmış, dialektologiya ilə bağlı baxışlar dəyişmişdir. Digər tərəfdən dialektoloji tədqiqatlara yeni yanaşmalar yaranmış, yeni-yeni tədqiqatlarla Azərbaycan dialektologiyası zənginləşmişdir. Əvvəlki dərs vəsaitlərindən fərqli olaraq monoqrafiyada Dərbənd, Təbriz, İraq-türkman, Qərbi Azərbaycan şivələrindən nümunələr verilərək oxucularda Azərbaycan dili şivələrinə dair tam elmi təsəvvür formalaşdırmaq imkanı yaradır. Məhz buna görə də "Azərbaycan dialektologiyası" adlı kitabını yazmağı qarşımıza məqsəd qoyduq. Kitabda "Azərbaycan dilinin Muğan qrupu şivələri" (1955), M.Şirəliyevin "Bakı dialekti" (1957), "Azərbaycan dialektologiyasının əsasları" (1967), "Azərbaycan dilinin dialekt və şivələri" (rus dilində, 1983), R.Ə.Rüstəmovun "Quba dialekti" (1961), M.İ.İslamovun "Azərbaycan dilinin Nuxa dialekti" (1968), "Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri" (kollektiv, I c., 1967), "Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri" (kollektiv, 1962), V.T.Cangidzenin "Azərbaycan dili Qazax dialektinin Dmanisi şivəsi" (rus dilində, 1965), M.Məmmədlinin "Azərbaycan dilinin Təbriz dialekti" (2008), Ş.Kərimovun "Azərbaycan dilinin Çənbərək və Karvansaray şivələri" (2004), Ə.Əliyevin "Azərbaycan dilinin Meğri şivələri" (2003), "İraq-türkman ləhcəsi" (kollektiv, 2004), "Azərbaycan dilinin Dərbənd dialekti" (kollektiv, 2009), R.Abbasovanın "Azərbaycan dilinin Qubadlı şivələri" (2006), N.Əliyevanın "Azərbaycan dilinin Şahbuz şivələri" adlı əsərlərdən, elecə də dialektologiya ilə bağlı müdafiə edilmiş dissertasiyalardan, "Azərbaycan dilinin dialektoloji lüğəti"ndən (2007), İ.Bayramovun "Qərbi Azərbaycan şivələrinin leksikası" (2011), A.Bayramov və A.Bayramovanın "Azərbaycan dilinin Ağbaba şivəsi" (2020) əsərlərindən, tarixi aspektdə müqayisə edilərkən E.Əzizovun "Azərbaycan dilinin tarixi dialektologiyası" (1999) adlı dərs vəsaitinin dialektoloji materiallarından istifadə edilmişdir. Kitabda sözlərin hansı şivələrdə işləndiyi göstərilmiş, qarşısında müasir ədəbi dilimizdə işlənən fonetik forması, bəzən də onların müasir Azərbaycan ədəbi dildə ifadə etdiyi mənası da verilmişdir.

Kitabda müəyyən çatışmazlıqlar da ola bilər. Əsərdə rast gəlinən çatışmazlığı göstərən mütəxəssislərə və oxuculara müəllif əvvəlcədən öz təşəkkürünü bildirir.

G İ R İ Ş

Dialektologiya dilçilik elminin bir sahəsi olub dilin dialekt və şivələrini öyrənir. Azərbaycan dialektologiyası bir elm sahəsi kimi əsasən XX əsrin 20-ci illərindən formalaşmağa başlamış, Azərbaycan dilinin dialekt və şivələrini öyrənməyi qarşısına əsas məqsəd qoymuşdur. Azərbaycan dialektologiyasının mövzusu Azərbaycan şivələridir.

Dialektologiyanın məqsədi dialekt və şivələri öyrənməkdir.

Dialektologiyanın vəzifələri aşağıdakılardır:

1.Dialekt və şivələrin fonetikasının xüsusiyyətlərini, saitləri, samitləri, səs əvəzlənmələrini, fonetik hadisələri, dialekt və şivələrdə ahəng qanunun təzahürlərini araşdırmaq, ədəbi dildən fərqli xüsusiyyətlərini göstərmək;

2.Dialekt və şivələrin morfologiyasını və morfoloji xüsusiyyətlərini, dialektoloji aspektdə nitq hissələrini araşdırmaq və ədəbi dildən fərqli əlamətlərini üzə çıxarmaq;

3.Dialekt və şivələrin sintaksisini öyrənmək, ədəbi dildən fərqli söz birləşmələrini, cümlə tiplərini müəyyənləşdirmək, ədəbi dillə fərqli və oxşar xüsusiyyətlərini izah etmək;

4.Dialekt və şivələrin leksikasını araşdırmaq, qədim türk sözlərinin dialekt və şivələrdə işlənməsini, terminoloji leksikanın işlənmə xüsusiyyətini və növlərini göstərmək, dialekt frazeologiyasını izah etmək;

5.Dialektoloji lüğətlərin yaranması, tərtibi, dialekt və şivələrin öyrənilməsində əhəmiyyətini göstərmək.

Azərbaycan dili şivələrinə aid problemlərin öyrənilməsində qohum dillər – türk dilləri xüsusi yer tutur. Tarixi dialektologiyada isə qohum dillər aparıcı rola malikdir. Belə ki, türk dilləri, xüsusilə oğuz qrupu türk dilləri Azərbaycan dili şivələrinin fonetikasının və leksikasının öyrənilməsində xüsusi əhəmiyyət kəsb edir. Məsələn, şivələrdə diftonqlardan bəhs edilərkən göstərilir ki, başqırd və türk dillərində və ya onların dialektlərində diftonqlar (başqırd dilində: torou “durmaq”, yotou “udmaq”, yöröü “yerimək”, türk dilində: souk “soyuq”), səs əvəzlənmələri (özbək dilində: ı > i kiz “qız”, yaşil “yaşıl”; türk dilində: ili “ulu”, yokari “yuxarı”); ö>o türk dilinin dialektlərində dövmek “doğmak” < döymək, göstermek “gostermek” < göstərmək, köy “koy” < kənd və s.) özünü göstərir.

Dialekt və şivələrin leksikası izah edilərkən ayrı-ayrı leksik vahidlərin başqa türk dillərində işləndiyini görmək olur. Məhz qədim türk sözlərinin şivələrimizdə işləndiyini göstərməklə yanaşı, həmin sözlərin müxtəlif fonetik tərkibdə türk dillərində də işləndiyini dil faktları əsasında izah etmək xüsusilə vacibdir. Məsələn, şivələrimizdə işlənən *yoğurt, yəxni, arı, əfçi, uruğ, com* və s. sözlərdən bəhs edilərkən göstərilir ki, həmin sözlər digər türk dillərində də müxtəlif fonetik formada işlənir.

Dialektologiyanın Başqa Elmlərlə Əlaqəsi

Dialektologiya ədəbiyyat, tarix, dilçilik fənləri ilə əlaqəlidir. Yəni dialektoloji materialların düzgün elmi izahını vermək üçün bədii ədəbiyyatdan, folklor nümunələrində götürülmüş dil faktlarına tarixi aspektdə yanaşılaraq dilçilik yöndə izah edilir.

Bədii ədəbiyyatın rolu. Hər bir yazıçı və şair əsərində xalqın yaratdığı söz və ifadələrdən yerli yerində istifadə etməklə əsərlərinin bədii dəyərini artırır. Yazıçı və şairlər öz əsərlərində dialektizmlərdən də istifadə etməklə dilin zənginliyini üzə çıxarır, obrazların daxili aləminin açılmasına şərait yaradır. Dialektizmlər bədii əsərlərin dilinə xəlqilik, obrazlılıq, yerli kaloritlilik gətirir. Bu əsərlər ayrı-ayrı şivələrin fonetik, morfoloji, sintaktik və leksik xüsusiyyətlərini mühafizə edib saxlayır, nəsildən-nəslə çatdırır. Eyni zamanda bədii

əsərlərdə işlənən dialektizmlərin bəziləri sonralar ədəbi dilə keçərək lüğət tərkibini zənginləşdirir. Məsələn: Alo kişi qarın içi ilə gedə-gedə **azaylanırdı** (S.Rəhimov); Elə **üdüləyirsən** ki, elə bil qabağında bir nimçə plov var (Ə.Vəliyev); İmran **doqqazdan** keçib gələnədək Zeynəb çəpərin tapdanmış yerindən adlayıb həyətə girdi (İ.Şıxlı).

Qonşumuzun oğlu arxalıq geymişdi
Qırmızı **qanovuzdan** novruz günü.
Anam,
Döşək **kəfrəmindən** tikdiyi
qoz gəzəli ilə boyadığı,
köynəyi **axarlayıb**
Çıxartdı hovuzdan
düz günü (R.Rza)

Bu misallarda işlənmiş *azaylanmaq, üdüləmək, doqqaz, qanovuz, kəfrəm, axarlamaq* dialekt sözləri ədəbi dilimizi zənginləşdirmişdir.

Şifahi xalq ədəbiyyatının rolu. Azərbaycan dili şivələrinin öyrənilməsində şifahi xalq ədəbiyyatı əsas mənbələrdən biridir. Şifahi xalq ədəbiyyatının ayrı-ayrı növlərində dialekt sözləri, müəyyən şivələrə məxsus danışıq səsləri, qrammatik formalar özünü qoruyub saxlayır.

Məsələn:

On dördündə sevda yetər başına,
On beşində yavan girər **duşuna,**
Çünki yetdin iyirmi dörd yaşına
Boz, bulanıq axan selə bənzərsən.
("Koroğlu" dastanı)

Saya gəldi, gördüzmü?
Say yerinə **vardızmı?**
Alnı təpəl bir toxlu
Sayaçıya verdizmi?
(Sayaçı sözlər)
Əzizinəm, oxu tər,
Oxu, bülbül, oxu tər.
Alma sinəmi nişan,
Qəm **tünlükdür,** ox itər
(Bayatı)
Ata minən ağadır,
Atın yolu dağadır.
Yaxşı qulaq as, yarım,
Bu bayatı **sanadır.**
(Bayatı)
Canım qoyunun **kəlini,**
Ovsara gəlməz yelini
Cayaxdan aldım dölünü,
Onu sağan qız gəlini
Xınalayın siz əlini

Götürərlər **sərnicləri**
Gözlə **bərənin** yolunu
(Bayatı)
Sağ vaxtı nəydi, **sayrı** vaxtı nə ola
(Atalar sözü)
Qurdnan yeyər, **qoyunnan** yas saxlayar
(Atalar sözü)
Yayda başı bişənin, qışda **aşı** bişər
(Atalar sözü)

Yuxarıda işlənmiş folklor nümunələrində işlənmiş "sana" (sənə), "qurdnan" (qurdla) sözlərində şivələrimizə məxsus fonetik və qrammatik xüsusiyyətlər özünü göstərir. "Duş" (yuxu), "vardızmı" (getdinizmi), "tünlük" (qarışıqlıq), "kəlin" (buynuzlu qoyun), "sərnic" (qab), "bərə" (çıxacaq yer, yol), "sayrı" (xəstə), "aş" (xörək) kimi sözlər isə müxtəlif şivələrimizdə işlənməkdədir.

Qədim abidələrin rolu. Azərbaycan dili şivələrinin tarixi aspektdə öyrənilməsində qədim abidələr xüsusi əhəmiyyətə malikdir. Bu baxımdan Orxon-Yenisey yazılı abidələri, "Kitabi-Dədə Qorqud" dastanı, M.Kaşğarinin "Divanü-lüğat-it-türk" əsəri xüsusi yer tutur.

DİALEKTOLOJİ TERMİNLƏR

Dialektologiya. Müəyyən bir dilin dialekt, şivə və ləhcəni tədqiq etməklə məşğul olan dilçilik şöbəsi dialektologiya adlanır. Dialektologiya bir elm sahəsi olaraq XIX əsrin 20-ci illərində Yakov Qrimmin dilə tarixi cəhətdən yanaşmanın zəruriliyini əsaslandirdiqdan sonra inkişaf etməyə başlamışdır. Həmin dövrdə məşhur dialektoloq Uohan Andreas Smeller bir sıra dialektoloji əsərlər nəşr etdirmişdir. Dialektologiya elminin inkişaf dövründə ayrı-ayrı dialektlər götürülür və ümumi dilin tarixən meydana çıxmasına səbəb olmuşdur.

Dialektologiya dilçiliyin bir sahəsi olub bu və ya digər dil hadisəsinin müxtəlif dialektlərində yayılma dərəcəsi və hüdudlarını öyrənir. Bu məqsədlə də dialektoloji atlaslardan geniş istifadə olunur. Dialektoloji atlaslar sübut edir ki, bütöv dialekt kütləsi yoxdur, bəlkə, ayrı-ayrı izoqlaslar – müəyyən dialekt xüsusiyyətlərinin yayıldığı ərazilər var və bu ərazilər səslərin, sözlərin, formaların hərəkət, təsir hüdudlarını əks etdirir. Dialektologiya dilin keçib gəldiyi inkişaf yolunu əsaslı şəkildə öyrənməyə imkan verir.

Dialekt termin iki mənada işlənir.

1. Müəyyən bir dilin sıx ərazi birliyinə malik, daima və bilavasitə ünsiyyətdə olan məhdud miqdarda adamlar tərəfindən işlədilən variant.

2. Ədəbi dilə qarşı duran ünsiyyət vasitəsinin adı.

Qəbilə dialekti – böyük etnik birlik tərkibində etnik cəhətdən fərqlənən bir qrup adama məxsus dialekt.

Etnik dialekt – müəyyən etnik qrupa məxsus dil variantı.

Ədəbi dialekt (koyne dialekt)-dilin dialektləri içərisində milli ədəbi dilin əsasını təşkil etməsi ilə fərqlənən dialekt.

Peşə dialekti – müəyyən peşə, sənət və məşğuliyyət əsasında əlaqədar adamlara məxsus dialekt.

Sinfi dialekt – müəyyən ictimai zümrəyə məxsus dialekt.

Ləhcə. Bu termin ümumi xüsusiyyətləri üstünlük təşkil edən şivələrin məcmusu mənasını ifadə edir.

Şivə. Kiçik ərazi birliyində yaşayan kollektivin ünsiyyəti üçün işlədilən dil variantı: *Qarabağın Əfşar şivəsi.*

Keçid şivəsi. Digər şivələrlə ortaqlı cəhətlərə malik iki və daha artıq şivənin müxtəlif xüsusiyyətlərini özündə əks etdirən şivə. Məsələn: *Ağdaş şivəsi, Göyçay şivəsi* və s.

Dialektizm. Dialektizmin aşağıdakı növləri var:

Fonetik dialektizm. Ayrı-ayrı şivələrdə işlənən danışıq səsləri;

Morfoloji dialektizmlər. Ədəbi dildə işlənən leksik ə v qrammatik şəkilçilərin şivələrdə işlənən variantları;

Leksik dialektizmlər. Ədəbi dildə işlənməyən yalnız şivələrdə işlənən sözlər;

Frazeoloji dialektizmlər. Ayrı-ayrı şivələrdə işlənən sabit söz birləşmələri;

İzoqolos. Müxtəlif dialektlərin eyni dil hadisəsi;

Dialekt-koyne. Milli ədəbi dilin formalaşmasında aparıcı dialect.

Dialektologiyanın Növləri

Şivələr müxtəlif cəhətlərdən tədqiq edilir və dialektologiya ilə bağlı elmi fikir tam formalaşmış olur. Bu baxımdan dialektologiyanı aşağıdakı növlərə bölmək olar: 1) təsviri dialektologiya; 2) tarixi dialektologiya; 3) müqayisəli dialektologiya.

Təsviri dialektologiya. Hal-hazırda istifadə edilən konkret bir şivənin səs tərkibini, morfologiyasını, sintaksisini, leksikasını öyrənən dialektologiya təsviri dialektologiya adlanır. Məsələn: *Bakı şivəsi, Təbriz şivəsi, Naxçıvan qrupu şivələri, keçid şivələri, Zəngilan şivəsi, Cəbrayıl şivəsi* və s. Təsviri dialektologiyanın nəticələrindən tarixi və müqayisəli dialektologiyalarda istifadə edilə bilər.

Tarixi dialektologiya. Hər hansı bir dilin şivələrinin tarixi aspektdə öyrənilməsi tarixi dialektologiya adlanır. Məsələn: Azərbaycan dilinin tarixi dialektologiyası, özbək dilinin tarixi dialektologiyası və s.

Müqayisəli dialektologiya. Müəyyən bir dilin şivəsinin eyni dil qrupuna daxil olan dilin şivəsi ilə müqayisəli şəkildə öyrənilməsinə müqayisəli dialektologiya deyilir. Məsələn: türk dilləri şivələrinin monoqrafik tədqiqi, oğuz qrupu türk dilləri şivələrinin fonetikası, türk dilləri şivələrinin sintaksisi və s.

AZƏRBAYCAN DİLİ ŞİVƏLƏRİNİN ÖYRƏNİLMƏSİ TARİXİ

Azərbaycan dilinin şivələri haqqında ilk məlumatı XIX əsrin 30-cu illərində Mirzə Kazımbəy vermişdir. M.Şirəliyev yazır: "Azərbaycan dilinin dialekt və şivələri haqqında məlumata az da olsa, hələ inqilabdan əvvəl (Böyük Oktyabr Sosialist inqilabı nəzərdə tutulur – İ.B.) rast gəlirik. Bu məlumatlar içərisində nəzəri cəlb edən prof.Mirzə Kazımbəyin 1839-cu ildə Qazan şəhərində çap olunmuş "Грамматика турецко-татарского языка" adlı əsəridir кi, burada ilk dəfə olaraq Quba dialekti və Dərbənd şivəsi üçün səciyyəvi olan indiki zamanın şəkilçisi qeyd olunur və onun təsrifi verilir. Kazımbəy bu əsərində Dərbənd şivəsini Azərbaycan ədəbi dili ilə müqayisə edərək, onun ədəbi dildən ayrılan cəhətlərini göstərməyə çalışmışdır" (M.Şirəliyev, 1967, s.13).

XIX əsrdə Mirzə Kazımbəydən başqa, Mirzə Əli Badkubi Azərbaycan dilinin ayrı-ayrı dialekt və şivələrinin xüsusiyyətlərindən bəhs etmişdir.

Alman alimi Karl Foy 1903-cü ildə Berlində çap olunan "Mitteilungen des Seminars für Orientalische Spracen" (MSOS) jurnalının VI nömrəsində "Azerbajganische Studien mit einer Charakteristik des Südtürkischen" ("Cənub türkcəsinin səciyyəsinə dair Azərbaycan etüdləri") adlı məqaləsi nəşr olunmuşdur. Həmin məqalənin II hissəsi jurnalın 1904-cü il nəşrinin VII nömrəsində çap olunmuşdur. Bu məqalələrdə Cənubi Azərbaycan, xüsusilə də Təbriz, Urmiyə, Ərzrum şivələrinin fonetik xüsusiyyətlərindən bəhs edilmişdir (M.Şirəliyev, 1967, s.14; M.Məmmədli, 2011, s. 12). Karl Foy Cənubi Azərbaycan dialektləri haqqında tədqiqatlarını bu ərazilərdən topladığı folklor materialları üzərində qurmuşdur. Məhz buna görə də onun tədqiqatı az və məhdud xarakter daşıyır.

Azərbaycan dili şivələrinin elmi və sistemli şəkildə öyrənilməsi 1920-ci ildən sonraya təsadüf edir. Bu sahədə Azərbaycan Tədqiq və Tətəbbö cəmiyyəti və onun tarix-etnoqrafiya bölməsi xüsusi əmək sərf etmişdir. Cəmiyyətin tapşırığı əsasında 1924-cü ildə N.İ.Aşmarin "Azərbaycan türk şivələri lüğətini tərtib etmək üçün toplanacaq materiallar haqqında düstürüləməl və proqram" adlı proqramı Azərbaycan (22 səhifə) və rus (19 səhifə) dillərində çap etmişdir. "Bu proqramda 15 maddə üzrə Azərbaycan türk şivələrinin lüğətini tərtib etmək üçün toplanacaq materiallardan bəhs edilirdi" (M. Qasımov, 1957, s.198). Daha sonra N.İ.Aşmarin "Lüğət üçün Azərbaycan türk şivələrinin toplanmasına dair" məqaləsini yazmışdır (N. Aşmarin, 1924, s.33-34).

N.İ.Aşmarin 1924-1925-ci illərdə Nuxa (Şəki) şəhərində olmuş, həm Şəki şəhərindən, həm də kəndlərindən dialektoloji materiallar toplamış və topladığı materiallar əsasında 1926-cı ildə "Обший обзор народных говоров гор. Нухи" əsərini yazmışdır. "Əsərin giriş hissəsində müəllif Nuxa şəhəri (Şəki şəhəri – İ.B), onun ərazisi və tarixi haqqında qısa məlumat vermişdir. Burada Nuxa (Şəki-İ.B.) əhalisinin bir-birindən fərqlənən müxtəlif şivələrdə danışdığı qeyd edilir" (M. Qasımov, 1957, s.198).

N.İ.Aşmarin əsərində əsasən Nuxa dialektinin fonetik və morfoloji xüsusiyyətlərindən bəhs etmişdir. Ə.Dəmirçizadə bununla bağlı yazır: "Professor Aşmarin bu əsərdə daha çox fonetik və morfoloji xüsusiyyətlərin təsvirinə yer vermişdir. Lüğət və sintaktik quruluş bu əsərdə özünə, demək olar ki, yer tapmamışdır. Bu əsas nöqsana baxmayaraq, professor Aşmarinin bu əsəri şivələrin öyrənilməsi işinldə ilk və səmərəli addım olmuşdur" (Ə.Dəmirçizadə, 1947, s.168) .

Azərbaycan dili şivələrinin öyrənilməsi dörd yolla aparılır:

1. Azərbaycan dili şivələrinin ekspedisiya yolu ilə öyrənilməsi;
2. Azərbaycan dili şivələrinin monoqrafik yolla öyrənilməsi;

3. Tədris ədəbiyyatı vasitəsi ilə öyrənilməsi;
4. Leksikoqrafik yolla öyrənilməsi.

Azərbaycan Dili Şivələrinin Ekspedisiya Yolu İlə Öyrənilməsi

Azərbaycan dili şivələrinin ekspedisiya yolu ilə öyrənilməsi XX əsrin 30-cu illərindən başlamışdır. Keçmiş SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı 1933-cü ildən başlayaraq Şamaxı (1933), Quba (1934), Zaqatala-Qax (1935), Şuşa (1939) rayonlarına dialektoloji ekspedisiyalar təşkil etmiş, şivələrə aid materiallar toplayaraq tədqiqata cəlb etmiş və ilk dialektoloji araşdırmalar aparmışdır. 1936-cı ildə SSRİ EA-nın Azərbaycan filialının dil bölməsinin elmi əməkdaşı Y.Mirbabayev Zaqatala şivələrindən dialektoloji material toplamışdır (M. Ширалиев, 1941, c.17).

1938-ci ilin oktyabr-dekabr aylarında Azərbaycan dilinin ayrım şivəsinin xüsusiyyətlərini və ayrım şivəsinin Azərbaycan dili şivələrində yerini müəyyənləşdirmək məqsədi ilə Azərbaycanın Dəstəfur (Daşkəsən – İ.B), Kəlbəcər, Laçın və Xanlar (Göygöl – İ.B.) rayonlarına, eləcə də Ermənistanın Basarkeçər, Dilican, Kirovakan (Böyük Qarakilsə - İ.B.) və Krasnoselo (Çəmbərək – İ.B.) rayonlarına iki ekspedisiya təşkil olunmuşdur (A.Бабазаде,,1939, s.79). Bu ekspedisiyadan aydın olmuşdur ki, ayrımlar yuxarıda göstərilən rayonlarla yanaşı, Azərbaycanın Qazax, Gədəbəy, Ermənistanın Yeni Bayazid (indiki Kamo, ilkin adı Kəvər – İ.B.), Noemberyan (qədim adı Barana – İ.B.), Allahverdi və Gürcüstanın Borçalı rayonlarında yaşayırlar (A.Бабазаде, 1939, c.79).

1947-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsi Abşeron rayonunun qərb şivələrini, eləcə də Mərəzə, Şamaxı, Ağsu və İsmayıllı rayonlarının şivələrini, 1954-1956-cı illərdə Ağdaş və Göyçay şivələrini öyrənmək üçün ekspedisiyalar təşkil etmişdir (A. Велиев, 1958, c.123).

SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının bazası əsasında 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyası (indiki Azərbaycan Milli Elmlər Akademiyası) yaradıldıqdan sonra başqa elm sahələrinə olduğu kimi, dialektologiyaya da xüsusi fikir verilməyə başlamışdır. M.Ş.Qasımov yazır: “1950-ci ildən sonra dialektoloji ekspedisiyaların təşkili işi də xeyli genişləndi. 1950-1955-ci illər ərzində Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Azərbaycan dialektologiyası şöbəsinin əməkdaşlarından prof.M.Ş.Şirəliyevin və R.Ə.Rüstəmovun, K.T.Ramazanovun, T.B.Həmzəyevin və başqalarnının iştirakı ilə cənub qrupu dialektlərinə məxsus olan bir sıra xüsusiyyətləri müəyyənləşdirmək üçün Ordubada, Culfaya, Noraşenə (Şərur – İ.B.), Şahbuza və Naxçıvana dialektoloji ekspedisiyalar təşkil olundu. Həmin ekspedisiyalar zamanı toplanan materiallar əsasında bir sıra məqalələr də yazılmışdır. Məsələn, K.Ramazanovun (K.Ramazanov,1953, s.123-129), “Noraşen rayonu (Şərur rayonu – İ.B.) şivələrinin bəzi xarakter morfoloji xüsusiyyətləri”, R.Süleymanovun “Ordubad və Culfa rayonları şivələrinin leksik xüsusiyyətləri” (R.Süleymanov 1953, s.130-141) adlı məqalələri bu dialektlərə aid yazılan əsərlərdir. Bu məqalələrdə Azərbaycan dili dialektlərinin cənub qrupuna daxil olan Noraşen (Şərur – İ.B.), Ordubad və Culfa rayonu şivələrinin fonetik, morfoloji, sintaktik və leksik xüsusiyyətlərinə aid müəyyən məlumat verilir” (M.S.Qasımov, 1957, s.206).

1955-ci ildə Nizami adına Ədəbiyyat və Dil İnstitutunun dialektologiya şöbəsi Naxçıvan Muxtar Respublikasının şivələrini öyrənmək məqsədilə dialektoloji ekspedisiyalar keçirilmişdir. “1940-cı ildən 1956-cı islədək 16 il ərzində respublikamızın rayonlarına 15-dən artıq dialektoloji ekspedisiya təşkil edilmişdir. Bu ekspedisiyalar zamanı təxminən 500-ə qədər

kəndin şivəsi öyrənilmişdir" (M.S.Qasımov, 1957, s.206).

Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Azərbaycan dialektologiyası şöbəsi 1961-ci ildə Azərbaycan dilinin qərb qrupu şivələrini öyrənmək məqsədilə Gədəbəy və Daşkəsən rayonlarına ekspedisiya təşkil etmişdir. M.Şirəliyev və R.Rustəmovun rəhbərliyi ilə K.Ramazanov, B.Tağıyev, Q.Həsənov, B.Sadıqov, R.Kərimov 1961-ci il iyun ayının 1-dən 25-nə kimi Gədəbəy rayonunun Arabaçı, Arıqdam, Dəyirmandağ, Böyük Qaramurad, Qumlu, Qurudərə, Düz Rəsullu, İsalı, Yenikənd, Kərimli, Rüstəm Əliyev, Söyüdlü, Fərzalı, Çalburun, Cucanlı, Daşkəsən rayonunun Alaxançallı, Almalı, Astaf, Qabaqtəpə, Qıyıxlı, Əmirvar, Əhmədli, Zinzihal, Yolqulular, Gədəmiş, Mollahəsənli, Şahvələdli kəndlərində dialektoloji ekspedisiyada olmuş və material toplamışlar (M.Şirəliyev, 1963, s.124). Ekspedisiya zamanı Gədəbəy və Daşkəsən rayonlarından toplanmış fonetik, qrammatik və leksik materiallardan aydın olur ki, ayrım şivəsi qərb qrupu şivələrinə məxsus cəhətləri özündə əks etdirir. Bu məqsədlə fonetik, qrammatik və leksik nümunələr üzərində dayanılır. Eyni zamanda ayrım şivəsinin qərb qrupu şivələri ilə ümumi cəhətləri olduğu kimi, bəzi fonetik, qrammatik və leksik xüsusiyyətləri ilə ayrım şivəsini, qərb qrupu şivələrindən fərqləndirir. Belə ki, ekspedisiyanın materiallarından aydın olur ki, ayrım şivəsinə məxsus elə fonetik, qrammatik və leksik xüsusiyyətlər özünü göstərir ki, qərb qrupunda buna təsadüf edilmir:

1.Qovuşuq **dz** səsinin işlənməsi: dzavan, aladzam;

2.Söz əvvəlində **q** səsinin **ğ** səsi ilə əvəzlənməsi: ğonax <qonaq, ğalın<qalın, ğurban<qurban və s.

3.Söz əvvəlində **g** səsinin **q** səsi ilə əvəzlənməsi: qəlin<gəlin, qöz<göz, qözəl<gözəl və s.

4.Söz ortasında **y, g** səsinin **ğ** səsi ilə əvəzlənməsi: iğnə, düğmə, söğüt və s.

5.Söz əvvəlində **k** səsinin **q** səsi ilə əvəzlənməsi: qüçə<küçə, qişi<kişi, qeçə<keçə və s.;

6. **n** səsinin **m** səsi ilə əvəzlənməsi: buymuz<buynuz.

7.Dissimilyasiya nəticəsində **m** səsinin **n** səsi ilə əvəzlənməsi: barnax<barmaq;

8. I, II şəxsin təkinin şəkilçilərinin qapalı saitlərlə, **-ım, -im, -um, -üm; -ıŋ, -iŋ, -uŋ, -üŋ,** I, II şəxsin cəminin şəkilçilərinin açıq saitlərlə: **-ax, -əx'; -saŋız, -səŋiz** şəkilçiləri ilə ifadə olunması: almışım, görmüşüm, alıfsıŋ, görüfsüŋ, almışax, görmüşəx', alıfsaŋız, görüfsəŋiz.

9.Feillərin I şəxs təkdə indiki zaman **-eyr, -oyr, -öyr** şəkilçiləri ilə ifadə olunması: gəle:yrəm, duro:yrum, göröyrüm.

10.Feillərin II və III şəxsdə indiki zaman – **e:y, - o:y, -öy** şəkilçiləri ilə ifadə olunması: ale:ysın, ale:y, duro:ysun, duro:y, göröysüŋ, göröy.

11. **-ıfnan, -ifnən, -ufnan, -üfnən** feili bağlama şəkilçilərinin işlənməsi: alıfnan, gəlifnən, durufnan, görüfnən.

12.***Gah*** bağlayıcısının əvəzinə ***ara*** bağlayıcısının işlənməsi: ***Ara*** *yağış yağeydi,* ***ara*** *dolu tüşəydü;* ***Ara*** *çaleydi,* ***ara*** *oxuyoydu.*

13.Ayrım şivəsi üçün xarakterik sözlərin işlənməsi: **muzu**- xəsis, **pəntoy** //**pəndoy** – küt, bacarıqsız, **leqi**-tənbəl, **şırnöüx** – kiçik şəlalə, **özünəbəylər** – evlənən oğlan, təzə bəy, **əfçi** – arvad işinə qarışan (kişi), **günöysü** – az gün düşən yer, **bajılıx** – qızın sağdışı (M.Şirəliyev, 1963, s.124).

Azərbaycanlılar həm də indi Ermənistan adlanan Qərbi Azərbaycanda yaşamış və hal-hazırda Gürcüstanda yaşayırlar. İndiki Ermənistanın köklü sakinləri azərbaycanlılar olmuşlar. Azərbaycanlılar Ermənistandan – tarixi-etnik torpaqlarından 1991-ci ildə tamamilə

deportasiya olunmuşlar. İndiki Ermənistanda azərbaycanlılar Ağbaba (Amasiya), Basarkeçər (Vardenis), Barana (Noemberyan), Allahverdi (Tumanyan), Çəmbərək (Krasnoselo), Karvansaray (İcevan), Axta (Razdan), Əstərək, Qəmərli (Artaşat), Quqark, Hamamlı (Spitak), Calaloğlu (Spetanavan), Abaran, Paşakənd (Vayk), Keşişkənd (Yeğeqnadzar), Zəngibasar (Masis), Üçkilsə (Eçmiədzin), Sərdarabad (Oktemberyan), Kəvər (Kamo), Kalinino, Qaranlıq (Martini), Vedi (Ararat) rayonlarında yaşamışlar. 1952-ci ildə N.A.Baskakov Ermənistan adlanan Qərbi Azərbaycanın Kalinino rayonunun Qara İsa, Evli, İlməzli, Soyuqbulaq, Qızıl Şəfəq (Cücəkənd -İ.B.), Sarıyar, Dəmirçilər, Qaraqala, Qızıldaş kəndlərində olmuş və ərazinin Azərbaycan dili şivələrinin xüsusiyyətlərini öyrənmişdir (Н.А.Баскаков, 1964, c.27).

Gürcüstanda azərbaycanlılar Qarayazı (Qaradabani), Borçalı (Marneuli), Başkeçid (Dmanisi), Bolnisi rayonlarının əksəriyyətini təşkil edir. Eyni zamanda Gürcüstanın Msxeta, Kaspi, Saqareco, Laqodexi, Kaçreti, Telavi, Ağbulaq (Tetri Sxaro), Zalqa, Qareubani rayonlarının bir sıra kəndlərində, həmçinin Tiflis və Rustavi şəhərlərində də minlərlə azərbaycanlılar yaşayır (M.Çobanov, 1972, s.104). Ümumiyyətlə, Gürcüstanda 500 mindən çox köklü azərbaycanlı yaşayır.

Gürcüstanın türkoloqlarından V.T.Cangidze 1950-1952-ci illərdə Başkeçid (Dmanisi) rayonunun Qızıl kilsə, Ormaşen, Bağçalar, Gəyliyən, Saca, Kirovisi və Dəllər kəndlərində ezamiyyətdə olmuş və dialektoloji materiallar, folklor nümunələri toplanmışdır. "V.T.Cangidze 1955-ci ildə Tbilisi Dövlət Universitetinin türkologiya kafedrası tərəfindən Telavi rayonunun Qaracala kəndinə ezamiyyətə göndərilmişdir. O, burada yerli Azərbaycan şivələri üçün səciyyəvi olan dialektoloji materiallar toplamışdır" (M.Çobanov, 1972, s.104-105). 1972-ci ildə Q. Tuşmalişvili Azərbaycan dilinin Qaradabani şivəsini araşdırmışdır.

Azərbaycan Dili Şivələrinin Monoqrafik Yolla Öyrənilməsi

Dialekt və şivələrin monoqrafik yolla öyrənilməsi xüsusi elmi əhəmiyyət kəsb edir. Diakekt və şivələrin fonetikasını, morfologiyasını, sintaksisini və leksikasını elmi şəkildə və həm də sistemli formada yalnız monoqrafik yolla tam öyrənmək mümkündür. Belə ki, monoqrafik yolla konkret bir dialekt, şivə və ya şivənin hər hansı bir bölməsi əhatəli şəkildə öyrənilir. Həmin sahəyə dair mövcud ədəbiyyat ümumiləşdirilir, təhlil edilir. Elmin inkişafına yardım edən yeni fərziyyə və nəticələr irəli sürülür. M.Şirəliyev Azərbaycan dili şivələrinin monoqrafik yolla öyrənilməsini "fərdi öyrənmə yolu ilə Azərbaycan dili dialekt və şivələrinin tədqiqi" adlandırır (M.Şirəliyev, 1967, s.15).

Azərbaycan dili şivələrinin monoqrafik tədqiqi 1926-cı ildən başlayır. 1926-cı ildə N.İ.Aşmarin "Общий обзор народных говоров гор. Нухи" əsəri ilə Azərbaycan şivələrinin monoqrafik tədqiqinin əsasını qoymuşdur. XX əsrin 30-cu illərindən Azərbaycan dili şivələrinin monoqrafik yolla öyrənilməsi sistem xarakteri almışdır.

Azərbaycan dili dialekt və şivələrinin monoqrafik tədqiqini elmi şəkildə aparmaq üçün 1956-cı ildə "Azərbaycan dili dialekt və şivələrinin monoqrafik tədqiqinə aid proqram" (tərtib edənlər: M.Şirəliyev, R.Rüstəmov, K.Ramazanov) hazırlanmışdır. M.Məmmədli yazır: "Azərbaycan dili şivələrini sistemli şəkildə öyrənilməsi XX əsrinn əvvəllərindən başlanmışdır. Bu dövrdə N.İ.Aşmarinin fəaliyyəti xüsusi qeyd olunmalıdır. Onun rəhbəriyi ilə 1930-31-ci illərdə "Azərbaycan-türk xalq şivələri lüğəti"nin I cildinin birinci (A hərfi) və ikinci buraxılışı (B hərfi) çap olunmuşdur. 1926-cı ildə N.Aşmarinin, "Nuxa şəhərinin türk xalq şivələrinn ümumi xülasəsi" əsəri çap olunur ki, bu Azərbaycan dili şivələrinə dair ilk monoqrafik tədqiqatdır. Həmin il İ.Həsənovun "Gəncə şivəsində mənsubiyyət şəkilçisiz

isimlərin hallanması" adlı kitabı da nəşr olunur. İ.Həsənov 1928-ci ildə Qazax şivəsinə dair material toplamış, həmin şivənin fonetik xüsusiyyətlərini araşdırmış, "Azərbaycan-türk dilində ləhcələr haqqında" (1935) əsər yazmışdır. 1933-cü ildə Parisdə C.Hacıbəylinin "Qarabağ dialekti və folkloru" kitabı çap olunur. Həmin illərdə S.Talıbxanbəylinin "Azərbaycan yurd bilgisi" məcmuəsində (sayı: 13, 14, 17, 19-20) "Qarabağ-İstanbul şivələrinin sövtiyyat cəhətdən müqayisəsi" məqaləsi nəşr edilir. SSRİ Elmlər Akademiyasının Azərbaycan ekspedisiyası 1933-cü ildə Şamaxı, 1934-cü ildə Quba, 1935-ci ildə Zaqatala-Qax şivələrini tədqiq edir. Ə.Babazadə üç cildlik «Ayrım dialekti» monoqrafiyasını yazır (1941)" (M.Məmmədli, 2011, s.12-13).

Dialektologiya sahəsində M.Şirəliyevin böyük əməyi olmuş, daha doğrusu, M.Şirəliyev Azərbaycan dialektologiyası məktəbini yaratmışdır. Dialektoloji tədqiqatların aparılmasına bilavasitə istiqamət vermiş və rəhbərlik etmişdir. O, 1941-ci ildə namizədlik dissertasiyası kimi müdafiəyə təqdim etdiyi "Bakı dialekti" əsəri müdafiədə doktorluq dissertasiyası kimi qəbul olunmuşdur. "Əsərin elmi-nəzəri səviyyəsini və türk dilləri dialekt və şivələrin tədqiqində əhəmiyyətini nəzərə alaraq Azərbaycan Dövlət Universitetinin (indiki BDU – İ.B.) Elmi Şurası M.S.Şirəliyevə birbaşa filologiya elmləri doktoru alimlik dərəcəsi vermişdir. "Bakı dialekti" əsərini görkəmli türkoloq-akademiklər N.K.Dmitriyev, N.A.Baqri, A.Şanidze, Abuladze yüksək qiymətləndirmişlər" (M.Nəzərova, 1999, s.8).Bu əsər iki dəfə – birinci nəşri 252 səhifə həcmində Y.A.Mirbabayevin redakrorluğu ilə 1949-cu ildə, ikinci nəşri 227 səhifə həcmində R.Ə.Rüstəmovun redaktorluğu ilə 1957-ci ildə nəşr olunmuşdur. Bundan sonra Azərbaycan dili şivələri ilə bağlı tədqiqatlar geniş və sistemli şəkildə araşdırılmağa başladı.

Dialekt və şivələrinin monoqrafik tədqiqi bir neçə istiqamətdə aparılmışdır:

1.Konkret bir şivənin tədqiqi;

2.Şivələrin müəyyən bir bölməsinin tədqiqi;

3.Şivə leksikasının ədəbi-bədii dildəki mövqeyi ilə bağlı tədqiqi;

4.Azərbaycan dili şivələrinin tarixi aspektdə tədqiqi;

5. Azərbaycan dili şivələrinin leksikoqrafik yolla öyrənilməsi.

Konkret Bir Şivənin Tədqiqi

XX əsrin 40-cı illərindən başlayaraq ayrı-ayrı şivələr öyrənilməyə başlanmışdır. Bu yöndə namizədlik və doktorluq dissertasiyaları müdafiə edilərək Azərbaycan dilçiliyi zənginləşdirilmişdir. Bu baxımdan aşağıdakı dissertasiyaları göstərə bilərik:

1. İ.Ə.Hacıyev. İsmayıllı rayonu şivələri, Bakı, 1948 (namizədlik dissertasiyası);

2. B.M.İbrahimov. Mərəzə rayonu şivələri, Bakı, 1949 (namizədlik dissertasiyası) ;

3. P.D.Ağayev. Azərbaycan dilinin Qarabağ dialekti: Ağdam rayon şivələri, Moskva, 1951 (namizədlik dissertasiyası);

4. A.H.Vəliyev. Abşeron yarımadasının qərb rayonlarının şivələri, Moskva, 1952 (namizədlik dissertasiyası);

5. A.Ə.Hüseynov. Vartaşen (Oğuz – İ.B.) rayon şivələri, Moskva, 1952 (namizədlik dissertasiyası) ;

6. İ.Q.Cəfərov. Tovuz rayonu şivələri, Moskva, 1954 (namizədlik dissertasiyası);

7. Z.M.Vəliyev. Ermənistan SSR Basarkeçər rayonunun Azərbaycan şivələri, İrəvan, 1955 (namizədlik dissertasiyası);

8. V.İ.Cangidze. Azərbaycan dilinin Dmanisi şivələrinin xüsusiyyətləri (leksikası), Bakı, 1955 (namizədlik dissertasiyası);

9. K.T.Ramazanov. Azərbaycan dilinin Salyan dialekti, Bakı, 1956 (namizədlik dissertasiyası);

10. İ.M.Məmmədov. Azərbaycan dilinin Qaryagin (Füzuli- İ.B.) şivələri, Moskva, 1958 (namizədlik dissertasiyası0 ;

11. T.B.Həmzəyev. Ordubad dialekti, Bakı, 1960 (namizədlik dissertasiyası) ;

12. M.İ.İslamov. Nuxa dialekti, Bakı, 1961 (namizədlik dissertasiyası);

13. R.Ə.Rüstəmov. Quba dialekti, Bakı, 1961 (namizədlik dissertasiyası) ;

14. T.İ.Hacıyev. Azərbaycan dilinin Cəbrayıl şivəsi, Bakı. 1962 (namizədlik dissertasiyası);

15. Ə.K.Cəfərli. Azərbaycan dilinin Qazax dialekti, 1962 (namizədlik dissertasiyası);

16. B.P.Sadıqov. Azərbaycan dilin Gədəbəy şivəsi, Bakı, 1964 (namizədlik dissertasiyası);

17. S.M.Mollazadə. Azərbaycan SSR Qax rayon şivələri, Bakı, 1966 (namizədlik dissertasiyası);

18. Q.A.Bağırov. Ermənistan SSR Sisyan rayonunun Azərbaycan dili şivələri, Bakı, 1966 (namizədlik dissertasiyası);

19. S. Behbudov. Azərbaycan dilinin Zəngilan şivəsi, Bakı, 1966 (namizədlik dissertasiyası);

20. B.B.Əhmədov. Mingəçevir şəhər ətrafı şivələri: Azərbaycan dilinin Mingəçevir şivələri, Bakı, 1967 (namizədlik dissertasiyası) ;

21. M.M.Cəfərzadə. Azərbaycan dilinin İmişli rayon şivələri, Bakı, 1969 (namizədlik dissertasiyası);

22. A.B.Məcidov. Azərbaycan dilinin Lənkəran şivəsi, Bakı, 1970 (namizədlik dissertasiyası);

23. Ş.M.Kərimov. Ermənistan SSR Krasnoselo və İcevan rayonunun Azərbaycan şivələri, Bakı, 1972 (namizədlik dissertasiyası) ;

24. Ə.Q.Ağayev. Azərbaycan dilinin Cəlilabad rayonu şivəsi, Bakı, 1975 (namizədlik dissertasiyası) ;

25. İ.K.Quliyev. Azərbaycan dilinin Ağcabədi şivəsi, Bakı, 1977 (namizədlik dissertasiyası) ;

26. Ə.M.Quliyev. Azərbaycan dilinin Şahbuz şivələri, Bakı, 1984 (namizədlik dissertasiyası) ;

27. F.S.Babayev. Ermənistan SSR Masis rayonunun Azərbaycan şivələri, Bakı, 1988 (namizədlik dissertasiyası);

28. M.A.Məmmədov. Azərbaycan dilinin Təbriz dialekti, Bakı, 1989 (namizədlik dissertasiyası0;

29. E.İ.Allahverdiyev. Qarabağ dialektinin Əfşar şivəsi, Bakı, 1975 (namizədlik dissertasiyası);

30. G.K.Binnətova. Azərbaycan dilinin Lerik rayonu şivələri, Bakı, 2002 (fəlsəfə doktorluğu disserta1iyası);

31. Ş.X.Məmmədov. Azərbaycan dilinin Yardımlı rayonu şivələri, Bakı, 2004 (fəlsəfə doktorluğu dissertasiyası);

32. N.Y.Əliyeva. Azərbaycan dilinin Şahbuz şivələri, Naxçıvan, 2010 (fəlsəfə doktorluğu dissertasiyası).

Eyni zamanda Azərbaycan dili şivələri bir neçə tədqiqatçı müştərək şəkildə öyrənmişdir. Bu sahədə tədqiqatların nəticəsi olaraq "Azərbaycan dilinin Muğan qrupu şivələri" (1955), "Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri" (1962), "Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri" (1967), "İraq-türkman ləhcəsi" (2004), "Azərbaycan dilinin Dərbənd dialekti" (2009) kitabları nəşr olundu.

"Azərbaycan dilinin Muğan qrupu şivələri" əsəri Sabirabad, Şirvan, Salyan, Biləsuvar rayonlarının şivələrinin materialları əsasında yazılmışdır. Muğan qrupu şivələrinin fonetikasını R.Ə.Rüstəmov, morfologiyasını K.T.Ramazanov, sintaksisini M.S.Şirəliyev, leksikasını R.Ə.Süleymanov, terminlər və mətnlər bölməsini B.M.İbrahimov yazmışdır. "Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri" Naxçıvan, Ordubad, Culfa, Şahbuz, Sədərək, Kəngərli, Şərur rayonları şivələrini əhatə edir. 1950-1955-ci illərdə Naxçıvan MR-in ərazisində yerləşən beş rayonda (indi 8 rayon) toplanan dialektoloji materiallar əsasında "Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri" adlı əsər yazılmışdır. Naxçıvanın dialekt və şivələrinin fonetikası M.S.Şirəliyev, morfologiyası K.T.Ramazanov, sintaksisi və Şahbuz şivələrinin mətnləri R.Ə.Rüstəmov, leksikası B.M.İbrahimov və A.H.Vəliyev tərəfindən yazılmışdır. "Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri" əsərinin I cildi 1956-1958-ci illərdə Ağstafa, Qazax, Tovuz və Gürcüstanın Borçalı (Marneuli) rayonlarına dialektoloji ekspedisiyalar zamanı toplanmış materiallar əsasında M.S.Şirəliyev (fonetika), R.Ə.Rüstəmov (morfologiya), A.H.Vəliyev (sintaksis və leksikologiyaya giriş), K.T.Ramazanov (lüğət),T.B.Həmzəyev və R.Ə.Kərimov (mətnlər) tərəfindən yazılmışdır.

İraq ərazisində yaşayan azərbaycanlıların (onlar türkman adlandırılır) şivəsi araşdırılaraq 2004-cü ildə "İraq-türkman ləhcəsi" adı ilə nəşr olunmuşdur. "İraq-türkman ləhcəsi"nin "Giriş" və "Fonetika" bölməsini Q.Paşayev, "Morfologiya" və "Sintaksis" bölməsini K.İmamquliyeva,"Feil" bölməsini S.Behbudov, "Leksika" bölməsini K.Quliyeva, "Lüğət" bölməsini Q.Paşayev və K.Quliyeva yazmışlar. Q.Paşayev yazır ki, İraq-türkman ləhcəsində danışan elat toplu halda İraq Respublikasının əsasən Kərkük vilayətində: Kərkük şəhərində, Tuz Xurmatu (qəza), Altun Köprü (nahiyə), Təzə Xurmatu (nahiyə), Bəşir, Böyük Hasar, Bilava, Qarabulaq, Qızılyar, Yaycı, Yarvəli, Yengicə, Kərküz, Kümbətlər, Leylan, Ömər Məndən, Tərcil, Gögtəpə, Tisin, Toxmaxlı və eləcə "Bayat köyləri sahəsi" adlanan 64 kəndi əhatə edən Kifri (qəza), Qərətəppə (nayihə), Daquq (nayihə), Abud, Cambur, Birançılı, Bastamlı, Qalxanlı, Qaranaz, Əmirli, Əski Kifri, Zəngili, Yeşiltəpə, Kəhriz, Kingirban, Kötəburun, Laqum, Aştökən, Pirəhməd, Səyyad, Süleyman bəg (Muratlı), Tel Mənzil, Üstəpə, Xasadarlı, Hasarlı, Cabarlı kimi şəhər, rayon, qəsəbə və kəndlərdə yaşayır. Bundan əlavə, Diyala vilayətinin Xanaqin (qəza), Şahraban (qəza), Dəlli Abbas (nahiyə), Məndəli (nahiyə), Qarağan, Qızılarbat, Qızılca, Susuzbulaq kəndlərində, Ərbil vilayətinin mərkəzi Ərbil şəhərində, Mosul vilayətinin Tiləfər qəzasında, Mosul şəhərində və ölkənin paytaxtı Bağdad şəhərində yaşayırlar (İraq-türkman, 2004, s.23).

İraq-türkman ləhcəsinin materialları İraq ərazisində yerləşən Abud, Bastamlı, Bəşir, Çardağlı//Çardaxlı, Əmirli, Qəzətəpə, Qızılarbat, Rəşdiyə, Səllamiyə, Tirkalan, Tisin kəndlərindən, Altun-Köprü, Daquq (Tavuq), Məndəli, Təzə Xurmatu nahiyə - qəsəbəsindən, Ərbil, Kəkük, şəhərlərindən, Xanəgin, Kiri, Teləfər, Tuz Xurmatu qəza rayonlarından toplanmışdır.

Azərbaycan dilinin Dərbənd dialektini öyrənmək üçün AMEA Nəsimi adına Dilçilik İnstitutu 1976-1980-ci illərdə Dağıstan Respublikasının Dərdənd və Tabasaran rayonlarına 7 dəfə ekspedisiya təşkil etmişdir. Bu ekspedisiyalar zamanı Dağıstanın azərbaycanlılar yaşayan 30 yaşayış məntəqəsindən material toplanmışdır. Dərbənd dialektinini dialektoloji materialları

Dərbənd rayonunun Bərəkey, Bilhədi, Bilici, Vəlikənd, Zidyan Qazmaları, Muğartı, Padar, Tatlar, Səlik, Sabnova, Ulutərəkəmə, Cimikənd, Dəliçoban, Komuna, Rubas, Rükəl, Müzayim, Mollaxəlil, Nügdi, Qarabağlı (20 kənd), Tabasaran rayonunun Arak, Arkit, Darvaq, Yersi, Zil, Marağa, Sanak, Xilipənci, Xuçni (9 kənd) kəndlərindən, eləcə də Dərbənd şəhərinin müxtəlif məhəllərindən toplanmışdır. Dağıstan Respublikasının ərazisindəki Azərbaycan dili şivələrində türk dillərinə aid qədim dil faktları özünü qoruyub saxlamışdır. Qıpçaq qrupu türk dillərinə məxsus xüsusiyyətlər Dərbənd dialektində üstünlük təşkil edir. Dərbənd və Tabasaran rayonları şivələri öz fonetik, qrammatik və leksik xüsusiyyətlərinə görə Azərbaycan dilinin şimal-qərb (xüsusən Zaqatala-Qax) və Şimal-şərq (xüsusən Quba-Xaçmaz) rayonları şivələrinə uyğun gəlir (Dərbənd, 2009, s.3). Dərbənd şivəsinin "Fonetika", "Say", "Əvəzlik" bölmələrini M.İ.İslamov, "Feilin şəkilləri"ni (feilin əmr, şərt, arzu, vacib şəkilləri) bölməsini B.M.Tağıyev, "İsmin quruluşca növləri", "İsmin halları", "Mənsubiyyət kareqoriyası", "Kəmiyyət kateqoriyası", "Xəbərlik kateqoriyası", "Sintaksis" bölməsini S.M.Behbudov, "Məsdər", "Feilin xəbər şəkli", "Lüğət" bölmələrini Ə.Q.Ağayev, "Leksika" bölməsini Z.Ə.Xasıyev, "Sifət", "Feilin quruluşca növləri", "Feili bağlama", "Zərf", "Köməkçi nitq hissələri" bölmələrini N.X.Məmmədov yazmışdır.

Şivələrin Müəyyən Bir Bölməsinin Tədqiqi

Azərbaycan dilinin dialektoloji tədqiqatlarının ikinci qrupunu şivələrimizin müəyyən bir bölməsi üzrə aparılan araşdırmalar təşkil edir. Bu tədqiqatlar şivələr üzrə ümumiləşdirici xarakter daşıyır. M.Məmmədli yazır: "Azərbaycan dialektologiyasında problemlər üzrə ümumiləşdirici araşdırmalar da aparılmışdır. Bu cəhətdən R.Rüstəmovun feilə, A.Vəliyevin keçid şivələrə, M.İslamovun əvəzliyə, M.Cəfərzadənin dialekt sintaksisinə, E.Əzizovun ahəng qanunu və tarixi dialektologiyaya, B.Əhmədovun söz yaradıcılığına, M.Məmmədlinin ismin qrammatik kateqoriyalarına, N.Manafovun köməkçi nitq hissələrinə həsr olunmuş tədqiqatları Azərbaycan dilçiliyini daha da zənginləşdirmişdir" (M.Məmmədli, 2019, s. 28).

Azərbaycan dili şivələrinin ayrı-ayrı bölmələr üzrə xüsusi tədqiqatlar XX əsrin 60-cı illərindən başlanmışdır. Bu sahədə naməzədlik və doktorluq dissertasiyaları müdafiə edilmiş, monoqrafiyalar nəşr olunmuşdur. Belə əsərlərdən – namizədlik və doktorluq dissertasiyalarından aşağıdakıları göstərmək olar:

1.R.Ə.Rüstəmov. Azərbaycan dili dialekt və şivələrində feil: feillərin quruluşu, zaman kateqoriyası və şəxsə görə dəyişməsi, Bakı, 1964 (doktorluq dissertasiyası);

2.Q.M.Paşayev. Kərkük dialektinin fonetikası, Bakı, 1969 (namizədlik dissertasiyası;

3.Q.V.Tuşmalişvili. Qaradabani (Gürcüstanın Qaradabani rayonu – İ.B.) rayonunun azərbaycanlı şivələrinin xüsusiyyətləri, Tbilisi, 1972 (namizədlik dissertasiyası);

4.M.İ.İslamov. Azərbaycan dili dialekt və şivələrində əvəzlik, Bakı, 1973 (doktorluq dissertasiyası);

5.M.N.Çobanov.Gürcüstan SSR Bolnisi rayonunun Azərbaycan şivələrinin leksikası, Daşkənd, 1973 (namizədlik dissertasiyası);

6.İ.K.Həsənov. Gəncə dialektinin leksikası : heyvandarlıq və əkinçilik terminləri, Bakı, 1974 (namizədlik dissertasiyası);

7.E.İ.Əzizov. Azərbaycan dili dialekt və şivələrinin ahəngi, Bakı, 1974 (namizədlik dissertasiyası);

8.Ə.Ə.Hüseynov. Azərbaycan SSR Qazax rayon şivələrinin leksikası, Bakı, 1975 (namizədlik dissertasiyası);

9.Z.A.Xasiyev. Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrində heyvandarlıq terminləri, Bakı, 1976 (namizədlik dissertasiyası);

10.Y.T.Camalov. Ermənistan SSR Azərbaycan dili şivələrində ismin halları, Bakı, 1981 (namizədlik dissertasiyası).

11.M.Ə.Zeynalov. Naxçıvan MSSR-in ərazisində Azərbaycan dili dialekt və şivələrinin məişət leksikası, Bakı, 1982 (namizədlik dissertasiyası);

12.Ə.M.Quliyev. Şahbuz şivələrinin leksikası, Bakı, 1984 (namizədlik dissertasiyası);

13.G.Q.Vəliyeva. Azərbaycan dilinin Şərqi Abşeron şivələrinin leksikası (müqayisəli-tarixi tədqiqat), Bakı, 1984 (namizədlik dissertasiyası) ;

14.M.M.Cəfərzadə. Azərbaycan dilinin dialekt sintaksisi Bakı, 1990 (doktorluq dissertasiyası);

15.B.B.Əhmədov. Azərbaycan dili şivələrində fono-semantik söz yaradıcılığı, Bakı, 1994 (doktorluq dissertasiyası);

16.İ.M.Tahirov. Azərbaycan dilinin Şərq qrupu dialekt və şivələrində İran mənşəli alınma sözlər, Bakı, 1994 (namizədlik dissertasiyası);

17.M.Ə.Məmmədli. Azərbaycan dili şivələrində ismin qrammatik kateqoriyaları, Bakı, 2004 (doktorluq dissertasiyası).

18.S.Yunusova. Azərbaycan dili dialekt və şivələrində arxaizmlər, Bakı, 2005 (fəlsəfə doktorluğu dissertasiyası);

18. E.S.Mirzəyev. Azərbaycan dili Lənkəran və Astara şivələrinin terminoloji leksikası, Bakı, 2008 (fəlsəfə doktorluğu dissertasiyası);.

19.Ə.O.Xəlilzadə. İran Azərbaycanı dialekt və şivələrində ahəng qanunu, Bakı, 2010 (fəlsəfə doktorluğu dissertasiyası);

20. N.E.Həsənova. Azərbaycan dilinin Yevlax şivələrinin leksikası, Bakı, 2010 (fəlsəfə doktorluğu dissertasiyası);

21. N.Y.Əliyeva. Naxçıvan dialekt və şivələrinin leksikası, Naxçıvan, 2022 (doktorluq dissertasiyası).

Azərbaycan dili şivələrinin ümumiləşdirilmiş formada tədqiqi sahəsinə aid yazılmış monoqrafiyalar da əhəmiyyətə malikdir. Bu əsərlər şivələrimizin geniş oxücü kütləsi tərəfindən yaxından tanış olmağa imkanlar yaradır.

1965-ci ildə R.Ə.Rüstəmovun "Azərbaycan dili dialekt və şivələrində feil" əsəri çap olunmuşdur. Azərbaycan dilinin milli xüsusiyyətlərini əks olunmasında feillər xüsusi əhəmiyyətə və rola malikdir. Feillər dilimizin tarixini də özündə qoruyub saxlayır. Feil dilimizin milli orijinallığını, ən qədim ünsürlərini başqa nitq hissələrinə nisbətən daha yaxşı mühafizə edib saxlayır. Yalnız onu demək kifayətdir ki, Azərbaycan dilindəki birhecalı feillərin içərisində "bir dənə də olsun alınma söz yoxdur, bunlar xalis türk, o cümlədən Azərbaycan sözüdür" (H.Mirzəyev, 1986, s.16.). Bu baxımdan şivələrimizdə işlənən feillərin araşdırılması vacib olan dilçilik məsələlərindən biridir. Bu da R.Rüstəmovun "Azərbaycan dili dialekt və şivələrində feil" əsərində (1965) geniş və hərtərəfli şəkildə araşdırılmışdır. Əsərin "Giriş"ində Azərbaycan dilçiliyində feil nitq hissəsi ilə bağlı yazılmış əsərlərə nəzər salınır. Bu əsərlərin dilçiliyimizdəki mövqeyi, əhəmiyyəti və yeri əsaslandırılmış şəkildə göstərilmişdir. "Feillərin quruluşca növləri" bölməsində şivələrimizin materialları əsasında sadə, düzəltmə, mürəkkəb feillər tədqiqata cəlb edilir və ayrı-ayrı şivələrdə işlənən feillər türk dilləri ilə müqayisə edilərək araşdırılır. "Feilin zaman və şəxs kateqoriyaları" bölməsində şivələrimizin materialları əsasında feilin zamanları türk dilləri ilə müqayisə edilərək tədqiq edilir. "Feilin

şəkilləri" bölməsində dilçiliyimizdə feillərin şəkilləri barəsində yazılan əsərlərə ümumi nəzər salınır, feilin əmr, xəbər, arzu, lazım, şərt şəkilləri dialektoloji materiallar əsasında izah edilir.

1986-cı ildə M.İslamovun Azərbaycan dilinin dialekt materialları əsasında yazdığı "Türk dillərində əvəzliklər" kitabı nəşr olunur. Əvəzliklərin məna növləri ilə bağlı türkologiyada müxtəlif fikirlər mövcuddur. M.İslamova görə, bu müxtəliflik yiyəlik, təyini, inkar və qeyri-müəyyən əvəzliklərdə özünü göstərir. Azərbaycan dili şivələrində əvəzliklərin tədqiqinin dilçiliyimiz üçün böyük əhəmiyyəti var. Bu baxımdan M.İslamov yazır: "... Azərbaycan dili dialekt və şivələri əvəzlik bildirən sözlərlə və ya müxtəlif əvəzlik formaları ilə çox zəngindir. Azərbaycan dilinin dialekt və şivələrində vaxtilə qədim türk dillərində işlənmiş və hazırda bir sıra müasir türk dillərində fəaliyyət göstərən, o cümlədən qıpçaq qrupu türk dilləri üçün səciyyəvi sayılan çoxlu əvəzlik formaları saxlanmışdır. Belə bir cəhət də maraqlıdır ki, qədim formaların bir qismi mürəkkəb əvəzliklərin tərkibində qalmışdır. Bununla belə Azərbaycan dili dialekt və şivələrində qədim türk yazılı abidələrində və müasir türk dillərində müşahidə olunmayan, onun özünəməxsus xüsusiyyətləri də vardır" (M.İslamov, 1986, s.5). M.İslamov Azərbaycan şivələrinin materialları əsasında əvəzlikləri mənaca şəxs, işarə, sual, qayıdış, qeyri-müəyyən və inkar əvəzliklərə bölərək türk dilləri ilə müqayisəli şəkildə tədqiq edir.

Azərbaycan dili şivələri zəngin leksik tərkibə malikdir. Şivələrimizdə tarixin müxtəlif dönəmlərində işlənmiş sözlər qorunub saxlanılır və bu sözlər dilimizin tarixinin öyrənilməsində xüsusi əhəmiyyət daşıyır. Azərbaycan dili şivələrinin leksikası B.Əhmədovun tədqiqatlarında xüsusi yer alır. Onun bu məsələyə həsr edilmiş "Azərbaycan dili şivələrində söz yaradıcılığında sadələşmə meyli (şivə materialları əsasında") (1990), "Azərbaycan dilində leksika məsələləri (şivələrdə söz yaradıcılığı", 1990), "Azərbaycan dili şivələrində fonosemantik söz yaradıcılığı" (1994) əsərləri çap olunmuşdur.

B.Əhmədov Azərbaycan dili şivələrində söz yaradıcılığını sadə, düzəltmə və mürəkkəb sözlər əsasında araşdırır. Müəllif fonetik dəyişmə, morfoloji sadələşmə və mürəkkəb sözlərdə baş verən sadələşmə nəticəsində şivələrimizdə sözlərin yaranmasını şivə materialları əsasında tədqiqata cəlb edir. B.Əhmədovun şivə leksikası ilə bağlı araşdırmaları həm Azərbaycan dili şivələri, həm də Azərbaycan dili tarixi üçün xüsusi əhəmiyyət kəsb edir.

B.Əhmədovun Azərbaycan dili şivələrinin leksikası ilə bağlı əsərlərdə alağız, çiyələk//çiyələm, yağləvi, gələci, alana, başyaq //başşaq, başəyax// başyax, ertə, içalat, üfürmək, əməköməci, qaşqala, dunux, qulun, həfçi, qəltən//kəltən və s. şivə sözlərinin etimologiyasını verir.

Azərbaycan dili şivələri ilə bağlı monoqrafik tədqiqatlarda şivələrin sintaksisinə toxunulmuşdur. Lakin Azərbaycan dili şivələrinin sintaksisi 1990-cı ilə kimi xüsusi tədqiqat obyektinə çevrilməmişdir. Bu baxımdan M.Cəfərzadənin 1990-cı ildə nəşr olunmuş "Azərbaycan dilinin dialekt sintaksisi" monoqrafiyası diqqəti cəlb edir. M.Cəfərzadə Azərbaycan dili şivələrinin sintaksisini müasir Azərbaycan dilinin sintaksisinin bölmələrinə uyğun araşdırmışdır. Əsərində şivə materialları əsasında söz birləşmələrindən, sintaktik əlaqələrdən, təyini söz birləşmələrindən, feili tərkiblərdən, sadə cümlə və onun növlərindən (cüttərkibli və təktərkibli cümlələr), ara sözlərdən, söz sırasından, mürəkkəb cümlə və onun növlərindən (tabesiz və tabeli mürəkkəb cümlələrdən), vasitəsiz nitqdən bəhs edir.

Azərbaycan dili şivələri ilə bağlı ümumiləşdirici tədqiqatlar içərisində M.Məmmədlinin "Azərbaycan dili şivələrində ismin qrammatik kateqoriyaları" monoqrafiyası (2003) xüsusi yer tutur. Monoqrafiyada Azərbaycan dili şivələri materialları əsasında ismin qrammatik

kateqoriyaları əsasında ismin qrammatik kateqoriyaları (hal kateqoriyası, mənsubiyyət kateqoriyası, kəmiyyət kateqoriyası, şəxs kateqoriyası) Ural-Altay dilləri ilə müqayisəli şəkildə araşdırılır. Əsər zəngin şivə materialları əsasında yazılmışdır. M.Məmmədli belə bir əsərin yazılmasının səbəbini elmi şəkildə əsaslandırır: "Azərbaycan dialektologiyasında şivələrin ayrılıqda tədqiqi genişləndikcə, ümumi tədqiqatlara ciddi ehtiyac yaranır. İsmin qrammatik kateqoriyaları uzun illər təsviri dialektologiyanın mövzusu olmuş, bu yöndə toplama, nəşr və tədqiq işləri ayrı-ayrı şivələr və ləhcələr üzərində yerinə yetirilmişdir. Lakin mövcud materiallar, faktlar və sübutlar ümumiləşdirilmiş şəkildə tarixi cəhətdən araşdırılmamışdır. Dialektoloji tədqiqatların sinxron baxımdan aparılması ismin kateqoriyalarının tarixi köklərini, qrammatik qanunauyğunluqlarını müəyyənləşdirmək üçün kifayət etmir. Problemin tam elmi mənzərəsi sinxron və diaxron tədqiqatların vəhdətdə aparılması ilə aydınlaşır" (M.Məmmədli, 2003,c.3).

Şivə Leksikasının Ədəbi-Bədii Dildəki Mövqeyi İlə Bağlı Tədqiqi

Azərbaycan dili şivələrinin leksikası - dialektik sözləri dialektologiyada xüsusi tədqiqat obyekti olmuş, bu sahədə müəyyən araşdırmalar aparılmışdır. 1969-u ildə V.R.Mursaquliyev "Azərbaycan romanlarında dialektizmlər (1930-1960)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Müəllif dissertasiyada Azərbaycan romanları əsasında fonetik (ərəbə <araba, dəyil<deyil, öy<ev və s.), morfoloji (gözüyün, diliyin, ürəyivin, gedax, danışırıx, atırı, yazırı və s.) və leksik (yappa, eydirmə, güzəm, dibək, əbrəş, yapağı, qorqan və s. dialektizmləri araşdırmışır. Eyni zamanda V.Mursaquliyev 1930-1960-cı illərin romanlarının dilində işlənən terminoloji dialektizmləri, omonim, sinonim, antonim mənalı dialektizmləri, semantik və frazeoloji dialektizmləri də tədqiqata cəlb etmişdir. Daha sonra V.Mursaquliyev "Azərbaycan sovet şeirində dialektizmlərin üslubi rolu" (V.Mursaquliyev, 1975, № 2, s.64-72)", "Azərbaycan sovet dramlarında dialektizmlər" (V.Mursaquliyev, 1979, № 2, s.55-59) məqalələri də bədii dildə işlənən dialektizmlərə həsr olunmuşdur.

Müasir Azərbaycan ədəbi dilinin zənginləşməsində dialektizmlər xüsusi rola malikdir. Dialektizmlər bədii dildə geniş şəkildə işlənir. Bədii dildə işlənən dialektizmlərin bir hissəsi "Ədəbi dilə daxil olur, ümumişlək sözlərə çevrilir" (A.Aslanov, 1970, s.61).

1970-ci ildə nəşr olunmuş "Azərbaycan bədii dilinin üslubiyyatı" (oçerklər) kitabında dialektizmlərin ədəbi dildəki mövqeyindən də bəhs edilmiş və A.Aslanov "Dialektizmlər" bölməsində dialektizmlərin bədii əsərlərdə üslubi xarakter daşıdığını göstərmişdir.

T.Əfəndiyeva "Azərbaycan dilinin leksik üslubiyyatı" (bədii üslub) əsərinin "Lüğət tərkibinin leksik-üslubi layları" bölməsində dialektizmlərdən də bəhs etmiş və bədii üslubda dialektizmlərin işlənmə səbəblərini göstərmişdir. Müəllif bədii əsərlərdə işlənən lüğəvi dialektizmləri leksik, etnoqrafik, semantik və frazeoloji dialektizmlərə bölərək hər birinə aid konkret nümunələr göstərmişdir. Leksik dialektizmlərə aid **ceviz** (qoz), **börk** (papaq), **qəlbi** (uca), **ovutmaq** (sakitləşdirmək), **yadlamaq** (yada salmaq) və s., etnoqrafik dialektizmlərə aid **bafa** (dərz bağlamaq üçün kökündən qoparılmış bir dəstə sünbül), **tel** (taya), **bəndəm** (dərz bağlamaq üçün sünbüllü qurşaq), **şüş** (dik yığılmış buğda topası), **qaşbənd, darayı** (qadın örpəyi) və s., semantik dialektizmlərə aid **ağırlıq** (yaylağa köçərkən aranda saxlanılan ağır şeylər), **axtarma** (üzlü süddən hazırlanan yağlı pendir), **basma** (mal təzəyi) və s., frazeoloji dialektizmlərə aid üz **qoymaq** (müəyyən bir səmtə doğru getmək), **ayaq üstə olmaq** (hamilə olmaq), **ala qoymaq** (hiylə işlətmək), **ovsanata düşmək** (səbəb olmaq) və s. dialekt sözlərini göstərir (T.Əfəndiyeva, 1980, s.151-152). T.Əfəndiyeva ədəbi dilimizi zənginləş-

dirən **sayrışan, mürkü, sısqa, ürkək** və s. dialektizmlərdən də bəhs edərək bu tipli dialektizmləri şərti dialektizmlər adlandırır (T.Əfəndiyeva, 1980, s.155).

2002-ci ilə N.Q.Qazıyeva “Azərbaycan ədəbi dilinin formalaşmasında dialektizmlərin rolu” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

2011-ci ildə İ.Bayramovun “Azərbaycan dilinin dialekt leksikası” dərs vəsaiti nəşr olunmuşdur. Dərs vəsaitinin “Müasir Azərbaycan ədəbi dili lüğət tərkibinin dialekt sözləri hesabına zənginləşməsi” bölməsi ədəbi dilimizin dialektizmlər hesabına zənginləşməsinə həsr olunmuşdur. Bu bölmədə müəllif ədəbi dilimizin lüğət tərkibini zənginləşdirən **axtarma, arsala, aşqara, avazımaq, albuxara, anadil, boylu** (hamilə), **bordamaq, eşik, ilğım, ismarlamaq, simsar, təntimək, vağanmaq** və s. dialekt sözlərdən bəhs edir.

Azərbaycan Dili Şivələrinin Tarixi Aspektdə Tədqiqi

Azərbaycan dili şivələrinin tarixi aspektdə öyrənilməsi vacib və həllini gözləyən dilçilik məsələlərindən biridir. Dilçiliyimizdə mürəkkəb və problemli məsələlədən olan tarixi dialektologiya sahəsində tədqiqatların aparılmasına ehtiyac var. Azərbaycan dilçiliyində tarixi dialektologiyanın öyrənilməsi ilə bağlı M.Şirəliyev, A.Axundov, T.Hacıyev, M.Rəhimov, S.Əlizadə müəyyən fikirlər söyləmişlər. E.Əzizov tarixi dialektologiyanın mövzusu və vəzifələrinin aşağıdakı nəticələrə gəlməyə göstərir:

1) Tarixi dialektologiya dilin dialekt üzvlənməsinin xarakterini aşkar etməlidir;
2) Tarixi dialektologiya izoqolossların əmələ gəlməsini və inkişafını öyrənməlidir;
3) Tarixi dialektologiya dialekt əlamətlərinin etnolinqvistik əsasını müəyyənləşdirməlidir;
4) Tarixi dialektologiya dialekt sistemlərinin qarşılıqlı əlaqəsinin tarixini araşdırmalıdır;
5) Tarixi dialektologiya innovasiyaları öyrənməlidir (E.Əzizov, 1999, s. 5).

Azərbaycan dilinin tarixi dialektologiyrasının öyrənilməsi XX əsrin 70-ci illərindən başlayır. 1976-cı ildə Alma-Ata şəhərində Ümumittifaq türkologiya konfransında T.İ.Hacıyev və E.İ.Əzizov “Azəbaycan dili tarixi dialektologiyasının tarixi-linqvistik əsasları” mövzusunda məruzə etmişlər. Bu məruzə ilə Azəbaycan dili tarixi dialektologiyasının öyrənlməsinin əsası qoyulmuşdur. 1977-ci ildə B.P.Sadıqovun “Azərbaycan dilinin tarixi qrammatikasından xüsusi kurs (dialekt və şivə materialları əsasında)” adlı dərs vəsaiti nəşr olunmuşdur. Bu əsərdə Azərbaycan dili şivələrinin morfoloji xüsusiyyətləri tarixilik baxımından araşdırılır və -mac//manc, -maç//-maş, -mənc//-məc//-məş, -baş//bac şəkilçiləri, ismin hal kateqoriyası isimlərin mənsubiyyət kateqoriyası, xəbərlik kateqoriyasınını şəkilçiləri (-im^4, -sıŋ^4, -ŋ, -ŋız, -q, -ğız), feilin əmr şəkli, feilin vacib şəkli, -ır, -ir, -ar, -ər feili sifət şəkilçiləri tarixi dialektologiya kontekstində araşdırılır.

Azərbaycan dilinin tarixi dialektologiyası ilk dəfə monoqrafik şəkildə E.Əzizov tərəfindən tədqiqata cəlb olunmuşdur. O, 1990-cı ildə “Azərbaycan dilinin tarixi dialektologiyası: Dialekt sisteminin təşəkkülü və inkişafı” mövzüsünda doktorluq dissertasiyası müdafiə etmişdir. Həmin dissertasiya əsasında E.Əzizovun “Azərbaycan dilinin tarixi dialektologiyası: Dialekt sisteminin təşəkkülü və inkişafı” adlı dərs vəsaiti 1999-cu ildə nəşr olunmuşdur. E.Əzizov əsərində Azərbaycan dilinin kökləri, Azərbaycan dilində dialekt fərqlərinin yaranması məsələlərini əsaslı şəkildə araşdıraraq Azərbaycan dili şivələrinin fonetik, morfoloji xüsusiyyətlərini və şivələrimizdə ilkin mənasını və fonetik tərkibini saxlayan, ilkin mənasını saxlamaqla fonetik dəyişikliyə uğrayan qədim sözləri tarixilik baxımdan ətraflı şəkildə tədqiqata cəlb edir və dilçiliyimiz üçün əhəmiyyətli elmi nəticələr əldə edir. Eyni

zamanda əsərdə - əsərin III fəslində Azərbaycan dilinin dialekt bölünməsi məsələsi yeni yanaşmalarla tədqiq və təhlil edilir.

1982-ci ildə Ə.Ş.Tahirzadə "Azərbaycan dialekt və şivələrinin qədim türk leksik-qrammatik elementləri" (Şəki rayonunun materialları əsasında) mövzüsünda namizədlik dissertasiya müdafiə etmişdir.

K.F.Quliyeva 1989-cu ildə "Azərbaycan dilinin Quba və Dərbənd dialektlərində qədim türk təbəqəsi" mövzüsünda müdafiə etdiyi namizədlik dissertasiyası da tarixi dialektologiyaya həsr olunmuşdur.

Ə.Tanrıverdinin 2002-ci ildə çap olunmuş "Kitabi-Dədə Qorqud" və Qərb ləhcəsi" monoqrafiyası Azərbaycan dilinini tarixi dialektologiyasına həsr olunmuşdur. Əsərdə "Kitabi-Dədə Qorqud" dastanının Qərb ləhcəsi ilə oxşar fonetik xüsusiyyətləri, dastandakı arxaik morfoloji elementlərin Qərb ləhcəsində saxlanılması və "Kitab-Dədə Qorqud" dastanında işlənmiş bir qrup sözlərin ya eynilə, ya da müəyyən fonetik, semantik dəyişikliklərə məruz qalmaqla Qərb ləhcəsində işlənməsi tədqiq edilir.

Aparılan tədqiqatlar, yazılan məqalələr, monoqrafiyalar, dərs vəsaitləri aydın şəkildə göstərir ki, Azərbaycan dilinin tarixi dialektologiyası müstəqil dilçilik sahəsidir və bu yöndə araşdırmalara xüsusi ehtiyac vardır.

Azərbaycan Dili Şivələrinin Leksikoqrafik Yolla Öyrənilməsi

Azərbaycan dili şivələrinin leksikoqrafik yolla öyrənilməsinin tarixi XX əsrin 30-cu illərindən başlayır. 1930-cu ildə "Azərbaycan türk xalq şivələri lüğəti" nin I cildi (A hərfi), 1931-ci ildə II cildi (B hərfi) nəşr olunub. 33 il sonra 1964-cü ildə bircildlik "Azərbaycan dilinin dialektoloji lüğəti" işıq üzü görmüşdür. Burada Azərbaycan dilinin ayrı-ayrı şivələrində işlənən sözlərin mənaları izah edilir. 1960-cı ildən sonra şivələrimizlə bağlı dissertasiyalar müdafiə edilmiş, monoqrafiyalar, məqalələr yazılmışdır. Artan elmi tələbatı "Azərbaycan dilinin dialektoloji lüğəti"nin 1964-cü nəşri ödəyə bilmirdi. Digər tərəfdən keçən dövr ərzində bir-birindən maraqlı və dəyərli dialektoloji tədqiqatlar aparılmış, dialektoloji ekspedisiyalar təşkil edilmişdir. Yeni dialektoloji lüğətə böyük ehtiyac duyulurdu. "1966-1968-ci illərdə lüğət üçün (yeni lüğət üçün – İ.B.) xüsusi ekspedisiyalar təşkil olunmuşdur. Belə ki, 1966-cı ildə şöbənin (AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun dialektologiya şöbəsinin – İ.B.) baş elmi işçiləri B.M.Tağıyev və Q.M.Həsənov Ermənistanın Basarkeçər, Hamamlı, Çəmbərək rayonlarından, 1968-ci ildə K.T.Ramazanov Azərbaycanın Ucar, Z.Ə.Xasıyev Kürdəmir isə Oğuz rayonlarından material toplamışlar" (ADDL, 1999, s.V). 1975-ci ildə 20 mini əhatə edən 2 cildlik yeni "Azərbaycan dialektoloji lüğəti" tərtib olunmuşdur. Lakin müxtəlif çətinliklərlə bağlı nəşr olunmamışdir. Nəhayət, XX əsrin 90-cı illərində lüğətin çap olunmasına imkan yaranmışdir. 1991-ci ildə Türk Dil Qurumunun 3 – yürütmə Qurumunun 20 noyabr 1991-ci il tarixli toplantısında "Azərbaycan dialektoloji lüğəti"nin latın əsaslı Azərbaycan əlifbası ilə Azərbaycan türkcəsində nəşr edilməsi qərara alındı" (ADDL, 1999, s.VI). 1999-cu ildə "Lüğət"in 1-ci cildi, 2003-cü ildə 2-ci cildi Ankarada Türkiyə Respublikası Türk Dili Qurumunun hesabına nəşr olunmuşdur.

2007-ci ildə tamamilə yeni, 28 mindən artıq dialekt leksikasını əhatə edən "Azərbaycan dilinin dialektoloji lüğəti" çap olunmuşdur.

Azərbaycan dili şivələrinin tərkib hissəsi olan Gürcüstanın Borçalı şivələrinin lüğətini özündə əks etdirən M.Çobanovun "Borçalı şivələrinin leksikası" (1998), indi Ermənistan adlanan Qərbi Azərbaycan şivələrinin lüğəti ilə bağlı Ə.Ələkbərlinin "Qərbi Azərbaycanın

dialektoloji lüğəti” (I kitab, 2009), İ.Bayramovun “Qərbi Azərbaycan şivələrinin leksikası” (2011), A.Ə.Bayramov və A.A.Bayramovanın “Ağbaba şivəsi sözlüyü” (2014) əsərləri Azərbaycan dili şivələrinin leksikoqrafik yolla öyrənilməsinə həsr edilmişdir.

QƏRBİ AZƏRBAYCAN ŞİVƏLƏRİNİN TƏDQİQİ TARİXİ

Azərbaycan dili şivələrinin, əsasən Şimali Azərbaycan ərazisi daxilində mövcud olan şivələrinin tədqiqi sistemli və elmi şəkildə XX əsrin əvvəllərindən başlayaraq tədqiqi edilmiş, ekspedisiyalar aparılmış, lüğətlər tərtib edilmiş, namizədlik, doktorluq dissertasiyaları, monoqrafiyalar, dərslik, dərs vəsaiti yazılmışdır.

Görkəmli Azərbaycan dilçisi, türkoloq M.Şirəliyev Azərbaycan dialektologiyası məktəbi yaratmış, R.Rüstəmov, A.Vəliyev, B.İbrahimov, A.Hüseynov, M.İslamov, T.Hacıyev, S.Behbudov, B.Sadıqov, B.Əhmədov, E.Əzizov, M.Məmmədli Azərbaycan şivələri ilə bağlı tədqiqatlar aparmış, dəyərli əsərlər yazmış, Azərbaycan dialektologiya elminin inkişafında əvəzsiz xidmətlər göstərmişlər.

Qərbi Azərbaycanda, yəni indiki Ermənistanda Azərbaycan türkləri yaşamışdır. Lakin onlar zaman-zaman tarixi-etnik torpaqlarından Ermənistan dövləti tərəfindən qovulmuş, deportasiya olunmuşlar. Çox təəssüf ki, Qərbi Azərbaycanın arxeologiyası, etnoqrafiyası öyrənilməmiş, tədqiqata cəlb olunmamışdır. Çünki Ermənistan dövləti buna imkan verməmişdir. Toponimiyası, həmin ərazidə tarixən mövcud olmuş İrəvan xanlığının tarixi isə XX əsrin 90-cı illərindən, yəni Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra tədqiq edilmişdir.

Qərbi Azərbaycanın ərazisindəki Azərbaycan şivələri ilə bağlı araşdırmalar olsa da, tam öyrənilməmişdir. "Ermənistan ərazisindəki Azərbaycan dili şivələrinin öyrənilməsi işi başa çatdırılmadı, bu iş yarımçıq qaldı. Ancaq bu da bir təsəllidir ki, heç olmasa Ermənistanın Basarkeçər, Sisyan, Krasnoselo (Çəmbərək – İ.B.), İcevan (Karvansaray – İ.B.) və Masis (Zəngibasar) rayonlarının Azərbaycan dili şivələrinə dair dissertasiyalar yazılıb müdafiə olundu. Ermənistanın başqa yerlərində yaşayan azərbaycanlıların şivələri isə, demək olar ki, tədqiqatdan kənarda qaldı" (E.Əzizov, 1995, s.111). Lakin bir təsəllimiz qalır ki, Qərbi Azərbaycanın şivələrinə sovet dönəmində, "qardaşlıq" zamanında məqalələr, dissertasiyalar həsr olunmuşdur. Bununla yanaşı ərazinin müxtəlif bölgələrində işlənən sözlər dialektoloji lüğətlərdə (1964, 2007) əksini tapmışdır.

Qərbi Azərbaycan şivələrinin tədqinə XX əsrin ikinci yarısından başlanmışdır. Bu tədqiqatlar üç istiqamətdə aparılmışdır:

1. Qərbi Azərbaycan şivələrinin ümumi şəkildə tədqiqi.
2. Qərbi Azərbaycanın ayrı-ayrı bölgələrinin şivələrinin tədqiqi.
3. Konkret bir kəndin şivəsinin tədqiqi.

Qərbi Azərbaycan Şivələrinin Ümumi Şəkildə Tədqiqi

XX əsrin 60-cı illərindən Qərbi Azərbaycan şivələri ümumi şəkildə öyrənilməyə başlanmışdır. Məsələyə bu aspektdən yanaşan ilk tədqiqatçı İ.M.Məmmədov olmuşdur. Bu baxımdan İ.M.Məmmədovun 1965-ci ildə "Ermənistan SSR-də Azərbaycan şivələrində isim düzəldən qeyri-məhsuldar şəkilçilər» (İ.M.Məmmədov, 1965, s.35-38), 1966-cı ildə "Azərbaycan dilinin Ermənistan qrup şivələrinin bəzi fonetik xüsusiyyətləri" (İ.M.Məmmədov, 1966, s. 69-105), 1967-ci ildə "Azərbaycan dilinin Ermənistan qrup şivələrində sifətlər" (İ.M.Məmmədov, 1967, s. 137-138), 1968-ci ildə "Azərbaycan dilinin Ermənistan qrupu şivələrində bir qrup feillər" (İ.M.Məmmədov, 1968, s. 36-38), 1969-cu ildə "Azəri dilinin Ermənistan qrupu dialekt və şivələrində bəzi sözlər haqqında"

(İ.M.Məmmədov, 1969, s. 25-27), 1973-cü ildə “Ermənistan SSR ərazisində Azərbaycan dili şivləreində arxaizmlər” (İ.M.Məmmədov, 1972, s. 77-79) məqalələri nəşr olunmuşdur.

Qərbi Azərbaycan şivələrini bu yöndə araşdıran müəlliflərdən biri də Y.Camalovdur. Y.Camalov Qərbi Azərbaycan şivələrində ismin hallarını tədqiq etmiş, Azərbaycan şivələrində ismin halları ilə müqayisələr aparmış, Qərbi Azərbaycan şivələrindəki ismin hallarının fərqli xüsusiyyətlərini müəyyənləşdirmişdir. Qərbi Azərbaycan şivələrinin ismin halları ilə bağlı Y.Camalovun “Ermənistan SSR ərazisindəki Azərbaycan şivələrinin ismin halları” (Y.Camalov,1978, s.65-167), “Ermənistan SSR ərazisindəki Azərbaycan şivələrində ismin hallarının sintaksisi” (Y.Camalov,1979, s.108-112) məqalələri nəşr olunmuşdur. 1982-ci ildə Y.Camalov “Ermənistan SSR ərazisindəki Azərbaycan şivələrində ismin halları” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

İ.M.Bayramovun “Qərbi Azərbaycan şivələrinin leksikası” (2011), S.Sadıqovanın “Azərbaycan ədəbi dilinin arxaik morfemləri (Qərbi Azərbaycan şivələri ilə müqayisədə)” (2018) əsərləri, eyni zamanda Ə.A.Cəfərovun “Qərbi Azərbaycan və Şərqi Anadolu dialektlərinin etnolinqvistik xüsusiyyətləri” mövzusunda filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün müdafiə etdiyi dissertasiya (2021) Qərbi Azərbaycan şivələrinin Azərbaycan dili şivələri kontekstində öyrənilməsində əhəmiyyət kəsb edəcək.

Qərbi Azərbaycanın Ayrı-Ayrı Bölgələrinin Şivələrin Tədqiqi

Azərbaycan dilinin şivələri kontekstində Qərbi Azərbaycanın ayrı-ayrı bölgələrinin şivələri araşdırılmışdır. Bu aspektdə ilk tədqiqatı Z.M.Vəliyev aparmışdır. Z.M.Vəliyev 1955-ci ildə “Ermənistan SSR-in Basarkeçər rayonunun Azərbavycan şivələri” mövzusunda namizədlik dissertasiya işini İrəvanda müdafiə etmişdir. Eyni zamanda Z.Vəliyevin “Ermənistan SSR Basarkeçər rayonu şivələri lüğətindən” (Z.Vəliyev, 1958, s. 129-147), “Ermənistan SSR Basarkeçər rayonu şivələrində termin səciyyəsi daşıyan sözlərə dair” (Z.Vəliyev, 1958, s. 99-105) məqalələri çap olunmuşdur.

1966-cı ildə Q.Bağırov “Ermənistan SSR Sisyan rayonunun Azərbaycan dili şivələri” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Q.Bağırov Sisyan rayonunun Azərbaycan dili şivələri ilə bağlı 1963-cü ildə “Sisyan rayonu şivələrinin bəzi fonetik xüsusiyyətləri” (Azərbaycan Dövlət Pedaqoji İnstitutu. Gənc elmi işçilərin X elmi konfransının materialları, Bakı, 1963, s.146-149), “Sisyan rayonu Azərbaycan dili şivələrində səslərin əvəzlənməsi” (Azərbaycan Dövlət Pedaqoji İnstitutu. Gənc elmi işçilərin XI elmi konfransının materialları, Bakı, 1964, s.179-182), “Azərbaycan dilində Sisyan rayonu şivələrinin leksikasından” (Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Elmi əsərləri, pedaqogika və psixologiya, fənlərin tədrisi metodikası, dilçilik seriyası, 1965, №3, s.87-103), “Sisyan rayonu şivələrinin bəzi morfoloji xüsusiyyətləri” (Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Elmi əsərləri, pedaqogika və psixologiya, fənlərin tədrisi metodikası, dilçilik seriyası, 1966, №5, s.97-106), “Ermənistan SSR Sisyan rayonu şivələrində samitlərin və onların əvəzlənməsi” (Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi əsərləri, pedaqogika və psixologiya, fənlərin tədrisi metodikası, dilçilik seriyası, 1967, №3, s.102-111) məqalələrində Qərbi Azərbaycanın Sisyan rayonunun Azərbaycan dili şivələrinin fonetikası, morfologiyası, leksikası haqqında öz fikirlərini elmi baxımdan incələmişdir.

Qərbi Azərbaycanın özünəməxsus fonetik, morfoloji, sintaktik, leksik xüsusiyyətləri olan şivələrdən biri Meğri şivələridir. Meğri şivələri Zəngəzur mahalının Meğri rayon ərazisindəki şivələri əhatə edir. Meğri inzibati rayon kimi 09 sentyabr 1930-cu ildə təşkil

edilmişdir. Rayonun ərazisi Azərbaycanın tarixi torpaqları olmuşdur.

Meğri rayonu ərazisində 1831-ci ildə 1143 nəfər, 1843-cü ildə 2997 nəfər, 1886-cı ildə 2611 nəfər, 1897-ci ildə 3998 nəfər, 1922-ci ildə 1545 nəfər, 1926-cı ildə 1985 nəfər, 1931-ci ildə 2329 nəfər azərbaycanlı yaşamışdır (İ.Bayramov, 2002, s.457). Burada azərbaycanlılar Əkərək, Aldərə, Əmrakar, Bənövşəpuşt, Buğakar, Ernəzur, Tügəmir, Tuğut, Tey, Lehvaz, Kaler, Mülk, Nüvədi, Vəng, Vartanizor, Maralzəmi, Mərzəğat kəndlərində yaşamışlar.

Meğri toponiminin ilkin forması Mığrı olmuşdur. Elə sakinlər də rayonu Mığrı adlandırırlar. Meğri qədim türk dilində "quruyan, az sulu çöl çayı olan dərə", "yüksəkliklərində aşırım olmayan çıxılmaz dərə", "dalan kimi dərə" mənalarını bildirən mukir, mukur sözü əsasında əmələ gəlmişdir (İ.Bayramov, 2002, s.457).

Meğri rayon şivələri dialektoloji bölgüyə əsasən Azərbaycan dilinin cənub qrupu şivələrinə daxildir (Ə.Əliyev, 2003, s.59).

Ə.İ.Əliyev 1965-ci ildən Meğri şivələrini tədqiq etmişdir. Onun 1965-ci ildə "Ermənistan SSR Meğri rayonu Azərbaycan şivələrinin morfoloji xüsusiyyətləri" (APİ-nin elmi əsərləri, pedaqogika və psixologiya, fənlərin tədrisi metodikası, dilçilik seriyası, 1965, №3, s.104-112), 1967-ci ildə "Ermənistan SSR Meğri rayonu Azərbaycan dili şivələrinin bəzi leksik xüsusiyyətləri haqqında" (ADU-nun elmi əsərləri, dil və ədəbiyyat seriyası, 1967, №3, s.59-67), 1969-cu ildə "Ermənistan SSR Meğri rayonu azəri şivələrinin bəzi fonetik xüsusiyyətləri" (Azərbaycan SSR EA Xəbərləri, ədəbiyyat, dil və incəsənət seriyası, 1969, №1, s.71-79) məqalələri çap edilmişdir.

Ə.Əliyev Azərbaycan dili Meğri rayonunun Azərbaycan şivələri ilə bağlı tədqiqatlarını ümumiləşdirərək və yekunlaşdıraraq «Azərbaycan dilinin Meğri şivələri» (2003) monoqrafiyasını çap etdirmişdir. Monoqrafiyada ilk dəfə olaraq Zəngəzur mahalının Meğri rayonunun Azərbaycan şivələri Nüvədi, Aldərə, Vartanizor, Ernəzur, Lehvaz, Maralzəmı, Tuğut kənd şivələri kontekstində araşdırılır, ərazinin şivələrinin fonetik, qrammatik (morfoloji sintaktik), leksik xüsusiyyətləri kitabda geniş təhlil edilir və şivələr arasındakı fonetik eynililiklərlə yanaşı, fərqliliyin də olduğu müəyyənləşdirilir. Meğri şivələrinin morfoloji xüsusiyyətlərindən bəhs edərkən müəllif belə bir qənaətə gəlir ki, "Meğri rayonu ərazi cəhətdən cənub qrupu dialekt və şivələrinin bölgüsünə daxildir. Lakin buna baxmayaraq, burada qərb qrupu dialekt və şivələrinin, eləcə də ayrım şivəsinin morfoloji xüsusiyyətlərinə də təsadüf olunur" (Ə.Əliyev, 2003, s.183).

Meğri şivələri ilə bağlı mətnlər və folklor nümunələri də kitabda verilmişdir. Bu nümunələr ərazinin şivələri haqqında daha geniş təsəvvür yaradır. Eyni zamanda Ə.Əliyevin bu kitabında verilmiş Meğri şivələrində işlənən sözlərin lüğəti əsərin elmi dəyərini artırır. Ərazinin şivələrində işlənən sözlər Orxon-Yenisey abidələrinin, "Kitabi-Dədə-Qorqud"un dili ilə səsləşir, başqa türk dillərində işlənir ki, bu da Meğri rayonu ərazisinin qədimliyini, Azərbaycan türklərinin yaşadığı bu torpaqların qədim tarixə malik olduğunu göstərir.

"Lüğət"də müəllif Meğri şivələrində işlənən sözlərin Azərbaycan dilinin başqa şivələrindəki qarşılığını da verir.

Məsələn, **bayınmax** – «Kitabi-Dədə Qorqud»da işlənir; **burc//burş** - qazax, qırğız, noqay, tatar, çuvaş, qaraqalpaq, xakas dillərində müxtəlif fonetik formalarda işlənir; **danna** - Bakı dialektində işlənir; **əkə** - Qazax dialektində də işlənir, **qırqıta** - Quba dialektində *qır* formasında işlənir və s. (Ə.Əliyev, 2003, s.419, 421, 427, 432)

Qərbi Azərbaycanın azərbaycanlılar yaşadığı bölgələrdən biri də Çəmbərək (Krasnoselo) və Karvansaray (İcevan) rayonları olmuşdur.

Çəmbərək rayonunda 19 yaşayış məntəqəsi olmuşdur ki, onlardan 12-də (Cil, Ardanış, Şorca, Toxluca, Ağbulaq, Əmixeyir, Yanıxpəyə, Bəryabad, Qaraqaya, Gölkənd, Çaykənd, Cıvıxlı), Karvansaray rayonu ərazisində olan Polad Ayrım, Ağkilsə, Mırteyıl, Alaçıqqaya, Haqqıxlı, Salah kəndlərində yalnız azərbaycanlılar yaşamışlar. Hər iki rayonun azərbaycanlıları 1988-ci ildə tarixi-etnik torpaqlarından deportasiya olunmuş, yaşayış məntəqələrinin adları dəyişdirilmişdir (İ.Bayramov, 2005, s. 372-397).

Çəmbərək və Karvansaray rayonlarının Azərbaycan şivələri Azərbaycan dili şivələrinin qərb qrupuna daxildir. Ərazinin şivələri ədəbi dilimizdən, eləcə də Azərbaycan dilinin qərb qrupu şivələrindən fonetik, morfoloji, sintaktik və leksik xüsusiyyətlərinə görə fərqlənir. Çəmbərək və Karvansaray rayonlarının şivələrinin tədqiqi XX əsrin 60-cı illərindən başlayır. 1968-ci ildə Ş.Kərimovun "Ermənistan SSR Krasnoselo və İcevan rayonu şivələrində işlənən bəzi arxaik feillər haqqında" (Azərb.SSR EA-nın Xəbərləri, ədəbiyyat, dil və incəsənət seriyası, 1968, №3, s.53-57), «Samitlərin əvəzlənməsi haqqında: Ermənistan SSR Krasnoselo və İcevan rayonları materialları əsasında» (ADU-nun elmi əsərləri, dil və ədəbyyat seriyası, 1971, №3, s.51-55), "Ermənistan SSR Krasnoselo və İcevan rayonu şivələrində köməkçi nitq hissələri" (Azərb SSR EA-nın Xəbərləri, ədəbiyyat, dil və incəsənət seriyası, 1972, №3, s.63-67), "Ermənistan SSR Krasnoselo və İcevan rayonlarındakı Azərbaycan şivələrinin morfoloji xüsusiyyətləri haqqında" (ADU-nun elmi əsərləri, dil və ədəbyyat seriyası, 1972, №6, s.26-31) adlı məqalələri nəşr olunmuşdur. Ş.Kərimov Çəmbərək və Karvansaray rayonlarının şivələri ilə bağlı apardığı tədqiqatlar əsasında 1972-ci ildə "Ermənistan SSR Krasnoselo və İcevan rayonlarında Azərbaycan şivələri" mövzusunda namizədlik dissertasiya müdafiə etmişdir. Daha sonra 2004-cü ildə "Azərbaycan dilinin Cənbərək (Çəmbərək – İ.B.) və Karvansaray şivələri" adlı monoqrafiyasını çap etdirmişdir (Bakı, "Nurlan", 2004). Kitabda müəllif Çəmbərək və Karvansaray şivələrini üç qrupa (Qaraqoyunlu şivəsi, Göyçə şivəsi və ayrım şivəsi) ayırır və hər bir şivənin özünəməxsus fonetik, qrammatik və leksik xüsusiyyətləri olduğu konkret faktlar əsasında izah edilir və onların mövqeyi dəqiqləşdirilir (Ş.Kərimov, 2004, s.21-23). Ş.Kərimov əsərində Çəmbərək və Karvansaray şivələrini fonetik, morfoloji, sintaktik və leksik aspektdə geniş şəkildə araşdırır, qərb qrupu şivələri ilə oxşar və fərqli xüsusiyyətlərini dialektoloji material əsasında inandırıcı formada izah edir. Kitabda verilən folklor nümunələri ərazinin şivələri haqqında obyektiv təsəvvür yaradır.

Dərələyəz mahalı Qərbi Azərbaycanın ən böyük ərazilərindən biri olmuşdur. Dərələyəz mahalı Pasalı, indiki Vayk (əvvəlki adı Əzizbəyov olmuşdur) və Keşişkəndi (Yeğeqnadzor) rayonlarını əhatə edir. Dərələyəz mahalı azərbaycanlıların tarixi-etnik torpaqlar olmuş, 1988-ci ildə bu ərazidə yaşayan azərbaycanlılar tamamilə Ermənistan dövləti tərəfindən deportasiya olunmuşlar.

1727-ci ildə tərtib edilmiş "İrəvan əyalətinin icmal dəftəri"ndə Dərələyəz mahalı ərazisində (kitabda Dərələyəz nahiyəsi kimi qeyd edilir) 99 (səh.57-60), 1727-ci il tarixli "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Dərələyəz nahiyəsinə tabe olan 104 (səh.257-322) yaşayış məntəqəsi qeydə alınmışdır. Dərələyəz mahalındakı yaşayış məntəqələrinin tarixən erməni və rus mənbələrində qeydə alındığını müəyyənləşdirən H.Mirzəyev (H.Mirzəyev, 2003, s.21-33) ilk dəfə olaraq ərazinin toponimləri ilə yanaşı şivələrini də tədqiqata cəlb etmişdir. H.Mirzəyevin Dərələyəz şivələri ilə bağlı "Dərələyəz şivəsində işlənən termin səciyyəli sözlər" (Filologiya məsələlərinə dair tematik toplu, 2002, №3-4, s.3-11), "Dərələyəz şivələrində qohumluq bildirən sözlər" (Filologiya məsələlərinə dair tematik toplu, 2002, №3-4, s.38-44), "Dərələyəz mahalının şivə sözləri" (Filologiya məsələlərinə dair tematik toplu,

2002, №3-4, s.65-70), "Dərələyəz şivə sözləri və bunların lüğəti" (Dədə Qorqud, 2003, №1») məqalələri nəşr olunmuşdur. H.Mirzəyevin 2003-cü ildə çap olunan "Dərələyəz mahalının toponimləri və şivə sözləri" dərs vəsaitinin IV fəsli bilavasitə Dərələyəz mahalı şivələrinin leksikasına həsr olunmuşdur (H.Mirzəyev, 2003, s.303-342) Kitabda işlənən Dərələyəz şivə sözlərinin lüğəti aydın şəkildə göstərir ki, Dərələyəzin şivələri qədim köklərə malikdir.

Ağbaba mahalı tarixən Qars vilayətinə tabe olmuşdur. Ağbaba mahalı ilə yanaşı, Sörəyel və Pəmbək bölgələri də Qərbi Azərbaycanın qədim ərazilərindən biridir. Aslan Bayramov Ağbaba, Sörəyel və Pəmbək bölgələrinə daxil olan kəndləri göstərməklə həmin kəndlərin şivələrinin Azərbaycan dilinin qərb qrupu şivələrinə uyğun gəldiyini yazır: "Arpa çayı boyu səpələnmiş Ağbaba, Sörəyel və Pəmbək bölgəsinə daxil olan Çivinli, Ellərköy, Öksüz, Balıqlı, Xozukənd (Quzukənd), Güllücə, Sultanabad, İbiş, Qönçəli, Təpəköy, Qara Namaz, Göllü, Düzkənd, İlanlı (Çaybasar), Daşkörpü, Amasiya, Qaraçanta (Əzizbəyov), Mağaracıq, Oxçoğlu, Güllübulaq, Çaxmaq, Qarabulaq, Saral, Qursalı, Qarakilsə (Kirovakan, Vanadzor) (Böyük Qarakilsə – İ.B.), Qızılörən, Arcut, Vərdənə, Gözəldərə, Holavar (Hallavar – İ.B.), Haydarlı, Aşağı Kilsə, Yuxarı Kilsə və digər kəndlərin xüsusiyyətlərini özündə əks etdirir" (A.Bayramov, 2000, s.192-193).

1932-ci ildə İrəvanda erməni dilində çap olunmuş Z.Qorqodyanın "1831-1931-ci illərdə Sovet Ermənistanının əhalisi" kitabında Ağbaba, rayon kimi qeyd edilmiş və rayonun tərkibində 76 yaşayış məntəqəsi göstərilmişdir. Qeyd olunan yaşayış məntəqələrinin adları isə yalnız Azərbaycan dilinə məxsus sözlər əsasında formalaşmışdır.

Sörəyel və Pəmbək bölgələrinin şivələrinin morfoloji xüsusiyyətləri barədə məqalə yazılmışdır. 1974-cü ildə M.O.Cəfərov həmin bölgənin şivələrindən bəhs edən "Azərbaycan dilinin Kirovakan və Spitak şivələrində feilin nəqli keçmiş zamanında işlənən -ıb… zaman şəkilçisi haqqında" (Azərb. SSR EA-nın məruzələri, 30-cu cild, 1974, №10, s.61-63) məqalə nəşr etmişdir.

2000-ci ildə A.Bayramovun tərtibçiliyi ilə Qərbi Azərbaycanın Ağbaba, Sörəyel və Pəmbək bölgələrinin folklorundan bəhs edən "Oğuz elindən – Ozan dilindən" kitabı nəşr edilmişdir. Kitabda müəllif həm də Ağbaba, Sörəyel və Pəmbək bölgələrinin şivələrindən bəhs etmiş və fikrini "Ləhcə sözləri" bölməsində izah etmişdir. A.Bayramov bölgənin fonetik, leksik və qrammatik xüsusiyyətlərini 14 maddədə qruplaşdırmış və 160 dialekt sözünün izahını vermişdir (A.Bayramov. 2000, s.194-205). Daha sonra A.Bayramov və A.Bayramovanın "Azərbaycan dilinin Ağbaba şivəsi" kitabı (2020) çap olunmuşdur.

Ağbaba mahalına daxil olan Amasiya rayonunda işlənən sözlər leksikoqrafik aspektdə də öyrənilmişdir. B.Əsgərovun "Ağbabada qalan izlər" adlı kitabının "Ağbaba mahalında – Amasiya rayonunda işlənən bəzi arxaik sözlər" bölməsində 61 sözün izahı əksini tapmışdır (B.Əsgərov, 2001, s.190-197). Kitabda Amasiya şivəsində işlənən sifətlərə, feillərə aid nümunələr də verilmişdir (B.Əsgərov, 2001, s.199-200).

Qərbi Azərpbaycan ərazisində azərbaycanlıların sıx yaşadığı bölgələrdən biri də Zəngibasar mahalı (indiki Masis rayonu) olmuşdur. Zəngibasar rayonu ərazisinin köklü sakinlərini azərbaycanlılar təşkil edirdi. Rayon ərazisində 55 yaşayış məntəqəsi qeydə alınmışdır (Ə.Ələkbərli, 2002, s.94-95). Həbib Rəhimoğlu rayon ərazisindəki kəndlərdən 37-sinin coğrafi koordinatlarını verməklə bu kəndlərdə yaşayan azərbaycanlıların say tərkibini də müxtəlif illər üzrə göstərmişdir (H.Rəhimoğlu, 1997, s.238-239). Rayon ərazisindəki yaşayış məntəqələrinin adları (Ağahəmzəli, Ağcaqışlaq, Arbat, Qaraqışlaq, Göykümubət,

Aşağı Necili, Yuxarı Necili, Zəngilər, Sarvanlar, Sarıcalar, Çobankərə və s.) türk tayfalarının adları, Azərbaycan dilində işlənən sözlər əsasında formalaşmışdır (İ.Bayramov, 2002) .

Rayon ərazisində yaşayan azərbaycanlılar 1988-ci ildə tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar.

Zəngibasar rayonunun Azərbaycan şivələri XX əsrin 80-ci illərindən araşdırılmışdır. F.Babayev rayonun Azərbaycan şivələri ilə bağlı 1985-ci ildə "Ermənistan SSR-nin Masis rayonunun Azərbaycan şivələrində mənsubiyyət kateqoriyası" (Azərb.SSR EA-nın Xəbərləri, ədəbiyyat, dil və incəsənət seriyası, 1985, №1, s.104-106), "Masis şivələrində səslərin əvəzlənməsi" (Azərb.SSR EA-nın Xəbərləri, ədəbiyyat, dil və incəsənət seriyası, 1985, №4, s.105-107), "Ermənistan SSR Masis rayonunun Azərbaycan şivələrinin leksik-semantik xüsusiyyətləri" (Oktyabr inqilabı və Azərbaycan dilçiliyi, Bakı, «Elm», 1987, s.66-72) məqalələrini yazmışdır. 1988-ci ildə F.Babayev "Ermənistan SSR Masis (Zəngibasar – İ.B.) rayonu şivələri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Vedibasar və Zəngibasar bölgəsinin şivələri sırf leksikoqrafik aspektdə də öyrənilmişdir. Belə ki, Ə.Ələkbərli 2000-ci ildən başlayaraq Qərbi Azərbaycanın ayrı-ayrı bölgələri ilə bağlı tədqiqatlar apararaq ensiklopedik xarakterli kitablar nəşr etdirmişdir. Ə.Ələkbərlinin bu baxımdan 10 cilddə çapı nəzərdə tutulan kitabın 1-ci cildi 2000-ci ildə ("Qərbi Azərbaycan, I c., Vedibasar mahalı" (Vedi və Qarabağlar rayonları) çapdan çıxmışdır (Bakı, "Ağrıdağ", 2000). Bu kitabda Vedibasar mahalının tarixi-coğrafiyası, toponimləri, görkəmli elm, mədəniyyət, dövlət xadimləri, təhsil, təsərrüfat işçiləri ilə yanaşı, Vedibasar mahalında işlənən sözlərin dialektoloji lüğətini vermişdir (Ə.Ələkbərli, 2000, s.572-578). Ə.Ələkbərlinin Qərbi Azərbaycanın tarixi coğrafiyası, mədəni həyatı ilə bağlı ikinci kitabı "Qərbi Azərbaycan, II c., Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları (Zəngibasar, Qəmərli və Ellər rayonları)" adlanır (Bakı, "Ağrıdağ", 2002). Kitabda həm də Zəngibasar, Gərnibasar və Qırxbulaq mahallarında işlənən sözlərin dialektoloji lüğəti verilmişdir (Ə.Ələkbərli, 2002, s.653-658). Daha sonra Ə.Ələkbərli 2009-cu ildə "Qərbi Azərbaycanın dialektoloji lüğət" 1-ci kitab, İrəvan çuxuru (Vedibasar, Gərnibasar, Zəngibasar mahalları və İrəvan) adlı kitabı nəşr olunmuşdur (Bakı, «Ağrıdağ», 2009). Kitabda Vedibasar, Gərnibasar, Zəngibasar mahallarında (Vedi, Qəmərli, Zəngibasar rayonları) və İrəvan şəhərində işlənən bəzi aryı-ayrı sözlərin fonetik variantları (məsələn, çaqqala//çaqala, çələkə// çərəkə, dağar//dağarcıx, evnə//öynə, nəybət//neybət və s.) daxil olmaqla 2533 söz, ifadə və frazeoloji vahidin mənası izah edilmişdir.

İrəvan şivəsi Azərbaycan dilinin cənub qrupu şivələrinə daxildir. N.Rzayevanın 1966-cı ildə İrəvan və İrəvan ətrafı şivələrindən bəhs edən Azərbaycan dilinin "Yerevan və Yerevan ətrafı (Eçmiədzin) rayon şivələrinin leksikasından: Bağçılığa aid söz və terminlər" (Gənc elmi işlçilərin XII elmi konfransının tezisləri, Bakı, APİ, 1966, s.76-78) məqaləsi çap olunmuşdur.

Konkret Bir Kəndin Şivəsinin Tədqiqi

Qərbi Azərbaycan şivələrinin araşdırılmasının üçüncü qrupunu konkret bir kəndin şivəsinin tədqiqi təşkil edir. Yəni Qərbi Azərbaycanın ayrıca bir kəndin şivəsi öyrənilmiş, xüsusiyyətləri göstərilmişdir.

1959-cu ildə A.Q.Həsənovun "Azərbaycan dilinin Nüvədi (Zəngəzur) şivəsinin fonetik xüsusiyyətləri" (ADU-nun elmi əsərləri, humanitar elmlər seriyası, 1959, №3, s.17-31), "Nüvədi (Zəngəzur) şivəsinin xarakter leksik xüsusiyyətlər" (ADU-nun elmi əsərləri, ictimai elmlər seriyası, 1960, №1, s.15-29) məqalələri nəşr olunmuşdur.

C.Ə.Cəfərov Qərbi Azərbaycan Əstərək rayonundakı Hamamlı kənd şivəsinin leksikasını tədqiq etmiş və 1970-ci ildə bilavasitə Hamamlı kənd şivəsinin leksikasından bəhs edən "Hamamlı kənd şivələrinin lüğətinə dair bəzi qeydlər" (C.Ə.Cəfərov, 1970, s.43-57) məqaləsi nəşr olunmuşdur. Məqalədə əsasən Hamamlı kəndində işlənən şivə sözlərinin lüğəti əksini tapmışdır.

Qərbi Azərbaycanın Dağ Borçalısı ərazisində, yəni Kalinino rayonu ərazisində yerləşən kəndlərdən biri Cücəkənddir. Cücəkəndinin adı monqol sərkərdəsi Cuci xanın adı əsasında formalaşan Cuci ulusunun adından yaranmışdır (İ.Bayramov, 2002, s.639). Kəndin adı Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 03.01.1935-ci il tarixli fərmanı ilə dəyişdirilərək Qızıl Şəfəq qoyulmuşdur. Kəndin köklü sakinləri – azərbaycanlılar 1988-ci ildə Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar.

Qərbi Azərbaycanın Kalinino rayonu ərazisindəki Cücəkənd şivəsi A.Qurbanov tərəfindən "Cucikənd şivəsi" adı ilə tədqiqata cəlb olunmuşdur (A.Qurbanov, 2007). A.Qurbanov Cücikənd (Cücəkənd – İ.B.) haqqında məlumat verdikdən sonra Cucikənd şivəsinin hansı şivəyə məxsus olduğunu müəyyənləşdirir və bu qənaətə gəlir ki, Cucikənd şivəsi Qazax dialektinə, Borçalı şivəsinə yaxındır (A.Qurbanov, 2007). Yəni Cücikənd şivəsi Azərbaycan dilinin qərb qrupu şivələrinə mənsubdur.

A.Qurbanov "Qərbi Azərbaycanın Cucikənd şivəsi" əsərində Cucikənd şivəsinin fonetik əlamətləri (saitlərin əvəzlənməsi, samitlərin əvəzlənməsi, səs düşümü, səs artımı), η (sağır nun) samitinin fəal işlənməsini göstərir, leksik cəhətləri üzərində dayanır. Daha sonra Cucikənd şivəsi üçün xarakterik antroponimlərin, həmin şivəyə məxsus frazeoloji vahidlərin xüsusiyyətləri konkret dil faktları əsasında izah edilir və qruplaşdırılır (A.Qurbanov, 2007, s.7-48). Kitabın yeddinci bölməsi "Cucikənd şivəsinin qrammatik cəhətləri" adlanır. Bu bölmədə Cucikənd şivəsinin morfoloji xüsusiyyətləri (isimlər, sifətlər, əvəzliklər, feillər) haqqında məlumat verilir və sintaktik əlamətləri ilə bağlı göstərilir ki, sadə cümlələrin çoxluğu, qoşma və bağlayıcıların lap az işlənməsi, silsilə mürəkkəb cümlələrə yol verilməməsi Cucikənd şivəsinin səciyyəsi sintaktik əlamətlərindəndir (A.Qurbanov, 2007, s.50-52).

Kitabın sonunda Cucikənd şivəsinə dair müxtəsər lüğət verilmişdir. Lüğətdə kəndin şivəsində işlənən 48 sözün izahı əksini tapır.

Göründüyü kimi, Qərbi Azərbaycan şivəsinin tədqiqi ilə bağlı müəyyən işlər görülmüşdür. Aparılan tədqiqatlardan bu qənaətə gəlmək olar ki, "Azərbaycan dilinin Ermənistan ərazisindəki şivələrinə həsr olunmuş tədqiqatlarda azərbaycanlıların yaşadıqları kəndlər, hər bir kəndin danışıq xüsusiyyəti, dialektoloji mətnlər və s. elmi dəqiqliklə qeydə alınmışdır. İndi həmin dissertasiyalar (həm də ayrı-ayrı məqalələr, kitablar – İ.B.) yalnız dialektoloji bir iş deyil, eyni zamanda tarixi əsərlərdir" (E.Əzizov, 1995, s.111).

Qərbi Azərbaycan Şivələrinin Azərbaycan Dili Şivələrində Yeri

Azərbaycan dilinin şivələri ilə bağlı aparılan bölgülərdə Qərbi Azərbaycan şivələri əsasən kənarda qalmış, yalnız İrəvan şivəsi bəzi hallarda cənub qrupu şivələrinə daxil edilmişdir. "M.Şirəliyevin təsnifatında bəzi şivələrin hansı qrupa aid olması dəqiq aydınlaşmır. Məsələn, o, Yerevan şivəsini Azərbaycan dili şivələrinin cənub qrupuna daxil edir və bu şivənin Yerevan rayonunu əhatə etdiyini göstərir. Ermənistanın başqa yerlərində (Göyçə, Zəngəzur, Dərələyəz, Vedibasar, Zəngibasar, Böyük Qarakilsə, Alaverdi (Allahverdi – İ.B.) və s.) yaşamış azərbaycanlıların şivələri isə təsnifatdan kənarda qalır və bunların

konkret olaraq hansı dialekt qrupuna aid olması məlum olmur. Təəssüflə qeyd etmək lazımdır ki, indiki Ermənistanın qədim sakinləri olan azərbaycanlıları XIX əsrdən başlayaraq öz vətənlərindən zorla çıxarmışlar (1988-ci ildə indiki Ermənistanda yaşayan 250 mindən çox azərbaycanlı tarixi torpaqlarından deportasiya olunmuşlar – İ.B.). Ancaq buna baxmayaraq, vaxtilə Ermənistan ərazisində yaşamış azərbaycanlıların şivələrini təsnif etmək mümkündür" (E.Əzizov, 1995, s.94). İndi Ermənistan adlanan Qərbi Azərbaycan ərazisində qədim türk tayfaları yaşamış və onların izləri toponimlərdə tarixin yaddaşında daşlaşmışdır (İ.Bayramov, 2002).

Qədim Azərbaycan dövlətləri – Səfəvilər dövlətinin 13 bəylərbəyliyindən biri olan Çuxursəd bəylərbəyliyi Qərbi Azərbaycan ərazisində yaradılmışdır.

XVIII əsrdə yaradılan Azərbaycan xanlıqlarından biri İrəvan xanlığı adlanırdı. Bu ərazilərdə istifadə olunan şivələr Azərbaycan dilinin bir parçası, tərkib hissəsi olmaqla fonetik, qrammatik (morfoloji, sintaktik), leksik cəhətdən bir-birindən fərqlənmişlər. Azərbaycan dili şivələrinin təsnifi tarixinə nəzər salanda məlum olur ki, Firidun bəy Köçərli azərbaycanlıların danışıq dilini qruplaşdırarkən İrəvan şivəsini də bu bölgəyə daxil edir: "Qarabağ və Qazax əhalisi bir cürə, Şəki xalqı özgə bir cürə, Şirvan, Səlyan, Bakı və Quba adamları başqa bir sayaqda, *İrəvan* (kursiv bizimdir – İ.B.), Naxçıvan, Təbriz, Xoy, Maku vilayətlərinin əhalisi qeyri bir şivə üzrə danışırlar" (F.Köçərli, 1978, s.77).

M.Şirəliyev Qərbi Azərbaycanın İrəvan şivəsini cənub qrupu dialekt və şivələrinə daxil etmişdir.

A.Dilaçar Azərbaycan dili şivələrindən birini Şimali azəricənin ləhcələri adlandırır. Buraya cənub qrupunun da daxil olduğunu göstərir və İrəvan şivəsini cənub qrupuna daxil edir (E.Əzizov, 1999, s.300).

Mənuçehr Əmirpur 10 qrupa böldüyü Azərbaycan dili şivələrində İrəvan şivəsini cənub qrupunun içərisində verir (E.Əzizov, 1999, s.301).

"Q.Bağırov Sisyan (Qarakilsə) rayonunun Azərbaycan dili şivələrini tədqiq edərək kənd şivələrinin üç qrupa ayrıldığını və həmin şivələrin keçid xarakterində olduğunu müşahidə etmişdir" (E.Əzizov, 1999, s.313). E.Əzizov Qərbi Azərbaycan şivələrinə bütövlükdə nəzər salaraq yazır: "Göyçə, Böyük Qarakilsə, Alaverdi (Allahverdi – İ.B.) zonalarında yaşamış azərbaycanlıların şivələri dilimizin qərb ləhcəsinin Qazax-Borçalı şivələrinə uyğyndur. Zəngəzur, Dərələyəz azərbaycanlılarının şivələri isə qərb və cənub ləhcələri arasında keçid xarakterlidir" (E.Əzizov, 1995, s.94-95). E.Əzizov sonrakı tədqiqatlarında Azərbaycan dili şivələrinin təsnifatında Qərbi Azərbaycanın digər şivələrini də daxil edərək yazır: "Ermənistanın başqa regionlarında (Göyçə, Zəngəzur, Dərələyəz, Vedibasar, Zəngibasar, Pəmbək, Loru və s.) tarixən məskun olmuş azərbaycanlıların şivələri isə təsnifatdan kənarda qalır və bunların konkret olaraq hansı dialekt qrupuna aid olması məlum olmur… Azərbaycan dilinin indiki Ermənistan ərazisində tarixən mövcud olmuş şivələrini, qismən də olsa, təsnif etmək mümkündür. Göyçə, Şəmşəddin, Pəmbək (Böyük Qarakilsə, Hamamlı), Loru (Dağ Borçalı) zonalarında yaşamış azərbaycanlıların şivələri Azərbaycan dilinin qərb ləhcəsinin Qazax-Borçalı şivələrinə uyğundur. Zəngəzur, Dərələyəz azərbaycanlılarının şivəsi isə dilimizin qərb (orta) və cənub ləhcələri arasında keçid xarakterlidir" (E.Əzizov, 1999, s.305). Azərbaycan dili şivələrinin son təsnifini E.Əzizov vermişdir. Lakin bu bölgüyə Gürcüstanın şivələrini daxil edilsə də, Qərbi Azərbaycan şivələrinin hansı dialekt qrupuna aid olduğu göstərilmir (E.Əzizov, 1995, s.100-101; E.Əzizov, 1999, s.289).

H.Mirzəyev Dərələyəz şivələrinin leksikasından bəhs edərkən ərazinin şivələrinin

Azərbaycan dilinin qərb (orta) və cənub ləhcələri arasında keçid xarakterli olduğunu E.Əzizovdan gətirdiyi sitata əsasən söyləyir (H.Mirzəyev, 2003, s.304).

Ş.Kərimov Çəmbərək (Krasnoselo) və Karvansaray (İcevan) şivələrini Azərbaycan dilinin qərb qrupu şivələrinə daxil edir: "Çənbərək (Çəmbərək – İ.B.) və Karvansaray rayonlarındakı Azərbaycan şivələri fonetik, morfoloji, sintaktik və leksik uyğunluqlar nöqteyi-nəzərindən qərb qrupu şivələrinə daxildir. Qərb qrupu dialekt və şivələrində rast gəldiyimiz bir sıra səciyyəvi fonetik xüsusiyyətlər həmin şivələrdə də mövcuddur" (Ş.Kərimov, 2004, s.25). Müəllif Çəmbərək və Karvansaray rayonlarındakı Azərbaycan şivələrini isə üç qrupa bölür: Qaraqoyunlu şivəsi, Göyçə şivəsi və Ayrım şivəsi. (Ş.Kərimov, 2004, s.21).

A.Qurbanov Qərbi Azərbaycanın Dağ Borçalısı, indiki Kalinino rayonu ərazisində yerləşən Cucikənd şivəsini tədqiq edərək bu qənaətə gəlir ki, Cucikənd (Cücəkənd – İ.B.) Qərbi Azərbaycan ərazisində olduğu üçün onun şivəsində Gürcüstanın Borçalı, Türkiyə ilə həmsərhəd olan Amasiya, Türkiyənin Ərzurum, Bozyoxuş və başqa yerlərdəki danışıqlarda bir çox linqvistik hadisə və ünsürlər eyni xüsusiyyətə malikdir (A.Qurbanov, 2007, s.25). Ümumiyyətlə, A.Qurbanov Cücəkənd şivəsini Qazax-Borçalı şivə qrupuna uyğun olduğunu göstərir (A.Qurbanov, 2007, s.25).

A.Bayramov Ağbaba, Sörəyel və Pəmbək bölgələrinin şivələrini Azərbaycan dilinin qərb qrupu dialektlərinə aid edir (A.Bayramov, 2000, s.192-193).

Yuxarıda deyilənləri nəzərə alaraq Qərbi Azərbaycan şivələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Qərb şivələri. Bu şivələrə Çəmbərək, Karvansaray, Basarkeçər, Böyük Qarakilsə, Dağ Borçalısı (Calaloğlu, Kalinino), Ağbaba, Quqark rayon ərazisinin şivələri daxildir.

2. Cənub şivələri. Bu şivələr Dərələyəz, İrəvan, Zəngibasar, Vedibasar, Qarakilsə, Meğri, Qafan rayonu şivələrini əhatə edir.

AZƏRBAYCAN DİLİNİN ŞİVƏLƏRİNİN TƏSNİFİ PRİNSİPLƏRİ

Azərbaycan dili şivələrinin təsnifi – bölünməsi Azərbaycan dialektologiyasında həmişə aktual olmuşdur. Azərbaycanlılar Cənubi Qafqazın, Cənubi Azərbaycanın köklü sakinləri olmaqla yanaşı, İranın digər bölgələrində, Türkiyədə və İraqda da yaşayır, müxtəlif şivələrdə danışırlar. Azərbaycan ərazisində tarixən müxtəlif inzibati bölgələr mövcud olmuş və bu müxtəliflik həmin bölgələrdə yaşayanların danışığında da özünü göstərmişdir. Müxtəlif şivələrin yaranması bilavasitə feodalizmin məhsuludur. "...IX-X əsrlərdən meydana çıxan yerli feodallıqların ərazisinə uyğun olaraq dilin məhəlli müxtəlifliyini şərtləndirən bəzi amillər yaranmağa başlayır. XI-XII əsrlərdə Azərbaycan ərazisində Dərbənddən Kür çayına qədər olan torpaqlarda Şirvanşahlar dövləti, Kür və Araz çayları arasında Şəddadilər dövləti və Naxçıvanşahlıq, nəhayət, Arazdan cənubda olan Azərbaycan torpağında Rəvvadilər dövləti var idi. Sonrakı əsrlərdə göstərilən regionlarda inzibati bölgülər müəyyən dəyişikliklərə uğrasa da, məhəlli dialekt əlamətləri məhz həmin ərazilərdə yaranmış, əsas dialektlər (ləhcələr) fiziki-coğrafi amil çərçivəsində üç başlıca regionda –Naxçıvan daxil olmaqla Arazın sol sahili hissəsindən və Muğandan cənubda (*cənub ləhcəsi),* Kür və Araz çayları arasındakı ərazinin qərb və cənub-qərb hissəsində *(qərb ləhcəsi və ya orta ləhcə)* və Kürdən Şimala olan ərazinin şimal-şərq hissəsində *(şimal-şərq ləhcəsi)* XVIII əsrədək tədricən formalaşmışdır. Azərbaycan dilinin XI-XII əsrlərdən formalaşmaqda olan məhəlli şivələri sonralar Şirvanşahlar, Atabəylər, Hülakilər, Cəlairlər, Qaraqoyunlular, Ağqoyunlular və Səfəvilər dövlətləri dövründə qarışma və eyni zamanda müəyyənləşmə prosesi keçirmişdir. XVI əsrdə vahid, mərkəzləşmiş Səfəvilər dövlətinin inzibati-ərazi bölgüsü Azərbaycan dilinin mənəvi məhəlli diferensiasiyasını möhkəmləndirir" (E.Əzizov, 1999, s.283). Məhz müxtəlif ərazilərdə yaşayan azərbaycanlıların müxtəlif şivələrdə danışmasına Azərbaycanşünaslıqda münasibət bildirilmişdir. Həmin şivələrin fonetik, qrammatik və leksik cəhətləri nəzərə alınmaqla təsnif edilmişdir. Azərbaycan dili şivələrinin təsnifinin tarixi XX əsrin əvvəllərindən başlayır və şivələrimizin bölgüsü ilə bağlı ilk fikri görkəmli ədəbiyyatşünas F.Köçərli söyləmişdir: "Azərbaycan türklərinin dəxi özlərinə məxsus ədəbiyyatı vardır. Bu türklər Zaqafqaziyanın şərq və cənubunda sükna edən Şəki, Şirvan, Səlyan, Bakı, Gəncə, Qazax, Qarabağ, İrəvan və Naxçıvan əhalisindən və İran dövlətinin şimali-şərqisində güzəran edən əqvam və təvayifdən ibarətdir. Azərbaycan türklərinin danışdığı dilin şivəsi çox isə də, binası və kökü birdir. Belə ki, hər mahalın xalqı başqa bir şivədə və qeyri bir ləhcədə danışıb qonuşur. Hər məhəl və məskənin özünə məxsus istilahları və sözləri vardır. Qarabağ və Qazax əhalisi bir cürə, Şəki xalqı özgə bir cürə, Şirvan, Səlyan, Bakı və Quba adamları başqa bir sayaqda, İrəvan, Naxçıvan, Təbriz, Xoy, Maku vilayətlərinin əhalisi qeyri bir şivə üzrə danışırlar. Amma bununla belə, bunların cüməsi söylədiyi dil bir dildir və bu mahalın əhalisi özgə bir Azərbaycan mahalının əhalisi söylədiyi dili açiq anlayıb, onunla hər bir qisim mətalib və məsail barəsində mükalimə edə bilir" (F.Köçərli, 1978, s.77).

M.Fuad Köprülü həm şimali, həm də Cənubi Azərbaycan ərazisindəki şivələri qeyd edir və göstərir ki, Azərbaycanda Şəki, Bakı, Gəncə, Qarabağ, Təbriz, Ərdəbil, Urmiyə şivələri var. Sürəyya Talıbxanbəyli 1933-cü ildə yazdığı "Qarabağ-İstanbul şivələrinin sövtiyyat cəhətindən müqayisəsi" məqaləsində yalnız Azərbaycan Respublikası ərazisində Bakı, Gəncə, Qarabağ (Şuşa), Şamaxı, Nuxa, Qazax, Naxçıvan, Salyan və Lənkəran şivələrinin olduğunu göstərmişdir (E.Əzizov, 1999, s.295-296).

Azərbaycan dili şivələrinin təsnifi ilə sistemli şəkildə M.Şirəliyev məşğul olmuşdur. Uzun illər M.Şirəliyevin təsnifi əsas götürülmüşdür. M.Şirəliyevin Azərbaycan şivələrinin

təsnifinə dair ilk məqaləsi 1941-ci ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Xəbərlərində rus dilində "Azərbaycan dialektlərinin öyrənilməsi tarixi və onun klassifikasiyası" (К вопросу об изучении и классификации азербайджанских диалектов) məqaləsi nəşr olunub. Azərbaycan dili şivələrinin təsnifi barədə M.Şirəliyev yazır: "Azərbaycan dialektləri ətraflı surətdə öyrənilmədiyindən, onun klassifikasiyasını (təsnifini –İ.B.) vermək çətindir. Hələlik (1940-cı ilə qədər dövr nəzərdə tutulur – İ.B.) əldə olan materiallara əsasən Azərbaycan dialektlərinin aşağıdakı klassifikasiyasını (bölgüsünü – İ.B.) vermək olar:

1. Şərq qrup dialektləri (Quba, Dərbənd, Bakı, Şamaxı, Səlyan və s.);
2. Qərb qrupu dialektləri (Qazax, Borçalı, Ayrım və s.);
3. Şimal qrupu dialektləri (Nuxa, Qutqaşen (Qəbələ – İ.B., Zaqatala və s.);
4. Cənub qrupu dialektləri (Naxçıvan, Ordubad, İrəvan və s.);
5. Orta qrup dialektləri (Qarabağ, Kirovabad (Gəncə - İ.B.) və s. (M.Şirəliyev, 1941, s.24).

M.Şirəliyevin bu bölgüsü olduğu kimi 1941-ci ildə nəşr olunan "Azərbaycan dialektologiyası" (I hissə) əsərində əksini tapıb (M.Şirəliyev, 1941,s.69). M.Şirəliyev 1947-ci ildə yenidən Azərbaycan dili şivələrinin təsnifi məsələsini tədqiqat obyekti götürür. Azərbaycan dili şivələrini dialekt və şivələrə görə 4 qrupa bölür:

1) Şərq qrupu: Quba, Bakı, Şamaxı dialektləri, Salyan, Lənkəran şivələri və s.

2) Qərb qrupu: Qazax, Gəncə, Qarabağ dialektləri, Borçalı, Ayrım şivələri və s.

3) Şimal qrupu: Nuxa dialekti, Zaqatala, Vartaşen (Oğuz – İ.B.), Qutqaşen (Qəbələ - İ.B.) şivələri və s.

4) Cənub qrupu: Naxçıvan, Ordubad, Təbriz, Ərdəbil dialektləri və Noraşen (Şərur – İ.B.), Şahbuz şivələri və s. (E.Əzizov, 1999, s.296). "Bu təsnifatdakı əsas yenilik "orta qrupu" ləğv edib buradakı Gəncə və Qarabağ şivələrini qərb qrupuna aid etmək olmuşdur. Bundan başqa, bu bölgüdə Dərbənd və İrəvan şivələri təsnifatdan çıxarılır, bir sıra yeni şivələr (Təbriz, Ərdəbil, Noraşen (Şərur – İ.B.), Vartaşen (Oğuz – İ.B.) müvafiq dialekt qruplarına daxil edilir" (E.Əzizov, 1999, s.297)

M.Şirəliyevin birinci bölgüsü ilə ikinci bölgüsü arasında bir neçə fərq özünü göstərir. Birinci bölgüdə şivələrimiz "dialekt" adı ilə təsnif edilir, ikinci bölgüdə isə şivələrimiz "dialekt və şivələr" adı altında qruplaşdırılır. Başqa bir fərq ondan ibarətdir ki, şərq qrupunda Dərbənd dialektini çıxarır, şimal qrupuna Vartaşen (Oğuz – İ.B.) şivələrini daxil edir. Cənub qrupunda da fərqli bölgünü görmək olar. Belə ki, birinci bölgüdə İrəvan, Naxçıvan, Ordubad dialektləri yer alır. İkinci bölgüdə İrəvan şivəsi çıxarılır, Təbriz, Ərdəbil dialektləri Noraşen (Şərur – İ.B.), Şahbuz şivələri cənub qrupuna daxil edilir. M.Şirəliyevin 1941-ci ildə şivələrimizin təsnifində 5-ci qrupu "Orta qrup" adlandırır. Buraya Kirovabad (Gəncə - İ.B.), Qarabağ dialektlərini daxil edir. 1947-ci il bölgüsündə isə Gəncə, Qarabağ dialektlərinin qərb qrupu dialekt və şivələrinin tərkibində verir.

M.Şirəliyev 1960-cı ildə yazdığı "Проблема диалектного членения языка" (Dilin dialekt üzvlənməsi problemi) məqaləsində "dialekt" və "şivə" terminlərindən istifadə edərək Azərbaycan dili şivələrini dörd qrupa bölür:

1.Azərbaycan dilinin Şərq qrupu dialekt və şivələri: Quba, Bakı, Şamaxı dialektləri, Muğan, Lənkəran şivələri;

2.Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri: Qazax, Qarabağ, Gəncə dialektləri, ayrım şivəsi;

3.Şimal qrupu dialekt və şivələri: Nuxa dialekti, Zaqatala-Qax şivələri;

4. Azərbaycan dilinin cənub qrupu dialekt və şivələri: Naxçıvan, Ordubad, Təbriz dialektləri və İrəvan şivəsi.

M.Şirəliyev 1960-cı ildə yazdığı "Проблема диалектного членения языка" məqaləsində Azərbaycan dilində keçid şivələrin də olduğunu göstərir və keçid şivələri 3 yerə bölür:

1.Göyçay şivəsi: şərq və qərb qrupu dialektlərinin xüsusiyyətlərini özündə əks etdirir.

2.Ağdaş şivəsi: şərq və şimal qrupu dialektlərinin xüsusiyyətlərini birləşdirir.

3.Cəbrayıl şivəsi: Azərbaycan dilinin qərb və cənub qrupu dialektlərinin xüsusiyyətlərini özündə əks etdirir (М.Ширалиев, 1960, s.98)

M.Şirəliyev 1960-cı ildə Azərbaycan dili şivələrinin təsnifində dəyişikliklər etmişdir. Belə ki, 1947-ci ildə verdiyi təsnifdən fərqli olaraq şərq qrupundan Dərbənd dialektini və Salyan şivəsini çıxarıb buraya Muğan şivəsini daxil etmişdir. Qərb qrupu dialekt və şivələrindən Borçalı şivəsini, şimal qrupu dialekt və şivələrindən Vartaşen (Oğuz-İ.B.), Qutqaşen (Qəbələ-İ.B.) şivələrini çıxarmış, buraya Qax şivəsini daxil etmişdir. Cənub qrupunda da dəyişiklik etmişdir. Belə ki, Ərdəbil dialektini, Noraşen (Şərur-İ.B), Şahbuz şivələrini çıxarmış, İrəvan şivəsini cənub qrupu dialekt və şivələrinə daxil etmişdir.

M.Şirəliyevin 1967-cı ildə çap olunmuş "Azərbaycan dialektologiyasının əsasları" dərs vəsaitində Azərbaycan dili şivələrini «Azərbaycan dili dialekt və şivələri» adı altında tarixi-coğrafi prinsip əsasında dörd qrupa bölür:

1. Dialekt və şivələrimizin şərq qrupu. Buraya Quba, Bakı, Şamaxı dialektləri, Muğan və Lənkəran şivələri daxildir.

2. Dialekt və şivələrimizin qərb qrupu. Buraya Qazax, Qarabağ, Gəncə dialektləri və Ayrım şivəsi daxildir.

3.Dialekt və şivələrimizin şimal qrupu. Buraya Nuxa (Şəki-İ.B) dialekti və Zaqatala-Qax şivəsi daxildir.

4.Dialekt və şivələrimizin cənub qrupu. Buraya Naxçıvan, Ordubad, Təbriz dialektləri və İrəvan şivəsi daxildir (M.Şirəliyev, 1967, s.16-17).

M.Şirəliyev 1983-cü ildə nəşr etdirdiyi "Диалекты и говоры азербайджанского языка" (Azərbaycan dilinin dialekt və şivələri) əsərində Azərbaycan dili şivələrinin təsnifini vermişdir. Bu təsnif 1967-ci ildə çap olunmuş «Azərbaycan dialektologiyasının əsasları» kitabındakı təsniflə eynidir. Fərq ondan ibarətdir ki, 1967-ci ildə müəllif keçid şivələrinin adını çəkmir. 1983-cü ildə Göyçay şivələrini keçid şivələr qrupuna daxil edir (М.Ширалиев,1983,с.6).

R.Rüstəmov Azərbaycan dili şivələrinin təsnifi barədə fikir söyləmişdir. "Azərbaycan dialektologiyası proqramı"nda (1953) şivələrimizi dörd qrupa bölür:

1.Şimal (Nuxa-(Şəki-İ.B.), Qutqaşen (Qəbələ-İ.B) Zaqatala) və s.;

2. Şərq (Bakı, Şamaxı, Quba, Salyan, Lənkəran və s.);

3. Qərb (Qazax, ayrım, Gəncə, Qarabağ və s.);

4.Cənub (Naxçıvan, Ordubad, Təbriz, Ərdəbil və s.);

R.Rüstəmov ilk dəfə olaraq Azərbaycan dili şivələrinin şərq, şimal və qərb qrupları arasında keçid təşkil edən şivələri də (Ağdaş, Göyçay və s.) müəyyənləşdirir (E.Əzizov, 1999, s.298).

A.Hüseynov Azərbaycan dili şivələrini təsnif edərkən «ləhcə» terminindən istifadə edir. 1958-ci ildə çap etdirdiyi «Azərbaycan dialektologiyası» əsərində qeyd edir ki, birinci ləhcə şərq və əsasən şimal qruplarını, ikinci ləhcə əsasən qərb və cənub qruplarını əhatə edir.

A.Hüseynov “Azərbaycan dialektologiyası” kitabının təkmilləşdirilmiş 2-ci nəşrində (1979) Azərbaycan dili şivələrini 3 ləhcədə qruplaşdırır;

1.Qərb ləhcəsi- Qazax, Qarabağ, Gəncə, Borçalı, İrəvan, ayrım şivələri;

2.Şərq ləhcəsi- Bakı, Quba, Şamaxı, Muğan şivələri;

3.Cənub ləhcəsi- Naxçıvan, Ordubad, Təbriz, Kərkük şivələri (A.Hüseynov, 1979, s.16-17, 43,57). Zaqatala-Qax şivələrini şimali-qərb qrupuna aid edir (A.Hüseynov, 1979, s.17-18) . A.Hüseynov Şəki şivəsinin hansı ləhcəyə aid olduğunu göstərmir.

E.Əziziov Azərbaycan dili şivələrinin təsnifində A.Hüseynovun bölgüsünü ən düzgün bölgü adlandırır (E.Əzizov, 1999, s.299).

Azərbaycan dili şivələrinin təsnifi xarici alimlərin də diqqətini cəlb etmişdir. Xarici ölkə türkoloqları Azərbaycan dili şivələrini geniş anlamda götürmüş, Cənubi Azərbaycan, Türkiyənin Anadolu bölgəsini də bu bölgüyə daxil etmişlər.

A.Dilaçar Azərbaycan dili şivələrini şimali azəricənin ləhcələri və cənubi azəricənin ləhcələri adı altında iki qrupa bölür;

I. Şimali azəricənin ləhcələri;

1. Şərq qrupu: Quba, Dərbənd (Dağıstan), Bakı, Şamaxı (Şirvan), Salyan, Muğan, Lənkəran.

2. Qərb qrupu: Qazax, Borçalı, Gəncə, Qarabağ (Şuşa);

3. Şimal qrupu: Nuxa (Şəki- İ.B.), Zaqatala- Qax, Muğan, Qutqaşen (Qəbələ- İ.B.);

4.Cənub qrupu: İrəvan, Naxçıvan, Ordubad, Qarapapax;

5. Keçid ağızları: Göyçay, Ağdaş, Cəbrayıl.

II.Cənubi azəricənin ləhcələri

1.Mərkəzdə: Təbriz, Marağa, Turkmənçay;

2.Şimalda: Mərənd, Əhər;

3.Şimal-qərbdə: Xoy, Maku;

4.Şimal-şərqdə: Bəkrabad, Bəcərəvan;

5.Şərqdə: Ərdəbil (Savalan), Xalxal;

6.Cənub-şərqdə: Zəncan (Xamsə);

7.Cənubda: Sayınqala, Sakiz;

8.Cənub-qərbdə: Soyuqbulaq, Sərdəst;

9.Qərbdə: Rezaiyə (Rumiyə), Şahpur (E.Əzizov, 1999, s.300)

A.Dilaçarın Şimali azəricənin ləhcələrinin təsnifinin bir neçə məqamlarını çıxmaqla əsasən M.Şirəliyevin təsnifinin təkrarıdır.

Mənuçehr Əmirpur Azərbaycan dili şivələrinə geniş anlamda yanaşır. Şimal Azərbaycan ərazisindəki şivələri “qrup” termini ilə adlandırır və onları 5 qrupa bölür. Digər Azərbaycan dili şivələrini ərazinin adı ilə adlandırır. Beləliklə, Azərbaycan dili şivələrini 10 qrupa bölür:

1.Şərq qrupu: Dərbənd, Quba, Şamaxı, Bakı, Salyan, Lənkəran;

2.Qərb qrupu: Qazax, ayrım, Borçalı;

3. Şimal qrupu : Zaqatala, Nuxa, Qutqaşen (Qəbələ-İ.B);

4.Cənub qrupu: İrəvan, Naxçıvan, Ordubad;

5.Mərkəz qrupu: Gəncə, Şuşa;

6. Şərqi Anadolu dialekti (Ərzurum);

7.Qaşqay və eynallı dialekti;

8. Şimali İraq dialekti;

9.Təbriz dialekti;

10. Rezaiyə gölü ətrafı dialekti (E.Əzizov, 1999, s.301)

Mənuçehr Əmirpurun Şimali Azərbaycan şivələrinin bölgüsündə M.Şirəlievin təsiri aydın görünür. Bir fərq var ki, Gəncə, Şuşa, yəni Qarabağ şivələrini "Mərkəz qrupu" adı ilə təqdim edir. Eyni zamanda "Bu təsnifat göstərir ki, cənubda Azərbaycan dilinin təsir dairəsi genişdir. Azərbaycan dili şivələrinin xüsusiyyətləri İranın cənub-qərbində (qaşqay, eynallı), İraqın şimalında (Kərkük) və Şərqi Anadoluda (Ərzurum) müşahidə edilir" (E.Əzizov, 1999, s.301).

E.Əzizov Azərbaycan dili şivələrinin təsnifi ilə sistemli məşğul olmuş və şivələrimizin bölgüsünə yeni formada yanaşmışdır. Tədqiqatçı Azərbaycan dili şivələrinin təsnifinə təkcə Azərbaycan ərazisi daxilində yanaşmır. Belə ki, Azərbaycan dili şivələri həm Azərbaycanda, həm Dərbənddə və İraqda, həm də Gürcüstanın Borçalı bölgəsində geniş yayılmışdır. İndi Ermənistan adlanan Qərbi Azərbaycanın köklü sakinləri azərbaycanlılar olmuşdur. Qərbi Azərbaycan şivələri, təəssüf ki, Azərbaycan dili şivələrinin təsnifindən kənarda qalmışdır. Bu təsnifə yalnız İrəvan şivəsi daxil edilmişdir.

E.Əzizov haqlı olaraq Azərbaycan dili şivələrinin təsnifatını təkcə Azərbaycan Respublikası daxillində olan şivələrlə məhdudlaşdırmır. Azərbaycan dili şivələrinə həm Azərbaycan, həm Cənubi Azərbaycan, həm Dağıstan (Dərbənd-Tabasaran), həm Gürcüstan (Borçalı), həm də Qərbi Azərbaycan (Göyçə, Zəngəzur, Dərələyəz, Vedibasar, Zəngibasar, Pəmbək, Loru) şivələrini də daxil edir. Azərbaycandan kənarda yaşamış azərbaycanlıların şivələrinin Azərbaycan dili şivələrindən kənarda qalması dialektoloji tədqiqatların birtərəfli aparılması kimi qiymətləndirilə bilər.

E.Əzizov 1988-ci ildə çap etdirdiyi "Azərbaycan diaektologiyası proqramı"nda Azərbaycan dili şivələrini üç ləhcəyə bölür:

1.Şərq ləhcəsi. Bu ləhcə Xəzərin qərb sahili zonasının müəyyən hissəsini (Dərbənd-Tabasaran, Quba-Xaçmaz-Dəvəçi (Şabran – İ.B.), Şamaxı - İsmayıllı, Ağsu-Kürdəmir, Bakı, Salyan-Sabirabad-Saatlı) əhatə edir. Şərq ləchəsi bir sıra şivə qruparına bölünür: Dərbənd-Tabasaran, Quba (Quba -Xaçmaz-Dəvəçi (Şabran – İ.B.), Abşeron və s.

II.Qərb ləhcəsi. Bu ləhcə Qazax-Şamxor (Şəmkir – İ.B.), Gəncə-Qarabağ, Daşkəsən-Gədəbəy, Kəlbəcər regionlarını, Gürcüstanın (Qardabani, Marneuli, Bolnisi, Dmanisi) və Ermənistanın bəzi rayonlarını (Vardenis (Basarkeçər-İ.B.), Krasnoselsk (Çəmbərək – İ.B.), İcevan (Karvansaray – İ.B.), Kirovkan (Böyük Qarakilsə-İ.B.), Spitak (Hamamlı – İ.B.), Amasiya və Gürcüstanla sərhəd zona) əhatə edir. Qərb ləchəsində bir sıra şivə qrupları fərqlənir: Qazax qrupu (Qazax, Tovuz, Şamxor (Şəmkir – İ.B.), Marneuli, Qardabani, Dmanisi, Amasiya, Kirovkan, Krasnoselsk, Vardenis və s.), Qarabağ şivələri, ayrım şivəsi.

III. Cənub ləhcəsi. Bu ləhcə Təbriz-Marağa, Mərənd-Əhər, Lerik-Yardımlı, Astara-Lənkəran, Ərdəbil, Xalxal, Zəncan, Sayınqala (Şahindej), Urmiyə, Xoy, Maku, Naxçıvan, Ordubad, Meğri (Mehri) regionlarını əhatə edir. Cənub ləhcəsi bir neçə şivə qrupuna ayrılır: Təbriz-Marağa, Ordubad- Culfa, Ərdəbil- Xalxal və s.

Əsas ləhcələrdən başqa Azərbaycan dilində qarışıq xarakterli və keçid tipli şivələr də var. *Qarışıq şivələr* (şimal-qərb) Balakən, Zaqatala-Qax, Şəki, Vartaşen (Oğuz – İ.B.), Qutqaşen (Qəbələ - İ.B.) regionunu əhatə edir. Kür çayının sol sahili boyunca Ağdaş, Göyçay, Ucar, Zərdab, Kürdəmir (qərb hissəsi) rayonlarının ərazisində, cənubda Cəlilabad, Puşkin (Biləsuvar – İ.B.), İmişli, Cəbrayıl, Qubadlı, Laçın, Zəngilan, Qafan, Sisyan, Yeğeqnadzor (Keşişkənd – İ.B.), Yerevan zonasında əsas ləhcələr arasındakı keçid (ara) şivələr yerləşir.

Azərbaycan dilinin bir sıra təcrid olunmuş dialektləri də var: Kərkük (Türkman) (İraq), qaşqay və eynallı şivələri (Cənubi İran), Əfşar şivəsi (İran, Əfqanıstan) (E.Əzizov, 1988, s.5).

E.Əziziov "Azərbaycan dilinin tarixi dialektologiyası" (1991) əsərində Azərbaycan dili şivələrinin təsnifinə yenidən qayıtmış və əsərinin III fəslini (Azərbaycan dilinin dialekt bölünməsi) məhz şivələrimizin təsnifinə həsr etmişdir. Onun 1988-ci il bölgüsü ilə 1999-cü il bölgüsü arasında müəyyən fərqlər özünü göstərir. E.Əzizov 1999-cu ildə Azərbaycan dili şivələrini üç ləhcəyə, bir qarışıq tipli şivəyə ayırır.

E.Əzizov yazır: "Bütün bunları nəzərə almaqla Azərbaycan dili şivələrini aşağıdakı kimi qruplaşdırmaq olar.

Cənub ləhcəsi. Bu ləhcə Cənubi Azərbaycan, Naxçıvan və Lənkəran regionlarının şivələrini əhatə edir. Cənub ləhcəsində bir neçə şivə qrupu fərqlənir: 1) Təbriz: 2) Ərdəbil; 3) Lənkəran; 4) Urmiyə; 5) Naxçıvan və s.

Qərb ləhcəsi (orta ləhcə). Bu ləhcə Azərbaycanın Kur və Araz çayları arasındakı ərazisinin qərb və cənub-qərb hissəsinin (Qazax, Gəncə, Qarabağ, Daşkəsən, Gədəbəy, Kəlbəcər, Laçın) və Gürcüstanın bəzi regionlarının (Borçalı: Marneuli, Bolnisi, Dmanisi) şivələrini əhatə edir. Qərb ləhcəsi üç şivə qrupuna bölünür: 1) Qarabağ; 2) Qazax-Borçalı; 3) ayrım şivəsi (Daşkəsən-Gədəbəy-Kəlbəcər rayonlarında yayılmışdır).

Şimal-şərq ləhcəsi. Bu ləhcə Xəzərin qərb sahili zonasının şimal-şərq hissəsinin (Dərbənd, Quba, Bakı, Şamaxı, Salyan) şivələrini əhatə edir. Şimal-şərq ləhcəsi üç şivə qrupuna ayrılır: 1) Şamaxı-Bakı; 2) Quba; 3) Dərbənd.

Əsas ləhcələrdən başqa Azərbaycan dilinin keçid tipli (qarışıq, aralıq) şivələri də formalaşmışdır. Qarışıq tipli şimal-qərb şivələri Şəki-Zaqatala regionunun şivələrini əhatə edir. Kür çayının sol sahilində Ağdaş, Göyçay, Ucar, Zərdab rayonlarının ərazisində, cənub-şərqdə Cəlilabad, Biləsuvar, cənub-qərbdə Cəbrayıl, Qubadlı zonalarında əsas ləhcələr arasındakı aralıq şivələr yerləşir.

Qarışıq tipli şimal-qərb şivələri (Şəki, Oğuz, Qax, Zaqatala, Balakən) əsas etibarilə yerli əhalinin şivələri ilə gəlmələrin dialektinin kontaktı nəticəsində formalaşmışdır. Bu şivələr bir sıra yerli əlamətlərlə yanaşı (şimal xüsusiyyəti, spesifik intonasiya, substrat elementlər) Azərbaycan dilinin qərb və cənub ləhcələri üçün səciyyəvi olan xüsusiyyətlərə də malikdir" (E.Əzizov, 1999, s.289-290). E.Əziziovun 1988-ci il bölgüsündə ləhcələrin adlanmasında fərqlilik 1999-cu il təsnifində özünü göstərir. 1988-ci il təsnifində şivələrin sayı çoxdur. Buraya indi Ermənistan adlanan Qərbi Azərbaycan şivələrinin, demək olar ki, hamısı daxil edilmişdir. 1999-cu il təsnifində qərb ləhcəsi, həm də orta ləhcə, şərq ləhcəsi şimal-şərq ləhcəsi, qarışıq şivələr qarışıq tipli şimal-qərb şivələri adlandırılır.

M.Məmmədli "Azərbaycan dialektologiyasına dair mühazirələr" metodik vəsaitində Azərbaycan dili şivələrinin bölgüsü ilə bağlı yazır ki, Azərbaycan dilinin əsas ləhcələri üç başlıca regionda- Kürdən şimalda (şimal- şərq ləhcəsi), Kür və Araz çaylarının arasındakı ərazilərdə (qərb ləhcəsi), Arazın sol sahili hissəsindən və Muğandan cənubda (cənub ləhcəsi) formalaşmışdır. Azərbaycanın şimal-şərq hissəsində dağlıq ərazidə qarışıq tipli şivələr (şimal-qərb şivələri), Kür çayından şimalda və Qarabağın cənub-qərb sərhədlərində (Arazdan şimalda) və Muğan zonasında aralıq şivələr yaranmışdır (M.Məmmədli, 2011, s.21).

M.Hüseynova ümumtürk dilləri kontestində türk dillərinin şivələrini "Türkcələrin dialekt bölünməsi" adı altında təsnif etmişdir (M.Hüseynova, 2020, s.188-267).

Azərbaycan dili şivələrinin təsnifində fiziki-coğrafi amil əsas rol oynayır. Məhəlli dialekt əlamətlərinin yaranması Azərbaycan ərazisində Şirvanşahlar, Şəddadilər və Rəvvadilər

dövlətlərinin yaranması ilə bilavasitə bağlı olmuşdur. Bu baxımdan E.Əzizovun gəldiyi qənaət elmi cəhətdən doğrudur: "Azərbaycan dili şivələrinin təsnifi üçün tayfa əlamətləri deyil, məhəlli prinsip əsas götürülür. Azərbaycan dilində məhəlli əlamətlərin yaranması üçün fiziki-coğrafi amillər və tarixi səbəblər olmuşdur. Məsələn, artıq IX-X əsrlərdə meydana çıxan yerli feodallıqların ərazisinə uyğun olaraq, dilin məhəlli müxtəlifliyini şərtlənldirən bəzi amillər yaranmağa başlayır. XI-XII əsrlərdə Azərbaycan ərazisində Dərbənddən Kür çayına qədər olan torpaqlarda Şirvanşahlar dövləti, Kür və Araz çayları arasında Şəddadilər dövləti və Naxçıvanşahlıq, nəhayət, Arazdan cənubda olan Azərbaycan torpaqlarında Rəvvadilər dövləti var idi. Sonrakı əsrlərdə göstərilən regionlarda inzibati bölgülər müəyyən dəyişikliklərə uğrasa da, məhəlli dialekt əlamətləri məhz həmin ərazilərdə yaranmış, əsas dialektlər (ləhcələr) fiziki-coğrafi amil çərçivəsində üç başlıca regionda – Naxçıvan daxil olmaqla Arazın sol sahili hissəsindən və Muğandan cənubda (cənub ləhcəsi), Kür-Araz çayları arasındakı ərazinin qərb və cənub-qərb hissəsində (qərb ləhcəsi və ya orta ləhcə) və Kürdən şimala olan ərazinin şimal-şərq hissəsində (şimal-şərq ləhcəsi) XVIII əsrədək tədricən formalaşmışdır" (E.Əzizov, 1999, s.283).

Azərbaycan dili şivələri feodalizmin quruluşunda yaranmışdır və şivələrimizi yaranma və formalaşmasını aşağıdakı dövrlərə bölmək olar:

1. XI-XII əsrlər. Məhəlli şivələrinin ilkin amillərinin yaranması;
2. XI-XVI əsrlər. Məhəlli şivələrinin ilkin formalaşması;
3. XVI-XVIII əsrlər. Azərbaycan dilinin məhəlli diferensiasiyasının möhkəmlənməsi nəticəsində Azərbaycan dili şivələrinin tam formalaşması.

E.Əzizov Azərbaycan dili şivələrinin təsnifatını elmi əsaslarla qruplaşdırır. Bu təsnifat artıq Azərbaycan dialektologiyasında qəbul edilir. Bununla yanaşı bir fikrimizi bildirmək istərdik. Bu da E.Əzizovun 1999-cü il bölgüsü ilə bağlıdır.

E.Əzizov Azərbaycan dili şivələrinin təsnif edərkən Qərbi Azərbaycan şivələrini daxil edir. Lakin 1999-cu il təsnifində bunu görmürük. Yəni Qərbi Azərbaycan şivələri Azərbaycan dili şivəçlərində yer almır. Məntiqi baxımdan bununla razılaşmaq olar. Çünki 1988-1990-cı illərdə indi Ermənistan adlanan Qərbi Azərbaycandan azərbaycanlılar tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Amma faktik cəhətdən Qərbi Azərbaycanın Sisyan, Meğri, Zəngibasar (Masis), Karvansaray (İcevan), Cəmbərək (Krasnoselo), Basarkeçər (Vardenis), Meğri rayonunun Azərbaycan dili şivələri monoqrafik aspektdə tədqiq edilmiş, namizədlik dissertasiyaları yazılmışdır. Eyni zamanda Qərbi Azərbaycan şivələrində ismin halları da araşdırılmışdır. Məhz buna görə də indi Ermənistan adlanan Qərbi Azərbaycan şivələrinin Azərbaycan dili şivələrinin təsnifindən kənarda qalması o qədər də məntiqi deyil. Bir də indiki Ermənistandan deportasiya olunanlar Azərbaycanda məskunlaşmışlar və onlar Qərbi Azərbaycan şivələrinin daşıyıcılarıdır.

Azərbaycan dili şivələri geniş bir ərazini – Azərbaycan Respublikasını, Cənubi Azərbaycanı, Dağıstanın Dərbənd-Tabasaran bölgəsini, İraqın Kərkük bölgəsini, o cümlıdın Gürcüstanı əhatə edir. Tarixən, yəni 1990-cı ilə qədər indiki Ermənistan ərazisində də Azərbaycan dili şivələri mövcud olmuşdur. "Azərbaycan dili şivələrinin müxtəlif areallarda yayılması xalqın tarixi ilə bağlı olan təbii bir proses sayılmalıdır" (E.Əzizov, 1999, s.282).

Zəngəzur Azərbaycanın Qubadlı, Laçın, Zəngilan rayonlarını, indiki Ermənistanın Qafan, Gorus, Sisyan və Meğri rayonlarının ərazilərini əhatə edir.

Zəngəzur coğrafi anlayış mənasında bütöv bir zonanı əhatə edən inzibati ərazi bölgüsünün adı kimi XIX əsrin ortalarında işlənsə də, Zəngəzur coğrafi məfhumuna hələ XVI

əsrdə rast gəlinir. 1593-cü ildə tərtib edilmiş “Urud və İsgəndər qalası livalarının müfəssəl dəftəri”nə görə məskun və qeyri-məskun yerlərin adları” tarixi sənəddə “Zəngəzur nahiyəsi” adında nahiyə ayrıca olaraq göstərilmişdir. XIX əsrin 20-ci illərində Azərbaycan Rusiya tərəfindən işğal olunduqdan sonra inzibati ərazi vahidlərinin adları dəyişdirilmiş, quberniyalar və quberniyalara tabe olan qəzalar yaradılmışdır.

Zəngəzur ərazisi Zəngəzur qəzası adı ilə Azərbaycanın Gəncə (Yelizavetpol) quberniyasının inzibati ərazi vahidiliyinə daxil edilmişdir və bununla Zəngəzurun Azərbaycan tarixi ərazisi olduğunu təsdiq etmiş olur. 28 may 1918-ci ildə yaradılan Azərbaycan Demokratik Respublikası dövründə də Zəngəzur inzibati vahid kimi Gəncə (Yelizavetpol) quberniyasının Zəngəzur qəzası adı ilə ADR-in ərazisinə daxil edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 iyul 2021-ci il tarixli “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Fərmanı ilə Şərqi Zəngəzur iqtisadi rayonu yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: “İyulun 7-də imzaladığım Fərman əsasında Qarabağ iqtisadi zonası yaradıldı, vəssalam. Bütün Qarabağa aid olan rayonlar orada birləşib. Şərqi Zəngəzur iqtisadi zonası yaradılıb. İndi Ermənistanda bu məsələ ilə bağlı isterikaya qapılırlar. Buna ehtiyac yoxdur, Şərqi Zəngəzur bizim tarixi torpağımızdır, Qərbi Zəngəzur bizim tarixi torpağımızdır. Biz tarixi unuda bilmərik. Kiminsə siyasi maraqlarının girovuna çevrilə bilmərik. Gəlsinlər, açsınlar tarixi sənədləri, xəritələri, baxsınlar, sovet hökuməti Zəngəzuru nə vaxt Azərbaycandan qoparıb Ermənistana verib. Bu, yaxın tarixdir - 101 il bundan əvvəl. Yəni, biz deyək ki, bu, olmayıb? Nəyə görə? Biz həqiqəti deyirik. Bizim dədə-baba torpağımızdır: bütün Zəngəzur – Şərqi və Qərbi Zəngəzur. İndi Ermənistanda deyirlər ki, İlham Əliyev ərazi iddiası ilə çıxış edir. Əgər Şərqi Zəngəzur varsa, deməli Qərbi Zəngəzur da var. Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır. Demişəm ki, biz oraya qayıtmalıyıq. Bunu hələ on il bundan əvvəl demişəm. Mənim çıxışlarım hamısı mətbuatda var. Demişəm ki, bizim dədə-baba torpağımızdır, biz oraya qayıtmalıyıq və qayıdacağıq və qayıdırıq. Heç kim bizi dayandıra bilməz. Mütləq qayıdacağıq, çünki bunun başqa yolu yoxdur”.

Zəngəzur Azərbaycan Respublikasının ərazisinin bir hissəsi kimi Azərbaycan bədii ədəbiyyatında geniş şəkildə işlədilmişdir. Bu baxımdan Əyyub Abbasovun “Zəngəzur” romanının adını çəkmək olar. Eyni zamanda, Süleyman Rəhimovun, Əli Vəliyevin povest və romanlarında Zəngəzur coğrafi məfhum olaraq geniş şəkildə işlədilmişdir.

Azərbaycanşünaslıqda Zəngəzur coğrafi adı göstərilməklə araşdırmalar aparılmışdır. Vilayət Əliyevin “Zəngəzurda qalan izimiz” (2004), Musa Urudun “Zəngəzur” (2005), A.Muradverdiyevin “Zəngəzur – tariximizin yaddaşı” (2007) kitabları yazılmışdır. Hacı Nəriman oğlu Abdulla 2018-ci ildə “Azərbaycanın Zəngəzur bölgəsinin demoqrafik vəziyyətində dəyişikliklər (XIX-XX əsrin 20-ci illəri)” mövzusunda tarix üzrə fəlsəfə doktorluğu dissertasiyası müdafiə etmişdir. Bununla yanaşı, “Zəngəzur toponimləri” elmi dövriyyədə yetərincə işlədilir. Əzəmət Rüstəmlinin “Zəngəzurun türk mənşəli yer adları (toponimiyası)” monoqrafiyasında da (2010) Zəngəzur coğrafi adı olduğu kimi göstərilmişdir. Lakin Azərbaycan dialektologiyasında “Zəngəzur” coğrafi adını özündə əks etdirən tədqiqata rast gəlinmir və Azərbaycan dili şivələrinin təsnifində “Zəngəzur şivəsi” ayrıca olaraq göstərilmir.

1964-cü ildə çap olunmuş “Azərbaycan dilinin dialektoloji lüğəti”ndə, 2007-ci ildə çap olunmuş “Azərbaycan dilinin dialektoloji lüğəti”ndə Zəngəzur şivəsi adı altında ayrıca material verilmişdir. Məsələn:

QAVSARA (Zəngəzur), is.- pətəkdən çıxmış bir neçə arını yığmaq üçün ayı gilası ağacı qabığından toxunmuş səbət – улей, лозовый плетеный улей. - *Dünən meşədə bir neçə q a v s a r a qayırdım* (ADDL, 1964, s. 104-105).

QIMZAMAQ (Zəngəzur), f.- qaldırmaq – поднимать.- *Mən dolı çuvalı q ı m z ı y a billəm* (ADDL, 1964, s. 136).

TOZANQI (Zəngəzur), s.- seyrək, narın (qar)- редкий, мелкий (снег).- *Bu axşam bir t o z a n q ı qar yağıb* (ADDL, 1964, s. 384).

Basdıx (Ordubad, İrəvan, Zəgəzur) – *un, doşab və qozdan hazırlanan çərəz* (ADDL, 2007, s. 41)

Canqa (Zəngəzur) –kök. - Hajqurban oğlu Asdan canqa adamdı (ADDL, 2007, s. 71)

Kontaylığ (Zəngəzur) – sözə baxmama. – *Onun elə kontaylığ peşəsidi* (ADDL, 2007, s. 258).

Tozanqı (Qarakilsə, Zəngəzur) –toz şəklində yağan; narın (qar). – Bu axşam bir tozanqı qar yağıb, gəl görəsən (Zəngəzur) (ADDL, 2007, s. 505)

Tozanqı düşmək (Zəngəzur) – toz şəklində qar yağmaq (ADDL, 2007, s. 505).

Yığıntı (Gədəbəy, Gəncə, Göygöl, Kürdəmir, Mingəçevir, Şəki, Zəngəzur) –nehrə çalxamaq üçün bir neçə gün yığıb saxlanılan qatıq.- Bizim bu gün yığıntımız çoxdu (Zəngəzur) (ADDL, 2007, s. 550) .

Fikrimizcə, Azərbaycan dili şivələrinin təsnifinə ayrıca Zəngəzur şivəsi daxil edilə bilər. Belə ki, Zəngəzur şivəsinə Azərbaycanın Şərqi Zəngəzur ərazisindəki Laçın, Qubadlı, Kəlbəcər, Zəngilan şivələri, indiki Ermənistan ərazisində qalmış Qərbi Zəngəzurun Meğri, Qafan, Sisyan, Gorus şivələri daxil edilə bilər.

Zəngəzurun Sisyan rayonu şivələrini Q.A.Bağırov (Ermənistan SSR Sisyan rayonunun Azərbaycan dili şivələri, Bakı, 1966), Zəngilan rayonu şivələrini S.Behbudov (Azərbaycan dilinin Zəngilan şivəsi, Bakı, 1966), Meğri rayonunun şivələrini Ə.Əliyev (Azərbaycan dilinin Meğri şivələri, Bakı, 2003), Qubadlı rayonunun şivələrini R.Abbasova (Azərbaycan dilinin Qubadlı şivələri, Bakı, 2006) araşdırmışdır. B.İbrahimovun Laçın rayonu şivələri ilə bağlı "Azərbaycan dilinin Laçın rayonu şivələrinin bəzi morfoloji xüsusiyyətləri" (Azərbaycan SSR EA Xəbərləri. Ədəb., dil və incəsənət seriyası, 1967, №1, s.69-76), "Azərbaycan dilinin Laçın rayonu şivələrinin hal şəkilçiləri" (V.İ.Lenin adına APİ-nin 1965-ci il elmi-tədqiqat işlərinin yekunlarına həsr edilmiş XXI elmi hesabat konfransının materialları, Bakı, 1966, s. 86-87), "Azəri dilinin Kiçik Qafqaz sıra dağları ətəyi (Qubadlı, Laçın və Kəlbəcər rayonları) şivələrinin leksik xüsusiyyətləri" (V.İ.Lenin adına APİ-nin professor-müəllim heyətinin və aspirantlarının Böyük Oktyabr Sosialist İnqilabının 50 illiyinə həsr olunmuş elmi sessiyasının tezisləri, Bakı, 1967, s. 35-36) məqalələri çap edilmişdir.

Göründüyü kimi, Zəngəzur şivələrinin özünəməxsüus fonetik, morfoloji, sintaktik və leksik xüsusüiyyətləri vardı. Belə bir qənaətə gəlirik ki, Zəngəzur şivələrinin elmi dövriyyəyə daxil edilməsi və Azərbaycan dili şivələrinin təsnifində Zəngəzur şivələrinin adının göstərilməsi məqsədəuyğun olardı.

Azərbaycan dili şivələrini fiziki-coğrafi əlamətlərə görə E.Əzizovun bölgüsünü əsaslanaraq aşağıdakı kimi qruplaşdırmaq olar.

1. Qərb şivələri. Bu şivələri E.Əziziov həm də orta ləhcə adlandırır. Qərb şivələri Azərbaycan Respublikasını Qarabağ, Gəncə, Qazax, Şəmkir, Gədəbəy, Tovuz, Gürcüstanın Qardabani, Marneuli, Bolnisi, Dmanisi və Qərbi Azərbaycanın Basarkeçər (Vardenis), Cəmbərək (Krasnoselo), Karvansaray (İcevan) və s. şivələri əhatə edir.

Qərb şivələri 1) Qarabağ, 2) Qazax, 3) Ayrım; 4) Borçalı, 5) Göyçə şivələr qrupuna bölünür.

2. Şimal–şərq şivələri. Bu ləhcə Bakı, Quba, Şamaxı, Dərbənd, Salyan şivələrini əhatə edir. Şimal-şərq şivələrinə həm də Xaçmaz, Şabran, Siyəzən, Sabirabad, Saatlı, Ağsu, Kürdəmir şivələri daxildir.

3. Cənub şivələri. Bu şivələr Azərbaycan Respublikasının Naxçıvan, Ordubad, Lənkəran, Lerik, Yardımlı, Cənubi Azərbaycanın Təbriz, Ərdəbil, Urmiya, Xalxal, Zəncan, Xoy, Maku, Qərbi Azərbaycanın Dərələyəz, Zəngibasar, İrəvan, Vedibasar, İraqın Türkman (Kərkük) şivələrini əhatə edir.

Azərbaycan dilində üç əsas şivələrdən əlavə üç şivə qrupu da formalaşmışdır.

1.Şimal-qərb şivələri. Bu şivələri M.Məmmədli qarışıq tipli şimal-qərb şivələri adlandırır. Bu qrupa Şəki, Oğuz, Zaqatala, Qax, Balakən şivələri daxildir.

2. Keçid şivələri. Bu şivələri A.Vəliyev keçid şivələr, E.Əziziov keçid (ara) şivələr, M.Məmmədli keçid (aralıq) şivələr adlandırır.

3.Qarışıq şivələr. Bu şivələr qrupuna Zəngəzur şivələri daxildir. Zəngəzur şivələrinə Kəlbəcər, Laçın, Qubadlı, indiki Ermənistan ərazisində yerləşən Meğri, Qarakilsə (Sisyan), Qafan, Gorus rayonunun Azərbaycan şivələri daxildir. Bu şivələr bir sıra yerli əlamətlərlə yanaşı Azərbaycan dilinin qərb və cənub ləhcələri üçün səciyyəvi xüsusiyyətlərə də malikdir (E.Əzizov, 1999, s.290).

Keçid şivələr Mingəçevir, Ağdaş, Göyçay, Ucar, Zərdab, Cəlilabad, İmişli, Cəbrayıl, Qubadlı, Qərbi Azərbaycanın Sisyan (Qarakilsə) şivələrini əhatə edir. M.Məmmədli yazır ki, dildə müxtəlif ləhcələr şivə qrupları mövcuddursa, onda əsas ləhcələr arasında keçid (aralıq) şivələr zolağı yerləşməlidir və aralıq şivələr zolağı əsas ləhcələrin sərhədlərini göstərir (M.Məmmədli, 2011, s.25-26).

A.Vəliyev göstərir ki, Göyçay keçid şivəsinə Göyçay, Ucar, Zərdab rayon şivələri (A. Велиев,1966, с..58-65) daxildir. Ağdaş keçid şivələrinə Ağdaş rayonu ilə yanaşı, Qəbələ rayonunun cənubunda və Yevlax rayonunun şimal-şərqindəki kəndəlrin şivələri (M.Məmmədli, 2011, s.26) daxildir və Ağdaş keçid şivələri şərq, qərb və şimal qrupu şivələrinin xüsusiyyətlərini özündə əks etdirir (A. Vəliyev, 1967, s.39-45). S.Behbudov Zəngilan (С.Бехбудов.Зангеланский говор Азербайджанского языка, автореф., Баку, 1966, с.3), T.Hacıyev Cəbrayıl (T.Hacıyev, 1960, s. 3-15), A.Vəliyev Ağdaş, Göyçay şivələrini keçid şivələri adlandırır və keçid şivələri cənub, qərb qrupu, şimal, şimal-şərq şivələrinin (A.Vəliyev,2005, s.26-27; M.Məmmədli, 2019, s.42-43) fonetik, qrammatik, leksik xüsusiyyətlərini daşıyır.

Qərb Şivələrinin Xüsusiyyətləri:

1.Sözün birinci hecasında **a** saitinin işlənməsi: *qaya, qardaş, yaxşı, qapax, yarpax, qaymax, harava, arxac, aralıx qavax və s.*

2.Sözün birinci və ikinci hecasında **ə** saitinin işlənməsi: *səs, kəs, dər, kəmər, dərə, çənə, qələm, inəx', dəyirman, gəlin, əməx'* və s.

3.Sözün birinci və ya ikinci hecasında **o, ö** saitlərinin işlənməsi: *o, orda, qonşu, qorux, dodax, oynamax, torva, soyux, göyçəx', köməx', böyüx', döngə, öküz* və s.

Qeyd: Qərb şivələrində sözün birinci və ya ikinci hecasında **a, ə, o, ö** saitlərin işlənməsi ədəbi dillə eyniyyət təşkil edir.

4.Qalın saitlərin ahənginin gözlənilməsi: *qayış, xalça, arı, axşam, qaysı, tutdu, qonax, harava, qoyun* və s.

5.İncə saitlərin ahənginin gözlənilməsi: *kəmər, məx'təf, görməx', köməx', gəlmişix', inəx', yeməx'* və s.

6.Dodaq ahənginin gözlənilməsi: *olar, oynaq, otdor, yoxlar, söylöm, oturmuşux, görmüşüx', görör, köçmör* və s.

7. ŋ (sağır nun) səsinin işlənməsi: *ataŋı, gəldiŋiz, oxuduŋuz, başıŋ, qonşuŋuz, dediŋ*və s.

8.Sozün ortasında və sonunda **ov** və **öv** səs birləşməsinin oy, o:, öy, ö: formasında işlənməsi: *oy, doyşan, buzoy, kösöy, yaloy, yoyşan, yalo:, bənö:şə, qoyla, oxloy, oxlo:* və s.

9.Sözün sonunda **x'** samitinin işlənməsi: *köməx', üx', ülkməx', çəxməx', çiçəx'* və s.

10.Sözün əvvəlində və ortasında **i** səsinin **ı** saiti ilə əvəzlənməsi: *ışıx, ıldırım, ılıx, ışartı, bıldır, sıçan, bıldırçın, qıryan* və s.

11.Şimal-şərq ləhcəsində **g** samiti ilə işlənən sözlərin ədəbi dildə olduğu kimi **y** samiti ilə işlənməsi: *iydə, iyirmi, düyə, döymək, dəyirmi, düyü, səyirtməx', çəyirtkə* və s.

12.Sözün ortasında **g** samitinin **y** samitinə keçməsi: *iyit, əyər, məyər* və s.

13.İsmin təsirlik halında saitlə bitən sözlərə **-nı, -ni, -nu, -nü** əvəzinə **-yı, -yi, -yu, -yü** şəkilçisinin artırılması: *qapıyı, buğdayı, nəlvəkiyi, nəniyi* və s.

14.Birhecalı sözlərin sonunda, iki və çoxhecalı sözlərin ortasında **b** samitinin **v** samitinə keçməsi: *qav, civ, div, çovan, bava, qavax, cavaf, çuvux* və s.

15.İki və çoxhecalı sözlərin sonunda **b** samitinin **f** samtinə keçməsi: *cavaf, coraf, kitaf, məx'təf, soruşuf, danışıf, deyif, alıf, gözləyif* və s.

16. Birhecalı sözlərin sonunda iki və çoxhecalı sözlərin ortasında **c** samitinin **j** samitinə keçməsi: *aj, saj, bij, gej, qoja, gejə, baja, deyəjəx', qaçajax, alajax, biləjəx'* və s.

17. **-ır,-ir, -ur,- ür** indiki zaman şəkilçisi ilə yanaşı **-er, -or, -ör** şəkilçisinin işlənməsi: *baxır, oxur, bilir, yayır, yater, gəler, vuror, tutmor, görmör, xoşdor, görör* və s.

18.Gələcək zaman **–ajax,- əjəx'** şəkilçisinin işlənməsi: *alajam, alajan, gələjəm, gələjəx'.*

19. **-mi**[4] sual ədatı ilə düzələn sual cümlələrin üstünlük təşkil etməsi: *Savah gələjəx'sənmi? Qorxorsammi?*

20.Qərb ləhcəsi üçün xarakterik olan sözlərin işlənməsi: *adax* "uşağın ilk yerişi", *adına* "cümə axşamı", *ajıxamra* "xəmir mayası", *barxana* "ev əşyaları", *bordax* "bəslənmiş, kökəldilmiş ev heyvanı", *bölmə* "nəlbəki", *qardaşdıx* "sağdış, solduş", *qoja* "nənə", *dağavar* "dağlıq, dağ havası olan yer", *dələmə* "ağartı növü", *məhrəva* " əl-üz dəsmalı" və s.

Cənub Şivələrinin Xüsusiyyətləri:

1. Sözün birinci hecasında **a** səsinin **ə** səsi ilə əvəzlənməsi: *əğ, qərə, qəyiş, əyax, qəyqənax, nəzix'* və s.

2. Burun saitlərin işlədilməsi: *dəda, gözu, oğlua, adıa, qaşuğua, qoluu, ağzıu, gəlduz, gücdüsuuz, qardaşız,, uşağız, düşsəz* və s.

3. Sözün birinci hecasında **e** səsinin **ə** səsi ilə əvəzlənməsi: *əv, dəyl, pənir* və s.

4. ŋ (sağır nun) samitinin işlənməməsi;

5. Sözün ortasında **y** samitinin əvəzinə **v** samitinin işlənməsi: *gövərçin, gövərti, gövərmək, sovux, sovmaq, sövüd, övəc* və s.

6. Sözün birinci və ikinci hecasında **ц (ts)** samitinin işlənməsi : *цay, цiцək, цaynik* və s.

7. **k** samitinin əvəzinə **ç** samitin işlənməsi: *çeçi* "keçi", *çiçix'* "kiçik", *böyüç* "böyük",

çömək “kömək”, *çüçə* “küçə” və s.

8. **g** samitinin əvəzinə **c** samitinin işlənməsi: *cedəx* “gedək”, *cülmax* “gülmək”, *cilənar* “gilənar”, *cilas* “gilas”, *cavalı* “gavalı”, *cörməx* “görmək” və s.

9. İndiki zamanın **-ıy,-iy,-ı,-i,-y,-r** şəkilçisi ilə ifadəsi: *çalıyam* “çalıram”, *çalıyex* “çalırıq”, *alıysan* “alırsan”, *gediyəm* “gedirəm”, *gedıyex* “gedirik”, *gedisən* “gedirsən”, *gedısiz* “gedirsiniz”, *tanır* “tanıyır”, *oxur* “oxuyur” və s.

10. **o** saitini **a** saiti əvəz etməsi: *davşan, qavırma, pılav, yavsan, çilav* və s.

11. Sadə cümlədə çox vaxt mübtədanın iştirak etməməsi;

12. Vasitəsiz nitqin vasitəli nitqdən çox işlənməsi;

13. Cümlənin xəbərində uzanan tonun özünü göstərməsi;

14. Cənub ləhcəsi üçün səciyyəvi olan sözlər: *ayama* “ləqəb”, *qavzamax* “qaldırmaq”, *dayıcanı* “dayı arvadı”, *məkə* “qarğıdalı”, *zır* “nəlbəki”, *mayıf* “şikəst”, *mavrı* “pişik balası”, *meviz* “qurudulmuş üzüm”, *möv* “tənək”, *mısmax* “pusmaq, güdmək”, *becərtmax* “yetişdirmək”, *kala* “yetişməmiş qovun”, *cəviz* “qoz”, *təpcəx* “belin sapına keçirilmiş xüsusi taxta” və s.

Şimal-Şərq Şivələrinin Xüsusiyyətləri:

1. **a** saitinin **e** saiti ilə əvəzlənməsi: *qeyiş, qeymağ, qeynana, qeysi, qeyin* və s.
2. **o** saitinin **u** saiti ilə əvəzlənməsi: *yurğa, qunağ, yuğun, quca, çuban, utuz, curab, buğaz* və s.
3. **a** saitini **o** saiti əvəz etməsi: *yovaş, boba, hova, boci, qovali* və s.
4. **ö** saitini **ü** saiti əvəz etməsi: *çüreg, üzgə, büyük, gügərçin, üküz* və s.
5. Ahəng qanununun gözlənilməməsi: *dayi, qapıçi, düği, üti, tülki, atdi, yazdi, daşdi* və s.
6. sağır nun (**ŋ**) samitinin işlənməməsi:
7. Sözün ortasında və sonunda **k** və ya **y** samitinin əvəzinə g samitinin işlənməsi: *ignə, gögərti, dügə, dügi, urdeg, çüreg, ügüd, əleg, inəg, igirmi, sügüd, dəgirman* və s.
8. Sozün ortasında **ı** saitin əvəzinə **i** saitinin işlənməsi: *qiz, cir, qizil, piçağ, qirmizi, qalin, qirği* və s.
9. Sözün ortasında **v** samitinin işlənməməsi: *do:şan, o:lağ, o:çi, do:ğa* və s.
10. Dörd cür yazılan şəkilçilərin iki variantda işlənməsi: *-du, -dü; -un, -ün* və s.
11. İndiki zamanın *–ır,-ir,-ur,-ür, -ad,-əd,-adı, -ədü, -avar - ə var* şəkilçiləri ilə düzəlməsi: *alır, bölür, uçır.*
12. **-ıban, -ibən, -uban, -übən, -ıbanı, -ibəni, -ubanı, -übəni** feili bağlama şəkilçisinin işlənməsi;
13. Sual cümlələrinin intonasiya əsasında düzəlməsi: *Görəsən, gəlib ola? Cavair kitabı oxudu? Aton öydədü? Ağariza, mən gidə varam, mənniğ iş var?*
14. Şimal-şərq ləhcəsi üçün xarakterik sözlər: *alayı* “başqa, özgə”, *abqora* “qora suyu”, *beçid* “tez, cəld”, *ari* “təmiz, saf”, *aylanmağ* “gəzmək, dolanmaq”, “hərlənmək”, *qora* “dəy-məmiş üzüm”, “yabanı üzüm”, *giləvar* “cənub küləyi”, *düşgün* “arıq, zəif”, *ırışmağ* “sözləşmək, höcətləşmək”, “vuruşmaq”, *xaral* “böyük kisə”, *həşəm* “küləş, yerə tökülmüş ot”, “çör-çöp”, *qənbər* “çay daşı” və s.

Qarışıq Tipli Şimal-Qərb Şivələri Şivələrinin Xüsusiyyətləri:

1. **ə** saitinin **a** saiti ilə əvəzlənməsi: *xançəl, keçal, ciyar, kalçə, yahar, inaq, çüraq* və s.
2. **ı** saitinin **u** saiti ilə əvəzlənməsi: *yasduğ, aşuğ, qatuğ, xatun, yaylux, qabux* və s.
3. **ö** saitinin **o** saiti ilə əvəzlənməsi: *bitou, hoqumat, qoqarçin, to:la, bilou* və s.
4. Sözün birinci hecasında **ə** saitinin **e** saiti ilə əvəzlənməsi: *ezgil, ekin, eyri, çorex', demir, gez, derə* və s.
5. **e** saitin **ə** saiti ilə əvəz etməsi: *vərgi, vər, pəncax, gənə, əlçi* və s.
6. **o** saitinin **a** saiti əvəz etməsi: *av, savux, tavux* və s.
7. İncə saitlərin qalın saitlərə keçməsi nəticəsində ahəng qanunun pozulması: *pençax, meyva, bilmax, gəldux, dirilıx, gidajam, verın, sənın, sızın* və s.
8. **g** samitinin **q** samiti ilə əvəz edilməsi: *qoq, qoqarti, qün, qözlər, qordu* və s.
9. **f** samitinin **p** samiti ilə əvəzlənməsi: *Qapqaz, həptə, pundux, pəhlə, pəsəlli, Patma* və s.
10. **y** samitini **q** samiti əvəz etməsi: *duqma, duqu, qoqarçin, yuqən, iqna, soqüt* və s.
11. **b** samitinin v samiti ilə əvəzlənməsi: *arava, qavıx, qavırqa, səvət, bava, çovan və s.*
12. **c** samitinin **j** samiti əvəz etməsi: *saj, güj, uj, gejə, ajı, qoja, qujax, baja* və s.
13. **habi, havı, həblə, həvlə, ho, helə, holar, hu, hun, hundam** işarə və şəxs əvəzliyinin işlənməsi;
14. **mağa, sağa** şəxs əvəzliyinin işlənməsi;
15. III şəxsin təkində **-ıtdı, -itdi** nəqli keçmiş zaman şəkilçisinin işlənməsi*: alıtdı, gəlitdi* və s.
16. Feilin xəbər şəklinin analitik formada işlənməsi: *men bilər, sen bilər, ho biler, biz biler, siz bilər, holar bilər*;
17. Feilin şərt şəklinin analitik formada ifadəsi: *men bilsə, sen bilsə, ho bilsə, biz bilsə, siz bilsə, holar bilsə*;
18. İndiki zamanda **–ıy,-iy,-uy,-üy** şəkilçisinin işlənməsi: *aliyəm, biliyəm, tutuy, çıxiy, görüy* və s.
19. İndiki zamanın durur köməkçi sözü ilə ifadəsi: *baxa durur, gələ durur*;
20. İkinci növ təyin söz birləşməsində ikinci tərəfində mənsubiyyət şəkilçisinin işlənməməsi: *baxcə dərə, baş ağrı* və s.

Keçid Şivələrinin Xüsusiyyətləri:

Ağdaş keçid şivəsində şimal qrupuna aid xüsusiyyətlər:

1) ŋ səsinin əvəzinə saitlərin burun variantının işlənməsi: əlĨn- sənin əlinin, əlĨ- sənin əlini;

2) yarımqapalı e saitinin sözün ilk hecasında işlənməsi: bey, deyirman, tezə;

3) sözün əvvəlində h samitinin işlənməsi: hələ/ həylə, hora, hindi, hasant;

4)-ıban,- ıbanı feili bağlama şəkilçilərinin işlənməsi: alıbanı, gəlibəni, durubanı və s.

Ağdaş keçid şivəsində qərb qrupuna aid xüsusiyyətlər:

1) ə > a dəyişməsi: xavər, ciyar, hayat;

2) i > ı dəyişməsi: ılxı, ışıx, pıçax;

3) sözün ortasında və sonunda v>y dəyişməsi: doyşan, yoyşan, qoyla;

4) sözün ortasında və sonunda x` səsinə üstünlük verilməsi: əppəx`, kəhlix`, bilməx`;

5) sözün ortasında və sonunda j-laşma hadisə- sinin özünə möhkəm yer tutması: bajı, balaja, ciji, güj və s. (97,s. 26-28).

Göyçay keçid şivələri isə indiki Göyçay, Ucar və Zərdab rayonlarını, Kürdəmir və Ağsu rayonlarının qərbində, eləcə də İsmayıllı rayonunun cənubunda yerləşən bir neçə yaşayış məntəqəsini də öz təsir dairəsinə alır. Göyçay keçid şivələrində əsasən şərq, qərb, qismən də şimal şivələrinin xüsusiyyətləri özünü göstərir. Göyçay keçid şivəsində şimal- şərq ləhcəsinə xas xüsusiyyətlər:

1) söz köklərində y səsinin təsiri ilə açıq a saiti daralmaqla a> e əvəzlənməsinə səbəb olur: yeylax, aleydıx və s.;

2) incələşmə hadisəsi ilə əlaqədar a > ə əvəzlənməsi baş verir: qəlin, nəzix`, qəmiş, şəftəli və s.;

3) bir sıra kənd şivələrində a > o əvəzlənməsi meydana çıxır: gomuş, popax, boba və s.;

4) Kürqırağı zonasında yerləşən bəzi kəndlərdə qalınlaşmaya meyllə əlaqədar olaraq o > u və ö > ü əvəzlənmələri özünü göstərir: unun< onun, unu/ uni< onu, un< onu, uxlo:< oxlov, qunağ< qonaq, nüqsan, güdək və s.;

5) söz ortasında və sonunda g samitinin işlədilməsinə müəyyən üstünlük verilməsi: igirmi, gög, ignə, əgri, dügi və s.;

6) Göyçayın böyük bir qismində (Ucar rayonu istisna olmaqla) ŋ samitinin işlənməməsi: ato:un/ atovun/ ato:n, atovi/ atoi və s.

7) feilin xəbər şəklinin şühudi keçmiş zamanında və eləcə də şərt şəklində II şəxs cəmdə, mənsubiyyət şəkilçili isimlərin yiyəlik və təsirlik hallarında şəkilçilərin dodaq variantının işlənməsi: aldu:z, bildu:z, alsu:z/ also:z, babu:n, babu:, nenu:, babavuzun/ babuzun və s.

8) Göyçay rayonu və İsmayıllı rayonunun cənub kəndlərində sual intonasiyalı sual cümlələrindən daha çox istifadə olunması: -Ata:zı gördü:z?;- Sava: şərə gedəsü:z? və s.

Göyçay keçid şivəsində qərb ləhcəsi üçün səciyyəvi olan xüsusiyyətlər:

1) qalınlaşma hadisəsi ilə əlaqədar olaraq əsasən alınma sözlərin ilk hecalarında ə > a əvəzlənməsi: varax, nazar, şafax, xavar və s.;

2) sözün müxtəlif məqamlarında i > ı əvəzlənməsi:cınax, sıçan, çıraq, ya:ğın və s.;

3) ü > u əvəzlənməsi: duşman, surfa, quva, umud və s.;

4) çoxhecalı sözlərdə saitlər əhatəsində və təkhecalı sözlərdə isə saitlərdən sonra sözün müxtəlif mövqelərində b > v əvəzlənməsi: qavax/ğavax, xarava, bava, div, qav və s.;

5) çoxhecalı sözlərdə saitlər arasında və təkhecalı sözlərdə isə saitdən sonra c samitinin dezaffirikatlaşmaya meyl göstərməsi nəticəsində j- laşmanın əmələ gəlməsi: baja, bajı, ajı, alajax, gej, aj, saj və s.

7) söz sonunda karlaşma hadisəsi ilə əlaqədar olaraq, Göyçayın qərb, cənub- qərb və mərkəzi hissələrində q > x əvəzlənməsinin geniş yayılması: pambıx, otax, atmax, qojalmax və s. 8) söz sonunda b>f əvəzlənməsi: məktəf, boşqaf, coraf, alıf, bilif və s.;

8) söz köklərində və mənsubiyyət şəkilçilərində velyar ŋ səsinin (Ucar rayonunun qərb və Zərdab rayonunun qərb və cənubundakı kənd şivələri) işlənməsi: ataŋ, soŋra, aldıŋız, baxırdıŋ;

9) ki bağlayıcısının dörd variantda işlədilməsi;

10) sual cümlələrinin dörd variantlı –mı sual ədatı ilə əmələ gəlməsi: Məhtəvə getdinmi?; Kitaf tapdınmı?; Uşa: gördünmü? (M.Məmmədli, 2019, s.42-43).

Zəngəzur Şivələrinin Xüsusiyyətləri

Zəngəzur şivələrinin özünəməxsus fonetik, morfoloji, sintaktik və leksik xüsusiyyətlərinə görə Azərbaycan dilinin digər şivələrindən fərqlənir.

Zəngəzur şivələrinin fonetik xüsusiyyətləri:

1. a > ə, o > a, ı > i, u>ı və başqa saitlərdə baş verən səs əvəzlənməsi: qayıt > qəyit, qapı > qəpi, qayış > qəyiş, ağız > əğiz, ayaq > əyax, qamış > qəmiş, qara > qərə, ovuc > avıc, plov > plav, qovun > qavın, qohum > qahım, xırda > xirdə, burun > bırın, armud > armıd, buzov > bızov və s.

2. Tək hecalı və sözün ortasında b > v səs əvəzlənməsi: qab >qav, dəb > dəv, cib > civ, gəbə > gəvə, qabax > qavax, baba > bava və s.

3. Tək hecalı və sözün ortasında c >j səs əvəzlənməsi: sac > saj, qoca > qoya, gecə > gejə, acıq > ajıx, və s.

4. Tək hecalı və sözün ortasında v > f səs əvəzlənməsi: ovçu > //ofçi, afçı, divar > difar, divar > tifar və s.

Zəngəzur şivələrinin morfoloji xüsusiyyətləri:

1. Sözün kökünün son hecasında sait uzun tələffüz olunduğu üçün ismin yiyəlik halında saitlə bitən sözlər -n şəkilçisini qəbul edir, samitlə bitən sözlər isə şəkilçi qəbul etmir. Məsələn: qonşu:n qǖzusu (ədəbi dildə: qonşunun quzusu), ərsi:n ucu (ədəbi dildə: ərsinin ucu), çoba:n sǖrüsü (ədəbi dildə: çobanın sürüsü), qaşı:n təzəsi (ədəbi dildə: qaşığın təzəsi).

2. Mənsubiyyət kateqoriyasında II şəxsin cəmi -ĩ:z, -ũ:z şəkilçisini qəbul edir. Məsələn: atã:z (sizin atanız), əmĩ:z (sizin əminiz), quzũ:z (sizin quzunuz), inəyĩ:z (sizin inəyiniz) və s.

3. Feilin əmr şəklinin II şəxsin təki dilimizin qədim dövründə işlənmiş -gınan, -ginən, -gunan, -günən şəkilçisi ilə ifadə olunur. Məsələn: yeginən, getginən, başlagınan, qorugunan və s.

Zəngəzur şivələrinin sintaktik xüsusiyyətləri:

1. II növ təyini söz birləşməsində II tərəf iki mənsubiyyət şəkilçisi qəbul edir. Məsələn: axşam çağısı, tuman bağısı, əmək haqqısı, meşə yolusu və s.

2. III növ təyini söz birləşməsində II tərəf iki mənsubiyyət şəkilçisi qəbul edir. Məsələn: qolxozun sədrisi, birqadanın üzvüsü, qoyunnarın üçüsü və s.

Zəngəzur şivələri üçün səciyyəvi olan sözlər Azərbaycan dilinin digər şivələrinin leksikasından fərqlənir. Məsələn: ağırrıx (Meğri) – "göz xəstəliyi", axdıcar (Zəngilan) – başqasına mənsub, baraher (Qarakilsə) – böyük düz yer, böyük sahə, cəvcə (Qarakilsə) – cəhəng, çaqqala (Qarakilsə, Zəngilan) – yetişməmiş, kal meyvə, çapo:ulçu (Laçın) – qarətçi, çapqınçı, çırpanax (Meğri, Zəngilan) – meyvə çırpmaq üçün uzun ağac, daddığ (Qafan) – yağda qızardılmış soğan; yağ-soğan, əmdərməx′ (Qarakilsə, Laçın, Zəngilan) – tökmək, aşırıb tökmək, çağal (Qubadlı) – quyruğunun ucu ağ, alabula (heyvan), qurulux (Qubadlı) – çürümüş peyin və s.

AZƏRBAYCAN DİLİNİN DİALEKTOLOJİ ATLASI

Azərbaycan dilinin dialektoloji atlasının hazırlanması dialektoloqlarımızın qarşısında duran əsas vəzifələrdən biri olmuşdur. Azərbaycan dilinin dialektoloji atlasının tərtibinin xüsusi əhəmiyyəti vardır. Azərbaycan dilinin dialektoloji atlası bir tərəfdən dilimizin və xalqımızın tarixi ilə əlaqədar bəzi problemlərin, Azərbaycan dilinin fonetik sistemi, qrammatik quruluşu və lüğət tərkibinin inkişafının bir sıra məsələlərinin aydınlaşdırılmasına, ümumxalq Azərbaycan dilinin təşəkkülü və formalaşması prosesində iştirak edən qəbilə - tayfa dilləri xüsusiyyətlərinin yayılma ərazisini və sərhədini müəyyənləşdirməyə, digər tərəfdən isə Azərbaycan dili dialekt və şivələrinin qohum dillər arasındakı mövqeyini və bunların müasir ədəbi dilə olan münasibətini meydana çıxarmağa imkan verir. Azərbaycan dilinin dialektoloji atlası eyni zamanda türk dillərinin müqayisəli ntədqiqi, eləcə də tarixçilər, etnoqraflar, arxeoloqlar üçün də qiymətli material verir. Atlas mövcud ərazidə (həm də Qərbi Azərbaycan, Gürcüstan ərazilərində- İ.B.) vaxtilə məskən salmış qəbilə - tayfaların sərhədini, müasir dialekt və şivələrin qədim qəbilə qəbilə dialektləri ilə əlaqəsini, həmçinin dialekt sərədlərinin və s. müəyyənləşdirilməyə kömək edir (M.İslamov "ADDA", 1990, s.5). .

Azərbaycan dilinin dialektoloji atlası ilə bağlı 1958-ci ildə R.Ə.Rüstəmov və M.Ş.Şirəliyevin redaktorluğu ilə Azərbaycan SSR EA nəşriyyatı "Azərbaycan dilinin dialektoloji atlasının tərtibi üçün materialların proqramı"nı nəşr etmişdir. (Tərtibçilər: Rüstəmov R.Ə, Şirəliyev M.Ş.). Proqram ümumilikdə 197 sualdan ibarət idi. 197 sulan 56-sı fonetikaya, 47-si morfilogiya və sintaksisə, 94-ü leksikaya aiddir. 1958-ci ildən başlayaraq proqramın tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının şərq rayonlarının 235 yaşayış məntəqəsindən material toplanaraq M.Şirəliyevin müəyyənləşdirdiyi izoqoloslar əsasında toplanmış materiallar xəritələşdirilmiş və 1965-ci ildə 50 xəritədən ibarət təcrübi atlas tərtib edilmişdir (Tərtibçilər: M.İ.İslamov, T.B.Həmzəyev, R.Ə.Kərimov). Azərbaycan dilinin dialektoloji atlası üçün 500-dən artıq yaşayış məntəqəsindən material toplansa da, xəritələrdə 409 yaşayış məntəqəsi əksini tapmışdır (M.İslamov, "ADDA", 1990, s.3-5).

Dialektoloji atlasın tərtibi ilə bağlı çoxlu müzakirələr aparılmışdır Elə bu məqsədlə Azərbaycan dilinin dialektoloji atlasının tərtibi pinsipləi, metodikası, xarakter xüsusiyyətləri, izoqolosların xarekteristikasına dair M.İslamovun "Azərbaycan dili dialektoloji atlasının tərtibi prinsiplərinə dair" (Oktyabr inqilabı və dilçiliyi məsələləri. Məqalələr məcmuəsi, Bakı,1969, s. 91-100), "Диалектологический атлас азербайджанского языка" (В кн.: VII региональная конференция по диалектологии тюркских языков. Маловские чтения. Тезисы докладов и сообщений. Алма-ата, 1973,с.76-78), "О методика составлении диалектологического атласа азербайджанского языка" (В кн.: Ареальные исследования в языкознании и этнографии. Тезисы третьей конференции на тему "Методика лингво- и этнографтческх исследованийи. Маргинальные и центральные ареалы". 10-12 февраля 1975, Л., 1975, с.90), "О диалектологическом атласе азербайджанского языка" (В кн.: Советская тюркология и развитие тюркских языков в СССР. Всесоюзная тюркологическая конференция. 27-29 сентября 1976 г. Тезисы докладов и сообщений Алма-ата, 1976, с.217-218), "Интерпретация некоторых фоне тических карт диалектологического атласа азербайджанского языка" (В кн.: Совещание по общим вопросы диалектологии и истории языка. (Нальчик, 21-24 сентября 1977 г.) М., 1977, с.29), "Характеристика изоголосс "Диалектологическому атласу азербайджанского языка" (В кн.: Ареальные исследования в языкознанит и этнографии. Л., 1978, с.106-107), "Диалектологический атлас азербайджанского языка" (В кн.: Языкознания:

Тезисы докладов и сообщений. Ташкент, 10-12 сентября 1980 г., Ташкент, Фан, 1980 с.73-74) məqlələri çap olunmuşdur.

"Azərbaycan dilinin dialektoloji atlası"nın tərtibi 1975-ci ildə tamamlanmış və 1990-cı ildə Elm nəşriyyatında çap olunmuşdur (Redaktorlar: M.Ş.Şirəliyev, M.İ İslamov. Müəlliflər: M.İ İslamov, Ə.Q.Ağayev, S.M.Behbudov, T.M.Əhmədov, N.X.Məmmədov, B.M.Tağıyev, Z.Ə.Xasıyev). Atlas 128 xəritədən ibarətdir. 128 xəritənin 43-ü fonetikaya (xəritə 1-43), 34-ü morfologiyaya (xəritə 44-77), 1-i sintaksisə (xəritə 78), leksikologiyaya 50-si leksikologiyaya (xəritə 79-128) həsr edilmişdir (M.İslamov "ADDA", 1990, s.28-283). "Azərbaycan dilinin dialektoloji atlası" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə 2008-ci ildə «Şərq-Qərb» nəşriyyatında təkrar nəşr olunmuşdur.



Azərbaycan dilinin dialektoloji atlası, Bakı: Elm, 1990.



Azərbaycan dilinin dialektoloji atlası, Bakı: Şərq-Qərb, 2008.

Azərbaycan Respublikası Prezidentinin 9 aprel 2013-cü il tarixli sərəncamı ilə təsdiq olunmuş **“Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nın Dövlət “Proqramının icrasına dair Tədbirlər Planı”nı bölməsinin** 6.3.5. bəndində Azərbaycan dilinin müxtəlif dialekt və şivələrinin müasir dövrün tələblərinə uyğun olaraq öyrənilməsinin təmin edilməsi dilçiliyimiz qarşısında mühüm vəzifə kimi qoyulmuşdur. AMEA Nəsimi adına Dilçilik İnstitutunda Dövlət Proqramından irəli gələn vəzifələr daxilində 2015-ci ildə Azərbaycan dilinin Naxçıvan dialektololi atlasın proqramı tərtib edilmişdir. Proqram Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələrin materialları əsasında Azərbaycan, türk, ingilis və rus dillərində tərtib olunmuşdur. “Fonetika” bölməsini K.H.İmamquliyeva, morfologiyanın “Adlar” bölməsini K.F.Quliyeva, “Feil”, “Köməkçi nitq hissələri” bölməsini Q.G.Qəmbərova, “Sintaksis” bölməsini M.Ə.Məmmədov, “Leksika” bölməsini Z.Ə.Xasiyev hazırlamışdır. Akad. Tofiq Hacıyevin redaktəsi ilə çap olunmuş bu atlas 250 xəritədən ibarətdir (tərtibçilər: K.İmamquliyeva, K.Əliyeva, Q.Qəmbərova, M.Məmmədov, Z.Xasıyev, Ə.Quliyev). 151 yaşayış məntəqəsindən toplanmış dialektoloji material əsasında hazırlanmış bu atlasın diqqətəlayiq bir cəhəti dörd dildə – Azərbaycan, türk, ingilis və rus dillərində tərtib olunmasıdır.

2015-ci ildə “Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası” 308 səhifədən ibarət olmaqla Azərbaycan, türk, ingilis və rus dillərində “Elm və təhsil” nəşriyyatında çap olunmuşdurr. Atlasda Naxçıvan Muxtar Respublikasının 220 yaşayış məntəqəsindən 151-nin şivə xüsusiyyətləri 250 xəritədə öz əksini tapmışdır. “Fonetika” bölməsini K.İmamquliyeva “Köməkçi nitq hissələri” bölmələrini Q.Qəmbərova (Xəritə 123- 175), “Sintaksis” bölməsini

M.Məmmədli (Xəritə 176-194), “Leksika” bölməsini Z.Xasiyev (Xəritə 195-245) və Ə.Quliyev (Xəritə 246-250) tərtib etmişdir.

Dialektoloji atlasda Naxçıvan Muxtar Respublikasının təbiətinə, tarixi abidələrinə, etnoqrafiyasına aid çoxlu şəkillər də yer almışdır. Dil faktlarının xəritələrdə verilməsində müxtəlif rəngli dairəciklərdən istifadə olunmuşdur. Xəritələrdə, bir qayda olaraq, ədəbi dillə uyğun gələn formalar qara rəngli dairəciklərlə işarələnmişdir. Dialekt fərqləri isə qırmızı, göy, yaşıl, sarı, bənövşəyi, qəhvəyi dairəciklərlə göstərilmişdir. Dialektoloji materiallar toplanmış yaşayış məntəqələrinin sayı rayonlar üzrə aşağıdakı kimidir: Sədərək rayonu üzrə – 4, Şərur rayonu üzrə – 37, Kəngərli rayonu üzrə – 9, Şahbuz rayonu üzrə – 20, Culfa rayonu üzrə – 23, Ordubad rayonu üzrə – 32. Dialektoloji atlasda Naxçıvan qrupu şivələrinin bütün xüsusiyyətləri deyil, bir şivəni digərindən fərqləndirən, izoqlos təşkil edən, dilimizin tarixi üçün əhəmiyyətli olan fonetik, qrammatik və leksik xüsusiyyətlər öz əksini tapmışdır. Atlasda 64 xəritə fonetikaya, 111 xəritə morfologiyaya, 19 xəritə sintaksisə, 56 xəritə leksikaya aiddir.

.



Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası, Bakı: Elm və təhsil 2015

FONETİKA

Fonetika yunan mənşəli söz olub phone (“səs”) sözü əsasında əmələ gəlmişdir və dilçilik elminin şöbələrindən biri kimi dilin səs quruluşunu öyrənir. Fonetikanın tədqiqat obyekti danışıq səsləridir. Heca, ahəng qanunu, fonetik hadisə və qanunlar, vurğu və intonasiya fonetikada öyrənilir. Fonetika həm ədəbi dilin, həm də dialekt və şivələrin xüsusi bir bölməsini təşkil edir. Ədəbi dilinin fonetikası ilə şivələrin fonetikası bir-birindən fərqlənir. Bu fərq danışıq səslərində (sait və samitlərdə), diftonqlarda, ahəng qanununda, hecada, fonetik hadisə və qanunlarda özünü göstərir.

Azərbaycan dili şivələrinin fonetikası dilimizin tarixini mühafizə etməklə yanaşı ədəbi dildən fərqlənən xüsusiyyətlərə malikdir. Bu özünü həm sait, həm də samit səslərdə göstərir. Azərbaycan dili şivələrinin fonetikasından dialektologiya ilə bağlı yazılmış namizədlik, doktorluq dissertasiyalarında, ayrı-ayrı monoqrafiyalarda, dərslik, dərs vəsaitləri və metodik vəsaitlərdə bəhs olunmuş, müasir Azərbaycan ədəbi dildən fərqli xüsusiyyətləri göstərilmişdir.

Azərbaycan dilinin şivələrinin fonetikasının tədqiqat obyekti danışıq sısləridir və bir sıra xüsusiyyətlərinə görə ədəbi dildən fərqlənir. Bu fərqləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Şivələrdə danışıq səsləri ədəbi dildən çoxdur. Ədəbi dildə 34 danışıq səsi mövcuddursa, şivələrimizdə 72 danışıq səsi var;

2. Şivələrdə sait səslərin variantlarl var;

3. Hələ ədəbi dildən fərqli olaraq şivələrimizdə uzun, qısa, burun sait səslər, diftonqlar mövcuddur;

4. Şivələrdə sait səslərin əvəzlənməsi ədəbi dildən fərqlənir;

5. Şivələrdə samit səslərin sayı ədəbi dildən çoxdur və samit səslərin variantları da mövcuddur;

6. Şivələrdə samit səslərin əvəzlənməsi ədəbi dildən fərqlənir.

SAİT SƏSLƏR

Azərbaycan dili şivələrində sait səslər və onların variantlarını 3 prinsipə görə təsnif etmək olar:

1.Dilin üfiqi vəziyyətinə görə sait səslər.

Dilin üfiqi vəziyyətinə görə sait səslər bu prinsipə görə iki yerə bölünür:

a) arxa sıra saitlər: a (a:, ã), ı (ı:, ı^{i}, ı̃, ı̆), o (o:), u (u:, ŭ, u^{1}, ũ,)

b) ön sıra saitləri: ə (ə: ə̃), i (í:, ĩ, ĩ:, ĭ), e (e:, ẽ, ẽ:, e̥), ö (ö:, ö̃: ö̃), ü (ü:, ü̃:, ǚ)

2.Dilin şaquli vəziyyətinə görə sait səslər.

Dilin şaquli vəziyyətinə görə sait səslər bu prinsipə görə iki yerə bölünür.

a) açıq saitlər: a (a:, ã), o (o:,õ), ö (ö:, ö̃),ə (ə: ə̃), e (e:, ẽ, ẽ:, e̥)

b) qapalı saitlər: ı (ı:, ı^{i}, ı̃, ı̆), i(í:, ĩ, ĩ:, ĭ), u (u:, ŭ, u^{1}, ũ,), ü (ü:, ü̃:, ǚ)

3. Dodaqların vəziyyətinə görə sait səslər. Saitlər bu prinsipə görə iki yerə bölünür.

a) dodaqlanan saitlər: o (o:), ö (ö:, ö̃: ö̃), u (u:, ŭ, u^{1}, ũ), ü (ü:, ü̃:, ǚ)

b) dodaqlanmayan saitlər: a (a:, ã), ı (ı:, ı^{i}, ı̃, ı̆), i (í:, ĩ, ĩ:, ĭ), e (e:, ẽ, ẽ:, e̥), ə (ə: ə̃).

Azərbaycan dili şivələrində sait səslər ədəbi dildən fərqlənir. Bu fərq şivələrdə uzun və qısa saitlərin olmasıdır.

Uzun Saitlər

Azərbaycan dili şivələrində uzun saitlər geniş formada işlənir. M.Şirəliyev göstərir ki, dialekt və şivələrimizin xüsusiyyətlərindən biri də uzun saitlərin geniş yayılmasıdır. Burada (şivələrdə - İ.B.) elə bir sait tapılmaz ki, onun uzun variantı olmasın (M.Şirəliyev, 1967, s. 22).

Azərbaycan dili şivələrində uzun saitlərin olmasını Azərbaycan dialektologiyasında ilk dəfə N.İ.Asmarin üzə çıxararaq “Общий обзор народных тюркских говоров гор. Нухи” (Bakı, 1926) əsərində bəhs etmiş və buna aid *qa:rı*^{i}*, a:rı*^{i}*, sa:rı*^{i}*, ya:rı*^{i}*, ba:rı*^{i} sözlərini göstərmişdir (M.Məmmədli, 2011, s.27).

Uzun saitlər türk dilləri üçün xarakterikdir və uzun saitlər mənşəyinə görə iki yerə bölünür:

1) ilkin uzanma;

2) sonrakı uzanma.

İlkin uzanma. Müasir Azərbaycan ədəbi dili üçün ilkin uzanma xarakterik deyil. A.Axundov yazır: “Əslində ilkin uzanma da öz mənşəyinə görə fonetik hadisələrlə bağlıdır və sonrakı uzanmada olduğu kimi, müxtəlif samit səslərin düşməsi nəticəsində yaranmışdır. Lakin sonrakı uzanmada bu aydın göründüyü halda, ilkin uzanmada etimoloji tədqiqata möhtacdır. Buradan belə nəticə çıxır ki, ilkin uzanma olmayan dillərdəki uzun saitlərin yerində işlənən qısa saitlərin daha uzun inkişaf tarixi vardır” (A.Axundov, 1984, s. 20).

Sözlərin birinci hecasında sait səsin uzanması türk dillərindən müasir türkmən, başqırd, yakut, xakas, Tuva dilləri üçün xarakterik haldır (M.Məmmədli, 2011, s. 28). Türkmən dilində ilkin uzanma nəticəsində sözün mənasında dəyişmə baş verir. Məsələn. *baş*-baş, *ba:ş* – yara, *qör*-gör, *qö:r*-gor. Azərbaycan dilinin şivələrində ilkin uzanma müəyyən qədər, N.Asmarinin fikrincə, Nuxa (Şəki – İ.B) dialektində qa:ri, a:rı, ya:rı, ba:rı sözlərində, V.Cangidzenin

fikrincə isə, Qazax dialektinin Dmanisi şivəsində *qa:qa, qa:rı, da:yı, a:ŋrı, qa:x* sözlərində (В.Джангидзе, 1965, s. 10) özünü göstərir. Bununla belə Qubanın Alpan, Zigik, Mirzəməmmədkənd şivələrində işlənən *be:yil* (bədənin müəyyən hissəsi), Birinci Nügədi kənd şivəsində işlənən *o:xur* (axur), *go:muş* (camış), *a:rı*^{i} (təmiz), İqriq şivəsində işlənən *qa:dın* sözlərində ilkin uzanmanın olması qeyd olunur .

Saitlərin ilkin uzanmasına Qazaxın bəzi şivələrində (*da:rı, pa:lıt, a:dı, qa:rı),* İraq-türkman ləhcəsində (*a:lısız, a:tiram, ye:di, ke:çtim, i:ndim* (endim), *o:tu* (otur), *gö:zum* (görük), *ge:tdi* və s.) rast gəlinir.

Sonrakı uzanma. Azərbaycan dili şivələrində saitlərin sonrakı uzanması xarakterikdir və geniş yayılmışdır. Sonrakı uzanma sözlərdə *b, v, ğ, d, z, k, y, m, ŋ, n, l, h, q, r, g* samitlərinin düşməsi nəticəsində baş verir. Sonrakı uzanmanın dilimizin tarixi ilə bağlı hadisə olduğunu göstərən E.Əzizov yazır: “Orta əsrlər Azərbaycan dili şivələrində saitlərin sonrakı uzanması yayılmış hadisə idi. Saitlərin sonrakı uzanması hadisəsinin şivələrdə tarixən mövcud olması yazılı abidələrin faktları ilə təsdiq olunur. Səs düşümü nəticəsində saitlərin sonrakı uzanmasının əmələ gəlməsi müasir Azərbaycan dili şivələrinin səciyyəvi xüsusiyyətlərindəndir” (E.Əzizov, 1999, s. 131).

a səsi. Uzun **a** sait səsi türk dillərində, o cümlədən Azərbaycan dilində və alınma sözlərdə özünü göstərir. **a** səsinin uzanması aşağıdakı hallarda baş verir:

1) **n** səsinin düşməsi nəticəsində: *ha:sı “hansı” (Quba, Qazax, Çəmbərək), ya:nda “yanında” (Qazax, Naxçıvan), ma:t “manat” (Bakı, Naxçıvan), Ta:rı “Tanrı” (Cəbrayıl, Meğri, İraq), Xa:m “Xanım” (Şəki) və s.*

2) **ğ** səsinin düşməsi nəticəsində: *sa:lığ “sağlıq”(Bakı), qəra:n “qarağan”, qəra:c “qarağac” (Meğri), da:lıx “dağlıq”, aşa: “aşağı”, qıra: “qırağa” (Şəki), a: “ağa”, əşa: “aşağı” (Təbriz), a:rı “ağrı” (Cəbrayıl), ka:z “kağız“ (Cəbrayıl, Təbriz), ça:r “çağır” (Şəki, Çəmbərək) və s.*

3) **h** səsinin düşməsi nəticəsində: *sega: “segah” (Quba, Çəmbərək), da: “daha” (Naxçıvan, Qazax, İraq, Təbriz, Çəmbərək), ma:nı “mahnı” (İraq), yə:r “yəhər” (Təbriz) və s.*

Bu fonetik hadisə şivələrimizdə şəxs adlarda da müşahidə olunur. Məsələn: *Şa:bala “Şahbala” (Quba), Şa:bəyim “Şahbəyim”, Şa:baz “Şahbaz”, Şa:murat “Şahmurat”, Ça:ngir “Cahangir” (Meğri), Şa:verdi “Şahverdi”, Şa:sevən “Şahsevən” (Naxçıvan, Ordubad), Şa:gəldi “Şahgəldi” (Naxçıvan) və s.*

Şəki şivəsində bəzi ərəb və fars mənşəli sözlərdə **h** səsinin düşməsi nəticəsində **a** səsi uzanır: *ba:dı “bahadır”, güna: “günah”.*

4) **l** səsinin düşməsi nəticəsində: *a:r “alır” (Şəki), sa:mmeykim “salammeleykim” (Meğri).*

5) saitlə bitən sözlərə yönlük hal şəkilçi artırılanda **y** samitinin düşməsi nəticəsində: *ora: “oraya”, tala: “talaya”, ça: “çaya”, dava: “davaya” (Çəmbərək) və s.*

6) ikihecalı sözlərdə ikinci hecanın əvvəlində işlənən **y** samitinin düşməsi nəticəsində: *da:z “dayaz”, ha:n “hayan”, da:n “dayan”, pa: “paya”, ma: maya, qa: “qaya” (Ağcabədi, Şəki), Sa:lı “Sayalı” (Çəmbərək), ha:t “həyat”, ba:x “bayaq”<indi (Ağcabədi) və s.*

7) ərəb və fars mənşəli sözlərdə ع **(eyn)** səsinin əvəzinə uzun saitin işlənməsi nəticəsində: *cama:t “camaat”, sa:t “saat”, da:va “dava”, a:lim “alim”, ma:vin “müavin”, ma:licə “müalicə” (Qazax, Quba, Naxçıvan, Ordubad, Dərbənd, Şəki, Çəmbərək) və s.*

8) Qərbi Azərbaycanın Çəmbərək şivəsində “ay” çağırış nidası **a** saiti ilə başlayan adlarla bitişik tələffüz olunarkən **y** samitinin düşməsi və **a** saitlərinin birləşməsi nəticəsində” (Ş.Kərimov, 2004, s. 28) **a** saiti uzun tələffüz olunur: *A:lı “Ay Alı”, A:bbas “Ay Abbas”, A:sdan “Ay Asdan”, A:dılla “Ay Avdılla” və s.*

Uzun **a** saiti “Kitabi-Dədə Qorqud” dastanında dialekt faktı kimi özünü göstərir və bu fonetik hadisə “**y**” samitinin düşməsi nəticəsində əmələ gəlir: **ara:n** “arayın”, **bağla:n** “bağlayın”, **qapa:n** “qapayın” (E.Əzizov, 1999, s. 131).

9) Təbriz şivəsində ismin yiyəlik və yönlük hallarında, II şəxsdə mənsubiyyət şəkilçisi qəbul etmiş sözlərdə, mənsubiyyət şəkilçili isimlərin və məsdərlərin hallanmasında, şühidi keçmiş zamanın və şərt şəklinin II şəxsin cəmində, indiki və gələcək zamanın I şəxs təkində **a** saiti uzun tələffüz olunur. Məsələn: *qaba:n “qabağın”* (yiy.hal,) *ota: “otağa”* (yön.hal), *uşa:n “sənin uşağın”* (mənsubiyyət şəkilçisi), *getma:na “getməyinə”, atışma: “atışmağa”* (yön.hal), *buyursa:z “buyursanız”* (II şəxsin cəmi), *axta:ram “axtarıram”* (indiki zaman), *gələca:m “gələcəyəm”* (gələcək zaman).

ı səsi. Azərbaycan dili şivələrində **ı** səsinin uzun tələffüzü xarakterik deyil və bir o qədər də geniş yayılmamışdır. Bu səbəbdən şivələrimizdə **ı** səsinin uzun tələffüz edilməsinə az rast gəlinir və aşağıdakı hallarda müşahidə olunur.

1) ismin yiyəlik halında **n** samitinin düşməsi nəticəsində: *ağzı:n “ağzının”, atı:n “atının”, hamsı:n “hamısının” (Şəki) və s.*

2) **ğ** samitinin düşməsi nəticəsində: *cı:r “cığır”<iz, yı:rıx “yığırıq” (Şəki) və s.*

3) indiki saman şəkilçisindəki **r** samitinin düşməsi nəticəsində: *qı:llar “qlırırlar”, yandı:r “yandırır” (Şəki) və s.*

4) ismin təsirlik hal şəkilçisindəki saitin düşməsi nəticəsində: *qarğı:y “qarğını”, darı:y “darını”, bajı:y “bacını”, çırpı:y “çarpını”, qamçı:y “qamçını” (Çəmbərək) və s.*

5) **l** samitinin zəifləməsi nəticəsində. Belə bir xüsusiyyət Şəki şivələrində feillər nəqli keçmiş zamanın III şəxsində (tək və cəmdə) işləndikdə müşahidə olunur. Məsələn: *dağı$^{-l}$:tdı: “dağılıtdı <dağılmışdı”, qırı:$^{-l}$ıtdılar “qırılıtdılar<qırılmışlar”, cırı:$^{-l}$tdılar “cırılıtdı<cırılmışdır”* (M.İslamov, 1968, s. 7).

o səsi. Şivələrimizdə **o** səsinin uzun tələffüz edilməsi müxtəlif fonetik şəraitdə özünü göstərir.

1) **o** səsindən sonra gələn **v** samitinin düşməsi nəticəsində: *do:ğa “dovğa”, do:şan “dovşan” (Bakı, Muğan, Şəki, Qazax, Quba, Dərbənd, Dmanisi), ço:max “çovumaq”, çö:ş “çovuş” (Şəki), ço:ğun “çovğun” (Bakı, Muğan, Şamaxı), bizo: “buzov” (Bakı, Naxçıvan), qaşo: “qaşov” (Bakı, Şamaxı, Qarabağ, Gəncə), qo:lamax “qovalamaq”, bilo: “bülöv”, qəco: “qəcov”, mığro: “mığrov” (Naxçıvan), ho:z “hovuz” (Təbriz, Şəki), o:dan “ovdan” (Bakı), o:lax “ovlaq” (Qazax, Meğri), so:rux “sovruq” (Qazax), so:qat “sovqat“ (Dmanisi) və s.*

2) **y** samitinin düşməsi nəticəsində: *sö:t “söyüd” (Təbriz), to:x “toyuq”, so:x “soyuq”, so:du “soydu” (Qazax), so:ğ “soyuq” (Quba, Çəmbərək), to:ğ “toyuq” (Çəmbərək), so:r “soyur” (Basarkeçər, Çəmbərək) və s.*

3) **n** samitinin düşməsi nəticəsində: *do:z “donuz” (Bakı, Təbriz), so:ra “sonra” (Bakı, Qazax, Dərbənd) və s.*

4) **h** samitinin düşməsi nəticəsində: *qo:m “qohum” (Qazax, İraq).*

5) **ğ** samitinin düşməsi nəticəsində: *o:lan “oğlan” (Dmanisi), yo:r “yoğur”, o:llux “oğulluq”, bo:rux “boğuruq” (Şəki), to:lu “toğlu” (Meğri, Basarkeçər) və s.*

6) **r** samitinin düşməsi nəticəsində: *qo:xur "qorxur" (Şəki).*

7) Şəkinin Qışlaq və Qoxmuq şivələrində ***l*** samiti ilə bitən feillər nəqli keçmiş zamanın tək və cəmində işləndikdə ***l*** səsinin zəifləməsi nəticəsində **o** səsi uzun tələffüz edilir. Məsələn: *o:*$^{-l}$*dı "oldu", do:*$^{-l}$*tdı "doldu".* Eyni zamanda müasir Azərbaycan ədəbi dilində **ö** ilə deyilən sözlər Azərbaycan dilinin bəzi şivələrində **o** ilə deyilir və bu vaxt **n** və **v** samitinin düşməsi nəticəsində **o** səsi uzun tələffüz olunur. Məsələn: *to:ba "tövbə", ko:l "könül" (Meğri), no:bə "növbə", co:hər "cövhər", go:hər "gövhər", Şo:kət "Şövkət", No:rəstə "Növrəstə" (Naxçıvan).*

8) saitlə bitən hər hansı bir sözə **o** saiti ilə başlanan sözün qoşulması nəticəsində: *no:lu "nə olur", baco:ğlu "bacıoğlu" (İraq), no:lsun "nə olsun", no:lub "nə olub" (Bakı, Şamaxı, Muğan, Çəmbərək, Meğri), nejo:ldu "necə oldu" (Qazax,* Dmanisi, Çəmbərək), *no:ldu* "nə oldu" (Qazax, Naxçıvan, Dmanisi, İraq, Çəmbərək, Meğri), *no:lsuŋ* "nə olsun" (Çəmbərək), no:lecex′ "nə olacaq" (Meğri), *no:lar* "nə olar", *no:olsun* "nə olsun" (Naxçıvan, Çəmbərək) *və s.*

9) **- yev** şəkilçisi ilə formalaşan soyadlarda **v** samitinin düşməsi nəticəsində **o** saiti uzun tələffüz olunur. Bu hal əsasən Quba şivəsi üçün xarakterikdir. Məsələn: *Mısayo: "Musayev", Həcıyo: "Həciyev", Əliyo: "Əliyev" və s.* M.Şirəliyev yazır: "Uzun o səsinə, ümumiyyətlə, Naxçıvan qrupu dialekt və şivələrində az təsadüf edilir. Bu ondan irəli gəlir ki, uzun **o** səsinin əmələ gəlməsi üçün **v** səsinin düşməsi Naxçıvan qrupu dialekt və şivələri üçün səciyyəvi hal deyildir. Naxçıvan qrupu dialekt və şivələrində v səsi şərq qrupu dialekt və şivələrinə nisbətən möhkəmdir. Məsələn, şərq qrupu dialekt və şivələrində alo://halo:, buzo:, buxo:, do:şan, No:rız//No:ruz, oxlo:, Naxçıvan qrupu dialekt və şivələrində halax//alav//alov, buzov, bıxov// bıxav, davşan, Navrız, oxlav//uxlav (Naxçıvan qrupu şivələri,1962, s. 16).

10) Qazax şivəsində, eləcə də qərb qrupuna daxil olan Borçalı şivələrində - **or** indiki zaman şəkilçisinin tərkibində **o** saiti uzun tələffüz olunur. Məsələn: *vuro:r "vurur", tuto:r "tutur" (Qazax, Dmanisi).*

Qədim Azərbaycan dilində, Nəsiminin, Füzulinin və yazılı abidələrimizin dilində "uzun **o** saiti söz ortasında **y, v, n** səslərinin, söz sonunda **y** samitinin düşməsi nəticəsində meydana çıxır: qomadı, qomağım, qo, qoŋ, qoŋur, qosaŋ, qodılar, qodı (KDQ), qomaz, qomışam, qodi, qo (Nəsimi), qoodi, qormi, qomadıŋ ("Əsrarnamə"), qorsan (Həbibi), qo, qoma, qorlar, qoman, qomaz, qomuş, sora (Füzuli), obaş<ovbaş (Rəhməti) (E.Əzizov, 1999, s. 133).

u səsi. Azərbaycan dili şivələrində **u** səsinin uzun tələffüz edilməsi aşağıdakı hallarda müşahidə olunur.

1) **y** samitinin düşməsi nəticəsində: *yu:ruğ "yuyuruq", su:n "suyun" yu:m "yuyum" (Bakı, Şamaxı, Muğan), yu:r "yuyur" (Çəmbərək) və s.*

2) **n** samitinin düşməsi nəticəsində: *u:n "onun" (Bakı, Naxçıvan), oğlu:n "oğlunun", başu:z "başınız" (Bakı), qulağu:z "qulağınız" (Bakı, Şamaxı, Muğan), gəlirsu:z "gəlirsiniz", dimusu:z "demisiniz", yeru:z "yeriniz", hammu:z "hamınız", toyu: "toyun", əynu: "əynin", dilu: "dilin" (Şəki), su:ra "sonra" (Meğri, Quba) və s.*

3) **ğ** samitinin düşməsi nəticəsində: *qurdu:m "qurduğum" (Qazax).*

4) **r** samiti ilə bitən feillər indiki zamanda işləndikdə zaman şəkilçisinin düşməsi nəticəsində **u** uzun tələffüz olunur. Məsələn: *otu:r "oturur", vu:r "vurur", du:r "durur" (Şəki) və s.*

5) **o, bu** və Şəki şivəsində o şəxs əvəzliyinin qarşılığı kimi işlənən **hu** əvəzliyinin yiyəlik halda işlənməsi nəticəsində: *u:n "onun", hu:n "onun", bu:n "bunun" (Şəki) və s.*

6) **öz** təyini əvəzliyin II şəxsin cəminin mənsubiyyət şəkilçisi qəbul etməsi nəticəsində: *özu:z "özünüz" (Bakı, Şəki) və s.*

7) Şəki şivəsində sözün tərkibində **r** samitinin zəif tələffüz edilməsi nəticəsində: *vu:$^{-r}$tdı<vurmuşdu, otu:$^{-r}$tdı "oturmuşdur" du:$^{-r}$dı "durmuşdur".*

8) **v** samitinin düşməsi nəticəsində: *tu:ba^{ə} "tövbə" (Meğri).*

9) bəzi alınma sözlərdə yanaşı saitlərdən birinin düşməsi nəticəsindəə: *şu:r "şüur" (Meğri).*

10) Ərəb mənşəli sözlərin tələffüzü nəticəsində: *tu:fan "tufan", ifu:net "üfunət", Su:ra "Sura" (Bakı, Şamaxı, Quba, Lənkəran, Muğan), şu:ra "şura" (Qazax), Yu:suf "Yusif", Tu:rə "Turə" (Quba).* "Bu sözlərdəki uzanma heç bir fonetik dəyişikliklə bağlı deyildir. **u:** həmin sözlərin mənsub olduğu dilin tələffüz xüsusiyyəti ilə əlaqədardır" (R.Rustəmov, 1961,s. 17).

11) mənsubiyyət şəkilçili isimlərin hallanması zamanı II şəxsin təkində və cəmində. Bu vaxt bəzi hallarda mənsubiyyət şəkilçisinin düşməsi halları baş verir. Məsələn: *ağzu: "sənin ağzını", adu: "sənin adını", evu: "sənin evini", bağu:z "sizin bağınızı", bağu:zda "sizin bağınızda", qolu:z "sizin qolunuz" (İraq), özü: "özün", qıçu: "qıçın", qapu: "qapın", yolu:z "yolunuz" (Təbriz).*

e səsi. Uzun ***e*** səsi aşağıdakı fonetik şəraitdə özünü göstərir.

1) sonu saitlə bitən feillərin indiki zaman şəkilçisi qəbul etməsi nəticəsində: *de:r "deyir", ye:rdıx "yeyirdik" (Ordubad, Naxçıvan), de:rəm "deyirəm", de:rsən "deyirsən", ye:rsən "yeyirsən", bite:rsə "bitirirsən" (İraq) və s.*

2) **y** samitinin düşməsi nəticəsində: *ye:lən "yeyilən" (Ordubad), ye:n – ye:n "yeyin-yeyin" (Naxçıvan, Çəmbərək), ye:cəx' "yeyəcək" (Naxçıvan), yeme:m "yeməyim" (Qazax), xe:r "xeyir" (İraq), ye:blər "yeyiblər" (Bakı), ye:n "yeyin", be:n "beyin" (Təbriz), he:ran "heyran", çe:nəməx "çeynəmək" (Cəbrayıl), ce:ran "ceyran", me:və "meyvə" (Sabirabad, Şirvan, Salyan, Cəbrayıl), pe:n "peyin" (Çəmbərək), çe:lex' "çiyələk", de:ş "dəyiş", de:rman "dəyirman", te:m<teyim "tez" (Şəki) və s.*

3) saitlə bitən sözə saitlə başlanan sözün artırılması nəticəsində: *ne:lədin <neylədin "nə elədin" (Çəmbərək, Naxçıvan), ne:tdiy "nə etdik", ne: dir "nə edir", ne:tsin "nə etsin" (İraq), ne:lədin "nə elədin" (Naxçıvan), ne:lədi "nə elədi", ne: lir "nə edir" (Çəmbərək).*

4) **h** samitinin düşməsi nəticəsində: *e:tiram "ehtiram", e:tiyac "ehtiyac" (Quba), Me: ti "Mehdi" (Çəmbərək) və s.*

5) sözün əvvəlində **e** səsi işlənən ərəb mənşəli sözlərin əslinə uyğun formada tələffüz nəticəsində: *e:tibar "etibar" (Quba, Təbriz, İraq), e:timad "etimad", e:dam "edam" (İraq, Təbriz), e:tiraz "etiraz" (Quba, Təbriz) və s.*

6) Qazax, Basarkeçər, Borçalı şivələrində işlənən - **er** indiki zamanı şəkilçisinin tərkibində **e** saiti uzun tələffüz olunur: *ale:ram "alıram", bile:rsə "bilirsən", vere:rik "veririk", de:rsən "deyərsən" (Qazax, Dmanisi), de:r "deyir", ye:r "yeyir", bağle:rıx "bağlayırıq" (Qazax, Çəmbərək), gəle:rəm "gəlirəm", bile:rəm "bilirəm", tike:rəm "tikirəm", yaze:rsan "yazırsan" (Basarkeçər) və s.*

7) indiki zaman şəkilçisi qəbul etmiş feillər II şəxsin təkində işlənərkən zaman şəkilçisinin tərkibindəki sait və samitin düşməsi nəticəsində: *uzane:sən "uzanırsan", döye:sən "döyürsən", gede:sən "gedərsən" (Meğri) və s.*

8) indiki zaman şəkilçisi qəbul etmiş feillər I şəxsin təkində və cəmində işlənərkən zaman şəkilçisinin tərkibindəki sait və samit səsin düşməsi nəticəsində: *əke:m "əkirəm",*

göre:x "görürük" (Meğri) və s.

9) sonu samitlə bitən feillər indiki zamanda işləndikdə **r** samitinin düşməsi nəticəsində: *ve:r "verir" (Şəki) və s.*

10) sonu samitlə bitən feillər gələcək zamanın inkarında işləndikdə: *diyanıme:cegəm "deyə bilməyəcəm", alme:ceq "almayacaq" (Bakı) və s.*

11) sonu samitlə bitən feillər indiki zamanda işləndikdə **d** samitinin düşməsi nəticəsində: *ge:r "gedir" (Şəki) və s.*

12) **bu** işarə əvəzliyinə **gecə** sözünün qoşulması nəticəsində: *be:jə "bu gecə" (Qazax, Çəmbərək), be:yjə "bu gecə" (Çəmbərək) və s.*

Orta əsr ədəbi dilimizdə uzun e saiti saitlə bitən və saitlə başlayan sözlərin bitişik tələffüzü zamanı iki saitin qovuşması yolu ilə əmələ gəlir: nedəlim (Füzuli), netdim, netdin, netdi, nedərdi (Fədai) (E.Əzizov, 1999, s.132).

ə səsi. Azərbaycan dili şivələrində **ə** saitinin uzun tələffüz olunması aşağıdakı fonetik şəraitdə baş verir.

1) **y** samitinin düşməsi nəticəsində: *də:rman "dəyirman" (Təbriz, Qazax, Cəbrayıl, Çəmbərək), sə:rtməx "səyirtmək" <atı sürətlə qaçırtmaq, hə:t "həyat", lə:n "ləyən", də:n "deyən", lə:lğa "ləyəlğa"<ayama, də:jəm "deyəcəm", çə:ləm "çiyələm", bə:m "bəyəm"<məgər, ə:r "əyər"<əgər (Qazax, Cəbrayıl,* Çəmbərək), zə:rəx' "zəyərək", küsə:ən "küsəyən" (Çəmbərək), də:sən "deyəsən", yə: sən "yeyərsən" (Qazax, Cəbrayıl), də:l "deyil" (Naxçıvan, Ordubad, Cəbrayıl), yə:si "yiyəsi" (Qax, Cəbrayıl, Çəmbərək*), qə:r "qayır"< düzəlt (Şəki), də:rmi "dəyirmi" (Şəki, Təbriz, Çəmbərək), Te:mir "Teymur" (Meğri, Çəmbərək), yə:rdığ "yeyərdik", də:rkən "deyərkən" (İraq) və s.*

2) **nə** sual əvəzliyinə **g** samiti ilə başlanan söz qoşularkən **g** samitinin düşməsi nəticəsində*: nə:zirdi "nə gəzirdi", nə:lirdi "nə gəlirdi" (Qazax), nə:tirəssən "nə gətirəcəksən" (Cəbrayıl), nə:lif "nə gəlib" (Cəbrayıl, Çəmbərək) və s.*

3) yönlük halda işlənən sözə **g** samiti ilə başlanan söz qoşularkən **g** samitinin düşməsi nəticəsində: *əmələ:lip "əmələ gəlib", ələ:lmer "ələ gəlmir" (Meğri).*

4) **h** samitinin düşməsi nəticəsində: *ətbə:ri "ətbəhri" <uşaq xəstəliyi (Quba), yə:r "yəhər", kə:r "kəhər" (Qazax, Təbriz, Çəmbərək) və s.*

h samitinin düşməsi nəticəsində **ə** samitinin uzun tələffüz edilməsi ərəb və fars mənşəli sözlərdə də özünü göstərir. Məsələn: pə:livan "pəhləvan", mə:sil "məhsul", və:şilix'"vəhşilik" (Qazax), şə:r "şəhər", tə:r "təhər" (İraq, Quba, Meğri, Şəki, Bakı, Şamaxı, Muğan, Naxçıvan, Ordubad, Qazax, Çəmbərək, Ağstafa*), mə:lə "məhəllə", zə:mət "zəhmət", də:liz "dəhliz" (Bakı, Şamaxı, Muğan, Qax, Naxçıvan, Ordubad), zə:lə "zəhlə" (Bakı), mə:kəmə "məhkəmə" (Bakı, Şamaxı, Salyan, Naxçıvan, Ordubad, İrəvan, Çəmbərək, Basarkeçər, Borçalı), məslə:t "məsləhət" (Dmanisi, Çəmbərək), mə:ni "mahnı", pə:riz "pəhriz" (İraq) və s.*

5) iki müxtəlif mənalı sözün yanaşması nəticəsində: *ə:ğüstə "ayaq üstə" (Qazax, Çəmbərək).*

6) **n** samitinin düşməsi nəticəsində: *tüə:k "tüfəng" (Qazax), gə:şmax "gənəşmək"<məsləhətləşmək (Təbriz), mə:m "mənim", sə:n "sənin" (Quba, Naxçıvan, Bakı, Şamaxı, Muğan, Şəki, Qazax, Çəmbərək), də:z "dəniz" (Bakı, Şamaxı, Muğan), mə: "mənə", sə: "sənə" (İraq, Şamaxı, Muğan, İrəvan, Şəki), mə:ki "mənimki", sə:ki "səninki" (Şəki), mə:mçün "mənim üçün", sə:nçün "sənin üçün" (Quba) və s.*

7) ismin yönlük halında işlənən isim və məsdərlərdə **y** samitinin düşməsi nəticəsində: *Çəmbərə: "Çəmbərəyə", çərtdə: "çərtdəyə", biçənə: "biçənəyə", ələ: "ələyə", meşə: "meşəyə", demə: "deməyə", yemə: "yeməyə", üzmə: "üzməyə" (Çəmbərək) və s.*

8) I şəxsin tək və cəmində gələcək zamanın inkarında işlənən feillərdə **y** samitinin düşməsi nəticəsində: *yeməcə:m "yeməyəcəyəm*", görmüyə:cəm "görməyəcəyəm", demiyə:cəm "deməyəcəyəm", istəməyə:cəx' "istəməyəcək", dinləmiyə:cəx' "dinləməyəcək", görmüəyə:cəx' "görməyəcək" (Çəmbərək) və s.

9) **ay** nidası ilə müraciət mənasında işlənən **ə** saiti ilə başlanan şəxs adlarında **y** samitinin düşməsi nəticəsində: *Ə:li "ay Əli", Ə:ləsgər "ay Ələsgər", Ə:səd "ay Əsəd", Ə:mrulla "ay Əmrulla", Ə:hmət "ay Əhməd" (Çəmbərək) və s.*

10) **q** samitinin düşməsi nəticəsində: *də:ğə "dəqiqə" (Bakı, Şamaxı, Naxçıvan, Ordubad, Dərbənd), nə:rirsən "nə qayırırsan"<nə edirsən (Meğri), də:qə "dəqiqə" (Naxçıvan, Quba), sə:qal "saqqal" (İraq) və s.*

11) **d** samitinin düşməsi nəticəsində: *o qə:r "o qədər" (Naxçıvan, Zəngibasar, İrəvan).*

12) **nə** sual əvəzliyinə **əcəb** sözünün qoşulması zamanı iki saitin yanaşı gəlməsi nəticəsində: *nə:cəb "nə əcəb" (Bakı), nə:jəf "nə əcəb" (Qazax) və s.*

12) yönlük halda işlənən şəxs əvəzliyinə **g** samiti ilə başlanan feilin qoşulması nəticəsində: *bizə:l "bizə gəl" (Qazax, Çəmbərək), sizə:lirəm "sizə gəlirəm" (Çəmbərək) və s.*

13) **z** samitinin düşməsi nəticəsində: *Ə:z "Əziz", Zə:zid "Zəyzid" (Şəki).*

14) ***l*** samitinin düşməsi nəticəsində: *Xə:l "Xəlil", Cə:l "Cəlil" (Şəki, Meğri), gə:r "gəlir", hərrə:mex "hərləmək" (Şəki) və s.*

15) **r** saitinin düşməsi nəticəsində: *xəstələ:nəm "xəstələnərəm", və:r "verir" (Şəki), də:rəm "dərirəm", sə:rəm "sərirəm" (Basarkeçər).*

16) **m** samitinin düşməsi nəticəsində: *ə:m "əmim" (Şəki).*

17) feilin vacib şəklində ***l*** samitinin zəifləməsi nəticəsində: *gə:^{l}tdi "gəlitdi"<gəlmişdir, getmə:^{l}di "getməlidir", görmə:^{l}di "görməlidir" (Şəki) və s.*

18) **i** səsinin düşməsi nəticəsində: *ə:zzim "əzizim" (Meğri).*

20) müraciət bildirən **ə** nidası ilə **kişi**, **gədə** (oğlan mənasında) və **qız** sözlərinin birləşməsi əsasında formalaşan sözlərin tələffüzü nəticəsində: *ə:şi "ə kişi"<ay kişi, ə:də "ə gədə"<ay oğlan , ə:z "ə qız"<ay qız (Meğri).*

Qədim abidələrimizdə, orta əsr ədəbi dilimizdə uzun **ə** səsi söz kökündə və köklə şəkilçi arasında işlənən y, g, h samitlərinin düşməsi nəticəsində meydana çıxır: **döşə:n**<döşəyin, **dinlə:n**<dinləyin, dua **eylə:n**<dua eyləyin, pay **dilə:n**< pay diləyin (KDQ), fərq **eylə:n**< fərq eyləyin (Nəsimi), **söylə:n**<söyləyin (Xətai), **söylə:n**<söyləyin (Füzuli), **eylə:niz**<eyləyiniz ("Şuhədanamə"), **şə:r**<şəhər (Q.Burahanəddin), **nə:n** nəyin, **ə:r**<əgər (Füzuli) [E.Əzizov,1999, s. 131].

i səsi. i saitinin uzun tələffüz edilməsi aşağıdakı fonetik şəraitdə özünü göstərir.

1) **y** samitinin düşməsi nəticəsində: *i:nə "iynə" (Bakı, Qazax, Quba, Muğan, Şamaxı, Şəki), i:də "iydə" (Bakı, Ordubad, Muğan), mi:və "meyvə" (Naxçıvan), i:nəməx' "iyləmək" (Ordubad), si:rtmə "siyirtmə" (Cəbrayıl), çi:t "çiyit" (Sabirabad, Şirvan, Salyan, Cəbrayıl), ci: "ciyi"<ana (Şəki), zi:l "ziyil" (Təbriz), i:si "iyisi" (Dmanisi), i:rmi "iyirmi" (İraq, Qazax, Təbriz, Dmanisi, Naxçıvan) və s.*

2) sonu saitlə bitən sözlərə saitlə başlanan şəkilçi artırılanda bitişdirici samit kimi iştirak edən **y** samitinin düşməsi nəticəsində: *neyni:m "neyləyim" <nə eləyim, yi:blər "yeyiblər", yi:b "yeyib", isdi:r "istəyir" (Bakı, Şəki), yi:p "yeyib", yi:ncə "yeyincə" (İraq), di:r "deyir",*

basdı:f "başlayıb" (Şəki), işli:r "işləyir" (Naxçıvan), yi:r "yeyir" (Şəki), işdi:r "işləyir" (Ordubad, Şəki, Meğri), dişdi:r "dişləyir" (Meğri), kətçi:x' "kəndçiyik", dəmirçi:x' "dəmirçiyik", yi:lən "yeyilən", saxlı:r "saxlayır", qavzi:r "qavzayır" <qaldırmaq, batmi:b "batmayıb" (Naxçıvan), yi:rix "yeyirik" (Ordubad). Quba, Bakı, Şamaxı, Muğan, Qazax, Lənkəran şivələrində **y** səsinin düşməsi nəticəsində **i** saitinin uzanması a>i, ə>i, e>i səs əvəzlənməsi hadisə ilə bağlıdır. "Belə ki, y səssizi (samiti – İ.B.) qarşısındakı **a, ə, e** səsləri i səsi ilə əvəzlənir, şəkilçidəki **y** səssizi (samiti – İ.B) düşür, əvəzlənən i səslisi (saiti- İ.B) isə uzanır. Bu halda şəkilçidəki **i** və ya **ı** səslisi (saiti – İ.B.) əvəzlənən i səsi ilə qovuşur" (R.Rüstəmov, 1961, s. 18). Məsələn: *di:m "deyim", yi:m "yeyim", di:lər "deyirlər", basdi:r "başlayır", eli:rəm "eləyirəm", isdi:r "istəyir", təmizzi:r "təmizləyir" (Muğan), basdı:r "başlayır" (Bakı, Şamaxı, Muğan), bitmi:f "bitməyib", işdi:f "işləyib", di:llər "deyillər" (Qazax), saxlı:r "saxlayır" (Lənkəran) və s.*

3) sonu saitlə bitən sözlərə saitlə başlanan şəkilçinin artırılması nəticəsində **n** samti düşür və **i** saiti uzanır. Məsələn: *belli: "belini", bəyi:z "bəyimiz", ili:z "iliniz" (İraq), biri:z "biriniz", iki:z "ikiniz", gəldi:z "gəldiniz", verdi:z "verdiniz" (Təbriz) və s.*

4) **ilə** qoşmasının III şəxsin təkinin mənsubiyyət şəkilçisi qəbul etmiş sözə birləşməsi nəticəsində mənsubiyyət şəkilçisi həmin qoşmanın ilk saiti ilə birləşir və **i** səsi uzun tələffüz edilir. Məsələn: *adı:lə "adı ilə", özi:lə "özü ilə", gözi:lə "gözü ilə", izi:lə "izi ilə", sözi:lə "sözü ilə" (İraq) və s.*

5) **– dığım, - diyim, – duğum, -düyüm** feili sifət şəkilçisinin tərkibindəki **y** samitinin düşməsi nəticəsində: *bildi:m " bildiyim", verdi:m "verdiyim", gəldi:m "gəldiyim", gəzdi:m "gəzdiyim" (Dmanisi) və s.*

6) **–ir** indiki zaman şəkilçisinin düşməsi nəticəsində: *bi:sən "bilirsən" (Naxçıvan).*

7) yiyəlik hal şəkilçisinin tərkibindəki **n** səsinin düşməsi nəticəsində: *Nəbi:n "Nəbinin" (Naxçıvan).*

8) bəzi alınma sözlərdə **i** saitinin uzun tələffüzü nəticəsində: *ni:zə, nəti:cə, zi:nət, Mədi:nə (Bakı, Quba, Şamaxı, Qazax, Muğan) və s.*

9) təsirlik hal şəkilçisinin düşməsi nəticəsində: *dəri:y "dərini", zəli:y "zəlini", kərənti:y "kərəntini" (Çəmbərək), dəhri: "dəhrəni", cəhri: "cəhrəni", nəni: "nənəni" (Cəbrayıl) və s.*

10) saitlə bitən feillərə **- ib, - əcək** zaman şəkilçisi artırılanda bitişdirici **y** samitinin düşməsi nəticəsində şəkilçinin tərkiğində i səsi uzanır. Məsələn: *gəlmi:f "gəlməyib", bilmi:f "bilməyib", işləmi:f "işləməyib", gəlmi:f "gəlməyib" (Qazax, Çəmbərək), gətirəji:x' "gətirəcəyik", əkəji:x' "əkəcəyik", deyəji:x' "deyəcəyik", biləji:x' "biləcəyik", keçirəji:x' "keçirəcəyik" (Qarabağ, Çəmbərək) və s.*

11) yiyəlik halda işlənən sonu **ə** saiti ilə bitən isimlərdə **ə** səsinin və yiyəlik hal şəkilçisinin tərkibində bitişdirici samit yerində iştirak edən **n** səsinin düşməsi nəticəsində: *dədi:n "dədənin", nəni:n "nənənin", dəvi:n "dəvənin", nəvi:n "nəvənin" (Cəbrayıl) və s.*

12) saitlə bitən sözlərə yiyəlik hal şəkilçisi artırılarkən ilk **n** səsinin düşməsi nəticəsində: *dili:n "dilinin", çiyi:n "çiyinin", dədəsi:n "dədəsinin", əmisi:n "əmisinin", keçi:n "keçinin" (Şəki) və s.*

13) **– ir** zaman şəkilçisinin ixtisarı nəticəsində. Bu hal Şəki şivəsində müşahidə olunur. Məsələn: *biti:r "bitirir", bi:ləm "bilirəm", gəti:rux "gətiririk".*

14) sözün tərkibində **l** və ya **r** səsinin zəifləşməsi nəticəsində. Bu fonetik xüsusiyyət Şəki şivəsinə xasdır. "Bu xüsusiyyətə əsasən l və r səsləri ilə bitən feillər nəqli keçmiş zamanın III şəxs tək və cəmində işləndikdə rast gəlmək mümkündür. Məsələn:

bu:^{l}tdi<"bilitdi" (bilmişdir), gi:^{r}tdi<"giritdi" (girmişdir), geti:^{r}tdi<"getiritdi" (gətirmişdir), yedi:^{r}tdi<"yediritdi" (yedirmişdir).

15) **n** səsinin düşməsi nəticəsində: *i:san "insan" (Şəki).*

ö səsi. Azərbaycan dili şivələrində ö səsinin uzanması müxtəlif fonetik şəraitdə özünü göstərir.

1) **v** səsinin düşməsi nəticəsində: *tö:bə "tövbə", ö:lad "övlad", bülö: "bülöv" (Bakı, Quba), Gö:hər "Gövhər", nö:bet "növbə", hö:sər "hövsər", ö:lənib "övlənib"<evlənib, kösö: "kösöv" (Bakı), (kö:şən "kövşən" (Bakı, Çəmbərək), küsö: "kösöv", bötö: "bütöv", Mö:lud "Mövlud" (Quba), dö:rümüzdə "dövrümüzdə", dö:lətdi "dövlətdi" (Qazax), kərö:z "kərəvüz" (Təbriz, Zəngibasar, İrəvan), dö:lət "dövlət" (Naxçıvan, Şəki, Təbriz, Quba, İraq), dö:rə "dövrə" (Şəki, Qazax, Təbriz), nö:bə "növbə" (Dərbənd, Çəmbərək), dö:r "dövr" (Dərbənd), Şö:kət "Şövkət" (Meğri), dö:ran "dövran" (Təbriz, İraq), bənö:şə "bənövşə" (Şəki, İraq), mö:süm "mövsüm" (Şəki), sö:da "sevda", zö:q "zövq", mö:cud "mövcud" (İraq) və s.*

2) **n** səsinin düşməsi nəticəsində: *kö:lüm "könlüm" (Bakı), kö:l "könül" (İraq) və s.*

3) **v** səsinin **y** səsi ilə əvəzlənməsi nəticəsində: *kösö:y "kösöv" (Dmanisi).*

4) **ö** səsinin diftonqlaşması nəticəsində: *bö:$^{\breve{ü}}$x "böyük", hö:$^{\breve{ü}}$ş "yaş, nəm", nö:$^{\breve{ü}}$t "neft" (Dmanisi) və s.*

5) feillərin – **ör** indiki zaman şəkilçisi qəbul etməsi nəticəsində: *görö:rəm "görürəm", döyö:rüx' "döyürük", sökö:r "sökür" (Qazax, Dmanisi), gözdö:r "gözləyir" (Qazax) və s.*

6) feillərin əmr formasında I şəxsin təkində işlənməsi nəticəsində: *görö:m "görüm", bölö:m "bölüm" (Dmanisi) və s.*

7) **r** səsinin düşməsi nəticəsində: *gö:rəm "görürəm" (Naxçıvan, Şəki), gö:rsən "görürsən", gö:r "görür" (Şəki) və s.*

8) **y** samitinin düşməsi nəticəsində: *sö:t "söyüd" (Təbriz), bö:g "böyük" (Dərbənd, Quba), kö:nək "köynək" (İraq), gö:çəx' "göyçək" (Ordubad), lö:lağ "löylağ"<çox uzun adam, sö:kənmağ "söykənmək" (Quba), sö:kəmməx' "söykənmək" (Çəmbərək), bö:rkgan "böyürtkən", gö:çex' "göyçək" (Meğri), tö:cü "töycü", hö:ş "höyş"< yaş, nəm", bö: x' "böyük", dö:ş "döyüş", çö:cə "çöycə"<mis piyalə (Şəki), sö:ş "söyüş" (Şəki, Çəmbərək), bənö:ş "bənöyş" <rəng mənasında, bö:rəx' "böyrək", Sö:n "Söyn" <Hüseyn (Qazax, Çəmbərək), bö:h "böyük", dö:llər "döyürlər, ühlo:n "yükləyin" (Qazax) və s.*

9) isimlərin yiyəlik hal şəkilçisini qəbul etməsi nəticəsində: *gö:n "göyün" (Təbriz) və s.*

10) müxtəlif mənalı sözlərin birləşməsi nəticəsində: *Bö:yağa "Böyükağa", ö:n "o gün" (Təbriz), bö:n "bu gün" (Naxçıvan, Qazax, Çəmbərək), bö:ün "bu gün" (Naxçıvan), gö:ala "göyala" (Qazax) və s.*

11) **h** samitinin düşməsi nəticəsində: *kö:nə "köhnə" (Qazax, Dərbənd, Quba), mö:kəm "möhkəm" (Quba, Qazax, Çəmbərək), kö:nəxiri "köhnəxiri" <bostan, xır yeri; xır yerində ikinci il əkilən taxıl (Quba) və s.*

12) **e** və ya **ə** saitinin **ö** saiti ilə əvəzlənərək **v, y, h, b** samitlərinin düşməsi nəticəsində: *sö:mağ "sevmək", sö:gi "sevgi", ö:dədü "evdədi", şö:çırağı "şəbçırağı" (Quba), mö:kəmə "məhkəmə" (Qazax, Quba) və s.* Bu fonetik hala əsasən Quba və Qazax şivələrində rast gəlinir.

13) **l** və **r** səslərinin zəif tələffüz olunması nəticəsində: *o:^{l}tdi "ölütdü<ölmüşdür, bö:^{l}tdi "bölütdü"<bölmüşdür, gö:^{r}tdi "görütdü"<görmüşdür" (Şəki) və s.*

Şəki şivəsində baş verən bu fonetik xüsusiyyət sonu **l** və **r** samitləri ilə bitən təkhecalı

feillər nəqli keçmiş zamanın III şəxsin təkində işləndikdə baş verir.

14) **f** samitinin düşməsi nəticəsində: *nö:t "neft" (Qazax, Çəmbərək).*

Qədim yazılı abidələrimizdə, orta əsr ədəbi dilimizdə uzun **ö** saiti söz ortasında v, y samitlərinin düşməsi nəticəsində əmələ gəlir. **tölə** "tövlə" (KDQ), **göçək** "göyçək" (Nəsimi), **sölədilər** "söylədilər" (Şəms, "Qisseyi-Yusif"), **örət** "övrət" (Fədai), **sölərdi** "söylərdi" (Rəncı, Şeyx Sənan), **sölə** "söylə" (Vaqif) (E.Əzizov, 1999, s. 133).

ü səsi. ü səsinin uzun tələffüzü aşağıdakı fonetik şəraitlə bağlıdır.

1) **y** səsinin düşməsi nəticəsində: *yü:rüx' "yürük" <çevik; yü:rüncəx' "yüyrüncək" (Qazax), cü:r "cüyür" (Qazax, Şəki, Çəmbərək, Meğri), gü:m "güyüm" (Naxçıvan, Qazax, Şəki), yü:llər "yuyurlar" (Naxçıvan), dü: "düyü" (Naxçıvan, İraq), şü:d "şüyüd" (Çəmbərək), dü:n "düyün" (Təbriz), bü:g "böyük" (Quba) və s.*

2) mənsubiyyət şəkilçili isimlərdə **n** samitinin düşməsi nəticəsində: *dislərü: "sənin dişlərini", ipü: " sənin ipini", işü:z "sizin işiniz", özü: "sənin özün", mülkü:də "sənin mülkündə", gözlərü:dən "sənin gözlərindən" (İraq), ərü:z "sizin əriniz" (Dərbənd), bərəkətü:z "sizin bərəkətiniz", qərdəşü: "sənin qardaşın" (Təbriz), üzü:z "sizin üzünüz" (Quba), sözü:z "sizin sözünüz" (Naxçıvan) və s.*

3) yiyəlik hal şəkilçisi qəbul etmiş isimlərdə sözün kökündəki **n** samitinin düşməsi nəticəsində: *gü:n "günün", özü:n "özünün", çüçcü:n "cütcünün" (Şəki) və s.*

4) indiki zaman şəkilçisi qəbul etmiş feillərdə **y** və ya **r** samitinin düşməsi nəticəsində: *gözdü:r "gözləyir", yü:r "yuyur", üşü:r "üşüyür" (Şəki), düzdü:r "düzləyir" (Çəmbərək) və s.*

5) **h** samitinin düşməsi nəticəsində: *kü:l "köhül" (Meğri), mü:lət "möhlət" (Quba) və s.*

6) **- düyün** feili sifət şəkilçisi qəbul etmiş sözlərdə şəkilçinin tərkibindəki **y** samitinin düşməsi nəticəsində: *gördü:m "gördüyüm", öpdü:m "öpdüyüm (Dmanisi) və s.*

7) ***l*** samitinin düşməsi nəticəsində: *gü:lə "güllə", Gü:naz "Gülnaz" (İraq) və s.*

Qısa Saitlər

Azərbaycan dili şivələrində qısa saitlərin əmələ gəlməsi qapalı **ı, i, u, ü** saitləri ilə bağlıdır. "Qısa saitin əmələ gəlməsi vurğusuzluqla izah olunur, belə ki, a) qısa sait kökün vurğusuz birinci hecasında; b) vurğu əsasdan şəkilçiyə keçdikdən sonra qısa sait şəkilçidən əvvəlki hecada özünü göstərir" (M.Şirəliyev,1967, s. 30). Saitlərin qısa tələffüzü həm söz köklərində, həm də şəkilçilərdə baş verir.

Saitlərin qısa tələffüz edilməsi aşağıdakı fonetik şəraitdə müşahidə olunur:

ı saiti

ı saitinin qısa tələffüz edilməsi aşağıdakı fonetik şəraitdə özünü göstərir:

1) **ı** saitinin söz kökündə vurğusuz hecada işlənməsi nəticəsində: *bĭçağ, bĭzo, bĭxo (Quba), qĭfil (Quba, Təbriz, İraq, Naxçıvan, Ordubad), çĭra "çıraq", qĭrıx, sĭçan (İraq, Çəmbərək), qĭrçın, qĭrmanc (Çəmbərək, Karvansaray), qĭrax, xĭna (Şəki, Dərbənd, Çəmbərək, Meğri), pĭtıx "kök" (Meğri), çĭrax "çıraq", cĭvıx "duru", qĭzıl (Təbriz, Çəmbərək), qĭrağ, bĭlağ (Dərbənd), bĭra, filan (Naxçıvan, Ordubad, Meğri), bĭxav//bĭxov (Naxçıvan, Ordubad) və s.* İkinci hecasında **ı** saiti işlənən sözlərə şəkilçi artırıldıqda (həm saitlə, həm də samitlə başlanan şəkilçi artırıldıqda) **ı** saitinin qısalması sözün kökündə ikinci hecada özünü göstərir.

Məsələn: *qıfĭla, qıfĭllı, qapĭnı, qapĭdan, bayır-bayĭra, çağır-çağĭran (Quba, Çəmbərək), ayĭya (Naxçıvan, Çəmbərək) və s.*

2) **ı** saiti ilə bitən sözlərə yönlük hal şəkilçisinin artırılması nəticəsində: *Qubĭya, qazĭya (Quba), uşaqlarĭna (Quba, Çəmbərək), danĭya, qapĭya (Basarkeçər, İraq, Naxçıvan, Çəmbərək, Karvansaray), naxĭra (İraq, Çəmbərək) və s.*

3) cəm şəkilçisi qəbul etmiş isimlərin I şəxsin cəmində işlənməsi və hallanması nəticəsində: *atdarĭmız (Quba, Çəmbərək), balalarĭmız (Şəki, Çəmbərək, Karvansaray), alığĭmız (Şəki), ağaşdarĭmız "ağaclarımız", qızĭmız (Təbriz, Çəmbərək), ayağĭnın, babamĭzın, babamĭza (Təbriz), qapĭnız, qapĭsının (İraq), atĭmız,payĭmız (Qubadlı) və s.*

4) sonu **a** saiti ilə bitən isimlərin yönlük halda işlənərkən **a** saitinin qısa tələffüz olunan **ĭ** saitinə keçməsi nəticəsində: *almĭya, yaxmĭya (Çəmbərək, Karvansaray), arpĭya (Çəmbərək, Meğri), qazmĭya, xalĭya (Naxçıvan, Çəmbərək) və s.*

5) sonu **ı** saiti ilə bitən feillərin indiki zaman şəkilçisi qəbul etməsi nəticəsində: *sayĭlır, alĭnır, qarĭşır, çalĭşır (Şəki, Çəmbərək), qaçĭşır, danĭşır (Naxçıvan, Ordubad) və s.*

6) mənsubiyyət şəkilçisi qəbul etmiş sözlərin yönlük halda işlənməsi nəticəsində*: axırĭna (Şəki, Çəmbərək), naxĭra (İraq, Çəmbərək), yaşĭma (Naxçıvan) və s.*

7) feilin əmr formasının I şəxsin təkində və cəmində işlənməsi nəticəsində: *arĭyax, daşĭyax, başlĭyax, başlĭyım, yazmĭyım, yazmĭyax (Təbriz, Çəmbərək) və s.*

8) ikinci hecasında **ı** saiti olan ikihecalı sözlərin şəkilçi qəbul etməsi nəticəsində. Bu vaxt vurğu şəkilçidəki saitin üzərinə keçir. Məsələn: *naxĭrçı, çalĭşan (İraq), oynĭyan (Naxçıvan) və s.*

9) ikhecalı feillərin ikinci hecasında **ı** saiti olan sözlərin gələcək zaman şəkilçisi qəbul etməsi nəticəsində: *çağĭracax (Naxçıvan, Çəmbərək) və s.*

10) birinci hecasında **ı** saiti işlənən feillərin inkarda işlənməsi nəticəsində: *çĭxammaram (Basarkeçər, Çəmbərək, Naxçıvan) və s.*

11) ikihecalı sözlərin ikinci hecasında **ı** saiti işlənən sözlərin yiyəlik halda işlənməsi nəticəsində: *qapĭnın (Naxçıvan, Şəki), arĭnın, dayĭnın (Çəmbərək, Karvansaray) və s.*

12) ikinci hecası **ı** saiti ilə bitən isimlərin yönlük halda işlənməsi nəticəsində: *yanĭna, canĭna (Naxçıvan, Quba, Çəmbərək) və s.*

13) **-ıb** keçmiş zaman şəkilçili feillərin inkarda işlənməsi nəticəsində: *qavramĭyıb (Naxçıvan), almĭyıf, çağırmĭyıf (Çəmbərək) və s.*

i saiti

i saitinin qısa tələffüz edilməsi aşağıdakı fonetik şəraitdə təzahür edir:

1) sözün birinci hecasında - söz kökündə vurğusuz **i** saitinin işlənməsi nəticəsində: *kĭşi (Qazax, Şəki, Naxçıvan, Ordubad, Meğri, Çəmbərək), tĭkan (Qazax, Təbriz, Çəmbərək), nĭyət (Qazax, Çəmbərək), nĭyə (Qazax, Çəmbərək), cĭyar, tĭĭşi "dişi"< canlıların doğan və yumurtlayan cinsi, kĭşmiş (Qazax, Çəmbərək), şĭtil (Şəki, Çəmbərək, Meğri), cĭyi, kĭlim, bĭçin, işdĭrak, bĭşix′, pĭlo (Şəki), tĭkən, şĭkat, zĭrəx′, cĭrə, şĭkəs, şĭrin, tĭrpəx′ (Çəmbərək, Karvansaray), pĭşig, pĭlo:, istĭkan "stəkan", xeyĭr (Quba), pĭti (Naxçıvan, Quba, Ordubad, Çəmbərək), şĭkil (Ordubad), kĭlid (Təbriz, Çəmbərək), bĭzo, xĭrım, bĭyar, sĭçan, bĭşix′, sĭfır (Təbriz), xəzĭnə, şĭtil, pĭşik (İraq, Dərbənd, Çəmbərək), kĭfir (Dərbənd, Çəmbərək), qĭlınc//gĭlınc, qĭfıl, çĭbin, çĭkit (İraq), cĭyar, şĭrə (Çəmbərək, Karvansaray)*

və s.

2) iki hecalı sözə şəkilçi artırıldıqda vurğunun şəkilçidəki saitə keçməsi nəticəsində şəkilçidən əvvəlki **i** saiti qısa tələffüz olunur. Məsələn: *qəpĭyə, kişĭnin (Naxçıvan, Çəmbərək), kişĭni, pitĭnün (Quba) və s.*

3) feillərin indiki zaman şəkilçisi qəbul etməsi nəticəsində: *gətĭrillər, yeyĭrix′ deyĭrix′ (Naxçıvan, Çəmbərək), diyĭrıx, yiyĭrıx, gəlĭrıx (Təbriz) və s.*

4) mənsubiyyət şəkilçisi qəbul etmiş sözlərdə sözün kökündə və ya şəkilçinin əvvəlkində **i** saiti qısa tələffüz olur. Məsələn: *belĭmiz, dilĭmiz, əmĭlərimiz, əlĭmiz (Naxçıvan, Ordubad, Çəmbərək), qəmĭmiz, dĭlim (Təbriz), birĭsi (Dərbənd, Quba), böyĭgi (Dərbənd), birĭni, yerĭni (Şəki), işĭmiz, əlĭnə (Çəmbərək) və s.*

5) feillərin inkarda işlənməsi nəticəsində: *yerĭməyim (Naxçıvan), getmĭyəcəgəm, sevmĭyipsiz, işləmĭyəydi, getmĭyəcəğıx (İraq), eləmədĭlər (Qazax) və s.*

6) bəzi məchul və məlum feillərin indiki zaman şəkilçisi qəbul etməsi nəticəsində: *deyĭlir, yeyĭlir (Naxçıvan, Çəmbərək), gətĭri (Təbriz), bĭtirrəm, bĭtirrix (İraq), gətĭrir (Şəki), dĭyer, yĭyer (Meğri)* və s.

7) iki müxtəlif mənalı sözün birləşməsi nəticəsində: *əmĭcan (Naxçıvan), Meytĭxannı (Qazax), ayĭbuğa^{ə}n, quzĭqula^{ə}ği, yüzĭyla^{ə} (Meğri), əlĭbuş, bir-ĭki (Quba) və s.*

8) ikihecalı sözlərin mənsubiyyət şəkilçisi qəbul etməsi nəticəsində: *yemĭşi, yemĭşimiz (Naxçıvan) və s.*

9) şəxs adlarında **f, d** samitindən əvvəl və ya sonra işlənən **i** qısa tələffüz olunur. Məsələn: *Şəfĭqə, Lətĭfə, Hənĭfə, Səfĭyə (Naxçıvan), Mədĭnə (Çəmbərək,Şəki) və s.*

10) cəm şəkilçisi qəbul etmiş sözlərin hallanması nəticəsində: *özdərĭnin, özdərĭnə, gözdərĭnin, gözdərĭnə, gözdərĭni (İraq, Çəmbərək), işdərĭnə, üzvlərĭnün (Quba) və s.*

11) vurğunun yerinin dəyişməsi, yəni hallanarkən şəkilçinin üzərinə keçməsi nəticəsində: *gəlĭnə, gəlĭni, dərĭyə (İraq, Çəmbərək), dərĭnin, dərĭni (İraq), bĭrinə, ərĭnə (Qazax, Çəmbərək), anĭyə, əmĭyə, gəmĭyə (Şəki), belĭmə, dilĭmə (Çəmbərək) və s.*

12) **ə** saiti ilə bitən sözlər ismin yönlük halında işlənərkən **ə** saitinin **i** saiti ilə əvəzlənməsi nəticəsində: *dərĭyə, bərĭyə, pəncərĭyə, yengĭyə, təpĭyə, meşĭyə, dərĭyə (Qazax, İraq, Çəmbərək, Meğri) və s.*

13) feillərin indiki zamanda və indiki zamanın hekayəsində işlənməsi nəticəsində: *çaperdĭlər, ərĭderdilər, pĭçerem, pĭşer (Qazax), pĭşir (Qazax, Çəmbərək) və s.*

u saiti

u saitinin qısa tələffüzü Azərbaycan dili şivələrində aşağıdakı fonetik şəraitdə baş verir:

1) söz kökünün birinci vurğusuz hecasında **u** saitinin işlənməsi nəticəsində: *bŭdağ, bŭlağ, bŭğda (Quba, Dərbənd), dŭbur<qısa boy, gödək adam (Quba), bŭtax “budaq”, yŭva (Şəki, Çəmbərək, Naxçıvan), çŭvux “çubuq” (Şəki, Çəmbərək), pŭtax “budaq”, bŭzoy “buzov”, pŭxarı, pŭxoy “buxov” (Qazax, Çəmbərək), tŭfar, dŭhar “divar” (Qazax), xŭruş, tŭman, bŭlax, bŭynuz, çŭbux, dŭfar, qŭrut, yŭmax, bŭrux “döngə” (Təbriz), çŭxa (Quba, Dərbənd, Şəki, Çəmbərək, Meğri), çŭxur (Qazax, Çəmbərək, Meğri), qŭzoy “quzey”, qŭroy “qırov”, qŭjax “qucaq” (Çəmbərək) və s.*

2) ikinci hecasında sait olan sözlərə mənsubiyyət şəkilçisi artırılması nəticəsində: *qurŭsu (Quba), çoxŭsu (Çəmbərək) və s.*

3) ikinci hecasında sait olan feillərə müxtəlif şəkilçilərin artırılması nəticəsində: *utŭran “oturan”, utŭrar “oturar”, uxŭyadı “oxuyardı”, uxŭyasan “oxuyarsan” (Quba), otdŭyur “otlayır”, toxdŭyur “toxdayır” (Çəmbərək, Meğri), dŭrur, otŭran, otŭrar, oxŭmax, oxŭyar (Çəmbərək, Karvansaray), otŭrax, boğŭlur, sorŭşur (Naxçıvan) və s.*

4) sözlərə hal şəkilçilərinin qoşulması nəticəsində: *quzŭya, qŭzunu, bŭnu//mŭnu, bŭların (İraq, Çəmbərək), qoyŭna, boyŭnu (Çəmbərək) və s.*

5) **bu** şəxs əvəzliyinin cəm şəkilçisini qəbul etməsi nəticəsində: *bŭlar (İraq, Çəmbərək) və s.*

6) mənsubiyyət şəkilçisinin qoşulması nəticəsində: *yolŭmuz, qolŭmuz (Naxçıvan, Şəki), borcŭmuz (Naxçıvan, Çəmbərək) və s.*

7) feillərə feili sifət, feili bağlama və ya zaman şəkilçilərinin qoşulması nəticəsində: *oxŭyan, yorŭluf (Şəki, Çəmbərək), yoxlŭyajam, qoyŭluf, toxŭnor, oxŭyor (Qazax), otŭrax, boğŭlur, pozŭlub (Təbriz), toxŭyur (Naxçıvan, Çəmbərək), qoyŭlanda (Naxçıvan, Çəmbərək) və s.*

8) mənsubiyyət şəkilçisi qəbul etmiş sözlərin hallanması nəticəsində: *qolŭna (Şəki), pulŭnu, toyŭna (Qazax, Çəmbərək), qolŭma, yunŭna (Naxçıvan, Çəmbərək) və s.*

9) sadə sözlərin hal şəkilçisi qəbul etməsi nəticəsində: *toyŭğa, toxŭmu (Qazax, Çəmbərək), qoyŭya (Dərbənd), quyŭya (Naxçıvan, Çəmbərək) və s.*

10) bəzi iki, üç və çox hecalı sözlərin tələffüzü nəticəsində: *qoyŭn, yumŭru (Qazax, Çəmbərək), boyundŭrux (Təbriz, Çəmbərək) və s.*

ü saiti

ü saiti aşağıdakı fonetik hallarda qısa tələffüz olunur:

1) birinci hecada **ü** saitinin vurğu qəbul etməməsi nəticəsində: *dü̆bür<ikiillik erkək keçi (Cəbrayıl, Culfa, Qarakilsə,Naxçıvan, Ordubad, Təbriz), tü̆fəng (Naxçıvan, Çəmbərək), sü̆pürgə (Çəmbərək), tü̆kan, kü̆çüx', kü̆kürt, tü̆tex' (Meğri), tü̆mən, kü̆mə, gü̆yüm, dü̆yün, kü̆rə (Təbriz), kü̆pə (Şəki,Təbriz), tü̆kən “dükan”<mağaza, dü̆şman (Qarabağ), ü̆şşə “şüşə” (Qazax, Çəmbərək), cü̆yür, gü̆müş, sü̆yux (Şəki) və s.*

2) feillərə zaman şəkilçisinin artırılması nəticəsində: *çürü̆yər, sürü̆şür, bülmü̆rəm, görü̆şür (Naxçıvan, Çəmbərək), görü̆rəm, sürü̆yür, sü̆zür, bürü̆sür (Çəmbərək, Karvansaray), küsü̆f (Çəmbərək), yü̆yür, dü̆şüjütdü (Şəki), görmü̆rsən//görmü̆sən (Çəmbərək, Basarkeçər) və s.*

3) feilin təsriflənən formasının şəkilçisini qəbul etmiş sözün hekayə formasında işlənməsi nəticəsində: *süpü̆rəydim, sürü̆yəydi (Naxçıvan, Çəmbərək) və s.*

4) sözün birinci hecasında işlənmiş **u** saitinin **ü** sati ilə əvəzlənməsi nəticəsində: *mü̆şdilıx “muşduluq”<xoş xəbər üçün verilən bəxşiş, yü̆maᵊx, çü̆yal “çuval”, Yü̆süf (Meğri).*

5) sözün yönlük halda işlənməsi nəticəsində: *ölŭ̈yə, küçŭ̈yə “küçəyə” (Meğri, Çəmbərək) və s.*

6) sözün mənsubiyyət şəkilçisi qəbul etməsi nəticəsində: *ökŭ̈zü, ökŭ̈züm, ökŭ̈zümüz (Qazax, Çəmbərək) və s.*

Burun Saitləri

Azərbaycan dili şivələrinin saitlər sisteminin ədəbi dilin saitlər sistemindən fərqli cəhətlərindən biri də burun saitlərinin olmasıdır. *Tələffüz zamanı yumşaq damağın aşağı enməsi və burun boşluğunun açıq qalması nəticəsində əmələ gələn saitlərə burun saitləri deyilir.* Burunda formalaşan, yəni hava axının burundn çıxması nəticəsində yaranan saitlər burun saitləri adlanır. Burun saitləri dünya dillərindən əsasən fransız dilində özünü göstərir. Burun saitləri Azərbaycan dili şivələrində geniş yayılmış fonetik hadisədir. Şivələrimizdə burun saitlərinin olmasını ilk dəfə N.İ.Aşmarin Nuxa (Şəki – İ.B.) şivəsinin materialları əsasında müəyyənləşdirmişdir. N.İ.Aşmarin Şəki şivəsi üzərində apardığı tədqiqatlar və müşahidələr əsasında bu qənaətə gəlmişdir ki, yalnız **e** və **ö** saitlərinin burun variantları yoxdur. Digər saitlərin hamısında burun variantları özünü göstərir. Burun saitlərinə Zaqatala-Qax, Naxçıvan, Ordubad şivələrində, Nuxa (Şəki – İ.B.), Ağdaş, eləcə də Muğan qrupu şivələrinə daxil olan Sabirabad rayonunun Kolanı kənd şivəsində, Oğuz və Füzuli rayonu şivələrində rast gəlinir. Burun saitləri velyar n (***η***) səsinin düşməsi nəticəsində əmələ gəlir. Belə ki, velyar n (***η***) səsi aradan çıxmaqla özündən əvvəl və ya sonra gələn saitə burun xüsusiyyəti verir. Bu şivələrdə burun saitlərinin işlədilməsi eyni dərəcədə olmur. Nuxa (Şəki – İ.B.) şivəsində **ö**, **e** saitlərindən başqa, bütün saitlərin burun variantı olduğu halda, Zaqatala-Qax şivəsində və Naxçıvan qrupu şivələrində ancaq **a**, **ı**, **u** saitlərinin burun variantına təsadüf edilir (M.Şirəliyev,1967, s. 32).

M.İslamov N.İ.Aşmarindən fərqli olaraq Nuxa (Şəki – İ.B.) şivəsində saitlərin burun variantına bütün saitlərdə təsadüf edildiyini göstərir və apardığı araşdırmalardan bu qənaətə gəlir ki, saitlərdə burun xüsusiyyəti həm ***η*** (sağır nun), həm də **n** səsinin düşməsi nəticəsində yaranır. Burun saitləri söz kökündə, həm də II şəxsin təkində mənsubiyyət şəkilçisini qəbul etmiş ismin yönlük halında işlənmiş sözlərdə özünü göstərir. Bu baxımdan burun saitlərinin işlənəməsi iki yerə bölünür:

1) söz kökündə burun saitlərinin işlənməsi
2) şəkilçilərin tərkibində burun saitlərinin işlənməsi

1. Söz kökündə burun saitlərinin işlənməsi

Söz köklərində işlənən burun saitləri aşağıdakı saitlərdə özünü göstərir:

ã saiti

1) **η**, bəzən də **v** samitinin düşməsi nəticəsində söz kökündəki **a** saiti burunda tələffüz edilir. Məsələn: *dã “dan, şəfəq, səhər tezdən”, dã “danmaq”, quãx “quvaq” (Şəki), qãıx “qaηıx”<qovun qabığı, yãıl “yaηıl” <keçi adı, yãılmax “yaηılmax”, “yaηılmaq” < yanılmaq, sarıyãız//sarıyã^0 ız “sarıyanız” (Meğri) və s.*

2) Şəkilçilərin tərkibində burun saitlərinin işlənməsi

a) II şəxsin təkində mənsubiyyət şəkilçisini qəbul etmiş sözlərin ismin yönlük halında işlənməsi nəticəsində a saiti burunda tələffüz edilir. Məsələn: *xurcunuã “xurcununa”, patavuã “patavana”, ilxuã, “ilxına”, quzuã “quzuna”, gözuã “gözünə”, sözuã “sözünə”,*

aruã “arıya” (Şəki), cibuã//cibiã “cibinə”, əluã “əlinə”, oğluã “oğluna”, adıã “adına”, yatuã “yadına” (Naxçıvan), əmiləruã “əmilərinə”, cəvizuã “cəvizə” <qoza, əlləruã “ələrinə”, əvləriã “əvlərinə”<evlərinə, tavlaã “tövləyə”, ataã “atana” (Ordubad) və s.

Uzun **a** səsi müxtəlif fonetik hallarda həm də burunda tələffüz olunur. Uzun **a:** saiti aşağıdakı hallarda burunda tələffüz olunur.

1) söz köklərində uzun **a:** saitindən sonra işlənmiş **n** samitinin düşməsi nəticəsində: *mã:t “manat”, dã:ş “danış” (Şəki) və s.*

2) sonu **a** saiti ilə bitən sözlər yiyəlik və təsirlik hallarda işlədikdə hal şəkilçisinin tərkibindəki samitin düşməsi nəticəsində: *qocã: “qocanı”, bavã: “babanı”, aravã: “arabanın” (Şəki) və s.*

3) II şəxsin təkində və cəmində mənsubiyyət şəkilçisi qəbul etmiş sözlər ismin müxtəlif hallarında işlənməsi nəticəsində: *kürsã: “kürsüyə”, əlã: “əlinə” (Naxçıvan, Şəki), dədã: “dədənə”, qıçıã: “qıçına”, öyã: “öyüŋə”<evinə, sözã: “sözünə” (Şəki), şafqã:zın “şafqanızın”<şapkanızın, şafqã:za “şafqanıza”<şapkanıza (papaq mənasında), baltã:zı “baltanızı”, baltã:zda “baltanızda”, baltã:zdan “baltanızdan” (Şəki), ağzã: “ağzına”, başã: “başına”, sözã: “sözünə”, otağã: “otağına”, qoluã: “qoluna”, işã: “işinə” (Naxçıvan), mã: “mənə”, sã: “sənə” (Naxçıvan, Ordubad, Şəki, Qazax, Qarabağ, Gəncə, Çəmbərək), dəduã: “dədənə”, canuã: “canına”, yaduã: “yadına”, qaşığuã: “qaşığına” (Təbriz), atã: “atana”, canã: “canına”, da^{ə}dã^{ə}: “dədənə”, xa^{o}lã:^{ə} “xalana”, a^{o}nã^{o}: “anana” (Meğri) və s.*

4) sonu **n** samiti ilə bitən feillər III şəxsin təkində və cəmində, indiki və qəti gələcək zamanın hər üç şəxsində işlənməsi nəticəsində uzun **a:** saiti burunda tələffüz olunur. Məsələn: *yığışdã:tdı “yığışlandı”, qazã:tdı “qazandı”, dolã:r “dolanar”, qazã:ram “qazanaram”, yığışdã:r “yığışlanır”, qazã:cax “qazanacaq” (Şəki) və s.*

5) II şəxsin cəminin şərt formasında işlənmiş feillərdə şərt formasındakı şəkilçinin tərkibindəki uzun **a:** saiti burunda tələffüz olunur. Məsələn: *alsã:z “alsanız”, gəlsã:z “gəlsəniz”, desã:z “desəniz”, görsã:z “görsəniz”, otursã:z “otursanız”, üşüsã:z “üşüsəniz” (Şəki), danışmasã:z “danışmasanız”, işdəsã:z “işləsəniz” (Naxçıvan) və s.*

ĩ saiti

Burunda tələffüz edilən **ı** saiti şəkilçilərin tərkibində özünü göstərir. **ı** saitinin burunda tələffüzü aşağıdakı fonetik hallarda baş verir.

1) II şəxsin təkində mənsubiyyət şəkilçisi qəbul etmiş söz ismin təsirlik halında işlənməsi nəticəsində: *yerıĩ, “yerini”, əlıĩ, “əlini”, qızıĩ, “qızını”, qavıĩ, “qavını”<qabını (Şəki), əvıĩ, “əvini”<evini, əllərıĩ, “əllərini”, saadıĩ, “saatını” (Ordubad), başıĩ, “başını”, qapıĩ, “qapını” (Naxçıvan) və s.*

2) II şəxsin cəmində xəbərlik və ya mənsubiyyət şəkilçisi qəbul etmiş sözlərin tələffüzü nəticəsində: *əvdasıĩz “evdəsiniz”, kətdasıĩz “kənddəsiniz”, kəççisıĩz “kəndçisiniz”, səhərrisıĩz “şəhərlisiniz”* (Ordubad), *yaxşısıĩz “yaxşısınız” (Ordubad, Şərur), bağdasıĩz “başdasınız” (Şərur), məlimsıĩz “müəllimsiniz”, sədirsıĩz “sədrsiniz”, arıçısıĩz “arıçısınız”, irəşbərsĩ:z “rəncbərsiniz”, alimsĩ:z “alimsiniz” (Şəki), əvĩ:z “əviniz”< eviniz, sözĩ:z “sözünüz”, kəççisĩ:z “kəndçisiniz” (Naxçıvan), uşağĩ:z “uşağınız”, qardaşĩ:z “qardaşınız”, davarĩ:z “davarınız”<qoyununuz, damĩ:z “damınız” (Təbriz) və s.*

3) feillərin ikinci şəxsin cəmində işlənməsi nəticəsində: *yiyəsıĩz “yeyərsiniz”, dediıĩz “dediniz”, alırsıĩz “alırsınız”, diyirsıĩz “deyirsiniz” (Şəki) və s.*

4) uzun **ı** saitinin II şəxsin təkində mənsubiyyət şəkilçili ismin tərkibində işlənməsi nəticəsində: *qapĩ: “qapını”, dərdĩ: “dərdini”, qıçĩ: “qıçını”, qanĩ: “qanını”, əlĩ: “əlini”*

(Şəki), əvĩ: "evini" (Naxçıvan), aºrĩ: "sənin arının", daºr ĩ: "sənin darının" (Meğri) və s.

5) keçmiş və gələcək zamanda işlənmiş feillər II şəxsin cəmində işləndikdə uzun **ı:** saiti burunda tələffüz nəticəsində: *gəldĩ:z "gəldiniz", almışĩ:z "almışsınız", yazıcasĩ:z "yazacaqsınız", görsĩ:z "görəcəksiniz" (Şəki), savlarsĩ:z "savlarsınız"<alətlərin ağzı itiləndikdən sonra düzəldərsiniz, qaydaya salərsınız (Naxçıvan) və s.*

6) sonu ı saiti ilə bitən feillər nəqli keçmiş zamanın III şəxsində işləndikdə **ı** *saitinin burunda tələffüzü nəticəsində: qızĩ:tdı "qızınmışdır", sĩ:tdı "sınmışdır" (Şəki) və s.*

ə̃ saiti

ə saitinin burunda tələffüzü aşağıdakı hallarda özünü göstərir

1) **ə** saitinin burunda tələffüzü sonu **ng** səs birləşməsi ilə bitən sözlərə şəkilçilərin artırılması əsasında baş verir. Bu vaxt "sonu **ng** ilə bitən sözlərə şəkilçi qoşulduqda **n** səsi düşür (**g** səsi isə çox zaman **h** və ya **x′** səsi ilə əvəzlənir) və kökdəki **ə** səsi burun xüsusiyyəti qazanır (M.İslamov, 1968, s. 15). Məsələn: *lə̃hdi "ləngdir", rə̃hsiz "rəngsiz", tüfə̃hdən "tüfəngdən", türpə̃x' "türpəng" (Şəki), ə̃ıx' "əng", sə̃ix "səhəng", rə̃x "rəng", kə̃ix' "kəhəng"<yel xəstəliyi (Meğri), rə̃h//irə̃:h//irə̃:x' "rəng" (Çəmbərək) və s.*

2) *gənəşmək* sözünün tələffüzü nəticəsində: *gə̃işmaəx "gənəşmək"<məsləhət etmək, müraciət etmək (Meğri).*

3) sözün kökündəki ŋ (sağır nun) və ya **n** samitinin düşməsi nəticəsində: *də̃:z "dəniz", bə̃:z "bəniz"<sifət, üz, bi də̃: "bir dənə" (Şəki) və s.*

4) sonu **n** samiti ilə bitən feillərin nəqli keçmiş zamanın III şəxsin təkində və cəmində işlənməsi nəticəsində: *örgə̃:tdi, öyrə̃:tdi "öyrənitdi"<öyrənmişdir, dəyə̃:tdi "dəyənitdi"<dayanmışdır, bəyə̃:tdi "bəyənitdi" <bəyənmişdir (Şəki) və s.*

5) sonu **n** samiti ilə bitən feillər indiki və qəti gələcək zamanda şəxslərə görə dəyişməsi nəticəsində: *öylə̃:rəm "evlənirəm", tərpə̃:r "tərpənir", iylə̃:r "iylənir", bəyə̃: cux "bəyənəcəyik" (Şəki) və s.*

6) sonu **ə** saiti ilə bitən sözlərin ismin yiyəlik və təsirlik hallarında işlənməsi nəticəsində: *nəhrə̃: "nəhrənin", "nəhrəni", dəhrə̃: "dəhrənin", "dəhrəni", qətfə̃: "qətfənin", "qətfəni"<dəsmal (Şəki) və s.*

7) sonu **ə** saiti ilə bitən I və II şəxs əvəzliklərinin təkinin ismin təsirlik halında işlənməsi nəticəsində: *mə̃: "məni", sə̃: "səni" (Şəki) və s.*

8) sonu **n** samiti ilə bitən sözlərin mənsubiyyət şəkilçisini qəbul etməsi nəticəsində: *bədə̃:m "bədənim", bədə̃:mi "bədənimi", bədə̃:n "sənin bədənin" (Şəki) və s.*

9) II şəxs mənsubiyyət şəkilçisi qəbul etmiş sözün yönlük halda işlənməsi nəticəsində: *nəzərüə̃: "nəzərinə", yerüə̃: "yerinə" (Təbriz) və s.*

10) feilin şərt formasının II şəxsin cəmində işlənməsi nəticəsində: *eləsə̃:z "eləsəniz", desə̃:z "desəniz", görsə̃:z "görsəniz", bilsə̃:z "bilsəniz", düşsə̃:z "düşsəniz" (Təbriz) və s.*

e saiti

Azərbaycan dili şivələrində **e** saitinin burunda deyilişinə az təsadüf edilir. Şəki şivəsində sonu **ng** samiti ilə bitən *qəşəng* sözündə **ə** saitinin **e** saiti ilə əvəzlənməsi və **ng** səs birləşməsinin düşməsi, daha doğrusu **x′** samitinə keçməsi nəticəsində **e** saiti burunda tələffüz edilir. Məsələn: *qeşẽx' "qeşeng"<qəşəng (Şəki).*

Uzun **e:** saiti aşağıdakı hallarda burunda deyilir.

1) **benzin** sözünün tələffüzü nəticəsində: *bẽ:zin (Şəki).*

2) II şəxsin təkində mənsubiyyət şəkilçisi qəbul etmiş sözlərdə **ə** saitinin **e** səsinə keçməklə yönlük halda işlənməsi nəticəsində: *dədẽ: "dədənə", nənẽ: "nənənə" (Meğri) və s.*

i saiti

Burun saitlərindən biri də **i** səsidir. Burun saiti kimi **i** səsinə söz köklərində rast gəlinir. Məsələn: *pərĩş "pərinc", dĩş "dinc" (Şəki, Meğri), gəvaĩn "alət adı" (Şəki), dĩx' "çəltik döymək üçün daş alət", şĩx' "yemilik", külĩx' "külüng" (Meğri), dĩx' "hündür olan yer, təpəlik, kiçik təpə" (Çəmmərək) və s.*

Bununla belə şivələrimizdə uzun **i:** saiti həm də burun saiti kimi də iştirak edir. Uzun **i:** saiti aşağıdakı fonetik hallarda burunda tələffüz olunur.

1) söz köklərində birinci hecada uzun **i:** saitinin işlənməsi nəticəsində: *ĩ:san "insan", dĩ:şə "dinşə" <dinlə (Şəki) və s.*

2) uzun **i:** saitinin ismin yiyəlik, təsirlik hallarında və mənsubiyyət şəkilçilərinin tərkibində işlənməsi nəticəsində: *ciyĩ: "ciyinin", ciyĩ: "ciyini", kirpĩ: "kirpinin", kirpĩ: "kirpini", kerkĩ: "kərkinin", kerkĩ: "kərkini", səsĩ: "onun səsi", işĩ: "onun işi", ətĩ: "onun əti", birĩ: "uşağn biri" (Şəki), belĩ: "belinin", dilĩ: "dilinin", isĩ: "işinin" (Meğri) və s.*

3) II şəxsin cəmində sözün mənsubiyyət şəkilçisini qəbul etməsi nəticəsində: *əlĩ:z "əliniz", xatirĩ:z "xatiriniz", evĩ:z "eviniz", köməyĩ:z "köməyiniz", kəndĩ:z "kəndiniz" (Təbriz), əvĩ:z "eviniz", əlĩ:z "əliniz" (Cəbrayıl) və s.*

o saiti

o saitinin burunda tələffüzü həm söz kökündə və həm də II şəxsin təkində mənsubiyyət şəkilçisinin tərkibində aşağıdakı fonetik şəraitdə özünü göstərir:

1) söz kökündə **n** samitinin düşməsi nəticəsində: *dõ "don", qõfrans "konfrans" (Şəki), dõuz "donuz" (Meğri).*

2) sözə II şəxsin təkinin mənsubiyyət şəkilçisinin qoşulması nəticəsində: *gözoõ "sənin gözün", aloõ "sənin alovun", kəlçoõ "sənin kəlçən" (Şəki), nənoõ "sənin nənən" (Meğri) və s..*

Şəki şivəsində uzun **o:** saiti bəzi sözlərin kökündə və şəkilçilərin tərkibində burunda tələffüz olunma xüsusiyyətinə də malikdir.

1) söz köklərində: *sõ:ra "sonra", dõ:z "donuz", qõ:şi "qonşu" (Şəki) və s.*

2) II şəxs mənsubiyyət şəkilçisi qəbul etmiş sözlərdə: *patavõ: sənin patavan<sənin ayaqqabın, kəlçõ: "sənin kəlçən" (Şəki) və s.*

3) o əvəzliyinin yiyəlik və təsirlik hallarda işlənməsi nəticəsində: *õ: "onun", õ: "onu" (Şəki).*

4) II şəxsin təkində mənsubiyyət şəkilçisi qəbul etmiş sözün yönlük halda işlənməsi nəticəsində: *toyuğõ: "toyuğuna", pişiyõ: "pişiyinə", qarpızõ: "qarpızına" (Meğri) və s.*

5) ismin adlıq halında II şəxsin təkində mənsubiyyət şəkilçisi qəbul etmiş sözə **ilə** qoşmasının artırılması nəticəsində: *dədõ:nan "dədənlə" nənõ:nan "nənənlə", gözõ:nan "gözünlə", sözõ:nan "sözünlə" (Meğri) və s.*

u saiti

Azərbaycan dili şivələrində özünü göstərən burun saitlərindən biri **u** səsidir. Burun ũ saiti aşağıdakı fonetik hallarda özünü göstərir:

1) söz kökündə u saitinin burunda tələffüz edilməsi nəticəsində: *koũl "könül" (Şəki), qorxũş "qorxunc" (Meğri) və s.*

2) II şəxsin təki və cəmində mənsubiyyət şəkilçisinin tərkibində işlənməsi nəticəsində: *boynuũ "sənin boynun", öyuũ "sənin öyün"<sənin evin, ütuũ "sənin ütün", ilxuũ "sənin ilxın", qonşuũz "sizin qonşunuz", gözuũz "sizin gözünüz" (Şəki), qoluũ "sənin qolun", yoluũ "sənin yolun", borcuũ "sənin borcun" (Naxçıvan), tavlauũ "sənin tövlən", əluũ "sənin əlin", cəvizuũ "sənin cəvizin" (Ordubad), babaũz "sizin babanız", puluũz "sizin pulunuz", yeruũz "sizin yeriniz", sözuũz "sizin sözünüz" (Ordubad) və s.*

3) II şəxsin cəmində xəbərlik şəkilçisinin tərkibində **u** saitinin işlənməsi nəticəsində: *borşdusuũz "borclusunuz" (Naxçıvan), çüççüsuũz "cütçüsünüz", gücdüsüũz "güclüsünüz" (Ordubad), qarolsuũz "qarovulsunuz"<gözətçisiniz (Şəki) və s.*

4) feilin xəbər şəklinin II şəxs cəmdə işlənməsi nəticəsində*: görduũz "gördünüz", bolduũz "böldünüz" (Şəki) və s.*

Bununla yanaşı şivələrimizdə uzun **u:** saiti müxtəlif fonetik vəziyyətlərdə burunda tələffüz edilir.

1) mənsubiyyət kateqoriyasının II şəxs tək və cəmində işlənən sözlərin ismin yiyəlik və təsirlik hallarında işlənməsi nəticəsində: *burnũ: "burnunun", burnũ: "burnunu", oğlũ: "oğlunun", oğlũ: "oğlunu", sürũ: "sürünün", sürũ: "sürünü", duzũ: "duzunun", duzũ: "duzunu", büvũ: "büvünün", büvũ: "büvünü"<bibinin, bibini, qızũ:z "qızınızın", qızũ:z "qızınızı", qonşũ:z "qonşunuzun", qonşũ:z "qonşunuzu" (Şəki), otũ: "otunun", qolũ: "qolunun", əlũ: "əlinin", gözũ: "gözünün" (Meğri), özũ: "özünün", sözũ: "sözünün", sözünü", gözũ: "gözünün// gözünü", oğlũ: "oğlunun //oğlunu", əlũ: "əlinin //əlini" (Naxçıvan, Meğri), qışlagũ:z "qışlağınız", oğlannarũ: "oğlanlarını", dərdũ: "dərdini" (Təbriz***)** və s***.**

2) feilin xəbər şəklinin II şəxs cəmində işlənməsi nəticəsində: *kürümüsũ:z "kürümüşsünüz", görmüsũ:z "görmüşsünüz", oxudũ:z "oxudunuz", gələsũ:z "gələrsiniz", alacasüũ:z "alacaqsınız", üzdũ:z "üzdünüz" (Şəki), verərsũ:z "verərsiniz", qoymadũ:z "qoymadınız" (Naxçıvan) və s.*

3) xəbərlik kateqoriyasının II şəxs cəmində işlənməsi nəticəsində: *çüccüsũ:z "cütçüsünüz", doxdursũ:z "doktorsunuz"<həkimsiniz, irəşbərsũ:z "rəncbərsiniz" (Şəki) və s.*

4) sonu u saiti ilə bitən isimlərin və isimləşmiş sözlərin yiyəlik və təsirlik hallarda işlənməsi nəticəsində: *quzũ: "quzunun //quzunu", qurũ: "qurunun //qurunu", bũ: "bunun //bunu" (Şəki) və s.*

5) Şəki şivəsində o şəxs əvəzliyinin ismin yiyəlik və təsirlik hallarında işlənməsi nəticəsində: *hũ: "onun //onu", ũ: "onun// onu (Şəki).*

ü saiti

Burunda deyilən **ü** saiti sözün kökündə özünü göstərir. Son **nc** səs birləşməsi ilə bitən sözlərdə tələffüz zamanı **ü** saiti burunda formalaşır. Məsələn: *pürü̃ş "pürünc", gülü̃ş "gülünc", kü̃şdər "künclər" (Şəki) və s.*

Eyni zamanda uzun **ü:** səsi burunda da tələffüz olunur və fonetik hadisə aşağıdakı hallarda özünü göstərir.

1) mənsubiyyət kateqoriyasının III şəxs təkində işlənən sözlərin yiyəlik və təsirlik hallarda işlənməsi nəticəsində: *üzü̃: "onun üzünün, onun üzünü", sözün düzü̃: "sözün düzünün", "sözün düzünü", üsdü̃: "onun üstünün", "onun üstünü" (Şəki).*

2) **ü** saiti ilə bitən sözlərin ismin yiyəlik və təsirlik hallarında işlənməsi nəticəsində: *sürü̃: "sürünün", " sürünü", güzgü̃: "güzgünün", "güzgünü", ütü̃: "ütünün", "ütünü" (Şəki) və s.*

ö saiti

Azərbaycan dili şivələrində **ö** saitinin burunda tələffüzünə az rast gəlinir. **ö** saitinin burunda tələffüzü Şəki şivəsində rast gəlinir. "Bu səs sonu **n** ilə bitən təkhecalı feillər nəqli keçmiş zamanın III şəxs təkində işləndikdə meydana çıxır. Məsələn: *sȭ:tdi "sȭnütdü"<sönmüşdür, dȭ:tdi "dönütdü <dönmüşdür"* (M.İslamov, 1968, s. 18).

Təbriz şivəsində uzun ö saitinin burunda tələffüzü bir sözdə - gȭ:l sözündə müşahidə olunur: *gȭ:l "könül"* (M.Məmmədli, 2007, s. 25).

Diftonqlar

Bir hecada iki saitin - həm heca düzəldən, həm də heca düzəltməyən iki saitin birləşməsinə diftonq deyilir. Tələffüz zamanı danışıq üzvləri bir vəziyyətdən başqa vəziyyətə keçərək diftonq yaradır.

Müasir Azərbaycan ədəbi dili üçün diftonqlaşma xarakterik deyil. Yəni "Azərbaycan ədəbi dilində tam formalaşıb monoftonq saitlərlə qarışıq təşkil edən diftonq fonemlər yoxdur" (Ə.Dəmirçizadə, 1979, s. 44). Diftonqlara Azərbaycan dilinin şivələrində rast gəlinir.

Azərbaycan dili şivələrində diftonqların yaranması **v, y, n, g** samitlərinin düşməsi nəticəsində baş verir.

Azərbaycan dili şivələrində diftonqlar iki formada özünü göstərir:

1) enən diftonqlar;

2) yüksələn diftonqlar.

Enən diftonqlar. Yanaşı işlənən sait səslərdən birincisinin heca düzəldən sait olması əsasında enən diftonq əmələ gətirir. İkinci sait isə birinciyə nisbətən zəif funksiya daşıyır. Enən diftonqlar **o, ö, a, ə** saitləri ilə **u, ü, i** saitlərinin iştirakı əsasında yaranır və yanaşı yazılır.

ou (*o͜u***).** Bu diftonq **o** və **u** saitlərinin arasında işlənir və **n, y** və **v** samitlərinin düşməsi yolu ilə yaranır.

1) **y** samitinin düşməsi nəticəsində *o͜u* diftonqunun yaranması: *to͜ux "toyuq" (Şəki, Naxçıvan), qo͜un "qoyun" (Şəki), o͜un "oyun" (Təbriz, Şəki), so͜ux "soyuq", do͜ur "doyur" (Çəmbərək), do͜usən "doyursan", to͜uğ "toyuq" (Bakı, Şamaxı, Quba, Muğan, Dərbənd), o͜ux "oyuq", so͜uma "soyuma" (Qazax, Çəmbərək) və s.*

2) **v** samitinin düşməsi nəticəsində *o͜u* diftonqunun yaranması:

o͜urat "övrət", o͜uş "ovuc" (Təbriz), do͜uşan "dovşan", yo͜uşan "yovşan", qırqo͜ul "qırqoul" (Qazax, Naxçıvan, Dmanisi), oxlo͜u "oxlov", bizo͜u "buzovun", qəro͜ul "qarovul" (Naxçıvan), qaro͜ul "qarovul" (Bakı, Şamaxı, Muğan, Naxçıvan, Qazax, Tovuz), yaso͜ul "yasovul" (Qazax, Naxçıvan, Bakı, Şamaxı, Tovuz), o͜uç "ovuc", qo͜urmax "qovurmaq", sıc o͜ul "sıçovul", bir ho͜ur "bir hovur"<bir az, bir qədər vaxt (Qazax, Dmanisi), o͜uc: "ovuc" (Qazax), qo͜ut "qovut" (Qazax, Çəmbərək), plo͜u "plov", oxlo͜u "oxlov", buzo͜u "buzov", d o͜uşən "dovşan" (Dərbənd), ho͜uz "hovuz" (Qazax, Qarabağ, Gəncə, Dərbənd, Çəmbərək), q

o͜unuz “qanovuz”<parça növü (Bakı, Şamaxı, Muğan, Çəmbərək), lo͜uğa “lovğa” (Çəmbərək), qo͜urma qovurma (Çəmbərək, Dərbənd, Qazax, Qarabağ, Gəncə, Təbriz) və s.

3) **n** samitinin düşməsi nəticəsində *o͜u* diftonqunun yaranması: *do͜uz “donuz” (Bakı, Şamaxı, Naxçıvan), o͜un “onun” (Qazax), ko͜ul “könül” (Şəki) və s.*

Bununla yanaşı sonu saitlə bitən bəzi sözlər II şəxsin tək və cəminin mənsubiyyət şəkilçisi qəbul edərkən **n** səsinin düşməsi nəticəsində *o͜u* diftonqu əmələ gəlir. Məsələn: ***ano͜un*** “anan”, ***ato͜uz*** “atanız” (Bakı, Şamaxı, Muğan).

üə (ü͜ə). Azərbaycan dili şivələrində işlənən diftonqlardan biri də **üə** diftonqudur. Bu diftonq **v** və **y** səsinin düşməsi əsasında yaranır.

1) **v** səsinin düşməsi nəticəsində *ü͜ə* diftonqunun yaranması: *bülü͜ə “bülöv”, kösü͜ə “kösöv” (Naxçıvan), cü͜əz “ceviz”<qoz (Qazax, Çəmbərək), bənü͜əşə “bənövşə”, bü͜ərəx “böyrək”, sü͜ət “söyüt”, dü͜əş “döyüş”, sü͜ən “sevin” (Təbriz), ü͜ə “ev”, tü͜ələ “tövlə”, dü͜ələt “dövlət” (Dərbənd), dü͜əran “dövran”, dü͜ər “dövr”, zü͜əq “zövq”, nü͜ə “növ” (İraq) və s.*

2) iki sözün yanaşması nəticəsində *ü͜ə* diftonqun yaranması: *bü͜ənnəri “bu günləri” (Naxçıvan), bü͜ən “bu gün”, ü͜ən “o gün”, garü͜əz “qaragöz”, alü͜əz “alagöz” (Çəmbərək), nə tü͜ər “nə təhər”<necə (Dmanisi) və s.*

3) **y** samitinin düşməsi nəticəsində *ü͜ə* diftonqunun yaranması: *bənü͜əş “bənöyş”< rəng adı (Qazax, Çəmbərək), sü͜ət “söyüt”, ü͜ət “öyüd” (Çəmbərək), ü͜ə “öy”<ev (Bakı), bü͜ə “böyük” (Şəki), bü͜əx ' “böyük”, cü͜əz “çeviz”, kü͜əl “köyül”<könül (Dmanisi), tü͜əx “toyuq”, sü͜əx “soyuq”, bü͜ək “böyük”, Sü͜ən “Söyün”<Hüseyn, mərü͜əl “maröyül”<böyük taya (Qazax), kü͜ənək “köynək” (Dərbənd), gü͜ədə “göydə” (İraq) və s.*

öə (*ö͜ə*). **f** samitinin düşməsi nəticəsində e saitinin ö saitinə çevrilməsilə *ö͜ə* diftonqunun yaranması: n*ö͜ə*t “neft” (Dmanisi, Çəmbərək, Qazax).

au (*a͜u*). Bu diftonq Zaqatala-Qax, İraq, Qarabaşivəsinə daxil olan Ağdam, Naxçıvanın Şərur şivələrində işlənir. Məsələn: *da͜uğa “dovğa”, da͜uşan “dovşan”, qa͜urma “qovurma” (Zaqatala, Qax), a͜u “ov” (İraq) və s.*

a͜u diftonqu aşağıdakı fonetik hadisələr əsasında əmələ gəlir:

1) söz kökündə **v** samitinin düşməsi nəticəsində: *qaumax “qovmaq” (Zaqatala, Qax), dəmirau “dəmirov”, qaurma “qovurma”, dauğa “dovğa” (Zaqatala,Qax, İraq), dauşan “dovşan” (Zaqatala, Qax, İraq, Naxçıvan, Qarabağ), au “ov”, taula “tövlə” (Naxçıvan, İraq), aut “ovut”, auçi “ovçu”, qau “qov”, qaup “qovub”, qauşağ “qovuşaq”, plau “plov”, hauz “hovuz”, qaurğa “qovurğa”, qauzadı “qovzadı” (İraq) və s.*

2) ikinci şəxsin mənsubiyyət şəkilçisini qəbul etmiş sözlərdə **n** samitinin zəifləməsi nəticəsində: *arpau “arpan”, babau “baban”, baxçau “bağçan”, babauza “babanıza”, babauzı “babanızı” (İraq) və s.*

3) feilin şərt şəklinin ikinci şəxsin təkində işlənməsi nəticəsində: *alsau “alsan”, baxsau “baxsan”, qırsau “qırsan”, doldursau “doldursan”, çağırsau “çağırsan” (İraq) və s.*

ou *(ou)*. Bu diftonq birinci hecasında qalın saitli sözlərdə **v** samitinin düşməsi nəticəsində əmələ gəlir. Məsələn: *atou “atovu”<atanı, anou “anovu” <ananı (Bakı, Şamaxı, Muğan), cilou n “cilovun” (Təbriz) və s.*

öu . Bu diftonq birinci hecasında incə sait olan və ismin təsirlik halında işlənən sözlərdə **v** samitinin düşməsi nəticəsində əmələ gəlir. Məsələn: *nənöu “nənəvi”<nənəni, dədöu “dədəvi”<dədəni (Bakı, Şamaxı, Muğan).*

əi (əi). Söz ortasında (köklə şəkilçi və ya şəkilçi ilə şəkilçi arasında) **y** samitinin düşməsi nəticəsində **əi** (əi) diftonqu yaranır. Məsələn: *əl əi “ələyi”, bəl əi “bələyi”, küləi “küləyi” (Bakı, Şamaxı, Muğan), məi “məyi”<məni, s əi “səyi” < səni (Bakı), gedəin “gedəyin” (Naxçıvan, Gəncə, Qarabağ, Qazax), ür əi “ürəyi” (Təbriz) və s.*

eu (*eu*). Bu diftonq **v** səsinin **u** səsinə keçməsi nəticəsində yaranır və İraq- türkman ləhcəsində özünü göstərir. Məsələn: *eulat “övlad”, seuda “sevda”, seugi “sevgi”, eu “ev” və s.*

əu (əu). İraq-türkman ləhcəsində **əu** (əu) diftonqu müşahidə olunur və ikinci şəxsin mənsubiyyət şəkilçisinin və ya şəxs şəkilçisinin zəifləməsi nəticəsində yaranır. Məsələn: *nən əu “sənin nənən”, dəv əu “sənin dəvən”, sipirg əu “sənin süpürgən”, bils əu “bilsən”, des əu “desən”, itirs əu “itirsən”, geds əu “getsən” (İraq) və s.*

üi (üi). Bu diftonq mənsubiyyət şəkilçisi qəbul etmiş sözlərdə **v** samitinin düşməsi ilə yaranır. Məsələn: *dişlər üi “sənin dişlərini”, eşq üi “sənin eşqini”, gözlər üi “sənin gözlərini”, sözüi “sənin sözünü”, dişləüi “sənin dişlərini” (İraq) və s.*

üu *(üu).* İkinci şəxsin təkinin mənsubiyyət şəkilçisinin tərkibindəki n samitinin düşməsi nəticəsində *üu* diftonqu yaranır. Məsələn: *dərdüu “sənin dərdin”, dizüu “sənin*

dizin", əllərüu "sənin əllərin", yerüu "sənin yerin" (İraq) və s.

2. Yüksələn diftonqlar. Birinci saiti zəif, ikinci saiti daha aydın tələffüz edilən və ikinci saitin heca düzəltmə xüsusiyyəti yaradan diftonq yüksələn diftonq adlanır. Azərbaycan dili şivələrində aşağıdakı yüksələn diftonqlara rast gəlinir.

ua (*ua*). Bu diftonq Bakı, Qazax, Şamaxı, Təbriz, İraq- türkman şivələrində özünü göstərir. *ua* diftonqu aşağıdakı fonetik hallarda müşahidə olunur.

1) **v** samitinin düşməsi nəticəsində: *suatdı "savadlı", uara "avara" (Bakı), Cuad "Cavad" (Bakı, Qazax, Zaqatala), gualı "gavalı" (Bakı, Çəmbərək), çual "çuval" (Təbriz, Çəmbərək, Şəki, İraq), suağ "suvaq", quat "qüvvət", suat "suvat" (Çəmbərək), yuaş "yavaş" (Qarabağ, Çəmbərək), suamağ "suvamaq" (Bakı, Şamaxı, Qazax), quatdı "qüvvətli" (Bakı, Quba, Qazax), yua "yuva" (Qazax, Şəki, İraq, Təbriz), duar "divar" (Bakı, Şamaxı, Şəki, Qazax), suax "suvaq" (Şəki, Qazax), cuar "cuvar"<əkin sahəsini suvaran (Qarabağ), tua "tava" (Qazax, Şamaxı, Muğan) və s.*

2) **y** samitinin düşməsi nəticəsində: *mua "muya"<buna (Şamaxı.), buau "bu yan" (Qazax), sua "suya" (Qazax), uana "o yana", uax "oyaq", yuax "yuyaq", quax "qoyaq" (Çəmbərək) və s.*

3) ikinci şəxsin təkinin mənsubiyyət şəkilçisi qəbul etmiş sözlər ismin yönlük halında işlənərkən mənsubiyyət şəkilçisinin tərkibindəki **n** samitinin düşməsi nəticəsində *ua* diftonqu əmələ gəlir. Bu fonetik hadisə İraq-türkman ləhcəsində müşahidə olunur. Məsələn: *ağzua "ağzına", adaxlua "adaxlına", ayağua "ayağına", bonuua "boynuna", saçua "saçına", toppuğua "topuğuna" (İraq) və s.*

üə (*üə*). Bu diftonq aşağıdakı fonetik hadisələr nəticəsində əmələ gəlir.

*1) **v** samitinin düşməsi nəticəsində: nüə "nəvə" (Bakı, Qazax), düə "düvə" <dəvə (Bakı, Quba, Qazax), hüə "həvə" <xalça toxumada istifadə edilən alət (Qazax), güəli "gavalı" (Çəmbərək, Karvansaray) və s.*

2) **y** samitinin düşməsi nəticəsində: *küər "küyər" <bir yaşar erkək keçi (Qazax, Şəki, Çəmbərək), nüəx'<nüvək< kiçik dərə, yarğan, büələx' "büyələk" <mal-qaranı dişləyən həşarat, hüə "hüyə" <məsafə, güəniməx' "güyənəmək" < azca işıqlaşmaq, düəşdə "döyəşdə" (Çəmbərək, Karvansaray) və s.*

3) f samitinin düşməsi nəticəsində: *tüəx' "tüfəng" (Çəmbərək, Karvansaray), tüəng "tüfəng" (Qazax).*

oa (*oa*). Bu diftonq **v** və **y** samitinin düşməsi nəticəsində əmələ gəlir və aşağıdakı fonetik hallarda özünü göstərir.

1) **v** samitinin düşməsi nəticəsində: *oa “ova”<oba (Bakı, Şəki, Çəmbərək), qoa-qoa “qova-qova” (Şəki), q oa liyif “qovalayıb” (Qazax), q oa la “qovala” (Çəmbərək), at oa “atova”<atana, an oa “anova”<anana (Bakı, Şamaxı, Muğan) və s.*

2) **y** samitinin düşməsi nəticəsində: *oa zımax “ayazımaq”<sakitləşmək (Qazax), oa x “oyaq” (Qazax, Çəmbərək), oa ndı “oyandı” (Qazax, Çəmbərək, Karvansaray), oa na “o yana” (Qazax, Çəmbərək), oa r “oyar”, s oa rıx “soyarıq”, d oa r “doyar” (Çəmbərək) və s.*

üə (ü ə). Bu diftonq Qərb qrupu şivələrində, xüsusilə Qazax, Qərbi Azərbaycanın Çəmbərək və Karvansaray şivələrində, bəzi hallarda Bakı, Şamaxı, Quba, Şəkinin Qoxmuq şivəsində muşahidə olunur və **v**, **y** samitlərinin düşməsi nəticəsində yaranır.

1) **v** samitinin düşməsi nəticəsində: *ü ə́“evə” (Quba, Qazax Çəmbərək, Karvansaray), n ö ə “nəvə”, ü əlix' “əvəlik” (Qazax, Çəmbərək), g ü əli “gavalı” (Qazax), ərəb ü ə “ərəböva”<arabana (Bakı, Şamaxı) və s.*

2) **y** samitinin düşməsi nəticəsində: *b ü ə “böyə” (Şəki), g ü əm “göyəm”, b ü ələx' “böyələk”<həşarət (Qazax, Çəmbərək, Karvansaray), g ü ərti “göyərti” (Qazax, Çəmbərək) və s.*

SƏSLƏRİN ƏVƏZLƏNMƏSİ

Azərbaycan dili şivələrində səslərin əvəzlənəmsi geniş yayılmış fonetik hadisələrdəndir. Şivələrdə səslərin əvəzlənməsinin öyrənilməsi əsas dialektoloji məsələlərdən biridir. Bu fonetik hadisə təkcə dialektologiya üçün yox, həm dilimizin tarixi fonetikasının, türk dillərinin fonetikasının öyrənilməsində xüsusi əhəmiyyətə malikdir.

Səslərin əvəzlənməsi ilə bağlı M.Şirəliyev yazır: "Dialekt və şivələrimizdə rast gəldiyimiz bir çox səslərin əvəzlənməsi hadisəsi həm ayrı-ayrı dialekt və şivələrimiz arasında, həm dialektlərimizlə ədəbi dil arasında olan fərqli cəhətləri, həm dilimizin qədim xüsusiyyətlərini meydana çıxarmaq, həm də Azərbaycan dili ilə başqa türk dilləri arasında oxşar və ayrılan cəhətləri göstərmək üçün olduqca qiymətli material verir. Bu isə öz növbəsində dilimizin mənbə və inkişaf tarixini aydınlaşdırmaq və onun hansı qəbilə dilləri əsasında təşəkkül etdiyini müəyyənləşdirməkdə dil tarixinə olduqca böyük fayda verə bilər" (M.Şirəliyev,1967, s. 39).

Şivələrimizdə səslərin əvəzlənməsi iki yerə bölünür.

1. Saitlərin əvəzlənməsi
2. Samitlərin əvəzlənməsi

Saitlərin Əvəzlənməsi

Azərbaycan dili şivələrində saitlərin əvəzləməsi ədəbi dillə müqayisədə fərqli fonetik formada baş verdiyini görmək olur. Belə ki, şivələrimizdə qalın saitlər incə saitləri, dodaqlanan saitlər dodaqlanmayan saitləri, açıq saitlər qapalı saitləri əvəz edə bilir və sözün mənasında heç bir dəyişiklik yaratmır. "Azərbaycan dili dialekt və şivələri saitlərin əvəzlənməsi ilə zəngindir. Nəzərə almaq lazımdır ki, əvəzlənmə ifadəsi şərtidir, çünki dialekt və şivələrdə çox hallarda heç bir əvəzlənmə baş vermir. Dialekt və şivələrdə bu və ya başqa bir fonetik hadisə tarixən mövcuddur və indiyə kimi də davam etməkdədir. Belə olduqda aydındır ki, ədəbi dillə müqayisədə mövcud olan əvəzlənmələrdə bir çox hallarda ahəng qanununun payı vardır " (E. Əzizov,1973, s.17). Şivələrimizdəki saitlərin əvəzlənməsini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Qalın saitləri incə saitlərin əvəz etməsi.
2. İncə saitlərin qalın saitləri əvəz etməsi.
3. Dodaqlanan saitlərin dodaqlanmayan saitləri əvəz etməsi.
4. Dodaqlanmayan saitlərin dodaqlanan saitləri əvəz etməsi.
5. Açıq saitlərin qapalı saitləri əvəz etməsi.
6. Qapalı saitləri açıq saitlər əvəz etməsi.
7. Açıq saitlərin açıq saitləri əvəz etməsi.

Qalın Saitləri İncə Saitlərin Əvəz Etməsi

Azərbaycan dili şivələrində qalın saitləri incə saitlər əvəz etməsi fonetik hadisəsi geniş yayılmışdır. Bu fonetik hadisə dilimizin tarixinin tədqiqi və təhlili üçün əvəzsiz material verir.

a>ə. a səsini **ə** səsi əvəz etməsi Azərbaycan dilinin, demək olar ki, bütün şivələrində təzahür edir. Bu fonetik hadisə sözün əvvəlində, ortasında, axırında müşahidə edilir.

Sözün əvvəlində: *əxşəm "axşam" (Bakı, Quba, Naxçıvan, Cəbrayıl, Dərbənd, Muğan), əğ "ağ" (Naxçıvan, Ordubad), əlçə "alça" (Bakı, Naxçıvan, Quba, Meğri), ərəbə "araba" (Bakı, Quba, Yardımlı, Cəbrayıl, Cəlilabad), əncağ "ancaq" (Bakı), əyran "ayran", əci*

"acı", əz "az", ələm "aləm"(İraq), əyğir "ayğır" (Qarabağ), əmbə "amma" (Qazax, Çəmbərək), əyağ "ayaq" (Dərbənd, Çəmbərək), ədət "adət" (Dərbən, İraq, Çəmbərək), əxtə "axta", əxir "axır"<son (Quba), əmə "amma" (Naxçıvan, Çəmbərək, Karvansaray), əyaz "ayaz", Ərəz "Araz", əğiz "ağız", əlo "alov", əlmas "almaz", əslan "aslan", əlma "alma" (Təbriz), ərşin "arşın"<ölçü vahidi (Naxçıvan, Şəki, Çəmbərək, Karvansaray, Meğri), əyax "ayaq" (Ordubad, Naxçıvan), əc "ac" (Cəlilabad), ərxə "arxa", əğə "ağa" (Yardımlı) və s.

Sözün ortasında: *yəxşi "yaxşı", yəşil "yaşıl", yəxin "yaxın", qərə "qara", qəyin "qoyun", qəynana "qaynana", qəynata "qaynata", qərdəş "qardaş" (Naxçıvan), qəzən "qazan" (Naxçıvan, Lənkəran, Qafan), qəçi "qayçı" (Quba, Meğri,Zəngilan), qəlin "qalın", qəyə "qaya" (Zəngilan), qəyit "qayıt" (Qarakilsə), qəşov "qaşov qəmiş "qamış", qərin "qarın", çərdağ "çardağ" (Quba), səri "sarı" (Cəbrayıl), qəri "qarı"<qoca qadın, qəynər "qaynar", qəyə "qaya" (Qafan), dərəğ "daraq" (Lənkəran, Yardımlı), əğəc "ağac", qərgə "qarğa" (Lənkəran), qəyiş "qayış" (Naxçıvan, Zəngilan, Qarakilsə, Qafan, Quba), qəpi "qapı" (Dərələyəz, Naxçıvan, Quba, Zəngilan, Qarakilsə, Qafan, Cəbrayıl), qəynənə "qaynana", qəynəmağ "qaynamaq", yəxşi "yaxşı", qəğə "qağa", səğ "sağ" (Yardımlı), qəyçi "qayçı" (Bakı, Naxçıvan, Şəki, Dərbənd), qərdeş "qardaş" (Bakı, Dərbənd), qərə "qara" (Bakı, Dərələyəz, Təbriz, Lənkəran, Yardımlı, Ordubad, Naxçıvan, Meğri, Qafan), qəmçi "qamçı" (Yardımlı, Qafan, İraq), qəmiş "qamış" (Quba, Yardımlı, İraq), qəyin "qayın" (Dərələyəz, İraq, Naxçıvan), qəla "qala", qəymağ "qaymaq", günəh "günah" (İraq), ləmpə "lampa", xələt "xalat", cəhəl "cahal"<gənc, dəsməl "dəsmal" (Qazax), nişən "nişan", ayrən "ayran", yəy "yay", qonəğ "qonaq" (Dərbənd), qəyğənax "qayğanaq", qəyği "qayğı", dəsdan "daşdan", xəlis "xalis", yasəmən "yasəmən" (Qazax, Çəmbərək, Karvansaray), xəşxəş "xaşxaş", a^{o}ğəş "ağac", a^{o}ynə "ayna", cəvan "cavan", nəxir "naxır", sağməx "sağmaq", qəydə "qayda" (Meğri), qəpi "qapı" (Dərələyəz, Qarakilsə, Cəbrayıl Zəngilan), qəyiş "qayış" (Dərələyəz, Zəngilan, Qarakilsə), bəzar "bazar", nəğıl "nağıl", qərğa "qarğa", qəzan "qazan", dərax "daraq", qənat "qanad" (Təbriz), məkən "məkan", çətdi "çatdı" (Dmanisi), çəy "çay", gəvəli "gavalı", qəyə "qaya", çədir "çadır", xiyər "xiyar", qəleyçi "qalayçı", baləcə "balaca", qəlyən "qəlyan" (Şəki), qənət "qanad", bayrəm "bayram" (Şəki, Dərbənd), bəğ "bağ", dəğ "bağ" (Naxçıvan, Ordubad,Təbriz), yəxşi "yaxşı", yəşil "yaşıl", xəlçə "xalça", yərpəx "yarpaq", dələğ "dalaq" (Naxçıvan), pəxil "paxıl" (Quba, Naxçıvan), qəşəv "qaşov", qəytər "qaytar", qəynət "qaynat" (İraq), ələc "əlac" (Naxçıvan, Çəmbərək) və s.*

Sözün axırında: *qarə "qara", lobyə "lobya", yəxə "yaxa", kosə "kosa", pərçə "parça" (İraq), lovyə "lobya" (Qazax Şəki), dünyə "dünya" (Qazax Çəmbərək), həlvə "halva", parçə "parça", taxçə "taxça", alçə "alça", xalə "xala", çuxə "çuxa", heyvə "heyva" (Dərbənd), sirğə "sırğa", ağrəbə "əqraba"<qohum (Quba, Bakı, Qazax), qərə (Meğri), ərabə "araba", ustə "usta", balacə "balaca", köşə "koşa" (Təbriz), baxcə "bağça", halçə "xalça", tayə "taya", qoşə "qoşa", payə "paya", qaydə "qayda" (Şəki) və s.*

Oğuz qrupu türk dillərində, daha çox türkmən dilində a>ə səs əvəzlənməsi özünü göstərir: ədim "addım", əy "ay". Eyni zamanda a saitindən ə-yə keçid qıpçaq dillərində, xüsuslə qazax və tatar dillərində geniş yayılmışdır: bəy "bağ" (tat.), bəqır "bağır" (tat.) əydə "haydı" (tat.), əyda "haydı" (qaz.) (M.Yusifov, 1984, s. 23).

a>ə səsəvəzlənməsi orta əsrlər abidələrinin dilində özünü göstərir. Bu fonetik hadisənin müasir şivələrdə canlı olması bu hadisənin Azərbaycan dili şivələrində XIV əsrədək mövcud

olduğunu söyləmək mümkündür. İncələşmə xüsusiyyəti Azərbaycan dilinin formalaşdığı çağlardan cənub və şimal-şərq şivələrinin səciyyəvi əlamətlərindən biri olmuşdur (E.Əzizov,1999, s. 140). **a>ə** səs əvəzlənməsi Nəsiminin (qarə, qəra), Kişəvərinin (yəxşi-yəman), "Əsrarnamə"nin (bəğir, şəhliğ, qərindaş, qəyğu, yəxşi, yəxşi-yəman), Füzulinin (qəra, yəqə, əyağə), "Şühədanamə"nin (qocə, sonrə, qacər, yəxşi) dilində özünü göstərir (E.Əzizov, 1999, s. 137-138).

ı>i. ı saitindən **i** saitinə keçid şərq, şimal və cənub şivələrində özünü göstərir. Bu səs əvəzlənməsi sözün ortasında və sonunda müşahidə olunur.

Sözün əvvəlində: *ışıx "işıq", ılıx "ilıq", ıldırım "ildırım"* (Çəmbərək) və s.

Sözün ortasında: *qiş "qış" (Ordubad, Naxçıvan), xiş "xış", piçağ "bıçaq", yaşil "yaşıl" (Ordubad), biçağ "bıçaq" (Bakı), qizdirma "qızdırma" (Qarabağ), sirə "sıra", çirağ "çıraq" (Muğan), ildirim "ildırım", qariş "qarış", qicə "qıça", ayilmax "ayrılmaq", sinəmax "sınamaq", çirax "çıraq", payiz "payız", daniş "danış", çirpi "çırpı", qarğiş "qarğış", xaşil "xaşıl" (Şəki), ça^{o}yir "çayır", qeyiş "qayış", la^{o}çin "laçın"(Meğri), biğ "bığ", qil "qıl"<tük, piçaq "bıçaq" (İraq), çirpi "çırpı" (Çəmbərək, Karvansaray), çiraa "çıra" <çıraq (Çəmbərək, Muğan), qizdirmə "qızdırma", əxir "axır", qizilcə "qızılca", ariğ "arıq", sirgə "sırğa", aci "acı", əğiz "ağız"(Quba), qirmizi "qırmızı (Qarabağ, Quba), qiz "qız" (Quba, Dərbənd, İraq), qirilmaq "qırılmaq" (Quba, Qarabağ, İraq), xirdə "xırda", sindir "sındır", qirmaq "qırmaq", qirmağ "qırmaq", siniğ "sınıq", qirği "qırğı", qamiş "qamış", qalin "qalın", xiş "xış", yaşil "yaşıl", yağiş "yağış" (Dərbənd), qiç "qıç", cirmaq "cırmaq" (Quba, Dərbənd), yaxin "yaxın" (Zaqatala), altmiş "altmış" (Qax), qirx "qırx" (Quba, Dərbənd, Zaqatala, İraq) və s.*

Sözün sonunda: *albali "albalı", aşaği "aşağı" (Muğan), qaraçi "qaraçı" (Şəki), dayi "dayı" (Şəki, Muğan), a^{o}yi "ayı", a^{o}yri "ayrı", da^{o}yi "dayı", a^{o}lti "altı", ba^{o}ci "bacı", qəçi "qayçı" (Meğri), qazayaği "qazayağı", qəmçi "qamçı", qəri "qarı", yuxari "yuxarı", xali "xalı" (İraq), çirpi "çırpı", şöytəli "şaftali", güəli "gavalı" (Çəmbərək, Karvansaray), ari "arı", ilxi "ilxı", qaysi "qaysı", qırği "qırğı", kalağayi "kalağayı", qarşi "qarşı", qayçi "qayçı" (Dərbənd), sari "sarı", yaxçi "yaxşı", açi "acı", qapi "qapı", ayri "ayrı" (Muğan, Dərbənd, Şəki), ayi "ayı", baçi "bacı", yaxşi "yaxşı" (Şəki, Dərbənd), alti "altı" (Bakı, Şamaxı, Muğan) və s.*

Quba şivəsində **ı** səsinin **i** səsinə keçməsi feil köklərində və növ şəkilçilərində də müşahidə olunur. Məsələn: sin(maq), sindir(maq), yigil(maq), qiril(maq) (R.Rüstəmov, 1961,s. 25).

Qubadlı şivəsində **ı>i** səsəvəzlənməsi əsasən sözün birinci, qismən də ikinci hecalarında özünü göstərir : qiş, cir, xirmən, qiyməz, qəmiş, qəçi, qəriş (R.Abbasova, 2006, s.17). M.Şirəliyev yazır: "Şərq dialekt və şivələrində bu hadisəyə (ı>i səs əvəzlənməsi – İ.B.) ən çox söz axırında açıq hecalarda rast gəlmək mümkündür. Lakin söz axırında **i** səsinin tələffüzündə ikilik gözə çarpır. Belə ki, **i** səsi ilə yanaşı olaraq **ı** ilə **i** səslərinin qarışmasından əmələ gələn **ı^{i}** səsi də tələffüz olunur; Məsələn: Yuxari//yuxarı^{i}, qapi//qapı^{i}, sari//sari^{i}, dayi//dayı^{i}, alti//altı^{i}, gavalı//gavalı^{i}, qırğı//qırğı^{i}, hansi//hansı^{i}" (M.Şirəliyev,1967, s. 40).

u>ü. Azərbaycan dili şivələrində **u** saitinin **ü** saitinə keçməsi geniş yayılmamışdırsa, bu və ya digər şivələrdə müəyyən qədər müşahidə olunur.

u saitinin **ü** saitinə keçməsi sözün əvvəlində, ortasında və axırında özünü göstərir.

Sözün əvvəlində: *üşəx “uşaq”(Naxçıvan, Ordubad, Təbriz, Meğri), ücə “uca”, ücüz “ucuz” (Naxçıvan, Ordubad, Şəki, İraq), üşax “uşaq” (Şəki), üj “uc”, üçmaq “uçmaq”, üjqar “ucqar” (Çəmbərək), üc “uc” (Şəki, İraq), üşmax “üçmaq” (Meğri) və s.*

Sözün ortasında: *hüli “hulu” (Naxçıvan, Ordubad), qüm “qum”, qürüldəmax “quruldamaq”, yürd “yurd”, yümax “yumaq” (Təbriz), boyün “boyun”, xurcün “xurcun”, mürad “murad”, büzov “buzov”, sütün “sütun” (Şəki), yün “yun” (Şəki, Təbriz, Meğri), üçüb “uçub”, bülənmağ “bulanmaq”, Növrüz “Novruz”(Dərbənd), qoyün “qoyun”(Şəki, Dərbənd), hüş “huş” (Naxçıvan, Ordubad, Çəmbərək), hindüşqa “hinduşqa”, yüməx' “yumax”, süküt “sükut” (Çəmbərək), Müxdər “Muxtar”(Quba, Çəmbərək, Karvansaray), qüş “quş”, qüzü “quzu” (Çəbrayıl), hücüm “hücum” (Çəmbərək, İraq), yücə “uca”, nüh “nuh”, rüh “ruh”, vürüb “vurub”, Yünis “Yunis (İraq), çüyal “çuval”, çüst “çust”, püç “puç”, müşdülux “muştuluq” (Meğri), yürt “yurd”(Meğri, Şəki), Cülfə “Culfa” (Ordubad, Quba), çübux “çubuq”, büzo “buzov” (Muğan)və s.*

Sözün axırında: *övçü “ovçu” (Şəki), qüzü “quzu” (Çəmbərək), sü “su” (Qax) və s .*

o>ö. Şivələrimizdə **o** saitinin **ö** saiti ilə əvəzlənməsi çox geniş yayılmış fonetik hadisə deyil. Bu fonetik hadisə sözün birinci hecasında özünü göstərir. Məsələn: *Nörüz “Novruz” (Quba), döyğa “dovğa”, töyüx “toyuq”, söyux “soyuq” (Qazax, Çəmbərək, Karvansaray), köl “kol”, kösə “kosa”, köta^{o}n “kotan”, söyıx “soyuq”, töyıx “toyuq”, öyün “o gün” (Meğri), döydax “dovdaq”, öyüunəri “o günləri”, löyğa “lovğa”, öyux “ovuq” (Çəmbərək), öynəmeg “oynamaq” (Qax), kötən “kotan” (Təbriz, İsmayıllı), gör “gor” (İsmayıllı), yöllör “yollayır” (Dmanisi), böyünbax “boyunbağı”, öynəmax “oynamaq” (Ordubad), kösə “kosa”, köl “kol” (Təbriz, Meğri), öyün “o gün”, köbüt “kobud”, kömə “koma” (Təbriz), öynəş “oynaş” (Meğri, Zəngilan), öyüncax “oyuncaq”,döşəb “doşab”, köğuş “kğuş”, kötən “kotan”, qöhüm “qohum” (Zəngilan) və s.*

***a*>e.** a səsinin e səsinə keçməsi söz kökündə baş verir. M.Şirəliyev a>e səsəvəzlənməsini “Açıq saitlərin qapalı saitlərlə əvəzlənməsi” bölməsində izah edir. Əslində e saiti açıq saitdir. Bu fonetik hadisəyə şərq, şimal və cənub şivələrində rast gəlinir. Məsələn: *qeysi “qaysı”, qeyçi “qayçı”, qeynata “qaynata”, qeynana “qaynana”, qeymağ “qaymaq” (Bakı, Quba), qeyqənağ “qayğanaq”, teyfa “tayfa”, qərdeş “qardaş”, beşmağ “başmaq” (Quba), çey “çay”, yeş “yaş”, yeylax “yaylaq”, beyax “bayaq”<indi, çeyil “cayıl”<*cavan, *gtənc, yeymə “yayma”<çörək növü, çeylax “çaylaq”, eciz “aciz” (Şəki), qeyid “qayıt”, qeytər “qaytar”, yeylağ “yaylaq” (Bakı), qeyiş “qayış” (Bakı, Quba, Təbriz, Meğri), qeyin “qayın”, eyran “ayran” (Quba, Təbriz), qeymax “qaymaq”, qeytan “qaytan”,* qeysava *“qaysava”, qeynəmax “qaynamaq” (Təbriz), Yediyar “Yadigar”, herağac “harağac”, eşkar “aşkar” (Zəngilan), qeyçi “qayçı” (Ordubad, Quba), qeymax “qaymaq” (Ordubad, Təbriz), qeyiş “qayış”, qeyişbaldır “qayışbaldır”, geyim “qayım”, qeytan “qaytan”, yeşıl “yaşıl”, çeyxana “çayxana” (İraq), beyram “bayram” (Dərbənd, İraq), yeşil “yaşıl” (Şəki, İraq), qeynənə “qaynana”, a^{o}ğcaəğeyin “ağcaqayın”, hesa^{o}r “hasar”, qırecex' “qıracaq”, qurece “quracaq” (Meğri) və s.*

Azərbaycan dilinin Meğri şivəsində a>e səsəvəzlənməsi yönlük hal şəkilçisində də müşahidə olunur. Məsələn: ***yoxşe*** “yoxuşa”, ***bure*** “buraya”, ***ure*** “oraya” (Ə.Əliyev, 2003, s. 82).

E.Əzizov **a>e** səsəvəzlənməsinə tarixi dialektologiya baxımından yanaşaraq yazır: “a səsinin e səsinə keçməsi hadisəsi əsasən söz ortasında, bəzən isə söz əvvəlində y səsinin

təsiri nəticəsində baş verir. Deməli, bu halda açıq saitin qapalılaşması hadisəsi meydana çıxır. Bu fonetik xüsusiyyət hələ orta əsrlərdən Azərbaycan dilində əmələ gəlmişdir" (E.Əzizov, 1999, s. 142).

a>i. a səsinin **i** səsi ilə əvəzlənməsi Azərbaycan dili şivələri üçün xarakterik deyil və əsasən Bakı, Dərbənd, Meğri şivələrində müşahidə olunur. Məsələn: *diyən "dayan", diyanmağ "dayanmaq", saciyağ "sacayaq", fiyton "fayton", siməvar "samovar" (Dərbənd), dayi "daha", diyan "dayan" (Bakı), cüni "cuna"<tənzif, şüşi "şuşa", əğliyə-əğliyə "ağlaya-ağlaya" (Meğri).*

Dərbənd şivəsində "sonu **a** ilə bitən sözlərə **y** samiti ilə başlayan şəkilçi birləşdikdə **a** saiti **i** saiti ilə əvəzlənir. Məsələn: *yığlıyə "yağlaya", torbiyə "torbaya", doğiyə "dovğaya", arabiyə "arabaya", yaşiyədik "yaşaya idik", bağliyədü "bağlaya idi"* (Dərbənd dialekti, 2009, s.9).

u>i. Bu səs əvəzlənməsi Azərbaycan dilinin şərq qrupu şivələrində müşahidə olunur. Bununla belə, İraq- türkman ləhcəsində **u>i** səsəvəzlənməsi özünü göstərir. Məsələn: *bisa:d "bu saat", biyecə "bu gecə", biliyib "bulayıb", məlim "məlum" (Bakı), ildız "ulduz", imşax "yumşaq", imırta "yumurta", timar "tumar", biyurun "buyurun" (İraq), mincağ "muncuq", qurit "qurud", divağ "duvaq", bizov "buzov", duğri "doğru", qonşi "qonşu", quyi "quyu", quzi "quzu", buyniz "buynuz", xurcin "xurcun", quri "quru", izağ "uzaq", yimşağ "yumşaq" (Dərbənd) və s.*

ı>e. Bu səs əvəzlənməsinə əsasən Dərbənd şivəsində rast gəlinir. Məsələn: *xeş "xış", qermizi "qırmızı", qerağ "qıraq", serğa "sırqa", qerx "qırx", qeyiğ "qıyıq"<iynə, qerği "qırğı" (Dərbənd).*

o>i. o səsinin **i** səsinə keçməsi şivələrimiz üçün xarakterik olmasa da, Dərbənd şivəsində bir neçə sözdə sözün birinci hecasında müşahidə olunur. Məsələn: *cirab "corab", dişab "doşab", bistan "bostan" (Dərbənd).*

u>e. Bu səs əvəzlənməsi Dərbənd şivəsində məhdud dairədə müşahidə olunur. Məsələn: *yemşağ "yumşaq".*

o>ü. o səsinin **ü** səsinə keçmə fonetik hadisəsi Quba şivəsinin Alpan kənd şivəsində, Qərbi Azərbaycanın Meğri şivəsində müşahidə olunur. Məsələn: *kütənçi "kotançı" (Quba), düşap//düşa^{o}p "doşab", üyən "oyan", üya^{ə}x "oyaq", üde "odu" (Meğri) və s.*

İncə Saitlərin Qalin Saitləri Əvəz Etməsi

İncə saitlərin qalın saitlər əvəz etməsi şivələrimiz üçün xarakterik fonetik hadisələrdən biridir. **e** saitindən başqa bütün incə saitlər qalın saitləri əvəz edə bilir.

ə>a. ə saitinin **a** saitini əvəz etməsi fonetik hadisə sözün əvvəlində, ortasında və axırında müşahidə olunur.

Sözün əvvəlində: *Alyar "Əliyar", avaz "əvəz", Aləsgər "Ələsgər" (Çəmbərək), ağraba "əqrəba", alahida "əlahiddə", alaş "əlac" (Meğri), asıl "əsil" (Quba, İraq), ajdaha "əjdaha", acdad "əcdad", atraf "ətraf", ayalat "əyalət" (İraq).*

Sözün ortasında: *haman "həmin", halak "həlak", sabr "səbr", tasdıx "təsdiq", surat "sürət", kal "kəl", tuşman "düşmən" (Qazax), xavar "xəbər" (Qazax, Gəncə, Qarabağ, Şəki, Dərbənd, Dmanisi, Çəmbərək), hekal "heykəl" (Naxçıvan, Təbriz, Dərbənd), xazna "xəzinə" (Qazax, Təbriz), caza "cəza", qaral "qərar", xazan "xəzan" (Təbriz), Zeynaf "Zeynəb"*

(Qazax, Qarabağ, Şəki, Gəncə, Çəmbərək, Karvansaray), Hasan "Həsən" (Qarabağ, Çəmbərək, Karvansaray), xarc "xərc" (Qarabağ, Şəki, Çəmbərək), yanı "yəni" (Qarabağ, Təbriz, Çəmbərək), cahat "cəhət" (Karvansaray), nazar "nəzər" (Qazax, Çəmbərək, Karvansaray), yaqın "yəqin", kanar "kənar", tuşman "düşmən", sıfat "sifət" < üz, fırsat "fürsət", qiymat "qiymət", xamra "xəmrə", karan "kərən" (Çəmbərək, Karvansaray), hayat "həyət" (Qazax, Çəmbərək, Naxçıvan, Muğan, Dərbənd, Meğri), xamır "xəmir" (Basarkeçər, Çəmbərək), xamıraşı "xəmiraşı" < xörək adı (Bakı), inaq "inək", curaq "çörək", supurqa "süpürgə", köhna "köhnə", dars "dərs" (Zaqatala), maclis "məclis", xoraq "xörək", tufanq "tüfəng", yeqa "yekə", mektab "məktəb", yahar "yəhər", curbacura "cürbəcür" (Qax), Heydar "Heydər", cafa "cəfa", kavar "kəvər", sərhad "sərhəd", hekal "heykəl", maxmar "məxmər", tassıx "təsdiq" (Naxçıvan), zayif "zəif" (Naxçıvan, Dərbənd), daniz "dəniz", taza "təzə", mana "məna" (Dərbənd), düşman "düşmən" (Dərbənd, Təbriz, Dimanisi, İraq, Çəmbərək, Karvansaray), hakim "həkim", sadaca "sadəcə", maxluğ "məxluq" (Dərbənd), man "mən", qabır "qəbir" (Dmanisi), xançəl "xəncər", çaltıx' "çəltik", dilavar "dilavər", cald "cəld", masal "məsəl", kalçə "kəlçə", gal "gəl", xazal "xəzəl" (Qax, Şəki), tikan "tikən" < tik sözü feili sifət formasında (Şəki), xançal "xəncər", ataş "atəş", say "səy"< dəli, gic, ağılsız, kalla "kəllə", sada "səda", halak "həlak" (Meğri), lağab "ləqəb" (Quba, Qubadl), heyat "həyət", peyvand "peyvənd", quvat "qüvvət", bibar "bibər", mana "mənə", maxluğ "məxluq", ya:ni "yəni", çapar "çəpər" asıl "əsil", tika "tikə" (Quba), xabar "xəbər" (Bakı, Quba), adat "adət", bay "bəy", baxt "bəxt", qanşar "qənşər"<qabaq, ön, türkman "türkmən", hökumat "hökumət", qassab "qəssab", karki "kərki" (İraq), barabar "bərabər" (Təbriz, İraq), keçal "keçəl" (Dərbənd, İraq), caltik "çəltik" (Bakı, Quba, Dərbənd), zarar "zərəl",cafa "cəfa", ataş "atəş", yanı "yəni" (Qubadlı) və s. .

Sözün sonunda: *kira "kirə", kirva "kirvə", xonça "qönçə" (Çəmbərək), çara "çarə" (Dərbənd, Qubadlı, Meğri, Çəmbərək, Karvansaray), səli:qa "səliqə", noxda "nöqtə" (Şəki), lala "lalə", surfa "süfrə" (Şəki, Çəmbərək), qüvva "qüvvə" (Qazax, Qarabağ, Gəncə, Naxçıvan, Təbriz, Muğan Meğri), quvva "qüvvə", gora "görə" (Qubadlı), cuma "cümə" (Qazax, Qarabağ, Gəncə, Naxçıvan, Muğan), idara "idarə" (Qazax, Muğan, Naxçıvan, Zaqatala), meyva "meyvə" (Qazax, Dərbənd), taza "təzə" (Dərbənd, Təbriz), miyva "meyvə", tika "tikə" (Quba), icaza "icazə" (Şəki, Quba, Çəmbərək, Karvansaray), biçara "biçarə", qonça "qönçə", madda "maddə" (İraq), piyala "piyalə" (Dərbənd, İraq), xazna "xəzinə" (Qarabağ, Təbriz) və s.*

Ordubad şivəsində "qəl" sözündəki **ə** səsi **a** səsi ilə əvəzlənərək "*gal*" şəklində tələffüz edilir. ***gəl*** *gal* formasında Zaqatalanın Aşağı Tala, Muğanlı, Gögəm şivələrində də müşahidə olunur (Naxçıvan qrupu şivələri, 1962, s. 23).

i>ı. İncə **i** səsinin qalın **ı** səsini əvəz etməsi şivələrimizin əsasən qərb qrupu üçün xarakterik haldır. Bununla belə, Muğan, Zaqatala, Qax, Naxçıvan, Təbriz, Dərbənd şivələrində, İraq- türkman ləhcəsində **i** səsinin **ı** səsinə keçməsi müşahidə olunur. Bu fonetik hadisə sözün əvvəlində, ortasında və axırında özünü göstərir.

Sözün əvvəlində: *ışqırax "içqıraq", ınıltı "inilti", ınnaf "innab" (Qazax, Çəmbərək, Karvansaray), ışdah "iştaha", ısdammax "islanmaq", ıdara "idarə", ısfaha "isfa-ha"<səliqəli, ışıldamax "işıldamaq", ımkan "imkan", ınkar "inkar", ıntızam "intizam", ısbat "isbat", ıxdıyar "ixtiyar" (Çəmbərək, Karvansaray), ılxı "ilxı", ılıx "ılıq", ılan "ilan" (Qarabağ, Naxçıvan, Ordubad, Təbriz, Çəmbərək, Karvansaray, Meğri), ıxtılat "ixtilat"*

(Dərbənd), ıxdiy^{o}r “ixtiyar”, ıssıt “issit”<qızdır (Meğri), ışıx “işıq”, ıldırım “ildırım” (Qazax, Çəmbərək, Karvansaray, Naxçıvan, Ordubad, Təbriz, Meğri, Zaqatala), ılıx “ilıq” (Qarabağ, Naxçıvan, Ordubad, Çəmbərək, Karvansaray, Meğri, Qax) və s.

Sözün ortasında: *bıldırçın “bildirçin”, bıldır “bildir” (Qazax, Dmanisi), kıf “kif”, qıymat “qiymət”, katıf “katib”, zalım “zalim” (Qazax), ırax “iraq”(Qazax, Çəmbərək, Karvansaray), tasdıx “təsdiq”, kıra “kirə”, kırva “kirvə”, qısım “qisim”<hissə (Çəmbərək), qısmat “qismət”, sıfat “sifət”<üz, taxsır “təqsir”, xamır “xəmir”, qıyax “qiyax”< ot növü, cıncılım “cincilim”, zıyan “ziyan”, nışan “nişan”, cınar “çinar”, xılas “xilas” (Çəmbərək, Karvansaray), pıtı “piti”, ta:rıx “tarix” (Naxçıvan), kafır “kafir”, muharıba “müharibə” (Dərbənd), zabıt “zabit”, tılsım “tilsim”, tıfıl “tifil”, sətır “sətir”, Tahır “Tahir”, hasıl “hasil” (İraq), vıc-vıca “vic-vicə”, tın “tin” (Bakı), İğrığ “İqrıq” (Quba), hırs “hirs”, sır “sirr”, dıvar “divar”, sıfarış “sifariş”, qılba “qiblə”, şayır “şair”, tacır “tacir”, ayıp “eyib”, acız “aciz”, zamın “zamin”, qabıl “qabil”, layıx “layiq” (Meğri), xayın “xain” (Meğri, İraq), əzazıl “əzazil”, kesıx “kəsik”, qıymat “qiymət”, xalıs “xalis”, tarıx “tarix”, vayıs “bais”, namızad “namizəd”, nıtq “nitq”, cıns “cins”, təsdıx “təsdiq” (Şəki), sıçan “siçan”, hasıl “hasil”, qısmat “qismət”, sırr “sirr”, mısqal “misqal”, fayız “faiz” (Təbriz), fırnı “firni” (Qazax, Qax).*

Sözün sonunda: *karantı “kərənti”, Baxşalı “Baxşəli”, binalı “binəli”<həmişə (Çəmbərək), dahı “dahi” (Dərbənd), mavı “mavi”, xüsusı “xüsusi”, yeddı “yeddi” (İraq) və s.*

ö>o. Azərbaycan dili şivələrində **ö** saitini **o** saitinin əvəz etməsi geniş yayılmış fonetik hadisə deyil. Bu fonetik hadisə sözün birinci və ikinci hecasında özünü göstərir. Məsələn: *noxta “nöqtə” (Şəki, İraq,Çəmbərək), nobalnan “növbə ilə” (İraq), kusov “kösöv”, xorak “xörək”, bilov “bülöv”, bitov “bütöv”, kisov “kösöv” (Dərbənd), novat “növbə”, şoyğ “sövq”, noqta “nöqtə”, tova “tövbə” (Çəmbərək), xonça “qönçə” (İraq, Çəmbərək), noxsan “nöqsan” (Dərbənd, Çəmbərək), toyla “tövlə” (Qazax, Çəmbərək), konul “könül”, nokər “nökər” (Qazax), koŋul “könül”, kontoy “köntöy”<tərs (Çəmbərək), o:lad “övlad”, mo:zu “mövzu”, mo:hur “möhür”, no:bə “növbə”, to:la “tövlə”, ko:hna “köhnə” (Təbriz), noğda “nöqtə” (Şəki, Çəmbərək), tovla “tövlə”, köso “kösöv”, pito “bütöv”, çol “çöl” (Şəki), xorəx' “xörək”, mohumat “mövhumat”, qonça “qönçə”, sovda “sövda”<sevda (Meğri), to:ba “tövbə” (Təbriz, Meğri) və s.*

ö saitini o saitinin əvəz etməsi Naxçıvan qrupu şivələrindən Culfa rayonu şivəsində bir sözdə - ***gora*** “görə” sözündə, Quba şivəsində isə ***nobat*** “növbə” sözündə təsadüf edilir.

ü>u. u səsinin **ü** səsini əvəz etməsi şivələrimizdə özünü göstərən fonetik hadisələrdən biridir. Azərbaycan dilinin başqa şivələrinə nisbətən bu hadisəyə Muğan, Zaqatala, Qax və Qazax şivələrində daha tez-tez rast gəlmək mümkündür (M.Şirəliyev, 1967, s. 43). Bununla yanaşı **ü** səsini **u** səsi əvəz eməsi Bakı, Quba, Təbriz, Şəki, Dərbənd, Naxçıvan qrupu, Qərbi Azərbaycanın Çəmbərək, Karvansaray, Meğri şivələrində, eləcə də İraq-türkman ləhcəsində müşahidə olunur. Məsələn: *surfa “süfrə” (Şəki, Qazax, Meğri, Zaqatala, Qax), quvatdı “qüvvətli”, duqu “düyü”, uş “üş”<üç, yunqul “yüngül”, qul “gül”, dun “dün”<dünən (Zaqatala, Qax), quvat “qüvvə” (Bakı, Quba, Meğri), Mursal “Mürsəl”, urumceg “ürümceg”<hörümçək (Quba), quva^{ə}t “qüvvə”, muxdəsər “müxtəsər”, xulasa “xülasə”, xula^{ə}seyi “xülasə”, qurba^{ə}t “qürbət”, gumra^{ə}h “gümrah” (Meğri), duşman “düşmən” (Təbriz, Çəmbərək), mohur “möhür”, mumkin “mümkün”, gurbət “qürbət”, subut “sübut”*

(Təbriz), umit "ümid" (Təbriz, Meğri), yuŋul "yüngül", un "ün", quvvalı "qüvvəli" (Qazax), zulmat "zülmət" (Şəki, Qazax, Təbriz, Meğri), burc "bürc" (Çəmbərək, İraq), yunul "yüngül", koŋul "könül" (Çəmbərək), qusur "qüsur", umut "ümid", guman "güman", xususu "xüsusi", hucum "hücum" (Çəmbərək, Karvansaray), tuşman "düşmən", qunc "künc" (Qazax, Çəmbərək), sutun "sütun" (Naxçıvan, Muğan, Dərbənd, Meğri), cuma "cümə" (Qazax, Naxçıvan, Təbriz, Çəmbərək, Meğri), guya "güya", qunurta "günorta", şuvut "şüyüt" (Dərbənd), usyan "üsyan", umud "ümid", usul "üsul", qunorta "günorta", murabba "mürəbbə", zulm "zülm", qulla "güllə", mutlaq "mütləq", xususi "xüsusi" (İraq), şua "şüa", dunya "dünya" (Dmanisi), sut "süd", sumbul "sünbül", supra "süprə"<süfrə, yuqən "yüyən", yuq "yük" (Zaqatala), duğu "düyü" (Qax),uç "üç" (Zaqatala,İraq, Qax) və s.

e>a. e səsini **a** səsi əvəz etməsi şivələrimizdə geniş yayılmamışdır. Bu fonetik hadisə Quba, Bakı, Qazax, Muğan qrupu, Qərbi Azərbaycanın Çəmbərək, Karvansaray şivələrində, eləcə də İraq- türkman ləhcəsində az halda özünü göstərir. Məsələn: *hayva "heyva" (Bakı, Quba, Qazax), hayvan "heyvan", quzay "qüzey" (Quba), aşq "eşq", pancar "pencər", başarmağ "becərmək", yarkökü "yerkökü", aynan "eynən" (İraq), Ayvaz "Eyvaz" (Qazax, Çəmbərək, Karvansaray), ayv "eyib", hayf "heyf", qaydına qalmax "qeydinə qalmaq" (Çəmbərək, Karvansaray), ayıf "eyib" (Qazax) və s.*

ö>u. Bu fonetik hadisəyə Təbriz şivəsində rast gəlinir: *xurəx' "xörək", quncə "qönçə", nukər "nökər" və s.*

i>u. i səsini **u** səsi əvəz etməsi Azərbaycan dili şivələrindən İraq-türkman ləhcəsində müşahidə olunur. Məsələn: *vucdan "vicdan", duvar "divar", yuldırım "yildirım"< ildırım, şumal "şimal" və s.* Qərbi Azərbaycan şivələrində incə saitləri qalın saitlər əvəz etməsi i>ı, ə>a, ü>u səsləri arasında müşahidə olunur (Erdal Karaman, 2011, s.45).

E.Əzizov yazır: "Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri qalınlaşma xüsusiyyıti ilə seçilir. Bu xüsusiyyət ən çox ə>a, ü>u, i>ı əvəzlənmələrində özünü göstərir. Bunların içərisində geniş yayılanı ə>a (xavar, sufat, numra, kal və s. kimi) əvəzlənməsidir. Tədqiqatlar göstərir ki, bu hadisəyə dialekt və şivələrimizin hamısında rast gəlmək mümkündür" (E. Əzizov, 1973, s. 17).

Dodaqlanan Saitlərin Dodaqlanmayan Saitləri Əvəz Etməsi

Azərbaycan dili şivələrində dodaqlanan saitlərin dodaqlanmayan saitləri əvəz etməsi geniş yayılmış fonetik hadisələrdəndir. M.Məmmədli Təbriz, M.İslamov Dərbənd şivələrində bu fonetik hadisəni, yəni dodaqlanan saitlərin dodaqlanmayan saitləri əvəz etməsi fonetik hadisəsini "arxasıra saitlərinin arxasıra satləri ilə əvəzlənməsi" adı ilə izah etmişlər (M.Məmmədli, 2007, s. 32-34; Dərbənd dialekti, 2009, s. 11-16).

o, u, ö, ü dodaqlanan saitlərin **a, ı, e, ə, i** dodaqlanmayan saitləri əvəz etməsi sözün müxtəlif yerlərində müşahidə olunur.

o>a. Bu fonetik hadisə əsasən Azərbaycan dilinin cənub qrupu şivələrinə xasdır. Eyni zamanda **o** səsini **a** səsi əvəz etməsi Bakı, Dərbənd, İraq- türkman, Qərbi Azərbaycanın Meğri, Dərələyəz şivələrində də müşahidə olunur. **o>a** səs əvəzlənməsi sözün əvvəlində və ortasında özünü göstərir.

Sözün əvvəlində: *av "ov", avçı "ovçu" (Naxçıvan, Ordubad, Təbriz, Meğri, Dərələyəz, İraq), avıc "ovuc" (Naxçıvan, Ordubad, Meğri), avdıx "ovduq" (Naxçıvan, Meğri, Dərələyəz), avıd "ovud" (Naxçıvan, Ordubad, Meğri, Dərbənd, İraq) və s.*

Sözün ortasında: *qavırma "qovurma", qavmax "qovmaq", tavla "tovla", savırmax "sovurmaq" (Dərələyəz, Naxçıvan, Meğri, Ordubad), malla "molla" (Təbriz, Dərbənd, Meğri), qahım "qohum" (Dərələyəz), davğa "dovğa" (Naxçıvan), çavqın "çovğun", qənav "qənov" (Meğri), tavlamax "tovlamaq" (Təbriz, Meğri), xaca "xoca", qapmax "qopmaq", simavər "simovər"<samovar (Təbriz), havuz "hovuz", davşan "dovşan" (Naxçıvan, Dərbənd), bızav "buzov" (Ordubad, Dərbənd, İraq), qavun "qovun", qavağ "qovaq", girav "girov", qavurma "qovurma" (Dərbənd), cilav "cilov", pılav "pulov" (Ordubad), bıxav "buxov", qavğa "qovğa" (Naxçıvan, Ordubad, Meğri, Dərbənd, İraq), qavın "qovun" (Naxçıvan, Ordubad, Meğri, Dərbənd, Təbriz, İraq), oxlav "oxlov" (Ordubad, İraq), dalan "dolan", dalaşmaq "dolaşmaq" (İraq) və s.*

ö>ə. Azərbaycan dili şivələrinin cənub və şərq qrupunda müşahidə olunan fonetik hadisələrdən biri də **ö** səsini **ə** səsinin əvəz etməsidir. **ö>ə** səs əvəzlənməsi əsasən sözün birinci hecasında müşahidə olunur. Məsələn: *dəvlət "dövlət" (Naxçıvan, Meğri,Qbadlı), kösəv "kösöv" (Naxçıvan, Qubadlı), təvci "tövcü"<töycü (Naxçıvan, Meğri), əvlat "övlad", dəvr "dövr", əmir "ömür", həfsələ "hövsələ", əfgaᵊlaᵊmaᵊx "öfgələmək" (Meğri), cəviz "cövüz"<qoz, kəfşən "köfşən" (Meğri, Dərələyəz), əvlad "övlad", təvlə "tövlə" (Naxçıvan, Ordubad, Meğri, Cəbrayıl), həvsələ "hövsələ", dəvir "dövr" (Çəmbərək), əfkələ "öfkələ", əzbək "özbək", çəmçə "çömçə", kəvşəmağ "kövşəmək", məhtac "möhtac", çəhrə "çöhrə", cəvlan "cövlan" (İraq), döyrüş "dərviş", köykür "kəfkir", lövhələməx' "ləhləmək" (Çəmbərək) və s.*

Şivələrimizdə **ö>ə** səs əvəzlənməsinə sözün ikinci hecasında da müşahidə olunur. Məsələn: *bitəv "bütöv", bənəfşə "bənövşə", biləv "bülöv" (Naxçıvan, Ordubad, Cəbrayıl, Meğri, İraq) və s.*

u>ı. Bu fonetik hadisə əsasən dilimizin şərq, qərb və cənub qrupu şivələrində, eyni zamanda Dərbənd, İraq- türkman şivələrində müşahidə olunur. **u>ı** səsəvəzlənməsi sözün əvvəlində, ortasında və axırında özünü göstərir.

Sözün əvvəlində: *ıldız "ulduz" (Qazax, Çəmbərək), ışağ "uşaq"," (Bakı).*

Sözün ortasında: *bızo: "buzov", bıxo: "buxov", Qısar "Qusar" (Quba), zırna "zurna" (Quba, İraq), pısmax "pusmaq" (Dmanisi), sıvax "suvaq", arzılamax "arzulamaq", axır "axur" (Çəmbərək, Karvansaray), qoyın "qoyun", bızay "buzov", munın "bunun" (Qazax), savın "sabun" (Qazax, Çəmbərək), Mahmıd "Mahmud", qavıl "qəbul", mahıt "mahud", sığırta "suğurta", bıxov "buxov" (Şəki), namıs "namus", Avdılla "Abdulla" (Şəki, Dmanisi, Çəmbərək), pıl "pul", bıra "bura", bığda "buğda", bıynız "buynuz", bılağ "bulaq", dırna "durna", uğıl "uğul"<oğul, quyın "quyun" <qoyun (Dərbənd), bızav "buzov", bıxau "buxov", buynız "buynuz", burın "burun", tırac "turac", quyrıq "quyruq", munın "bunun", quyrığ "quyruq" (İraq), bıxov "buxov" (Dərbənd, İraq), qoyın "qoyun" (Qazax, İraq), bığda "buğda", bız "buz", bıra "bura", ışağ "uşaq", vırdım "vurdum" (Bakı), bı "bu", bılar "bunlar" (Bakı, Qazax), dıva "duva"<dua, qılp "qulp", armıt "armud" (Qazax, Meğri), çıbıx "çubuq", quyrıx "quyruq", udın "odun", utız "otuz", qanın "qanun" (Meğri), muncıx "muncuq", qoşın "qoşun", xurcın "xurcun", boyın "boyun", oyın "oyun", odın "odun", noğıl "noğul", qotır "qotur" (Təbriz), bıra "bura", bığda "buğda" (Naxçıvan, Ordubad), bırın "burun", bılax "bulaq", bınnar "bunlar", tırp "turp", bıynız "buynuz", pıl "pul", pıtax "budaq", Mıstafa "Mustafa", Cılfa "Culfa", Mıxdar "Muxtar" (Naxçıvan), pıt "pud" (Qazax, Naxçıvan) və s.*

Sözün axırında: *qorxı “qorxu”, doğrı “doğru”, yuxı “yuxu” (İraq), oxı “oxu” (Dərbənd, İraq), arzı “arzu” (Çəmbərək, Karvansaray, İraq), dulı “dolu”, durı “duru”, tuxlı “toğlu” (Meğri), bı “bu” (Naxçıvan, Ordubad) və s.*

u>ı^{i}. Bu fonetik hadisəyə Bakı və Quba şivələrində rast gəlinir. Məsələn: *quzı^{i} “quzu”, durı^{i} “duru”, Nurı^{i} “Nuru” (Bakı, Quba), lorı^{i} “loru”, kudı^{i} “kudu”, quyı^{i} “quyu” (Bakı), qurı^{i} “quru”, çutqı^{i} “çutqu”, yumrı^{i} “yumru”, toğlı^{i} “toğlu” (Quba) və s.*

u>a. Azərbaycan dili şivələrində **u>a** səs əvəzlənməsi az təsadüf edilən fonetik hadisələrdən biridir. Bu fonetik hadisə Bakı, İraq-türkman şivələrində özünü göstərir. Məsələn: *oxar “oxur”, quradı “qurudu” (Bakı), mağam “muğam”, tumurcağ “tumurcuq”, saval “suval”<sual (İraq).*

u>i. Bu səs əvəzlənməsinə şivlərimizdə az rast gəlinir. Bu fonetik hadisə sözün əvvəlində, ortasında və axırında özünü göstərir.

Sözün əvvəlində: *ildız “ulduz” (Naxçıvan, Qubadlı, Muğan, Qax), izinboğaz “uzunboğaz” (Zaqatala), işax “uşaq” (Zaqatala, Muğan), Məhmid “Mahmud” (Qax), Temir “Teymur” (Qazax, Qax, Şəki, Gəncə, Çəmbərək, Basarkeçər), və s.*

Sözün ortasında: *bizav “buzov” (Muğan Qax), bizoğ “buzov” (Sabirabad, Qax), biyil “bu il” (Şəki, Qax), mə:sil “məhsul” (Bakı, Şamaxı, Qazax, Muğan), mənsil “məhsul” (Şəki, Sabirabad, Qubadlı, Qax) və s.*

Sözün axırında: *quri “quru”, duri “duru”, yuxi “yuxu”, oğri “oğru” (Bakı, Muğan Ordubad), qonşi “qonşu” (Bakı, Şamaxı, Şəki, Muğan Qax), yumri “yumru” (Bakı, Muğan Zaqatala, Qax) və s.*

ü>i. i səsini **ü** səsi əvəz etməsi Azərbaycan dili şivələrinin şərq qrupu üçün xarakterik olsa da, Dərbənd, Şəki, Qərbi Azərbaycanın Meğri, İraq- türkman şivələrində də müşahidə olunur. Bu fonetik hadisə sözün əvvəlində, ortasında və axırında özünü göstərir.

Sözün əvvəlində *imid “ümid”, imumiyyətlə “ümumiyyətlə”, ifirmək üfürmək“, iskik “üskük”, için “üçün” (İraq) və s.*

Sözün ortasında: *kilfənd “külfənd” <külfət (Bakı), cürinti “çürüntü”, üzig “üzük”, züngil “hüngül” < yüngül, kürig “kürüg”< at balası, bilov “bülov”, gümiş “gümüş”, ükiz “öküz”, hündir “hündür”, kürpi “körpü”, bitov “bütöv”, böyig “böyük” (Dərbənd), kifdə “küftə”, midət “müddət”, binərvə “bünövrə”, niminə “nümunə”, Miseyip “Müseyib”, mifdə “müftə”, Zilfiqar “Zülfüqar”, söyit “söyüd”, Mina^{ə}vva^{ə}r “Münəvvər”, bölix^{I} “bölük”, böyix “böyük” (Meğri), yüngil “yüngül”, sipirgə “süpürgə”, üzik “üzük”, hörik “hörük” (İraq), Zileyxa “Züleyxa”, biləv “bülöv” (İraq, Meğri), sünbil “sünbül”, bitəv “bütöv”, Miseyib “Müseyib”, milayim “mülayim”, cirbəcirə “cürbəcirə “cürbəcürə”, kiflət “küflət”, kömir “kömür“, Əbdil “Əbdül”, Zilfiqar “Zülfüqar” (Naxçıvan, Meğri), biləv “bülöv” (Ordubad), kötix' “kötük”, Göynix' “Göynük”, döşdix' “dözdük”, Minəvvər “Münəvvər”, bilöv “bülöv” (Şəki), süri “sürü” (Şəki, İraq), üti “ütü” (Şəki, Dərbənd), Zülviqar “Zülfüqar”, mileyim “mülayim” (Çəmbərək), təcribə “təcrübə” (Qazax) və s.*

Sözün axırında: *hüni “hünü”, Güli “Gülü”, kürpi “körpü” (Quba), güzgi “güzgü” (Quba, Şəki, Naxçıvan, İraq, Meğri), tülki “tülkü” (Quba, Ordubad, Təbriz, Naxçıvan), bölgi “bölgü“, düyi “düyü” (Meğri), körpi “körpü”, quştüki “quştükü” < balış (İraq), tülki “tülkü”, körpi “körpü”, dügi “düyü” (Dərbənd, Təbriz), süri “sürü”, kürsi “kürsü” (Şəki,*

Təbriz), tüssi "tüstü" (Təbriz) və s.

ü>i. Bu səs əvəzlənməsi şəkilçilərdə də özünü göstərir. Dərbənd şivəsində bəzi sözlərə leksik və ya qrammatik şəkilçi qoşulduqda "ü dodaq saitinin ahənginə tabe olmayaraq onun damaq variantı i ilə işlənir: Məsələn: suti "südü", tükib" "töküb", üzi "üzü", düşdigim "düşdüyüm", üzim "üzüm", özim "özüm", üçimci "üçümcü", dördimci "dördüncü", bö:gim "böyüyüm" (Dərbənd dialekti , 2009, s. 19).

Dodaqlanmayan Saitlərin Dodaqlanan Saitləri Əvəz Etməsi

Azərbaycan dili şivələrində dodaqlanmayan saitlərin hamısı dodaqlanan saitləri səs əvəzlənməsində iştirak edir.

a>o. a səsini **o** səsi əvəz etməsi əsasən şərq qrupu şivələrinə xas olan fonetik hadisə olsa da, Naxçıvan, Ordubad, Dərbənd, Şəki, Qazax, Zaqatala – Qax, Qərbi Azərbaycanın Meğri şivələrində də müşahidə olunur. Bu, Azərbaycan dialektologiyasında "o"-laşma hadisəsi də adlandırılır. Bu fonetik hadisəyə sözün əvvəlində və ortasında rast gəlinir.

Sözün əvvəlində : *o:xur "axur" (Quba), ombar "ambar", obır "abır", oman "aman" (Meğri), ovam "avam" (Dərbənd) və s.*

Sözün ortasında: *boca "baca", popağ "papaq", doban "daban", dova "dava" (Bakı), saxsoğan "saxsağan", çarsof "çarşab", dovar "davar", gomüş "gamış"<camış (Quba), boba "baba" (Bakı, Quba, Ordubad, Dərbənd, Meğri), bobat "babat" (Bakı, Meğri), lovaş "lavaş", (Quba, Meğri), boyatı "bayatı", Nobat "Nabat", homı "hamı", tomaşa "tamaşa", boğ "bağ", yovan "yavan", xom "xam", qopı "qapı", Sovalan "Savalan", İsrofil "İsrafil", imom "imam" (Meğri), popax "papaq" (Ordubad, Şəki, Meğri), yoxun "yaxın", hovla "halva" (Naxçıvan), bormax "barmaq", bo:vat "babat", boval "baval"<günah, bova "baba", bofa "bafa", Do:d "Davud" (Şəki), covan "cavan"<gənc, yovaş "yavaş", boyati "bayatı", şoftali "şaftalı", boş "baş", boşqa "başqa", qovali "qavali"<gavalı, boci "bacı", xotun "xatun", yolov "yalov"< alov, qotuğ "qatıq" (Dərbənd), hova "hava" (Bakı, Dərbənd), tova "tava" (Quba, Dərbənd), comuş "camış", poşdan-poşa "başdan-başa", çarşoy "çarşab" (Qazax), suvoy "subay" (Çəmbərək, Qazax, Şəki), yovaş-yovaş "yavaş-yavaş" (Bakı, Qazax) və s.*

Bakı şivəsində isimlərin axırında işlənən **a** saiti mənsubiyyət kateqoriyasının II şəxs tək və cəm şəkilçilərini qəbul etdikdə a>o səs əvəzlənməsi baş verir. Məsələn: *boban "sənin baban", aton "sənin atan", ato:uz "sizin atanız", xalo:uz "sizin xalanız".*

"Müasir türk dillərində "o"-laşma hadisəsini özündə ən çox əks etdirən özbək dilidir. Məsələn: *çoy<çay, kiymok, olov, ota (ata), farmon, odam, odim (addım), kitob, boş<baş, bobo. Başqa türk dillərində də bu hadisəyə rast gəlmək mümkündür; Yakut dilində: olus<alıs, xomus<xamıs, xotun<xatun, sollır<salır; Xakas dilinin Qızıl dialektində: oboom<abaam (mənim dayım), poboom<pabam (mənim atam) və s.; qaraqalpaq dilində: djovan<djavan və s.; uyğur dilində: bova, dova<davan (pereval), koşuk<qaşıq, oçuk<açıq" (*M.İslamov,1968, s. 27).

Azərbaycan dili şivələrində **a>o** səs əvəzlənməsi ilə bağlı M.Şirəliyev yazır: "o"laşma hadisəsi ilə məşhur olan a səsinin o səsi ilə əvəzlənməsi daha çox Bakı dialektinə aiddir. Bunu da qeyd etməliyik ki, türk dillərində təsadüf edilən "o"laşma hadisəsi müqayisəli tarixi üsulun tətbiq edilməməsi nəticəsində çox vaxt tat dilinin və ya tacik dilinin təsiri ilə izah edilirdi. Dilçilik məsələlərinin müzakirələrindən sonra müqayisəli-tarixi üsulun tətbiqi nəticəsində

məlum oldu ki, a səsini o səsi ilə əvəzlənməsi hadisəsi türk dillərinin əsas fonetik qanunlarından biridir" (Naxçıvan qrupu şivələri,1962, s. 26).

a>u. Bu fonetik hadisə Baki şivəsində özünü göstərsə də, Quba, Dərbənd, Naxçıvan, Qazax, Qarabağ, Şəki, Zaqatala şivələrinin, İraq-türkman ləhcəsinin söz kökündə və şəkilçinin tərkibində də müşahidə olunur. Məsələn: *Cuad "Cavad" (Bakı, Qazax, Zaqatala), uara "avara", tua "tava", gualı "gavalı", suatdı*^{i} *"savadlı" (Bakı), cuvab "cavab" (Naxçıvan, İraq), cuab "cavab" (Naxçıvan), yuvağ "yavaq", duva "dava", uvand "avand" (Quba), cuvan "cavan" (Quba, Dərbənd, Şəki, Zaqatala), yuan "yavan" (Bakı, Qazax, Zaqatala), yuaş-yuaş "yavaş-yavaş", qurtul "qurtar" (Qazax), suvab "savab", sumavar "samavar", luvaş "lavaş", muğara "mağara" (Dərbənd), cuğab "cağab"<cavab (Quba, Dərbənd, İraq), yuvaş "yavaş" (Bakı, Dərbənd, İraq), buğarsıx "bağırsaq", buğarsax "bağırsaq", zuvallı "zavallı" (İraq), yuvan "yavan" (Bakı, Qazax, Zaqatala) və s.*

a>u. Bu səs əvəzlənməsi Quba, Gürcüstanın Dmanisi şivəsində şəkilçinin qoşulması nəticəsində də özünü göstərir: *atun "sənin atan" (Quba), tulluyar "tullayar", qocuyu "qocanı", buruynan "burayla" (Dmanisi).*

ə>ö. ə səsini **ö** səsi əvəz etməsi əsasən Bakı, Qazax şivələrində, eyni zamanda Quba, Dərbənd şivəsində də müşahidə olunur. Məsələn: *nöşün "nə üçün", bösdü "bəsdi", hövəs "həvəs", dövrüş "dərviş", kövər "kəvər" (Bakı), öyöy "əyəy", köykür "kəfkir", möhübbət "məhəbbət" nöfsü "nəfəsi", söylördü "söyləyərdi", görsöydü "görsəydi" (Qazax), mö:kəmə "məhkəmə", dövriş "dəvriş" (Quba), dövrüş "dəvriş", övölüg "əvəlik", övəlig "əvəlik", hövəkdəstə "həvəkdəstə", övvəl "əvvəl", hövə "həvə", çöküc "çəkic" (Dərbənd), dövə "dəvə" (Bakı, Dərbənd), növə "nəvə" (Quba, Dərbənd) və s.*

e>ö. Bu fonetik hadisə əsasən şərq və qərb qrupu şivələrində müşahidə olunur. **e>ö** səs əvəzlənməsi Şəki, Təbriz, Dərbənd, Naxçıvan qrupu, Şahbuz rayonu Qoşa Dizə, Cəhri, Şərur, Gürcüstanın Dmanisi, Qərbi Azərbaycanın, Basarkeçər, Çəmbərək, Karvansaray, Meğri şivələrində də özünü göstərir. **e>ö** səs əvəzlənməsi sözün əvvəlində və ortasında müşahidə olunur.

Sözün əvvəlində : *öv "ev" (Naxçıvan, Dərbənd, Çəmbərək), öy "ev" (Bakı, Qazax, Gəncə, Quba, Şəki, Təbriz, Dərbənd, Muğan Tovuz, Dmanisi, Çəmbərək, Karvansaray, Basarkeçər), öylət "evlad" (Qazax, Çəmbərək, Basarkeçər), övlən "evlən" (Dərbənd, Çəmbərək), ö:cüx' //öycüx'//öycük "evcik" (Çəmbərək), öycük "evcik" (Muğan) və s.*

Sözün ortasında: *sö:meg "sevmək" (Bakı, Meğri), sö:ndi "sevindi" (Bakı), Hüsöyn "Hüseyn" (Naxçıvan), öylənmax "evlənmək" (Şəki), döyül "deyil", döv "dev", söyünmax "sevinmək", çö:r "çevir" (Şəki), çöyrülüf "çevrilib", söyün "sevin" (Qazax, Çəmbərək, Basarkeçər), günöy "güney" (Qazax, Çəmbərək), sövmax "sevmək" (Şəki, Təbriz), döyür "deyil", Elsövən "Elsevən" (Təbriz), çövür "çevir", nöyüt "neft" (Şəki, Dərbənd, Çəmbərək), dögi "deyil" (Dərbənd), ö: "ev", sö:mağ "sevmək", dö:gü "deyil", sö:gi "sevgi" (Quba, Muğan), sövədəm "sevərəm" (Dərbənd), dögül "deyil" (Muğan), döy "deyil", Möhvalı "Mehbalı", nöyt "neft", Sövda "Sevda", söyməx' "sevmək", Sülöyman "Süleyman", çöyür "çevir", Söyn "Hüseyn" (Çəmbərək), Mırtöyül "Mirteyil" (Karvansaray), sövgü "sevgi", Möhrüban "Mehriban", löhüm "lehim" (Meğri), cö:üz "ceviz"<qoz, çö:rməx' "çevirmək" (Çəmbərək, Dmanisi), söyündü "sevindi" (Dmanisi), sö:ndü "sevindi" (Çəmbərək), dögür "deyil", dögü "deyil" (Bakı, Şamaxı, Naxçıvan), söndü "sevindi" (Bakı, Muğan), nö:t "neft", çöçələ "çeçələ"<barmaqlardan biri (Muğan) və s.*

ı>u. ı səsinin u səsi əvəz etməsi Bakı, Quba, Dərbənd, Zaqatala-Qax, Muğan şivələrində, bəzi hallarda isə Naxçıvanın Şərur şivəsində, İraq- türkman ləhcəsində özünü göstərir. Bu fonetk hadisəyə sözün ortasında və axırında rast gəlinir.

Sözün ortasında: *qarpuz "qarpız", pambuğ "pambıq" (Bakı, Quba, İraq), armıd "armud", yoxun "yaxın" (Bakı, Quba), sabun "sabın" (Bakı,), yaxun "yaxın" (Bakı, Naxçıvan), Naxçuvan "Naxçıvan", qarğudalı "qarğıdalı" (Naxçıvan), ağur "ağır", hazur "hazır", paxul "paxıl", ayluğ "aylıq", baluğ "balıq", ağul "ağıl", saruğ "sarıq", gomuş "gamış"<camış, palut "palıd", yağuş "yağış", ağuz "ağız", a:şuğ "aşıq", salxum "salxım", açuğ "açıq", yarımçuğ "yarımçıq", Dağusdan "Dağıstan" (Quba), azğun "azğın", artuğ "artıq", artux "artıq", arşun "arşın", açuğ "açıq", açux "açıq" (İraq), aşuğ aşıq" (Quba, Dərbənd, İraq), yaşduğ "yastıq", çaruğ "çarıq", palçuq "palçıq", qatuğ "qatıq", sanduğ "sandıq" (Quba, Dərbənd), ayğur "ayğır", artuğ "artıq", yaşul "yaşıl", yapuş "yapış", yayluğ "yaylıq", yanaşu "yanaşı", qaruşuğ "qarışıq", sarmaşuq "sarmaşıq", qaranduğ "qaranlıq" (Dərbənd), barut "barıt", qaşuğ "qaşıq" (Dərbənd, İraq), yarpuz "yarpız" (Quba, Dərbənd, İraq), xatun "xatın" (Təbriz, Dərbənd), tusbağa "tısbağa", sandux "sandıq", qabux "qabıq", pambux "pambıq", palçux "palçıq" (Təbriz), xamut "xamıt", dubur "dıbır" (Karvansaray), şuğırmax "şığımaq", buçax "bıçaq", puçax "bıçaq", comuş "camış", quroy qırov" (Çəmbərək, Karvansaray) və s*

Sözün axırında: *qarğu "qarğı", hamu "hamı" (Quba), ağu "ağı", acu "acı" (İraq), çalğu "çalğı" (Quba, Dərbənd), saru "sarı", ayru "ayrı", ayu "ayı", aru "arı", yanaşu "yanaşı" (Dərbənd), qapu "qapı" (Dərbənd, İraq) və s.*

Bakı şivəsində sonu **ı** saiti ilə bitən sözlər mənsubiyyət kateqoriyasının II şəxs tək və ya cəmində işləndikdə mənsubiyyət şəkilçisinin tərkibindəki **ı** saiti **u** saitinə keçir. Məsələn: *bacun "sənin bacın", qapun "sənin qapın", çərpayun "sənin çarpayın", bacuuz "sizin bacınız", qapuuz "sizin qapınız", çərpayiniz "sizin çarpayınız" və s.* Eyni zamanda Bakı şivəsində əmr formasının III şəxs tək və II şəxs cəm şəkilçisində olan **ı** səsi **u** səsinə çevrilir. *Məsələn: alsun "alsın", aluz "alın" və s.* Bu fonetik hadisə şühudi keçmiş zamanın II şəxsin tək və cəmində olan *ı>u* səs əvəzlənməsi baş verir. *Məsələn: aldun "aldın", alduz "aldınız" (Bakı).*

"Azərbaycan dilinin qədim dövrlərində müasir dilimizdəki ı səsinin yerinə u səsi işlənmişdir. Ona görə də artuğ, aşuğ, qapu və s. bu tipli sözlərdə u səsinin mövcudluğu əslində tarixi xüsusiyyətin saxlanması, onun qalığıdır" (İraq-türkman,2004, s. 59).

i>ü. Bu səs əvəzlənməsi cənub qrupu şivələrində özünü göstərsə də, Bakı, Şamaxı, Dərbənd, Quba, Qazax, Şəki, Zaqatala, Qax, Muğan şivələrində də müşahidə olunur. Bu fonetk hadisəyə sözün ortasında və axırında rast gəlinir.

Sözün ortasında: *bülür "bilir", çəküc çəkic" (Naxçıvan,), bülmax "bilmək", söünmax "sevinmək", dümdüx' "dimdik", döyür "deyil", sövürdü "sevirdi" (Təbriz), söyün "sevin", köfgür "kəfgir", müsmar "mismar", mürüd "mürid" (Şəki), düvar "divar" (Şəki, İraq), şüddətli "şiddətli", hürs "hirs" (Qazax), süfət "sifət", hülmeg "ilmək", sül "sil" (Quba), güroy "girov", müxəx' "mixək", müdür "müdir", mühüt "mühit", süyüşməx' "sivişmək", döyrüş "dəvriş", köykür "kəfkir", sünməx' "sinmək", (Çəmbərək, Karvansaray), büz "biz", getür "gətir", erüg "ərik", çövür "çevir", əzgül "əzgil", dəbrüş "dərviş", çəltüg "çəltik", ezgül "əzgil", təmüz "təmiz", yeşüg "yeşik", çeküm "çəkim", təndür "təndir", ərüg "ərik", perünc "pərinc", pərünc "pərinc", degüş "dəyiş", dəmür "dəmir", çəpüş "çəpiş", ərsün*

“ərsin”, ekdün “əkdin”, çekün “çəkin” (Dərbənd), süz “siz” (Bakı, Şamaxı, Qazax, Quba, Dərbənd, Muğan), düla^{o}p “dilap”, müşa^{o}r “mişar”, büba^{ə}r “bibər”, püpix' “pipik”, süvirma^{ə}x “sivirmək”, süta^{ə}m “sitəm”, Süta^{a}ra^{ə} “Sitarə”, ça^{o}rçüyə “çərçivə”, püşdin “pişdin”, pülləkan “pilləkan”, dübəx' “dibək”, mürçex' “mirçək”, mürçəx' “mirçək”, Gülnüsə “Gülnisə”, bürə “birə” (Qazax, Çəmbərək, Meğri), Mükayıl “Mikayıl” (Ordubad, Meğri), dövrüş “dərviş” (Bakı, Şəki, Meğri), büldür “bildir” (Naxçıvan, Meğri), dövrüş “dəvriş”, süfdə “siftə”, hürsümnən “hirsindən” (Bakı), kəsük “kəsik”, çəküc “çəkic”, çəkküc “çəkic“, çətün “çətin”, kəklük “kəklik”, küçük “kiçik”, küçüq “kiçik”, təndür “təndir”, tələsük “tələsik”, şənnük “şənlik“, züllət “zillət” (İraq), bübü “bibi”, şümşəx' “şimşək”, duar “divar” (Dmanisi), püşüq “pişik” (Zaqatala), cüv “cib” (Qax), çərçüvə “çərçivə”, müxəgi “mixəyi” (Muğan) və s.

Sözün axırında: *büvü “bibi” (Qazax, Çəmbərək), delü “dəli”, xeylü “xeyli”, zəngü “üzəngi” (Dərbənd), bübü “bibi” (Dmanisi) və s.*

i səsinin **ü** səsi əvəz etməsi söz kökləri ilə yanaşı, şəkilçilərin tərkibində də müşahidə olunur. Şəkilçi tərkibində **i>ü** səs əvəzlənməsinin Bakı şivəsində görmək olar.

1) **i** səsi ilə bitən isimlər mənsubiyyət kateqoriyasının II şəxsin təkinin və cəminin şəkilçisinin qəbul etdikdə **i>ü** səs əvəzlənməsi baş verir. Məsələn: *tərəzün “sənin tərəzin”, elçün “sənin elçin”, tərəzü:z “sizin tərəziniz“, elçü:z “sizin elçiniz” (Bakı).*

2) əmr formasında III şəxs tək və II şəxs cəm şəkilçisi qəbul etdikdə **i>ü** səs əvəzlənməsi baş verir. Məsələn: *ı:nsün “ensin”, i:nüz “enin”, çəkün “çəkin”, gedün “gedin”, gedüz “gedin”, çəküz “çəkin”, çəksün “çəksin” (Bakı).*

3) şühidi keçmiş zamanın II şəxs tək və cəm şəkilçilərinin tərkibində ü səsi i səsini əvəz edir. Məsələn: vərdün “verdin”, vərdüz “verdiniz” (Bakı).

i>u. Bu fonetik hadisəyə Bakı, Naxçıvan, Ordubad, Şəki, Qazax, Qarabağ, Dərbənd, Təbriz, Sabirabad, Qax, Qərbi Azərbaycanın Meğri şivələrində rast gəlinir və əsasən sözün ortasında müşahidə olunur. Məsələn: *duvar “divar” (Bakı, Naxçıvan, Dərbənd), dufar “divar” (Təbriz, Dərbənd), Yunus “Yunis”, xufat “xiffət” (Meğri), çupan “çiban”, çaltuğ “çəltik”, yərduvan “nərdivan”<pilləkən (Dərbənd), duvan “divan”, çuvan “çiban”, cuv “cib”, duar “divar”, musmar “mismar” (Şəki), umud “ümid”, Usuf “Yusif” (Şəki, Çəmbərək), şumal “şimal”, xulas “xilas”, tənur “tənir”<təndir, Yusuf “Yusif”, içirdux “içirdik”, di:rdux “deyirdik”, söyirdux “sevirdik” (Təbriz), tufar “divar” (Naxçıvan, Ordubad, Sabirabad, Qazax), tuhar “divar” (Naxçıvan), duhar “divar” (Ordubad), sufat sifət“<üz (Şəki, Qazax).*

i>u səs əvəzlənməsi Dərbənd şivəsində bəzən sözün sonunda da baş verir. Məsələn: *zanqu “üzəngi” (Dərbənd).*

i>o. Azərbaycan dili şivələrində **i>o** fonetik hadisəsi geniş yayılmamışdır. i>o səs əvəzlənməsinə Quba şivəsində bir sözdə rast gəlinmişdir: dovar “divar”.

ı>o. Bu fonetik hadisə Dərbənd şivəsində bir neçə sözdə özünü göstərir. Məsələn: *qaşoğ “qaşıq”, çaroğ “çarıq”, zalxom “zalxım”.*

Açiq Saitlərin Qapali Saitləri Əvəz Etməsi

Azərbaycan dili şivələrində açıq saitlərin qapalı saitləri əvəz etməsi geniş yayılmışdır və dilimizin bütün şivələrində rast gəlinir.

a>ı. Bu fonetik hadisə Naxçıvan, Şamaxı, Zaqatala, Muğan, qərb qrupu şivələrində, Sabirabadın Axtaçı kənd şivəsində müşahidə olunur. **a>ı** səs əvəzlənməsi söz kökü ilə yanaşı sonu **a** saiti ilə bitən isimlər yönlük halda işləndikdə, eləcə də sonu **a** saiti ilə bitən feillər

saitlə başlanan şəkilçi qəbul etdikdə bitişdirici **y** samitinin təsiri nəticəsində sözün kökündə müşahidə olunur.

Söz kökündə: *manıt "manat" (Qarabağ, Qazax, Naxçıvan, Şəki, Dərbənd, Meğri, Dmanisi), dağı "daha", saxsığan "saxsağan" (Dərbənd), sırmaşıx "sarmaşıq" (Naxçıvan), cıvan "cavan", hıqqımmax "hıqqanmaq", çırpış "çarpış", davı "dava", mığmığı "mığmığa"<ağcaqanad (Çəmbərək, Karvansaray), yarıtmax "yaratmaq", qımzın "qımzan", alpuxarı "alpuxara", Ağbalı "Ağbala", çağartmaq "çığartmaq" (Çəmbərək), yıxa "yaxa" (Naxçıvan, Çəmbərək, Karvansaray, Meğri), sımavar "samovar" (Qazax, Çəmbərək, İraq)), çılxalamax "çalxalamaq", əjdahı "əgdaha", ma^{0}nıt "manat", ta^{0}pmıcı "tapmaca" (Meğri), qıtar "Qatar" (İraq), tayı "daha" (Qarabağ, Muğan), qıynax "qaynaq" (Gədəbəy), cıynax "caynaq" (Gədəbəy, Çəmbərək), bağırsıx "bağırsaq" (Qarabağ) və s.*

a>ı səsəvəzlənməsi saitlə bitən sözlərə şəkilçilərin artırılması nəticəsində də baş verir.

1) qərb qrupu şivələrində sonu **a** saiti ilə bitən isimlərə yönlük hal şəkilçisi qoşulduqda **a** səsini **ı** səsi əvəz edir. Məsələn: *haravıya "arabaya", şanıya "şanaya", Fatmıya "Fatmaya", babıya "babaya", qocıya "qocaya" (Qazax, Gəncə, Qarabağ, Çəmbərək, Basarkeçər), baltıya "baltaya", almıya "almaya" (Qazax, Qarabağ, Dmanisi, Çəmbərək), kahıya «kahaya» (Qarabağ), danıya «danaya» (Qarabağ, Qazax, Çəmbərək).*

2) sonu **a** saiti ilə bitən feillərə saitlə başlanan zaman, feili bağlama, şəxs şəkilçiləri artırılarkən bitişdirici **y** samitinin təsiri nəticəsində **a** saiti **ı** saiti ilə əvəzlənir.

a) sonu a saiti ilə bitən feillərə saitlə başlanan zaman şəkilçisi artırıldıqda **a>ı** səsəvəzlənməsi baş verir. Məsələn: *aralışır "aralaşır" (Şəki), oynıyır "oynayır" (Naxçıvan), saxlıyır "saxlayar", başlıyır "başlayır" (Naxçıvan, Çəmbərək), oynyacam "oynayacağam", oynıyacaz "oynayacaq" (İraq), yamıyır "yamayır", yağlıyır "yağlayır" (Qarabağ, Qazax, Gəncə, Naxçıvan, Çəmbərək), dannıyır "danlayır" (Muğan Çəmbərək), tarazzıyırux "tarazlayırıq" (Muğan) və s.*

b) sonu saitlə bitən feillər I şəxsin tək və cəminin şəkilçisini qəbul etdikdə **a** səsini **ı** səsi əvəz edir. Məsələn: *qalıyax "qalayaq", başdıyım "başlayım" (Qarabağ, Çəmbərək), başdıyax "başlayaq" (İraq, Çəmbərək), başlıyım "başlayım", başdıyaydım "başlaya idim" (İraq), başlıyax "başlayaq" (Qazax, İraq, Çəmbərək), bağlıyax "bağlayaq" (Qax, Çəmbərək, Basarkeçər) və s.*

c) sonu **a** saiti ilə bitən feillər saitlə başlanan feili bağlama şəkilçisi qəbul etdikdə **a>ı** səsəvəzlənməsi baş verir. Məsələn: *ağlıyanda "ağlayanda", bağlıyanda "bağlayanda" qarşılıyanda "qarşılayanda" (Qazax, Gəncə, İraq, Çəmbərək), başlıyanda "başlayanda" (Çəmbərək, Karvansaray, Basarkeçər) və s.*

a səsini **ı** səsi əvəz etməsi bəzi eyni sözlərin təkrarlanması nəticəsində əmələ gələn mürəkkəb sözlərdə də müşahidə olunur. Məsələn: *yıvaş-yıvaş "yavaş-yavaş" (Gədəbəy), oynıya-oynıya "oynaya-oynaya" (İraq), oynuya-oynuya "oynaya-oynaya", dişliyə-dişləyə (Çəmbərək) və s.*

a>i. Bu fonetik hadisə Azərbaycan dilinin şərq və şimal qrupu şivələrində özünü göstərir. Bununla yanaşı Təbriz şivəsində, Azərbaycan dilinin qərb qrupu şivələrinə daxil olan Gürcüstanın Dmanisi şivəsində də **a>i** səsəvəzlənməsinə rast gəlinir. **a>i** səsəvəzlənməsi söz kökündə sonu saitlə bitən isimlərə yönlük hal şəkilçisi, zaman və şəxs şəkilçilərinin artırılması nəticəsində yaranır.

1) söz kökündə **a>i** səsəvəzlənməsi: *dayi "daha", diyan "dayan" (Bakı, Quba, Muğan), diyən "dayan", diyanmağ "dayanmaq", saciyağ "sacayaq", fiyton "fayton", simovar*

“samovar” (Dərbənd), isfalt “asfalt”, simavər “samovar”, siman “saman” (Təbriz), dahi “daha” (Təbriz, Dmanisi), simavar “samavar” (Muğan, Zaqatala), biyax “bayaq”<indi (Muğan).

2) isimlərə yönlük hal şəkilçisinin artırılması nəticəsində **a>i** səsəvəzlənməsi: *babiya “babaya”, doviyə “davaya”, lampiyə “lampaya” (Bakı), baliyə “balaya” (Şəki), torbiyə “torbaya”, doğiyə “dovğaya”, arabiyə “arabaya” (Dərbənd) və s.*

3) sonu saitlə bitən feillərə zaman, şəkil və şəxs şəkilçilərinin artırılması nəticəsində **a>i** səsəvəzlənməsi: *başdi:r “başlayır”, otdi:r “otlayır” (Bakı, Muğan), yoxliyir “yoxlayır”, oyniyif “oynayıb” (Şəki), oyniyim “oynayım” (Zaqatala), yaşiyədik “yaşaya idik”, bağliyədü “bağlaya idi” (Dərbənd) və s.*

ə>i. Azərbaycan dili şivələrinin bütün qruplarında **ə>i** səs əvəzlənməsi müşahidə olunur. Bu fonetik hadisə həm söz kökündə, həm də şəkilçilərin artırılması nəticəsində özünü göstərir.

1) söz köklərində **ə>i** səs əvəzlənməsi: *incil “əncil”<əncir (Quba, Qazax, Şəki, Çəmbərək, Muğan), zincir “zəncir” (Qarabağ, Gəncə, Quba, Dərbənd, Şəki, Naxçıvan, Çəmbərək, Karvansaray, Ağstafa, Muğan, Dmanisi, Basarkeçər), zinzilə “zəlzələ”, tileng “tələng”<tənək, sitəlcəm “sətəlcəm”, Civreyil “Cəbrayıl”, bino:şə “bənövşə” (Şəki), şikil “şəkil” (Şəki, Ordubad, Naxçıvan, Dərbənd, Çəmbərək), səvzi “səbzə” (Ordubad), şinnix' “şənlik” (Naxçıvan), yihər “yəhər” (Naxçıvan, Ordubad, Qazax, Dərbənd, Muğan, Qax, Tovuz, Ağstafa, Çəmbərək), ginə “gənə”<yenə, İyib “Əyyub”, şəbəki “şəbəkə”, digirman “dəyirman”<dəyirman, çigirtgə “çəgirtgə”<cəyirtgə, liçeg “ləçək”, həyit “həyət”, şəmmi “şəmmə”<şənbə, şəmbi “şəmbə” <şənbə (Quba), dirinlig “dərinlik”, hiyət “həyət”, şikər “şəkər”, imi “əmi”, cisəd “cəsəd”, siyahət “səyahət”, qəhriman “qəhrəman”, nani “nanə”, təhni “tənə”, dişərgi “düşərgə” (Dərbənd), şənbi “şənbə” (Ordubad, Dərbənd), pəhlivan “pəhləvan” (Dərbənd, Çəmbərək), illac “əlac”, ihatə “əhatə”, Simayə “Səmayə”, cimcimi “cimcimə” (Çəmbərək,), çimən “çəmən” (İraq, Çəmbərək), xiyal “xəyal” (Şəki, Çəmbərək, İraq), kinar “kənar”, figan “fəqan”, fida “fəda”, hiyəcan “həyəcan”, diyənək “dəyənək”, tikrar “təkrar”, firyad “fəryad”, kismak “kəsmək”, yasimin “yasəmən”, zehir “zəhər” (İraq), zəhir “zəhər” (Dmanisi), kəfin “kəfən” (İraq, Dmanisi), ikiz “əkiz” (Dərbənd, Qubadlı),* incir *“əncir” (Qubadlı, İraq, Dmanisi) və s.*

2) sonu ə saiti ilə bitən sözlərə yönlük və təsirlik hal şəkilçilərinin qoşulması nəticəsində **ə>i** səsəvəzlənməsi: *meşiyə “meşəyə”, şiriyə “şirəyə” (Naxçıvan, Çəmbərək), ləmpiyə “ləmpəyə”<çırağa, beçiyə “beçəyə” (Qazax, Gəncə, Qarabağ, Çəmbərək), pəncəriyə “pəncərəyə”, nəniyi “nənəyə” (Çəmbərək, Dmanisi), kirviyi “kirvəyə” (Dmanisi), pənceriyi “pəncərəni”, pencəriyi “pəncərəni” (Dmanisi) və s.*

3) sonu saitlə bitən feillərə zaman, feilin arzu şəklinin və ya şəxs şəkilçilərinin artırılması nəticəsində **ə>i** səsəvəzlənməsi: *işdiyillər “işləyirlər” (Naxçıvan), kündəliyirix' “kündələyirik” (Dmanisi, Çəmbərək), bəsdiyəx' “bəsləyək”, işliyəx' “işləyək” (Qazax, Gəncə, Tovuz, Qazax, Ağstafa, Çəmbərək, Basarkeçər), işdiyir “işləyir”, isdiyir “istəyir” (Bakı, Quba, Qazax, Gəncə, Şamaxı, Muğan Çəmbərək), issi:r “istəyir” (Bakı,* Quba, *Qazax, Şamaxı, İsmayıllı, Muğan) və s.*

4) sonu ə saiti ilə bitən sözlərə **ilə** qoşmasının dialekt variantı olan “**nən**”in qoşulmasının nəticəsində ə>i səsəvəzlənməsi: dəviynən “dəvə ilə”, nəniynən “nənə ilə” (Qazax, Çəmbərək).

Bu fonetik hadisə başqırd,tatar,xakas dillərində,eyni zamanda tatar dilinin müasir dialektində müşahidə olunur (R.Abbasova, 2006, s.21).

ə>ü. ə səsinin **ü** səsi əvəz etməsi şivələrimiz üçün xarakterik hadisə deyil. Bu fonetik hadisə əsas Azərbaycan dilinin şərq qrupu şivələrində müşahidə olunur. Şərq şivələri ilə yanaşı şimal və qərb şivələrində də ə>ü səsəvəzlənməsinə rast gəlinir. Məsələn: *düvə, "dəvə", dü:ə "dəvə", nüvə "nəvə" (Bakı), nüə "nəvə" (Bakı, Qazax,), çüpər "çəpər", küpük "kəpək" (Quba), köynük "köynək" (Qax), küçüyə "küçəyə", küçüyü "küçəni" (Çəmbərək, Qazax) və s.*

o>u. Bu fonetik hadisə əsasən şimal və qərb şivələrinə, şərq şivələrindən Bakı, Quba, Muğan şivələri üçün xarakterikdir. Bununla yanaşı **o>u** səsəvəzlənməsi cənub qrupu şivələrində, eləcə də İraq-türkman ləhcəsində müşahidə olunur. Məsələn: *ura "ora" (Bakı,* Quba), *urda "orda", uni "onu", uğarta "o qədər", oxlu "oxlov" (Bakı), Suna "Sona" (Bakı, Quba), quca "qoca", çuban "çoban", qunağ "qonaq", kutan "kotan", urta "orta", yurğu "yorğa", qusa "kosa", xuruz "xoruz", uğul "oğul", quyun "qoyun", buğaz "boğaz", nuxud "noxud", udun "odun", du:şan "dovşan", tupuğ "topuq", ucağ "ocaq", duqquz "doquz", utağ "otaq", suğan "soğan", buyun "boyun", burc "borc", yul "yol", tuy "toy", bul "bol", ux "ox", quç "qoç", buz "boz", tuxmacal "toxmacal"<meyvəsiz tut ağacı (Quba), puzğun "pozğun" (Quba, Qazax, Tovuz), uax "oyaq", urmannıx "ormanlıq", uğuz "oğuz", buğanax "boğanaq", buyamax "boyamaq", zuğlammax "zoğlanmaq"<bitmək, uzanmaq, yumala "yomala", qulaşdamax "qolaclamaq", puzulmax "pozulmaq", kuma "koma", yuğur "yoğur" (Çəmbərək), uğla^{ə}n "oğlan", uxlov "oxlov", ux "ox", qutır "qotur", Suna^{ə} "Sona", çuba^{o}*n *"çoban", quza^{ə} "qoza", quyin "qoyun", quçi "qoçu", dulı "dolu", nuxıt "noxud", duda^{ə}x "dodaq", zuğa^{ə}l "zoğal", xurız "xoruz", busda^{o}n "bostan", buyın "boyun", qultıx "qoltuq", quşin "qoşun", tuqqa^{o}ş "toqqaş", buzba^{o}ş "bozbaş", udun "odun", udın "odun", utumax "oturmaq", qunax "qonaq", nuğul "noğul", mulla "molla", çux "çox", yux "yox", urman "orman" (Meğri), utuz "otuz", u "o" (Quba, Ordubad, Meğri), un "on" (Quba, Ordubad, Meğri, İraq), umbir "on bir", unbeş "on beş", unnar "onlar" (Ordubad, Naxçıvan), baldun "baldon"<palto, ura "ora", dudax "dodaq" (Naxçıvan, İraq), çumağ "çamaq" (Ordubad), balqun "balkon" (Naxçıvan), pulat "polad" (Quba, Ordubad, Meğri), zuğal "zoğal" (Quba,* Qazax), *puzqun "pozğun", puzdu "pozdu", qualıyır "qovalayır", balğun "balkon" (Qazax), doxdur "doktor" (Qazax, Naxçıvan, Muğan), buxça "boxça" (Quba, İraq, Çəmbərək), buğça "boxça", qupard "qopart", turpağ "torpaq", luqma "loxma", sura "sonra", buğaz "boğaz" (İraq), çumax "çomaq" (Dmanisi), puzmaq "pozmaq" (Dmanisi), yurğan "yorğan" (İraq, Zaqatala), suğan "soğan", uba "oba", urax "oraq" (Zaqatala), oxlux "oxlox" (Zaqatala, Qax), busdan "bostan" (Qax), qunur "qonur", yuğurmağ "yoğurmaq", nuxda "noxta", uniki "on iki", vağun "vaqon" (Muğan), bustan "bostan" (Quba, Qax, İraq), un beş "on beş" (Şəki, Muğan), puzğun "pozğun" (Bakı, Qazax), yunca "yonca", duyunca "doyunca" (Ağdam), faytun "fayton" (Qazax, Şəki, Tovuz, Qax), balxun "balkon" (Ordubad, Muğan) və s.*

o>ı. o səsini **ı** səsi əvəz etməsi Azərbaycan dili şivələri üçün xarakterik fonetik hadisə deyil. Bu fonetik hadisə bir neçə alınma sözdə Muğan, Qax və Tovuz şivələrində müşahidə olunur. Məsələn: *bıxça "boxça", pamadır "pamidor", padnıs "padnos", traxdır//traxtır "traktor", telfın "telefon" (Muğan), matır "mator" (Qax), qıvırnat "qoburnat"<qubernator (Tovuz)* (M.Şirəliyev, 1967, s. 54).

o>ü. Bu fonetik hadisə yalnız Zaqatala-Qax şivəsində müşahidə olunur. Məsələn: *bügəz "boğaz", zügal "zoğal" (Qax), sürağ "soraq" (Zaqatala)* (M.Şirəliyev, 1967, 54).

ö>ü. ö səsini **ü** səsi əvəz etməsi Bakı, Quba, Dərbənd, Qazax şivələrində, Tovuz, Zaqatala, Təbriz,İraq-türkman ləhcəsinin Altun körpü şivəsində, Qərbi Azərbaycanın Meğri, Çəmbərək, Karvansaray şivələrində sözün əvvəlində və ortasında müşahidə olunur.

Sözün əvvəlində: *ürdeg "ördək" (Bakı, Quba), üzgə "özgə", ümür "ömür", ügid "ögid"<öyüd, ügrənmək "öyrənmək", ülkə "ölkə", ütürmək "ötürmək", ürkən "örkən", ürüg "hörük", ügəc "ögəc" (Quba), üzgə "özgə", ügəy "ögey", ütürmağ "ötürmək", ügrət "öyrət", ülç "ölç", ürgət "öyrət", ürdəg "ördək" (Dərbənd), ül "öl", üküz "öküz" (Quba, Dərbənd), üzək "özək" (İraq), üçəşma^{ə}x "öçəşmək", üngülüx' "önlük", ürpəxx' "örpək" (Təbriz) və s.*

Sözün ortasında: *xüreg "xörək" (Bakı, Quba), kümeg "kömək", güzəl "gözəl", hücət "höcət", gündərmək "göndərmək", büyüg "böyük", gütürmək "götürmək", küçürmək "köçürmək", güyçeg "göyçək", kü:reg "körük", ürüg "hörük", pürtmə "pörtmə", çül "çöl", gürmək "görmək", gül "göl", küçəri "köçəri", bügörtgən "böyürtkən" (Quba), çürəg "çörək", sügüd "söyüd", düşəg "döşək", kühnə "köhnə", gün "gön", gütür "götür", küməg "kömək", çüp "çöp", küç "köç", gübələg "göbələk", ülç "ölç", küsöv "kösöv", kütüg "kötük", külgə "kölgə" (Dərbənd), tük "tök", düg "döy", kümür "kömür", süz "söz", gür "gör", güz "göz", üküz "öküz", kük "kök", kürpi "körpü" (Quba, Dərbənd), güg "göy", gübələk "göbələk", gügərməx "göyərmək" (İraq), gügərçin "göyərçin" (Quba, Dərbənd, İraq), güzəl "gözəl" (Dərbənd, İraq), züka^{o}m "zökəm", küfil "köhül", hürma^{ə}t "hörmət", çürəx' "çörək", hükumət "hökumət" (Meğri), çükdü "çökdü", sündü "söndü" (Karvansaray), Gücər "Gövhər" (Çəmbərək, Karvansaray), üngülüx' "önlük", büyə "böyə"<cücü, cühərri "çövhərli"<güclü, qüvvətli, qüərti "göyərti", güərməx' "göyərmək", Güəzən "Göyəzn" (Çəmbərək), güəm "göyəm", güərçin "göyərçin", düymənc "döymənc"<yağla çörəyin qarışığından hazırlanmış yemək, sərrühə "sərlöhə"<sərlövhə, başlıq (Çəmbərək, Karvansaray), küərçin "göyərçin" (Qarabağ), türər "törər" (Təbriz), hürmət "hörmət" (Təbriz, Meğri) və s.*

ö>u. Bu fonetik hadisə Bakı, Təbriz, Muğan, Zaqatala, Qax şivələrində müşahidə olunur. Məsələn: *xureg "xörək" (Bakı), numra "nömrə" (Bakı, Muğan), nuxsan "nöqsan", nuxda "nöqtə", qunça "qönçə" (Muğan), çuraq "çörək" (Zaqatala), xurəx' "xörək", qunçə "qönçə", nukər "nökər" (Təbriz).*

e>i. Bu fonetik hadisəni M.Şirəliyev "Qapalı saitlərin qapalı saitlərlə əvəzlənməsi" adı ilə izah etmişdir (M.Şirəliyev, 1968,s. 57). Dialektologiya ilə bağlı yazılmış əsərlərdə **e** saiti qapalı sait kimi verildiyi üçün **e>i** səsəvəzlənməsi qapalı saitin qapalı saiti əvəz etməsi kimi izah edilir (M.İslamov, 1968, s. 25; qərb qrupu şivələri, 1967, s. 23; Naxçıvan qrupu şivələri, 1962, s. 30). R.Rüstəmov **e** saitini qapalı sait götürərək **e>i** səsəvəzlənməsini qapalı saitin qapalı saiti əvəz etməsi hesab edir (R.Rüstəmov, 1961, s. 43-44). Ümumiyyətlə, dialektoloji ədəbiyyatlarda **e** saiti qapalı sait kimi izah edilir. Azərbaycan dilinin fonetikasına dair tədqiqatlarda, dərslik və dərs vəsaitlərində e saiti açıq sait kimi göstərilir. Məhz buna görə də şivələrimizdə təzahür edən səsəvəzlənmələrində **e** saiti açıq sait götürməlidir.

e>i səs əvəzlənməsi şivələrimizin şərq qrupuna xas fonetik hadisədir. Bu fonetik hadisə cənub, qərb, şimal qrupu şivələrində də müşahidə olunur. **e>i** səs əvəzlənməsi sözün əvvəlində, ortasında və axırında müşahidə olunur.

Sözün əvvəlində: *ilçi "elçi" (Quba, Dərbənd), iləmağ "eləmək" (Dərbənd), iləmax "eləmək", iləsi "eləsi" (Şəki), İldar "Eldar" (Şəki, Quba), ilim "elm" (Şəki, Quba) və s.*

Sözün ortasında: *hiybə “heybə”, miyva “meyvə”, ciyran “ceyran”, si: rəg “seyrək”, Tiyib “Teyub”, siyfəl “Seyfəl”, mişə “meşə”, ginə “genə”<yenə, giryet “qeyrət”, firmə “ferma”, pişə “peşə”, gidmək “getmək” (Quba), giymək “geymək”, hisab “hesab” (Quba, Dərbənd), gi:m “geyim” (Bakı), piç “peç” (Bakı, Dərbənd), yımağ “yemək”, gid “get”, hiç “heç”, gicə “gecə”, vir “ver”, mital “metal”, mitir “metr”, niçə “neçə” (Dərbənd), mivə “meyvə”, hiyvan “heyvan”, təsbih “təsbeh”, hiş “heç” (Təbriz), bilit “bilet” (Bakı, Təbriz, şəki), kişmiş “keçmiş” (Quba, Təbriz, Çəmbərək), miyvə “meyvə” (Ordubad, Naxçıvan), kit “get”, nicə “necə”, giy “gey”, qiryət “qeyrət”, hisaf “hesab”, qəzit “qəzet” (Şəki), git “get” (Şəki, Dərbənd), midal “medal” (Şəki, Qazax), yitəx' “yetək”< yetişək, çataq (çatmaq mənasında), (Qazax), riha^{o}n “reyhan”, mida^{o}l “medal”, sa^{ə}na^{o}yi “sənaye” (Meğri) və s.*

Sözün axırında: *di “de”, yi “ye” (Bakı, Quba, Şəki, Ordubad, Naxçıvan) və s.*

Qapali Saitləri Açiq Saitlər Əvəz Etməsi

Azərbaycan dili şivələrində açıq saitlərin qapalı saitləri əvəz etməsi fonetik hadisəsi özünü göstərir. Şivələrimizdə **ı, i, u, ü** qapalı saitləri **a, ə, o, ö** açıq saitləri əvəz edir.

ı>a. Bu fonetik hadisə əsas şərq qrupu şivələrində özünü göstərsə də, Ordubad, Naxçıvan, Şəki, Dərbənd, Qazax, Muğan, Zaqatala, Qax, Qarabağ, Quba, İraq-türkman, Qərbi Azərbaycanın Çəmbərək, Meğri şivələrində də müşahidə olunur. **ı>a** səsəvəzlənməsinə sözün ortasında və axırında rast gəlinir.

Sözün ortasında: *kağaz “kağız” (Bakı, Ordubad, Naxçıvan, Şəki, Dərbənd, Qazax, Quba, Muğan Meğri, İraq), xarman “xırman” (Naxçıvan, Dərbənd, İraq), sazağan “sızağan” (Naxçıvan), siyaha “siyahı”, ahal “ahıl”, sayaxlamax “sayıqlamaq”,, sayraşmax “sayrışmaq”, çarp “çırp”,carpi “çırpı”<ağac qırıntısı (Çəmbərək), cahal “cahıl”<gənc (Qarabağ, Çəmbərək), yanaşa “yanaşı”, qarğadalı “qarğıdalı”, çallaş “çalış”, çağart “çığart (Şəki,Çəmbərək), k'ağaz “kağız” (Dərbənd), qaşamax “qaşımaq”, qapqırmızı “qıpqırmızı”, sayax “sayıq”, sazlamax “sızlamaq”, fırtana “fırtına”, ahaldamax “ahıldamaq” (İraq), şabalat “şabalıd” (Muğan), qazadı “qazıdı” (Bakı) və s.*

Sözün axırında: *aşağa “aşağı” (Bakı, Ordubad, Naxçıvan, Şəki, Quba, Dərbənd, Muğan Çəmbərək), siyaha “siyahı”, zaha “zahı”, balata “balatı”, başşağa “başı aşağı” (Çəmbərək), qaysa “qaysı” (Qazax), yanaşa “yanaşı”, tana “tanı” (Şəki), buxara “buxarı”, puxara “buxarı” (Muğan) və s.*

i>ə. Bu səs əvəzlənməsi Quba, Naxçıvan, Şəki, Dərbənd, Muğan, Qərbi Azərbaycanın Çəmbərək, Meğri şivələrində özünü göstərir. **ı>a** səsəvəzlənməsinə sözün əvvəlində, ortasında və axırında rast gəlinir.

Sözün əvvəlində: *əxtilat “ixtilat”, əşqırmağ “işqırmaq” (Quba), əyanə “iyanə” (Meğri), ənnab “innab” (Naxçıvan, Meğri) və s.*

Sözün ortasında*: rəxşənd “rişxənd” (Quba), çələmsiz “çəlimsiz” (Dərbənd), həməşə “həmişə” (Dərbənd, Naxçıvan, Çəmbərək), həmməşə “həmişə” (Şəki, Çəmbərək), xərtdəx' “xirtdək”<qırtlaq, çərmələn “çirmələn”, vərənə “viranə”, bəyər “biyar”, həmən “həmin”, mühərəbə “müharibə” (Şəki), qəpəx' “qəpik” (Şəki, Çəmbərək), əmməşə “həmişə” (Naxçıvan, Çəmbərək, Meğri), bəna “bina” (Naxçıvan), əyə “yiyə” (Dərbənd, Meğri), Çəngiz*

“Çingiz” (Muğan, Meğri), həmən “həmin” (Meğri), nərdəfan “nərdivan”, qəbrəssanığ “qəbirstanlıq” (Muğan) və s.

Sözün axırında: əmə “əmi” (Dərbənd), Biləcərə “Biləcəri” (Muğan) və s.

u>o. Azərbaycan dilinin şərq qrupu şivələri üçün xarakterik olan **u>o** fonetik hadisəsi qərb, cənub, şimal şivələrində də özünü göstərir. **u>o** səs əvəzlənməsi sözün əvvəlində və ortasında müşahidə olunur.

Sözün əvvəlində: *ocuz “ucuz” (Quba), otammax “utanmaq”, oduzmax “uduzmaq”, oğummax “uğunmaq” < həddindən artıq gülmək, odqummax “udqunmaq”, (Meğri), oduzdum “uduzdum”, oddum “uddum” (Naxçıvan), omac “umac” (Muğan, Çəmbərək), oysanımax “usanmaq”, osanmax “usanmaq” (Çəmbərək), otan “utan” (Qazax, Ağstafa), otanır “utanır”, olax “ulaq” (Təbriz), osanmağ “usanmaq”, otanmağ “utanmaq” (Bakı), oldız “ulduz” (Zaqatala) və s.*

Sözün ortasında: *bordə “burda”, dornə “durna”, xormə “xurma”, torp “turp” (Bakı), borun “burun”, qoma “quma”, yo:mağ “yumaq”, qort “qurd” (Quba), qorum “qurum”, qolbağa “qulbağa”<qurbağa (Meğri), qomral “qumral” (Quba, Şamaxı, Muğan, Meğri, Çəmbərək), boğda “buğda” (Şəki, Ordubad, Meğri), yomallamax “yumalamaq”, qordala “qurdala”, hortum “qurtum”, pot “pud” (Çəmbərək), qoylamax “quylamaq” (Təbriz), şo:ra “şura”, tolla “tulla” (Şəki), yort “yurd”, qort “qurd”, doz “duz”, qoş «”quş”, pol “pul”, yon “yun”, yoxu “yuxu”, qoyu “quyu”, qoymağ “quymaq”, tuloğ “tuluq”, yova “yuva”, qorut “qurut”, çoğundur “çuğundur”, yomurta “yumurta”, qotu “qutu”, qordala “qurdala qorbağa “qurbağa”, armod “armud”, qohom “qohum” (Dərbənd), qaraboğdayı “qarabuğdayı” (Lənkəran), qom “qum” (Muğan), mahot “mahud”, sabon “sabun”, Qorban “Qurban” (Zaqatala) və s.*

ü>ö. Bu fonetik hadisə şivələrimizdə geniş yayılmamışdır. Bakı, Quba, Dərbənd, Qarabağ, Muğan, Qərbi Azərbaycanın Çəmbərək şivələrində müşahidə olunur. Məsələn: *ötü “ütü”, Ölkər “Ülkər”, körk “kürk”, sönbül “sünbül”, yögür “yügür”<yüyür (Dərbənd), özməx' “üzmək” (Çəmbərək), öreg “ürək”, bügörtgən “böyürtkən” (Quba), öreg “ürək” (Bakı), örəy “ürək”, ölgüc “ülgüc” (Qarabağ), köbrə “kübrə”, möhüm “mühüm” (Muğan).*

Açiq Saitlərin Açiq Saitləri Əvəz Etməsi

Şivələrimizdə açıq saitlərin açıq saitləri əvəz etməsinə aşağıdakı hallarda rast gəlinir.

e>ə. Azərbaycan dilinin şivələrində açıq saitlərin açıq saitləri əvəz etmə **e** saitini **ə** saiti əvəz etməsi fonetik hadisəsində görmək olur. **e>ə** səsəvəzlənməsi şivələrimizin cənub qrupuna aid fonetik hadisədir. **e>ə** səsəvəzlənməsi sözün əvvəlində və ortasında müşahidə olunur.

“Naxçıvan MSSR-in dialekt və şivələri” əsərində e>ə səs əvəzlənməsi “Qapalı səslilərin (saitlərin – İ.B.) açıq səslilərlə (saitlərlə - İ.B.) əvəzlənməsi” adı altında izah edilmişdir (Naxçıvan qrupu şivələri,1962, s. 29). Bununla yanaşı bu fonetik hadisə qərb qrupu şivələrində, İraq-türkman ləhcəsində də müşahidə olunur.

Sözün əvvəlində: *əyb “eyib”, əynən “eynən”, əyni “eyni”, əllər “ellər”, əlti “elti”, əniş “eniş”, əndim “endim”, əninə “eninə”, ərkən “erkən”, ərkəc “erkəc” (İraq), əv “ev” (Naxçıvan, Ordubad, İraq, Meğri), əşq “eşq” (Ordubad, Təbriz, İraq),”, əyip “eyib”, ən “en”, ərkeg “erkək” (Bakı) və s.*

Sözün ortasında: *pəndir “pendir”, nəft “neft” (Naxçıvan, Ordubad), nəfit “neft”, qəyd “qeyd”, çəşmə “çeşmə”, çəvirməx'^{I} “çevirmək”, həylə “heylə”<elə, də:l “deyil”, vərmək “vermək” (Ordubad), həyvə “heyvə”<heybə (Qazax), bətər “betər”<pis, bəcərmə “becərmə”, dəgil “deyil”, yadəlli “yadelli”, ögəy “ögey”, səvda “sevda”, həyvan “heyvan”, həyran “heyran”, həsab “hesab”, çəvir “çevir”, nəcə “necə”, yəsin “yesin”, həkayə “hekayə”, həca “heca”, gəri “geri” (İraq), səvgi “sevgi” (Naxçıvan, Ordubad, İraq), dəyil “deyil” (Ordubad, İraq), gənə “yenə” (Qazax, Çəmbərək, İraq), pənir “pendir” (Təbriz, Meğri, İrəvan), həybə “heybə” (Ordubad, Meğri), çəvirmax “çevirmək”, dəyil “deyil”, gəşniş “keşniş”, qəybət “qeybət”, qəyba^{ə}t “qeybət”, sa^{ə}mma^{ə}x “sevmək”, təşt “teşt”, dəşix' “deşik”, qəyra^{ə}t “qeyrət”, cəcim “cecim”, çəçələ “çeçələ”, Nəhmət “Nehmət”<Nemət (Meğri), bəyin “beyin”, yətim “yetim”, ləş “leş”, kəçəl “keçəl”, dəyir “deyil” (Təbriz), bələ “belə” (İraq, Təbriz), vər “ver”, vədrə “vedrə”, vərs “vers” (Bakı) və s.*

e>a. Bu fonetik hadisə Bakı, Quba şivələrində özünü göstərir. Məsələn: *hayva “heyva” (Bakı, Quba), hayvan “heyvan”, quzay “quzey” (Quba).*

ə>e. **e** saitini **ə** saiti əvəz etməsi fonetik hadisə dialektoloji tədqiqatlarda açıq saitlərin qapalı saitləri əvəz etməsi kimi verilmişdir (M.Şirəliyev, 1967,s. 52; İraq-türkman, 2004, s. 60; Ə.Əliyev, 2003, s 95; R.Rüstəmov,1961, s. 40-41; Naxçıvan qrupu şivələri, 1962, s. 28; Ş.Kərimov, 2004, s. 44; M.İslamov, 1968, s. 22). Əslində e saiti açıq saitdir. Məhz buna görə də **ə>e** səsəvəzlənməsi açıq saitlərin qapalı saitləri əvəz etməsi kimi yox, açıq saitlərin açıq saitləri əvəz etməsi kimi izah edilməsi daha məqsədəuyğundur.

ə>e səs əvəzlənməsi Azərbaycan dilinin Bakı, Quba, Dərbənd, Naxçıvan, Ordubad, Muğan, Zaqatala, Qax, Ağstafa, Qərbi Azərbaycanın Meğri, Çəmbərək şivələrində sözün əvvəlində və ortasında özünü göstərir.

Sözün əvvəlində: *Eşref “Əşrəf”, Ejdər “Əjdər” (Bakı), ezbər “əzbər”, eyləş “əyləş”, (Quba), elex' “ələk”, eriyir “əriyir”, esir “əsir”, erkex' “erkək”, esmax “əsmək” (Şəki)), yekiz “əkiz” (Naxçıvan), egri “əyri”, erük “ərik”, er “ər”, ek “ək”, erig “ərik” (Dərbənd), ekiz “əkiz” (Naxçıvan, Çəmbərək), ekinçi “əkinçi” (Qax), eyri “əyri”, ekin “əkin”, ezgil “əzgil” (Şəki, Dərbənd), ekmağ “əmək” (İraq), elli “əlli” (Quba, Şəki, Dərbənd), et “ət” (Quba, Dərbənd, İraq, Şəki), el “əl” (Şəki, Dərbənd), yekiz “əkiz” (Naxçıvan), ezyat “əziyyət” (Çəmbərək) və s.*

Sözün ortasında: *ses “səs” (Bakı, Qax), neyni:m “nə edim”, qismet “qismət”, isdemir “istəmir”, heş keş “heç kəs”, getir “gətir”, gəlmeg “gəlmək”, Mesmər “Məsmə”, Seknə “Səkinə”, neki “nə ki”, Medinə “Mədinə”, sö:bet “söhbət”, Səmed “Səməd” (Bakı), mekdeb “məktəb” (Bakı, Quba), beğ “bəy” (Bakı, Dərbənd, Meğri, Qax), penceq “pencək”, ürdeg “ördək”, tüteg “tütək”, xüreg “xörək”, ləçeg “ləçək”, qiryet “qiryət”, heyet “hyət”, şekil “şəkil”, keklik “kəklik”, teslim “təslim”, kesmə “kəsmə“, çetin “çətin”, bend “bənd”, nes “nəhs”, çekmək “çəkmək”, gezmək “gəzmək”, sen “sən”, çegirtgə “çəyirtgə” (Quba), men “mən”, sen “sən” (Quba, Zaqatala, Qax), çekmə “çəkmə”, nenə “nənə”, degirman “dəyirman” (Bakı, Quba, Dərbənd), serçə “sərçə” (Naxçıvan, Çəmbərək), pencə “pəncə”, demiyə “dəmiyə” (Naxçıvan), mejmehi “məcməyi” (Ordubad, Meğri), delü “dəli”, tezəg “təzək”, demir “dəmir”, çek “çək”, meni “məni”, ne “nə”, eriştə “əriştə”, temiz “təmiz”, keş “kəs”, der “dər”, gelib “gəlib”, serin “sərin”, dedə “dədə”, çepər “çəpər”, deləmə “dələmə”, əleg “ələk”, gəreg “gərək”, üzeg “üzəg”, küreg “kürək”, küleg “külək”, əppeg “əppək”<çörək, ördüg “ördək”, köyneg “köynək”, bileg “bilək” (Dərbənd), belim “bəlim”*

(Karvansaray), ceza “cəza”, meçit “məscid”, genəşməx' “gənəşmək” < məsləhətləşmək (Çəmbərək), pencərə “pəncərə” (İraq, Çəmbərək, Meğri), zeyif “zəif”, bərekət “bərəkət”, çillekən “çilləkən”, Mirzeyi “Mirzəyi”<mahnı ad, belgə “bəlgə”, şevə “şəvə”, üzengi “üzəngi”, Firengiz “Firəngiz”, Əlesga^{ə}r “Ələsgər”, Kəlbeli “Kəlbəli”, tütex' “tütək”, əlcex' “əlcək”, bilex' “bilək”, əlex' “ələk”, döşex' “döşək”, köpex' “köpək”” (Meğri), ineg “inək”, döşeg “döşək”, direg “direk”, erkeg “erkək”, gö:çeq “göyçək”, kö:neg “köynək” (Bakı, Muğan), seggiz “səkkiz” (Bakı, Muğan Qax, Zaqatala), mektab “məktəb”, veznə “vəznə”, seksen “səksən”, Peri “Pəri”, şenbe “şənbə” (Qax), gelin “gəlin” (Dərbənd, Zaqatala, Qax), bezənif “bəzənib” (Ağstafa), sennix' “şənlik” (Ağstafa, Çəmbərək), ineg “inək”, çöreg “çörək”, ürey “ürək” (Quba, Dərbənd), çörək, devə “dəvə”, def “dəf”, dem “dəm”, Meyram “Məryəm”, xet “xətt”, çəkdix “çəkdik” (İraq), şekər “şəkər” (Quba, Dərbənd, İraq), tezə “təzə” (Dərbənd, İraq), yesir “əsir”, ekiz “əkiz” (Qubadlı, Çəmbərək) və s.

Qərbi Azərbaycanın Meğri şivəsində gələcək zaman şəkilçisinin şəxsə görə dəyişməsi zamanı **ə>e** səs əvəzlənməsi müşahidə olunur. Məsələn: *gəlecem “gələcəyəm”, gəlecen “gələcəksən”, gəlecex' “gələcək”.*

SAMİT SƏSLƏR

Azərbaycan dilində işlənən samitlərin hamısına şivələrimizdə rast gəlinir. Lakin elə samitlər də var ki, onlar yalnız şivələrimizdə işlənir. Bununla yanaşı, elə samit səsə rast gəlinir ki, qədim dövr ədəbi dilimizdə işlənsə də, bu gün həmin samit yalnız ayrı-ayrı şivələrimizdə müşahidə olunur. Şivələrimizdə 37 samit səs var.

Samit Səslərin Təsnifi

Azərbaycan dili şivələrində işlənən samitləri və onların variantlarını təsnifinə görə aşağıdakı kimi qruplaşdırmaq olar.

1.Əmələ gəlmə yerinə görə

a) boğaz samitləri: h, ḫ, q̮

b) dilarxası samitlər: q, k′, q̣ , x, ğ, η

c) dilortası samitlər: k, k^c, g, y, x′

ç) dilönü samitlər:

1) damaq-diş samitləri: ş, j, ç, $ç^c$, c, **ç̣**, r, ц

2) dil-diş samitləri: t, t^c, d, ḍ, ʣ, l, n, s, z

d) dişarası samit: ẑ

e) diş-dodaq samitləri: v, f, w

ə) qoşadodaq samitləri: b, **ḅ**, m, p, p^c

2.Əmələ gəlmə üsuluna görə

a) küylü samitlər.

Küylü samitlər aşağıdakı qruplara bölünür:

1) partlayan samitlər: *q̮*, q̣, k′, k, k^c, g, t, t^c, d, ḍ, p, p^c, b, ḅ, η

2) sürtünən samitlər: ḫ, h, x, x′, ğ, y, ş, j, s, z, ẑ, ʣ, v, f

3) qovuşuq samitlər: c, **ç̣**, ç, $ç^{c,}$ ц, ʣ, η

b) sonor samitlər: r, l, n, m,

3) Səs tellərinin iştirakına görə:

a) kar samitlər: h, ḫ, q̮., k′, q̣, ḍ, x, x′, k, k^c, p, p^c, ç, $ç^c$, ç̣, t, t^c, s, ş, f, ц, ḅ;

b) cingiltili samitlər: q, ğ, g, c, j, d, y, z, ẑ, ʣ, v, b, l, m, n, η, r, w

Azərbaycan dili şivələrində işlənən samitlərin 25-i –h, x, x′, k, k′, p, ç, f, ş, s, t, q, ğ, g, c, j, d, y, z, v, b, l, m, n, r samitləri ədəbi dildə də işlənir. 15 samitə isə yalnız şivələrimizdə rast gəlinir və onları aşağıdakı kimi qruplaşdırmağı məqsədəuyğun hesab edirik.

1.Şivələrimizdə işlənən samitlər və onların variantları;

2.Samitlərin əvəzlənməsi.

Şivələrimizdə İşlənən Samitlər Və Onların Variantları

Azərbaycan dili şivələrində işlənən samitlərin variantlarına təsadüf edilir. Bu samitlərin variantları ədəbi dildə müşahidə olunmur. Onlar aşağıdakılardır:

ḫ, ḍ, q̣, x′, k^c, p^c, $ç^c$, t^c, ц, ḅ, ẑ, ʣ

ḅ. Bu b samitinin dialekt variantıdır və b samitinə nisbətən kar tələffüz olunur. Sözün ortasında b və ya p samiti ilə yanaşı gələrək karlaşır və p samitinin tələffüzünə uyğun deyilir. Məsələn:, *taḅbacə "tabmaca", zıḅbıltı "zıppıltı", qaḅbaz "qappaz", taḅbaz "tapmaz", təḅbətəx' "təkbətək"* (Şəki)*, Oḅbas, "Abbas", oḅbası "abbası", Caḅbar, daḅbax "dabbaq",*

təḥbir "tədbir" (Meğri)*, tapḥağ "tapmaq", tapḥaca "tapmaca", köpḥeg "köpmək", öpḥeg "öpmək"* (Bakı) və s.

ḥ. Bu səs əmələ gəlmə yerinə görə boğaz, əmələ gəlmə üsuluna görə sürtünən, səs tellərinə görə kar samitdir. **ḥ** səsi Quba, İraq və Qərbi Azərbaycanın Meğri şivələri üçün xarakterik samitlərdəndir. Dilimizdəki adi **h** səsinə nisbətən daha çox boğazda tələffüz edilir. **ḥ** ən çox ərəb mənşəli sözlərdə işlənir (R.Rüstəmov, 1961, s.61). *Məsələn:*

ḥ samiti sözün hər yerində işlənir.

Sözün əvvəlində: *ḥesab // ḥəsab//, ḥisab "hesab", ḥayvan "heyvan", ḥaram// ḥəram, "haram", ḥaqq "haqq", ḥal // ḥəl "hal"* (Quba), *ḥawas "həvəs", ḥəyyif "heyif", ḥewan "heyvan", ḥesab, ḥəyran "heyran"* (İraq) və s.

Sözün ortasında: *məḥs "məhz", vəḥşi "vəhşi"* (Quba), *rəḥət "rahat" (*İraq) və s.

Sözün sonunda: *vəqaḥ //vəgəḥ "igid, qorxmaz"* (Quba), *xalḥ "xalq", qorḥmax //qurḥma^{ə}x "qorxmaq", ürḥma^{ə}x "hürkmək", ta^{ə}nga^{o}ḥ "tanqax"<alverdə dəyəri olan hər hansı bir mal, dənga^{o}ḥ "dəngax"<heyvan sağılan yer* (Meğri), *səbəḥ "sabah"<səhər, səḥəb "sahib"* (İraq) və s.

q̣. Bu samit İraq-türkman ləhcəsi üçün xarakterik samitlərdən biridir. Əmələ gəlmə yerinə görə dilarxası, əmələ gəlmə üsuluna görə partlayan, səs tellərinin vəziyyətinə görə kar samitdir. ***q̣*** samiti sözün ortasında q samiti ilə yanaşı işlənərək kar tələffüz olunur. Məsələn: *saq̣qız, toq̣qa, şaq̣qıldaq "ot növü", nəq̣qaş, baq̣qam "gil", doq̣quz, ayaq̣qabı, saq̣qa "su qatan", toq̣qalaşmax "əl verib görüşmək"* (İraq) və s.

t^c . Əmələ gəlmə yerinə görə dil-diş, əmələ gəlmə üsuluna görə partlayan, səs tellərinin vəziyyətinə görə kar samitdir. **t^c** samitinə sözün sonunda rast gəlinir. Məsələn: *ut^c "ot", it^c, pulat^c "polad", şəgirt^c "şagird", palut^c "palıd"* (Quba), *süt^c "süd" ot^c "ot" (*Bakı, Quba), *arwat^c "arvad", at^c "ad", bit^c "bit", qurut^c "qurud", dərt^c "dərd", dövlət^c "dövlət", şahat^c "şahad"<şahid, camahat^c "camaat"* (İraq), *bulut^c "bulud", küt^c "küt", qurt^c "qurd", dört^c "dörd", tut^c "tut"* (Quba, Meğri*), armut^c "armud"* (İraq, Meğri) və s.

ḍ. Bu, səs tellərinin vəziyyətinə görə kar, əmələ gəlmə yerinə görə diş, əmələ gəlmə üsuluna görə partlayan samitdir. **d** və **t** samitlərinin birgə əlamətlərini göstərir. Sözün hər yerində işlənə bilir.

Sözün əvvəlində: *ḍoxtur "doktor" <həkim, ḍirextor "direktor"* (Borçalı) və s.

Sözün ortasında: *xəḍdəməx' "qəddəmək"<qələmin uc hissəsini yonmaq, yeḍdi, dasḍan, süḍsüz* (Borçalı)*, almaxḍan "almaqdan", başḍıx "başlıq", bulutḍı "buludlu", etḍim, eşitḍim, itipḍi, yastuxḍı "yastıqdır", getḍi, ləngitḍim, muncuxḍu, tutacaxḍı "tutacaqdır", heywanatḍan "heyvanatdan"* (İraq)*, əkḍük "əkdik", tutḍum, sütḍü "süddür", beşḍən, oxıtḍi "oxutdu" (*Bakı) və s.

Sözün sonunda: *şəyirḍ "şagird", şüyüḍ, dərḍ, paliḍ* (Borçalı) və s.

k^c. Əmələ gəlmə yerinə görə dilortası, əmələgəlmə üsuluna görə partlayan, səs tellərinin vəziyyətinə görə kar samitdir. **k^c** təkhecalı sözlərin sonunda işlənir və Quba şivəsi üçün xarakterik samitdir. Məsələn: *tik^c, tük^c, ək^c, tək^c, çək^c* (Quba) və s.

k'. Bu, **q** səsinin variantıdır və səs tellərinin vəziyyətinə görə kar, əmələ gəlmə yerinə görə dilarxası, əmələgəlmə üsuluna görə partlayan samitdir. M.İslamov yazır ki, Azərbaycan dilini başqa türk dillərindən fərqləndirən, birinci növbədə, qıpçaq tipli türk dillərindən ayıran

cəhət onda söz əvvəlində cingilitili q səsinin işlənməsidir. Halbuki qıpçaq tipli türk dillərində və eyni zamanda oğuz tipli türk dillərindən sayılan türk dilində də söz əvvəlində **q** səsinin karı olan **q** səsi işlənir (M.İslamov, 1968, s. 30). **k′** səsi qərb qrupu şivələrində sözün əvvəlində, Şəki şivəsində sözün ortasında **q** samiti ilə yanaşı işlənir. Ümumiyyətlə, **k′** samiti sözün əvvəlində ortasında və axırında işlənir.

Sözün əvvəlində: *k'ifil "qıfıl"* (Qazax, İraq,Tovuz), *k'uş, k'ano "kanal", k'ıf, k'ıç, mal-k'ara* (Qazax, Tovuz), *K'arxana* (Təbriz), *k'usov "kosöv", k'osa "kosa", k'ürq "kürk", k'işi "kişi", k'utan//k'otan "kotan"* (Dərbənd), *k'oma "koma", k'usa "kosa", k'asıb "kasıb", K'ısar "Qusar"* (Quba), *k'aşqa "qaşqa", k'ız "qız", k'ır "qır", k'irildi "qırıldı", k'ırx "qırx"* (İraq), *k'abab "kabab"(Dərbənd, İraq), k'usa "kosa", k'asıb "kasıb"*(Quba), *k'üçüx' "küçük", k'ıfşımax "qıcqırmaq", k'üçə "küçə"* (Çəmbərək), *k'ış "qış"* (İraq, Çəmbərək, Qazax, Tovuz) və s.

Sözün ortasında: *sak'qal, hok'qa, dak'qa "qiymətli qoyun dərisindən papaq", tık'qıltı, ayak'qavı, bak'qal* (Şəki), *imk'an, qak'il "kəkil", k'araş, k'azma, k'apak, k'almaqal* (Təbriz), *qarışk'a, qaşk'a, tok'qalaşmax "toqqalaşmaq"<bir-birilə toqquşmaq, dohk'uz "doqquz", sahk'oy "saqqoy"<at xəstəliyi* (Borçalı), *lok'ut "kiçik ot tayası"* (Quba), *taᵊk'qa "dik", dık'qılı "balaca, kiçik", tak'qa gəlməx "qorxutmaq"* (Meğri), *çak'qal, sak'qız* (Şəki, Borçalı, Meğri, Çəmbərək), *dak'qa "daqqa"*<ağac qab, tava*k'qa "təvəqqə"<xahiş* (Çəmbərək), *ek'i "iki", tik'an "tikan"* (Dərbənd) və s.

Sözün sonunda: çura*k' "çörək", inak' "inək"* (Zaqatala, Qax), *xurak' "xörək"*(Dərbənd) və s.

k′ samiti Təbrizin Bostanabad və Pətava şivələrində x samitinin (M.Məmmədli, 2011, s. 46) variantı kimi işlənir. Məsələn: *tok'um "toxum".*

ŋ. Azərbaycan dili şivələrində işlənən samitlərdən biri də **ŋ** samitidir. **ŋ** səs tellərinin vəziyyətinə görə cingilitili, əmələ gəlmə yerinə görə dilarxası, əmələ gəlmə üsuluna görə partlayan samitdir.

M.Şirəliyev yazır: "... **ŋ** səsinin qədim şəkli qovuşuq **nq, nğ, ng** olmuşdur ki, bunu türk dillərinə aid qədim abidələrdə, klassiklərimizdə və dialektlərimizdə görə bilərik. M.Kaşğaridə tanga, sanga, songur "son", tengri "tanrı" tengiz, A.Bakıxanovda: **onga** - .. Ağanın vəsfindən bəyan etməkdən mehribanın dəxi onga təəşşüq yetiri ola (A.Bakıxanov. Kitabi-Əsgəriyyə), M.F.Axundovda: **yengi** dünya (M.F.Axundov. Əsərləri II c., s. 164), **songra** – neçə vaxtdan songra... (M.Kazımbəy. Dərbəndnamə, s. 248), sonqra (Q. – Quba – İ.B), donquz (Muğ. - Muğan, N. – Şəki- İ.B), donqar<donar (N. – Şəki-İ.B) və s. daha sonralar qovuşuq **nq** səsi get-gedə öz hissələrinə parçalanmış, bir qrup dialektlərdə bu səsin **n** ünsürünə, başqa bir qrup dialektlərdə isə **q, ğ, g** ünsürünə üstünlük verilmişdir. **ğ** səsinin yumşalması nəticəsində onun yerində bəzi şivələrdə **y** səsi meydana gəlmiş, bəzi şivələrdə də **ğ** səsi **v** səsi ilə əvəzlənmişdir" (M.Şirəliyev, 1967, s.76).

H.Mirzəzadə **ŋ** samitinin şivələrimizdə işlənməsi ilə bağlı yazır: "Müasir dialektlərimizdə, xüsusən qərb qrupu şivələrində dilimizdə normal hal kəsb etmiş n səsindən başqa, onun daha iki növü işlənir. Bunlardan biri ڭ (sağır nun), digəri isə qovuşuq n (n+q) səsidir. Hər iki səs istər qədim, istərsə də müasir türk dillərində söz başında işlənmir, lakin söz ortasında təxminən bütün türk dillərində təsadüf edilir. Azərbaycan dilində də eyni mənzərəni görürük. Azərbaycan dialektlərində, eləcə də XIX əsr xalq yaradıcılığı materiallarında buna istənilən qədər misallar tapmaq mümkündür" (H.Mirzəzadə,1990, s. 22-23)

ŋ samiti qərb qrupu şivələrimiz üçün xarakterik olsa da, Nuxa (Şəki – İ.B.) şivəsinin Böyük Dəhnə, Kiçik Dəhnə, Suçma, Aşağı Göynük, Baş Göynük, Biləcik, Baqqal kəndlərində qalmışdır (M.İslamov, 1968, s. 40)

Azərbaycan dili şivələrində **ŋ** samiti söz köklərində və şəkilçilərin tərkibində aşağıdakı hallarda işlənir[1]:

a) ***söz köklərində ŋ samitinin işlənməsi****: doŋŋuz "donuz", haŋŋa "bəli", aŋŋırdı "qışqırdı" (Şəki), öŋlüx' "önlük", soŋra "sonra", soŋ "son", aŋarı "o tərəf"(Qazax), bəŋiz "üz, sifət", çaŋ "duman", həŋə "razılıq", maŋşır "işarə, nişan", yüŋül "yüngül", aŋmax "xatırlamaq", gəŋəşmək "məsləhətləşmək" (Borçalı) və s.*

b) ***mənsubiyyət şəkilçisinin II şəxs tək və cəmində ŋ samitin işlənməsi****: ağlıŋa "sənin ağlına", ütuŋ "sənin ütün", üzuŋa "sənin üzünə", yerıŋız "sizin yeriniz", qəlyənıŋ "sənin qəlyanın", elıŋ "sənin elin", elıŋız "sizin eliniz" (Şəki), özüŋ "sənin özün", yeriŋ "sənin yerin", divanıŋ "sənin divanın", yaylaŋ "sənin yaylan", üzüŋə "sənin üzünə", gözüŋə "sənin gözünə" (Qazax), mamaŋ "sənin maman"<sənin bibin, eviŋiz "sizin eviniz" (Borçalı), çaşırıŋ "sənin çaşırın", ataŋ "sənin atan" (Çəmbərək) və s.*

c) ***xəbərlik kateqoriyasının II şəxs cəmində*** **ŋ** ***samitinin işlədilməsi****: mə:limsıŋız "siz müəllimsiniz", cavansıŋız "siz cavansınız", çölçüsüŋüz "siz çölçüsünüz", kümçüsüŋüz "siz kümçüsünüz"<siz barama qurdu bəsləyənsiniz (Şəki, Çəmbərək), kimsəŋ "sən kimsən", qarabaşdarsıŋız "siz qarabaşdarsınız"(Çəmbərək) və s.*

d) ***feiliin müxtəlif zamanları və şəkilləri üzrə II şəxs tək və cəminin şəxs şəkilçilərində ŋ samitinin işlənməsi:*** *alırsıŋız "siz alırsınız", alıjasıŋız "siz alacaqsınız", oxusaŋız "soz oxusanız", qırdıŋız "siz qırdınız", yazırsıŋız "siz yazırsınız", vurduŋuz "siz vurdunuz", üzdüŋuz "siz üzdünüz", işdi:rdıŋ "sən işləyirdin", üzsəŋiz "siz üzsəniz", gəlcasıŋız "siz gələcəksiniz" (Şəki), gediŋ "siz gedin", düşərsəŋ "sən düşərsən", gəzsiŋ "o gəzsin", alırdıŋız "siz alırdınız", baxsaŋız "siz baxsanız", görərsiŋiz "siz görərsiniz" (Qazax), gəlirsiŋiz "siz gəlirsiniz", alırsıŋız "siz alırsınız" (Naxçıvan), alsıŋ "o alsın", aparıŋ "siz aparın", gəlsiŋnər "onlar gəlsinlər" (Borçalı, Çəmbərək), baxarsaŋ "sən baxarsan", səpərsəŋ "sən səpərsən", işdərsəŋ "sən işləyərsən", qazarsaŋız "siz qazarsınız", yığarsaŋız "siz yığarsınız" (Çəmbərək) və s.*

e) ***ismin yönlük halında mən, sən əvəzliklərində ŋ samitinin işlənməsi****:* *maŋa "mənə", saŋa "sənə" (Şəki, Qazax, Çəmbərək) və s.*

f) ***ismin yiyəlik və təsirlik hallarında ŋ samitinin işlənməsi:*** *səniŋ "sənin", sirriŋi "onun sirrini" (Qazax, Çəmbərək), atasınıŋ "onun atasının" (Borçalı), Sonaŋın "Sonanın", körpüŋün "körpünün" (Çəmbərək) və s.* ŋ səsi Qubadlı şivəsində söz köklərində (geŋ, geŋiş, köŋül) və şəkilçilərin tərkibində (manŋa, saŋa, ataŋa, ataŋıza, qoluŋuza, papağıŋa, əmiŋizə və s.) özünü göstərir (R.Abbasova, 2006, s.29).

ŋ samitinin tarixi səslərdən biri olduğunu İsmayıl Kazımov Mahmud Kaşğarinin "Divanü Luğat-it- Türk" əsərinə əsaslanaraq yazır: " Tarixi səslərdən biri sağır nun ***(ŋ)*** səsidir. Lüğətdə ("Divanü -Luğat-it -Türk" - İ.B.) həmin səs nq, ng qovuşuq səsləri ilə ifadə olunmuşdur.Bu səs sözün ortasında və sonunda müşahidə olunur. "Divan"da sağır nun ***(ŋ)*** səsi ***tenqri, nenq, manga, angılamaq, angar, tüzing, tozıng, aydıng, ayrang, tonguz, yangı, bang, beling, şabang*** və s. sözlərin tərkibində işlədilmişdir " (İ. Kazımov, 2014, s.16).

---

[1] ŋ samitinin kök və şəkilçilərin tərkibində işlənməsi ilə bağlı verilən bölgü M.İslamovun "Azərbaycan dilinin Nuxa dialekti" kitabından götürülmüşdür (Bakı, 1968,s. 40-41)

x'. Azərbaycan dili şivələri üçün xarakterik samitlərdən biri də **x'** samitidir. **x'** samiti səs tellərinin vəziyyətinə görə kar, əmələ gəlmə yerinə görə dilortası, əmələ gəlmə üsuluna görə sürtünən samitdir. Ədəbi dilimizdə **y** samitinin kar qarşılığı kimi işlənir. Ədəbi dildə sonu **k** samiti ilə bitən sözlər **x'** çalarlığında deyilir və **x' k** samitinin variantıdır.

x' əsasən sözün sonunda və ortasında işlənir.

Sözün sonunda: *çörex' "çörək", ilix' "ilik", cürix' "çürük", tüx' "tük" (Şəki), dirəx' "dirək"(Təbriz, Çəmbərək), üzüx', biləzix' "bilərzik", inəx', günnüx' "günlük", gəldix', əkerdix', vermişix' (Qazax, Ağstafa, Gəncə, Çəmbərək), kürəx', çörəx' (Naxçıvan, Şəki), ələx', pişix', diləx', ipəx', köynəx', çəmənnix' (Çəmbərək,Naxçıvan), təx' "tək", dix' "dik", köx' "kök" (Meğri), əzix' "əzik", hədix' "hədik", kirpix' "kirpik", gədix' "gədik" (Qazax, Ağstafa, Gəncə, Naxçıvan, Meğri, Çəmbərək), kəkix' "kəkik"<güneydə bitən ot, sökux' "sökük", zircix' "zircik"<dəcəl, məkix' "məkik"<təsiredici, əkənəx' "əkənək", biçənəx' "biçənək" (Çəmbərək), kəklix' "kəklik" (Naxçıvan) və s.*

Sözün ortasında *: təx'nə "təknə"<daşdan ovulmuş böyük qab, nəx'mə "nəkmə" (Naxçıvan), söx'məx' "sökmək" (Qazax, Ağstafa, Gəncə, Naxçıvan) və s.*

ç̣. Bu samit c samitinə nisbətən kar tələffüz edildiyi üçün kar samitlərin sırasında veririlir. **ç̣** əmələ gəlmə yerinə görə damaq-diş, əmələ gəlmə üsuluna görə qovuşuq, səs tellərinin vəziyyətinə görə kar samitdir. **ç̣** sözün ortasında işlənir: *Məsələn: keççaxdı "gedəcəkdi", çaççaxdı "çatacaqdı", çaççax "çatacaq", uzaççax "uzadacaqdı", çuççü "cütçü" (Şəki) və s.*

ẑ. Bu, səs tellərinin vəziyyətinə görə cingilitili, əmələ gəlmə yerinə görə dişarası, əmələ gəlmə üsuluna görə sürtünən samitdir. Qərb qrupu şivələrinə xas olan ẑ sözün ortasında və sonunda işlənir: *Məsələn: gələẑəm "gələcəyəm", aẑam "acam", əẑəli "əzəli"<əvvəl (Qazax, Ağstafa), caẑu "cadu", Nəẑir "Nədir", yeẑi "yedi", caẑ "cad"<qarğıdalı çörəyi", doẑax "dodaq", Saẑıq "Sadıq", yaẑ "yad", geẑir "gedir" (Çəmbərək), oẑun "odun", oẑ "od", suẑ "süd"* (Qazax), *quẑa "quda" (Gədəbəy).*

ẑ Gədəbəy şivəsində sözün əvvəlində də işlənir. Məsələn: ẑəẑə "dədə".

q̧. Bu səs əmələ gəlmə yerinə görə boğaz samiti, əmələ gəlmə üsuluna görə partlayan, səs tellərinə görə cingilitili samitdir. Azərbaycan dilinin İraq-türkman, şimal qrupu şivələrinə daxil olan Dərbənd, Tala (Dərbənd) şivələrində özünü göstərir. Q.Paşayev yazır: " Bu səs tələffüz olunma yerinə, danışıq üzvlərinin iştirakına və keyfiyyətinə görə ərəbcə ق (qaf) səsindən fərqlənmir. Çox güman ki, boğazda tələffüz olunan **q** səsi ərəb dilinin təsiri ilə q səsindən yaranmışdır. Çünki eyni sözdə Kərkük şəhər şivəsində q səsinə (Məsələn: qız, qış, qırx və s.) təsadüf etdiyimiz halda, başqa şivələrdə q səsinə (qiz, qiş, qirx və s) rast gəlirik" (İraq-türkman, 2004, s. 72).

q̧ samiti həm sözün əvvəlində, həm də ortasında işlənir.

Sözün əvvəlində: ***q̧****abağ "qabaq",* ***q̧****awın "qovun",* ***q̧****axdım "aradan götürüldüm",* ***q̧****alabalıq "basabas",* ***q̧****axar "aradan götürülər",* ***q̧****ısmat "qismət",* ***q̧****orxmam "qorxmaram" (İraq),* ***q̧****ar,* ***q̧****uş,* ***q̧****alib,* ***q̧****ıymat "qiymət" (Zaqatala, Qax).*

Sözün ortasında: *su****q̧****aq "dalan" (İraq).*

"Dağıstan dilləri üçün səciyyəvi olan bu səs Dərbənd dialektində də geniş yayılmışdır" (Dərbənd dialekti, 2009, s. 26). *Məsələn: q̧atık' "qatıq", q̧ara "qara", q̧ırmızı "qırmızı", q̧ız "qız", q̧iyin "qayın", q̧eytəği "Qaytağı"<oyun havası, q̧in "qen"<saplı iri ḅıçaq, q̧irpiğ "kirpik", q̧ir "qır" (Dərbənd).*

ц (ts). **ц** səs tellərinin vəziyyətinə görə cingilitili, əmələ gəlmə yerinə görə damaq-diş, əmələ gəlmə üsuluna görə qovuşuq samitdir. Bu samit cənub qrupu şivələrində daha çox işlənir. **ц** samitinə Ordubadın Aza, Vələvir, Kələki, Sabir, Şahbuz rayonunun Keçili kənd şivələrində (Naxçıvan qrupu şivələri, 1962, s. 42), Təbriz dialektinin Qərə Kəmər (M.Məmmədli, 2007, s. 46), Gədəbəy, Cəbrayıl, Qərbi Azərbaycanın Qarakilsə, Meğri, Zəngibasar şivələrində müşahidə olunur. *Məsələn: цox (çox), цöp "çöp", цul "çul", цırax "çıraq", цəltix' "çəltik", цəmənnix' "çəmənlik" (Ordubad, Təbriz, Gədəbəy), цiцəx' "çiçək" (Təbriz, Gədəbəy), цarx "çarx", цilis "çilis" <xəsis, цimən "çəmən", цala "çala", цilo: "çilov" (Təbriz), цay "çay" (Ordubad, Təbriz, Cəbrayıl), цörəx' "çörək", sığırцın "sığırçın" (Cəbrayıl), цa^{0}dır "çadır", цima^{ə}n "çimən", "цa^{0}yır "çayır" <ot adı, цəçə "çəçə" <ən kiçik budaq (Meğri), цırpı "çırpı" (Gədəbəy), цənə "çənə", qılцıx "qılçıq", qoцax "qoçaq" (Qarakilsə), цay "çay", alцa "alça" (Zəngibasar).* E.Əzizov şivələrimizdə **ц** samitinin işlənməsi barədə yazır: "Dialekt fonetikasında bəzən elə fərqləndirici əlamətlər də olur ki, bunların izahı xalqın etnik tarixi ilə əlaqələnir. Belə dil xüsusiyyətləri etnolinqvistik səciyyəli olur, buna görə də onları xalq dilinin formalaşmasında iştirak etmiş tayfa dili elementləri kimi qiymətləndirmək mümkündür. Azərbaycan dili şivələrində samitlər sistemində özünü göstərən belə əlamətlərdən biri ц-laşmadır. Dilimizin bir sıra şivələrində ən çox söz əvvəli, qismən söz ortası mövqelərində ədəbi dildəki dil-yuvaq, kar ç samitinin yerinə dilönü, qovuşuq, kar **ц** səsi işlənir" (E.Əzizov,1999, s. 91).

ç^{c}. Əmələ gəlmə yerinə görə damaq-diş, əmələ gəlmə üsuluna görə qovuşuq, səs tellərinin vəziyyətinə görə kar samitdir. Bu samit Quba şivəsi üçün xarakterik olub sözün sonunda işlənir. Məsələn: *aç^{c}, qaç^{c}, iç^{c}, qıç^{c}* (Quba) və s.

w. Azərbaycan dilinin İraq-türkman ləhcəsinə xas olan samitlərdən biri də **w** samitidir. "Azərbaycan ədəbi dilində işlənməyən w səsi tələffüz olunma yerinə, danışıq üzvlərinin iştirakına və keyfiyyətinə görə ingiliscə w və ərəbcə (vav) səslərinə oxşayır. Bu səsi tələffüz edərkən dodaqlar dairəvi vəziyyət alır və bir qədər irəli uzanaraq dar bir nov əmələ gətirir. Dilin arxa hissəsi yumşaq damağa doğru qalxır. Bu səsin deyilişində v saitinin çaları duyulur" (İraq-türkman, 2004, s.74). **w** samiti Zaqatala, Qax şivələrində də müşahidə olunur.*Məsələn: watan "vətən", war "var"* (İraq, Zaqatala, Qax), *arwat^{c} "arvad", qawın "qovun", şiwən "şivən"* (İraq*), əw "ev", towuq "toyuq", sowuq "soyuq"* (Zaqatala, Qax*) və s.*

w samiti söz növləri ilə yanaşı, şəkilçilərin tərkibində də işlənir və buna İraq-türkman ləhcəsində rast gəlinir. Bu fonetik hadisə aşağıdakı hallarda özünün göstərir.

II şəxs tək və cəmində mənsubiyyət şəkilçisini qəbul etmiş isimlərdə. Məsələn: *babaw "sənin baban", babawız "sizin babanız", ikiwiz "sizin ikiniz", yoluwuz "sizin yolunuz" və s.*

Feilin əmr şəklinin II şəxs cəminin təsdiq və inkarında. Məsələn: *qınamawın "siz qınamayın", inanmawın "siz inanmayın", yazmawın "siz yazmayın", yırğalawın "siz yırğalayın", yuwun "siz yuyun", oxumawın "siz oxumayın", cəmləwin "siz cəmləyin", çirməwin "siz çirməyin"* (İraq-türkman, 2004, s. 74).

p^{c}. Bu səs əmələ gəlmə yerinə görə qoşadodaq, əmələgəlmə üsuluna görə partlayan, səs tellərinin vəziyyətinə görə kar samitdir. Quba, İraq-türkman və Qərbi Azərbaycanın Meğri şivələri üçün xarakterik olan p^{c} samiti sözün sonunda işlənir. *Məsələn: ip^{c} "ip", gop^{c} "gop", çüp^{c}, "çöp", tup^{c} "top", turp^{c} "turp" (Quba), küp^{c} "küp"(İraq, Meğri), öp^{c} "öp", səp^{c} "səp", tap^{c} "tap" (İraq), sap^{c} "sap" (Quba, İraq), kabap^{c} "kabab", curap^{c} "corab", söyit^{c} "söyüd",*

hesap^c “hesab”, avrat^c“arvad” (Meğri) və s.

dz. Bu səs əmələ gəlmə yerinə görə dil-diş, əmələ gəlmə üsuluna görə qovuşuq, səs tellərinin vəziyyətinə görə cingiltili samitdir. ***dz*** samiti Cəbrayıl, Ordubad, Zəngibasar, İsmayıllı şivələrində ***c*** səsinin mövqeyində çıxış edir: *dzoraf, dzanavar, qodza, dzan* (M.Məmmədli, 2011, s.34).

Samitlərin Əvəzlənməsi

Azərbaycan dili şivələrində samitlərin əvəzlənməsi əsas fonetik hadisələrdəndir. Samitlərin əvəzlənməsində karlaşma və ya cingiltiləşmə baş verir. Samitlərin əvəzlənməsi kar samitlərin cingiltili samitləri, cingiltili samitlərin kar samitləri, cingiltili samitlərin cingiltili samitləri, kar samitlərin kar samitləri əvəz etməsində müşahidə olunur. Ona görə də şivələrimizdə samitlərin əvəzlənməsini dörd yerə bölmək olar:

1.Kar samitlərin cingiltili samitlərlə əvəzlənməsi.
2.Cingiltili samitlərin kar samitlərlə əvəzlənməsi.
3.Kar samitlərin kar samitlərlə əvəzlənməsi.
4.Cingiltili samitlərin cingiltili samitlərlə əvəzlənməsi.

Kar Samitlərin Cingiltili Samitlərlə Əvəzlənməsi

Kar samitlərin cingiltili samitlərlə əvəzlənməsi Azərbaycan dili şivələrininin əksəriyyətində özünü göstərir. Bu cingiltiləşmə aşağıdakı samitlərdə müşahidə olunur.

t>d. t səsinin d səsi ilə əvəzlənməsi Bakı, Quba, Təbriz, İraq-türkman, Şəki, Qazax, Naxçıvan, Ordubad, Borçalı, Qərbi Azərbaycanın Çəmbərək, Meğri şivələrində özünü göstərir. Bu səs əvəzlənməsi ilə bağlı R.Rüstəmov yazır: “t səsinin d səsi ilə əvəzlənməsinin əsas səbəblərindən biri dilimizdə iki kar səssiz (samit – İ.B.) nadir hallarda yanaşı işlənməsidir. Tələffüzdə iki kar səssiz (samit – İ.B.) yanaşı demək çox çətinlik törətdiyi üçün bunlardan biri cingiltiləşir” (R.Rüstəmov, 1961, s. 65).

t>d səs əvəzlənməsi sözün əvvəlində, ortasında və sonunda müşahidə olunur.

Söz əvvəlində: *dutmax “tutmaq” (Təbriz), doqqa “toqqa” (Quba), düsdü “tüstü”, dər “tər”, dərrədim “tərlədim”, dərrix' “tərlik” (Qazax, Çəmbərək), dəkə “təkə”, dəgi “təki”, dikən “tikən”, dökən “tökən”, dutdılar “tutdular”, yengi dököb “yeni töküb” (İraq), dərbənməx' “tərpənmək” (Naxçıvan), dütqün “tutqun”, dərrəməx' “tərləmək” (Borçalı), dıncıxmax “tıncıqmaq”<darıxmaq, dumurcux “tumurcuq”(Çəmbərək) və s.*

Sözün ortasında: *döhdür “doktor”<həkim (Təbriz), küfdə “küftə” (Bakı, Təbriz, Çəmbərək), busdan “bostan”, tüsdi “tüstü”, Müxdər “Muxtar”, Doğusdan “Dağıstan”, neşdər “neştər” (Quba), bosdan “bostan” (Quba, Təbriz, Çəmbərək), çödənə “çötənə”<qoz (İraq), usda “usta”, tüsdü “tüstü”, Musdafa “Mustafa” (Şəki, Çəmbərək), isdi “isti” (Quba, Şəki, Çəmbərək), həfdə “həftə”, taxda “taxta”, yasdıx “yastıq” (Şəki, Naxçıvan, Ordubad, Çəmbərək), asdar “astar”, kifdə “küftə”, gösdəriş “göstəriş”, noxda “noxta”, işdirak “iştirak” (Naxçıvan, Ordubad, Çəmbərək), axda “axta”, asda “asta”, yasdı “yastı”, toxdamax “toxtamaq”, axdarmax “axtarmaq” (Çəmbərək, Karvansaray), xəsdə “xəstə”(Şəki, Meğri, Çəmbərək), ərişdə “ərištə” (Naxçıvan, Ordubad, Meğri, Çəmbərək), ha^{ə}fda^ə “həftə”, Rısdam “Rüstəm”, Muxda^{o}r “Muxtar”, süfdə “siftə” (Meğri), məfdil “məftil”, şəfdəli “şaftalı”, sifdə “siftə” (Şəki, Naxçıvan, Ordubad, Çəmbərək, Meğri), cəfdə “cəftə”, dəsdə “dəstə” (Bakı) və s.*

Sözün sonunda: *Nüsrəd “Nüsrət”, salad “salat”, hörməd “hörmət” (Təbriz), vaxd “vaxt”, gid “get”, sərbəsd “sərbəst” (Quba), üsd “üst” (Quba, Meğri), ba^{ə}xd “bəxt” (Meğri) və s.*

k>g. Bu fonetik hadisə şivələrimizdə sözün əvvəlində, ortasında və sonunda özünü göstərir.

Sözün əvvəlində. *Məsələn: gö:l,“könül”, gərdi “kərdi”<lək, gərmə “kərmə”<təzək, geçək “keçək” (Təbriz), gülvə//gürvə* “külbə”,gə:r “kəhər” (Quba), geçi “keçi” (Naxçıvan, Ordubad,Təbriz, İraq), geçəl “keçəl”, göül “könül”, geç//giç “keç”, gişi “kişi” (İraq), geçmiş “keçmiş”, geşmiş “keşmiş”, geşdi “keçdi” (Naxçıvan, Ordubad, Meğri), gorvud “kobud”, gərən “kərə” (Çəmbərək), geşniş “kişniş”, geşmək “keçmək”, geçirməx “keçirmək” (Meğri) və s.*

Ssözün ortasında. *Məsələn: seggiz “səkkiz”, ösgürmax “öskürmək” (Quba), dügcə “dükcə”, səgsən “səksən”, çöürgə “çöürkə”<çəyirtkə (İraq), esgix' “əskik”, həvəsgər” həvəskar”, ösgürmə “öskürmə” (Şəki), seşgi “seçki”, çisgin “çiskin”<yağış növü, keşgə “keşkə<kaş ki, bitgi “bitki”, aşgar //eşgar “aşkar”<bəlli, məlum, bitgin “bitkin” (Çəmbərək, Meğri), peşgəş “peşkəş”<müftə (Meğri), əsgi “əski”, isgan “stəkan”, isgənə “iskənə” (Yardımlı) və s.*

Sözun sonunda. *Məsələn: gəlmeg “gəlmək”, kö:neg “köynək”, işdəmeg “işləmək”, dögmeg “döymək”, yeməg “yemək” (Bakı), çüreg “çörək”, çiçeg “çiçək”, “küleg “külək” (Quba, Dərbənd), üreg “ürək”, üzüg “üzük”, əteg “ətək”, ürüg “hörük”, kiçig “kiçik”, əlceg “əlcək”, ipeg “ipək” (Quba), əleg “ələk” (Bakı, Quba, Dərbənd), inəg//ineg “inək”, göyçeg “göyçək”, erüg “ərik”, cürəg//cörəg “çörək”, pişig “pişik”, çaltig//çəltüg “çəltik”, xürəg “xörək”, düşəg “döşək” (Quba), tərg “tərk” (Şəki), nəzüg “nazik”, xörəg “xörək”, göyçəg “göyçək”, səppəg “səpmək” (Yardımlı) və s.*

f>v. f səsinin **v** səsini əvəz etməsi şivələrimiz üçün bir o qədər xarakterik fonetik hadisə deyil. Bu fonetik hadisə bir neçə sözdə özünü göstərir. Məsələn: *İsvahan “İsfahan”, Qavqaz “Qafqaz” (Təbriz), mikavat “mükafat” (Quba), vəsil “fəsil”(Naxçıvan, Muğan), tüvək//tüvəng “tüfəng” (Muğan), vəsli “fəsil”, kəşvi “kəşf” (Meğri) və s .*

h>y. h səsinin **y** səsi əvəz etməsi şivələrimizdə geniş yayılmamışdır. Bu səs əvəzlənməsi sözün ortasında özünü göstərir. *Məsələn: Meyti “Mehdi” (Quba, Qazax, Naxçıvan, Çəmbərək), İbrayım “İbrahim”, dayı^{ı} “daha” (Quba), söybət “söhbət” (Tovuz, Muğan), vəyşi*

***gülbə//gürvə** Quba dialektində 4 mənada işlənir:

1) külbə. Təndirdə olur. Təndirin yanması üçün hava çəkən yer, truba.
2) tənəkdən qayrılmış peçin trubası üçün şüşədə düzəldilmiş xüsusi göz.
3) evin havasını dəyişmək üçün divarda qayırılan xüsusi yer.
4) bilet kassasının gözü (R.Rüstəmov, 1961, s.252).

“vəhşi” (Qazax, Muğan), qoyum “qohum” (Qazax), böytan “böhtan” (Tovuz, Çəmbərək), meytər “mehtər”, seyra “səhra”, meymanxana “mehmanxana”, Teyran “Tehran”, neyrə “nəhrə” (Muğan), Tayır “Tahir” (Muğan, Meğri), pəyləwan “pəhləvan”, sabaynan “sabahnan”<sabahla (İraq), dayi “daha” (Naxçıvan), söyfət “söhbət”, köynə

“köhnə” (Borçalı), xayiş “xahiş”, şəyit “şəhid”, Teyfə “Töhvə”, Ca^{ə}va^{o}yir “Cavahir”, nəsiyət “nəsihət” (Meğri) və s.

k'>g. Bu fonetik hadisəyə Bakı, Quba, Dərbənd şivələrində rast gəlinir və “bu sözlərdə yanaşı gələn iki kar səssizdən (samitdən – İ.B.) biri dilimizin tələffüz xüsusiyyətlərinə uyğunlaşaraq cingiltiləşir” (R.Rüstəmov, 1961, s.66). *Məsələn: lotgə “lotk'a”, putilgə< potılgə “butulk'a” (Bakı, Quba, Dərbənd) və s.*

k'>q. Bu fonetik hadisə alınma sözlərdə baş verir və şivələrimizin demək olar ki, hamısında rast gəlinir. *Məsələn: qardon “k'ardon”, qŭlub “k'lub”, tanq “tank'”, qors “k'urs”, qabnet “k'abinet” (Quba), qlub//qulub “k'lub”, qral “k'ral” (İraq), qŭluf “k'lub”, qurs “k'urs”, işqaf “şk'af” (Şəki), qəsdiyum “k'ostyum”, qənfit “k'onfet”, qarton “k'arton” (Naxçıvan, Ordubad) və s.*

ç>c. Bu səs əvəzlənməsi şivələrimizdə sözün əvvəlində və ortasında müşahidə olunur.

Sözün əvvəlində. *Məsələn: Cingiz “Çingiz” (Muğan, İraq), cargah “çahargah” (Muğan), carx “çarx”, Cəngiz “Çingiz” (İraq), cay “çay”, cırk “çirk”, cubux “çubuq” (Zəngilan), cılvax “çılpaq”, culğamax “çulğamaq” (Çəmbərək), canta “çanta” (İraq, Çəmbərək) və s.*

Sözün ortasında. *Məsələn: qolcağ “qolçaq”, ürümceg “hörümçək”, bildircin “bildirçin” (Quba), hörümcək “hörümçək”, lelcək “ləçək” (Muğan), qöncə “qönçə”, əkinci “əkinçi”, kamanca “kamança”, xancı “xançı”, halcı//alınca “halçı” (İraq) və s.*

p>b. p səsini **b** səsi əvəz etməsi şivələrimizdə az yayılmışdır və bir neçə sözdə sözün əvvəlində və ortasında müşahidə olunur. *Məsələn: bişig “pişik”, tabbaca “tappaca” (Quba), aşbaz “aşpaz” (Quba, Çəmbərək), baqlawa “paxlava”, bacaq “paça”, bozğun “pozğun”, bozulmuş “pozulmuş”, bozar “pozar”, bozuğ//bozux “pozuq” (İraq) və s*

Şivələrimizin qərb qrupunda **p>b** səs əvəzlənməsi sözün əvvəlində alınma sözlərdə özünü göstərir. *Məsələn: badrum//badron “patron”, bol “pol”, baldun “palto”, buravuz “paravoz”, bılan “plan” (Qazax, Tovuz), bila^{o}n “plan” (Meğri) və s.*

k>y. k səsinin **y** səsi ilə əvəzlənməsi əsasən şivələrimizin qərb qrupu üçün xarakterikdir. Bununla belə ayrı-ayrı şivələrimizdə də bu fonetik haidəsyə rast gəlmək olur. *Məsələn: meytəb “məktəb” (Quba), səysən “səksən”, səysənməx' “səksənmək”<qorxmaq, əysix' “əskik”(Borçalı, Çəmbərək, Meğri), əysəriyyət “əksəriyyət” (Çəmbərək), çörəy “çörək”, çəymə “çəkmə”, beşiy “beşik”, gedəy “gedək”, dəhmərrəməy “dəhmərrəmək”<ayaqla yeriməyi sürətləndirmək, qovmaq, tələsdirmək (Yardımlı).*

x>ğ. Şivələrimizdə bu fonetik hadisəyə az rast gəlinir və bir neçə sözdə müşahidə olunur. *Məsələn: sığ “sıx” (Quba), ğəzəl “xəzəl”, ğəlbir “xəlbir”, ğirtləğ “xirtdək”, adağlı “adaxlı”, doğsan “doxsan”, coğları “çoxları”, coğalmış “çoxalmış” (İraq) və s.*

s>z. s səsinin **z** səsi ilə əvəzlənməsi Azərbaycan dili şivələrində geniş yayılmamışdır. Əsasən bir neçə sözdə sözün əvvəlində və ortasında müşahidə olunur. *Məsələn: zifdə “siftə”, zalxım “salxım”, doqzan “doxsan”, səkzən “səksən”, tozbağa “tısbağa” (İraq), zalxum//zalxom “salxım” (Dərbənd), zığırçın “sığırçın” (Naxçıvan), züküt “sükut”, ziyax “siyah”, zərraf “sərraf” (Karvansaray), zavax//zavah “sabah”, zancı “sancı”<paya, zəvət “səbət” (Gədəbəy) və s.*

p>m. Bu səs əvəzlənməsinə şivələrimizin qərb qrupunda rast gəlinir. *Məsələn: mamador//mamadur “pomidor” (Qazax, Çəmbərək).*

f>y. Şivələrimizdə bu fonetik hadisə geniş yayılmamışdır və əsasən sözün ortasında rast gəlinir. *Məsələn: söytəli “şaftalı”, köykür “kəfkir” (Qazax, Tovuz, Gəncə, Çəmbərək).*

k>n. Bu fonetik hadisəyə Gürcüstanın Borçalı şivəsinin Ağaməmmədli kənd şivəsində rast gəlinir. *Məsələn: çiyələn “çiyələk”* (Azərbaycan dilinin qərb qrupu şivələri, 1967, s.40).

x>q. Bu fonetik hadisəyə İraq-türkman ləhcəsində rast gəlinir və bəzən Qərbi Azərbaycanın Çəmbərək şivəsində rast gəlinir. Sözün əvvəlində və ortasında özünü göstərir.

Sözün əvvəlində. *Məsələn: qəlbir “xəlbir”, qəşil “xəşil”, qoyrat “xoyrat”<bayatı* (İraq)

Sözün ortasında: *aqça “axça”, doqzan “doxsan”, yaqa “yaxa”, yəqə “yaxa”, paqır//pəqir “paxır”, yaqın “yaxın”, çuqur “çuxur”, toqunmax “toxunmax”, baqılarsa “baxılarsa”, yuqarı “yuxarı”, yoqış “yoxuş”, loqma “loxma”, naqış “naxış” (İraq), qəndəx' “xəndək” (Çəmbərək).*

k>q. **k** səsinin **q** səsi ilə əvəzlənməsi İraq-türkman ləhcəsində həm söz kökündə həmin şəkilçidə müşahidə olunur. Mələn: *biqar “bikar”, arasındaqı “arasındakı”, başındaqı “başındakı” (İraq)*. Bununla yanaşı Şəki, Naxçıvan, Qərbi Azərbaycanın Çəmbərək və Meğri şivələrində **k** səsinin **q** səsi ilə əvəzlənməsi söz kökündə müşahidə olunur. *Məsələn: əqməq “əkmək”<çörək (Şəki), qüçə “küçə”, qişi “kişi” (Naxçıvan), qunc “künc” (Çəmbərək), ba^{o}lqın “balkon”, qa^{ə}na^{o}l “kanal” (Meğri) və s.*

p>v. Bu fonetik hadisə şivələrimizdə geniş yayılmamışdır və qərb qrupu şivələrinə daxil olan Qərbi Azərbaycanın Çəmbərək şivəsində rast gəlinir. *Məsələn: aşvaz<aşpaz, cavalamax “çapalamaq”, cılvax “çılpaq” (Çəmbərək) və s.*

ç>z. Bu fonetik hadisəyə Qərbi Azərbaycanın Çəmbərək şivəsinə daxil olan Gölkənd şivəsində bir sözdə rast gəlinir. *Məsələn: dirzəlməx' “dirçəlmək” və s.*

h>n. Azərbaycan dili şivələrində **h** səsinin **n** səsini əvəz etməsi geniş yayılmamışdır və Qərbi Azərbaycanın Meğri şivəsində bir neçə sözdə təsadüf olunur. *Məsələn: ma^{ə}nsıl “məhsul”, Mönsim//Mönsüm “Möhsün”* (Meğri) *və s.*

Cingilitili Samitlərin Kar Samitlərlə Əvəzlənməsi

Cingilitili samitlərin kar samitlərlə əvəzlənməsi şivələrimizdəki fonetik hadisələrdən biridir. Yəni bəzi sözlərdə karlaşma hadisəsi baş verir. Cingiltili samitlərin kar samitlərlə əvəzlənməsi əsasən Azərbaycan dilinin qərb və şimal qrupu şivələrində özünü göstərir. Bununla belə şərq və cənub qrupu şivələrində də bu səs əvəzlənməsi müşahidə olunur.

d>t. **d** səsinin **t** səsi ilə əvəzlənməsi sözün əvvəlində, ortasında, sonunda özünü göstərir. Bu fonetik hadisə şimal, cənub və qərb qrupu şivələrimiz üçün səciyyəvidir.

Sözün əvvəlində: *tişim “dişim”, tüşmek “düşmək” (Bakı), tüşmən “düşmən (Bakı, İraq, Çəmbərək), tüfar “divar”, tarax “daraq” (Şəki), tawar “davar”<qoyun, tamğa “damğa”, taldan “daldan”, taldan “daldan”<arxadan, taşğın//taşqın “daşqın” (İraq), tüş “düş” (Qazax, Tovuz, Dərbənd, Çəmbərək), tayçə “dayça”<at balası, tarağ “daraq”, tayağ “dayaq” tuman “duman” (Dərbənd), tiş “diş” (Qazax, Tovuz, Borçalı, Yardımlı, Çəmbərək), tivar “divar” (Yardımlı), tik “dik”, tüşünməx' “düşünmək” (Borçalı, Çəmbərək), tüşö:r “düşür” (Borçalı), tufar “divar” (Naxçıvan, Ordubad), tüşməx' “düşmək” (Naxçıvan, Çəmbərək), tükan “dükan” (Naxçıvan, Ordubad, Qazax, Dərbənd, İraq, Meğri), tişi “dişi” (Qazax, Tovuz, Çəmbərək), tustax “dustaq” (Qazax, Gəncə, Tovuz, Borçalı, Çəmbərək), tüka^{ə}n “dükan” (Meğri), tikməx' “dikmək”, tuhar “divar” (Çəmbərək) və s.*

Sözün ortasında: *Meyti “Mehdi” (Bakı), utuzmax “uduzmaq”, butax “budaq” (Təbriz), butağ//butax “budaq”, datlı “dadlı”, yaratıcı “yaradıcı”, boyuntırıx//boyuntırlığ “boyunduruq” (İraq), putax “budaq” (Naxçıvan, Çəmbərək), Ma^{ə}ma^{ə}t^{s}quli “Məmmədqulu”, Ma^{ə}ma^{ə}tyar “Məmmədyar” (Meğri) və s.*

Sözün sonunda: *əmrut “armud”, bılıt “bulud”, bələt “bələd”, ümit “ümid” (Təbriz), ut “od”, şəgirt “şagird”, pulat “polad”, şabalıt “şabalıd” (Quba), savat “savad”, bulut “bulud” (Quba, Çəmbərək), qənət “qanad” (Şəki, Çəmbərək), yurt “yurd”, namart “namərd”, polat “polad”, ut “ud” (İraq), ot “od” (Bakı, Quba, Təbriz, İraq), süt “süd” (Bakı, Quba, Naxçıvan, Dərbənd, Şəki, Təbriz, İraq, Yardımlı), qurt “qurd”, Əhmət “Əhməd”, armut “armud” (Şəki, Naxçıvan, Dərbənd, Ordubad, İraq, Çəmbərək), ərmut “armud”, art “ard”, noxot “noxud” (Dərbənd), kət “kənd” (Naxçıvan, Ordubad), kasat “kasad”, palut “palıd” (Quba, Yardımlı), kilit “kilid”<qıfıl, kənt “kənd”, palıt “palıd” (Naxçıvan, Ordubad, Şəki, Tovuz, Qazax, Borçalı, Çəmbərək), armıt “armud” (Şəki, Naxçıvan, Ordubad), qanat “qanad”, yurt “yurd” (Qazax, Gəncə, Tovuz, Naxçıvan, Ordubad, Təbriz, Çəmbərək), sövüt “söyüd” (Naxçıvan), söyüt “söyüd” (Naxçıvan, Ordubad, Çəmbərək), bulıt^{c} “bulud”, ina^{o}t^{c} “inad”, kükürt^{c} “kükürd”, qurt^{c} “qurd”, kilit^{c} “kilid”<qıfıl (Meğri) və s.*

H.Mirzəzadə d>t səs əvəzlənməsi ilə bağlı yazır: “Kitabi-Dədə Qorqud” dastanlarının dilində də **d**-nın iki şəklinə təsadüf edirik. Məsələn: daş-taş, damu-tamu, sözün ortasında: uduzmaq-utuzmaq və s. **d**-nin **t**-ya keçməsi dilimizin inkişafı prosesində o qədər də aktiv olmamışdır” (H.Mirzəzadə, 1990, s. 22).

b>p. Bu fonetik hadisə sözün müxtəlif yerlərində müşahidə olunur.

Sözün əvvəlində: *pamazi “bamazi”, pes “bəs”, pütün “bütün” (Bakı), palta “balta” (Bakı, İraq), pusdan “bosdan”, pıçağ “bıçaq” (Quba), puçax “bıçaq” (Şəki), pŭçax “bıçaq” (Şəki, Naxçıvan, Çəmbərək), pŭxarı “buxarı” (Şəki, Qazax, Çəmbərək), parmaq “barmaq”, pütin “bütün” (Bakı, Quba), pişir “bişir”, pəs “bəs”, pıçağ “bıçaq” (Dərbənd), pütün “bütün”, pütöy “bütöv”, pıçaq “bıçaq”, bişirməx' “bişirmək”, piçməx' “biçmək”, pitməx' “bitmək” (Borçalı, Çəmbərək), pükdü “bükdü” (Borçalı), püx'dü “bükdü” (Çəmbərək), pişirməx' “bişirmək”, pĭtağ “budaq”, pĭçağ “bıçaq”, pükməx' “bükmək” (Naxçıvan), pŭtax “budaq” (Şəki, Qazax, Tovuz), pŭxça “boğça”, pĭşirer “bişirir”, pĭçax “bıçaq”, pĭçin “biçin” (Gəncə, Qazax, Tovuz, Çəmbərək), pĭça^{ə}x “bıçaq” (Meğri), pĭçax “bıçaq” (Naxçıvan, Meğri), piçin “biçin”, pıtrax “bıtraq”<bitki dı, tikan kimi olur, pişməx' “biçmək” (Çəmbərək) və s.*

Sözün ortasında: *şorpa “şorba” (Bakı, Quba), çopan “çoban”, kabapçı “kababçı” (İraq), çupan “çoban (Dərbənd), alapaxta “alabaxta”<quş adı (Naxçıvan), hesa^{o}pdar “hesabdar” (Meğri) və s.*

Sözün sonunda: *əzap “əzab”, məktup “məktub” (İraq), ka:tıp “katib”, məhdəp//məktəp “məktəb”,, pürkü “bürkü” (Naxçıvan), mırekga^{ə}p “mürəkkəb”, kaba^{o}p “kabab”, əyip^{s} “ayıb”, boşqap^{s} “boşqab”, corap^{s} “corab” (Meğri) və s.*

b>p səs əvəzlənməsi qədim dilimizdə özünün göstərir. H.Mirzəzadə b>p səs əvəzlənməsini dilimizin tarixi ilə üzvi şəkildə bağlı olduğunu belə əsaslandırır: “Vaxtilə nəqli keçmiş zaman şəkilçisi olan **–ib** şəkilçisinin işlənməsində bunu aydın görmək olar” (H.Mirzəzadə,1990, s 19). Fikrini əsaslandırmaq üçün M.Füzulidən, Ş.Əttardan aşağıdakı nümunələri gətirir.

Qalıpdur hikmətin küffar içində ənbiya peyda,
Ey bivəfa ki, adət **olupdur** cəfa sana
(M.Füzuli)
Çoq bəlaya **uğradıpdır** o məni,
Arxası üstə **yatıpdır** bixəbər
Kim **döküpdür** səni söyləgil bana
(Ş.Əttar)

q>x. Azərbaycan dili şivələrində q>x səs əvəzlənməsi şimal, qərb, cənub qrupu şivələri üçün səciyyəvi fonetik hadisələrindən biridir. Yəni şimal, qərb və cənub qrupu şivələrinin əsas fonetik xüsusiyyətlərindən biri də q>x səs əvəzlənməsidir. Bununla belə şərq qrupu şivələrində də q>x səs əvəzlənməsi müşahidə olunur.

q səsinin x səsi ilə əvəzlənməsi sözün əvvəlində, ortasında və sonunda özünü göstərir.

Sözün əvvəlində: *xuşun "qoşun", xapıb "qapıb" (Dərbənd) və s.*

Sözün ortasında: *Haxverdi "Haqverdi" (Çəmbərək), toxqaşmax "toqqaşmaq", nıxtı tutulmax "nitqi tutulmaq" (Borçalı, Çəmbərək), maxsad//məxsəd "məqsəd", noxta "nöqtə" (İraq), taxsır "təqsir" (İraq, Çəmbərək), nuxsan "nöqsan", ma^{ə}xsa^{ə}t "məqsəd", ta^{ə}xsır "təqsir", a^{o}xsırma^{ə}x "asqırmaq" (Meğri) və s.*

Sözün sonunda: *Məsələn: çanax "çanaq", qolçax "qolçaq", başmax "başmaq", sumax "sumaq", yamax "yamaq", çardax "çardaq", alaçıx "alaçıq", qaçax "qaçaq", bucax "bucaq" (Təbriz, Çəmbərək), əyax "ayaq", pısdıx "fisdıq", dərax "daraq" (Təbriz), xalx "xalq" (Quba), xalx "xalq" <özgə, yad (Çəmbərək, Meğri), balıx "balıq", qulax "qulaq", qarandıx "qaranlıq", qavax "qabaq"<ön, qavıx "qabıq", donnux "donluq", çŭvux "çubuq", aralıx "aralıq", otax "otaq", papax "papaq" (Şəki, Çəmbərək), yeylax "yaylaq" (Şəki), alax "alaq"<yabanı bitki (Çəmbərək), budax "budaq", qıdıx "qıdıq", qurşax "qurşaq", dolax "dolaq", yanax "yanaq", sayıx "sayıq", çanax "çanaq" (İraq), əyəx "ayaq", qoççax "qoçaq", sayax "sayaq", pa^{o}za^{ə}x "pazax"<yağsız ət, yama^{ə}x "yamaq", pa^{o}lçıx "palçıq", qa^{o}şıx "qaşıq", sa^{o}ça^{ə}x "saçaq", layıx "layiq", yazıx "yazıq", ya^{o}yla^{ə}x "yaylaq", a^{o}ra^{ə}lıx "aralıq" (Meğri), bacanax "bacanaq" (İraq, Meğri, Çəmbərək) və s.*

c>ş. **c** səsinin **ş** səsi ilə əvəz edilməsi cənub və qərb qrupu şivələrimiz üçün xarakterikdir. Təbriz dialektində c>ş fonetik hadisəsi tam sabitləşmişdir (M.Məmmədli, 2007, s.51) və sözün əvvəlində, sözün sonunda müşahidə olunur.

Sözün əvvəlində: *şəftə "cəftə" (Quba, Dərbənd)və s.*

Sözün ortasında. *Məsələn: başarıqlı "bacarıqlı" (Quba), başarmax "bacarmaq" (Meğri), başarıq "bacarıq", qulaşdamax "qulaclamaq" (Çəmbərək) və s.*

Sözün sonunda: *kərpiş "kərpic, ağaş "ağac" (Təbriz, Çəmbərək, Meğri), ehtiyaş "ehtiyac", ouş "ovuc", qazaş "qazanc", biş "bic", oruş "oruc", umaş "umac", yamaş "yamac" (Təbriz), çəkiş "çəkic" (Quba, Meğri), xarş "xərc", ülgüş//ülgiş "ülgüc", Oruş "Oruc" erkeş "erkəc", a^{o}rxəş "arxac", a^{o}nəş "anac", a^{o}rdış "ardıc", dǐş "dinc", uma^{ə}ş "umac", tuqqa^{ə}ş "toqqaş" (Meğri) və s.*

g>h. Bu fonetik hadisə sonu **ng** samit birləşməsi ilə bitən sözlərdə özünü göstərir. Məsələn: *rəh "rəng", tüfəh "tüfəng", külüh "külüng", qəşəh "qəşəng", pələh "pələng", zireh "zirəng"<cəld (Təbriz) və s..*

v>f. **v** səsinin **f** səsini əvəz etməsi Şəki, Naxçıvan, Ordubad, Təbriz, Gürcüstanın Borçalı, Qərbi Azərbaycanın Çəmbərək, Meğri şivələrində müşahidə olunur. Məsələn: *məhf “məhv”, təfil “təhvil” (Təbriz), tüfar “divar”, arxif “arxiv”, kösəf “kösöv” (Şəki), səhf “səhv” (Şəki, Çəmbərək), baxtafar “bəxtəvər” (Borçalı), dufar “divar” (Naxçıvan, Təbriz, Meğri), tufar “divar” (Naxçıvan, Borçalı, Çəmbərək), safayı “savayı”, safay “savayı”, ofçi “ovçu”, dıfar//difar “divar”, kəfşa^{ə}n “kəvşən”, ha^{ə}fsa^{ə}la^{ə} “hövsələ”, ya^{o}fşa^{ə}n “yovşan”, da^{o}fşa^{ə}n “dovşan”, ma^{ə}f “məhv” (Meğri), kəfşən “kəvşən” (Naxçıvan, Meğri) və s.*

z>s. Bu fonetik hadisə Azərbaycan dili şivələrinin əksəriyyətində müşahidə olunur. z>s fonetik hadisəsi qədim türk dilində mövcud olmuşdur (M.Məmmədli, 2007, s. 50) və əsasən sözün sonunda rast gəlinir. Məsələn: *ottus “otuz”, buynus “buynuz”, öküs “öküz”, əlmas “almaz”, olmas “olmaz”, ətləs “atlas”(Təbriz), Xaçmes “Xaçmaz” (Quba), tos “toz”, tas “taz”, ağıs “ağız”, as “az”, buğas “boğaz”, dənis “dəniz”, düs “düz”, almas “almaz”, tawıs//towus “tovuz” (İraq), yıldıs “ulduz”, aşvas “aşbaz” (Borçalı), palas “palaz” (Naxçıvan, Qazax, Təbriz, Borçalı, Çəmbərək), səggis “səkkiz (Naxçıvan), uldus “ulduz”, atlas “atlaz” (Qazax, Çəmbərək), ıldıs “ulduz” (Qazax), to:us “tovuz” (Quba, Tovuz), a^{o}lma^{ə}s “almaz”, Ta^{o}vus//Tavıs “Tovuz” (Meğri) və s.*

z>s səs əvəzlənməsinə İraq-türkman ləhcəsində sözün əvvəlində (sühur “zühur”), Meğri (Qısxa^{o}nım “Qızxanım”, Qısxanım “Qızxanım”), Çəmbərək şivələrində sözün ortasında da (Qısxanım “Qızxanım”) təsadüf olunur.

ğ>x. Bu fonetik hadisə şivələrimizdə az yayılmışdır və iki, üç hecalı sözlərdə müşahidə olunur. Məsələn: *buxça “boğça” (Dərbənd, Çəmbərək), barmaxça “barmağça”<qaşsız üzük, saxsoğan “sağsağan” (Quba), baxçə “bağça” (Dərbənd), boxça “boğça”, saxsağan “sağsağan” (Dərbənd, Çəmbərək), bax “bağ” (Naxçıvan), baxça “bağça” (Naxçıvan, Ordubad, Çəmbərək), tuxlı “toğlu”, tura^{ə}xa^{o}y “torağay”, baxca//ba^{o}xcə “bağça” (Meğri), toxlu “toğlu” (Çəmbərək) və s.*

y>h. Bu fonetik hadisə şivələrimizdə az təsadüf olunur. Məsələn: *hüngül “yüngül” (Bakı, Quba), alahı^{i} “alayı”<başqa, fərqli (Quba), şeh “şey” (Yardımlı) və s.*

g>k. Azərbaycan dili şivələrində g>k səs əvəzlənməsi fonetik hadisələrdən biri olsa da, geniş yayılmamışdır. Quba, Şəki, Naxçıvan, Dərbənd, İraq-türkman şivələrində bir neçə sözdə müşahidə olunur. Məsələn: *kid (mək) “get”, kir(mək) “gir(mək)”<daxil olmaq (Quba), kit “get” (Quba, Şəki), tərkimişəm “tərgimişəm” (Şəki), kiras//kiraz “gilas”, küləşçi “güləşçi”, dəzkah “dəzgah” (İraq), kitədəm “gedirəm (Dərbənd), qəşək “qəşəng” (Naxçıvan) və s.*

q>k. Bu fonetik hadisə şivələrimizdə az təsadüf olunur və bir neçə sözdə rast gəlinir. Məsələn: küpüg “qəpik” (Quba).

***q̧*.** q səsinin *q̧* səsi ilə əvəzlənməsi İraq-türkman ləhcəsi üçün xarakterikdir və “qalın saitlərdən əvvəl özünü göstərir” (İraq-türkman, 2004, s.77). Məsələn: *q̧anat “qanad”, q̧arın “qarın”, q̧ız “qız”, q̧ırx “qırx”, q̧ısmat “qismət”, q̧oyun “qoyun”, q̧urt “qurd”, q̧uş “quş” (İraq).*

c>t. Bu fonetik hadisəyə İraq-türkman ləhcəsində rast gəlinir. Məsələn: tummax “cummaq” (İraq).

c>ç. Bu səs əvəzlənməsi Azərbaycan dili şivələri üçün xarakterik fonetik hadisə deyil və geniş yayılmamışdır. Sözün əvvəlində, ortasında və axırında özünün göstərir.

Sözün əvvəlində: *çir “cır” (Dərbənd), çüt “cüt” (Çəmbərək) və s.*

Sözün ortasında: *əçxəmrə “acıxamra”, kənçlər “gənclər”, xənçər “xəncər” (İraq), ortançıl “ortancıl”, məçit “məscid”, xançal//xənça^{ə}l “xəncər” (Meğri(və s.*

Ssözün sonunda: *qılınç "qılınc", sağduc "sağdıc", anaç "anac", bulmaç "bulmac", geç "gec", küç "güc", çəkküç//çəküc "çəkic" (İraq), qazanç "qazanc", kərpiç "kərpic", borç "borc" (İraq, Çəmbərək), qılıç "qılınc", çəkiç "çəkic" (Borçalı, İraq, Çəmbərək), ağaç "ağac" (Naxçıvan, İraq, Çəmbərək) və s.*

v>k. Bu fonetik hadisə İraq-türkman ləhcəsində bir sözdə müşahidə olunur. Məsələn: *kössək "kösöv"*

b>f. b səsinin **f** səsini əvəz etməsi Azərbaycan dilinin qərb qrupu şivələrində, Qərbi Azərbaycanın Çəmbərək, Meğri şivələrində, İraq-türkman ləhcəsində özünü göstərir. **b>f** səs əvəzlənməsi sözün sonunda müşahidə olunur. Məsələn: coraf "corab", boşqaf "boşqab", qərif "qərib", cavaf "cavab", məhtəf "məktəb", tutuf "tutub", gəlif "gəlib", saralıf "saralıb" (Gəncə, Qazax, Tovuz, Çəmbərək), çərçəf "çərçəb"<çarşab (İraq), ca^{ə}va^{o}f //ca^{o}:f "cavab" (Meğri) və s..

v>h. Şivələrimizdə bu fonetik hadisə geniş yayılmamışdır. v>h səs əvəzlənməsi qərb qrupu şivələrində, İraq-türkman ləhcəsində müşahidə olunur. Məsələn: *nöh "növ" (İraq), duhar "divar" (Qazax, Tovuz), Nohruz "Novruz" (Qazax) və s.*

d>k. d səsini **k** səsi əvəz etməsi şivələrimizdə geniş yayılmamışdır və yalnız İraq-türkman ləhcəsində rast gəlinir. Məsələn: *kilik "kilid"<qıfıl.*

q>ş. Bu fonetik hadisə Dərbəndin Bərəkəy şivəsində müşhaidə olunur. Məsələn: *qorxaş "qorxaq".*

n>h. Bu fonetik hadisə Yardımlı şivəsində müşahidə olunur. Məsələn: *yahlamağ "yanılmaq", təhtimək "təntimək"<karıxmaq (Yardımlı).*

d>ç. **d** səsinin **ç** səsi ilə əvəzlənməsi qərb qrupu şivələrimiz üçün xarakterik fonetik hadisələrdən biridir və sözün əvvəlində müşahidə olunur. Məsələn: *çiş "diş, çüş "düş" (Qazax, Tovuz), çüşmən "düşmən", çişdəmə "dişləmə", çüşgün "düşgün" (Qazax), çömməx' "dönmək" (Cəbrayıl) və s.*

g>x′ . Bu fonetik hadisə Qərbi Azərbaycanın Çəmbərək, Meğri şivələrində müşahidə olunur. **g>x′** səsəvəzlənməsi sözün sonunda n samitinin düşməsi nəticəsində özünü göstərir. Məsələn: *rəx' "rəng", qəşəx' "qəşəng" (Çəmbərək), rə̃x' "rəng", pələ̃x' "pələng", dĩx' "ding"<çəltik döymək üçün alət, qəşə̃x' "qəşəng" (Meğri) və s..*

Kar Samitlərin Kar Samitlərlə Əvəzlənməsi

Azərbaycan dili şivələrində samitlərin əvəzlənməsinin bir qrupunu da kar samitlərin kar samitlərin əvəzlənməsi təşkil edir. Aşağıdakı kar samitlərin kar samitlərlə əvəzlənməsi şivələrimiz üçün xaraketerikdir.

ç>ş. **ç** səsinin **ş** səsi ilə əvəzlənməsi şivələrimizdə sözün ortasında və sonunda müşahidə olunur.

Sözün ortasında: *saşdar "saçlar", qaşdi "qaçdı", keşdi "keçdi", Qəşreş "Qəçrəş" (Quba), seşki//seşgi "seçki", qaşqın "qaçqın", keşmək "keçmək", işmək "içmək"(Naxçıvan, Şəki, Çəmbərək), keşmiş "keçmiş", işgi "içki" (Naxçıvan, Şəki, Çəmbərək, Meğri), hışqırmax "hıçqırmaq", şeşməx "çaşmaq" (Meğri), aşmax "açmaq", qaşmax "qaçmaq" (Naxçıvan, Qazax, Çəmbərək, Meğri) və s.*

Sözün sonunda: *qaş ged "qaç get" (Bakı), qoş "qoç", qış "qıç"<qılça, öş "ölç", qoş "qoç" (Təbriz), puş "puç" (Şəki, Təbriz, İraq), qaş get "qaç get" (Şəki, Çəmbərək), saş "saç" (Qazax, Təbriz, Meğri, Çəmbərək), keş "keç" (Qazax, İraq), seş "seç" (Tovuz),*

şaşmaq "çaşmaq", qaş "qaç", aş "aç", iş "iç" (İraq), heş "heç" (Quba, Naxçıvan, Meğri), üş "üç" (Quba, Naxçıvan, Təbriz, Meğri), köş "köç", sa^{o}ş "saç" (Meğri) və s.

XVIII və XX əsrin yazı dilində **ç**-nin **ş**-ya keçməsi hadisəsinə rast gəlirik. Bu hadisə əsasən, feillərdə və düzəltmə isimlərdə çox müşahidə olunur. **d, m, k** səslərindən əvvəl **ç** bütünlüklə **ş** səsinə keçir. Məsələn: And **işkinən** amma mən belə eliyim ki,... Sən məninən əhd-peyman elədün və and **işdün**.... Bir dərvaza aşdılar ... didi **qaşmanam** gəl mənim əlimi bağla (H.Mirzəzadə,1990, s.25).

f>p. **p** səsinin **f** ilə əvəzlənməsi Zaqatala, Qax şivəsində müşahidə olunur. Eyni zamanda **f>p** səs əvəzlənməsinə Quba, Dərbənd, Naxçıvan, Muğan qrupu və bəzən də Şəki, Tovuz şivələrində rast gəlinir. Məsələn: *topli "tufli" (Quba), kəpgir "kəfqir" (Naxçıvan, Dərbənd, Təbriz), sıpat "sifət", pikir "fikir" (Dərbənd), pısdıx "fısdıq", sap "saf", kəpən "kəfən" (Təbriz), İspəndiyar "İsfəndiyar" (Şəki, Naxçıvan), pərə "fərə", qıpıl "qıfıl", punduq "fındıq", pəhlə "fəhlə", külpət "külfət", səpər "səfər" (Zaqatala), qıp "qıf" (Tovuz) və s.*

p>f. **p** səsinin **f** səsi ilə əvəzlənməsi qərb qrupu, Təbriz və Şəki şivələri üçün xaraktrikdir. Bu fonetik hadisə sözün ortasında və axırında müşahidə olunur.

Sözün ortasında: *tüfürceg "tüpürcək" (Bakı), köfürməx' "köpürmək" (Borçalı), tafşırmax "tapşırmaq" (Təbriz, Borçalı, Çəmbərək), qəflan "qaplan", tafdamax "tapdamaq", tafdalamax "tapdalamaq" (Təbriz), tafdı "tapdı", tofda "topda", tofdan "topdan", tofla "topla", tafşırıq "tapşırıq" (Qazax), ifçin "ipçin", ya^{o}fma^{ə}x "yapmaq", tafşırmax "tapşırma", tafmax "tapmaq (Meğri) və s.*

Sözün sonunda: *qulf "qulp", taf "tap", laf "lap" (Qazax, Şəki, Təbriz, Borçalı), turf "turp", tof "top" (Qazax, Borçalı), küf "küp", if "ip" (Şəki) və s.*

h>x. Bu fonetik hadisə sözün əvvəlində, ortasında və axırında özünü göstərir.

Sözün əvvəlində: *xana "həna", xədix' "hədik" (Təbriz), xıs "his" (Naxçıvan, Çəmbərək, Karvansaray), xumusu "hamısı" (İraq), xersdammax "hirslənmək", xırs "hirs" (Çəmbərək), xaçə "haça" (Yardımlı), xanı "hanı", xamam "hamam", xaçar "haçar"<açar (Cəbrayıl), xumay "humay", xorra "horra"<xörək növü, xadisə "hadisə" (Zəngilan) və s.*

Sözün ortasında: *lexliyə-lexliyə "ləhliyə-ləhliyə" (Təbriz), işdaxa "işdaha" (Yardımlı), baxalıx "bahalıq" (İraq) və s.*

Sözün sonunda: *savax "sabah" (Şəki, Çəmbərək), iraxat "rahat" (Şəki), şax barmaq "şah barmaq" (İraq), sabax "sabah" (Təbriz, Cəbrayıl, Zəngilan, Qafan), şax "şah" (Təbriz, Zəngilan, Yardımlı, İraq, Qafan), tamax "tamah" (Şəki, Qafan) və s.*

x>h. **x** səsinin **h** səsi əvəz etməsi şivələrimizdə geniş yayılmışdır və əsasən cənub qrupu şivələrində müşahidə olunur. Bu fonetik hadisəyə sözün əvvəlində, ortasında və axırında rast gəlinir.

Szün əvvəlində: *hermən "xırman", horuz "xoruz", hörəx' "xörək", hurcun "xurcun", heyir "xeyir", hış "xış", Heyransa "Xeyransa", Humar "Xumar", hırda "xırda", həncəl "xəncəl"<xəncər, hal "xal", həmir "xəmir (Ordubad), hərnük "xirnik" (İraq), halx "xalx"<xalq, hurtım "xurtım<xortum (Meğri), hurcin "xurcun", Halığ "Xaliq", xaçan "haçan" (Yardımlı) və s.*

Sözün ortasında: *ahşam “axşam”, bahmax “baxmaq”, çıhmax “ çıxmaq”, ohşamax “oxşamaq” sahlamax “saxlamaq” (Təbriz), la^{ə}hla^{ə}ma^{ə}x “laxlamaq”, qırhma^{ə}x “qırxmaq”, qorhmaz “qorxmaz” (Meğri) və s.*

Sözün sonunda. Məsələn: *çoh “çox”, yoh “yox”, oh “ox” (Təbriz) və s.*

ç>k. **ç** səsini **k** səsi əvəz etməsi Naxçıvan qrupu şivələrində, Yardımlı şivəsində müşahidə olunur. Bu fonetik hadisə sözün əvvəlində və ortasında özünü göstərir.

Sözün əvvəlində: *kay “çay”, komax “çomaq”, kaynik “çaynik”, kəkməx' “çəkmək”, kuxa “çuxa”, koban “çoban”, kəkəcək “çəkəcək”, kəkürtkə “çəyirtkə”, kəmən “çəmən” (Naxçıvan), körəx' “çörək”, kəhmə “çəkmə”, kəküc “çəkic”, kiy “çiy” (Yardımlı) və s.*

Sözün ortasında: *nekə “neçə”, alka “alça”, dolka “dolça” (Naxçıvan, Ordubad) və s.*

k>ç. k>ç səs əvəzlənməsi Naxçıvan qrupu şivələrində özünü göstərir. Bu fonetik hadisə eyni zamanda İsmayıllı rayonunun Basqal və Mücü kənd (Naxçıvan qrupu şivələri, 1962, s.51), eləcə də Qazax, İraq-türkman şivələrində də müşahidə olunur. Məsələn: *çilsə “kilsə”, çənd “kənd”, Çazım “Kazım”, çömək” kömək”, çişi “kişi”, çörpü “körpü”, çasıb “kasıb”, çöynəx' “köynək”, çamança “kamança”, çələyağı “kələğayı”, böyüç “böyük”, çövşən “kövşən”, çeçi “keçi”, çöhnə “köhnə”, çülfət “külfət” (Naxçıvan), çeşdi “keşdi”, çüləx' “külək”, çeçen il “keçən il” (Qazax), çüçə “küçə” (Qazax, İraq) və s.*

s>ş. **s** səsini **ş** səsi əvəz etməsi şivələrimizdə az təsadüf edilən fonetik hadisələrdən birdidir. Bu fonetik hadisə qərb qrupu şivələrində müşahidə olunur. Məsələn: *şaj “saç”, şancı “sancı” (Qazax), şac “sac”, şicim “sicim”<yoğun kəndir (Çəmbərək) və s.*

ş>ç. Bu fonetik hadisə şivələrimizdə geniş yayılmasa da, Bakı, Quba, Naxçıvan, Dərbənd şivələrində, İraq-türkman ləhcəsində rast gəlinir. Məsələn: *quç “quş” (Quba), yaxçi “yaxşı” (Bakı), yaxçı “yaxşı” (Naxçıvan), çüyüd “şüyüd” (Dərbənd), çorba//çurba “şorba” (İraq) və s.*

ç>s. Fonetik hadisə kimi **ç>s** səs əvəzlənməsi şivələrimizdə geniş yayılmamışdır və əsasən İraq-türkman ləhcəsinin Kərkük şivəsində bir neçə sözdə rast gəlinir. Məsələn: *sin “çin”, sügüntür “çuğundur” (İraq).*

k>x'. k səsini **x'** səsi əvəz etməsi Azərbaycan dilinin qərb və cənub qrupu şivələri üçün xarakterik fonetik hadisədir. Bu fonetik hadisə tək və çoxhecalı sözlərdə əsasən sözün sonunda özünü göstərir. Məsələn: *pax' “pak”, köx' “kök”, kürex' “kürək”, ça^{ə}llex' “çəllək”, kiçcix' “kiçik”, dindix' “dimdik” (Meğri), çəltix' “çəltik” əysix' “əysik”, dix' “dik”, kirpix' “kirpik”, üzüx' “üzük”, pətəx “pətək”, gədix' “gədik” (Meğri, Çəmbərək), itix' “itik”, sənəx' “sənək”, kürməx' “kürmək”<kəndirin xüsusi formada bağlanması, dürməx' “dürmək”, bəvəx' “bəbək”<körpə uşaq, birçəx' “birçək”<saç, zirçix' “zircik”<dəcəl” (Çəmbərək) və s.*

Qərbi Azərbaycanın Meğri şivəsində k>x' əvəzlənməsinə sözün ortasında da rast gəlinir. Məsələn: *məx'dəp^{c} “məktəb”, höx'm “hökm”, kəx'lik “kəklik.*

k>x. k səsini **x** səsi əvəz etməsi şivələrimizdə yayılmamışdır. Bu fonetik hadisə İraq-türkman ləhcəsində müşahidə olunur. Məsələn: *diləx “dilək”, diləxçilix “diləkçilik<elçilik, çərəx “çərək” (İraq).*

k>t. k səsini **t** səsi əvəz etməsi şivələrimizdə geniş yayılmış fonetik hadisə deyil və bir neçə sözdə özünü göstərir. Məsələn: *bərt “bərk” (Meğri), bərtiməx' “bərkiməx”, siltələmməx' “silkələnmək” (Çəmbərək) və s.*

k'>k. k səsini **k'** səsi əvəz etməsi İraq-türkman ləhcəsində müşahidə olunur. Məsələn: *k'aman “kaman”, k'afir “kafir”, k'içiq “kiçik”, üp “küp” (İraq) və s.*

k>h. Bu fonetik hadisə Azərbaycan dilinin qərb, bəzən də cənub qrupu şivələrində müşahidə olunur. Məsələn: *çəhmə "çəkmə" (Qazax, Tovuz, Çəmbərək), məhtəf "məktəb" (Qazax, Borçalı, Çəmbərək), söhməx "sökmək", çəhməx "çəkmək", tihma^{ə}x "tikmək", təhnə "təknə", qəpeh "qəpik", a^{ə}meh "əmək" (Meğri), dühcə "dükcə", küləhli "küləkli", şəhləmməx' "şəklənmək"<sübhələnmək, töhməx' "tökmək", dönühlüx "dönüklük", səhməx' "səkmək", çöpühlü "çöpüklü"<çirkli, yuyulmamış yun, dirəh "dirək", çəh "çək", kürəh "kürək" (Çəmbərək) və s.*

k>ц (ts). k səsini **ц (ts)** səsi əvəzlənməsi Azərbaycan dilinin cənub qrupu şivələri üçün xarakterik fonetik hadisədir və sözün əvvəlində özünü göstərir. Məsələn: *цiцix' "kiçik", цezeba "kəcavə", цöцə "kökə", цündə "kündə" (Təbriz) və s.*

ş>s. Şivələrimizdə **ş>s** səs əvəzlənməsinə az təsadüf edilir. Məsələn: *kişnis "kişniş" (Dərbənd), istiri// isliri "işləyir", pisig "pişik", bas "baş", camus "camış" (İraq), Süca^{ə}ha^{ə}t "Şücayət", süca^{ə}:t "şüca:^{ə}t" (Meğri) və .*

h>f. Bu fonetik hadisə cənub qrupu şivələrində müşahidə olunur. Məsələn: *mafıt "mahud"<parça növü (Naxçıvan), küfil "köhül", öfdə "öhdə", uruf "ruh", Göyfa^{ə}r "Gövhər", cöyfa^{ə}r "cövhər" (Meğri) və s.*

Cingiltili Samitlərlə Cingiltili Samitlərin Əvəzlənməsi

Azərbaycan dili şivələrində səs əvəzlənməsinin bir qrupunu cingiltili samitləri cingiltili samitlərin əvəz etməsi təşkil edir. Şivələrimiz üzərində apardığımız müşahidələr nəticəsində məlum olur ki, aşağıdakı cingiltili samitlərin bir-birini əvəz etməsi fonetik hadisəsi baş verir.

y>d*. Azərbaycan dili şivələrində y>d səs əvəzlənməsi geniş yayılmamışdır. Bu fonetik hadisə qərb qrupu şivələrində, eləcə də Zəngilan, Oğuz şivələrində sözün əvvəlində və sonunda müşahidə olunur. Məsələn: *denə "yenə", döndəm "yöndəm" (Zəngilan), dumru "yumru" (Zəngilan, Çəmbərək), dumrux "yumruq" (Qazax, Tovuz), dumru-dumru "yumru-yumru" (Tovuz, Çəmbərək), adax "ayaq"<uşağın ilk addımı, adax-adax "ayaq-ayaq"<addım-addım" (Ağdam) və s.*

y>z.** Bu fonetik hadisə şivələrimizdə geniş yayılmamışdır. y>z səs əvəzlənməsi Cəbrayıl rayonunun Sirik kənd şivəsində, Qərbi Azərbaycanın Çəmbərək və Karvansaray şivələrində müşahidə olunur. Məsələn: *zambız "yambız", zaãx "yanaq", zaman "yaman" (Cəbrayıl), zarnax "yarnax <yarğan (Çəmbərək) və s.*

b>m. Bu fonetik hadisə əksər şivələrimizdə rast gəlinir və sözün əvvəlində ortasında, bəzən sözün sonunda müşahidə olunur.

Sözün əvvəlində: *maŋladı "banladı" (Qazax, Tovuz, Çəmbərək), muna "buna", munu "bunu", munnan "bundan" (Qazax, Quba, Şəki, Tovuz, Çəmbərək), munın "bunun" (Şəki), muni "bunu" (Quba), mına "buna", mını "bunu", mında "bunda", munnan "bundan" (Naxçıvan, Ordubad), məhanə "bəhanə", munca "bunca", munın "bunun", mına "buna", munı "bunu", mərhəmə "məhrəba"<dəsmal (İraq), mahna "bəhanə" (Şəki, Çəmbərək) və s.*

---

* y>d səs əvəzlənməsi ilə bağlı məlumat E.Əzizovun "Azərbaycan dilinin tarixi dialektologiyası" kitabından (Bakı, 1999, s.87) götürülmüşdür.

** y>z səs əvəzlənməsi haqda məlumat E.Əzizovun "Azərbaycan dilinin tarixi dialektologiyası" kitabından (Bakı, 1999. s.88) götürülmüşdür

Sözün ortasında: *balaman "balaban", şalman "şalban" (Şəki), bağman "bağban" (Naxçıvan, Dərbənd, Meğri, Çəmbərək), qamqacaq "qabqacaq", almuxara//armuxara "albuxara" (Dərbənd), ba^{o}ğma^{o}n "bağban" (Meğri) və s.*

Sözün sonunda: *ləğəm "ləqəb" (Dərbənd).*

b>m səs əvəzlənməsi qədim tarixə malikdir. Bu da "hər iki samitin əmələ gəlməsində fəal iştirak edən səs məxrəci, əsasən, müştərək olduğuna görə müəyyən müddət bunlar bir-birini əvəz etmişlər. Məsələn:

Didi ey divanə həqq verdi m u ni,
M u n c a əsbab ilə m u n c a karu bar
(Ş.Əttar);
Səhra içində m u n c a ki, ahu gəlür gedər,
Bu gün mən m u n d a, yarım onda neylər (Xətai)
[H.Mirzəzadə,1990, s.19].

"Kitabi-Dədə Qorqud" dastanında b>m səs əvəzlənməsinin şahidi oluruq. Bu da həmin fonetik hadisənin qədimliyini göstərir. Ə.Tanrıverdi yazır: "Kitabi-Dədə Qorqud"da b>m əvəzlənməsi "bu" işarə əvəzliyində özünü göstərir. Belə ki, ismin hal kateqoriyasının şəkilçilərini qəbul etmiş "bu" əvəzliyi "Dastan"da **munuŋ** (əslində muniŋ – İ.B) (Mərə qocalar munıŋ ölümi nədəndir?) **maŋa** (şəxs əvəzliyidir –İ.B.) (Çörildi, növbət gerü – maŋa gəldi), **munu** (... ekindü vəqti munı maŋa çevirəsiz, yiyəyim) şəklindədir"(Ə.Tanrıverdi, 2002, s.38).

g>c. Fonetik hadisə kimi **g>c** səs əvəzlənməsi şivələrimiz üçün bir o qədər də xarakterik olmayıb əsasən Naxçıvan, Qazax, Təbriz, İraq-türkman şivələrində sözün əvvəlində və ortasında özünü göstərir. Məsələn:

Sözün əvvəlində: *cün "gün", cümüş "gümüş", cilənar "gilənar" (Qazax), cüllə "güllə" (Qazax, Naxçıvan), Cəncə "Gəncə", cedməx' "getmək", cülmax "gülmək", cilas "gilas", cavalı "qavalı", cörməx' "görmək" (Naxçıvan), cet "get", cetməwin "getməyin", cəl "gəl", cəmi "gəmi", cələğin "gələyin", cəssinnər "gəlsinlər", cidən-cələn "gedən-gələn", cözəl//cüzəl "gözəl" (İraq) və s.*

Sözün ortasında: *sevcili "sevgili", yadicar "yadigar" (Naxçıvan), döncə "döngə" (Təbriz), almacınan "almagınan"<almayın, aparcınan "apargınan"<aparın, bilcinən "bilginən"<bilin, üzməcinən "üzməginən"<üzməyin (İraq) və s.*

n>l. n səsinn **l** səsi əvəz etməsi şivələrimizdə az rast gəlinən fonetik hadisələrdəndir. Məsələn: *lüə "nüə"<nəvə, lətícə//lütücə "nəticə" (Qazax), lərdivan "nərdivan" (Təbriz) və s.*

l>n. Bu fonetik hadisə bir neçə sözdə müşahidə olunur. Məsələn: *nəçəx' "ləçək" (Borçalı), zinzilə" zəlzələ", iynəmax "iyləmək", naf "lap", nampa "lampa" (Şəki) və s.*

y>g. Bu fonetik hadisə şivələrimizdə geniş yayılmışdır və sözün əvvəlində, ortasında və sonunda müşahidə olunur.

Sözün əvvəlində: *gənə "yenə" (Qazax, Quba, Naxçıvan, Tovuz, Çəmbərək), genə "yenə" (Qazax, Şəki, Tovuz, Çəmbərək, Meğri), güg "göy" (Dərbənd, İraq), gine "yenə" (Quba, Təbriz) və s.*

Sözün ortasında.:*örgən "öyrən", irgən "iyrən" (Şəki), dügi "düyü" (Bakı, Quba, Dərbənd, Təbriz), ignə "iynə", dügmə "düymə", igdə "iydə" (Bakı, Dərbənd, Quba),ləgən*

“ləyən” (Quba, İraq), gügərti “göyərti”, əgri “əyri”, digirman “dəyirman”, çigin “çiyin” (Quba), igirmi “iyirmi” (Bakı, Quba, Dərbənd, Naxçıvan, Meğri), dögül “deyil” (Naxçıvan), örgəşmax “öyrəşmək”, yügürmax “yüyürmək” (Təbriz), cigər “ciyər” (Şəki, Təbriz, Dərbənd), gögərçin “göyərçin” (Dərbənd, İraq, Yardımlı), ügrət “öyrət”, dügə “düyə”, sügüd//sögüd “söyüd”, degirman “dəyirman”, yegə “yeyə”<alət, gögçəg “göyçək”, bəgəndim “bəyəndim”, dəgmiş “dəymiş”<yetişmiş, gəgirmax “gəyirmək”, ogüt//əgit “öyüd”, sögüş “söyüş”, gügərçin “göyərçin”, gögçək “göyçək” (İraq), yügürməx “yüyürmək”, örgənməx “öyrənmək”, ögit “öyüd” (Meğri), əgilməg “əyilmək”, dügə “düyə”, gögəm “göyəm”, əgirməy “əyirmək” (Yardımlı) və s.

Sözün sonunda: *beg “bəy” (Quba, Dərbənd), gög “göy” (Dərbənd), çig “çiy” (Dərbənd, İraq), düg “düy”<bağla, əg “əy”, ig “iy”, kög//küg “köy”<kənd (İraq), bəg “bəy” (İraq, Yardımlı) və s.*

b>v. Azərbaycan dilinin şimal və qərb qrupu şivələrinin əsas fonetik xüsusiyyətləridən biri də **b>v** səs əvəzlənməsidir. b>v səs əvəzlənməsi sözün əvvəlində, ortasında və sonunda özünü göstərir.

Sözün əvvəlində: *vələt “bələd”, vayıs “bais”<səbəbkar (Çəmbərək), vələt//va^{ə}la^{ə}t “bələd” (Meğri) və s.*

Sözün ortasında: *çuvux “çubuq”, bava “baba”, savax “sabah”, torva “torba”, şorva “şorba”, şərvət “şərbət”, həlvət “həlbət”<əlbəttə, Nəvi “Nəbi” (Qazax, Gəncə, Tovuz, Çəmbərək), Tükəzvan “Tükəzban”, livas “libas”, baravar “bərabər”, lovya “lobya” (Qazax, Tovuz, Çəmbərək), arava “araba”, qavırqa “qabırğa”, suvay “subay”, İvra:m “İbrahim”, təcirvə “təcrübə”, nalvənd “nalbənd”, lovyə “lobya” (Qazax, Tovuz), qıvla “qiblə”,* harava *“araba”, qəlvi “qəlbi”<uca, hündür, qovu “qobu”, davax “dabaq”<heyvanlarda əmələ gələn mövsümi xəstəlik, İvat “İbad”, ova “oba”, suvoy “subay”, Şavan “Şaban” (Çəmbərək), gülvə//gürvə “külbə”, veçə “beçə” (Quba), qavıx “qabıq” (Qazax, Gəncə, Naxçıvan*, Tovuz, *Çəmbərək, Borçalı), gəvə “gəbə”<xalça (Naxçıvan, Təbriz, Çəmbərək), qavax “qabaq”, Qurvan “Qurban” (Qazax, Gəncə, Naxçıvan, Təbriz, Tovuz, Çəmbərək), davan “daban” (Qazax, Gəncə, Təbriz, Tovuz, Çəmbərək), xiyavan “xiyaban”, qavar “qabar”, Ərdəvil “Ərdəbil” (Təbriz), kövələx' “köbələk”, biyavan “biyaban” (Borçalı), zivil “zibil”, xəlvir “xəlbir” (Qazax, Gəncə, Tovuz, Borçalı, Çəmbərək), çivin “çibin”<milçək, A^{ə}vdılla^{o} “Abdulla”, qıvla^{ə} “qıvla”<qiblə, Avdilla “Abdulla” (Meğr,), qavar “qabar”, divində “dibində”, avır “abır”, səvr “səbr” (Yardımlı), yava “yaba”<şana, davan “daban”, qavan “qaban”, savın “sabun” (Yardımlı, Çəmbərək), çovan “çoban” (Qazax, Gəncə, Tovuz, Çəmbərək, Yardımlı) və s.*

Sözün sonunda: *cüv “cib”, məhtəv “məktəb” (Şəki), civ “cib”, div “dib” (Borçalı, Çəmbərək, Meğri), tav “tab”<taqət, qav “qab”, balavan “balaban” (Meğri) və s.*

b>w. Bu fonetik hadisə İraq-türkman ləhcəsində özünü göstərir. Məsələn: *bağwan “bağban”, bağwançı “bağbançı”<bağban, şawaş “şabaş”, gülwə “külbə” (İraq).*

g>y. Bu fonetik hadisə şərq qrupu şivələri üçün xarakterik olsa da, qərb qrupu şivələrində də müşahidə olunur. Məsələn: *öyöy “ögey” (Qazax, Tovuz), ülyüc “ülgüc” (Qazax, Borçalı), kölyə “kölgə” (Qazax, Borçalı), süryün “sürgün” (Borçalı), köçəryi “köçərgi”, ötəryi “ötərgi” (Qazax), zəryar “zərgər”, yezyar “yadigar” (Çəmbərək), iyid*

“igid”, əyə “əgər”, məyə “məgər”, niyaran “nigaran” (Təbriz), yediyar “yadigar”, iyit “igid”, əyər “əgər” (Meğri) və s.

r>l. Şivələrimiz üçün r>l əvəzlənməsi sözün ortasında və bəzən sözün sonunda təsadüf olunur. Məsələn: *qulvağa “qurbağa”, ölümçəx' “hörümçək” (Qazax), ölüncəx' “hörümçək”, alxalıx “arxalıq” (Tovuz), kəltənkələs “kərtənkələ” (Borçalı), silkə “sirkə”, sılqə “sırğa”, bülkü “bürkü” (Naxçıvan), xəlbil “xəlbir”, kilpix' “kirpik”, ilğal “ilqar” (Şəki), qərəl//qəral “qərar”, zərəl “zərər” (Bakı), xənçəl//xançal “xəncər (Çəmbərək), səlçə “sərçə” (Quba), incil “əncir” (Bakı, Quba, Çəmbərək), xəncəl “xəncər” (Quba, Bakı, Naxçıvan), əncil “əncir” (Quba, Naxçıvan, Çəmbərək), həsil “həsir”, külk “kürk”, encil “encir”<əncir (Dərbənd), üzəllik “üzərlik” (İraq), qulbağa “qurbağa” (Naxçıvan, Dərbənd, Meğri) və s.*

y>v. **y** səsinin **v** səsi ilə əvəzlənməsi əsasən cənub qrupu şivələrimiz üçün xarakterik fonetik hadisədir. Bu fonetik hadisə Naxçıvan qrupu şivələrində, Cənubi Azərbaycanın Təbriz, Zəncan şivələrində (M.Məmmədli, 2007, s.55) geniş yayılmışdır. Məsələn: *gövərçin “göyərçin” (Naxçıvan, Ordubad, Meğri, Təbriz), şivit “şüyüt”, gövərti “göyərti”(Naxçıvan, Təbriz, Meğri), gövərmək “göyərmək”, sövüd//sövid “söyüd”, ovəc “öyəc” (Naxçıvan), gövərmax “göyərmək”, gövərənti “göyərənti”, sovux “soyuq”, yuvurdu “yuyurdu”, sovmax “soymaq” (Təbriz), suva “suya”, tovuğ “toyuq”, sovuğ “soyuq”, şüvüt “şüyüd”, yuvadam “yuyuram”, dovdağ “doydaq” (Dərbənd), övəş “öyəc”, suvın “suyun”, suva^{ə} “suya”, suvi “suyu” (Meğri) və s.*

y>w. **y** səsinin **w** səsini əvəzləməsi Azərbaycan dilinin İraq-türkman ləhcəsində, eləcə də Zaqatalanın Tala şivəsində müşahidə olunur. Məsələn: *yawan “yayan”<ayaqlı, kuwa “guya”, yuwıçı “yuyucu”, suwa gediri “suya gedir”, sowıx//sowux “soyuq” (İraq), towuq “toyuq”, sowuq “soyuq” (Zaqatala) və s.*

ğ>q. Azərbaycan dili şivələrində müşahidə edilən fonetik hadisələrdən biri də ğ>q səs əvəzlənməsidir. Məsələn: *damqa “damğa” (Naxçıvan, Çəmbərək), quzqun “quzğun”, qurqu “qurğu”, qayqanax “qayğanaq” (Çəmbərək), qərqa “qarğa”, qarqış “qarğış”, qırqa “qırğa” (Təbriz), yorqun “yorğun” (Naxçıvan, Təbriz), doqma “doğma”, aqsu “ağsu”, tozbaqa “tısbağa” (İraq), aqlu “ağlı”, portaqal “portağal”, qarqa “qarğa” (Naxçıvan, Borçalı), qabırqa “qabırğa”, çalqı “çalğı” (Borçalı), yorqan “yorğan” (Naxçıvan, Borçalı, Meğri), yorqa “yorğa”<at yerişi (Naxçıvan, Təbriz, Meğri), qırqi “qırğı”<quş adı (Təbriz, Meğri), sılqa “sırğa”, əyqir “ayğır”<at cinsi, qırqın “qırğın”, qeyqənəx “qayğanaq” (Meğri) və s.*

Qeyd: İraq-türkman ləhcəsində ğ səsinin boğazda tələffüz edilən q səsi ilə əvəzlənməsi də baş verir və bu, İraq-türkman ləhcəsi üşün səciyyəvi fonetik hadisələrdəndir. Bu fonetik hadisə, əsasən iki sait, qismən də saitlə sonor l, m samitləri arasında özünü göstərir (İraq-türkman ləhcəsi, 2004, s.82). Məsələn: laqım “lağım”, loqman “loğman”.

v>y. **v** səsini **y** səsi əvəz etməsi qərb, şərq qrupu şivələrində, eləcə də Təbriz, İraq-türkman şivələrində müşahidə olunur. Məsələn: *əylət “əvlət”<övlad (Qazax, Tovuz), toyla “tövlə” (Qazax, Dərbənd, Təbriz, Tovuz), doyğa “dovğa” (Qazax, Tovuz, Borçalı), nüyə “nəvə” (Tovuz), bənöyşə “bənövşə” (Qazax, Təbriz, Çəmbərək), Noyruz “Novruz” (Qazax, Borçalı, Çəmbərək), höysələ “hövsələ” (Qazax, Çəmbərək, Basarkeçər), qoyla “qovla”<qov (Qazax), qırğoyul “qırqovul”, oyuc “ovuc”, doyşan “dovşan” (Borçalı), öylad “övlad”, töylə “tövlə”, bütöy “bütöv”, kösöy “kösöv” (Qazax, Şəki, Tovuz, Çəmbərək), bilöy “bülöv” (Şəki), bülöy “bülöv”, buzoy “buzov”, yaloy “yalov”<alov (Çəmbərək, Karvansaray), öylənmax*

“evlənmək”, söyünmax “sevinmək” (Təbriz), yur “vur”, üy “ev” (Dərbənd), öy “ev” (Qazax, Şəki, Quba, Dərbənd, Təbriz, İraq, Tovuz, Çəmbərək), göydə “gövdə”, güyə “güvə”, çüyal “çuval”, güyənməx “güvənmək” (Meğri) və s.

c>j. **c** səsini **j** səsi əvəzləməsi qərb qrupu şivələri üçün xas olan əsas fonetik hadisədir. **c>j** Bakı şivəsində sözün ortasında müşahidə olur. Bəzən sözün sonunda da **c>j** səs əvəzlənməsinə rast gəlinir. Sonu c samiti ilə bitən isimlərə hal, mənsubiyyət, eyni zamanda, sonu c samiti ilə feillərə zaman və şəxs şəkilçisi artırılanda **c>j** səs əvəzlənməsi baş verir. Məsələn: *ojax “ocaq”, gejə “gecə” (Qazax, Gəncə, Təbriz, Dərbənd, Tovuz, Çəmbərək), ajıx “acıq”, olajax “olacaq”, gələjəx' “gələcək”, balaja “balaca”, gedəjəm “gedəcəm” (Qazax, Gəncə, Tovuz, Çəmbərək), paja “baca” (Tovuz), alıjam “alacam”<alacağam, gəlijəm “gələcəm”<gələcəyəm, gedijəm “gedəcəm”<gedəcəyəm (Şəki, Tovuz), cüjə “cücə”, qujax “qucaq”, qoymıjıx “qojmayacaq”, sındırjıtdı “sındıracaqdı”, aparjıtdı “aparacaqdı”, mejvayi “məcməyi”, gejdən “gecdən”<səhər tezdən, Hajqurban “Hacı Qurban”, Hajgəray “Hacı Gəray”, Hajkərim “Hacı Kərim” (Şəki), baja “baca”, qoja “qoca”, ajı “acı” (Qazax, Gəncə, Şəki, Tovuz, Çəmbərək), bajılıx “bacılıq”<rəfiqə, hajat//həjət “hacat”<alət, ajgöz “acgöz”, sijim “sicim”<yoğun kəndir, kəj “kəc”<əyri, öj “öc” (Çəmbərək), bijdik “biclik”, bijdeşib “bicləşib”, güjdi “güclü”, künjdə “küncdə”, mejmayı “məcməyi” (Gəncə), aj “ac” (Naxçıvan, Təbriz, Çəmbərək, Meğri), saj “sac” (Şəki, Naxçıvan, Meğri, Çəmbərək), gij “gic”<dəli, axmaq, gej “gec” (Naxçıvan, Meğri, Çəmbərək), uj “uc”, süzgəj “süzgəc”, mejmeyi “məcməyi” (Təbriz), güj “güc”, gəj “gəc”<suvaq üçün istifadə edilən tikinti materialı (Təbriz, Çəmbərək), bajı “bacı “ (Qazax, Gəncə, Şəki, Dərbənd, Tovuz, Çəmbərək), a^{o}j “ac”, sa^{o}j “sac”, əjnəbi//əcnəvi “əcnəbi”, gijga^{o}h “gicgah”, mejmeyin//məjmeyin “məcməyi” (Meğri) və s.*

j>c. Azərbaycan dili şivələrində **y>c** əvəzlənməsi geniş yayılmamışdır. Bu fonetik hadisəyə Qərbi Azərbaycanın Meğri şivələrində müşaidə olunur. Məsələn: *səcin “sajın”, candarma “jandarma” (Meğri) və s.*

c>y. Bu fonetik hadisə Şəki və Quba şivələrində müşahidə olunur. Məsələn: *cüyə “cücə” (Şəki), məylis “məclis” (Quba).*

y>ğ. Bu səs əvəzlənməsi İraq-türkman ləhcəsinə xas fonetik hadisədir və geniş yayılmamışdır. Məsələn: *yağlağ “yaylaq” (İraq).*

q>ğ. **q** səsinin **ğ** səsi ilə əvəzlənməsi şivələrimizdə geniş yayılmışdır. Azərbaycan dili şivələrində q>ğ səs əvəzlənməsi sözün əvvəlində, ortasında və sonunda özünü göstərir. Məsələn:

Sözün əvvəlində: *ğariba “qəribə” (Təbriz), ğapı “qapı”, ğara “qara”, ğız “qız”, ğardaş “qardaş” (Dərbənd), ğafil “qafil”, ğeyrət “qeyrət”, ğürbət “qürbət” (Təbriz, İraq), ğeybət//ğiybət “qeybət”, ğəymağ “qaymaq”, ğələt//ğalat “qələt”<səhv, ğəm “qəm”, ğəmzə “qəmzə”'*[1]*, ğəmgin “qəmgin” (İraq), ğadın “qadın”, ğonağ “qonaq”(Zaqatala, Qax) və s.*

Sözün ortasında: *danağıran “danaqıran”<yabanı ot, dilğaraca “dilqaraca”<mal xəstəliyi, qarağulax “qaraqulaq”<qulağı qara olan qoyun, yanığara “yanıqara”<mal xəstəliyi, asırğal “asırqal”<yabanı ot, soyğat “sovqat”<hədiyyə, pay, tağat “taqət”, qarağaş “qaraqaş” (Çəmbərək), ləğəbbə “ləqəb” (Karvansaray), lağab “ləqəb”, əğrəbə “əqrəbə”<qohum, yalğuz “yalquz” (Təbriz, Dərbənd), qırğavul “qırqovul”, quşğun*

[1]Qəmzə naz-qəmzə, qəmzəli sözlərində işlənir.

“quşqun”, bəyğuş “bayquş” (Borçalı, Çəmbərək), əğrəp “əqrəb”, sa^{ə}da^{ə}ğa^{ə} “sədəqə”, a^{o}ğca^{ə}ğeyin “ağcaqayın” (Meğri), ləğəb “ləqəb” (Yardımlı) və s.

Sözün sonunda: *torpağ “torpaq”, yazmağ “yazmaq”, daşdığ “daşlıq”, oxıtmağ “oxutmaq” (Bakı), yasduğ “yastıq” əyağ “ayaq”, ilığ “ilıq”, təbağ “tabaq”, qışdağ “qışlaq”, naçağ “naçaq”<xəstə, qolçağ “qolçaq” (Quba), papağ “papaq”, yarpağ “yarpaq” (Bakı, Quba), nağıs “naqis” (Təbriz), qaşuğ “qaşıq”, tovuğ “toyuq”, turpağ “torpaq”, uymağ “uymaq”<aludə olmaq, öyrəşmək, çumağ “çomaq”, urağ “oraq” (Quba, Dərbənd, İraq), qıdığ “qıdıq”, qurşağ “qurşaq”, işığ “işıq”, yanağ “yanaq” (İraq), oğlağ “oğlaq”, sancağ “sancaq”, batdağ “batdaq”<palçıq (Borçalı), uşəğ “uşaq”, aşuğ “aşıq”, əncəğ “ancaq”, palçığ “palçıq” (Yardımlı) və s.*

v>b. Bu fonetik hadisə şivələrimizdə geniş yayılmamışdır. Bakı, Quba, Şəki, Təbriz, Meğri şivələrində, İraq-türkman ləhcəsində sözün əvvəlində və ortasında müşahidə olunur. Məsələn: *Ənbər//Əmbər “Ənvər”, üzb “üzv” (Şəki), döbrüş “dərviş”, xəlbet “xəlvət” (Bakı), Qəbzin “Qəzvin” (Quba), цezeba “kəcavə” (Təbriz), bafasız “vəfasız” (İraq), bafa “vəfa”, xəlbət “xəlvət”, qabal//qa^{ə}ba^{o}l “qaval” (Meğri) və s.*

b>l. Azərbaycan dilinin İraq-türkman ləhcəsində rast gəlinən b>l səs əvəzlənməsi bir sözdə özünü göstərir. Məsələn: *loş “boş”.*

Loş sözü **boş** mənasında Çəmbərək şivəsinə daxil olan Toxluca şivəsində də işlənir. Rus dilində at mənasını bildirən **лощадь** Azərbaycan dilində işlənən **loş** və **at** sözlərindən əmələ gəlmişdir.

m>n. **m** səsinin **n** səsi əvəz etməsi şivələrimizdə az təsadüf olur. Bu fonetik hadisə bir neçə sözdə müşahidə olunur. Məsələn: *yansalamağ “yamsılamaq”, afdanabil “avtomobil” (Quba), nübarəx' “mübarək” (Naxçıvan), münkün “mümkün”, bozuntur “bozumtul”, sinavar “simavar”<samovar, nübarək “mübarək” (Naxçıvan, Muğan), cəndəx' “cəmdək” (Təbriz), nübareg “mübarək”, nismar “mismar” (Dərbənd), badıncan//bayıncan//bəyincan//bədimcan “badımcan”, dandı “damdı”, intahan “imtahahan” (İraq), nuba^{o}rex' “mübarək”, dindix' “dimdik”, lənpə “lampa”, ca^{ə}ndex' “cəmdək” (Meğri) və s.*

n>w. Bu fonetik hadisə İraq-türkman ləhcəsində müşahidə olunur. Məsələn: yawağ “yanaq”, yawlış “yanlış”.

n>m. Fonetik hadisə kimi **n>m** səs əvəzlənməsi Şəki şivəsində bir neçə sözdə müşahidə olunur. Məsələn: *büyüm “büyün”<bu gün, bütüm “bütün”, sim “sinn” (yaş) (Şəki), şəmbi “şənbə” (Quba, Dərbənd), daşğum “daşqın” (Quba), camta “çanta” (Naxçıvan, Muğan), qomur “qonur”, bütrum “bütün”, qurquşum “qurğuşun”, Müsrət “Nüsrət” (Muğan), qomuşu//qomşu//qomşi “qonşu”, imdi “indi”, üçimci “üçüncü”, dördimci “dördüncü”, cimcilim “cincilim”<bitki adı (Dərbənd), qurqişim “qurğuşun” (Meğri) və s.*

g>q. **g** səsinin **q** səsi ilə əvəzlənməsi Dərbənd şivəsi, İraq-türkman ləhcəsi üçün xakaterikdir və sözün əvvəlində, bəzi hallarda sözün ortasında özünü göstərir. Məsələn: *qüz “güz”, qey “gey”(mək), qavalı//qavali “gavalı”, qiciqqan “gicitkan”, qıya “guya”, qür “gör”, qandalaş “gəndalaş”, qüman “güman”, qah “gah”, hünqül “yüngül” (Dərbənd), qəl “gəl”, qəlin “gəlin”, qəlip “gəlib”, qənə “gənə”<yenə, qor “gor”, qötü “götür”, qünnər “günlər”, qəlirdim “gəlirdim”, qözəl “gözəl”, qünorta “günorta” (İraq), qüzəl “gözəl”(Dərbənd, İraq), quda “güdə”<gödək (Quba) və s.*

ğ>g. **ğ** səsinin **g** səsi ilə əvəzlənməsi şərq qrupu şivələrində müşahidə olunur. Məsələn: *alacegem “alacağam” (Bakı).*

ğ>v. **ğ** səsinin **v** səsi ilə əvəzlənməsi Yardımlı, Zingilan, Qərbi Azərbaycanın Meğri

şivələri üçün xarakterik fonetik hadisələrdən biridir. “Bu hadisə sözün ortasında iki sait arasında, bəzən də r samitindən əvvəl müşahidə olunur” (Ə.Əliyev, 2003, s. 136). Məsələn: *da^{o}vərcıx//dovarcıx “doğarcıq”, kavış “koğuş”, ovlax “oğlaq”, uvuldamax “uğuldamaq” (Meğri), tavalağ “tağalaq” (Zəngilan, Yardımlı), avızdıq “ağızdıq”, avız “ağız”, kavız “kağız” (Yardımlı), davbasar “dağbasar”, kavıç “koğuş” (Zəngilan) və s.*

c>g. Şivələrimizdə **c>g** səs əvəzlənməsinə az təsadüf edilir. Məsələn: *gamış “camış” (Təbriz), goşar “coşar” (İraq), gomuş “camış” (Quba) və s.*

v>w. Bu fonetik hadisə yalnız İraq-türkman ləhcəsində özünü göstərir. Məsələn: *war “var”, waba “vəba”, watan “vətən”, wəhşi “vəhşi”, wur “vur”, dəwə “dəvə”, suwağ “suvaq”, heywa “heyva”, həywan “heyvan”, cawahir “cavahir” (İraq) və s.*

l>y. Şivələrimizdə geniş yayılmamış fonetik hadisələrdən biri l>y səs əvəzlənməsidir. Məsələn: *yeyəg//yeləg “lələk” (Quba).*

m>b. Bu fonetik hadisə şivələrimizdə geniş yayılmamışdır və bir neçə sözdə müşahidə olunur. Məsələn: *müsbar “mismar”, bənimsi:r “mənimsəyir” (Şəki), amba “amma” (Şəki, Çəmbərək), əmbə “amma” (Çəmbərək), bəgəm//begəm “məgər”, tappaca “tapmaca” (Quba), bin “min”, bən “mən”, bənimsəmək “mənimsəmək” (İraq), əmbə “amma” (Çəmbərək) və s.*

v>ğ. **v** səsinin **ğ** səsi ilə əvəzələnməsi şivələrimizdə geniş yayılmamışdır. Məsələn: *qarağul “qarovul”<gözətçi (Çəmbərək), qaroğul “qarovul”<gözətçi, mışoğul “mışovul” (Karvansaray), buzağ “buzov” (Quba), coğab “cavab” (Bakı), soğda “sövda”<sevda, oğurdurmax “ovuşdurmaq” (Təbriz), cuğab “cavab” (Bakı, Quba, İraq) və s.*

l>r. **l** səsini **r** səsi əvəzə etməsi şimal qrupu şivələrində rast gəlinir və sözün ortasında özünü göstərir. Məsələn: *fərakət “fəlakət”, bərkə “bəlkə”, irxı “ilxı”, çırpax//çirpax “çılpaq” (Şəki), çarxa “çalxa”, sirkələ “silkələ”, art “alt”, armıxara “albuxara”, parçuğ “palçıq”, bərkən “bəlkə”, yarvar “yalvar” (Dərbənd), qararmax “qaralmaq”, kiras//giraz “gilas”, hürkər “ülkər”, yarwarmax “yalvarmaq”, sararmax “saralmaq”, çırpağ “çılpaq” (İraq) və s.*

y>n. Bu səs əvəzlənməsinə Quba, Dərbənd, İraq-türkman şivələrində rast gəlinir. Məsələn: in “iy” (Quba, Dərbənd), künneg “köynək” (Quba), künnəg//könnəg “köynək” (Dərbənd), nanlış “yanlış” (İraq) və s .

n>y. **n** səsinin **y** səsi əvəz etməsi Bakı, İraq-türkman şivələrində özünü göstərir. Məsələn: *məyə “mənə”, məyi “məni”, səyə “sənə”, səyi “sənə” (Bakı, İraq), qəysəri “qənsəri<bazarda şey satmaq üçün olan üstü örtülü yer (İraq) və s.*

c>z. Bu fonetik hadisəyə Şəki və Təbriz şivələrində rast gəlinir. Məsələn: *damzı “damcı” (Şəki), ųezeba “kəcavə” (Təbriz) və s.*

n>g. Şivələrimizdə **n>g** səs əvəzlənməsi geniş yayılmamışdır və bir neçə sözdə müşahidə olunur. Məsələn: *ög “ön”, öglüg “öngülüg”<önlük, ögdə “öndə”, (Dərbənd), ögündə “önündə”, ögcə “öncə” (İraq).*

n>v. Bu fonetik hadisəyə şivələrimizdə az təsadüf olunur. Məsələn: *yuvağ “yanaq” (Quba), dovuz “donuz”, qovur “qonur”, sovra “sonra”, gövlüm “gönlüm”<könlüm (Dərbənd).*

d>z. Səs əvəzlənməsi kimi **d>z** fonetik hadisəsinə şivələrimizdə az təsadüf edilir. Məsələn: *muraz “murad”<arzu (İraq, Çəmbərək), xizməkar//xizmədar “xidmətkar” (İraq).*

z>d. Şivələrimizdə **z>d** səs əvəzlənməsi geniş yayılmamışdır. Əsasən İraq-türkman ləhcəsində rast gəlinir. Məsələn: *nədir “nəzir”, sadlamağ “sazlamaq”<düzəltmək (İraq).*

y>q. Bu fonetik hadisə Dərbənd, Zaqatala-Qax şivəsində müşahidə olunur. Məsələn: *qüq “göy”, düqmə “düymə”, iqirmi “iyirmi”, biqar “biyar”, qöq “göy” (Dərbənd, Zaqatala, Qax).*

r>y. Şivələrimizdə **r>y** səs əvəzlənməsi Şəki və Ordubad şivələrində bir neçə sözdə müşahidə olunur. Məsələn: *həyrən “hərrən”<hərlən, həyrəmə “hərləmə”<dairəvi (Şəki), qəyə “qara”, sayi “sarı”, qıymızı “qırmızı”, şiyin “şirin” (Ordubad).*

v>l. Şivələrimizdə **v>l** səs əvəzlənməsi geniş yayılmamışdır və bir neçə sözdə təsadüf edilir. Məsələn: *çərçülə “çərçivə” (Quba).*

r>n. r səsinin **n** səsini əvəz etməsi qeyri-qəti zamanın I şəxs tək və cəmində müşahidə olunur. Məsələn: *yimənəm “yemərəm”, yimənik “yemərik”, vərmənəm “verməræm”, vərmənig “vermərik”, qoymanam “qoymarıq”, qoymanığ “qoymarıq” (Bakı).*

l>d. Bu fonetik hadisə şivələrimizdə bir neçə sözdə özünü göstərir. Məsələn: *Asdan “Aslan” (Çəmbərək, Karvansaray), masdahat “məsləhət” (Çəmbərək).*

ğ>w. Bu fonetik hadisəyə İraq-türkman ləhcəsində təsadüf edilir. Məsələn: sawacağ “sağacaq”, qıwılcım “qığılcım” (İraq).

Söz Köklərində Samitlərin Qoşalaşması

Azərbaycan dili şivələrində bəzi sözlərin tələffüzü zamanı söz ortasında samitlər qoşalaşır. Bu fonetik hadisə ilə bağlı T.Hacıyev yazır: “Samitlərin qoşalaşması modallıq verir, dərəcə əlamətinin vəzifəsini daşıyan qrammatik məna ifadə edir” (Т.Гаджиев. 1962, с.10). Bu xüsusiyyətə ədəbi dilimizdə rast gəlinmir.

Şivələrimizdə söz ortasında samitlərin qoşalaşması **m, s, ç, c, k, z, t, r, n, l, d, ş, b, f, v** samitlərində özünü göstərir.

1. m samitinin qoşalaşması: *hamm “hamı”, hammam “hamam”, həmmiyətli “əhəmiyyətli” (Təbriz), həmməşə “həmişə” (Bakı, Ordubad, Meğri, Qazax, Şəki, Təbriz, Çəmbərək), hammı “hamı” (Naxçıvan, Şəki, Çəmbərək), həmmişə “həmişə” (Çəmbərək,Naxçıvan), əmmi “əmi”, yummaq “yumaq”, semmiz//səmmiz (İraq), çommax “çomaq” (Qazax, Çəmbərək), yummurta “yumurta” (Qax), şəmmə “şənbə” (Zaqatala), təmmiz “təmiz” (Muğan), hammar “hamar”, tumman “tuman” (Meğri) və s.*

2. s samitinin qoşalaşması: qıssa “qısa” (Təbriz, Çəmbərək), kəssəx' “kəsək”<kiçik daş qırıntıları (Təbriz), yassar “yasar” (Çəmbərək), kössək “kösək”, kössüv “kösöv”, ussu//issu “usu”<su (İraq) və s..

3. ç samitinin qoşalaşması: *neççə “neçə” (Təbriz), kiççix' “kiçik” (Qazax, Çəmbərək, Karvansaray), iççalat “içalat” (Çəmbərək), qoççax “qoçaq” (Naxçıvan, Şəki), keççə “keçə” (İraq), doşşan “doşan”<dovşan (Tovuz), qoççağ “qoçaq” (Bakı, Muğan), oççağacan “oçağacan”<o vaxta qədər (Bakı) və s.*

4. k samitinin qoşalaşması: *yekkə “yekə”, səkki “səki” (Təbriz), ikki “iki” (Təbriz, İraq), səkkü “səki”, tikkə “tikə”, çəkküc “çəkic” (İraq) və s.*

5. z samitinin qoşalaşması: *qəzzəb “qəzəb” (Təbriz), təzzəyə “təzəyə”, bizzəyə “bizə”, qızzaya “qıza”, düzzəyə “düzə” (Çəmbərək), əzzab “əzab”, təzzək “təzək” (İraq), uzzun “uzun” (Muğan), əzzəl “əzəl”<əvvəl, təzzə “təzə” (Zaqatala) və s.*

6. t samitinin qoşalaşması: *ottuz "otuz" (Təbriz, İraq), itti bibər "əcci bibər"<acı bibər, mətta "mətah" (İraq), tüttəx' "tütək" (Qazax), battax "bataq"<palçıq (Qazax, Çəmbərək) və s.*

6. r samitinin qoşalaşması: *kərrən "kərə"<dəfə (Təbriz), qarranquş "qaranquş" (Qazax, Təbriz, Muğan, Çəmbərək), harrın "harın " (Muğan), şorruca "şorca", kərrə "kərə"<dəfə, mazarrat "mazarat"<xeyirxah olmayan, xəsərrət "xəsarət" (Çəmbərək), arrı "arı", darrı "darı", birrə "birə", qarrı//qərri "qarı", qərrə "qərə"<qara, qırran "qıran"<taun, qurrıt "qurut", irri "iri", qupqurrı "qupquru", çürrük "çürük" (İraq) və s.*

7. n samitinin qoşalaşması: *hənna "həna" (Təbriz), sinni "sini" (Muğan), xınna "xına", anna "ana" (İraq) və s.*

8. ş samitinin qoşalaşması: *başşax "başaq"<biçin vaxtı yerə tökülən sünbül (Təbriz, Meğri), başşağı "başı aşağı" (Çəmbərək), aşşağı "aşağı" (Qazax, Çəmbərək), başşağa "başı aşağı" (Karvansaray), vaşşağ "vaşaq" (Meğri) və s.*

9. f samitinin qoşalaşması: *affayı "havayı", affərim "afərin" (Çəmbərək, Karvansaray) və s.*

10. p samitinin qoşalaşması: *təppə "təpə" (Təbriz, İraq), ləppə "ləpə", sappan "sapand", tappan "tapan", toppal "topal"<şikəst, toppuğ//toppux "topuq", üçtəppə "üç təpə", köppək "köpək" (İraq) və s.*

11. j samitinin qoşalaşması: *höjjət "höcət", sajjı "sac" (Çəmbərək) və s.*

12. q samitinin qoşalaşması: *oqqərtə//oqqərtənə "o qədər" (Çəmbərək), baqqam "baqam"<gil (İraq), oqqədər "o qədər" (Qazax, İraq, Borçalı, Çəmbərək), əlaqqa "əlaqə", oqqədə "o qədər" (İraq), buqqədir "bu qədər", oqqəddərən "o qədər" (Şəki) və s.*

13. v samitinin qoşalaşması: *avvam "avam"<bisavad (Çəmbərək), avvamca "avamca" (Qazax) və s..*

14. l samitinin qoşalaşması: *illac "əlac" (Qazax, Çəmbərək), qorxullux "qorxuluq", öyməlli "öyməli"<tərifləməli,tərifə layiq, hollavar "holavar", ellədi "elədi" (Çəmbərək), illaş "ilaş"<əlac (Naxçıvan), allı//allu "alın", dəlli "dəli", dəllük "dəlik", pallıt//pallut "palıd" (İraq), çallaş "çalış" (Şəki), fəsəlli "fəsəli" (Zaqatala) və s.*

15. w samitinin qoşalaşması: *dəwwə "dəvə" (İraq).*

16. y samitinin qoşalaşması: *qəyya "qaya", həyyif "hayıf" (İraq).*

17. b samitinin qoşalaşması: *dabban "daban", sabbah//səbbah "sabah", çobban "çoban", şabbaş "şabaş" (İraq), habbı sa:t "ha bu saat"<indi (Şəki) və s.*

18. c samitinin qoşalaşması: *accı//əcci//əccı "acı", dəccəl "dəcəl", həcci "həci"<hacı (İraq), hocca:t//occa:t "höcət" (Şəki), höccət "höcət"<mübahisə (Zaqatala) və s.*

19. d samitinin qoşalaşması: *addaş "adaş" (Muğan).*

VURĞU

Azərbaycan dilində vurğu əsas fonetik hadisələrdən biridir və Azərbaycan dilinə məxsus sözləri müəyyənləşdirilməsində əsas yer tutur. Dilimizdə vurğunun bir neçə növü var: heca vurğusu, məntiqi vurğu, həyəcanlı vurğu.

Heca vurğusu Azərbaycan dili şivələrində əsas vurğu kimi özünü göstərir. Azərbaycan ədəbi dilində vurğunun yeri əsasən sözün son hecasında olur. Ona görə də dilimizdəki vurğu sabit vurğudur. Azərbaycan dili şivələrində də vurğunun yeri sabitdir, yəni vurğu sözün son hecasına düşür. Bununla belə şivələrimizdə vurğu sözün müxtəlif hecasında da müşahidə olunur. Bu da onunla bağlıdır ki, şivə sözlərinin müxtəlif tələffüz formalarına malik olmasıdır. Azərbaycan dili şivələrində vurğudan danışarkən heca vurğusunu nəzərdə tuturuq.

Azərbaycan dili şivələrində vurğu aşağıdakı hallarda özünü göstərir:

1.Vurğu feilin inkarlığını bildirən **-ma, -mə, -ba, -bə** şəkilçisindən əvvəlki hecanın üzərinə düşür. Məsələn: *yàzma, yàzmır, tàpbadi, gə̀lmə, gə̀lmir, sə̀pbədi (Bakı), kè̀smə "kəsmə", qòymə "qoyma", à̀şmiyi "açmır", elə̀miyi "eləmir", bìlminəm "bilmirəm" (Şəki), gə̀lmirdim (İraq) və s.*

2.Qeyri-gələcək zamanda işlənən feillər inkarda işlənərkən vurğu inkar şəkilçisinin üzərinə düşür. Məsələn: *gəlmə́nəm "gəlmərəm", yazmánam "yazmaram", dimé́ssən "deməzsən", dimé́z "deməz" (Bakı) və s.*

3. Əmr formasının II şəxs tək və cəmində işlənən feildə vurğu axırıncıdan əvvəlki, yəni birinci heca üzərinə düşür. Məsələn: *áluz "alın", álun, gə́lüz "gəlin", gə́lün (Bakı), óxa//óx "oxu", gə́ti (Füzuli), dí́lyin "deyin", dí́nə "de", qóynan "qoyun", dí́ynən "deyin" (Şəki), óxyun "oxuyun" (İraq), yándır "yandır", dánış "dánış", í́ltələ "itələ́", yólla "yolla", gé́tginən "gedin", báxın, báxginən "baxın" (Təbriz) və s.*

4. Feillər indiki və qeyri-qəti gələcək zamanının III şəxs cəmində işləndikdə vurğu II hecanın üzərinə düşür. Məsələn: *alállar "alarlar", gələ́llər "gələrlər" (Bakı), alıllar "alırlar", gəlillər "gəlirlər" (Bakı, İraq), oxıllar "oxuyurlar", tanıllar "tanıyırlar" (İraq) və s.*

5. Vurğu zərf düzəldən **-ca, -cə** şəkilçisinin üzərinə düşür. Məsələn: *yaxçıcá (Bakı).*

6. Vurğu qoşma funksiyasını yerinə yetirən -cə, -can şəkilçisindən əvvəlki hecanın üzərinə düşür. Məsələn: *mə́ncə, sə́ncə (Bakı, Şəki), zənní́mcə (Şəki), çatí́ncə "çatana kimi", bití́ncə "bitənə kimi", diyíncə "deyənə kimi" (Şəki), habíncan "bunun kimi", búncan "bunun kimi" (Şəki) və s.*

7. -ıncan, -incən, -ınca,-incə şəkilçili feili bağlamalarda vurğu axırıncı hecadan əvvəlki hecanın üzərinə düşür. Məsələn: *alíncan, gəlí́ncən, alínca, gəlí́ncə (Bakı).*

8. Vurğu I, II, III şəxs tək və cəmində işlənən qeyri-qəti gələcək zaman şəkilçisinin üzərinə düşür. Məsələn: *alàram, alàrsan, alàr, alàruğ, alàrsuz, alàllar (Bakı) və s.*

9. **ilə** qoşmasının şəkilçiləşmiş dialekt variantı olan **–nan, -nən** qoşmaları ilə işlənən sözlərdə vurğu bu şəkilçidən əvvəlki heca üzərinə düşür. Məsələn: *ərəbéynən "araba ilə", átnan "at ilə", adàmnan "adam ilə" (Bakı), barmáğnan "barmaqla", zórnan "zorla" (Şəki), bíznən "bizlə" (Şəki, Naxçıvan), kímnən "kimlə" (Naxçıvan), Gülsímnaᵊn "Gülsüm ilə", Süleymaᵒnínaᵊn "Süleyman ilə" (Meğri) və s.*

10.Vurğu bəzi sadə sözlərdə birinci hecanın üzərinə düşür. Məsələn: *dő́gür "deyil", hə̀mmeşə "həmişə" (Bakı, Şamaxı, Salyan), ísragün "dünən yox o birisi gün", híndi "indi", hə̀mməşə "həmişə", hábra "bura" (Şəki), bə̀yax "bayaq"<indi, də́yil "deyil", hə́mişə, óra, bura (Naxçıvan), lü'tücə, kő́tücə, yètícə, ő́tücə<övladların dövrlər üzrə adlandırılması,*

çàlağan, sàğsağan, qəýğanax "qayğanaq", qàynana<qəýnənə, tósbağa// tózbağa "tısbağa", qúrvağa "qurbağa" (Qazax), qárınca "həşərat", gənə "genə"<yenə (İraq), sóğan, Həsən, Güllü, Əvəz, árdış, gilas, qərə "qara", ýeddi, átmış "altmış", dánışmax, dünən, həmmişə (Naxçıvan, Meğri), əyəm "əgər" (Megri), yáxçı "yaxşı", əncil "əncir", qárpız, qárğı, bálıx, keçi (Təbriz), döyül "deyil" (Şəki, Zaqatala), döqul "deyil" (Qax), həlbətdə "əlbəttə" (Bakı) və s.

11. Vurğu sifətin çoxaltma dərəcəsini əmələ gətirən **–cə** şəkilçisinin üzərinə düşür. Məsələn: *körpəcə́ (Bakı, Şamaxı, Salyan), balaca (Çəmbərək) və s.*

12. Sadə feil köklərində vurğu birinci hecanın üzərinə düşür. Məsələn: *ótu "otur", gə́ti "gətir", götür, götü "götür" (Şəki).*

13. Vurğu qoşma, bağlayıcı və ədatlarda sözün birinci hecasının üzərinə düşür. Məsələn: *çünki, ámma, áma, ámba "amma", génə, gə́nə "yenə", gúya, gúa "guya", bə́kə, bə́rkə "bəlkə", döyül, döylü "deyil" (Şəki), sóra "sonra" (Bakı, Naxçıvan, Şəki), ə́yər "əgər", mə́yər "məgər" (Naxçıvan) və s.*

14. Əvəzliklərdə vurğu birinci hecanın üzərinə düşür. Məsələn: *háman, hə́mən "həmin", nícə "necə", hámsı, hánı, bə́zi, hámmı< (Şəki) və s.*

15. Mürəkkəb sözlərdə vurğu birinci hecanın üzərinə düşür. Məsələn: *bíyil "bu il", büyün "bu gün", báşsağı "başı aşağı", báşuxarı "başı yuxarı", büyümnərim "bu gün", hóssa:t "o saat", "tez", náysə "nə isə", óqqədərən "o qədər"<çox, búqqədir "bu qədər", öyünnəri "o günləri", náncən "nə qədər", návax "nə vaxt" (Şəki), óbaş "o baş", böyün "bu gün" (Naxçıvan), òvaşdan "o başdan" (Qazax).* Şəki və Naxçıvan şivələrində işlənən bəzi mürəkkəb sözlərdə vurğu ikinci hecanın da üzərinə düşür. Məsələn: *isíreyn "dünən yox, o biri gün", işè:dirəm "işə gedirəm" (Şəki), keçə́sil "keçən il", gələ́sil "gələn il" (Naxçıvan).* Eyni zamanda Şəki şivəsində intonasiya ilə bağlı olaraq bəzi sadə və mürəkkəb sözlərdə vurğunun yeri dəyişir. Məsələn: *híndi-hindí, hábra-habrá, báşuxarı-başuxarí, óqəddərən-oqəddərə́n.*

16. Birgəlik bildirən **-gil** şəkilçisinin fonetik variantı olan **-gir** şəkilçisi vurğu qəbul etmir. Məsələn: *Suriyə́gir "Surəyagil" (Şəki).*

17. Sözdə sual ədatı işləndikdə vurğu ikinci hecanın üzərinə düşür. Məsələn: *verdínmı, giyibbı "geyibmi", biliysə́nmı "bilirsənmi", gəlifdími "gəlibmi" (Şəki)* və s.

18. Vurğu zərf düzəldən şəkilçidən əvvəlki hecanın üzərinə düşür. Məsələn: *əvə́lcə "əvvəlcə", qaváxca "qabaqca", dalíyca "dalınca"<arxasınca (Şəki) və s.*

19. Vurğu xəbərlik şəkilçisindən əvvəlki hecanın üzərinə düşür. Yəni xəbərlik şəkilçisi vurğu qəbul etmir. Məsələn: *yaxşídı "yaxşıdır", çòxdu "çoxdur", yòxdu "yoxdur", bízıx "bizik", uşáxdı "uşaqdır", díyillər "deyirlər" (Şəki), qonaxçíyam, béşdi "beşdir", mə́nəm, sə́nsən (Naxçıvan, Şəki), òdu//òdı "odur" (Naxçıvan), öydə́yəm "evdəyəm", öydə́sən "evdəsən", öydə́dü "evdədir" (Bakı), öydə́di "evdədir" (Zaqatala) və s.*

20. Vurğu şəxs şəkilçisindən əvvəlki hecanın üzərinə düşür. Məsələn: *alàrsan, örgəncàxdı "öyrəncəkdir", almìşam, dùrram "duraram" (Şəki) və s.*

21**. üçün** qoşmasının şəkilçiləşmiş forması olan **-çın** sözə qoşularkən vurğu qoşmadan əvvəlki hecanın üzərinə düşür. Məsələn: *danışmàxçın "danışmaq üçün", heyvànçın "heyvan üçün", onùnçun "onun üçün", bunùnçun "bunun üçün", gözümçün "gözüm üçün" (Naxçıvan), uníçaᵊn "onun üçün", buníçaᵊn "bunun üçün" (Meğri) və s.*

22.Qeyri-qəti gələcək zamanının III şəxs cəminin təsdiq və inkarında vurğu -lar[2] şəkilçisinin üzərinə düşür. Məsələn: *ayırmazlàr, biçəllə̀r "biçərlər", biləllə̀r "bilərlər", içəllə̀r "içərlər", tanıllàr "tanıyárlar" (İraq) və s.*

23. Vurğu nəqli keçmiş zamanın III şəxs cəmində -lar^2 şəkilçisinin üzərinə düşür. Məsələn: *almışlár, başlamışĺar, sevmişlər (İraq) və s.*

24. Vurğu gələcək zamanın III şəxs cəmində -lar^2 şəkilçisinin üzərinə düşür. Məsələn: *alacaxlàr "alacaqlar", biləcəklər, dönəcəxlər "dönəcəklər", görəcəxlər "görəcəklər", sipirəcəxlər "süpürəcəklər"(İraq) və s.*

25. Qeyri-qəti gələcək zamanın I şəxs təkinin inkarında vurğu -ma^2 inkarlıq şəkilçisinin üzərinə düşür. Məsələn: *ayırmám "ayırmaram", deməm "deməɹəm", istəməm "istəmərəm", oxumám "oxumaram" (İraq) və s.*

26. Sözlər qeyri-qəti gələcək zamanın II şəxs təkin inkarında işləndikdə vurğu -san^2 şəxs şəkilçisinin üzərinə düşür. Məsələn: *ayırmassán "ayırmazsan", gəlməssən "gəlməzsən", sormassàn "sormazsan", toxunmassán "toxunmazsan", çəkməssən "çəkməzsən", çalmassán "çalmazsan" (İraq) və s.*

27. Əmr şəklinin II şəxs təkində işlənən feillərdə vurğu -gınan, -ginən, -cınan, -cinən -qinən şəkilçilərinin üzərinə düşür. Məsələn: alginən, alqińan, alcıńan "alın", aparginan, aparqıńan, aparcıńan "aparın", baxginən, baxqıńan, baxcıńan "baxın", gəlməginən, gəlməqińən, cəlməcinən "gəlməginən" <gəlmə, yandırginən, yandırqińən, yandırcinən "yandırın" (İraq) və s.

28. *Burda* sözündə vurğu bəzən sözün birinci hecasına, bəzən də ikinci hecasının üzərinə düşür. Məsələn: *búrdayam, bırdàyam, búrdayıx, bırdàyıx, búrdasan, bırdásan, búrdasız, bırdásız, bùrdadı, bırdádı (İraq) və s.*

Q.Paşayev yazır ki, İraq-türkman ləhcəsində "burda" sözündə vurğu ikinci hecanın üzərinə düşdükdə birinci vurğusuz hecada u səsi zəifləyir və ı səsi ilə əvəzlənir (İraq-türkman, 2004, s.111).

29. İraq-türkman ləhcəsində on birdən iyirmiyə qədər miqdar və sıra saylarında vurğu birinci hecanın – onluq üzərinə düşür və həmin sözlər bir vurğu altında tələffüz edilir. Məsələn: *ómbir "on bir", òniki "on iki", ónüç "on üç", óndört "on dörd", ónbeş "on beş", ónbirinci "on birinci", ónikinci "on ikinci", ónüçüncü "on üçüncü", óndördüncü "on dördüncü", ónbeşinci "on beşinci" (İraq).*

30. II növ təyini söz birləşməsi konstruksiyası formasında iki söz birləşdikdə birinci sözün son saitindəki vurğu sözün birinci hecasının üzərinə keçir. Məsələn: *dáyarwadı "dayı arvadı", əmarwadı "əmi arvadı", əmqızı "əmi qızı", əmcə "əmican" (İraq).*

31. Feillər qeyri-qəti gələcək zamanın III şəxs cəmində işləndikdə vurğu birinci hecanın üzərinə düşür. Məsələn: *áxtarallar "axtararlar", báşlar "başlayar", dáğılallar "dağılarlar" (İraq).*

32. Düzəltmə sözlərdə vurğu birinci hecanın üzərinə düşür. Məsələn: *əkinçi, üçüncisi (İraq).*

33. İndiki zamanın III şəxs cəmində feillərdə vurğu bəzi hallarda birinci hecanın üzərinə düşür. Məsələn: *gəlillər "gəlirlər" (İraq).*

34. Feillər indiki zamanın inkarında işləndikdə vurğu inkar şəkilçisindən əvvəlki hecanın üzərinə düşür. Məsələn: *álmısan "almırsan", dərtləşmisən "dərdləşmirsən", gəlmisən "gəlmirsən", görmüsən "görmürsən" (İraq).*

35. Qoşalaşan samitli sadə sözlərdə vurğu birinci hecanın üzərinə düşür. Məsələn: *hàmmı "hamı", kəssəx "kəsək"<daş, bərkimiş torpaq qırıntıları, óttuz "otuz", ikki "iki", sinni "sini", qárranquş "qaranquş", qíssa "qısa" báşşaq "başaq"< biçin vaxtı yerə tökülən sünbül (Təbriz).*

36. II şəxs mənsubiyyət şəkilçili isimlər yönlük və təsirlik hallarda işləndikdə vurğu birinci hecaya düşür. Məsələn: *qáşuva “sənin qaşına”, óğluva “sənin oğluna”, qízuva “sənin qızına”, ítüvə “sənin itinə”, qáşıvı “sənin qaşını”, óğluvi “sənin oğlunu”, nə́nəvi “sənin nənəni”* (Təbriz) və s.

37.İndiki zamanın II şəxs təkində vurğu sözün birinci hecasına düşür. Məsələn: *bǘlüsən “bilirsən”, bə́yənisən “bəyənirsən”, áğlısan “ağlayırsan”, íçisən “içirsən”, gö̀rüşən “görürsən”, dǜşüsən “düşürsən” (Təbriz) və s.*

38.İndiki və qeyri-qəti gələcək zamanın III şəxs cəmində işlənən feillərdə vurğu birinci hecaya düşür. Məsələn: *álılla “alırlar”, díyillə “deyirlər”, tápılla “tapırlar”, də́yillə “dəyirlər”, qóyalla “qoyarlar” yàzalla “yazarlar”, yàtalla “yatarlar”, sáyalla “sayarlar” (Təbriz).*

39.Qəti gələcək zamanın III şəxsin təkində vurğu zaman şəkilçisindən əvvəlki hecanın üzərinə düşür. Məsələn: *qálacax//qálcax “qalacaq”, qóyacax//qóycax “qoyacaq”, yátacax “yatacaq”, çátacax “yükləmək”, sínacax “sınacaq”, gǜləcax “güləcək”, gǘpsəyəcax “yıxacaq” (Təbriz) və s.*

40. Feil şərt şəklində işləndikdə vurğu -sa, -sə şəkilçisindən əvvəlki heca üzərinə düşür. Məsələn: *álsam, gő̈zləsam, çıxársax “çıxarsaq”, toxdásuz “toxdasanız”, acàlsa “acsa”, cürlə̀şsə “birləşsə”, dağítsala “dağıtsalar” (Təbriz) və s.*

Təbriz şivəsində feilin şərt şəklinin mürəkkəbində -sa, -sə çəkilçisinin dialekt variantı kimi –se şəkilçisi iştirak edir və vurğu –se şəkilçisinin üzərinə düşür (M.Məmmədli, 2007, s.72). Məsələn: *sahlaséydim “saxlasa idim”, sahlaséydin “saxlasa idin”, sahlaséydi “saxlasa idi”, sahlaséydux “saxlasa idik”, sahlaséyduz “saxlasa idiniz”, sahlaséydıla “saxlasa idilər” (Təbriz).*

41. Orda və *ordan* sözünün dialekt variantı *horda* sözündə vurğu birinci hecanın üzərinə düşür. Məsələn: *órda, órdan (əksər şivələrdə), hórda “orda”, hórdan “ordan” (Zaqatala). Bu hal özünü sual cümlələrində göstərir* (M.Şirəliyev, 1967, s.128).

AHƏNG QANUNU

Sözün tərkibindəki səslərin həmahəngləşməsinə, eyniləşməsinə ahəng qanunu deyilir. Ahəng qanunu türk dilləri üçün səciyyəvi fonetik hadisədir. "Ahəng qanunu assimilyasiyanın təsadüflükdən uzaq, daimi növüdür, qanunlaşmış şəklidir. Azərbaycan dilində (eləcə də türk dillərində və geniş planda aqlütinativ dillərdə) ahəng qanunu assimilyasiyanın fiziki-fizioloji hadisə çərçivəsindən çıxıb xalis dil qanununa çevrilən növüdür" (E.Əzizov, 1972, s.51). Aqlütinativlik ahəng qanunu ilə üzvi şəkildə bağlıdır. E.Əzizov yazır: "Aqlütinativliyin ahəng qanunu ilə üzvi surıtdə əlaqəsini Azərbaycan dili dialekt və şivələrinin materialları da sübut etməkdədir. Məsələn, ahəng qanunu çox qüvvətli olan Qazax dialektində qəti gələcək zaman birinci şəxs təkdə -aj//,-ıj//, -əj//,-ej//,-ij//,-oj//,-uj//,-üj variantları olduğu halda, ahəng qanununun tez-tez pozulduğu Quba dialektində qəti gələcək zaman birinci şəxs təkdə yalnız –acaq//,-caq//,-əcağ variantları vardır. Yenə də Qazax dialektində qəti gələcək zaman birinci şəxs cəmdə -aje:y//,-ajıy//,-ajiy//,-ıjıy//,-əjəy//,-əjiy//,-əji://,-ijiy//,-ujiy//,-ujoy//,-ojoy//,-üjüy//,-üjöy variantları olduğu halda, Quba dialektində təkcə -aco//,-əco variantları vardır" (E.Əzizov,1972, s.54). Bu fonetik qanun ədəbi dilimiz üçün xüsusi elmi əhəmiyyətə malikdir və milli sözlərimizin müəyyənləşdirilməsində əsas amillərdən biridir. Şivələrimizdə ahəng qanunu mühafizə edilsə də, bir çox hallarda ahəng qanununun pozulması özünü göstərir.

Azərbaycan dili şivələrində ahəng qanununun pozulma hallarını M.Şirəliyev üç qrupa bölür:

1) Ahəng qanununun bir çox hallarda pozulduğu dialekt və şivələr;
2) Ahəng qanununu bir çox hallarda saxlayan dialekt və şivələr;
3) Ahəng qanununun bəzi hallarda pozulduğu dialekt və şivələr (M.Şirəliyev,1967, 58).

M.Məmmədli saitlər ahənginin şivələrimizdə saxlanmasını və pozulmasını iki qrupa bölür və aşağıdakı kimi qruplaşdırır:

1) Ahəng qanununa riayət olunan şivələr;
2) Ahəng qanununun pozulduğu şivələr (M.Məmmədli, 2019, s. 77-78).

Azərbaycan dili şivələrində saitlərin ahənginin pozulmasını iki yerə bölmək olar:

1) damaq ahənginin pozulması;
2) dodaq ahənginin pozulması;

Damaq Ahənginin Pozulması

Dodaqlanmayan saitlərin biri-birini izləməsinə damaq ahəngi deyilir. Azərbaycan dili şivələrində damaq ahəngi nisbətən özünü qoruyub saxlayır. Belə ki, Azərbaycan dili şivələrində bəzi hallarda, ədəbi dildə olduğu kimi, sözlərdə ahəng qanunu pozulmur. Məsələn: *bıldır, bıldırçın, ılxı, armıt, namıs, savın, qarpız, cahal, kağaz, çəker, gəler, bilmer, gətirer (Qazax, Gəncə, Ağstafa, Tovuz), ışıltı, ıldırım, ışıxlıx "baca", xamır, ajdıx "ərzaq", yançı "iməci"<köməkçi, çafcımax "çalışmaq", çaldırmax "üyütmək", çara "çarə", kanar "kənar", tağat "taqət" (Çəmbərək), ılıx (Qazax, Qarabağ, Çəmbərək), yaxun, qabağuna, saxlasun, arabanun, çəküc, şəküş (Naxçıvan), saca, sajda, babamız, babam, kababçıyam, yazmağ, yaşamağ, başdamağ, yazdım, barışmağ, ağlayan, yazıncan, bilərdilər, birinci, səpərəm, bilərdi, gidəmmədim, gidəmməmişsən, birdən, gümüşüm, güzüm, tüküm, tükün (Quba), ağac, atam, ayığam, almağ, alım, almışam, alırsan, yazırdım, alassan, qammaz "qanmaz", ağlayan, alanda, baxdıqca, yavaçca "yavaşca", qaydacağam, gəlillər "gəlirlər", işdı:m "işləyim", gələm, gəlsə, çəki, bərkdən, hərdən, elənçig "elə", belənçıg "belə", dinməz, gülegen "güləyən", ərəbə "araba", qeysi, qayçı (Bakı, Quba).*

Bununla belə şivələrimizdə damaq ahəngi – dodaqlanmayan saitlərin ahənginin pozulması halları da müşahidə olunur. Əslində şivələrimizdə damaq ahənginin pozulması dilimizin qədim dövrünü əks etdirir. " Azərbaycan dilinin dialekt və şivələrində a-u, i-ü formaların mövcud olması damaq ahənginin pozulması olmayıb, əksinə, qədim formanın saxlanmasıdır; ahəng qanunun keçdiyi tarixi mərhələlərin dialekt və şivələrimizdə mühafizə edilməsidir " (E. Əzizov, 1973,s. 16-17).

Damaq ahənginin pozulması iki yerə bölünür:

1) dodaqlanmayan qalın saitlərin ahənginin pozulması

2) dodaqlanmayan incə saitlərin ahənginin pozulması

Dodaqlanmayan qalın saitlərin ahənginin pozulması. Azərbaycan dili şivələrində dodaqlanmayan qalın saitlərin ahənginin pozulması həm söz köklərində, həm də şəkilçilərin tərkibində özünü göstərir.

Söz kökündə dodaqlanmayan qalın saitlərin ahənginin pozulması aşağıdakı hallarda müşahidə olunur:

a) söz kökündə dodaqlanmayan qalın saitdən sonra dodaqlanmayan incə saitin gəlməsi nəticəsində ahəngin pozulması: *aynə "ayna"<güzgü // pəncərə, yaşil "yaşıl", açər "açar", sılqə "sırğa" (Naxçıvan), axşəm "axşam" (Dərbənd*, Şəki*), badyə "badya", tayə "taya", bayrəm "bayram", qarin "qarın", qaysi "qaysı" (Dərbənd), halçə "xalça", bacər "bacar", daniş "danış", payiz "payız", baxcə "baxça" (Şəki), dayi "dayi" (Quba, Şəki), tarazi "tərəzi", alti "altı", çaltik "çəltik" (Quba) və s.*

b) söz kökündə dodaqlanmayan qalın saitdən sonra dodaqlanmayan incə saitin gəlməsi nəticəsində ahəngin pozulması: *qonşi "qonşu", toxli "toğlu", qoyin "qoyun" (Şəki), tarazi "tərəzi", alti "altı" (*Quba) və s.

c) söz kökündə dodaqlanmayan qalın saitdən sonra dodaqlanan qalın saitin gəlməsi nəticəsində ahəngin pozulması: *qarpuz "qarpız", pambuğ "pambıq" (Bakı, Quba), palçuğ "palçıq", qasoğ "qaşıq" (Dərbənd), paxul "paxıl", qarpuz "qarpız", ağul "ağıl" (Quba) və s.*

Dodaqlanmayan qalın saitlərin ahənginin pozulması söz kökünə səkilçinin qoşulması nəticəsində də baş verir. Bu baxımdan dodaqlanmayan qalın saitlərin ahənginin pozulmasını aşağıdakı kimi qruplaşdırmaq olar:

a) dodaqlanmayan qalın saitdən sonra dodaqlanan qalın saitin işlənməsi nəticəsində ahəngin pozulması: *bağun "bağın", cayılsuz "cavansınız", bĭraxsun "buraxsın", bĭraxuz "buraxın", yazmışuğ "yazmışıq", yazmışuz, "yazmışsınız" yazmışdun "yazmışdın", yazırdun "yazırdım", alson "alsan" (Bakı), aton "sənin atan" (Bakı, Dərbənd), qardaşuv "qardaşın", atavuz "atanız", atamuz "atamız", başladuğ "başladıq", ağacum "ağacın", babanu "babanı", qırsov "qırsan" (Dərbənd), barmağun "barmağın", bağbanuğ "bağbanıq", alduğ "aldıq", almışuğ "almışıq", baxasuz "baxasınız" (Quba), asson "atsan", assoz "atsanız", baxson "baxsan", malõ: "malına", baxson "baxsan", baxsoz "baxsanız" (Meğri) və s..*

b) dodaqlanmayan qalın saitlərdən sonra dodaqlanmayan incə saitin işlənməsi nəticəsində ahəngin pozulması: *başdadi "başladı", başarmadi "bacarmadı", yazmeyib "yazmayıb" (Quba) və s.*

c) dodaqlanan qalın saitdən sonra dodaqlanmayan qalın saitin gəlməsi nəticəsində ahəngin pozulması: *sorınca "sorunca", qolsız "qolsuz", boylı "boylu" <hamilə, qullığ "qulluq", odınçı "odunçu", oyınçı "oyunçu"* (İraq) və s.

ç) ismin təsirlik hal şəkilçisi qəbul etmiş sözlərdə dodaqlanmayan qalın saitin ahənginin pozulması: *ağaci “ağacı”, atami “atamı” (Naxçıvan,Təbriz), saci “sacı” (Bakı, Quba), papaği “papağı”, almani “almanı” (Quba), yagi “yağı”, (Dərbənd), haraveyi “arabanı”, baltiyi “baltanı”, qapiyi “qapını”, daneyi “dananı” (Qazax, Tovuz, Ağstafa), darvazeyi “darvazanı” (Qazax), daşi “daşı”, ayi “ayı”<ay+ı, başi “başı”,” (Şəki), çayi “çayi” (Şəki, Təbriz), mali “malı”, yaylaği “yaylağı”, qapıni “qapını”, balıği “balığı”, qamışi “qamışı”, alaçığı “alaçığı” (Təbriz), ma^{o}li “malı”, qa^{o}tığı “qatığı”, qa^{o}tıri “qatırı”, ba^{o}cinin “bacını” (Meğri) və s.*

d) ismin çıxışlıq hal şəkilçisi qəbul etmiş sözlərdə dodaqlanmayan qalın saitin ahənginin pozulması: *daşdən “daşdan”, qajdən “qacdan”(Şəki), ağajdən “ağacdan”(Zaqatala) və s.*

e) zərf şəkilçilərində dodaqlanmayan qalın saitin ahənginin pozulması: *qavaxcən “qabaqcan”, açə-açə “aça-aça”, qaçə-qaçə “qaça-qaça” (Şəki) və s.*

ə) ismin yerlik halı şəkilçisi qəbul etmiş sözlərdə dodaqlanmayan qalın saitin ahənginin pozulması: *daşdə “daşda”, (Şəki), da^{o}şdə “daşda”, ba^{o}cidə “bacıda”, qa^{o}şdə “qaşda”, a^{o}ğəşdə “ağacda” (Meğri), ağacdə “ağacda” (Zaqatala) və s.*

f) leksik şəkilçilərdə dodaqlanmayan qalın saitin ahənginin pozulması: *yaşayiş “yaşayış” (Qazax), naxırçi “naxırçı”, altımci “altıncı” (Şəki), qırxınci “qırxıncı” (Şəki, Meğri), a^{o}ltimci “altıncı”, a^{o}tmişimci “altmışıncı”, (Meğri), daşdi “daşlı”, atdi “atlı”, duzdi “duzlu”, qapıçi “qapıçı” (Quba), daddi “dadlı”, altımci “altıncı”, qırxımci “qırxıncı” (Bakı), yazi “yazı”, çalği “çalğı” (Bakı, Quba, Muğan) və s.*

g) feilin bacarıq şəklində dodaqlanmayan qalın saitin ahənginin pozulması: *aləmmədim “ala bilmədim”, aləmmədi “ala bilmədi”, aləmməmişəm “ala bilməmişəm”, aləmmiyib “ala bilməyib”, aləmmənəm “ala bilmərəm” (Quba), yazələrəm “yaza bilərəm”, yazərsən, “yaza bilərsən”, yazələr “yaza bilər”, yazələrsiŋiz “yaza bilərsiniz”, aləmmərəm “ala bilmərəm”, aləmməsəŋ “ala bilməzsən”, aləmməz “ala bilməz”(Çəmbərək, Karvansaray), adəmmədi “ala bilmədi”, aləmmiyib “ala bilməyib” (Bakı, Şamaxı), yaze:lmədi “yaza bilmədi”, yaze:lmiyif “yaza bilməyib”, yaze:lmir “yaza bilmir” (Qarabağ, Qobustan-Mərəzə), yazəlmədi “yaza bilmədi”, yazəlməz “yaza bilməz” (Şamaxı, Muğan) və s.*

ğ) ismin yiyəlik halında dodaqlanmayan qalın saitin ahənginin pozulması: *daşin “daşın”< daşın rəngi (Şəki.)*

h) indiki zamanda dodaqlanmayan qalın saitin ahənginin pozulması: *yazadi “yazırdı”, yazmıdi “yazmırdı”, başdiyədəm “başlayıram”, başdiyəsən “başlayırsan”, başdamiyədəm “başlamıram” (Quba), qayre:m “qayırıram”<düzəldirəm, ate:ram “atıram”, saler “salır”, bağlıyir “bağlayır”, yıxer “yıxır”, batırer “batırır” (Qazax), bağli:sən “bağlayırsan”, bağli:r “bağlayır”, bağli:rəm “bağlayıram”, yatiylər “yatırlar”, baxmiyillər “baxmırlar”, almiyi “almır” (Şəki) yaranıri “yaranır”, tapılıri “tapılır”, alınıri “alınır”, çağrey “çağırır”, sağey “sağır” (Təbriz), yanerəm “yanıram”, yanerix “yanırıq”, yanersən “yanırsan”, yanersiz “yanırsınız”, yaner “yanır”, da^{o}ğıdeyra^{ə}m “dağıdıram”, açeyəm “açıram”, açe:m “açıram”, açeyix “açırıq” (Meğri), qaterım “qatıram”, qatersıŋ “qatırsan”, qater “qatır”, qaterıx “qatırıq”, qatersaŋız “qatırsınız”, qatellar “qatırlar”, baxerım “baxıram”, baxersıŋ “baxırsan”, baxer “baxır”, baxerıx “baxırıq”, baxersaŋız “baxırsınız”, baxellar “baxırlar” (Karvansaray) və s.*

x) arzu şəklində dodaqlanmayan qalın saitin ahənginin pozulması: *aleydim “ala idim”, başdiyeydim “başlaya idim”, almeydim “almaya idim”, başdiyeydi “başlaya idi” (İraq), aleg “alaq” (Bakı), aleydün “ala idin”, aleydi “ala idi”, aleydüz “ala idiniz”, aleydilər “ala*

idilər", almiyəm "almayam", almiyasan "almayasan", almiyə "almaya", (Bakı, Quba, Şəki), almiyağ "almayaq", almiyəsüz "almayasınız", almiyələr "almayalar" (Bakı, Quba), başdyəm "başlayam", başdı̆yəsən "başlayasan", başdı̆yə "başlaya", başdı̆yeg "başlayaq", başdı̆yəsüz "başlayasınız", başdiı̆yələr "başlayalar" (Bakı, Şamaxı, Quba), Quba, Qazax, Gəncə, Qarabağ), aleydig//aleydüğ "ala idik" (Bakı), aleyduğ "ala idik" (Quba, Şamaxı), aleyduz "ala idiniz" (Şamaxı), aleydın "ala idin", aleydıŋız "ala idiniz", aleydılar "ala idilər" (Qazax, Qarabağ, Gəncə) və s.

ı) feilin lazım şəklində dodaqlanmayan qalın saitin ahənginin pozulması: *alasiyəm "alasıyam", galasiyəm "gələsiyəm", yazasiyəm "yazasıyam", alasiydim "alası idim" (Şəki) və s.*

i) şərt şəklində dodaqlanmayan qalın saitin ahənginin pozulması: *başdamaseydim "başlamasa idim", başdamaseydi "başlamasa idi" (Quba), aparseyʤim "aparsa idim", aparseyʤıx "aparsa idik", aparseyʤıŋ "aparsa idiniz", aparseʤyılar "aparsa idilər" (Çəmbərək, Karvansaray), alceg "alsaq" (Bakı), yesax "yesək" (Qazax, Ordubad, Təbriz), Şəki), qalseydim "qalsa idim", qalseydün "qalsa idin", qalseydi "qalsa idi", qalseydüz "qalsa idiniz", qalseydilər "qalsa idilər" (Bakı, Şamaxı, Muğan), qalseydüg "qalsa idik" (Bakı), alseydim "alsa idim", alseydin "alsa idin", alseydi "alsa idi", alseydüz "alsa idiniz", alseydilər "alsa idilər" (Quba Qazax, Qarabağ, Gəncə,İraq, Qax), alseydıŋ "alsa idin", (Qazax, Qarabağ, Gəncə) və s.*

j) qeyri-qəti gələcək zamanda dodaqlanmayan qalın saitin ahənginin pozulması: *başdiyərəm "başlayaram", başdiyərsən "başlayarsan", başdiyər "başlayar", (Quba), açərəm "açaram", açərsən "açarsan", bacərər "bacarar", saxliyər "saxlayar" (Şəki), başdiyərdim "başlayardım", başdiyərdün "başlayardın", başdiyərdi "başlayardı", başdiyərdüz "başlayardınız" başdiyərdilər "başlayardılar" (Quba, Bakı, Şamaxı), saxliyərdim "saxlayardım", saxliyərdin "saxlayardın", saxliyərdi "saxlayardi", saxliyərdik "saxlayardıq", saxliyədı̆z "saxlayardınız", saxliyərdilər "saxlayardılar" (Zaqatala) və s.*

k) əmr şəklində dodaqlanmayan qalın saitin ahənginin pozulması: *başdiyəm "başlayam", başdiyəsən "başlayasan", başdiyə "başlaya", başdamiyəm "başlamayım", başdamiyəsən "başlamayasan", başdamiyə "başlamaya" (İraq), aparem "aparım", saxle:m "saxlayım" (Qazax), danışginən "danışın", aşginən "açın", bağlagiyən "bağlayın" (Təbiz), ɑ⁰lginən "alın", a⁰tginən "atginən"<atın (Meğri), alginən "alın" (Bakı, Qazax, Qarabağ, Şəki, Quba, Şamaxı, Təbriz, Muğan, Gəncə), saxliyim "saxlayım", saxliyax "saxlayaq", saxliyin "saxlayın", saxlamiyim "saxlamayım", saxlamiyax "saxlamayaq", saxlamiyin "saxlamayın" (Zaqatala) və s.*

q) vacib şəklində dodaqlanmayan qalın saitin ahənginin pozulması*: yazmaliyəm "yazmalıyam", yazmaliydim "yazmalı idim", yazmaliydi "yazmalı idi" (Quba) və s.*

l) mənsubiyyət şəkilçili sözlərdə dodaqlanmayan qalın saitin ahənginin pozulması*: bacisi "onun bacısı", dayisi "onun dayısı", anasi "onun anasi" (Quba, Şəki), aten "sənin atan" (Qazax), yoldaşim "mənim yoldaşım", dayin "sənin dayın", bacim "mənim bacım" (Şəki), adamim "mənim adamım", malim, "mənim malım" < mənim əmlakım, qışlağim "mənim qışlağım", arvadi "onun arvadı", yaşi "onun yaşı", yanaxlari "onun yanaxlari", yaxasi "onun yaxası"(Təbriz), əᵊvlɑᵒdi "onun övladı", daᵒrisi "onun dərisi", haᵊvlɑᵒsi "onun halvası" (Meğri), coravim "mənim corabım", coravin "sənin corabın", corabi "onun corabı", coravı̆miz "bizim corabımız", coraviniz "sizin corabınız" (Zaqatala), atasi "onun atası", anasi "onun anası", başi "onun başı" (Bakı, Quba, Şəiki) və s.*

m) qeyri-gələcək zamanın hekayəsində dodaqlanmayan qalın saitin ahənginin pozulması: *yazardi "yazardı", yazmazdi "yazmazdı", alardi "alardı", almazdi "almazdı", başdiyərdim "başlayardım", başdiyərdi "başlayardı", başdəməzdi "başlamazdı" (Quba), ya^{o}rərdim "yarardım", ya^{o}rərdix "yarardıq", ya^{o}rərdin "yarardın", ya^{o}rərdiz "yarardınız", ya^{o}rərdi "yarardı", ya^{o}rərdilər "yarardılar" (Meğri) və s.*

n) nəqli keçmiş zamanın hekayə formasında dodaqlanmayan qalın saitin ahənginin pozulması: *yazmişdi "yazmışdı", yazmamişdi "yazmamışdı", almişdi "almışdı", başdəmişdim "başlamışdım", almamişdi "almamışdı", başdəmişdi "başlamışdı" (Quba), dadanmişdi "dadanmışdı" < öyrəşmişdi, bir yerə meyl göstərmişdi (Təbriz), ya^{o}mmişdim "yanmışdım", ya^{o}mmişdin "yanmışdın", ya^{o}mmişdiz "yanmışdınız" (Meğri) və s.*

o) nəqli keçmiş zamanda dodaqlanmayan qalın saitin ahənginin pozulması: *yazmeyib "yazmayıb", almeyib "almayıb", başdiyıb "başlayıb", (Quba), saxliyif "saxlayıb", qoaliyif "qovalayıb"<qovub (Qazax), a^{o}ğleyip "ağlayıb", a^{o}ğla^{ə}meyip "ağlamayıb", qa^{o}riyip "qarıyıb", qa^{o}rimeyip "qarımayıb", durmişıx "durmuşuq" (Meğri), saxlamişəm "saxlamışam", saxlamisən "saxlamışsan", saxlamişıx "saxlamışıq", saxlamisiz "saxlamışsınız", saxlamamişəm "saxlamamışam", saxlamamisən "saxlamamışsan", saxlamamişıx "saxlamamışıq", saxlamamisiz "saxlamamışsınız (Zaqatala), almişeg "almışıq", almamişeg "almamışıq" (Bakı) və s.*

ö) indiki zamanın hekayə formasında dodaqlanmayan qalın saitin ahənginin pozulması: *yazatdi "yazırdı", alatdi "alırdı", yazmiyətdim "yazmırdım", yazmiyətdi "yazmırdı", (Quba) və s.*

p) cəm şəkilçilərində dodaqlanmayan qalın saitin ahənginin pozulması: *atdər "atlar", qacələr "qocalar", qızlər "qızlar" (Dərbənd), ağaşdər "ağaclar", qardaşdər "qardaşlar" (Şəki), daşdər "daşlar" (Şəki, Dərbənd), aləmməzdər "ala bilməzlər" (Karvansaray, Çəmbərək) və s.*

Dodaqlanmayan incə saitlərin ahənginin pozulması. Dodaqlanmayan incə saitlərin ahənginin pozulması müxtəlif fonetik şəraitlərdə müşahidə olunur.

a) söz kökündə dodaqlanmayan incə saitin ahənginin pozulması: *eyran "ayran", beydağ "baydağ", keçal "keçəl", findığ "fındıq" (Dərbənd), əyax "ayaq", əlmas "almaz", qeysava "qaysava", hiyvan "heyvan", piçax "bıçaq", ləvaş "lavaş", həlva "halva", qəzan "qazan", çirax "çıraq" (Təbriz), İravan "İrəvan", Zeynap "Zeynəb" (Meğri), qeymağ "qaymaq" (Bakı, Şamaxı, Quba, Dərbənd, Muğan), qeytan "qaytan" (Bakı, Şamaxı, Quba, Muğan, İraq), yeylax "yaylaq" (Bakı, Şamaxı, Muğan, Zaqatala, Qarabağ), işax "uşaq" (Zaqatala), tevşan "dovşan" (Qax), pĭçax "bıçaq" (Şəki, Zaqatala, Qax) və s.*

b) dodaqlanmayan incə saitdən sonra dodaqlanan incə saitin işlənməsi nəticəsində: *ərəbön "sənin araban", ərəbö:z"sizin arabanız", tələbödü "tələbədi", tələbö:züg "tələbəyik", gəlsün "gəlsin", gəlüz "gəlin", gəlün "gəlin", gəldün "gəldin", gəldüz "gəldiniz", qələmdü "qələmdi", gəlibdü "gəlibdi", küçənün "küçənin" (Bakı) və s.*

c) vacib şəklində dodaqlanmayan incə saitdən sonra qalıın saitin işlənməsi nəticəsində: *gidməliyuğ "getməliyik", gidməməliyuğ "getməməliyik", gidməliyduğ "getməli idik" (Quba), diməlisıŋız "deməlisiniz", diməliyıx "deməliyik", işməlisan "içməlisən", işməliyıx "içməliyik", gəlməliyux "gəlməliyik", gəlməlisuz "gəlməlisiniz", getməliyux "getməliyik" (Şəki), dema^{ə}lısız "deməlisiniz" (Meğri), diməliyıx "deməliyik", diməlisĩz "deməlisiniz"(Şəki, Zaqatala) və s.*

ç) mənsubiyyət kateqoriyasında dodaqlanmayan incə saitdən sonra qalın saitin gəlməsi

nəticəsində: *yeriĩz "sizin yeriniz"< siz verin, zəliləriĩ "onların zəliləri", vəllarıĩ "onların vəlləri" (Naxçıvan), əkməgivız "əkməyiniz"<çörəyiniz, yevın "evin", yevım "evim", sirrım "sirrim", xələvın "sənin xalanın", xələvızın "xalanızın" (İraq), çəmbəraŋ "sənin çəmbərin"< xışı boyunduruğa birləşdirən bağ, dədan "sənin dədən", dədã:z "sizin dədəniz", elın "sənin elin", elĩ:z "sizin eliniz", əmın "sənin əmin", əmıŋız "sizin əminiz", keçın "sənin keçin", ilxun "sənin ilxın", əlu: "sənin əlin", əlũ:z "sizin əliniz" (Şəki), ə^{ə}vla^{o}di "onun övladı", ha^{ə}vla^{o}si "onun halvası" (Meğri) və s.*

d) qeyri-gələcək zamanın hekayəsində dodaqlanmayan incə saitdən sonra qalın saitin gəlməsi nəticəsində: *bilərduğ "bilərdik", bilməzduğ "bilməzdik", yiyərduğ "yeyərdik", yiməzduğ "yeməzdik" (Meğri) və s.*

e) nəqli keçmiş zamanda dodaqlanmayan incə saitdən sonra qalın saitin gəlməsi nəticəsində: *gəlmişuğ "gəlmişik", gəlməmişuğ "gəlməmişik", işdəmişuğ "işləmişik", işdəməmişuğ "işləməmişik" (Quba), eşitmisıx "eşitmişik", gəlmişıx "gəlmişik", sevmisıx "sevmişik" (İraq), yimisan "yemişsən", dişdəmişıx "dişləmişik", getmişux "getmişik", gəlmişux "gəlmişik", dimisuz "demişsiniz", işləmişux "işləmişik" (Şəki), eləmişux "eləmişik", bicərmişux "becərmişik", itirmişux "itirmişik" (Tərbiz), yığmişa^{ə}m "yığmışam", yığməmişa^{ə}m "yığmamışam" (Meğri), demişıx "demişik", demisız "demişsiniz" (Naxçıvan, Ordubad, Təbriz)və s.*

ə) indiki zamanın hekayə formasında dodaqlanmayan incə saitdən sonra qalın saitin gəlməsi nəticəsində: *gidətduğ "gedirdik", gitmiyətduğ "getmirdik", yiyətduğ "yeyirdik", yimiyətduğ "yemirdik" (Quba) və s.*

f) xəbərlik şəkilçisində dodaqlanmayan incə saitdən sonra qalın saitin gəlməsi nəticəsində*: kəççiyuğ "kəndçiyik", kəççiyduğ "kəndçi idik", təkduğ "tək idik" (Quba), elçiyıx "elçiyik", elçisiŋız "elçisiniz", əcissan "acizsən", əcizıx "acizik", kənççiyux "kəndçiyik" (Şəki) və s.*

g) feilin xəbər şəklində dodaqlanmayan incə saitdən sonra qalın saitin gəlməsi nəticəsində*: diyirdıx "deyirdik", diyirdın "deyirdin", ekirdıx "əkirdik", biliydıx "bilirdik", gidiydıx "gedirdik", getmişdıx "getmişdik", dimişdıx "demişdik" (Şəki), deyeca^{ə}xsız "deyəcəksiniz" (Meğri) və s.*

ğ) şühüdi keçmiş zamanda dodaqlanmayan incə saitdən sonra qalın saitin gəlməsi nəticəsində*: gəlduğ "gəldik", gəlməduğ "gəlmədik", işdəduğ "işlədik", işdəməduğ "işləmədik" (Quba), bildıx "bildik", dedıx "dedik", dərtləşdıx "dərtləşdik", dərtləşdivız "dəstəklədiniz", itirdıx "itirdik", kəsdıx "kəsdik", mindıx "mindik", getdıx "getdık", gettivız "getdiniz", gördıx "gördük" (İraq), gəldıx "gəldik", gəldız "gəldiniz", verdıŋ "verdin", vermədıŋ "vermədin", gəldıŋ "gəldin", gəldıx "gəldik", işdədux "işlədik", işdəmədux "işləmədik", işdəduz "işlədiniz" (Şəki), keşdux "keçdik", geldux "gəldik", yetiştux "yetişdik", elədux "elədik" (Təbriz), yidıx "yedik", gəldıx "gəldik" (Şəki, Qax, Ordubad, Təbriz), dıdıx "dedik" (Zaqatala, Ordubad), dedıx "dedik" gəlmədıx "gəlmədik" (Şəki, Qax, Ordubad, Təbriz, Naxçıvan) və s.*

h) qəti gələcək zamanda dodaqlanmayan incə saitdən sonra qalın saitin gəlməsi nəticəsində*: gedacax "gedəcək", bilacax "biləcək", içəcam "içəcəyəm", içəcax "içəcək", içəcaxsan "içəcəksən", içəcayıx "içəcəyik", içəcaxsıĩz "içəcəksiniz", içəcaxlar "içəcəklər" (Naxçıvan), gələcağam "gələcəyəm", gələcağsan "gələcəksən", gələcağ "gələcək" (Quba), diyəcağam "deyəcəyəm", əkəcəğığ "əkəcəyik", əkmiyəcağıx "əkməyəcəyik", gedəcağam "gedəcəyəm", gedacaxlar "gedəcəklər" getmiyəcaxlar "getməyəcəklər" (İraq), vercam*

“verəcəm”, vercaxsan “verəcəksən”, vercaxdı “verəcəkdi”, işdiycam “işləyəcəm”, işdiyəcasan “işləyəcəksən”, işdiycaxdı “işləyəcəkdi”, işdiycax “işləyəcək”, gəlicux “gələcəyik”, gidijux “gedəcəyik”, diycu:z “deyəcəksiniz” (Şəki), gedacağam “gedəcəyəm”, verəcağam “verəcəyəm”, kəsəca:m “kəsəcəyəm”, yetişəcaxsan “yetişəcəksən”, gələcax “gələcək”, vermiyacax “verməyəcək”, yiəcağux “yeyəcəyik”, gedacaxsuz “gedəcəksiniz”, diyəcaxlar “deyəcəklər”, birləşəcaxlar “birləşəcəklər” (Təbriz) və s.

x) qəti gələcək zamanın hekayəsində dodaqlanmayan incə saitdən sonra qalın saitin gəlməsi nəticəsində*: diyacağam “deyəcəyəm”, diyacaxsan “deyəcəksən”, diyacax “deyəcək”, diyacağıx “deyəcəyik”, diyacaxsız “deyəcəksiniz”, “diyacaxlar” deyəcəklər (Zaqatala) və s.*

ı) feili sifət şəkilçisində dodaqlanmayan incə saitdən sonra qalın saitin gəlməsi nəticəsində*: əhdiğın “əkdiyin”, didiğın “dediyin”, didiğım “dediyim”, kesdığum “kəsdiyim” (Şəki), gələcax uşax “gələcək uşaq” (Quba) və s.*

i) xəbər şəklinin rəvayətində dodaqlanmayan incə saitdən sonra qalın saitin gəlməsi nəticəsində*: verirduz “verirdiniz”, verərduz “verərdiniz”, bilirduz “bilirdiniz”, dimişdux “demişdik”, diyirduz “deyirdiniz” (Şəki) və s.*

j) feili bağlma şəkilçisində dodaqlanmayan incə saitdən sonra qalın saitin gəlməsi nəticəsində*: yedıxda “yedikdə”, yedıxca “yedikcə”, əkdıxda “əkdikdə”, əkdıxca “əkdikcə” (Naxçıvan), biləndax “biz biləndə”, gedəndax “siz gedəndə”, gələndəvız “siz gələndə”, siləndəvız “siz siləndə” (İraq), getduxda “getdikdə”, yedıxda “yedikdə”, getdıxca “getdikcə” (Şəki, Zaqatala) və s.*

Qeyd: İraq-türkman ləhcəsində - andə, - əndə şəkilçili feili bağlamalar şəxs sonluğu qəbul edir. Feili bağlamalar şəxslər üzrə təsriflərdikdə I və II şəxsin cəmində ahəng qanunu pozulur.

k) məsdər formasında dodaqlanmayan incə saitdən sonra qalın saitin gəlməsi nəticəsində*: içmağ “içmək”, vərmağ “vermək”, işdəmağ “işləmək” (Dərbənd), yimax “yemək”, işmax “içmək”, giymax “geymək” (Şəki), deyişmax “deyişmək”, yetişmax “yetişmək”, dəjləmax “dəcləmək” (Təbriz), tikmağ “tikmək”, yimağ “yemək”, gəlmağ “gəlmək” (Quba, Şəki, Ordubad, Təbriz, Zaqatala, Qax), gezmax “gəzmək”, demax “demək”, çeynamax “çeynəmək”, bişmax “bişmək” (Naxçıvan), gidmax “getmək” (Quba), gəlmağ “gəlmək”, bilmağ “bilmək”, yimağ “yemək”, dimağ “demək” (Quba, Dərbənd), demax “demək”, etmax “etmək”, əkmax “əkmək”, yemax “yemək”, getmax “getmək”, çimmax “çimmək” (İraq) və s.*

q) şəxs şəkilçli sözlərdə dodaqlanmayan incə saitdən sonra şəxs şəkilçisində qalın saitin gəlməsi nəticəsində*: gedax “gedək”, getmiyax “getməyək”, əkirıx “əkirik”, əkmırıx “əkmirik”, əkirsıĩz “əkirsiniz”, biçərıx “biçərik”, biçmənıx “biçmərik”, biçərsıĩz “biçərsiniz” (Naxçıvan), getdıx “getdik”, getmişıx “getmişik”, gedeyrıx “gedirik”, gedeca^{ə}ğıx “gedəcəyik”, gedə^{ə}rıx “gedərik”, getma^{ə}lıyıx “getməliyik” (Meğri) və s.*

Dodaq Ahənginin Pozulması

Azərbaycan dili şivələrində dodaq ahənginin pozulması həm söz kökündə, həm də şəkilçilərin tərkibində müşahidə olunur. Dodaq ahənginin pozulması dodaqlanan qalın və incə saitlərdə baş verir. Şivələrimizdə dodaq ahənginin pozulması aşağıdakı fonetik şəraitdə özünü göstərir.

a) söz kökündə dodaq ahənginin pozulması: *qomiş “gömuş”<kəl, qoyin “qoyun”, boğdə “buğda”, torşi “turşu” (Dərbənd), çöyğun “çovğun” (Qazax), buyin “boyun”, buyniz*

“buynuz”, quyi “quyu”, Quli “Qulu”, Tuti “Tutu”, üzim “üzüm”, düyi “düyü”, yüngil “yüngül”, tütin “tütün” (Meğri), quzı “quzu” (Bakı, Şamaxı, Quba, Muğan), buqaz “boğaz”, büzav “buzov”, yumri “yumru” (Qax) və s.

b) dodaqlanan qalın saitdən sonra dodaqlanmayan qalın saitin gəlməsi nəticəsində ahəngin pozulması: *budı “budu”, odı “odu”, quşdı “quşdu”, uzundı “uzundu”, çoxdı “çoxdu”, qurmışam “qurmuşam”, qurmuşıq “qurmuşuq”, qurıp “qurub”, vurdı “vurdu”, vurdılar “vurdular”, suyı “suyu”, duzı “duzu”, buynuzı “buynuzu”, vurım “vurum”, vursın “vursun”, oxı “oxu”, sorın “sorun”, uçsın “uçsun”, oxırıx “oxuyuruq”, oxıram “oxuyaram”, qorxırıx “qorxuruq”, qorxır “qorxur”, quzının “quzunun”, touğın “toyuğun”, qozı “qozu”, burnı “burnu”, durınca “durunca”, oxudıxca “oxuduqca” (İraq) və s.*

c) ismin yönlük halında dodaq ahənginin pozulması**:** *buğdiyə “buğdaya”, çuxiyə “çuxaya”, yumurtiyə “yumurtaya”, (Quba), qocə “qoca”<qoc+a<kirəmitli və ya dəmirli evin üstünə qoyulan şaqüli uzun yoğun ağac (Şəki), bobĭyə “babaya”, hoviyə “havaya” (Bakı), buğdĭyə “buğdaya”, çuxĭyə “çuxaya”, yumurtĭyə “yumurtaya” (Bakı, Şamaxı, Muğan) və s.*

ç) ismin təsirlik hal şəkilçisində dodaq ahənginin pozulması: *toyği “toyuğu”, quşi “quşu” (Naxçıvan), qulpi “qulpu”, toyi “toyu”, çalğuni “çalğını”, puli “pulu” (Dərbənd), quşı “quşu”, oyunı “oyunu”, oğlı “oğlu”, suyı “suyu”, duzı “duzu”, otı “otu”, onı “onu”, unı “unu”, gözi “gözü”, sözi “sözü”, süti südü“, üzügi “üzüyü”, üzümı “üzümü”, düdügi “düdüyü”<tütəyi (İraq), yuli “yolu”, suyi “suyu”, tuyi “toyu”, quçi “qoçu”, döli “dölü”, küzi “quzu”, kürki “kürkü”, yüzi “üzü”, dördi “dördü” (Meğri), bobani “babanı”, sui “suyu”, popağı “papağı” (Bakı), oni “onu” (Muğan), o:çini “ovçunu” (Bakı, Şamaxı), qoyŭnu “qoyunu” (Zaqatala) və s.*

d) qeyri-gələcək zamanın hekayəsində dodaq ahənginin pozulması: *qoşerdim “qoşardım”, qoşerdix “qoşardıq”, qoşerdin “qoşardın”, qoşerdi “qoşardı”, qoşerdilər “qoşardılar”, ötirerdim “oturardım”, ötirerdix “oturardıq”, ötirerdin “oturardın”, ötürerdiz “oturardınız” (Meğri) və s.*

e) nəqli keçmiş zamanın hekayə formasında dodaq ahənginin pozulması: *yulmişdim “yolmuşdum”, yulmişdin “yolmuşdun”, yulmişdiz “yolmuşdunuz”, yulmişdi “yolmuşdu”, bölmişdim “bölmüşdüm”, bölmişdin “bölmüşdün”, bölmişdiz “bölmüşdünüz”, bölmişdi “bölmüşdü”, bölmişdilər “bölmüşdülər” (Meğri) və s.*

ə) nəqli keçmiş zamanda dodaq ahənginin pozulması **:** *oyniyib “oynayıb” (Quba), görmişik “görmüşük”, süzmüşik “süzmüşük”, düzilmişik “düzülmüşük” (İraq), qoaliyif “qovalayıb” (Qazax), durmişa^{ə}m “durmuşam”, durmişıx “durmuşuq”, tutmişıx “tutmuşuq” (Meğri), oxımişüg “oxumuşuq” (Bakı), so:muşdi “soğmuşdu”, <qurtarmışdı, oturmuşdi “oturmuşdu” (Təbriz), və s.*

f) nəqli keçmiş zaman hekayə formasında dodaq ahənginin pozulması *bölmişdim “bölmüşdüm”, bölmişdin “bölmüşdün”, bölmişdiz “bölmüşdünüz”, bölmişdi “bölmüşdü” (Meğri) və s.*

g) indiki zamanın hekayə formasında dodaq ahənginin pozulması: *“oxi:rdin “oxuyurdun”, oxi:rdi “oxuyurdu”, qo:rirdim “görürdüm” (Şəki), vureydim “vururdum”, vureydin “vururdun”, vureydiniz “vururdunuz”, vureydi “vururdu”, vureydilər “vururdular”, ölçeydim “ölçürdüm”, ölçeydix “ölçürdük”, ölçeydin “ölçürdün”, ölçeydiz “ölçürdünüz” (Meğri) və s.*

ğ) xəbərlik şəkilçisində dodaq ahənginin pozulması: *budı "budur", odı "odur", quşdı "quşdur", uzundı "uzundur", çoxdı "çoxdur", böyükti "böyükdür", yüklidi "yüklüdür" (Şəki), qubaliyiq "qubalıyıq", oyağıg "oyağıq" (Bakı, Quba, Şamaxı, Muğan) və s.*

h) şühüdi keçmiş zamanda dodaq ahənginin pozulması**:** *gördıx "gördük", düzüldıx "düzüldük", sürdıx "sürdük", döndi "döndü", örtüldi "örtüldü", sökdi "sökdü", düşündi "düşündü" (İraq), qurtardi "qurtardı", oxudi "oxudu", oldi "oldu", doldi "doldu", tutti "tutdu", qurdi "qurdu" (Təbriz), duldi "doldu", tutdi "tutdu", yurdi "yordu", küsdim "küsdüm", döydim "döydüm", küsdin "küsdün", küsdiz "küsdünüz", küsdi "küsdü", küsdilər "küsdülər" (Meğri), oxumedig "oxumadıq" (Bakı), oxıdi "oxudu" (Bakı, Quba) və s.*

x) feili sifət şəkilçisində dodaq ahənginin pozulması: *oxumali kitab "oxumalı kitab", oxuyən qız "oxuyan qız", oyniyəsi oğlan "oynayasi oğlan" (Bakı, Şəki), olaceg ev "olacaq ev" (Bakı) və s.*

ı) arzu şəklinin hekayəsində dodaq ahənginin pozulması**:** *ölçeydim "ölçə idim", ölçeydix "ölçə idik", ölçeydin "ölçə idin", ölçeydiniz "ölçə idiniz", ölçeydi "ölçə idi", ölçeydilər "ölçə idilər" (Meğri) və s.*

FONETİK HADİSƏLƏR

Dialekt və şivələrdə fonetik hadisələr xüsusi yer tutur. Fonetik hadisələrin müxtəlifliyi dialekt və şivələrin fərqli fonetikaya malik olduğunu üzə çıxarır və dialektlərin təsnifinin əsasını təşkil edir.

Azərbaycan dili şivələrində təzahür edən fonetik hadisələr müasir Azərbaycan ədəbi dilindən fərqlənir. Eyni zamanda şivələrimizdə fonetik hadisələr geniş yayılmışdır.

Azərbaycan dili şivələrində aşağıdakı fonetik hadisələr müşahıdə olunur:

1. Assimilyasiya
2. Dissimilyasiya
3. Səs artımı (proteza)
4. Səs düşümü (eliziya)
5. Yerdəyişmə (meteteza).

Assimilyasiya

Fonetik hadisələr içərisində assimilyasiya xüsusi yer tutur və şivələrimizdə geniş formada təzahür edir. Assimilyasiya sözə şəkilçi artırılması nəticəsində baş verir.

M.Şirəliyev Azərbaycan dili şivələrinin materialları əsasında assimilyasiyanı dörd yerə bölür: 1) tam irəli assimilyasiya; 2) yarımçıq assimilyasiya; 3) tam geri assimilyasiya; 4) yarımçıq geri assimilyasiya (M.Şirəliyev, 1967, s. 111). Tədris baxımından asanlılığı nəzərə alıb Azərbaycan dili şivələrinin materiallarına əsasən assimilyasiyanı 2 növə ayırmağı məqsədəuyğun hesab edirik:

1) irəli assimilyasiya;
2) geri assimilyasiya.

İrəli assimilyasiya

Bir səsin özündən sonrakı səsə təsir edib özünə uyğunlaşdırması irəli assimilyasiya adlanır. Şivələrimizdə irəli assimilyasiya geniş yayılmışdır. İrəli assimilyasiya 2 yerə bölünür: 1) tam irəli assimilyasiya; 2) yarımçıq irəli assimilyasiya.

Tam irəli assimilyasiya. Sözün kökündəki son samit səs artırılmış şəkilçinin ilk samit səsinə təsir edərək tam özünə uyğunlaşdırır ki, bu da tam irəli assimilyasiya adlanır. Məsələn:

nl>nn: *dərinnik "dərinlik", dünənnəri "dünənləri" (Qazax, Çəmbərək), sərinnig "sərinlik" (Bakı), qannı "qanlı", bannadı "banladı", gəlinnər "gəlinlər" (Bakı, Qazax, Çəmbərək), heyvannar "heyvanlar" (Quba, Naxçıvan, Ordubad, Çəmbərək), pəlvannar "pəhləvanlar", gəlünnər "gəlinlər", qarannuğ "qaranlıq", çətinnuğ "çətinlik", samannuğ "samanlıq", yamannuğ "yamanlıq"<pislik (Quba), annamaz "anlamaz" (Quba, Dərbənd), nişannı "nişanlı", dermannıx "dərmanlıq", ilannar "ilanlar", xırmannar "xırmanlar", bilənnər "bilənlər", taniyənnər "tanıyanlar" (Şəki), donnux "donluq" (Qazax, Çəmbərək, Meğri, Borçalı), onnux "onluq", Meytixannı "Mehdixanlı", günnü x΄ "günlük", enni "enli", tuşmannı "düşmənli", sennix΄ "senlik", kəsəmənni "kəsəmənli", pəhlivannıx "pəhləvanlıq", çətinnix΄ "çətinlik", qoyunnu "qoyunlu", qarınnarı "qarınları", çalannar "çalanlar", görənnər "görənlər", aparsınnar "aparsınlar" (Qazax, Çəmbərək), qoyunnar "qoyunlar", gələnnər "gələnlər" (Quba, Qazax, Naxçıvan, Ordubad, Dərbənd, Çəmbərək), cannı "canlı" (Şəki, Qazax, Çəmbərək, Borçalı), aydınnıx "aydınlıq", qəhrəmannıx "qəhrəmanlıq", yamannıx "yamanlıq"<pislik, yavannıx "yavanlıq", uzunnux "uzunluq", insannar "insanlar", dünənnəri "dünənləri", əkinnər "əkinlər", qannısı "onun qanlısı", onnar "onlar" (Naxçıvan, Ordubad, Çəmbərək), şirinnix΄ "şirinlik", şennix΄ "şenlik"<yaşayış yerii,*

yağınnıx “yağanlıq”, çimənnix´ “çəmənlik”, bınnar “bunlar” (Naxçıvan), nişannı “nişanlı”, çubannar “çobanlar”, aparsunnar “aparsınlar”, qoyinnər “qoyunlar”, diyənlər “deyənnər”, aydinnığ “aydınlıq”, uzunnuğ “uzunluq”, gennig “genlik” ” (Naxçıvan, Ordubad, Dərbənd, Çəmbərək), oğlannar “oğlanlar” (Naxçıvan, Ordubad, Dərbənd, Qazax, Çəmbərək, İraq, Meğri), çəmənnig “çəmənlik”, dunnuğ “dunlük”, unnuğ “unluq”, yamannığ “yamanlıq” (Dərbənd), aydınnıx “aydınlıq”, düzənnix “düzənlik”, yavannıx “yavanlıq”, yamannıx “yamanlıq”, gəlinnix “gəlinlik”, nişannı “nişanlı”, sərinnix “sərinlik”, tikənni “tikanlı”, çəmənnix “çəmənlik”, çibinnər “çibinlər”<milçəklər, şənnük “sənlik” (İraq), günnər “günlər” (Dərbənd, Meğri), yannar “yanlar”, əmirxannı “əmirxanlı”, ya^{o}va^{ə}nnıx “yavanlıq”, ca^{o}nnı “canlı”, sa^{o}ma^{ə}nnix “samanlıq”, günnıx “günlük”, ila^{o}nnıx “ilanlıq”, sultannı “sultanlı” (Meğri), qoyınnar “qoyunlar”, şurqannar “şurqanlar”<şəlalələr, hiyvannar “heyvanlar”, yannış “yalnış”, annamax “anlamaq”, dügünnamax “düyünləmək” (Təbriz), gələnnər “gələnlər”, onnux “onluq”, yaxınnaşmax “yaxınlaşmaq”, dənnəməx´ “dənləmək” (Borçalı, Çəmbərək), cannı “canlı”, ormannıx “ormanllıq”, qadınnar “qadınlar” (Qazax, İraq, Çəmbərək) və s.

rl>rr: *ağırrığ “ağırlıq” (Bakı), dətərrər “dətərlər”, əsgərruğ “əsgərlik”, ciyarri “ciyərli”<qorxmaz, tərri “tərli”, bazarruğ “bazarlıq”, hazırruğ “hazırlıq” (Quba), azarrı “azarlı” (Quba, Şəki, Dərbənd), yerri “yerli” (Şəki, İraq, Meğri, Çəmbərək), hazırra “hazırla”, kəvərrıx “kəvərlik”, birrəş “birləş”, terri “tərli” (Şəki), yerrər “yerlər”, oğurrux “oğurluq”, yəhərrə “yəhərlə” (Çəmbərək, Qazax), korrux “korluq” (Şəki, Qazax), qarrı “qarlı” (Bakı, Qazax, Gəncə, İraq, Naxçıvan, Ordubad), varrı “varlı” (Bakı, Şəki, Naxçıvan, Ordubad, İraq, Qazax, Çəmbərək, Meğri), tərrix´ “tərlik” (Qazax, Naxçıvan, Ordubad, Çəmbərək), kirri “kirli” (Naxçıvan, Ordubad, İraq, Çəmbərək), ətirri “ətirli”, əsgərrər “əsgərlər”, kəsirri “kəsirli” (Naxçıvan, Ordubad), üzərrix´ “üzərlik”, ciyərri “ciyərli”<qorxmaz, yağarrıx “yağarlıq”, arrı “arlı” (arlı-namuslu, arlı-abırlı sözlərində rast gəlinir), maldarrıx “maldarlıq” (Naxçıvan, Ordubad, Qazax, Çəmbərək), maldarrığ “maldarlıq”, sərkarrar “sərkarlar”, irəcbərrig “rəncbərlik” (Dərbənd), əsgərrix “əsgərlik”, şəhərri “şəhərli”, tərrəməx “tərləmək” (Çəmbərək, İraq), hazırrıx “hazırlıq” (Qazax, Gəncə, Çəmbərək, İraq), karrı “karlı”, qatırrar “qatırlar”, abırrı “abırlı”, çuxurrux “çuxurluq”, ta^{ə}pa^{ə}rri “təpərli”<güclü, Kələntərri “Kələntərli”, fikirri “fikirli” (Meğri), cühərri “cühərli”<güclü, savırrı “səbrli”, xırrı “xırlı”<daşlı, xırda daşlı yer, salğarrı “salğarlı”<təmkinli, mamırramax “mamırlamaq”, kirdarrı “kirdarlı”<qoçaq, qorru “qorlu”<odlu kül (Çəmbərək), yerrər “yerlər”, pənirrər “pendirlər”, dufarrar “divarlar”, həsirrər “həsirlər”, tağarrar “tağarlar”, qıtmırrar “qıtmırlar”, eyğırrar “ayğırlar” ağırrıyıb “ağırlayıb” (Təbriz), kirrəmməx´ “kirlənmək”, körrüx “korluq”, varrı “varlı”, xeyirrı “xeyirli”, dərrəməx´ “tərləmək”, xəvərrəşməx´ “xəbərləşmək” (Çəmbərək, Borçalı) və s.*

nd>nn: *əlünnən “əlindən” (Bakı), onnan “ondan”, mənnən “məndən”, sənnən “səndən” (Naxçıvan, Ordubad, Çəmbərək, Şəki, Meğri, Bakı, Quba), quşunnan “qoşundan”, tikannan “tikandan”, yaşınnan “yaşından”, üsdünnən “üstündən” (Quba), gəlinnən “gəlindən”, öyünnən “evindən”, bunnan “bundan”, unnan “ondan”, cannan “candan”, ağzınnan “ağzından”, olannan “olandan”, dünənnən “dünəndən” (Şəki), davannan “badandan”, qızınnan “qızından”, qavağınnan “qabağından”, dalınnan “dalından”, öyünnən “evindən”, qoyunnan “qoyundan”, munnan “bundan”, yunnan “yundan” (Qazax, Gəncə, Çəmbərək), unnan “ondan”, üssünnən “üstündən”, özünnən “özündən” (Naxçıvan, Ordubad), munnan*

“bundan”, dərisinnən “dərisindən”, cibinnən “cibindən”, suğannan “soğandan”, ayrənnən “ayrandan”, qutarannan “qurtarandan” (Dərbənd), ağacınnan “ağacından”, yağınnan “yağından”, yorğannan “yorğandan”, narınnan “narından” (İraq), düyna^{o}sinna^{ə}n “dünyasından” < heç vaxt baş tutmayan iş, uğlinna^{ə}n “oğlundan”, biçinna^{ə}n “biçindən”, tezdənnən “tezdəndən”<səhər tezdən (Meğri), qarasınnan “qarasından”, yekəsinnən “yekəsindən”<böyüyündən (Təbriz), tüşmannan “düşməndən” (Borçalı) və s.

Qeyd: Azərbaycan dilinin şivələrində nd>nn assimilyasiyası çıxışlıq hal şəkilçisində özünü göstərir. Şəkinin İncə və Zunud şivələrində nd>nn assimilyasiyası yerlik hal şəkilçisində (M.İslamov, 1968, s. 60.), xəbər şəkilçisi qəbul etmiş feillərdə, III şəxsin təkində işlənən sözlərdə də müşahidə olunur ki, buna Azərbaycan dilinin başqa şivələrində rast gəlinmir. Məs.: gönnə “göndə”, duzunna “duzunda”, dermanna “dərmanda”, mənnə “məndə”, sənnə “səndə”, bağınna “bağında”, içinnə “içində”, dədənnə “dədəndə”, alınna “alında”, qanna “qanda”, bunna “bunda”, döyünnü “döyündü”, yannım “yandım”, dönnü “döndü”, dönnux “döndük”, dönnũ:z “döndünüz”, dannı “dandı”, yalannı “yalandır”, qalannı “qalandır”, dayınnı “dayındır” (Şəki)

lr>ll: *allam “alaram”, allıx “alarıx”, gəllix “gəlirəm”, gülləm “gülərəm”, güllix “gülərik”, qallam “qalaram”, qallıx “qalarıq” (İraq), yollam “yolaram”, silləm “silərəm”, çallam “çalaram”, billəm “bilərəm” (Çəmbərək, Meğri), billa^{ə}m “bilərəm” yulla^{ə}m “yolaram”, silla^{ə}m “silərəm” (Meğri), ollam “olaram”, qallam “qalaram”, bülləm “bilərəm”, qocallux “qocalarıq”, güllux “gülərik” (Təbriz), qallam “qalaram”, sallam “salaram”, güləm “gülərəm”, silləm “silərəm” (Borçalı) və s.*

Qeyd: İraq-türkmən ləhcəsində qeyri-gələcək zamanda feillər şəxslər üzrə dəyişərkən I şəxsin təkində və cəmində şəkilçidəki r səsi sözün kökündəki l səsinin təsiri ilə l səsinə çevrilir. Bu zaman şəkilçidəki a və ya ə səsi də düşür (İraq-türkman, 2004, s. 98-99). Belə bir fonetik hadisə Təbriz, Borçalı, Qərbi Azərbaycanın Çəmbərək, Meğri şivələrində də müşahidə edilir.

dl>dd: *arvaddar “arvadlar” (Quba, Dərbənd), abadduğ “abadlıq”, buluddar “buludlar” (Quba), oddamax “odlamaq”, addã:r “adlanır”, yaddar “yadlar”, oxuddu “oxudlu” < Şəkidəki Oxud kəndinin sakini (Şəki), daddı “dadlı”, savaddı “savadlı” (Şəki, Qazax, Naxçıvan, Ordubad, Quba, Çəmbərək, Meğri), öddüx′ “ödlük”, kənddəri “kəndləri”, odduyur “odlayır” (Qazax, Gəncə, Çəmbərək), Əhməddi “Əhmədli”, seyiddər “seyidlər”, addı “adlı”, abaddıx “abadlıq”, süddü “südlü” (Naxçıvan, Ordubad, Qazax, Çəmbərək, Meğri), şaddıx “şadlıq”, yaddar “yadlar”<özgələr, özgə adamlar (Çəmbərək, Meğri), süddi “südlü”, uddıx “odluq”, a^{o}dda^{ə}ma^{ə}x “adlamaq”, ya^{o}ddıx “yadlıq” (Meğri), addamax “adlamaq” (Çəmbərək) və s.*

pm>pp: *təppə “təpmə”<təpik (İraq).*

zl>zz: *qızzar “qızlar”, qazzar “qazlar” (Bakı), sözzəri “sözləri”, gözzə “gözlə”, qızzarı “qızları”, qızzıx “qızlıq”, təmizzerix′ “təmizləyirik”, ağızzıx “ağızlıq”, izziyəndə “izləyəndə” (Qazax), bizzər “bizlər”, gündüzzər “gündüzlər”, gözzərim “gözlərim”, ildızzar “ulduzlar”, təmizzə “təmizlə”, gözzi “gözlü”, gizzənir “gizlənir”, dizzix′ “dizlik” (Naxçıvan), gözzə “gözlə”, öküzzər “öküzlər” (Naxçıvan, Qazax), əzizzər “əzizlər”, mərəzzər “mərəzlər”,*

hələmizzər "hələmizlər"<qorxaqlar, şirbəzzər "şirbəzər"<yaltaqlar, xoruzzar "xoruzlar", bülməzzə "bilməzlər" (Təbriz) və s.

zd>zz: *yazzım "yazdım", yazzın "yazdın", yazdı^{i} "yazdı" (Quba), bizzə "bizdə", bizzən "bizdən", babamızza "babamızda", payızza "payızda", kağızzan "kağızdan", yazza "yazda", yazzan "yazdan", getməzzim "getməzdim" (Naxçıvan, Ordubad), qarpızzan "qarpızdan", öymüzzə "öyümüzdə" <evimizdə, dalımızza "dalımızda", Təbrizzə "Təbrizdə", bizzən "bizdən", qızzırma "qızdırma", duzzan "duzdan" (Qazax) və s.*

sl>ss: *pissix΄ "pislik", hissi "hisli" (Naxçıvan).*

sd>ss: *bassırsan "basdırsan", bassırellər "basdırırlar" (Qazax), pissi "pisdi", kəssi "kəsdi", əssi "əsdi", bassi "basdı" (Naxçıvan) və s.*

ld>ll: *alladan "aldadan" (Qazax, Çəmbərək), yallatmax "aldatmaq" (Çəmbərək), allatmax "aldatmaq" (Çəmbərək, Meğri), a^{o}lla^{ə}tıma^{ə}x "aldatmaq" (Meğri), allat "aldat" (Quba), yollaş "yoldaş", öllü "öldü", sıxıllı "sıxıldı", gəlli "gəldi", allım "aldım", sallım "saldım", yellə "yeldə", yellən "yeldən", dalla "dalda", ballı "baldır", balla "balda", ballan "baldan", qallı "qaldı" (Şəki) və s.*

td>tt: *attan "atdan", attın "atdın", axirəttə "axirətdə", bəzətti "bəzətdi"<bəzədi, sənətti "sənətdi", tükətti "tükətdi", uçurttu "uçurtdu", çıxarttılar "çıxartdılar", cənnəttə "cənnətdə" (İraq), söhbəttə "söhbətdə", döləttən "dövlətdən", kinəttən "kinətdən"<bitki adı, tuttu "tutdu", getti "getdi", ötti "ötdü", sattı "satdı" (Təbriz) və s.*

tl>tt: *attar "atlar" (Qazax), attı "atlı" (Qazax, İraq), dövlətti "dövlətli", qırttax "qırtlaq" (İraq) və s.*

st>ss: *gessin "getsin" (Meğri).*

nr>nn: *qısqannam "qısqanaram", qısqannıx "qısqanarıq", inannam "inanaram", inannıx "inanarıq" (Çəmbərək, Basarkeçər, İraq), minnix "minərik", sığınnam "sığınaram" (İraq) və s.*

Qeyd: İraq-türkman ləhcəsində qeyri-qəti gələcək zamanın I şəxsin təkində və cəmində sözün kökündəki n səsinin təsiri ilə şəkilçidəki r səsi n səsinə çevrilir və şəkilçinin tərkibindəki a və ya ə səsi düşür (İraq-türkman, 2004, s. 99). Belə bir fonetik xüsusiyyət Qərbi Azərbaycanın Çəmbərək, Meğri şivəsində də özünü göstərir: qaşınnam "qaşınaram", alınnam "alınaram", daşınnam "daşınaram", görünnəm "görünərəm", bölünnəm "bölünərəm" (Çəmbərək, Meğri), bölinna^{ə}m "bölünərəm" (Meğri).

şs>şş: *qardaşşız "qardaşsınız", yoldaşşız "yoldaşsınız", günəşşəŋ "günəşsən", dolaşşıŋ "dolaşsın", güləşşiŋ "güləşsin", gülüşşünnər "gülüşsünlər", almışşız "almışsınız", getmişşiz "getmişsiniz" (Borçalı) və s.*

Yarımçıq irəli assimilyasiya. Sözün kökünün son samit səsin artırılan şəkilçinin ilk samit səsə təsir edib başqa bir səsə çevirməsi yarımçıq irəli assimilyasiya adlanır.

çd>şd: *uşdu "uçdu" (Bakı, Quba, Naxçıvan, Ordubad, Qazax, Şəki, Təbriz, Çəmbərək), aşdı^{i} "açdı", qaşdı^{i} "qaçdı" (Quba), aşdi "açdı" (Şəki), qaşdı "qaçdı", keşdi "keçdi" (Naxçıvan, Ordubad, Qazax, Şəki, Təbriz, Çəmbərək), qəşdi "qaçdı" (Təbriz), aşdı "açdı", köşdü "köçdü" (Bakı, Quba, Qazax, Naxçıvan, Ordubad, Şəki, Təbriz, Çəmbərək), işdi "içdi", bişdi "biçdi", keşdi "keçdi" (Qazax, Təbriz, Şəki, Çəmbərək, Meğri), geşdi "keçdi" (Meğri) və s.*

zl>zd: *bizdər "bizlər" (Quba, Naxçıvan), duzdı^{i} "duzlu", düzduğ "düzlük" (İraq), üzdəri "üzləri" (Quba), gündüzdər "gündüzlər" (Quba, Şəki), xoruzdar "xoruzlar",*

isdəməzlər “istəməzdər”, haxsızdıx “haqsızlıq”, qozdu “qozlu”, öküzdər “öküzlər”, gözdə “gözlə” (Çəmbərək, Qazax, Şəki), otuzdux “otuzluq”, gözdüx′“gözlük”, gözdərəm “gözlərəm”, üzdü “üzlü”, təmizdə “təmizlə”, sözdəri “sözləri”, buynuzdu “buynuzlu” (Qazax, Gəncə, Çəmbərək, Basarkeçər), süzdər “sizlər”, üzdər “üzlər”, insafsızdığ “insafsızlıq” (Dərbənd), özdərinin “özlərinin”, murazdar “murazlar”<murad, niyyət, arzu (İraq), qızdar “qızlar” (Quba, Dərbənd, Qazax, Meğri, Çəmbərək, İraq), düzdər “düzlər” (Dərbənd, Meğri, Çəmbərək), dizdix′ “dizlik”, sizdix′ “sizlik” (Qazax, Gəncə, Çəmbərək, Basarkeçər, Meğri), sözdər “sözlər”, dizdəmə “dizləmə” (Naxçıvan), özdəri “özləri” (Naxçıvan, İraq, Meğri, Çəmbərək), aşvazdar “aşbazlar”, qızdıx “qızlıq”, gözdüx′ “gözlük”, buzdu “buzlu”, boğazdamax “boğazlamaq” (Borçalı, Çəmbərək), ucuzdamax “ucuzlamaq”, dərzdər “dərzlər” (Borçalı) və s.

tl>td: *atdı “atlı” (Qazax, Gəncə, Basarkeçər, Çəmbərək, Meğri), qatdama “qatlama”, atdandı “atlandı”, otdamax “otlamaq”, qüvvətdəndi “qüvvətləndi”, itdər “itlər” (Qazax, Gəncə, Basarkeçər, Çəmbərək), dövlətdi “dövlətli”, otdasın “otlasın”, otdux “otluq” (Naxçıvan, Çəmbərək, Meğri), bayatdılar “bayatlılar”, söhbətdər “söhbətlər”, qırtdax “qırtlaq” (İraq), otdamax “otlamaq”, itdər “itlər”, gıtdıx “qıtlıq”, bərəkətdi “bərəkətli”, məsləhətdi “məsləhətli” (Meğri, Çəmbərək), pa^{ə}rtdɑ^{ə}mɑ^{ə}x “partlamaq”, ça^{o}tdɑ^{ə}x “çatlaq”, ɑ^{ə}tdıx “ətlik” (Meğri), ətdix′ “ətlik”, kərəmətdi “kərəmətli”<mərd (Çəmbərək), səbətdər “səbətlər” (Naxçıvan, Təbriz, İraq Çəmbərək), sahatdar “saatlar”, ətdi “ətli”, atdanmax “atlanmaq” (Təbriz), cürətdi “cürətli”, kilitdi “kilitli”<qıfılla bağlı, satdıx “satlıq” (Borçalı, Çəmbərək), atdar “atlar”, itdər “itlər” (Təbriz, Çəmbərək, Borçalı), otdar “otlar” (Quba, Şəki, Dərbənd), quvatdı^{i} “qüvvətli”, qəzitdər “qəzetlər” (Quba), çatdamax “çatlamaq”, sakitdəş “sakitləş”, otdamax “otlamaq”, şiddətdi “şiddətli”, qiymətdər “qiymətlər” (Şəki), döylətdi “dövlətli”<varlı (Şəki, Dərbənd), dö:lətdi “dövlətli” (Quba, Dərbənd) və s.*

Qərbi Azərbaycanın Meğri şivələrində söz sonunda **d>t** səs əvəzlənməsində **t** səsi **l** səsinə təsir edərək onu **d** səsinə çevirir.Məsələn: savatdı//sa^{ə}va^{o}tdı “savadlı”, avatdıx “abadlıq”, a^{o}va^{ə}tdıx “abadlıq”, azatdıx “azadlıq”, Mıratdı “Muradlı”, ka^{ə}tdi “kəndli”, nuxıtdı “noxuddu”<noxudlu, qurtdı “qurdlu”, qutda^{ə}max “qurdlamaq” (Ə.Əliyev, 2003, s. 163).

pm>pb: *tapbaz “tapmaz”, köpbəz “köpməz”, çırpbax “çırpmaq” (Şəki), tapbaca “tapmaca”, tapbadı “tapmadı” (Qazax), qopbaz “qopmaz” (Qazax, Gəncə, Çəmbərək), tapba “tapma” (Meğri, Çəmbərək), ya^{o}pbɑ^{ə}x “yapmaq”, qa^{o}pbɑ^{ə}x “qapmaq”, ta^{o}pbɑ^{ə} “tapma”< əllə toxunan kobud yun parça növü (Meğri), qapbax “qapmaq” (Təbriz), səpbəx′ “səpmək”, yapbax “yapmaq”, tapbax “tapmaq” (Qazax, Gəncə, Təbriz, Çəmbərək, Meğri) və s.*

şl>şd: *işdədi “işlədi”, daşdı^{i} “daşlı”, daşduğ “daşlıq”, yuldaşduğ “yoldaşlıq”, beşduğ “beşlik” (Quba), əlverişdi “əlverişli”, işdə “işlə”, yağışdıx “yağışlıq”, qışdıx “qışlıq”, naxışdı “naxışlı” (Şəki), başda “başla”, işdə “işlə” (Quba, Şəki, Qazax, Çəmbərək), qardaşdıx “qardaşlıq” (Qazax, Borçalı, Çəmbərək), daşdar “daşlar”, yoldaşdar “yoldaşlar” (Qazax, Çəmbərək), quşdar “quşlar”, başdadı “başladı” (Quba, Dərbənd, İraq, Qazax, Təbriz, Çəmbərək, Meğri), qışdax “qışlaq” (Şəki, Qazax, Naxçıvan, Meğri), işdəmax//işdəməx′ “işləmək”, başdardıx “başlardıq”, başdayır “başlayır”, dişdərim “dişlərim” (Naxçıvan), başdıx “başlıq” (Naxçıvan, Çəmbərək, Meğri, Təbriz), bağışda “bağışla”, naxoşdux “naxoşluq”<xəstəlik (Naxçıvan, Çəmbərək, Meğri), quşdər “quşlar”, başdər “başlar”, qardaşdər “qardaşlar”, daşdər “daşlar”, işdər “işlər” (Dərbənd), başdandı “başlandı”, daşdığ “daşlıq”, işdiri “işləyir” (İraq), başdamax “başlamaq”,*

işdəməx “işləmək”, nəmişdix “nəmişlik”, dişdər “dişlər” (Meğri), yağışdıx “yağışlıq”, daşdıxda “daşlıqda”, döşdərdə “döşlərdə”<yamacda, təpədə, yaddaşdıx “yaddaşlıq” (Çəmbərək), lavaşdar “lavaşlar”, hələhuşdar, hələhuşlar<biclər, hiyləgərlər, döşdər “döşlər”, yemişdər “yemişlər”<meyvə qurusu, yaşdı “yaşlı”, daşdıx “daşlıq” (Təbriz), qaşdar “qaşlar”, daşdı “daşlı”, başdamax “başlamaq” (Borçalı, Çəmbərək) və s.

sl>sd: *səsdi “səsli” (Quba), səsdədi “səslədi” (Quba, Şəki, Qazax, Gəncə, Naxçıvan, Çəmbərək), namısdı “namuslu”, hirsdi “hirsli”< əsəbi (Şəki, Naxçıvan, Çəmbərək), pisdix´ “pislik” (Qazax, Çəmbərək), səsdər “səslər”, mirasdar “miraslar”, dosdar “dostlar” (Dərbənd), hisdi “hisli”, xırsdı “xirslı”<hirsli, tərsdix´ “tərslik” (Çəmbərək), vaisdıx “vaislik” < baislik, səsdəmək “səslənmək” (Borçalı) və s.*

ml>mn: *adamnar “adamlar” (Qazax, Şəki), damnar “damlar”, nizamna “nizamla”, şumna “şumla”, axşamna “axşamla”, davamnı “davamlı”, toxumnuyur “toxumlayır” (Şəki), bayramnıx “bayramlıq” (Qazax), badamnal “badamlar”, damnar “damlar”, üzümnər “üzümlər”, güzəmnər “güzəmlər”, bəlimnər “bəlimlər”<ot növü, kümnər “kümlər”<tövlələr (Təbriz) və* s.

md>mn: *xalamnan “xalamdan”, atamnan “atamdan”, yanımnan “yanımdan”, şamnan “şamdan” (Quba), duzumna “duzumda”, özümnə “özümdə”, damnan “damdan”, damna “damda”, kümnə “kümdə”, kələmnə “kələmdə”, balamnan “balamdan”, üzümnən “üzümdən”, kələmnən “kələmdən” (Şəki), axşamnan “axşamdan”, əlimnən “əlimdən”, işimnən “işimdən” (Qazax, Çəmbərək), damnan “damdan” (Quba, Qazax, Gəncə, Çəmbərək), adamnan “adamdan”, bağımnan “bağımdan”, barımnan “barımdan”, qollarımnan “qollarımdan”, yazdığımnan “yazdığımdan”, karımnan “karımdan”<arvadımdan, halımnan “halımdan” (İraq), xotmamnan “xotmamdan”<kiçik ot tayasından, peşəmnən “peşəmdən”, Qasımnan “Qasımdan”, uçurumnan “uçurumdan”, xamnan “xamdan”<istifadə olunmamış yerdən (Çəmbərək), ağamnan “ağamdan”, dayımnan “dayımdan”, dadaşımnan “dadaşımdan”, gözümnən “gözümdən” (Təbriz) və s.*

dl>td: *şatduğ “şadlıq” (Dərbənd*).

kd>kt: *böyükti “böyükdür”, dirəktən “dirəkdən”, əktim “əkdim”, işləkti “işləkdi”, Kərküktə “Kərkükdə”, kipriktən “kirpikdən”, köpükti “köpükdür”, kürkti “kürkdür”, küçükdi “kiçikdir”, sümükti “sümükdür”, töktüm “tökdüm”, çürükti “çürükdür” (İraq) və* s.

pd>pt: *iptən “ipdən”, küptə “küpdə”, səptim “səpdim”, taptar “tapdar”, taptun “tapdım” (İraq) və* s.

sd>st: *kəsti “kəsdi”, bastıracam “basdıracam”, küstüm “küsdüm”, məclistə “məclisdə” (İraq) və s.*

xd>xt: *alçaxtan “alçaqdan”, baxtım “baxdım”, yoxtı “yoxdur”, karıxtırdı “karıxdırdı”, çoxtan “çoxdan” (İraq) və* s.

hd>ht: *allahtan “allahdan”, dəryahtı “dəryahdı” (İraq) və* s.

Geri assimilyasiya

Sonrakı səsin əvvəlki səsə təsir edib öz məxrəcinə uyğunlaşdırması geri assimilyasiya adlanır. Geri assimilyasiyada iki fonetik hadisə baş verir:

1) hər hansı bir səs özündən əvvəl gələn səsi tamamilə öz məxrəcinə uyğunlaşdırır;

2) *hər hansı bir səs özündən əvvəl gələn səsi başqa bir səs çevirir.*

Hər hansı bir səsin özündən əvvəl gələn səsi tamamilə öz məxrəcinə uyğunlaşdırması nəticəsində yaranan geri assimilyasiya

rl<ll: *alıllar "alırlar" (Bakı, İraq), gəlillər "gəlirlər", bilillər "bilirlər" (Bakı), ülküdüllər "hürküdürlər", hörüllər "hörürlər", üydöllər "üyüdürlər", olollar "olorlar", görəllər "görərlər", tökəllər "tökərlər", diyəllər "deyərlər", yiyəllər "yeyərlər", vurallar "vurarlar" (Qazax), gidəllər "gedərlər", gətirəllər "gətirərlər", yandırallar "yandırarlar", örtəllər "örtərlər", qatallar "qatarlar" <qarışdırarlar (Quba), dĭ yillər "deyirlər", döyüllər "döyürlər", qazıllar "qazırlar", düşəllər "düşərlər" (Şəki), alallar "alarlar" (Quba, Şəki), tutullar "tuturlar", sancıllar "sancırlar", qazıllardı "qazırlardı", içəllər "içərlər", buraxmıllar "buraxmırlar" (Qazax, Çəmbərək), oturallar "oturarlar", geyəllər "geyərlər", yandırıllar "yandırırlar", qalıllar "qalırlar", tikillər "tikirlər", çalıllar "çalırlar", əkillər "əkirlər" (Naxçıvan, Ordubad), qəynədillər "qaynadırlar" (Naxçıvan), qavrıllar "qovururlar" (Ordubad), yatılla "yatırlar", alılla "alırlar", qayıdılla "qayıdırlar", deyillə "deyirlər, yiyillər "yeyirlər", satıllar "satırlar" (Dərbənd), açallar "açarlar", açıllar "açırlar", baxallar "baxırlar", qəynədillər "qaynadırlar", eşidillər "eşidirlər", istəllər "istəyərlər", oxşıllar "oxşayırlar", tanıllar "tanıyarlar", sərəllər "sərərlər", tikəllər "tikərlər", hörəllər "hörərlər" (İraq), verillə "verirlər", köçüllə "köçürlər", qorxulla "qorxurlar", aparılla "aparırlar", batırılla "batırırlar", tutulla "tuturlar", qoyulla "qoyurlar", dəyellər "dəyərlər" (Meğri), suçulallar "suçularlar"<içərlər, əkellər "əkərlər", üydöllər "üyüdərlər", yatellər "yatarlar", qurollar "qurarlar", üzöllər "üzərlər", görellər "görərlər" (Çəmbərək), alılla "alırlar", qalxılla "qalxırlar", tərpəşillə "tərpəşirlər", olulla "olurlar", gülüllə "gülürlər", çıxalla "çıxarlar", aparalla "apararlar", çiməllə "çimərlər", yetişəllə "yetişərlər" (Təbriz) və s.*

nm<mm: *mimmeg "minmək", sımmış "sınmış" (Bakı), dimməz "dinməz", bilimməz "bilinməz" (Quba), bəyəmmədi "bəyənmədi", dömmə "dönmə", mimmisən "minmisən", qazammıram "qazanmıram", inamma "inanma", yammır "yanmır", dolammax "dolanmaq" (Şəki), dimmir "dinmir" (Şəki, Dərbənd, Çəmbərək), dimmə "dinmə", bəyəmmir "bəyənmir", qazammışam "qazanmışam", alımmadı "alınmadı", görümməz "görünməz", bəzəmməx′ "bəzənmək" (Qazax, Gəncə, Çəmbərək), qammaz "qanmaz" (Quba, Şəki, Naxçıvan, Quba, Ordubad, Gəncə, Qazax, Çəmbərək, Meğri), mimmax//mimməx′ "minmək", dilləmməx′ "dillənmək", diskimməx′ "diskinmək", tüsümməx′ "düşünmək", tərpəmməz "tərpənməz" (Naxçıvan, Çəmbərək), dolammax "dolanmaq" (Naxçıvan, Meğri, Çəmbərək), yammaz "yanmaz", mimməz "minməz" (Quba, Naxçıvan, Ordubad), inammır "inanmır", qammır "qanmır" (Dərbənd, Çəmbərək), otammaz "utanmaz", uta^{ə}mma^{ə}z "utanmaz", qərədimməz "qaradinməz", tərpəmməx "tərpənmək", da^{o}mma^{ə}x "danmaq", üşqımma^{ə}x "üsqınmaq"<tez-tez tərpənib başqa yerə getmək, mimma^{ə}x "minmək", simma^{ə}x "sınmaq", yemməx "yenmək"<fikrindən dönmək (Meğri), yammaz "yanmaz", dolammır "dolanmır", düzdəmmir "düzlənmir" (Çəmbərək), dimmədi "dinmədi", dammadı "danmadı", "yammadı "yanmadı", bürümmədi "bürünmədi", summadı "sınmadı"<məğlub olmadı (Təbriz) və s.*

nl<ll: *ollar "onlar" (Naxçıvan, Çəmbərək), bıllar "bunlar" (Naxçıvan), bullar "bunlar" (Çəmbərək, Meğri), bulla "bunlar" (Meğri) və s.*

ls<ss: *ossun "olsun" (Qazax, Naxçıvan, İraq), ossa "olsa" (Qazax, Dərbənd, İraq), össəm "ölsəm" (Dərbənd, İraq), qassam "qalsam" (Dərbənd, İraq), əğıssız "ağılsız" (Meğri), assax "alsaq", assa "alsa", assun "alsın", qassın "qalsın", kəssəm "gəlsəm", kəsseydix "gəlsə idik", kəssinnər "gəlsinlər", assaydı "alsa idi" (İraq) və s.*

zc<cc: *teccə "tezcə", düccə "düzcə" (Qazax, Gəncə, Çəmbərək), acca "azca", dalımıcca "dalımızca" (Çəmbərək, Meğri), a^{o}ccə "azca", da^{o}lımıcca "dalımızca" (Meğri) və s.*

tç<çç: *nö:məççi//nö:bəççi "növbətçi (Şəki), cüççiyəm "cütçüyəm" (Naxçıvan) və s.*

dç<çç: *kəççi "kəndçi" (Şəki, Qazax, Naxçıvan, Çəmbərək), yurççu "yurdçü", qurççu "qurdçu" (Qazax) və s.*

şç<çç: *daççı "daşçı" (Qazax), iççi "işçi" (Qazax, Naxçıvan), baççı "başçı" (Qazax, Çəmbərək, Meğri), ba^{o}ççi "başçı", ya^{o}veççə "yavaşca", iççil "işcil" (Meğri), comuççulux "comuşculuq"<camışçılıq (Çəmbərək).*

ds<ss: *assız "adsız", savassız "savadsız" (Qazax, Çəmbərək), ossuz "odsuz" (Qazax), dassız "dadsız" (Bakı, Qazax, Çəmbərək*) və s.

tk<kg: *ökgün "ötkün*" *(Şəki).*

şç<çc: *quçci "quşçu", içci "işçi" (Bakı).*

zç<çç: *qarpıççı "qarpızçı" (Naxçıvan).*

zs<ss: *bilməssən "bilməzsən" (Bakı, Quba, Şəki, Qazax, Gəncə), görmessen "görməzsən" (Bakı), yazmassuz "yazmazsınız", yiməssən "yeməzsən", yiməssüz "yeməzsiniz", gidməssən "getməzsən", gidməssüz "getməzsiniz", yassam "yazsam" (Quba), təmissə "təmizsə", çatmassan "çatmazsan", durmassan "durmazsan" (Şəki), yazmassan "yazmazsan", oxumassan "oxumazsan" (Quba, Şəki), qoymassan "qoymazsan", dussuz "duzsuz", sissiz "sizsiz", üssilən "üzsilən" (Qazax, Gəncə), yassın "yazsın" (Naxçıvan), ayırmassan "ayırmazsan", bilməssən "bilməzsən", görməssən "görməzsən", sormassan "sormazsan", üssüz "üzsüz" (İraq, Çəmbərək), yemma^{ə}ssa^{ə}n "enməzsən", getma^{ə}ssa^{ə}n "getməzsən", a^{ə}ssın "əzsin", dussuz "duzsuz" (Meğri), gössüz "gözsüz", sassız "sazsız", qassınnar "qazsınlar" (Çəmbərək), buynussuz "buynuzsuz" (Şəki, Çəmbərək) və s.*

çs<şs: *qaşsax "qaçsaq", aşsa "açsa", işsə "içsə" (Qazax, Gəncə) və s.*

cs<ss: *arğassız "arğacsız"<xalçaçılıqda istifadə edilən ip, ələssiz "əlacsız", güssüz "gücsüz", sassız "sacsız", vessiz "vecsiz"<bacarıqsız (Çəmbərək) və s.*

şs<ss: *çissiz "dişsiz" (Qazax), issiz "işsiz" (Qazax, Çəmbərək), dissiz "dişsiz", bassız "başsız", dössüz "döşsüz", assız "aşsız", tikissiz "tikişsiz" (Çəmbərək) və s.*

ts<ss: *gessə "getsə" (Bakı), gissəm "getsəm", gissə "getsə" (Quba), yassın "yatsın", issən "itsən", gessax "getsək", bərəkəssiz "bərəkətsiz", sənəssiz "sənətsiz", üşüssə "üşütsə" (Şəki), urvassız "urvatsız"<hörmətsiz, tussa "tutsa " (Şəki, Çəmbərək), gessəm "getsəm", pissin "bitsin", eşissə "eşitsə", yassın "yatsın", ossuz "otsuz", oynassın "oynatsın", ağlassın "ağlatsın" (Qazax, Gəncə), bassın "batsın" (Qazax, Şəki), gessən "getsən" (Naxçıvan), gissin "getsin" (Dərbənd), gessin "getsin", eşissin "eşitsin", bassın "batsın", tussa "tutsa" (Çəmbərək, Meğri), yessin "yetsin", a^{o}ssın "atsın", yassın "yatsın", sassa "satsa" (Meğri), bərəkəssiz "bərəkətsiz", məlyəssiz "məlyətsiz"<keyfiyyətsiz, qıryassız "qiryətsiz" < namussuz, ossuz "otsuz", gessiŋ "getsin" (Çəmbərək) və s.*

Hər hansı bir səsin özündən əvvəl gələn səsi başqa bir səsə çevirməsi nəticəsində yaranan geri assimilyasiya

zc<çc: *yüççə "yüzcə", açca "azca", qıçcığaz "qızcığaz" (Bakı), əʤətimiççə "adətimizcə", Nohruççax "Nohuruzcaq"<Novruz qədər (Çəmbərək) və s.*

nb<mb: *məmbər "mənbər", cambaz "canbaz" (İraq).*

tc<çc: *hörməççil "hörmətcil", çüççü "cütçü" (Çəmbərək).*

şc<çc: *işçcil "işcil", qarğıççıl "qarğışcıl", yuaçca "yavaşca" (Çəmbərək).*

xd<td: *qortdum "qorxdum", qırtdı "qırxdı", qaltdı "qalxdı" (Çəmbərək) və s.*

DİSSİMİLYASİYA

Dialekt və şivələrdəki fonetik hadisələrdən biri də dissimilyasiya hadisəsidir. Danışıq zamanı söz kökündə eyni və ya yaxın məxrəcdə olan səslərdən birinin digərinə təsir edərək başqa səsə çevirməsinə dissimilyasiya deyilir. Bu vaxt nitqdə səslərdən biri əvvəlki məxrəcdən uzaqlaşıb başqa bir səs keyfiyyəti qazanır. Dissimilyasiya samit səsin samit səs təsir etməsi nəticəsində baş verir. Azərbaycan dilinin şivələrində dissimilyasiya özünü göstərsə də, assimilyasiyadan fərqli olaraq geniş yayılmamışdır. Şivələrimizdə dissimilyasiyanın iki növünə rast gəlinir:

1) irəli dissimilyasiya
2) geri dissimilyasiya

İrəli dissimilyasiya. Söz kökündəki samitn biri ozündən sonra gələn samitə təsir edərək başqa bir səsə çevirməsinə irəli dissimilyasiya deyilir. Bunu aşağıdakı nümunələrdə görmək olar.

r>l: *qərəl "qərar" (Bakı, Qazax, Şəki), qəral "qərar" (Bakı, İraq, Şəki, Naxçıvan, Ordubad, Meğri, Quba, Qazax), mırdal "murdar" (Quba, Şəki, Qazax), incil "əncir" (Quba), Ərzulum "Ərzurum" (Qazax), iğral "iqrar", zəryal "zərgər" (Şəki), zəral "zərər" (Naxçıvan, Ordubad), zarəl "zərər", paltal "paltar", xıncal "xəncər" (Dərbənd), xəncəl "xəncər" (Quba, Dərbənd, Meğri, Çəmbərək), əncil "əncir" (Quba, Dərbənd, Çəmbərək), zərəl "zərər" (Bakı, Şəki, Təbriz, Naxçıvan, Ordubad, Quba, Qazax, Dərbənd, Meğri, Çəmbərək), pərgal "pərgar"<iş bilən, bacarıqlı (Şəki, İraq, Çəmbərək), qurtal "qurtar" (Quba, İraq), qəraldat "qərardat", qurtalmax "qurtarmaq" (Təbriz), aparalmış "apararmış", Erzulum "Erzurum"<Ərzurum, qaral "qərar" (Borçalı), zaral "zərər" (Qazax, Borçalı), həralat "hərarət", qürul "qürur",* $qa^{ə}ra^{o}l$ *"qərar",* $za^{ə}ra^{o}l$ *"zərər", xançal//*$xənca^{ə}l$ *"xəncər" (Meğri) və s.*

n>r: *qanur "qanun" (Bakı, Naxçıvan).*

m>b: *amba "amma" (Çəmbərək), əmbə "amma" (Çəmbərək, Borçalı).*

n>l: *fantal "fantan" (Bakı, Quba, Qazax, Naxçıvan, Ordubad).*

Geri dissimilyasiya. Söz kökündəki samitn biri ozündən əvvəl gələn samitə təsir edərək başqa bir səsə çevirir ki, bu da geri dissimilyasiya adlanır. Bunu aşağıdakı nümunələrdə görmək olar.

r<l: bilqadır "briqadir" (Quba), ülkər "hürkər" (Qazax), sirkələ "silkələ" (İraq, Çəmbərək), çarxala "çalxala" (İraq), çalvadar//$ça^{o}lva^{ə}da^{o}r$ "çarvadar" (Meğri).

Azərbaycan dili şivələrində geri dissimilyasiya geniş yayılmamışdır.

SƏS ARTIMI

Səs artımı ümumi dilçilikdə proteza termini ilə ifadə olunur. Səs artımı fonetik hadisə kimi şivələrimizdə geniş yayılmışdır. Tələffüzü asanlaşdırmaq üçün sözün əvvəlinə müəyyən bir səsin artırılmasına səs artımı deyilir. Səs artımı dilimizin fonetik xüsusiyyətləri ilə bağlıdır. Azərbaycan dili şivələrində səs artımı iki formada özünü göstərir.

1. Sait artımı
2. Samit artımı

Sait artımı. Azərbaycan dili şivələrində alınma sözlərdə sait artımı özünü göstərir. Şivələrimizdə sait artımına sözün əvvəlində və ortasında rast gəlinir.

Sözün əvvəlində sait artımı

i səsinin artırılması: *işkaf "şkaf" (Bakı, Qazax, Çəmbərək), işqalat "şokolad", irəd "rəd", irəcbər "rəncbər", irast "rast" (Bakı, Quba), irəng "rəng", İrza "Rza" (Bakı, Quba, Naxçıvan, Ordubad, Borçalı), ispird "spirt", isgan "stəkan" (Quba), ispirt "spirt" (Bakı, Quba, Təbriz), irişğənd "rişğənd"<istehza, irecbər "rəncbər", iriz "riz"<iz (Quba), iras "rast" (Naxçıvan, Şəki, Təbriz), ira:zı "razı", İrəşxəndə "Rəşxəndə", ire:han "reyhan"<bitki adı, İrəcəf "Rəcəb", irişqənd "rişxənd"<tənə, istehza (Şəki), irəhmət "rəhmət", İrəmazan "Ramazan" (Bakı, Quba, Şəki), İstara "Sitarə", issol "stol", işana "şana" (Qazax), irazı "razı" (Qazax, Naxçıvan, Dərbənd, Təbriz, Meğri, Borçalı, Çəmbərək), irəf "rəf" (Naxçıvan, Dərbənd), ireng "rəng", işgəf "şkaf" (Dərbənd), isbirit "spirt", irafdar "rəftar", isdaj "staj", irəyyət "rəiyət", İramazan "Ramazan", İramiz "Ramiz", irəyis "rəis" (Meğri), ireyhan "reyhan"<bitki adı (Bakı, Quba, Naxçıvan, Ordubad, Meğri), irəndə "rəndə"<dülgər aləti (Şəki, Naxçıvan, Meğri, Çəmbərək), irahat "rahat", İrəhim "Rəhim" (Şəki, Çəmbərək, Meğri), isdol "stol" (Qazax, Naxçıvan, Ordubad, Dərbənd, Meğri, Çəmbərək), istol "stol", istaj "staj", isdansiya ""stansiya", işqaf//işqab//işqap "şkaf" (Naxçıvan, Ordubad), irazılıx "razılıq", irəyon "rayon", irəsmi "rəsmi", irəşbər "rəncbər" (Naxçıvan), irezin "rezin", irayon "rayon" (Naxçıvan, Meğri), istəkan "stəkan" (Qazax, Naxçıvan, Ordubad, Çəmbərək), istikan "stəkan" (Qazax, Naxçıvan, Ordubad, Dərbənd, Təbriz, İraq, Meğri, Çəmbərək), istakan "stəkan" (İraq, Zəngibasar), iskan "stəkan" (Bakı, Quba, Naxçıvan, Ordubad, İraq), israğıgün "srağagün", israğıcün "srağagün" (İraq), irahat "rahat" (Təbriz, Dərbənd), israğagün "srağagün", işqaf "şkaf", irəx' "rəng", irahat "rahat", İrəmazan "Ramazan", İrahim "Rahim", İreyhan "Reyhan" (Təbriz), irazı "razı", irəva "rəva" (Təbriz, Meğri), irəfdar "rəfdar" (Bakı, Quba, Şəki, Təbriz Çəmbərək), irəhbər "rəhbər", İrəşit "Rəşid", İrəsil "Rəsul", isdəkan//isdikan "stəkan" (Çəmbərək, Meğri), irəvan "rəvan"<düz (Borçalı) və s.*

Qeyd: Naxçıvan MR-in Şahbuz rayonun Kolanı kənd şivəsində ş səsindən əvvəl i saitinin artırılmasına bir sözdə - şənbə sözündə rast gəlinir: işəmbə "şənbə" (bax. Naxçıvan qrupu şivələri, 1962, s.37)

ı səsinin artırılması: *ırazı "razı", Irza "Rza", ışqaf "şkaf", ırayon "rayon", ırasd "rast", ırabitə "rabitə" (Çəmbərək, Karvansaray) və s.*

a səsinin artırılması: *astansiya "stansiya" (Qazax, Dərbənd).*

u səsinin artırılması: *usumuz "suyumuz", usunuz "suyunuz" (Borçalı-Dmanisi), usdul "stul" (Quba, Şəki, Meğri), urus "rus"<xalq (Bakı, Dərbənd, Quba, Naxçıvan, Şəki, Meğri), ustol "stol", usdadım "susadım" (Qazax), ustul "stol" (Bakı, Dərbənd), uruzu "ruzi" (Dərbənd), urıs "rus", uruf "ruh", urzu "ruzi" (Meğri), ussil "stul" (Naxçıvan), Urbaba "Rübabə", uruzgar "ruzigar" (Naxçıvan), ussu "su", usı "su" (İraq), uruh "ruh" (Şəki, Naxçıvan, Meğri, Çəmbərək, Borçalı), usdol "stol" (Çəmbərək, Karvansaray), usu "su" (Bakı, İraq, Çəmbərək, Karvansaray), Urusdam "Rüstəm" (Çəmbərək) və s.*

ü səsinin artırılması: *ürüsvay "rüsvay" (Şəki), Ürbaba "Rübabə" (Şəki, Meğri), ürüşvət "rüşvət", üçünki "çünki", ürüşeym "rüşeym", ürütbə "rütbə",*

(Çəmbərək,Karvansaray), ürüzgar "rüzigar" (Şəki, Meğri, Çəmbərək).

Sözün ortasında sait artımı

Söz ortasında sait artımı fonetik hadisəsi şivələrimizdə bir o qədər geniş yayılmamışdır. Sözün ortasında sait artımı sonor samitlərin iştirak etdiyi sözlərdə baş verir.

i səsinin artırılması: *xeyir "xeyr" (Quba), ilim "elm", pilan "plan", vedirə "vedrə", əmir "əmr", hərif "hərf" (Şəki), bilan "plan" (Şəki, Qazax), cinis "cins", avanis "avans" (Qazax), altimiş "altmış", yimişağ "yumşaq", mitir "metr", dövir "dövr", yemimeg "yenmək" (Dərbənd), metir "metr" (Naxçıvan, Ordubad, Təbriz, Dərbənd, Çəmbərək), nəfit "neft", litir "litr" (Naxçıvan), pilov "plov" (Naxçıvan, Şəki), dəris "dərs", ilik "ilk", əhit "əhd", gedərikən "gedərkən", kiriminci "iyirminci" (İraq), töyilə "tövlə", nəşir "nəşr", sehir "sehr", seyir "seyr", rəzim "rəzm"<dava, mətirəh "mətrəh"<müzakirə olunan, qətil "qətl", mehir "mehr", giram "gram"<qram (Təbriz), rəsim "rəsm" (Təbriz, İraq), ciŋis "cins", cilit "cild", səmit "səmt", metirə "metr", cəvir "cəbr" (Çəmbərək) və s.*

Bununla yanaşı, sözün ortasında **i** saitinin artırılması sonor samitlər iştirak etmədiyi sözlərdə də müşahidə olunur. Məsələn: *qəbiz "qəbz" (Naxçıvan), qəsit "qəsd" (Çəmbərək).*

u səsinin artırılması: *çadura "çadra" (Quba), qoruxmax "qorxmaq", turuş "turş", quluflu "qulplu" < qazan, (Qazax), qulup "qulp", qomuşu "qonşu" (Dərbənd), zulum "zülm" (Dərbənd, Təbriz, Çəmbərək), turup "turp", yumurux "yumruq", yumuşax "yumşaq" (Təbriz, Çəmbərək) və s.*

ü səsinin artırılması: *mücürü "mücrü", Gülüzar "Gülzar" (Şəki), ülükdü "hürkdü", kürük "kürk" (Qazax), zülüm "zülm" (Dərbənd, Çəmbərək), ütürü "ötrü", nöyüt "neft", dövüründə "dövründə", hərüf "hərf" (Dərbənd), bürüyan "büryan"<yanan, bülüh "blüh"<səfeh, bürüc "bürc", tüğüyan "tüğyan" (Təbriz), hököm "hökm" (Təbriz, Çəmbərək), Gülüsüm "Gülsüm" (Şəki, Çəmbərək), ötürü "ötrü" (Qazax, Çəmbərək) və s.*

a səsinin artırılması: *zulamat "zülmət" (Şəki), daravaza "darvaza", qarabat "kravat"<çarpayı (Qazax), xarac "xərc" (Şəki, Qazax), talavar "talvar" (Naxçıvan), dayaza "dayza"< dayı arvadı, sapasağ "sapsağ" < sağlam (İraq) və s.*

ı səsinin artırılması: *qırıx "qırx", qalıxdı "qalxdı" (Qazax), çayıçı "çayçı", altımış "altmış", qorıxdım "qorxdum", qorıxdı "qorxdu", qorıxma "qorxma", satılıq "satlıq" (İraq), cıŋıs "cins", vaxıt "vaxt" (Çəmbərək, Karvansaray, Amasiya), savır "səbr", qatıran "qatran" (Çəmbərək, Karvansaray) və s.*

ə səsinin artırılması: *ədəva "ədva", dəsəmal "dəsmal", güləmeg "gülmək" (Dərbənd), gələmə "gəlmə", kələmə "kəlmə" (Təbriz), ötəri "ötrü" (Təbriz, Çəmbərək), cürəbəcür "cürbəcür" (Təbriz, Çəmbərək), üzərə "üzrə", fəhəm "fəhm" (Çəmbərək) və s.*

Sözün sonunda sait artımı

Şivələrimizdə söz sonunda sait artımı geniş yayılmamışdır və az təsadüf edilir.

i saitinin artırılması: *balqabaği "balqabaq", hami "həm" <bağlayıcı (Quba), həmi "həm"<bağlayıcı (Şəki, Təbriz, Çəmbərək), qədəri "qədər", lakini "lakin" (İraq) və s.*

ə saitinin artırılması: *əgənə "əgər" (Quba, Dərbənd), qəfəsə "qəfəs" (Şəki), qədərə "qədər" (Şəki, Qazax), metrə "metr" (Şəki, İraq, Çəmbərək), bəndəmə "bəndəm", egənə*

“əgər” (Dərbənd), dökməcə “döyməc”, titrəkə “titrək”, təkə-bir “təkbir”, təkə-tük “tək-tük”, təəccübə “təəccüb” (İraq), qəribə “qərib”, gilayə “giley”, dizə “diz” (Təbriz), metirə “metr”, ilkinə “ilkin” (Çəmbərək) və s.

u saitinin artırılması: *hamu “həm”< bağlayıcı (Quba), alandau “alanda”, aparandau “aparanda”, seçəndau “seçəndə”, çağırandau “çağıranda”, çalandau “çalanda” (İraq) və s.*

a səsinin artırılması: *qabağa “qabaq” (Dərbənd), lavaşa “lavaş”, nəbza “nəbz”, diploma “diplom” (İraq), ala “al”, majala “macal”, qançıra “qançır” (Çəmbərək) və s.*

ü səsinin artırılması: *bir günü “bir gün” (Şəki) və s.*

Samit artımı. Azərbaycan dili şivələrində səs artımının ikinci forması samitlərdə özünü göstərir. Bu, samit artımı adlanır. Şivələrimizdə samit artımına sözün əvvəlində, ortasında və axırında rast gəlinir.

Sözün əvvəlində samit artımı

Sözün əvvəlində samit artımı **h** və **y** samitlərində müşahidə olunur.

h samitinin artırılması: *haraba//hərəbə “araba”, həçər//həçar “açar”, hançağ “ancaq”, hülmeg “ilmək” (Quba), hasand “asan” (Quba, Qazax, Naxçıvan, Çəmbərək), harava “araba” (Quba, Qazax, Gəncə, Borçalı, Çəmbərək), ho “o”, hora “ora”, horda “orda”, holar “olar”<onlar, halçə “alça”, haçər “açar”, hağıl “ağıl”, hama “amma” (Şəki), həlbət “əlbəttə” (Qazax, Şəki), hindi “indi” (Quba, Dərbənd, Şəki, Təbriz), hasa “əsa” (Qazax, Şəki, Çəmbərək), horax “oraq” (Qazax, Borçalı), hasan “asan”, həlbətdə “əlbəttə”, həylə “elə”, heylə “elə” (Naxçıvan), hona “ona”, honi “onu”, honda “onda”, hondan “ondan” (Zaqatala, Qax), hələsi “eləsi”, hələ “elə”, honı “onu”, hövəlüg “əvəlik” (Dərbənd), hayıb “ayıb”<eyib (Quba, Dərbənd), halav “alov”, haluca “alça”, heywan “eyvan”, həriştə “əriştə”, hodun “odun” (İraq), hambar “ambar”<*anbar *(Təbriz), haçar “açar” (Quba, Qazax, Naxçıvan, Şəki, Təbriz, Çəmbərək), ha^{ə}*sa^{o} *“əsa”, həylə “elə”, həylənçi “elənçi”<elə, həgər “əgər”, ha^{ə}*la^{o}*y “alay”, ha^{ə}*mma^{ə} *“amma” (Meğri), həlbəttə “əlbəttə” (Naxçıvan, Meğri), hasat “asan” (Naxçıvan, Çəmbərək), hoyrux “oyruq”, həvəçi “əvəçi”, höykəşməx' “öykəşmək” (Çəmbərək), həlvət “əlbəttə” (Borçalı, Çəmbərək) və s.*

y samitinin artırılması. Sözün əvvəlində **y** samitinin artırılması Azərbaycan dilinin şimal qrupu şivələri, xüsusilə də Zaqatala–Qax şivələri üçün xarakterikdir. Bununla belə sözün əvvəlində **y** samitin artılması fonetik hadisəsinə digər şivələrimizdə də rast gəlinir. Məsələn: *yıldırım//yuldurum “ildırım”, yülgüc “ülgüc”, yüzəngi “üzəngi”, yüzməx' “üzmək”, yüzük//yüzüg “üzük”, yurag “ürək”, (Zaqatala), yil “il” (Quba, Dərbənd, İraq, Zaqatala, Qax), yuca “uca” (Zaqatala, İraq, Ayrım), yılxı “ilxı” (Qazax, Qax), yiri “iri” (Şəki, Zaqatala), yugna “iynə”, yütü “ütü”, yüzüm “üzüm” (Qax), yıl “il” (Naxçıvan, Dərbənd), yıldız “ulduz” (Qazax, Zaqatala, Qax, İraq), yaloy “alov” (Qazax, Çəmbərək), yigit “igid” (Şəki, İraq), yendirməx' “endirmək”<saymaq (Naxçıvan, Qarabağ), yalo: “alov”, yitələmağ “itələmək” (Quba), yallatmax “aldatmaq” (Qazax, Çəmbərək), yesir “əsir” (Quba, Qazax, Şəki, Zaqatala, Çəmbərək, Meğri), yürəx'li “ürəkli”<igid, qoçaq (Qazax), yəlo: “alov” (Quba, Şəki), yeniş “eniş” (Naxçıvan, Ordubad, Təbriz, Meğri, Gədəbəy), yendir “endir”, yüzüx' “üzük” (Təbriz), yüz “üz” (Quba, Dərbənd, Zaqatala, Qax, İraq, Meğri), yalov “alov” (Dərbənd, Zaqatala), yürəg “ürək” (Dərbənd), yaxta “axta”, yücə “uca”, yegit “igid”, yev*

“ev”, yılxı “ilxı”, yürək “ürək” (Qax, İraq), yığval “iqbal”<bəxt (Qazax, Çəmbərək), yolov//yəlov “alov”, yürex' “ürək”, yudqımma^{ə}x “udqunmaq”, yemməx “enmək”, yüyitma^{ə}x “üyütmək” (Meğri), yürək “ürək”, yilxı “ilxı”, yildirim “ildirim”, yığlamax “yağlamaq”, yulquc “ülgüc”, yüzüq “üzük”, yalov “alov” (Qax), yürəx' “ürək”, yaloy “alov” (Gədəbəy), yulduz “ulduz” (Gədəbəy, Qax) və s.

Müasir Azərbaycan dilində söz əvvəlində **y** samiti ilə işlənməyən bir çox söz türk dillərinin qədim yazılı abidələrində **y** səsi ilə işlənmişdir. Buna V.V.Radlovun “Опыт словаря тюркских наречий” adlı lüğətində (yan, yandır, yılxı, yılxıçı), İbn-Mühənnada (yigit, yigirmi, yiqma, yiqna) rast gəlinir. B.Çobanzadə M.F.Axundovun əsərlərində bu qəbildən olan sözlərin **y** səsi ilə işləndiyini göstərir və nümunə kimi yüz, yılxı, yürək, yıl, yüca, yulduz sözlərini göstərir (İraq-türkman, 2004, s.91). Eyni zamanda V.V.Radolov **yen, yendir** sözlərinin Azərbaycan dilinə məxsus olduğunu göstərir (В.В.Радлов, т. III, ч. I, 1905,s.329-330).

r samitinin artırılması: *riz “iz” (Dərbənd).*

b samitinin artırılması: *balbalı “albalı” (Çəmbərək).*

Sözün ortasında samit artımı

Azərbaycan dili şivələrində sözün ortasında samit artımı geniş yayılmamışdır. Söz ortasında samit artımı fonetik hadisəsi **h, y, n, g, d, t, b** samitlərdə özünü göstərir.

h samitinin artırılması: *məhəllim “mə:llim”<müəllim” (Quba), cəməhət “camaat” (Naxçıvan), təhni “tənə”, mahna “məna” (Dərbənd), kəhkül “kəükül”<kəkil, tel, saç (İraq), nəhlət “lənət” (İraq, Çəmbərək, Meğri), qənəhət “qənə:t”<qənaət, ehtiyac üçün saxlanılan şey (Qazax), dəhvən “dəfə” (Təbriz), camahat “camaat” (Quba, Qazax, Şəki, Naxçıvan, Təbriz, Dərbənd, İraq, Çəmbərək), sahat “saat” (Qazax, Şəki, Naxçıvan, Ordubad, Təbriz, Dərbənd, İraq, Çəmbərək, Meğri), sa^{o}ha^{o}t “saat”, ehdina^{o} “etina”, məhlim “məlum”, ehdira^{o}z “etiraz”, qa^{ə}na^{o}ha^{ə}t “qənaət” (Meğri) və s.*

y samitinin artırılması: *başyağ “başaq”, zəyif “zəif” (Quba), şöybə “şöbə”, dayır “dair”, tiyatur//tiyatır “teatr”, döyşəmə “döşəmə”, döyşəyüzü “döşək üzü” (Qazax), zayıf “zəif” (Qazax, Quba), beysavad “bisavad”, beynamus “binamus”, beyxavar “bixəbər” (Qazax, Çəmbərək), ayid “aid”, zayif “zəif”, sı̆yirğa “sırğa”<tənə, qulağa taxılan bəzək əşyası (Şəki), şayir “şair” (Quba, Qazax, Naxçıvan), biyavır “biabr” (Şəki, Çəmbərək), dayva “dava”, yayxalamax “yaxalamaq” (Naxçıvan), eylə “elə”, quzuyəkə “quzu”, ev üyçün “ev üçün” (İraq), ziynət “zinət”, seygah “segah” (İraq, Çəmbərək), təqayit “təqaüd”, vağıya “vaqiə”<yuxu, bayıs “bais”<səbəbkar, biyabır “biabr”, nayillaş “naəlac”, hayla “elə”, həylənçi “elənçi”<elə, eyləməx “eləmək” (Meğri), həmeyşə “həmişə”, eylə “elə”, heysav “hesab”, Naziylə “Nazilə”, Həmiydə “Həmidə”, Cəmiylə “Cəmilə”, döyşür “döşur”, mayna “məna” (Çəmbərək, Karvansaray) və s.*

Qeyd: S.E.Malovun “Памятник древнетюркской писменности” əsərində qədim uyğur sözü olan yayqal “çalxalanmaq”, yırğalanmaq, tərpənmək” mənasında işlənir. M.Kaşğaridə də yayxalamax, yayqalamaq formasında “çalxalanmaq” mənasında işlənir (Naxçıvan qrupu şivələri, 1962, s.56),

n samitinin artırılması: *zirəng “zirək”<qoçaq, bacarıqlı (Quba), turanc “turac” (Qazax), balanca “balaca” (Qazax, Borçalı, Çəmbərək), müxəng “mixək”, kilind*

“kilid”<qıfıl (Şəki), qovang “qovaq” (Dərbənd), dingirlənir “diyirlənir”, nanca “naca”<necə, nanqış “naqış”<naxış, yüzgünçü//üzgünçü “üzgüçü” (İraq), qənddar “qəddar”, qula^{o}nç “qulac”, firsant “fürsət” (Meğri), eləncə “eləcə”, arxanc “arxac”, beləncə “beləcə” (Çəmbərək) və s.

q samitinin artırılması: *başqaltı “başaltı” (Şəki), calqax “calaq” (Naxçıvan, Meğri), maşqal “məşəl”, qısqa “qısa”<gödək, çakquş “çəkic” (Dərbənd), dişqa^{o}rı “dışarı”<bayır çöl, ca^{ə}lqa^{ə}x “calaq” (Meğri) və s.*

d samitinin artırılması: *vərəsdə “vərəsə” (Qazax), yumurtda “yumurta” (Çəmbərək), yomurtda “yumurta” (Dərbənd).*

m samitinin artırılması: *buxmağ “buxaq” (Dərbənd).*

t samitinin artırılması: *dəstmal//dəstimal//dəstəmal “dəsmal” (Dərbənd).*

b samitinin artırılması: *məmbəl “təməl” (İraq)*

v samitinin artırılması: *suvdan “sudan”, istovut “istiot”, yövgür “yüyür” (Dərbənd), duva “dua”, suval “sual” (Meğri, Çəmbərək), suva^{o}l “sual” (Meğri) və s.*

r samitinin artırılması: *arslan “aslan” (İraq), pars “pas” (İraq, Meğri), tərcüb “təəcüb” (Meğri) və s.*

g samitinin artırılması: *şüşəgə “şüşə” (Quba), köçərgi “köçəri” (Naxçıvan), yövgür “yövür”<yüyür (Dərbənd), gedərgi “gedəri”<gedən (Çəmb ərək, Meğri) və s.*

ğ samitinin artırılması: *tışğarı “dışarı”<çöl, bayır (Çəmbərək).*

Sözün sonunda samit artımı

Söz sonunda samit artımı fonetik hadisəsinə şivələrimizdə az rast gəlinir və bu **n, m, t, d, h** samitlərdə özünü göstərir.

n samitinin artırılması: *kərən “kərə”<dəfə (Quba, Şəki, Naxçıvan, Meğri, Çəmbərək), amman “amma”, açıncan “açınca”, paltun “palto” (Quba, Naxçıvan), dalıncan “dalınca” (Quba, Çəmbərək), kın//kin//kun//kün “ki”<bağlayıcı (Qazax), ötrün “ötrü” (Şəki, Naxçıvan, Çəmbərək), gidincən “gedincə” (Şəki), baldun “palto” (Qazax, Naxçıvan), dəfən “dəfə”, safayın “savayı”, qabaxcan “qabaqca”, yanıncan “yanınca” (Naxçıvan, Meğri), karan “kərə”<dəfə (Dərbənd), ötərin “ötrü” (Şəki, Dərbənd, Meğri), aman “amma” (Dərbənd, İraq), aslan “əsla”, daiman “daima”, çünkün “çünki”, təkin “təki” (Təbriz, İraq), kimin “kimi” (Quba, Şəki, Naxçıvan, Təbriz, İraq, Meğri), baldon “palto” (Qazax, Çəmbərək), dəhvən “dəfə”, kərrən “kərrə”<dəfə, kərdin “kərdi”<lək (Təbriz), gəldix'cən “gəldikcə”, əvvəlcən “əvvəlcə”, qavaxcan “qabaqca” (Çəmbərək) və s..*

t samitinin artırılması: *nobat “növbə”, balabant “balaban” (Quba, Çəmbərək), hasant “asan” (İraq, Çəmbərək), puşt “puç”, rəft “rəf” (İraq), ha^{o}sa^{ə}nt “asan”, təşəxust “təşəxxüs”, ha^{o}sã^{ə}t “asan” (Meğri) və s.*

m samitinin artırılması: *bəlkəm “bəlkə” (Quba, Təbriz, Çəmbərək), soram “sora”<sonra (Şəki), kərəm “kərə”<dəfə (Şəki, Dərbənd, Çəmbərək), bərkəm “bərkə”<bəlkə*

(Dərbənd), yoxsam "yoxsa", hələm "hələ" (İraq), dənəm "dənə", kilkəm "kilkə"<təmizlənmiş yun, yalxım "yalxı"<tək (Təbriz), bəlka^{ə}m "bəlkə", köşga^{ə}m "keşkə"<kaş ki (Meğri) və s.

d samitinin artırılması: *hasand "asan" (Quba, Şəki), noqsand "nöqsan"<qüsur (Şəki), bina^{ə}d "bina" (Meğri), xayişd "xahiş" (Meğri, Çəmbərək), noxsand "nöqsan" (Çəmbərək) və s.*

y samitinin artırılması: *çantay "çanta" (Qazax), cumay "cümə" (Şəki) və s .*

v samitinin artırılması: *ütüv "ütü", kinov "kino" (Dərbənd) və s.*

q samitinin artırılması: *hanıq "hanı" (Dərbənd).*

g samitinin artırılması: *kimig "kimi" (Dərbənd), yüng//yung "yun", fərig "fərə" (İraq) və s.*

r samitinin artırılması: *topar "topa" (Dərbənd).*

ğ samitinin artırılması: *barığ "barı" (İraq).*

h samitinin artırılması: *qaneh "qane" (İraq, Meğri), dəryah "dərya" (İraq), düşərgah "düşərgə" (Dərbənd) və s.*

x′ samitinin artırılması: *böyrüncəx' "böyürüncə", kəsdix'cəx' "kəsdikcə", kölgəx' "kölgə" (Çəmbərək) və s .*

x samitinin artırılması: *dalıcax "dalınca", qavaxcax "qabaqca", yanıncax "yanınca" (Çəmbərək, Karvansaray) və s.*

SƏS DÜŞÜMÜ

Azərbaycan dili şivələrində geniş yayılmış fonetik hadisələrdən biri də səs düşümüdür. Səs düşümü həm saitlərdə, həm də samitlərdə özünü göstərir.

Sait Səslərin Düşümü

Sait səslərin düşümü fonetik hadisəsi həm vurğu, həm də sözlərin birləşməsi əsasında əmələ gəlir. Sait səslərin növünə görə səs düşümü iki yerə bölünür: 1) qapalı sait səslərin düşümü; 2) açıq sait səslərin düşümü.

Qapalı sait səslərin düşümü

Qapalı saitlərin düşməsi həm söz kökündə, həm də sözə şəkilçinin artırılması və ya iki sözün birləşməsi nəticəsində özünü göstərir.

Söz kökündə qapalı saitin düşməsi

i saitinin düşməsi: *nişil “inişil”<keçən ol, Smeyil “İsmayıl”, ərzə “ərizə”, mərfət “mərifət” (Qazax), Seknə “Səkinə”, peşman “peşiman” (Bakı), Səknə “Səkinə” (Quba), Həlmə “Həlimə” (Bakı, Quba, İraq, Çəmbərək), yirmi “iyirmi” (Şəki, Zaqatala, Qax), Srafil “İsrafil” (Şəki), Ayşə “Ayişə”, xəlfə “xəlifə”, həmşə “həmişə”, həqqətən “həqiqətən” (Qazax, İraq, Çəmbərək), zraət “ziraət”<əkin (İraq), Hənfə “Hənifə”, səlqə “səliqə”, Səhnə “Səkinə” (Naxçıvan, Ordubad), Nərman “Nəriman”, Pərzad “Pərizad”, səlqə “səliqə” (Meğri), Səlmə “Səlimə” (Naxçıvan, Ordubad, Meğri), xəznə “xəzinə” (Qazax, Quba, İraq, Çəmbərək, Meğri) və s.*

ı saitinin düşməsi: *qarşıx “qarışıq” (Şəki) və s.*

u saitinin düşməsi: *hökmət “hökumət” (Qazax), bra “bura” (Bakı) və s.*

Şəkilçinin artırılması nəticəsində qapalı saitin düşməsi.

i saitinin düşməsi: *nəynə “nəyinə”, geynərdi “geyinərdi”, gətrir “gətirir”, deylirdi “deyilirdi”, əyrir “əyirir”, əmsi “əmisi”, salammı “salamımı” (Qazax), çiynün “çiyinin”, dilnin “dilinin”, çiynə “çiyinə”, çəkşün “çəkişin”, əlni “əlini”, çəkşə “çəkişə” (Quba), iksi “ikisi” (Quba, Təbriz, Çəmbərək), yernə “yerinə”, içərdən “içəridən”, ikillıx “iki illik”, diyrıx “deyirik” (Şəki), birmiz “birimiz” (Dərbənd), bənzimiz “bənizimiz”<sifətimiz, üzümüz, əkni “əkini”, əknə “əkinə”, əkniyiz “əkiniz”, yermiz “yerimiz”, yelnə “yelinə”, birni “birini” (İraq), əlnə “əlinə”, gəlnə “gəlinə” (Şəki, Təbriz, Çəmbərək), yernə “yerinə”, əmyə “əmiyə”, əmmin “əmimin”, əmmi “əmimi”, yetrir “yetirir”, keçnir “keçinir”, gətrir “gətirir”, yetşər “yetişər”, gətrər “gətirər” (Təbriz, Çəmbərək), birsi “birisi” (Dərbənd, Təbriz, İraq), birin “birini”, çətsi “çətisi”<buğda xırdası (Təbriz) və s.*

ı saitinin düşməsi: *ı saitinin düşməsi sözlərə şəkilçilərin artırılması nəticəsində baş verir: yarlığa “yarılığa”, qaydır “qayıdır”, yarsı “yarısı”, xarda “xarıda”, taxılnı “taxılını” (Qazax), tanardım “tanıyardım”, tanaram “tanıyaram” (Bakı), yadma “yadıma”, yarsı^{i} “yarısı” (Quba), hamsı “hamısı” (Şəki, Quba, Qazax, Təbriz), yanna “yanına” (Qazax, Şəki, Təbriz, Çəmbərək), yuxarda “yuxarıda”, yarsın “yarısın” (Dərbənd), taxlın “taxılın”, daysının “dayısının”, daysına “dayısına” (İraq, Çəmbərək), tikannın “tükanının”, tükanna*

"tükanına" <dükanına, tükannı "tükanını"<dükanını, adna "adına", qalnın "qalının", qapnın "qapının", qapnı "qapını", bacya "bacıya", yarmın "yarımın", yarma "yarıma", yarmı "yarımı", qarşar "qarışar", çalşır "çalışır" (Təbriz), uğlın "uğılın"<ağılın, uğla^{ə} "uğula^{ə}"<ağıla, a^{ə}ğl "ağıl" (Meğri), qarşıx "qarışıq", aşağda "aşağıda", dammız "damımız", harayna "harayına" (Çəmbərək) və s.

u saitinin düşümü: *qoylur "qoyulur", qoynun "qoyunun", qoyna "qoyuna", oxyor "oxuyur" (Qazax), oxardım "oxuyardım", oxaram "oxuyaram" (Bakı), uğlun "oğulun", uğli "oğulu" (Quba), çoxsu "çoxusu" (Qazax, Şəki, Çəmbərək), toyni "toyunu", qoltuğna "qoltuğuna", otduğ "oturduq", qolnu "qolunu" (Şəki), toynə "toyuna" (Dərbənd), quynun "quyunun", quyya "quyuya" (Təbriz, İraq, Çəmbərək), quyları "quyuları" (İraq, Çəmbərək), quyyı "quyuyu", quynuz "quyunuz", yuxsu "yuxusu", yuxda "yuxuda" (İraq), quynı "quyunu", qursu "qurusu"<qaysı qurusu, topnu "topunu", otrar "oturar" (Təbriz), vurrux "vururuq", durrux "dururuq" (Təbriz, Çəmbərək) və s.*

ü saitinin düşməsi: *döylör "döyülür", götrör "götürür" (Qazax), günnə "gününə", düynü "düyünü", öynü "öyünü"<evini, götrüf "götürüb", ötrüf "ötürüb" (Şəki), gözmüz "gözümüz", özmün "özümün" (İraq, Çəmbərək), üzüynün "üzüyünün", üzüynə "üzüyünə", böyyür "böyüyür", görrux "görürük" (Təbriz) və s.*

Sözlərin birləşməsi nəticəsində qapalı saitin düşməsi

i saitinin düşməsi: *əmoğlu "əmioğlu" (Qazax, Meğri), Əlməmməd "Əliməmməd", Əlsön "Əli Hüseyn", Məşədsöynalı "Məşədi Hüseynəli", əmqĭzı "əmiqızı", əmdosdi "əmi dostu", iküç "iki-üç" (Bakı), əmqızi "əmi qızı" (Quba), əmnəvəsi "əmi nəvəsi" (Təbriz), əmarvadı "əmi arvadı", birki "bir-iki", onki "on iki", hərkisi "hər ikisi" (İraq), bibqızı "bibi qızı" (Bakı, Naxçıvan, Ordubad), Əlsoltan "Əli Soltan", əmdossi "əmi dostu" (Naxçıvan, Ordubad), Əlquli "Əli Qulu" (Naxçıvan, Ordubad, Təbriz, Quba), nə:şim "nə işim" (Naxçıvan), əmqızı "əmiqızı" (Naxçıvan, Ordubad, Təbriz), bibo:lu "bibi oğlu", əmo:lu "əmi oğlu", biboğlu "bibi oğlu" (Meğri) və* s.

ı saitinin düşməsi: *başşağı "başı aşağı" (Bakı, Qazax), oxardan "yuxarıdan", Hajsöyün "Hacı Hüseyn" (Qazax), qapbaca "qapı-baca", qappencərə "qapı-pəncərə" (Bakı), sambağı "samı bağı", başyuxarı "başı yuxarı", başaçıx "başı açıq", bacoğlu "bacı oğlu" (Şəki), başaşağı "başı aşağı" (İraq), dayqızı "dayı qızı", daynəvəsi "dayı nəvəsi", hacleyləx' "hacı leylək", hacəmi "hacı əmi", ağzəyri "ağzı əyri" (Təbriz), qaynarvadı "qayın arvadı" (Meğri) və s.*

ü saitinin düşməsi: *gözaçıx "gözü açıq" (Şəki), Həsənçin "Həsən üçün", sənçün "sənin üçün", mə:mçün "mənim üçün" (Təbriz) və* s.

Açıq sait səslərin düşməsi

Şivələrimizdə açıq saitin düşməsi aşağıdakı hallarda özünü göstərir.

Söz kökündə açıq saitin düşməsi

a saitinin düşməsi: *samvar "samavar"<samovar, sədət "səadət" (Qazax), peyla "piyalə" (Bakı) və s.*

e saitinin düşmәsi: *telfun "telefon" (Quba, Çәmbәrәk), telfon "telefon" (Quba) vә s .*

Sәkilçilәrinin artırılması nәticәsindә açıq saitin düşmәsi

a saitinin düşmәsi: *burya "buraya", orya "oraya" (Qazax, Tәbriz), vurdurram "vurduraram", doydurram "doyduraram" (Qazax), bırda "burada" (Bakı, Quba), oturram "oturaram" (Bakı, Quba, Şәki), alluğ "alarıq" (Quba), alcaxdı "alacaqdı", yığcasan "yığacaqsan", tayyә "tayaya" (Şәki), iştahlu "iştahalı" (Dәrbәnd), ayırram "ayıraram", ayırrıx "ayırarıq", yannam "yanaram ", yannıx "yanarıq" (İraq, Çәmbәrәk), allam "alaram" (Bakı, Quba, Şәki, Naxçıvan, Ordubad, İraq, Çәmbәrәk), burda "burada" (Bakı, Qazax, Şәki, Naxçıvan, Ordubad, Tәbriz, İraq), ordan "oradan" (Qazax, Naxçıvan, Ordubad, Tәbriz, İraq), orda "orada" (Naxçıvan, Qazax, Çәmbәrәk), urda "orada" (Bakı, Quba, Ordubad), urdan "oradan", bĭrda "burada", bĭradan "buradan" (Ordubad), allıx "alarıq" (Naxçıvan, Ordubad, İraq, Meğri), harya "haraya", harda "harada", hardan "haradan" (Şәki, İraq, Tәbriz, Çәmbәrәk), qallam "qalaram" (Tәbriz, Çәmbәrәk), horda "orada" (Şәki, Meğri), hordan "oradan", burda^{ə} "burada", urda^{ə} "orada", urdɑ^{ə}n "oradan" (Meğri), dolannam "dolanaram", dolannıx "dolanarıq", yığıllıx "yığılarıq" (Meğri, Çәmbәrәk) vә s.*

ә saitinin düşmәsi: *göturrәm "götürәrәm" (Bakı, Qazax, Quba), billәm "bilәrәm", billuğ "bilәrik", verruğ "verәrik", bişirruğ "bişirәrik", gәzinnuğ "gәzinәrik" (Quba), girrәm "girәrәm"<daxil olaram, sillәm "silәrәm" (Şәki, Çәmbәrәk), düşcam "düşәcәm"<düşәcәyәm, vәrjixdi "verәcәkdi" (Şәki), nәrdә "nәrәdә"<harada, nәrdәn "nәrdәn"<haradan, görrıx "görәrik", yellәnnәm "yellәnәrәm", yellәnnik "yellәnәrik", sevinnik "sevinәrik" (İraq), verrәm "verәrәm" (Bakı, Quba, Qazax, Tәbriz, İraq, Çәmbәrәk), gәllix' "gәlәrik", görrüx' "görәrik" (Naxçıvan, Ordubad), issinnәm "isinәrәm", issinnıx "isinәrik" (Ordubad), gәllәm "gәlәrәm" (Bakı, Quba, Naxçıvan, Ordubad, Tәbriz, Çәmbәrәk), görrәm "görәrәm" (Naxçıvan, Ordubad, İraq, Şәki, Çәmbәrәk, Meğri) vә s.*

İki sözün yanaşması nәticәsindә açıq saitin düşmәsi.

a saitinin düşmәsi: *mamoğlu "mama oğlu" (Qazax), xaloğlu "xala oğlu" (Bakı, Quba), Agopba "Ağababa", Atopba "Ata baba" (Bakı), qojuşa "qoca uşağı", Balxanım "Balaxanım", qarğaş "qara ağac" (Şәki), qondarәkә "qondara әkә", qaşqat "qaşqa at", qәrәzüm "qara üzüm" (İraq), cuma:xşamı "cümә axşamı", ata:na "ata-ana" (Tәbriz), xalo:lu "xala oğlu", tamaş elәmәx "tamaşa elәmәk" (Meğri) vә s. .*

ә saitinin düşmәsi: *tәlәbәkә "tәlәbә әkә" (İraq), ne:lәdin "nә elәdin", no:lar "nә olar", neyni:rәm "nә edirәm" (Naxçıvan), neynim "nә edim" (Tәbriz), necolmax "necә olmaq" (Çәmbәrәk) vә s. .*

Samit Sәslәrin Düşümü

Azәrbaycan dili şivәlәrindә samit sәslәrin düşümü sözün әvvәlindә, ortasında, sonunda müşahidә olunur vә **q, y, g, h, v, f, l, r, n, m** sәslәrindә özünü göstәrir. Şivәlәrimizdә samit düşümü üç yerә bölünür.

1.Sözün әvvәlindә samit düşümü;

2.Sözün ortasında samit düşümü;

3.Sözün sonunda samit düşümü.

Sözün әvvәlindә samit düşümü. Şivәlәrimizdә sözün әvvәlindә samit düşümü **y, h, k, n**

səslərində müşahidə olunur.

***y* samitinin düşümü:** *oxarı “yuxarı” (Qazax, Şəki, Tovuz, Çəmbərək), ük “yük” (Qazax, Tovuz, Muğan, İraq, Çəmbərək, Karvansaray), umax “yumaq” (Qazax, Şəki), umrux “yumruq”, umru “yumru”, ükaltı “yükaltı”, üx′ yeri “yük yeri”, uxu “yuxu”, urt “yurd”, Unus “Yunis” (Qazax), Usuf “Yusif” (Qazax, Çəmbərək, Şəki, Muğan), o:na “o yana”, bu:ana “bu yana” (Qazax, Borçalı), umala “yumala”, umburux “yumruq”, imişax” yumşaq” (Şəki), asəmən “yasəmən”, iməli “yeməli” (Şəki), Usub “Yusif” (Naxçıvan,Muğan), uxarı “yuxarı” (Qazax, Quba, Şəki, Tovuz, Çəmbərək), üzbaşi//üzbaşı^{i} “yüzbaşı” (Quba), Usup “Yusif”, uxarı^{i} “yuxarı” (Naxçıvan), üzbaşı “yüzbaşı” (Naxçıvan, Şəki, Zaqatala, Qax), uva “yuva”, uvat “yuvat”<ölü yuyulan yer, uxa “yuxa”, umalamax “yumalamaq” (Təbriz), imağ “yemək”, iyədəm “yeyirəm”, iyə//eyə “yiyə” (Dərbənd), ügən “yüyən” (Quba, Dərbənd), ibandu//ibandıy “yubandı”, üngil//üngül “yüngül”, ükləmək “yükləmək”, üksək “yüksək”, iküz “iki yüz” (İraq), ığmax “yığmaq”, umuşax “yumşaq”, uxa “yuxa”<sacda bişirilən çörək (Çəmbərək, Karvansaray), üx′ləməx′ “yükləmək” (Çəmbərək), ükaltı “yükaltı” (Qazax, Çəmbərək), üx′səx′ “yüksək” (Karvansaray), əyə “yiyə”, Üsüf “Yusif” (Meğri) və s.*

Qərbi Azərbaycan şivələrində “y” samitinin düşməsi geniş yayılmışdır. Bu, “y” samitinin işləndiyi hecanın düşməsi ilə bağlıdır. Məsələn: da:ndı <dayandı (Zəngibasar), ürə: <ürəyi -Hamamlı (Spitak), gəzmə: <gəzməyə (Basarkeçər) [Erdal Karaman, 2011, s.39].

***h* samitinin düşümü:** *örər “hörər” (Qazax,Tovuz), ülükdü “hürkdü”, elimçəx′ “hörümçək” (Qazax), Üseyn “Hüseyn”, üyrür //ürür “hürür”, hər axda “hər haqda”, hər alda “hər halda”, İdayət “Hidayət” (Şəki, Çəmbərək), ürig “hörük”, örüg “hörük”, ürkmağ “hürkmək”, əşqırmağ “hıçqırmaq” (Quba), əybə “heybə”, ışqırmax “hıçqırmaq”, əvəx′ “həvəng”, eşqırmax “hıçqırmaq” (Təbriz), örümçəx′ “hörümçək” (Qazax, Təbriz, Tovuz, Çəmbərək), induşgə “hinduşqa”, ürüg “hörük” ürügləmağ “hörükləmək”, içqırığ “hıçqırıq”, ürimçəg “hörümçək” (Dərbənd), işqırığ “hıçqırıq”, ıxçırıx//ıxçırığ//ıxçirix “hıçqırıq” (İraq), örüx′ “hörük” (Qazax, Tovuz, Çəmbərək, Karvansaray), örməx′, hörmək”(Çəmbərək, Karvansaray), ölümçəx′ “hörümçək”, əfçi “həfçi” < boş-boşuna çox danışan, ayıl-mayıl “hayıl-mayıl”, affayı “havayı” (Çəmbərək), öysələ “hövsələ” (Çəmbərək, Karvansaray), örix′ “hörük”, ərga^{o}h “hərgah”, urma^{ə}x//orma^{ə}x “hörmək”, A^{o}fizə “Hafizə” (Meğri) və s .*

***g* samitinin düşümü:** *onu ördüm “onu gördüm”, nə əzirsən “nə gəzirsən”, ağlıma əlir “ağlıma gəlir”, on aörə “ona görə” (Qazax), bö:n “bugün” (Naxçıvan, Çəmbərək) və s .*

***n* samitinin düşümü**: *işan “nişan”, işanlı “nişanlı” (Tovuz) və s.*

***s* samitinin düşümü**. *Usur “susur” (Dərbənd).*

Söz ortasında samit düşümü. Şivələrimizdə söz ortasında **y, v, h, t, r, l, n, m** samitlərinin düşməsinə təsadüf olunur.

y samitinin düşümü: *yiəjəx′ “yeyəcək”, güərmir “göyərmir”, göərdi “göyərdi”, çiələm “çiyələm”, oatdı “oyatdı”, yüən “yüyən”, göəm “göyəm”, hiləgər “hiyləgər” (Qazax), Temir “Teymur” (Qazax, Şəki, Tovuz, Çəmbərək), yalıx “yaylıq”, könüx′ “köynük”, gua “guya”, küräim “kürəyim”, Hüsenqulu “Hüseynqulu”, görüş “göyrüş”<ağac növü (Şəki), qaçı “qayçı” (Qazax, Şəki, Tovuz, Borçalı, Çəmbərək), i:nə “iynə”, i:də “iydə”, ci:ran “ceyran”,*

Tiyib “Teyyub”, İyib “Əyyub”, gö:çeg “göyçək”, bö:ȗg “böyük”, to:ȗğ “toyuq”, sö:kənmək “söykənmək” (Quba), Hüsen “Hüseyn” (Quba, Naxçıvan, Ordubad, Meğri), də:rman “dəyirman”, də:l “deyil” (Naxçıvan, Ordubad), hekal “heykəl”, üçüz “üç yüz”, i:rmi “iyirmi”, qəçi “qayçı”, di:sən “deyəsən” (Naxçıvan), gö:çəx' “göyçək” (Ordubad), çi:nin “çiyinin”, künəyi “küynəyi”<qapının üstündə hərəkət edən dəmir, cınağı “cıynağı”, beni “beyni”, səcənə “səycənə”<qab adı, duduğuna “duyduğuna<nəfəs borusu, qı:max “qıymaq”, qu:max “quymaq” (Təbriz), qimət “qiymət”, gücəg “göyçək”, künəg “köynək”, souğ “soyuq”, touğ “toyuq” (Dərbənd), İsməil “İsmayıl”, sələ “söylə”, sələd “söylət”, xeir “xeyir”, qağanağ//qağanax “qayğanaq”, hilə “hiylə”, şex “şeyx”, niyət “niyyət”, şıx “şeyx “ (İraq), göərçin “göyərçin (Qazax, Tovuz, Borçalı, Çəmbərək), sö:kəndi “söykəndi” (Qazax, Borçalı, Çəmbərək), böələx' “böyələk”<həşərat (Qazax, Borçalı), zorraan “zorlayan”, oanmax “oyanmaq” (Borçalı), çəritgə “çəyirtgə”, Te:mir “Teymur” (Meğri), qa: “qaya” (Ayrım) və s .

n samitinin düşümü: *qılış “qılınc” (Qazax, Tovuz, Çəmbərək), qazaş “qazanc” (Tovuz), kət “kənt”<kənd (Bakı, Şamaxı, Qazax, Naxçıvan, Ordubad), Təbriz, Muğan, Çəmbərək, Karvansaray), tüəh “tüfəng” (Qazax), qĩlış “qılınc”, irəx' “rəng”, tüfəx' “tüfəng”, qəşəx' “qəşəng”, kətdə “kənddə” (Şəki), kətdi “kəndli” (Şəki, Quba, Naxçıvan, Ordubad), su:ra “sonra”, gö:lüm “könlüm” (Quba), qəşəx' “qəşəng”, Dərbət “Dərbənd” (Naxçıvan, Çəmbərək), so:ra “sonra” (Bakı, Şamaxı, Qazax, Quba, Naxçıvan, Ordubad, Muğan, Təbriz, Borçalı, Şəki), dilmac “dilmanc” (Təbriz), qılıc “qılınc (Qazax, Quba, Təbriz, Tovuz, Borçalı), qəşəh “qəçəng”, bət “bənd” (Təbriz), hası “hansı” (Şəki, Quba, Naxçıvan, Ordubad, Təbriz, İraq, Çəmbərək), sora “sonra” (Şəki, Quba, Naxçıvan, Ordubad, Dərbənd, İraq, Meğri), sura “sonra” (Dərbənd), bular “bunlar”, əhəg “əhəng”, moqol “monqol”, Moqolustan “Monqolustan”, olar “onlar”, osuz “onsuz”, tifəg “tüfəng”, tuc “tunc”, turşəkə “turşəng” (İraq), ha:sı “hansı” (Qazax, Borçalı, Çəmbərək), dalıca “dalınca”, diş “dinc”, qaxış “qaxınc”, Golkət “Gölkənd”, Çaykət “Çaykənd”, qırmaş “qırmanc”, qorxuş “qorxunc”, saş “sanc” (Çəmbərək, Karvansaray), kə̃t “kənd”, dĩş “dinc” (Meğri), qo:şi “qonşu” (Bakı, Şamaxı, Muğan), gölüm “könlüm, do:uz “donuz” (Bakı, Şamaxı, Muğan)və s.*

r samitinin düşümü: *qutardı “qurtardı”, içitdi “içirtdi” (Qazax), otdu “oturdu” (Çəmbərək), qutul//qutal “qurtar”, qadaş “qardaş”, tala “tarla”, çəyitgə “çəyirtgə”, axlar “arxlar”, qıxınca “qırxınca” (Şəki), qutar “qurtar” (Şəki, İraq, Çəmbərək, Borçalı), qutarmax “qurtarmaq” (Çəmbərək, Karvansaray, Meğri), qutarmağ “qurtarmaq”, otumax “oturmaq” (Quba, Borçalı, Çəmbərək), qutarır “qurtarır” (Naxçıvan, Ordubad), otumax “oturmaq”, qaldımax “qaldırmaq”, gətmək “gətirmək”, qoxmuş “qorxmuş” (Naxçıvan), fəş “fərş”, bəx' “bərk”, boş “borc”, dəs “dərs”, döt “dörd”, gidə “girdə”, qutarmax “qurtarmaq”, bidən “birdən”, gödüm “gördüm”, qopadıp “qopardıb” (Təbriz), qənəfil//qənifil “qərənfil”, qopadılar “qopardılar”, quşağ “qurşaq”, təkərlə “təkrarla”, xitlək “xirtdək”<qırtlaq, otudular “oturdular”, patladı “partladı” (İraq), biləzik “bilərzik” (Təbriz, İraq), quşax “qurşaq”, götüməsin “götürməsin”, bilmilər “bilmirlər”, almılar “almırlar” (Borçalı), qıx “qırx” (Təbriz, Meğri), qıxmax “qırxmaq”, qoxmax “qorxmaq”, çıxatmax “çıxartmaq”, xəşləməx “xərcləmək”, bicə “bircə”, ötü “ötrü” (Meğri), böyütkən “böyürtkən” (Muğan), boşdu “borclu” (Zaqatala) və s.*

M.İslamov yazır: “... qutul//qutar//qutal forması daha qədimdir. Fin türkoloqu M.Rəsənən qeyd edir ki, qutar, qutul sözlərində r səsinin düşməsi hadisəsi çox qədimdir.

Kutar sözünə kurtvar sözü ilə bir sırada yeni uyğur dilinin turfan fraqmentlərində, kutul formasına isə kuman dili və qıpçaq dillərində təsadüf edilmişdir” (M.İslamov,1968, s.58).

v samitinin düşümü: *nüə “nəvə” (Qazax, Tovuz, Çəmbərək, Karvansaray), göəli//güəli “gavalı”, yuaş “yavaş”, qoala “qovala” (Qazax, Tovuz), ouc “ovuc” (Qazax, Borçalı), duax “duvaq” (Hamamlı), doğa “dovğa” (Dərbənd, Tovuz), çoğun “çovğun”, doşan “dovşan” (Qazax, Tovuz), noruz “novruz”, yua “yuva”, qoa –qoa “qova-qova”, qourma “qovurma”, küər “kəvər” (Şəki), Mö:lud “Mövlud”, o:mağ “ovmaq”, o:lamağ “ovlamaq”, qo:mağ “qovmaq”, quvat “qüvvət” (Quba, Çəmbərək), sö:gi “sevgi”, do:şan “dovşan” (Bakı, Şamaxı, Quba, Qazax, Zaqatala), o:çi “ovçu” (Quba), əvəl “əvvəl” (Quba, Naxçıvan), dö:lət “dövlət” (Quba, Dərbənd), duar “divar” (Şəki, Dərbənd), qırqoul “qırqovul”, qoağ “qovaq”, qoun “”qovun”, dö:r “dövr” (Dərbənd), aut “ovut”, qaun “qovun”, qaurğa “qovurğa”, saur “sovur”, sauş “sovuş”, tauz “tovuz”, cuan “cavan”, cuwan “cavan”<gənc, taus “tovuz” (İraq), çual “çuval” (Qazax, Tovuz, İraq), gühər “gövhər”, oxalamax “ovxalamaq”, göəzə “gəvəzə”<boş-boş danışan, göəç “güvəç”<işlədilən əşya (Borçalı), oxax “ovxaq”, oxar “ovxar”, duax “duvaq”, quva//qüva “qüvvə”, youşan “yovşan” (Bakı, Şamaxı, Muğan) və s .*

h samitinin düşümü: *və:şi “vəhşi” (Qazax, Quba, Tovuz), mə:sil “məhsul”, tə:fil “təhvil” (Qazax, Quba, Naxçıvan, Ordubad, Çəmbərək, Tovuz), isal “ishal”, səf “səhv”, təfil “təhvil” (Şəki, Qazax, Tovuz, Çəmbərək), pəlivan “pəhləvan”, Hacəsən “Hacı Həsən”, qozalvası “qoz halvası” (Şəki), vəşi “vəhşi” (Qazax, Tovuz), e:tiram “ehtiram”, e:tiyac “ehtiyac”, mö:kəm “möhkəm”, sə:ng “səhəng”, nes “nəhs”, xa:iş “xahiş” (Quba), da: “daha”, Şa:verdi “Şahverdi”, zə:mət “zəhmət”, İrba:m “İbrahim” (Naxçıvan), Şa:sevən “Şahsevən”, sə:r “səhər” (Naxçıvan, Ordubad, Borçalı), künə “köhnə”, təralva “t͡ərhalva”, kö:nə “köhnə” (Quba, Dərbənd), şə:r “şəhər” (Naxçıvan, Ordubad, Dərbənd, Borçalı), dirə͡m “dirhəm”, İbrəim “İbrahim”, kəriz “kəhriz” (İr͡aq, Meğri), kərizçi “kəhrizçi”, manı “m͡ahnı”, pəriz “pəhriz”, məni “mahnı” (İraq), saav “sahib”, şa:id “şahid”, də:şətdi “dəhşətli” (Borçalı), sənəx' “səhəng” (Çəmbərək), isa^{o}l “ishal”, ta^{ə}ra^{o}vla “tərhalva” (Meğri), mələ “məhəllə” (Bakı), zəmət “zəhmət” (Bakı, Muğan, Naxçıvan), məsil “məhsul” (Qazax, Qarabağ, Quba, Muğan), ma:nı “mahnı” (Zaqatala) və s.*

d samitinin düşümü: *pənir “pendir” (Naxçıvan, Ordubad, Təbriz, Meğri), günüz “gündüz” (Naxçıvan, Təbriz, Borçalı, Çəmbərək), tənur “təndir” (Təbriz), əmzirir “əmizdirir”, adım “addım”, tək adım “tək addım”, üç adım “üç addım”<uşaq oyunu adı, günüzlər “gündüzlər” (İraq), midət “müddət”, penir “pendir” (Meğri, Zəngibasar) və s .*

ş samitinin düşümü: *almısuz “almışsınız”, gidmisüz “getmişsiniz”, tükmisən “tökmüşsən”, tükmüsüz “tökmüşsünüz” (Quba) və s .*

l samitinin düşümü: *müx' “mülk”, miçəx' “milçək”, piləkən “pilləkən”, quf “qulp”, qəf “qəlb”, öşdü “ölçdü”, atdan “altdan”, qaxdı “qalxdı” (Şəki), miçeg “milçək”, çilə “çillə” (Quba, Çəmbərək), düzətdim “düzəltdim”, ucatdım “ucaltdım” (Naxçıvan), atbasma “altbasma”<başmaqçılıqda işlənən alət, qaxdı “qalxdı”, ələr “əllər”, gülər “güllər”, dəyilər “deyillər”, malar “mallar”, aralar “arallar”<sütun (Təbriz), miçəg “milçək”, buluq “bolluq” (Dərbənd), atmış “altmış” (Şəki, Naxçıvan, Ordubad, Təbriz, İraq, Çəmbərək, Meğri), birişək “birləşək”, miçək “milçək”, qax “qalx”, diritməx “diriltmək”, düzətdilər “düzəltdilər”, xax “xalq”<özgə (İraq), bəkə “bəlkə” (Naxçıvan, Şəki, İraq, Meğri), sapax*

“saplaq” (Çəmbərək, Karvansaray), a^{o}tmış “altmış” (Meğri), atda “altda” (Çəmbərək, Meğri) və s .

m samitinin düşümü: *ama “amma” (Qazax, Quba, Naxçıvan, Ordubad, Çəmbərək), əmə “amma” (Naxçıvan, Çəmbərək), uman “ümman” (Çəmbərək) və s.*

b samitinin düşməsi: *pamığ// pamıx “pambıq” (İraq).*

t samitinin düşməsi: *doslux “dostluq”, mırçil “mırtçıl”, dəsur “dəstur”<icazə, əmr, göstəriş, dəsgir “dəstgir”<köməkçi, əsir, dəsirxan “dəstirxan” (Təbriz), yası “yastı”, yasılar “yastılayar” (İraq).*

ğ samitinin düşməsi: *quruşun “qurğuşun” (İraq).*

q samitinin düşməsi: *də:qə “dəqiqə” (Dərbənd), doquz “doqquz”, çaqal “çaqqal” (İraq) və s .*

k samitinin düşməsi: *əsük “əskik”, mürəkəb “mürəkkəb”, səkiz “səkkiz” (İraq) və s.*

p samitinin düşməsi: *topuz “toppuz” (İraq).*

f samitinin düşümü: *tuəng “tüfəng” (Qazax, Tovuz), tüəx' “tüfəng” (Qazax), xüfət “xiffət” (Çəmbərək, Karvansaray) və s.*

Sözün axırında samit düşümü. Azərbaycan dili şivələrində sözün sonunda samit düşümü fonetik hadisəsi müşahidə olunur. Bu **r, t, l, q, n** samitlərində özünü göstərir.

r samitinin düşümü: *gəti “gətir”, otu “otur” (Bakı, Şamaxı, Şəki, Qazax, Tovuz, İraq, Çəmbərək, Karvansaray), qədə “qədər” (Qazax, Şəki, Çəmbərək), geti “gətir” (Şəki), diyi “deyir”, yiyi “yeyir”, isdiyi “istəyir”, işdiyi “işləyir”, qaşiyi “qaşıyır”, bi qədə “bir qədər”, bi az “bir az “, bi şey “bir şey”, nə qədə “nə qədər”, ho qədə “o qədər”, bu qədə “bu qədər” (Şəki), gəlibdü “gəlibdir”, qaradu “qaradır”, kükdü “kökdür”, yuxdu “yoxdur”, üşdü “üçdür” (Quba), hə “hər”, oğədə “o qədər”, əyə “əgər”, məyə “məgər”, maldı “maldır”, yoldı “yoldur”, ağaşdı “ağacdır”, aldıla “aldılar”, tapalla “taparlar” (Təbriz), bildilə “bildilər”, yazacaxla “yazacaqlar”, görəllə “görərlər”, ula “ular”, diyəllə “deyərlər”, aparsala “aparsalar”, dimısülə “deməsələr”, gəlmisələ “gəlməsələr”, malla “mallar”, qoyitdilə “qoydular”, egə “əgər” (Dərbənd), bi “bir” (Təbriz, Dərbənd), bi tək “bir tək”, bi kərrə “bir kərə”<bir dəfə, bi kəs “bir az”, oti “otur”, oqqədə “o qədər”, qaldırılla “qaldırırlar”, görüllə “görürlər”, budi “budur”, saralı “saralır”, gögəri “göyərir”, qəm azalı “qəm azalır”, aldadı “aldadır”, yalvarı “yalvarır”, ayılı “ayılır”, qırılı “qırılır” (İraq), bi “bir”, gətimax “gətirmək” (Zaqatala), çavqındı “çovğundur”, uşaxla “uşaqlar”, daşla “daşlar”, toyuxla “toyuqlar”, deyillə “deyirlər”, görürlə “görüllər”, gəldilə “gəldilər”, qaşdıla “qaçdılar” (Meğri) və s. .*

t samitinin düşümü: *ıras “rast”, öypərəs “evpərəst” (Qazax), üs tərəf “üst tərəf” (Şəki), dəs “dəst” (Qazax, Quba, Naxçıvan, Ordubad, Dərbənd, Təbriz, Çəmbərək, Borçalı), dürüs “dürüst”, bədbax “bədbəxt” (Təbriz), xoşbax “xoşbəxt” (Şəki, Təbriz), ras “rast” (Qazax, Şəki, Naxçıvan, Ordubad, Təbriz, Quba, Dərbənd, Borçalı), vax “vaxt” (Qazax, Şəki, Quba, Naxçıvan, Ordubad, Təbriz, Dərbənd, Tovuz, İraq, Borçalı, Çəmbərək, Meğri), dos*

“dost” (Qazax, Şəki, Naxçıvan, Ordubad, Quba, İraq, Çəmbərək, Meğri), sərbəs “sərbəst” (İraq), üs “üst” (Ordubad, Dərbənd, Təbriz, Çəmbərək, Karvansaray, Meğri), tax “taxt” (İraq, Çəmbərək, Karvansaray, Meğri), havax “nə vaxt” (Çəmbərək), bax “bəxt”, bədbəx//ba^{ə}dba^{ə}x “bədbəxt”, behiş “behişt”, nəf “neft” (Meğri)

və s.

n samitinin düşməsi: *darçı “darçın” (Dərbənd), bəzə də “bəzən də”, külçi “külçin”<kül üçün, mənimçi “mənimçin”<mənim üçün, özuçi “özünçin”<özün üçün, səhəbçi “səhəbçin”< səhəb üçün (İraq) və s.*

h samitinin düşümü: *güna: “günah”, sega: “segah” (Quba), bərəkəlla “bərəkəllah”, inşalla “inşallah”, padişa “padişah” (Təbriz), saba “sabah” (Təbriz, Dərbənd), ga-ga “gah-gah” (İraq), fət “fəth” (Çəmbərək) və s.*

v samitinin düşməsi: *pǐto “bütöv”, köso “kösöv”, pǐlo “plov”, ŭxlo//oxlo “oxlov” (Şəki), yalo://yəlo: “alov”, buzo: “buzov”, oxlo: “oxlov”, küsö “kösöv”, bülö: “bülöv” (Quba), buzo “buzov” (Dərbənd), pilo “plov” (Quba, Dərbənd), oxlo “oxlov” (Bakı, Şamaxı, Muğan, Quba, Şəki, Dərbənd), alo//yalo//yəlo “alov” (Bakı, Şamaxı, Muğan, Quba) və s. .*

q samitinin düşməsi: *çıra “çıraq” (Qazax, Çəmbərək), artı “artıq”, anca “ancaq” (Dərbənd), ala “alaq”<yabanı ot (Çəmbərək) və s.*

d samitinin düşməsi: *sapan “sapand”, axun “axund” (Şəki, Çəmbərək) və s. .*

l samitinin düşməsi: *gə “gəl” (Qazax, Şəki, Çəmbərək, Meğri), döy “deyil” (Qazax), döyü “deyil” (Qazax, Şəki), dəyi “deyil”, ortancı “ortancıl” (Meğri) və s.*

m samitinin düşümü: *bizi kənd “bizim kənd”, bizi vaxtımızda “bizim vaxtımızda”, bizi bağda “bizim bağda” (Quba) və s.*

s samitinin düşməsi: *bə “bəs” (Borçalı, Çəmbərək, Karvansaray, Meğri).*

Heca Düşümü (Qapologiya)

Heca düşümü fonetik hadisəsi Azərbaycan dili şivələrində özünü göstərir. Heca düşümü sözün müxtəlif yerlərində - sözün əvvəlində, ortasında və axırında müşahidə olunur.

Sözün əvvəlində heca düşümü. Sözün əvvəlində heca düşümü sözün birinci hecasında özünü göstərir: Məsələn, sincan “fisincan” (Quba), Söyün “Hüseyn” (Şəki), murta “yumurta” (Şəki, İraq), mırta “yumurta” (İraq), şannı “nişanlı” (Çəmbərək) *və s.*

Sözün ortasında heca düşümü. Sözün ortasında heca düşümü sözün birinci, ikinci və ya üçüncü hecasında özünü göstərir. Məsələn: *sa:vı “sahibi”, o:ram “ovuram”, iskan “stəkan” (Şəki), tükmicağam “tökməyəcəyəm”, tükmicağ “tökməyəcək”, tükmicağsuz “tökməyəcəksiniz”, işdərəm “işləyərəm”, işdərsən “işləyərsən”, başdarsan “başlayarasan”, başdar “başlayar”, go:hun “gavahın” (Quba), ağlıram “ağlayıram”, ağlırıx “ağlayırıq”, tanıram “tanıyıram”, tanırıx “tanıyırıq”, bağlısan “bağlayırsan”, bağlısız “bağlayırsınız”, başlısan “başlayırsan”, anışlı “anlayışlı”, itəmə “itələmə” (İraq), də:qə “dəqiqə” (Naxçıvan, Ordubad), məhlə “məhəllə”, qa:rdalı “qarğıdalı” (Naxçıvan, Ordubad,*

Çəmbərək), Ağkisə “Ağkilisə”, gətdi “gətirdi”, qəzyə “qəziyyə” (Çəmbərək), gözlərix “gözləyərik”, gözləllər “gözləyərlər” (Meğri) və s.

Sözün sonunda heca düşümü. Şivələrimizdə sözün sonunda heca düşümü geniş yayılmamışdır. Bu fonetik hadisəyə bir neçə sözdə rast gəlinir. Məsələn: *da: “daha” (Quba), döy “deyil” (Çəmbərək), gözlər “gözləyər” (Meğri) və s. .*

YERDƏYİŞMƏ

Azərbaycan dili şivələrində özünü göstərərən fonetik hadisələrdən biri yerdəyişmə adlanır. Yerdəyişmə samit səslərin əsasında baş verir. Bu fonetik hadisə yanaşı işlənən samitlərdə, eləcə də yanaşı işlənməyən samitlərdə özünü göstərir. Məhz bu baxımdan şivələrimizdə yerdəyişmə fonetik hadisəsi iki yerə bölünür.

1) yanaşı yerdəyişmə
2) yanaşı olmayan yerdəyişmə

Yanaşı yerdəyişmə. Söz daxilində yanaşı işlənən samitlərin yerdəyişməsi yanaşı yerdəyişmə adlanır. Yanaşı yerdəyişmə fonetik hadisəsi şivələrimizdə geniş yayılmışdır. Yanaşı yerdəyişmənin aşağıdakı növlərinə təsadüf edilir. Yanaşı yerdəyişmə hadisəsi həm saitlə samit, həm də samitlə samit səsləri arasında baş verir.

Samitlə samitin yerdəyişməsi.

rh>hr: *Fəhrat<Fərhad (Qazax, Təbriz, Çəmbərək), səhrət<sərhəd (Qazax, Çəmbərək), Fəhrad<Fərhad, səhrəd<sərhəd (Naxçıvan) və s. .*

sm>ms: *yomsa <yosma (Qazax).*

rn>nr: *qənirə<qərinə (Naxçıvan).*

ny>yn: *duyna<dünya (Naxçıvan), düyna <dünya (Şəki) və s.*

rğ>ğr: *dorğa<doğra (Qazax, Tovuz, Çəmbərək), dorğama<doğrama “yemək növü” (Qazax, Çəmbərək), dorğamac<doğramac “yemək növü” (Qazax, Çəmbərək) və s.*

lb>bl: *qəblən<qəlbən (Təbriz).*

bl>lb: *Əlbəhəsən<Əblhəsən (İraq), qılba<qıbla “qiblə” (Meğri) və s.*

lp>pl: *çıplax<çılpaq (İraq).*

rk>kr: *əkrəsöyün<ərkəsöyün “ərköyün” (Qazax).*

rs>sr: *disrək<dirsək (Şamaxı).*

rv>vr: *dəvriş<dərviş (Qazax, Quba, Tovuz, İraq, Borçalı), kivrəngə<kirvənkə<çəki ölçüsü (Qazax, Tovuz), dəwriş<dərviş (İraq), kivrə<kirvə (Naxçıvan, Çəmbərək), kavransara<karvansaray, kavran<karvan (Naxçıvan), davraza<darvaza (Naxçıvan, Ordubad), dövrüş<dərviş (Dərbənd), şovra<şorva “şorba”, çavradar<çarvadar (Naxçıvan) və s.*

mr>rm: *gürmah<gümrah (Muğan).*

kt>tk: *mətkəb<məktəb (Bakı).*

xl>lx: *olxey<oxlov (Şəki, Zaqatala), olxoy<oxlov (Qazax, Qax, Çəmbərək), Mülxüs<Müxlüs (Çəmbərək), olxo<oxlov (Muğan) və s.*

lx>xl: *saxlım<salxım (Meğri).*

lh>hl: *məhləm<məlhəm (Naxçıvan, Şəki, Muğan), ma^{ə}hla^{ə}m<məlhəm, sühl<sülh (Meğri) və s.*

fl>lf: *Tilfis<Tiflis (Şəki, Meğri), Alfatun<Əflatun (Çəmbərək) və s.*

lf>fl: *küflət<külfət (Dərbənd, Naxçıvan, Muğan, Zaqatal), kiflət<külfət (Bakı, Şamaxı, Naxçıvan, Muğan, Meğri), küflet<külfət (Quba), küfla^{ə}t<külfət (Meğri) və s.*

lv>vl: *şovlar<şalvar, əvlan<əlvan, tavlar<talvar, xəvlər<xalvar, şavlar<şalvar (Naxçıvan, Ordubad), havla<halva (Naxçıvan, Ordubad, Qarabağ), yavlardı<yalvardı (Qazax) və s.*

vr>br: *dəbrüş<dəvriş "dərviş" (Dərbənd).*

ry>yr: *Meyram<Məryəm (İraq, Çəmbərək), Qoyra<Qorya "İraqda məhəllə adı" (İraq), Beyrabat<Bəryabad (Çəmbərək) və s.*

gr>rg: *örgədir<ögrədir "öyrədir" (Naxçıvan, Tovuz, Çəmbərək), örgənir<ögrənir "öyrənir" (Təbriz), ürget<ögrət "öyrət" (Quba), örgənmək<ögrənmək "öyrənmək" (Muğan), örgən<öyrən, irgən<iyrən (Şəki), ögrəmməx//örga^{ə}mma^{ə}x<ögrəmməx "öyrənmək" (Meğri).*

Müasir Azərbaycan ədəbi dilində işlənən *öyrətmək* feili Azərbaycan dili şivələrində *örgədir, ögrədir, örgənir, ögrənir, ürget, öyrənmək* formalarında tələffüz edilir. Bu sözün – *öyrətmək* sözünün birinci hecasındakı **y** səsi şivələrimizdə **g** səsi ilə tələffüz edildiyi üçün gr>rg səs dəyişməsini əsas götürmüşük. R.Rüstəmov Quba şivəsi ilə bağlı həmin fikri söyləmişdir (R.Rüstəmov,1961, s.102).

db>bd: *təbdir "tədbir" (Qazax).*

yb>bg: *həbgə<heybə (Meğri).*

yb>by: *həbyə<heybə (Qax).*

yb>vg: *həvgə<heybə (Qarabağ).*

rp>pr: t*oprağ<torpaq (Dərbənd, İraq), yaprağ<yarpaq, kiprik<kirpik, kipri<kirpi, köprü<körpü, toprax//tuprağ//tuprax<torpaq (İraq), kiprig<kirpik (Şamaxı, Muğan), kiprix'<kirpik (Qazax, Tovuz) və s.*

ğr>rğ: *dorğa<doğra (Naxçıvan, Karvansaray, Muğan, Meğri), orğu<oğru, dorğu<doğru (Naxçıvan, Meğri), arğı<ağrı (Naxçıvan, Şəki, Meğri), dorğama<doğrama (Şəki), arğanom<ağranom "aqranom" (Şəki, Meğri), dorğadım<doğradım (İraq), dorğamax<doğramax, sarğı<sağrı "qatır və eşşəyin belinin arxa tərəfi (Meğri), arğımax<ağrımaq (Çəmbərək) və s.*

gm>mg: *dümgə<dügmə "düymə" (Bakı).*

qd>dq: *midqar<miqdar (Bakı, Tovuz, Muğan).*

vr>rv: *qırvım-qırvım<qıvrım-qıvrım (Naxçıvan),Narvız<Novruz, qırvax<qıvraq (Naxçıvan, Ordubad, Meğri), qırvım<qıvrım, Norviz<Novruz, dörv<dövr, norvəs<növrəs (Meğri) və s.*

br>rb: *Tərbiz<Təbriz (Təbriz, Naxçıvan, Qarazax, Muğan, Meğri), Ərbəqunus<Əbrəqunus, kürbə<kübrə (Naxçıvan, Meğri), İrbahım<İbrahim (Ordubad, Naxçıvan, Meğri), kirbit<kibrit (Quba, Muğan), İrba:m<İbrahim (Naxçıvan, Şəki), Ta^{ə}rbiz<Təbriz, sərb<səbr, Cərbayıl<Cəbrayıl, ərbəş//a^{ə}rbəş<əbrəş<qoyun (Meğri), gürbə<gübrə (Naxçıvan) və s.*

şm>mş: *yəmşəx'<yaşmaq (Qazax, Tovuz), yamşax<yaşmaq (Qazax, Qax, Tovuz, Çəmbərək, Borçalı) və s..*

dy>yd: *bayda<badya (Qazax, Naxçıvan, Ordubad, Şamaxı, Muğan, Borçalı, Təbriz, Çəmbərək, Meğri), maydan<madyan< dişi at (Qazax, Şamaxı, Çəmbərək, Naxçıvan, Ordubad, Şəki, Muğan, Meğri), ma^{o}yda^{ə}n<madyan, ba^{o}ydə<badya, ba^{o}ydeçə<badyaçə "kiçik badya" (Meğri) və s.*

sk>ks: *öksürəg<öskürək (Şirvan), əksik<əskik (İraq) və s.*

sy>ys: *öysürmə<ösyürmə “öskürmə” (Şəki).*

rb>br: *tübrə<türbə (İraq).*

ml>lm: *məlməkət><məmləkət (Qazax, Tovuz, İraq, Borçalı, Naxçıvan), yelmix'<yemlik (Naxçıvan), kölmək<kömlək “köynək” (İraq, Çəmbərək) və s.*

nl>ln: *yalnış<yanlış, kölnüm<könlüm (İraq, Çəmbərək) və s.*

vy>yv: *loyva<lovya “lobya” (Qazax, Qarabağ, Tovuz, Zaqatala, Borçalı) və s.*

by>yv: *loyva<lobya (Borçalı) və* s.

sk>ys: *əysig<əskik (Bakı), əysi<əski< “köhnə, işlənmiş parça, istifadə edilməyən parça” (Qazax, Çəmbərək), əysik<əskik (Qazax, Tovuz, Ağstafa), öysürəx'<öskürək (Qazax, Ağdam, Ağstafa), öysürüx'<ösyürəx' “öskürək” (Qazax), əysi<əsyi “əski,köhnə, işlənmiş parça, istifadə edilməyən parça” (Qazax, Çəmbərək), üysüx'<üskük (Borçalı, Çəmbərək) və* s.

sk>ks: *öksürmək<öskürmək (İraq), öksürək<öskürək (Muğan) və s.*

rm>mr: *xumra<xurma (Bakı), dımrıx<dırmıq (Qazax, Naxçıvan, Borçalı), əmrud<armud (Naxçıvan) və s.*

mğ>ğm: d*ağma<damğa (Quba).*

qz>zq: v*azqal<vaqzal “vağzal” (Naxçıvan, Ordubad, Dərbənd, Şəki), vazqal<vağzal (Çəmbərək) və s.*

vl>lv: *qəlviyət<qəvliyət “qabiliyyət” (Qazax).*

my>ym: *deymi<demyi “dəmyə” (Təbriz).*

ğl>lğ: *salğam<sağlam, şağlam<şalğam “turpa oxşar bitki” (Çəmbərək) və s.*

zy>yz: *təyziq<təzyiq (Təbriz).*

ql>lq: *İlqimə<İqlimə (Şəki).*

bg>yb: *əybərdən<abgərdən “su qabı” (Bakı).*

bz>zb: *nəzbin<nəbzin (Bakı).*

ql>xl: *təxlid<təqlid (Bakı).*

şq>xş: *baxşa<başqa (Muğan).*

şr>rş: *Ərşa^{ə}f<Əşrəf (Meğri).*

xş>şq: *boxşab<boşqab (Şamaxı).*

yr>ry: *qiyrət//qiryet<qeyrət (Bakı), qiryet<qeyrət (Quba, Muğan), qiyrət<qeyrət (Şəki, Muğan), qiyrətsiz<qeyrətsiz (İraq) və s.*

yr>ry: *öryədir<öyrədir, öryədir<öyrədir (Qazax, Çəmbərək), öryən<öyrən, iryən<iyrən (Şəki) və s.*

çq>qç-xç: *buxçu//buxçi<bıçqı, ıxçırıx//ıxçırığ//ixçirik<hıçqırıq (İraq) və s.*

çx>xç: *uxçır//uxçır<uçxur “tuman bağı” (İraq) və s.*

qç~qş>şq: *araşqın<araqşın “araqçın” (Qazax, Şəki, Naxçıvan, Ordubad), araçqın<araqçın (Naxçıvan, Ordubad, Şəki) və s.*

şh>hş: *məhşur<məşhur (Naxçıvan, Şəki, Çəmbərək) və s.*

hv>vh: *əvhal<əhval (Naxçıvan).*

xs>sx: *yosxul<yoxsul (Təbriz), rusxat<rüxsət “icazə” (İraq) və s.*

qr>rğ: *ərğəb<əqrəb (Muğan, Meğri) və s.*

hr>rh: *çərhayi<çəhrayı (Bakı, Quba), sərha<səhra (Qazax, Ağstafa), pərhiz<pəhriz (Qazax, Təbriz), mərhəba//mərhəmə<məhraba “dəsmal” (İraq) və s.*

sq>xs: *axsırmax<asqırmaq (Şəki) və s.*

st>ts: *tutsağ//dutsağ<dustaq (İraq, Borçalı) və s.*

H.Mirzəzadə yazır: “Müasir dilimizdə **dustaq** sözü də quruluş etibarilə bizə sadə söz

kimi görünür. Çünki həmin sözü iki tərkib hissəsinə, yəni kök və şəkilçiyə ayırdıqda **dus+taq** şəklini alır ki, belə bir kök Azərbaycan dilində olmadığı kimi, **-taq** adlı şəkilçi də yoxdur. Mənşə etibarilə tədqiq edildikdə bu sözündə metateza nəticəsində həmin şəklə düşdüyünü görürük. **Dustaq** sözü bir çox əsrlər **dutsaq** şəklində yazılmışdır. Tərkib etibarilə iki sözdən **dut** və **saq** (la) feillərindən əmələ gəlmişdir. Tələffüzdə bu sözün daxilində olan **t** və **s** səslərinin biri digərinin yerinə keçməsi nəticəsində **dustaq** şəklini almışdır” (H.Mirzəzadə, 1990, s.33).

lv>vl: *qəvl<qəlv “qəlb” (Qazax), yavlardı<yalvardı (Təbriz), şavlar<şalvar, yavlarmax//ya^{o}vla^{ə}rma^{ə}x<yalvarmaq, tavlar//ta^{ə}vla^{o}r<talvar (Meğri) və s.*

ks>sk: *əskinə<əksinə (Təbriz), diskimməx'<diksinmək (Naxçıvan, Ordubad), diskimmax<diksinmək (Şəki), kösk<köks, yüskək//üskək<yüksək, köskürməx<köksürmək, diskinməx<diksinmək (İraq) və s.*

ks>sg: *disgimma^{ə}x<diksinmək (Meğri).*

ly>yl: *qaylan<qəlyan (Qazax, Naxçıvan, Tovuz, Borçalı, Çəmbərək), üylüc<ülyüc “ülgüc” (Qazax), qəylan//qəyla^{o}n<qəlyan, Eylas<İlyas (Meğri) və s.*

şx>xş: *rəxşənd<rişxənd (Quba, Qarabağ, Borçalı).*

xş>şx: *Rəşxəndə<Rəxşəndə (Meğri).*

rm>mr: *dümrəg<dürmək, çimrəməg<çırməmək (İraq) və s.*

fr>rf; *surfa<sufra “süfrə” (Qazax, Şəki, Tovuz, Borçalı, Çəmbərək), sırfa<süfrə (Naxçıvan, Muğan, Çəmbərək, Karvansaray), sürfə<süfrə (Şamaxı, Zaqatala) və s.*

fr>rp: *sürpə<süfrə (Zaqatala).*

rf>fr: *səfrə<sərfə (İraq).*

sq>xs: *axsırmağ<asqırmaq (Quba), axsırmax<asqırmaq (Borçalı, Çəmbərək) və s*

rt>tr: *ötrüx'<örtük (Təbriz) və s.*

rl>rr: *hərrən<hərlən, fırran<firlan, girrə<girlə, hərrəmə<hərləmə (Şəki), korradı<korladı (Çəmbərək) və s.*

mb>mm: *kümməz<kümbəz (Şəki), pammıx<pambıq, hammal<hambal (Naxçıvan), hammal//ha^{ə}mma^{o}l<hambal (Meğri) və s*

nb>mm: *təmməl<tənbəl, şəmmə<şənbə, çərşəmmə<çərşənbə (Şəki) və s.*

sl>sd: *bəsdədi<bəslədi (Şəki), isdaxdan<islaqdan, isdadırıx<isladırıq, issadıb<isladıb (Naxçıvan), issadıf<isladıb (Qazax) və s.*

şl>şd: *bağışda<bağışla (Şəki, Qazax, Çəmbərək) və s.*

nb>mb: *kümbəz<künbəz, sümbül<sünbül, şəmbə<şənbə, təmbəl<tənbəl (Şəki)və s.*

st>ss: *xəssə<xəstə (Naxçıvan, Quba), bossan<bostan, yassi<yastı, tüssü<tüstü, yassıx<yastıq (Naxçıvan), dussağ<dustaq (Quba), issi<isti (Naxçıvan, Təbriz, Qazax, Meğri), üssə <üstə, üssünə<üstünə, issiyəndə<istəyəndə, issədi<istədi, dossum<dostum (Qazax) tüssi <tüstü, yassı<yastı, ya^{o}ssı<yastı (Meğri), tüssi<tüstü, dəssə<dəstə, ussa<usta, issə<istə, püssə<püstə (Təbriz) və s.*

nl>nn: *qarannıx<qaranlıq (Qazax, Çəmbərək), qərannığ//qarənnığ “qaranlıq” (Dərbənd) və s.*

sd>ss: *bəssi “bəsdi”, təssığ//tassığ “təsdiq” (Naxçıvan) və s.*

hk>kk: *mökkəm<möhkəm (Çəmbərək, Meğri) və s.*

Yanaşı olmayan yerdəyişmə. Şivələrimizdə işlənən sözlərin daxilində yanaşı olmayan səslərin yerdəyişməsi də baş verir. Yerdəyişmənin bu növü yanaşı yerdəyişməyə nisbətən geniş yayılmamışıdır. Yanaşı olmayan yerdəyişmə aşağıdakı səslərdə müşahidə olunur.

ı-a>a-ı: *bağarsıx<bağırsaq (Qazax, Tovuz, Borçalı), buğarsığ//boğarsıx<bağırsaq (İraq) və s.*

n-m>m-n: *ağramon<aqranom, aqramon<aqranom (Qazax), mindaş<nimdaş (Quba), mintənə<nimtənə (Qubadlı, Meğri), məndər<nimdər (İraq), minta^{ə}na^{ə}<nimtənə, ağrəman<ağranom “aqronom” (Meğri), mindər<nimdar (Şamaxı, Muğan. İraq).*

l-n>n-l: *nəhlət<lənət (Qazax, Çəmbərək, Meğri), nənlət<lənət (Qazax), ne:lət//nə:-lət<lənət (Quba), nəx'lət//na^{ə}hla^{ə}t<lənət (Meğri), nələt<nəhlət “lənət” (Şamaxı, Qazax), nəlet<lənət (Bakı), Konalı<Kolanı “kənd adı” (Muğan).*

m-n>n-m: *inta:m<imtahan, inkam<imkan (Şəki, Meğri), intaham<imtahan (Qazax, Meğri), intağam<imtahan (Qazax), inta^{o}ha^{o}m//inta^{o}:m<imtahan (Meğri) və s.*

r-m>m-r: *samırsağ<sarımsaq (Dərbənd, İraq), semirsağ//səmirsağ<sarımsaq (Dər-bənd), samirsağ<sarımsaq (İraq) və s.*

r-n>n-r: *qənirə<qərinə (Naxçıvan, Ordubad, Meğri).*

t-r>r-t: *görsət<göstər (İraq).*

s-r>r-s: *rısa<sıra (Bakı).*

r-l>l-r: *iləri<irəli, ilərlədi<irəlilədi (İraq) və s.*

s-p>p-s: *püsrüntü<süprüntü (Qazax).*

r-s>s-r: *fəsarət<fərasət (Qazax).*

n-r>r-n: *gerenal<general (Tovuz), yaranal<general (Meğri) və s.*

l-r>r-l: *irğal<ilqar, yarval<yalvar (Şəki), partal<paltar, tarwal<talvar, şarwal<şalvar (İraq), partal<paltar (Quba, Dərbənd, Şəki) və s.*

m-h>h-m: *cahamat<camahat “camaat” (Qazax).*

k-d>d-k~t~k: *xətənkəz<xəkəndaz (Qazax, Tovuz, Borçalı).*

c-g>g-c: *əlgəc<əlcəg “əlcək” (Dərbənd), göncə<cöngə (Meğri) və s.*

ğ-d>d-ğ: *qardığalı<qarğıdalı (Şəki).*

q-y>y-q: *meyəqat<meqəyat (İraq).*

ğ-y>y-ğ: *kələyağı<kəlağayı (Quba).*

l-m>m-l: *sağmal<sağlam (Şəki).*

r-n>n-r: *xuncur>xurcun (Bakı,Çəmbərək, Borçalı), xuncır<xurcun (Bakı).*

ğ-n>n-ğ: *yornuğ<yorğun (Şəki).*

ğ-n>n-x: *yornux<yorğun (Çəmbərək).*

Saitlə samitin yerdəyişməsi aşağıdakı səslərdə müşahidə olunur

lu>ul: *qulb<qlub “klub” (Qazax).*

ru>ur: *doğurdan<doğrudan (Quba, Çəmbərək), durba<truba (Qazax, Çəmbərək).*

şi>iş: *işgil<şəkil (Quba), işşəx'<şişək<qoyun (Çəmbərək, Borçalı) və s.*

nə>ən: *ənnə<nənə (İraq).*

rı>ır. *ağırdı<ağrıdır (İraq).*

sü>üs: *üskut<sükut (İraq).*

şü>üş: *üşşə<şüşə (Qazax, Borçalı, Çəmbərək).*

al>la: *sağlamış<sağalmış (İraq).*

və>əv: *vələvlə//vələvla<vəlvələ (İraq).*

im>mi: *qədmidə<qədimdə (İraq).*
in>ni: *nişallah<inşallah (İraq).*
ıq>qı: *yanqılı-yanqılı<yanıqlı-yanıqlı (İraq).*
gə>əg: *dönəg<döngə (İraq).*
ri>ir: *birğədir<briqadir (Muğan), birqadir<briqadir (Çəmbərək) və s.*
ru>ur: *durba<truba, Ursiyə<Rusiya, Urquyə<Ruqiyə (Qazax) və s.*

M O R F O L O G İ Y A

Azərbaycan Dili Şivələrinin Morfoloji Xüsusiyyətləri

Şivələrin bölmələrindən biri də morfologiyadır. Morfologiya mənşəcə yunan sözü olub *morfo* (forma), *logos (*elm) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Söz və onun formalarından bəhs edir.

Azərbaycan dili şivələrinin morfologiyası zəngin olmaqla ədəbi dilimizin morfologiyasından bir çox xüsusiyyətlərinə görə fərqlənir. Belə ki şivələrimizin ədəbi dillə üst-üstə düşən morfoloji xüsusiyyətləri ilə yanaşı, müasir Azərbaycan ədəbi dildə rast gəlinməyən kifayət qədər morfoloji əlamətlər özünü göstərir. Şivələrimizin morfoloji əlamətləri dilimizin tarixi ilə səsləşir və eyni zamanda digər türk dillərində də rast gəlinir. Müasir Azərbaycan ədəbi dilinin morfoloji quruluşunun formalaşması və inkişaf tarixini izləmək üçün şivələrimizin morfoloji xüsusiyyətləri tam təsəvvür yaradır və baş verən morfoloji dəyişikliyi üzə çıxarmağa imkan yaradır. Bu, şivələrimizdə dilimizin qədim dövrünə xas hal şəkilçilərinin, eləcə də leksik və qrammatik şəkilçilərin mühafizə olunması ilə bağlıdır . Bu baxımdan şivələrimizə məxsus morfoloji xüsusiyyətləri aşağıdakı kimi ümumiləşdirmək olar:

1.Şəkilçilərin variantları özünü göstərir. Belə ki, *-lıq,- lik,- luq, -lük* leksik şəkilçisinin *-lıx,-lığ,-liğ,-luğ, -nığ,-niğ,-nuğ, -nüğ, -dığ, -dig, -diq,-duğ,-düg,-rığ,-riğ,-ruğ* (Dərbənd*), -lıx, -lux, -nıx, -nix, -nux, -rıx, -dıx, - dux (*Meğri), *-nıx,-nix′, -nux,-nüx′,-dıx,-dix′,-dux,-düx′* (Çəmbərək, Karvansaray), *-dıx,-dix′,-nıx,-,nix′-rıx,- rix′* (Çəmbərək, Qazax,Ağstafa), *-lıx,-lix′,-lux,-lüx′,-rıx,--rix′,-rux,-rüx′ (*Çəmbərək, Karvansaray, Qazax, Təbriz), *-dıx,-dux,-nıx,-tux* (Təbriz), *-nüx′,-rıx* (Naxçıvan), *-lıx,-lix′*(Naxçıvan, Şəki), *-nıx,-nux,-dıx,-dux* (Şəki),*-dığ,-lığ,-zığ,-niğ* (Muğan), *-lığ,-lig,-dığ,-dig,-rığ,-rig,-nığ,-nig* (Bakı) variantları şivələrimizdə söz yaradıcılığında iştirak edir. Məsələn: *balalalığ* “cift”, *dovuzduğ* “dəyirmanın un təknəsi, unluğu” (Dərbənd), *ağızzığ* “qıf, ağızlıq”, *əyağlığ* “pilləkən” (Muğan), *donquzdux* “dəyirmanın çarxına su yığılan yer” (Şəki), *arılıx* “arı səbəti yığılan yer”, *günnüx′* “çətir” (Naxçıvan), *başdıx* “əldə toxunan yaylıq”, *qəhətlıx* “qıtlıq” (Təbriz), *dizdix′* “tuman”, *əyrilix′* “paxıllıq” (Çəmbərək), *ağırrıx* “göz xəstəliyi”, *peyinnix* “peyin tökülən yer” (Meğri), *otdığ* “ot olan yer” (Bakı), *tərrix′* (Çəmbərək, Qazax), *tərrig* (Bakı) “yəhərin altından atın belinə qoyulan keçə parçası”, *ağızdıx* “doğan malın ilk südü” (Qazax) və s.

2. Qrammatik şəkilçilərin artırılması nəticəsində söz köklərində fonetik dəyişiklik baş verir.

a) II şəxs təkində və cəmində işlənən mənsubiyyət şəkilçili ismin hallanması nəticəsində: Məsələn: *ato:un, atova, ato:uza, babo:uzda, ərəbo:ün (*Bakı) və s.

b) isimlərin II şəxsin tək və cəminin mənsubiyyət şəkilçisinin qəbul etməsi nəticəsində: *nənö:üz, babo:uz, ərəbö:ün* (Bakı, Muğan), *əlüz, quzŭz, ütŭ̈z* (Muğan) və s.

c) sonu saitlə bitən isimlərin yönlük halda işlənməsi nəticəsində: *danıya* (Çəmbərək, Qazax,Gəncə, Tovuz) “danaya”, *nəniyə* (Ağstafa, Çəmbərək, Qazax, Gəncə, Şəmkir, Tovuz) və s.

ç) **mən** və **sən** şəxs əvəzliyinin yönlük halda işlənməsi nəticəsində: *ma:, sa:* (Çəmbərək, Qazax) - “mənə”, “sənə”, *mə:, sə:* (İrəvan, Muğan)- “mənə”, “sənə”, *maŋa* (Qazax) -“mənə”, *mağa, məğə, sağa, səğə* (Zaqatala, Qax) -“mənə”, “sənə” və s.

3. İsmin təsirlik halında sonu saitlə bitən isimlər və isimləşən sözlər *–yı,-yi,-yu,-yü* şəkilçisini qəbul edir. Məsələn: *qapıyı, quzuyu, körpüyü, çatıyı* (Borçalı, Çəmbərək, Gəncə,

Qazax, Tovuz) və s.

4. İsmin yiyəlik halında sonu samitlə bitən isimlər -iy, şəxs əvəzlikləri -iy, -üy şəkilçisini qəbul edir. Məsələn: *kəndiy* “kəndin”, *nənəliğiy* “nənənin” (Təbriz), *onuy* “ onun” (Lerik), *səniy* “sənin”, *biziy* “bizim” (İraq-türkman, 2004; M. Məmmədli, 2003, s. 69).

5. İsmin yiyəlik halında *–ıŋ, - iŋ, - uŋ,- üŋ; -nıŋ, - niŋ,- nuŋ,- nüŋ* şəkilçisi işlənir. Məsələn: *tüfənkiŋ* “tüfəngin”, *üşşəniŋ* “şüşənin”, *öyüŋ* “evin” (Çəmbərək, Gədəbəy, Qazax ; B. Sadıqov, 1977, s.11), *sədəfiŋ* “düymənin”, *quşunuŋ* “quşunun” (Çəmbərək, Karvansaray), *atanıŋ* “atanın”, *tüəngiŋ* “tüfəngin”, *mirtdanıŋ* “yumurtanın” (Gədəbəy), *atınŋ* “atın”, *qoluŋ* “qolun” (İmişli), *dumbuzuŋ* “dumbuzun” < yumruğun, *büvünüŋ* “bibinin” (Çəmbərək, Qaxax) və s.

6. Mənsubiyyət şəkilçili isimlər təsirlik halda *-n* şəkilçisini qəbul edir. Məsələn: *dərsin* “dərsini”, *qonşusun* “qonşusunu”, *qabağın* “qabağını” (Qarakilsə). Bu hal Azərbaycan dilinin Sisyan (Qarakilsə) şivəsi üçün xarakterik morfoloji xüsusiyyətdir (B. Sadıqov, 1977, s.21).

7. Ədəbi dildə dörd variantda işlənən şəkilçilər şivələrimizdə iki variantda özünü göstərir. Bu vaxt ahəng qanununun tələbləri pozulur. Məsələn: *aldı^{i}, verdi, tükdi, atası^{i}, quzusi, kürpisi* (R.Rüstəmov, 1961, s.106), *yazı^{i}, süri, qorxı^{i}, udış, əkdü, yatdu* (Bakı, Quba) və s.

8. Feilin indiki zamanı *–adu, -adı^{i},-ədi, -ədü* şəkilçiləri və **var** sözü ilə düzəlir. Məsələn: *aladu* “alır”, *gələdü* “gəlir”, *aladı^{i}* “alır”, *ala var* “alır”, *gələ var* “gəlir”, *süriyə var* “sürüyür”, *gidə var* “gedir”, *taniyə var* “tanıyır” (Dərbənd, Quba) və s.

9. Feili bağlama *–ıban, -ibən, -uban // -ubən, -übən, - ıbannı^{i}, -ibəni, -ubanı^{i}//-ubəni,-übəni; -ıbannarı^{i}, -ibənnəri, - ubannarı^{i},-übənnəri* (Dərbənd, Quba), *-ıbnan, -ibnən,-ubnan,-übnən, -ibənnəri// -ibənləri, -ıbannarı//-ıbanları, ubannrı// ubanları, -übənnəri // - übənləri* (Dərbənd), *-ıvəni,-ivəni,-uvəni,-üvəni* şəkilçiləri ilə düzəlir. Məsələn: *alıban* “alıb”, *gedibən* “gedib”, *duruban* “durub”, *çıxıban* “çıxıban”, *istiyibən* “istəyib” (Dərbənd, Quba), *alıbanı* “alıb”, *giribəni* “girib”, *baxubani* “baxıb” (Dərbənd), *qışqırıbannarı^{i}* “qışqırıb”, *gidibənnəri* “gedib” (Quba), *alıbənnəri* “alıb”, *bilibənnəri* “bilib”, *tutubanları* “tutub”, *gütəribnən* “gətirib”, *götürübnən* “götürüb” (Dərbənd), *alıvəni* “alıb”, *diyivəni* “deyib”, *duruvəni* “durub”, *bölüvəni* “bölüb” (Şəki) və s.

10. Feilin indiki zamanı *-er, -e:r, -or, -o:r,-ör, -ö:r* şəkilçiləri ilə düzəlir. Məsələn: *yater* “yatır”, *vuror* “vurur”, *çüşör* “düşür”, *iste:r* “istəyir”, *çalxe:r* “çalxalayır”, *otdo:r* “otlayır” (Ağstafa, Borçalı, Qazax), *toxuyor* “toxuyur”, *işde:r* “işləyir”, *görö:r* “görür”, *əyre:r* “əyrir” (Çəmbərək, Karvansaray) və s.

11. *habı//havı, habu, hobu* “bu”, həblə “belə”, *ho* “o”, *u* “o”, *honnarı, hunda* (Dərbənd, Qax,Şəki, Zaqtala), *hau* “o”, *ilə* “elə” (Dərbənd), *hələnçix′, helençix′* “elə”, *belənçix′, belençilix′* “belə” (Təbriz) işarə və şəxs əvəzlikləri işlənir.

12. Feilin nəqli keçmiş zamanı *-ıb, –ib, -ub, -üb* şəkilçisinin qarşılığı kimi *-ıtdı, -itdi, -utdu, -ütdü, -ıf,-if,-uf,-üf (-yıf,-yif,-yuf,-yüf)* şəkilçisi ilə düzəlir. Məsələn: *alıtdı* “alıb”, *gəlitdi* “gəlib”, *deyitdi* “deyib”, *durutdu* “durub”, *görütdü* “görüb” (Şəki), *alıfsan* “alıbsan”, *gəlif* “gəlib”, *oxuyuf* “oxuyub”, *görüfsən* “görüb” (Çəmbərək, Qazax, Şəki) və s.

13. Feilin qəti gələcək zamanı I şəxsin təkində *-aj,-əj,-ej,-oj,-öj, -ıj,-ij,-uj,-üj,* I şəxsin cəmində *-ajıy, -ajuy, -ajey, -aje:, -əjiy, -əjey, -əj, -ojuy, -öjüy, -ıj, -ij, -üj, -aco:,-əco: (-yəco,-yco:, co:)* şəkilçisi ilə düzəlir. Məsələn: *baxajam* “baxcağam”, *gedəjəm* “gedəcəyəm”, *görəjəm* “görəcəyəm”, *üzdüyüjəm* “üzləyəcəyəm”, *baxajıyx* “baxacağıq”, *işdiyəjiyix′*

"işləyəcəyik", *biləji:x'* "biləcəyik" (Ağstafa, Qazax, Tovuz), *alaco:uğ* "alacağıq", *gidəco:uğ* "gedəcəyik", *almico:uğ, almeyaco:ug* "almayacağıq" (Quba) və s.

14. Mənsubiyyət kateqoriyasının ikinci şəxsin təkində saitlə bitən sözlərdə - *ŋ*, samitlə bitən sözlərdə *-ıŋ, -iŋ,-uŋ,-üŋ* şəkilçisi işlənir. Məsələn: *ataŋ* "sənin atan", *nənəŋ* "sənin nənən" (Çəmbərək), *dədəŋ* "sənin dədən" (Çəmbərək, Qax, Naxçıvan), *atıŋ* "sənin atın", *keçiŋ* "sənin keçin" (Çəmbərək, İmişli, Şərur), *qoluŋ* "sənin qolun", *gözüŋ* "sənin gözün" (Çəmbərək, Qazax, Təbriz), *ərəbiyiŋ* "sənin araban" (Təbriz) və s.

15. Mənsubiyyət kateqoriyasının II şəxsin təkində saitlə bitən sözlərdə - *y,* samitlə bitən sözlərdə *-ıy, -iy,-uy,-üy, -inğ, -ğız, -ğuz* şəkilçisi işlənir. Məsələn: *babay* "sənin baban", *nənəy* "sənin nənən", *ayağıy* "sənin ayağın", *ömrüy* "sənin ömrün" (İraq), *evinğ* "sənin evin", *canğız* "sənin canın", *başınğız* "sənin başın" (Qax), *atığız* "sənin atın", *gözuğuz* "sənin gözün" (Cəbrayıl), *əliğiz* "sənin əlin", *qutuğuz* "sənin qutun" (Zəngilan; E.Əzizov,1999, s.185) və s.

16. Mənsubiyyət kateqoriyasının II şəxsin təkində saitlə bitən sözlərdə - *v*, samitlə bitən sözlərdə *-uv,-üv,* cəmində saitlə bitəndə *-vuz, -vuz,* samitlə bitəndə *-uvuz,-üvüz* şəkilçisi işlənir. Məsələn: *atov* "sənin atan", *babov* "sənin baban", *nənəv* "sənin nənən", *quzuv* "sənin quzun", *ütüv* "sənin ütün", *qulağuv* "sənin qulağın", *inegüv* "sənin inəyin", *babovuz* "sizin babanız", *atuvuz* "sizin atınız", *inegivüz* "sizin inəyiniz" (Dərbənd) və s.

17. Mənsubiyyət kateqoriyasının I, II şəxsin cəmində *-z, -ız, -iz, -uz, -üz* (Təbriz), *-yız, -yiz, -yuz, -yüz, -iyiz, -iyiz,-uyuz,-üyüz* (Cəbrayıl, İrəvan, Ordubad, Təbriz, Zəngilan) şəkilçisi ilə düzəlir. Məsələn: *bab ã:z* "sizin babanız", *hamm ĩ:z* "izin hamınız", *bac ĩ:z* "sizin bacınız", *əmĩ:z* "sizin əminiz", *süfrə̃:z* "sizin süfrəniz", *oğlũ:z* "sizin oğlunuz", gözũ:z "sizin gözünüz" (Təbriz), buğdayız "sizin buğdanız", *ziliyiz* "sizin ziliniz" < xalça növü, *suçuyuz* "sizin suçunuz", *gülüyüz* "sizin gülünüz" (Cəbrayıl, İrəvan, Ordubad, Təbriz, Zəngilan) və s.

18. Mənsubiyyət kateqoriyasının I şəxs tək və cəmi analitik yolla düzəlir. Məsələn: *mə:m qonax* "mənim qonağım", *mə:m arvad* "mənim arvadım" (Şəki), *bizim öy* "bizim evimiz" (Borçalı, Çəmbərək, Şəki) və s.

19. Mənsubiyyət kateqoriyası sintaktik yolla yaranır. Məsələn: *meni yuxı* "mənim yuxum", *məni el* "mənim elim", *sənin at* "sənin atın", *süzün dil* "sizin diliniz", *uların mekteb* "onların məktəbi" (Dərbənd) və s.

20. Feilin indiki zamanı *-ı,-i,-u,-ü, -ıy,-iy,-ey,-y* şəkilçisi ilə düzəlir. Məsələn: qalı "qalır", gəli "gəlir", aparı "aparır", görü "görür" (Təbriz), çalıy "çalır" (Naxçıvan), köçey "köçür", qaley "qalır", əkiy "əkir", gediy "gedir", oliy "olur" (Təbriz) və s.

21. Feilin bacarıq formasının inkarı *-amma, -əmmə* şəliçisi ilə düzəlir. Məsələn: *yazammadı* "yaza bilmədi", *oxuyammadı* "oxuya bilmədi", *gələmmədi* "gələ bilmədi", *görəmmədi* "görə bilmədi" (Borçalı, Çəmbərək, Qazax, Gəncə, Tovuz) və s.

22. **ki** bağlayıcısının qədim forması olan ***kın, kin, kun, kün, kim*** tabelilik bağlayıcısı işlənir.

23. Feilin əmr şəklinin I şəxsin cəmində *-eg, -gün* şəkilçisi işlənir. Məsələn: *aleg, alegün* "alaq", *yoleg, yolegün* "yolaq" (Bakı) və s.

24. Feildən isim düzəldən *-mac, -məc, -mec, -maş* şəkilçisi işlənir. Məsələn: *tıxlamac* "çoxlu çörək doğranan xörək", *döyməc* "ərinmiş yağa çörək doğramaqla hazırlanan yemək" (Çəmbərək), "meyvəni qabda əzməklə, döyməklə hazırlanan yemək", *yörtməc* "yelləncək" (Şəki), *buzlamac // buzdamaş* "sacda bişirilən qalın çörək" (Dərbənd), bozdamaş "sac üstündə bişirilən mayasız çörək" (Bakı, İsmayıllı, Qazax, Salyan), *bozartmaş* "ətdən hazırlanan yemək" (Meğri) və s.

25. Sıra sayı *-imci, -imci, -umcu, -ümcü, -ümci* şəkilçisi ilə düzəlir. Məsələn: *altımcı, birimci, otuzumcu, üçümci* (Dərbənd, Qazax, Şəki), *doqquzumcu, dördümcü* (Ağstafa, Qazax), *qırxımcı, beşimci, unumcu (*Naxçıvan) və s.

26. *Həyindi, hayindi* "indi", *öyrəli* " o vaxt, o gün" < keçən gün, *ho:r, bir ho:r* "bir az" (zaman mənasında), *soramnan* "sonra", *öyün* "o gün" < keçən gün və s. zaman zərfi (Şəki) işlənir.

27. *Nancan, nancən* "nə qədər", *accə* "azca" zərfi (Şəki) işlənir.

26. *Hıŋŋa, hıŋa* "bəli", *tapar* "görünür", *yaraf* "görəsən", *həlvət* "görünür ki", *bəkə, bərkə* "bəlkə" (Şəki), *həlvət* "əlbəttə", *qərəz* "nəhayət, xülasə, axır ki" (Çəmbərək, Şəki) modal sözləri işlənir.

28. Feilin əmr şəklində II şəxsin təkində - *gınan, - ginən, -gilən, -ynan, -ynən, -nən,* cəmində *-uz, -üz* şəkilçisini, feilin əmr şəklinin II şəxs cəmində *-ıŋ, -iŋ,-uŋ,-üŋ* (*-yıŋ, -yiŋ,-yuŋ,-yüŋ*) şəkilçisini qəbul edir. Məsələn: *yazginən* "sən yaz", *vurginən* "sən vur", *yazuz* "siz yazın", *gidüz* "siz gedin" (Quba), *çıxgınan* "sən çıx", *tüşüynən* "sən düş", *açıynan* "sən aç" (Borçalı, Qazax), *qazangınan* "sən qazan", *qoymaginən* "sən qoyma", *almaynan* "sən alma", *deynən* "sən de" (Naxçıvan), *açıŋ* "siz açın", *səpiŋ* "siz səpin", *qoşuŋ* "siz qoşun", *görüŋ* "siz görün" (Ağstafa, Borçalı, Çəmbərək, Qazax, Gəncə, Tovuz) və s.

29. Feilin qeyri-qəti gələcək zamanının inkarı Quba və Dərbənd şivələrində I şəxsin təkində və cəmində *-man, -mən,* Təbriz şivəsində I şəxsin təkində *-mam, -məm* şəkilçisini qəbul edir. Məsələn: *almanam* "almaram", *gəlmənəm* "gəlmərəm", *almanuğ* "almarıq", *gəlmənuğ* "gəlmərik" (Dərbənd, Quba), *almam* "almaram", *aşmam* "açmaram", *işməm* "içmərəm", *yetişməm* "yetişmərəm" (Təbriz) və s.

30. *Hancarı, həncəri* "necə?, nə cür?", *nağarta, nəğərtə* "nə qədər?" (Borçalı, Çəmbərək, Qazax, Tovuz), *nə:şə, ne:şə, nöş, nöşün* "niyə? nə üçün?" (Bakı), *nə tə:r* "necə?", *ha:sı* "hansı?" (Basarkeçər, Çəmbərək) sual əvəzliyi işlənir.

31. Feilin nəqli keçmiş zamanı analitik yolla düzəlir. Məsələn: *diye olmuşəm* "demişəm", *diyə olmusən* "demişsən", *diyə olutdu* "demişdir", *diyə olmişig* "demişik", *duye olmısız* "demişsiniz", *diye olutdular* "demişdirlər", *baxa ulmuşəm* "baxmışam", *baxa ulmisən* "baxmışsan", *baxa ulıtdu* "baxmışdır", *baxa ulmişüg* "baxmışıq", *baxa ulmisüz* "baxmışsınız", *baxa ulutdular* "baxmıçdırlar" (Dərbənd) və s.

32. Feilin indiki zamanı *-a (-ə) var, -a (-ə) dur* forması ilə düzəlir. Məsələn : *ala var* "alır", *gələ var* "gəlir", *ala varam* "alıram", *gələ varuğ* "gəlirik", *gələ varsınız* "gəlirsiniz" (Dərbənd), *qaynıya dur* "qaynayır", *baxa dur* "baxır" (Qax), *dərə dur* "dərir" (Dərbənd), *çəkə dur* "çəkir", *uxuya dur* "yuxulayır" (Quba) və s.

33. *Ögə* "başqa", *tənni // ənni* "kimi", *damağ* "kimi", *artda* "sonra", *sayrı* "başqa, savayı", *baxıb* "görə" qoşmaları işlənir. Məsələn: *munnan ogə* "bundan başqa", *məni tənni* "məni kimi", *məni ənni* "məni kimi", *pambığ damağ* "pambıq kimi", *munnan sayrı* "bundan başqa", *mənə baxıb* "mənə görə" (Dərbənd) və s.

NİTQ HİSSƏLƏRİ

Azərbaycan dilçiliyində morfologiya ilə bağlı yazılmış əsərlərdə nitq hissələrinin təsnifində müxtəliflik bu gün də özünü göstərir. H.Bayramov (ADQ, I, 1960, s.14-15), H.Mirzəzadə (H.Mirzəzadə, 1990, s. 34-35), Ə. Tanrıverdi (Ə.Tanrıverdi, 2010, s. 184), Q.Cəfərov (MAD, II, 1980, s. 24) nitq hissələrini iki yerə (əsas nitq hissələri, köməkçi nitq hissələri), B.Xəlilov (B.Xəlilov, I, 2000, s. 144) üç yerə (əsas nitq hissələri, köməkçi nitq hissələri, xüsusi nitq hissələri) bölür.

Azərbaycan dili şivələrindən bəhs edilən əsərlərdə nitq hissələri iki yerə - əsas nitq hissələri və köməkçi nitq hissələrinə bölünür. Fikrimizcə, nitq hissələrinin üç yerə bölünməsi daha məntiqidir. Çünki nitq hissələrindən olan modal sözlər və nida "müstəqil mənalarına, morfoloji xüsusiyyətlərinə və sintaktik vəzifələırinə görə" (B.Xəlilov, I, 2000, s. 144) həm əsas nitq hissələrindən, həm də köməkçi nitq hissəlırindən fərqlənir. Sintaksisdə modal sözlər,əsasən ara sözlər kimi iştirak edir və nida isə nida cümlələrinin əsas əlamətlərindən birini təşkil edir.

Müasir Azərbaycan ədəbi dilində olduğu kimi Azərbaycan dili şivələrində də sözlər leksik mənalarına görə bir-birindən fərqlənir, müxtəlif qrammatik xüsusiyyətlərə malik olur. Şivələrimizdə işlənən sözləri nitq hissələri baxımından üç yerə bölmək olar:

1.Əsas nitq hissələri: isim, sifət, say, əvəzlik, feil, zərf.

2.Köməkçi nitq hissələri: qoşma, bağlayıcı, ədat.

3.Xüsusi nitq hissələıri: modal sözlər, nida.

ƏSAS NİTQ HİSSƏLƏRİ

İsim

Azərbaycan dili şivələrində isim öz morfoloji xüsusiyyətlərinə görə ədəbi dildən fərqli əlamətlərə malikdir. Bu özünü ismin hal, mənsubiyyət, xəbərlik kateqoriyalarında aydın şəkildə göstərir. Belə ki, ismin hal, mənsubiyyət və xəbərlik şəkilçiləri ədəbi dildən fərqlənir.

Azərbaycan dili şivələrində isimlər quruluşuna görə üç yerə bölünür:

1.Sadə isimlər.

2.Düzəltmə isimlər.

3.Mürəkkəb isimlər.

Sadə isimlər

Azərbaycan dili şivələrində işlənən isimlərin əksəriyyətini sadə isimlər təşkil edir və dilimizin qədim dövrünə aid kifayət qədər sadə isimlərə rast gəlinir. Şivələrimizdə işlənən sadə isimlərin bir hissəsi müasir Azərbaycan ədəbi dilində müxtəlif fonetik tərkiblərlə ortaqlı xüsusiyyətə malikdirsə, bir hissəsi yalnız Azərbaycan dili şivələrində işlənir. Məsələn : *abla* (Ağdam) - umac, *adax* (Ağcbədi, Ağdam, Bərdə, Gəncə, Göyçay, Qazax, Şəmkir, Şuşa,Tərtər)-uşağın ilk addımı, *adiy* (Zaqatala)-ana, *ava* (Çəmbərək)-ata, *ayıl* (Dərbənd)-kəndir, bağ, ip, *bədəv* (Naxçıvan)- bəslənmiş at, *bərni* (Naxçıvan)- kiçik saxsı qab, *cada* (Qubadlı)-yol, *çalma* (Ağdam, Xocalı, Qubadlı)-dəryaz, *xosma* (Qubadlı)-daxma, *ged* (Borçalı)-əl ağacı, *gəzdik* (Yardımlı)-bıçaq, *xaxara* (Qax, Şəki, Zaqatala)-taxça, *xəbiz* (Şamaxı)- taxıl, *in* (Göyçay)-səs, *irəd* (Bakı, Biləsuvar, Culfa, Çəmbərək, Füzuli, Salyan, Şirvan, Tərtər)-ləpir, iz, *kol* (Zaqatala)- meşə, *kom* (Çəmbərək, Naxçıvan)-qoyun salınan yer, *xərək* (Çəmbərək, Göyçay, Ucar)-kotanın sahədə (tarlada) açdığı şırım, *köbər* (Ağcabədi, Bərdə, Qax, Yevlax)-dik yer və s.

Düzəltmə isimlər

Azərbaycan dili şivələrində düzəltmə isimlər leksik şəkilçilərin iştirakı əsasında iki yolla əmələ gəlir:

a) adlardan əmələ gələn düzəltmə isimlər;

b) feillərdən əmələ gələn düzəltmə isimlər.

Adlardan əmələ gələn düzəltmə isimlər. Azərbaycan dili şivələrində adlardan düzələn isimlər aşağıdakı şəkilçilərlə əmələ gəlir.

1.*-lıq,-lik,-luq,-lük.* Bu şəkilçi ədəbi dildə olduğu kimi şivələrimizdə də geniş şəkildə işlənən məhsuldar şəkilçilərdəndir. *-lıq, -lik, -luq, -lük* şəkilçisi Azərbaycan dili şivələrində *-lıx, -lix′, -lux, -lüx′, -lığ, -lig, -luğ, -lük, -dıx, -dix′, -dux, -düx′, -dığ,-dig,-duğ, -dük, -nıx,-nix′,-nux, -nüx′, -nığ,-nig,-nuğ, -nük, -rıx,-rix′,-rux, -rüx′, -rığ,-rig, -ruğ, -rük, -zıx,-zix′,-zux, -züx′,-zığ, -zig,-zuğ, -zük* fonetik variantlarda özünü göstərir (M. Şirəliyev, 1967, 133). Şivələr üzərində aparılan müşahidədən aydın olur ki, -lıq[4] şəkilçisi Bakı şivəsində *-lığ, -liğ, -dığ, -dig, -rığ, -rig,- nığ, -nig,* Təbriz şivəsində *-rıx, -rix′,-rux, -rüx′,* Dərbənd şivəsində *-lıx,-lığ,-lıg,-luğ,-lüg,-nığ (-nig, - nuğ), -dığ,(-dig// -diq, -duğ, -düg), -rığ (-rig,-ruğ),* Zəngilan şivəsində *-lıx,-lix′,-lux,-lüx′, -nıx,-nix′,-nux,-nüx′,-dıx,-dix′,-dux,-düx′,-rıx,-rix′,-rux,-rüx′, -zıx,-zix′,-zux,-züx′,* keçid şivələrində (Ağdaş, Göyçay şivələrində) *-nıx,-niğ, -nik,-nux,-dıx,-dığ,*-dik, *-dix′, -zik, -rıx, -rix′,* -lıx,-lik,-l*üx′, -lüx′,* Şəki şivəsində *-lıx,-lix′,(-nıx,-nux,-dıx,-dux,* Naxçıvan qrupu şivələrində *-lıx (-lix′,-rıx),* qərb qrupu çivələrində *-lıx,-lix′,-lux,lüx′,* Qərbi Azərbaycanın

Çəmbərək və Karvansaray şivələrində *-lıx, -lix', -lux, -lüx', -lığ, -lig, -nıx,-nix', -nux, -nüx', -dıx, -dix', -dux, -düx', -rıx, -rix', -rux,-rüx',* Meğri şivələrində *-lıx,-lux (-nıx,-nix,-nux,rıx,-dıx,-dux)* fonetik formalarında işlənir. "...şərq qrupunun əsas əlaməti olan cingiltiləşməni (-lığ, -lig) və qərb qrupu xüsusiyyəti olan karlaşmanı (-lıx,-lik, - lux' -luh) özündə əks etdirmiş şəkilçi variantları nisbətən geniş şəkildə (xüsusən Ağdaşda) yayılmışdır (A.Vəliyev,1975, s. 8).

-lıq,-lik,-luq,-lük şəkiçisi və şivələrdə işlənən variantları isim, sifət və bəzən də saylara qoşularaq yeni mənalı sözlər – isimlər əmələ gətirir.

a) isimlərdən düzələnlər: çəpiçdix' (Gəncə,Qazax) // *çəpişlig* (Ağstafa) – 10-15 qoyundan ibarət sürü, *çırnalıx* (Ağsu)-kolluq, *əhliyətdix' (*Meğri) –kömək, yardım, *şamlıx* (Cəbrayıl, Zəngilan) –qamışlıq, *xirdəklik* (Salyan)-boyunbağı, *kağannıx* (Şəmkir)-boyunduruğun üst hissəsi üçün yararlı ağac, *nənəlik* (Bərdə, Lənkəran, Tərtər) -ögey ana, *öglüg* (Dərbənd) – önlük (Dərbənd şivəsində "ön, qabaq, qarşı" mənasınad işlənən *ög* sözündən əmələ gəlib), *sinəlik* (Ağcabədi) –kişi və ya qadın alt köynəyinin sinəsinə əlavə edlən parça, *qabağluğ (*Dərbənd) –qadınların alınlarına bağladıqları bəzəkli əşya, *bacılıx* (Çəmbərək)- rəfiqə, *o:laxlıx* (Meğri)- oğlaqlıq < heyvan (keçinin) bətnində oğlağın yerləşdiyi yer, *suluğ* (Dərbənd)-bataqlıq, *sulux* (Ağdam, Ağdərə, Cəbrayıl, Çəmbərək, Gədəbəy, Xocavənd, Kəlbəcər, Qarakilsə, Sabirabad, Tovuz, Ucar, Yevlax, Zəngilan)- qoyunun ilk südündən hazırlanan yemək növü, *küzliğ* (Lerik) - quzular saxlanılan yer (Ağcabədi, Ağdam, Bakı, Basarkeçər, Bərdə, Biləsuvar, Cəbrayıl, Cəlilabad, İmişli, Kürdəmir, Qarakilsə, Şərur, Yardımlı, Laçın,Meğri, Ordubad, Saatlı, Salyan, Şəmkir, Tovuz, Zəngilan, Zərdab şivələrində "quzu saxlanılan üstü örtülü yer" mənasında *küz* sözündən əmələ gəlib), *küzdüx'* (Füzuli) – payızlıq (qədim dilimizdə "payız" mənasında işlənən *küz* sözündən əmələ gəlib), *örənnix'* (Zəngilan) –çox otarılmaq nəticəsində otsuzlaşmış yer (Cəbrayıl, İmişli, Qarakilsə, Zəngilan şivələrində "çox otarılma nəticəsində otu qurtarmış, otsuzlaşmış yer" mənasındaişlənən *örən* sözündən əmələ gəlib), *şatırrıx* (Bakı, İrəvan) – çörək yapma, çörək bişirmə sənəti (Bakı, İrəvan şivələrində "çörək yapan" mənasında işlənən *şatır* sözündən əmələ gəlib) və s.

b) sifətdən düzələnlər: acılığ (Bakı) – sıx tikanlı bitki, *aclığ* (Xaçmaz) - yeni məhsul çıxmamış üyüdülən taxıl, *çəpəllıx* (Zaqatala) – tənbəllik, *çılpaxlıx* (Culfa, Çəmbərək, Qazax, Şərur) - paltar, *dağallığ* (Füzuli, Gəncə, Qazax, Şəmkir) -cığallıq, *dütdülümlük* (Zaqatala) - yüngülxasiyyətlilik (*Zaqatala şivəsində "yüngülxasiyyət" mənasında işlənən dütdülüm sözündən əmələ gəlib*), *əlbəsö:ünnüy* (Ucar) –acgözlük, *gərgirrix'* (Hamamlı) -tərslik, *göylüx'* (Çəmbərək, İmişli) –xəsislik, *höyüşdüx'* (Qazax, Ucar) –nəmişlik, *qəlbilix'* (Bərdə) – yüksəklik, *səməlıx* (Şəki) - acizlik, *qıtmırlıx* (Təbriz) -xəsislik, *çətinnıx* (Təbriz) – çətinnlik, *ləjdix'* (Çəmbərək, Gəncə, Qazax, Oğuz) – düşmənçilik, *danqazdığ* (Masallı, Ordubad, Salyan) – dikbaşlıq, lovğlıq (*bu söz Astara, İmişli, Kürdəmir, Masallı, Ordubad, Salyan* şivələrində "dikbaş, lovğa, ədəbaz" mənasında işlənən danqaz sözündən əmələ gəlib) və s.

c) saylardan düzələnlər: yeddilik (İmişli, Masallı, Qazax) - qızlarquşu (İmişli, Masallı); yeddi canavardan ibarət sürü (Qazax) və s.

2. *–lı, -li,-lu,-lü.* Azərbaycan dili şivələrində adlardan isim düzəldən şəkilçilərdən biri də *–lı, -li,-lu,-lü* şəkilçisidir. Bu şəkilçi şivələrimizdə həm də *-dı^4, -nı^4, -rı^4,* Dərbənd şivəsində *-tı, -nu, -dü* (Dərbənd dialekti, 2009, s. 43) fonetik variantlarında müşahidə olunur.

-lı^4 şəkilçisi və onun variantları adlardan, əsasən isimlərdən müxtəlif mənalı isimlər əmələ gətirir:

a) əşya adı bildirən isimlər düzəldir: *acıtmalı* (Göyçay) –çörək, *dadaxlı (*Şəki) – ayaqlı,

*ərişdəl*i (Qazax, Tovuz) - ərişdə ilə hazırlanan xörək adı, *xamralı (*Ağcabədi, Ağdam, Ağdərə, Bolnisi, Borçalı, Cəbrayıl, Çəmbərək, Goranboy, Göyçay, Qazax, Tərtər, Tovuz) – sacda bişirilən qalın çörək, *qulaxlı* (Şəmkir) – arabada laydırın aşağı hissəsindən keçirilən dəmir (Göyçay, Tovuz şivələrində "araba oxunun ucu" mənasında işlənən *qulax* sözündən əmələ gəlib), *qapaxlı (*Çəmbərək) – qazan və s.

b) məkan bildirən isimlər düzədir: *axımlı* (Dərbənd) – evin damında yağış suyunu axıtmaq üçün düzəldilən yer, *irəməli* (Qazax, Tovuz) – su çıxmayan yer və s.

c) insan anlayışı bildirən isimlər düzəldir: *atdı* (Çəmbərək, Dərbənd) -atlı, *azərbaycannu* (Dərbənd) –azərbaycanlı, *dövlətdü (*Dərbənd) - dövlətli, *kətd*i (Bakı) -- kəndli < bir kənddən olan, *şə:rli* (Təbriz) - şəhərli, *dağlı* (Çəmbərək) – dağlıq ərazidə yaşayan adam və s.

Təbriz şivəsində "Bəzi hallarda sonu samitlə bitən sözlər bu şəkilçidən (məkan mənalı isim əmələ gətirən -lı^4 şəkilçisi – İ.B.) sonra cəmlik bildirən –lar, -lər şəkilçisini qəbul etdikdə *–lı, -li,-lu,-lü* şəkilçisinin samiti düşür və nəticədə şəkiçi *–ı, -i, -u, -ü* şəklində işlənir; məs. : zindanılar, yaponılar, azərbaycanılar, ərdəbilər" (M. Məmmədli, 2008, s.77).

3. *-çı, -çi, -çu,- çü*. Azərbaycan dili şivələrində işlənən məhsuldar şəkilçilərdən biri də *-çı, -çi, -çu, -çü* şəkilçisidir və ədəbi dilimizin bütün dövrlərində geniş şəkildə işlənmişdir. Bu şəkilçinin "XIII- XIV əsrlərdən başlayaraq müasir dövrümüzə qədər mövcud olan ədəbi əsərlərin dilində aktiv vəziyyətdə olduğu görünür" (H.Mirzəzadə, 1990, s. 55).

-çı, -çi, -çu,- çü şəkilçisi Bakı, Göyçay şivələrində -çi (M.Şirəliyev, 1957, 49; A. Vəliyev, 1975, s.9), Muğan qrupu, Təbriz şivələrində -çı, -çi (M. Məmmədli, 2007, 76; Muğan qrupu şivələri, 1955, s.75-76), qərb, Naxçıvan qrupu şivələri, Dərbənd, Meğri, Ağdaş şivələrində -çı^4 (Qərb qrupu şivələri, 1967, s.70; Naxçıvan qrupu şivələri, 1962, s. 82; M. İslamov, 1968, s. 75; A. Vəliyev, 1975, s.9; Ş. Kərimov, 2004, s.99; Ə. Əliyev, 2003, s.187), Quba şivələrində -çı^i -çi (R.Rüstəmov, 1961, s.109) variantlarında işlənir.

-çı^4 şəkilçisinin iştirakı ilə şivələrimizdə müəyyən peşə, sənət, vəzifə, adət, məşğuliyyət və s. mənası bildirən isimlər əmələ gətirir. Məsələn: *ətçi* (Bakı) –qəssab, *cızdığçı* (Ağcabədi) – cızdaq ilə sümüklü ətdən hazırlanan yemək hazırlayan, *culfaçı* (Şəki) – yun şal, şalvar, pencək toxuyan, *çağırıççı* (Qazax, Tərtər) – kuryer, toya adam çağıran, *çaxnaxçı* (Gəncə,Gğygöl) - aravuran, araqarışdıran, *çapo:ulçu* (Laçın) –qarətçi, *çinəçi* (Ağcabədi, Bərdə, Salyan) –muzdla iş görən, *güdüx'çü* (Çəmbərək) – pusquda duran, *sığırçı* (Ağstafa, Barana, Kəlbəcər, Qax, Qazax, Şəki, Şəmkir) – naxırçı, *dağçı* (Qazax) – yayda dağda yaşayan adam, *əbəçi* (Cəlilabad, Lerik, Yardımlı, İmişli, Sabirabad, Zəngilan) –mama, mamaça, *sıraçı* (Basarkeçər) – növbə ilə camaat malını otaran, *əmmərəçu* (Salyan) – göyərti əkmək üçün ayrılmış sahə (Neftçala və Salyan şivələrində "ləklərin arasındakı kiçik, ensiz su arxı" mənasında işlənən *əmmərə* sözündən əmələ gəlib), toyçu (Ağdam, Qazax, Şərur) - toyda musiqi çalan, çalğıçı, yançı (Bərdə, Borçalı, Çəmbərək, Xocavənd, Kürdəmir, Qax, Qarakilsə, Qazax, Quba, Tovuz) – köməkçi və s.

Azərbaycan dilinin Təbriz şivəsində "*-çı, -çi, -çu,- çü* şəkilçisi ilə paralel onun **c** ilə işlənən *-cı, -ci, -cu, -cü* variantı da özünü göstərir: kətci, əkinci, sütcü "süd satan", işci, həcəmətci "qan alan", qoruxcu" (M. Məmmədli, 2008, s.76). Azərbaycan dilinin keçid şivələrində *-çı, -çi, -çu,- çü* şəkilçisi *-lı, -li,-lu,-lü* şəkilçisinin sinonimi yerində işlənir.Məsələn: tiflisçi, çölçü, kəççi. Bu qrammatik xüsusiyyət qırğız dilinin Cerqa – tala şivəsində də müşahidə olunur (A. Vəliyev, 1975, s.9).

Qərbi Azərbaycanın Zəngibasar şivsində *-ɥı, -ɥi, -ɥu, -ɥü* şəkilçisi müşahidə olunur. Məsələn : *irəhɥi* – rəngsaz, *bağbanɥı* –bağbançı< bağban və s.

4. *-çılıq, -çilik, -çuluq,- çülük*. Adlardan isim düzəldən məhsuldar şəkilçilərdən biri *-çılıq, -çilik, -çuluq,- çülük* şəkilçisidir. Bu şəkilçi Azərbaycan dili şivələrində *-çılıx, -çilix′, -çulux,- çülüx′, -çılığ, -çuluğ, -çılıx,-çilix′, -çilik,-çilig,-çilih,-çiliy* formalrında təzahür edir. Məsələn: *qahımçılıx* (Zəngilan) - qohumçuluq < qohumluq, *çəpərçilix′* (Zəngilan) –çəpərçilik < çəpər düzəldən, *başmaxçılıx* (Təbriz) –ayaqqabı sənəti ilə məşğul olan, *barmaxçılıx* (Ağdaş, Göyçy) – qaşsız üzük, *üzməkçilik* (Ağdaş, Göyçy) - üzgüçülük, *qabağçılığ* (Dərbənd) – qadınların alınlarına bağladıqları bəzəkli əşya, *çənəçuluğ* (Dərbənd) – çinədan, *höjətçilix′*(Çəmbərək) – tərslik, *obaçılığ* (Biləsuvar) –köçərilik və s.

5.*-ağ, -ax, -əx′,-x, -x′*. Müasir Azərbaycan ədəbi dilində işlənən *-aq, -ək, -q, -k* şəkilçisinin şivələrimizdə işlənən variantıdır (M.Məmmədli, 2008, s. 78). Adlara (isimlərə, sifətlərə) artırılaraq isim əmələ gətirir. Məsələn: *balax* (Təbriz) - camış balası, *yolağ* (Cəlilabad, Salyan, Yardımlı) – cığır, yol, *soğanağ*– soğan bitən yer(Yardımlı), yabanı bitki (Çəmbərək), *tərəx′* (Zəngiln) -halva növü (Fikrimizcə, **tərəx′** *tərə* sözündən əmələ gəlib. Ehtimal ki, *tərə* “kərə yağ” mənasını bildirir. Halva yağla bişirilir. Müasir türk ədəbi dilində “ kərə yağ”a “tərə yağ” deyilir.), *dibəx′* (Ağbaba, Basarkeçər, Cəbrayıl, Füzuli, Göyçay, Kürdəmir, Ordubad, Şahbuz, Zaqatala, Zəngilan) – duz, yarma, çəltik döymək üçün içi oyulmuş daş və ya kötük və s.

6. *-am,-əm, -m*. Bu, məhsuldar şəkilçidir və adlardan isim düzəldir. Məsələn: *güzəm* (Basarkeçər, Çəmbərək, Qazax, Gədəbəy, Gəncə, Göyçay, Təbriz, Tovuz, Şəki, Zəngilan) – payızda qırxılan yun, *gizam* (Göyçay) – qırxılan yun, *üçəm* (Ağdam, Çəmbərək, Kürdəmir, Ordubad) –bir dəfəyə üç bala doğmuş qoyun, *gügəm // göyəm* (Göyçay) – göyəm, *pöhrəm* (Göyçay) – pöhrə, *dördəm* (Çəmbərək, Qazax, Meğri, Salyan, Tovuz) – dördayaq qaçma, *bəndəm* (Ağdam, Başkeçid, Cəbrayıl, Dərələyəz, Füzuli, Gədəbəy, Göyçay, Qazax, Mingəçevir, Şəki, Şəmkir, Tovuz, Zaqatala, Zəngilan) – dərz və ya bafa bağlamaq üçün kökündən çıxarılmış sünbüllü küləşdən və ya uzun otdan düzəldilən bağ // (Bakı) – meyvə saplağı // (Çəmbərək) – tütün topası, *yazam* (Təbriz) – yaz yunu və s.

7. *-c*. Azərbaycan dili şivələrində iştirak edən qeyri-məhsuldar şəkilçilərdən biri - *c* adlara artırılaraq isim əmələ gətirir. Məsələn: *anac (*Çəmbərək) –yaşlı toyuq və s. Qərbi Azərbaycanın Çəmbərək şivəsində ***anac*** eyni mənada həm də ***anaş*** fonetik formasında işlənir.

8. *–cax, -cəg, -cəx′*. Azərbaycan dili şivələrində işlənən qeyri-məhsuldar şəkilçilərdən biri olmaqla *-cəg -cəx′* isimdən yeni mənalı söz əmələ gətirir. Məsələn: *əlcəx′* -bir dəstə biçilmiş taxıl, bir əl tutumu taxıl (Füzuli, Zəngilan), bir əl boyda daranmış yun (Ağcabədi, Ağdam, Çəmbərək), *əlcəg* (Göyçay, Salyan, İmişli, İsmayıllı, Kürdəmir, Masallı,Yardımlı) – dəstə, dəstək, *külləncəg* (Yardımlı) – yelləncək, *sucax* (Çəmbərək) - sulu yer və s.

9. *-çağ -çax*. Şivələrində işlənən qeyri- məhsuldar şəkilçilərdən biridir. İsimdən və sifətdən isim əmələ gətirir. Məsələn: *uzunçax* (Gədəbəy) – yelləncək, *havaçağ* (Quba) - yelləncək, *qabçağ* (Salyan) – pambığı dərilmiş qoza, *qafçağ* (Göyçay, Zərdab) //*qafçax* (Mingəçevir) – su qabı, *qolçax* (Füzuli, Qarakilsə, Qazax, Oğuz, Göyçay, Şahbuz, Zəngilan) - taxıl biçiləndə və ya təndirə çörək yapılanda qola dolanan parça, *yançax* – yan hissə (Gədəbəy), insan budunun bir hissəsi (Çəmbərək), *tumançax* (Çəmbərək, Şəki) – tumanı olmayan, tuman geyinməyən adam və s.

10. *-acaq*. Bu şəkilçi qərb və şərq qrupu şivələrində –acax formasında işlənir və qeyri-məhsuldar şəkilçidir. Sifətlərə qoşularaq isim əmələ gətirir. Məsələn: *daracax* (Gədəbəy, Gəncə, Şamaxı, Şəmkir) – keçid, dağ keçidi və s.

11. *-alax*. Qeyri- məhsuldar şəkilçilərdən olub Ağcabədi şivəsində rast gəlinir. Məsələn:

comalax (Ağcabədi) – bir nəsildən olan adamların yaşadığı yer, ərazi (İmişli, Kürdəmir, Salyan, Şirvan şivələrində “tayfa, nəsil” mənasında işlənən *com* sözündən əmələ gəlib).

12. *-ça,-çə.* Azərbaycan dili şivələrində işlənən məhsuldar şəkilçilərdən biri -ça,-çə şəkilçisidir. Bu şəkilçi adlardan kiçiltmə mənalı isim düzəldir və Azərbaycan dilinin bütün şivələrində rast gəlinir. Məsələn: *daqqaç*a (Ucar) – emallı, balaca boşqab, *dalança* (Cəbrayıl, Meğri) – kiçik koma (Meğri şivəsində “koma” mənasında işlənən *dalan* sözündən əmələ gəlib), *danaça* –camışın birillik dişi balası (Qafan), camışın ikiillik balası (Cəbrayıl), *mamaça* (Çəmbərək, Qazax, Zəngilan) – uşaq tutan qadın, *kəlçə* (Çəmbərək) – camış balası, *qalaça* (Füzuli) –kaha, *qolça* (İmişli, Kürdəmir, Salyan) –kanalın kiçik qolu, *nalça* (Borçalı, Hamamlı) – iri dəmir, *satılça* (Dərbənd) - su qabı (Salyan, Tabasaran şivəsində “qulplu su qabı” mənasında işlənən *satıl* sözündən əmələ gəlib), *səkçə* (Salyan) - bardaq (Salyan şivəsində “qatıq çalmaq üçün gil qab” mənəsında işlənən *sə:k* sözündən əmələ gəlib), *zaxarça* (İrəvan) - qısaboyun, *soğança* (Bərdə, Borçalı, Çəmbərək, Daşkəsən, Göygöl, Tərtər, Tovuz) - xörək adı (yağ, soğan, su, kartof və quru çörəkdən hazırlanır), *tiyənçə* (Culfa) – tava (Culfa, Çəmbərək, Şərur şivələrində “böyük qazan” mənasında işlənən *tiyən* sözündən əmələ gəlib) və s.

13. *-süx'.* Qeyri-məhsuldar şəkilçidir və isimdə isim əmələ gətirir. Məsələn : *günsüx'* (Çəmbərək, Tovuz) –günün təsirindən xarab olan, çürüyən qatıq, *günsüx'* (Çəmbərək) - gün vurmuş adam və s.

14. *–laq,-lək.* Qeyri-məhsuldar şəkilçi olub, isimdən yeni söz əmələ gətirir. Məsələn: *döllək* (Çəmbərək) – döl götürülən yer, *güzlək* (Ordubad) – payız otu, payızda göyərən ot yeri, *çaylaq* (Çəmbərək)- çay axan yer, çayın sahili və s.

15. *-dax, -dəx',- dex', -tax.* Qeyri - məhsuldar şəkilçidir. İsimlərə artırılaraq məkan mənalı, eləcə də əşya mənalı isimlər düzəldir.

a) məkan mənası bildirən düzəltmə isimlər: *buzdax* (Çəmbərək, Karvansaray) –qışdan buz qalan yer, *duzdax* (Çəmbərək, Karvansaray) – heyvanlara duz verilən yer, *küzdəx'* (Basarkeçər, Çəmbərək, Qazax, Təbriz) - payız yurdu (Qədim türk dilində “payız” mənasında işlənən *küz* sözündən əmələ gəlib) və s .

b) əşya bildirən düzəltmə isimlər: *əldəx'* (Təbriz) –qızın nişanlısına göndərdiyi hədiyyə, *cürdəx'* (Zəngilan) –saxsı su qabı, *güzdəx'* (Zəngilan) – payızda bitən göy ot, *işdəx'* - əkin yerinin ortasından çəkilmiş arx (Culfa), iş, əməl (Meğri, Şuşa, Şəki), *güzdex'* (Şəki)- payızda göyərən ot, *çatdax* (Çəmbərək, Karvansaray) –cırılmış, çat vermiş yer, *buruntax* (Çəmbərək) – heyvanların burnuna salınmış kəndir, *dişdəx'* (Çəmbərək) – dişlənilmiş çörək, meyvə və s.

Bu şəkilçi şivələrimizdə müasir Azərbaycan ədəbi dilində işlənən –laq, -lək şəkilçisinin funksiyasını yerinə yetirir.

16. *-ey.* Qeyri -məhsuldar şəkilçidir və məhdud dairədə işlənir. Məsələn: *qozey* (Qax) – qoz ləpəsi döymək üçün qab.

17. *-su.* Qeyri –məhsuldar şəkilçidir və bir sözdə təsadüf edilir. Məsələn: *qurumsu* (Qarakilsə, Qazax) – qan kəsmək üçün qurumdan hazırlanmış maddə. Qurumsu sözünün kökü *qurum* “sobaların, bacaların iç divarların yapışan, tüstüdən əmələ gələn qatranaoxşar kəsif maddə”, “his, duda, tüstü qarası ” mənasını ifadə edir (ADİL, I c., 1966, s.584)

Bu söz olduğu kimi, yəni eyni fonetik tərkibdə olmaqla eyni mənada “Kitabi - Dədə Qorqud”da işlənmişdir: Çaxmaq çaxıb od yaxdı, kəpənəyindən **qurumsu** edib yarasına basdı (Kitabi - Dədə Qorqud, 1977, s.34).

18. *-ca, -cə.* Qeyri-məhsuldar şəkilçidir və sifətdən isim düzəldir. Məsələn: *qufluca* (Çəmbərək) – su qabı, qazan, *quflucə* (Şəki) – qulplu mis və ya gil qab, *qaraca* (Zəngilan) – sürmə xəstəliyi nəticəsində sünbülün çürüyən və içərisi qara tozla dolu olan sünbül, *gödəx'cə* (Çəmbərək) – içinə pambıq qoyulub tikilmiş yarımpalto, gödəkçə və s

İstər *qufluca, istər quflucə* **qulplu** sözündən yaranmışdır. *Qufluca, quflucə* sözünün kökü quflu sözü ədəbi dilimizdə işlənən qulplu sözünün dialekt variantıdır.

19. *-d.* Qeyri-məhsuldar şəkilçidir və isimdən isim düzəldir. Məsələn: *örənd* (Qazax) – mal-qaranın otarıldığı yer, sahə (Cəbrayıl, İmişli, Qarakilsə, Zəngilan şivələrində " çox otarılmaq nəticəsində otu qurtarmış, otsuzlaşmış yer" mənasındaişlənən *örən* sözündən əmələ gəlib) və s.

20. *-a, -ə.* Qeyri-məhsuldar şəkilçidir və isimdən isim düzəldir. Məsələn: *örənə* (Qazax) –otu biçilmiş otlaq (Cəbrayıl, İmişli, Qarakilsə, Zəngilan şivələrində " çox otarılmaq nəticəsində otu qurtarmış, otsuzlaşmış yer" mənasında işlənən *örən* sözündən əmələ gəlib), *gözə* (Çəmbərək) –çeyillik, *nişana* (Meğri)- yeganə varis, *köçə* (Cəlilabad, Masallı, Yardımlı) –qoyun salmaq üçün düzəldilmiş üstü açıq yer və s.

21. *–dıx.* Qeyri-məhsuldar şəkilçidir və isimdən isim düzəldir. Məsələn: *sazdıx* (Zəngibasar) – qamışlıq (Oğuz, Şəki şivələrində "qamış, qamışlıq" mənasında işlənən *saz* sözündən əmələ gəlib).

Saz "Kitabi - Dədə Qorqud" dastanında *qamış* mənasında işlənmişdir. Məsələn: Gətirdilər, *sazı* oda urdular. (Yalançı oğlu) Yalıncıq gördü kim, yanar, *sazdan* çıxdı.

22. *-af.* Qeyri-məhsuldar şəkilçi olub isim düzəldir. Məsələn: *selaf* (Zəngibasar) - sel yuyan yer və s.

23. *-laf.* Azərbaycan dilinin qərb qrupu şivələrində işlənən qeyri- məhsuldar şəkilçilərdən biridir və isimdən isim düzəldir. Məsələn: *sellaf* (Gədəbəy, Tovuz) – selin açdığı dərə, yarğan və s.

24. *-ov.* Azərbaycan dilinin cənub qrupu şivələrində işlənir. Qeyri-məhsuldar şəkilçidir və bir sözdə müşahidə olunur. Məsələn: *selov* (Ordubad) – sel suyu və s.

25 *-oy.* Bu şəkilçiyə cənub qrupu şivələrində *-ov* fomasında rast gəlinir və isimdən isim əmələ gətirir. Məsələn: *seloy* (Borçalı, Çəmbərək, Karvansaray) - sel suyu, *yanoy* (Çəmbərək) –qapının, pəncərənin yan hissəsi və s.

26. *-soy.* Qeyri –məhsuldar şəkiçidir və isimdən yeni mənalı söz əmələ gətirir. Məsələn: *yelinsoy* (Çəmbərək) – heyvanda olan yelin xəstəliyi ("heyvanın əmcəyi - süd olan hissəsi" mənasını bildirən *yelin* sözündən əmələ gəlib).

27. *-cux.* Qeyri- məhsuldar şəkilçi olub, bir sözdə müşahidə olunur. Məsələn: sucux (Qax, Zaqatala) – sulu yer. Bu şəkilçi Qərbi Azərbaycanın Göyçə şivəsində *-cax* formasında "sulu yer" mənasında işlənən **sucax** sözünün əmələ gəlməsində iştirak edir.

28. *-dan.* Qeyri - məhsuldar şəkilçidir və bir neçə sözdə rast gəlinir. Məsələn: *yağdan* - lampanın neft tökülın hissəsi (Bakı, Qzax, Naxçıvan, Ordubad), tikiş maşınına yağ tökmək üçün istifadə edilən yağ qabı (Cəbrayıl, Zəngilan), *xəmirdan* (Dərbənd) – xəmir mayası, *novdan* (Təbriz) – su tökülən yer və s.

29. *-dax, -dağ.* Qeyri-məhsuldar şəkilçi olub bir neçə sözdə müşahidə olunur. Məsələn: *yazdax* – yaz yurdu, yaz otlağı (İmişli), yazlıq taxıl (Zaqatala), *bağırdağ* (Dərbənd, Quba, Salyan, Şəki, Zaqatala) – bələkbağı, uşağı beşiyə bağlamaq üçün parçadan hazırlanmış enli bağ və s.

30. *-lər.* Qeyri-məhsuldar şəkiçi kimi leksik şəkilçi funksisysında işlənir. Bir neçə sözdə

müşahidə olunur. Məsələn: *yeddilər* (Borçalı, Qazax, Tovuz) – bir yerdə olan yeddi ulduz, *Yeddilər* (Zəngibasar) – Qərbi Azərbaycanin Zəngilər kəndində əkin sahəsi və s..

Bu şəkilçi ədəbi dilimizdə işlənən qrammatik şəkilçilərdən biridir və cəm isimlər əmələ gətirir.

31. *-dar.* Birvariantlı şəkilçi olmaqla şivələrimizdə qeyri-məhsuldar şəkilçi kimi iştirak edir və insan anlayışı bildirən sözlər düzəldir. Məsələn: *damdar* (Təbriz) - qaramal saxlayan adam, *bağdar* (Təbiz) –bağban, *kümdar* (Füzuli,Şəki) – baramaçı, baramaqurdu bəsləyən, *külfətdar* (Bakı) – ailəcanlı və s.

32. *-dir.* Qeyri- məhsuldar şəkilçidir və sifətdən isim düzəldir. Məsələn: *dix'dir* (Çəmbərək, Şəki) – təpəlik yer, dik və s.

Feildən əmələ gələn düzəltmə isimlər. Azərbaycan dili şivələrində feillərdən düzələn isimlər aşağıdakı şəkilçilərlə əmələ gəlir.

1. *-acaq, -əcək.* Bu şəkilçiyə qərb qrupu şivələrində *-cax, -acax, -ajax,* Şəki - *acax - əcəx',* Qərbi Azərbaycanın Çəmbərək, Karvansaray şivələrində həm -acax, -əcəx', -ajax, həm -cax, -cəx', Meğri şivələrində *-acax, -əcəx,* keçid şivələrində *-acax, -əcək, - cəx', -cək, -acax, -əcəg,* Göyçay, Salyan, İmişli, Şamaxı şivələrində -açağ formalarında rast gəlinir. Məsələn: *çapacax* (Ağdam, Çəmbərək, Goranboy, Qazax, Mingəçevir, Şəki, Şəmkir, Tovuz, Zaqatala), *çapaçağ* (Göyçay, Salyan, İmişli, Şamaxı) - ət çapan, ət doğrayan alət, *çıxacax* (Basarkeçər) – pilləkən, *əkənəcək* (Culfa, Çəmbərək) -əkin sahəsi, əkin yeri, *keçənəcək* (İmişli) – yaşayış, güzəran, *olajax* (Çəmbərək) –çobanların yaylaqda qaldığı yer, otaq, *tutacax//tutajax* (Çəmbərək) – isti qabı, qazanı götürmək üçün istifadə edilən parça, *yonajax* (Qazax, Göygöl) – atın dırnağını yonmaq üçün işlədilən alət, kəsər və s.

2. *-anaq, -ənək.* Azərbaycan dilinin qərb, Naxçıvan qrupu, Zaqatala, Yardımlı şivələrində -anax, - ənəx', Bakı, Şamaxı, Muğan qrupu şivələrində *-anağ, -ənəg* formalarında işlənir. Əsasən feillərdən isim düzəldir. Məsələn: *çökənəx'* (Zaqatala) - çökək, *əkənəx'* (Çəmbərək, Qazax, Yardımlı) - əkin sahəsi, əkin yeri, *sızanax* (Çəmbərək, Karvansaray) – yara, *eşənəx'* (Çəmbərək, Karvansaray) – eşilmiş yer, *eşənəx'* (Çəmbərək) – xəstəlik adı (dəri xəstəliyi), *sızanağ (*Şamaxı) –yeməli yabanı bitki və s.

3. *-ma,- mə.* Müasir Azərbaycan ədəbi dilində olduğu kimi Azərbaycan dili şivələrində də -ma, -mə şəkilçisi feildən isim əmələ gətirir və geniş şəkildə işləkliliyə malikdir . Məsələn: *düzmə* (Quba) - sapa düzülmüş qax, *geymə* (Basarkeçər, Borçalı, Cəbrayıl, Göyçay, Qazax, Ordubad) – yarımpalto, gödəkçə, *ikiləmə* (Füzuli, Mingəçevir, Oğuz, Tovuz, Zaqatala) – ikinci şum, *sürütmə* (Çəmbərək, Qafan, Qazax Mingəçevir, Şəki) - qoşqu heyvanları vasitəsilə (indi mexaniki vasitələrlə də olur) sürüyüb gətirilmiş əşya (ağac, ot, odun), *alışma* (Basarkeçər, Çəmbərək, Qazax, Gədəbəy, Tovuz) - kəsilərək əti bölüşdürülən heyvan əti, *gözəmə* (Qazax) – ağzı bağlanmış taxılla dolu çuval, *gəzmə* (Dərbənd) – gözətçi, *yolma* (Meğri) – dəridən yolunan yun, *qablama* (Quba) - qazança, *bulama* (Təbriz) – yemək adı, *qablama* (Təbriz) – qab adı, *dişdəmə* (Çəmbərək) - qəndlə içilən çay (məişətdə geniş dairədə qəndlə içilən çaya "acı çay" deyilir) və s.

-ma, -mə şəkilçisinin Şəki şivəsində -ba, -bə, -və, Qərbi Azərbaycanın Çəmbərək və Karvansaray şivələrində -ba, -bə variantlarına da rast gəlinir. Məsələn: *tənbə* (Şəki) –təpilmiş (çəpər; M.İslamov, 1968, s. 76), *qopba* (Çəmbərək, Karvansaray) - kötük, *çırba* (Çəmbərək, Karvansaray) –yağış (Ş. Kərimov, 2004, s. 101).

H. Mirzəzadə -ma, -mə şəkilçisinin tarixi ilə bağlı yazır ki, bu şəkilçinin ancaq feil köklərinə bitişməsi, digər tərəfdən bu şəkilçinin tam forması olan -maq, -mək şəkilçisinin isim

əmələ gətirməsi, ismə yaxınlaşması *-ma, -mə*-nin *-maq, -mək*-lə bir mənşəli olduğunu təsdiq etməyə əsas verir. -ma,-mə şəkilçisi XVIII əsrdən daha məhsuldar olmuş və XX əsrin əvvəllərindən leksik şəkiçi kimi söz yaradıcılığında daha fəal iştirak etmişdir (H. Mirzəzadə, 1990, s. 61). -ma,-mə şəkilçisinin XVIII əsrdən məhsuldar olması xalq şeirinin aparıcı rola malik olması ilə bağlıdır.

4.*-ax, -əx',-x, - x'.* Müasir Azərbaycan ədəbi dilində işlənən *-aq, -ək, -q, -k* şəkilçisinin şivələrimizdə işlənən variantıdır (M.Məmmədli, 2007, s. 78) və şivələrimizdə omonim şəkilçi kimi işlənir. Feildən isim əmələ gətirir. Məsələn: *kəsəx'* (Təbriz, Şahbuz) -bıçaq, *qalax* - belin ağac hissəsi (Təbriz), peyin topası (Çəmbərək, Təbriz), *süzəx'* (Çəmbərək, Karvansaray) – aşsüzən, *çatax* (Şəki) - bir-birinə bitişik göy meyvə, *gözəx'* (Zəngilan) - gözək <çuval ağzı bağlamaq üçün toxunmuş nazik ip (Çəmbərək, Gədəbəy, Qazax, Tovuz şivələrində "toxumaq, hörmək" mənasında işlənən gözə (mək) feilindən əmələ gəlib) və s.

5. *-ıx, -ik, -ux, -ük, -üx', -x', -ğ,-k.* Azərbaycan dili şivələrində işlənən məhsuldar şəkilçilərdən biridir və feillərdən isim düzəldir. Məsələn: *qatıx* (Ordubad) – uzun müddət saxlanmaq üçün qovrulmuş ət, *sarmaşıx* (Göyçay) – yabanı bitki, *yatıx* (Qazax)- xəstəlik, *batıx* – dərə (Zəngibasar), çökək (Şəki), *yetix'* (Çəmbərək, Şəki) - bələd, *tüşüx'* – ölü doğulmuş uşaq (Zəngibasar), özünə hörmət qoymayan (Çəmbərək) və s.

6. *-ı, -i, -u, -ü.* Bu şəkilçi şivələrimizdə dörd variantda, Təbriz şivəsində iki variantda (-ı,-i) özünü göstərir. Bu şəkilçi feildən isim düzəldir. Məsələn: *yaxı* – çörək növü (Təbriz), yaxıla bilən maddə < dərman (Çəmbərək), *bişi* (Ağsu, Çəmbərək, Kürdəmir, Lənkəran), *pişi* (Çəmbərək) –yağ, yumurta, süd və şəkər tozu qarışdırılmış xəmirdən bişirilmiş çörək, *buru* (Cəbrayıl, Çəmbərək, Gəncə, Zəngilan) – qarın ağrısı, sancı və s. Dərbənd şivəsində isə -ı (-i), -u formasında işlənir. *çalı//çali* – qoyun-quzu saxlamaq üçün çubuqdan, daşdan düzəldilən yer, qazu – kətmən, dartu – ağacın qabığına soyub təmizləyən alət (Dərbənd dialekti, 2009, s.44).

7. *-mac, -məc.* Bu şəkilçi şivələrimizdə həmdə -maş, -bac formasında özünü göstərir. *-mac, -məc* şəkilçisi feildən isim əmələ gətirir. Məsələn: *bozartmac* (Zəngilan) – xörək adı, *şütəməc* (Zəngilan) –oyun adı, *addamac* (Çəmbərək, Zəngilan) –çaydan keçmək üçün suyun içinə qoyulan daşlar, *yaxmac* (Bərdə, Biləsuvar, Çəmbərək) -üstünə yağ çəkilmiş çörək parçası, *döyməc* – meyvənin qabda əzməklə hazırlanmış yemək (Şəki), ərinmiş yağa doğranaraq hazırlanan yemək (Çəmbərək), *yörtməc* (Şəki) –yelləncək, *tutmac* (Ağcabədi, Göyçay, İmişli, Quba, Oğuz, Şamaxı, Ucar) - xörək adı və s.. *-mac, -məc* şəkilçisi Qərbi Azərbaycanın Çəmbərək və Karvansaray şivələrində *-maş, -manc,- mənc* formalarında müşahidə olunur. Məsələn: *burmaş // burmanc* –axtalanmış qoyun, *döymənc* - ərinmiş yağa doğranaraq hazırlanan yemək, *tıxlamac // tıxlamanc* – çoxlu çörək doğranmış xörək.

Azərbaycan dili şivələrində *-mac, -məc* şəkilçisinin sinonimi kimi *-maca, -məcə* şəkilçisi işlənir. Məsələn: *yaxmaca* (Zəngilan) - üstünə yağ çəkilmiş çörək, *büzməcə* - toyuqda olan çıxma yara (Zəngilan), yeni doğulmuş uşaqlarda olan xəstəlik (Lerik).

-mac "Kitabi-Dədə Qorqud" dastanında **bozlamac, dolamac** sözlərinin tərkibində işlənmişdir. *-mac, -məc* şəkilçisi "Görülən hər hansı bir işin xarakterindən asılı olaraq alınan məhsulun və ya əldə edilmiş nəticənin adını bildirir. Mövcud materialların dilindən aydın olur ki, bu şəkilçi XIX əsrə qədər bir o qədər də yeni isim əmələ gətirməmişdir" (H. Mirzəzadə, 1990, s.63).

M.İslamov Nuxa (Şəki) şivəsinin materialları əsasında göstərir ki, *-mac, -məc* şəkilçisi *-ma* və *-c* şəkilçilərinin birləşməsindən əmələ gəlmişdir (M. İslamov, 1968, s.73-74).

8. *-alğa,-əlgə, -əlyə.* Qeyri-məhsuldar şəkilçidir və feildən isim əmələ gətirir. Məsələn: *tutalğa* - nişanlı (Meğri), əsas, dəlil (Ağcabədi, Bərdə, Şuşa, Tərtər), *yatalğa* - yatmaq, gecələmək yeri (Çəmbərək, Karvansaray), heyvanların gecələdiyi yer (Bərdə Şuşa, Tovuz), *qonalğa* (İmişli) – qonaqlıq (qədim türk dilində "qonaq" mənasını ifadə edən *qon(maq)* feilindən isim əmələ gəlib), *duralğa* - dayanmaq yeri (Çəmbərək), *düşəlgə* (Şəki) – hədiyyə, *dönəlgə* (Çəmbərək), *dönəlyə* (Gədəbəy, Qazax) –bəxt, tale, *dönəlgə* (Bərdə, Kürdəmir, Şuşa) – döngə, *görəlgə* (Çəmbərək) - gəlini ilk dəfə görmək üçün düzəldilmiş ziyafət və s . Bu şəkilçi şivələrimizdə *-alğac* fonetik formasında da təzahür edir. Məsələn: *tutalğac* (Çəmbərək, Karvansaray) –körpünün üzərinə qoyulmuş əl tutacağı.

9. *-ar, -ər, -r.* Qeyri-məhsuldar şəkilçidir və feildən isim düzəldir. Məsələn: *qaynar* (Borçalı, Qazax, Tovuz) – paltar yumaq üçün qızdırılmış su, *qoşar* (Şərur)- qoşqu camışı, *çalxar* (Laçın, Meğri, Naxçıvan) –tuluq, *bişər* (Çəmbərək) -xörək və s.

10. *-ü.* Qeyri-məhsuldar şəkilçidir və feildən isim düzəldir. Məsələn: *örtü* (Çəmbərək, Gədəbəy, Yevlax, Zəngilan) – yorğan-döşək və s.

Örtü müasir Azərbaycan ədəbi dilində "başa örtülən hər hansı bir əşya", "pərdə" mənalarında işlənir (ADİL, III c.,1983, s. 469-470).

11. *-in.* Feildən isim düzəldən qeyri-məhsuldar şəkilçidir. Məsələn: *sağın* (Qafan, Şəki) – sağılan heyvan və s.

12. *-an.* Qeyri-məhsuldar şəkilçidir və bir neçə sözün əmələ gəlməsində iştirak edir. Məsələn: *yiğan* (Ağdam, Bərdə, Hamamlı, Qazax) – saman yığan alət, *biçan* (Dərbənd) – ot, *duğan* (Dərbənd)- milin üstünə dolayı qoyulan ağac, *ağartan* (Dərbənd) – aşılanmış dəri və s.

13. *-am.* Qeyri - məhsuldar şəkilçidir və Təbriz şivəsində feildən isim əmələ gətirir. Məsələn: *tutam* - bir qarış.

14. *-qı, -ğı,- qu, -ğu.* Şivələrimizdə işlənən qeyri-məhsuldar şəkilçidir və feildən isim düzəldir. Məsələn: *çalğı* (Balakən, Basarkeçər, Cəbrayıl, Çəmbərək, Goranboy, İmişli, Qazax, Oğuz, Şəki, Şuşa, Tovuz, Ucar, Yardımlı), *çalqı* (Cəbrayıl, Culfa, Meğri, Zəngilan) – nar, heyva, itburnu kolunun çubuqlarından düzəldilən süpürgə, *qurğu* (Çəmbərək, Şəki)- kələk və s.

15. *-ası.* Qeyri -məhsuldar şəkilçidir və feildən isim əmələ gətirir. Məsələn: *çalası* (Ağcabədi, Ağdam, Borçalı, Böyük Qarakilsə, Çəmbərək, Daşkəsən, Dərbənd, Füzuli, Gədəbəy, Goranboy, Göyçay, Göygöl, Kəlbəcər, Qax, Qarakilsə, Qazax, Tovuz, Salyan, Şərur, Zaqatala, Zəngibasar) - qatıq mayası. Bu söz Dərbənd şivəsində həm də eyni mənada *çalasi* formasında işlənir (Dərbənd dialekti, 2009, s. 4).

16. *-maz.* Qeyri-məhsuldar şəkilçidir və əsasən qərb qrupu şivələrində işlənir. Məsələn: axmaz (Qazax, Şəmkir) – gölməçə, axmayan su.

17.-xaş. Qeyri-məhsuldar şəkilçi olub feildə isim düzəldir. Məsələn: burxaş (Çəmbərək) – döngə, əyri, dolanbac yol və s.

Mürəkkəb isimlər

Azərbaycan dili şivələrində mürəkkəb isimlər müxtəlif nitq hissələrin birləşməsindən əmələ gəlir və aşağıdakı yollarla yaranır:

1. Müxtəlif mənalı sözlərin birləşməsindən əmələ gələn mürəkkəb isimlər: *acxəmrə* (Göyçay, Lerik, Kürdəmir, Salyan) – xəmir mayası, *açar dili* (Quba) – qıfıl, *adax-çeçəx'* (Gədəbəy) – uşağın ilk addımı, *elçiplov* (Lənkəran) – toydan bir gün sonra oğlan evindən qız evinə göndərilən plov, *gelinsərçə* (Qax) – şanapipik, *gülbacı* (Yardımlı) – qardaşarvadı,

taxtasuat (Salyan) -su götürmək və mal-qaranı suvarmaq üçün çay sahilində düzəldilmiş keçid, *ilanqarışqa* (Şuşa) – nazik, uzun qarışqa, *başyoldaş* (Qazax) –həyat yoldaşı və s.

2. Birinci tərəfi ismin adlıq və yönlük halında, ikinci tərəfi **-ma, -mə** şəkilçisi ilə düzələn isimdən əmələ gələn mürəkkəb isimlər: *cızadolma* (Çəmbərək) – uşaq oyununun adı, *cizagirmə* (Goranboy, Şuşa, Yevlax) – uşaq oyun adı, *ciyarçəx'mə* (Borçalı) – içalat, *göyəvurma* (Ağcabədi) – divardan asılan xalça üzərinə vurulan tikmə və s.

3. İki sadə ismin iştirakı əsasında əmələ gələn mürəkkəb isimlər: *cızdıx çörək* (Tərtər) - cızdaq çörək, *cız-kəmər* (Şəmkir) – uşaq oyunu adı, *daraöbaş* (Dərbənd) - şanapipik, *sığır buğa* (Qazax) – ikiyaşar kəl, *yayköynəx'* (Oğuz) –kofta, *yazbuğa* (Qazax, Tovuz) – yaz vaxtı buğa həddinə çatacaq ikiyaşar qaramal və s.

4. İkinci növ təyini söz birləşməsi konstruksiysı əsasında əmələ gələn mürəkkəb isimlər: *çaqqalbaşı* (Ağcabədi) - çubuqları bir neçə dəfə kəsilmiş hər hansı bir ağacın toppuzlaşmış baş hissəsi, *çaqqalçarığı* (Göygöl) – çarıq, çeyil otundan toxunmuş oyuncaq, *çalağançardağı* (Zəngilan) - uşaq oyun adı, *çapığotu* (Ağdam, Tovuz) – dərman bitkisi adı, *dabanyarpağı* (Salyan) – tənəyin dib tərəfində əmələ gələn yarpaq, *cücəgözü // cüjəgözü* (Ağcabədi) - parça, *ekiztayı* (Ağcabədi, Çəmbərək, Tərtər) - əkiz doğulmuş uşaqların hər biri, *sacarası* (Qafan) – iki sacın arasına qoyulub közdə bişirilən çörək, *sacüsdü* (Qazax) – sacda tələsik bişirilən çörək, *qoyngözü* (Karvansaray) -kol və s.

5. Birinci tərəfi müəyyən leksik məna bildirməyən, ikinci tərəfi məna bildirən sözün birləşməsindən əmələ gələn mürəkkəb isimlər: *çalçamır* (Gədəbəy) – palçıq, *çalçidar* (Gədəbəy) – dolaşıq, sözgəzdirən və s.

6. İki feilin birləşməsindən əmələ gələn mürəkkəb isimlər: *çalkeçir* (Kürdəmir, Mingəçevir) – məhəccər, *çalgeçir* (Meğri) – xəbərçi, sözgəzdirən, *çalkeçirt* (Şahbuz) – qarmaq, *gəldigedər* (Ordubad) – şadara, *gəlgəl* (Göyçay, Kürdəmir, Şamaxı, Şirvan) - su qabı və s.

7. Birinci tərəfi isim, ikinci tərəfi feili sifətdən əmələ gələn mürəkkəb isimlər: *çanaxyaran* (Şəmkir) – yabanı bitki adı, *çaydaçapan* (İsmayıllı, Oğuz) –quş adı, *çobanaldadan* (Cabrayıl, Çəmbərək, Yardımlı) // *çobanyaldadan* (Basarkeçər, Çəmbərək, Borçalı) – quş adı, *danaqıran* (Ağcabədi, Basarkeçər, Borçalı, Cəbrayıl, Çəmbərək, Füzuli, Göyçay, Qazax, Zaqatala) –novruzgülü, *gecəgəzən* (Dərbənd, Xaçmaz, Quba) - yarasa, *sərimsağdögən* (Dərbənd), *sərimsaxdö:ən* (Çəmbərək)–həvəngdəstə, *sığırboğan* (Borçalı, Qazax) –üçyaşar camış, *danaqıran* (Çəmbərək)-yabanı ot növü, *gəlinboğan* (Ağstafa, Borçalı, Gədəbəy, Qazax, Şəmkir, Tovuz) – qoyun mədəsinin bir hissəsi və s.

8. Səs təqlidi sözlərin təkrarından əmələ gələn mürəkkəb isimlər: *çırçır* (Qazax)- şəlalə, *çırtçırt* (İmişli) – quş adı, *çirçirə* (Qax) - qığılcım, *sülsül* (Quba) –çovdar, *sürsürə* (Qax) - sırsıra, *şap-şap* (Bakı, Cəlilabad, Lənkəran) – ev ayaqqabısı, evdə geyilən dabanı əzik köhnə ayaqqabı, *şar-şar* (Mingəçevir) – şəlalə, *tarax-tarax* (Oğuz) – hop-hop, şanapipik, *zığzığ* (Qax, Oğuz, Tovuz, Zaqatala) – alabaxta, quş adı, *mısmısı* (Çəmbərək)- yabanı ot növü və s.

9. Birinci tərəfi ismin çıxışlıq halında, ikinci tərəfi **-ma, -mə** şəkilçisi qəbul etmiş sözlərin birləşməsindən əmələ gələn mürəkkəb isimlər: *damnançıxma* – inəyin birillik balası (Çəmbərək, Qazax, Tovuz), camışın ikiillik balası (Kəlbəcər), inəyin ikiillik erkək balası, *toqqadançıxma* (Füzuli) – uşaq oyun adı, dirədöymə və s.

10. Eyni sözün təkrarından əmələ gələn mürəkkəb isimlər: *maça-maça* (Bakı) – aşıqla oynanılan uşaq oyunun adı, *saqqa-saqqa (*Bərdə) – uşaq oyunun adı, *şır-şır* (Salyan) – dava-dalaş, *gəlin-gəlin (*Bakı, Muğan, Şamaxı) – uşaq oyun adı və s.

11. Birinci tərəfi isim, ikinci tərəfi feildən ibarət olan sözlərin birləşməsindən əmələ gələn mürəkkəb isimlər: *elköşdü* (Ağdərə) – uşaq oyunun adı, *halaygəldi* (Ağdam) - uşaq oyunun adı, *paltarkesdi* (Bakı), *paltarkesdi (*Çəmbərək) - ərə gedəcək qız üçün toy paltarı tikilmək münasibətilə keçirilən mərasim, yığıncaq, *yelapardı* (Qazax, Tovuz) – nazik və yağlı çörək növü, *yeryığdı* (İmişli) – toy adətinin adı, *yolbasar* (Bərdə, İrəvan)-yol düzəldən, asfaltbasan maşın.

12. Birinci tərəfi sifət, ikinci tərəfi isimdən əmələ gələn mürəkkəb isimlər: *enniyarpax* (Şəmkir) –iri damcılı yağış, *əsilağac* (Çəmbərək) – uşaq oyun adı, *əyriqulağ* (Cəlilabad) - əqrəbin bir növü, *göybuynuz* (Tovuz) – üçillik camış düyəsi, *ağbuynuz* (Çəmbərək) - ağacın qurumuş budaqları, *sarısərçə* (Göyçay) – sarıköynək, *uca dağlar* (Zəngilan) – uşaq oyun adı, *uzunburun* (Dərbənd) – ağcaqanad, *qaradiş* (Çəmbərək) - ikiillik erkək qoyun, *sarısaçax* (Borçalı) – iri giləli ağ üzüm, *qaraqulağ* (Quba) –bayquş, *qaraqulağ* (Çəmbərək) –qulağı qara olan qoyun, *qarayaz* (Quba) –bahar və s.

13. Üç sözün birləşməsindən əmələ gələn mürəkkəb isimlər. Məsələn: *hacımənəbax* (Bakı) – nazik parça növü, *hajbəribax* (Bərdə, Goranboy) – ipək parça növü, *papaxköçdüqaç* (Lənkəran, Salyan) - uşaq oyun adı və s.

14. Ayrılıqda məna bildirməyən sözlərədən əmələ gələn mürəkkəb isimlər: *həndür-hündür* (Bakı) – çala-çuxur, *kələ-külə (*Ordubad) çınqıllıq, daşlıq, *xırna-hırna* (Qazax)-düşmənçilik və s.

15. Birinci tərəfi say, ikinci tərəfi isimdən ibarət olan mürəkkəb isimlər: *üçgül* (Qazax)-üçkünc, üçbucaq şəkilli, *üçillik* (Ucar) –uşaq oyun adı, *beşdaş* (Ağdam, Bakı, Bərdə, Çəmbərək, Kürdəmir, Şamaxı, Şuşa, Zəngilan) – beş xırda daşla oynanılan uşaq oyun adı, *yeddigəlin* (Qax, Oğuz) – mədəcik, *yeddirəng* (Lənkəran) - quş adı, *yeddilöyün* (Qax, Ordubad) –qarışıq, müxtəlif şirniyyat, *yeddiləvün//yeddilövün* (Ordubad) – xonça, şirni, *qırxkötük, qırxkömbə (*Dərbənd) - zaman adlarını bildirən sözlər, *dördayağ* (Quba) – yuxayayan, *yeddigəlin* (Meğri) -mal və heyvan qarnının bir hissəsi və s.

İsmin Qrammatik Kateqoriyaları

Azərbaycan ədəbi dilində olduğu kimi şivələrimizdə də ismin kateqoriyaları mövcuddur. "İsmin qrammatik kateqoriyalarının dialektlərdəki mövqeyi izoqlossların mövcudluğu və təbiəti, innovasiyaların yaranması ilə müəyyənləşir. Dildaxili dil proseslərində ismin qrammatik izoqlosslarının sərhədinin dəyişməsi əhalinin güclü miqrasiyası ilə əlaqədə baş verir, bu da öz növbəsində şivələrin mövqeyinə təsir edir" (M.Məmmədli, 2003, s. 3-4). Azərbaycan dili şivələrində özünü göstərən ismin qrammatik kateqoriyaları aşağıdakılardır:

1.Hal kateqoriyası.

2.Mənsubiyyət kateqoriyası.

3.Kəmiyyət kateqoriyası.

4.Şəxs kateqoriyası.

Hal Kateqoriyası

Azərbaycan dili şivələrində ismin halları ədəbi dilimizlə eyniyyət təşkil etsə də, fərqli morfoloji xüsusiyyətlərə malikdir. Bu ismin yiyəlik, yönlük, təsirlik və çıxışlıq hallarında özünü göstərir.

Adlıq hal. Azərbaycan dili şivələrində ismin adlıq halı, Azərbaycan ədəbi dilində olduğu kimi, şəkilçi qəbul etmir və adlıq halın xüsusi şəkilçisi yoxdur. “Bütün türk dillərinə dair mənbələrdə ən qədim dövrlərdən başlayaraq adlıq halda heç bir formal dəyişiklik olmamışdır” (B.Sadıqov, 1977, s.10).

Adlıq hal Zəngilan, Qazax, Şəki şivələrində yönlük və Bakı şivəsində (konkret olaraq Sumqayıtın yaxınlığında yerləşən Corat kənd şivəsində) təsirlik hal yerində də işlənə bilir.

Yönlük hal yerində: Uzax getmi:n, qəpidə öynü:n (Zəngilan); Bu dədəsinə *məslə:t* getdi (Qazax) və s.

Təsirlik hal yerində: Qız əmisi oğlının əvəzinə *Məhəmməd* alat tərkinə (Bakı: Corat şivəsi) və s. (E.Əzizov, 1999, s. 178-179).

Adlıq halın bu forması qədim dövr ədəbi dilimizdə müşahidə olunur.

Keyik yeyərək, *dovşan* yeyərək otururduq (Tonyukuk abidəsi);

Fitnə düşmişdü bu qövm içinə həm,

Fitnə dəf eylədi ol zülkərəm (“Əsrarnamə”); *Yolçi* qonaq eylələr (“Şəhriyar”) (Bax. E.Əzizov, 1999, s. 178.)

Yiyəlik hal. Azərbaycan dili şivələrinin əksəriyyətində ismin yiyəlik halı sözün sonu saitlə bitəndə *-ın,-in,-un,-ün,* samitlə bitəndə *-nın,-nin,-nun,-nün* şəkilçisi ilə düzəlir. Məsələn: *sajın* “sacın”, *arxın* (Ağsatafa, Borçalı, Çəmbərək, Gəncə, Qarabağ, Qazax, Tovuz), *davarın, sədəfin, quşun, gözün, qapının, keçinin, qutunun, dəyənin* (Ağsatafa, Borçalı, Çəmbərək, Dərbənd, Gəncə, Qarabağ, Qazax, Tovuz, Zəngilan), *bağın* “ot topası”, *qələmənin* “ağacın şitili”, *buruğun* “döngə” (Təbriz), *qaçağın* “qarğıdalının gövdəsi”, *toyun* “nağara”, *mövüzün* “qurudulmuş meyvə”, *pazının* “şəkər çuğunduru” (Naxçıvan), *kükünün* “yemək adı”, *damın* “tövlə” (Şəki), *savquşun* “bayquş”, *billənin* “şirniyyat” (Muğan), *üzün* “qaymaq”, *sırsıranın* (Çəmərək, Qazax, Muğan) və s.

İsmin yiyəlik halı şimali-şərq qrupu şivələrində, Yardımlı, İmişli, İsmayıllı, Cəlilabad, Muğan, Ordubadın Nüsnüs, Kotam, Təbrizin İlxıçı, Vasmış, Qara Məlik şivələrində ahəng qanunu pozulur və sözün sonu saitlə bitəndə -un, -ün, samitlə bitəndə -nun, -nün şəkilçisini qəbul edir. Məsələn: *ağacun* “ağacın” (İmişli, İsmayıllı), *qəndün* “qəndin” (İsmayıllı), *arabanun* “arabanın” (Cəlilabad, Ordubad, Muğan), *dədənün* “dədənin”, *ilün* “ilin” (Cəlilabad), *qutabun* “qutabın”, *dövənün* “dəvənin”, *hovanun* “havanın”, *qəmbərün* “qəmbərin” <çay daşının (Bakı), *almanun* “almanın”, *dəhrənün* “dəhrənin” (Dərbənd), *barmağun* “barmağın”, *dügmənün* “düymənin” (Muğan), *Qarabağun* “Qarabağın”, *qələmün* “qələmin” (Ordubad), *başun* “başın”, *əlün* “əlin” (İmişli), *dəryanun* “dəryanın”, *çayun* “çayın”, *evün* “evin” (Təbriz), *atun* “atın” (İmişli, Yardımlı), *çırağun* “çırağın”, *qonağun* “qonağın”, *yiyənün* “yiyənin” (Yardımlı) və s. Yiyəlik halın bu forması qədim dövr ədəbi dilimizdə müşahidə olunur.

Məgər Dirsə xan deyirlərdi, bir **bəgün** oğlı-qızı yoxdı (KDQ).

Yarımun vəslündən ayırdı bəni,
Nə yaman cövr eylədi bu dün bana
(Yusif Məddah. “Vərqa və Gülşah”).

Adıdur dünyada qalan **kişinün,**
Əgər erkək olanü gər dişinün.
(Dastani-Əhməd Hərami)

Azərbaycan dilinin qərb qrupu şivələrində ismin yiyəlik halında sözün sonu saitlə bitəndə *-ıŋ,-iŋ,-uŋ,-üŋ,* samitlə bitəndə *-nıŋ,-niŋ, -nuŋ,-nüŋ* şəkilçisi işlənir. Məsələn: *öyüŋ*

"evin", *sədəfiŋ* (kiçik düymə mənasında) "düymənin ", *quzunuŋ* "quzunun", *sürünüŋ* "sürünün" (Çəmbərək, Karvansaray), *atanıŋ* "atanın", *qonşunuŋ* "qonşunun", *körpünüŋ* "körpünün", *yeriŋ* "yerin", *köçünŋ* "köçün" (Çəmbərək, Gədəbəy, Şəmkir), *təniŋ* "heyvanın doğum yeri", *dumbuzuŋ* "yumruğun" (Qazax), *murdarıŋ* "canavarın", *tuncunuŋ* "düyənin" (Borçalı), *atŋ* "atın", *işiŋ* "işin" (İmişli), *bağıŋ* "bağın", *dəmiriŋ* "dəmirin", *qömürüŋ* "kömürün", *bavanıŋ* "babanın", *odunuŋ* "odunun" və s. "Yiyəlik hal şəkilçisində velyar ***ŋ*** səsinin işlənməsi Azərbaycan ədəbi dilinin sonrakı dövrlərində də (Orxon abidələri dövründən sonrakı dövrlərdə – İ.B.) davam etmişdir. XX əsrin əvvəllərindən bu xüsusiyyət ədəbi dilimiz üçün arxaikləşmişdir" (E.Əzizov, 1999, s. 169). " Bu hal İmişli (Təklə Muğanlı) şivəsində də müşahidə olunur (M.Məmmədli, 2003, s.64).

Qərbi Azərbaycanın Göyçə, Ağbaba şivələrində bu işarə əvəzliyi yiyəlik halda yiyəlik halın qədim formasını saxlayaraq *mununŋ* formasında işlənir (S.Sadıqova, 2018, s.93).

İsmim yiyəlik halının bu formasına ədəbi dilimizin qədim dövrlərndə də rast gəlinir. "*-ıŋ*^{4} şəkilçisi Orxon-Yenisey abidələrində müasir dövrümüzə qədər türk dillərində işlək olmuş, Azərbaycan və türk dillərində dialekt səviyyəsində, türk dillərinin əksəriyyətində tarixi mövqeyi saxlanmışdır: *kağanıŋ, bodunıŋ, "xalq", sabıŋ "söz, nitq", iliŋ "el" (*Orxon), *atanıŋ, bəgüŋ, buğanıŋ, çobanıŋ, yigidiŋ* (KDQ) *malıŋ, sultanıŋ, şahuŋ, kilidiŋ* (Dastan-Əhməd Hərami). *Gecənüŋ* keçmiş idi bir ülüşü, Ol *nigaruŋ* ussı getdi ol zaman (Y. Məddah); dilbər*iŋ, çəməniŋ, cəmalıŋ, dodağıŋ (*Nəsimi), *zülfiŋ, İmranıŋ, Xətainiŋ, yüzüŋ, ayağıŋ* (Xətai), *torpağıŋ, yarıŋ, azğıŋ, gözüŋ* (Füzuli) (M.Məmmədli, 2003, s.65).

*Məgər Dirsə xan deyirlərdi, bir **bəgüŋ** oğlı-qızı yoxdı (KDQ).*
*Çün **Nəsiminiŋ** vücudin nurinə yandırdı nar*
Narə düşmişdir həccəddən bunca əğyar üştə gör.
(İ.Nəsimi)
*Ey iki **cahanuŋ** afitabı*
Zar eylə çü zərrə mintürabı. (Ş.İ.Xətai)
*Qıldı zülfün, nən pərişan halımı **xalıŋ səniŋ,***
*Bir gün, ey bidərd, sormaz pəs nədir **halıŋ səniŋ.***
Tiz çəkməzsən cəfa bəni öldürməgə,
*Öldürər axır bəni bir gün bu **ehmalıŋ səniŋ***
(M.Füzuli)

"Bu forma sonrakı dövrdə M.P.Vaqifin, Q.B.Zakirin əsərlərində çox geniş şəkildə özünü göstərmişdir. Başqa sözlə desək, XX əsrə kimi adları yuxarıda göstərilən şairlərin əsərlərində yiyəlik halda yalnız **-ıŋ** *(*samitlə qurtaranlarda**) -nıŋ** (saitlə bitənlərdə) şəkilçiləri özünü göstərmişdir" (B.Sadıqov, 1977, s.12).

Dərbəndin Marağa kənd, Cənubi Azərbaycanın Ərdəbil və Zəncan, Cəlilabad şivələrində ismin yiyəlik halında yalnız *-in,-nin* şəkilçisi iştirak edir. Məsələn: *ocağin* "ocağın", *torbanin* "torbanın" (Cəlilabad), *atin* "atın" (Cəlilabad, Ərdəbil, Zəncan), *daşin* "daşın" (Dərbənd, Ərdəbil, Zəncan), *yadıcanin* "yadıcanın" (Ərdəbil, Zəncan), *çupanin* "çobanın" (Dərbənd).

Təbriz, Dərbəndin Vəlikənd, Padarkənd, Səlik, Bilici, Zidyan, Qazmaları, Tatlar, Muğartı, Kommuna, Tabasaran, Zaqatala, Zərdabın Otmanoba şivələrində ismin yiyəlik halı həm də -ı^{4},-nı^{4} şəkilçisi vasitəsi ilə əmələ gəlir. Dərbənd şivəsində -ı^{4},-nı^{4} şəkilçisinin variantları müxtəlif formada özünü göstərir. Belə ki Dərbəndin Vəlikənd, Padarkənd şivələrində dörd variantda, Səlik, Bilici, Zidyan, Qazmaları kənd şivələrində -ı,- i, -nı, -ni,

Tatlar, Kommuna kənd şivələrində -u, -i, -nu, -nü, Muğartı kənd şivəsində -u,-ü, -nu, -nü variantlarında rast gəlinir. Məsələn: **qoynu** dərisi “qoyunun dərisi”, **firqunu** qabağı “firqunun qabağı”, **yağı** altı “yağın altı” (Dərbənd), **oğlani** atasi “oğlanın atası”, **Pirbabanı** zəmisi “Pirbabanın zəmisi”, **ati** üstü “atın üstü” (Təbriz), **toğu** tüki “toyuğun tükü” (Zaqatala) (M.Məmmədli, 2003, s.67).

Zəngilanın Şatariz, Ağbis kənd, Cəlilabadın Şıxlar kənd, Qərbi Azərbaycanın Qarakisənin (Sisyan) Ərəfsə kənd, Gürcüstanın Dmanisi, Qaradabani şivələrində ismin yiyəlik halı sözün sonu saitlə bitəndə -yın[4] şəkilçisini qəbul edir. Məsələn: *anayın* “ananın” (Qarakilsə), *quzuyun* “quzunun” (Qarakilsə, Zəngilan), *danayın* “dananın”, *çömçüyün* “çömçənin”, *almeyin* “almanın”, *təpeyin* “təpənin”, *torbuyun* “torbanın” (Dmanisi), *qağeyin* “qardaşın”, dəreyin “dərənin”, torbeyin “torbanın” (Cəlilabad), *taviyin* “tavanın”, *dəriyin* “dərənin”, *düyüyün* “düyəniin” (Qardabani) və s.

Azərbaycan dilinin Təbriz şivəsində sonu samitlə bitən isimlər, şimali-şərq və İraq - tükman şivələrində şəxs əvəzlikləri yiyəlik halda *-iy* şəkilçi ilə də düzəlir. Məsələn: O *kəndiy* adamları müharibədən so:ra gəliplə (Təbriz), *Onuy* işin mən bilmərəm (Lənkaran), *səniy, biziy* (İraq-türkman; M.Məmmədli, 2003, s. 69).

Azərbaycan dilinin ayrım şivəsində ismin yiyəlik halında həm də *-ıq,-ik,-uq,-ük* şəkilçisi işlənir. Qoca *arvadıq* baldırınnan yapışdı, elə bildi qi, qeçəldi, niyə kiŋ tanımeydı, qarannığıydı:- *Qanıq* sağında qözdö:y. *Onuq, munuq* xavarın qəzdirməğnən, qediğnən öccüüğəzinə bir iş qörüğnən. Bu forma isimlərdə olduğu kimi, əvəzliklərdə də müşahidə olunur. Məsələn: **məniq, səniq, onuq, munuq, biziq, siziq (**B.Sadıqov, 1977, s.15), **arvadık, atık, torvanık (**M.Məmmədli, 2003, s.74).

Yönlük hal. Azərbaycan dili şivələrinin əksəriyyətində ismin yönlük halı ədəbi dildə olduğu kimi sözün sonu samitlə bitəndə *-a, -ə,* saitlə bitəndə *-ya, -yə* şəkilçisi ilə düzəlir. Məsələn: *putağa* “budağa”, *küncə, haravıya* “arabaya”, *almıya* “almaya” (Çəmbərək, Qazax), *bağa, itə* (Bakı, Çəmbərək, Dərbənd, Meğri, Qazax, Gəncə), *inəgə* “inəyə” (Dərbənd), *ağaca, qıza, keçiyə, selə* (Ağstafa, Bakı, Borçalı, Çəmbərək, Karvansaray, Qazax, Şəmkir, Şuşa) və s.

Naxçıvan qrupu şivələrində, ayrım və Qərbi Azərbaycanın Karvansaray şivələrində sonu saitlə bitən isimlər ismin yönlük halında -ya, -yə şəkilçisinin əvəzinə son saitin uzanması nəticəsində ahəngə uyğun olaraq olaraq -a, -ə şəkilçisini qəbul edir. Məsələn: *əlcə:* “əlcəyə”, *çörə:* “çörəyə” (Naxçıvan), *meşə:* “meşəyə”, *yara:* “yaraya”, *baxça:* “bağçaya” (Karvansaray), *alma:* “almaya”, *dəvə:* “dəvəyə”, *iğnə:* “iynəyə”, *düğmə:* “düymə” (Gədəbəy) və s. Qərbi Azərbaycanın Göyçə, Ağbaba, Calaloğlu şivələrində mən, sən şəxs əvəzliyi yönlük halda manŋa, sanŋa formasında işlənir (S.Sadıqova, 2018, s. 94).

Şivələirimizdə yönlük hal təsirlik və yerlik hal yerində işlənə bilir.

Yönlük hal təsirlik hal yerində: Mən *saŋa* inanderem ki, bizim bu kətdən geçif gederdi dağa gedən (Qazax); Döymə *qapıma* barmağnan, döyəllər qapuya toxmağnan (Şəki); *Uşağa* niyə ellə vuroysuŋ ? (Daşkəsən); Bu kəndin *adına* nə qoyax (Ucar) və s.

Yönlük hal yerlik hal yerində: Bı işdər Soltanın *sayasına* yaxşi olıb (Salyan); Sizin *sayəŋıza* biz də gedif gordux Bakini (Şəki); *Meşiyə* daldalanır **(**Gəncə); Beş yüz tona əkmişəm *ora* (Göyçay) və s. (E.Əzizov, 1999, s.181).

Təsirlik hal. Azərbaycan dili sivələrində ismin təsirlik halı ədəbi dilimizdə olduğu kimi əsasən sözün sonu samitlə bitəndə *-ı,-i, -u, -ü,* saitlə bitəndə *-nı,-ni,-nu,-nü* şəkilçisini qəbul edir. Azərbaycan dili şivələrində ismin təsirlik halı müxtəlif morfoloji əlamətlərlə düzəlir.

M.Şirəliyev (M.Şirəliyev, 1967, s.139), M. Məmmədli (M. Məmmədli, 2003,s. 79-81) ismin təsirlik halının qəbul etdiyi şəkilçilərə görə üç qrupa bölür. Belə ki Azərbaycan dili şivələrində ismin təsirlik halı dördvariantlı, ikivariantlı və birvariantlı formalarda təzahür edir. Bu baxımdan şivələrimizdə ismin təsirlik halı aşağıdakı şəkilçilər əsasında formalaşır.

1. Ağcabədi, Ağstafa, Bərdə, Çəmbərək, Gəncə, Karvansaray, Qarakilsə, Qazax, Qubadlı, Qax, Mingəçevir, Muğanın Ağaməmmədli, Quruzma, Təzəkənd, Naxçıvanın Qoşa Dizə, Kolanı, Zəngibasar, Zəngilan şivələrində ismin təsirlik halı dördvariantlı olmaqla *-ı,-i,-u,-ü* (*-nı,-ni,-nu,-nü*) şəkilçisi əsasında düzəlir. Məsələn: *saçı, sajı* “sacı”, *coravı* “corabı”, *yurdu, südü* (Ağcabədi, Ağstafa, Bərdə, Çəmbərək, Gəncə, Karvansaray, Qarakilsə, Qazax), *qatığı, quzunu, düyünü* (Çəmbərək, Gəncə, Karvansaray, Qarakilsə, Qazax, Zəngilan), *sə:ngi* “səhəngi” (Qazax, Zəngilan), *uşağı, qağanı* “qardaşı”, *otu, çölü* (Çəmbərək, Mingəçevir), *luxmanı* “loxmanı”< bir parça yemək, çörək, *hətəli*<toxunma ayaqqabı, *qudunu* < böyrəyi, *gülü* (Qax), *paltarı, dumbuzu* < yumruğu (Ağcabədi, Ağstafa, Çəmbərək, Qazax), *pıxarını* “buxarını”, *də:zi* “dənizi”, *qutu* < tumurcuğu, *sögüdü* “söyüdü” (Muğan), *xamranı* < xəmir mayasını, *xırı* <daş qırıntıları, *çəlvəri* < ocaq daşını, *kolusu* < papağını, *çöykürü* < tikanı (Karvansaray), *holvanı* “halvanı”, *övü* “evi”, *düyünü* (Çəmbərək, Naxçıvan), *əvi* “evi” (Dərələyəz, Naxçıvan) və s.

2. Naxçıvan, Quba, İsmayıllı, Cəlilabad (bəzi şivələrində), Təbriz, İmişlinin Arazqırağı, Şəki, Ağcabədi (bəzi şivələırində) şivələrində dodaqlanan saitli sözlər təsirlik halda *-ı,-i* şəkilçisini qəbul edir (M.Məmmədli, 2003, s. 79). Məsələn : *əlovı* “alovu”, *qoyini* “qoyunu”, *quzini* “quzunu” (Naxçıvan), *doşanı* “dovşanı”, *bülbüli* “bülbülü”, *topi* “topu”, *göli* “golü” (Quba), *oxlo:nı* “oxlovu”, *dümbüli* “beli” (İsmayıllı), *arabanı, yaxanı, dəvəni, yuxunı* “yuxunu”, *ütüni* “ütünü” (Cəlilabad), *yunı* “yunu”, *otı* “otu”, *kürki* “kürkü”, *güni* “günü” (Təbriz), *oxlo:nı* “oxlovu”, *buzo:nı* “buzovu”, *üzümi* “üzümü”, *öküzi* “öküzü” (İmişıi), *suçını* “suçunu”, *qohımı* “qohumu”, *üzüyi* “üzüyü”, *güyümi* “güyümü” (Ağcabədi), *quzunı* “quzunu”, *sümbüli* “sünbülü”, *kö:söni* “kösövü”, *güzgüni* “güzgünü”, *küküni* “kükünü” (Şəki) və s.

Orxon-Yenisey abidələrində ismin təsirlik halı -ın, -in,- n, -ni şəkilçisi ilə düzəldiyinə rast gəlinir və bu, əsasən, əvəzliklərə qoşulur. Məsələn: buni “bunu”, bizni “bizi” (Y. Məmmədov, 1979, s.59, M.Məmmədli, 2003, s.79).

3. Bakı, Təbriz, Muğan, Quba (saitlə bitən sözlərdə), Göyçay, İsmayıllı (saitlə bitən sözlərdə), Dərbənd, Lənkaran, Ağcabədinin Yeniyol kənd, Meğrinin Nüvədi şivələrində təsirlik halı birvariantlı olmaqla *-i* (*-ni*) şəkilçisini qəbul edir (M.Məmmədli, 2003, s.80). Məsələn: *samani* “samanı”, *sui* “suyu”, toyği “toyuğu”, *öyi* “evi” (Bakı), *çamuri* “çamuru” < palçığı, *arşıni* “arşını” < ölçü vahidi (Bu söz Ü.Habəylinin “Arşın mal alan” komediyasının adında işlədilmişdir), *çubuği* “çubuğu”<papirosu (Təbriz), *qoyıni* “qoyunu”, *quyıni* “qoyunu”, *touği* “toyuğu”, *qomişi* “qomuşu”<camışı (Muğan), *qapıni* “qapını”, *kürpini* “kirpini”, *quyuni* “quyunu” (Quba), *taxıli* “taxılı”, *lampani* “lampanı”, *quncari* “quncarı”< ət qutabı, *xatuni* “xatını”<arvad (Dərbənd), *yuxuni* “yuxunu” (Ağcabədi, Dərbənd), *quyini* “quyunu”, *kolazi* “kolazı” <qayıq, *halaği* “halağı” (Lənkəran), *daşi* “daşı”, *oti* “otu”, *çöli* “çölü” (Ağcabədi), *ati* “atı”, *tuxlıni* “toğlunu”, *quşi* “quşu”, *düyini* “düyünü” (Meğri) və s.

Müasir Azərbaycan ədəbi dilində sözün sonu saitlə bitəndə təhsirlik halda **n** bitişdiricisi işlənərək -nı^4 şəkilçisi formasında iştirak edir və tələffüzdə heç bir fonetik dəyişiklik baş vermir. Bu fonetik hal əksər şivələrimizdə qorunub saxlandığı halda, qərb qrupu şivələrində, Sədərək, Bakının Hökməli, Qobu, Güzdək, Muğanın Kürkəndi, Beşdəli, Cəbrayılın Böyük Mərcanlı, Hovuslu, Sofulu, Qarakisə, Zəngilanın Ağbis, Sarılı, Xəştab, Şatariz, Canbar,

Günqışlaq, Gədəbəyin Şınıx, Şərurun Cağazir, Cəlilabadın Şıxlar, Qarakilsənin Ərəfsə, Murxuz şivələrində sonu saitlə bitən isimlər təsirlik hal **n** bitişdiricisinin əvəzinə **y** bitişdiricisini qəbul edərək *-yı, -yi,-yu, -yü* şəkilçisi formasında təzahür edir. Məsələn: *arpıyı* "arpanı", *buğduyu* "buğdanı", *daneyi* "dananı" (Qazax), *körpüyü* "köfrpünü", *pəyyi* "pəyəni"< tövlə, *murtduyu* "yumurtanı" (Tovuz), *haravıyı* "arabanı", *darıyı* "darını", *dəviyi* "dəvəni", *ütüyü* "ütünü", *qapıyı* "qapını", *kişiyi* "kişini", *keçiyi* "keçini", *torvuyu* "torbanı" Çəmbərək, Karvansaray, Qazax, Gədəbəy, Şəmkir Tovuz), *qaleyi* "qalanı", *düəyi* "düyəni" < dişi mai-qara, *kəmreyi* "kəmrəni" < təzək, *lampayı* "lampanı" (Bakı), *arabayı* "arabanı", *baltayı* "baltanı", *dəhrayı* "dəhrəni"< balta, çapacaq, *çeşniyi* "çeşnini"< şəkil, naxış, *qırayı* "qıranı"<paltar asan (Muğan), *kişiyi* "kişini", *qonuyu* "qonunu" < qonşunu, *çömçöyü* "çömçəni" (Şəmkir), *darıyı* "darını", *sərçiyi* "sərçəni", *toyçuyu* "toyçunu" < musiqi üçlüyü, *cücüyü* "cücəni" (Sədərək) və s.

Şəmkirin Dəllər, Dəllər-Cəyir, Qapanlı, Daşbulaq, Yeniabad, Dəllər-Cırdaxan, Borçalı şivələrində sonu açıq saitlə bitən isimlərə -yı^4 şəkilçisi qoşulduqda isimlərin sonundakı **a, ə** saitləri **e, o, ö** saitləri ilə əvəzlənir. Məsələn: *çömçöyü* "çömçəni", *cücöyü* "cücəni", *yumurtoyu* "yumurtanı", *Məsmeyi* "Məsməni" və s.

-yı, -yi,-yu, -yü təsirlik hal şəkilçisi kimi "Kitabi-Dədə Qorqud" dastanında, eləcə də XIX əsrə qədər dilimizdə işlək olmuşdur. Məsələn: **Buğayı** qoyu verdilər, oğlancıqlara "qaç" dedilər; **Borcluyu** borcundan qurtardı; Qanturalı altunlu incə kətan bezin belinə sardı. **Qanturalıyı** alub meydana gətürdilər (Kitabi-Dədə Qorqud). Onu da əlavə edək ki, *-yı, -yi,-yu, -yü* təsirlik hal şəkilçisi XIX əsrə kimi *-nı, -ni,- nu, -nü* şəkilçisi ilə yanaşı işlənmişdir. Türk və qaqauz dillərində də ismin təsirlik halı üç variantda olmaqla - *yı,-yu, -yü* şəkilçisi ilə düzəlir (Oğuz qrupu, 1986,s.21).

Yerlik hal. Azərbaycan dili şivələrində ismin yerlik halı *-da, -də* şəkilçisi ilə düzəlir. Məsələn: *nəhrədə, yazda, meşədə* (Çəmbərək, Bərdə, Dərbənd, Qazax, Gəncə, Şuşa), *ağaşda* "ağacda", *çəkişdə* "çəkicdə" (Çəmbərək, Quba, Naxçıvan), *yerdə, Təbrizdə, pillələrdə (*Təbriz), *buzoyda* "buzovda", *aloyda* "alovda", *dəyədə* (Qazax), *dovada* "davada" < müharibdə, *eşmədə* < çöldə, *sülümdə* < nərdivanda (Bakı), *cəvizdə* "cövüzdə" < qozda (Dərələyəz, Naxçıvan), *siyəzəndə* < kisədə, *hovlada* "halvada" (Naxçıvan), *sazda* < qamışda (Şəki, Zəngibasar), *ləmpədə* < tavanda, *həyvədə* "heyvada" (Şəki) və s.

Təbriz şivəsində yerlik hal *-da, -də* şəkilçisinin fonetik variantı kimi *-ta,-tə* şəkilçisi ilə də düzəlir. Məsələn: bucaxta "bucaqda" < küncdə, otaxta "otaqda", səbəttə "səbətdə" (M.Məmmədli, 2008, s.86) və s.

Şəkinin Zunud və İncə kənd şivələrində ismin təhsirlik halı *-da, -də* əvəzinə *-la, -lə* və *-na, -nə* şəkilçisini qəbul edir. Məsələn: *kələmnə* "kələmdə", *dermanna* "dəyirmanda", *gönnə* "göndə", *kəllə* "kəldə", *göllə* "göldə", *balla* "balda", *dillə* "dildə" (M.İslamov, 1968,s.87). Muğan qrupu şivələrində yerlik hal sonu **z** samitləri ilə bitən sözlərdə -za, -zə, **s** samitləri ilə bitən sözlərdə -sa, -sə şəkilçisini qəbul edir. Məsələn: *bıynızza* "buynuzda", *dizzə* "dizdə", *iclassa* "iclasda" (Muğan qrupu şivələri, 1955, s.79).

Çıxışlıq hal. Azərbaycan dili şivələrində ismin çıxışlıq halı *-dan, -dən* şəkilçisini qəbul edir. Məsələn: *duvardan* "divardan", *çəküşdən* "çəkicdən", *ərəbədən* "arabadan" (Quba), *qoruxçudan*< gözətçidən, *meşədən (*Çəmbərək, Karvansaray), *atdan, dəvədən, ağaşdan* "ağacdan", *quşdan* (Ağstafa, Bərdə, Çəmbərək, Naxçıvan), *dufardan* "divardan", *şə:rdən* "şəhərdən", *ka:zdan* "kağızdan", *qızıldan* (Təbriz), *oymaxdan* "oymaqdan", *üysüx'dən*

“üskükdən”, *öydən* “evdən” (Borçalı, Çəmbərək, Qazax) və s.

Qərb qrupu şivələrinə daxil olan Tovuzun Düz Qırıqlı, Qazaxın Düzqışlaq, İkinci Şıxlı, Ağstafanın Köçəsgər, Borçalının Sabirkənd kənd şivələrində çıxışlıq hal həm də *-daŋ, -dəŋ* şəkilçisini qəbul edir. Məsələn: *qapıdaŋ* (Borçalı, Qazax), *üşşədəŋ* (Ağstafa, Qazax, Tovuz) və s. (Qərb qrupu şivələri, 1967, s. 77).

Təbriz şivəsində sonu kar samitlə bitən sözlərdə çıxışlıq hal şəkilçisi *-tan, -tən* şəklində müşahidə olunur. Məsələn: *padşahtan* “padşahdan”, *Sadıxtan* “Sadıqdan”, *bulaxtan* “bulaqdan”, *dö:ləttən* “dövlətdən” (M. Məmmədli, 2008, s. 87). Naxçıvan və Muğan qrupu şivələrində sonu **z** samiti ilə bitən isimlər çıxışlıq halda *-zan, -zən* şəkilçini qəbul edir. Məsələn: *Şahbuzzan* “Şahbuzdan”, *sözzən* “sözdən” (Naxçıvan), *boğazzan* “boğazdan”, *gözzən* “gözdən” (Muğan) və s. Muğan qrupu şivələrində sonu **s** samiti ilə bitən isimlər çıxışlıq halda *-san, -sən* şəkilçini qəbul edir. Məsələn: *Abassan* “Abasdan”, *nəfəssən* “nəfəsdən” (Muğan) və s.

Azərbaycan dili şivələrində “sonu **n** və **m** samitiilə bitən sözlər çıxışlıq halda assimilyasiyaya uğramış *-nan, -nən* formasını qəbul edir” (M.Məmmədli, 2008, s. 87). Məsələn: *günnən* “gündən”, *şurqannan* “şurqandan” < şəlalədən (Təbriz), *mənnən* “məndən”, *sənnən* “səndən”, *onnan* “ondan”, *gözümnən* “gözümdən” (Borçalı, Çəmbərək, Qzax, Təbriz), *kəvşənnən* “kövşəndən”, *əraşqınnan* “araşqınnan” < baş geyimi, *bossannan* “bostandan” (Naxçıvan), *çulğamnan* “çulğamdan” < qığılcımdan, *du:şannan* “dovşandan” (Quba), *üzimnən* “üzümdən”, *suğannan* “soğandan” (Dərbənd), *samannan* “samandan”, *xırmannan* “xırmandan”, *mumnan* “mumdan” (Meğri), *kotannan* “kotandan”, *şamnan* “şamdan”, *ceydamnan* “ceydamdan” < döşəyin astarı (Qazax, Tovuz) və s.

Şəkinin Zunud və İncə kənd şivələrində ismin təsirlik halı *-da, -də* əvəzinə *-lan, -lən* şəkilçisini qəbul edir. Məsələn: *kəllən* “kəldən” < öküzdən, *göllən* “göldən”, *ballan* “baldn”, dillən “dildən” (M.İslamov, 1968, s.87).

Şivələrimizdə çıxışlıq hal yönlük və yerlik halları yerində işlənə bilir.

Çıxışlıq hal yönlük hal yerində: *Sizdən* çox ümüdüm var (Salyan); *Axşamnan* üş sa:t qalmış çatdıx Bakiyə (Zəngilan) və s.

Çıxışlıq hal yerlik hal yerində: *Uzaxdan* oturmuyun, yaxın ə:lin (Zəngilan); *Keşmişdən* qamış damnar olardı (Şəki); so:ra qalxırı çini qavlardan nehrə elirik (Ağdam) və s. (E.Əzizov, 1999, s.182).

İsimlərin Hallanmasına Aid Nümunələr

Saitlə bitənlər

Bakı şivəsi

A.	boba	ərəbə	su	düə	araba
Yiy.	bobanun	ərəbənün	su:n	düənin//düə:n	araba:n
Yön.	bobyə	ərəbeyə	sua	düəyə	arabaya
T.	bobani	ərəbəni	sui	düəyi	arabayı[i]
Yer.	bobada	ərəbədə	suda	düədə	arabada
Ç.	bobadan	ərəbədən	sudan	düədən	arabadan

Quba şivəsi

A.	buğda	düvə	qapı	quzi
Yiy.	buğdanun	düvənün	qapınun	quzinun
Yön.	buğdiyə	düviyə	qapiyə	quziyə
T.	buğdanı^{i}	düvəni	qapını^{i}	qapını^{i}
Yer.	buğdada	düvədə	qapıda	quzida
Ç.	bığdadan	düvədən	qapıdan	quzidan

Şamaxı şivəsi

A.	bığda	quzı^{i}	ütü	quyı
Yiy.	bığdanun	quzınun	ütünın	quyınun
Yön.	bığdıya	quzıya	ütü̆yə	quyya
T.	bığdanı^{i}	quzını	ütini	quyını
Yer.	bığdada	quzıda	ütidə	quyıda
Ç.	bığdadan	quzıdan	ütidən	quyıdan

Şəki şivəsi

A.	həyvə	quzu	güzgi	qapı	arava
Yiy.	həyvənın	quzunun	güzgü:n	qapı̃	aravã
Yön.	həyviyə	quziyə	güzgiyə	qapiyə	araviyə
T.	həyvanı	quzunu	güzgüni	qapı̃	aravã
Yer.	həyvədə	quzuda	güzgüdə	qapıda	aravada
Ç.	həyvədən	quzudan	güzgüdən	qapıdan	aravadan

Çəmbərək şivəsi

A.	çuxa	dədə	bajı	quyu	düyü
Yiy.	çuxanın	dədənin	bajının	quyunun	düyünün
Yön.	çuxuya	dədiyə	bajıya	quyya	düyyə
T.	çuxuyu	dədiyi	bajıyı	quyuyu	düyyü
Yer.	çuxada	dədədə	bajıda	quyuda	düydə
Ç.	çuxadan	dədədən	bajıdan	quyudan	düydən

Qazax şivəsi

A.	gejə	harava	çuxa	quzu	küçə
Yiy.	gejənin	haravanın	çuxanın	quzunun	küçənin
Yön.	gejiyə	haravıya	çuxuya	quzuya	küçüyə
T.	gejeyi	haraveyı	çuxuyu	quzuyu	küçüyü
Yer.	gejədə	haravada	çuxada	quzuda	küçədə
Ç.	gejədən	haravadan	çuxadan	quzudan	küçədən

Qarabağ şivəsi üzrə

A.	çuxa	quyu	qaya	ütü	gejə
Yiy.	çuxanın	quyunun	qayanın	ütünün	gejənin
Yön.	çuxuya	quyya	qayya	ütü̆yə	gejiyə
T.	çuxanı	quyuyu	qayanı	ütünü	gejiyi
Yer.	çuxada	quyuda	qayada	ütüdə	gejədədə
Ç.	çuxadan	quyudan	qayadan	ütüdən	gejədəndən

Naxçıvan şivələri

A.	haraba	darı	dəvə	küçə	toyçu
Yiy.	haraba:n	darı:n	dəvə:n	küçə:n	toyçu:n
Yön.	harabıya	darıya	dəviyə	küçiyə	toyçuya
T.	harabıyı	darıyı	dəvəni//dəvəyi	küçüyü	toyçuu
Yer.	harabada	darıda	dəvədə	küçədə	toyçuda
Ç.	harabadan	darıdan	dəvədən	küçədən	toyçudan

Dərbənd şivəsi

A.	alma	dəhrə	ötü	quzi	dügi
Yiy.	almanun	dəhrənün	ötünü//ötüni	quzinün	dügini
Yön.	almayə//almaya	dəhrəyə	ötüyə	quziyə	dügiyə
T.	almani	dəhrəni	ötüni	quzini	dügiini
Yer.	almada	dəhrədə	ötüdə	quzidə	dügidə
Ç.	almadan	dəhrədən	ötüdən	quzidən	dügidən

Keçid şivələri

	Göyçay və Ağdaş şivələri		Kürdəmir şivəsi	İsmayıllı şivəsi	
A.	araba	su	balta	bığda	su
Yiy.	araba:n	su:n	balta:n	bığdanən	suvun
Yön.	arabiya	sua	baltĭya	bığdıya	suva
T.	arabani	su:	baltayı^{i}	bığdıyı^{i}	suvi
Yer.	arabada	suda	baltada	bığdada	suda
Ç.	arabadan	sudan	baltadan	bığdadan	sudan

Qax və Zaqatala şivələri

	Zaqatala şivəsi		Qax şivəsi		
A.	pərə "fərə"	tişqarı	inaq	yumurta	düvə
Yiy.	pərənin	tişqarının	inaqın	yumurtanın	düvənünü
Yön.	pəriyə	tişqarıya	inaqa	yumurtŭya	düvĭ̄yə
T.	pərəni	tişqarını^{i}	inaqı^{i}	yumurtanı	düvəni
Yer.	pərədə	tışqarıda	inaqda	yumurtada	düvədə
Ç.	pərədən	tışqarıdan	inaqdan	yumurtadan	düvədən

Gədəbəy (ayrım) şivəsi

A.	keçi	sürü	ana	quzu
Yiy.	keçiniŋ	sürünüŋ	ananıŋ	quzunuŋ
Yön.	keçiyə	sürüyə	anıya	quzuya
T.	keçiyi	sürüyü	anıyı	quzuyu
Yer.	keçidə	sürüdə	anada	quzuda
Ç.	keçidən	sürüdən	anadan	quzudan

Samitlə bitənlər

Bakı şivəsi üzrə:

A.	popağ	xöreg	qədeş	ağac	də:z
Yiy.	popağun	xöregün	qədeşün	ağacun	də:zün
Yön.	popağa	xöregə	qədeşə	ağaca	də:zə
T.	popaği	xöregi	qədeşi	ağaci	də:zi
Yer.	popağda	xöregdə	qədeşdə	ağacda	də:zdə
Ç.	popağdan	xöregdən	qədeşdən	ağacdan	də:zdən

Quba şivəsi üzrə:

A.	du:şan	buzuğ(buzov)	ut	gügəm	ürümçeg
Yiy.	du:şanun	buzuğun	utun	gügəmün	ürümçegün
Yön.	du:şana	buzuğa	uta	gügəmə	ürümçügə
T.	du:şanı^{i}	buzuği	uti	gügəmi	ürümçügi
Yer.	du:şanda	buzuğda	utda	gügəmdə	ürümçügdə
Ç.	du:şandan	buzuğdan	utdan	gügəmdən	ürümçegdən

Dərbənd şivəsi

A.	ineg	güz	qoyün	tük	gelin
Yiy.	inegün	güzün	qoyünü	tüki	gelini
Yön.	inege	güzə	qoyünə	tükə	gelinə
T.	inegi	güzi	qoyüni	tüki	gülini
Yer.	inegde	güzdə	qoyündə	tükdə	gelində
Ç.	inegden	güzdən	qoyündən	tükdən	gelindən

Qərb qrupu şivələri

	Tovuz şivəsi		Qazax şivəsi		Gəncə şivəsi
A.	üysüx^{1}	oyuç	aloy//yaloy	kətəməz	inəx^{1}
Yiy.	üysüyün	oycun	aloyun//yaloyuŋ	kətəməziŋ	inəyin
Yön.	üysüyə	oyca	aloya//yaloya	kətəməzə	inəyə
T.	üysüyü	oycu	aloyu//yaloyu	kətəməzi	inəyi
Yer.	üysüxˈdə	oyuşda	aloyda//yaloyda	kətəməzdə	inəhdə
Ç.	üysüxˈdən	oyuşdan	aloydan// yaloydan	kətəməzdən	inəhdən

Naxçıvan şivələri

Yiy.	ağacın	armıdın	boşqavın	dö:şənin	öyəcin
Yön.	ağaca	armıda	boşqava	dö:şənə	öyəcə
T.	ağacı^{i}	armıdı	boşqavı	dö:şəni	öyəci
Yer.	ağaşda	armıtda	boşqafda	dö:şəndə	öyəşdə
Ç.	ağaşdan	armıtdan	boşqafdan	dö:şəndən	öyəşdən

Şəki şivəsi

A.	bal	kələm	derman	qoc	daş
Yiy.	balın	kələmin	dermanın	qocün	daşin
Yön.	bala	kələmə	dermana	qocə	daşa
T.	balı	kələmi	dermanı	qocü	daşi
Yer.	balla	kələmnə	dermanna	qojdə	daşdə
Ç.	ballan	kələmnən	dermannan	qojdən	daşdən

Muğan şivələri

	Sabirabad şivəsi	Salyan şivəsi	Şirvan şivəsi	Biləsuvar şivəsi
A.	dohar	do:şan	qılıç	bıynız
Yiy.	doharun	do:şanın	qılıcın//qılıncın	bıynızun
Yön.	dohara	do:şana	qılıca//qılınca	bıynıza
T.	doharı^{i}	do:şanı^{i}	qılıcaı^{i}//qılıncı^{i}	bıynızı^{i}
Yer.	doharda	do:şanda	qılıjda//qılınjda	bıynızza
Ç.	dohardan	do:şannan	qılıjdan//qılınjdan	bıynızzan

Qarabağ şivəsi

A.	yaloy	ağaş	saj	bülöy	doyşan
Yiy.	yaloyun	ağacın	sajın	bülöyün	doyşanın
Yön.	yaloya	ağaca	saja	bülöyə	doyşana
T.	yaloyı[i]	ağacı	sajı	bülöyü	doyşanı
Yer.	yaloyda	ağaşda	sajda	bülöydə	doyşanda
Ç.	yaloydan	ağaşdan	sajdan	bülöydən	doyşandan

Qax şivəsi

A.	tevşan	tavux	inaq	qav	kənt
Yiy.	tevşanın	tavuğun	inaqın	qavın	kəntin
Yön.	tevşana	tavuğa	inaqa	qava	kəntə
T.	tevşanı	tavuği	inaqı[i]	qavı	kənti
Yer.	tevşanda	tavuxda	inaqda	qavda	kəntdə
Ç.	tevşandan	tavuxdan	inaqdan	qavdan	kəntdən

Zaqatala şivəsi

A.	putaq	inəq	inəg	kənt	yalov
Yiy.	putağın	inəqin	inəgin	kəntin	yalovun
Yön.	putağa	inəqə	inəgə	kəntə	yalova
T.	putağı	inəqi	inəgi	kənti	yalovu
Yer.	putaxda	inəqdə	inəydə	kəntdə	yalovda
Ç.	putaxdan	inəqdən	inəydən	kəntdən	yalovdan

Şamaxı şivəsi

A.	kürk	pələy	saç	do:şan	qılınc
Yiy.	kürkün	pələngün	saçun	do:şanun	qilincin
Yön.	kürkə	pələngə	saça	do:şana	qilincə
T.	kürkü	pələngi	saçı[i]	do:şanı[i]	qilinci
Yer.	kürkdə	pələydə	saşda	do:şanda	qilijdə
Ç.	kürkdən	pələydən	saşdan	do:şandan	qilijdən

(M.Şirəliyev, 1967, s.141-156; R.Rüstəmov, 1961, s.114-117; Naxçıvan qrupu şivələri, 1962, s.87-90; Qərb qrupu şivələri, 1967, s.77-78; M.İslamov, 1968, s.88-89; Muğan qrupu şivələri, 1955, s.80; Dərbənd dialekti, 2009, s.52-54; A.Vəliyev, 1975, s.13-15).

Mənsubiyyət Kateqoriyası

Mənsubiyyət kateqoriyası dilimizin milli xüsusiyyətini əks etdirən qrammatik kateqoriyalardan biridir. Mənsubiyyət kateqoriyasında iki tərəf var: birinci tərəf sahib şəxs, ikinci tərəf mənsub əşya. Sahib şəxslə mənsub əşya arasındakı əlaqəni bildirən qrammatik kateqoriya mənsubiyyət kateqoriyası adlanır. Türk dillərinə xas olan mənsubiyyət kateqoriyası ədəbi dilimizdə olduğu kimi şivələrimizdə də geniş şəkildə işlənir. Azərbaycan

dili şivələrində mənsubiyyət kateqoriyasının morfoloji əlamətləri ədəbi dilimizlə eyniyyət təşkil etsə də, fərqli qrammatik əlamətlərə malikdir. “Azərbaycan dili şivələrində ədəbi dilə uyğun mənsubiyyət şəkilçiləri ilə yanaşı, qədim formalar da qorunub saxlanmaqdadır. Bəzən bir dialektin daxilində tarixi-etnik hadisələrlə bağlı bir neçə forma dialektal fərqlər əmələ gətirir” (M.Məmmədli, 2003, s.113). Şivələrimizdə mənsubiyyət şəkilçilərində oxşarlıq özünü göstərsə də, fərqli mənsubiyyət formalarına rast gəlinir. Bu fərqləri B.Sadıqov iki yerə bölür:

1. Mənsubiyyət kateqoriyasının ikinci komponenti sonu samitlə bitərsə *-ıŋ, -iŋ, -uŋ, -üŋ,* saitlə bitərsə, *-n* şəkilçisinin qəbul edir. Bu, əsasən Azərbaycan dilinin qərb, qismən də şimal qrupu şivələrində müşahidə olunur. Məsələn: baxdıŋ “sənin bəxtin”, cijiŋ “sənin cijin”<sənin anan (Qazax), sənin gözdəriŋ “sənin gözlərin” (Şirvan) .

2. Azərbaycan dilinin Gədəbəy şivələrində mənsubiyyət kateqoriyasının ikinci komponentində sözün sonuncu səsi düşür. Düşən əvvəlki səslə şəkilçidəki sait birləşir və uzun tələffüz olunur. Məsələn: səniŋ// sə:ŋ quləŋ “sənin qulağın”, səniŋ// sə:ŋ dar:ŋ “sənin darağın”, səniŋ// sə:ŋ pıçə:ŋ “sənin bıçağın” (B.Sadıqov, 1977, s.30).

Eyni zamanda şivələrdə mənsubiyyət şəkilçisinin qədim formaları belə müşahidə olunur.

Azərbaycan dili şivələrində mənsubiyyət kateqoriyası üç üsulla ifadə olunur:

1.Morfoloji üsul.

2.Morfoloji-sintaktik üsul.

3.Sintaktik üsul.

Morfoloji üsul. Azərbaycan dili şivələrində mənsubiyyət kateqoriyasının morfoloji üsulla ifadəsi mənsubiyyət şəkilçiləri vasitəsi ilə əmələ gəlir. Hər üç şəxsin tək və cəmində mənsubiyyətin morfoloji üsulla ifadəsi aşağıdakı şəkilçilər əsasında yaranır.

Birinci şəxsin təki. Mənsubiyyət kateqoriyası birinci şəxsin təkində, əsasən, ədəbi dilimizdə olduğu kimi sonu saitlə bitən sözlər *-m,* samitlə bitən sözlər *-ım,-im,-um,-üm* şəkilçisini qəbul edir. Məsələn: *dədəm* (Çəmbərək, Qazax, Quba, Naxçıvan), *haravam* “arabam” (Çəmbərək, Qazax, Tovuz), *alam <göyərti, bağalam < kiçik saxsı qab, keçim* (Şəki), *əmməm* <bibim (Təbriz) və s. Bununla yanaşı şivələrimizdə mənsubiyyət kateqoriyası sözün sonu samitlə bitən sözlər birinci şəxsin təkində morfoloji əlamətlər müxtəlif variantlarda özünü göstərir.

Azərbaycan dilinin bütün şivələrində (Ağstafa, Bakı, Muğan, Şamaxı, İsmayıllı, Sabirabad, Şirvan, Salyan, Dərbənd, Qubadlı, Şəki, Naxçıvan, Qazax, Gəncə, Təbriz, Qərbi Azərbaycanın Çəmbərək, Karvnsaray, Meğri, Qarakilsə, Dərələyəz, Qafan, Zəngibasar, Gürcüstanın Borçlı və s.) sözün sonu saitlə bitəndə birinci şəxsin təkində ədəbi dildə olduğu kimi *-m* şəkilçisini qəbul edir. Məsələn: *əmim, anam, bacım, dayım, nənəm, sürüm* və s.

Sözün sonu samitlə bitəndə şivələrimizdə birinci şəxsin təkində iki variantlı mənsubiyyət şəkilçisini qəbul edir. Sözün sonu samitlə bitəndə Bakı, Şamaxı, Sabirabad, Şirvan, Salyan, Qərbi Azərbaycanın Meğrinin Nüvədi şivələrində mənsubiyyət kateqoriyası birinci şəxsin təkində *-ım, - im,* Dərbənd şivəsində *-um, -üm* şəkilçiləri ilə düzəlir. Məsələn: *başım, qeyşim* “qayışım” < kəmərim, *quşım* “quşum”, *örüşim* “örüşüm” (Bakı), *donım* “donum”, *öyim* “öyüm” < evim, *quzım* “quzum” (Sabirabad), *gözim* “gözüm”, *utım* “otum” (Meğri-Nüvədi), *qulum* “qolum”, *inegüm* “inəyim”, *kitabum* “kitabım” (Dərbənd) və s.

Cəlilabad şivəsində son hecası qalın saitli sözlər birinci şəxsin təkində tərkibində qalın sait əvəzinə incə sait olan şəkilçini qəbul edir. Məsələın: *başim* “başım”, *canim* “canım”,

ağacim "ağacım", *yayim* "yayım" və s. Bu hala Orxon-Yenisey abidələrində, "Kitabi-Dədə Qorqud" dastanında da rast gəlinir. Məsələn: ögim "anam", budunım "xalqım", soruğım "sorağım" (Orxon-Yenisey), Qara başım qurban olsun, qurdım, saŋa!-dedi,-suçım bumıdır ?-dedi (Kitabi-Dədə Qorqud) və s. (M.Məmmədli, 2003,s. 115) .

Birinci şəxsin cəmi. Azərbaycan dili şivələrinin əksəriyyəti birinci şəxsin cəmində sözün sonu saitlə bitəndə *-mız, -miz,-muz,-müz*, samitlə bitəndə *-ımız,-imiz,-umuz,-ümüz* şəkilçisini qəbul edir. Məsələn: *üşşəmiz* "şüşəmiz", *nüyəmiz* "nəvəmiz", *sajımız* "sacımız", *tişimiz* "dişimiz" (Qazax), *kürpümüz* "körpümüz" (Dərbənd), *atamız, nənəmiz, sürümüz, quyumuz* (Ağstafa, Ağdam, Bərdə, Çəmbərək, Dərbənd, Gəncə, Tovuz, Zəngibasar), *keçimiz, haravamız* "arabamız", *qonşumuz* (Çəmbərək, Gəncə, Qarabağ, Qazax) və s.

İkinci şəxsin təki. Azərbaycan dili şivələrinin əksəriyyətində mənsubiyyət kateqoriyasının ikinci şəxsin təki ədəbi dildə olduğu kimi sözün sonu saitlə bitəndə *-n*, samitlə bitəndə *-ın,-in,-un,-ün* şəkilçisini qəbul edir. Məsələn: *anan* "sənin anan", *quzun* "sənin quzun", *atan* "sənin atan", *bacın //bajın* "sənin bacın", *sürün* "sənin sürün" (Ağdam, Ağstafa, Bərdə, Cəbrayıl, Çəmbərək, Qarabağ, Gəncə, Tovuz, Şuşa) və s.

Qərb qrupu şivələrində, Naxçıvan, İmişli, Zəngilan, Cəbrayıl və digər şivələrdə ikinci şəxsin təki sözün sonu saitlə bitəndə *-ŋ*, samitlə bitəndə *-ıŋ,-iŋ,-uŋ,-üŋ* şəkilçisini qəbul edir. Məsələn: *üşşəŋ* "sənin şüşən", *haravaŋ* "sənin araban", *sürüŋ* "sənin sürün" (Çəmbərək, Bortçalı, Qazax), *anaŋ* "sənin anan", *nəvəŋ* "sənin nəvən", *dədəŋ* "sənin dədn", *dayıŋ* "sənin dayın", *saçıŋ* "sənin saçın", *əliŋ* "sənin əlin" (Borçalı, Çəmbərək, Karvansaray, Gədəbəy, Gəncə, Qazax, Qubadlı, Naxçıvan, Tovuz, Tərtər), qoluŋ "sənin qolun", *gözüŋ* "sənin gözün", *dosduŋ* "sənin dostun" (Borçalı, Çəmbərək, Karvansaray, Gədəbəy, Gəncə, Qarabağ, Qazax, Qubadlı, Təbriz, Tovuz, Tərtər, Şəmkir) və s. Qərb qrupu şivələrinə xas olan ikinci şəxsin təkinin mənsubiyyət şəkilçisi XIV-XVI əsr ədəbi dilimizdə əsasən işlək olmuşdur. Məsələn:

Şövqüŋ, qaşıŋdan ağlayıcı göz tökər yaşı,
Vəsliŋ güniŋ döndərü güldür baharımı.
(İ.Nəsimi)
Ayineyi-***rüxsarıŋ*** löhi dili-heyranı,
Köŋlümdə görər oldum ol cahi-zənaxdanı.
(M.Füzuli).

Türkmən ədəbi dilində mənsubiyyət kateqoriyasının ikinci şəxs təkində Azərbaycan dilinin qərb qrupu şivələrində olduğu kimi *-ıŋ,-iŋ,-uŋ,-üŋ* şəkilçisini qəbul edir. Məsələn: qalam- *ıŋ*, iş-*iŋ*, dost-*uŋ, yüz-üŋ (*B.Sadıqov, 1977, s.33).

İraq -türkman ləhcəsində ikinci şəxsin təkində sözün sonu saitlə bitəndə *-y*, samitlə bitəndə *-ıy,-iy,-uy,-üy* mənsubiyyət şəkilçisi işlənir. Məsələn: *babay* "sənin baban", *nənəy* "sənin nənən", *əmiy* "sənin əmin", *ömrüy* "sənin ömrün", *ayağıy* "sənin ayağın". Eyni zamanda İraq-türkman şivəsində ikinci şəxs təkinin əlaməti diftonqvari -u,-ü şəklində də müşahidə olunur. Məsələn*: parau* "sənin paran", *nənəü* "sənin nənən", *qızu* "sənin qızın", *babau* "sənin baban", *damu* "sənin damın" və s. Ağcabədi rayonun əfşar şivəsində ikinci şəxs təkdə şəkilçisi samitlə bitən sözlərdən sonra *-u* mənsubiyyət şəkilçisini qəbul edir. Məsələn: *atu* "sənin atın", *əlu* "sənin əlin", *qolu* "sənin qolun", *papağu* "sənin papağın", *inəyu* "sənin inəyin" (M.Məmmədli, 2003, s.121). Şəki şivəsində mənsubiyyət kateqoriyası ikinci şəxs təkdə son hecası qalın dodaqlanmayan saitli sözlərdən ibarət olanada tərkibində incə

dodaqlanmayan **i** saitli şəkilçi qəbul edir. Məsələn: *başin* "sənin başın", *ağacin* "sənin ağacın", *qardaşin* "sənin qardaşın". Bununla yanaşı Şəkinin Zunud, Biləcik, Aşağı Göynük, Baş Layısqı, Baş Künküd, Böyük Dəhnə kəndlərində son hecasında incə dodaqlanmayan saitli sözlər tərkibində qalın dodaqlanmayan saitli şəkiçi qəbul edir. Məsələn: *qəlyənın* "sənin qəlyanın", *cücun* "sənin cücün" (Biləcik), *həşənın* "həşanın"< az taxıl döyülən xırman (Zunud), *elın* "sənin elin", *əmın* "səni əmin" (Aşağı Göynük), *ineyın* "sənin inəyin", *keçın* "sənin keçin" (Baş Layısqı), *ütun* "sənin ütün" (Baş Küngüd) və s.

Dərbənd şivəsində ikinci şəxs təkdə sözün sonu saitlə bitəndə *-v,* samitlə bitəndə ikivariantlı *-uv,- üv* şəkilçisini qəbul edir. Məsələn: *babov* "sənin baban", *nənəv* "sənin nənən", *ütüv* "sənin ütün", *qulağuv* "sənin qulağın", *inegüv* "sənin inəyin", qələmüv "sənin qələmin" (Dərbənd dialekti, 2009, s.5).

Bakı və Quba şivələrində mənsubiyyət kateqoriyası ikinci şəxs təkdə sözün sonu saitlə bitəndə digər şivələrdə olduğu kimi -n, samitlə bitəndə ikivariantlı -un, -ün, şəkilçisini qəbul edir. Məsələn: *ərəbön* "sənin araban", *aton* "sənin atan", *başun* "sənin başın", *əlün* "sənin əlün" və s. Bu xüsusiyyətə Təbrizin Dəvəçi məhəlləsində də rast gəlinir. Yəni dodaqlanmayan saitli sözlər mənsubiyyət şəkilçisinin dodaqlanan variantını qəbul edir. Məsələn: *malun* "sənin malın", *xalun* "sənin xalın", *bacun* "sənin bacın", *qərdəşün* "sənin qardaşın", *əmün* "sənin əmin" (M.Məmmədli, 2008, s. 89).

İkinci şəxsin cəmi. Şivələrimizdə mənsubiyyət kateqoriyası ikinci şəxs cəmində ədəbi dilin təsiri nəticəsində əsasən sözün sonu saitlə bitəndə *-nız, -niz,-nuz,-nüz,* samitlə bitəndə *-ınız, -iniz, -unuz, -ünüz* şəkilçisini qəbul edir. Məsələn: *ananız* "sizin ananız", *atanız* "sizin atanız", *sürünüz* "sizin sürünüz", *daşınız* "sizin daşınız", *gözünüz* "sizin gözünüz", *qolunuz* "qolunuz" və s. Lakin Azərbaycan dili şivələrində ikinci şəxs cəmi ədəbi dildən fərqli mənsubiyyət şəkilçiləri ilə ifadə olunur. Qərb qrupu şivələrində, eləcə də bəzi hallarda Naxçıvan, Şəki, Cəbrayil, Zəngilan şivələrində ikinci şəxs cəmində sözün sonu saitlə bitəndə *-ŋız, -ŋiz, -ŋuz, -ŋüz,* samitlə bitəndə *-ıŋız, -iŋiz, -uŋuz, -üŋüz* mənsubiyyət şəkiçisini qəbul edir. Məsələn: *haravaŋız* "sizin arbanız", *əmiŋiz* "sizin əminiz", *quzuŋuz* "sizin quzunuz", *sürüŋüz* "sizin sürünüz" (Çəmbərək, Qazax, Gəncə, Karvansaray), *ataŋız* "sizin atanız", *bavaŋız* "sizin babanız", *nəvəŋiz* "sizin nəvəniz" (Çəmbərək, Qubadlı, Şəmkir, Zəngilan), *qağaŋız* "sizin qağanız" < *qardaşınız//atanız, oyçuŋuz* "sizin ovçunuz" (Gədəbəy), *sajıŋız* "sizin sacınız", *tişiŋiz* "sizin dişiniz", *qoluŋuz* "sizin qolunuz", *gözüŋüz* "sizin gözünüz" (Qazax, Tovuz), *ciyiŋız* "sizin ciyiniz"< *ananız, özüŋüz* "sizin özünüz", *dermanıŋız* "sizin dərmanınız", *quşuŋuz* "sizin quşunuz" (Şəki), *inəyiŋiz* "sizin inəyiniz" (Qubadlı) və s.

Şimali-şərq qrupu şivələrində, İmişli və Mingəçevir ətrafının bəzi şivələrində mənsubiyyət kateqoriyasının ikinci şəxs cəmi *-uz, -üz, -uz,- üz* (Bakı, Quba, Salyan), *-u:z,-ü:z* (Bakı, Quba, İmişli), *-ŭvuz,- ŭvüz* (Quba), *-uz//uz,-üz//üz* (Muğan), *-z,-uz,-üz* (Cəlilabad), *-uz//ü:z* (Mingəçevir) şəkilçiləri ilə düzəlir (M.Məmmədli, 2003, s. 126). Məsələn: *qunaöuz* "sizin qonağınız", *atouz* "sizin atanız", *quzu:z* "sizin quzunuz", *ütü:z* "sizin ütünüz" (Quba), *ərəböüz* "sizin arabanız" (Bakı, Quba), başu:z "sizin başınız", *oxlouz* "sizin oxlovunuz", *papağuz "sizin papağınız", qeyişüz* "sizin qayışınız"<kəməriniz (Bakı), *atu:z* "sizin atınız", *əlü:z* "sizin əliniz", *öyü:z* "sizin eviniz", *atou:z* "sizin atanız", *nənəöz* "sizin nənəniz" (Muğan), *dədü:z* "sizin dədəniz", *torbo:z* "sizin torbanız", *qapu:z* "sizin qapınız" (Cəlilabad), *ağacu:z* "sizin ağacınız", *əlü:z* "sizin əliniz" (İmişli) və s. Şimal-qərb qrupu şivələrində ikinci şəxs cəmdə mənsubiyyət şəkilçisi birvariantlı formada təzahür edir. Bu xüsusiyyətə həm də Zəngilan, Qərbi Azərbaycanın Qarakilsə (Sisyan) şivələrində rast gəlinir.

Şamaxı şivəsində - *ũ:z// -ũz, -uz* və ya *-z,* Qax şivəsində *-uz,-üz, -iz, - ũ:z,* Zəngilan şivəsində *-z, -ã:z, -ĩz, - ũ:z,* Salyan şivəsində *-aĩ:z, -aũ:z, -ĩz, - ũ:z* şəkilçiləri ikinci şəxsin cəmini ifadə edir. Məsələn: *gönüz* “sizin gönünüz”, *komũz* “sizin komunuz” (Şamaxı), *canu:z* “sizin canınız”, *başu:z* “sizin başınız” (Qax), *atã:z* “sizin atanız”, *babã:z* “sizin babanız”, *çömçã:z* “sizin çömçəniz”, *əlĩ:z* “sizin əliniz” (Zəngilan), *düyã:z* “sizin düyəniz”, *quzũ:z* “sizin quzunuz” (Qarakilsə) və s.

Cənub qrupu şivələrində ikinci şəxs cəmində mənsubiyyət kateqoriyası *-ı:z, i:z, -u:z, -əvu:z, -əvi:z, -yız, -yiz, -yuz, -yüz, -iyiz,-iyiz, -uyuz, -üyüz,* Zəngilan, Cəbrayıl, Zəngibasar şivələrində *-yız, -yiz, -yuz, -yüz, -iyiz,-iyiz,-uyuz, -üyüz* şəkilçilərini qəbul edir. Məsələn : *cəvizu:z* “sizin cəviziniz”< qozunuz, *əmu:z* “sizin əminiz”, *quzu:z* “sizin quzunuz” (Naxçıvan), *əliyiz* “sizin əliniz”, *tavlayız* “sizinn tövləniz” (Naxçıvan, Ordubad), *buğdayız* “sizin buğdanız”, *samanıyız* “sizin samanınız”, *suçuyuz* “sizin suçunuz” (Təbriz), *babayız* “sizin babanız”, *qavıyız* “sizin qabınız”, *övüyüz* “sizin eviniz” (Zəngibasar), *atayız* “sizin atanız”, *nənəyiz* “sizin nənəniz”, *qoluyuz* “sizin qolunuz” (İrəvan), *qaşıyız* “sizin qaşınız”, *əliyiz* “sizin əliniz”, *gözüyüz* “sizin gözünüz” (Zəngilan), *qapıyız* “sizin qapınız”, *kəndiyiz* “sizin kəndiniz” (Şərur)-və s.

Üçüncü şəxsin təki. Azərbaycan dili şivələrində mənsubiyyət kateqoriyası üçüncü şəxsin təki 3 formada şəkilçi qəbul edir.

1.Azərbaycan diliniun cənub və qərb qrupu, eləcə də Şəki, Zaqatala, Qax şivələrində üçüncü şəxsin təki Azərbaycan ədəbi dilində olduğu kimi dördvariantlı olmaqla sözün sonu samitlə bitəndə *-ı,-i,-u,-ü,* saitlə bitəndə - *sı,-si,-su,-sü* şəkilçisini qəbul edir. Məsələn: *üşşəsi* “onun şüşəsi”, *nüyəsi* “onun nəvəsi”, *qonşusu* “onun qonşusu”, *sürüsü* “onun sürüsü” (Ağstafa, Borçalı, Çəmbərək, Qazax), *dədəsi* “onun dədəsi”, *ağası* “onun ağası”, *bacası* “onun bacası” (Naxçıvan, Ordubad, Təbriz, Zəngibasar), *təbənəsi* “onun təbənəsi”< böyük iynəsi, *cəbəsi* “onun cəbəsi”< xurcunu, *günüsü* “onun günüsü” (Təbriz), *quzusı* “onun quzusu”, *kürsüsü* “onun kürsüsü”, *keçisi* “onun keçisi”, *atası* “onun atası” (Şəki), *sajı* “onun sacı”, *tişi* “onun dişi”, *dizdiyi* “onun dizdiyi” < tumanı, *işdiyi* “onun işdiyi” < qolsuz, *sırıqlısı, to:ğu* “onun toyuğu” (Çəmbərək, Karvansaray, Qazax), *əli* “onun əli”, *əvi* “onun evi” (Naxçıvan).

2. Şimal qrupu şivələri üçüncü şəxsin təki ikivariantlı olmaqla sözün sonu samitlə bitən sözlər *-ı,-i,* saitlə bitən sözlər *-sı,-si* şəkilçisini qəbul edir. Məsələn: *quzısı* “onun quzusu”, *ütisi* “onun ütüsü” (Muğan), *quzusi* “onun quzusu”, *ütüsi* “onun ütüsü” (Quba), *atası* “onun atası”, *nənəsi* “onun nənəsi” (Ağdaş, Göyçay), *donı* “onun donu”, *öyi* “onun evi”, *atı*^{i} “onun atı” (Muğan) və s. Şəki şivəsində də sözün sonu samitlə bitəndə üçüncü şəxsin təki *-ı,-i* şəkilçisini qəbul edir . Məsələn: *xartı* “onun xartı” < dəryaz itiləyən daş, *həşəni* “onun həşəni” < xırmanı (az taxıl döymək üçün salınan xırman), *küli* “onun külü” (Şəki) və s.

3. Bakı, Dərbənd şivəsində sözün sonu saitlə bitəndə birvariantlı -si, Bakı, Dərbənd, Quba, Təbriz, Yardımlı, Lənkəran, keçid şivələrində üçüncü şəxsin təki sözün sonu samitlə bitəndə birvariantlı *-i* şəkilçisini qəbul edir. Məsələn: *qızi* “onun qızı”, oğli “onun oğlu” (Təbriz, keçid şivələri), *duni* “onun donu”, *güzi* “onun gözü” (Quba), *ərəbəsi* “onun arabası”, *atasi* “onun atası”, *başi* “onun başı”, *puli* “onun pulu”, *güli* “onun gülü” (Bakı), *atasi* “onun atası”, *bacısi* “onun bacısı”, *kürpüsi* “onun körpüsü”, *dəhrəsi* “onun dəhrəsi”, *güzgisi* “onun güzgüsü”, *süzi* “onu sözü”, *küzi* “onun közü”, *inegi* “onun inəyi” (Dərbənd), *dosti* “onun dostu”, *ati* “onun atı” (Yardımlı), *buruği* “onun buruğu”< döngəsi, *mövi* “onun mövü” < tənəyi, *üzimi* “onun üzümü” (Təbriz) və s.

“Bir sıra şivələrdə üçüncü şəxs təkdə yarı, zəhlə sözləri *s* ilə (*-sı,-si* mənsubiyyət

şəkilçisi nəzərdə tutulur –İ.B.) deyil, *m* ilə (*-mı,-mi* mənsubiyyət şəkilçisi nəzərdə tutulur-İ.B.) işlənir; məs.: Pammığımın *yarımına* pıl, *yarımına* da bığda alırdığ (Zərdab); Uşağların pişigdən *zəhləmi* gedir (Şamaxı)" (M.Məmmədli, 2003, s. 130).

Üçüncü şəxsin cəmi. Azərbaycan dili şivələrində mənsubiyyət kateqoriyasının üçüncü şəxsin cəmi, əsasən üçüncü şəxsin təkinin şəkilçisi ilə (*-ı, -i, -u, -ü, - sı,-si,-su,-sü*) eyniyyət təşkil edir. "Lakin Bakı şivəsində -lari,-ləri şəkilçisi işlənir; məs.: *atalari, ərəbələri, atdari, qapılari, küçələri, damlari*" (M.Məmmədli, 2003, s. 130).

Morfoloji-sintaktik üsul. Birinci tərəfi ismin yiyəlik halı, ikinci tərəfi mənsubiyyət şəkilçisi ilə ifadəsinə mənsubiyyətin morfoloji-sintaktik üsulu deyilir. Morfoloji-sintaktik üsulun iki tərəfi var: 1) yiyəlik hal şəkilçisi qəbul etmiş şəxs əvəzliyi; 2) mənsubiyyət şəkilçisi qəbul etmiş isim və ya isimləşmiş söz.

Azərbaycan dili şivələrində morfoloji - sintaktik üsul ədəbi dillə, əsasən, eyniyyət təşkil edir.

Şəxslər	**Ədəbi dildə**		**Şivələrdə**	
	Tək	**Cəm**	**Tək**	**Cəm**
I	mənim atam	bizim atamız	mənim atam	bizim atamız
II	sənin atan	sizin atanız	sənin atan	sizin atanız
III	onun atası	onların atası (ataları)	onun atası	onların atası (ataları)

Şəxs	**Ədəbi dildə**		**Şivələrdə**	
	Tək	**Cəm**	**Tək**	**Cəm**
I	mənim uşağım	bizim uşağımız	mənim uşağım	bizim uşağımız
II	sənin uşağın	sizin uşağınız	sənin uşağın	sizin uşağınız
III	onun uşağı	onların uşağı (uşaqları)	onun uşağı	onların uşağı (uşaqları)

Bununla yanaşı Azərbaycan dilinin bəzi şivələrində mənsubiyyət kateqoriyası morfoloji-sintaktik üsulla fərqli morfoloji əlamətlərlə təzahür edir. Bu baxımdan morfoloji-sintaktik üsulla mənsubiyyətin ifadəsini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Dərbənd şivəsində mənsubiyyət kateqoriyasının morfoloji-sintaktik üsulla ifadəsində ikinci tərəf sözün sonunda aşağıdakı şəkilçini qəbul edir.

Şəxs	Saitlə bitəndə		Samitlə bitəndə	
	Tək	**Cəm**	**Tək**	**Cəm**
I	-m	-muz, -müz	-ım,-im,-um	-ımız,-imiz-umuz,-ümüz
II	-v	-vuz, -vüz	-uv,-üv	-uvuz,-üvüz
III	-si	-si	-i	-i

Məsələn: *mənün atam* “mənim atam”, *sənün atov* “sənin atan”, *sənün nənöv* “sənin nənən”, *unun atasi* “onun atası”, *unun nənəsi* “onun nənəsi”, *büzün atumuz* “bizim atımız”, *süzün atuvuz* “sizin atınız”, *ularun ati* “onların atı”, *mənin bağım* “mənim bağım”, *mənin inegim* “mənim inəyim”, *sənin bağuv* “sənin bağın”, *sənin inegüv* “sənin inəyin”, *unun baği* “onun bağı”, *bizin bağımız* “bizim bağımız”, *bizin inegimiz* “bizim inəyimiz”, *sizin bağuvuz* “sizin bağınız”, *sizin inegüvüz* “sizin inəyiniz”, *uların baği* “onların bağı” (Dərbənd dialekti, 2009, s. 60).

Dərbənd şivəsində şəxs əvəzliyinin birinci şəxsin təkində və cəmində yiyəlik halda ***-in*** şəkilçisinin işlənməsi Quba, Qax və hətta Çəmbərək, Gədəbəy şivələrində də müşahidə olunur. Məsələn: *menin güz* “mənim gözüm”, *bizin atdar* “bizim atlarımız” (Quba), *menin babası* “mənim babam”, *bizin babasi* “bizim babamız”, *bizin öy* “bizim evimiz” (Çəmbərək, Gədəbəy). Bu morfoloji xüsusiyyət qərb qrupu şivələrində yiyəlik halda **mən** və **biz** şəxs əvəzliyi tək və cəmdə işlənərkən ***-ıŋ*** şəkilçisini qəbul edir. Məsələn: *mənıŋ öy* “mənim evim”, *bizıŋ kət* “bizim kəndimiz” (Qazax) (M.Məmmədli, 2003, s.136-137).

Mənsubiyyət kateqoriyası birinci və ikinci şəxsdə yiyəlik halda **-in** şəkilçisində **“n”** ünsürü düşür və yiyəlik hal şəkilçisi funksiyasında **-i** şəkilçisi iştirak edir və şivələrimizdəki bu morfoloji xüsusiyyəti aşağıdakı kimi qruplaşdırmaq olar.

Dərbənd şivəsində birinci və ikinci şəxsin tək və cəmində yiyəlik halda –in,-im şəkiçisinin tərkibindəki **“n, m”** ünsürü düşür. Məsələn: *mənü kitabum* “mənim kitabım”, *sənü kitabuv* “sənin kitabın”, *büzü kitabumuz* “bizim kitabımız”, *süzü kitabuvuz* “sizin kitabınız”.

2. Zaqatala, Qax şivələrində birinci, ikinci və üçüncü şəxsin təkində yiyəlik halda -in,-im, -nun şəkiçisinin tərkibindəki **“n, m”** ünsürü düşür. Məsələn: *meni keçi* “mənim keçim”, *seni keçi* “sənin keçin”, *honu keçi* “onun keçisi” və s.

3. Quba şivəsində birinci şəxsin cəmində yiyəlik halda –im şəkiçisinin tərkibindəki **“m”** ünsürü düşür. Məsələn: *bizi qo:şun* “bizim qonşumuz”, *bizi vaxtımız* “bizim vaxtımız”, *bizi dil* “bizim dilimiz” və s.

Azərbaycan dili şivələrində mənsubiyyət kateqoriyası ikinci tərəf mənsubiyyət şəkilçisi qəbul etmədən formalaşır. Bu morfoloji xüsusiyyət aşağıdakı şivələrdə müxtəlif formalarda təzahür edir. Dərbənd, Balakən, Biləsuvar, Qax, Cəlilabad, Qax və Lerik şivələrinin hər üç şəxsin tək və cəmində ikinci tərəf mənsubiyyət şəkilçisi qəbul etmir və əşyanın neçənci şəxsə aid olması şəxs əvəzlikləri ilə ifadə olunan birinci tərəf vasitəsilə müəyyənləşir. Məsələn: *mənin iş* “mənim işim”, *sənin iş* “sənin işin”, *onun iş* “onun işi”, *bizin iş* “bizim işimiz”, *sizin iş* “sizin işiniz”, *onların iş* “onların işi” (Biləsuvar), *mənim bina* “mənim binam”, *sənün bina* “sənin binan”, *onın bina* “onun binası”, *bizin bina* “bizim binamız”, *süzün bina* “sizin binanız”, *onların bina* “onların binası” (Cəlilabad), *mənün bacı* “mənim bacım”, *sənün uşağ* “sənin uşağın”, *unun uşağ* “onun uşağı”, *bizin kənt* “bizim kəndimiz”, *süzün dil* “sizin diliniz”, *süzün uşağ* “sizin uşağınız”, *uların uşağ* “onların uşağı” (Dərbənd), *mənim qız* “mənim qızım”, *sənin qız* “sənin qızın”, *onın qız* “onun qızı”, *bizim qız* “bizim qızımız”, *sizün qız* “sizin qızınız”, *olərin qız* “onların qızı” (Lerik), *menin keçi* “mənim keçim”, *senin keçi* “sənin keçin”, *honun keçi* “onun keçisi”, *bizin keçi* “bizim keçimiz”, *sizin keçi* “sizin keçiniz”, *holərın keçi* “onların keçisi” (Qax) və s.

Şəki və Təbriz şivələrinin birinci şəxsin tək və cəmində ikinci tərəf mənsubiyyət şəkilçisi qəbul etmir və əşyanın neçənci şəxsə aid olması şəxs əvəzlikləri ilə ifadə olunan birinci tərəf vasitəsilə müəyyənləşir. Məsələn: *mə:m qonax* “mənim qonağım”, *mə:m arvat* “mənim arvadım”, *bizim dö:r* “bizim dövrümüz” (Şəki), *mənim mal* “mənim malım”, *bizim*

qız “bizim qızımız”, *bizim at* “bizim atımız” (Təbriz), və s.

Azərbaycan dilinin şərq və qərb qrupu şivələrinin birinci və ikinci şəxslərin cəmində ikinci tərəf mənsubiyyət şəkilçisi qəbul etmir və əşyanın neçənci şəxsə aid olması şəxs əvəzlikləri ilə ifadə olunan birinci tərəf vasitəsilə müəyyənləşir. Məsələn: *bizim ərəbə* “bizim arabamız”, *sizin at* “sizin atınız” (Bakı), *bizin yə:r* “bizim yəhərimiz” (Quba), *bizim ineg* “bizim inəyimiz”, *süzün yerrər* “sizin yerləriniz” (Lənkəran), *bizim bağ* “bizim bağımız”, *bizim uşax “*bizim uşağımız”, *bizim öy* “bizim evimiz” (Çəmbərək, Qazax), *bizin öy* “bizim evimiz”, *sizin məhlə* “sizin məhəlləniz”, *sizin yava* “sizin yabanız” < şananız (Gədəbəy), *bizim kət* “bizim kəndimiz”, *sizin kət* “sizin kəndiniz” (Ağstafa, Gəncə), *bizim ömür* “bizim ömrümüz”, *bizim xəzinə* “bizim xəzinəmiz”, *sizin yoldaş* “sizin yoldaşınız*”, sizin qonşu* “sizin qonşunuz” (Tovuz), *bizim qohum* “bizim qohumumuz”, *bizim gəlin* “bizim gəlinimiz”, *bizim çöl* “bizim çölümüz” (Çəmbərək, Borçalı) və s.

4. Gürcüstanın Dmanisi rayonu şivələrinin birinci və ikinci şəxsin tək və cəmində ikinci tərəf mənsubiyyət şəkilçisi qəbul etmir və əşyanın neçənci şəxsə aid olması şəxs əvəzlikləri ilə ifadə olunan birinci tərəf vasitəsilə müəyyənləşir. Məsələn: *mənim qız* “mənim qızım”, *mənim suvar* “mənim suvarim” < atlım, *bizim paççax* “bizim padşahımız”, *sizin şə:r* “sizin şəhəriniz”, *sizin öy* “sizin eviniz” (M.Məmmədli, 2003, s.138).

Sintaktik üsul. Mənsubiyyətin ifadə üsulundan biri də sintaktik üsuldur. Hər iki tərəfin şəkilçi qəbul etmədən mənsubiyyətin ifadə etməsinə sintaktik üsul deyilir. Bu üsul şivələrimiz üçün xarakterik deyil. Bununla belə mənsubiyyət kateqoriyasının hər iki tərəfinin şəkilçisiz işlənməsinə Borçlı, Qazax, Zaqatala, Zəngilan, Biləsuvar, Göyçay, Şamaxı, Cənubi Azərbaycanın Ərdəbil şivələrində rast gəlinir. Məsələn: *qoz ləpə* “qoz ləpəsi” (Zəngilan), *mən yaşda* “mənim yaşımda” (Borçalı), *kənt yer* “kənd yeri” (Qazax), *poşt binə* “poçt binası” (Zaqatala), *dəvə bala* “dəvə balası”, *civ yaylıx* “cib yaylığı” < dəsmalı, *ot süpürgə* “ot süpürgəsi” (Biləsuvar), *ərəş to:ux* “ərəş toyuğu”, *sən yaşda* “sənin yaşında” (Göyçay), *o yaşda* “onun yaşında” (Şamaxı) (M.Məmmədli, 2003, s. 152). Əlavə olaraq qeyd edək ki, *mən yaşda* “mənim yaşımda”, *sən yaşda* “sənin yaşında”, *o yaşda* “onun yaşında” formasında hər iki tərəfinin şəkilçi qəbul etmədən mənsubiyyət kateoriyasının ifadəsinə Qərbi Azərbaycanın Çəmbərək şivəsində də rast gəlinir.

Mənsubiyyət Şəkilçili İsimlərin Hallanması

Azərbaycan dili şivələrində mənsubiyyət şəkilçili isimlər hallar üzrə dəyişir. Şivələrimizdə mənsubiyyət şəkilçisi qəbul etmiş sözlər müxtəlif morfoloji əlamətlərə malik olmaqla ədəbi dildən fərqli hallanma xüsusiyyətlərinə malikdir.

Azərbaycan dili şivələrində mənsubiyyət şəkilçisi qəbul etmiş sözlər birinci şəxsin təkində və cəmində hallanarkən ədəbi dildən elə bir ciddi şəkildə fərqlənmir. Belə ki birinci şəxsin təkində və cəmində mənsubiyyət şəkilçili söz müasir Azərbaycan ədəbi dilində necə hallanırsa, şivələrimizdə də eyni formada hallanır; yalnız şivələrimizdə hal şəkilçiləri müxtəlif fonetik formlarda təzahür edir.

	Ədəbi dildə		**Şivələrdə**	
			Muğan şivəsi	Çəmbərək,Qazax şivələri
A.	atım	babam	atım	bavam
Yiy.	atımın	babamın	atĭmın	bavamın
Yön.	atıma	babama	atĭma	bavama
T.	atımı	babamı	atĭmı^{i}	bavamı
Yer.	atımda	babamda	atımda	bavamda
Ç.	atımdan	babamdan	atımnan	bavamnan

	Çəmbərək, Qazax, Tovuz şivələri		**Dərbənd şivəsi**	
A.	haravamız	sürümüz	atamuz	nəvəmüz
Yiy.	haravamızın	sürümüzün	atamuzun	nəvəmüzün
Yön.	haravamıza	sürümüzə	atamuza	nəvəmüzə
T.	haravamızı	sürümüzü	atamuzi	nəvəmüzi
Yer.	haravamızda	sürümüzdə	atamuzda	nəvəmüzdə
Ç.	haravamızdan	sürümüzdən	atamuzdan	nəvəmüzdən

	Ədəbi dildə		**Şivələrdə**	
			Dərbənd şivəsi	**Şəki şivəsi**
A.	qələmim	nəvəm	qələmüm	dədəm
Yiy.	qələmimin	nəvəmin	qələmümün	dədəmin
Yön.	qələmimə	nəvəmə	qələmümə	dədəmə
T.	qələmimi	nəvəmı	qələmümi	dədəmi
Yer.	qələmimdə	nəvəmdə	qələmümdə	dədəmdə
Ç.	qələmimdən	nəvəmdən	qələmümnən	dədəmdən

	Quba şivəsi		Naxçıvan şivəsi	Şəki şivəsi
A.	kürpimiz	quzumuz	güzgümüz	quzumuz
Yiy.	kürpimizün	quzumŭzun	güzgümüzün	quzumızın
Yön.	kürpimizə	quzumŭza	güzgümüzə	quzumıza
T.	kürpimizi	quzumŭzi	güzgümüzü	quzumızı
Yer.	kürpimizdə	quzumuzda	güzgümüzdə	quzumuzda
Ç.	kürpimizdən	quzumuzdan	güzgümüzdən	quzumuzdan

Azərbaycan dili şivələrində ikinci və üçüncü şəxsin təkində və cəmində işlənən mənsubiyyət şəkilçili sözlər hallanma xüsusiyyətlərinə görə ədəbi dildən fərqlənir.

Qərb qrupu şivələrində, "Zəngilanın Şatarız və Ağbis kənd şivələrində, Cəbrayılın Qaracallı kənd şivəsində, Urmiya, İrəvan, Zəngibasar və İraq türkmanlarının şivələrində" (M.Məmmədli, 2003, s.153) sonu sait və samitlə bitən sözlər ikinci şəxsin təkində işləndikdə yiyəlik, yönlük və təsirlik hallarda ədəbi dildən fərqli olaraq **n** səsi **y** səsinə çevrilir.

	Gədəbəy şivəsi	Cəbrayıl, İrəvan şivələri	İrəvan, Zəngibasar şivələri	Urmiya şivəsi
A.	corabın	gözün	əlin	ərin
Yiy.	corabıyın	gözüyün	əliyin	əriyın
Yön.	corabıya	gözüyə	əliyə	əriyə
T.	corabıyı	gözüyü	əliyi	əriyi
Yer.	corabında	gözündə	əlində	ərində
Ç.	corabınnan	gözünnən	əlinnən	ərinnən

Azərbaycan dilinin qərb qrupu şivələrində ikinci şəxsin təkində mənsubiyyət şəkilçili sözlərin tərkibində ***ŋ*** (sağır nun) samiti işlənir və bu morfoloji əlamət ikinci şəxsi üçüncü şəxsdən fərqləndirir. Bu xüsusiyyət Şəki və Ağcabədi şivələrində də müşahidə olunur.

	Borçalı, Çəmbərək, Qazax şivələri		Şəki şivəsi	Ağcabədi, Çəmbərək şivələri
A.	sürüŋ	haravaŋ	eliŋ	ataŋ
Yiy.	sürüŋün	haravaŋın	eliŋin	ataŋın
Yön.	sürüŋə	haravaŋa	eliŋə	ataŋa
T.	sürüŋü	haravaŋı	eliŋi	ataŋı
Yer.	sürüŋdə	haravaŋda	eliŋdə	ataŋda
Ç.	sürüŋnən	haravaŋnan	eliŋnən	ataŋnan

Qərbi Azərbaycanın Ağbaba şivəsində II şəxsin təkində qərb şivələrində olduğu kimi -ıŋ,-iŋ,-uŋ,-üŋ (saitlə bitəndə -ŋ) və cəmində -ıŋız,-iŋiz,-uŋuz,-üŋüz (sitlə bitəndə -ŋız,-ŋiz,-ŋuz,-ŋüz) şəkilçisini qəbul edir (A.Bayramov, A.Bayramova, 2020, s.149-150).

Quba, Şəkinin Kəldək, Güngüd, İmişli, Təbriz, Lənkəran, İraq türkmanlarının şivələrində sonu sait və samitlə bitən sözlər ikinci şəxsin təkində işləndikdə yiyəlik, yönlük və təsirlik hallarda ədəbi dildən fərqli olaraq **n** səsi **v** səsinə çevrilir (M.Məmmədli, 2003, s.154).

	Təbriz şivəsi	**Quba şivəsi**	**İmişl şivəsi**	**Lənkəran şivəsi**	**İraq türkman şivəsi**
A.	baban	künnügün	başun	nənən	canun
Yiy.	babavun	künnegüvü	başuvun	nənəvin	canuvun
Yön.	babava	künnegüvə	başuva	nənüvə	canuva
T.	babavu	künnegüvü	başuvu	nənüvi	canuvu
Yer.	babanda	künnegüdə	başunda	nənəndə	canunda
Ç.	babandan	künnegüdən	başundan	nənəndən	canundan

Dərbənd şivəsində mənsubiyyət kateqoriyası ikinci şəxsin təki *-uv, -üv* şəkilçisi qəbul etdiyi üçün bu tipli sözlər hallanarkən yiyəlik, yönlük və təsirlik hallarda da bitişdirici samit kimi **n** səsinin əvəzinə **v** səsi işlənir.

	Dərbənd şivəsi		
A.	kitabuv	baltov	dəhröv
Yiy.	kitabuvu	baltovu	dəhrövü
Yön.	kitabuva	baltova	dəhrövə
T.	kitabuvi	baltovi	dəhrövi
Yer.	kitabuvda	baltovda	dəhrövdə
Ç.	kitabuvdan	baltovdan	dəhrövdən

Cəbrayıln Qaracallı və Zəngilanın bəzi şivələrində mənsubiyyət kateqoriyası ikinci şəxsin təkində sözlər hallanarkən yiyəlik, yönlük və təsirlik hallarda **n** səsi **ğ** səsinə çevrilir (M.Məmmədli, 2003, s. 155).

	Cəbrayıl şivəsi	**Zəngilan şivəsi**
A.	xalan	gözun
Yiy.	xalağın	gözuğun
Yön.	xalağa	gözuğa
T.	xalağı	gözuğu
Yer.	xalanda	gözunda
Ç.	xalandan	gözundan

İkinci şəxs təkində işlənən mənsubiyyət şəkilçili sözlər Balakən, Zaqatala və Cəbrayılın Balyan kənd şivələrində ismin yönlük halında **n** səsini **ğ** səsinə çevrilməsi fonetik hadisəsi baş verir. Məsələn: *atağıza, nəvağız, quzuğuza, ütüğüzə* (M.Məmmədli, 2003, s. 155).

Bakı və Salyan şivələrində ikinci və üçüncü şəxsin təkində işlənən mənsubiyyət şəkilçili sözlərin hallanmasın fərqli morfoloji əlamət kəsb edir. Belə ki, bu şivələrdə "hallanma prosesində ikinci şəxsdə şəkilçinin dodaqlanan, üçüncü şəxsdə dodaqlanmayan variantı

işlənir” (M.Məmmədli, 2003, s.157).

	Bakı şivəsi	
	II şəxs təkdə	III şəxs təkdə
A.	kitabun	kitabı
Yiy.	kitabu:n	kitabının
Yön.	kitabua	kitabına
T.	kitabun	kitabını
Yer.	kitabunda	kitabında
Ç.	kitabunnan	kitabınnan

	Salyan şivəsi	
	II şəxs təkdə	**III şəxs təkdə**
A.	**ayağun**	**ayağı**
Yiy.	**ayağunun**	**ayağının**
Yön.	**ayağua**	**ayağına**
T.	**ayağun**	**ayağını**
Yer.	**ayağunda**	**ayağında**
Ç.	**ayağunna**	**ayağınnan**

Kəmiyyət Kateqoriyası

Azərbaycan dili şivələrində ismin qrammatik kateqoriyalardan biri də kəmiyyət kateqoriyasıdır. Azərbaycan dilinin bütün şivələrində kəmiyyətin ifadəsi üçün müəyyən morfoloji əlamətlər olsa da, yalnız A. Vəliyevin “Azərbaycan dialektologiyası (Keçid şivələrin morfologiyası və sintaksisi)”, “Azərbaycan dilinun Dərbənd dialekti”, R. Abbasovanın “Azərbaycan dilinin Qubadlı şivələri” kitablarında kəmiyyət kateqoriyasından ayrıca olaraq bəhs edilmişdir.

Ədəbi dildə olduğu kimi şivələrimizdə də kəmiyyət anlayışı *-lar,-lər* şəkilçisi ilə ifadə olunur.

ədəbi dildə	**əksər şivələrdə**
uşaqlar	uşaxlar
kitablar	kitaflar
qablar	qavlar
qələmlər	qələmlər
güllər	güllər

Bununla yanaşı Azərbaycan dili şivələrində kəmiyyət kateqoriyası *-lar,-lər* şəkilçisinin dialekt variantı kimi aşağıdakı şəkilçilərlə ifadə olunur.

1. ***-nar,-nər:*** *xannar, oğlannar, insannar, qannar, heyvannar,* (Bərdə, Çəmbərək, Qazax, İsmayıllı, Muğan, Naxçıvan), gəlinnər, *ilannar* (Bakı, Çəmbərək, Dərbənd), *tükənnər*

“dükanlar”, *xırmannar, seyvannar, adamnar* (Şəki), *kəfşənnə*r < əkin sahəsi, *xermənnər // xırmannər, əkinnnər* (Qubadlı), *xızannar, çətənnər* (keçid şivələri), *çupannar* <çobanlar, *ekinnər* <əkinlər (Dərbənd), *güzəmnər* <yunnar (**güzəm** payızda qırxılan yun mənasında bildirir), *do:şannar* (Muğan), *şurqannar* “şəlalələr”, *durannar* “qab adı”, *badamnar* “badamlar”*, bəlimnər* “bəlimlər”<ot adı, *damnar* “damlar”, *üzümnər* “üzümlər”, *xızannar* “uşaqlar”, *bəzirgannar* (Quba) və s. “Müasir türk dillərində sonu burun samitləri ilə bitən sözlər *-lar, -lər* şəkilçisinin *-nar,-nər* formasını qəbul edir; məs.:kazannar, bəyləmnər “əlaqə” (tatar), xozannar “dovşan”, künnüer “gün” (xakas), çonnar “xalq”, temner “vaxt” (şor), nomnar “kitab”, annar “canavar” (Tuva) (M.Məmmədli, 2003, s.167).

2.*-dar,-dər*: *atdar, quşdar, qurddar, kətdər, sözdər, arvatdar, tişdər* (Basarkeçər, Bərdə, Çəmbərək, Qazax, Tovuz), *qızdar, itdər, külfətdər* (Basarkeçər,Çəmbərək, Dərbənd), *qurtdar, ağaşdər, başdər* (Dərbənd), *ağaşdar, otdar* (Çəmbərək, keçid şivələri), yühdər “yüklər” (keçid şivələri), *cəllətdər* “calladdar” (Tovuz), *ağajdar, aşdar, saşdar, bulutdar* (Bakı), *yaddar, quşdər, xoruzdar* (Şamaxı), *qaşdar, işdər, ö:latdar* “ovladlar”, *kətdər* (Muğan), *sahatdar, səbətdər, yemişdər* “yemişlər” <meyvə qurusu, *linətdər* “linətlər”<suyun gətirdiyi torpaq (Təbriz) və s.

3.*-rar,-rər:* *qarrar* (Çəmbərək, Gədəbəy, Muğan), *tacırrar, qəvirrər* (Qazax), *qarrar, sə:rrər* “səhərlər” (Ağdaş), *yerrər (*Dərbənd, Qazax), *əsgərrər, şəhərrər, tufarrar, divarrar* (Naxçıvan), *pənirrər* “penirlər”, *həsirrər* < parça, *qıtmırrar* “qıtmırlar”<xəsislər, *tağarrar* “tağarlar” < taxıl və ya un yığmaq üçün qutu, *eyğırrar* “ayğırlar” (Təbriz) və s.

4. ***-zar,-zər***: *borazzar* “borazlar” <iplər, *bürgəzzər* “bürgəzlər”<süpürgələr, *öküzzər (*Muğan), *qazzar, qazzar* (Bakı, Muğan), *qızzar, öküzzər* (Muğan, Naxçıvan), *günüzzər (*Naxçıvan), *hələmizzər* “hələmizlər”< qorxaqlar *əzizzər, kəhrizzər, şirbəzzər* “şirbəzlər”<yaltaqlar, (Təbriz), *ğızzar* “qızlar”, *yarpızzar* (Ağdaş, Göyçay), *bizzər* “bizlər”, *sizzər* “sizlər” (Naxçıvan) və s.

5. *-sar,-sər:* *dossar* “dostlar”, *fanıssar* “fanıslar”<fanarlar (Muğan) və s.

6. *-tar,-tər:* *buluttar* “buludlar”, *kəttər* “kəndlər” (Çəmbərək, Qarakilsə) və s.

Xəbərlik Kateqoriyası

Xəbərlik kateqoriyası ismin qrammatik kateqoriyaları içərisində xüsusi yer tutur. Xəbərlik kateqoriyası isimlə, isimləşmiş sözlərlə bağlıdır və ayrı- ayrı şəxslərdə təzahür edir. Bu baxımdan xəbərlik kateqoriyası ilə şəxs kateqoriyası arasında bir oxşarlıq, bir bənzərlik özünü göstərir. Bu da xəbərlik kateqoriyasının şəkilçiləri ilə şəxs kateqoriyasının şəkiçilərinin eyniliyidir. Hər iki kateqoriyanın şəkilçiləri eyni olsa da, onların morfoloji funksiyaları bir-birindən fərqlənir. Xəbərlik kateqoriyasının şəkilçiləri adlara, şəxs kateqoriyasının şəkilçiləri feillərə qoşulur. Digər tərəfdən xəbərlik şəkilçiləri sözlərə artırılaraq adların cümlədə xəbər vəzifəsində işlənməsini təmin edir. Bu baxımdan M. Hüseynzadənin fikri maraq kəsb edir: “...mübtəda ilə xəbər arasında əlaqə yalnız bu şəkilçilər vasitəsilə yarana bilir. Bunlar olmazsa, cümlə bitməz və heç bir hökm ifadə oluna bilməz. Buna görə də bunlara xəbərlik kateqoriyası şəkilçisi adı verilmişdir” (M.Hüseynzadə, 1983, s. 69-70).

Azərbaycan dili şivələri ilə bağlı aparılan tədqiqatlarada (M.Şirəliyev, 1957, s.68, M.Şirəliyev, 1967, s.168, M.İslamov, 1968, s. 99, A.Vəliyev, 1975, 20, M. Məmmədli, 2008, s.93, Dərbənd dialekti, 2009, s.71, B. Sadıqov, 1977, s. 40 və s.) “xəbərlik kateqoriyası” termininindən istifadə edilir. M. Məmmədli “Azərbaycan dili şivələrində ismin qrammatik kateqoriyaları” monoqrafiyasında “şəxs kateqoriyası” terminini daha məqbul hesab edir:

“Türk dillərinin əksəriyyətində, o cümlədən də Azərbaycan dilində həmin mövqedə şəxs əvəzlikləri şəkilçiləşmişdir, yəni şəxs əvəzliklərinin vurğusunu itirərək sadələşməsi nəticəsində hər bir şəxsin özünəməxsus qrammatik forması meydana çıxmışdır (məs.: babayam, babasan, babadır, babayıq, babasınız, babadırlar). Tarixən sintaktik zəmində yaranan bu kateqoriya morfoloji baxımdan formalaşmışdır. Müasir Azərbaycan ədəbi dilində və onun şivələrində şəxs və xəbərlik anlayışları bu şəkilçilərlə ifadə olunur. Ona görə də bu kateqoriya morfologiyanın tədqiqat obyektinə çevrilidiyindən “şəxs kateqoriyası” adlanması daha doğrudur ” (M. Məmmədli, 2003, s. 201).

B. Sadıqov xəbərlik kateqoriyası adı altında feillərə artırılan şəxs şəkilçilərindən bəhs etmişdir (B.Sadıqov, 1977, s. 40-59).

Şəxs kateqoriyasnın şəkilçiləri feillərə qoşularaq feilin şəxsə görə dəyişdiyini göstərir və hərəkətin neçənci şəxsə aid olduğini bildirir. Bu da onu göstərir ki, xəbərlik kateqoriyası ilə şəxs kateqoriysı fərqli qrammatik kateqoriyalardır. Azərbaycan dili şivələrində xəbərlik kateqoriyası ayrı-ayrı şəxslər üzrə müxtəlif şəkilçilər qəbul edir.

Birinci şəxsin təki. Şivələrimizdə birinci şəxsin təki, müasir Azərbaycan ədəbi dilində olduğu kimi, sözün sonu saitlə bitəndə *-am, -əm,* samitlə bitəndə *-yam,-yəm* şəkilçisini qəbul edir. Məsələn: *çobanam, döx′dürəm* “doxduram”<həkiməm, *babayam, çörəx′çiyəm* “çörəkçiyəm” (Təbriz), *cahalam* <cavanam, *uşağam, məllimən* “müəllimən”, *atayam, kifirriyəm* <çirkinəm, *işçiyəm* < fəhləyəm (Çəmbərək, Qazax), *uğlanam* “oğlanam”, *xatunam* “xatınam” <qadınam, *biyügəm* “böyüyəm”, kişiyəm (Dərbənd), *cayılam* <cavanam, *oyağam, tələbiyəm* “tələbəyəm” (Bakı), *çovanam* “çobanam”, *irəşbərəm* “rəncbərəm”, *arıçıyam, qo:ruxçüyəm* “qoruxçuyam” < gözətçiyəm (Şəki), *dülgaram* “dülgərəm”, *zirəngəm* < cəldəm, *bənnayam, yaxşiyəm* “yaxşıyam”, *qabaxçıyam* < qabaqcılam (Naxçıvan), *qoççağam* “qoçağam”, *mə:llimən* “müəllimən”, *yaxçıyam* “yaxşıyam”, *kəççiyəm* “kəndçiyəm” (Muğan), *bağmanam* “bağbanam”, *həkiməm, qonşuyam, əmiyəm* (Qubadlı) və s.

Azərbaycan dilinin Gədəbəy şivələrində (ayrım, Miskinli kənd şivələrində) birinci şəxsin təkində *-ım, -im, -um, -üm* şəkilçisini qəbul edir. Məsələn: *bağmanım* “bağbanam”, *elçiyim* “elçiyəm”, *bacıyım* “bacıyam”, *cütçüyüm* və s. Gədəbəy şivələrində birinci şəxsin təkində müşahidə olunan belə morfoloji əlamətə orta əsr Azərbaycan ədəbi dilidə (Q. Bürhanədinin əsərlərində) rast gəlirik.

Bəndəsin sən, **bəndəyim** bən tapuna
Bəndəyim bən, necə ki sən bəndəsin.
(Q. Bürhanəddin)

Birinci şəxsin cəmi. Azərbaycan dili şivələrində birinci şəxsin cəminin əmələ gəlməsində iştirak edən şəkilçilər, əsasən, dördvariantlı şəkilçilərdən ibarətdir. Bununla yanaşı birinci şəxsin cəmi birvariantlı, ikivariantlı və üçvariantlı şəkilçilərlə də formalaşır.

1. *Xəbərlik kateqoriyasının dördvariantlı şəkilçilərlə ifadəsi.* Bu şəkilçilərin tərkibində qapalı saitlər iştirak edir. Bu şəkilçilər qərb qrupu şivələrində, Naxçıvan, Şəki, Qubadlı, İmişli şivələrində işlənir.

a) samitlə bitən sözlərdə *-ıx,- ix′,-ux,-üx′* (Çəmbərək, Gəncə, Qarabağ, Qazax, Naxçıvan, Tovuz, Şəmkir), *-ıx, -ik //ix′,-ux,-ük//üx′* (Qubadlı, İmişli, Şəki) şəkilçisinin işlənməsi. Məsələn: *qo:mux* “qohumuq” (Şəmkir), *şahıdıx* “şahidik”, *göyüx′* “göyük” < xəsisik, *təkix′* “təkik”, *aşığıx* “aşıqıq” (Çəmbərək, Qazax, Tovuz), *dülgarıx* “dülgərik”, *zirəngix′* “zirəngik”

< cəldik (Naxçıvan), *bağmanıx* "bağbanıq", *həkimix′* "həkimik" (Qubadlı), *irəşbərux* "rəncbərik" *doxdurux "doxduruq"* < həkimik, *qaro:lux* "qarouluq" < gözətçiyik (Şəki) və s.

b) saitlə bitən sözlərdə *-yıx,- yix′,-yux,-yüx′* (Çəmbərək, Gəncə, Qarabağ, Qazax, Naxçıvan, Şəmkir), *-yıx, -yik //yix′,-yux,-yük//yüx′* (Qubadlı, İmişli, Şəki) şəkilçisinin işlənməsi. Məsələn: *yaxşıyıx* "yaxşıyıq", *böyüyük, qonşuyux* "qonşuyuq", *böyüyüx′* "böyüyük", *yerriyix′* "yerliyik" (Qubadlı), *arıçıyıx* "arıçıyıq", *qo:ruxçuyux* "qoruxçuyuq" < gözətçiyik, *çölçüyük, çölçüyüx′* "çölçüyük", *işçiyik, kənçiyix′* "kəndçiyik" (Şəki), *qonuyux* <qonşuyux, *nəniyix′*"nənəyik" (Şəmkir), *buzoyçuyux* "buzovçuyuq", *qoruxçuyux qo:ruxçuyux* "qoruxçuyuq" < gözətçiyik (Çəmbərək, Qazax), bənnayıx "bənnayıq", qəbaxçıyıx "qabaqçıyıq" < qabaqcılıq (Naxçıvan).

2. *Xəbərlik kateqoriyasının üçvariantlı şəkilçilərlə ifadəsi.* Dərbənd şivəsində xəbərlik kateqoriyasının I şəxsin cəmi üçvariantlı şəkilçilərlə ifadə olunur. I şəxsin cəmi sözün sonu samitlə bitəndə *-ig, -uğ//uq, -üg,* saitlə bitəndə *-yig,-yuğ//yuq,-yüg//yük* şəkilçisini qəbul edir. Məsələn: *uşağig* "uşağıq", *adamuğ, adamuq* "adamıq", *insanüg* "insanıq" və s

3. *Xəbərlik kateqoriyasının ikivariantlı şəkilçilərlə ifadəsi.* Xəbərlik kateqoriyasının I şəxsin cəmi ifadəsi Bakı, Şəki, Lənkəran, Salyan, Ağcabədi, İmişli şivələrində sözün sonu samitlə bitəndə *-ıx, -ux; -uğ, -ük* (Şəki), *-ig//ik, -uğ* (Bakı), *-ug, -üg* (İmişli), *-uğ//ux, -ük* (Ağcabədi), *-uğ//ux, -üg* (Lənkəran), saitlə bitəndə *-yıx, -yux; -yuğ, -yük; -yix′,-yüx′* (Şəki), *-yig//yik, -yuğ* (Bakı), *-yug, -yüg* (İmişli), *-yuğ//yux, -yük* (Ağcabədi), *-yuğ//yux, -yüg* (Lənkəran) ikivariantlı şəkilçi ilə ifadə olunur. Məsələn: *simsarux* "simsarıq" < qohumuq, doxdurux "doxduruq", arıçıyıx "arıçıyıq", *sığırçıyıx* "sığırçıyıq" < naxırçıyıq, *əkinçiyix'* "əkinçiyik", *gümçüyüx′* "gümçüyük", *aşığçıyuğ* "aşıqçıyıq" < musiqiçiyik, *arançuyuğ* "arançıyıq", *obaçıyuğ* "obaçıyıq", *biçinçiyük* "biçinçiyik", *börkçüyük* < papaqçıyıq (Şəki), *tələbe:g//tələbi:g* "tələbəyik", *bakilig* "bakılıyıq", *cayuluğ* < cavanıq (Bakı), *qardaşuğ //qardaşux* "qardaşıq", *çölçüyük, günüyük*<bir kişinin iki arvadı, *suçuyuğ// suçuyux* "suçuyuq" (Ağcabədi), *qonağuğ* "qonağıq", *babayuğ* "babayıq" (İmişli), *baliğçiyuğ* "balıqçıyıq", *uşağuğ* "uşağıq", gəlinüg "gəlinik" (Lənkəran), *nənəyüg* "nənəyik" (İmişli, Lənkəran) və s. Eyni zamanda I şəxsin cəmi qərb qrupuna daxil olan ayrım şivələrində (Gədəbəy, Daşkəsən, Qərbi Azərbaycanın Çəmbərək, Karvansaray şivələrində) ikivariantlı şəkilçiləri (samitlə bitən sözlər *-ax,- əx′,* saitlə bitən sözlər *-yax,-yəx′*) qəbul edir. Məsələn: *malçıyax* "malçıyıq" < mal otaran, *hodxçıyax* "hodaqçıyıq", *oyçuyax* "ovçuyuq", *insanax* "insanıq", *adamax* "adamıq", *naxırçıyax* "naxırçıyıq", *piçinçiyəx′* "biçinçiyik", *tütünçüyəx′* "tütünçüyük" (Daşkəsən, Gədəbəy) və s.

4. *Xəbərlik kateqoriyasının birvariantlı şəkilçilərlə ifadəsi.* Təbriz, Şəki, Cəlilabad, Qaxın İlisu, Muğal şivələrində xəbərlik kateqoriyasının I şəxsin cəmi birvariantlı şəkilçilərlə ifadə olunur. I şəxsin cəmi Təbriz şivəsində samitlə bitən sözlər *-ux,* saitlə bitən sözlər *-yux,* Şəkinin bəzi şivələrində samitlə bitən sözlər *-uğ,* saitlə bitən sözlər *-yuğ,* Cəlilabad şivəsində samitlə bitən sözlər *-üg,* saitlə bitən sözlər *-yüg,* Qaxın İlisu və Muğal şivələrində samitlə bitən sözlər *-ıx,* saitlə bitən sözlər *-yıx* şəkilçilərini qəbul edir. Məsələn: *qərdəşux* "qardaşıq", *misgərux* "misgərik", *çərçiyux* "çərçiyik", *babayux* "babayıq" (Təbriz), *uşağuğ* "uşağıq", *irəşbəruğ* "rəncbərik", *arıçıyuğ* "arıçıyıq" (Şəki), *adamüg* "adamıq", *insanüg* "insanıq", *babıyüg* "babayıq", *dədəyüg* "dədəyık" (Cəlilabad), *çobanux* "çabanıq", *qavumux* "qohumuq", *bacıyux* "bacıyıq" (Qax: İlisu), *çobanıx* "çobanıq", *adamıx* "adamıq", *qardaşıx* "qardaçıq" (Qax: Muğal) və s. (M.Məmmədli, 2003, s.206).

İkinci şəxsin təki. Azərbaycan dili şivələrində xəbərlik kateqoriyasının II şəxsin təkində əsasən ədəbi dildə olduğu kimi *-san,-sən* şəkilçisi işlənir. Məsələn: *cavansan, mə:llimsən, qohumsan* (Çəmbərək, Qazax, Qubadlı, Gəncə), *qunağsan* "qonaqsan", *balamızsan, qəribsən, qardaşımsən* "qardaşımsan" (Dərbənd), *arıçısan, irəşbərsən* "rəncbərsən", *sığırçisən* <naxırçısan (Şəki), *kəççisən* "kəndçisən", *qalxoççısan* "kolxozçusan" (Göyçay, Muğan, Naxçıvan), *bənnasan, yaxşisən* "yaxşısan", *dülgarsan* "dülgərsən" (Naxçıvan), *cayılsan* < cavansan, *bakilisən* "bakılısan", *tələbesən* "tələbəsən", *kətdisən* "kəndlisən" (Bakı), *qoççağsan* "qoçaqsan", *yaxçısan* "yaxşısan", *mə:llimsən* (Muğan) və s.

Azərbaycan dilinin qərb qrupu şivələrində, həm də Qubadlı, Cəbrayıl rayonunun Dağ Tumas, Qazan, Qaracallı, İmişli rayonunun Təklə-Muğanlı kənd şivələrində xəbərlik kateqoriyasının II şəxsin təki *-san,-sən* şəkilçisi ilə yanaşı *-saŋ, - səŋ* şəkilçisini də qəbul edir. Məsələn: *arıçısaŋ* "arıçısan", *suçusaŋ* "suçusan", *ta:çısaŋ* "tayaçısan" < otu tayaya vuran adam, *məŋsilçisəŋ* "mənsilçisən" < yağ, pendir məhsulu hazırlayan, *odunçusaŋ* "odunçusan", *qohumsaŋ* "qohumsan", *nənəsəŋ* "nənəsən" (Çəmbərək, Qazax, Şəmkir), *yaxşsaŋ* "yaxşısan", *böyüx'səŋ* "böyüksən", *yerrisəŋ* "yerrisən" (Qubadlı), *maralyanlısaŋ* "maralyanlısan", *kəççisəŋ* "kəndçisən" (Cəbrayıl), *buyruxçusaŋ* "buyruqçusan" < xidmətçisən, *örux'çüsəŋ* "hörükçüsən" < bənnasan, *çərçisəŋ* "çərçisən" < xırdavat əşyalar satan (Qazax) və s. (M.Məmmədli, 2003, s.209). Bununla yanaşı şivələrimizdə xəbərlik kateqoriyasının II şəxsin təki aşağıdakı şəkilçiləri də qəbul edir.

1.II şəxsin təkinin *-sıŋ, -siŋ, -suŋ, -süŋ* şəkilçisi ilə ifadəsi. Gədəbəy şivəsində II şəxsin təki *-sıŋ, -siŋ, -suŋ, -süŋ* şəkilçisi əsasında əmələ gəlir. Məsələn: *örux'çüsüŋ* "hörükçüsən" < bənnasan, *atasıŋ* "atasan", *kişisiŋ* "kişisən", *odunçusuŋ* "odunçusan" (Gədəbəy) və s.

2. II şəxsin təkinin *-sın, -sin, -sun, -sün* şəkilçisi ilə ifadəsi. Qax rayonunun İlisu kənd şivəsində II şəxsin təki *-sın, -sin, -sun, -sün* şəkilçisi əsasında əmələ gəlir. Məsələn: *çobansın* "çobansan", *uşaxsın* "uşaqsan", *qohumsun* "qohumsan", *tütünçüsün* "tütünçüsən" (Qax: İlisu).

3. II şəxsin təkinin *-sa,-sə* şəkilçisi ilə ifadəsi. Dərbəndin Muğartı və Zil kənd şivələrində II şəxsin təki *-sa,-sə* şəkilçisi ilə düzəlir. Məsələn: uşaxsa "uşaqsan", kiçiksə "kiçiksən", büyigsə "böyüksən" (Dərbənd dialekti, 2009 s.71).

İkinci şəxsin cəmi. Azərbaycan dili şivələrində xəbərlik kateqoriyasının II şəxsin cəmi müxtəlif şəkilçilərlə ifadə olunur.

1. *-sıŋız, -siŋiz, -suŋuz, -süŋüz* şəkilçisi ilə II şəxsin cəminin ifadəsi. Bu şəıkilçi əsasən qərb qrupu şivələri üçün xarakterikdir. Məsələn: *atasıŋız* "atasınız", *nənəsiŋiz* "nənəsiniz", *qohumsuŋuz* "qohumsunuz", *mə:llimsiŋiz* "müəllimsiniz" (Ağsafa, Çəmbərək, Basarkeçər, Borçalı, Gəncə, Qazax), *suçusuŋuz* "suçusunuz", *günüsüŋüz* "günüsünüz" < bir kişinin iki arvadının biri digərinə verdiyi ad və s. *-sıŋız*[4] şəkilçisi digər şivələrdə, o cümlədən Şəki, Zaqatala, Qax, Şərur şivələrində də işlənir.Məsələn: *kəççisıŋız* "kəndçisiniz" (Şərur).

2.- *sıyız, -siyiz, -suyuz, -süyüz* şəkilçisi ilə II şəxsin cəminin ifadəsi. İrəvan, Zəngisar, Cəbrayılın, Daşkəsən və Cəbrayılın Süleymanlı kənd şivələrində II şəxsin cəmi *- sıyız, -siyiz, - suyuz, -süyüz* şəkilçisi ilə ifadə olunur. Məsələn: *uşaxsıyız* "uşaqsınız", *həkimsiyiz* "həkimsiniz", *qonşusuyuz* "qonşusunuz", *sürücüsüyuz* "sürücüsünüz" (İrəvan, Zəngibasar), *yaxşısıyız* "yaxşısınız", *kişisiyiz* "kişisiniz", *qohumsuyuz* "qohumsunuz" (Cəbrayıl) və s.

3. - *sız, -siz, -suz, -süz* şəkilçisi ilə II şəxsin cəminin ifadəsi . Əsasən XX əsrin 90-cı illərində danışıq dilində geniş şəkildə işlənən - *sız,-siz,-suz, -süz* şəkilçisi qərb qrupu şivələrində, Zəngilan, Mingəçevir şivələrində xəbərlik kateqoriyasının II şəxsin cəminin

xəbərlik şəkilçisi kimi işlənir. Məsələn: *uşaxsız* “uşaqsınız”, *əmisiz* “əmisiniz”, *qonşusuz* “qonşusunuz”, *sürücüsüz* “sürücüsünüz” (Çəmbərək, Qazax, Gəncə), *qocası:z* “qocasınız”, *məllimsi:z* “müəllimsiniz”, *əkinçisi:z* “əkinçisiniz”, *qoruxçusu:z* “qoruxçusunuz”, *üzümçüsü:z* “üzümçüsünüz” (Zəngilan), *qağası:z* “qağasınız” < qardaşsınız, *əmisi:z* “əmisiniz”, *üzgüçüsü:z* “üzgüçüsünüz” (Mingəçevir) və s.

4. *-sağız, -səğiz* şəkilçisi ilə II şəxsin cəminin ifadəsi . Bu şəkilçi II şəxsin cəminin şəkilçisi kimi Gədəbəy şivəsində özünü göstərir. Məsələn: *çərçisəğiz* “çərçisiniz”, *səğərçısağız* “səğərçısınız” < naxırçısınız (Qədim türk dilində “inək” mənasında işlənən sığır sözünün dialekt variantıdır), *bavasağız* “babasınız”, *xasımsağız* “xasımsınız”< həmyaşsınız (M. Məmmədli, 2003, s.213).

5. *-saŋız, -səŋiz* şəkilçisi ilə II şəxsin cəminin ifadəsi. Bu şəkilçi ayrım şivəsi (Gədəbəy, Daşkəsən) üçün xarakterikdir. Məsələn: *dayısaŋız* “dayısınız”, *bacısaŋız* “bacısınız”, *nənəsəŋiz* “nənəsiniz”, *əmisəŋiz* “əmisiniz” və s.

6. *-sıŋız, -suŋuz* şəkilçisi ilə II şəxsin cəminin ifadəsi. Qubadlı şivəsində II şəxsin cəmi *-sıŋız, -suŋuz* şəkilçisi ilə ifadə olunur. Məsələn: *bağmansıŋız* “bağmansınız”, *həkimsıŋız* “həkimsiniz”, *qonşusuŋuz* “qonşusunuz”, *böyüx'suŋuz* “böyüksünüz” və s.

7. *-suz, -süz* şəkilçisi ilə II şəxsin cəminin ifadəsi . Bu şəkilçi şərq qrupu şivələrində II ikinci şəxsin cəminin morfoloji əlaməti kimi işlənir. Məsələn: *kətdisüz* “kəndlisiniz” (Bakı, Lənkəran), *uşağsuz* “uşaqsınız”, *balıqçısuz* “balıqçısınız” (Lənkəran), *uşağsuz* “uşaqsınız”, *giyovsuz* “giyovsuz” < kürəkənsiniz, *bədəlsüz* “bədəlsiniz” < həmişəyaşsınız (Quba), *aşıqçısuz* “aşıqsınız”< müsiqiçisiniz (çalğıçısınız), xəstəkarsuz “xəstəkarsınız” < elçisiniz (qız evinə şirni üçün gedən elçi), *dədəsüz* “dədəsiniz”, *moğrüğsüz* “moğrüğsünüz” < başçisiniz, *adamsuz* “adamsınız”, eltisüz “eltisiniz”, *qoççağsuz* “qoçaqsınız” (Muğan), *bakilisüz* “bakılısınız”, *cayılsuz* “cayılsınız” < cavansınız, *tələbəsüz* “tələbəsiniz” (Bakı) vəs.

Üçüncü şəxsin təki. Azərbaycan dili şivələrində xəbərlik kateqoriyasının üçüncü şəxsin təki aşağıdakı şəkilçilərlə ifadə olunur.

1.*-dı,-di,-du,-dü.* Müasir Azərbaycan ədəbi dilinin xəbərlik kateqoriyasının III şəxsin təkinin morfoloji əlaməti *-dır,-dir,-dur, -dür* şəkilçisi Azərbaycan dili şivələrinin əksəriyyətində xəbərlik kateqoriyasınınn III şəxsin təki dördvariantlı *-dı,-di,-du,-dü* şəkilçisi formasında təzahür edir. Məsələn: *toxludu* “toğludur”, *öydü* “evdir”, *qavdı* “qabdır”, *qojadı* “qocadır” (Ağstafa, Basarkeçər, Borçalı, Çəmbərək, Qazax, Tovuz), *arıçıdı* “arıçıdır”, *simsardı* “simsardır” < qohumdur, *kəççidi* “kəndçidir”, *qoruxçudu* “qoruqçudur” < gözətçidir (Çəmbərək, Şəki), *bənnadı* “bənnadır”, *qavırmadı* “qovurmadır”, *qahımdı* “qohumdur”, *gə:vdi* “gə:vdir” < yeznədir, *xorumçudu* “xorumçudur” < ot bağlayandır (Dərələyəz, Naxçıvan), *suluxdu* “suluxdur” < bulamadır, *urbanadı* “urbanadır” < əkilməyə yaralı ağacdır, *ciyəvəzdi* “ciyəvəzədir” < kəndirbazdır (Muğan), *bağmandı* “bağmandır” < bağbandır, *cavandı* “cavandır” (Çəmbərək, Qazax, Qubadlı) və s.

Şivələrimizdə xəbərlik şəkilçisi kimi işlənən *-dı,-di,-du,-dü* danışıq dilində də III şəxsin təki *-dı,-di,-du,-dü* şəkilçisini qəbul edir.

2. *-dı,-di.* Xəbərlik kateqoriyasının III şəxsin təkinin morfoloji əlaməti kimi ikivariantlı bu şəkilçi əsasən Şəki rayonunun Baş Güngüd, Kiş, Qışlaq, İmişli rayonunun Arazqırağı kənd (M.Məmmədli, 2003, s. 220-221), Göyçay şivələrində işlənir . Məsələn: *qaroldı* “qarovuldur”, *doxdurdı* “doktordur”, *öküzdi* “öküzdür”, *göndi* “göndür” (Şəki), *qorıxçıdı* “qoruxçudur”, *babadı* “babadır”, *üzümçidi* “üzümçüdür”, *nənədi* “nənədir” (İmişli), *odundı* “odundur”, *öydi* “evdir” (Göyçay) və s.

3\. *-du,-dü.* Şərq qrupu şivələrində III şəxsin təki ikivariantlı *-du,-dü* şəklçisini qəbul edir. Məsələn: *cayıldu* “cayıldır”< cavandır, gəncdir, *cilodu* “cilovdur”, *meynədü* “meynədir”, *nənədü* “nənədir ” (Bakı), *uşağdu* “uşaqdır”, *kəççidü* “kəndçidir”, *süzmədü* “süzmədir” (Quba), *bacıdu* “bacıdır”, *barmaxcıldu* “barmaxcıldır” < nişan üzüyüdür, *tüəngdü* “tüfəngdir” (Muğan) və s.

4\.- *di,-du,-dü.* Azərbaycan dilinin Dərbənd, Muğan şivələrində III şəxsin təki üçvariantlı - *di,-du,-dü* şəkilçisini qəbul edir. Məsələn: *bağmançidi* “bağmançıdır”, *xatundu* “xatındır”, *uşağdu* “uşaqdır”, *çubandu* “çobandır”, *kiçigdü* “kiçikdir” (Dərbənd), *kəççidi* “kəndçidir”, *qoççağdu* “qoçaqdır”, *yaxçıdu* “yaxşıdır”, *təzədü* “təzədir” (Muğan) və s.

Üçüncü şəxsin cəmi. Azərbaycan dili şivələrində xəbərlik kateqoriyasının III şəxsin cəmi təkinin morfoloji əlamətini bildirən *-dı,-di,-du,-dü* şəkilçisinə cəmlik bildirən *-lar,-lər* şəkilçisini artırmaqla *-dılar,-dilər,-dular,-dülər* şəkilçisi əsasınada düzəlir. Onu da əlavə edək ki, əksər şivələrdə xəbərlik kateqoriyasının III şəxsin cəmi də təkində olduğu kimi *-dı,-di,-du,-dü* şəkilçisi ilə ifadə olunur.

Azərbaycan dili şivələrində III şəxsin cəmi dördvariantlı, üçvariantlı, bəzən də ikivariantlı şəilçilərlə də düzəlir. Bu baxımdan III şəxsin cəminin əmələ gəlməsini aşağıdakı kimi qruplaşdırmaq olar.

1\. *-dılar,-dilər,-dular,-dülər.* Qərb qrupu şivələrində, eyni zamanda Qubadlı şivəsində III şəxsin cəmi *-dılar, -dilər,-dular,-dülər* şəkilçisini qəbul edir. Məsələn: *uşaxdılar* “uşaqdırlar”, *kəççidilər* “kəndçidirlər”, *qohumdular* “qohumdurlar”, *dö:ççüdülər* “döyüşçüdürlər” (Basarkeçər, Borçalı, Çəmbərək, Qazax, Tovuz), *cavandılar* “cavandırlar”, *həkimdilər* “həkimdirlər”, *qonşudular* “qonşudular” (Qubadlı) və s.

Qərb qrupu şivələrində, eyni zamanda Qubadlı şivəsində III şəxsin cəmi həm də *-dı,-di,-du,-dü* şəkilçisi ilə ifadə olunur. Məsələn: *yoldaşdı* “yodaşdır”, *məllimdi* “müəllimdir”, *qonşudu* “qonşudur”, *süççüdü* “südçüdü” (Basarkeçər, Borçalı, Çəmbərək, Qazax, Tovuz), bağmandı “bağmandır”, həkimdi “həkimdir”, qonşudu “qonşudur” (Qubadlı) və s.

2\. *-dıla, -dilə, -dula, -dülə.* Qərbi Azərbaycanın Zəngibasar rayonunun Sarvanlar kənd şivəsində III şəxsin cəmi *-dıla,-dilə,-dula,-dülə* şəkilçisi ilə ifadə olunur. Bu şəkilçi **-lar, -lər** cəmlik şəkilçisində **“r”** samitinin düşməsi nəticəsində yaranmışdır. Məsələn: *babadıla* “babadırlar”, *nənədilə* “nənədirlər”, *əmidilə* “əmidirlər”, *qoruxçudula* “qoruxçudurlar”, *üzümçüdülə* “üzümçüdürlər” (M. Məmmədli, 2003, s. 221) . Təbriz şivəsində III şəxsin cəmi göstərilən şəkilçinin birvariantlı forması *-dilə* şəkilçisi ilə ifadə olunur. Məsələn: *damdardilə* “damdardırlar”, *yoxsuldilə* “yoxsuldurlar”, *kişidilə* “kişidirlər”, *köçəridilə* “köçəridirlər”, *qo:mdilə* “qohumdurlar” və s. (M. Məmmədli, 2008, s. 94).

3\. *-dilər,-dular,-dülər.* Dərbənd şivəsində III şəxsin cəmi üçvariantlı *-dilər,-dular,-dülər* şəkilçisi ilə ifadə olunur. Məsələn: *uşağdilər* “uşaqdırlar”, *anadular* “anadırlar”, *ekinçidülər* “əkinçidirlər” və s.

4\. *-dılar,-dilər.* Qərbi Azərbaycanın Meğri rayonunun Nüvədi şivəsində III şəxsin cəmi ikivariantlı *-dılar,-dilər* şəkilçisi ilə düzəlir. Məsələn : *pa*^{ə}*xıldıla*^{ə}*r* “paxıldırlar”, *sözlüdila*^{ə}*r* “sözlüdürlər”< nişanlıdırlar.

Azərbaycan dilinin Göyçayın Potu və Alxasava şivələrində xəbərlik kateqoriyası şəkilçisiz işlənir. “Bu kateqoriyanın şəkilçisiz işlənməsi subyektin iştirakı ilə əlaqədardır, daha doğrusu, şəxs əvəzliyinin iştirakı müvafiq şəkilçi işlədilməsinə ehtiyac doğurmur.

Burada subyekt sözün hansı şəxsə aid olduğunu müəyyənləşdirir" (A. Vəliyev, 1975, s. 21). Məsələn:

Tək cəm
I ş. Mən kətdi potuli Biz kətdi potuli
II ş. Sən kətdi potuli Siz kətdi potuli
III ş. O kətdi potuli Olar kətdi potuli

Xəbərlik Kateqoriyası Aid Nümunələr

Samitlə bitənlər
Bakı şivəsi

	Tək	**Cəm**
I şəxs	cayılam	cayıluq
II şəxs	cayılsan	cayılsuz
III şəxs	cayıldu	cayıldu//cayıldular

Şəki şivəsi

	Tək	**Cəm**
I şəxs	çovanam	çovanıx
II şəxs	çovansan	çovansız
III şəxs	çovandı	çovandı

Muğan şivəsi

	Tək	**Cəm**
I şəxs	qoççağam	qoççağuğ
II şəxs	qoççağsan	qoççağsuz
III şəxs	qoççağdı	qoççağdu

Göyçay şivəsi

	Tək	**Cəm**
I şəxs	kəççiyəm	kəççiyik
II şəxs	kəççisən	kəççisiz
III şəxs	kəççidi	kəççidi

Təbriz şivəsi

	Tək	**Cəm**
I şəxs	qərdəşəm	qərdəşux
II şəxs	qərdəşsən	qərdəşsu:z
III şəxs	qərdəşdi	qərdəşdilə

Qubadlı şivəsi

	Tək	**Cəm**
I şəxs	bağmanam	bağmanıx
II şəxs	bağmansaŋ	bağmansıŋız
III şəxs	bağmandı	bağmandılar

Dərbənd şivəsi

	Tək	**Cəm**
I şəxs	çubanam	çubanıq
II şəxs	çubansan	çubansuz
III şəxs	çubandu	çubandular

Çəmbərək və Karvansaray şivələri

	Tək	**Cəm**
I şəxs	cahalam	cahalıx
II şəxs	cahalsaŋ	cahalsıŋız
III şəxs	cahaldı	cahaldılar

Qarabağ, Qazax, Gəncə şivələri

	Tək	**Cəm**
I şəxs	gəlinəm	gəlinix′
II şəxs	gəlinsəŋ	gəlinsiŋiz
III şəxs	gəlindi	gəlindilər

Naxçıvan şivəsi

	Tək	**Cəm**
I şəxs	dülgaram	dülgarıx
II şəxs	dülgarsan	dülgarsız
III şəxs	dülgardı	dülgardı

Saitlə bitənlər

Bakı şivəsi

	Tək	**Cəm**
I şəxs	bakiliyəm	bakili:g
II şəxs	bakilisən	bakilisüz
III şəxs	bakilidü	bakilidü(lər)

Naxçıvan şivəsi

	Tək	**Cəm**
I şəxs	qəbaxçıyam	qəbaxçıyıx
II şəxs	qəbaxçısan	qəbaxçısız
III şəxs	qəbaxçıdı[i]	qəbaxçıdi(lər)

Dərbənd şivəsi

	Tək	**Cəm**
I şəxs	ekinçiyəm	ekinçiyüg
II şəxs	ekinçisən	ekinçisüz
III şəxs	ekinçidü	ekinçidülər

Qubadlı şivəsi

	Tək	**Cəm**
I şəxs	qonşuyam	qonşuyux
II şəxs	qonşusaŋ	qonşusuŋuz
III şəxs	qonşudu	qonşudular

Şəki şivəsi

	Tək	**Cəm**
I şəxs	kənççiyəm	kənççiyux
II şəxs	kənççisən	kənççisuz
III şəxs	kənççidi	kənççidi

Təbriz şivəsi

	Tək	**Cəm**
I şəxs	çərçiyəm	çərçiyux
II şəxs	çərçisən	çərçisu:z
III şəxs	çərçidi	çərçidilə

Muğan şivəsi

	Tək	**Cəm**
I şəxs	kəççiyəm	kəççiyüg
II şəxs	kəççisən	kəççisüz
III şəxs	kəççidi	kəççidi

Çəmbərək, Qazax şivələri

	Tək	**Cəm**
I şəxs	haravaçıyam	haravaçıyıx
II şəxs	haravaçısaŋ	haravaçısŋız
III şəxs	haravaçıdı	haravaçıdı(lar)

SİFƏT

Azərbaycan dili şivələrində əsas nitq hissələrindən biri də sifətdir. Şivələrimizdə işlənən sifətlərin çoxu müasir Azərbaycan ədəbi dilində işlənir və ədəbi dildə olduğu kimi əlamət və keyfiyyət bildirir. Bununla belə hələ də Azərbaycan dili şivələrində ədəbi dildə işlənməyən kifayət qədər sifətlərə rast gəlinit. Lakin şivələrimizdə işlənən sifətlər ədəbi dildən fərqlənir. Bu fərq özünü leksik cəhətdən göstərir.

Sifətlərin Quruluşca Növləri

Müasir Azərbaycan ədəbi dilində olduğu kimi şivələrimizdə işlənən sifətlər quruluşuna görə üç yerə bölünür:

1.Sadə sifətlər.

2.Düzəltmə sifətlər.

3.Mürəkkəb sifətlər.

Sadə Sifətlər

Azərbaycan dili şivələrində işlənən sadə sifətlər əlamət, keyfiyyət, rəng və s. mənalar ifadə edir. Şivələrimizdə işlənən sadə sifətlər ədəbi dildə ya işlənmir, ya da müxtəlif mənalar bildirir. Məsələn: *açkal* (Tovuz) –fərasətsiz, *çiçə* (Kəlbəcər, Kürdəmir, Mingəçevir, Salyan) - təzə, *dağanaq* (Salyan) - qupquru, *gəjmir* (Qazax) – çox arıq adam, *hadığ* (Salyan) - bacarıqlı, *hanak* (Qax)- bacarıqsız, *ö:bəc* (Zaqatala)- çəpgöz, *səkti* (Kürdəmir) -ağılsız, *yalxayı* (Qazax) - astarsız, nazik, *cüdam* (Başkeçid, Borçalı, Qazax) - ağılsız, *culaz* (Ucar) -yoxsul, *səllim* (Qax, Zaqatala) - boş-boşuna, işsiz, *qısqıs* (Dərbənd) - xəsis, *kərə (*Çəmbərək, Dərbənd) - qulağı qısa, *yuxa* (Çəmbərək, Dərbənd) - nazik (paltar haqqında), *xuni* (Dərbənd) - yaramaz, *xünüy* (Zəngibasar)- ilıq (su haqqında), *ləj* (Çəmbərək) - dəcəl, *pürüz (*Çəmbərək) -qırmızı, *aynıd* (Çəmbərək) - *çirkin, hö:ş* (Göyçay)- yaş, nəmli, *muzu* (Borçalı)- xəsis, *sulğar* (Ağstafa)- uzun, *şumal (*Çəmbərək, Meğri) - hamar, *qənnas* (Meğri) - əyri, *güdə* (Təbriz) – gödək, *düdüx'* (Təbriz) - dar, *lül* (Muğan) - ensiz, uzun paltar, *güləş* (Muğan) –ürəyi açıq, gülər üzlü, *oğırtdağ* (Muöan) -çox arıq (heyvan haqqında), *azman* (Bakı) -böyük, *əzvay* (Bakı) - aciz, *kəpir* (Naxçıvan) - boş, tez ovulan (daş haqqında), *ceydax* (Naxçıvan) - çox uzun (adam haqqında), *teyxa* (Beyləqan, Qubadlı) - təmiz, *təşər* (Qubadlı) - lovğa, *qərə* (Qubadlı) -qara, *lövərə* (Quba) - qanmaz, key, *mumux* (Quba) - gödək, *say* (Quba) - möhkəm, düz, *hafrayı* (Şəki) - hərdəmxəyal, *xırça* (Şəki) - kök və s.

Düzəltmə Sifətlər

Azərbaycan dili şivələrində düzəltmə sifətlər leksik şəklçilər əsasında əmələ gəlir. Ədəbi dilimizdə sifət düzəldən şəkilçilərin bir neçəsi dördvariantlı formada, bir qismi isə üçvarıantlı, ikivariantlı, hətta birvariantlı formada təzahür edir.

Azərbaycan dili şivələrində düzəltmə sifətlər iki yolla düzəlir:

a) adlardan düzələn sifətlər;

b) feillərdən düzələn sifətlər.

Adlardan düzələn sifətlər

1.*-sız,-siz,-suz,-süz.* Müasir Azərbaycan ədəbi dilində olduğu kimi şivələrimizdə də bu şəkilçi məhsuldardır və adlardan sifət əmələ gətirir. Məsələn: *cırsız* (Qarakisə)-yağsız (süd),

əncərsiz (Şəki) – çirkin, yaraşıqsız (Şəki şivəsində “üz”, “sifət” mənasında işlənən *əncər* sözündən əmələ gəlib), *əndəsiz* (Meğri) - yüngül xasiyyət (*əndə* Şamaxı şivəsində “alçaq” mənasında işlənir), *ərdəmsiz (*İmişli, Naxçıvan, Şərur) – bacarıqsız, gücsüz, tənbəl (sözün kökü İmişli şivəsində “tənbəl” mənasında işlənən *ərdo:* sözü ilə bağlıdır), *holansız* (İmişli) - hünərsiz (İmişli şivəsində “hünər” mənasında işlənən *holan* sözündən əmələ gəlib), *idimsiz* (Çəmbərək, Şəki, Zaqatala) – çirkin, yaraşıqsız, görkəmsiz, formasız (Ağbaba, Çəmbərək, Bərdə, Mingəçevir, Şəki, Ucar şivələrində “görkəm, forma, zahiri görünüş” mənasında işlənən *idim* sözündən əmələ gəlib), *şenniysiz* (İrəvan) – abad olmayan (İrəvan şivəsində “kənd, oba, yaşayış məntəqəsi” mənasında işlənən *şenniy* sözündən əmələ gəlib), *urvatsız* (Çəmbərək) – hörmətsiz (Çəmbərək şivəsində “hörmət, ləyaqət” mənası bildirən *urvat* sözündən əmələ gəlib), *çimirsiz* (Çəmbərək) -yuxusuz (Çəmbərək şivəsində “yuxu” mənası bildirən *çimir* sözündən əmələ gəlib) və s.

2.*-lı,-li,-lu,-lü.* Şivələrimizdə işlənən adlardan sifət düzəldən dördvariantlı məhsuldar şəkilçidir. Ədəbi dildə adlardan sifət əmələ gətirən bu şəkilçi şivələrimizdə də eyni morfoloji vəzifəni yerinə yetirir. -lı^{4} şəkilçisi şivələrimizdə işlənən sözlərin sonuna artırılaraq düzəltmə sifət əmələ gətirir və dialektal xüsusiyyət kəsb edir Məsələn: *gəmrəli (*Xaçmaz) – peyinli (Ağdaş, Mingəçevir şivələrində “yandırmaq üçün tapdanıb qurudulmuş mal nəcisi”, Dərbənd şivəsində “qoyun, keçi qığı” mənasında işlənən gəmrə sözündən əmələ gəlib), *ifallı* (Ağdaş, Göyçay, Kürdəmir, Saatlı, Salyan, Ucar) - xoşxasiyyət, mədəni (Yardımlı şivəsində “utancaq” mənasında işlənən *ifal* sözündən əmələ gəlib), *qolçağlı* (Bakı) – büzməli, *ökəşikli* (Gəncə) - əzik-əzik, əzilmiş (Gəncə şivəsində “əzik, əzilmiş” mənasında işlənmiş *ökəşix'* sözündən əmələ gəlib), *şenniyli* (İrəvan) - abad olan (İrəvan şivəsində “kənd, oba, yaşayış məntəqəsi” mənasında işlənən *şenniy* sözündən əmələ gəlib), *ərdəmli* (Ağdam, Culfa, Füzuli, Mingəçevir, Naxçıvan, Ordubad, Şamaxı, Ucar) - güclü, bacarıqlı, qüvvətli, *haytalı* (Borçalı) – hirsli, acıqlı (Qərb qrupu şivələrində “hirs, acıq” mənasındq işlənən *hayta* sözündən düəlib), *zuğli* (Quba) - böyük, uca, qollu – budaqlı (ağac; zuğ <zoğ sözündən əmələ gəlib*), ehmallı* (Göyçay) - sakit, səliqəli diqqətli formada və s.

3. *-cıl, -cil,-cul, -cül.* Qeyri - məhsuldar şəkilçidir və isimdən sifət düzəldir. Məsələn: *adamcıl* (Çəmbərək) - adam sevən, *gafcıl* (Çəmbərək, Tovuz, Yevlax), *gapcıl* (Borçalı) - söhbətcil (***gafcıl*** və ***gapcıl*** sözünün kökü eynidir və qərb şivəsində “söhbət” mənası bildirən *gap* sözündən əmələ gəlib), *artımcıl* (Göyçay) - çoxlu, çoxalan (artım sözündən əmələ gəlib), *arıcıl* (Göyçay) - arı bəsləyən, arı ilə məşğul olan, *əçcil* (Meğri) - “ətcil” - çox ət yeyən, *övcül* “evcil” (Meğri) – ev işlərini yaxşı bilən, *qohumcul* (Çəmbərək) - qohum sevən, qonumcanlı, *yuxucul* (Çəmbərək, Karvansaray) - yatağan, yatmağı sevən və s..

4.*-çaq,-çək.* Qeyri - məhsuldar ikivariantlı şəkilçidir və isimdən sifət düzəldir. Məsələn: *tumançaq* (Basarkeçər, Çəmbərək, Qazax) – tumansız, *köynəkçək* (Çəmbərək) – köynəksiz.

5.*-çağ,-çax.* Qeyri - məhsuldar şəkilçidir və isimdən sifət düzəldir. Məsələn : *şalvarçağ (*Cəlilabad) – şalvarsız, *tumançax* (Çəmbərək)- əynində tumanı (paltar mənasında) olmayan və s.

6. *-lək.* Qeyri - məhsuldar birvariantlı şəkilçidir və sifətdən sifət düzəldir. Məsələn: *səmələk* (Laçın) – sahibsiz (Bakı, Gədəbəy, Gəncə, Goranboy, Göyçay, Xaçmaz, Kürdəmir, Qazax, Quba, Qusar, Sabirabad, Salyan, Zərdab şivələrində “key, ağılsız, axmaq, gic” mənasında işlənən *səmə* sözündən əmələ gəlib).

7. *–avay, -əvay.* Muğan qrupu şivələrində işlənən qeyri - məhsuldar ikivariantlı şəkilçidir və isimdən sifət düzəldir. Məsələn*: türkəvay* (Salyan) - türkə oxşar, *kosavay*

(Salyan) – yelkənli (gəmi).

8. *-cağ.* Qeyri - məhsuldar birvariantlı şəkilçidir və isimdən sifət düzəldir. Məsələn: *sucağ* (Çəmbərək, Salyan) – sulu (çəmənliyin sulu olduğunu bildirir).

Bu şəkilçi Naxçıvanın Şahbuz şivəsində **-cax** fonetik formasında eyni morfoloji funksiyasını ifadə edir. Məsələn: *sucax* (Şahbuz) - sulu (Naxçıvan qrupu şivələri, 1962, s. 102).

9. *-məl.* Muğan qrupu şivələrində işlənir və qeyri-məhsuldar şəkilçidir. İsimdən sifət əmələ gətirir. Məsələn: *ətməl* (Sabirabad) - ət kimi.

10.*-dar.* Qeyri - məhsuldar birvariantlı şəkilçidir və isimdən sifət düzəldir. Məsələn: *elmdar* (Cəlilabad, İmişli) - elmli, *candar* (Sabirabad) –canlı və s.

11. *-qaz.* Muğan qrupu şivələrində qeyri-məhsuldar birvariantlı şəkilçidir və isimdən sifət əmələ gətirir. Məsələn: *arqaz* (Sabirabad) - namuslu (qədim Azərbaycan dilində "həya, namus" mənasında işlənən *ar* sözündən əmələ gəlib).

12.*-avar.* Qeyri -məhsuldar birvariantlı şəkilçidir və isimdən sifət əmələ gətirir. Məsələn: *dağavar* (Çəmbərək, Tovuz) – dağlıq, dağ havası olan yer.

13. *-dı,-di,-du,-dü.* Ədəbi dildə işlənən *-lı,-li,-lu,-lü* şəkilçisinin dialektal variantıdır. Bu şəkilçi qərb qrupu şivələrin dördvariantlı (*-dı,-di,-du,-dü*), Bakı, Quba, Şamaxı şivələrində birvariantlı (-di), keçid şivələrində (*-dı,-di*) ikivariantlı formada leksik şəkilçi kimi isimdən sifət düzəldir. Məsələn: *atdı* "atlı" (Ağstafa, Bakı, Quba, Şamaxı, Çəmbərək, Qazax), *sütdi* "südlü", *üzdi* "üzlü" (Bakı, Quba, Şamaxı), *səsdi* "səsli"< çalğılı toy (Bakı), *ətdi* "ətli" < kök, *oddu* "odlu", *süddü* "südlü" (Ağstafa, Çəmbərək, Qazax), *lətdi* (Çəmbərək) - "lətli" < ağ ciyər xəstəsi olan adam, *şuntdu* (Dərbənd) - "şuntlu"< xəsis, *otdı* "otlu", *güjdi* "güjdü" (Göyçay) və s. Sifət düzəldən *-lü* şəkilçisinin dialekt variantı kimi Dərbənd şivəsində -tü şəkilçisi işlənir. Məsələn: *süttü* (Dərbənd) - "südlü" və s.

14. *-rı,-ri,-ru,-rü.* Ədəbi dildə işlənən *-lı,-li,-lu,-lü* şəkilçisinin dialektal variantı *-dı,-di,-du,-dü* şəkilçisinin sinonimidir. Bununla yanaşı Dərbənd şivəsində birvariantlı (-ri), Qərbi Azərbaycanın Meğri şivələrində ikivariantlı (-rı,-ru), keçid şivələrində ikivariantlı (-rı,-ri) formada işlənərək isimdən sifət əmələ gətirir. Məsələn: *tafırrı* "tafırlı" < fərqli, *kirri* "kirli", *qoturru* "qoturlu" < qotur xəstəliyi olan, *kömürrü* "kömürlü" (Çəmbərək), *karrı* "karlı" < yaxşı, *xatırrı* "xətirli" < hörmətli (Ağdaş), *torrı* (Göyçay) - "torlu", *kəsərri* (Dərbənd) - "kəsərli" < ciddi, *damarrı* "damarlı" < naqqal, *çorru* "çorlu" < azarlı (Meğri), *cırrı* (Qarakilsə) -yağlı süd, *əncərri* (Şəki) – gözəl, yaraşıqlı (Şəki şivəsində "üz, sifət" mənasında işlənən *əncər* sözündən əmələ gəlib), *sadırrı* (Biləsuvar, Çəmbərək, Qazax) - şaqqıldaqlı (Biləsuvar, Çəmbərək, Göyçay, Qazax, Meğri şivələrində "şaqqıldaq" mənasında işlənən *sadır* sözündən əmələ gəlib), *salğarrı* (Çəmbərək, Kürdəmir) –ağırtəbiətli (Çəmbərək şivəsində "möhkəm" mənasında işlənən *salğar* sözündən əmələ gəlib) və s.

15.-a,-ə. Qeyri-məhsuldar şəkilçidir və isimdən sifət düzəldir. Qərbi Azərbaycanın Meğri şivələırində işlənir. Məsələn*: payıza* < payızda yetişən, *kəmərə* < kəmər formasaında duran.

Feildən düzələn sifətlər

1. *-cəg.* Qeyri - məhsuldar birvariantlı şəkilçidir və feildən sifət düzəldir. Məsələn: *ərincəg* (Yardımlı) - tənbəl. *-cəg* Çəmbərək şivəsində *-cəx′* fonetik formasında işlənir eyni morfoloji vəzifəni yerinə yetirir. Məsələn: *ərincəx′(*Çəmbərək) - tənbəl

2. *-arqı, -ərgi.* Qeyri-məhsuldar ikivariantlı şəkilçidir və feildən sifət əmələ gətirir. Məsələn: *qalarqı* (Çəmbərək) - qalınan yer, *gəzərgi* (Çəmbərək) – gəzilən yer, *gedərgi* (Salyan, Şərur) - gedən adam, *köçərgi* (Naxçıvan, Salyan) – köç edən adam, *bişərgi* (Ağstafa) – bişirilən xörək və s.

3.*-əndə.* Naxçıvan qrupu şivələrində qeyri-məhsuldar birvariantlı şəkilçidir və feildən sifət əmələ gətirir. Məsələn: *biləndə* (Şərur) – bilikli.

4. *-qaz.* Muğan qrupu şivələrində qeyri-məhsuldar birvariantlı şəkilçidir və feildən sifət əmələ gətirir. Məsələn: *utanqaz* (Sabirabad) – utanan və s.

5. *-ma, -mə.* Qeyri-məhsuldar şəkilçidir və feildən sifət düzəldir. Qərb qrupu şivələrində -ma, -mə, Quba şivəsində -mə formasında rast gəlinir. Məsələn: *buraxma* (Çəmbərək, Qazax) - sahibsiz, *qırdırma* (Çəmbərək) - kəsə yol, *gəlmə* (Çəmbərək, Quba) - qərib, *kəsdirmə* (Quba) - kəsə yol və s.

6. *-gəc.* Qeyri -məhsuldar birvariantlı şəkilçidir və feildən sifət düzəldir. Məsələn: *əringəc* (Füzuli, İmişli, Kürdəmir, Salyan) - tənbəl.

7. *-ğa*. Qeyri - məhsuldar birvariantlı şəkilçidir və feildən sifət düzəldir. Məsələn: *oturğa* (Tovuz) - oturaq.

8. *-x.* Qeyri - məhsuldar birvariantlı şəkilçidir və feildən sifət düzəldir. Məsələn: *bordax* (Çəmbərək) - kök.

9. *–ig,-ük.* Muğan qrupu (*-ig*), Qərbi Azərbaycanın Çəmbərək (*-ük*) şivələrində işlənən qeyri - məhsuldar şəkilçidir və feildən sifət düzəldir. Məsələn: *düşig* (Salyan), *düşük* (Çəmbərək) – özünə hörmətlə yanaşmayan.

10.*-dər.* Qərbi Azərbaycanın Çəmbərək şivəsində işlənən qeyri - məhsuldar birvariantlı şəkilçidir və feildən sifət düzəldir. Məsələn: *biləndər* (Çəmbərək, Dmanisi) - bilikli (bu sözün kökü "bilik" mənasında işlənən *bilmək* sözündən əmələ gəlib) və s.

Mürəkkəb sifətlər

Azərbaycan dili şivələrində mürəkkəb sifətlər müxtəlif yollarla yaranır. Şivələrimizin materiallarına əsasən mürəkkəb sifətləri əmələ gəlmə yollarına görə aşağıdakı qruplara bölmək olar:

1. Saitlə başlanan sözlərin təkrarlanması zamanı ikinci tərəfə "m" samitinin artırılması və ya birinci sözün ilk samitinin "m" samiti ilə əvəzlənməsi nəticəsində əmələ gələn mürəkkəb sifətlər: *adar-madar* (Cəbrayıl) -tək, yeganə, bircə, *təntəy-məntəy* (Dərbənd) - qanmaz və s.

2. İki müxtəlif mənalı sözün birləşməsindən əmələ gələn mürəkkəb sifətlər: *cücəgöz* (Ucar) - xırdagöz, *dalda-dama* (Bakı) –xəlvət, gizli, *darqursax* (Basarkeçər, Borçalı, Çəmbərək, Gədəbəy, Gəncə, Kürdəmir, Qazax, Mingəçevir, Şəki) - səbirsiz, kəmhövsələ, *gickəsəmə (*Bakı) -səfeh, ağılsız, *yuvasuqor* (Dərbənd) – boş, işsiz, *yuvakor* (Zaqatala) – bacarıqsız, *qurğağ* (Dərbənd) – su çıxmayan, *dömbek* (Dərbənd)-qozbel və s.

3. Birinci tərəfdə işlənən sözün ikinci tərəfdə sait səsin dəyişəməsi nəticəsində əmələ gələn mürəkkəb sifətlər: *çaynax- çoynax* (Qazax) –sınıq-sökük, *əyiş-üyüş* (Çəmbərək) - əyri-üyrü, *səydəş-süydəş* (Çəmbərək) – ağılsız, ağıldan yüngül, *həs-hüs* (Lənkəran) - qanmaz və s.

4. İsimlə sifətin birləşməsindən əmələ gələn mürəkkəb sifətlər: *çənəçürüx'* (Cəbrayıl, Füzuli) - çoxdanışan, *əliyuxa* (Ağdam, Oğuz, Şuşa) – kasıb, yoxsul, *zatıqırığ (*Bakı), *zatıqırıx* (Çəmbərək) – nəsli məlum olmayan və s.

5. İki ismin birləşməsindən əmələ gələn mürəkkəb sifətlər. Məsələn: *gədəqız* (Qax) -

bacarıqsız, fərsiz, *piypalan* (Çəmbərək) - yağlı, *qılbaldır* (Çəmbərək, Karvansaray) - nazik qılça, *dıbırçəlləg (*Salyan) - alçaq boylu kök (adam) və s.

6. Eyni sözün təkrarından əmələ gələn mürəkkəb sifətlər: *harfa-harfa* (Ağcabədi) - ədəbsiz-ədəbsiz, *nağız-nağız* (Sabirabad) – düşüncəsiz, yersiz, *səksəki* (Qazax) – ağılsız, *ərşi-ərşi* (Dərbənd) –eybəcər, *ğafğaf* (Dərbənd) – dişi tökülmüş, dişsiz, *ləvin-ləvin (*Dərələyəz, Naxçıvan) – cürbəcür, növbənöv və s.

7. Tərəfləri müəyyən məna kəsb etməyən iki sözün birləşməsindən əmələ gələn mürəkkəb sifətlər: *harım-cırım* (Basarkeçər, Qazax) –bacarıqsız və s.

8. "a", "ə" bitişdiricisinin iştirakı ilə eyni sözün təkrarından əmələ gələn mürəkkəb sifətlər: *lağalağ* (Tovuz) – səliqəsiz, *ləmələm* (Gədəbəy, Şərur)- ağızbaağız və s.

9. Birinci tərəfi isim, ikinci tərəfi feili sifətdən əmələ gələn mürəkkəb sifətlər: *suyatan, sukəsən* (Dərbənd) -sucaq (yer), *ağızaçən* (Dərbənd) – ağı deyən (qadın), *arağirən* (Dərbənd) - aravuran, xəbərçi, *halaypozan* (Quba) – quvvətli, güclü, *gəlinpüfləməz* (Meğri) – tezyanan (odun) və s.

10. Birinci tərəfi zərf, ikinci tərəfi isimdən əmələ gələn mürəkkəb sifətlər: *hərzacoğab* (Bakı) - hazırcavab və s.

11. İkinci növ təyini söz birləşməsi konstruksiyası əsasında əmələ gələn mürəkkəb sifətlər: *yazbaşı* (Dərbənd) - arıq və s.

12. Birinci tərəfi sifət, ikinci tərəfi isimdən əmələ gələn mürəkkəb sifətlər: *aladil* (Çəmbərək) - yalançı, *zəvərqarın* (Çəmbərək) –dolu bədənli, kök, *zağarqarın (*Quba) - yekəqarın, ağgüz (Quba) – yaxşılıq bilməyən, pisxasiyyətli və s.

13. İki sifətin irləşməsindən əmələ gələn mürəkkəb sifətlər: *alayılıx* (Qazax) – ılıq, *uzunho:xar* (Quba, Sabirabad), *uzunhoqqar* (Çəmbərək) – uzunboylu, çox uzun və s.

Sifətin Dərəcələri

Azərbaycan dili şivələrində sifətin dərəcələri öz zənginliyi və qədimliyi ilə ədəbi dildən fərqlənir. Şivələrimizdə sifətin dərəcələri ilə bağlı fikirlər ayrı-ayrı şivələrdən bəhs edən monoqrafiyalarda, şivələrə həsr edilmiş dərs vəsaitlərindən də əksini tapmışdır. Şivələrimi zdə sifətin dərəcələrinin təsnifi haqqında ilk məlumatlardan biri M.Şirəliyevə məxsusdur. M. Şirəliyev "Naxçıvan dialekti" məqaləsində (1949) sifəti dərəcələrini dörd yerə bölür: adi dərəcə, kiçiltmə dərəcəsi, üstünlük dərəcəsi, müqayisə dərəcəsi (M. Şirəliyev, 1949, s. 82). M.Şirəliyevin sifətin dərəcələrinin təsnifi ilə bağlı bu bölgüsü dialektoloji tədqiqatlarda əsas götürülmüşdür. Bu və ya digər formada həmin təsnif əsasında sifətin dərəcələri izah edilmişdir. M. Şirəliyev "Bakı dialekti" əsərində (1957) Bakı şivələrinin materialları əsasında sifətin dərəcələrini izah edərək onları dörd yerə bölür: kiçiltmə dərəcəsi, üstünlük dərəcəsi, müqayisə dərəcəsi, şiddətləndirmə dərəcəsi. "Azərbaycan dilinin Muğan qrupu şivələri" kiabında (1955) Muğan qrupu şivələrinin (Biləsuvar, Sabrabad, Salyan, Şirvan) materialları üzərində tədqiqat nəticəsində sifətin dörd dərəcəsi (adi, azaltma (müqayisə), üstünlük və şiddətləındirmə dərəcələri) olduğu göstərilir (Muğan qrupu şivələri, 1955, s.97-98). Lakin yalnız azaltma dərəcəsinə aid nümunələr verilir və göstərilir ki, Muğan qrupu şivələrinin sifətin üstünlük və şiddətləndirmə dərəcəsi ədəbi dilimizlə eyniyyət təşkik edir. Sifətin üstünlük və şiddətləndirmə dərəcəsinə aid verilən nümunələr də ədəbi dildə işlənən sözlərdir (Muğan qrupu şivələri, 1955, s. 97-98).

Q. Bağırov Qərbi Azərbaycanın Sisyan şivələrinin tədqiqində sifətin dərəcələrindən də bəhs etmiş və Sisyan şivələrinin materialları əsasında sifətin iki dərəcəsini göstərir: kiçiltmə dərəcəsi, üstünlük dərəcəsi (Г. Багиров, 1966, с. 13).

R. Rüstəmov Azərbaycan dilinin qərb qrupu şivələırində sifətin üç dərəcəsinin olduğunu göstərir: kiçiltmə (müqayisə) dərəcəsi, şiddətləndirmə dərəcəsi, oxşatma dərəcəsi (Qərb qrupu şivələri, 1967, s. 88-90).

İstər müasir Azərbaycan ədəbi dilinin morfologiyasından, istərsə də Azərbaycan dili şivələrindən bəhs edən əsərlərdə "sifətin oxşatma dərəcəsi" terminindən istifadə edilməmiş, daha doğrusu, sifətin dərəcələrinin təsnifində "sifətin oxşatma dərəcəsi" adı altında sifət dərəcəsindən bəhs edilməmişdir. R.Rüstəmovun qərb qrupu şivələrinin materialları əsasında oxşatma dərəcəsinə aid nümunələr (*uzunsoy, qaramtul, qırmızımtul, ağumtul, sarımtıl*) əslində sifətin azaltma dərəcəsinə uyğundur (Qərb qrupu şivələri, 1967, s. 90). R. Rüstəmov "Quba dialekti" əsərində (1961) sifətin müxtəlif dərəcələri olduğunu göstərsə də, yalnız müqayisə dərəcəsindən bəhs etmişdir (R.Rüstəmov, 1961, s. 132).

K. Ramazanov Naxçıvan qrupu şivələrində sifətin bütün dərəcələrinin olduğunu yazır. Lakin məlum olmur ki, Naxçıvan qrupu şivələrində sifətin hansı dərəcələri var. Daha sonra isə sifətin iki dərəcəsindən- müqayisə və üstünlük dərəcələrindən bəhs edir və sifətin bu iki dərəcəsinin Naxçıvan qrupu şivələri üçün xarakterik olduğunu göstərir (Naxçıvan qrupu şivələri, 1962, s. 104).

M. Şirəliyevin "Azərbaycan dialektologiyasının əsasları" dərs vəsaiti (1967) ali məktəblərdə əsas dərslik kimi istifadə edilmiş və indi də istifadə edilir. M. Şirəliyev bu əsərində Azərbaycan dili şivələrinin materialları əsasında sifətin dərəcələrini dörd yerə bölür: sifətin adi, kiçiltmə, müqayisə, üstünlük dərəcəsi (M. Şirəliyev, 1967, s. 179-182). M. Şirəliyev çoxaltma dərəcəsini sifətin dərəcələrinin növü kimi göstərməsə də, çoxaltma dərəcəli sifətləri sifətin üstünlük dərəcəsi daxilində izah etmişdir (M. Şirəliyev, 1967, s. 181-182).

M. İslamov Şəki şivələrinin materiallarına əsasən göstərir ki, sifətin üç dərəcəsi var: adi dərəcə, azaltma dərəcəsi, çoxaltma dərəcəsi (M. İslamov, 1968, s. 102-104). Bu bölgü F.Babayevin "Ermənistan SSR Masis rayonu şivələri" dissertasiysında (1988), Ş.Kərimovun "Azərbaycan dilinin Çənbərək və Karvansaray şivələri" (Ş.Kərimov, 2004, s. 136), R. Abbasovanın "Azərbaycan dilinin Qubadlı şivələri" (R. Abbasova, 2006, s. 59), M. Məmmədlinin "Təbriz dialekti" (M. Məmmədli, 2008, s. 94), "Dərbənd dialekti" (Dərbənd dialekti, 2009, s. 78-79) əsərlərində əksini tapmışdır.

A. Vəliyev keçid şivələrinin morfologiyası və sintaksisinə həsr etdiyi "Azərbaycan dialektologiyası" tədris vəsaitində (1975) sifətin azaltma və çoxaltma (şiddətləndirmə) dərəcələrindən bəhs edir, adi dərəcəsinin adını belə çəkmir (A. Vəliyev, 1975, s. 23).

Ə.Əliyev "Azərbaycan dilinin Meğri şivələri" monoqrafiyasında (2003) Qərbi Azərbaycanın Meğri şivələrində sifətin dörd dərəcəsinin (adi, azaltma, müqayisə, üstünlük dərəcələri) olduğunu göstəir. Göründüyü kimi Ə. Əliyev çoxaltma dərəcəsini sifətin dərəcələrinin ayrıca növü kimi götürmür (Ə.Əliyev, 2003, s. 227).

Azərbaycan dili şivələrini materialları üzərində apardığımız müşahidələr əsasında bu qənaətə gəlirik ki, müasir Azərbaycan ədəbi dilində olduğu kimi şivələrimizdə də sifətin dərəcələırini üç yerə bölmək daha məntiqidir: adi dərəcə, azaltma dərəcəsi, çoxaltma dərəcəsi.

Adi dərəcə

Azərbaycan dili şivələrində sifətin adi dərəcəsi ədəbi dildə olduğu kimi xüsusi morfoloji əlamət qəbul etmir. Adi dərəcədə olan sifətlər ədəbi dildən həm leksik - semantik, həm də fonetik xüsusiyyətinə görə fərqlənir. Məsələn: *zirəg* (Bakı) – qoçaq, cəld, *ləvərə* (Bakı) – avara, boş-bekar, *açkal* (Tovuz) – fərasətsiz, *çiçə* (Kəlbəcər, Kürdəmir, Mingəçevir, Salyan) – təzə, *dağanağ* (Salyan) – qupquru, *hanak* (Qax) – bacarıqsız, *səkti* (Kürdəmir) – ağılsız, *səmə* (Sabirabad) – ağılsız, gic, *qeyin//qiyin* (Dərbənd) –çətin, *buz* (Dərbənd) – boz, *səmiz* (Dərbənd) - kök, *tösvər* (Çəmbərək) – alçaq, *ajar* (Çəmbərək) - təzə, *yalxeyi* (Çəmbərək) - tək balası olan heyvan, *qıssa* (Təbriz) – qısa, *yoğın* (Təbriz) –yoğun, *yalxayı* (Qazax) – astarsız, nazik, *tül* (Təbriz) - uzun, *cürəfə* (Şəki) - arıq, *hasalax* (Şəki) – balaca, alçaq, *həmayil* (Şəki) – tənbəl, *qərə* (Dərələyəz, Meğri) – qara, *yəxşi* (Meğri) - yaxşı, *lalıx* (Qubadlı) - çox yetişmiş, *göy* (Çəmbərək, Qubadlı) - xəsis və s.

Azaltma dərəcəsi

Sifətin azaltma dərəcəsi adi dərəcədən əmələ gəlir. Azərbaycan dili şivələrində sifətin azaltma dərəcəsi iki üsulla əmələ gəlir:

1) morfoloji üsul;

2) sintaktik üsul.

Morfoloji üsul. Adi dərəcədə olan sifətlərə xüsusi şəkilçilər artırmaqla azaltma dərəcəsi düzəlir. Azərbaycan dili şivələrində morfoloji üsulla sifətin azaltma dərəcəsi aşağıdakı şəkilçilərlə əmələ gəlir.

1. *-aş, -əş*. Bu şəkilçi Göyçay şivəsində, Qərbi Azərbaycanın Zəngibasar şivəsində işlənir və ədəbi dildə sifətin azltma dərəcəsini əmələ gətirən *-ımtıl, -imtil,-umtul,-ümtül* şəkilçisinin vəzifəsini yerinə yetirir. Adi dərəcədə olan rəng bildirən sifətlərə artırılaraq sifətin azaltma dərəcəsini əmələ gətirir. Məsələn: *ağəş* (Göyçay) - ağımtıl, *göyəş* (Göyçay, Zəngibasar) - göyümtül və s.

2. -so, *-so:,-əmso:,- amso:, -sav,* -sov, *-soy, -imsoy,-imsoy, -umsoy,- ümsoy.* Göyçay şivəsində *-so:,-əmso:,- amso:,* Bakı, Təbriz, Şəki şivələrində - *so, so:,* Dərələyəz, Qubadlı, Meğri, Naxçıvan şivələrində, *-sav*, Çəmbərək, Karvansaray, Qazax, Naxçıvan şivələrində - *sov*, Çəmbərək, Karvansaray, Qazax, Naxçıvan, Şəki şivələrində *–soy,* Çəmbərək, Karvansaray şivələrində həm də *-ımsoy,-imsoy,-umsoy,- ümsoy,* Naxçıvan şivələrində *-ımso,* Gürcüstanın Dmanisi şivələrində *-soy, -söy* sifətin azaltma dərəcəsinin şəkilçisi kimi işlənir. Sifətin azaltma dərəcəsini əmələ gətirən *-soy* şəkilçii qərb qrupu şivələrində işlənirsə, *-söy* şəkilçisinə yalnız Başkeçid (Dmanisi) şivəsində rast gəlinir (В.Джфнгидзе, 1965, с.72). Ədəbi dildə sifətin azaltma dərəcəsini əmələ gətirən *-sov, -ımsov, -umsov, -ümsov* şəkilçisinin vəzifəsini yerinə yetirir və əlamət, rəng bildirən sifətlərə artırılaraq azaltma dərəcəli sifət əmələ gətirir. Məsələn: *uzunso:* (Göyçay) - uzunsov, *ağamso:* (Göyçay) - ağımsov, *güəmso:* (Göyçay) – göyümsov, *uzunso* (Bakı, Şəki) - uzunsov, *güdəso* (Bakı) - gödək təhər, *dəliso* (Təbriz) – dəli təhər, *qərəso* (Təbriz) – qaramtıl, *dəliso:* (Şəki) – dəli təhər, *uzunsoy* (Çəmbərək, Karvansaray, Qazax, Naxçıvan, Şəki) - uzunsov, *uzunsav* (Quvadlı, Naxçıvan) - uzunsov, *dəlisav* (Qubadlı) - dəlisov, *dəlisoy* (Çəmbərək, Qubadlı) - dəlisov, *uzunsa*^{o}*v* (Meğri) – uzunsov, *qarasov* (Naxçıvan) – qaramtıl, *ağımsoy* (Çəmbərək) - ağımtıl, *bozumsoy* (Çəmbərək, Karvansaray) – bozumtul, *göyümsoy* (Çəmbərək) – göyümtül, *acımso* (Naxçıvan) – acı təhər və s.

3. *-ıntı, -ntı, -int,-antı,-mtı,-anti,-antu,-ənti,-amtu.* Dərbənd şivəsi üçün xarakterik olan bu şəkilçi ədəbi dildə işlənən *-ımtıl, -imtil,-umtul,-ümtül,-mtıl* şəkilçisinin vəzifəsini yerinə yetirir və adi dərəcədə işlənən rəng bildirən sifətlərə artırılaraq sifətin azaltma dərəcəsini əmələ gətirir. Məsələn: *sarantı* - sarımtıl, *ağıntı* - ağımtıl, *qızarantı* - qırmızımtıl, *sarınti* - sarımtıl, *qarantı* - qaramtıl, *ağantu* – ağımtıl, *sarantu* - sarımtıl, *qarantu* - qaramtıl, *güginti* - göyümtül, *qaramtu* – qaramtıl və s.

4. *-ntul, -ntur, -untur,-mtul.* Dərbənd şivəsində işlənir və ədəbi dildə azaltma dərəcəsinin morfoloji əlamətini bildirən *-ımtıl, -imtil, -umtul,-ümtül,-mtıl* şəkilçisinin funksiyasını yerinə yetirir. Adi dərəcədə olan sifətlərə artırılaraq sifətin azaltma dərəcəsini əmələ gətirir. Məsələn: *qarantul*– qaramtıl, *sarantur* - sarımtıl, *qaramtul*– qaramtıl, *ağantur* – ağımtıl və s.

5. *-avış, -avuş,-ovuş,- oviş.* Dərbənd şivəsində *-avuş,-ovuş,- oviş,* Zəngilan şivəsində *-avış* şəkilçisi işlənir və ədəbi dildə azaltma dərəcəli sifət düzəldən *-ımsov, -ümsov* şəkilçisinin vəzifəsini yerinə yetirir. Adi dərəcədə işlənən rəng bildirən **ağ** və **göy** sifətlərinə artırılaraq sifətin azaltma dərəcəsini əmələ gətirir. Məsələn: *ağovuş* (Dərbənd) - ağımsov, *ağoviş* (Dərbənd) - ağımsov, *ağavuş* (Dərbənd) - ağımsov, *gögovuş* (Dərbənd) –göyümsov, *ağavış* (Zəngilan) - ağımtıl və s.

6. *-rax, -rəx', - rək, -arax, -ərəx', -ərək, -tarax* (keçid şivələri), *-rax, -rəx',- arax, -ərəx' (*qərb qrupu şivələri, Qarakilsə, Zəngibasar), *-rağ (*Quba), *-rax, -rəx' (*Başkeçid, Təbriz), *-rax, -rəx', -ərəx'* (Qubadlı), *-rəx', -rex' (*Meğri), *-lax, -ırax, -irəx', - rək, -urax, -ürəx', - üləx' (*Çəmbərək, Karvansaray), - *arax* (Şəki) şəkilçisi şivələrimizdə sifətin azaltma dərəcəsini əmələ gətirir. Məsələn: *balacarax* (Göyçay) - balaca təhər, *yumşarax* (Ağdaş, Göyçay) - yumşaq təhər (sözün kökü yumşaq sözüdür), *bozarax* (Ağdaş, Göyçay, Şəki) – bozumtul, *yekərəx'* (Göyçay) - yekə təhər, *təmiztarax (*Ağdaş, Göyçay) - təmiz təhər, *yaxşırax* (Çəmbərək, Qazax) - yaxşı təhər, *qırmızırax* (Borçalı) – qırmızımtıl, *qalınarax* (Qazax) - qalın təhər, *hündürrəx'* (Qazax) – hündür təhər*, isdirəx'* (Qazax) – isti təhər, *uzunarax* (Çəmbərək, Qazax) – uzunsov, *acırağ* (Quba) - acı təhər, *azarax* (Təbriz) - az təhər, *çoxrax* (Təbriz) – çox təhər, *tezrax* (Təbriz) – tez təhər, *uzunrax* (Qubadlı) - uzun təhər, *irirəx'* (Qubadlı) - iri təhər, *şivərəx'* (Qubadlı) - uzunsov, *gödərəx'* (Meğri) - gödərək, gödərex' (Meğri) - gödərək (**gödək** sözündən əmələ gəlib), *düzərəx' (*Çəmbərək), *bozurax* (Çəmbərək) – boz təhər, *ləjirəx'* (Çəmbərək) –ləj təhər < dəcəl təhər, *qaralax* (Çəmbərək) – qara təhər, *durulax* (Çəmbərək) – duru təhər, *qırmızılax* (Çəmbərək) - qırmızımtıl, *bozarax* (Zəngibasar) – boz təhər, *göyərəx'* (Çəmbərək, Zəngibasar) - göy təhər, *ajırax* (Başkeçid)- acı təhər, *yaşılrax* (Başkeçid) - yaşılımtıl, *şirinrəx'* (Başkeçid) - şirin təhər, *gözəlrəx'* (Başkeçid i) - gözəl təhər və s.

Qərb qrupu şivələrində *-rax, -rəx', - arax* sifətin kiçiltmə (müqayisə) dərəcəsinin morfoloji əlaməti kimi verilir (Qərb qrupu şivələri, 1967, s. 88).

7. *-artdax, -ərtdəx'.* Bu şəkilçi əsasən keçid şivələrində, eyni zamanada Qərbi Azərbaycanın Çəmbərək və Karvansaray şivələrində işlənir və ədəbi dildə sifətin azaltma dərəcəsinin morfoloji əlamətini bildirən *-ımtıl, -imtil,-umtul,-ümtül* şəkilçisinin dialekt variantıdır. Adi dərəcədə işlənən rəng bildirən sifətlərə artırılaraq sifətin azaltma dərəcəsini əmələ gətirir. Məsələn: *bozartdax* (Ağdaş, Çəmbərək, İsmayıllı, Karvansaray, Göyçay) - bozumtul, *qızartdax* (Ağdaş, Çəmbərək, İsmayıllı, Karvansaray, Göyçay) – qırmızımtıl, *göyərtdəx'* (Ağdaş) - göyümtül və s. *–artdax* sifətin azaltma dərəcəsinin şəkilçisi kimi Şəki şivəsində işlənir və *bozartdax, qızartdax* sözlərində özünü göstərir (M.İslamov, 1968, s.103).

8. *-mtıl, -mtul, -umtul, -ümtül (*qərb qrupu), *-ımtıl, -umtul, -ümtül (*Təbriz), *-ımtıl, -ımtır, -ımtur, -mtul, -umtul, -ümtül, -ümsül, -umtur, -untur, -üntür, -mtul, -mtur, -ntul,-ntır,-ntur*

(Qubadlı), *-ımtır,-imtir, -umtur,-ümtür,-mtır* (Meğri*)*. Bu şəkilçi müəyyən fonetik fərqlərə baxmayaraq, ədəbi dildə də işlənir və sifətin azaltma dərəcəsini əmələ gətirir. Məsələn: *qaramtul* (Qazax) - qaramtıl, *ağumtul* (Qazax) – ağımtıl, *sarımtıl* (Təbriz), *bozumtul* (Təbriz), *göyümtül (*Təbriz), *ağımtır* (Qubadlı) - ağımtıl, *ağumtur* (Qubadlı) - ağımtıl, *ağuntur* (Qubadlı) – ağımtıl, *qarantur* (Qubadlı) - qaramtıl, *göyüntür (*Qubadlı) – göyümtül, *qaramtul (*Qubadlı) - qaramtıl, *göyümsül* (Qubadlı) – göyümtül, *göyüntür* (Qubadlı) - göyümtül, *qarantıl* (Qubadlı) – qaramtıl, *qarantır* (Qubadlı) – qaramtıl, *ağımtır* (Meğri) - ağımtıl, *bozumtur* (Meğri) - bozumtul, *sarımtır* (Meğri) - sarımtıl, *qaramtır* (Meğri) - qaramtıl, *yaşılımtul* (Çəmbərək, Karvansaray) - yaşılımtıl, *sarumtul (*Çəmbərək) - sarımtıl və s.

"Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri" kitabında sifətin dərəcələrindən biri oxşatma dərəcəsi adlandırılır və *-soy, -mtıl, -mtul, -umtul, -ümtül* sifətin oxşatma dərəcəsinin şəkilçisi kimi verilir (Qərb qrupu şivələri, 1967, s. 90). Əslində göstərilən şəkilçi sifətin azaltma dərəcəsinin əlamətini bildirir. Yəni göstərilən şəkilçilərlə düzələn sifətlər adi dərəcəyə nisbətən əlamətin azlığını bildirir. Digər tərəfdən *-soy, -mtıl, -mtul, -umtul, -ümtül* şəkilçisinin əmələ gətirdiyi sifətlərin dərəcəsində oxşatma dərəcəsinə xas əlamət yoxdur. Ona görə də sifətin dərəcələrindən birinin "sifətin oxşatma dərəcəsi" adlandırılması məntiqi cəhətdən özünü doğrultmur.

9. *-imtur,- untur*. Qeyri - məhsuldar şəkilçidir və Quba şivəsində sifətin azaltma dərəcəsinin şəkilçisi kimi işlənir. Məsələn: *bozımtur* - bozumtul, *ağuntur* - ağımtıl və s.

10. *-əldaz, -əmdaz, -əndaz*. Bu şəkilçi Sabirabad şivəsində gög "göy" sifətinin tərkibində rast gəlinir və ədəbi dildə sifətin azaltma dərəcəsinin morfoloji əlamətini bildirən *-ümtül* şəkilçisinin vəzifəsini yerinə yetirir. Məsələn: gögəldaz // gögəmdaz // gögəndaz - göyümtül (Muğan qrupu şivələri, 1955, s. 98).

11. *-iş, -uş, -üş*. Muğan qrupu şivələrində *-iş, -uş,* Qərbi Azərbaycanın Meğri şivələrində *-iş, -üş* sifətin azaltma dərəcəsinin şəkilçisi kimi ağ və gög "göy" sözlərinə qoşulur və ədəbi dildə azaltma dərəcəsini əmələ gətirən *-ımtıl, -ümtül* şəkilçisinin vəzifəsini yerinə yetirir. Məsələn: *gögiş* (Salyan, Şirvan) - göyümtül, *ağuş* (Sabirabad, Salyan) - ağımtıl, *göyüş* (Meğri) - göyümtül, *göyiş* (Meğri) – göyümtül və s.

12. *-şın, -şin, -şinni*. Qeyri - məhsuldar şəkilçidir və sifətin azaltma dərəcəsini əmələ gətirir. *-şın* qərb qrupu şivələrində, *-şin* cənub qrupu şivələrində, *-şinni* Şəki şivəsində işlənir. Məsələn: *qaraşın* (Borçalı, Çəmbərək, Gəncə, Qarabağ, Qazax) – qaramtıl, *sarışın* (Borçalı, Çəmbərək, Gəncə, Qarabağ, Qazax) – sarımtıl, *qərəşin (*Təbriz, Meğri) – qaramtıl, *ağşin* (Meğri) – ağımtıl, *qaraşinni (*Şəki) - qaramtıl, *qaraşin* (Qarakilsə) - qaramtıl, *sarışin* (Qarakilsə) - sarımtıl və s.

13. *–yağız*. Bir cür yazılan qeyri - məhsuldar şəkilçidir. Sifətin azaltma dərəcəsini əmələ gətirir. Məsələn: *qarayağız* (Çəmbərək, Qubadlı) – qaramtıl, *qərəyağız* (Təbriz) -qaramtıl, *sarıyağız* (Çəmbərək, Qubadlı) – sarımtıl və s.

14. *-unturax, - untulax*. Qeyri - məhsuldar şəkilçidir və Qubadlı şivəsində işlənir. Azərbaycan ədəbi dilində işlənən **-umtraq** şəkilçisinin vəzifəsini yerinə yetirir. Bu şəkilçi *boz* sifətinə qoşulub sifətin azaltma dərəcəsini əmələ gətirir. Məsələn: *bozunturax (*Qubadlı) - bozumturaq, *bozuntulux* (Qubadlı) – bozumturaq və s.

15. *-sula, -şilləx′,-şülləx'*. Bu şəkilçi Qubadlı şivəsində işlənir və sifətin azaltma dərəcəsini əmələ gətirir. Məsələn: *uzunsula* – uzunsov, *uzunşilləx′* – uzunsov, *uzunşülləx′* – uzunsov və s.

16. *–rınqı, - ırınqı,- iringi, -runqu,-urunqu,-rüngü,-ürüngü,-rəngi.* Qərbi Azərbaycanın Çəmbərək və Karvansaray şivələrində işlənir və adi dərəcədə olan sifətlərə artırılaraq azaltma dərəcəli sifətlər əmələ gətirir. Məsələn: *yaxşırınqı* (Çəmbərək, Karvansaray) - yaxşı təhər, *ağırınqı* (Çəmbərək, Karvansaray) - ağır təhər, *duzdurunqu* (Çəmbərək, Karvansaray) - duzlu təhər, *isdiringi* (Karvansaray) - isti təhər, *pisiringi* (Çəmbərək, Karvansaray) - pis təhər və s.

17. *–ımtırax,- ümtürəx′.* Qeyri-məhsuldar şəkilçidir və Qərbi Azərbaycanın Zəngibasar şivəsində işlənir. Məsələn: *ağımtırax* (Zəngibasar) – ağımtıl, *göyümtürəx′* – göyümtül (Ф.Бабаев, 1988, с. 15) və s.

Sintaktik üsul . Azərbaycan dili şivələrində sintaktik üsulla sifətin azaltma dərəcəsi *açıx, çalan, təhər* (Təbriz), *açığ, təhər, hal, yovuz, şit* (Dərbənd), *ala, açıx, baxar, təhər* (Qubadlı, Çəmbərək, Karvansaray), *tə:r* (Bakı, Qubadlı, Çəmbərək, Karvansaray, Şəki), *hallı, çalar, dönər* (Çəmbərək, Karvansaray), *ala, hal, təhər* (Şəki) sözləri ilə əmələ gəlir. Məsələn: *qırmızı hal* (Dərbənd, Şəki) –qırmızımtıl, *qara hal* (Dərbənd,Şəki) - qaramtıl, *saru təhər* (Dərbənd) - sarı təhər, *qara yovuz* (Dərbənd) - qara təhər, *açığ qırmızı* (Dərbənd) – qırmızımtıl, *şit ağ* (Dərbənd) - ağımtıl, *ağ tə:r* (Bakı) – ağ təhər, *sari tə:r* (Bakı) – sarı təhər, *açıx göy* (Təbriz) - göyümtül, *açıx qəhvəyi* (Təbriz) - qəhvəyi təhər, *göyə çalan* (Təbriz) – göyümtül, *qırmızıya çalan* (Təbriz) - qırmızımtıl, *qərə təhər* (Təbriz) - qara təhər, *alapörtdəx′* (Qubadlı) - tam pörtdəməmiş < tam bişməmiş, *qırmızı tə:r* (Qubadlı, Şəki) - qırmızımtıl, *alayarımçıq* (Çəmbərək, Qubadlı) – yarımçıq təhər, qarıya baxar (Qubadlı) - qaramtıl, sarıya baxar (Qubadlı) - sarımtıl, *açığ qara* (Qubadlı) – qaramtıl, *alaçiy* (Çəmbərək, Karvansaray) - çiy təhər, *sarı hallı* (Çəmbərək, Karvansaray) – sarı təhər, *uzun hallı* (Çəmbərək, Karvansaray) - uzun təhər, *qarıya çalar* (Çəmbərək, Karvansaray) – qaramtıl, *sarıya dönər* (Çəmbərək, Karvansaray) – sarımtıl, *yaşıla dönər* (Çəmbərək, Karvansaray) –yaşılımtıl və s.

Çoxaltma dərəcəsi

Azərbaycan dili şivələrində sifətin çoxaltma dərəcəsi əlamət və keyfiyyətin adi dərəcədən çox olduğunu bildirir. Çoxaltma dərəcəsindən üstünlük və şiddətləndirmə dərəcəsi (Muğan şivələri, 1955, s.98), şiddətləndirmə dərəcəsi (M.Şirəliyev, 1957, s. 75; Qərb qrupu şivələri, 1967, s.89), üstünlük dərəcəsi (M.Şirəliyev, 1949; M. Şirəliyev, 1967, s. 181; Naxçıvan qrupu şivələri, 1962, s.104) adı altında bəhs edilmişdir. Şivələrimizdə sifətin çoxaltma dərəcəsi aşağıdakı yollarla yaranır:

1.Ədatlar vasitəsilə çoxaltma dərəcəsinin yaranması.

2.Xüsusi sözlər vasitəsilə çoxaltma dərəcəsinin yaranması.

3. m, p, r, s, f ünsürləri vasitəsilə çoxaltma dərəcəsinin yaranması.

Ədatlar vasitəsilə çoxaltma dərəcəsinin yaranması. Şivələrimizdə sifətin çoxaltma dərəcəsi *çox, lap, ən, daha* (əksər şivələrdə), *illah* < daha (Naxçıvan), *ləp "lap"* (Şəki), *daği* "daha", yap < lap (Dərbənd), *naf, yaf* <*lap* (Şəki, Zəngibasar), *laf* <*lap* (Ağbaba, Basarkeçər, Borçalı, Çəmbərək, Karvansaray, Gəncə, Qarabağ, Qazax, Təbriz), *yap, yaf* <*lap* (Qubadlı, Zəngibasar), *dahi "daha", çoh* "çox" (Təbriz) ədatları vasitəsilə əmələ gəlir. Məsələn: *illah yaxşı* (Naxçıvan) – lap yaxşı, *ən yaxçi* (Bakı) - ən yaxşı, *ləp yaxşi* (Şəki) –lap yaxşı, *naf şirin* (Şəki) - lap şirin, *laf pis* (Çəmbərək) - çox pis, *yaf yaxşı* (Zəngibasar) – lap yaxşı, *laf yaxçı* (Təbriz), *çoh qəşəh* (Təbriz) – çox qəşəng, *lap taza* (Dərbənd) – lap təzə, *daği pis* (Dərbənd) - daha pis, *çox açuğ* (Dərbənd) - çox açıq, *yap yaxşi* (Dərbənd) - lap yaxşı və s.

Xüsusi sözlər vasitəsilə çoxaltma dərəcəsinin yaranması. Şivələrimizdə sifətin

çoxaltma dərəcəsi *qət* (Bakı Qubadlı), *qat* (Çəmbərək, Dərbənd, Göyçay), *qır* (Meğri), *tünt* (Çəmbərək, Dərbənd, Qarakilsə, Meğri, Şəki), *lül* (Çəmbərək, Meğri), *zil (*Çəmbərək, Dərbənd, Qazax, Qubadlı, Gəncə, Tovuz, Meğri, Naxçıvan, Təbriz, Zəngibasar), *tüt* (Çəmbərək, Dərbənd, Karvansaray, Naxçıvan), *qan saf, cağ, çim* (Çəmbərək, Karvansaray), *düm* (Çəmbərək, Dərbənd, Qarakilsə, Qazax, Meğri, Naxçıvan, Təbriz, Şəki, Zəngibasar), *tox* (Ağcabədi, Çəmbərək, Qubadlı, Təbriz), *qır, tünd* (İrəvan, Zəngibasar), *tüs* (Naxçıvan), *saf* (Qazax), *əng, əx'* (Şəki), *gülgəz* (Çəmbərək) və s. xüsusi sözlərin iştirakı əsasında əmələ gəlir. Məsələn: *qattaza* (Dərbənd, Göyçay) – lap təzə, *düm qırmızı* (Meğri) – çox qırmızı, *lül yağ* (Meğri) – lap yağlı, *zil qərə* (Meğri, Təbriz) – lap qara, *qan qırmızı* (Çəmbərək) – çox qırmızı, *çim qara* (Karvansaray) – lap qara, *tüt yaşıl* (Çəmbərək) – çox yaşıl, *cağ təzə* (Çəmbərək) – lap təzə, *tox qırmızı* (Çəmbərək, Karvansaray) – qıpqırmızı, *tüt qara* (Dərbənd) – qapqara, *tünt göy* (Dərbənd) – gömgöy, *dümağ* (Çəmbərək, Dərbənd, Qazax, Naxçıvan, Tovuz, Təbriz) – ağappaq, *tox narıncı* (Təbriz)- lap narıncı, *tox qara* (Çəmbərək, Qubadlı) – qapqara, *qır duz* (Zəngibasar) - lap duzlu, *düm yaşıl* (Qarakilsə) – yamyaşıl, ən gözəl (Salyan), *düm göy* (Şəki) – gömgöy, *tüs sarı* (Naxçıvan) – lap sarı, *qəttəzə* (Bakı, Dərbənd) – lap təzə, *saf qara* (Qazax) - çox qara, *əng yaxşı* (Şəki) - ən yaxşı, *əx'pis* (Şəki) – lap pis, *zil qara* (Çəmbərək, Dərbənd, Qarakilsə, Naxçıvan) – çox qara, *gülgəz qırmızı* (Çəmbərək) – qıpqırmızı və s.

m, p, r, s, f samitləri vasitəsilə çoxaltma dərəcəsinin yaranması. Şivələrimizdə çoxaltma dərəcəli sifətlərin bir hissəsi də m, p, r, s, f samitlərin iştirakı ilə yaranır. Bu üsulla sifətin çoxaltma dərəcəsinin əmələ gəlməsi bütün şivələrdə özünü göstərir. Adi dərəcədə işlənən sifətin ilk hecasının son saitindən sonra uyğun gələn m, p, r, s, f, l samitlərindən birinin artırılması və adi dərəcədə olan həmin sifətin əlavə edilməsi nəticəsində sifətin çoxaltma dərəcəsi əmələ gəlir. Məsələn: *tərtəmiz, dümdüz, yamyaşıl, qapqara* (əksər şivələrdə), *çılçılpağ* (Bakı) - lap çılpaq, *tumturş* (Bakı, Qubadlı) – çox turş, *taptaza* (Bakı, Dərbənd) - lap təzə, *sopsoyux* (Tovuz) – çox soyuq, *nəfnəzix'* (Qazax) - lap nazik, *yefyekə (*Çəmbərək, Qazax) – lap yekə, *ipisdi* (Tovuz) – çox isti, *sifsilə* (Qazax, Şəki) – lap silə < lap dolu (ağzına kimi dolu), *təmtəzə* (Dərbənd, Naxçıvan, Şəki) – təptəzə, *bapbalca* (Bakı, Çəmbərək, Təbriz, Şəki) - lap balaca, *qıfqırmızı* (Çəmbərək, Şəki) – qıpqırmızı, *apaçıx* (Naxçıvan) – çox açıq, *düpdüz (*İrəvan, Zəngibasar) – çox düz, əpəyri (Zəngibasar) – çox əyri, *safsarı* (Ağstafa, Basarkeçər, Borçalı, Çəmbərək, Gəncə, Qarabağ, Qazax, Tovuz, Zəgibasar) – sapsarı, *çımçılpaq* (Təbriz) - lap çılpaq, *gümgüg* (Dərbənd) – gömgöy, *qipqirmizi* (Dərbənd) - qıpqırmızı, *dumduru* (Çəmbərək, Karvansaray) – lap duru (suya aiddir), *dəsdəyirmi* (Çəmbərək, Karvansaray) – lap dəyirmi, *tərtəzə* (Meğri) - təptəzə və s.

SAY

Azərbaycan dili şivələrində say ədəbi dildən elə bir ciddi surətdə fərqlənmir. Bununla belə ədəbi dildən fərqlənən bəzi əlamətlər də özünü göstərir. Fərqlilik özünü fonetik cəhətdən göstərir. Şivələrimizlə bağlı yazılmış əsərlərdə sayların mənaca növləri müxtəlif cür təsnif edilmişdir. M.Şirəliyev 1949 - cu ildə Naxçıvan dialekti ilə bağlı yazdığı məqaləsində (M.Şirəliyev, 1949, s.82-83), R.Rüstəmov "Quba dialekti" əsərində (R.Rüstəmov, 1961, s.132) yalnız sıra saylarının adını çəkir və onun əmələ gəlməsindən bəhs edirlər.

Z.Vəliyev Qərbi Azərbaycanın Basarkeçər şivələrini tədqiq etmiş və həmin şivələrin materiallarını əsas götürərək sayları mənaca 3 yerə bölür: miqdar sayları, sıra sayları, qeyri-müəyyən saylar (Z.Vəliyev, 1954, s.126-127).

K.Ramazanov Muğan qrupu şivələrinin materialları əsasında sayları mənaca sıra sayları, kəsr sayları və qeyri-müəyyən saylar adı altında üç yerə bölür (Muğan qrupu şivələri, 1955, s. 98-99). M.Şirəliyev "Bakı dialekti" əsərində sayları 2 qrupa bölür: miqdar sayları, sıra sayları (M.Şirəliyev, 1957, s. 76). Belə bir bölgü M.Məmmədlinin "Təbriz dialekti" əsərində də əksini tapıb (M.Məmmədli, 2008, s. 97-98).

M.İslamov Şəki şivələrinin materialları əsasında sayları sıra sayları və qeyri-müəyyən saylar adı altında iki yerə bölür (M.İslamov, 1968, s.104-105).

K.Ramazanov Naxçıvan şivələrinin materiallarına əsasən sayların mənaca iki növünü - sıra sayları və kəsr saylarını müəyyənləşdirmişdir (Naxçıvan qrupu şivələri, 1962, s. 105-106).

Azərbaycan dilinin qərb qrupu şivələrinə həsr edilmiş "Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri" kitabında qərb qrupu şivələrinin materiallarına istinad edilərək sayların mənaca dörd növü göstərilir: miqdar sayları, sıra sayları, qeyri-müəyyən saylar, kəsr sayları (Qərb qrupu şivələri, 1967, s. 90-91). Bu bölgü Ş.Kərimovun "Azərbaycanın dilinin Çənbərək və Karvansaray şivələri", Ə.Əliyevin "Azərbaycan dilinin Meğri şivələri", R.Abbasovanın "Azərbaycan dilinin Qubadlı şivələri" monoqrafiyalarında da əksini tapmışdır. Belə ki, Ş.Kərimov Çəmbərək və Karvansaray şivələrinin (Ş.Kərimov, 2004, s.144-147), Ə.Əliyev Meğri şivələrinin (Ə.Əliyev, 2003, s. 232-234), R.Abbasova Qubadlı şivələrinin (R.Abbasova, 2006, s.62-63) materilları əsasında sayları 4 qrupda təsnif etmişlər: miqdar sayları, sıra sayları, qeyri-müəyyən saylar, kəsr sayları .

"Dərbənd dialekti" kitabda M.İslamov sayları mənaca 3 qrupa bölür: miqdar sayları, sıra sayları, kəsr sayları (Dərbənd dialekti, 2009,s. 79-80).

A zərbaycan dili şivələrinə həsr edilmiş dərs vəsaitlərində saylar mənaca müxtəlif cür təsnif edilmişdir. M.Şirəliyevin "Azərbaycan dialektologiyasının əsasları" (M.Şirəliyev, 1967, s.182-183), A.Hüseynovun "Azərbaycan dialektologiyası" (A.Hüseynov, 1979, s.46) dərs vəsaitllərində sayların iki növündən - miqdar və sıra saylarından bəhs edilmişdir. M.Şirəliyevin "Диалекты и говоры азербайджанского языка" əsərində yalnız sıra saylarından bəhs etmişdir (M.Ширалиев, 1983, sc.96).

Azərbaycan dili şivələrinin materiallarına istinad edərək bu qənaətə gəlrik ki, şivələrimizdə işlənən sayları mənaca aşağıdakı kimi qruplaşdırmaq daha məqsədəuyğundur:

1. Miqdar sayları
2. Sıra sayları
3. Kəsr sayları

Miqdar Sayları

Azərbaycan dili şivələrində işlənən miqdar saylarını ədəbi dildə olduğu kimi iki yerə bölmək olar: müəyyən miqdar sayları, qeyri-məyyən miqdar sayları.

Müəyyən miqdar sayları. Ədəbi dildə işlənən müəyyən miqdar sayları müxtəlif fonetik fərqlərlə şivələrimizdə işlənir. Məsələn: *bir, iki, üç, beş, altı, on* (ədəbi dildə olduğu kimi şivələrimizdə də işlənir), *bi* (Qax, Təbriz) – bir, *ikki* (Təbriz) - iki, *üş* (Çəmbərək, Qax, Qubadlı, Meğri, Təbriz) - üç, *döt* (Təbriz) – dörd, *yetti* (Təbriz) – yeddi, *i:rimi* (Qubadlı) – iyirmi, *i:rmi* (Təbriz) – iyirmi, *atmış* (Ağbaba, Çəmbərək, Qax, Qazax, Qubadlı, Gəncə, Salyan, Şamaxı, Şirvan,Tovuz, Zaqatala) – altmış, *eki* (Dərbənd) – iki, *ekĭ // ikĭ* (Dərbənd) –

iki,, *seggiz* (Dərbənd) – səkkiz, *un (*Dərbənd, Quba, Meğri, Naxçıvan)-on, *iqirmi* (Dərbənd) – iyirmi, *utız//utuz* (Dərbənd) – otuz, *ottuş (*Təbriz) – otuz, *qirx (*Dərbənd) – qırx, *elli* (Dərbənd) - əlli, *qıx* (Təbriz) – qırx, *om beş* (Təbriz)- on beş, *om bir* (Çəmbərək) – on bir, *iyirim bir* (Təbriz) – iyirmi bir, *utiz* (Meğri)- otuz, *üçüz* (Bakı, Meğri) – üç yüz, *daᵒxsaᵊn (*Meğri)- doxsan, *igrim beş* (Bakı) – iyrimi beş, *seysan* (Qax, Şəki) – səksən, *qıhr beş* (Zəngibasar) - qırx beş və s.

Şivələrimizdə müəyyən miqdar sayları həm də xüsusi sözlərlə ifadə olunur. Məsələn: *bir əl (*Naxçıvan) – on, *iki əl* (Naxçıvan) – iyirmi, *üç əl* (Naxçıvan) - otuz, *toğullux* (Qazax, Gəncə) - 25 qoyun, *çəpişdix′* (Qazax, Gəncə) – 15 keçi (M.Şirəliyev, 1967, s.183), *bir əl* (Meğri) – beş, *iki əl* (Meğri) – on, *üç əl* (Meğri) – on beş, *iki iyrimi* (Meğri) - qırx (Ə.Əliyev, 2003, s. 233), *onnan bir əskik* (keçid şivələri) – doqquz, *otızzan iki əssik* (keçid şivələri) – iyirmi səkkiz (A. Vəliyev, 1975, s. 24), *həştaddan bir əx′six′* (Qarakisə) – yetmiş doqquz, *yüzdən iki əx′six′* (Qarakisə) – doxsan səkkiz (Г.Багиров, 1966, с.16).

Azərbaycan dili şivələrinin ədəbi dildən fərqli xüsuiyyətlərindən biri müəyyən miqdar saylarından sonra işlənən isimlərin cəm şəkilçisi qəbul etməsidir. Məsələn: *beş uşaxlar* (Qarakilsə) – beş uşaq, *üş gəlinnər* (Qarakisə) – üç gəlin, *iki oğlannar* (Qarakisə)- iki oğlan, *qırx həramilər* (Təbriz) – qırx hərami, *beş oğlannar* (Çəmbərək, Karvansaray) – beş oğlan, *dörd otaxlar* (Çəmbərək, Karvansaray) – dörd otaq və s.

Azərbaycan dili şivələrində miqdar sayları ilə isim arasında aşağıdakı numerativ sözlər işlənir:

Barmax (parça) - bir barmax kağız (Çəmbərək);

*Cınqır (*qulplu qab) – bir cınqır qatıx (Karvansaray);

Qaş (ədəd) - bir qaş qarpız (Təbriz);

Çətvər (ölçü) - üş cətvər çay (Təbriz);

Damcı (su barəsində) – bir damcı su (Basarkeçə);

Para (parça) - bir para çörəx′ (Basarkeçər);

Qapçax (qab) – bir qapçax su (Göyçay);

Loxma (çörək barəsində) - bir loxma əppəx′ (Göyçay).

Qeyri-məyyən miqdar sayları. Şivələrimizdə işlənən miqdar sayların bir növünü də qeyri-məyyən miqdar sayları təşkil edir. Qeyri- müəyyən miqdar saylarının bir hissəsi ədəbi dildə olduğu kimi, bir hissəsi isə müxtəlif fonetik formalarla işlənir. Məsələn: *xeylağ* (Qazax) - xeyli, *o qərdənə* (Qazax) – o qədər, *dınnajıx* (Qazax) – az, *buqqədir (*Meğri, Şəki) – bu qədər, *bu ğartən* (Şəki) - bu qədər, *oğərtən* (Şəki) – o qədər, *ho qədir* (Şəki) – o qədər, *o qəddərən* (Şəki) – o qədər, *bibelə* (Salyan) – bir belə, *irbelə* (Salyan) – bir belə, *xeyləx′* (Qarakilsə, Qubadlı) - xeyli, *un-unbeş* (Qarakisə) - on - on beş, *bıqqədər* (Qarakilsə, Salyan) - bu qədər, *dınnax* (Çəmbərək) – azca, *oxarta* (Çəmbərək, Meğri) – o qədər, *oxartana* (Çəmbərək) – o qədər, *buxərtənə (*Meğri) – bu qədər, *uxarta* (Meğri) - o qədər, *onca:z* (Qarakisə, Qubadlı) – o qədər, *bunca:z* (Qarakisə, Qubadlı) – bu qədər və s.

Sıra Sayları

Azərbaycan dili şivələrində sıra sayları ədəbi dildə olduğu kimi miqdar saylarına xüsusi şəkilçilər artırmaqla əmələ gəlir. Sıra saylarının əmələ gəlməsində aşağıdakı şəkilçilər iştirak edir.

1.*-ımcı, -imci, -umcu, -ümcü* (Bakı, Çəmbərək, Karvansaray, Qarakisə, qərb şivələri, Quba, Qubadlı, Meğri, Naxçıvan, Zəngilan), *-mcı* (Çəmbərək, Karvansaray, qərb şivələri,

Qubadlı, Meğri, Naxçıvan), *-mci* (Bakı, Çəmbərək, qərb şivələri, Quba, Qubadlı, Karvansaray, keçid şivələri, Meğri,Şəki), *-imci, -umcu, -ümcü, -minci* (Şəki), *-ımci, -imci* (keçid şivələri), *-ımcı, -imci* (Muğan şivələri), *-nci, -inci, - mci, -imci, -umcu, ümci, -ünci* (Dərbənd). Bu şəkilçi ədəbi dildə sıra saylarını düzəldən *-ıncı, -inci, -uncu, -üncü, -ncı -nci* şəkilçisinin vəzifəsini yerinə yetirir. Məsələn: *birimci* (Çəmbərək, Dərbənd, Karvansaray, Meğri, Şəki) – birinci, *otuzumci* (Şəki) – otuzuncu, *üçümcü* (Çəmbərək, Qazax, Şəki) – üçüncü, *üçümci* (Bakı, Dərbənd, Quba) - üçüncü, *üçimci* (Dərbənd. Meğri) – üçüncü, ücünci (Dərbənd) – üçüncü, *ikimci* (Çəmbərək, Qazax, *otuzumcu* Quba, Göyçay, İsmayıllı, Meğri, Naxçıvan, Şəki) - ikinci, *da^{o}qqızimci* (Meğri) – doqquzuncu, *onımci* (Quba, keçid şivələri, Muğan şivələri) – onuncu, *otızımci* (keçid şivələri) – otuzuncu, *beşimci* (Bakı, Qarakilsə, Quba, keçid şivələri, Naxçıvan) - beşinci, *qırxımci* (Bakı, Quba, keçid şivələri) – qırxıncı, *qırxımcı* (Qarakisə, Naxçıvan) – qırxıncı, *unumci* (Quba) - onuncu, *unimci* (Meğri) – onuncu, *yeddimci* (Naxçıvan) – yeddinci, *altımcı (*Qazax, Naxçıvan) – altıncı, *onumci* (Bakı) – onuncu, *dördimci* (Muğan şivələri) – dördüncü, *altımci* (Muğan şivələri) – altıncı, *oninci* (Zaqatala) – onuncu, *ekimci* (Dərbənd) - ikinci, *unumci* (Dərbənd) - onuncu, *qirximci* (Dərbənd) – qırxıncı və s.

Zaqatala, Qax və qərb qrupu şivələrində sıra sayları həm də ədəbi dildə olduğu kimi, *-ıncı, -inci, -uncu, -üncü, -ncı –nci* şəkilçisi ilə düzəlir. Məsələn : *birinci, ikinci, üçüncü, onuncu, altınci, yeddinci* və s.

Şivələrimizdə sıra sayı əmələ gətirən *-mıncı, -minci, -muncu, -müncü* şəkilçisinə də təsadüf edilir. Bakı şivəsində *-minci* (M.Şirəliyev, 1957, s. 76), Qərbi Azərbaycanın Sisiyan (Qarakilsə) şivəsində *-mıncı, -minci, -muncu, -müncü, -umuncu* (Г.Багиров, 1966, с.16) şəkilçisi işlənir. Bu şəkilçi ədəbi dildə sıra saylarını düzəldən *-ıncı, -inci, -uncu, -üncü,-ncı, -nci* şəkilçisinin vəzifəsini yerinə yetirir. Məsələn: *birminci* (Bakı) – birinci, *ikiminci* (Bakı, Qarakilsə) – ikinci, *üçmüncü* (Qarakilsə) –üçüncü, *altımıncı* (Qarakilsə) - altıncı, dokquzumuncu (Qarakisə) - doqquzuncu və s. A.Hüseynov bu şəkilçinin formalşması ilə bağlı yazır : "Miqdar bildirən sayların üzərinə "M" samiti ilə bitənlərdə ahəngə uyğun olaraq " -ım..." şəkilçisindən sonra müasir dilimizdəki " –ıncı..." şəkilçisi artırılaraq sıra sayları düzəldilir. Qeyd edək ki, bu formanı ən yaşlı nəslin dilində müşahidə etmək olur" (A.Hüseynov, 1979, s. 46).

2.*-mdzı, -mdzi, - ımdzı, -imdzi, - umdzu, -ümdzü,- mjı, -mji, - ımjı, -imji, - umju, -ümjü.* Bu şəkilçi Qərbi Azərbaycanın Zəngibasar şivəsində sıra sayları əmələ gətirir (Ф.Бабаев, 1988, с. 16) və sıra saylarını əmələ gətirən şəkilçinin sinonimi kimi iştirak edir. Məsələn: *birimdzi* - birinci, *ikimdzi* - ikinci, *beşimji* - beşimci, *altımji* - altıncı və s.

Kəsr Sayları

Şivələrimizdə kəsr saylarının əmələ gəlməsi ədəbi dildən fərqlidir. Kəsr saylarında birinci tərəf, yəni məxrəc ədəbi dildə ismin yerlik halda, şivələrimizdə isə ismin çıxışlıq halında işlənir. Məsələn: *üşdən iki* (Tovuz) - üçdə iki, *beşdən üç* (Qazax, Tovuz) - beşdə üç, *altıdan bir* (Dərbənd) – altıda bir, *ellidən bir* (Dərbənd) - əllidə bir, *üşdən bir* (Çəmbərək, Muğan şivələri, Göyçay) - üçdə bir, *unna^{ə}n bir* (Meğri) - onda bir, *beşdən iki* (Naxçıvan, Zəngibasar) - beşdə iki, *altıdan dört* (Zəngibasar) - altıda dörd, *beşdən üş* (Zəngilan) – beşdə üç, *onnan iki* (Zəngilan) – onda iki və s.

ƏVƏZLİK

Azərbaycan dili şivələrində əvəzlik xüsusi yer tutur və qrammatik xüsusiyyətinə görə

ədəbi dildən fərqlənir. M.Şirəliyev yazır: "Dialekt və şivələrimizdə əvəzliklərin işlənməsi müəyyən dərəcədə ədəbi dildən seçilir. Bu fərq hər şeydən əvvəl III şəxs əvəzliklərinin ifadəsində və I, II şəxs əvəzliklərinin hallanmasında özünü göstərir. Bundan əlavə, dialekt və şivələrimizdə elə işarə əvəzlikləri də işlənir ki, bunlara ədəbi dildə təsadüf edilmir" (M.Şirəliyev, 1967, s. 183). Əvəzlik nitq hissəsindən şivələrimizə dair yazılmış əsərlərdə, dərslik və dərs vəsaitlərində bəhs edilmişdir. M.İslamov Azərbaycan dili şivələrinin materialları əsasında əvəzlik ümumtürkoloji konteksdə "Türk dillərində əvəzliklər" (1986) monoqrafiyasında araşdırılmışdır.

Şivələrimizdə əvəzliklər mənaca aşağıdakı növlərdən ibarətdir:

1. Şəxs əvəzlikləri.
2. İşarə əvəzlikləri.
3. Sual əvəzlikləri.
4. Qayıdış əvəzlikəri.
5. Qeyri-müəyyən əvəzliklər.
6. İnkar əvəzlikəri.

Şəxs Əvəzlikləri

Şivələrimizdə I və II şəxs əvəzlikləri ya ədəbi dillə eyniyyət təşkil edir, ya da ədəbi dildən fonetik cəhətdən fərqli formada rast gəlinir. Məsələn:

I şəxsin təki: *mən* (Bakı, Çəmbərək, Dərbənd, Qarakilsə, qərb şivələri, Quba, Qubadlı, Meğri, Muğan şivələri, Naxçıvan, Təbriz, Şəki, Zəngilan), *men (*Qax, Qubanın Amasar şivəsi, Dərbənd), man (Ordubad, Zəngilan), *ma*^{ə}*n (*Meğrinin Nüvədi şivəsi).

II şəxsin təki: *sən* (Bakı, Çəmbərək,Dərbənd, Qarakilsə, qərb şivələri, Quba, Qubadlı, Meğri, Muğan şivələri, Naxçıvan, Təbriz, Şəki, Zəngilan), *sen* (Qax, Qubanın Amasar şivəsi, Dərbənd), *san* (Zəngilan), *sa*^{ə}*n* (Meğrinin Nüvədi şivəsi).

III şəxsin təki: u (Quba, Bakı, Qax, Ordubadın Kotam kənd şivəsi, Qarakilsə, Meğri, Şəki), *ho, hu* (Qax, Zaqatala), *o* (əksər şivələrdə).

Yuxarıda göründüyü kimi Azərbaycan dili şivələrində şəxs əvəzlikərinin III şəxsin təki **o** əvəzliyi ilə yanaşı (əksər şivələrdə), **u, ho, hu** əvəzliyi ilə ifadə olunur və şəxs əvəzliyinin bu formasına görə - III şəxsin təkinin **u, ho, hu** ifadəsinə görə ədəbi dildən fərqlənir. "III şəxs əvəzliyinin *h*-laşmış forması dialektlərin daha çox Şimal qrupu üçün xarakterikdir. *U* forması isə həm Şimal qrupunda, həm də Şərq (Quba, Bakı dialektlərində) və Cənub (Ordubad dialektinin Kotam kənd şivəsində, Ermənistan SSR-nin Sisyan və Meğri rayonları şivələrində) qruplarında özünü göstərir" (M.İslamov, 1986, s.15).

I şəxsin cəmi: *biz (*Bakı, Çəmbərək, Dərbənd, Qarakilsə, qərb şivələri, Quba, Qubadlı, Meğri, Muğan şivələri, Naxçıvan, Təbriz, Şəki, Zəngilan), *bis* (Təbriz) - biz, *büz* (Dərbənd) - biz.

II şəxsin cəmi: *siz* (Çəmbərək, Dərbənd, Qarakilsə, qərb şivələri, Quba, Qubadlı, Meğri, Muğan şivələri, Naxçıvan, Təbriz, Şəki, Zəngilan), *süz (*Bakı, Dərbənd, Muğan şivələri) - siz.

III şəxsin cəmi: *olar (*Bakı, Çəmbərək, Dərbənd, Gəncə, Qazax, Qarabağ, Meğri, Muğan, Naxçıvan, Təbriz, Şamaxı, Şəki, Zəngilan), *onnar* (Çəmbərək, Qax, Naxçıvan,

Sabirabad, Salyan, Şirvan, Zaqatala), *ollar* (Çəmbərək, Dərbənd, Qubadlı, Qarabağ, Zəngilan), *ular* (Bakı, Dərbənd, Quba, Meğri), *ullar* (Naxçıvan, Zəngilan), *ollar* (Çəmbərək, Naxçıvan), *unnar* (Naxçıvan, Zəngilan), *holar* (Dərbənd, Qax, Şəki, Zaqatala), *honnar* (Dərbənd).

Şəxs Əvəzliklərinin Hallanması

Bakı şivəsi üzrə

Tək

A.	mən	sən	u // o
Yiy.	mənim// mə:m	sənün//sə:n	unun//u:n, o:n//onın
Yön.	mənə//məə	sənə//səə	una//ona
T.	məni	səni	uni //oni
Yer.	məndə	səndə	unda//onda
Ç.	mənnən	sənnən	unnan// onnan

Cəm

A.	biz	süz	ular//olar
Yiy.	bizim	süzün	uların//oların
Yön.	bizə	süzə //sizə	ulara// olara
T.	bizi	süzü //sizi	ulari//oları
Yer.	bizdə	süzdə //sizdə	ularda//olarda
Ç.	bizdən	süzdən//sizzən//süzzən	ulardan//olardan

Dərbənd şivəsi üzrə

Tək

A.	mən//men	sən//sen	u//ho
Yiy.	mənim//mənün//mənin// mənüv məni //mənü//mə:m menin	sənin// sənüv səni//sənü//sə:n senün//sənün	honu//unu//o:n
Yön.	mənə//mene	sənə//sene	ona// oniyə//uniyə
T.	məni//meni	səni//seni// senü	unu// oni
Yer.	məndə//mendə	səndə//sendə	unda// onda
Ç.	mənnən// mennen	sənnən// sennen	unnan// onnan

Cəm

A.	biz	siz	ular//olar
Yiy.	bizim//bizin//büzü//bizi	süzün//sizin	ularun//olarun
Yön.	bizə	süzə	ulara//olara
T.	bizi//büzi	sizi//süzi	uları//oları
Yer.	bizdə//büzdə	sizdə//süzdə	ularda//olarda
Ç.	bizdən//büzdən	sizdən//süzdən	ulardan//olardan

Qərb qrupu şivələri üzrə

Tək

A.	mən	sən	o
Y.	mənim//mə:m	sənin//sə:ŋ	onun//onuŋ
Yön.	maŋa//ma:	saŋa//sa:	ona
T.	məni	səni	onu
Yer.	məndə	səndə	onda
Ç.	məndən//mənnən//mənnəŋ	səndən// sənnən//sənnəŋ	ondan// onnan//onnaŋ

A.	biz	siz	olar//onnar
Yiy.	bizim	sizin	oların//olarıŋ// onnarıŋ
Yön.	bizə	sizə	olara//onnara
T.	bizi	sizi	oları//onnarı
Yer.	bizdə	sizdə	olarda//onnarda
Ç.	bizdən	sizdən	olardan//olardaŋ//onnardaŋ

Qərb qrupu, Qubadlı şivələri üzrə
Tək

A.	mən	sən	o
Y.	mənim//mə:m	sənin	onun
Yön.	maŋa//ma:	saŋa//sa:	ona
T.	məni	səni	onu
Yer.	məndə	səndə	onda
Ç.	mənnən	sənnən	onnan

Cəm

A.	biz	siz	olar//ollar//onnar
Yiy.	bizim	sizin	oların//olların//onnarın
Yön.	bizə	sizə	olara//ollara//onnara
T.	bizi	sizi	oları//olları//onnarı
Yer.	bizdə	sizdə	olarda//ollarda// onnarda
Ç.	bizdən	sizdən	olardan//ollardan//onnardan

Quba şivəsi üzrə
Tək

A.	mən	sən//sen (Amsar)	u

Yiy.	mənim//mənin//mənün// mə:n// mə:m	sənin//sənün//sə:n	unun//u:n
Yön.	mənə	sənə	una
T.	məni	səni	uni
Yer.	məndə	səndə	onda
Ç.	mənnən	sənnən	unnan

Cəm

A.	biz	süz	ular
Yiy.	bizim//bizin//bizün	süzün	uların//ularun
Yön.	bizə	süzə	ulara
T.	bizi	süzi	ularıİ
Yer.	bizdə	süzdə	ularda
Ç.	bizdən	süzdən	ulardan

Göyçay şivəsi üzrə
Tək

A.	mən	sən	o
Yiy.	mənim// mə:m	sənin	onun//o:n//u:n// unun
Yön.	mənə//mə:	sənə	oa//ua
T.	məni//məi	səni	oni//uni
Yer.	məndə	səndə	onda//unda
Ç.	mənnən	sənnən	onnan//unnan

Cəm

A.	biz	siz	olar
Yiy.	bizim	sizin	oların
Yön.	bizə	sizə	olara
T.	bizi	sizi	oları
Yer.	bizdə	sizdə	olarda
Ç.	bizdən	sizdən	olardan

Muğan şivələri üzrə
Tək

A.	mən	sən	o
Yyiy.	mənim//mə:m//mə:n	sənin//sə:n//sənün//sə:^{u}n	o:n//o:^{u}n//onın

Yön.	mənə//mə:	sənə//sə:	ona//oa
T.	məni//məyi//məi	səni//səyi//səi	onu//onı[i]//oyı[i]//unı[i]
Yer.	məndə	səndə	onda
Ç.	mənnən	sənnən	onnan

A.	biz	siz//süz	olar
Yiy.	bizim	sizin//süzün	onların
Yön.	bizə	sizə//süzə	olara
T.	bizi	süzi//süzü	oları[i]
Yer.	bizdə//bizzə	sizdə//sizzə//süzzə	olarda
Ç.	bizdən//bizzən	sizdən//sizzən//süzzən	olardan

Şəki şivəsi üzrə

Tək

A.	mən	sən	o//ho
Yiy.	mənin//mə:m//mə:n	sə:n//sənın//sənıŋ	o:n//u:n//hu:n
Yön.	ma://maŋa//mə:	saŋa //sə://sa:	ona//una//huna
T.	məni//mə:	səni//sə:	onu//onı//unu
Yer.	məndə//mənnə (İncə,Zunud)	səndə//sənnə (İncə,Zunud)	onda//unna//onna //hunna (İncə,Zunud)
Ç.	mənnən	sənnən	onnan//unnan//hunnan

Cəm

A.	biz	siz	olar//holar
Yiy.	bizim//bizin	sizin//sizın	oların//holarınn
Yön.	bizə	sizə	olara//holara
T.	bizi	sizi	oları
Yer.	bizdə	sizdə	olarda//ularda
Ç.	bizdən	sizdən	olardan//ulardan

Naxçıvan şivələri üzrə

Tək

A.	mən//man	sən	o//u

Yiy.	mənim//mə:m// ma:m	sə:n//sənın//sənıŋ	onun//onın//u:n//unun
Yön.	Mənə//mə://ma:	saŋa //sə://sa:	ona//una
T.	məni//mə i //məyi//manı	səni// sə i//səyi	onu//unı//uni//oyu
Yer.	məndə	səndə	onda//unda
Ç.	mənnən	sənnən	onnan//unnan

Cəm

A.	biz	siz	onlar//olar//ollar//onnar //ular//unnar
Yiy.	bizim	sizin//sizın	onların//olların//oların//onnarın//unnarın
Yön.	bizə	sizə	onlara//ollara//olara// onnara//ulara//unnara
T.	bizi	sizi	onları//olları// uları// onnarı// /unnarı
Yer.	bizdə//bizzə	sizdə//sizzə	onlarda//olarada//ularda//ollarda //onnarda
Ç.	bizdən//bizzən	sizdən//sizzn	onnardan//olardan// ollardan//ulardan// unnardan

İşarə Əvəzlikləri

Müasir Azərbaycan ədəbi dilində işlənən ***o, bu, həmin, elə, belə*** işarə əvəzlikəri əsasən Azərbaycan dili şivələrində olduğu kimi işlənir. Bununla belə şivələrimizdə elə işarə əvəzliklərinə rast gəlinir ki, onlar dilimizin müəyyən tarixi dövrlərində işlənsə də, müasir Azərbaycan ədəbi dildə işlənmir. Eyni zamanda şivələrimizdə işarə əvəzlikləri sayına görə ədəbi dildən çoxdur.

Müasir Azərbaycan ədəbi dilindəndən fərqli olaraq şivələrimizdə aşağıdakı daha xarakterik işarə əvəzliklərinə rast gəlinir.

ha, hay, ha:, ho, hao, u, habı, havı, bı, habu. Bu işarə əvəzlikləri Şəki, Qax, Zaqatala (*ha, ho*), Dərbənd, Meğri, Naxçıvan (*u*), Dərbənd, Şəki (*habı, habu*), Şəki (*havı*), Qubadlı, Muğan, Naxçıvan, Təbriz şivələrində (*bı*), Dərbənd (*hao, hay*) işlənir. *ha, hay, ha:, ho, u* işarə əvəzlikləri ədəbi dildə işlənən **o** işarə əvəzliyinin, *habı, havı, bı, habu* işarə əvəzlikləri ədəbi dildə işlənən **bu** işarə əvəzliyinin qarşılığı kimi iştirak edir. “Şəxs əvəzliyinin III şəxsinin təki – “o” (“u”) əvəzliyinin deyktik əvəzlik olan “ha” formasına enkliza qaydası ilə - sözün sonuna calanmaq üsulu ilə işlənməsi “ha o”, “ha u” müvafiq “hao: -ho, hau-hu” variantında yeni tərkib-forma yaranmasına səbəb olmuşdur (A.Hüseynov, 1979, s.47).

həblə, həvlə, helə, haylə, heylə, həylə, həbelə, habelə, həblə, ilə. Bu işarə əvəzlikləri Dərbənd, Şəki (*həblə*), Şəki (*həvlə, helə*), Zəngilan (*həbelə, habelə*), Meğri (*həylə*), Dərbənd (*hələ, hələsi, ilə* “elə”), Qubadlı, Şəki (*heylə*), Zəngilan (*haylə, həylə*) işarə əvəzlikləri ədəbi dildə işlənən **elə, belə** işarə əvəzliyinin dialektal formasıdır. Bununla yanaşı ədəbi dildə işlənən elə, belə işarə əvəzliyinin qarşılığı kimi Azərfbaycan dili şivələırində *hamı, anqırki, aŋnırkı* (Şəki), *elənçix', odurana, bıdrana, oc:z, bıca:z, ode, bıde, ollar, bıllar* (Qubadlı),

bına, bılar, bular, hələnçix′, helençilix′, belənçilix′, belençilix′ (Təbriz), *belənçix′* (Qubadlı, Təbriz, Zəngilan), *oğal, buğal* (Təbriz, Zəngibasar), *oğala, buğala* (Zəngibasar), *odaha (*Çəmbərək, Qubadlı, Zəngilan), bıdaha (Qubadlı, Təbriz), otuxa, putuxa, odurana, budurana (Çəmbərək), *bıtana, bıdıranna, oduranni, buduranni (*Naxçıvan), *odey, budey* (Bakı, Çəmbərək, keçid şivələri), *bıdey, budana, bıdana, bıdra (*keçid şivələri), *budra, odra* (Çəmbərək, keçid şivələri), *belənçi, helənçix′, elənçi, ə:nə, bə:nə, budaha, hənki, hankı (*Zəngilan), *ohey, buhey* (Çəmbərək), *unda, ura "ora", hələ, hələsi, ibirsi "o birisi"* (Dərbənd) işarə əvəzlikləri işlənir. "Bundan əlavə, dialekt və şivələrimizdə *bu* və ***o*** işarə əvəzlikləri ilə ***-dur*** xəbər şəkilçisi və nida səciyyəli hissəciklərin birləşməsi ilə əmələ gələn işarə əvəzliklərinə də rast gəlirik; məs.: *odua:, budua:* (B., Ş.), *budŭrana, odŭrana,* budŭraneyna, oduraneyna (Qaz), bıd*ĭrana,bıdıxana, buduranni, odŭranni (*Nax.), *habıdağa, habıdırana* (Qax). ***Bu*** və ***o*** işarə əvəzlikləri ilə ***-dana, -dayna*** bağlayıcılarının calaqlanmasından əmələ gələn işarə əvəzliklərinin işlənməsini də görmək mümkündür; məs.: *butana, otana (*G.), *bıtana* (Nax.), *butiynama, otaynama, othamı, butahamı* (G.).

Ağdam rayonunun Qiyaslı, Xıdırlı kənd şivələlərində işarə əvəzliyinin *onək, bünək* şəklində maraqlı tipinə təsadüf edilmişdir; məs.: - *Onəyi* ver maŋa; - *Onək* nə adamdı ? " (M.Şirəliyev, 1967, s.188).

Sual Əvəzlikləri

Azərbaycan dilinin şivələrində işlənən sual əvəzlikləri həm fonetik, həm də leksik tərkibinə görə ədəbi dildən fərqlənir. M.İslamov yazır: "Dialekt və şivələrimizdə işlənən sual əvəzliklərinin sayı müasir ədəbi dilimizdəkinə nisbətən daha çoxdur. Dialektlərdə müşahidə olunan sual əvəzliklərinin bir çoxuna müasir dilimizdə, eləcə də dilimizin tarixinin əvvəlki dövrlərində rast gəlmirik. Digər tərəfdən dialektlərdəki sual əvəzliklərinin əksəriyyəti mürəkkəbdir" (M.İslamov, 1986, s. 112). Azərbaycan dili şivələrində aşağıdakı sual əvəzlikləri işlənir.

Kim. Bu sual əvəzliyi müsir dilimizdə olduğu kimi Azərbaycan dilinin əksər şivələrdə işlənir və ismi əvəz edir. Məhz buna görə **kim** sual əvəzliyi isim kimi hallanır və cəmlənir: ***kim, kimin, kimə, kimi, kimdə, kimdən; kimlər.*** . Məsələn: Bu heyvanı *kim* aparajax (Çəmbərək); Bə nəyiş görüm, hara gedim, *kimə* deyim? (Təbriz); İndi mən *kimdən* küsüm,- deyə Söyn dilləndi (Qazax); Sən şəhrdə *kimi* gördün (Gəncə) ; Bax, *kimlərə* deyim (Bakı).

Kim sual əvəzliyi *-lər* cəm şəkilçisi qəbul edib cəmlik bildirdiyi kimi, təkrarlanmaqla da cəmlik bildirir, yəni "reduplikasiya yolu ilə də cəmlik məzmunu ifadə edir " (M.İslamov, 1986, s. 114)". Məsələn: Öyə *kim-kim* getdi (Salyan); *Kim-kim* danışdı iclasda (Sabirabad); Axşam bizə *kim-kim* gəlicaxdı (Şəki) və s.

Çim. Şəki, Naxçıvan, Ordubad şivələrində *kim* sual əvəzliyinin variantı kimi **çim** sual əvəzliyi də işlənir və ismi əvəz edir. Bu əvəzlik ədəbi dildə işlənən kim sual əvəzliyinin dialekt variantıdır. İsmi əvəz etdiyi üçün isim kimi hallanır və cəmlənir: ***çim, çimin, çimə, çimi, çimdə, çimdən, çimlər.*** Məsələn: *Çimin* nəyi var, çıxardıf yığdux çardağa (Şəki); Məsəldi deyəllər: *çim* əkər, *çim* yeyər (Naxçıvan) və s. **Çim** sual əvəzliyi **kim** sual əvəzliyi kimi təkrarlanaraq cəmlik məzmunu ifadə edir. Məsələn: *Çim-çim* bilir mənim gəldiyimi (Naxçıvan); *Çim-çim* gedir Bakiyə (Şəki) və s.

Na, ne, nə. Bu sual əvəzliyi ismi əvəz edir və müasir Azərbaycan ədəbi dilində **nə** sual əvəzliyinin müxtəlif fonetik tərkibdə təzahür edən sual əvəzliyidir. Şivələrimizdə **nə** sual əvəzliyi Çəmbərək, Dərbənd, Gəncə, Qarabağ, Qazax, Qubadlı, Quba, Meğri, Təbriz, Şəki şivələrində, **na** fonetik formasında Şəki şivəsində işlənir.

Kim//çim sual əvəzliyində cəmliyin reduplikasiya yolu ilə ifadəsi **nə** sual əvəzliyində də müşahidə olunur. Məsələn: Şəərdən *nə-nə* almısan (Salyan); Hasan bazarda *nə-nə* satırdı (Şəki; M.Islamov, 1986, s.115).

Eyni zamanda Azərbaycan dili şivələrində *həncəri* (Çəmbərək, Şəki) "necə", *hayən* "hara", *ha*hansı", *nancan // nancə* "necə", *neşin // neşın* "niyə" (Şəki), *hancarı* "necə", *harya* (Çəmbərək, Naxçıvan) "haraya", *nəxətən* (Naxçıvan) "nə qədər", *nə ğədə* "nə qədər", *nətər* "necə" (Təbriz), *nəmənə* "nə", "necə" *(*Çəmbərək, Təbriz), *havax* (Çəmbərək, Təbriz, Şəki) "nə vaxt", *haçan (*Təbriz, Şəki), *hansı, hansi, hankisi (*Təbriz, Şəki), *necə, nə cür, harda, hardan, hara* (əksər şivələrdə), *nə:şə, ne:şə* "niyə", nöşün "niyə", *nöhün* "necə", nətə:r "necə", *ha:sı*^{i} "hansı", *nəblə//nəblənə* "nə qədər" (Muğan), *hansı*^{i}*, hankı "hansı"* (Quba), *haçan (*Quba, Şəki), *həncərü "necə", handa* "nə vaxt" *neyçü//neyçün//nüş // nüşün* "niyə, nə üçün", *haçağ* "haçan, nə vaxt" (Dərbənd), *nöş* "niyə, nə üçün" (Bakı, Dərbənd, Muğan), *nöşün* "niyə", *nə vax* "nə vaxt", *ha vax* "nə vaxt", *hana* "haraya" (Çəmbərək, Karvansaray, Meğri), *nəxərtən// na*^{ə}*xa*^{ə}*rta*^{ə} "nə qədər", *hanki//ha*^{ə}*nki// hənki* "hansı", *ho vax* "nə vaxt" *(*Meğri), *nağarda//nağarta//naxartana* "nə qədər" (Çəmbərək,Karvansaray), *nejə* "necə" (Çəmbərək, Qazax), *nema* "nə", *nəhəl* "hansı", *nara* "hara" (Qax), *namağa* (Zaqatala) "nə üçün, niyə", *nəmiyə (*Balakən) "nə", "necə", *nəŋ* "niyə", "nə üçün", "nəyə görə", *nə ğüzdü* "necə", "nə cür" (Gədəbəy), *hatana* (Qazax) "hanı", *nüşün//nişin//neyçün//nüyçü* (Dərbənd) "nə üçün", *haçağ (*Bakı,Quba, Şamaxı, Şəki, Qazax, Qarabağ) "haçan"<nə zaman, nə vaxt, *habırsı (*Bakı, Salyan) "hansı" və s. sual əvəzliklər işlənir.

Qeyd: Azərbaycan dili şivələrində ***hancarı // həncəri// hanjarı*** sual əvəzliyi XIV-XVI əsrlərdə *qancarı, xancaru* formalarında işlənmişdir. Məsələn:

Qancaru kim əzm qılsın sümmə vəhhüllahi gör
(İ.Nəsimi)
Xancaru gedirsən, ey xunxarə dilbər, *xancarı?*
(Ş.İ.Xətai)

Kim, nə, hara, nara "hara", *hası* "hansı", sual əvəzlikləri hallanarkən ismin halarında müxtəlif fonetik dəyişikliyə məruz qalır, isimləri əvəz etdiyi üşün isim kimi hallanır və sual əvəzliyinin müxtəlif dialekt variantları əmələ gəlir. Məsələn:

İsmin halları	**Muğan şivəsi**		**Zaqatala şivəsi**	**Qax şivəsi**
A.	nə	ha:sı^{i}	nə	nara
Yiy.	neyün	ha:sunun	nayın	aranın

Yön.	neyə	ha:sına	naya	nara
T.	neyi	ha:sıni	nayı[i]	naranı
Yer.	nedə	ha:sında	nayda	narada
Ç.	nedən	ha:sınnan	naydan	naradan

İsmin halları	**Bakı, Quba,Şamaxı,Qazax,Qarabağ, Gəncə,Naxçıvan, Zaqatala, Qax, Şəki şivələri**
A.	hara
Yiy.	haranın, haranun (Bakı, Quba, Şamaxı)
Yön.	harnı, haranı[i] (Şamaxı, Muğan,Şəki)
T.	harani (Bakı)
Yer.	harada//harda
Ç.	haradan//hardan

Qeyd: Nümunələr M.Şirəliyevin "Azərbaycan dialektologiyasının əsasları" kitabından götürülmüşdür (Bak, 1967, s.194).

Qayıdış Əvəzlikləri

Azərbaycan dili şivələrində işlənən qayıdış əvəzlikləri ədəbi dildə olduğu kimi *öz* (əksər şivələrdə), *üz* "öz" (Dərbənd, Quba) təyini əvəzliyinə mənsubiyyət şəkilçisi artırılmaqla əmələ gəlir. Məsələn: *özüm* (əksər şivələrdə), *özi, özŭmüz, özüüz, özdəri* (Bakı), *üzüm* "özüm", *üzün* "özün", *üzi* "özü", *üzĭmiz,* "özümüz", *üzŭmüz* "özümüz", *üzü:z* "özünüz", *üzdəri* "özləri" (Dərbənd, Quba), *özim* "özüm" (Meğri, Təbriz), *özü, bilüvə* < özünə, *biləniz* < özünüz (Təbriz), *özün, özü:z* "özünüz" (Bakı, Təbriz), *özimiz* "özümüz", *özin* "özün", *öziz* "özünüz", *özi* "özü", *özləri (*Meğri), *özüm, özüŋ* "özün", *özü, özümüz, özüŋüz* "özünüz", *özdəri* "özləri" (Çəmbərək, Qazax, Gəncə), *özcüyəzim* "özüm", *özcüyəzin* "özün", *kəndinə* < özünə (Çəmbərək, Qazax, Qax, Zaqatala), *kəndimə* < özümə, *kəndiŋə* < özünə, *kəndimizə* < özümüzə, *kəndiŋiz* < özünüz (Borçalı, Qazax), *men özi* "özüm", *menin özi* "özüm", *sen özi* "özün", *senin özi* "özün" (Qax), *özun//özuŋ* "özün", *özcağazım//öccağazım* "özümüz", *özcağazın // öccağazın* "özünüz", *kəndi* < özü (Şəki), *özüv* "özün" (Bakı, Dərbənd, Quba, Şamaxı), *özüy* "özü" (Lənkəran, Yardımlı), *özüq* "özün" (Gədəbəy), *özüğuz* "özünüz" (Cəbrayıl, Zəngilan) və s.

Göründüyü kimi, Azərbaycan dili şivələrində qayıdış əvəzliyi müxtəlif fonetik tərkiblərlə ədəbi dillə, əsasən bir eynilik təşkil edir. Bununla belə ədəbi dildən fərqli olaraq şivələrimizdə *bilə, kəndi* qayıdış əvəzliyi də işlənir.

"... M.Kazımbəy Kiçik Asiya və Azərbaycanda *belə* qayıdış əvəzliyinin işləndiyini göstərmişdir. *Bilə* sözü Cənubi Azərbaycanın Təbriz və Zəncan dialerktləri üçün daha səciyyəvidir. Həmin dialektlərdə bu söz bütün şəxslər üzrə mənsubiyyət şəkiulçisi qəbul edir; məs.

Şəxslər	**Tək**	**Cəm**
I	biləm	biləmiz

II	bilən	biləniz
III	biləsi	biləsi

(M.İslamov, 1986, s. 157).

Zaqatala-Qax şivəsində *öz-özümə, özüm-özümə* qayıdış əvəzliyinin qarşılığı kimi *men mağa, sen sağa* forması, Dərbənd şivəsində *mən mənin, mən mənə, mən məni, sən sənin, sən sənə, sən səni, biz bizin, biz bizə, biz bizə, biz bizi, siz sizin, siz sizə siz sizi,* qərb qrupu şivələrində *öz-kəndimə, öz-kəndiŋə, öz-kəndimizə, öz- kəndiŋizə* qayıdış əvəzliyi mənasında işlənir.

Qeyri-Müəyyən Əvəzliklər

Əvəzliyin məna növlərindən biri olan qeyri-müəyyən əvəzliklər digər əvəzliklərdən sonra yaranmışdır. Qeyri-müəyyən əvəzliklər sual əvəzliklərinə müəyyən şəkilçilərin artırılması yolu ilə, eyni zamanda əvəzlik olmayan sözlərdən, başqa əvəzliklərdən əmələ gəlmişdir. Azərbaycan dili şivələrində işlənən qeyri-müəyyən əvəzliklərə aşağıdakı fonetik formalarda rast gəlinir.

1.*Hər* sözünün iştirakı ilə əmələ gələn qeyri-müəyyən əvəzliklər: *hər şey, hər kəs, hər biri (*əksər şivələrdə), *hər kəsən* (Dərbənd, Qubqdlı), *hər kişi, hər adam, hər kim* (Dərbənd), *hər kəşdə, hərqazda (*Çəmbərək), *hər küşdə* (Çəmbərək, Qubadlı), *hər kişdə* (Qubadlı, Tovuz), *hər kişdi*. *Hərə* sözü ilə yanaşı, *hərə* sözünə III şəxsin təkinin mənsubiyyət şəkilçisi (-si) qəbul etməsi nəticəsində qeyri-müəyyən əvəzliklər əmələ gəlir: *hərə, hərəsi* (Dərbənd) və s.

2. *Kim* sual əvəzliyi qeyri-müəyyən əvəzlik (Dərbənd) vəzifəsində iştirak edir.

3. *Kim* sual əvəzliyinin *adam* isminə qoşulması nəticəsində əmələ gələn qeyri-müəyyən əvəzliklər: *kim adam* (Dərbənd) və s.

4. *Kim* sual əvəzliyinə "isə"-nin şəkilçiləşmiş forması kimi iştirak edən *-sə* və əmr formasını əmələ gətirən *-sənə* şəkilçisinin qoşulması yolu ilə əmələ gələn qeyri-müəyyən əvəzliklər: *kimsə, kimsənə (*Çəmbərək) və s.

5. *Biri* sözü ilə yanaşı, *biri* sözünə III şəxsin təkinin mənsubiyyət (-si), cəm (-lər) şəkilçisi qəbul etməsi nəticəsində əmələ gələn qeyri-müəyyən əvəzliklər: *biri, birisi, birilər* (əksər şivələrdə) və s.

6. Ədəbi dildə işlənən *hamı* qeyri-müəyyən əvəzliklə yanaşı, *hamı* sözü əsasında əmələ gələn qeyri-müəyyən əvəzliklər: *hammı* (Meğri, Naxçıvan), *ha^{o}mmı* (Meğri), *hamı, hamısı* (əksər şivələrdə) və s.

7. *Filan, filan* sözü ilə yanaşı, *filan* sözünə *kəs, şey, yer* sözünün birləşməsi nəticəsində əmələ gələn qeyri-müəyyən əvəzliklər: *filan, filan şey, filan kəs (*Dərbənd), *filan, filankəs* (Borçalı, Çəmbərək) və s.

8. *O* əvəzliyinin *kəsdə* sözünün birləşməsi nəticəsində əmələ gələn qeyri-müəyyən əvəzliklər: *o kəsdə* (Çəmbərək) və s.

11. Müasir Azərbaycan ədəbi dili üçün xarakterik olmayan qeyri-müəyyən əvəzliklər: *bicceyzi* < biri də, *kə:zi* bəzi, *gəh bir* < bəzi (Şəki) və s.

12. *Bir* sayının iştirakı əsasında əmələ gələn qeyri-müəyyən əvəzliklər: *bir adam, bir nəfər* (Təbriz), *bir para* (Çəmbərək, Təbriz) və s.

İnkar Əvəzlikləri

Azərbaycan dili şivələrində işlənən əvəzliyin mənaca növlərindən biri də inkar

əvəzliyidir. Şivələrimizlə bağlı aparılan tədqiqatlarda inkar əvəzliyindən əsasən ayrıca bəhs edilməmişdir. Şivələrdə inkar əvəzliyindən M.İslamovun "Türk dillərində əvəzliklər" (1986), R.Abbasovanın "Azərbaycan dilinin Qubadlı şivələri" (2006) əsərlərində bəhs edilmişdir.

Azərbaycan dili şivələrində işlənən inkar əvəzlikləri aşağıdakı yollarla yaranır:

1. İnkarlıq bildirən *heç//hiç//heş* ədatına *kim, nə, hara, hariyə, hayan, haçan, hanı, hansı, hası, hankı* sual əvəzliyinin qoşulması nəticəsində əmələ gələn inkar əvəzliyi: *heş kim, heş nə* (Bakı, Basarkeçər, Çəmbərək, Qazax, Qubadlı, Naxçıvan, Şəki), *hiç kim* (Quba), *heç hara* (Qubadlı, Oğuz), *heç hansı* (Daşkəsən), *heç hariyə, heç hayana, heç haçan, heç hanı (*Şəki).

2. İnkarlıq bildirən *heç//heş, heççə* ədatına *kəs //kes, kesən, kesdən, qəsi, şey, bir şey, zad, kişi, biri* sözlərinin qoşulması nəticəsində əmələ gələn inkar əvəzliyi: *heş kəs* (Quba), *heş kəsdən* (Çəmbərək, Karvansaray, Gədəbəy, Qazax), *heş kəsən, heş kesə, heş kişi, heççə kəs, heççə kəsin* (Şəki), *heç bir kəs* (Füzuli), *heş bir şey* (Çəmbərək, Cəbrayıl), *heççə qəsi* (Gədəbəy), *heş biri* (Bərdə, Çəmərək, Qazax, Zəngilan) və s.

3. *Bir* sayına *kəs //kes, kesə, kesənə, kimsə, kişi, insan, adam, şəxs, şey* sözlərinin qoşulması nəticəsində əmələ gələn inkar əvəzliyi: *bir kəs* (Tovuz), *bir kesə, bir insan, bir şəxs, bir kimsə* (Şəki), *bir şey (*Bakı), *bir kişi* (Bakı, Şəki), *bir kesən* (Quba), *bir adam* (Cəbrayıl.

4. *Kim* sual əvəzliyinin və *bir* miqdar sayının *-ceyi, -ciyi, - ceyzi, -ciyzi, -cəceyizi, -cəceyi* şəkilçisini qəbul etməsi nəticəsində əmələ gələn inkar əvəzliyi: *birceyiz, kimciyəz, kimcəceyiz* (Şəki), *birciyi* (Zəngilan) və s.

Kimcəceyiz, kimciyəz "heç kəs", *birceyiz, birciyi* "hrç biri " inkar əvəzliyinin mənasını ifadə (M.İslamov, 1986, s. 184).

FEIL

Feil əsas nitq hissəsi Azərbaycan dili şivələrində xüsusİ yer tutur və morfoloji xüsusiyyətləri ilə ədəbi dildən fərqlənir. Bu, feillərin quruluşunda, zamanlarında, təsriflənən və təsriflənməyən formalarında müşahidə edilir. Azərbaycan dili şivələrində feil fundamental şəkildə R.Rüstəmov tərəfindən araşdırılmış və "Azərbaycan dili dialekt və şivələrində feil: Feillərin quruluşu, zaman və şəxs kateqoriyaları, şəkilləri" (1964) mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1965 - ci ildə dissertasiyanı əks etdirən "Azərbaycan dili dialekt və şivələrində feil" monoqrafiyası çap edilmişdir.

Şivələrimizdə feillər, ədəbi dildə olduğu kimi, quruluşuna görə üç yerə bölünür: sadə feillər, düzəltmə feillər, mürəkkəb feillər.

Sadə Feillər

Azərbayacan dili şivələrində işlənən sadə feillər öz formalarına görə bir - birindən fərqlənir. Bu fərqlərə görə onları 3 yerə bölmək olar: yalnız şivələrdə işlənən sadə feillər, fonetik tərkibinə, qismən də mənasına görə ədəbi dildə işlənən feillərə oxşayan sadə feillər, fonetik tərkibinə görə ədəbi dildə işlənən feillərə oxşayan sadə feillər.

1.*Yalnız şivələrdə işlənən sadə feillər.* Bu feillərin bir hissəsini həm də ədəbi dilimiz üçün arxaik feillər adlandırmaq olar. Məsələn: *çımxırmax* (Çəmbərək)-üzünə qarşı qışqırmaq, *öləziməx′* (Çəmbərək, Qarakilsə, Salyan, Qazax, Tovuz) – zəifləmək, sönmək, *ölüşkəməy* (Cəlilabad)// *ölüşkəməx′* (Çəmbərək) - susuzluqdan solmaq, *ölüşüməx′* (Şəmkir) - qurumaq, xarab olmaq, *vağanımax* (Bərdə, Cəbrayıl, Daşkəsən, Gədəbəy, Kürdəmir, Mingəçevir, Şəmkir, Zəngilan) // *vağamnamax* (Şəki)// *vağnamax* (Oğuz)// *vəğənnəx′* (Şərur)-taxılın biçilmə vaxtı ötmək, yetişib ötmək, *yulmax* (Dərbənd) - çaxmaq (ildırıma aiddir), *çatmax* (Dərbənd) - yükləmək, *zıbımax* (Çəmbərək)-çıxmaq, *züyməx′* (Çəmbərək, Naxçıvan)-sürüşmək, *soğmax* (Borçalı, Çəmbərək, Qazax, Tovuz) - suyun hamısını içmək və s.

2.***Fonetik tərkibinə, qismən də mənasına görə ədəbi dildə işlənən feillərə oxşayan sadə feillər:*** *acışmax* (Şəki)-göynəmək, *çaçımax* (Gəncə)-çeçimək, *ço:max* (Şəki)-pozulmaq, qaydadan kənara çıxmaq, *seşmək* (Çəmbərək, Tovuz)-təmizləmək, *mısmax* (Naxçıvan)-pusmaq, güdmək, *yığmax* (Çəmbərək)- mal-qaranı toplayıb örüşə aparmaq, *cırmax* (Dərbənd)-parçalamaq, *təpməx′* (Dərbənd, Zəngibasar)-belləmək və s.

3.***Fonetik tərkibinə görə ədəbi dildə işlənən feillərə oxşayan sadə feillər:*** *açmax* (Şərur) –lavaş yaymaq, *çağırmax* (Yardımlı)- mahnı oxumaq, *qaldımax* (Çəmbərək)-uzatmaq, *yazmax* (Çəmbərək)-nişanlamaq, *axmax* (Salyan)- daşmaq, *doğmax* (Çəmbərək, Zaqatala)-yumurtalamaq, *əzməx′* (Çəmbərək, Şahbuz)- döymək, *yaxmax* (Şəki)-salmaq, *səkməx′* (Gəncə)-axsamaq, *yatmax* (Daşkəsən)- qurtarmaq, bitmək (müharibəyə aiddir), *yatmax* (Çəmbərək)- əyilmək, əzilmək (taxıl zəmisinə aid) və s.

Düzəltmə Feillər

Azərbaycan dili şivələrində düzəltmə feillər xüsusi yer tutur və müxtəlif nitq hissələrinə leksik şəkilçilərin qoşulması nəticəsində düzəltmə feillər əmələ gəlir. "Azərbaycan dili dialekt və şivələrində düzəltmə feillərin mənaları, əsasən onların əmələ gəldikləri kök-əsasın mənası ilə bağlı olur, daha çox ondan asılı olur. Düzəltmə feilin mənası onun əsasnı təşkil edən ismin və ya başqa nitq hissəsinin mənası ilə müəyyənləşdirilir. Düzəltmə feilin az və ya çox

mənalılığı onun əsasında duran adın (isim, sifət, say və sairəni) az və ya çox mənalılığı ilə şərtlənir" (R.Rüstəmov, 1965, s.41). Şivələrdə düzəltmə feil əmələ gətirən şəkilçilərin bir qismi ədəbi dildə işlənən şəkilçilərin dialekt variantlarıdır.

Azərbaycan dili şivələrində düzəltmə feillər üç yolla yaranır:

1. Adlardan düzələn feillər.

2.Feillərdən düzələn feillər.

3. Səs təqlidi sözlərdən düzələn feillər.

Adlardan düzələn feillər

Adlardan düzələn feillər aşağıdakı şəkilçilərlə əmələ gəlir.

1.*-ra, -rə.* İsim, sifət nitq hissələrinə qoşularaq düzəltmə feil əmələ gətirir. Ədəbi dildə işlənən -la,-lə şəkilçisinin variantı olmaqla həmin şəkilçinin funksiyasaını yerinə yetirir. Məsələn: *açarramağ* (Xaçmaz)- qıfıllamaq, *qaynarramax* (Qax, Şərur, Yardımlı)- paltar və ya qab-qacağı qaynar su ilə yumaq, *qaysarramax* (Zərdab)- tərləyəndən sonra soyuq dəymək, soyuqlamaq, *peşarrramax* (Qarakisə)- yığımdan sonra ağacda qalan meyvələri dərmək (Zəngilan şivəsində "yığımdan sonra ağacda qalan meyvə" mənasında işlənən *peşar* sözündən əmələ gəlib), *sulğarramax* (Şəmkir)- hündürləşmək, boyu uzanmaq (adama aiddir: Ağstafa, Balakən, Qazax, Şəmkirt şivələrində "uzun, uzundraz" mənasında işlənən *sulğar* sözündən əmələ gəlmişdir), *tağarramax* (Borçalı)-tağarla ölçmək (ölçü vahidi mənasında işlənən *tağar* sözündən əmələ gəlmişdir), *çilqirrə* (Quba) - çəngləmək (Quba şivəsində "cəng" mənasında işlənən çilqir sözündən əmələ gəlmişdir), *ağırramax* (Çəmbərək)-əzizləmək (Çəmbərək şivəsində "hörmətli", "özünə hörmət edən" mənasında işlənən *ağır* sifətindən əmələ gəlmişdir. Atalar sözündən **ağır** həmin mənada işlənib: *Ağır otur, batman gəl*), *amırra* (Cəbrayıl, Salyan)- bir şeyi acgözlüklə ələ keçirmək, qamarlamaq (Salyan şivəsində "acgöz"mənasında işlənən *amır* sifətindən əmələ gəlib)və s.

2.*-la, -lə.* Şivələrimizdə işlənən adlardan feil düzəldən məhsuldar şəkilçidir. Məsələn: *adaxlamax* (Daşkəsən, Füzuli) – ilk addım atmaq (Daşkəsən, Füzuliu şivəsində "ilk yeriş, ilk addım" mənasında işlənən *adax* ismindən əmələ gəlib), *cumbullamax* (Şəki)- qoma-qoma qoparmaq (Şəki şivəsində meyvəyə aid olan "qoma" mənasında işlənən *cumbul* ismindən əmələ gəlib), *çağalaxlamax* (Ağcabədi)- çəyirdəkləmək (Ağcabədi şivəsində "çəyirdək" mənasında işlənən *çağalax* ismindən əmələ gəlib), *cücələməx′* (Tərtər)- cücə çıxarmaq (Azərbaycan ədəbi dilində işlənən *cücə* sözündən əmələ gəlib), *cüjüx′ləməx′* (Goranboy)- tağda körpə, xırda xiyar əmələ gətirmək (Ağdaş, Gəncə, Goranbvoy, Qazax şivələrində "körpə xiyar" mənasında işlənən *cüjüx′* sözündən əmələ gəlib), *irtməx′ləməx′* (Çəmbərək,Qazax) – tutmaq, yaxalamaq (qərb qrupu şivələrində "qoyunun quyruğunun dib hissəsi", "qoyunun quyruğunun ucu" mənasında işlənən *irtməx′* sözündən əmələ gəlib), *əsrəgləməg* (İmişli)- qızmış dəvəyə buruntaq taxmaq (İmişli şivəsində "qızmış dəvənin ağzına vurulan buruntaq" mənasını bildirən *əsrəg* sözündən əmələ gəlib), *qırnıxlamax* (Çəmbərək) - bağlamaq (Çəmbərək şivəsində "ip" mənasında işlənən *qırnıx* sözündən əmələ gəlib), *qadağlamağ* (Dərbənd) - *mıxlamaq*, mıx vurmaq (Dərbənd şivəsində "mıx, xırda mismar" mənasında işlənən *qadağ* sözündən əmələ gəlib), *tapıllamax* (Borçalı, Çəmbərək, Qazax) - otu bir yerə toplamaq (qərb qrupu şivələrtində "kiçik ot tayası" mənasında işlənən *tapıl* sözündən əmələ gəlib), *zəvzəx′ləməx′* (Ağstafa, Basarkeçər, Çəmbərək, Qazax)- nalayiq danışmaq, mənasız, boş-boş, çox danışmaq (Ağstafa, Basarkeçər, Cəbrayıl, Çəmbərək,

Kəlbəcər, Qazax şivələrində “mənasız, boş-boş, çox danışan” mənasında işlənən *zəvzəx′* sifətindən əmələ gəlib), *yarıxlamax* (Cəbrayıl) – yarıq-yarıq etmək (Cəbrayıl şivəsində işlənən *yarıx* sifətindən əmələ gəlib), *silələməx′* (Cəbrayıl, Çəmbərək, Şəki)-ağızbaağız doldurmaq (Cəbrayıl, Çəmbərək, Şəki şivələrində “dolu”, “ağızbaağız” mənasında işlənən *silə* sifətdən əmələ gəlib) və s.

3.*-na, -nə*. Ədəbi dildə və şivələrdə işlənən -la, -lə şəkilçisinin variantıdır. Bu şəkilçi adlardan feil əmələ gətirir. Məsələn: *heşannamax* (Ağdam, Culfa, Şərur)- döymək məqsədilə dərzləri xırmana yaymaq (Cəbrayıl, Culfa şiələrində “döymək üçün xırmana yığılmış, səpələnmiş taxıl dərzlər” mənasında işlənən *heşan* sözündən əmələ gəlib), *xırxannamağ* (İmişli)- təzə əyrilmiş ipin çıxıntılarını xırxınla təmizləmək (İmişli şivəsində “təzə, ayrılmış ipin çıxıntılarını sıyırmaq, hamarlamaq üçün alət” mənasında işlənən *xırxın* sözündən əmələ gəlib), *çiləkənnəməx′*(Cəbrayıl, Qazax, Tovuz)- çör-çöp dolmaq (Çəbrayıl, Çəmbərək, Qazax, Tovuz, Oğuz, Zəngilan şivələrində “axar suyun qabağına yığılan çör-çöp ” mənasında işlənən *çiləkən* sözündən əmələ gəlib), *yelinnəməx′* (Culfa, Gəncə, Göygöl, İmişli, İrəvan) - doğum ərəfəsində yelini südlənmək (“məməli heyvanlarda süd yığılan orqan” mənasında işlənən *yelin* sözündən əmələ gəlib), *aydınnamax* (Cəbrayıl)- aydınlaşmaq, işıqlaşmaq (Cəbrayıl şivəsində “ışıq, aydın şəkildə görünən” mənasında işlənən *aydın* sifətindən əmələ gəlib), *düşgünnəməx′* (Naxçıvan) - zəifləmək, əldən düşmək, qocalmaq (Naxçıvan şivəsində “zəif, cansız” mənasında işlənən *düşgün* sifətindən əmələ gəlib) və s.

4.*-da, -də*. Ədəbi dildə və şivələrdə işlənən -la, -lə şəkilçisinin variantıdır və adlardan feil əmələ gətirir. Məsələn: *dalafdamax* (Şəmkir,Şuşa)- cütləşmə vaxtı çatmaq, cütləşmə həvəsinə düşmək (Çəmbərək, Qazax, Şəmkir, Şuşa şivələrində “cütləşmə həvəsi” mənasında işlənən *dalaf* sözündən əmələ gəlib), *dalamırtdamax (*Çəmbərək)- məhsul yığmaq, toplamaq (Şərur şivəsində “məhsul yığımı” mənasını bildirən *dalamırt* sözündən əmələ gəlib), *örüşdəməx′* (Tovuz)- malı örüşə buraxmaq (qərb qrupu şivələrində “çöl” mənasında işlənən *örüş* sözündən əmələ gəlib), *alazdamax* (Çəmbərək)- işi başdansovdu görmək (sözün kökünü “seyrək” mənasında işlənən *alaz* təşkil edir) və s. *Alaz* türk dilinin Ankara şivəsində “seyrək” mənasını bildirir (Ş.Kərimov, 2004, s.159) .

5.*-lan, -lən*. Şivələrimizdə işlənən məhsuldar şəkilçilərdən biridir və adlardan feil əmələ gətirir. Məsələn: *kümöyüllənmək* (Ağdaş, Mingəçevir)- qurdlamaq, kümöyül qurdu düşmək, *küvərlənmək* (Ağdaş, Göyçay)- avaralanmaq, *övlənmək* (Dərbənd) - ərə getmək (ev sözünün dialekt variantı olan *öv* ismindən əmələ gəlib), *baylanmaq* (Gəncə, Şəmkir) -ərköyün böyümək (Gəncə şivəsində “ərköyün”, “sərbəst” mənasında işlənən *bay* sifətindən əmələ gəlib), *quloyşalanmax* (Borçalı, Çəmbərək, Qazax)- yaltaqlanmaq, söz gəzdirmək (Borçalı, Çəmbərək, Qazax şiələrində “söz gəzdirən”, “yaltaq” mənasında işlənən *quloyşa* sifətindən əmələ gəlib), *dimrix′lənməx′*(Qazax, Tovuz) – iriləşmək, cana gəlmək, qüvvətlənmək (Qazax, Tovuz şivələrində “iri, zirək, diribaş” mənasında işlənən *dimrix′* sifətindən əmələ gəlib), *qırtmıxlanmax* (Cəbrayıl, Şuşa) – toplanmaq, üzünə tor gəlmək (qovuna aiddir; Cəbrayıl, Şuşa şivələrində “bir az, xırda” mənasında *qırtmıx* sifətindən əmələ gəlib) və s.

6. *-lam, -ləm*. Şivələrimizdə leksik şəkilçi kimi işlənən -lan, -lən şəkilçisinin variantıdır və adlardan feil əmələ gətirir. Məsələn: *eyməlməmməx′* (Cəbrayıl, Kürdəmir) - genişlənmək, genəlmək, *səmələmməx′*(Gəncə, Tovuz)- avaralanmaq, işsiz gəzmək (qərb qrupu şivələrində “avara, boş-bekar gəzən” mənasında işlənən *səmə* sözündən əmələ gəlib) və s.

7.*-dan, -dən*. Ədəbi dildə və şivələrimizdə leksik şəkilçi kimi işlənən -lan, -lən şəkilçisinin variantıdır və adlardan feil əmələ gətirir. Məsələn: *qurğazdanmaq* (Gədəbəy, Qazax, Tovuz) – qurumaq, azca qurumaq, üzdən qurumaq (Qədim türk dilində "qurumuş" mənası bildirən *kurğaz* sifətindən əmələ gəlib. Bax: B. Радлов, т.II, ч.1-2,1899? с. 941), *dambatdanmaq (*qərb qrupu şivələri) – lovğalanmaq (qərb qrupu şivələrində "lovğa", "özünü çəkən" mənasında işlənən *dambat* sifətindən əmələı gəlib), *kəkəşdənmək* (Cəbrayıl) – lovğalanmaq, özündən artıq dərəcədə razı olmaq (Cəbrayıl şivəsində "lovğa" mənasını bildirə *kəkəş* sifətindən əmələ gəlib)

8. ***-laş, -ləş.*** Məhsuldar şəkilçi olub adlardan feil əmələ gətirir. Məsələn: *gaplaşmax* (Borçalı)-söhbətyləşmək (qərb qrupu şivələrində "söhbət" mənasında işlənən *gap* ismindən əmələ gəlib), *xamalaşmax* (Xaçmaz) - qocalmaq (Xaçmaz şivəsində "qoca" mənasında işlənən *xama* ismindən əmələ gəlib), *pərgallaşmax* (Şəki)- gümrahlaşmaq (Şəki şivəsində "gümrah" mənasında işlənən *pərgal* sifətindən əmələ gəlib), *səmələşməg* (Şamaxı)- xərifləmək, ağlını itirmək (Şamaxı şivəsində işlənən *səmə* sifətindən əmələ gəlib), *yollaşmax* (Çəmbərək, Gədəbəy, Zəngilan)- razılaşmaq, razılığa gəlmək, *qağlaşmaq* (Quba) - keyləşmək, maymaqlaşmaq (Quba şivəsində "kery,maymaq" mənası bildirən *maymaq* sifətindən əmələ gəlib) və s.

9. ***-daş, -dəş.*** Ədəbi dilimizdə leksik şəkilçi kimi işlənən -laş, -ləş şəkilçisinin variantıdır və adlardan feil əmələ gətirir. Məsələn: *korşdaşmaq* (Göyçay) - kütləşmək, korşalmaq, kəsərdən düşmək (Göyçay şivəsində "küt" mənasında işlənən *korş* sifətindən əmələ gəlib), *beyitdəşmək* (Cəbrayıl, Şuşa) – deyişmək, mübahisə etmək (ədəbi dildə "şeir misrası " mənasında işlənən *beyt* ismindən əmələ gəlib), *pərtdəşmək* (Çəmbərək, Göyçay) - sözləşmək, araları dəymək, bir-biri ilə mübahisə nəticəsində incimək (Çəmbərək şivəsində "çıxılmaz vəziyyət" mənasında işlənən *pərt* ismindən əmələ gəlib) və s.

10. ***-a, -ə.*** Qeyri-məhsuldar şıkilçidir və adlardan feil düzəldir. Məsələn: *diləmək* (Dərbənd, Şəki)- istəyib nişanlamaq (*dil* ismindən əmələ gəlib), *tişəmək* (Çəmbərək)- yeni diş çıxartmaq (uşaqlarda yeni dişin çıxmasını bildirir; *diş* iismindən əmələ gəlib), *dişəmək* (Cəbrayıl, Gəncə) - süd dişlərini tökmək, diş çıxartmaq (*diş* iismindən əmələ gəlib), *gözəmək* (Cəbrayıl, Çəmbərək) - iri torbanın, xurcunun, çuvalın ağzını xüsusi formada tikmək, xurcun, çuval, torbanın ağızlarının kınarlarındakı gözlərə (ilməklərə) ip keçirtməklə sırımaq, tikmək ("ilmək" mənasında işlənən *göz* ismindən əmələ gəlib), *topamax* (Borçalı)- yığmaq, toplamaq (Borçalı şivəsində "qalaq, yığın" mənasında işlənən *top* ismindən əmələ gəlib) və s.

11.*-ı,-i,-u,-ü.* Qeyri-məhsuldar şəkilçidir və adlardan feil əmələ gətirir. Məsələn: *dadımax* (Ağdam)- dad vermək, xarab olmaq (Ağdam şivəsində "tam" mənasında işlənən *dad* ismindən əmələ gəlib), *örənimәx'* (Cəbrayıl, Qazax) –otsuzlaşmaq (Cəbrayıl şivəsində "otsuz yer, əkilməmiş yer", Qazax şivəsində "otarılmış qoruq yeri" mənalarında işlənən *örən // örənə* ismindən əmələ gəlib), *alızımax* (Cəbrayıl)- kefsizləşmək, qəmginləşmək (Cəbrayıl şivəsində "kefsiz, qəmgin" mənasında işlənın *alız* sifətindən əmələ gəlib), *vağanımax* (Daşkəsən, Qazax, Şuşa) - biçilmə vaxtı ötüb keçmək (Qazax şivəsində "biçilmə vaxtı keçmiş", "yetişib ötmüş" mənasında işlənən *vağan* ismindən əmələ gəlib) vəs.

12.*-ıx,-ix', -ux,-üx'.* Bu şəkilçi şivələrimizdə geniş şəkildə işlənmir və qeyri-məsuldar şəkilçi kimi adlardan feil əmələ gətirir. Məsələn: *qanıxmax* (Qazax) - qana susamış (ədəbi dildə işlənən *qan* ismindən əmələ gəlib), *otuxmax* (Cəbrayıl, Çəmbərək, Daşkəsən, Gədəbəy,

Qazax, Tovuz) – ot yeməyə başlamaq, ilk dəfə ot yeməyə başlamaq (ədəbi dildə işlənən *ot* ismindən əmələ gəlib), *üzüx'məx'* (Cəbrayıl, Çəmbərək, Qazax) - görsənmək, görünmək, yaxınlaşmaq (ədəbi dildə işlənən *üz* ismindən əmələ gəlib) və s .

13.*-sı,-si,-su,-sü.* Qeyri- məhsuldar şəkilçidir və adlardan feil düzəldir. Məsələn: *qaxsımax* (Qazax) - azca qurumaq, qax kimi qurumaq (ədəbi dilimizdə “qurudulmuş meyvə” mənasında işlənən *qax* ismindən əmələ gəlib), *qoxsumax* (Qazax) - iylənmək, qoxmaq (feildən düzələn və “iyi” mənası bildirən *qoxu* ismindən əmələ gəlib), *yelinsiməx'* (Çəmbərək, Qazax) – dolub şişmək, yelini böyümək, südlə yelini dolmaq (heyvanlara aiddir; *yelin* ismindən əmələ gəliub), *tamsımax* (Çəmbərək, Qazax) – tamına baxmaq, dadını öyrənmək (əksər şivələrdə işlənən dad sözünün sinonimi kimi iştirak edən *tam* ismindən əmələ gəliub), *quraxsımax* (Qazax) – susuzluqdan qurumaq, quruyub tökülmək (ədəbi dildə işlənən *quru* sifətindən əmələ gəlib), *çiysiməx'* (Qazax)- çiy kimi olmaq (ədəbi dildə işlənən “bişməmiş” mənası bildirən *çiy* sifətindən əmələ gəlib) və s.

14.*-ar, -ər.* Qeyri - məhsuldar şəkilçidir və çox az miqdarda sözlər əmələ gətirir. Məsələn: *dişərmax* (Şəki), *dişərməg* (Kürdəmir, Qafan, Sabirabad, Salyan, Şərur) – cücərmək, göyərmək (Kürdəmir, Meğri, Salyan şivələrində “cücərti” mənasında işlənən *dişə* sözündən əmələ gəlib) və s.

Feillərdən düzələn feillər

A zərbaycan dili şivələrində feillərdən düzələn feillər aşağıdakı şəkilçilər vasitəsilə əmələ gəlir.

1.*-la, -lə (-da,-də).* Şivələrimizdə işlənən düzəltmə feillərin bir hissəsi -la, -lə şəkiçisinin iştirakı ilə düzəlmişdir. Feil düzəldən bu şəkilçi ilə bağlı R.Rüstəmov yazır: “Azərbaycan dili dialekt və şivələrində feildən -la, -lə şəkilçisinin əlavəsi ilə əmələ gələn düzəltmə feillərin bir qismində həmin şəkilçi intensivlik, təkrarlılıq mənasını saxlamışsa, başqa bir qismində bu mənalar ya zəif şəkildə mühafizə edilmiş, ya da itmişdir” (R.Rüstəmov, 1965, s. 76). Məsələn: *atlamax* (Tovuz, Borçalı)- çalmaq (yumurtaya aid), çalxalamaq (Borçalı, Tovuz şivələrində işlənən *at* feilindən düzəlib), *atalamaq* (Dərbənd) – çalxalamaq (nəhrəyə aid), *atalamaq* (Dərbənd) – çalmaq (yumurtaya aid ; hər iki mənada işlənən *atalamaq* sözünün kökünü “çalmaq, çalxalamq” mənası bildirən ata (atmaq) feili təşkil edir), *teyləmək* (Çəmbərək)- qovmaq (heyvana aiddir; “qovmaq” mənası bildirən *tey* feilindən əmələ gəlib), *böltələ (*Qazax)- iri parçalara ayıraraq bölmək (Qazax şivəsində “bölmək” mənasında işlənən *böltə* feilindən düzəlib), *arıtda* (Gəncə, Şamax) //əritdə (Bakı, Quba) - təmizləmək (arıt//ərit feilindən düzəlib), *çözdəmək (*Borçalı, Çəmbərək, Kəlbəcər, Göygöl) - açmaq (Borçalı, Çəmbərək, Kəlbəcər, Göygöl şivələrində “açmaq" mənasında işlənın *çözmək* feilindən əmələ gəlib) və s.

2.*-ı,-i,u,-ü.* Qeyri-məhsuldar şəkilçidir və feildən feil əmələ gətirir. Məsələn: *yanımax* (Göygöl) - halına yanmaq, halına acımaq (yan feilindən əmələ gəlib), *tezimək* (Muğan)- qaçmaq, sürətlə qaçmaq, tez aradan çıxaraq qaçmaq (Muğan şivəsindfə “qaçmaq” mənasında işlənəın tezmək//təzmək feilindən əmılı gəlib) və s.

3.*-ıx,-ix', -ux,-üx'.* Bu şəkilçi feildən feil əmələ gətirir “feilin kök-əsasına intesivlik və ya təkrarlılıq mənası verir” (R.Rüstəmov, 1965, s. 110). Məsələn: *dabrıxmax* (Sabirabad) – sürətlə qaçmaq (Sabirabad şivəsində “qaçmaq, yüyürmək” mənasında işlənən *dabrı* feilindən

əmələ gəlib), *dızıxmax* (Bakı, Füzuli, Şamaxı) –qaçmaq (*daz>dız* feilindən düzəlmişdir. R.Rüstəmov, 1965, s. 111), *yazıxmax* (Cəbrayıl, Tovuz, Zərdab) - azmaq, çaşmaq, əvvəlki yerindən yayınmaq, yolunu azmaq ("azmaq, çaşmaq" mənasında işlənən *yaz* feilindən əmələ gəlib), *sürüx'məx'* (Çəmbərək, Borçalı) - rədd olub getmək ("qovmaq" mənasında işlənən *sür* feilindən əmələ gəlib) və s.

Səs təqlidi sözlərdən düzələn feillər

Azərbaycan dili şivələrində düzəltmə feillərin bir hissəsi səs təqlidi sözlərdən əmələ gəlir. Səs təqlidi sözlərin əmələ gəlməsində aşağıdakı şəkilçilər iştirak edir.

1.*-la,-lə.* *düdüləməx'* (Quba,Şuşa)- səsləmək (*dü-dü* səs təqlidi sözdən əmələ gəlib), *züləməx'* (Daşkəsən)- səs çıxararaq qaçmaq (*zü* səs təqlidi sözdən əmələ gəlib), *haylamax* (Çəmbərək, Gədəbəy) - sürmək, aparmaq, yerindən tərpədərək aparmaq (heyvana aiddir, səs çıxartmaq mənasında *hay* səs təqlidi sözdən əmələ gəlib), *koşlamax* (Naxçıvan)- qovmaq (*koş<kiş* səs təqlidi sözdən əmələ gəlib) və s.

2. *-sı,-si,-su,-sü.* *həfsiməx'* (Cəbrayıl, Çəmbərək) – düyü, taxıl, buğda və sairəni üfürərək təmizləmək (*həf* səs təqlidi sözdən əmələ gəlib), *höysüməx'* (Qazax)- düyü, taxıl, buğda və sairəni üfürərək təmizləmək (*höy* səs təqlidi sözdən əmələ gəlib) və s.

Mürəkkəb Feillər

Azərbaycan dili şivələrində mürəkkəb feillər köməkçi feillərin iştirakı əsasında əmələ gəlir. Şivələrimizdəki mürəkkəb feilləri əmələ gəlmə yollarına görə aşağıdakı qruplara bölmək olar:

1.Adlarla köməkçi feillərin iştirakı əsasında əmələ gələn mürəkkəb feillər;

2.Hər iki komponenti feillərin iştirakı əsasında əmələ gələn mürəkkəb feillər.

Adlarla köməkçi feillərin iştirakı əsasında əmələ gələn mürəkkəb feillər

Şivələrimizdə **eləmək, olmaq, qılmaq** köməkçi feillər adlara qoşularaq mürəkkəb feillər əmələ gəlir.

Eləmək köməkçi feili ilə: *adax-çeçəx' eləməx'* (Gədəbəy) –ilk addım atmaq, *danaboynu eləmək* (Füzuli)- birisinin boynunu güclə əymək, *çəlçö:ür eləməx' (*Basarkeçər) – ölçüb-biçmək, *çənə-bazar eləməx'* (Qazax) – mübahisə etmək, *dalamurd elemeg* (Yardımlı) – korlamaq, zay eləmək, *əgirdəgiş eləməg* (Lerik, Yardımlı) - dəyişmək, *öc eləməg* (Salyan) – artmaq, yayılmaq, yenidən baş qaldırmaq, açılmaq (yaraya aid) və s.

Olmaq köməkçi feili ilə: *cımız olmağ* (İmişli) - ciftləşmək (dəvəyə aiddir), *aval olmax* (Qazax) -əngəl olmaq, çətinlik törətmək, *qalış olmax* (Şahbuz) – məskən salmaq, ev - eşik qurmaq, *alabaydax olmax* (Çəmbərək) – biabır olmaq, *bay olmax* (Qazax) – xoşbəxt olmaq, *qaroy olmax* (Çəmbərək, Tovuz) – kor olmaq, *toxdax olmax* (Çəmbərək) – təmkinli olmaq.

Qılmaq köməkçi feili ilə: *təhər qılmax* (Cəbrayıl) –çarə etmək, *hörmət qılmax* (İsmayıllı) - hörmət etmək, ehtiram göstərmək və s.

Müstəqil leksik mənasını itirərək köməkçi feil funksiysı kəsb etmiş feillər əsasınada mürəkkəb feillər əmələ gəlir.

Açmax feili ilə: *adax-çiçəx açmax* (Füzuli) -ilk addım atmaq və s.

Atmax feili ilə: *dan atmax* (Qazax) – səhərə qədər oyaq qalmaq, yatmamaq, *cil atmax* (İrəvan, Şərur) - kök atmaq (çayıra aiddir), *şüşə atmax* (Füzuli) – döyülmüş taxılı kürəklə sovurmaq, təmizləmək və s.

Kəsmək feili ilə: *cırım – cırım kəsmək* (Bərdə) - əti dilim-dilim kəsmək və s.

Vurmaq feili ilə: *ciy vurmax* (Qazax)- dimdiyi ilə yumuttanı deşib çıxmaq, *daramıt vurmax* (Füzuli) - sığal vermək, *bulula vurmax* (Borçalı) – kiçik ot taysı düzəltmək, *dəl vırmeg* (Bakı) - gəzmək, boş-boş gəzmək, *tığ vurmax* (Çəmbərək, Borçalı) - bir şeyi (taxılı) toplamaq, yığmaq, *pəl vurmax* (Borçalı, Cəbrayıl) – mane olmaq, müəyyən bir işin düzəlməsinə mane olmaq, *çənə vurmax (*Çəmbərək) – boş-boşuna danışmaq, *xəreg vurmağ* (Quba) – qalamaq, yığmaq və s.

Oturmaq feili ilə: *cömüşüy oturmax* (Hamamlı) – çömbələrək oturmaq və s.

Qalmaq feili: *cöngələ qalmax* (Göyçay) – qıyılmaq (gözə aiddir), *xapan qalmax* (Zəngibasar) - ac qalmaq, *xəkaz qalmax* (Cəbrayıl) – həsrət qalmaq, *dəvikə qalmax* (Cəbrayıl) – təəccüb etmək, *söyxuya qalmax* (Çəmbərək) - sahibsiz qalmaq (paltara aid) və s.

Salmaq feili ilə: *cula salmax* (Başkeçid, Borçalı) - əlavə toxum səpmək, *çəlçö:rə salmax* (Basarkeçər) – get-gələ salmaq, süründürmək və s.

Çalmaq feili ilə: *çapış çalmax* (Bərdə) - əl çalmaq, *fındəğa çalmağ* (Şərur) – çırtıq çalmaq, barmaqları bir-birinə sürtməklə səs çıxartmaq və s.

Salmaq feili ilə: *şinax salmaq* (Şəki) – diqqətlə baxmaq, *sullah salmax* (Cəbrayıl) – fikir vermək, nəzər yetirmək, *pot-potu salmax (*Çəmbərək, Tovuz) – ara qatmaq, dava-dalaş salmaq və s.

Almaq **f**eili: *çimir almaq* (Borçalı, Çəmbərək, Qazax, Tovuz) – yuxuya getmək, azca yatmaq, *daban almax* (Cəbrayıl,, Füzuli) – qaçmaq, aradan çıxmaq və s.

Çəkmək feili ilə: *çim çəkməx'* (Cəbrayıl) – xalça, gəbə üçün ip əyirmək, *qavax çəx'məx'* (Borçalı) – qoyun sürüsünün qabağında gedib sürünü arxasınca aparmaq, *horabel çəx'məx'* (Borçalı) – sürümək və s.

Göstərmək feili ilə: *əlqıcığ göstərməx'* (Culfa) – güc göstərmək və s.

Gəlmək feili ilə: *əmraziya gəlmək* (Bakı) – boya-başa çatmaq, *hərbə-həmadan gəlmək* (Şamaxı) – hədə-qorxu gəlmək, *tırpan gəlmək* (Zəngibasar) – talan etmək, talamaq, qarət etmək, *vecə gəlmeg* (Bakı) – lazım olmaq, *hö:rə gəlməx'* (Çəmbərək)// *hö:rə gəlmax* (Şəki)- buğaya gəlmək, *peş gəlməx'* (Cəbrayıl, Çəmbərək) – bağışlamaq, müəyyən bir şeyi təklif etmək, *tuş gəlməx'* (Cəbrayıl, Çəmbərək, Naxçıvan) – rastlaşmaq, rast gəlmək, *hol gəlməx'* (Zəngibasar) – yormaq və s.

Düşmək feili ilə: *öc düşməx'* (Kürdəmir, Qax, Şəki) – bir - biri ilə düz gəlməmək, bir – birinin ziddinə olmaq, *öd düşməx' (*Şərur) – incitmək, arası dəymək, *ö:üc düşmək* (Kürdəmir) - bir - biri ilə düz gəlməmək, *saf düşməx'* (Yardımlı) - arxayın olmaq və s.

Sallamaq feili ilə: *mısmırığını sallamax* (Çəmbərək) – küsmək, incimək

Getmək feili ilə: *zülü getməx' (*Şahbuz) - əldən düşmək, *kəf getmeg* (Bakı) – hiylə

işlədib aldatmaq, *güdaza getməx' (*Çəmbərək) – heç bir səbəb olmadan cəzalandırılmaq və s.

Vermək feili ilə: *dişə verməg* (Salyan) – cücərmək (taxıla aiddir), *qıjıt verməx' (*Çəmbərək, Borçalı, Qazax, Tovuz) – acıq vermək, *dalay verməy* (Şamaxı) – tovlamaq, tovlayıb aldatmaq, azdırmaq, *yanıx verməx' (*Çəmbərək, Borçalı, Qazax, Tovuz) - acıqlandırmaq, acıq vermək, *salıx verməx' (*Çəmbərək, Borçalı) – işarə vermək, müəyyən bir yer haqqında məlumat vermək və s.

Qoymaq feili ilə: *qaba qoymağ* (Bakı) – nəzərə almaq, *əmmizə qoymağ* (Quba) – topa-topa yığmaq, *qabıx qoymağ* (Çəmbərək, Şuşa) – çox işləmək, *qara qoymağ* (Salyan) – qonaqlıq etmək, *mıla qoymax* (Cəbrayıl) – bəhanə yeri qoymaq və s.

Çıxmaq feili ilə: *ayı çıxmax* (Cəbrayıl) – vəziyyəti çox ağır olmaq, işi işdən keçmək, *qırxı çıxmax* (Çəmbərək) – 1) uşağın anadan olmasından 40 gün keçmək; 2) vəfat etmiş adamın 40 günü tamam olmaq, *ayax üsdə qırxı çıxmax* (Çəmbərək) – arıqlamaq, *süngi çıxmağ* (Bakı) – yoxsullaşmaq, müflisləşmək, *cara çıxmax* (Borçalı) – boşa çıxmaq, *qahmar çıxmax (*Borçalı) - tərəfini saxlamaq və s.

Hər İki Komponenti Feillərin İştirakı Əsasında Əmələ Gələn Mürəkkəb Feillər

Azərbaycan dili şivələrində işlənən mürəkkəb feillərin bir hissəsi iki feilin birləşməsisindən əmələı gələnlər təşkil edir. Şivələrimizdə işlənən hər iki tərəfi feildən ibarət olan mürəkkəb feilləri aşağıdakı yollarla əmələ gəlir.

1.Birinci tərəfi *-ıb,-ib,-ub,-üb* şəkilçili feili bağlama, ikinci tərəfi *oturmaq, qalmaq, durmaq, gəlmək, getmək, çıxmaq* və başqa feillərdən əmələ gələn mürəkkəb feillər: *alıv oturmax* (Şəki) – özünə arvad etmək, *buyuxuv qalmax* (Bakı) - soyuqdan büzüşüb hərəkətsiz halda oturmaq, *buyuxuv qalmax* (Çəmbərək)- təəccübdən donub qalmaq, *mısıv durmax* (Kürdəmir) – küskün halda dayanıb durmaq, *qoyub gəlməx' (*Qazax)//*qoyub gəlmək (*Naxçıvan, Təbriz) – gəlmək

2. Birinci tərəfi -ıban, *-ibən, -uban, -übən, - ıbanı^{i}, -ibəni, -ubanı^{i}, -übəni, -ıbannarı^{i}, -ibənnəri, -ubannarı^{i}, -übənnəri* şəkilçili feili bağlama, ikinci tərəfi *atmaq, gəlmək, getmək* və başqa feillərdən əmələ gələn mürəkkəb feillər (R.Rüstəmov, 1965, 153) : *aluban gəlmağ* (Quba) – gətirmək, *duruban getmək* (Şamaxı) – getmək, *vurubannarı^{i} atmağ* (Quba) - atmaq və s.

3.Birinci tərəfi *-a,-ə (-ya,-yə)* şəkilçili feili bağlama, ikinci tərəfi *oturmaq, qalmaq, durmaq* və başqa feillərdən əmələ gələn mürəkkəb feillər: *baxa durmağ* (Qax, Quba, Zəngilan) – gözünü bir nöqtəyə zilləyib baxmaq, *qaynıya durmax* (Zəngilan) – qaynamaq (samovara aid), *yiyə durmaq* (Qax) – yemək, yeməyə davam etmək, *yiyə durmax* (Çəmbərək)- sahib olmaq, bir şeyə yiyələnmək, *gəzdirə durmağ* (Quba) – gəzdirmək, gəzdirməkdə davam etmək və s.

Feilin Şəkilləri

Azərbaycan dili şivələrində feilin aşağıdakı şəkilləri müşahidə olunur:

1.Feilin əmr şəkli.

2.Feilin xəbər şəkli.

3.Feilin arzu şəkli.

4.Feilin lazım şəkli.

5.Feilin şərt şəkli.

Feilin Əmr Şəkli

Azərbaycan dili şivələrində feilin əmr şəklinin ədəbi dildə olduğu kimi xüsusi şəkilçisi yoxdur və əmr şəkli şəxs şəkiçisi ilə düzəlir. Əmr şəkli xahiş, məsləhət, nəsihət, tələb, təkid, göstəriş, xəbərdarlıq mənasını ifadə edir. Azərbaycan dili şivələırində feilin əmr şəkli, şəxslər üzrə, aşağıdakı şəkilçilərlə əmələ gəlir.

Birinci şəxsin təki. Feilin əmr şəklinin birinci şəxsin təkində sözün sonu samitlə bitəndə *dörd* variantlı, *üç* variantlı, *iki* variantlı, saitlə bitəndə *dörd* variantlı, *üç* variantlı, *iki* variantlı və bir variantlı şəkilçi - şəxs şəkilçisini qəbul edir. Ağdaş, Çəmbərək, Dərbənd, Karvansaray, Gəncə, Göyçay, Quba, Qubadlı, Naxçıvan, Şahbuz, Şəki, keçid şivələrində sözün sonu samitlə bitəndə *dörd* variantlı *-ım, -im, -um, -üm* şəkilçisini qəbul edərək əmr şəklini əmələ gətirir. Məsələn: *alım, yazım, qurum, gəlim, tutum, görüm* (Ağdaş, Çəmbərək, Dərbənd, Karvansaray, Gəncə, Göyçay, Quba, Qubadlı, Naxçıvan, Şahbuz, Şəki), *yazım, gidim "gedim", vurum, tüküm "töküm"* (Quba) və s. Qədim dövr dilimizdə də feilin əmr şəkli I şəxsin təkində *-ım, -im, -um, -üm* şəkilçisi əsasında düzəlmişdir. Məsələn:

Qulaq dutgil sənə **edim hekayət.**
(Nəsimi)
Sən bir dəm otur bu bağ içində,
Mən **varım** ol nigar qatinə.
(Xətai)
Çox **müştaqam** aç üzünü qoy **baxım**.
(Vaqif)
(M.Rəhimov, 1965, s.8).

Borçalı, Qazax, Tovuz, Şəmkir şivələrində sözün sonu samitlə bitəndə *üç* variantlı *- em, - om, -öm,* Çəmbərək, Karvansaray şivələrində *-e:m, - o:m, -ö:m* şəkilçini qəbul edərək əmr şəklini əmələ gətirir. Məsələn: *baxem* "baxım", *gedem* "gedim", *vurom* "burum", *göröm* "görüm", *tüşöm* "düşüm" (Borçalı, Qazax, Tovuz, Şəmkir), *ale:m* "alım", *gəle:m* "gəlim", *duro:m* "durum", *görö:m* "görüm" (Çəmbərək, Karvansaray) və s. Sözün sonu samitlə bitəndə Bakı, Təbriz şivələrində *iki* variantlı *- ım, - im* şəkilçisini qəbul edərək əmr şəkli əmələ gətirir. Məsələn: *alım, bilim, vırım* "vurum", *gülim* "gülüm" (Bakı), *dolanım, kəsim, qurım* "qurum", *bükim* "büküm", *görim* "görüm" (Təbriz) və s. Sözün sonu samitlə bitəndə Bakı şivəsində həm də *bir* variantlı *-i:m* şəkilçisini qəbul edərək əmr şəklini əmələ gətirir. Məsələn: *qo:lı:m* "qolum", *i:ni:m* "enim" (Bakı) və s.

Sözün sonu saitlə bitəndə əmr şəkli Qazax, Tovuz şivələrində *-yem, - yom, - yum, -yöm,* Çəmbərək, Karvansaray, Qubadlı, Naxçıvan, Ordubad şivələrində *-yım, -yim, -yum, -yüm* dörd variantlı şəkilçisini qəbul edir. Keçid şivələrində əmr şəklində feilin sonu saitlə bitən sözlərdə əksər hallarda son sait uzun tələffüz olunur. Məsələn: *aynıyem* "oynayım", *toxuyom* "toxuyum", *kürüyöm* "kürüyüm", *suloyum* "sulayım" (Qazax,Tovuz), *sarıyım, diyim, qoruyum, sürüyüm, başdıyım* "başlayım", *işdiyim* "işləyim" (Çəmbərək, Qubadlı), *oxıyım* "oxuyum", *işliyim* "işləyim", *dorğuyum* "doğrayım", *gözdüyüm* "gözləyim" (Naxçıvan, Ordubad), *başdi:m* "başlayım", *işdi:m* "işləyim" (keçid şivələri) və s.

Sözün sonu saitlə bitəndə Qərbi Azərbaycanın Karvansarayın ayrım şivəsində *üç* variantlı *- yem, - yom, -yöm* şəkilçisini qəbul edərək əmr şəkli əmələ gətirir. Məsələn: *qaşıxlıyem* "qaşıqlayım", *oxuyom* "oxuyum", *kürüyöm* "kürüyüm" (Karvansaray) və s.

Sözün sonu saitlə bitəndə əmr şəkli Bakı, Dərbənd, Quba, İsmayıllı, Şəki şivələrində *bir* variantlı *-yim,* Təbriz şivəsində *bir* variantlı *-yım* şəkilçisini qəbul edir. Məsələn: başdiyim “başlayım”, oxiyim “oxuyum”, süriyim “sürüyüm”, yiyim “yeyim” (Quba), bağlıyım (Təbriz) və s.

Azərbaycan dilinin qədim dövrlərində I şəxsin təki *-ım, -im, -um,-üm* şəkilçisi ilə ynaşı (Dirsə xan : “Varıŋ, götürüŋ, öldürəyim!”-dedi), *-ayın, -əyin* şəkilçisi ilə ifadə olunmuşdur. Bunu “Kitabi-Dədə Qorqud” dastanından gətirilən nümunələrdə aydın görmək olar. Məsələn: Mən bu oğlanı **alayın**, ava **gedəyin** (KDQ, 1988, s.69).

Birinci şəxsin cəmi. Azərbaycan dili şivələrində feilin əmr şəkli birinci şəxsin cəmində müxtəlif şəxs şəkilçiləri qəbul edir və birinci şəxsin cəmində dilimizin müxtəlif tarixi dövrlərində işlənmiş şəxs şəkilçilərinə də təsadüf edilir. Əmr şəkli birinci şəxsin cəmində sözün sonu samitlə bitəndə Bakı şivəsində *-ağ, -eg, -eyün,- egün, -egüz,* Quba şivəsində *-ağ, -ax, -ağun*, Şamaxı, Muğan şivələrində *-ağ, - ax, - əg,-ək,* qərb qrupu şivələrində, Ordubad şivəsində *-ax, -əx′,* keçid şivələırində *-ağ, - ax, -ək, -əx′,* Təbriz, Lənkəran şivələrində *-ax,* Qax, Zaqatala şivələrində *-ax,-əx,-ək* şəkilçilərini, eyni zamanda Şamaxı şivəsində *-ağun, -əgün,-əyün,* Muğan şivəsində *-ağun, -əgün,-egün, -ağuz,-egüz,* Cəbrayıl, İrəvan şivələrində *-ağın, -əyin,* Sabirabad şivəsində *-ağuz, -əgün, -əgüz,* Dərbənd şivəsində *-eg, - əg* şəkilçilərini qəbul edir. Məsələn: *aleg* “alaq”, *yoleg* “yolaq”, *baxağ // baxeg* “baxaq”, *gəleg* “gələk”, *gedeg* “gedək”, *alegün* “alaq”, *yolegün* “yolaq”, *gedeyün* “gedək”, *alegün* “alaq”, *qolıyegüz* “qovaq” (Bakı), *yazaq //yazax, vurağun* “vuraq”, *tükax//tükağ* “tökək”, *baxağun* “baxaq”, (Quba), *gedax* “gedək”, *yiyax* “yeyək”, *dolanax* “dolanaq”< gəzək (Təbriz), *görax* “görək” (Lənkəran), *güləx* “gülək”, *sevək* (Qax, Zaqatala), *yonağ* “yonaq”, *dönəg* “dönək”, *gedəgün* “gedək” (Şamaxı), *tutax* “tutaq” (Borçalı, Çəmbərək, Qarabağ, Qazax, Gəncə, Naxçıvan, Şamaxı, Şəmkir), *durax* “duraq” < qalxmaq, gedəx′ “gedək”, sürəx′ “sürək” (Borçalı, Çəmbərək, Qarabağ, Qazax, Gəncə, Naxçıvan, Şəmkir), *atağun* “ataq”, *gedəyün* “gedək” (Şamaxı), *gələgün* “gələk”, *gələgüz* “gələk” (Salyan), *qaçağuz* “qaçaq”, *biləgün* “bilək”, *biləgüz* “bilək” (Sabirabad), *baxağın* “baxaq”, *gələyin* “gələk” (İrəvan), *süreg* “sürək”, *aleg* “alaq”, *dureg* “duraq”, *göreg* “görək” (Dərbənd), *vərək* “verək”, *alax* “alaq”, *vırax* “vuraq”, *biçəx′*“biçək” (Göyçay) və s.

Söz saitlə bitəndə əmr şəkli birinci şəxsin cəmində Bakı şivəsində *-yağ, -yeg,* Salyan şivəsində *-yəg,-yək,* Təbriz, Şəki şivələrində *-yax,* Naxçıvan şivəsində *-yək,* Basarkeçər, Borçalı, Cəbrayıl, Çəmbərək, Qarabağ, Qazax, Gəncə, Naxçıvan, Tovuz, Şəmkir şivələrində *-yax, -yəx′,* keçid şivələrində *-yax,-yağ, yək,-yəg -yəx′,* Dərbənd şivəsində *-yeg, - yəg* şəkilçilərini qəbul edir. Məsələın: bağlıyax “bağlayaq” (Təbriz), doğruyax “doğrayaq”, oxıyax “oxuyaq”, işliyəx′ “işləyək”, gözdüyək “gözləyək” başlıyax “başlayaq” kürüyəx′ “kürüyək” (Basarkeçər, Borçalı, Cəbrayıl, Çəmbərək, Qarabağ, Qazax, Gəncə, Naxçıvan, Tovuz, Şəmkir), işleyeg “işləyək”, oxuyeg “oxuyaq”, diyəg “deyək” (Dərbənd), saxliyax “saxlayaq”, dənniyax “dənləyək”, sürüyax “sürüyək” (Şəki), işdiyək “işləyək”, deyək (Göyçay) və s.

İkinci şəxsin təki. Azərbaycan dili şivələrində feilin əmr şəklinin ikinci şəxsin təki iki formada əmələ gəlir: ədəbi dildə olduğu kimi heç bir şəkilçi qəbul etmədən və müxtəlif şəkilçi qəbul edərək. Feilin əmr şəkli II şəxsin təki Bakı, Dərbənd, Şəki şivələrində həm şəkilçisiz, həm də *-ginən,* Şəki şivəsində *-nan, -nən*, Şamaxı şivəsində *-ğınan,-ğinən, -ginən,-gilən,-ğinən,* Quba şivəsində həm şəkilçisiz, həm də *-ginən, -gilən* şəkilçisi ilə, Muğan qrupu şivələrində həm şəkilçisiz, həm də *-qınan, -ginən* şəkilçisi ilə, Naxçıvan qrupu şivələrində

həm şəkilçisiz, həm də *-gınan,-qunan, -gunan, -ginan, -ginən, -ynan, -yinən* şəkilçisi ilə, Qubadlı şivəsində həm şəkilçisiz, həm də *-nan, -nən, -gınan, -ginən, -gunan, -günən* Qazax, Tovuz, Qərbi Azərbaycanın Çəmbərək, Karvansaray şivələrində həm şəkilçisiz, həm də *-ıynan, -iynən, -uynan, -üynən, -gınan,-ginən, -gunan, -günən* şəkilçisi ilə, Təbriz şivəsində *-ginən, -ıynan, -iynən, -ynan, -ynən* şəkilçisi ilə, Qərbi Azərbaycanın Çəmbərək, Karvansaray şivələrində *-ınan, -nan, -inən, -unan, -ünən,* Meğri şivəsində *-gınan, -ginən, -yinaən,-yinən, -ynon, -ynə,* Meğrinin Aldərə şivəsində göstərilən şəkilçi ilə yanaşı, ədəbi dildən və digər şivələrdən fərqli olaraq *–dınan, -dinən, -dunan,- dünən* şəkilçisi ilə əmələ gəlir. Məsələn: *al, alginən* "al", *gəl, gəlginən* "gəl", *sat, satginən* "sat" (Bakı, Şəki), *alnan* "al", *gəlnən* "gəl", *durnan* "dur" (Şəki), *yazğınan* "yaz", *bilginən* "bil", *kəsğinən* "kəs" (Şamaxı), *yaz, yazginən* "yaz", *vur, vurginən* "vur", *başda, başdaginən* "başla" (Quba), *sal, saqınan* "sal" (Biləsuvar), *diginən* "di"< de (Şirvan), *qav, qavgınan* "qov", *oxı* "oxu", *dorğagınan* "dorğa" (Naxçıvan), *al, alnan//algınan* "al", *gəl, gəlnən //gəlginən* "gəl", *de, denən* "de", *qoru, qoruynan//qorugunan* "qoru" (Qubadlı), *aç, açıynan, açgınan* "aç", *gəl, gəliynən, gəkginən* "gəl", *soruş, soruşuynan* "soruş", *dön, dönüynən, döngünən* "dön" (Çəmbərək, Qazax, Tovuz), *tutginən* "tut", *gitginən* "get" (Dərbənd), *gətiginən* "gətir", *aparginən* "apar", *düzüynən* "düz", *çıxıynan* "çıx" (Təbriz), *deynə* "de", *satginən* "sat", *savginən* "sav(maq)" < qurtar(maq), *yeginən* "ye", *deynon* "de", *deynən* "de" (Meğri), *aparınan* "apar", *gedinən* "get", *görünən* "gör" (Çəmbərək, Karvansaray), *otdunan* "otur", *dartdınan* "dart", *qoydunan* "qoy", *döydünən* "döy" (Meğrinin Aldərə şivəsi) və s.

Əmr şəklini əmələ gətirən *-gilən, - ginən* şəkilçisi XVII-XVIII əsrlərdən ədəbi dilimizdə geniş yayılmışdır "dialekt və şivələrdə - *ginən* şəkilçisi özünün yaranması üçün əsas vermiş *-gilən* formasını tamamilə işləklilikdən salmışdır" (M. Rəhimov, 1965, s. 65).

İkinci şəxsin cəmi. Feilin əmr şəkli ikinci şəxsin cəmində söz samitlə bitəndə Bakı, Quba, Muğan, Şamaxı şivələrində *-un, -ün, -uz,-üz,* Şəki, Naxçıvan qrupu, Qubadlı, keçid şivələrində *-ın,-in,-un,-ün,* qərb qrupu, Qubadlı şivələrində *-ıŋ, -iŋ, -uŋ, -üŋ,* Dərbənd, Təbriz, şivələrində ikivarintlı *-un, -ün* şəkilçisini qəbul edir. Məsələın: *başdıyın* "başlayın", *işliyin //işdiyin* "işləyin", *gözlüyün//gözdüyün* "gözləyin" (Naxçıvan), *satın, gəlin, durun, görün* (Şəki), *yapuşun* "yapışın", *yığışun* "yığışın", *döyışün* "döyüşün", *gedün* "gedin" (Təbriz), *alun* "alın", *çekün* "çəkin", *tutun, uynayun* "oynayın", *vərün* "verin" (Dərbənd), *alıŋ* "alın", *gəliŋ* "gəlin", *vuruŋ* "vurun", *görüŋ* "görün" (Basarkeçər, Borçalı, Çəmbərək, Qazax, Qarabağ, Qubadlı, Gəncə, Gədəbəy, Tovuz, Şəmkir, Şuşa), *yazun //yazuz* "yazın", *gidün//gidüz* "gedin" (Quba), *atun//atuz* "atın", *gəlün//gəlüz* "gəlin" (Bakı), *qaçun//qaçuz* "qaçın", *görün //görüz* "görün" (Muğan), *alın, gedin, oturun, görün* (keçid şivələri) və s.

Üçüncü şəxsin təki. Əmr şəklinin üçüncü şəxsin təki Bakı şivəsində ikivariantlı *-sun,-sün,* Quba, Qubadlı, Təbriz, Şəki, keçid şivələrində dördvariantlı *-sın, -sin, -sun,-sün,* qərb qrupu şivələrində *-sın, -sin, -sun,-sün, -sıŋ, -siŋ, -suŋ, -süŋ,* bəzən *–sıŋ*^{4} şəkilçisinin fonetik variantı kimi *-şıŋ, -şiŋ, -şuŋ, -şüŋ,* Dərbənd şivəsində *-sin, -sun,-sün* şəkilçisini qəbul edir. Məsələn: *qo:lasun* "qovalasın"<qovsun, *disün* "desin" (Bakı), *alsın, gəlsin, vursun, görüşsün* (Qubadlı, Təbriz), *sassın* "satsın", *gəlsin, dursun, görsün* (Şəki), *alsın//alsıŋ* "alsın", *səfsin//səfsiŋ* "səpsin", *qoşsun// qoşşuŋ* "qoşsun", *aşsın//aşsıŋ//aşşıŋ* "açsın" (Qazax, Tovuz), *yığsıŋ* "yığsın", *gəlsiŋ* "gəsin", *qurussuŋ* "qurutsun", *köşsüŋ* "köçsün" (Çəmbərək, Karvansaray), *işləsin, gitsin* "getsin", *alsun* "alsın", *tuxusun* "toxusun", *düşsün, görsün* (Dərbənd), *vursın* "vursun", *gidsin* "getsin", *yassun* "yazsın", *tüksün* "töksün" (Quba) və s.

Təbriz şivəsində üçüncü şəxsin təki *-sı, -si, -su,-sü* şəkilçisini də qəbul edir. Bu şəkilçi *-sın, -sin, -sun,-sün* şəkilçisinin variantı olmaqla **n** səsinin düşməsi nəticəsində əmələ gəlmişdir. Məsələn: *otlası* "otlasın", *olsu* "olsun" və s.

Üçüncü şəxsin cəmi. Feilin əmr şəkli üçüncü şəxsin cəmində Bakı şivəsində *-sınnar, -sunnar,-sünnər,* Naxçıvan qrupu şivələrində *-sın, -sin, -sınnar, -sinnər,* Qubadlı, qərb qrupu şivələrində *-sınnar, -sinnər, -sunnar, -sünnər*, qərb qrupu şivələrində həm də sonu "ş" samiti olan sözlər *–şınnar,-şunnar,* Təbriz şivəsində *-sın, -sin, -sun,-sün* şəkilçisinə cəmlik əlaməti bildirən -la,-lə şəkilçisinin birləşməsindən variantı olan -na,-nə şəkilçisinin birləşməsindən əmələ gələn *-sınna, -sinnə, -sunna, -sünnə (-sın+na, -sin+nə, -sun+na,-sün+nə*) və ya *-sın, -sin, -sun,-sün* şəkilçisinin variantı olan *-sı, -si, -su,-sü* şəkilçisinə cəmlik bildirən -lar,-lər şəkilçisinin variantı olan -la,-lə şəkilçisinin birləşməsindən əmələ gələn *-sıla, -silə, -sula,-sülə,* Dərbənd şivəsində *-sinnər, -sunnar, -sünnər,* keçid şivələrində *-sınnar -sinnər* şəkilçisini qəbul edir. Məsələn: *qo:alasınnar// qo:alasunnar* "qovalasınnar"<qovsunnar, *disünnər* "desinlər" (Bakı), *dörğasın* "doğrasın", *oxısın//oxısınnar* "oxusun//oxusunlar", *gözdəsin* "gözləsin", *işləsin//işləsinnər* "işləsinlər" (Naxçıvan), *yazsınnar* "yazsınlar", *görsünnər* "görsünlər" (Qubadlı), *aşsınnar // aşşınnar* "açsınlar", *gəlsinnər* "gəlsinlər", *qoşsunnar//qoşşunnar* "qoşsunlar", *çönsünnər* "çönsünlər" (qərb qupu), *görsünnə* "görsünlər", *getsinnə* "getsinlər", *tapşırsınna* "tapşırsınlar", *dağıtsınna* "dağıtsınlar", *başlasıla* "başlasınlar", *yaxınlaşsıla* "yaxınlaşsınlar" (Təbriz), *alsunnar* "alsınlar", *dursunnar* "dursunlar", *gitsünnər* "getsinlər", *sürsünnər* "sürsünlər", *gəlsinnər* "gəlsinlər", *işləsinnər* "işləsinlər", *alsula* "alsınlar", *gəlsülə* "gəlsinlər", *disülə* "desinlər" (Dərbənd), *vırsınnar* "vursunlar", *vərsinnər* "versinlər", *görsünnər* "görsünlər" (Bakı) və s.

Azərbaycan dili şivələrində feilin əmr şəklinin inkarı ədəbi dilimizdə olduğu kimi *-ma,-mə* inkar şəkilçisi vasitəsi ilə əmələ gəlir. Quba, Dərbənd, Naxçıvan qrupu, qərb qrupu şivələrində I şəxsin təkində və cəmində, II şəxsin cəmində *-ma,-mə* inkar şəkiçisində açıq saitlər (**a, ə** saitləri) qapalı saitlərlə (ı, i saitlər), Bakı, Dərbənd şivələrində bəzən yarımqapalı e saiti ilə, qərb qrupu şivələrində I şəxsin təkində və cəmində, II və III şəxsin cəmində *-ma,-mə* inkar şəkiçisində açıq saitlər (**a, ə** saitləri) qapalı saitlə (u saitlə) əvəzlənir. Keçid şivələrində feilin əmr şəklinin I şəxsin təkində şəxs şəkilçisindəki qapalı sait uzanan saitlə əvəzlınir. Məsələn: yığmi:m "yığmayım", işdımi:m "işləməyim", sürmi:m "sürməyim" və s.

Əmr Şəklinin Təsriflənməsinə Aid Nümunələr

Təsdiq

Qərb qrupu şivələri üzrə

Şəxs	**Tək**		**Cəm**	
I	açem//açım	səpem//səpim	açax	səpəx′
II	aç//açıyna// aşgınan	səp//səpiynən// səpginən	açıŋ	səpiŋ
III	aşsıŋ//aşşıŋ	səfsiŋ//səfsin	açsınnar//aşşınnar	səfsinnər

Bakı şivəsi üzrə

Şəxs	Tək		Cəm	
I	qo:li:m//qo:lı^{i}m	di:m//diyi m	qo:liyeg//qo:lıyax//qo:lıyegün// qo:lıyegüz	diyeg
II	qo:la//qo:laginən	di//diginən	qo:liyüz//qo:lo:^{u}z//qo:liyun// qo:lo:^{u}n	diyüz//diyün// / diüz
III	qo:lasun	disün	qo:lasunnar//qo:lzasınnar	disünnər

Quba şivəsi üzrə

Şəxs	Tək		Cəm	
I	yazım	gidim	yazağ// yazax	gidağ// gidax
II	yaz//yazginən	gid//gidginən	yazun//yazuz	gidün//gidüz
III	yassun// yassın	gidsün//gidsin	yassun// yassın(nar)	gidsün(nər)

Şəki şivəsi üzrə

Şəxs	Tək		Cəm	
I	satım	gəlim	satax	gəlax
II	sat//satginən	gəl//gəlnən	satın	gəlin
III	sassın	gəlsin	sassın	gəlsin

Dərbənd şivəsi üzrə

Şəxs	Tək		Cəm	
I	alım	gəlim	aleg// alegün	gəleg//gələgün
II	al//alginən// alginə	gəl//gəlginən// gəlginə	alun	gəlün
III	alsun//alsu	gəlsün//gəlsü	alsunnar// alsunla// alsula	gəlsünnər// gəlsünlə//gəlsülə

Keçid şivələri üzrə

Şəxs	Tək		Cəm	
I	oturum//otrum// otrım	deyim//de:m	oturax//otırağ// otrağ	deyək//deyəh
II	otur//otır//ot	de//deginən	oturun//otrun	deyün//deyin
III	otursun//otırsın// otsın	desin//desün	otsunnar// ossunnar	desinnər

Naxçıvan qrupu şivələri üzrə

Şəxs	Tək		Cəm	
I	qavım	issinim//istinim	qavax	issinə x′ //istinax
II	qav//qavgınan	issin//istin	qavın	issinin//istinin
III	qavsın	issinsin//istinsin	qavsın	issinsin//istinsin

İnkar

Bakı şivəsi üzrə

Şəxs	Tək		Cəm	
I	almiyim // almi:m	yolmiyim	almiyek	yolmi:yeg
II	alma// almaginən	yolma	almiyüz//almiyun	yolmiyuz//yolmiyüz
III	almasun	yolmasun	almsunlar	yolmasunlar

Quba şivəsi üzrə

Şəxs	Tək		Cəm	
I	yazmıyim// yazmiyim	gidmiyim //gidmiyem	yazmıyağ	gidmiyağ
II	yazma// yazmaginən	gidme// gidməginən	yazmiyün// yazmıyun	gidmiyin
III	yazmasun// yazmasın	gidməsün// gidməsin	yazmasun// yazmasınnar	gidməsün//gidməsünnər

Qərb qrupu şivələri üzrə

Şəxs	Tək		Cəm	
I	aşme:m aşmıyım	qoşmo:m qoşmuyum	aşmeax aşmıyax	qoşmuyax
II	aşma aşmaynan aşmagınan	qoşma qoşmaynan qoşmagınan	aşmeyin aşmayın aşmein	qoşmuyun
III	aşmasıŋ aşmasın	qoşmasıŋ qoşmasın	aşmasın(nar)	qoşmasın (nar)

Naxçıvan qrupu şivələri üzrə

Şəxs	Tək		Cəm	
I	qavmıyım	işləmiyim	qavmıyax	işləmiyəx′,
II	qavma	işləmə	qavmıyın	işləmiyin
III	qavmasın	işləməsin	qavmasın	işləməsin(nər)

Dərbənd şivəsi üzrə

Şəxs	Tək		Cəm	
I	almıyım	düşməyim	almıyəg almiyəgün	düşmiyəg düşmiyəgün
II	alma almaginən almaginə	düşmə düşməginən düşməginə	almayun	düşməyin
III	almasun almasu	düşməsün düşməsü	almasunnar almasunla almasula	düşməsünnər düşməsünlə düşməsülə

Şəki şivəsi üzrə

Şəxs	Tək		Cəm	
I	almiyim	işmiyim	almiyax	işmiyax
II	alma	işmə işməynən	almiyin	işmiyin
III	almasın	işməsin	almasın	işməsin

Muğan, Şamaxı şivələri üzrə

Şəxs	Tək		Cəm	
I	başdamıyım	işdəmiyim	başdamıyax	işdəmiyəg
II	başdama başdamaginən	işdəmə işdəməginən	başdamıyun başdameyin	işdəmüyün işdəmeyin
III	başdamasun	işdəməsün	başdamasun(nar)	işdəməsün(nər)

Feilin Xəbər Şəkli

Azərbaycan dili şivələrində feilin xəbər şəkli ədəbi dildə olduğu kimi zaman şəkilçiləri ilə əmələ gəlir.

Feilin xəbər şəklini R.Rüstəmov (R.Rüstəmov, 1965, s.184-252), A.Hüseynov (A.Hüseynov, 1979, s.52-57) Azərbaycan dili şivələrində feilin zamanlarından xəbər şəklindən ayrı, M.Şirəliyev (M.Şirəliyev, 1967, s.207-256) xəbər şəkli daxilində izah etmişdir. Azərbaycan dili şivələrinə həsr edilmiş tədqiqatlarda, eləcə də "Müasir Azərbaycan dili" (morfologiya) kitablarında da feilin zamanları xəbər şəkli daxilində bəhs edilir. Məhz buna görə də feilin zamanlarından elə feilin xəbər şəkli daxilində bəhs olunacaq.

Keçmiş Zaman

Feilin keçmiş zamanı iki yerə bölünür: nəqli keçmiş zaman; şühudi keçmiş zaman.

Nəqli keçmiş zaman. Nəqli keçmiş zaman şivələrimizdə, əsasən, ədəbi dildə olduğu kimi *-mış,-miş,-muş,-müş,-ıb,-ib,-ub,-üb* şəkilçiləri ilə əmələ gəlir. Bununla yanaşı şivələrimizdə nəqli keçmiş zamanın əmələ gəlməsində iştirak edən şəkilçilərin fonetik cəhətdən müxtəlif variantlarda müşahidə olunur və şəxslər üzrə dəyişərkən müxtəlif qrammatik əlamətlərin üzə çıxdığını görmək olur.

Nəqli keçmiş zamanı şərq qrupu (Bakı, Muğan, Quba, Şamaxı), Naxçıvan qrupu şivələrində *-mış,-miş,-muş,-müş, -ıb,-ib,-ub,-üb*, Qubadlı, Şəki, Ağdaş keçid şivələrində, qərb qrupu şivələrində, *-mış, -miş, -muş, -müş, -ıf,-if,-uf,-üf,* Göyçay şivəsində əsasən ikivariantlı *-mış,-miş, -ıb,-ib*, Təbriz şivəsində *-mış, -miş, -muş, -müş, -ıp,-ip,-up,-üp,* Dərbənd şivəsində *-mış, -miş, -muş, -müş, -ıb, -ib,-ub,-üb,* eyni zamanda Dərbəndin ayrı-ayrı şivələrində həm də *-ıt,-it,-ut,-üt, -dı, -di, -du, -dü (*bəzən üçvariantlı olaraq *-it,-ut,-üt - di, -du, -dü*) şəkilçisini qəbul edir. Əksər şivələrimizdə II şəxs tək və cəmində keçmiş zaman *-mış,-miş,-muş,-müş* şəkilçisi ilə yanaşı *-mı,-mi,-mu,-mü* şəkilçisini də qəbul edir.

Nəqli Keçmiş Zamanın Şəxsə Görə Dəyişməsinə Aid Nümunələr

Naxçıvan qrupu şivələri üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	almışam	almışıx	getmişəm	getmişıx
II	almısan	almısız	getmisən	getmisız
III	alıb	alıb//alıbdı	gedibdi	gedibdi

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	almamışam	almamışıx	getməmişəm	getməmişıx
II	almamısan	almamısız	getməmisən	getməmisız
III	almıyıb// almı:b	almıyıb//almıyıbdı	getmiyibdi	getmiyibdi

Dərbənd şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	yazmışam	yazmışek	baxmişem	baxmişük
II	yazmısan	yazmısuz	baxmissen	baxmissüz
III	yazutdu	yazutdula	baxutdu	baxutdula

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	baxmamişem	baxmamişük	yazmamışam	yazmamışek// yazmamışiğ
II	baxmamissen	baxmamissüz	yazmamısan	yazmamısuz
III	baxmayutdu	baxmayutdula	yazmayutdu// yazmeyitdi	yazmayıtdılar// yazmeyıtdılar

Bakı şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	almışam	almışuğ//almışeg	vərmişəm	vərmişig//vərmişüg
II	almısan	almısuz//almusuz	vərmisən	vərmüsüz
III	alıb	alıb (lar)	vərib	vəriblər

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	almamışm	almamışuğ// almamışeg	vərməmişəm	vərməmişig// vərməmişüg
II	almamısan	almamısuz// almamusuz	vərməmisən	vərməmüsüz
III	almiyib	almiyib (lər)	vərmiyib// vərmi:b	vərmiyiblər// vərmi:blər

Quba şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	almışam	almışuğ//almışux	tükmişəm	tükmişuğ//tükmişux
II	almısan	almusuz	tükmisən	tükmisüz
III	alıb	alıb (lar)	tüküb	tükübblər

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	almamışam	almamışuğ// almamışux	tükməmişəm	tükməmişuğ// tükməmişux
II	almamısan	almamısuz	tükməmisən	tükməmisüz
III	almiyib	almiyib (lər)	tükmiyib	tükmiyibblər

Qərb qrupu şivələri üzrə
Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	qısqammışam	qısqammışıx	tüşmüşəm	tüşmüşüx′
II	qısqanıfsaŋ	qısqanıfsıŋız	tüşüfsən	tüşüfsən
III	qısqanıf	qısqanıflar	tüşüflər	tüşüflər

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	qısqammamışam	qısqammamışıx	tüşməmüşəm	tüşməmüşüx′
II	qısqamıyıfsaŋ	qısqamıyısıŋız	tüşmüyüfsən	tüşmüyüfsən
III	qısqammıyıf	qısqammayıflar	tüşmüyüflər	tüşmüyüflər

Şəki şivəsi üzrə
Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	otumışam	otumışıx	çö:rmüşəm	çö:rmüşux
II	otumısan	otumısız	çö:rmüsən	çö:rmüsuz
III	oturufdı	oturufdı (lar)	çö:rütdi	çö:rütdi (lər)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	yazmamışam	yazmamışux	diməmişəm	diməmişux
II	yazmamısan	yazmamısuz	diməmisən	diməmisuz
III	yazmıtdı	yazmıtdı (lar)	dimitdi	dimitdi (lər)

Şühudi keçmiş zaman. Azərbaycan dili şivələrində feilin şühudi keçmiş zaman şəkilçiləri ədəbi dillə, əsasən, eynidir. Yəni ədəbi dildə olduğu kimi şivələrimizdə də şühudi keçmiş zaman *-dı,-di, -du,-dü* şəkilçisi ilə düzəlir. Bununla yanaşı şühudi keçmiş zamanda

şivələrimizdə müəyyən fərqlilik özünü göstərir. Bu fərqlilik şəxs şəkilçilərində müşahidə olunur.

Quba şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	başardım	başarduğ	yidim	yiduğ
II	başardun	başarduz	yidün	yidüz
III	başardi	başardi (lar)	yidi	yidi (lər)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	başarmadım	başarmaduğ	yimədim	yiməduğ
II	başarmadun	başarmaduz	yimədün	yimədüz
III	başarmadi	başarmadi (lar)	yimədi	yimədi (lər)

Bakı şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	oxıdım	oxıdığ//oxuduğ	do:dum	do:duğ// do:dig
II	oxıdun	oxuduz	do:dun	do:duz
III	oxıdi//oxudı[i]	oxıdı (lar)	do:di	do:dı (lar)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	oxımadım	oxımadığ//oxumaduğ	do:madum	do:maduğ// do:madig
II	oxımadun	oxumaduz	do:madun	do:maduz
III	oxımadı	oxımadı (lar)	do:madi	do:madı (lar)

Dərbənd şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	aldım//aldum	aldığ//aldiğ //alduğ	işlədüm// işlədim	işlədüğ//işlədig
II	aldun//aldu// alduv	alduvuz	işlədün//işlədü//işlədüv	işlədüv
III	aldı//aldu	aldılar //aldular// aldıla	işlədü//işlədi	işlədülər//işlədilər// işlədilə

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	almadım// almadum	almadığ// almadiğ //almaduğ	işləmədüm//işləmədim	işləmədüğ//işləmədig
II	almadun//almadu// almaduv	almaduvuz	işlədün//işlədü //işlədüv	işləmədüvüz
III	aldı//aldu	almadılar //almadular // almadıla	işlədü//işlədi	işləmədülər// işləmədilər// işləmədilə

Naxçıvan qrupu şivələri üzrə
Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	aldım	aldıx	getdim	getdıx
II	aldın	aldız//ald:z	getdin	getdız//getdıŋız
III	aldı	aldı	getdi	getdi

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	almadım	almadıx	getmədim	getmədıx
II	almadın	almadız//almadıŋız	getmədin	getmədız// getmədiŋiz
III	almadı	almadı	getmədi	getmədi

Şəki şivəsi üzrə
Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	giydim	giydux	otdum	otdux
II	giydun	giyduz	otdun	otduz
III	giydi	giydi (lər)	otdu	otdu (lar)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	saxlamadım	saxlamadux	otumadım	otumadux
II	saxlamadın	saxlamaduz	otumadın	otumaduz
III	saxlamadı	saxlamadı (lar)	otumadı	otumadu (lar)

İndiki Zaman

Azərbaycan dili şivələrində feilin indiki zamanı morfoloji əlamətlərinə görə fərqli xüsusiyyətlərə malikdir. İndiki zaman həm ədəbi dildə olduğu kimi *-ır,-ir,-ur,-ür* (*-yır,-yir,-yur,-yür*) şəkilçisi, həm də *-ır,-ir, -ur,-ür* şəkilçisinin dialekt variantları olan *-er,-or,-ör (-yer,-yor,-yör), -ey,-oy,-öy, -ıy,-iy,-uy,-üy, -adu,-ədü, -adı,-ədi, -atdı*[i]*,-ətdi* şəkilçisi

ilə və a+var, ə+var sözü ilə (R.Rüstəmov, 1965, s. 211-231), Təbriz şivəsində *-ı,-i,-u,-ü, -iy,-ey* (M.Məmmədli, 2008, s.112-115) şəkilçisi ilə əmələ gəlir. Azərbaycan dili şivələrində indiki zaman iki yolla əmələ gəlir:

1.Morfoloji yolla indiki zamanın əmələ gəlməsi.

2.Sintaktik yolla indiki zamanın əmələ gəlməsi.

Morfoloji yolla indiki zamanın əmələ gəlməsi

Şivələrimzdə indiki zaman feillərin əmələ gəlməsi feilin kökünə şəkilçilərin artırılması əsasında baş verir və morfoloji yolla indiki zaman feilləri əmələ gəlir.

1. ***-ır,-ir,-ur,-ür* şəkilçisi ilə əmələ gələn indiki zaman.**Azərbaycan dilinin Bakı, Şamaxı, Gəncə, Naxçıvan, Ordubad, Şəki, Təbriz, Muğan qrupu, İsmayıllı, Lənkəran, Göyçay, Zaqatala, Qax, İrəvan, Culfa, Ucar, Ağdam, Cəbrayıl, Füzuli, Şuşa, Şahbuz, Sədərək, Zəncan (R.Rüstəmov, 1965, s. 212-213), Qubadlı, Qərbi Azərbaycanın Basarkeçər, Çəmbərək, Karvansary, Meğri, Sisyan şivələrində indiki zaman *-ır,-ir,-ur,-ür* (*-yır,-yir,-yur,-yür*) şəkilçisi əsasında formalaşır.

Naxçıvan qrupu şivələri üzrə

Təsdiq

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	alıram	alırıx	gedirəm	gedirəm
II	alısan// alırsan	alısız//alırsıŋız	gedisən//gedirsən	gedisiz//gedirsıŋız
III	alır	alır	gedir	gedir

İnkar

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	almıram	almırıx	getmirəm	getmirıx
II	almısan// almırsan	almısız// almırsıŋız	getmisən// getmirsən	getmisiz//getmirsıŋız
III	almır	almır	getmir	getmir

Keçid şivələri üzrə

Təsdiq

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	alıram	alırıx	gə:rəm//gəlləm	gə:rix′//gəllik
II	alırsan//alırsaŋ	alırsız//alırsı:z// alırsıŋız	gə:rsən//gəssən	gə:rsiz// gəssiz
III	alır	alıllar	gə:r//gə:l	gə:llər

İnkar

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	almıram	almırıx	oxımıram	oxımırıx
II	almırsan	almırsuz	oxımırsan	oxımırsuz
III	almır	almıllar	oxımır	oxımıllar

Şəki şivəsi üzrə

Təsdiq

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	qoyürəm	qoyürux	oxiyrəm	oxiyrux
II	qoyürsən	qoyürsuŋuz	oxiysən	oxiysuz
III	qoyür	qoyür//qoyüllər	oxiyir	oxiyir//oxiyillər

İnkar

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	qoyminəm	qoyminix	oxumıram	oxumırux
II	qoymiysən	qoymiysiŋiz	oxumırsan	oxumısuz
III	qoymiyi	qoymiyi//qoymiylər	oxumır	oxımur// oxumıllar

Dərbənd şivəsi üzrə

Təsdiq

Şəxs	**Tək**	**Cəm**
I	dayanıram	dayanırig
II	dayanırsan	dayanırsuz
III	dayanır	dayanırlar

İnkar

Şəxs	**Tək**	**Cəm**
I	dayanmıram	dayanmırig
II	dayanmırsan	dayanmırsuz
III	dayanmır	dayanmırlar

Bakı şivəsi üzrə

Təsdiq

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	oxi:rəm//oxı:ram	oxi:rig//oxı:reg// oxı:rığ//oxı:ruğ	di:rəm	di:rig//di:rüg
II	oxi:rsən//oxı:rsan	oxi:rsüz//oxı:rsuz	di:rsən	di:rsüz
III	oxi:r//oxı:r	oxi:llər//oxı:llər	di:r	di:llər

İnkar

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	oxımıram	oxımıruğ// oxımuruğ	di:mirəm	di:mürüg
II	oxımırsan	oxımırsuz// oxımursuz	di:mirsən	di:mirsüz
III	oxımır	oxımıllar// oxımullar	di:mir	di:millər

2. ***-er,-or,-ör* şəkilçisi ilə əmələ gələn indiki zaman.** Azərbaycan dilinin qərb qrupu şivələrində, ayrım şivəsində indiki zaman *-ır,-ir,-ur,-ür* şəkilçisi ilə yanaşı, *-er,-or,-ör (-yer,-yor,-yör)* şəkilçisinin əlavəsi ilə düzəlir. Məsələn: *yateram* "yatıram", *yaterıx* "yatırıq", *gələrəm* "gılirəm", *gəleriks* "gəlirik" (Qazax), *vurorsaŋ* "vurursan", *vurorsuŋuz* "vurursunuz", *çüşörsəŋ* "düşürsən", *çüşörsüŋüz* "düşürsünüz" (Borçalı), *iste:rem* "istəyirəm", *çalxe:rik* "çalxalayırıq", *oto:r* "otlayır", *gözdö:rüks* "gözləyirik", *alersıŋız* "alırsınız", *bilersiŋiz* "bilirsiniz" (Qazax), *səpe:rəm* "səpirəm", *vuro:rux* "vururuq", *toxuyorsan* "toxuyursan" (Karvansaray), *oxŭyorum* "oxuyuram", *oxŭyorux* "oxuyuraq", *üşŭyörsüŋ* "üşüyürsən", *üşŭyörsəŋiz* "üşüyürsünüz" (Gədəbəy) və s.

A.Hüseynov qərb qrupu şivələrində indiki zamanın *-er,-or,-ör* şəkilçisi ilə əmələ gəlməsi ilə bağlı yazır: "... buradakı şəkilçilər qismən əvvəlki türk dili əsası olan formalaşmanın qalığı olduğu kimi, qismən də dilimizin daxili diferensiasiyasında baş vermiş başqa tipli hadisələrlə əlaqədar formalaşmadır. Bu baxımdan Qazax şivəsindəki **"-o:r,-ö:r, -e:r"**, **"-or,-ör, -er"** şəkilçi variantlarını göstərmək olar. Bunlar tarixən o biri şəkilçilərdən də sonrakı formalaşmanın nəticəsidir" (A.Hüseynov, 1979, s. 53).

Qərb qrupu şivələri üzrə
Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	aleram	alerıx	içerem	içerix
II	alersaŋ	alersıŋız	içersəŋ	içersiŋiz
III	aler	aler (lar)	içer	içeller

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	puzoram	puzorux	çüşörəm	çüşörüx′
II	puzorsaŋ	puzorsuŋuz	çüşörsəŋ	çüşörsüŋüz
III	puzor	puzollar	çüşör	çüşöllər

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	almeram	almerıx	işmerem	işmerix′
II	almersaŋ	almersıŋız	işmersəŋ	işmersiŋiz
III	almer	almer (lar)	işmer	işmeller

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	puzmoram	puzmorux	çüşmörəm	çüşmörüx′
II	puzmorsaŋ	puzmorsuŋuz	çüşmörsəŋ	çüşmörsüŋüz
III	puzmor	puzmollar	çüşmör	çüşmöllər

Qərb qrupuna xas olan bu morfoloji xüsusiyyət –indiki zamanın *-er,-or,-ör (-yer,-yor,-yör)* şəkilçisi ilə düzəlməsi qaqauz və türk dillərində də özünü göstərir. Belə ki indiki zaman qaqauz dilində **-er,** türk dilində **-yor** şəkilçisi ilə əmələ gəlir (R.Rüstəmov, 1965, s. 221).

3. ***-ey,-oy,-öy* şəkilçisi ilə əmələ gələn indiki zaman.** Astara, Ordubad, Salyan, Biləsuvar, Cəlilabad, Yardımlı, Cənubi Azərbaycanın Ərdəbil, Astara (Cənubi Azərbaycan Astarası da daxil olmaqla), Qərbi Azərbaycanın Meğri şivələrində indiki zaman eyni zamanda

-ey,-oy,-öy, ayrım şivəsində *-ey(r),-oy(r),-öy(r)* şəkilçisi ilə əmələ gəlir (R.Rüstəmov, 1965, s. 223-224). Məsələn: *baxeysən* "baxırsan", *səpey* "səpir", *baxeyük* "baxırıq", *səpeysüz* "səpirsiniz" (Astara, Cəlilabad, Yardımlı), *aleyrım* "alıram", *gəleysin* "gəlirsən", *vuroyrum* "vururam", *görey* "görür", *aleysaŋız* "alırsınız" (Gədəbəy), *tökey* "tökür" (Salyan), *aleyam* "alıram", *gəleysən* "gəlirsən", *aleyux //aleyıx* "alırıq", *gəleysüz// gəleysiz* "gəlirsiniz" (Biləsuvar), *saxleyəm* "saxlayıram", *düşeyəm* "düşürəm", *qazeysan* "qazırsan", *gətirey* "gətirir" (Meğri) və s.

Meğri şivəsi üzrə

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	saxleyəm//saxle:m	saxleyix//saxle:[i]x	düşeyəm// düşe:m	düşeyix// düşe:[i]x
II	saxle:sən	saxle:siz	düşe:sən	düşe:siz
III	saxley	saxleylər	düşey	düşeylər

4. ***-ıy,-iy,-uy,-üy* şəkilçisi ilə əmələ gələn indiki zaman.** Şəki, Ordubad, Qax şivələrində indiki zaman *-ıy,-iy,-uy,-üy* şəkilçisi ilə əmələ gəlir. "Nuxada (Şəki-İ.B.) bu şəkilçi iki (*-iy,-üy*), Ordubadda üç (*-ıy,-iy,-uy),* Qaxda isə dörd variantda (*-ıy,-iy,-uy,-üy*) işlənir" (R.Rüstəmov, 1965, s. 225). Məsələn: *aliyəm* "alıram", *gəliyəm* "gəlirəm", *görüy* "görür" (Şəki), *yazıyam* "yazıram", *gəliysən* "gəlirsən", *oluy* "olur" (Ordubad), *alıyam* "alıram", *gediysən* "gedirsən" (Qax) və s.

Şəki şivəsi üzrə

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	aliyəm	aliyıx	kesiyəm	kesiyıx
II	aliysan	aliysıŋız	kesiysan	kesiysıŋız
III	aliy	aliy (lər)	kesiy	kesiy (lər)

4. ***-ı,-i,-u,-ü* şəkilçisi ilə əmələ gələn indiki zaman.** Bakı, Şamaxı, Göygöl, Göyçay, Cəbrayıl, Tovuz, Lənkəran, Təbriz şivələrində indiki zamanın əmələ gəlməsində *-ı,-i,-u,-ü* şəkilçisinin iştirakı müşahidə olunur. Məsələn: *alu* "alır", *qalu* "qalır", *gəlü* "gəlir" (Bakı), *gəli* "gəlir" (Şamaxı), *gətiri* "gətirir", *yetişi* "yetişir" (Göygöl), *oli* "olur" (Göyçay), *bili* "bilir" (Cəbrayıl), danışısən "danışırsan" (Lənkəran), gəli "gəlir", aparı "aparır", görü "görür" (Təbriz) və s. *-ı,-i,-u,-ü* şəkilçisinin indiki zaman şəkilçisi kimi işlənməsi qədim tarixə malikdir. Bu şəkilçinin qədimliyi, bir sıra türk dillərinə xas olması həmin şəkilçinin türk, türkmən və başqa dillərin dialektlərində indi də, xüsusən üçüncü şəxs təkdə işlənməsi ilə təsdiq edilir. Məsələn, türk dili dialektlərində *k/emiri, geli, sesleni, besleni (*R.Rüstəmov, 1965, s.227).

4. ***–a-du, -ə-dü, -a-dı, ə-di, -ad, -əd* şəkilçisi ilə əmələ gələn indiki zaman.** Quba, Dərbənd şivələrində indiki zaman *–a-du, -ə-dü, -a-dı, ə-di* şəkilçisinin köməyi ilə düzəlir. Bu şəkilçi indiki zaman şəkilçisi kimi Xaçmaz, Şabran, Bakının Novxanı, Corat, Qobu, Güzdək, Hökməli, Xocəsən, Xırdalan, Şamaxının Quşçu, Nərimankənd, Qurbançı, Nabur, Ərəbqədim, Ərəbşalbaş, Ərəbşahverdili, Şirvanın Ağaməmmədli şivələrində də müşahidə olunur. Məsələn: *baxadam* "baxıram", *gələdi* "gəlir" (Bakı), *quradam* "qururam", *gələdüg* "gəlirik"

(Şamaxı), *gidəsüz* “gedirsiniz”, *oxiyəduğ* “oxuyuruq” (Quba), *yazadam* “yazıram”, *qazaduğ* “qazırıq” (Dərbənd), *görəd* (Bakı) –görür, *qalad (*Bakı) – qalır, *aladu* (Bakı) – qalır və s.

-ad, -əd indiki zaman şəkilçisi Qərbi Abşeronun Qobu, Güzdək, Hökməli, Binəqədi, Novxanı, Corat şivələrində müşahidə olunur (G.Vəliyeva, 1987, s. 83).

Quba şivəsi üzrə

Təsdiq

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	aladam	aladuğ//aladux	gidədəm	gidəduğ//gidədux
II	alasan	alasuz	gidəsən	gidəsüz
III	aladı[i]	aladı[i]//aladu(lar)	gidədi//gidədü	gidədi//gidədü(lər)

İnkar

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	almıdam// almidam// almeydəm	almıduğ// almidux// almeyduğ	gidmidəm// gidmeydim	gidmiduğ// gidmeyduğ
II	almısan// almisən// almeysən	almısuz// almisuz// almeysüz	gidmisən// gidmeysən	gidmisüz// gidmeysüz
III	almıdi// almidi// almeydi	almıdi//almidi almeydi(lər)	gidmidi//gidmeydi	gidmidi// gidmeydi(lər)

Dərbənd şivəsi üzrə

Təsdiq

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	yazadam	yazadig	oxiyədəm	oxiyədig
II	yazasan	yazasuz	oxiyəsən	oxiyəsüz
III	yazadı	yazadılar	oxiyədi	oxiyədilər

İnkar

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	yazmidəm// yazmiyədəm	yazmidig// yazmiyədig	tikmidəm	tikmidəg
II	yazmisən// yazmiyəsən	yazmisüz// yazmiyəsüz	tikmiyəsən	tikmiyəsüz
III	yazmidi// yazmiyədi	yazmidilər// yazmiyədilər	tikmiyədi	tikmiyədilə

3. Sintaktik yolla indiki zamanın əmələ gəlməsi. Azərbaycan dilinin Quba, Dərbənd şivələrində feilin indiki zamanı sintaktik yolla da əmələ gəlir. “Dərbənd dialekti” kitabında indiki zamanın bu yolla əmələ gəlməsi “sintaktik - morfoloji yol” adlandırılır (Dərbənd

dialekti, 2009, s.160).

Sintaktik yolla indiki zamanın ifadəsi feilə *-a, -ə* feili bağlama şəkilçisinə *var* sözünün, bəzən isə *-a, -ə* feili bağlama şəkilçisinə *ol* və ya *dur* sözünün artırlması yolu ilə baş verir. Məsələn: *ala var* "alıram", *gələ var* "gəlir" (Dərbənd, Quba), *ala oldam* "alıram", *verə oladı* "verir", *baxa durur* "baxır", *dərə dura* "dərir" (Dərbənd) və s.

Quba şivəsi üzrə

Təsdiq

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	ala varam	ala varuğ// varux	gidə varam	gidə varuğ// varux
II	ala varsan	ala varsuz	gidə varsan	gidə varsuz
III	ala var	ala var	gidə var	gidə var

İnkar

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	almıya varam	almıya varuğ// varux	gidmiyə varam	gidmiyə varuğ// varux
II	alalmıya varsan	almıyaa varsuz	gidmiyə varsan	gidmiyə varsuz
III	almıya var	almıya var	gidmiyə var	gidmiyə var

Dərbənd şivəsi üzrə

Təsdiq

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	tapa varam	tapa varig	gələ varam	gələ varuq
II	tapa varsan	tapa varsuz	gələ varsan	gələ varsuz
III	tapa vardı//tapa var	tapa vardılar//tapa varlar	gələ vardu	gələ vardular

İnkar

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	tapmaya varam	tapmaya varig	gələmeyə varam	gəlmeyə varuq
II	tapmaya varsan	tapmaya varsuz	gəlmeyə varsan	gəlmeyə varsuz
III	tapmaya vardı//tapmaya var	tapmaya vardılar//tapmaya varlar	gəlmeyə vardu	gəlmeyə vardular

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	kəsə uladam	kəsə uladuq// uladuk′	tapa uladam// oladam	tapa uladuq// oladig
II	kəsə ulasa// ulasan	kəsə ulasuz	tapa ulasan	tapa ulasuz// uladsuz// olasuz
III	kəsə uladu	kəsə uladula// uladular	tapa uladu// uladı	tapa uladular//oladılar// oladilar

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	kəsməyə uladam	kəsməyə uladuq// uladuk′	tapmıya oladam tapmaya// tapmeya uladam	tapmıya oladig tapmaya// tapmeya uladuq
II	kəsməyə ulasa// ulasan	kəsməyə ulasuz	tapmıya olasan tapmıya ulasan tapmeya ulasan	tapmıya olasuz// tapmaya //tapmeya ulasuz
III	kəsməyə uladu	kəsməyə uladula// uladular	tapmıya oladı//oladi tapmaya uladu tapmeya uladu	tapmıya oladılar // oladilar tapmeya uladularx

Gələcək Zaman

Azərbaycan dili şivələrində feilin gələcək zamanı, ədəbi dildə olduğu kimi, iki yerə bölünür:

1.Qəti gələcək zaman.

2. Qeyri-qəti gələcək zaman.

Qəti gələcək zaman

Azərbaycan dili şivələırində qəti gələcək zaman ədəbi dildə işlənən -*acaq, -əcək* şəkilçisinin fonetik variantları və -*ası, -as, -əsi,-əs, -aş,-əş,-eş,-oş,-öş,-ış,-iş,-uş,-üş* şəkilçiləri əsasında əmələ gəlir. Qəti gələcək zamanın əmələ gətirən şəkilçiləri R.Rüstəmovun bölgüsü əsasında qruplaşdırmağı məqsədəuyğun hesab edirik (R.Rüstəmov, 1965, s. 234-243).

1. **-acaq, -əcək şəkilçisi və onun fonetik variantları əsasında qəti gələcək zamanın əmələ gəlməsi.**

-acaq, -əcək qəti gələcək zaman şəkilçisi şivələrimizdə müxtəlif variantlarda özünü göstərir. “Bu fonetik variantlar dialekt və şivələrimizdə eyni miqdarda deyildir. Digər tərəfdən, müxtəlif şəxslərdə işlənən zaman şəkilçisi də fonetik tərkibcə bəzən kəskin şəkildə fərqlənir. Müxtəliflilik müəyyən dərəcədə şəxs şəkilçilərinə də aiddir” (R. Rüstəmov, 1965, s. 234).

Birinci şəxsin təki. Qərb qrupu şivələrində *-ıj, -ij, -uj, -üj, -aj, -əj,-ej, -oj, -öj* (samitlə

bitəndə), *-yaj, -e:j, -yəj,-yoj,-yöj,-yüj* (saitlə bitəndə), Gəncə şivəsində *-aj, -əj* (samitlə bitəndə), Bakı şivəsində *-aceg, -əceg,-ecəg, -ci* (samitlə bitəndə), *-yeceg* (saitlə bitəndə), Dərbənd şivəsində *-acağ,-əcağ, -əceg, -acəg, -əcəg, -ecəg-aceg, -acey,-əcey,-aciy,-əciy,-aci,-əci (*samitlə bitəndə), *-yacağ,-yəceg, -yəcəg* (saitlə bitəndə), Qubadlı şivəsində *-ac,-əc, -aj, -əj* (samitlə bitəndə), *-yac,-yəc, -yaj, -yəj (*saitlə bitəndə), Quba şivəsində - *acağ, -əcağ* (samitlə bitəndə), *-yəcağ, -ycağ, -cağ* (saitlə bitəndə), Naxçıvan qrupu şivələrində *-acax, - əcəx', -ac, -əc, -ace, -əce, -acı, -əci, -as, -əs, -cax, -cəx',-acəx', -əcək* (samitlə bitəndə), *-yacax, - yəcəx', -yac, -yəc, -yace, -yəce, -yacı, -yəci, -yas, -yəs, -cax, -yacəx',-c* (saitlə bitəndə), Zaqatala, Qax şivələrində *-acağ,-ajax -aca,-ac, -əcəy, -əcey,-əcəg,-əcə,-əc,-ec,-ec* (samitlə bitəndə), Təbriz şivəsində *-acaq, -əcək, -əc* (samitlə bitəndə), *-yacaq, -yəcək, -c* (saitlə bitəndə), Şəki şivəsində *-ıc,-ic, -uc,-üc,-c* (samitlə bitəndə), -yıc,-yic,-yuc,-yüc (saitlə bitəndə), keçid şivələrində - *ajax, - əjək, -əjə*x*', -əjəh, - acax, - əcək, -əcəh* (samitlə bitəndə), Göyçay şivəsində - *ac, - əc, - aj, - əj (*samitlə bitəndə), - *yac, - yəc, -c (*saitlə bitəndə), Muğan qrupu şivələrində - *ac, - əc, -acı*[i]*y,-əciy, -acağ,-əcəg* (samitlə bitəndə), - *yac, - yəc, -yacı*[i]*y, -yəciy, -yacağ,-yəcəg (*saitlə bitəndə), Şamaxı şivəsində *-acağ, -acıy, -ac, -əcəy, -əcəg, -əciy, -əc* (samitlə bitəndə), ayrım şivəsində *-ac,-aj,-adz,-ədz,* Cəbrayıl şivəsində *-ac,-aj,-əc,-əj, -azıy,-əziy (*samitlə bitəndə), *-yaz,-yəz* (saitlə bitəndə), Qərbi Azərbaycanın Çəmbərək şivəsində - *aj, - əj, -ıj,-ij,-uj,-üj* (samitlə bitəndə), *-yaj, - yəj,-yj (*saitlə bitəndə), Meğri şivələrində - *acax, - əcax, -eca*[ə]*x,-ecix,-ecəx,-ec (*samitlə bitəndə), - *yacax, - yəcax, -yecax, -yecəx,-yecıx,-yec (*saitlə bitəndə) qəti gələcək zaman şəkilçilərinə şəxs şəkilçiləri artırmaqla birinci şəxsin təki əmələ gəlir. Məsələn: *yazacam* "yazacağam" (Göyçay, Muğan), *duracı*[i]*yam* "duracağam", *görəciyəm* "görəcəyəm", *işdiyəcəm* "işləyəcəyəm" (Muğan), *qurujam* "quracağam", *düzüjəm* "düzəcəyəm", *çalıjam* "çalacağam", *saxlıyajam* "saxlayacağam", *üx'lüyəjəm* "yükləyəcəyəm" (Çəmbərək), *yazacəm* "yazacağam", *gələcəm* "gələcəyəm", *yi:əcəm* "yeyəcəyəm", *başdiyacam* "başlayacağam", *sürüyəcəm* "sürüyəcəyəm", alacam "alacağam" (Göyçay), *alıcam* "alacağam", *alcam* "alacağam", *oturcam* "oturacağam", *elicam //eliycam* "eləyəcəyəm", *işdicam //işdiycam* "işləyəcəyəm" (Şəki), *alacağam, qoyacağam, verəcağam* "verəcəyəm", *görəcağam* "görəcəyəm", *üşüyəcağam* "üşüyəcəyəm" (Təbriz), *dolduracam* "dolduracağam", *aparacıyam* "aparacağam", *deyəcəm* "deyəcəyəm", *deyəciyəm* "deyəcəyəm", *sazzıyıyacam* "sazlayacağam" (Naxçıvan), *otaracam//otarajam* "otaracağam", *biçəcəm//bicəjəm* "biçəcəyəm, *qoruyacam//qoruyajam* "qoruyacağam" (Qubadlı), *gələcağam* "gələcəyəm", *uzatacağam* "uzadacağam", *aparacağam, gələcegəm* "gələcəyəm", *yuxlayacegəm* "yuxulayacağam", *gələciyəm* "gələcəyəm", *dimiyəcəgəm* "deməyəcəyəm", *alaciyam* "alacağam", *gələciyəm* "gələcəyəm" (Dərbənd), *alacegəm//alecegem* "alacağam", *gedecegem* "gedəcəyəm", *getciyəm* "gedəcəyəm", *vərəcegəm* "verəcəyəm", *baxajam* "baxacağam", *gedəjəm* "gedəcəyəm", *udojam* "udacağam", *usdıyajam* "susayacağam", *gözdüyəjəm* "gözləyəcəyəm", *saxle:jam* "saxlayacağam" (qərb qrupu şivələri), *çıxacağam, çixacıyam//çıxacam* "çıxacağam" (Şamaxı), *vuracağam, gidəcağam* "gedəcəyəm", *tükəcağam* "tökəcəyəm", *başdiyəcağam* "başlayacağam" (Quba), *aladzıyam* "alacağam", *cələdziyəm* "gələcəyəm", *almıyadzam* "almayacağam", *cəlmiyədzəm* "gəlməyəcəyəm" (Cəbrayıl), *qərixacağam* "karıxacağam", *əliyəcağam* "eləyəcəyəm", *kəsecağam//k əsecəm* "kəsəcəyəm", *deyecağam//deyecəm* "deyəcəyəm" (Meğri) və s.

Birinci şəxsin cəmi. Qərb qrupu şivələrində *-ajıy, -əjiy,-əjey,-əje - aji, -əj,-ij,-üj, -ojuy, -öjüy* (samitlə bitəndə), *-yaıyj, -yajey, -yaj,-yjı, -yj,-yəjiy,-yəj,-yjey,-yojuy,-yojoy,-yjuy,-yöjuy,-*

yüj (saitlə bitəndə), Gəncə şivəsində *-ajıy, -əjiy* (samitlə bitəndə), Bakı şivəsində *-ece^{i}g,-ecou ğ, -ace:^{u}g, -acö:^{ü}g,-ecö^{ü}g,-əce:ig,-əc^{öü}g-ci* (samitlə bitəndə), *-yece :^{İ}g,-yecö:^{Ü}g* (saitlə bitəndə), Dərbənd şivəsində *-acağ//aceg// acey, -əcağ//əcəğ//əceg//əcey,-, -acəg, -əcəg, -ecəg-aceg, - aciy,-əciy,-ace,-əce (*samitlə bitəndə), *-yacağ,-yəcağ,-yəcəg* (saitlə bitəndə), Qubadlı şivəsində *-ac,-əc, -aj, -əj* (samitlə bitəndə), *-yac,-yəc, -yaj, -yəj (*saitlə bitəndə), Quba şivəsində *- aco:, -əco:* (samitlə bitəndə), *-yəco:, -yco:, -co:* (saitlə bitəndə), Naxçıvan qrupu şivələrində *-acax, - əcəx′, -ac, -əc, -ace, -əce, -acı, -əci, -cax, -cəx′,-acəx′, -əcək* (samitlə bitəndə), *-yacax, - yəcəx′, -yac, -yəc, -yace, -yəce, -yacı, -yəci, -cax, -yacəx′,-c* (saitlə bitəndə), Təbriz şivəsində *-acağ, -əcəğ, -aci,-əci,-ci* (samitlə bitəndə), *-yacaq, -yəcək, -c* (saitlə bitəndə), Şəki şivəsində *-ıc,-ic,-uc,-üc,-c* (samitlə bitəndə), -yıc,-yic,-yuc,-yüc (saitlə bitəndə), Muğan qrupu şivələrində *- ac, - əc, -acı^{i}y,-əciy, -acağ,-əcəg* (samitlə bitəndə), *- yac, - yəc, -yacı^{i}y,-yəciy, -yacağ,-yəcəg (*saitlə bitəndə), Şamaxı şivəsində *-acağ, -acıy, -ac, -əcəy, -əcəg, -əciy, -əc* (samitlə bitəndə), Cəbrayıl şivəsində *-ac,-aj,-əc,-əj,-azıy,-əziy (*samitlə bitəndə), *-yaz,-yəz* (saitlə bitəndə), Zaqatala -Qax şivəsində *-acağ,-acıy,-acey,-aca,-cey,-ajıy,-əcağ,-əcəy, -ecey,-əco:* (samitlə bitəndə), ayrım şivəsində *-ajıy,-ajey,-əjiy,-əjey,-əjəy,-əj,-adzıy,-ədziy*, Qərbi Azərbaycanın Çəmbərək şivəsində *- acıy, - əciy (*samitlə bitəndə), *-yacıy, - yəciy (*saitlə bitəndə), Meğri şivələrində *- eca^{ə} x, - ecıx,-ecəx,-eciy,-eca:^{ə},ecə:,-eci:,-ece: (*samitlə bitəndə), *- yeca^{ə}x, - yecəx,-yecıx,-yeciy,-yecca:,-yeca^{ə}, -yecə:,-yeci:,-yece: (*saitlə bitəndə) qəti gələcək zaman şəkilçilərinə şəxs şəkilçiləri artırmaqla birinci şəxsin cəmi əmələ gəlir. Məsələn: *baxajıyıx* "baxacağıq", *gedəjiyik* "gedəcəyik", *biləji:x′* "biləcəyik", *oxuyaje:x* "oxuyacağıq" (qərb qrupu şivələri), *alecö:^{ü}g //aleco:^{u}ğ//alace:^{i}g* "alacağıq", *gedecö:^{ü}g //getcö:^{ü}g* "gedəcəyik", *yece:^{i}g* "yeyəcəyik" (Bakı), *qalajıyıx* "qalacağıq", *gedəjiyix′* "gedəcəyik" (Gəncə), *alacağig* "alacağıq", *gələcağig* "gələcəyik", *işləyəcağiq* "işləyəcəyik", *uxuyacağu* "oxuyacağıq", *deyəcağu* "deyəcəyik" (Dərbənd), *alaco:^{u}ğ* "alacağıq", *gidəco:^{u}ğ* "gedəcəyik", *tükəc:^{u}ğ* "tökəcəyik", *başdiyco:^{u}ğ* "başlayacağıq" (Quba), *otaracı:x//otaraji:x* "otaracağıq", *biçəji:x′* "biçəcəyik" (Qubadlı), *alaceyıx//alacayıx* "alacağıq", *gələceyıx* "gələcəyik", *dorğıyaceyıx* "doğrayacağıq", *gözdüyəciyik* "gözləcəyik" (Naxçıvan), *çıxacağux* "çixacağıq", *gedəcağux//gidəciyux* "gedəcəyik", *tutaciyux* "tutacağıq", *gətirəciyux* "gətirəcəyik" (Təbriz), *oturcux //oturucux* "oturacağıq", *gəlicux* "gələcəyik", *gəlcax//gelicax* "gələcəyik" (Şəki), *yazacox* "yazacağıq", *gələcö:g* "gələcəyik", *biləcük* "biləcəyik", *yiyəceyig* "yeyəcəyik", *büriyəceyig* "bürüyəcəyik" (Muğan), *satajıyıx* "satacağıq", *quracıyıx* "quracağıq", *tikəjiyix′*"tikəcəyik", *gətirəciyix′*"gətirəcəyik" (Çəmbərək, Karvansaray) və s.

İkinci şəxsin təki. Qərb qrupu şivələrində *-ajax,-əjəx′,-ejəx′,-əjəy, -ojax,-öjəx′ (*samitlə bitəndə), *-yajax,-yəjəx′,-yejəx′, -yojax,-yöjəx′* (saitlə bitəndə), Gəncə şivəsində *-ajax,-əjəx′* (samitlə bitəndə), *-yajax,-yəjəx (*saitlə bitəndə), Bakı şivəsində *-aceg, - əceg* (samitlə bitəndə), *- yəceg (*saitlə bitəndə), Dərbənd şivəsində *-acağ, -acək, -aceg// acey, -acə,-əcə,-acəğ, -əcağ,-əcəg,-əcey, -acəg, -əcəg, -əceg* (samitlə bitəndə), *-yacağ,-yəcağ, -yəcəg* (saitlə bitəndə), Quba şivəsində *-acağ,-əcağ* (samitlə bitəndə), *-yəcağ,-ycağ, -cağ* (saitlə bitəndə), Qubadlı şivəsində *-as,-əs* (samitlə bitəndə), *-yas,-yəs* (saitlə bitəndə), Təbriz şivəsində *-acax,-əcax* (samitlə bitəndə), *-yacax,-yəcax* (saitlə bitəndə), Naxçıvan qrupu şivələrində *-acax, - əcəx′, -ac, -əc, -ace, -əce, -acı, -əci, -cax, -cəx′,-acəx′, -əcək* (samitlə bitəndə), *-yacax, - yəcəx′, -yac, -yəc, -yace, -yəce, -yacı, -yəci, -cax, -yacəx′,-c* (saitlə bitəndə), Şəki şivəsində *-ıc,-əca,-ica, -uca, -üca,-ca* (samitlə bitəndə), *-yıc,-yəca, -yica,-yuca,-yüca,-yca* (saitlə bitəndə), Muğan qrupu şivələrində *-acax,-əcək^{s}* (samitlə bitəndə), *-yacax,-yəcək^{s}* (saitlə bitəndə), Şamaxı şivələrində

*-acağ, -aca, -əcəy,-əcəg,-əcə (*samitlə bitəndə), *-yacağ, -yaca, -yəcəy, -yəcəg,-yəcə* (saitlə bitəndə), Zaqatala, Qax şivələrində *-acax, -ajax,-ajıx,-aceg,-cax,- acı,-ca,-əcax,-əcək, -əcey, -əcəy,-əcə,-cey* (samitlə bitəndə), *-acax, -ajax,-ajıx,-aceg, -cax,- acı,-ca,-əcax,-əcək,-əcey, -əcəy,-əcə,-cey* (saitlə bitəndə), Ayrım şivəsində *-ajax,- ajıy,- əjəx′, əjiy,-adzax,-ədzəx′ (*samitlə bitəndə), *-yajax,- yəjəx′,-yadzax,-yədzəx′ (*saitlə bitəndə), Göyçay şivəsində -acağ, -aca,-əcəg, -əcə (samitlə bitəndə), *-yacağ,-yaca,-yəcəg,-yəcə* (saitlə bitəndə), Ucar şivəsində *-acax, -ajax,-aja,-əcəx′, -əjəx′,-əjə* (samitlə bitəndə), *-yacax -yajax,-yəcəx′, -yəjəx′,-yəjə* (saitlə bitəndə), Qərbi Azərbaycanın Çəmbərək, Karvansaray şivələrində *-ajax, -əjəx′, -acax,-acağ, -acey, -əcəx′,-əcey* (samitlə bitəndə), *-ajax, -əjəx′ (*saitlə bitəndə), Meğri şivəsində *-ecax, -ecaᵊx,-ecəx,-ecıx,-ecə,-eci,-ec,* (samitlə bitəndə), *-yecax,-yecaᵊx,- yecəx, -yecıx, -yecə,-yeci, -yec* (saitlə bitəndə) qəti gələcək zaman şəkilçilərinə şəxs şəkilçiləri artırmaqla ikinci şəxsin təki əmələ gəlir. Məsələn: *gəlcasan* "gələcəksən", *alıcasan* "alacaqsan", *tikicasan* "tikəcəksən", oturucasan "oturacaqsan", *işliycasan* "işləyəcəksən", *alıcan* "alacaqsan", *diycən* "deyəcəksən" (Muğan), *alacaxsan* "alacaqsan", *gələciyəm //gələ:csən* "gələcəksən", *dorğıyacesan//dorğıyacaxsan* "doğrayacaqsan", *gözdüyəcsən* "gözləyəcəksən" (Naxçıvan), *alıcasan* "alacaqsan", *gəlcasan* "gələcəksən", *oturucasan* "oturacaqsan", *işdiycasan//işliycasan* "işləyəcəksən" (Şəki), *görəcaxsan* "görəcəksən", *dönəcaxsan* "dönəcəksən", *yetişəcaxsan* "yetişəcəksən" (Təbriz), *alacağsan* "alacaqsan", *gidəcağsan* "gedəcəksən", *tükəcağsan* "tökəcəksən", *başdiyacağsan//başdi:cağsan* "başlayacaqsan" (Quba), *düşəcağsan* "düşəcəksən", *gitacağsan* "gedəcəksən", *yağlayacağsan//yağlayacəgsən* "yağlayacaqsan", *alacegsən* "alacaqsan" (Dərbənd), *gedəcəgsən* "gedəcəksən", *alajaxsaŋ* "alacaqsan", *gedəjəx′səŋ* "gedəcəksən", *gələjeysən* "gələcəksən", *usdıyajaxsaŋ* "susayacaqsan", *yalladajaxsaŋ//yalladajaŋ* "alladacaqsan", *biləjəx′səŋ//biləjəx′əŋ* "biləcəksən" (Quba), *baxacağsan* "baxacaqsan", *əzəcəksən, görəjəksən* "görəcəksən", *biləcəsən* "biləcəksən", *gələcəysən* "gələıcəksən", *qurjan* "quracaqsan" (Ucar), *alcısan* "alacaqsan", *bilicisən* "biləcəksən", *durcusan//durucusan* "duracaqsan", *görcüsən//görücüsən* "görəcəksən" (Ağdaş) və s.

İkinci şəxsin cəmi. Qərb qrupu şivələrində *-ajax,-əjəx′,-ejəx′,-əjəy, -ojax,-öjəx′(*samitlə bitəndə), *-yajax,-yəjəx′,-yejəx′, -yojax,-yöjəx′* (saitlə bitəndə), Gəncə şivəsində *-ajax,-əjəx′* (samitlə bitəndə), *-yajax,-yəjəx (*saitlə bitəndə), Bakı şivəsində *-aceg, - əceg* (samitlə bitəndə), *- yəceg (*saitlə bitəndə), Dərbənd şivəsində *-acağ, -acək, -aceg// acey, -acə,-əcə, -acəğ,-əcağ, -əcəg,-əcey, -acəg, -əcəg, -əceg* (samitlə bitəndə), *-yacağ,-yəcağ, -yəcəg* (saitlə bitəndə), Quba şivəsində *-acağ,-əcağ* (samitlə bitəndə), *-yəcağ,-ycağ, -cağ* (saitlə bitəndə), Təbriz şivəsində *-acax,-əcax* (samitlə bitəndə), *-yacax,-yəcax* (saitlə bitəndə), Naxçıvan qrupu şivələrində *-acax, - əcəx′, -ac, -əc, -ace, -əce, -acı, -əci, -cax, -cəx′,-acəx′, -əcək* (samitlə bitəndə), *-yacax, - yəcəx′, -yac, -yəc,-yace, -yəce, -yacı, -yəci, -cax, -yacəx′,-c (*saitlə bitəndə), Şəki şivəsində *-ıc,-əca,-ica,-uca, -üca,-ca* (samitlə bitəndə), *-yıc,-yəca, -yica,-yuca, -yüca,-yca* (saitlə bitəndə), Muğan qrupu şivələrində *-acax,-əcəkˢ* (samitlə bitəndə), *-yacax,-yəcəkˢ* (saitlə bitəndə), Şamaxı şivələrində *-acağ, -aca, -əcəy,-əcəg,-əcə (*samitlə bitəndə), *-yacağ, -yaca, -yəcəy, -yəcəg,-yəcə* (saitlə bitəndə), Zaqatala, Qax şivələrində *-acax, -ajax,-ajıx,-aceg,-cax, - acı,-ca,-əcax,-əcək,-əcey,-əcəy,-əcə,-cey* (samitlə bitəndə), *-acax, -ajax,-ajıx,-aceg, -cax, - acı, -ca,-əcax,-əcək,-əcey, -əcəy,-əcə,-cey* (saitlə bitəndə), ayrım şivəsində *-ajax,- ajıy,- əjəx′, -əjiy,-adzax,-ədzəx′ (*samitlə bitəndə), *-yajax,- yəjəx′, -yadzax,-yədzəx′ (*saitlə bitəndə), Göyçay şivəsində -acağ,-aca,-əcəg,-əcə (samitlə bitəndə), *-yacağ, -yaca, -yəcəg, -yəcə* (saitlə

bitəndə), Ucar şivəsində *-acax, -ajax,-aja,-əcəx′, -əjəx′,-əjə* (samitlə bitəndə), *-yacax, -yajax, -yəcəx′, -yəjəx′,-yəjə* (saitlə bitəndə), Qərbi Azərbaycanın Çəmbərək, Karvansaray şivələrində *-ajax, -əjəx′, -acax,-acağ, -acey,-əcəx′,-əcey,* (samitlə bitəndə), *-ajax, -əjəx′ (*saitlə bitəndə), Meğri şivəsində *-ecax,-ecaᵊx,-ecəx,-ecıx,-ecə,-eci,-ec,* (samitlə bitəndə), *-yecax, -yecaᵊx,- yecəx, -yecıx, -yecə,-yeci,-yec* (saitlə bitəndə) qəti gələcək zaman şəkilçilərinə şəxs şəkilçiləri artırmaqla ikinci şəxsin təki əmələ gəlir. Məsələn: *yatajaxsıŋız* "yatacaqsınız", *gələjəx′siŋiz* "gələcəksiniz" (qərb qrupu şivələri), *alecegsüz* "alacaqsınız", *gedəcəgsüz* "gedəcəksiniz" (Bakı), *alacegsüz//alacağsuz* "alacaqsınız", *biləcəgsüz* "biləcəksiniz", u*xuyaceysüz* "oxuyacaqsınız" (Dərbənd), *alacağsuz* "alacaqsınız", *gidəcağsuz* "gedəcəksiniz", *tükəcağsuz* "tökəcəksiniz" (Quba), *qurtaracaxsus* "qurtaracaqsınız", *alacaxsus* "alacaxsus", *girəcaxsus* "girəcəksiniz" (Təbriz), *alacaxsıŋız//alacaxsız//alacesiz* "alacaqsınız", *gələcaxsız//gələ:csıŋız* "gələcəksiniz", *dorğyacesizı//dorğıyacaxsısıŋız* "doğrayacaqsınız" (Naxçıvan), *yazacaxsuz* "yazacaqsınız", *gedəcəgsüz* "gedəcəksiniz", d*uracağsuz* "duracaqsınız" (Muğan), *gəlcasuz* "gələcəksiniz", *alıcasıŋız* "alacaqsınız", *qırcasıŋız* "qıracaqsınız" (Şəki), *galaceksiz* "gələcəksiniz" (Zaqatala), *kəsecaxsız* "kəsəcəksiniz", *yıxecıxsız* "yıxacaqsınız" (Meğri), *verəjəx′siŋiz* "verəcəksiniz", *yığajaxsıŋız* "yığacaqsınız" (Çəmbərək) və s.

Üçüncü şəxsin təki və cəmi. Azərbaycan dili şivələrində qəti gələcək zaman üçüncü şəxsin təkində və cəmində eyni zaman şəkilçisini qəbul edir. Üçüncü şəxsin təki cəmindən şəxs şəkilçisinə görə fərqlənir. Üçüncü şəxsin təki heç bir şəxs şəkilçisi qəbul etmir və üçüncü şəxsin təki *-dı,-di* (Şəki), *-dı,-di,-du,-dü (*Dərbənd), cəmi isə qəti gələcək zaman şəkilçisinə cəmlik bildirən *-lar,-lər* (əksər şivələrdə), *-la,-lə* (Dərbənd,Təbriz) şəkilçisinin birləşməsindən əmələ gəlir. Qəti gələcək zaman üçüncü şəxsin təki və cəmi Qərb qrupu şivələrində *-ajax,-əjəx′, -əjex, -ojax, -öjəx′* (samitlə bitəndə*), -yajax, -yəjəx′, -yəjex, -yojax, -yöjəx′ (*saitlə bitəndə), Naxçıvan qrupu şivələrində *acax, - əcəx′, -ac, -əc, -ace, -əce, -acı, -əci, -cax, -cəx′, -acəx′, -əcək* (samitlə bitəndə), *-yacax, - yəcəx′, -yac, -yəc,-yace, -yəce, -yacı, -yəci, -cax, -yacəx′,-c* (saitlə bitəndə), Şəki şivəsində *-ıcax,-icax, -cax,-cix′, -ıcix′,-icix′,-ücix′, -ıjax, -ijax,ujax,-üjax,-üjeh,-jüx′,* (samitlə bitəndə), -ycax (saitlə bitəndə), Qubadlı şivəsində*, -acax, -əcəx′,-ajax, -əjəx′ (*samitlə bitəndə), *-yacax, -yəcəx′, -yajax, -yəjəx′ (*saitlə bitəndə), Təbriz şivəsində *-acax, -əcax (*samitlə bitəndə), *-yacax, -yəcax (*saitlə bitəndə), Quba şivəsində *-acağ,-əcağ* (samitlə bitəndə), *-yəcağ, -ycağ, -cağ* (saitlə bitəndə), Dərbənd şivəsində *-acağ, -acək, -aceg// acey, -acə, -əcə,-acəğ,-əcağ,-əcəg,-əcey, -acəg, -əcəg, -əceg* (samitlə bitəndə), *-yacağ,-yəcağ, -yəcəg* (saitlə bitəndə), Bakı şivəsində *-acəg,-eceg,-əceg* (samitlə bitəndə), *-yeceg* (saitlə bitəndə), Meğri şivəsində *-ecax,-ecaᵊx,-ecəx, -ecex,-ecıx* (samitlə bitəndə), *-ecax,-ecaᵊx, -ecəx,-ecex, -ecıx*(saitlə bitəndə) zaman şəkilçisi əsasında formalaşır. Məsələn: *alajax* "alacaq", *alajaxlar* "alacaqlar", *yü:rəjəx′* "yüyürəcək", *yü:rəjəx′lər* "yüyürəcəklər" (qərb qrupu şivələri), *alacax //alacex′* "alacaq", *gələcax//gələcəx′* "gələcək", *gələcaxlar//gələcəx′lər* "gələcəklər", *dorğıyacex′// dorğıyacax* "doğrayacaq" (Naxçıvan), *alacegdi* "alacaqdı", *alacegdilə* "alacaqdılar", *gələcağdı//gələcegdi* "gələcəkdi", *gələcağdılar// gələcegdilər* "gələcəkdilər", *biləcədi // biləcəgdi* "biləcəkdi", *biləcədilə // biləcəgdilə* "biləcəkdilər" (Dərbənd), *donacax* "donacaq", *tutacax* "tutacaq", *biləcax* "biləcəkdi", *birləşəcaxla* "birləşəcəklər", *girəcaxla* "girəcəklər", *inanmiyacax* "inanmayacaq", *almiyacux* "almayacaq" (Təbriz), alacağ "alacaq", *alacağlar* "alacaqlar", *gidəcağ* "gedəcək", *gidəcağlar* "gedəcəklər", *başdiyəcağ// başdiycağ// başdicağ* "başlayacaq"

(Quba), *alıcaxdı* "alacaqdı", *tikicaxdı* "tikəcəkdi", *aparcix'di* "apacaqdı", *sürüjaxdı* "sürəcəkdi", *yuxliyjaxdı* "yuxulayacaqdı", *yazıjehdi* "yazacaqdı", *yazıjehdilər* "yazacaqdılar" (Şəki), *pozacax* "poizacaq", *keçəcəx'* "keçəcək", *satajax* "satacaq", *satajaxlar* "satacaqlar", *gətirəjəx'* "gətirəcək", *gətirəjəx'lər* "gətirəcəklər" (Qubadlı), *baxacax//baxacağ* "baxacaq", *görəcək, saxlıyacax// saxlıyacağ* "saxlayacaq" (Muğan) və s.

2. -ası, -as, -əsi,-əs,-es,-sa şəkilçiləri əsasında qəti gələcək zamanın əmələ gəlməsi.

Azərbaycan dilinin Qazax, Şəki, Gədəbəy, İrəvan, Ordubad şivələrində qəti gələcək zaman *-ası, -əsi,* Cəbrayıl, Laçın, Göyçay şivələrində qəti gələcək zaman *-as, -əs* şəkilçiləri ilə də formalaşır (R.Rüstəmov, 1965, s.239). Bununla yanaşı Naxçıvan qrupu şivələrində *-as, -əs* (samitlə bitəndə), *-yas, -yəs* (saitlə bitəndə), Qubadlı şivəsində *-as,-əs* (samitlə bitəndə), *-yas,-yəs* (saitlə bitəndə), Qərbi Azərbaycanın Çəmbərək, Karvansaray şivələrində *-as,-əs, -ası* (samitlə bitəndə), Meğri *-es, -sa* (samitlə bitəndə), *-yes* (saitlə bitəndə) şəkilçiləri artırmaqla feilin qəti gələcək zamanı əmələ gəlir. Məsələn: aparassan "aparacaqsan", *gətirəssən* "gətirəcəksən", *qarşılıyassan* "qarşılayacaqsan" *güleysən* "güləcəksən", *qalassıŋız* "qalacaqsınız", *aparassĩ:z* "aparacaqsınız" (Qubadlı), *gedəssən* "gedəcəksən" (Ordubad), *gələssən* "gələcəksən" (Cəbrayıl). "Azərbaycan ədəbi dilində daha çox XIV-XVI əsrlərdə qəti gələcək zaman şəkilçisi kimi *-ası,-əsi* sonradan həmin vəzifəni ifa etməmiş, lakin bir sıra dialekt və şivələrimizdə bu gün belə öz əsas vəzifəsini qoruyub saxlaya bilmişdir. Bu şəkilçi bəzi dialekt və şivələrimizdə fonetik tərkibcə heç bir dəyişikliyə uğramamışsa, bəzilərində (Naxçıvan, Ordubad və s.) sonuncu səslilərini (saitlərini – İ.B.) itirmişdir: -as< -ası,-əs< -əsi" (R.Rüstəmov, 1965, s.241-242).

Cəbrayıl rayonunun Dağ Tumas kənd şivəsində ikinci şəxs təkində *-eys,* Göyçay rayonunun Çərəkə kəndində *-ey,-ıya,-iyə* formasında özünü göstərir. Məsələn: qoyeyssən "qoyacaqsan", gəleyssən "gələcəksən", qoyeyssiŋiz "qoyacaqsınız", gəleyssiŋiz "gələcəksiniz" (Cəbrayıl) gede:ysuz//gediyəsuz "gedəcəksiniz" (Göyçay) (R.Rüstəmov, 1965, s. 239).

3. *-aş,-əş,-eş,-oş,-öş,-ış,-iş,-uş,-üş* şəkilçiləri əsasında qəti gələcək zamanın əmələ gəlməsi.

Qazax, Borçalı, Cəbrayıl, Gədəbəy, Daşkəsən, Göygöl, Tovuz, Şəmkir şivələrində feilin qəti gələcək zamanı *-aş,-əş,-eş,-oş,-öş,-ış,-iş,-uş,-üş* şəkilçisinə şəxs şəkilçisi artırmaqla ifadə olunur. R.Rüstəmov yazır ki, *-aş,-əş,-eş,-oş,-öş,-ış,-iş,-uş,-üş* şəkilçisi yuxarıda göstərilən şivələrin hamısında deyil, yalnız bu və ya digər şivələrdə müşahidə olunur. Qazaxın Aşıqlı, Borçalının Lejbədin, Şəmkirin Çaparlı, Cəbrayılın Soltanlı, Gədəbəyin İsalı, Daşkəsənin Almalı, Göygölün Qızılca kənd şivələrində ikinci şəxs təkdə və cəmdə, Qazaxın İkinci Şıxlı, Astanbəyli, Qaymaqlı kənd şivələrində ikinci şəxs təkdə *-aş,-əş,* Tovuzun Düz Qırıqlı, Qovlar şivələrində ikinci şəxs tək və cəmdə *-ış,-iş,-uş,-üş,* Xatınlı kəndində *-aş,-eş,-oş, -öş* zaman şəkilçisi işlənir. Lejbədin, Çaparlı, İsalı, Düz Qırıqlı və Xatınlı kəndlərində təkdə *-şaŋ,-şəŋ,* cəmdə *-şıŋız,-şiŋiz, -şuŋuz, -şüŋüz,* Aşıqlı, Qovlar şivələrində təkdə *-daŋ,-dəŋ, cəmdə -dıŋız, -diŋiz, -duŋuz,-düŋüz,* digər kənd şivələrində isə qəti gələcək zamanda işlədulən şəxs şəkilçiləri işlənir (R.Rüstəmov, 1965, s.242-243). Məsələn: *alaşşaŋ* "alacaqsan", *gələşşəŋ* "gələcəksən", alaşşıŋız "qalacaqsınız", *gələşşiŋiz* "gələcəksiniz" (Borçalı) *qalaşşaŋ* "qalacaqsan", *gələşşəŋ* "gələcəksən" (Şəmkir), *quraşşıŋız* "quracaqsınız", *görəşşiŋiz* "görəcəksiniz" (Gədəbəy), *qalışşıŋız* "qalacaqsınız", *gəlişşiŋiz* "gələcəksiniz", *quruşşuŋuz* "quracaqsınız", *düzüşşüŋüz* "düzəcəksiniz", *alaşşaŋ* "alacaqsan", *tərgizeşşəŋ* "tərgidəcəksən", *uçuroşşuŋuz*

"uçuracaqsınız", *düzöşşüŋüz* "düzəcəksiniz" (Tovuz), *alaşdaŋ* "alacaqsan", *bejərəşdəŋ* "becərəcəksən", *alaşdıŋız* "alacaqsınız", *bejərəşdiŋiz* "becərəcəksiniz" (Qazax), *qaçışdıŋız* "qaçacaqsınız", *vuruşduŋuz* "vuruşacaqsınız" (Tovuz), *baxaşsaŋ* "baxacaqsan", *gələşsəŋ* "gələcəksən" (Qazax, Göygöl), qalaşsaŋ "qalacaqsan", *qalaşsaŋ* "qalacaqsan", *quraşsĩ:z* "quracaqsınız", *gələşsĩ:z* "gələcəksiniz" (Cəbrayıl) və s.

Qeyri-qəti gələcək zaman

Azərbaycan dili şivələrində feilin qeyri-qəti gələcək zamanı ədəbi dilimizdə olduğu kimi *-ar,-ər* və ədəbi dildən fərqli olaraq -r (-ar, -ər şəkilçisindəki saitin düşməsi nəticəsi olaraq) və *-ı,-i,-u, -ü* şəkilçisinə müvafiq şəxs şəkilçisinin artırılması yolu ilə əmələ gəlir.

1.*-ar,-ər,-r* şəkilçisinin əlavəsi əsasında qeyri-qəti gələcək zamanın əmələ gəlməsi. Şivələırimizdə bütün şəxslərin təki və cəmində qeyri-qəti gələcək zaman feillərə *-ar,-ər,-r* şəkilçisinin artırılması əsasında əmələ gəlir. Qeyri-qəti gələcək zaman qərb qrupu şivələrində *-ar,-ər (*samitlə bitəndə), *-yar,-yər,-r* (saitlə bitəndə) şəkilçisinə birinci şəxsin təkində *-am,-əm,* birinci şəxsin cəmində *-ıx′,-ix′,-ux′,-üx′,* ikinci şəxsin təkində *-saŋ,-səŋ,* ikinci şəxsin cəmində *-sıŋız,-siŋiz,* üçüncü şəxsin cəmində *-lar,-lər* şəxs şəkilçisini, Şəki şivəsində*-ar,-ər (*samitlə bitəndə), *-yar,-yər* (saitlə bitəndə) şəkilçisinə birinci şəxsin təkində *-am,-əm,* birinci şəxsin cəmində *-ıx,-ux* ikinci şəxsin təkində *-san,-sən,* ikinci şəxsin cəmində *-sız, -suz,-siŋiz,* üçüncü şəxsin cəmində *-lar,-lər* şəxs şəkilçisini, Quba şivəsində *-ar,-ər (*samitlə bitəndə), *-yər,-r* (saitlə bitəndə) şəkilçisinə birinci şəxsin təkində *-am,-əm,* birinci şəxsin cəmində *-uğ,-ux,* ikinci şəxsin təkində *-san,-sən,* ikinci şəxsin cəmində *-suz,-süz,* üçüncü şəxsin cəmində *-lar,-lər* şəxs şəkilçisini, Təbriz şivəsində *-ar,-ər (*samitlə bitəndə), *-yər,-r* (saitlə bitəndə) şəkilçisinə birinci şəxsin təkində *-am,-əm, -ım,-im,* birinci şəxsin cəmində *-ux,* ikinci şəxsin təkində *-san,-sən,* ikinci şəxsin cəmində *-sı:z,-si:z,-su:s,-sü:s,* üçüncü şəxsin cəmində *-la,-lə* şəxs şəkilçisini, Dərbənd şivəsində *-ar,-ər (*samitlə bitəndə), *-yar,-yər* (saitlə bitəndə) şəkilçisinə birinci şəxsin təkində *-am,-əm,* birinci şəxsin cəmində *-uq,-ük,-üq,-üg,-uğ,-ek,-ig,* ikinci şəxsin təkində *-san,-sən, -sa,-sə,* ikinci şəxsin cəmində *-sız,-siz,-suz, -süz,* üçüncü şəxsin cəmində *-lar,-lər,-la,-lə* şəxs şəkilçisini, Naxçıvan qrupu şivələrində -ar,-ər (samitlə bitəndə), -yar,-yər,-r (saitlə bitəndə) şəkilçisinə birinci şəxsin təkində -am,-əm, birinci şəxsin cəmində *-ıx-ik,-ix′,* ikinci şəxsin təkində *-san,-sən,* ikinci şəxsin cəmində *-sız,-siz, -sıŋız,* üçüncü şəxsin cəmində *-lar,-lər* şəxs şəkilçisini, Qubadlı şivəsində -ar,-ər (samitlə bitəndə), -yar,-yər (saitlə bitəndə) şəkilçisinə birinci şəxsin təkində *-am,-əm,* birinci şəxsin cəmində *-ıx′,-ix′,* ikinci şəxsin təkində *-saŋ,-səŋ, -san,-sən,* ikinci şəxsin cəmində *-sıŋız,-sız,-siz, -sĩ:z,* üçüncü şəxsin cəmində *-lar,-lər* şəxs şəkilçisini, Bakı şivəsində *-ar,-ər* (samitlə bitəndə), *-yər* (saitlə bitəndə) şəkilçisinə birinci şəxsin təkində *-am,-əm,* birinci şəxsin cəmində *-uğ,-üg,-ig,* ikinci şəxsin təkində *-san,-sən,* ikinci şəxsin cəmində *-suz,-süz,* üçüncü şəxsin cəmində *-lar,-lər* şəxs şəkilçisini, Meğri şivəsində *-ar,-aᵊr, -ər (*samitlə bitəndə), -yar,yaᵊr,*-yər,-r* (saitlə bitəndə) şəkilçisinə birinci şəxsin təkində *-am,-aᵊm, -əm,* birinci şəxsin cəmində *-ıx,-ix,-ux,-üx,* ikinci şəxsin təkində *-san,-saᵊn,-sən,* ikinci şəxsin cəmində -sız,-siz,*-suz,-süz,* üçüncü şəxsin cəmində *-lar,-laᵊr,-lər,-la,-lə* şəxs şəkilçisini artırmaqla əmələ gəlir. Məsələn: *baxaram, gözdər* "gözləyər", *gedərsəŋ* "gedərsən", *baxarıx* "baxarıq", *gedərsiŋız* "gedərsiniz", *gözdərix′* "gözlərik", *gedəllər* "gedərlər" (qərb qrupu şivələri), *baxaram, başdaram* "başlayaram", *baxarux* "baxarıq", *başdarsan* "başlayarsan", *baxarsuz* "baxarsınız", *qaçarsan, qaçarsuz* "qaçarsınız", *gedərsən, gedərsüz* "gedərsiniz" (Muğan), *yazaram, gedərəm,* gidərux//gidəruğ "gedərik", *yazarsan, gedərsən, yazarsuz* "yazarsınəz", gedərsüz

“gedərsiniz”, *yazar, gedər, yazallar* “yazarlar”, *gedəllər* “gedərlər” (Quba), *bağlaram* “bağlayaram”, *gəzərəm, yetişərəm, çıxarux* “çıxarıq”, *düşərux* “dişərik”, *sökərux* “sökərik” (Təbriz), *alaram, alarsan, alar, alaruq* “alarıq”, *alarsuz* “alarsınız”, *alarlar, gülərəm, gülərsə* “gülərsən”, gülər, güləreg “gülərik”, *gülərsiz//gülərsüz* “güərsiniz”, *qaçaram, açarsa* “açarsan”, *açar//aça* “”açar”, *açaruq //açarüq* “açarıq”, *açarsuz* “açarsınız”, *açarlar//açarla* “açarlar” (Dərbənd), *allam //alaram* “alaram”, *alarsan, alar, allıx//alarıx* “alarıq”, *gələrəm//gəlləm* “gələrəm”, *gələrsən, gələrix′//gəllıx//gələrıx* “gələrik”, *gələrsıŋız//gələrsız//gələrsiz* “gələrsiniz” (Naxçıvan), *alaram, alarsan//alarsaŋ* “alarsan”, *gələrəm// gələrsəŋ* “gələrsən”, *alar, gələr, alarıx* “alarıq”, *alrsĩ:z//alarsıŋız* “alarsınız”, *gələrsiz// gələrsiŋiz* “gələrsiniz”, *alallar* “alarlar”, *gələllər* “gələrlər” (Qubadlı), *yazaram, yazarsan, yazar, yazaruğ//yazarig* “yazarıq”, *yazarsuz* “yazarsınız”, *yazar//yazallar* “yazarlar”, *gedərüg* “gedərik”, *gedırsüz* “gedərsiniz”, *gedər//gedəllər* “gedərlər” (Bakı), *yazaram, gəzərəm, üşüyərəm, açarsan, dinərsən, açarsız* “açarsınız”, *sürüyərsiz//sürürsüz* “sürüyərsiniz”, *dannar* “danlayar”, *sürüyəllə* “sürüyərlər”, *büriya*^{ə}*lla*^{ə}*r* “bürüyərlər” (Meğri), *yığaram, yığarsaŋ* “yığarsan”, *səpərsəŋ* “səpərsən”, *yığar, üzər, toxuyarıx* “toxuyarıq”, *toxuyarısıŋız* “toxuyarızınız”, *gələrsiŋiz* “gələrsiniz”, *baxallar* “baxarlar”, *deyəllər* “deyərlər” (Çəmbərək) və s.

A zərbaycan dili şivələrində qeyri-qəti gələcək zaman şəkilçisi -*ar*,-*ər* sonu **l, n** samitlərti ilə bitən feillərə qoşulduqda “qeyri-qəti gələcək zaman şəkilçisindəki r səsi həmin səslərin (**l, n** səslərinin) təsiri ilə müvafiq şəkildə **l və n** səsləri ilə əvəzlənir. Bu halda zaman şəkilçisindəki açıq **a, ə** səsləri də düşür; məs.: allam<alaram, alluğ < alarıq (Quba), dönnəm < dönərəm, dönnüx′ < dönərik (Qazax). **r sonor** səsi ilə bitən feillərdə isə zaman şəkilçisindəki açıq **a, ə** səsliləri (saitləri-İ.B) düşür və o (zaman şəkilçisi) **-r** şəklində işlənir; məs.: qurram < quraram, görrəm < görərəm (Şamaxı)” (R.Rüstəmov, 1965, s.245).

2.-*ı,-i,-u,-ü* şəkilçisinin əlavəsi əsasında qeyri-qəti gələcək zamanın əmələ gəlməsi.Təbriz, Göyçayın Ləkçılpaq, Cəbrayılın Papı, Soltanlı, Qərbi Azərbaycanın Çəmbərəyin Gölkənd şivələrində qeyri-qəti gələcək zaman eyni zamanda -*ı,-i,-u,-ü* şəkilçisi əsasında əmələ gəlir. Məsələn: *doldurusan* “doldurarsan”, *gəli* “gələr”, *salı* “salar”, diyi “deyər” (Təbriz), *oli* “olar” (Göyçay), *gəlisən* “gələrsən” (Cəbrayıl), gedzi “gedər” (Çəmbərək) və s .

XVIII – XX əsrlərdə ***-ı,-i,-u,-ü*** qeyri-qəti gələcək zaman şəkilçisi yerində işlənmişdir.

Məsələn:

Yay kimi nə gözəl çəkibsən qaşı,
Ona söz yox, hər nə desəm **yaraşı.**
(M.P.Vaqif)

Ey Nəbati, nə qədər var isə ömrün xətt yaz,
Aqibəti bir gün olur kim, **gəli** bir karə bu xətt.
(Nəbati)

Qızların şikvəsini gər eşidə şahi-cahan,
Bağlar əl-qollaruvi, **göndəri** zindanə səni.
(Möcüz)
(R.Rüstəmov, 1965, s.250).

Qəti Gələcək Zaman Feillərinin Təsrifi

Qərb qrupu şivələri üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	alajam	alajıyıx//alaje:x	gələjəm	gələjiyix′//gələjex′
II	alajaxsaŋ	alajaxsıŋız	gələjəx′səŋ	gələjəx′siŋiz
III	alajax	alajax(lar)	gələjəx′	gələjəx′ (lər)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	almeyjam// almıjam	almeyjıx// almıjeyıx	gəlmeyjəm// gəlmijəm	gəlmeyjiyix′// gəlmijix′
II	almeyjaxsaŋ // almıjasaŋ	almeyjaxsıŋız //almıjaxsıŋız	gəlmeyjəx′səŋ //gəlmijəx′səŋ	gəlmeyjəx′siŋiz// gəlmijəx′siŋiz
III	almeyjax// almıjax	almeyjax// almıjax (lar)	gəlmeyjəx′// gəlmijəx′	gəlmeyjəx′// gəlmijəx′ (lər)

Şəki şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	yazıjam	yazıjıx//yazıjeyıx	gezdiricam	gezdiricux
II	yazıjehsan	yazıjehsız	gezdiricasan	gezdiricasuz
III	yazıjehdi	yazıjehdi (lər)	gezdircax	gezdircax (lar)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	yazmicam	yazmicax	gezdirmicam	gezdirmicux
II	yazmicasan	yazmicasĩ:z	gezdirmicasan	gezdirmicasuz
III	yazmicatdı	yazmicatdı(lar)	gezdirmicax	gezdirmicax (lar)

Bakı şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	alecegəm	alecö:^{ü} g//aleco:^{u}ğ	getciyəm	getcö:^{ü} ^{g}
II	alecegsən	alecegsüz	getcegsən	getcegsüz
III	aleceg	aleceg (lər)	getceg	getceglər

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	alme:cegəm	almecö:^{ü}g//aleco:^{u}ğ	getmiciyəm	getmicö:^{ü} g
II	alme:cegsən	almecegsüz	getmicegsən	getmicegsüz
III	alme:ceg	almeeceg (lər)	getmiceg	getmiceglər

Quba şivəsi üzrə

Təsdiq

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	alacağam	alaco:^{u} ğ	gidəcağam	gidəco:^{u} ğ
II	alacağsan	alacağsuz	gidəcağsan	gidəcağsuz
III	alacağ	alacağ (lar)	gidəcağ	gidəcağ (lar)

İnkar

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	almicağam //almeycağm	almico:^{u} ğ// almeyco:^{u} ğ	gidmicağam	gidmico:^{u} ğ// gidmeyco:^{u} ğ
II	almicağsan// almeycağsan	almicağsuz//almeyca ğsuz	gidmicağsan	gidmicağsuz// gidmeycağsuz
III	almicağ// almeycağ	almicağ // almeycağ(lar)	gidmicağ	gidmicağ// gidmeycağ (lar)

Dərbənd şivəsi üzrə

Təsdiq

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	alaciəm	alaceik	gələcağam	gələcağig// gələcegig
II	alacegsə// alacegsən	alacegsiz//alacegsüz	gələcağsan// gələcegsən	gələcağsuz// gələcegsüz
III	alacegdi	alacegdilə	gələcağdi// gələcegdi	gələcağdılar// gələcegdilər

İnkar

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	almiciəm	almiceik	gəlmiyəcağam// gəlmiyəcegəm	gəlniyəcağig// gəlmiyəcegig
II	almicegsə// almicegsən	almicegsiz// almicegsüz	gəlmiyəcağsan// gəlmiyəcegsən	gəlmiyəcağsuz// gəlmiyəcegsüz
III	almicegdi	almicegdilə	gəlmiyəcağdi// gəlmiyəcegdi	gəlmiyəcağdılar// gəlmiyəcegdilər

Naxçıvan qrupu şivələri üzrə
Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	alaceyəm// alacam// alacağam	alaceyıx// alacayıx	gələcağam// gələciyəm	gələceyıx// gələciyix′
II	alacaxsan// alacesən	alacaxsıŋız// alacaxsız// alacesiz	gələcaxsan// gələ:csən	gələcaxsız// gələ:csıŋız
III	alacax//alacex′	alacax// alacex′	gələcax//gələcax′	gələcax(lar)//gələcax′

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	almıyaceyəm// almıyacam	almıyaeyıx// almıyacayıx	gəlmiyəciyəm// gəlmiyəcəğam	gəlmiyəciyix// gəlmiyəceyıx
II	almıyacaxsan// almıyacesən	almıyacaxsız// almıyacesiz	gəlmiyə:csən// gəlmiyəcaxsən	gəlmiyəcaxsız// gəlmiyə:csıŋız
III	almıyacax// almıyacex′	almıyacax// almıyacex′	gəlmiyəcax// gəlmiyəcəx′	gəlmiyəcax(lar)// gəlmiyəcəx′

Qeyri - Qəti Gələcək Zaman Feillərinin Təsrifi

Qərb qrupu şivələri üzrə
Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	taparam	taparıx	gələrəm	gələrix′
II	taparsaŋ	taparsıŋız	gələrsəŋ	gələrsiŋiz
III	tapar	tapallar	gələr	gələllər

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	tapmaram// tapbaram	tapbarıx	gəlmərəm	gəlmərix′
II	tapmazsaŋ// tapbassan	tapbassıŋız	gəlməzsəŋ	gəlməssiŋiz
III	tapbas	tapbas(lar)	gəlməz	gəlməs(lər)

Şəki şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	durram	durrux	bölləm	böllux′
II	durarsan	durarsıŋız	bölərsən	bölərsĩ:z
III	durar	durar//durallar	bölər	bölər//bölələr

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	durmuram	durmurux	bölməzəm	bölmərix′
II	durmassan	durmassıŋız	bölməssən	bölməssĩ:z
III	yazmicasĩ:z	durmas//durmazllar	bölnməssən	bölməs// bölməs(lər)

Bakı şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	yazaram	yazaruğ//yazarig	gülləm	güllüg//gülərig
II	yazarsan	yazarsuz	gülərsən	gülərsüz
III	yazar	yazar//yazallar	gülər	gülər//gülələr

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	yazmanam	yazmanuğ//yazmanığ// yazmanig//yazmarığ	gedmənəm	gedmənüg//gedmənig// gidmərig//gidmərüg
II	yazmassan	yazmassuz	gedməssən	gedməssüz//gedmessüz
III	yazmaz	yazmaz//yazmazdar	gedməz	gedməz// gedməzdər

Quba şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	yazaram	yazaruğ//yazarux	yiyərəm	yiyəruğ//yiyərux
II	yazarsan	yazarsuz	yiyərsən	yiyərüz
III	yazar	yazar(lar)	yiyər	yiyər(lər)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	yazmanam// yazmaram	yazmanuğ//yazmarux	yimərəm// yimənəm	yimaruğ// yimərux// yimənuğ
II	yazmassan// yazmasan// yazmarsan	yazmassuz//yazmasuz //yazmarsuz	yimərsən// yiməsən// yiməssən	yimərsüz//yiməsüz// yiməssüz
III	yazmaz	yazmaz//yazmarlar	yimər//yiməz	yimər//yiməz(lər)

Dərbənd şivəsi üzrə
Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	alaram	alaruq	gələrəm	gələrük
II	alarsan	alarsuz	gələrsən	gələrsüz
III	alar	alarlar	gələr	gələr(lər)

İnkar
İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	almaram	almaruq	gəlmərəm	gəlmərüg
II	almarsan	almarsuz	gəlmərsən	gəlmərsüz
III	almar	almarlar	gəlmər	gəlmər(lər)

Naxçıvan qrupu şivələri üzrə
Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	alaram//allam	allıx//alarıx	gəlləm//gələrəm	gəllix′//gəllıx// gələrıx
II	alarsan	alarsıŋız//alarsız	gələrsən	gələrsız//gələrsız// gələrsıŋız
III	alar	alar	gələr	gələllər

Feilin Arzu Şəkli

Azərbaycan dili şivələrində feilin arzu şəkli morfoloji əlamətinə görə fərqlənir və geniş işlənmə xüsusiyyətinə malikdir. Feilin arzu şəkli danışanın istəyini, arzusunu ifadə edir və iki yolla əmələ gəlir.

1.Morfoloji yolla arzu şəklinin əmələ gəlməsi.

2.Ədatların iştirakı ilə arzu şəklinin əmələ gəlməsi.

Morfoloji yolla arzu şəklinin əmələ gəlməsi.

Ədəbi dildə olduğu kimi əksər şivələrdə morfoloji yolla feilin arzu şəkli feil kökünə -a,-ə (samitlə bitəndə), -ya,-yə (saitlə bitəndə), Bakı şivəsində -a,-ə (samitlə bitəndə), -yə,-ye (saitlə bitəndə) şəkilçisinin və şəxs şəkiçisinin artırılması yolu ilə əmələ gəlir. Dərbənd şivəsində arzu şəkli -a,-ə,-e (samitlə bitəndə), -ya, -yə,-ye (saitlə bitəndə) şəkilçisinin və şəxs

şəkilçisinin, Gədəbəy şivəsində eyni zamanda -a,-ə şəkilçisi ilə yanaşı “dodaqlanmayan və dodaqlanan (qalın və incə) səslili (saitli) feillərdə -ı,-i,-u,-ü şəkilçisi də işlənir; məs.: ala//alı, qələ//qəli, ola//olu, görə//görü” (R.Rüstəmov,1965, s. 270).

Birinci şəxsin təki. Arzu şəkli birinci şəxsin təkində Bakı, Təbriz, Qubadlı, Naxçıvan qrupu, qərb qrupu, keçid, Qərbi Azərbaycanın Çəmbərək, Karvansaray şivələriində *a+m,-ə+m* (samitlə bitəndə), *-ya+m -yə+m* (saitlə bitəndə), Dərbənd şivəsində *-a+m,-ə+m,-e+m* (samitlə bitəndə), *-ya+m, - yə+m, -ye+m* (saitlə bitəndə), Quba şivəsində *-a+m,-ə+m* (samitlə bitəndə), *-ya+m, -yə+m,-ye+m* (saitlə bitəndə), Şəki şivəsində *-ə+m* (samitlə bitəndə), *-yə+m* (saitlə bitəndə), Qərbi Azərbaycanın Meğri şivəsində *-a+m –a^{ə}+m,-ə+m,-e+m* (samitlə bitəndə), *-ya+m, -ya^{ə}+m -yə+m,-ye+m* (saitlə bitəndə) şəkilçisini qəbul edir. Məsələn: *alam, gələm,* oxĭ *yəm* “oxuyam”, başdĭ *yəm* “işləyəm” (Bakı, Quba), *qırxam, taxam, içəm (*Təbriz), *quram* (Quba), *gedəm, görəm, saçəm* “saçam”, oxuyəm “oxuyam” (Şəki), *alam, görəm, işliyəm* “işləyəm” (qərb qrupu şivələri, Naxçıvan), *yazam, alam, diyəm* “deyəm” (Dərbənd) və s.

Birinci şəxsin cəmi. Arzu şəkli birinci şəxsin cəmində Bakı şivəsində *-a+ğ, -e+g* (samitlə bitəndə), *-ya+ğ, -ye+g* (saitlə bitəndə), Quba şivəsində *-a+ğ, -a+x (*samitlə bitəndə), *-ya+ğ, -ya+x* (saitlə bitəndə), Şamaxı şivəsində *-a+ğ, -a+x, -ə+y, -ə+g* (samitlə bitəndə), *-ya+ğ, -ya+x* (saitlə bitəndə), Naxçıvan, Culfa, Ordubad, Şahbuz, qərb qrupu şivələrində *-a+x, -ə+x′* (samitlə bitəndə), *-ya+x, -yə+x′* (saitlə bitəndə), Sədərək, Şahbuz şivələrində *-ə+k* (samitlə bitəndə), Şəki şivəsində *-a+x* (samitlə bitəndə), *-ya+x* (saitlə bitəndə), Dərbənd şivəsində *-a+q, -ə+g, -e+g* (samitlə bitəndə), *-ya+q, -yə+g, -ye+g* (saitlə bitəndə) şəkilçisini qəbul edir. Məsələn: *alağ // alaeg* “alaq”, *gəleg* “gələk” (Bakı), *saçax* “saçaq”, *gidax* “gedək” (Şəki), *aldeg* “alaq”, *vureg* “vuraq”, *diyəg* “deyək”, *oynuyaq* “oynayaq” (Dərbənd), *alax* “alaq”, *görək* “görək”, *işliyəx′ //işliyax* “işləyək” (Naxçıvan), *qıylıyax* “qıylıyaq”<qışqıraq, *aparax* “aparaq”, *gedəx′* “gedək” (Çəmbərək, Gəncə, Qazax), *qurağ//qurax* “quraq” (Quba), *axtarax* “axtaraq”, *buraxax* “buraxaq”, *götürəx′* “götürək”, *dəyişəx′* “dəyişək” (Təbriz) və s.

İkinci şəxsin təki. Əksər şivələrimizdə arzu şəkli ikinci şəxsin təkində ədəbi dildə olduğu kimi *-a+san, -ə+sən* (samitlə bitəndə), *-ya+san, -yə+sən* (saitlə bitəndə), qərb qrupu şivələrində *-a+saŋ, -ə+səŋ* (samitlə bitəndə), *-ya+saŋ, -yə+səŋ* (saitlə bitəndə) şəkilçisini qəbul edir. Məsələn: *alasan, gələsən, gedəsən* (əksər şivələrdə), *gəlesən* “gələsən”, *ox*ĭ *yəsən* “oxuyasan” (Bakı, Quba), *saçəsən* “saçasan”, *gidəsən* “gedəsən” (Şəki), *diyəsən* “deyəsən”, *onuyasan* “oynayasan” (Dərbənd), *yiyəsən* “yeyəsən” (Təbriz), *alasaŋ* “alasan”, *gələsəŋ* “gəlısən”, *oxuyasaŋ* “oxuyasan” (qərb qrupu şivələrində) və s.

İkinci şəxsin cəmi. Arzu şəkli birinci şəxsin cəmində Bakı şivəsində *-a+suz, -ə+süz* (samitlə bitəndə), *-ye+süz* (saitlə bitəndə), Quba şivəsində *-a+suz, -ə+süz* (samitlə bitəndə), *-ya+suz, -yə+süz* (saitlə bitəndə), Dərbənd şivəsində *-a+suz, -ə+süz* (samitlə bitəndə), *-ya+suz, -yə+süz, -ye+süz* (saitlə bitəndə), qərb qrupu şivələrində *-a+sıŋız, -ə+ siŋiz* (samitlə bitəndə), *-ya+sıŋız, -yə+ siŋiz* (saitlə bitəndə), Naxçıvan şivələrində *-a+sız, -ə+ siŋiz* (samitlə bitəndə), *-yə+siz, -yə+ siŋiz (*saitlə bitəndə), Şəki şivəsində -ə+ *sıŋız, -ə+ suz (*samitlə bitəndə), *- yə+süz (*saitlə bitəndə) şəkilçisini qəbul edir. Məsələın: *alasuz* “alasınız”, *gələsüz //gəlesüz* “gələsiniz”, *alm*ĭ *yəsüz* “almayasan” (Bakı), *qurasuz* “qurasınız”, *oxĭyasuz //ox*ĭ *yəsüz* “oxuyasınız” (Quba), *saçəsıŋız* “saçasınız”, *gidəsuz* “gedəsiniz” (Şəki), *alasız* “alasınız”, *görəsiŋiz* “görəsiniz”, *işliyəsiz* “işləyəsiniz” (Naxçıvan), *danışasıŋız* “danışasınız”, *gedəsiŋiz*

"gedəsiniz" (qərb qrupu şivələri), *alasuz* "alasınız", *diyəsüz* "deyəsiniz", *uxuyesüz* "oxuyasınız" (Dərbənd) və s.

Üçüncü şəxsin təki və cəmi. Şivələrimizdə üşüncü şəxsin təki yalnız arzu şəklinin şəkilçisi əsasında düzəlir. Cəmində isə arzu şəklinin şəkilçisindən sonra əksər şivələrdə *-lar, -lər* cəm şəkilçisini, Təbriz şivəsində isə cəmlik bildirən *-la,-lə* şəkilçisini qəbul edir. Məsələn: *qıylıya* "qılaya"<qışqıra, görə (görmək feilinin arzxu forması), *qıylıyalar, görələr* (Qazax), *saçə* "saça", *gidə* "gedə", *saçələr* "saçalar", *gidələr* "gedələr" (Şəki), *danışala* (Təbriz) – danışalar, *görünələ* (Təbriz) – görünələr və s.

Ədatların iştirakı ilə arzu şəklinin əmələ gəlməsi

Feilin arzu şəklinin əmələ gəlməsində *gərəx′* (Çəmbərək, Şəki), *gərəx′,* no:la <nə olar (qərb qrupu), *no:olam* < nə ola (Qazax, Tovuz), *no:olasan* (Tovuz), *gereg* "gərək" (Bakı), *keşgə* "kaş " (Bakı, Çəmbərək, Şamaxı), *gərəy* "gərək" (Salyan, Şamaxı), *keşkə* "kaş" (Çəmbərək), *keşgə // keşgəm* "kaş ", *kaşgıŋ* "kaş" (Cəbrayıl), *barı* (Qazax, Tovuz, Borçalı), *ha* (Lənkəran) ədatları iştirak edir. Məsələn: *gereg pişireg* "gərək bişirək" (Bakı), *gərəx′* gedəydi "gərək gedəydi" (Çəmbərək, Qazax, Tovuz), *no:la* gələydi "nə ola gələydi" (Qazax, Tovuz), *gərəy* verilə "gərək verilə", *gərəy* yandıram (Salyan, Şamaxı), *kaşgıŋ* olaydın "kaş olaydın" (Cəbrayıl), *keşgə* görəsən (Tovuz), *barı* cırmıyeydi (Tovuz), *ha* gələsən (Lənkəran) və s.

Arzu şəklinin inkarı *-ma,-mə* inkar şəkilçisinin variantı kimi şivələrdə işlənən *-mi* (Bakı, Quba, Təbriz, Şəki), *-mi, -mu,-me* (Dərbənd), *-m,-me,-mı,-mi,-mu,-mü* (Borçalı), *-mı,-mi,-mu,-mü* (Qubadlı, Naxçıvan) şəkilçisi vasitəsilə düzəlir. Məsələn: *almiyə* "almaya", *getmiyəsən* "getməyəsən" (Şəki), *sürimiye* "sürüməyə" (Bakı), *işdəmiyə* "işləməyə", *sürimiyax* "sürüməyək" (Təbriz), *düşmiye* "düşməyə", *ulmuye* "olmaya", *uxumeye* "oxumaya" (Dərbənd) və s.

Feilin Arzu Şəklinin Təsriflənməsinə Aid Nümunə

Qərb qrupu şivələri üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	yazam	yazax	gələm	gələx′
II	yazasaŋ	yazasıŋız	gələsəŋ	gələsiŋiz
III	yaza	yazalar	gələ	gələlər

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	yazmıyam	yazmıyax	gəlmiyəm	gəlmiyəx′
II	yazmıyasaŋ	yazmıyasıŋız	gəlmiyəsəŋ	gəlmiyəsiŋiz
III	yazmıya	yazmıya(lar)	gəlmiyə	gəlmiyə(lər)

Quba şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	quram	qurağ//qurax	tükəm	tükəg
II	qursan	qurasuz	tüksən	tükəsüz

III	qura	qura(lar)	tükə	tükə(lər)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	qurmiyəm	qurmiyağ//qurmiyax	tükmiyəm	tükmiyəg
II	qurmiyəsən	qurmiyəsüz	tükmiyəsən	tükmiyəsüz
III	qurmiyə	qurmiyə(lər)	tükmiyə	tükmiyə(lər)

Muğan qrupu şivələri üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	vıram	vırax//vırağ	gedəm	gedəg
II	vırasan	vırasuz	gedəsən	gedəsüz
III	vıra	vıra	gedə	gedə (lər)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	vırmıyam	vırmıyax// vırmıyağ	getmiyəm	getmiyəg
II	vırmıyasan	vırmıyasuz	getmiyəsən	getmiyəsüz
III	vırmıya	vırmıya	getmiyə	getmiyə

Naxçıvan qrupu şivələri üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	yatam	yatax	öyrədəm	öyrədəx′
II	yatasan	yatasız	öyrədəsən	öyrədəsiz
III	yata	yata(lar)	öyrədə	öyrədə(lər)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	yatmıyam	yatmıyax	öyrətmiyəm	öyrətmiyəx′
II	yatmıyasan	yatmıyasız	öyrətmiyəsən	öyrətmiyəsiz
III	yatmıya	yatmıya(lar)	öyrətmiyə	öyrətmiyə(lər)

Bakı şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	alam	alağ//aleg	görəm	göreg
II	alasan	alasuz	görəsən//göresən	görəsüz//göresüz
III	ala (alsun)	ala//alalar	görə (görsün)	görə//görələr

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	almĭyə m	almĭyeg// almeyeg	görmĭyə m// görmeyəm	görmĭyeg// görmeyeg
II	alĭyəsən	almĭyə süz// almeyesüz	görmĭyəsən// görmeyəsən	görmĭyə süz// görmeyesüz
III	almĭyə // almeyə (almasun)	almĭyə (lər)// almeyə(lər)	görmĭyə // görmeyə	görmĭyə (lər)// görmeyə(lər)

Şəki şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	qoyəm	qoyax	soruşəm	soruşax
II	qoyəsən	qoyəsıŋız	soruşsən	soruşsıŋız
III	qoyə	qoyə (lər)	soruşə	soruşə (lər)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	qoymiəm	qoymiax	soruşmiyəm	soruşmiyax
II	qoymiəsən	qoymiəsuz	soruşmiyəsən	soruşmiyəsuz
III	qoymiə	qoymiyə (lər)	soruşmiyə	soruşmiyə (lər)

Dərbənd şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	alam	aleg	uxuyəm	uxuyeg
II	alasan	alasuz	uxuyəsən	uxuyesüz
III	ala	ala (lar)	uxuyə	uxuye (lər)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	almiam	almiyeg	uxumiyəm	uxumiyeg
II	almiyasan	almiyasuz	uxumiyəsən	uxumiyesüz
III	almiya	almiya (lar)	uxumiyə	uxumiye (lər)

Feilin vacib şəkli

Azərbaycan dili şivələrində feilin vacib şəkli əmələ gəlməsinə görə ədəbi dildən əsasən fərqlənmir. Bununla belə şivələirimizdə feilin vacib şəklinin özünəməxsus morfoloji əlamətləri var.

Feilin vacib şəkli Dərbənd şivəsində *-malı,-mali,-məli,-malu, -məlü,* Muğan qrupu şivələrində *-malı^{i}, -məli,* Naxçıvan qrupu, qərb qrupu, Qubadlı, Qərbi Azərbaycanı Çəmbərək,

Karvansaray, Meğri şivələrində *-malı, -məli* şəkilçisinə şəxs şəkilçisinin artırılması yolu ilə əmələ gəlir. Şəki şivəsində *-malı, -məli* şəkilçisi ilə yanaşı "*-malı, -məli* şəkilçisi II və III şəxslərdə (tək və cəmdə) son səslisini (saitini –İ.B.) itirərək –ma:[l],- mə:[l] şəklində işlənir" (M.İslamov, 1968, s.138). Məsələn: *yatmalıyam, yatmaliyəm* "yatmalıyam", *sürməliyəm, satmaluyəm* "satmalıyam" (Dərbənd), *baxmalı[i]yıx// baxmalı[i]yuğ* "baxmalıyıq", *bilməliyüg* "bilməliyik" (Muğan), *qorumalıyıx* "qorumalıyıq", *almalısan, verməliyix′* "verməliyik" (Qubadlı), *durmalıyam, durmalısaŋ* "durmalısan", *baxmalıyıx* "baxmalıyıq", *gəlməlisən, getməlisiŋiz* "getməlisiniz" (Çəmbərək, Qazax, Qarabağ,Gəncə, Karvansaray), almalısız, gözdəməlisən "gözləməlisən" (Naxçıvan), *təfciməlidi* < tikməlidi (iynə ilə tikmək; Çəmbərək,Tovuz), *danışmalısaŋız* "danışmalısınız", *yığmalıyax* "yığmalıyıq", *verməliyəx′* "verməliyik", *oxumalısaŋız* "oxumalısınız" (Karvansaray), *dannamalıyam* "danlamalıyam", *əx′məliyix′*"əkməliyik" (Meğri) və s.

Feilin vacib şəklinin inkarı *-ma,-mə* inkar şəkilçisi (Çəmbərək, Dərbənd, Quba, Meğri, Muğan, Naxçıvan), **deyil** sözünün *degil, degül, dögil, dögül* (Dərbənd), *dəyil* (Qubadlı), *döyi, döyü* (Şəki), *dögür, döyür,dəyil, dö:[ü]r, də:l* (Muğan), *döyl, döy* (Qazax, Tovuz), *degil* (Bakı, Quba), *də:l, də:r* (Naxçıvan), *döl, döyül, döyür, dögür* (keçid şivələri), *dəyir (*Təbriz), *döy* (Çəmbərək), *dəyi, dəyil (*Meğri) dialekt variantları əsasında düzəlir. Məsələn: *döyməməliyəm, qaŋırmamalıyam* < geri dönüb baxmamalıyam (Çəmbərək, Qazax), *deməli döysəŋ* "deməli deyilsən" (Qazax), *almamalısız, gözdəməli də:lsiniz* "gözləməli deyilsiniz", *deməli dö: rəm* "deməli deyiləm" (Naxçıvan), *görməməlisiz, görməli dögürsən* "görməli deyilsən" (Muğan), *yiməli döyi* "yeməli deyil", *keşməli döyü* "keçməli deyil" (Şəki), *almalı döysəŋ* "almalı deyilsən", *gəlməli döy* "gəlməli deyil" (Çəmbərək), *işməli dəyil* "içməli deyil", *gəlməli dəyil* "gəlməli deyil" (Qubadlı), *bilməməliyig* "bilməməliyik", *çatmalu degülsən* "çatmalı deyilsən", *catmalu degülüg* "çatmalı deyilik", *gitməli dögilsüz* "getməli deyilsiniz" (Dərbənd), *almamaludu* "almamalıdı", *almalı degildim* "almalı deyiləm", *gidməli degi* "getməli deyil" (Quba), *bilməli döysən* "bilməli deyilsən", *baxmalı döylüx′*"baxmalı deyilik" (keçid şivələıri), *görməli dəyir* "görməli deyil", *getməli dəyirdin* "getməli deyilsən" (Təbriz), *aşmalı dəyisən* "açmalı deyilsən" (Meğri) və s.

Feilin Vacib Şəklinin Təsriflənməsinə Aid Nümunə

Qərb qrupu şivələri üzrə

Təsdiq

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	almalıyam	almalıyıx	təfciməliyəm	təfciməliyix′
II	almalısaŋ	almalısıŋız	təfciməlisəŋ	təfciməlisiŋiz
III	almalıdı	almalıdılar	təfciməlidi	təfciməlidilər

İnkar

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	almamalıyam	almamalıyıx	təfciməməliyəm	təfciməməliyix′
II	almamalısaŋ	almamalısıŋız	təfciməməlisəŋ	təfciməməlisiŋiz
III	almamalıdı	almamalıdılar	təfciməməlidi	təfciməməlidilər

Quba şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	almaliyəm//almalyam	almaliyuğ// almaliyux	gidməliyəm	gidməliyuğ// gidməliyux
II	almalisan	almalisuz	gidməlisən	gidməlisüz
III	almalidu	almalidu(lar)	gidməlidü// gidməlidi	gidməlidü// gidməlidi(lər)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	almamaliyəm //almali degiləm	almamaliyuğ//almali degiluğ	gidməməliyəm //gidməli degiləm	gidməməliyuğ// gidməli degiluğ
II	almamalisan// almali degisən	almamalisuz//almali degisüz	gidməməlisən// gidməli degisən	gidməməisüz// gidməli degüsüz
III	almamalidu// almali degi	almamalidu//almali degi(lər)	gidməməlidü// gidməli degi	gidməməlidü// gidməli degi(lər)

Dərbənd şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	çatmaluyam	çatmaluyuq	gitməliyəm	gitməliyik
II	çatmalusan	çatmalusuz	gitməlisən	gitməlisüz
III	çatmaludu	çatmaludu(lar)	gitməlidi	gitməlidi (lər)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	çatmamaluyam	çatmamaluyg	gitməməliym	gitməməliyik
II	çatmamalusan	çatmamalusuz	gitməməlisən	gitməməlisüz
III	çatmamaludu	çatmamaludu(lar)	gitməməlidi	gitməməlidi(lər)

Keçid şivələri üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	baxmalıyam	baxmalıyıx	tapbalıyam	tapbalıyıx
II	baxmalısan	baxmalısuz	tapbalısan	tapbalısız
III	baxmalıdı	baxmalıdılar	tapbalıdı	tapbalıdılar

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	baxmalı döyləm	baxmalı döylü x′	tapbalı döyləm	tapbalı döylüx′
II	baxmalı döysən	baxmalı döysüz	tapbalı döysən	tapbalı döysüz
III	baxmalı döylü	baxmalı döylü	tapbalı döylü	tapbalı döyllər

Feilin Lazım Şəkli

Azərbaycan dili şivələrində feilin şəkillərindən biri də lazım şəklidir. Lazım şəkli *-ası,-əsi (*samitlə bitəndə), *-yası,-yəsi* (saitlə bitəndə) şəkilçisi müəyyən şəxs şəkilçisi qəbul edərək düzəlir. Şivələrimizdə feilin lazım şəkli *-ası,-əsi* şəkilçisinin fonetik variantlarını qəbulu əsasında da əmələ gələ bilir və müxtəlif şəxs şəkiçisi qəbul edir. Şəki şivəsində "ikinci şəxs tək və cəmdə şəkil əlamətinin son səslisi (saiti –İ.B.; ı,i) çox zaman düşür və o, *-as,-əs (-yas,-yəs)* şəklində özünü göstərir " (R.Rüstəmov, 1965, s.282). Məsələn: *alasıyam, gedəsiyix′* "gedəsiyik", *gedəsisəŋ* "gedəsisən", *gesəsiŋiz* "gedəsisiniz", *gözdüyəsiyəm* "gözləyəsiyəm" (Qubadlı, qərb qrupu şivələri), *saxlıyəsiyəm* "saxlıyasıyam", *saxlıyəssən* "saxlıyasısan", *saxlıyəsidi* "saxlıyasıdı", *alassan* "alasısan", *süpürəssuz* "süpürəsisiniz" (Şəki), *yazasısan, diyəsiyıx* "deyəsiyik", *oxuyasısız* "oxuyasısınız" (Qax, Zaqatala), *piçəsiyəm* "biçəsiyəm", *görəsisən, görəsisiŋiz* "görəsisiniz" (Basarkeçər, Kəlbəcər), *gedəsisi:z* "gedəsisiniz", *vurasısı:z* "vurasısınız" (Cəbrayıl), *sö:yliyəsiyəm* "söyləyəsiyəm", *danışasıyıx* "danışasıyıq", *qaçasısuz* "qaçasısınız" (İsmayıllı) və s.

Şivələrimizdə feilin lazım şəklinin inkarı, ədəbi dildə olduğu kimi, *deyil* sözünün dialekt variantı əsasında əmələ gəlir. **Deyil** sözü qərb qrupu şivələrində *döyl,* Şəki şivəsində *döyǚl, döyür, döyü, döy, döylü, döli, döl,* Gədəbəy şivəsində *döyl, döql, döy, döq,* Zaqatala, Qax şivələrində *döyül, döyl,* Cəbrayıl keçid şivələrində *dəyil, dəyl, dəyi, dəy,* Qubadlı şivəsində *dəyl* fonetik formalarında işlənir (R.Rüstəmov, 1965, s.283). Məsələn: *gedəsi döyləm* "gedəsi deyiləm", *gediləsi döy* "gediləsi deyil" (qərb qrupu şivələri), *alası döyləm* "alası deyiləm", *gidəsi döyəm* "gedəsi deyiləm", *görəsi döylux* "görəsi deyilik", *diyəsi döyux* "deyəsi deyilik", *satası dö:l* "satası deyil", *geyəsi döyürsən* "geyinəsi deyilsən" (Şəki), *aparası dəyilix′* "aparası deyilik", *aparası dəyildi* "aparası deyildi", *satası dəyilsiz* "satası deyilsiniz" (Qubadlı) və s.

Feilin Lazım Şəklinin Təsrifinə Aid Nümunə

Qərb qrupu şivələri üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	alasıyam	alasıyıx	oxuyasıyam	oxuyasıyıx
II	alasısaŋ	alasısıŋız	oxuyasısaŋ	oxuyasısıŋız
III	alasıdı	alasıdı(lar)	oxuyasıdı	oxuyasıdı(lar)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	alası döyləm	alası döylüx′	oxuyası döyləm	oxuyası döylüx′
II	alası döylsəŋ	alası döylsüŋüz	oxuyası döylsəŋ	oxuyası döylsüŋüz
III	alası döyl	alası döyllər	oxuyası döyl	oxuyası döyllər

Şəki şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	yazasıyam	yazasıyıx	oxuyəsiyəm	oxuyəsıyıx
II	yazassan	yazassĩ:z	oxuyəssən	oxuyəssĩ:z
III	yazasıdı	yazasıdı(lar)	oxuyəsidi	oxuyəsidi(lər)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	alası döyrəm	alası döyürux	geyəsi döyləm	geyəsi döylux
II	alası döyürsən	alası döyürsü̃:z	geyəsi dö:lsən	geyəsi döysuŋuz
III	alası döyür	alası döyür//alası döyüllər	geyəsi dö:l	geyəsi dö:llər

Qubadlı şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	satasıyam	satasıyıx	gözdüyəsiyəm	gözdüyəsiyix′
II	satasısaŋ	satasısıŋız	gözdüyəsisəŋ	gözdüyəsisiŋiz
III	satasıdı	satasıdı(lar)	gözdüyəsidi	gözdüyəsidi(lər)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	satası dəyiləm	satası dəyilix′	gözdüyəsi dəyiləm	gözdüyəsi dəyilix′
II	satası dəyilsəŋ	Satası dəyilsiŋiz	gözdüyəsi dəyisəŋ	gözdüyəsi dəyilsiŋiz
III	satası dəyil	satası dəyil(lər)	gözdüyəsi dəyil	gözdüyəsi dəyil(lər)

Zaqatala, Qax şivələri üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	yazasıyam	yazasıyıx	diyəsiyəm	diyəsiyıx
II	yazasısan	yazasısız	diyəsisən	diyəsisiz
III	yazası(dı)	yazasıdı(lar)	diyəsi(di)	diyəsidi(lər)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	yazası döyüləm	yazası döylüx	diyəsi döyləm	diyəsi döylux
II	yazası döyülsən	yazası döylsüz	diyəsi döylsən	diyəsi döylsüz
III	yazası döyül	yazası döyllər	diyəsi döyl	diyəsi döyllər

Feilin Şərt Şəkli

Azərbaycan dili şivələırində feilin şərt şəkli digər feil şəkillərindən daha geniş yayılıb və zənginliyi ilə fərqli xüsusiyyətlərə malikdir. Feilin şərt şəkli *-sa,-sə* şəkilçisi əsasında əmələ gəlir və *-sa,-sə* şərt şəkilçisi qəbul etmiş feil şəxs şəkiçisi qəbul edərək feilin şərt şəklini formalaşdırır. Bu baxımdan ədəbi dillə bir oxşarlıq özünü göstərir . Lakin şivələrimizdə feilin şərt şəklinin əmələ gəlməsi müəyyən xüsusiyyətlərinə görə ədəbi dildən fərqlənir. Şivələrimizdə şərt şəkli şəxslər üzrə dəyişdikdə şəxs şəkilçilərində müxtəliflilik yaranır.

Feilin şərt şəkli qərb qrupu şivələrində, Qubadlı, Qərbi Azərbaycanın Basarkeçər, Çəmbərək, Karvansaray şivələrində *-sa,-sə*, Gürcüstanın Borçalı şivələrinin Kəpənəkçi və

Qızıl Hacılı kənd şivələrində həm *-sa,-sə,* həm də *-şa,-şə (*Qərb qrupu, 1967, s.140), Şəki şivəsində *-sa,-sə,* eləcə də *-sa,-sə* şəkilçisinin variantı olan *-su,-so,-sö,-sı,* Dərbənd şivəsində *-sa,-sə,* ikinci şəxsin təkində və cəmində *-so, -sö,-sə,* Naxçıvan qrupu şivələrində *-sa,-sə,* Aza kənd şivəsinin ikinci şəxsin cəmində həm də -su,-sü (Naxçıvan qrupu şivələri, 1962, s.139), Təbriz şivəsində *-sa,-sə,* bəzən ikinci şəxsin cəmində *-su* (M.Məmmədli, 2008,128), Quba şivəsində *-sa,-sə,* ikinci şəxsin təki və cəmində -so,-so:,-sö (R.Rüstəmov, 1961,s.172), Bakı şivəsində *-sa,-sə,-se,* bitrinci şəxsin cəmində -so, -sö, ikinci şəxsin təkində və cəmində -so,-sö (M.Şirəliyev, 1957, s.118), keçid şivələrində *-so,-sö,* Göyçay keçid şivəsində ikinci şəxsin cəmində *-su, -sü* (A. Vəliyev, 1975, s.57-58), Muğan qrupu şivələırində *-sa, -sə,* birinci şəxsin cəmində, ikinci şəxsin təki və cəmində *-so,-sö* (Muğan qrupu şivələri, 1955, s.123) şəkilçisinə müvafiq şəxs şəkiçisi əlavə edilərək düzəlir. Məsələn: *alsam, alsax, gəlsəm, gəlsəŋiz* "gəlsəniz", *keşsəx′* "keçsək", *desələr* (Basarkeçər, Çəmbərək, Qarabağ, Qazax, Qubadlı, Gəncə, Karvansaray), *tüşşəm// tüşsən* "düşsəm", *tüşşə//tüşsə* "düşsə" (Borçalı), *ehsəm* "əksəm", *ehsə* "əksə", *ehsa:z* "əksəniz", *alson* "alsan", *çağırsox* "çağırsaq", *gəlsox//gəlsux* "gəlsək", *ça:rsux* "çağırsaq", *disuz* "desəniz", *gəlsa:z* "gəlsəniz" (Şəki), *alsov* "alsan", *alsax//alsoğ//alsauğ* "alsaq", *oynason* "oynasan", *alsoz* "alsanız", *gəlsöz* "gəlsəniz", *alsovuğ* "alsaq", *gidsovuğ* "gedək" (Quba), *eşitsəm, bülsəm* "bilsəm", *görsax* "görsək", *çatsax* "çatsaq", *tanısa:z* "tanısanız", *qaşsu:z* "qaçsanız", *görsu:z* "görsəniz" (Təbriz), *gəlsəm, gəlsön* "gəlsən", *gəlsöz* "gəlsəniz", *alsoğ//alsağ* "alsaq", *alsoz* "alsanız" (Bakı), *alsan, alsaŋız//alsaz* "alsanız", *getsax* "getsək", *getaŋız //getsəz* "getsəniz", *alsam, aparsam, gürsəmiz//gürsek* "görsək", *gitsəmiz* "getsək", *alsamuz* "alsaq", *baxseg* "baxsaq", *gürseg* "görsək", *görsöv* "görsən", *gəlsöv//gəlsəv* "gəlsən", *alsovuz* "alsanız", *gəlsövüz* "gəlsəniz", *kitsövüz* "getsəniz", *ox o͡u z* "oxusanız", *vurs a͡u z* "vursanız" (Dərbənd), *alsam, gəlsəm, alson* "alsan", *gəlsön//gəlsöy* "gəlsən", *alsox* "alsaq", *gəlsöz* "gəlsəniz", *aşsuz* "açsınız", *disuz* "desəniz" (keçid şivələri), *qaşsam* "qaçsam", *alsox//alsoğ* "alsaq", *bilsög* "bilsək", *alson* "alsan", *alsoz* "alsanız", *bilsön* "bilsən", *bilsöz* "bilsəniz" (Muğan) və s.

Azərbaycan dilinin müxtəlif şivələrində şərt şəklinin morfoloji əlaməti kimi birinci şəxsin cəmində və ya ikinci şəxsin təkində və cəmində işlənən *-su,-so,-so:,-sö,-sı,-se* şəkilçisi *-sa,-sə* feilin şərt şəklinin morfoloji əlamətinin (şəkilçisinin) variantlarıdır.

Şivələrimizdə feilin şərt şəklinin inkarı -ma,-mə inkarlıq şəkilçisi vasitəsi ilə əmələ gəlir: feil+inkarlıq şəkilçisi+feilin şərt şəklinin şəkilçisi+şəxs şəkilçisi. Məsələn: *almason* "almasan", *baxmasoz* "baxmasanız" (Bakı), *işdəməsən* "işləməsən", otumasan "oturmasan" (Qubadlı), *ələməsəm* "eləməsəm", *gizləməsax* "gizlətməsək" (Təbriz), *bilməsəŋiz* "bilməsəniz", *görməsəm* (qərb qrupu şivələri), *başdamasov// başdəməsöᵛ* "başlamasan", *işdəməsüz* "işləməsəniz" (Quba), *işməsan* "içməsən", *süzməsux* "süzməsək" (Şəki), *almasaz* "almasanız", *getməsax* "getməsək" (Naxçıvan), *almasoz* "almasanız", *gəlməsön* "gəlməsən" (keçid şivələri) və s.

Feilin Şərt Şəklinin Təsrifinə Aid Nümunə

Bakı şivəsi üzrə

Təsdiq

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	baxsam	baxsoğ//baxsax// baxseg	gəlsəm	gəlsög//gəlseg
II	baxson	baxsoz	gəlsön	gəlsöz
III	baxsa	baxsa(lar)	gəlsə	gəlsə(lər)

İnkar

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	baxmasam	baxmasoğ// baxmasax// baxmaseg	gəlməsəm	gəlməsög//gəlməseg
II	baxmason	baxmasoz	gəlməsön	gəlməsöz
III	baxmasa	baxmasa(lar)	gəlməsə	gəlməsə(lər)

Quba şivəsi üzrə

Təsdiq

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	yassam	yassoğ	gəlsəm	gəlsoğ
II	yasson	yassoz	gəlsön	gəlsöz
III	yassa	yassa(lar)	gəlsə	gəlsə(lər)

İnkar

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	yatmasam	yatmasoğ	gəlməsəm	gəlməsoğ
II	yatmason	yatmasoz	gəlməsön	gəlməsöz
III	yatmasa	yatmasa(lar)	gəlməsə	gəlməsə(lər)

Qərb qrupu şivələri üzrə

Təsdiq

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	alsam	alsax	görsəm	görsəx′
II	alsaŋ	alsaŋız	görsəŋ	görsəŋiz
III	alsa	alsa(lar)	görsə	görsə(lər)

İnkar

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	almasam	almasax	görməsəm	görməsəx′
II	almasaŋ	almasaŋız	görməsəŋ	görməsəŋiz
III	almasa	almasa(lar)	görməsə	görməsə(lər)

Şəki şivəsi üzrə

Təsdiq

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	tussam	tussux	üşüsəm	üşüsux//üşüsox
II	tussan	tussuz	üşüsən	üşüsuz//üşüsöz
III	tussa	tussa(lar)	üşüsə	üşüsə(lər)

İnkar

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	işməsəm	işməsax	süzməsəm	süzməsux
II	işməsən	işməsaŋız	süzməsən	süzməsuz
III	işməsə	işməsə(lər)	süzməsə	süzməsə(lər)

Keçid şivələri üzrə

Təsdiq

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	çıxsam	çıxsax	assam	assax
II	çıxsan//çıxsaŋ	çıxsa:z	assan	assanız
III	çıxsa	çıxsalar	assa	assa lar

İnkar

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	çıxmasam	çıxmasax	asmasam	asmasax
II	çıxmasan// çıxmasaŋ	çıxmasa:z	asmasan	asmasanız
III	çıxmasa	çıxmasalar	asmasa	asmasalar

Naxçıvan qrupu şivələri üzrə

Təsdiq

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	alsam	alsax	gəlsəm	gəlsax
II	alsan	alsaz// alsanız	gəlsən	gəlsaŋız//gəlsəz
III	alsa	alsa	gəlsə	gəlsə

İnkar

Şəxs	**Tək**	**Cəm**	**Tək**	**Cəm**
I	almasam	almasax	gəlməsəm	gəlməsax
II	almasan	almasaz//almasanız	gəlməsən	gəlməsaŋız// gəlməsəz
III	almasa	almasa	gəlməsə	gəlməsə

Dərbənd şivəsi üzrə

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	alsam	alsamız	gəlsəm	gəlsəmiz
II	alsov	alsavuz	gəlsöv	gəlsövüz
III	alsa	alsa(la)	gəlsə	gəlsə(lə)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	almasam	almasamız	gəlməsəm	gəlməsəmiz
II	almasov	almasavuz	gəlməsöv	gəlməsövüz
III	almasa	almasa(la)	gəlməsə	gəlməsə(lə)

Dərbənd şivəsinin Yersi, Xuçni və Sanak kənd şivələrində feilin şərt şəklinin inkarı hər üç şəxsin həm təkində, həm də cəmində şəxs şəkilçisi qəbul etmədən əmələ gəlir (Dərbənd dialekti, 2009, s.200).

Təsdiq

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	Mən yisə	Büz yisə	Mən gürsə	Büz gürsə
II	Sən yisə	Süz yisə	Sən gürsə	Süz gürsə
III	U yisə	Ular yisə(lə)	U gürsə	Ular gürsə(lə)

İnkar

Şəxs	Tək	Cəm	Tək	Cəm
I	Mən almasa	Büz almasa	Mən bilməsə	Büz bilməsə
II	Sən almasa	Süz almasa	Sən bilməsə	Süz bilməsə
III	U almasa	Ular almasa	U bilməsə	Ular bilməsə

Feil şəkillərinin mürəkkəbi

Azərbaycan dili şivələrində feil şəkillərinin mürəkkəbi **idi (-dı, -di,-du,-dü), imiş (-mış,-miş,-muş,-miş)** köməkçi sözü ilə düzəlir. Yəni feilin sonuna feil şəklinin morfoloji əlaməti, sonra **idi** və ya **imiş** köməkçi sözü (sözün sonu samitlə bitəndə **“idi”nin** qısaldılmış forması kimi *-dı, -di,-du,-dü;* “**imiş”in** qısaldılmış forması kimi ***-mış,-miş,-muş,-miş***) və daha sonra şəxs şəkilçisi artırılır: feil+feil şəklinin morfoloji əlaməti+idi və ya imiş+şəxs şəkilçisi.

Qərb qrupu şivələri üzrə

Xəbər şəkli: *qorxordum* “qorxurdum”, *qorxorduŋ* “qorxurdun”, *qorxorduŋuz* “qorxurdunuz”, *üzördüm* “üzürdüm”, *üzördüx′* “üzürdük”, *kaflaşmışdım* <söhbətləşmişdim, *danışmışdım, oturmuşdux* “oturmuşduq” və s.

Arzu şəkli: *açeydim* “aça idim”, *açeydıŋ* “aça idin”, *duroydux* “dura idik”, *duroyduŋuz* “dura idiniz”, *tüşöydüŋ* “düşə idin”, *tüşöydülər* “düşə idilər”, *göröymüşəm* “görə imişəm”, *göröymüşsəŋ* “görə imişsən” və s.

Vacib şəkli: *durmalıydıŋ* "durmalı idin", *almalıdı, örməliymişix'* "hörməli imişik", *siŋirməliymişsiŋiz* "senirməli imişsiniz" < sakitcə qəbul etməli imişsiniz və s.

Lazım şəkli: *alasıydım* "alası idim", *deyəsiydim* "deyəsi idim", *görəsiymişəm* "görəsi imişəm", *görəsiymişsiŋiz* "görəsi imişsiniz" və s.

Şərt şəkli: *alseydim* "alsa idim", *alseydıŋ* "alsa idin", *dursoydux* "dursa idik", *dursoydular* "dursa idilər", *qursoymuşsaŋ* "qursa imişsən", *görsöymüşüx'* "görsə imişik" və s.

Şəki şivəsi üzrə

Xəbər şəkli: *gəlirdim, gəlirdın* "gəlirdin", *saxlirdıŋ* "saxlayırdın", *saxlirdıx* "saxlayırdıq", *qazmışdım, qazmışdun* "qazmışdın", *çalıjeydim* "çalacaq idim", *alıca:dın* "alacaq idin",

Arzu şəkli: *alıydım* "alaydım"<ala idim, *alıydı* "alaydı" "<ala idi, *oxuyeydin* "oxuya idin", *göröydux* "görə idik", *köçeydin* "köçə idin" və s.

Vacib şəkli: *köşməliydim* "köçməli idim", *köşməliydiŋ* "köçməli idin", *köşməliydi* "köçməli idi", *köşməliydik* "köçməli idik", *diməliydım* "deməli idim", *diməliydıŋ* "deməli idin", *diməliydıx* "deməli idim", *diməliydıŋız* "deməli idiniz" və s.

Lazım şəkli: *yazasiydim* "yazası idim", *yazasiydın* "yazası idin", *gələsiydux* "gələsi idik", *gələsiyduz* "gələsi idiniz" və s.

Şərt şəkli: *sağseydim* "sağsa idim", *sağseydin* "sağsa idin", *oxusuydun* "oxusa idin", *oxusuydux* "oxusa idik", *üzsüdüm* "üzsə idim" və s.

Dərbənd şivəsi üzrə

Xəbər şəkli: *gidmişdim* "getmişdim", *gitmişdün* "getmişdin", *sarıyardım, sarıyardig* "sarıyardıq", *alacağ iydim* "alacaq idim", *üzəcəkdük* "üzəcəkdik" və s.

Arzu şəkli: *baxeydim* "baxa idim", *baxeydün* "baxa idin", *baxedig* "baxa idik", *baxeydüvüz* "baxa idiniz" və s.

Vacib şəkli: *qazmalıydım* "qazmalı idim", *işləməliydük* "işləməli idik", *işləməliydüz* "işləməli idiniz" və s.

Şərt şəkli: *alseydim* "alsa idim", *alseydün* "alsa idin", *gülseydüg* "gülsə idik" və s.

Dərbənd şivəsinin Yersi, Xuçni və Sanak kənd şivələrində feilin şərt şəklinin hekayəsinin inkarı hər üç şəxsin həm təkində, həm də cəmində şəxs şəkilçisi qəbul etmədən əmələ gəlir (Dərbənd, 2009, s.205). Məsələn: *mən yazseydi, sən yazseydi, u yazseydi, büz yazseydi, süz yazseydi, ular yazseydi, mən yazmaseydi, sən yazmaseydi, u yazmaseydi, büz yazmaseydi, süz yazmaseydi, ular yazmaseydi* və s.

Quba şivəsi üzrə

Xəbər şəkli: *almışdım, almışdun* "almışdın", *almışduz* "almışdınız", *alacay idim//alacaydım//alacağ idim//alacağdım* "alacaq idim" və s.

Arzu şəkli: *aleydim* "ala idim", *aleydüz* "ala idiniz", *yiyeduğ* "yeyə idik" və s.

Vacib şəkli: *almalıydim* “almalı idim”, *almalıydin* “almalı idin”, *almaliyduğ* “almalı idik”, *oxımaliydu* “oxumalı idin”, *oxımaliyduz* “oxumalı idiniz” və s.

Lazım şəkli: *oxıyasıydıx* “oxıyasıydıq”, *yazasıydıx* “yazası idik” və s.

Şərt şəkli: *alşeyduğ* “alsa idik”, *işdəsydün* “işləsə idin”, *işdəseydün* “işləsə idin” və s.

Naxçıvan şivələri üzrə

Xəbər şəkli: *almışdım, almışdın, almışdı*[i]*, almışdız* “almışdınız”, *baxırdım, baxırdıx* “baxırdıq”, *baxırdıŋız* “baxırdınız”, *oxuyurduz* “oxuyurdunuz”, *alacaxdım* “alacaqdım”, *görəcəx'din* “görəcəkdin”, *baxardıx* “baxardıq” və s.

Arzu şəkli: *alaydım* “ala idim”, *alaydın* “ala idin”, *alaydıx* “ala idik”, *işdiyeydıx* “işləyə idik” və s.

Vacib şəkli: *almalıydım* “almalı idim”, *almalıydın* “almalı idin”, *deməliydix'* “deməli idik”, *deməliydıŋız* “almalı idiniz” və s.

Lazım şəkli: *gələsiydim* “gələsi idim”, *tutasıydıx* “tutası idik”, *tutasıydıŋız* “tutası idiniz” və s.

Şərt şəkli: *alseydım* “ala idim”, *gəlsəydin* “gəlsə idin”, *gəlsəydi:z* “gəlsə idiniz” və s.

Bakı şivəsi üzrə

Xəbər şəkli: *almışdım, almışdun//almuşdun* “almış idin”, *almuşduğ//almışdig* “almış idik”, *almuşduz* “almış idiniz”, *alırdım alırdun* “alırdın”, *alacegdim* “alacaq idim”, *alacegdüz* “alacaq idiniz” və s.

Arzu şəkli: *aleydim* “ala idim”, *aleydün* “ala idin”, *aleydüg* “ala idik”, *aleyduz* “ala idiniz”, *keseydim* “kəsə idin”, *keseydün* “kəsə idin”, *keseydi* “kəsə idi”, *keseydüg* “kəsə idik” və s.

Vacib şəkli: *işdəməliydün* “işləməli idin”, *işdəməliydi* “işləməli idi”, *yazmalıydıla*r “yazmalı idilər” və s.

Lazım şəkli: *danışasıydım* “danışası idim”, *danışasıydün* “danışası idin” və s.

Şərt şəkli: *qalseydim* “qalsa idim”, *qalseydün* “qalsa idin”, *qalseydi* “qalsa idi”, *qalseydün* “qalsa idin”, *qalseydüg* “qalsa idik”, *qo:seydim* “qoysa idim”, *qo:seydün* “qoysa idın”, *qo:seydüg* “qoysa idik”, *qo:seydüz* “qoysa idiniz” və s.

Muğan qrupu şivələri üzrə

Xəbər şəkli: *saxlamışdım, saxlamışdun* “saxlamış idin”, *saxlamışdux* “saxlamışdıq”, *saxlamışduz* “saxlamış idiniz”, *gözziyirdim* “gözləyir idim”, *bilirdün* “bilir idin”, *bilirdüg* “bilir idik”, *yazacağdun* “yazacaq idik”, *yazacağduğ* “yazacaq idik” və s.

Arzu şəkli: *saxlıyeydım* “saxlaya idim”, *qoeydim* “qoya idim”, *qoeydun* “qoya idin”, *göreydüg* “göre idik”, *göreydüz* “görə idiniz” və s.

Vacib şəkli: *qaçmalı*[i]*ydım* “qaçmalı idim”, *qaçmalı*[i]*ydun* “qaçmalı idin”, *qaçmalı*[i]*ydux* “qaçmalı idik”, *qaçmalı*[i]*yduz* “qaçmalı idiniz” və s.

Lazım şəkli: *alasıydı* "alası idi", *yasseydug* "yatsa idik", t*utasıyduz* "tutası idiniz" və s.

Şərt şəkli: *bilseydim* "bilsə idim", *bilseydün* "bilsə idin", *bilseydüg* "bilsə idik", *gözzəseydim* "gözləsə idim" və s.

Feili Bağlama

Azərbaycan dili şivələrində feili bağlmanın əmlə gəlməsi ədəbi dillə müəyyən oxşarlıq təşkil etsə də, ədəbi dildən fərqli morfoloji əlamətlərə malikdir. Şivələrimizdə işlənən feili bağlama şəkilçilərinin morfoloji əlamətlərinin bir qismi ədəbi dildə işlənən feili bağlama şəkilçiləri ilə fonetik cəhətdən tam eyniyyət təşkil edir, bir qismi yalnız fonetik cəhətdən fərqlənir. Bununla yanaşı şivələrimizdə işlənən feili bağlama şəkiulçiləri ədəbi dilimizin tarixi ilə səsləşir. Yəni ədəbi dilimizin müəyyən dövrlərində işlənən feili bağlama şəkilçiləri ya olduğu kimi, ya da fərqli fonetik tərkibdə şivələrimizdə işlənməkdədir.

Azərbaycan dili şivələrində feili bağlama əmələ gətirən şəkilçiləri aşağıdakı kimi qruplaşdırmaq olar.

1.- *ib, -ib,-ub, -üb, -* y*ib, -yib,-yub, -yüb* (Naxçıvan, Təbriz, keçid şivələri) *–ib//-ıp, -ib//-ip,-ub//-up, -üb//-üp (*Muğan), *–ıb,-ib* (Bakı), *-ıp, -ip,-up, -üp* (Təbriz, keçid şivələri): *açıb, görüb, gözdüyüb* "gözləyib" (Naxçıvan), *ağlıyıb* "ağlayıb", *gəlib (*Təbriz)*, yazıb, di:b* "deyib", *uçıb* "uçub", *alıp* "alıb", *saneyıb* "sanıyıb"<sayıb, *isdiyip* "istəyib" (Muğan), *tutup* "tutub", *görüp* "görüb", *ayılıp* "ayılıb" (Təbriz), *alıp* "alıb", *gəlip* "gəlib", *durup* "durub", *görüp* "görüb" (Ağdaş) və s.

2.-*a,- ə,-ya,-yə* (Dərbən: *axtara* "axtarıb", *tapbaya* "tapıb", *yağliyə* "yağlayıb", *oxiyə* "oxuyub" (Dərbənd) və s.

3.-*an,- ən,-yan,-yən* (Dərbənd): *öldürən* "öldürərək", *gətirən* "gətirərək", *açılan* "açılınca", *vuran* "vuraraq" (Dərbənd) və s.

4.-*ıban,-ibən,-uban,-übən* (Muğan, keçid şivələri), *-ubən* (Quba), *-yibən (*Muğan), *-ıban, -ibən, -uban, -übən, -yıban, -yibən, -yuban, -yübən* (Dərbənd, Quba): *diyibən* "deyib" (Muğan), *alıban* "alıb", *gidibən* "gedib", *duruban* "durub", *quyubən* "qoyub" (Quba)*, çıxıban* "çıxıb", *istiyibən* "istəyib", *yiyibən* "yeyib", *tutuban* "tutub" (Dərbənd), *görübən* "görüb", *çağrıban* "çağırıb" (keçid şivələri) və s.

-ıban,-ibən,-uban,-übən feili bağlama şəkilçisi Bakı şivəsi üçün xarakterik olmasa da, bu şəkilçiyə Xırdalan, Qobu, Güzdək şivələrində rast gəlinir: Sə:r yuxudan duruban ne gördüm, quşbaşı[i] qar ne yağır gəl görəsən (G.Vəliyeva, 1987, s. 83).

5. *-ıbannarı[i], -ibənnəri, -ubannarı[i], -übənnəri, -yıbannarı[i], -yibənnəri -yubannarı[i], -yübənnəri* (Quba)*,-ibənnəri//ibənləri//ıbənləri, ıbannarı//əbanları, -ubannarı//ubanları, -übənnəri//übənləri* (Dərbənd): *qışqırıbannarı[i]* "qışqırıb", *diyibənnəri* "deyib", *gidibənnəri* "gedib" (Quba)*, gəlibənnəri* "gəlib", *alıbənnəri* "alıb", *bilibənləri* "bilib", *qoyubənnəri* "qoyub", *tutubanları* "tutub" (Dərbənd) və s.

6. *-ıbanı[i],-ibəni,-ubanı[i],-ubəni,-übəni, -yibəni,-yübəni* (Quba)*, -ıbanı, -ibəni,-ubanı,-übəni,-yıbanı, -yibəni, -yubanı,-yübəni* (Dərbənd), *-ıbanı, -ibəni,-ubanı,-übəni (*Qax, Zaqatala): *yazubəni* "yazıb", *çıxibəni* "çıxıb", *durıbanı[i]* "durub" (Quba)*, alıbanı* "alıb", *sağubəni* "sağıb", *qütürübəni* "götürüb", *baxubani* "baxıb", *çağırubəni* "çağırıb" (Dərbənd), *alıbanı* "alıb", *gəlibəni* "gəlib", *vurubanı* "vurub", *görübəni* "görüb" (Qax, Zaqatala) və s.

7. *-ıbnan, -ibnən,-ubnan,- übnən* " (Dərbənd). Məsələn: *gütəribnən* "götürüb", *alıbnan* "alıb", *görübnən* "görüb" (Dərbənd) və s.

8. *-ıvanı//-ivəni, -ivəni, -uvəni, -üvəni* (Şəki): *diyivəni* "deyib", *alıvanı* "alıb", *gəti:rivəni* "gətirib", *bölüvəni* "bölüb" "bölüb" (Şəki) və s.

9. *-ıf, -if, -uf, -üf* (Qubadlı, Şəki, keçid şivələri), *-ıf, -if, -uf, -üf, -yıf, -yif, -yuf, -yüf,-e:f, -o:f,-ö:f* (qərb qrupu şivələri): *təmizdiyif* "təmizləyib", *aparıf* "aparıb", *piçif* "biçib" (Çəmbərək, Şəki). Məsələn: *oxuyuf* "oxuyub", *götürüf* "götürüb", *süpürüf* "süpürüb" (Çəmbərək, Qubadlı), *suarıf* "suvarıb" (Qubadlı), *gəzif* "gəzib", *gözdüyüf* "gözləyib" (Çəmbərək), *gözdö:f* "gözləyib", *sulo:f* "sulayıb" (Tovuz) və s.

Ağdaşın bəzi kənd şivələrində şimal qrupu şivələrinin təsiri nəticəsində birvariantlı - *-yif* feili bağlama şəkilçisi işləni: *daşiyif* "daşıyıb", *oxiyif* "oxuyub", quriyif "quruyub" və s.

10. *–ıncə,-ıncən,-incən,-uncan, -uncax,-üncən* (Şəki,), *-ıncan, -incən, -yıncan, -yincən* (Bakı, Quba), *–ıncan,-incən,-uncan,-üncən, -yıncan, -yincən, -yuncan, -yüncən* (Qubadlı, Naxçıvan), *-yncən* (Naxçıvan): *çatıncə* "çatınca", *çatıncən* "çatınca", *duruncax* "durunca", *gəlincən* "gəlincə", *görüncax* "görüncə" (Şəki), *alıncan* "alarkən", *gəlincən* "gələrkən", *oxiyincən* "oxuyarkən", *di:yincən* "deyərkən" (Bakı), *alıncan* "alınca", *gəlincən* "gəlincə" (Quba), *yazıncan* "yazınca", *bəxincən* "baxıncan", *annıyıncan* "anlayınca", *duruncan* "durunca", *toxuyuncan* "toxuyunca", *gözdüyüncən* "gözləyincə" (Naxçıvan), *gəlincən* "gəlincə", *oturuncan* "oturunca", *tərpənincən* "tərpənincə" (Qubadlı) və s.

11. *–anda,-əndə,-yanda,-yəndə* (Bakı, Çəmbərək, Qubadlı, Muğan, Naxçıvan, Şəki), *–anda,-əndə, -yəndə* (Bakı, Təbriz): *danişəndə* "danışanda", *giyəndə* "geyinəndə", *so:randa* "sovuranda" (Şəki), *qalxanda, gedəndə* (Muğan), *gələndə, oxĭyəndə* "oxuyanda" (Bakı), *daşanda, işdiyəndə* "işləyəndə" (Naxçıvan), *olanda, oxuyəndə* "oxuyanda" (Təbriz), *dərəndə, yığanda, düşəndə* (Qubadlı), *başlıyanda* "başlayanda", *ta:lıyanda* "tayalayanda" < otu bir yerə topalayanda (Çəmbərək) və s.

12. *-dıxca,-dıxcə,-duxca* (Şəki), *-dıxca,-dix'cə,-duxca,-düx'cə* (Naxçıvan): *qaldıxca* "qaldıqca", *baxdıxcə* "baxdıqca", *yatdıxca* "yatdıqca", *işdıxca* "işdikcə", *gəzdıxca* "gəzdikcə" (Naxçıvan) və s.

13.*-dıxcən,-dix'cən,-duxcən* (Şəki), *-dığcan, -digcən* (Quba), *-dıxcan, -dix'cən,-duxcan -düx'cən* (qərb qrupu şivələıri, Qubadlı): *yidix'cən* "yedikcə" (Şəki), *baxdığcan* "baxdıqca", *giddigcən* "getdikcə" (Quba), *yatdıxcan* "yatdıqca", *getddix'cən* "getdikcə", *baxdıxcan* "baxdıqca" (Qubadlı), *pişdix'cən* "biçdikcə", *danışdıxcan* "danışdıqca" (Tovuz) və s.

14. *-cağın* (Muğan), *-çağın,-cağın,-cəgin,-cəyin,-çəgin* (Başkeçid): *accağın* "açanda", *tutcağın* "tutand" (Muğan), *çağırcağın* (Başkeçid) – çağıranda, *aççağın* (Başkeçid) – açanda, *ölcəgin* (Başkeçid) – öləndə, *çətçəgin* (Başkeçid) – çatanada < əldə edəndə, *iycəyin* (Başkeçid) – yeyəndə və s.

15. *-anı*[i]*, -əni, - yanı*[i]*, -yəni* (Bakı): *alanı*[i] "alanda", *gələni* "gələndə", *diyəni* "deyəndə" (Bakı) və s.

16.*-dıxda,-dix'də,-duxda,-düx'də* (Naxçıvan: *baxdıxda* "baxdıqda", *görddüx'də* "gördükdə", *gəldix'də* "gəldikdə", *vurduxda* "vurduqda" (Naxçıvan) və s. Bu şəkilçi ədəbi dildə *-dıqda, -dikdə, -duqda, -dükdə* feili bağlama şəkilçisinin dialekt variantrıdır.

17.*-dignə* (Dərbənd). Məsələn: *əkdignə* "əkdikcə" (Dərbənd) və s.

18.*-cəgin//cəqin,-cəgi, -cegin,- ceg* (Dərbənd): *gəlcəgin* "gəlcək", *baxcəqin* "baxcaq", *gəlcəgi* "gəlcək" (Dərbənd) və s.

19.*-ınceg, -inceg, -üncüg* (Dərbənd): *bilinceg* "bilcək", *görünceg* "görcək", *tapınceg* "tapcaq" (Dərbənd) və s.

20.*-ınca, -anca,-əncə* (Dərbənd: *gələncə* "gəlincə" (Dərbənd) və s.

21. *-ı, -i, -u, -ü* (Təbriz): *aparı* "aparıb", *gətiri* "gətirib", *gedi* "gedib", *baxı* "baxıb", *duru* "durub" (Təbriz),

22.*-ıncax,-incəx′,- uncax, -üncəx′* (Təbriz). Məsələn: *yetişincəx′* "yetişincə", *quruncax* "qurunca", *tökülüncəx′* "tökülüncə" (Təbriz) və s.

23.*–annan,-ənnən,-yannan,-yənnən (*Çəmbərək, Qubadlı, Təbriz) . Bu şıkilçi əsasən **sonra** və **bəri** qoşmaları ilə işlənərək feili bağlama şəkilçisi funksiyası yerində işlənir. Məsələn: *süpürənnən sora* "süpürəndən sonra", *dünənnən bəri* "dünəndən bəri" (Çəmbərək), *qaçannan so:ra* "qaçandan sonra", *gətirənnən bəri* "gətirəndən bəri" (Qubadlı).

Bu şəkilçi Təbriz şivəsində isə qoşma qəbul etmədən feili bağlama şəkilçisi kimi işlənir. Bı söhbətdər mallar kətdə **qalannan** başladı. Mənki bəlar **gələnnən** bi dəfə və iki dəfə getmişəm əmqızilə. Əmmə təbrizlilər adamı elə **görənnə**n zarafatı başlalla (M.Məmmədli, 2008, s. 132-133) və s.

24.*-alı,-əli,-yalı,-yəli* (Çəmbərək, Qazax, Gəncə, Tovuz,Şuşa): *alalı* "alanda", *gələli* "gələndə", *olalı* "olanda" (Ağstafa, Çəmbərək, Qazax, Gəncə, Tovuz Şuşa), *yazalı* "yazanda", *tikiləli* "tikiləndə", *köçəli* "köçəndə" (Borçalı, Çəmbərək, Qazax) və s.

25.*-ifdan,-ifdən,-ufdan,-üfdən* (Tovuz). Bu şəkilçi ədəbi dildə işlənən -ıb^4 feili bağlama şəkilçisinin funksiyasını yerinə yetirir. Məsələn: *alıfdan* "alıb", *uçufdan* "uçub", *köçufdən* "köçüb" (Tovuz) və s.

Məsdər

Şivələrimizdə məsdərlərin əmələ gəlməsi konstruksiyası ədəbi dilə oxşayır. Ədəbi dilimizdə məsdərin morfoloji əlaməti *-maq, - mək* şivələrimizdə müxtəlif fonetik tərkiblərdə özünü göstərir. Məsdər qərb qrupu şivələrdə (Basarkeçər, Çəmbərək, Qarabağ, Qazax, Gəncə, İrəvan) *-max, -məx′, -bax, - bəx′,* Qubadlı şivəsində *-max, -məx′,* Quba şivəsində *-mağ// -max,* şərq qrupu şivələrində (Bakı, İsmayıllı, Muğan, Şamaxı) *-mağ, -məg,* Naxçıvan qrupu şivələrində *-max, - mağ, -məx′, -məg,-məy,* Meğri şivələrində *-max,-məx,* Təbriz və Şəki şivələrində birvariantlı olmaqla *-max,* Dərbənd şivəsində *-mağ,* keçid şivələırində *-max, -mək* (*-mağ, -məh, -məx′,-məy*) şəkilçisi əsasında əmələ gəlir. Məsələn: *uçummax* (Borçalı) – uçunmaq < qorxmaq, *yadırğamax (*Çəmbərək, Şəmkir) - yadırğamaq< unutmaq, *ayırtdamax (*Borçalı) - ayırtdamaq< təmizləmək, *gəzməx′* (qərb qrupu şivələri) - gəzmək, *tapbax* (Basarkeçər, Çəmbərək, Qazax, Tovuz) - tapmaq, *səpbəx′* (Çəmbərək, Qazax, Tovuz) - səpmək, *pozmax* (Qubadlı) - pozmaq, *süzməx′ (*Qubadlı) - süzmək, *almağ* (Quba) - almaq, *yumağ* (Qubadlı) -yumaq, *tükmağ* (Quba) - tökmək, *saxlamağ (*Muğan) - saxlamaq, *bilməg* (Muğan) – bilmək, *dolammax* (Naxçıvan) - dolanmaq, *saxlamax* (Naxçıvan) - saxlamaq, *tutmağ* (Naxçıvan) - tutmaq, *deməx′ (*Naxçıvan) – demək, *getməy (*Naxçıvan) - getmək, *yatmax* (Meğri) - yatmaq, *dözməx (*Meğri) - dözmək, *qəşmax* (Təbriz) - qaçmaq, *yimax (*Şəki) – yemək, *gəlmax* (Şəki) - gəlmək, *cirmağ (*Dərbənd) – cırmaq, *yığlamağ* (Dərbənd)//*yığlamax* (Qax, Şəki, Zaqatala) – ağlamaq, *taramağ* (Dərbənd) - daramaq, *sürmağ* (Dərbənd) – sürmək < şumlamaq, *başarmax* (Ağdaş, Basarkeçər, Çəmbərək, Qazax, Tovuz) – bacarmaq, *topalamax* (Göyçay) – topalamaq < yığmaq, *uçmağ* (Göyçay) - uçmaq, *yiməx′ (*Göyçay) - yemək, *ürkmək* (Göyçay) - hürkmək, *bişməh* (Göyçay) – bişmək, *tikməy (*Göyçay) - tikmək və s.

Şəkinin Böyük Dəhnə və Kiçik Dəhnə kənd şivələırində məsdər ikivariantlı *-max, -məx′* şəkilçisini qəbul edir. Məsələn: *ehmax* - əkmək, *çəhməx′* - çəkmək (M.İslamov, 1968, s. 111) və s.

Dərbəndin Rubas şivəsində *-məg* (*qaytərməg* "qaytarmaq"), Bərəkey, Kommuna şivələrində *-meg* (*yapişmeg* "yapışmaq"), Şəkinin Dəliçoban, Yersi şivələrində *-mağ, -məg* (*qaytərməg* "qaytarmaq"), Müzayim, Rükəl şivələrində *-mağ,- məg, -meg* (*işləmeg* "işləmək"),

Meğrinin Nüvədi şivəsində məsdər birvariantlı *-maᵊx* şəkilçisi əsasında düzəlir. Məsələn: *köşmaᵊx, işdəmaᵊx* və s.

Salyanın Qırmızıkənd şivəsində feillər məsdər şəkilçisindən sonra cəm şəkilçisini qəbul edir. Məsələn: *Üzməglərin* çoxısı[i] Səlyandan alıb (Salyan); Da:kəntdə *qapışmağlar* çox olıb (Salyan) və s.

Naxçıvan şivələrində məsdər şəkilçili sözlər *-lıx, -lik, - lux, -lük (-lığ, -lix′, - luğ, -lüx′) (*Naxçıvan qrupu, 1962, s. 111), Təbriz şivəsində *-lıx,* Dərbəndin Cimikənd şivəsində *-lig* leksik şəkilçisini də qəbul edir. Bu da məsdərin ismə oxşar xüsusiyyət ilə bağlıdır. Məsələn: *yatmaxlıx, danışmağlığ, deməx′lix′, pişirməx′lix′, işləməyliy* (Naxçıvan), *yazmaxlıx*, *oxumaxlıx (*Təbriz), *gülmeglig* (Dərbənd) və s.

ZƏRF

Azərbaycan dili şivələrində zərflər ədəbi dildən işlənmə xüsusiyyətinə görə fərqlənir. Zərflər ədəbi dildə olduğu kimi, quruluşca üç yerə bölünür: 1) sadə zərflər; 2) düzəltmə zərflər; 3) mürəkkəb zərflər.

Sadə zərflər

Şivələrfimizdə sadə zərflər ədəbi dildə olduğu kimi leksik mənaya malik olan bir kökdən ibarət olur. Məsələn: *cılxa (*Çəmbərək, Lənkəran, Yardımlı) – tamam, tamamilə, *eyzan* (Ağdam, Bərdə, Cəlilabad, Gədəbəy, Xocavənd, Kürdəmir, Qazax, Naxçıvan, Salyan) – tamamilə, bütünlüklə, başdan-başa, *hağidə* (Yardımlı) – cəld, tez, *peydar (*İsmayıllı) –həmişə, aravermədən, *sappacadan (*Füzuli) – qəflətən, qəfildən, *ütələx′* (Çəmbərək)// *hütələk (*Qazax) - tələsik, *yengi (*Bakı, Çəmbərək, Meğri, Şamaxı) - təzə, yeni, *ifciŋ (*Borçalı) - səliqəli, *pütrəm* (Çəmbərək, Qazax) - bütünlüklə, *öhrəm (*keçid şivələri) - tez, *bə:x* (Çəmbərək, keçid şivələri) - indi, *ilmidama//ilmizam* (keçid şivələri) - həmişə, *həməşə (*Çəmbərək, Muğan) - həmişə, *iti* (Çəmbərək, Muğan) - sürətlə, *həmməşə (*Basarkeçər, Borçalı, Çəmbərək, Qazax, Muğan, Naxçıvan, Təbriz, Tovuz) - həmişə, *lığlama (*Qubadlı) - çoxlu, *yalxı (*Qubadlı) - tək, kahal (Qbadlı) - ləng, *xeylax* (Borçalı, Çəmbərək, Dərbənd, Qazax, Qubadlı, Təbriz)// *xeylağ* (Muğan, Quba) - xeyli, *qərəm* (Naxçıvan) – həmişə, *isvaha* (Çəmbərək) - səliqəli, *yə:x* (Çəmbərək) - piyada, *həmməşə* (Çəmbərək) - həmişə və s.

Düzəltmə zərflər

Şivələrimizdə düzəltmə zərflər aşağıdakı şəkilçilərlə əmələ gəlir:

1.*-dan,-dən*. Bu şəkilçi tərzi-hərəkət zərfi və zaman zərfi düzəldir. Məsələn: *lapbdan (*Cəlilabad) - birdən, qəflətən, *lapdan* (Bakı, Biləsuvar, Cəlilabad, Kürdəmir, Muğan, Salyan, Şamaxı, Şəmkir, Yardımlı) - qəflətən, gözlənilmədən, *soŋradan (*Çəmbərək, keçid şivələri) - sonra, *əzəldən (*keçid şivələri) - əvvəldən, *lappadan (*Çəmbərək) - qəflətən, qəfildən, *ertədən* (Çəmbərək, Qubadlı) - səhər tezdən, *obaşdan* -(Çəmbərək, Qubadlı) - səhər tezdən, *əzəldən* (Çəmbərək, Şəki) - əvvəldən, *günortadan* (Dərbənd) - günorta vaxtı, *axşamdan (*Çəmbərək) - axşam vaxtı və s.

2.*-ca,-cə*. Şivələrimizdə geniş işlənmə xüsusiyyətinə malikdir və məhsuldar şəkilçidir.

Məsələn: *yuaçca* (Qazax) - yavaşca, *əvvəlcə (*Borçalı, Çəmbərək, keçid şivələr, Qazax, Tovuz) - əvvəl, *hindicə* (keçid şivələr) - indi, *ehmalca* (keçid şivələr) -sakitcə, *ussufca* (keçid şivələr) – səliqəli formada, *tezəcə* (Dərbənd) - təzə, *qabaxca (*Dərbənd) - əvvəl, *indicə* (Çəmbərək) – indi, *tezcə (*Meğri) - tez, *hindicə* (Quba) – indi, *ehmalca (*Çəmbərək) - sakitcə, ehtiyatla .və s.

3.*-can,-cən.* Zərf düzəldən məhsuldar şəkilçidir və geniş yayılmışdır. Məsələın: *qavaxcan* (keçid şivələr) - qabaqca < əvvəl, əvvəlcə, *əvvəlcən* (keçid şivələr, Muğan) - əvvəl, *əzzəlcən* (keçid şivələr) - əvvəl, *qəfilcən* (keçid şivələr) - qəflətən, *qabaxcan (*Qubadlı) - əvvəlcə və s.

4.*-cana,-cənə.* Zərf düzəldən məhsuldar şəkilçidir və şivələrimizdə geniş surətdə istifadə olunur. Məsələın: *yavaçcana* (keçid şivələr) - yavaş, *səllimcənə* (Şahbuz) – işsiz, avara, *indicənə* (Çəmbərək) – indi, *yaxşıcana* (Füzuli) – yaxşı, *gözəlcənə* (Füzuli) – gözəl, *qəşəx'cənə* (Naxçıvan) - qəşəng və s.

5.*-dannan,-dənnən.* Bu şəkilçi *-dan,-dən* şəkilçisi ilə *-nan,-nən* şəkilçisinin birləşməsindən əmələ gəlmişdir (A.Hüseynov, 1979, s.61). Şivələrimizdə məhsuldar şəkilçi kimi işlənir və zaman zərfi əmələ gətirir. Məsələn: *çoxdannan* (Çəmbərək, keçid şivələr) - çoxdan, *obaşdannan* (Çəmbərək, Qubadlı) - səhər tezdən, *gejdənnən* (Çəmbərək, Qazax, keçid şivələri) - səhər tezdən, *bayaxdannan* (keçid şivələri) - indi, *tezdənnən* (Basarkeçər, Çəmbərək, Quba) - səhər tezdən, *indidənnən (*Qubadlı) – indi, vaxtında və s.

6.*-nan,-nən*. Zərf düzəldən şəkilçilər içərisində ən məhsuldar olmuş və indi də çox yayılmış "-nan" (vurğusuz) şəkilçidir. Tarixən "- bilən" və "-layın" formalarından yaranmışdır (A.Hüseynov, 1979, s.61). Bu şəkilçi tərzi-hərəkət, zaman və bəzən də yer zərfi düzəldir. Məsələn:

zaman zərfi: *alatorannan* (Qubadlı) - səhər tezdən, *sabaynan* (Dərbənd) - sabah, səhər, *axşamnan* (Dərbənd, Naxçıvan, Sisyan) - axşam vaxtı, *üsrögünnən* (Dərbənd) - srağa gün, *sabahnan* (Dərbənd) - sabah, səhər tezdən, *günbəgünnən* (Dərbənd) - günbəgün, *səhərnən* (Sisyan) - səhər, *gecəynən (*Sisyan) - gecə, *tezdix'nən* (Çəmbərək) – tez bir zamanda, tezlik ilə, *təzəlix'nən* (Çəmbərək) - yeni və s.

tərzi-hərəkət zərfi: *sağlıxnan* (Çəmbərək) – sağlıqla, *xoşduxnan* (Çəmbərək) - razılıq ilə və s.

yer zərfi: *gennən* (Çəmbərək, Meğri) - uzaqdan və s.

7.*-lı,-li,-lu,-lü.* Şivələrimizdə işlənən bu şəkilçi zərf düzəldən şəkilçi kimi az işlənir və bir neçə sözün tərkibində rast gəlinir. Məsələn: *ikili* (Bakı) – birə iki, ikiqat, *yelli (*Bakı, Cəbrayıl, Füzuli, Qubadlı, Gədəbəy, Kürdəmir, Laçın, Sabirabad, Salyan, Şəki) – tez, cəld.

8.- ları,-ləri. Şivələrimizdə zərf düzəldən qeyri-məhsuldar şəkilçidir və bir o qədər də geniş yayılmamışdır. Məsələın: *bayaxları (*Çəmbərək, keçid şivələr) - indi, *biyilləri (* keçid şivələr) - bu illər, *inişilləri* (Naxçıvan) - keçən il və s.

9 *-a.* Qeyri - məhsuldar şəkilçidir və bir neçə sözdə rast gəldik. Məsələn: *əvvəla (*Çəmbərək) - əvvəl, *qabağa* (Dərbənd) – irəli və s.

10.-*atan.* Qeyri-məhsuldar şəkilçidir və bir neçə sözdə rast gəlinir. Səs təqlidi sözlərdən tərzi - hərəkət zərfi əmələ gətirir. Məsələn: *pırratan* (keçid şivələr) - pırıltı ilə, şapbatan (keçid şivələr) - birdən və s.

11.-*də.* Qeyri-məhsuldar şəkilçidir və bir sözdə rast gəldik. Zaman zərfi əmələ gətirir. Məsələn: *yengidə* (Çəmbərək, keçid şivələr) - gələn il və s.

12.- *akı, -aki, -əki.* Bu şəkilçi yönlük hal şəkilçisi ilə mənsubluq anlayışı bildirın -kı,-ki şəkilçisindən əmələ gəlmişdir (A.Hüseynov, 1979, s.61). Qeyri-məhsuldar şəkilçidir və bir neçə sözdə rast gəldik. Tərzi - hərəkət zərfi əmələ gətirir. Məsələn: *yanaki (*Muğan)//*yanakı* (keçid şivələri) - uzaq, *çəpəki* (Çəmbərək, Muğan) - əyri və s.

13.-*lığnan, -liknən, -lignən.* Qeyri-məhsuldar şəkilçidir və bir neçə sözdə rast gəldik. Məsələn: *təzəlignən* (Quba) – təzə və s.

14. *-narı,-nəri.* Qeyri-məhsuldar şəkilçidir və bir neçə sözdə rast gəlinir. Zaman zərfi əmələ gətirir. Məsələn: *dünənnəri* (Bakı, Çəmbərək, Dərbənd, Qubadlı, Meğri) - dünən, *öyünnəri* (Qubadlı, Şəki) – o gün, *büyünnəri (*Meğri, Şəki)// *bugünnəri* (Bakı) - bu gün, *soramnarı* (Şəki) - sonra və s.

15.-*nə.* Şivələrimizdə işlənən qeyri-məhsuldar şəkilçidir və bir sözdə rast gəldik. Məsələn: *dünənnə* (Dərbənd) - dünən və s.

16.-*ncig*. Şivələrimizdə işlənən qeyri-məhsuldar şəkilçidir və əsasən Bakı şivəsində işlənir. Məsələn: *beləncig* (Bakı) - belə, *eləncig* (Bakı) - elə və s.

17.-*məcə.* Qeyri-məhsuldar şəkilçidir və tərzi - hərəkət zərfi əmələ gətirir. Məsələn: *öldürməcə* (Yevlax) – ölümcül və s.

18.-*ədi,-ənti.* Qeyri -məhsuldar şəkilçidir və tərzi - hərəkət zərfi əmələ gətirir. Məsələn: *birədi* (Çəmbərək, Qazax) // *birənti (*Qazax) - birlikdə, *birədi* (Şahbuz) – bütünlüklə və s.

19.-*ma,-mə.* Zərf düzəldən qeyri-məhsuldar şəkilçidir və bir neçə sözdə rast gəlinir. Məsələn: *hərrəmə* (Çəmbərək,Tovuz) - dairəvi, *sijilləmə* (Çəmbərək) - dəqiqliklə, uzum-uzadı, *siləl əmə* (Çəmbərək, Qubadlı) - ağızbaağız və s.

20.-*əm.* Zərf düzəldən qeyri-məhsuldar şəkilçidir və bir neçə sözdə rast gəlinir. Məsələn: *dördəm* (Qazax, Tovuz) – dörd nala (sürətlə qaçan ata aid), *düzəm* (Naxçıvan) – bir baş və s.

Mürəkkəb zərflər

Azərbaycan dili şivələrində mürəkkəb zərflər aşağıdakı yollarla əmələ gəlir:

Eyni sözün təkrarından əmələ gələn mürəkkəb zərflər: *gildir- gildir* (Bakı, Gədəbəy, Kürdəmir, Salyan) // *bılıdır-bıldır* (Çəmbərək) – gilə-gilə, damcı-damcı, *eymana- eymana (*Qax) – fikirləşə-fikirləşə, *eymənə- eymənə (*Çəmbərək)- iyrənə-iyrənə, *əlbəsö:n - əlbəsö:n* (Şamaxı) - acgözcəsinə, tamahkarcasına, *gallah-gallah* (Quba) – başlı-başına, *ixsıya-ixsıya* (Salyan) – sıxıla-sıxıla, *ögəc-ögəc* (Şamaxı) –böyük -böyük (insana aid), *əvənnağı-əvənnağı* (keçid şivələri) - avara-avara, *bala-bala* (Çəmbərək, Təbriz) - az-az, *çin-çin* (Çəmbərək, Təbriz) - üst - üstə, *tüşüx′ - tüşüx′* (Çəmbərək)// *düşüx′ - düşüx′* (Qubadlı) - səfeh-səfeh,

bəyrə-bəyrə (Çəmbərək, Şəki) - qışqıra-qışqıra, *yuvaş - yuvaş* (Dərbənd) -yavaş-yavaş, *biruz - biruz* (Şahbuz) - kinli – kinli, *çimçənə - çimçənə* (Çəmbərək) - iyrənə- iyrənə və s.

Tərəflərindən biri və ya hər ikisi ayrılıqda məna bildirməyən iki sözdən əmələ gələn mürəkkəb zərflər: *ələşən – küləşən* (İmişli) - bir təhər, güc-bəla, *əlləm – qəlləm* (Zəngibasar) – diqqətlə, *əlləm - qəlləm (*Şərur) - qatmaqarışıq, *omalax-çomalx* (Şəki) - birlikdə, ucdantutma, *kir-kirimiş* (Şəki) – sakit, *xurt-xaşıl* (Çəmbərək, Şəki) // *xurd-xaşıl* (Şahbuz) - əzik-əzik, *qıtım-qıtım* (keçid şivələri) - kiçik-kiçik, *dəngül-düngül* (keçid şivələri) - orda-burda, *bu heyində* (Təbriz) - bu vaxt, *yornuğ-arnuğ* (keçid) - yorulmuş, *yanpörtü* (Çəmbərək, Qubadlı) -əyri, *tələmtəhdili* (Qubadlı) – tələsik, *tələmtələsik* (Çəmbərək) – tələsik, *əlbəhə* (Qubadlı) - dərhal, *ayamda - sayamda* (Naxçıvan) - aradabir, hərdən, *ayın-şayın* (Şahbuz - yaxşı əhval ruhiyyəli və s.

İki müxtəlif mənalı sözün birləşməsindən əmələ gələn mürəkkəb zərflər: *haçabaş* (Bakı) - bərabər, əvəz - əvəz, *ilkili-birli* (Qazax) – birə iki, ikiqat, *qış vəxdi* (Təbriz) - qış fəsli, *əlüsdü* (Çəmbərək, Qubadlı, Meğri) -dərhal və s.

Müxtəlif fonetik tərkibli eyni mənalı iki sözün birləşməsindən əmələ gələn mürəkkəb zərflər: *özkəndinə (*Qazax) – öz-özünə, *bu heyində (*Təbriz) - bu vaxt və s.

Tərəfləri müxtəlif morfoloji əlamətə malik olan eyni sözün təkrarından əmələ gələn mürəkkəb zərflər: *yer-yerdən* (Zaqatala) - hər yerdən, *uzun-uzadı* (Çəmbərək) - fasilə vermədən, *kəndi-kəndinə* (Çəmbərək, Qazax) – öz-özünə, *ağız-ağıza* (Çəmbərək) - üz-üzə, *birdən-birəcə* (keçid şivələri) - birdən-birə, *peydar-pey (*Çəmbərək)//*peydər - pey* (Bakı) - daimi, həmişə və s.

Müxtəlif mənalı sözlərn birləşməsindən əmələ gələn mürəkkəb zərflər: *birho:r* (keçid şivələri) - bir az, *günaşırı* (Çəmbərək, keçid şivələri) - bir gündən bir və s.

Əks mənalı sözlərn birləşməsindən əmələ gələn mürəkkəb zərflər: *aşağa-yuxara* (Dərbənd) - aşağı – yuxarı, *gicə-gündüz* (Dərbənd) - gecə - gündüz və s.

"ba", "bə" hissəciyi vasitəsilə eyni sözdən əmələ gələn mürəkkəb zərflər: *lağbalağ* (Bakı) – ağzınadək dolu, *löyünbəlöyün* (keçid şivələri) - növbənöv, *düzbədüz* (keçid şivələri) - düz, lap düz, *üzbəsurat* (Şahbuz) - üzünə və s.

Zərfin məna növləri

Azərbaycan dili şivələrində zərfin aşağıdakı məna növləri vardır:

1. Tərzi-hərəkət zərfi.
2. Zaman zərfi.
3. Yer zərfi.
4. Miqdar zərfi.

Tərzi-hərəkət zərfi

Azərbaycan dili şivələrində işlənən tərzi – hərəkət zərfləri ədəbi dildə olduğu kimi feillə bağlı olub hərəkətin icra tərzini bildirir. Tərzi-hərəkət zərfi zərfin bütün qurluş növündə özünü göstərir. Məsələn: *saytal (*Meğri) – daima, tez-tez, *səbərrənə - səbərrənə* (Zəngibasar) – səndərləyə-səndərləyə, *şəbbadanxeyr* (Ağdam, Şuşa) - qəflətən, gözlənilmədən, *pütrəm*

*(*Çəmbərək, Qazax) - bütünlüklə, *yə:x//yəyax* (Borçalı, Çəmbərək) - ayaqla (piyada), *ağız-ağıza* (Çəmbərk) - üz-üzə, *hənəx' - hənəx'* (Tovuz) - az-az, *ussufca* (keçid şivələr) - səliqəli formada, *qəfilcən* (keçid şivələr) – qəflətən, *yavaçcana* (keçid şivələr) - yavaş, *birdən-birəcə* (keçid şivələri) - birdən-birə, *iti (*Çəmbərək, Muğan) - sürətlə, *lapdan* (Muğan) - gözlənilmədən, *bala-bala* (Təbriz) - az-az, *çin-çin* (Çəmbərək, Təbriz) - üst - üstə, *yelli* (Qubadlı) – tez, cəld, *yalxı* (Qubadlı) - tək, *kaha*l (Qbadlı) - ləng, *əlüsdü (*Çəmbərək, Qubadlı) – dərhal, *gizdin* (Dərbənd) - gizli, *gizlincə* (Çəmbərək) - gizli, *yuvaş - yuvaş* (Dərbənd) - yavaş-yavaş, *yalğuz* (Dərbənd) – tək, *yalqız* (Çəmbərək) - tək, *beləncig (*Bakı) - belə, *eləncig* (Bakı) - elə, *qəşəx'cənə (*Naxçıvan) - qəşəng, *püfərəx'* (sisyan) – tez, cəld, *basırqı* (Zəngibasar) – tez, *isvaha (*Çəmbərək) - səliqəli, *yamperti (*Meğri) - çəpinə, çəpəki və s.

Zaman zərfi

Zaman zərfi hərəkətin icra zamanını bildirir və zərfin quruluşunun üç növündə də müşahidə olunur. Məsələn: *peydar* (İsmayıllı, Zərdab) – həmişə, aravermədən, *faraş* (Borçalı, Çəmbərək, Gədəbəy, Qazax, Tovuz) - vaxtından əvvəl, *qavaxcan* (Çəmbərək, Qazax) - əvvəl, *nişil* (Çəmbərək, Qazax, Tovuz) // *inişil* (Muğan) - keçən il, *peydər* (Borçalı) - daimi, *qarannıxlı (*Borçalı, Çəmbərək) - səhər tezdən, hava işıqlanmamış, *həmməşə (*Basarkeçər, Borçalı,Çəmbərək, Qazax, Muğan, Təbriz, Tovuz) - həmişə, *öhrəm* (keçid şivələri) - tez, *bə:x* (Çəmbərək, keçid şivələri) – indi, *ilmidama//ilmizam* (keçid şivələri) - həmişə, *soŋradan* (Çəmbərək, keçid şivələri) –sonra, *əzəldən* (keçid şivələri) -əvvəldən, *çoxdannan* (Çəmbərək, keçid şivələr) - çoxdan, *qavaxcan* (keçid şivələr) - qabaqca, *əvvəlcən* (keçid şivələr) - əvvəl, *əzzəlcən* (keçid şivələr) - əvvəl, *günaşırı* (Çəmbərək, keçid şivələri) - bir gündən bir, *hindi* (Muğan)- indi, *so:ralıxlarda* (Təbriz) - sonra, *bu heyində (*Təbriz) - bu vaxt, *obaşdannan* (Çəmbərək) - səhər tezdən, *gejdənnən* (Çəmbərək, Qazax) - səhər tezdən, *dünənnəri* (Çəmbərək, Qubadlı) - dünən, *boylum* (Çəmbərək, Qubadlı) – sonra, *büyünnəri* (Şəki) – bu gün, *soramnarı* (Şəki) - sonra, *yengidə* (Çəmbərək, Şəki) - gələn il, *əzəl* (Çəmbərək, Dərbənd, Meğri) - əvvəl, *əzzəl* (Meğri) - əvvəl, *ağəl (*Bakı) - əvvəl, biyağ (Bakı) - indi, *isreyin* (Bakı) - srağa gün, *biyilləri* (keçid şivələr) - bu illər, *inişilləri* (Naxçıvan) - keçən il, *birəti//birətilim* (Zəngibasar) - daimi, həmişəlik, *seytəl (*Meğri) - həmişə, *səhərertə* (Meğri) - səhər tezdən, *peydərpey* (Çəmbərək) – daimi və s.

Yer zərfi

Şivələrimizdə işlənən yer zərfi ədəbi dildən həm leksik tərkibinə, həm də fonetik tərkibinə görə fərqlənir. Yəni şivələrimizdə rast gəldiyimiz yer zərfləri indi ya ədəbi dildə işlənmir (*tışxarı, qənşər, handa* və s.), ya da ədəbi dildən fərqli fonetik tərkibdə işlənir (*uxarı, yoxun, əşagi* və s.). Məsələn: *uxarı (*Muğan, Tovuz) - yuxarı, *uxari* (Bakı) - yuxarı, *tışxarı* (Çəmbərək) – çöl, bayır, *eşix'* (Çəmbərək) - həyət, *aşağı (*Təbriz) - aşağı, *yoxun* (Təbriz) – yaxın, *dəngül-düngül* (keçid şivələri) - orda-burda, *yavıx (*Qubadlı) - yaxın, *qənşər* (Qubadlı) - qarşı, ə:nə (Çəmbərək, Qubadlı) - o yana, *bə:nə* (Çəmbərək, Qubadlı) - bu yana, *başşağı* (Çəmbərək, Şəki) - başı aşağı, *aŋırda* (Çəmbərək, Şəki) - orada, o tərəfdə, *aşağa-yuxara* (Dərbənd) - aşağı - yuxarı, *qırağ (*Dərbənd) - kənar, *bunda* (Dərbənd) – bura, *handa* (Dərbənd) – hara, *oruya* (Zəngibasar) - ora, *buruya* (Zəngibasar) - bura və s.

Miqdar zərfi

Azərbaycan dili şivələri ilə bağlı araşdırmalarda miqdar zərfi həm də "kəmiyyət zərfi" termini ilə ifadə olunmuşdur. Şivələrimizdə miqdar zərfi hərəkətin icra kəmiyyətinini bildirir.

Məsələn: *oqərtən (*Karvansaray) - o qədər, *xeylax* (Borçalı, Çəmbərək, Dərbənd, Qazax, Qubadlı, Təbriz) // *xeylağ* (Muğan, Quba) - xeyli, *dınqılı* (Çəmbərək) - az, *dınnajıx (*Borçalı) - az, *birələm* (Borçalı) - xeyli, çox, *birho: r* (keçid şivələri) - bir az, *oğarta (*keçid şivələri) - o qədər, *bitikə (*keçid şivələri) - bir tikə < bir az, *bitgə* (Bakı) - bir tikə < bir az, *bicə belə* (Təbriz) - bir az, bu qədər, *bir samat* (Quba) - bir az, *birhavır (*Qubadlı) - bir qədər, *oxartana* (Qubadlı) - o qədər, *nanca//nancan* (Şəki) - nə qədər, *o xətən (*Şəki) - o qədər, *nə qədərən* (Şəki) - nə qədər, *hoğarta (*Dərbənd) //*oğarta* (Çəmbərək) - o qədər, *çux* (Dərbənd) - çox, *uğarta* (Bakı) - o qədər, *oxarta* (Bakı, Meğri) - o qədər, *biro:r* (Bakı) - bir az və s.

KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ

Azərbaycan dili şivələrində köməkçi nitq hissələri şivələrimizlə bağlı tədqiqatlarada, dərslik və dərs vəsaitlərində izah edilmişdir. Şivələrimizlə bağlı tədqiqtlarda köməkçi nitq hissələrinin təsnifində müxtəlifliklə rastlaşırıq. Z.Vəliyev Qərbi Azərbaycanın Basarkeçər şivələrindən bəhs edən “Basarkeçər rayon şivələri” namizədlik disserrtasiyasında (Z.Vəliyev, 1954, s.168-170), K.T.Ramazanov “Azərbaycan dilinin Muğan qrupu şivələri”ndə (Muğan qrupu şivələri, 1955, s. 142-147), M. Şirəliyev “Bakı dialekti”ndə (M. Şirəliyev, 1957, s.131-135), “Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri” əsərində K.T.Ramazanov (Naxçıvan qrupu şivələri, 1962, s.145-150), R.Rüstəmov “Quba dialekti” əsərində (R.Rüstəmov, 1961, s. 152-185), A.Hüseynov “Azərbaycan dialektologiyası” dərs vəsaitində (A.Hüseynov, 1979, s.62-65) “Köməkçi nitq hissələri” terminindən istifadə etmədən “Morfologiya” bölməsi daxilində bağlayıcı, qoşma və nidalardan bəhs etmişlər. M.İslamov “Azərbaycan dilinin Nuxa dialekti” əsərində xüsusi olaraq “Köməkçi nitq hissələri” terminini işlətməmiş, köməkçi nitq hissələrinə aid olan bağlayıcı, qoşma, nida və modal sözləri tədqiqata cəlb etmişdir (M.İslamov, 1968, s.150-161). R.Rüstəmov qərb qrupu şivələrindən bəhs edən “Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri” adlı əsərdə, M.Məmmədli “Təbriz dialekti” monoqrafiyasında köməkçi nitq hissələrinin nitq hissələrinin bir növü olduğunu göstərməmiş və köməkçi nitq hissələri kimi R.Rüstəmov bağlayıcı, qoşma və ədatdan (Qərb qrupu şivələri, 1967, s.151-156), M. Məmmədli bağlayıcı, qoşma, ədat, nida, modal sözlərdən bəhs etmişdir. M.Şirəliyev “Azərbaycan dialektologisının əsasları” dərs vəsaitində də “Köməkçi nitq hissələri” terminini işlətməmiş, modal sözlər, bağlayıcılar, qoşmalar, ədatlar və nidaları köməkçi nitq hissəsi kimi qruplaşdırmışdır. Köməkçi nitq hissələrini N.Məmmədov Dərbənd dialektinin materialları əsasında (Dərbənd dialekti, 2009, s.216-225), Ş Kərimov Çəmbərək və Karvansaray (Ş.Kərimov,2004, s.217-230), A.Vəliyev keçid (A.Vəliyev, 1975, s.65-74), Ə.Əliyev (“Köməkçi nitq hissələri” terminini işlətmir), Meğri (Ə.Əliyev,2003, s.306-321) şivələrinin mteriallarıı əsasında beş yerə (qoşma, bağlayıcı, ədat, modal sözlər, nida), R.Abbasova Qubadlı (R.Abbasova, 2006, s.92), R.Kərimov Şəmkir (R.Kərimov, 1973, s. 70-76) şivələrinin materialları əsasında dörd yerə (bağlayıcı, qoşma, ədat, modal sözlər), N.Əliyeva Şahbuz şivələrinin (N.Əliyeva, 2012, s. 121-126) materialları əsasında üç yerə (bağlayıcılar, qoşma, ədat) bölürlər.

Şivələrimizdə elə köməkçi nitq hissəlırinə rast gəlinir ki, onlar dilimizin müəyyən tarixi dövrlərində işlənsə də, müasir ədəbi dilimizdə işlənmir; və ya müxtəlif fonetik tərkibdə ədəbi dildə işlənir. Dilimizin şivələrinin materiallarından aydın olur ki, Azərbaycan dili şivələrində üç köməkçi nitq hissəsi var:

1.Qoşma.

2.Bağlayıcı.

3.Ədat.

Qoşma

Azərbaycan dili şivələrindəki qoşmaların bir hissəsi ədəbi dildə işlənsə də, müəyyən bir hissəsi bu və ya digər şivədə işlənir. Həmin qoşmalara ya eyni fonetik tərkibdə, ya da müxtəlif fonetik tərkibdə dilimizin müxtəlif tarixi dövrlərində rast gəlirik. Azərbaycan dili şivələrində işlənən qoşmaları iki yerə bölmək olar:

1.Həm ədəbi dildə, həm də şivələrimizdə eyni fonetik tərkibdə işlənən qoşmalar.

2. Ədəbi dildən fərqli fonetik tərkibdə şivələrimizdə işlənən qoşmalar.

3.. Yalnız şivələrimizdə işlənən qoşmalar.

Həm ədəbi dildə, həm də şivələrimizdə işlənən qoşmalar. Azərbaycan dili şivələrində işlənən qoşmaların bir hissəsi ədəbi dillə eyniyyət təşkil edir. Bu da azərbaycanlıların təhsil səviyyəsi ilə bağlıdır. Məsələn: *kimi, tək, ilə, sarı, görə, kimi, kimi, sarı savayı, görə, təki, üçün, başqa, qədər, -can, -cən, savayı, təki, ötrü, ötrü, görə, tək, kimi, qeyri, görə, -can,-cən, qədər, kimi, -can, -cən, sonra, təki, savayı, sarı, başqa, özgə, -can, - cən, təki, savayı, doğru, təki, qədər, -can, -cən* (əksər şivələrdə) və s.

Ədəbi dildən fərqli fonetik tərkibdə şivələrimizdə işlənən qoşmalar.

1. Çıxışlıq halda olan sözə qoşularaq zaman mənası ifadə edən qoşmalar: *so:ra* (Ağdaş, Bakı, Dərbənd, qərb qrupu şivələri, Quba, Qubadlı, Meğri, Muğan, Naxçıvan, Təbriz, Şəki, Zəngibasar), *sora (*Ağdaş), *su:ra* (Quba), *sohra, so:rasına, sohrasına* (Qubadlı, Naxçıvan), *soxra, so:ram, so:ramları, so:ramlarım* (Qubadlı), *so:ram, so:rama, so:ralıxda* (Zəngibasar) - sonra, *soŋra (*qərb qrupu şivələri) - sonra. Məsələn: Dən suyunnan *so:ra* da özgə məŋsil əkerdix′ (Qazax); Sənnən *so:ra* mən hayliyədəm (Dərbənd); İki günnən sora şəhərə gedəje:k (Ağdaş) ; Qarayazdan *su:ra* üç ay yaydi (Quba); Onnan *so:rasına* mərkəzə yolladı sənətdəri (Naxçıvan); İş olannan *sohrasına,* burada qala bilməzdi (Naxçıvan); Yağış yağannan *sohrasına* gün çıxdı (Qubadlı); Onnan *soram* bizə kitaf verdilər (Qubadlı); Toyux i:rimi bir günnən *so:ramları* cücə çıxardır (Qubadlı); Sizdən *soxra* heç kəs gəlmədi (Qubadlı); Uşaxlardan *soŋra* məllimlər danışdı (Çəmbərək) və s.

2. Çıxışlıq halda olan sözə qoşularaq fərqləndirmə mənası ifadə edən qoşmalar: *savıya, savayım* (Qazax, Gəncə, Tovuz, Şəmkir), *sıvay* (Biləsuvar, Göyçay), *suvayı* (Göyçay), *savayi, sahvayı* (Şəki), *savay, safay, səvayi, safayın* (Naxçıvan), *savayı, sivayi, savayım* (Qubadlı), *savaylım, savaylın, savaylı* (Çəmbərək)*, safayı* (Çəmbərək, Naxçıvan) – savayı, başqa. Məsələn: Munnan *savıya* dağkəsəmənni Əliyi də tanıyıram (Qazax); Bi:ldən *savayım* nəqqədər oxuyajeŋız? (Tovuz); Elə bil onnan *sıvay* ayrısı yoxdu (Göyçay); Tumdan *sıvay* şirin şey yoxdı[i] (Biləsuvar); Mənnən *savayi* hamı hordeymiş (Şəki); Molladan *sahvayı* yazmax bilən olmazdı keşmişdə, hindi hamı savatdıdı (Şəki); Qızdan *safay* ma: heş kim baxmır (Naxçıvan); Maşında Kazımdan *savay* adam yoxdı[i] (Naxçıvan); Naxçıvannan *safayı* heş yerə getməmişəm (Naxçıvan); Uşaxdan *savayım* heç kəsə fikir vermədi (Qubadlı); Aşıxlardan *sivayi* zurnaçılar da gəlmişdi (Qubadlı) və s.

3. Adlıq, yiyəlik halda olan sözə qoşularaq bənzətmə mənası ifadə edən qoşmalar: *təkin (*qərb qrupu şivələri, Ağdaş, Qubadlı, Naxçıvan, Təbriz, Çəmbərək), *teki* (Bakı Şəki) – tək. Məsələn: Soyuğ bulağın su: buz *təkin* olur (Ağdaş); Gül *təkin* qızdı ona noluf (Qazax); Sənin *təkin* uşağa nə deyəsən? (Çəmbərək); Siyavuş da mə:m qərdəşim *təkin* ussa iydi (Təbriz); İspişgə vi̇ran *teki* elə ə:lolandi ki, seksendim (Bakı); İlan qılçılığı soğan *təkin* olur (Naxçıvan);

Musa da sənin *təkin* çalırdı (Qubadlı) və s.

4. Çıxışlıq halda olan sözə qoşularaq səbəb mənası ifadə edən qoşmalar: *ötərin* (qərb qrupu şivələri, Naxçıvan, Şəki), *ötəri* (Biləsuvar, Dərbənd, Qubadlı, qərb qrupu şivələri, Meğri), *ütri (*Dərbənd, Quba), *ötürü* (Dərbənd, Qubadlı), *ütürü, ütiri, ütri* (Dərbənd), *ötür* (Naxçıvan, Meğri, Təbriz), *ötrün* (Qubadlı, Naxçıvan, Şəki, Zəngibasar), *ötərnə* (Şəki), *ötəri, ötrü* (Naxçıvan), *ötrüm, ötərim, ötərimə, ötərinə* (Zəngibasar), *ötü, öti* (Meğri), *örtü* (Ucar) - ötrü. Məsələn: Mal-qoyunnan *ötərin* niyə bu hallara düşürsəŋ (Tovuz); Quşdan *ötəri* məni incitmə (Çəmbərək); Mən sənnən *ütürü* gəlmişəm (Dərbənd); Sənnə *ötəri* gəlmişem (Dərbənd); O bizdə *ötürü* gələdi (Dərbənd); Atamdan *ütri* sə:rdən gedib, hələ qeyitməyib (Quba); Fikir eləmirəm indi görüşdən *ötür* gələn ola (Təbriz); Pammığı yığmaxdan *ötəri* əvvəl xarman təşgil eli:rik (Biləsuvar); Baxcə olur qurddan, baramadan *ötəri (*Şəki); Qardığalnı qırıf maldan *ötərnə* basdirdix (Şəki); Uşaxdan *ötrü* süd aldım (Naxçıvan); İşdən *ötərin* gəlmişdi (Naxçıvan); Odunnan *ötürün* meşiyə getmişdim (Qubadlı); Mən sənnən ötəri gəlmişəm (Qubadlı); Kəndimizdən *ötürü* burnumun ucu göynüyür (Qubadlı); Günəş xalon sənnən *ötü* bəbə-zad dəyi ha (Meğri); Mən uxara sənnən *örtü* getmişidim (Ucar) və s.

5. . Çıxışlıq halda olan sözə qoşularaq məsafə mənası ifadə edən qoşmalar: *qavax (*qərb qrupu şivələri), qabağa (Dərbənd, Qubadlı), *qabax* (Qubadlı, Naxçıvan, Salyan, Təbriz) - qabaq, əvvəl. Məsələn: Sənnən *qavax* qoyunnarı mən görmüşdüm (Çəmbərək); Süzdən *qabağa* munda gəlmişdi (Dərbənd); Əlli altı[i] il mınnan *qabax* mən on yeddi-on səggiz yaşında Qaraəhməddidə dərz daşĭyırdım (Salyan); Bınnan *qabax* su suvarırdım (Naxçıvan); İki sa:d minnan *qabağa* dağa yollandı (Qubadlı); Hamıdan *qabax* gəlif çıxıf (Qubadlı) və s.

6. Adlıq və yiyəlik halda olan sözə qoşularaq bənzətmə mənası ifadə edən qoşmalar: *kimə* (Göyçay), *kimig, kimik, gibi, kimiki, kimiq* (Dərbənd), *kimin* (Qubadlı, Meğri, Naxçıvan, Təbriz, Şəki, Zəngibasar), *kimek, kimik* (Balakən, Qax, Zaqatala) – kimi. Məsələn: Mənim sənin *kimə* çox dossum var (Göyçay); Səni (sənin - İ.B.) *kimik* adamam (Dərbənd); Mən səni (sənin İ.B.) *kimig* söylüyədim (Dərbənd); Mən dəfələrlə demişəm, onnan qızın *kimin* rəfdar elə (Təbriz); Dəryiə düşən *kimin* balıx uddu uşağı (Şəki); Bı bitgi soğan *kimin* soyulur (Naxçıvan); Sən illaf uşax *kimin* danışırsan (Qubadlı); sənin *kimik,* honu *kimex′*; Səni *kimex′* gözəli, Daha fəlex′ yaratmaz (Balakən); Honun da yasamanın *kimik* yarpaı olur (Qax)[*] və s.

7. Çıxışlıq halda olan sözə qoşularaq məqsəd mənası ifadə edən qoşmalar: *örti* (Göyçay) – ötrü. Məsələn: Unnan *örti* gərək qamışdığa gireydilər (Göyçay) və s.

8. Yönlük halda olan sözə qoşularaq səbəb mənası ifadə edən qoşmalar: *gora (*Dərbənd, Naxçıvan, Salyan, Zərdab), *gürə* (Dərbənd, Quba), *qürə (*Dərbənd) - görə. Məsələn: Taxsri olmadığına *gora* qızı öldürmədi (Zərdab); Ona *qürə* bu ad qoyulədi (Dərbənd); Uzun ulduğuna *gürə* legleg Gülgəz deyirdilər (Dərbənd); Mənə *gürə* demədi (Quba); Bĭra Şorsulı[i] ona *gora* deyərdilər ki, bizzən oyana də:zzi (Salyan); Onun özünə *gora* xəsiyyəti var (Naxçıvan) və s.

9. Adlıq və yiyəlik halda olan sözə qoşularaq məqsəd mənası ifadə edən qoşmalar: *üçin (*Dərbənd, Gğyçay), *içün, için, -çin (*Quba, Təbriz), *-yiçin,-çün,-çin, içü, iyçü, içi* (Dərbənd), *-çun, -çün, -yçun, -yçün* (Bakı, Quba), *-çun,-çün* (Salyan, Biləsuvar), *-çün, -yçün* (Şəki), *-çın,-çin, -çun,-çün* (Naxçıvan) - üçün. Məsələn: İki qatırı qızılnan yühləyip gəlin *üçin* gətirsinnər (Göyçay); Uğlan axır sevəndə kitədüg *oniçü* ilçilügə (Dərbənd); *Siziçin* öynəməğə gəlmişəm (Dərbənd); Bu *ğızçin* əribəri (mebel) almişəm (Dərbənd); Buni bağdan *sənçün* gütürmüşəm (Quba); *Uşağçun* almışam buni (Quba); Dö:rəvərdəki kətdər alış-veriş *içün* Təbrizə gəlirdilə (Təbriz); Bizim kətdə bir zavot var, karxana var ki, burda daşları kəsillə binalar *üçin*, yollar

üçin istifadə edillə (Təbriz); Qurağlığ həmi *heyvanatçun* pissi, həmi *özimizçün* (Salyan); *Uşaqlarçun* dəfdər gəldi, qələm gəldi, kitab gəldi məkdəbə (Biləsuvar); *Nenemçün* badımcani xaradan bir don almışam (Bakı); Xalam *qızıyçun* bağbaşı gəlib (Bakı); Öy kirəliyifdi *özüçün* (Şəki); Cöhərnən sap boyyurux, ip boyyurux, palaz *toxumaxçın,* cecim *toxumaxçın* (Naxçıvan) və s.

10. Adlıq halda olan sözə qoşularaq birgəlik mənası ifadə edən qoşmalar: *ilən, inən* (Təbriz) - ilə. *ilən, inən* **ilə** qoşmasının qədim variantıdır**.** *inən* qoşmasının son samiti düşmüş və nəticədə ilə şəklində işlənmişdir (M.Məmmədli, 2008, s. 141). Məsələn: Oğlan alının təri

----

* Bax. A.Hüseynov. Şimal-qərb şivələrində qoşmalar, APİ-nin Elmi əsərləri, XI seriya, №6, s. 44 (s.44-46).

innən qazanmışdı bı var-dö:ləti (Təbriz); Babam uca *səsinnən* gələnnərə cavab verdi (Təbriz); Adam paltar *innən* tanınmas (Təbriz, atalar sözü) və s.

11. Yönlük halda olan sözə qoşularaq məqsəd mənası ifadə edən qoşmalar: *qəddə, qədir* (Şəki), *qədir, qədə, qə:r, qə:* (Zəngibasar) - qədər. Məsələn: Ölüncə *qəddə* özgiyə möhtac olmiyəsən (Şəki); Salah oğlunun yürdünə *qədir* yiyələnifdi (Şəki) və s.

Yalnız şivələrimizdə işlənən qoşmalar. Dilimizdə elə qoşmalar da var ki, onlar yalnız şivələrimizdə işlənir.

1. *binəm (*Borçalı) - görə. Yönlük halda olan sözə qoşularaq səbəb mənası ifadə edir. Məsələn: İsa dığlıyıfdı, arvadı pis olduğuna *binəm* dığlıyıfdı (Borçalı) və s.

2. *-nan, - nən* (qərb qrupu şivələri, Təbriz, Salyan)*, -nan,-nən,-ynan, -ynən* (Bakı, Quba), *-innan,- nan, -ynan, - inən, - ünən, - nən,- ynən, -iynən* (Şəki) - *nan, -ynan, - nən,- ynən (*Qubadlı, Naxçıvan) - ilə. Şəkilçiləşmiş qoşmadır. Adlıq halda olan sözə qoşularaq birgəlik mənası bildirir. Məsələn: Çovanın *qurdnan* olan əhvalatına hammız maraxla qulax kəsilmişdix′ (Çəmbərək); Dünən *uşağnən* göndərmişəm (Quba); *Galaliynən* əşrəflidən çux əğrəbə yuxdu (Quba); Biz də bi azdan so:ra *əmüvnən* gedəciyux kəndə (Təbriz); Pammığı[i] irayona *arabeynan* aparruğ, *hafdambelnən* də aparruğ (Salyan); Dünən *adamnan* bağa getdim (Bakı); Murad *qılıncınan* hücum eliyər (Şəki); *Bəndəmiynən* bafa bağliyif yığiy (Şəki); Küləşi *gəmnən* döyŭ rüx′ (Naxçıvan) və s.

3. *tana* (qərb qrupu şivələri) - qədər, dək. Yönlük halda olan sözə qoşularaq zaman mənası bildirir. Məsələn: *Axşamatana* gözlədix′, əmmə Musa kişidən bir xavar çıxmadı (Qazax) və s.

4. *-tan, -tən* (qərb qrupu şivələri, Qubadlı, Karvansaray, Göyçay, Naxçıvan, Zəngibasar), *-ta,* (Şəki)- qədər, dək. Şəkilçiləşmiş qoşmadır və yönlük halda olan sözə qoşularaq zaman və məsafə mənası bildirir. Məsələn: *Savahatan* oyax qaldım (Basarkeçər); *Axşamatan* işdi:r, yaxşı gün a:r (Şəki); Onun *doxsanatan* yaşı olardı (Naxçıvan); *Axşamatan* dağda gəzdim (Qubadlı); *Evətən* onu qoyladım dana (Karvansaray) və s.

5. *yana* (Göyçay, Qubadlı, Meğri, Naxçıvan, Təbriz) - ötrü. Çıxışlıq halda olan sözə qoşularaq məqsəd mənası bildirir. Məsələn: Sənnən *yana* şə:rə getmişəm (Göyçay); Sabah maldan *yana* Təbrizə gidəciyux (Təbriz); Uşaxdan *yana* ona dil aşdım (Naxçıvan); Qızınnan *yana* narahatdı (Qubadlı) və s.

6. *həngi* (Ağdaş, Çəmbərək) - kimi. Keçid şivələrində işlənsə də, digər şivələrimizdə rast gəlinmir. Adlıq (Çəmbərək) və təsirlik (Ağğdaş) halda olan sözə qoşularaq müqayisə mənası ifadə edir. Məsələn: Səni *həngi* tərs adam mə: heş iras gəlmiyip (Ağdaş); Çovan *həngi* iş görüllər (Çəmbərək) və s.

7. *ça:lı// çalıx* (Ağdaş) - kimi, qədər. Keçid şivələrinə xas olan bu qoşmalara digər şivələrimizdə rast gəlinmir. Adlıq halda olan sözə qoşularaq bənzətmə mənası ifadə edir. Məsələn: Qardaşım Qasım *çalı* mən də oxumax issiyirəm (Ağdaş); Sən *ça:lıx* oxumağım olseydi, mən də biliyli olardım (Ağdaş) və s.

8. *ujbatınnan// ucbatınnan* (Ağdaş, Çəmbərək) - görə. Yiyəlik halda olan sözə qoşularaq səbəb mənası ifadə edir. Məsələn: Qardaşının *ujbatınnan* dağa gedəmmədim (Çəmbərək); Sə:n *ujbatınnan* pütün mallarım xarab oldu (Ağdaş) və s.

9. *örki (*Muğan,Göyçay), *örgi* (Sabirabad) – ötrü. Çıxışlıq halda olan sözə qoşularaq məqsəd mənası bildirir. Məsələn: Nökərçilih eleməhdən *örki* öybəöy gəzməyə başladı (Göyçay); Bı kəndə nədən *örgi* Bıldığ adın qoyduğların bilmirəm (Sabirabad) və s.

10. *ögə* (Dərbənd) – başqa. Çıxışlıq halda olan sözə qoşularaq fərqləndirici məna bildirir. Məsələn: Munnan *ögə* var idi (Dərbənd) və s.

11. *tənni// ənni* (Dərbənd) – kimi. Təsirlik halda olan sözə qoşularaq bənzətmə mənası ifadə edir. Dərbəndin Tabasaran rayonunun Yersi kənd şivəsində işlənir (Dərbənd dialekti, 2009, s.220). Məsələn: səni *təni*; səni *ənni (*Dərbənd) və s.

12. *artda* (Dərbənd) - sonra. Çıxışlıq halda olan sözə qoşularaq zaman mənası ifadə edir. Məsələn: Bizdən *artda* gəlmisən (Dərbənd) və s.

13. *sayrı* (Dərbənd, Şamaxı) – başqa. Çıxışlıq halda olan sözə qoşularaq fərqləndirici məna ifadə edir. Məsələn: Munnan *sayrı* heş nəyim yoxdu (Dərbənd); Onnan *sayrı* adammız yoxdu (Şamaxı) və s.

14. *baxıb (*Dərbənd) - görə. Yönlük halda olan sözə qoşularaq istinad mənası ifadə edir. Məsələn: Mənə *baxıb (*mənə görə - İ.B.) u düz dedi (Dərbənd) və s.

15. *o yana* (Çəmbərək, Təbriz) - sonra. Çıxışlıq halda olan sözə qoşularaq zaman mənası ifadə edir. Məsələn: Dünənnən *o yana* qalammaram (Çəmbərək); Gecələr sahat doqquzdan-onnan *o yana* qab-qaşıq, paltar yumurdula suda (Təbriz) və s.

16. - *dan* (Təbriz), -dan,-dən (Şəmkir) - ilə. Adlıq halda olan sözə qoşularaq birgəlik mənası ifadə edir. Məsələn: Onu *əldən* səpillə yerə, o şor su ki kətdən keçir, vurulla sululla (Təbriz); *Paltadan* vurdu, çilix′ - çiliy elədi qavları (Şəmkir); və s.

17. - *cad,- cəd* (Təbriz) - -can, - cən. Yönlük halda olan sözə qoşularaq məsafə mənası bildirir. Məsələn: Qışlağacad dö:rəvərdəki kətdərdən davarrarı otara-otara aparalla (Təbriz).

18. -*can* (Bakı) - kimi. Yiyəlik halda olan sözə qoşularaq müqayisə mənası ifadə edir. Məsələn: *Onıncan* danışa bilmirəm (Bakı)

19. *ayrəz* (Şəki) - ayrı. Çıxışlıq halda olan sözə qoşularaq fərqləndirici məna ifadə edir. Məsələn: Taxıldan *ayrəz* şey eləmərux (Şəki) və s.

20.- *ca,- cə,-cən (*Şəki) - ilə. Adlıq halda olan sözə qoşularaq birgəlik mənası ifadə edir. Məsələn: El *adətincə* toy eliyillər (Şəki); Biz ellər *adətincən* iş gö:rux (Şəki) və s.

21. *əzəl* (Qubadlı), *əzələ* (Qubadlı, Naxçıvan) - əvvəl. Çıxışlıq halda olan sözə qoşularaq zaman mənası ifadə edir. Məsələn: Bınnan *əzələ* qızdarı toylara qoymazdılar (Naxçıvan); Bizdən *əzələ* bırda çəltiy əkirdilər (Qubadlı); Səndən *əzəl* Musa kişi dayanıf (Çəmbərək) və s.

22. *teyin* (Naxçıvan, Zəngibasar), te:in (Qax) - tək. Çıxışlıq halda olan sözə qoşularaq fərqləndirmə mənası ifadə edir. Məsələn: Uşaxlar yeddimciyə *teyin* bırda oxuyullar (Naxçıvan); Habburdan *öyəte:in* üş kilo:mitir ular (Qax) və s.

23. *aŋrı, aŋarı* (Çəmbərək, Şəmkir), *əŋəri, əŋiri* (Çəmbərək) - sonra. Çıxışlıq halda olan sözə qoşularaq zaman mənası ifadə edir. Məsələn: Bö:nnən *əŋiri* gün olajax, yağmejax da:

(Çəmbərək); Quyrux doğannan *aŋrı* kim dağda dura bilər? (Çəmbərək); Munnan *aŋrı* bizim öy döy, Musanın öyüdü (Şəmkir); Beşimcidən *aŋarı* oxumoyuf, savadı azdı (Şəmkir) və s.

24. *ayrı (*Çəmbərək, Meğri) – başqa. Çıxışlıq halda olan sözə qoşularaq fərqləndirmə mənası ifadə edir. Məsələn: Əhmətdən *ayrı* düzəldən olmaz bu işi (Çəmbərək); Muraddan *ayrı* heş kim gəlməmişdi (Meğri) və s.

25.- *cana, -cənə* (Çəmbərək, Karvansaray) – qədər, dək. Yönlük halda olan sözə qoşularaq zaman mənası ifadə edir. Məsələn: Mən səni *axşamacana* gözlədim (Karvansaray); Qəmər atası *yə:nəcənə* yerinnən qalxa bilmədi (Çəmbərək) və s.

26. *binəm// binəsif* (Şəmkir)* - görə. Yönlük halda olan sözə qoşularaq məqsəd mənası ifadə edir. Məsələn: Adam güjünə *binəm* danışar (Şəmkir); Özüŋə *binəfis* bir adam tap (Şəmkir) və s.

27. *əsvəl* (Çəmbərək, Şəmkir) – başqa. Çıxışlıq halda olan sözə qoşularaq fərqləndirmə mənası bildirir. Məsələn: Munnan *əsvəl* sana ayrı söz deyəjəm (Şəmkir); Musadan *əsvəl* Məsimi tapax gərəx′ (Çəmbərək) və s.

28. *övcə (*Meğri)- qabaq, əvvəl. Məsələn: Mınnan övcə darı çöreyi olurdu (Meğri) vəs.

*R.Kərimov. Şamxor şivələrində köməkçi nitq hissələri, ADU-nun elmi əsərləri, dil və ədəbiyyat ser., № 1, 1973, s. 72.

BAĞLAYICI

Ədəbi dilimizdə işlənən bağlayıcıların əksəriyyəti müasir dövrümüzdə şivələrimizdə də eyni fonetik tərkibdə işlənməkdədir. Məsələn: *ki, və, ilə, amma, ancaq, lakin, həm, həm də, ya, ya da, da, də, guya, əgər, yaxud da, yoxsa, bəlkə, ona görə də, yenə, və ya, çünki* və s. Bununla yanaşı şivələrimizdəki bağlayıcıların bir hissəsini ədəbi dildə işlənən bağlayıcıların variantları təşkil edir, yəni ədəbi dildə işlənən bağlayıcıların bir hissəsinə fərqli fonetik variantlarla şivələrimizdə rast gəlinir.

kı, ki, ku, kü, kın, kin, kun, kün (Qazax, Qubadlı, Göyçay, Naxçıvan, Tovuz, Şəmkir), *kını, kini, kunu, künü* (Şəmkir), *kin* (Salyan), *gü, ku, qu* (Dərbənd), *kı, ki, ku, kü, kin, kün* (Şahbuz) - ki. Məsələn: Baxdı *kın,* uşaxlar orda yoxdu (Naxçıvan); Bizə de:rdilər *kin*, qaçaxlar kəndə soxulublar (Naxçıvan); Yazır *kı*, yayda yaxşı dincəlsin (Naxçıvan); Baxdım *kın*, munun halı yaxşı döy (Şəmkir); Dedim *kini*, axşam bizə:lsin (Şəmkir); Dedilər *kinə*, Musa kişi sənnən küsüfdü (Şəmkir); Hələ vaxt oldu *ku*, mən də oxuyurdum (Dərbənd); Gördü *kün,* yolnan gəlir (Qubadlı); İynəni elə vurur *ku*, adamın ruhu incimir (Qubadlı); Əvvəldən bir kişi olufdu *kun*, burya onun adı qoyulufdu (Qazax); Gördü *kün*, iş ayrı cürdü, qaşdı (Tovuz) və s.

əmmə (Bakı, Çəmbərək), *əmə (*Borçalı, Çəmbərək, Naxçıvan), *əmbə* (Qazax, Qubadlı, Şəmkir), *ama* (Ağdaş, Bakı, Dərbənd, Qubadlı, Meğri, Şahbuz), *hamma* (Biləsuvar, Qubadlı, Zərdab), *hamba* (Biləsuvar, Qubadlı), *əmma* (Təbriz); amman (Quba), *aman* (Dərbənd, Meğri), *hama (*Zərdab) - amma. Məsələn: Məllimlər gəlmişdilər, *əmmə* hələ şagirdlər çıxışa başlamamışlar (Çəmbərək); Musa kişi hamıya baxdı, *əmə* danışmadı (Naxçıvan); Gördüm, *əmbə* heş nə demədim (Şəmkir); Getdim, *ama* öydə olmadı (Bakı), *Hamma* bizim uşax yaxşı[i] bilir (Biləsuvar); Mən çox didim, *hamba* o qulax asmadı[i] (Biləsuvar); Düzin istəsən yımırtdayan to:xların vəzi çox yaxçıdı, *əmma* ətdix′ to:xlar naxoşdula (Təbriz); Əxşəmdi, qarannuğ düşmişdi, səs gəldi, *amman* mən mə:simədim (Quba); Məktəbdə oxıyədi, *aman* adın yaza bilmiədi (Dərbənd); O bilədi, *ama* dimiədi (Dərbənd); Əyninə palton da geydimişəm, *əmbə* genə üşüyür (Qubadlı); Çox dedim, *hamma* o qulağ asmadı (Qubadlı); O vaxdılar bu

qurdu toxum verillərdi, özümüz dirildirdix′, *ama* indi hazır qurdu verillər, saxlıyırdıx (Zərdab); Təndiri yerə basdıellər, *əmbə* fırnı örülör (Qazax); Nə elədim, *ama* quduz dəymiş getmədi ki, getmədi (Meğri); Baxersən forsunnan cırıler, *aman* bir işbalı da yarammer (Meğri) və s.

ancax (Çəmbərək, Qubadlı, Karvansaray, Göyçay, Qazax, Naxçıvan, Tovuz, Şəmkir), *əncağ* (Bakı)*, ancağ* (Bakı, Dərbənd, Quba), *hancağ (*Quba)*, ancan* (Qazax, Qubadlı), *hancax* (Qubadlı), *amancax* (Şahbuz) – ancaq. Məsələn: Kəndə təzə məllim gəlmişdi, *ancax* adını bilmirəm hələm (Çəmbərək); Nehrəmin yeri yaxşı^{i} yerdi, *ancax* suyu^{i} ola, yay vaxdı^{i} bamodor əkiysən, quruyuf tələf olur (Naxçıvan); Yaxşıq elədin, *ancax* başıma da qaxdın (Şəmkir); Yoli bizə tərəf idi, *əncağ* so:ra bilmirəm hara getdi (Bakı); Didi tez gəlləm, *hancağ* gəlib çıxmadı (Quba); Hamı toya getdi, *ancan* o getmədii (Qubadlı); Mən öyümüzzə qızıdım, *ancax* iriydim (Göyçay); *Ancan* Allahverdinin bir əmisi yaman qoçağ adamdı (Qazax); Küz hazırıydı, *ancax* quzular orda yoxuydu (Tovuz); Neçə kərəm yazdım, *amancax* cavab almadım (Şahbuz) və s.

çünkün (Şəki) - çünki. Məsələn: Öyü başdiyəmmirix′, *çünkün* hələ çox şeylər çatmır (Şəki) və s.

o:çun, u:çun, hunuçün (Şəki) – onun üçün. Məsələn: İçimizdə var, *o:çun* bi:ləm (Şəki); İsdəmiyi, *hunuçün* gəlmiyi (Şəki) və s.

həmi, həmi də (Biləsuvar, Çəmbərək, Dərbənd, Göyçay, Qazax, Qubadlı, Meğri, Təbriz, Salyan, Şahbuz), *ham, hami, ham da, hami də* (Quba) - həm, həm də. Məsələn: Bı il həmi plan doldı^{i}, *həmi* yaxşı^{i} oldı^{i} (Biləsuvar); *Həmi* gözüm səndədi, *həmi* qulağım səndədi (Təbriz); *Ham* atamun, *ham* babamun adi Aslandu (Quba); *Hami* sə:nçün yaxşi ular, *hami də* mə:nçün (Quba); *Həmi* uğlan övündə xurəg bişər, *həmi* qız övündə xurəg bişər (Dərbənd) ; Bizim kətdə *həmi* iribaş heyvan saxlıyıllar, *həmi də* xırda baş (Qubadlı); O vaxdı *həmi* payızzıx, *həmi də* yazzıx arpa-buğda əki:lərmiş (Göyçay); Bizim yerimiz *həmi* dağdı, *həmi* aran (Qazax) və s.

*gahdan (*Təbriz) – gah. Məsələn: Bi təx′ canınnan mal-davar saxlısan, *gahdan* bostan əkisən (Təbriz) və s.

quya (Dərbənd) - guya. Məsələn: Elə danışadü, *quya da* məni görmiyədü (Dərbənd).

hələ bil (Dərbənd) - elə bil. Məsələn: U mənə baxadu, *helə bil* məni görməyədü (Dərbənd) və s.

gax, gax da (Qubadlı), *gəh, gəhi* (Zərdab), *gəh, gəh də* (Ağstafa, Çəmbərək, Qazax) – gah, gah da. Məsələn: Uşağ üçün *gax* pul göndərrəm, *gax da* şey-şüydən (Qubadlı); *Gəh* yağ tapılmırdı, *gəh* ət (Zərdab); *Gəh* sufit olursaŋ, *gəh* də siyahı, Mənnən bir olsaŋ, çəx′məzsəŋ ahı (Qazax); *Gəh* bazar günü gəle:rəm, *gəh* də özgə günnər gəle:rəm (Çəmbərək) və s.

bəkə, bərkə, bərkəm (Göyçay, Ucar) – bəlkə. Məsələn: Kişi gənə oğluna pul verir, *bəkə* deyir indi bir şey olar (Göyçay); Siyato uzınnığı arşın yarım, yalançılar sözi, *bərkə* iki arşın vardı (Göyçay) və s.

oa görə (Göyçay) - ona görə. Məsələn: Çöllərdə gəzir, *oa görə* də yazpişigi deyirik (Göyçay) və s.

Şivələrimizdə elə elə bağlayıcılara rast gəlinir ki, bu bağlayıcılar müsir ədəbi dilimizdə işlənmir və ya fonetik tərkibcə ədəbi dillə eyni olsa da, başqa qrammatik məna ifadə edir.

yainki (Naxçıvan) – yəni . Məsələn: Mismarı duhara, *yainki* taxdıya çəkücnən vururlar (Naxçıvan) və s.

-dan, -dən (Şəmkir) –ilə. Bu bağlayıcı şivələrimizdə az işlənir və şəkilçiləşmiş bağlayıcıdır. Şəmkir şivəsində müşahidə olunur. Məsələn: Axşam *Paşadan* (Paşa ilə - İ.B.) mən sizələjix′ (Şəmkir); *Yağdan* (yağ ilə- İ.B.) bal qarışdır, ye çox xeyiri var (Şəmkir) və s.

-nan,-nən,-ynan, -ynən (Çəmbərək, Qazax, Qubadlı, Tovuz, Şahbuz, Şəmkir, Zərdab) – ilə. *Uşaxnan* anası öydə təx′ qalmışdı (Çəmbərək); *Musaynan* Əlamdar axşam yola düşdü (Çəmbərək); *Kərimnən* Qulu Söyüngildən gedirdilər (Şəmkir); Oğli da *atasınan* getmə: issədi (Zərdab); *Səlimnən* Söyün qardaşdığ oluflar (Qazax); *Quzuynan* çəpişin dosduğu tutmaz (Tovuz) və s.

ara (Çəmbərək, Qubadlı, Meğri, Şahbuz, Şəmkir) – gah. Məsələn: *Ara* yağır, *ara* kəsir (Şəmkir); *Ara* əv işinə baxıram, *ara* uşaxlara (Qubadlı), Məmmədalı *ara* öküz otarar, *ara* ot çalar (Çəmbərək); Qonşumuzda *ara* kişidən, *ara* da mənnən gileylənir (Şahbuz); *Ara* satecem, *ara* pulun alecem (Meğri) və s.

intahası (Çəmbərək, Qubadlı, Şəmkir), *inta:sı* (Meğri, Şəki) – ancaq, lakin. Məsələn: Söyün kişi gəldi, *intahası* hələm də çovannardan bir xəvər yoxdu (Çəmbərək); İsdəməyinə isdi:r, *intahası* bildirmir (Şəmkir); Çox əkillərdi taxıl qavaxlar, *inta:sı* bitmirdi (Şəki); Alma:na aldım, *intahası* ürə:m isdiyən olmadı (Qubadlı); Bi mə:llimlə lap kefinnən gələndilə, *inta:sı* gədənin özü oxumur (Meğri) və s.

na, nə (Dərbənd, Göyçay, Şəki) – ya, yə. Məsələn: Pilləkanda durma, *nə* çıx, *nə də* düş (Şəki); *Na* yengə dimmir, *na* gəlin (Şəki); *Nə* bizə gidək, *nə* süzə (Dərbənd); Nə şüşədən olur, nə də dəmirdən olur (Göyçay) və s.

ya, yə (Ağdaş, Dərbənd, Quba, Şəki) - na, nə . Məsələn: *Yə* yiyir, *yə* içir, heylə yatır (Şəki); *Ya* ata yada düşədü, *ya da* ki ana (Quba); *Ya* bilədəm, *ya* ixtilat (Dərbənd); Süt *ya* gərək qaynar olmasın, *ya* gərək soyux, inəyin döşünnən çıxan kimi olsun (Ağdaş) və s.

eyəm // eyəm ki, əyəm ki, əyəmnəri (Şəki), *əgəm* (Bakı, Göyçay, Quba, Salyan, Yardımlı), *əyəm (*Bakı, Göyçay, Meğri), *əyər, əyə (*Təbriz), *əgənə (*Quba), *ə:m* (Göyçay, Qazax, Qubadlı), *əyə* (Göyçay, Meğri), *ə:r* (Tovuz), ə:mləri (Kürdəmir) - əgər. Məsələn: *Eyəm* öydə olseydi, gəlməmiş olmazdı (Şəki); *Əyəmnəri* büyün gəlməsə, gərəy özüm gedəm (Şəki); İsdiyirsən *əgəm* işün içinnən qəmbərqulu çıxmasun, ged o şikayet elememişdən bənd-bərəni bağla, xətircəm ol! (Bakı); *Əyə* ayrısın alsam, o biri uşaxları kim saxlasın (Təbriz); *Əgənə* hava açulsa, çülə gidəruğ (Quba); *Ə:m* mən yetiməseydim, uşaxları it yə:jeydi (Qubadlı); *Ə:m* qara arpa əksən, dəyişip ağ eliyəcək (Göyçay); *Əyə* bir adam belə eləsə, cana düşdi (Göyçay); *Ə:m* kin bir adam urus dili bilsə, yaxşı olar (Qazax); De: r: “ *Ə:r* sənəti var, gedərəm, yoxdu getmərəm” (Tovuz); Yatmecen mən də oturum, *əyə* yatecen mən qoyum gedim (Meğri); Məni çox isdiyirsən mõ: gə, *əyəm* nənõ çox isdiyirsən nənõ: get (Meğri) və s.

*gənə (*Çəmbərək, Qazax, Tovuz, Şəki), *genə* (Şahbuz, Şəki), *ginə* (Təbriz) - yenə. Məsələn: Su *gənə* bayaqqı yerdən gəlir (Şəki); Gidim *genə* gəlləm (Şəki); Bir az işlədi, *ginə* başdadı qirma (Təbriz); Soŋra *gənə* yaz suyunu veririx′ (Tovuz) və s.

begəm, begə (Bakı) - məgər. Məsələn: Onın *begəm* xəbəri yoxdu? (Bakı) və s.

o cihətə (Təbriz) - ona görə. Məsələn: Mahanası var idi, çün verdi almanı mənə, *o cihətə* mən yedim (Təbriz) və s.

*hay (*Dərbənd) - ya, gah. Məsələn: Qapi-qapi gəzdirədilər yumurta, *hay* şekər verədilər (Dərbənd) və s.

gəl ki (Qubadlı) - ancaq, amma. Məsələn: Gül kimi uşaxdı, gəl ki gözdən mayıfdı (Qubadlı) və s.

ya:inkin (Şahbuz) - və ya, və yaxud. Məsələn: Atĭya, *ya:inkin* anĭya hürmət qoymax

əvladın borcudu (Şahbuz) və s.

Ədat

"Ədat" mənşəcə ərəb dilinə mənsub olub *hissəcik* deməkdir. Azərbaycan dili şivələrinə həsr edilmiş əsərlərin bəzilərində ədat köməkçi nitq hissəsi hesab edilməmişdir (Z.Vəliyev, 1954, s.168-170; Muğan qrupu şivələri, 1955, s. 142-147; M. Şirəliyev, 1957, s.131-135; Naxçıvan qrupu şivələri, 1962, s.145-150; R.Rüstəmov, 1961, s. 152-185; A.Hüseynov, 1979, s.62-65). Başqa köməkçi nitq hissələırində olduğu kumi, ədəbi dilimizdə işlənən ədatların bir hissəsi olduğu kimi, yəni eyni fonetik tərkibdə də şivələrimizdə işlənir. Bununla yanaşı şivələrimizdə rast gəlinən ədatların müəyyən bir hissəsi həm fonetik tərkibinə, həm də manasına görə ədəbi dildən fərqlənir. Bu baxımdan şivələrimizdə işlənən ədatları iki yerə bölmək olar:

1. Həm ədəbi dildə, həm də şivələrimizdə işlənən ədatlar.
2. Fonetik tərkibinə görə ədəbi dildən fərqlənən ədatlar.

Həm ədəbi dildə, həm də şivələrimizdə işlənən ədatlar. Azərbaycan ədəbi dilində işlənən bir çox ədatlara olduğu kimi, yəni eyni fonetik tərkibdə şivələrimizdə də rast gəlinir. Məsələn: *elə, yalnız, bircə,təkcə, axı, kaş, təki, ki, da, də, hə, xeyr, yox, axı, -mı,-mi,-mu,-mü, bəs, qoy, qoyun, görün, yəni, ha* və s.

Fonetik tərkibinə görə ədəbi dildən fərqlən ədatlar. Şivələrimizdə rast gəlinən ədatların bir hissəsi müxtəlif fonetik tərkibinə görə ədəbi dildəki ədatlardan fərqlənir.

keşgə (Bakı, Cəbrayıl, Cəlilabad, Çəmbərək, Qubadlı, Mingəçevir, Salyan, Şahbuz), *keşgəm* (Çəmbərək, Şahbuz, Şəmkir), *köşgə, köşgəm* (Meğri) - kaş, kaş ki. Məsələn: *Keşgə* gedeydim (Bakı); *Keşgə* savah tezdən yaylağa gedən olaydı (Çəmbərək); *Keşgəm* yaylağa gedif qojamı (nənəmi) görəydim (Çəmbərək); *Keşgəm* ona irast gəlmiyeydim (Şəmkir); *Keşgə* həməşə xeyir iş olsun (Qubadlı); *Keşgəm* Narının qucağında bir uşax görüp sohram öləydim (Şahbuz); *Köşgə* cahıl vaxdım ola (Meğri); *Köşgəm* Nəvriz öleydi, *köşgəm* Hıqan öleydi, sən ölmiyeydin, ə Qəmər qatır (Meğri) və s.

əngə (İmişli) – lap. Məsələn: Atdar *əngə* yolun kənarında otdıyırdı (İmişli) və s.

ta (Ağdam, Bərdə, Çəmbərək, Gədəbəy, Şəmkir, Şuşa, Təbriz) – daha. Məsələn: Ə, *ta* bəsdi yatıŋ, bir yeriŋnən qalxsaŋa (Ağdam); *Ta* mənim saŋa sözüm yoxdu innən belə (Bərdə); *Ta* niyə durufsaŋ, ged işini gör (Gədəbəy); *Ta* səni heş yana buraxmaram gedəsəŋ (Şuşa); *Ta* mən onı görmədim (Təbriz) və s.

dana (Ağcabədi, Çəmbərək, Goranboy, Karvansaray, Şahbuz, Şəmkir, Təbriz, Tərtər, Tovuz, Zərdab) - da, də. Məsələn: Get burdan *dana* (Ağcabədi); Mən də ona de:rəm *dana* (Goranboy); Ayə, niyə boynunö:türmürsən, elədi *dana (*Tovuz); Evətən onu qoyladım *dana* (Karvansaray); Odunu niyə təntələx′ (tələsik) yarıraŋ, ehtiyatdı ol *dana* (Çəmbərək); Elə hər şeyi bilir *dana (*Zərdab); İt olmasa, qoyunı dağıdar *dana* canavar (Təbriz); Dur o atın yəhərin al *dana* (Şahbuz) və s.

*dayna (*Ağcabədi, Çəmbərək, Goranboy, Qazax, Qubadlı, Meğri), *dəynə* (Meğri) – da, də. Məsələn: Dur gedəx′ *dayna* (Qubadlı); Gət görüm *dayna* (Ağcabədi); Mən öz sözümü dedim *dayna (*Goranboy); Bizi neyçün yalladırsaŋ *dayna*? (Borçalı); Əşi bir gə: bıra *dayna* (Şahbuz); Maldı, otduyur *dayna* (Meğri); İtdi *dəynə* səsi gəlir (Meğri) və s.

*tayıca (*Cəlilabad) - daha. Məsələn: Küley *tayıca* da güjdəney (Cəlilabad) və s.

kı, ki, ku, kü, kın, kin, kun, kün (Borçalı, Qazax, Qubadlı,Tovuz, Şəmkir), *kını, kini, kunu, künü, kına, kinə, kuna, künə* (Şəmkir) - ki. Məsələn: Alası ordan *kin* göərdi, onu döəjəx'lər (Tovuz); O *ku* gəlif burya tüşməx'nən adı oluf Vəli oğlu Omar (Borçalı); Hər kim olurda olsun, ana *kın* döy (Şəmkir); Yat *kını* savax tezdən durasan (Şəmkir); Düz *künü//künə* danışdın, saŋa zaval yoxdu (Şəmkir) və s.

*qari, qarı, ğarı (*Dərbənd) – da, də. Gəl *qari* (Dərbənd); Sən yaxşı oxuyasan *qarı (*Dərbənd); Habını bizə ver *qari* (Dərbənd) və s.

*daği, dağı, dəği, dağə (*Dərbənd) – daha. Məsələn: Bir *dağı* çağırasan (Dərbənd); *Dəği* nədən xəbər vərədü? (Dərbənd); Gəti *dağə (*Dərbənd) və s.

*axi (*Dərbənd) – axı. Munu mən də bilmidəm *axi* (Dərbənd) və s.

*adı (*Çəmbərək, Şahbuz), *a:dı* (Qubadlı) – heç. Məsələn: Yazda da dağların başı *adı* çəŋ-dumannan əysiy olmur (Çəmbərək); Aldığı pensiya *a:dı* yeməyə çatmır (Qubadlı); Tezdənnən axşamacan veyillənər, *adı* bir işin qulpunnan yapışmaz (Şahbuz) və s.

*cılız (*Çəmbərək) – lap. Məsələın: *Cılız* çox baha dersəŋ, harda satajaxsaŋ onu? (Çəmbərək) və s.

*bəyəm (*Çəmbərək, Karvansaray, Qubadlı, Göyçay, Şahbuz), *bə:m* (Çəmbərək, Karvansaray, Qubadlı, Şahbuz), *ə:m* (Çəmbərək, Karvansaray) - məgər. Məsələn: Sən getməsəŋ, *bə:m* kim gedəjəx' Musaynan? (Çəmbərək); *Ə:m* onu bazarda tapajam kı (Karvansaray); Bəyəm Solmazın dedix'ləri düzdümü? (Çəmbərək); Tülkü de:r *bəyəm* bilmirsüz (Göyçay); *Bəyəm* hələm gəlif çıxmıyıf (Qubadlı); *Bə:m* munnan çovanın xəvəri yoxdumu? (Qubadlı); *Bəyəm* elə bilirsən kin, bınnan mə:m xəbərim var (Şahbuz); *Bə:m* bu işə qarışan var ? (Şahbuz) və s.

şırp (Çəmbərək) - lap. Məsələn: Qapıya *şırp* xiyar səpəjəm, nə: danışırsaŋ (Çəmbərək) və s.

-bı,-bi,-bu, -bü (Çəmbərək, Karvansaray, Təbriz), *-pı,-pi,-pu, -pü* (Təbriz) *-mı,-mi,-mu,-mü* (əksər şivələrdə). Məsələn: Oruş *piçibi* taxılı? (Karvansaray); Lala naçaxlıxdan *durufbu*? (Karvansaray), Ataŋ dağdan *gəlifbi*? (Çəmbərək); Babası, nənəsi gedib qız öyiynən *danışıbbı*? (Təbriz); Fəhradın yarası *toxdıyıppı*? (Təbriz) və s.

*yaman (*Çəmbərək, Şahbuz) – lap. Bu söz (yaman) sifətdən əvvəl gələrkən ədat rolunda çıxış edir, cümlənin mənasını qüvvətləndirir (Ş.Kərimov, 2004, s. 226). Məsələın: *Yaman* yaxşı kişidi (Çəmbərək); *Yaman* yaxcı gün ağlatdılar camahatı (Şahbuz) və s.

dayı (Ağdaş), *day* (Ağdaş, Təbriz), *tay* (Qubadlı, Təbriz) - daha. Məsələn: Mən *dayı* orada uzana bilmərəm (Ağdaş); *Day* hindi heləsi vardi, gedəsi döyüldi (Ağdaş); *Day* bizim xeyir-şərimizə döyüllə (Təbriz); Toyda ki davar aparılla, beş dana, üş dana, düə aparılla, *tay* orda işki-mişki o vəxlər olmazzı (Təbriz); Çiskin yağış başdadısa, *tay* kəsən deyil (Qubadlı) və s.

ha (Şəmkir) - ki. Məsələn: Getmədim *ha* dünən (Şəmkir); Qonax *ha* döyülsən, niyə duruf kömeiləmirsən (Şəmkir) və s.

təkin (Şəmkiur) - yəni. Məsələn: Təkin hamı sənin kimi olsun (Şəmkir) və s.

dahı, da: (Təbriz) - daha. Məsələn: *Dahı* munnan artıx eliyə bilmərəm qızı evdə saxliyəm (Təbriz); *Da:* mən munnan artıx neyniyyə bilərəm (Təbriz) və s.

laf (Çəmbərək, Qubadlı, Təbriz) - lap. Məsələn: Bizimki Təbrizin *laf* mondubla yeridi (Təbriz); Mən *laf* yorğunluxdan xurdi-xəmirəm (Təbriz); *Laf* vaxdında gəlifsən (Qubadlı); *Laf* ağını çıxartdıŋ, a Qasım (Çəmbərək) və s.

ancan (Qubadlı), *ancax* (Çəmbərək, Qazax, Qubadlı) - ancaq. Məsələn: Umudum *ancan*

Muradaydı (Qubadlı); *Ancax* Məsmə xalıyı çağırmışdılar halva pişirmiyə (Çəmbərək) və s.

təhcə (Qubadlı), *təx'cə* (Çəmbərək, Meğri) - təkcə, yalnız. Məsələn: Bu işi *təhcə* sən başararsaŋ (Qubadlı); *Təx'cə* qoyunnarı satmağ apardılar (Çəmbərək); *Təx'cə* Ələvəx' bər yox, çobannarın cəmi gedecix' (Meğri) və s.

*helə (*Qubadlı) - elə. Məsələn: Yavannıx olmadı, çörəyi *helə* yavan yedi (Qubadlı) və s.

*mağıl (*Qubadlı) - təkcə, təki. Məsələn: *Mağıl* sən bizi yada salırsan (Qubadlı) və s.

məhlim (Qubadlı, Şahbuz), *məx'lim, maəhlım (*Meğri) - məgər. Məsələn: *Məhlim* hələm gəlif çıxmıyıf (Qubadlı); Bi çəpişin *məhlim* on kilo əti gələır? (Şahbuz); *Məx'lim* pulu genə qeytərip? (Meğri); *Maəhlım* aəmım u saəfaər İraənnaən qaəyıtmədi? (Meğri) və s.

XÜSUSİ NİTQ HİSSƏLƏRİ

Modal Sözlər

Şivələrimizdəki xüsusi nitq hissələrindən biri modal sözlərdir. Azərbaycan dili şivələrindən bəhs edən əsərlərin bəzilərində modal sözlər köməkçi nitq hissələrindən biri kimi götürülmüş (M.İslamov,1968, s.161; R.Kərimov, 1973, s. 75; A.Vəliyev, 1975, s. 73; Ə.Əliyev, 2003, s. 317; Ş.Kərimov, 2004, s. 226; R.Abbasova, 2006, s. 99; M.Məmmədli, 2008, s. 147;), bəzilərində isə modal sözlər nəinki nitq hissəsilərinin tərkibinə daxil edilmiş, hətta modal sözlərin adı belə çəkilməmişdir (Muğan qrupu, 1955; M.Şirəliyev, 1957; R.Rüstəmov, 1961; Naxçıvan qrupu, 1962; M.Şirəliyev, 1967; Qərb qrupu, 1967; A.Hüseynov, 1979; Dərbənd dialekti, 2009; N.Əliyeva, 2012). Şivələrimizdə işlənən modal sözləri üç qrupa bölmək olar:

1.Həm müasir Azərbaycan ədəbi dildə, həm də şivələrimizdə işlənən modal sözlər. Məsələn: *guya, əlbəttə, düzü, doğrusu, xülasə* və s.

2. *Müasir Azərbaycan ədəbi dildə işlənən modal sözlərin müxtəlif fonetik tərkibdə şivələrimizdə işlənməsi.* Şivələrimizdə işlənən modal sözlərin bir hissəsini ədəbi dildə işlənən modal sözlərin fonetik variantlarıdır. Məsələn:

ədətən (Şəmkir) – adətən. Məsələn: Bu yerlərdə ədətən qış çox sö:x keçir (Şəmkir) və s.

*həlvət, həlvətdə (*Çəmbərək, Şəmkir), *həlvət ki* (Şəki), *həlbət* (Qubadlı) - əlbəttə. Məsələn: *Həlvətdə,* sənnən hammız razıyıx (Çəmbərək); *Həlvətdə,* sən onun tərəfini saxlıyaşşan, qomumuŋdu (Şəmkir); *Həlvət ki,* xeyrinnən ötəri ve:r (Şəki); *Həlbət* sizə əziyyət verməx' isdəmiyiflər (Qubadlı) və s.

*yaqın (*Şəmkir) – yəqin. Məsələn: *Yaqın* bilmer burda olunŋu (olduğunu), yoxsam gələrdi (Şəmkir) və s.

bəlkəm (Çəmbərək,keçid şivələri, Şəmkir) - bəlkə. *Bəlkəm,* axşamacan gəldilər (Çəmbərək): *Bəlkəm,* çıxıf gediflər (Şəmkir) və s.

xüləs (Çəmbərək, Qubadlı, Şəmkir) – xülasə. *Xüləs*, gedif şahın qapısına çatdılar (Çəmbərək); *Xüləs,* bu çıxdı getdi, ajıx elədi (Şəmkir); *Xüləs,* bir zülmnən getdix' çatdıx (Qubadlı) və s.

bələlığnan (Təbriz) - beləliklə. Məsələn: *Bələlığnan,* büyün sə qonaxsan (Təbriz) və s.

əvvələn (Təbriz) - əvvəla. Məsələn: *Əvvələn,* Hac Qulam dayya baş vurum, so:ra o biri işdərimə yetişərəm (Təbriz) və s.

*həqiyqətən (*Çəmbərək, Karvansaray) - həqiqətən. Məsələn: *Həqiyqətən*, parça tapılme:rdi, arvatdar şal toxo:rdu, şalvar tike:rdi, budumuz yara olo:rdu (Karvansaray) və s

guva (Şəki) – guya. Məsələn: *Guva* mən bilirəm? (Şəki)

3. Yalnız şivələrimizdə işlənən madal sözlər. Azərbaycan dili şivələrində elə modal sözlər vardır ki, onlar yalnız şivələrdə işlənir.

*gafa (*Yardımlı) - bəlkə, ola bilsin ki. Məsələn: *Gafa* gedib, sənin xəbərün yoxdu (Yardıml) və s.

*haqqannəsi (*Ağsu, Salyan) – düzü, həqiqətən. Məsələn: *Haqqannəsi,* sədr yaxşı adamdı *(*Ağsu); Hamı taxsırı Mərdanda gördü, *haqqannəsi,* onda taxsır olmadı (Salyan) və s.

*halqərəz (*Bakı, Çəmbərək, Meğri)- xülasə, nəhayət. Məsələn: *Halqərəz,* Gülü babam gəlir, Ernəzirin binövrəsini qoyur (Meğri); Dedi ki, *halqərez,* bına görə gəlməyib (Bakı); *Halqərəz,* Musa kişiyə üç il verdilər (Çəmbərək) və s.

hazar-həlbət (Salyan) - axır ki, nəhayət. Məsələn: *Hazar-həlbət,* bı gədə öyə gələcək, ya yox? (Salyan) və s.

*özgəndə (*İsmayıllı, Salyan, Şəki) - guya. Məsələn: *Özgəndə* biz büyün kəndə getməlüydüg (İsmayıllı) və s.

özyannan (Cəbrayıl) - guya, guya ki. Məsələn: *Özyannan* indi kişi xeylağıdı, gör nə deyir (Cəbrayıl) və s.

handağala (Çəmbərək, Karvansaray) - heç olmasa. Məsələın: Hajını çıxardılar, *handağala* gedif özge:rdə işdiyəjəx′ (Çəmvbərək) və s.

düzdüx′dən (Çəmbərək, Şəmkir) - doğrudan, doğrudan-doğruya. Məsələn: *Düzdüx′dən,* bu axşam gederix′ (Şəmkir); *Düzdüx′dən,* uşaxlar calada olmuyuflar (Çəmbərək) və s.

incafara (Çəmbərək, Şəmkir), *incəvara* (keçid şivələıri, Qubadlı, Meğri), *incavarana* (Qubadlı) - yaxşı ki. Məsələn: *İncafara* güllə yan geşdi (Çəmbərək); Balta sapınnan çıxdı, *incafara* heç harama dəymədi (Şəmkir) və s.

hannanhana (Çəmbərək, Şəmkir) - nəhayət. Məsələn: *Hannanhana* Kalvayı su qavını alıf işməyə başladı (Çəmbərək); *Hannanhana* başa tüşdüŋ məni (Şəmkir) və s.

sözüŋ açığı (Çəmbərək) - ümumiyyətlə. Məsələn: *Sözü*ŋ *açığı,* sənnən munu gözləmirdim (Çəmbərək) və s.

tapar (Şəki) - görünür. Məsələn: *Tapar*, işdən gəlmiyifdi (Şəki) və s.

yaraf (Şəki) – görəsən. Məsələn: Habı çardağı da tütün düzütdülər, *yaraf* ? (Şəki) və s.

*fərəzən (*Meğri) – tutaq ki. Məsələn: *Fərəzən,* biz dimmədix, sizin adamlığı:za nə gəlip? (Meğri) və s.

*gələ-gör (*Meğri) – deyəsən. Məsələn: *Gələ-gör*, heş bu gədə danışmır (Meğri) və s.

şəhsiz (Qubadlı) – şübhəsiz. Məsələn: *Şəhsiz,* onun işi yaxşı olajax (Qubadlı) və s.

*sösüz (*Çəmbərək, Qubadlı) - şübhəsiz. Məsələn: Bu işi, *sözsüz,* sədirə deməx′ lazımdı (Çəmbərək); *Sösüz,* səni de:f gəlif (Qubadlı) və s.

*gerçəhli (*Qubadlı), *gerçəkdən* (Çəmbərək) - həqiqətən. Məsələn: *Gerçəhli*, sənnən aram dəyif (Qubadlı); *Gerçəkdən*, qaçaxlar kəndin həndəvərinə qədər gəlif çıxmışdılar (Çəmbərək) və s.

də:n (Qubadlı) – deyəsən. Məsələn: *Də:n,* sözdü adama oxşuyursan? (Qubadlı) və s.

Nida

Nida Azərbaycan dili şivələrində xüsusi nitq hissələrindən biridir. Dialektoloji tədqiqatlarda nida köməkçi nitq hussəsi kimi təsnif edilmişdir (Muğan qrupu şivələri, 1955, s. 146-147; M.Şirəliyev, 1957, s. 133-135; R.Rüstəmov, 1961, s. 184; Naxçıvan qrupu şivələri, 1962, s. 149-150; M.Şirəliyev, 1967, s. 295; M.İslamov, 1968, s. 160-161; A. Vəliyev, 1975, s.74; A.Hüseynov, 1979, s. 64-65; Ə.Əliyev, 2003, s. 319-321; Ş.Kərimov, 2004, s.230-231;

M.Məmmədli, 2008, s. 147; Dərbənd dialekti, 2009, s. 225). “Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri”ndə, R.Abbasovanın “Azərbaycan dilinin Qubadlı şivələri”, N.Əliyevanın “Azərbaycan dilinin Şahbuz şivələri” əsərlərində isə nida nitq hissəsi kimi götürülməmişdir.

Azərbaycan dili şivələrində işlənən nidaların müəyyən bir hissəsi ədəbi dillə ümumilik xüsusiyyətinə malikdir. Məsələn: *paho, ox, oh, oho, aha, bəh-bəh, eh, ah, aman* və s.

Bununla belə şivələrimizdə dialektoloji xüsusiyyət daşıyan nidalar zənginliyi ilə diqqəti cəlb edir. Yəni yalnı şivələrimizdə işlənən nidalar xüsusi təbəqə təşkil edir. Məsələn: *pəh-pəh (*Quba, Meğri), *pa* (Quba), *pah-pah* (Dərbənd), *vaxsey* (Bakı, Quba), *a* (Quba), *a:, hef (*Bakı), *həvik* (Bakı), *əşi (*Bakı, Meğri, Muğan, Şəki), *ba: (*Bakı, Şəki), *be:* (Şəki), *ba* (İsmayıllı, Meğri, Şamaxı, Təbriz), *vay* (İsmayıllı, Meğri), *bay* (Dərbənd, Meğri), *bı:y* (Şamaxı), *bıy* (Göyçay, Muğan), *bo:y, əşşi* (Çəmbərək, Qazax, Tovuz), *amoyv, bəh* (Qax), *şaxsey, hayıf* (İsmayıllı), *ayba* (Qazax), *e:* (Muğan), *pay ato:nan (*Muğan), *bix′, pəhə, ayhay* (Çəmbərək), *ha, uy, of (*Meğri), *ay, eyvay (*Təbriz); *uf* (Dərbənd, Meğri, keçid şivələri); *hey, ey, pah, pah-pah, bah* (Dərbənd), *paho* (Çəmbərək, Şəki), *bovex′, acan (*Şəki), *hayıf (*Çəmbərək, Şəki), *həyif* (Şəki) və s. *Pəh-pəh,* bir almiyə bax, adamın yimaği gələdi (Quba); *Vaxsey*, mən hindi una nə diyəcağam? (Quba); *Ba,* bu hardan çıxdı (İsmayıllı); Əxşam hükmən bizə gəl *a*! (Quba); Əhməd, bildün, gəl, *a:* (Bakı); *Ba:*! Bu kimdi (Bakı); *Bo:y,* ay bala, bu nə avırdı tüşüfsən (Çəmbərək); *Bo:y* bu gədə hər şeyi danışdı (Tovuz); *Bo:y* alov pütün damı götürdü (Çəmbərək); *Əşşi*, mən nəvilim, kim qaçırıf (Qazax); *Bəh*, başıma gələnə bax (Qax); *Vay,* nə pis yerdə axşamladuğ (İsmayıllı); *Əşi*, işün olmasun! (Bakı); *Ayba*, məni də apar (Qazax); *Əşi,* gedib də, bı nə dein? (Muğan); O qızı^{i} gözətdi:rəm *e:* (Muğan); *Bıy* təkcə gəldü:n? (Muğan); Bizzər, *pay ato:nan,* niyə bilmirdük (Muğan); *Həvik,* o taxda yaxçı^{i} şeydi (Bakı); *Bix′,* sən nə vaxt gəlifsən (Çəmbərək); *Ayhay,* bizi tutajaxlar, munu gözləmə *(*Çəmbərək); Məni görməmiş getmə *ha*! (Meğri); *Uy*! Qollarım qırıler (Meğri); *Ay,* döx′dur, to:xlarım naxoşdiyiblə (Təbriz); *Eyvay,* Cəmşid, babam da öldi mən qaldım bırda təx′cə (Təbriz); *Bıy,* allah sən saxla, gör nücə də durup üzümə baxır ey (Göyçay); *Uf*! Qılçam yaman ağriyir (Ucar); *Pah-pah,* nə gücəg uxuyadu (Dərbənd); *Be:*, heç susuz da dolammağ olar? (Şəki); *Paho,* səni allatdılar ki (Şəki); *Bovex′,* biyavır oldux kişinin yanında *(*Şəki); *Acan,* ey, işin olmasın mə:mkiynən (Şəki); *Həyif,* birəz tez gəlsən görərdın (Şəki) və s.

S İ N T A K S İ S

Azərbaycan Dili Şivələrinin Sintaktik Xüsusiyyətləri

Azərbaycan dili şivələrinin sintaksisi haqqında ilk məlumatlar şivələrlə bağlı aparılmış tədqiqatlarda, dialektologiya aid dərslik, dərs vəsaitlərində rast gəlinir. Şivələrimizin sintaksisini monoqrafik şəkildə Məmməd Cəfərzadə araşdırmış və bu tədqiqat nəticəsi kimi onun "Azərbaycan dilinin dialekt sintaksisi" monoqrafiyası 1990-cı və 2016-cı illərdə çap edilmişdir.

Azərbaycan dili şivələrinin sintaktik xüsusiyyətləri bəzi hallarda ədəbi dilə oxşasa da, ədəbi dildən fərqli xüsusiyyətlərə malikdir.

1. Söz birləşməsi -ikinci və üçüncü növ təyini söz birləşməsi fərqli qrammatik vasitələrlə əmələ gəlir.

2. Müxtəlif feili birləşmə formalarına rast gəlinir.

3. Şivələrdə sintaktik əlaqələr (uzlaşma və idarə əlaqəsi) ədəbi dildən fərqli xüsusiyyətlərə malikdir.

4. Cümlədə söz sırası ədəbi dilə nisbətən fərqlidir, yəni sərbəstdir. Cümlə üzvlərində inversiya özünü göstərir.

5. Sadə cümlədə şivələrə məxsus faktorlar özünü göstərir.

6. Ədəbi dilimizin müxtəlif tarixi dövrlərinə məxsusu cümlə tipləri işlənir.

7. Müxtəlif mürəkkəb cümlə tipləri özünü göstərir.

8.Şərq qrupu şivələrində sual cümlələri intonasiya əsasında düzəlir.

9. Qərb qrupu şivələrində sual cüsmləsi -mı,-mi,-mu,-mü sual ədatının iştirakı əsasında əmələ gəlir.

10. Şimal qrupu şivələrində ikinci növ təyini söz birləşmələrində bəzən ikinci tərəfd' mənsubiyyət şəkilçisi işlənmir.

SÖZ BİRLƏŞMƏLƏRİ

Azərbaycan dili şivələrində söz birləşmələri iki yerə bölünür

1.Təyini söz birləşmələri.

2.Feili birləşmələr.

Təyini söz birləşmələri

Müasir Azərbaycan ədəbi dilində olduğu kimi şivələrimizdə də təyini söz birləşmələrinin üç növü var: a) birinci növ təyini söz birləşmələri; b) ikinci növ təyini söz birləşmələri; c) üçüncü növ təyini söz birləşmələri.

Birinci növ təyini söz birləşmələri. Yanaşma əlaqəsi əsasında əmələ gələn təyini söz birləşməsi birinci növ təyini söz birləşməsi adlanır. Birinci növ təyini söz birləşməsində təyin edən əvvəl, təyin olunan sonra gəlir və heç bir xüsusi morfoloji əlaməti olmur. Ədəbi dilə xas ola bu morfoloji xüsusiyyət şivələrimizdə də özünü göstərir. Məsələn: *yosma daxma* (Muğan) – alçaq ev, *şirin bulamac* (Ordubad) – yemək növü, *qərə gün* (Meğri) - pis gün, *qara şa:ni* (Bakı) - qara üzüm, *yavuğ şə:r* (Bakı) – yaxın şəhər, *beşimci gecə* (Qubadlı) – beşinci gecə, *daş cəviz* (Şahbuz) - bərk, çətin qırılan qoz və s.

Azərbaycan dili şivələrində təyin olunan əvvəl, təyin edən sonra gələn birinci növ təyini söz birləşmələri də müşahidə olunur. Məsələn: *ki̯şi biçara (*Şəki)- yazıq kişi, *uşax ya:zıx* (Çəmbərək, Şəki) –yazıq uşaq, *Hajı yazıx* (Çəmbərək) – çarəsiz Hacı, *nənəm irəx'mətdix'* (Quba) – rəhmətlik nənəm və s. *Ki̯şi biçara* hansına-birinə çassın (Şəki); *Uşax yazıx* üş gündü evdən-eşix'dən uzax tüşüf (Çəmbərək), *Hajı yazıx* neynəsiŋ köm͡eliyir və s.

Dərbənd şivəsində birinci tərəfi say, ikinci tərəfi isimlə əmələ gələn elə I növ təyini söz birləşməsinə rast gəlinir ki, sayla isim arasında **da, də** bağlayıcısı işlənir. Məsələn: Su:ra *iki də vəzir* gələdü diyədü (M.Cəfərzadə, 1990, s. 74).

İkinci növ təyini söz birləşmələri. Şivələrimizdə ikinnci növ təyini söz birləşməsinin əmələ gəlməsi, əsasasən ədəbi dillə eynidir. Yəni I tərəfi qeyri-müəyyən yiyəlik halda işlənən sözlə (şəkilçisiz), ikinci tərəfi mənsubiyyət şəkilçili sözün iştirakı əsasında ikinci növ təyini söz birləşməsi əmələ gəlir. Məsələn: *iş günü* (Muğan), *qız yiyəsi* (Sabirabad) - qızın sahibi (valideyın mənasında), *Corat qo:nı* (Bakı) – Corat qoyunu, *xırman qırağı* (Meğri) – xırmanın kənarı, *geçi qəzili* (Meğri) - keçi tükü, *at süti* (Şahbuz) - at südü, *çaylax daşı* (Kəngərli) – çay daşı (çayda olan daş) və s.

Azərbaycan dili şivələrində ikinci növ təyini söz birləşməsinin birinci tərəfi qeyri-müəyyən yiyəlik halda işlənən məsdər şəkilçili sözlə ifadə ediləndə ikinci tərəfdə məsubiyyət şəkilçisi qəbul etmiş söz işlənir. Məsələn: *danışmax vaxdı* (Meğri) – danışmaq zamanı, vaxtı, *otuxmax vaxdı* (Meğri) – ot yeməyə başlaması, işləməx' həvəsi (Şahbuz) - işləmək həvəsi.

Şivələrimizdə ikinci növ təyini söz birləşməsinin ikinci tərəfi bəzi hallarda iki mənsubiyyət şəkilçisi qəbul edir. Məsələn: *axşam üsdüsü* (Meğri) – axşam üstü, *süd iyisi* (Meğri) –süd iyi, *gələn günüsü* (Şəki) – gələn günü, *qol pulusu* (Şəki) - qol pulu, *çərşəmbə günüsü* (Şahbuz)– çərşənbə günü, *camatın çoxusu* (Ağdam) – camaatın çoxu, su qabısı (İmişli) – su qabı, qəzəmət dalısı (Naxçıvan) – qazamat dalı>həbsxana arxası, *meşə yolusu* (Zəngilan) - meşə yolu, *əmək haqqısı (*Zəngilan) - əmək haqqı və s.

Şimal (Şəki, Zaqatala, Qax, Balakən), şərq (Muğan, İmişli, Dərbənd, Tabasaran), qərb (Zəngilan, Qubadli, Qazax, Gəncə, Sisyan) qrupu şivələrində ikinci növ təyini söz şivələrinin

ikinci tərəfi mənsubiyyət şəkilçisiz işlənir. Məsələn: *baxçə dərə* (Şəki) – bağça dərəsi, *Cüyür bulax* (Qazax) – Cüyür bulağı, *şoş yol* (Qazax) - şose yolu, *keçi bala* (Dərbənd) - keçi balası, *un halva* (Dərbənd) – un halvası, *yer alma* (Tabasaran) - yer alması, *Maral göl* (Gəncə) – Maral gölü, *Şeki yol* (Qax) - Şəki yolu, *boğaz ağrı*[i] (İmişli) - boğaz ağrısı, *duz torba (*Zəngilan) - duz torbası, *qoz ləpə* (Zəngilan) – qoz ləpəsi, *Çələbi yurt* (Sisyan) - Çələbi yurdu, Şüşü qala (Sisyan) - Şuşa qalası və s.

Üçüncü növ təyini söz birləşmələri. Şivələrimizdə üçüncü növ təyini söz birləşmələri ədəbi dildə olduğu kimi birinci tərəfi müəyyən yiyəlik hal, ikinci tərəfə mənsubiyyət şəkilçisi qəbul etmiş sözlərin birləşməsindən əmələ gəlir. Məsələn: *qəpinin cəfdəsi* (Şahbuz) – qapının cəfdəsi < qapını bağlamaq üçün istifadə edilən alət, *təndirin küfləsi* (Şahbuz) – təndirin külbəsi < təndirin hava çəkən yeri, *söybətin binası* (Salyan) - söhbətin əvvəli, başlanğıcı, *qoyunun irəngi* (Şirvan) – qoyunun rəngi, *qızın atası*[i] *(*Bakı) - qızın atası, *Bakünün şa:nisi* (Bakı) – Bakının şanısı (üzüm növü) və s.

Bununla yanaşı Azərbaycan dili şivələrində üçüncü növ təyini söz birləşməsinin əmələ gəlməsini aşağıdakı kimi qruplaşdırmaq olar:

- Dərbənd, Tabasaran şivələrində üçüncü növ təyini söz birləşməsi ikinci növ təyini söz birləşməsinə oxşayır. Belə ki üçüncü növ təyini söz birləşməsinin birinci tərəfindən əvvəl bu işarə əvəzliyi işlənəndə onda birləşmənin birinci tərəfi müəyyən yiyəlik hal şəkilçisi qəbul etmir. Məsələn: *bu şeylər həmisi* (Tabasaran) - bu şeylərin hamısı, *bu yərrər həmisi* (Dərbənd)- bu yerlərin hamısı. *Bu şeylər həmisi* büzü kətdə oladi. *Bu yərrər həmisi* büzü yərrərdi *(*Dərbənd, 2009, 231), *onnar hamısı* (Bakı) – onların hamısı və s.

- şivələrimizdə üçüncü növ təyini söz birləşməsində ikinci tərəf ikiqat mənsubiyyət şəkilçisi qəbul edir. Məsələn: *gülün inisi* (Dərbənd) – gülün ini, *unu üçüsü* (Dərbənd) - onun üçü, əriyin çoxusu (Şahbuz) - əriyin çoxu, *qalxozın sədrisi* (Salyan) – kolxozun sədri və s.

- üçüncü növ təyini söz birləşməsinin birinci tərəfəndə işlənən yiyəylik hal şəkiçisinin sonun dakı **n** samiti düşür. Məsələn: *süti yüzi* (Dərbənd) - südün üzü, *inegi balasi* (Dərbənd) - inəyin balası, *dügməni gözi* (Dərbənd) - düymənin gözü və s.

- üçüncü növ təyini söz birləşməsinin ikinci tərəfi mənsubiyyət şəkilçisi qəbul etmir. Məsələn: *sənün dayi* (Tabasaran) - sənin dayın, *sənün uşağ* (Tabasaran) - sənin uşağın, *yerin altda* (Şahbuz) - yerin altında, *yerin üsdə* (Çəmbərək) – yerin üstündə, *mənim yaşdan* (Salyan) – mənim yaşımdan, *sənün yer* (Salyan) – sənin yerin və s.

- üçüncü növ təyini söz birləşməsinin birinci tərəfi şəxs əvəzliyi ilə ifadə ediləndə birinci tərəf yiyəlik hal şəkilçisi qəbul etmir. Məsələn: *mən dediyim* (Çəmbərək) – mənim dediyim, *sən dediyin* (Çəmbərək) – sənin dediyin, *biz dediyimiz* (Çəmbərək) – bizim dediyimiz, *mən gördüyüm (*Şahbuz) - mənim gördüyüm, *sən seçdiyin* (Şahbuz) – sənin seçdiyin və s.

- bəzi hallarda üçüncü növ təyini söz birləşməsinin birinci tərəfi yiyəlik hal, ikinci tərəfi mənsubiyyət şəkilçisi qəbul etmir.Məsələn: *hami bu terəflə* (Dərbənd) - bu tərəflərin hamısı və s.

- üçüncü növ təyini söz birləşməsinin daxilində yerdəyişmə baş verir. Belə ki əvvəlcə ikinci tərəf, yəni mənsubiyyət şəkilçili söz, sonra birinci tərəf, yəni müəyyən yiyəlik hal şəkilçisi qıbul etmiş söz gəlir. Məsələn: *ikisi körpələrin (*Şahbuz) – körpələrin ikisi; Ay uşax, görün harda qaldə genə ikisi bu körpələrin < quzu, çəpic > (N.Əliyeva, 2012, s. 143). *xatunu munun* (Dərbənd) - bunun xatunu, *qarni baliğin* (Dərbənd) - balığın qarnı. Axşam uladu, indi diyədi *xatunu munun.* Alıb yaran kimik üzig çıxadi *qarninnən baliğin* (Dərbənd, 2009, s.

233).

SİNTAKTİK ƏLAQƏLƏR

Azərbaycan dili şivələrində, ədəbi dildə olduğu kimi, sintaktik əlaqənin -tabelilik əlaqəsinin üç növü özünü göstərir: 1) uzlaşma əlaqəsi; 2) idarə əlaqəsi; 3) yanaşma əlaqəsi.

Uzlaşma Əlaqəsi

Asılı tərəfin əsas tərəflə şəxsə və kəmiyyətə görə uyğunlaşmasına uzlaşma əlaqəsi deyilir. Şivələrimizdə şəxsə və kəmiyyətə görə uzlaşma ədəbi dildə olduğu kimi pozulmur. Məsələn: *Söybətin binası atıldı, ortalığa* (Salyan); *Qoyunun irəngi hər cürə olar* (Şirvan); *Arıçılar genə yem verillər arıya* (Karvansaray); *Arvatdar afdoya minif varıf getdilər* (Çəmbərək); *Mən qarannıx gecədə çölə çıxmağa üşənirəm* (Culfa); *Sən hağaldan gəlirsən*? (Şahbuz) və s. Lakin Azərbaycan dili şivələrində ədəbi dildən fərqli uzlaşma əlaqəsi özünü göstərir. Belə ki uzlaşma həm şəxsə və həm də kəmiyyətə görə pozulur. Şivələrimizdə uzlaşma əlaqəsi aşağıdakı xüsusiyyətlərə malikdir.

Mənsubiyyət kateqoriyasında sahib şəxslə mənsub şəxs arasında uzlaşmanın pozulması mənsub əşyada özünü göstərir. Yəni şəxs əvəzliyi ilə ifadə olunan sahib şəxsin tələbinə mənsub əşya cavab vermir: mənsub əşya sahib şəxsə uyğun şəxs şəkilçisi qəbul etmir, uzlaşma şəxsə görə pozulur. Məsələn: *mənin qoyin, bizin adamlar, sənün uşağ, süzün dayı, unu // ularun dəfdər*. *Mənin var on min qoyin* (Dərbənd); *Honun qız gelir* (Qax); *Bizin adamlar biçmeydi* (Dərbənd); *Sənün uşağ* yağliyədi (Tabasaran); *Süzün dayı* gəldi (Tabasaran); *Unu // ularun dəfdər* yoxdi (Tabasaran) (Dərbənd dialekti, 2009, s. 226).

Kəmiyyətə görə uzlaşma mübtəda ilə xəbər arasında baş verir. Mübtəda əsas tərəf, xəbər asılı tərəfdir. Əsas tərəfi cəm şəkilçisi qəbul etmiş isimlə ifadə olunanda asılı tərəf təkdə işlənir və uzlaşma kəmiyyətə görə pozulur (Dərbənd dialekti,, 2009, s. 226). Məsələn: *Qocalar olan yerdən keçməzdi cavannar* (Dərbənd); *Duxdurla hələ diyədü* (Dərbənd); *Atlar kişni:r* (Sabirabad); *Olar dünən şə:rdən qayıtdı* (Salyan); *Vaxdı deyn çovannar qoynu qırxır* (Çəmbərək); *Axırısı, gejə atdılar töküldü kəndə* (Çəmərək) və s.

Şivələrimizdə uzlaşma əlaqəsi şəxsə və kəmiyyətə görə pozulur. Xəbər şəxs əvəzliyi ilə ifadə olunan mübtəda ilə şəxsə və kəmiyyətə görə uzlaşmır. Subyekt xəbərdə əksini tapır. Məsələn: *Mən nurular, sən tağlar, o da qareykə* (Çəmbərək); *Mən qarağa:lı, sən salahlı* (Karvansaray); *Mən oğlan, sən qız* (Çəmbərək); *Mən bayramlı, sən bayramlı, o bayramlı* (Çəmbərək); *Mən sadaxlı, sən sadaxlı, o sadaxlı, biz sadaxlı, siz sadaxlı, olar sadaxlı* (Borçalı) və s.

Bu tipli cümlələrlə bağlı A.Hüseynovun fikri məntiqi cəhətdən həqiqəti əks etdirir: "Mübtəda və xəbərdən ibarət olan cümlədə mübtəda şəxs əvəzliyi ilə ifadə edildiyi zaman, xəbərdə şəxsi ifadə edən u z l a ş m a şəkilçisi işlənməyə bilir. Ona görə ki, məntiqi vurğu mübtəda üzərində işlənir və subyekt üzərində predikasiyanın ifadə edilməsi imkanını yaradır. Xəbər isə sıralanma qanununa görə mübtədadan sonra bir üzv olaraq öz funksiyasını şəkiçisiz -formal əlamətsiz də yerinə yetirmiş olur" (A.Hüseynov, 1979 s. 68).

Azərbaycan dili şivələrində qeyri-predikativ birləşmələrdə ədəbi dildən fərqli uzlaşma əlaqəsi müşahidə olunur. Mənsub əşya sahib şəxsə uyğun şəkilçi qəbul etmir. Məsələn:

Qax şivəsi üzrə:
menin atası bizün atası
senin atası sizün atası

honun atası holların atası
Zaqatala şivəsi üzrə:
menin qız, meni qıçdar

Salyan şivəsi üzrə:
mənim yaş, mə:m qoyın, sənün yer

Eyni zamanda Kəngərli, Qazax, Böyük Qarakilsə, Şəki şivələrində saydan sonra isim gəldikdə ədəbi dilin qrammatik qaydası gözlənmir və isim cəm şəkilçisi qəbul etdiyi üçün uzlaşma əlaqəsi pozulur. Məsələn: *İki Müseyiblər su suvarırlar* (Kəngərli); *Gördim ki, iki Müseyiblər yapışıblar* (Kəngərli); *Əlli qoyunnarı var* (Qazax); *Dörd dadıxları (ayaqları) olana diyillər kürsü* (Şəki); *Ziveydənin iki qızdarı da oxu: r* (Şəki); *Beş gəlinnər axşama kimi qulluxda durur* (Böyük Qarakilsə) və s. "Belə birləşmələr ayrılıqda deyil, söyləmin tərkibində reallaşır və əsasən canlı varlıqları əhatə edir" (M.Məmmədli, 2019, s. 252).

Cümlənin mübtədası birinci tərəfi cəm şəkilçisi qəbul etmiş sözdən ikinci tərəfi saydan ibarət üçüncü növ təyini söz birləşməsi ilə ifadə olunanda xəbər, ədəbi dildən fərqli olaraq cəmdə işlənir. Məsələn: *Uşaxların ikisi də o biri arvadandılar* (Çəmbərək); *O qardaşdarın dördü də oxuyandılar (*Zəngilan) və s.

İdarə Əlaqəsi

Əsas tərəfin asılı tərəfi idarə etməsinə idarə əlaqəsi deyilir. Əsas tərəf feillə, bəzən də adlarla, asılı tərəf ismin yönlük, təsirlik, yerlik, çıxışlıq hallarında işlənən adlarla ifadə olunur. Şivələrimizdə idarə əlaqəsinin ədəbi dillə oxşarlığı olsa da, kifayət qədər ədəbi dildən, hətta şivələrin bir-birindən fərqli xüsusiyyətləri müşahidə olunur. Bu fərqlilik həm qoşmalı, həm qoşmasız idarə əlaqəsində özünü göstərir. Belə fərqliliyə qərb qrupu şivələrində, xüsusilə Qazax, ayrım şivələrində, az da olsa Şəki, Zaqatala, Qax, Dərbənd şivələrində rast gəlinir. İdarə əlaqəsində bir halın digər halı tələb etməsi Azərbaycan şivələri üçün xarakterikdir və şivələrimizdə bir halın başqa bir halı əvəz etməsinin 30-a yaxın tipi özünü göstərir (M.Cəfərzadə, 1990, s.47).

1. Getmək, baxmaq, başlamaq feilinin tələbinə əsasən asılı tərəf ismin yönlük halında deyil, adlıq halında işlənir. Məsələn: ***Getdim** Ağbulax **tərəf*** (Şəki); *Sən bir çay **tərəf bax*** (Şəki); *Bilmirəm **dağ getdi, aran getdi*** (Qazax); *Qarı sahqız **çeynəməx' başladı (***Dmanisi); *Qız **başladı** i:nələri **çıxartmax*** (Dmanisi); *Kişi **yalvarmax başladı** kın, apar bizi də* (Qaradabanı) və s.

2.Əsas tərəfin tələbinə görə asılı tərəf ismin yerlik halında deyil, adlıq halında işlənir. Məsələn: *Go:r **arası** bu sa:t dört dənə yatax **otdüyü (***Şəki); ***Yuxarı** qala dağı **var**, orda qala var* (Şəki) və s.

3. **Göndərmək, getmək** feilinin tələbinə görə asılı söz ismin yönlük halında deyil, təsirlik halında işlənir. Məsələn: ***Qızı** faytın **göndərdilər** gildi* (Şəki); *O **tərəfi** də cız **geder**, bu **tərəfi** də cız geder, loyva əkiler (*Borçalı) və s.

4. Əsas sözün tələbinə əsasən asılı tərəf ismin yerlik halında deyil, yönlük halında işlənir. Məsələn: *Oğlan qaladı qızına **anasını övünə*** (Dərbənd); *Keçən ilin **yazına** getdix', **payızına** gəldix'* (Karvansaray); ***Pəyyə** daldalandıx, yoxsa yağışa tüşərdix'* (Çəmbərək) və s.

5. Əsas sözün tələbinə əsasən asılı tərəf ismin yerlik halında deyil, təsirlik halında işlənir. Məsələn: *Biz **helə yazı-yayı işliyirıx**, qışı oturuf yiyirıx* (Şəki); ***Yazı əkinçi, qışı dilənçi***

olmuşdux (Şahbuz); ***Payızı əkellər****, soŋra da alasını çəkellər toxaynan* (Qazax); ***Pa:yzı*** *dırmadırış yığırax,* ***qışı*** *işlederix'* (Çəmbərək) və s.

6. Əsas sözün tələbinə əsasən asılı tərəf ismin çıxışlıq halında deyil, yönlük halında işlənir. Məsələn: *Men ge:rəm,* ***uşağa muğeyit ol****, ağlamasın* (Şəki); Əli, ***muna muğayat ol*** (Naxçıvan); *Gedə-gedə tafşırmışam kin, bala,* ***qapı-bacamıza, toyux-cücəmizə mığəyət ol****, mən gələnə* (Şahbuz); *Ağız, mən suya gederem, sən* ***öə muğayat o****l (*Qazax); ***Qapı-bacıya muğayat olun*** (Qubadlı); *Gürdi* ***tərəgə*** *uğlanın quluna bağladığı dəsmal asılmışdı* (Dərbənd); *Nicə qardaş uladuğ,* ***sənə*** *uğurluğ eləmişəm* (Dərbənd); ***Sana*** *çox təvəqqə elərim, bir əncam çəkəsən onun işinə* (Gədəbəy); *Sən* **ona** *nahaq inciyisən* (Ağdam); *Ciyciyəni dəvlətdi* ***boynuna asırdı*** (Şərur*); Mənim* ***ata xoşım gəlir*** (Salyan); ***Bayrama*** *ombeş gün* ***gedmiş*** *o suyi Kürdən bıraxardux yerin üssünə* (Salyan) və s.

7. Əsas sözün tələbinə əsasən asılı tərəf ismin təsirlik halında deyil, yönlük halında işlənir. Məsələn: ***Döymə qapıma*** *barmağnan, döyəllər qapuya: toxmağnan* (Şəki); ***Uşağa söymə*** (Şəki); ***Kimə söyürsən*?** (Qarabağ); ***Uşağa söyürəm*** (Çəmbərək); *Mən* **ona vurmuşam** (Zaqatala); ***Uşağa inandırmax*** *gərəx'dir kin, məhtəbə girəcıx* (Şahbuz); ***Kimə sö:ərsən****?* (Qazax); *Mən* ***saŋa inanderem*** *ki, bizim bu kətdən keçif gederdi dağa geden* (Qazax); *Bağışleyüz* ***mənə****, dağı yimidəm* (Dərbənd); *Bu* ***ceyrana*** *vuradı* (Dərbənd); ***Cijimə*** *çağırdım kın, qo:yn əmişr, teccənə sağ* (Çəmbərək); ***Sizə*** *inandıreyrım, munnan xəvəri yoxdu bizim uşa:n* (Daşkəsən); *A bala, ayıfdı, söymə* ***uşağa*** (Amasiya); ***Qonşuya inandırammadım*** *ki, o deyilənnər yalandı* (Qubadlı); ***Dədəmə söyürdü****, mən də vurdum* (Qubadlı) və s.

8. Əsas sözün **(daldalanmaq, gizlənmək** feilinin) tələbinə görə asılı söz ismin yerlik halında deyil, yönlük halında işlənir və qərb qrupu şivələrində müşahidə olunur. Məsələn: *İdris* ***öyə gizdənif*** (Gəncə); ***Meşiyə daldalanır (****Gəncə); Qaşdıx bir* ***dama daldalandıx*** (Tovuz); *Gedər bir az aşa:,* ***dəriyə gizdəner*** (Qazax) və s.

9. Adlarla idarə olunanda əsas sözün tələbinə əsasən asılı tərəf ismin yönlük halında deyil, təsirlik halında işlənir. Məsələn: ***Məni istidi*** (Bakı); ***Məni soyuqdu*** (Bakı) və s.

10. Əsas sözün tələbinə əsasən asılı tərəf ismin çıxışlıq halında deyil, yerlik halında işlənir. Məsələn: ***Şuşada gəlləm*** (Laçın); ***Aranda çıxıf gəldıx*** *Qorçuya* (Laçın); ***Meşədə səs gəlirdi*** (Zəngilan); ***Orada*** genə yayax ***gedirdix'*** Bakiyə səmt (Borçalı); *Bu* ***qələmnə xuşum gələdi*** (Dərbənd); *Mən qulmağdan* ***yaqdumna çıxdu*** (Dərbənd) və s.

11. **Getmək, xoşuma gəlmək** feilləri ilə əsas tərəfin tələbinə əsasən asılı tərəf ismin çıxışlıq halında deyil, yönlük halında işlənir. Məsələn: *Suyi* ***içmağa xoşum gəlir*** (Ordubad); ***Bayrama 15 gün gedmiş*** *o suyi Kürdən bĭraxardux yerin üstünə* (Salyan); Mənim ***ağaca da xoşum gəlir*** (Şahbuz); ***Üzümə, əriyə, qavına xoşuma gəlir*** (Culfa); *Təzə kəsilən* ***bal iyisinə*** *yaman* ***xoşum gələrdi (****Şahbuz);* ***Paltara xoşuma gəlir*** (Qubadlı) və s.

12. Əsas tərəf **buraxmaq** feili ilə ifadə edildikdə asılı tərəf yönlük halda deyil, təsirlik halda işlənir. Məsələn: *Sən* ***qabaği baxırsan****, çox şey görürsən* (Ordubad) və s.

13. Əsas tərəfin tələbinə görə asılı tərəf yönlük halda deyil, çıxışlıq halda işlənən söz tələb edir. Məsələn: ***Dəyirmandan*** *aparın, oni un çəkin gətirin, yiyərüg* (Sabirabad); ***Yaydan*** *ombeş gün qalmış bıra su basar (*Salyan); ***Sizdən*** *çox ümüdüm var* (Salyan) və s.

14.Əsas sözün tələbinə görə asılı söz ədəbi dildən fərqli olaraq ismin yiyəlik halında deyil, yönlük halında işlənir. Məsələn: *Atmış ssəkkiz yaş var* ***mənə*** (**mənim** əvəzinə) (Dərbənd); *Nəfəsim də* ***mənə*** (**mənim** əvəzinə) *artıq gəlmədi* (Dərbənd) və s.

15.Əsas sözün tələbinə görə asılı söz ədəbi dildən fərqli olaraq ismin adlıq halında deyil, yönlük halında işlənir. Bu dialektoioji xüsusiyyət Dərbənd, Zaqatala, Qax şivələrində

müşahidə olunur (M.Cəfərzadə, 1990, s. 51). Məsələn: *Mən siziynən dava* ***aparmağa*** (ədəbi dildə: aparmaq) *isdiyədəm* (Dərbənd); *Biz də hora* ***gitmağa*** (ədəbi dildə: getmək) *isdadıx* (Zaqatala); ***Sağ olsun*** *mını[i] saxlıyan* ***arvada,*** *hindiyəcən saxleyib* (Şamaxı) və s.

16. Əsas sözün tələbinə görə asılı söz ədəbi dildən fərqli olaraq ismin adlıq halında deyil, yerlik halında işlənir. Məsələn: *O* ***vaxtda*** *mal da* ***saxladıx****, qoyun da* (Qazax); ***İndilix'də*** *elə bir* ***işim yoxdu****,* ***hələlix'də açılmıyıf*** *bizim pambıx* (Tovuz) və s.

17. Əsas sözün tələbinə görə **əvvəl** mənasında işlənən **qabaq** sözü asılı tərəf kimi adlıq halda deyil, çıxışlıq halda işlənən söz tələb edir. Məsələn: ***Qavaxdan pişmiş olardı*** *burda* (Gəncə); ***Qavaxdan*** *da üz* (qaymaq sözünün dialektdə işlənmə forması) *burada çox* ***olordu*** (Marneuli) və s. Bu xüsusiyyət qərb qrupu şivələri üçün xarakterikdir.

18. İdarə əlaqəsində ikinci tərəfi **saya (sayə), üst, üz, yan** sözləri ilə ifadə olunan üçüncü növ təyini söz birləşməsi tabe olan tərəf kimi işləndikdə söz birləşməsinin ikinci tərəfi ismin yerlik halında deyil, yönlük halında işlənir. Məsələn: *Biz də* ***onun sayasına*** *böyüdüx'* (İmişli); *Biz də otdux dicəldix'* ***sənin sayana*** (Qazax); ***Sizin sayəŋızа*** *biz də gedif* ***gördux*** *Bakini* (Şəki); ***Dövlətin sayasına*** *hamı uşaxlar* ***oxuyur*** *(*Şərur); ***Dayısının sayasına adam oluf****, indi bizi bə:nmir* (Qubadlı); *Bı işdər* ***Soltanın sayasĭna yaxşi olib*** (Salyan); ***Sənin üstünə*** *mən ye:f qutardım* (Daşkəsən); *Pəri xanım baxer kin, Tafdıx öyə gəler, hamma pis iregi var* ***üzünə*** (Dmanisi) və s.

19. Ədəbi dildən fərqli olaraq şivələrimizdə idarə əlaqəsi qoşmalarla deyil, birbaş feillə də yaranır. Bunun nəticəsində qoşmasız idarə əmələ gəlir. “... qoşmasız idarə qoşmalı idarədən qədimdir. Qoşmalı idarə dilin nisbətən sonrakı mərhələsində yaranmışdır” (M.Cəfərzadə, 1990, s. 66). Məsələn: *Özü* ***danişdirdığına*** (ədəbi dildə: danışdırdığına görə) ***danişdim*** (Şəki); *Şavalıt ağacı çox* ***olduğüna*** (ədəbi dildə: olduğuna görə) *una* (kəndə) *Şavalıt* ***diyifdilər*** (Şəki); *Altı* ***günnə*****n** (ədəbi dildə: gündən sonra) *qurdu* ***şaxlamışıx*** (Şəki); *Soŋra* ***danıya*** (ədəbi dildə: dana üçün) *dağda ayreller xalxal* (Borçalı); *Quraxlıx* ***keşdiyinə*** (ədəbi dildə: keçdiyi üçün) *sudan korrux çəkirix'* (Qubadlı); *Ekən dəni üstini* ***örtmağa*** (ədəbi dildə: örtmək üçün) *mala çekmişəm mən (*Dərbənd); *Yazda ot-ələf çox* ***tofladığımıza*** (ədəbi dildə: topladığımıza görə) *qışda korrux çəx'mədix' (*Çəmbərək); *Bizim yerrər* ***qışına*** (ədəbi dildə: qışına görə) *sərt ole:r* (Karvansaray); *Hansı briqada olsa, işdərəm,* ***mənə*** (ədəbi dildə: mənim üçün) *fərqi yoxdu* (Biləsuvar); *Bir* ***həftədən*** (ədəbi dildə: həftədən sonra) *qizi aparadam (*Dərbənd); ***Unnan*** (ədəbi dildə: ondan sonra) *yuraduğ yərə dört dənə ağac* (Dərbənd); ***Onnan*** (ədəbi dildə: ondan sonra) *gedib qoyunı[i] gətdim* (Şamaxı); *Orda işdeyrüg,* ***onnan*** (ədəbi dildə: ondan sonra) *çıxuruğ pammığ əkinnə* (Salyan) və s.

Dərbənd şivəsində **sonra** qoşması feili sifətləri idarə edir və ədəbi dildən fərqli olaraq **sonra** qoşmasından əvvəl gələn feili sifət çıxışlıq hal şəkilçisi qəbul etmədən işlənir (Dərbənd, 2009, s. 228). Məsələn: *Qırx gün* ***bitən sura*** (ədəbi dildə: bitəndən sonra) *qirxin də sindirillə* (Dərbənd); *Qonağ olub* ***qutaran sonra*** (ədəbi dildə: qurtarandan sonra) *dövrüş diyədü* (Dərbənd);

21. Dərbənd şivəsində **ötrü** qoşmasının iştirakı əsasında ilə ifadə olunan əsas sözün tələbinə görə asılı söz çıxışlıq halda deyil, təsirlik halda işlənir. Məsələn: ***Səni*** (ədəbi dildə: səndən) ***ütrü*** *gələdəm* (Dərbənd, 2009, s. 228).

Yanaşma Əlaqəsi

Tabelilik əlaqəsinin növlərindən biri kimi yanaşma əlaqəsi tabe sözün tabeedici sözə yanaşıb mənaca ona bağlanması əsasında əmələ gəlir. Yanaşma əlaqəsi Azərbaycan dili şivələrində də ədəbi dildə olduğu kimi tabe söz tabeedicı sözə yanaşır və mənaca ona

bağlanır. Məsələn: *qoşa ıldlz* (Çəmbərək), *təx' qapı* (Çəmbərək), *yazığ uşağ* (Dərbənd), *doxdur Kazım* (Şəki), *təpəl inəx' (* Karvansaray), *qaşqa at* (Qazax), *bordax qoyun* (Gədəbəy), *tifil Musa* (Tovuz), *səllimi yeriş* (Basarkeçər) və s.

Ədəbi dildən fərqli olaraq Azərbaycan dili şivələrində cümlə daxilində yanaşma əlaqəsində tabeedici söz tabe sözdən əvvəl işlənir. Məsələn: ***Uşağ yazığ*** *bilmeydi, neyləsin* (Dərbənd), ***Kazım doxdur*** *işdəmir büyün* (Şəki), ***Hajı yazıx*** *neyləsiŋ ona* (Çəmbərək) və s.

CÜMLƏ ÜZVLƏRİ

Azərbaycan dialektologiyasında cümlə üzvlərinin təsnifi müxtəlif şəlkildə aparılmışdır. M.Şirəliyev "Bakı dialekti" monoqrafiyasında cümlə üzvlərindən yalnız mübtəda və xəbərdən bəhs etmişdir (M.Şirəliyev, 1957, s. 136-137). "Azərbaycan dialektologiyasının əsasları" dərs vəsaitində cümlə üzvləri kimi mübtəda, xəbər və tamamlıqdan (M.Şirəliyev, 1967, s.304-306), digər tədqiqatlarında (Muğan qrupu şivələri, 1955, s.149, M.Ширалиев, 1983, с. 155-156), M.İsalamov Şəki şivələrinin (M.İslamov, 1986, s.167-168), S.Behbudov Dərbənd şivələrinin (Dərbənd dialekti, 2009, s. 234) materialları əsasında cümlə üzvlərindən təkcə xəbərdən, R.Rüstəmov Quba şivələrinin (R.Rüstəmov, 1961, s.187-191), Naxçıvan qrupu şivələrinin (Naxçıvan qrupu şivələri, 1962, s.163-181), Ə.Əliyev Qərbi Azərbaycanın Meğri şivələrinin (Ə.Əliyev, 2003, s.326-335), N.Əliyeva Şahbuz şivələrinin (N.Əliyeva, 2012, s.145-154), M.Məmmədli Azərbaycan dili şivələrinin (M.Məmmədli, 2019, s.254-257) materialları əsasında ədəbi dildə olduğu kimi, cümlə üzvlərinin beş növündən (mübtəda, xəbər, tamamlıq, təyin, zərflik) bəhs etmişdir.

B.Əhmədov Azərbaycan dili şivələrinin morfologiyası və sintaksisi ilə bağlı "Dialektologiyadan çalışma və tapşırıqlar" metodik vəsaitində cümlə üzvlərindən mübtəda, xəbər və tamamlığa aid çalışma nümunələri verir (B.Əhmədov, 1979, s.50-51). Buradan belə qənaətə gəlmək olar ki, B.Əhmədov şivələrdə cümlə üzvləri mübtəda, xəbər və tamamlıqdan ibarətdir.

R.Abbasova Qubadlı şivələrininin sintaksisindən bəhs edərkən cümlə üzvlərinin iki növünü-mübtəda və xəbəri göstərir (R.Abbasova, 2006, s. 106-107).

Azərbaycan dili şivələrində, ədəbi dildə olduğu kimi bütün cümlə üzvləri-mübtəda, xəbər, təyin, tamamlıq və zərflikdən ibarətdir.

Mübtəda

Cümlənin baş üzvü kimi şivələrimizdə mübtəda, əsasən ədəbi dillə eyniyyət təşkil edir. Bununla belə mübtəda şivələrdə fərqli formalarda işlənmə xüsusiyyətlərinə malikdir.

Ədəbi dildə olduğu kimi şivələrdə mübtəda cümlədə işlənir və isimlərlə, substantivləşmiş sözlərlə, II və III növ təyini söz birləşmələri ilə ifadə olunur. Məsələn: ***Nənəm*** *coraf toxuyur* (Qubadlı); ***Səlim*** *yoxun macal gitdi hələ* (Quba); ***Quca*** *yuli çux iti gidətdi, hiç yurulmiyətdi* (Quba); ***Bərgüşad çayı*** *burdan keçir* (Qubadlı); *Kəndə* ***hallaş*** *gəlmişdi, keçə saldıran gəzirdi* (Şahbuz); ***Qantəpər*** *soyuxdəymənin dərmanıdı* (Şahbuz); ***Yaxçı*** *harda olsa, yaxçıdı,* ***pis*** *elə pisdi kin pis (*Şahbuz); ***Yaxmax*** *hər kəsin işi də:l* (Şahbuz); ***İnəx' kərəsi*** *sarı olur,* ***camış kərəsi*** *ağ (*Şahbuz); ***Meyvacatı*** *issi dəydirer* (Meğri); ***Öynəməx*** *munnan artıx olmaz,* ***süzdüməx*** *munnan artıx olmaz (*Meğri); ***Maş*** *qüvvətdi şeydi* (Babək); ***Carcar*** *küləş doğruyur* (Şahbuz); *Hindi* ***köçərgi*** *yoxdu* (Şahbuz); ***Kəhrizin başı*** *bı qədədi* (Culfa) və s.

III növ təyini söz birləşməsinin birinci tərəfi iştirak etmədən mənsubiyyət şəkilçisi qəbul etmiş ikinci tərəf cümlənin müstəqil mübtədası olur. Məsələn: *İyirmi səkgiz tarixda **qərdəşin** addadı **gəldi** Erannan* (Meğri); *Qırmannar təslim ulannan su:ra **uğlum** da:vadan qeyitdi (*Quba) və s.;

Şivələrimizdə mübtəda şəxs əvəzlikləri ilə ifadə olunur və cümlədə işlənir. Məsələn: ***Bizdər** sətəlcəmnən qan allıx (*Naxçıvan); ***Bı,** gözün ava-ava gəldi getdi (*Naxçıvan); *Böyün **mən** şeh çəkilənəcən xeylax tapıl qoymuşam, sən nə qədər qoymusan*? (Şahbuz) və s.

Ədəbi dildən fərqli olaraq şivələrdə şəxs əvəzliyi ilə ifadə olunan mübtəda cümlədə işlənmir. Belə cümlələrdə mübtəda xəbərin daxilində əksini tapır. Məsələn: *Çətin dərdlər qormiyəsən* (Zaqatala); *Axşam oldi, çıxdım, gəldim* (Bakı); *Gedədəm, gedəsən gəl gedək (*Quba); *Oturuy, sərin yerdə, yiyə-içə, keyf çəkə* (Qax); *Həməşə hamıya əl tutmuşam (*Qubadlı); *Səni görüm hamı arzusuna çatasan* (Qubadlı); *Dünən üş tay alıb göndərmişəm, amancax gedip çatmıyıp* (Şahbuz); *Obaşdannan durub^p hammını yola salmışıx* (Şahbuz); *Bı yetim-yesiri saxlıyammıram* (Meğri); *Hindi bir samat dincəldim* (Quba); *Axtarduğ, axtarduğ, rizin tapammaduğ (*Quba); *Əgər cavab vərdün, vərəcəgəm aparasan pullari* (Bakı) və s. Mübtəda cümlənin ortasında, sonunda da işlənə bilir. Məsələn: *Kəndimizdə **qojalar** çoxuydu (*Çəmbərək); *Sovdalaşdılar, qızı aldə* ***Obbas*** (Meğri) və s.

Xəbər

Cümlənin baş üzvü kimi xəbər cümlədə əsas və aparıcı mövqeyə malikdir. Ədəbi dildə olduğu kimi cümlənin mübtədası ilə bağlıdır və uzlaşma əlaqəsində olur. Məsələn: *Mən elə şeyləri bilmənəm* (Naxçıvan). Bununla yanaşı Azərbaycan dili şivələrində xəbər cümlədə işlənmə xüsusiyyətlərinə görə ədəbi dildən fərqlənir. Şərq qrupu şivələrdə cümlədə həmcins xəbərlərində birincisi işləndiyi halda, sonra gələn xəbər işlənmir. Məsələn: *Öymüzə gedən yolla **gedəcəm,** özü də səynən* (Şirvan) - Öymüzə gedən yolla ***gedəcəm,*** özü də səynən ***gedəcəm.*** *Mən uşaxlarla **gedəjəm,** Murad atasıynan (Çəmbərək) -Mən uşaxlarla **gedəjəm,** Murad atasıynan **gedəjəx'** və s.*

Bəzən şivələrimizdə cümlənin xəbəri işlənmir. Məsələn: *Yiməgə qoyın əti* (Salyan) - Yiməgə qoyın əti ***yaxşıdı;*** *Quli, haçarrari mənə (*Salyan) – Quli, haçarrari mənə ***ver.*** *Qüli, haçarrari mənə* (Bakı) – Qüli, haçarrari mənə ***ver*** *və s.* Şivələrimizdə ədəbi dildən fərqli olaraq adlarla ifadə olunan xəbərdə xəbərlik şəkilçisi işlənmir. Məsələn: *Nay adam, o adama deyirik ki, çox yüksəx', yaxşı, əlaçıx,verimli adam (*Gəncə)- Nay adam, o adama deyirik ki, çox yüksəx', yaxşı, əlaçıx,verimli ***adamdır;*** *Yaz dağ əppəyi, payız bağ əppəyi* (Borçalı) - Yaz dağ ***əppəyidir,*** payız bağ ***əppəyidir;*** *Yayda hər yan baxırsan yamyaşıl* (Salyan) - Yayda hər yan baxırsan ***yamyaşıldır;*** *Baxdi gördi ki, qıza bağışdadığı üzüg* (Bakı)- Baxdi gördi ki, qıza bağışdadığı ***üzügdür;*** *Bu on səkkizi mənim, bir i̯^s i sənin* (Ağdaş) -Bu on səkkizi mənim, bir i̯^s i ***sənindir*** *və s.*

Xəbəri **olmaq** feili ifadə olunması təsəvvür edilən cümlələrdə xəbər işlədilmir. Məsələn: *Savahın xeyir* (Çəmbərək) - Savahın xeyi ***olsun;*** *Ö:n avadan (*Muğan) - Ö:n (evin) avadan ***olsun;*** *Sənin sağ əlin mənim başıma* (Qarabağ) -Sənin sağ əlin mənim başıma ***olsun;*** *Mənnən sizə amanat* (Ağdaş)- Mənnən sizə amanat ***olsun*** *və s.*

Şivələrimizdə **ol** feili feili bağlama ilə birlikdə cümlənin xəbəri olur. **Ol** feili sual cümləsi əmələ gətrir və *-mı,-mi,-mu,- mü* sual ədatının funksiyasını yerinə yetirir. Məsələn: *Görəsən, gəlib ola?* (Şamaxı)-Görəsən, **gəlibmi**? *Fatma xala öydədi ola?* (Şamaxı)- Fatma

xala **öydədimi**? *Çayniyə xata salıb ola?* (İsmayıllı) - Çayniyə xata **salıbmı**? *və s.*

Müəyyən şivələrdə cümlənin xəbəri işlədilmir. "Bu hadisə gah ixtisarla, gah da üslubi məqsədlə bağlı m olur" (Ə.Cəfərzadə, 1990, s. 116). Məsələn: *Gəlmişəm mə: pıl* (İmişli); *Holar Şekiye, men burya (Zaqatala); Qapısında bir sürü qoyunı, üş-dörd malı* (Ağdaş); *Gördüm, Əli öydə* (Karvansaray); *İşıxlanacan sən mala, Əhməd də buzoya* (Çəmbərək) *və s.*

Şivələrdə cümlənin xəbəri iş feilləri əvəzinə **eləmək** köməkçi feili ilə ifadə olunur. "Bu, əsasən qadınların danışığı ilə bağlı olub, vərdiş halını almış ev və təsərrüfat işlərindən söhbət getdikdə daha ardıcıl özünü göstərir" (Ə.Cəfərzadə, 1990, s. 117). Məsələn: *Anam xamır eliyif* (Çəmbərək); *Sən malın altını elə (təmizlə), özüm tökərəm samanı*[i] *(*Ağsu); *Arvad axşama halva eliyif, gələrsən* (Basarkeçər); *İnişilki yunnan yorğan-döşək eləmişdi, bildirkinnən palaz* (Şamaxı) *və s.*

Şivələrdə xəbər təkrarlanır. Bu tipli cümlələrin xəbəri sinonim və ya yaxın mənalı feillərlə ifadə olunur. Məsələn: *Var it ged bırdan* (Bakı); *Var get burda durma, səni vurajaxlar* (Çəmbərək); *Gəl çıx səni gözdüyürəm savahdan* (Çəmbərək); *Var çıx get anarı* (Gəncə) *və s.*

Tamamlıq

Cümlənin ikinci dərəcəli üzvü kimi tamamlıq xəbərlə bağlı olub ismin yönlük, təsirlik, yerlik, çıxışlıq halında işlənən isim, şəxs əvəzliyi, ikinci və üçüncü növ təyini söz birləşmələri ilə, eyni zamanda substantivləşmiş sözlərlə ifadə olunur. Ədəbi dildə olduğu kimi şivələrimizdə də qoşma qəbul etmiş sözlər də tamamlıq vəzifəsində iştirak edir. Məsələn: *Musa dayı haravıyı otla dolduruf yola tüşdü* (Qazax); *Sənnən soruşuflar bunu? (*Çəmbərək); *Həylə belə uşağı səvirik də* (Ordubad); *Xizəri iki adam işlədir (*Sədərək); *Traxdırnan kartof yığırdılar (*Karvansaray); *Toyu çombaxnan çalıllar* (Şahbuz) və s.

Bununla yanaşı Azərbaycan dili şivələrində tamamlıq işlənmə xüsusiyyətinə görə ədəbi dildən fərqlənir.

Şivələrimizdə cümlənin xəbəri təsirli feillə ifadə olunsa da, cümlədə işlənən tamamlıq təsirlik hal şəkilçisi qəbul etmir. Məsələn: *Qoymordu **mal** hayatdan kənara çıxmağa* (Qazax); *Musa kişi **qoyun** otarırdı, arvadı qazlara dən tökürdü* (Çəmbərək); *Ata, mən sıçradaram **at** (*Borçalı); ***Beşmağ** qabağlar giyərdilər* (Quba); *Obbas **dişin** saldıdı?* (Meğri); *Onun **atasıŋ** görmüşəm* (Ağdam); ***Şamaxın** görməmişəm heç* (Salyan); *Qonşular **təzəx'** yığırdı* (Çəmbərək) və s.

Quba, Göyçay, Şamaxı və Salyan şivələrində -dı(r) şəkilçisi təsirlik hal şəkilçisi yerində işlənir və -dı(r) şəkilçisi qəbul etmiş söz cümlənin tamamlığı olur. Məsələn: ***Əkinçilikdi, bağbançuluğdi** billuğ* (Quba); ***Mismardı, çəkişdi** töhmüsüz əyağ altda* (Salyan); *Arxnan gəlməz, iki vedrə **sudı**[i], atarsan* (Göyçay); *Gedə boyımdeydi, gördüm, bir köhnəl **qoyundı**[i] alıb gətirib* (Şamaxı) və s.

Təyin

Azərbaycan dili şivələrində təyin ədəbi dildə olduğu kimi isim, sifət, işarə əvəzliyi, feili sifət, feili sifət tərkibi, ikinci və üçüncü növ təyini söz birləşmələri ilə ifadə olunur və təyin təyin olunandan əvvəl gəlir. Məsələn: ***Cında** palazın üstündə oturub* (Şahbuz); ***Lilimar** su nə isdi olur, nə soyux* (Şahbuz); *Quyu var **bı** kətdə otuz ərşin, qırx ərşin (*Şərur); *Anqurt **belə hinduşqa yekəlikdə** quşdu* (Kəngərli); ***Bacabacada çiləçıxardan** cahıllar gecəni yatmazdar*

(Şahbuz); ***Xıdecə // xıcca*** *qızdar irilərdən yaxşı barama dərir* (Meğri); ***Düz*** *yərdə yaxşi sürmağ uladu* (Quba); ***Bı*** *bacılar üçü də işdəx' adamdı* (Zəngilan); və s.

Qərb qrupu şivələrində "təyin var sözü ilə -dan,-dən şəkilçisi qəbul etmiş söz tərkibi ilə ifadə olunur, bu zaman həmin tərkib təyin olunandan sonra gəlir" (Qərb qrupu şivələri, 1967, s. 166). Məsələn: *Yuxeyi yuxeya:n* ***var taxdadan*** *onda yayellər* (Borçalı).

Zərflik

Şivələrimizdə zərfliyin aşağıdakı məna növləri müşahidə olunur:

1.Tərzi-hərəkət zərfliyi.
2. Zaman zərfliyi.
3.Yer zərfliyi.
4. Kəmiyyət zərfliyi.
5. Səbəb-məqsəd zərfliyi.

Tərzi-hərəkət zərfliyi. *Uşağ* **tullana-tullana** *gtitdi öyə* (Quba); *Adamlarnan* **bir-bir** *danışdı*[i]*, su:ra gitdi* (Quba); *Uni mən lap* ***balaca-cıqqanağ*** *saxlamışam* (Quba); *Su üstdə* ***qırt-qırt*** *qeyner* (Meğri); *Nənəmin özü* ***ehmal-ehmal*** *gedər, sən narahat olmadınan* (Meğri); *Balaxatın dəsdəri* ***ehmallıca*** *yerinnən tərpətdi* (Çəmbərək); *Gedə genə inəx'ləri ötürüp* ***səllimi****, özü də* ***ərin-ərxəyincə*** *otrŭb əvdə* (Şahbuz); *At* ***qoşəyax*** *qaçır* (Şahbuz) və s.

Zaman zərfliyi. *Də:rman qalxoççılara işdi:r* ***hindi*** (Biləsuvar); Uşağlar **hindi-hindi** gidib çatallar Bekiyə (Quba); *Mığrıya* ***ayanda-sayanda*** *gedərəm, mə:llim* (Meğri); *Onun* ***binəli*** *xəsiyyətidi, işini yarımçıx qoyar* (Çəmbərək); ***Quyruxdoğannan*** *sağmalları qurudarıx, sağmarıx* (Şahbuz) və s.

Xəbər vəzifəsində iştirak edən **əkmək, işləmək,yemək** ismin yerlik halını deyil, təsirlik halını tələb edir və təsirlik halda işlənən söz cümlədə zaman zərfliyi yerində işlənir (Y.Camalov, 1979, s. 111). Məsələn: ***Yazı, yayı*** *gedəllərdi işdəllərdi,* ***qışı*** *da oturuf yəllərdi* (Basarkeçər); *Aranda yerə* ***yazı*** *qartof əkillər, qartof soğulanda da yerinə göy əkillər* (Basarkeçər) və s. Yerlik hal şəkilçisi qəbul etmək əvəzinə şəkilçisiz işlənən söz cümlədə zərfliyi yerində işlənir. Məsələn: ***Qış*** *orda dayanmağ olmazdı* (Zərdab); *Keçmiş* ***zaman*** *isdyə tavlamerdıx* (Qazax) və s.

Çıxışlıq hal əvəzinə yerlik hal şəkilçisi qəbul etmiş söz cümlədə zaman zərfliyi vəzifəsində iştirak edir. Məsələn: *Munnarın hamısı* ***keşmişdə*** *qalan adamlardı* (Basarkeçər);

Yer zərfliyi. *Xörəg yiyənnən so:ra nar, heyva gəldi* ***ortalığa*** (Biləsuvar); *Eşşəx'ləri adıxladıx da* ***Şımpırın quze:nə*** *oduna getdix'* (Basarkeşər); *Qasım* ***gennən*** *sürütmüyə baxırdı* (Çəmbərək); ***Gəzdəx'də*** *yekə bir ayıynan qabaxlaşdıx* (Şahbuz); *Çovannar qoyunnarı* ***dölləx'də*** *otarırdı* (Çəmbərək) və s.

Xəbər vəzifəsində iştirak edən **daldalanmaq** ismin yerlik halını deyil, yönlük halını tələb edir (Y.Camalov, 1979, s. 110). Məsələn: *Sel gələndə qaşdıx da: qa:nın* ***altına*** *daldalandıx* (Basarkeçər) və s.

Yönlük hal əvəzinə yerlik hal şəkilçisi qəbul etmiş söz cümlədə yer zərfliyi vəzifəsində iştirak edir. Məsələn: *Kotanın* ***qavağında*** *qoşulan öküzə hörüx' de:llərdi* (Basarkeçər) və s.

Səbəb-məqsəd zərfliyi. *Çörəkdən, paprosdan alıblar, miniblər atı*[i] ***getməgə*** (Sabirabad); Yönlük halda işlənən söz səbəb-məqsəd zərfliy yerində işlənir. Məsələn: *Eşşəx'ləri adıxladıx da Şımpırın quze:nə* ***oduna*** *getdix'* (Basarkeşər); *Qar* ***yağdığınnan,*** buz ***donduğunnan*** *üş*

*günün içində arılar qırıler (*Meğri); *Şumların içinnən salırıx mora* ***su buraxmaqçın*** (Şahbuz) və s.

Kəmiyyət zərfliyi. *Otdux söhbət etdix'* ***bir qədər*** *(*Sisyan); *Bizim uşağ şə:rdə* ***lap çux*** *oxiyib* (Quba); *Müxdəsər, tacir malın* ***yeriynən*** *xırıd elədi* (Meğri); *Məsmə arvad evdə əlinə keçənləri* ***yerli - divli*** *apardı (*Çəmbərək); ***Nə xərtə*** *elədim əyləşmədi, çıxıf getdi (*Çəmbərək); *Cəməət* ***nə xərtə*** *əkir, elə mən də oqəddərə əkirəm* (Şahbuz); *Sa:* ***nə xərtənə*** *desələr, verrəm* (Çəmbərək) və s.

Cümlədə Sözlərin Sırası

(Cümlə üzvlərinin inversiyası)

Azərbaycan dili şivələrində cümlə üzvlərinin sıralanması əsasən ədəbi dilə olduğu kimi özünü göstərir. Cümlənin əvvəlində mübtəda, sonunda xəbər, tamamlıq, zərflik cümlənin ortasında, təyin təyin etdiyi cümlə üzvündən əvvəl işlənir. Bununla belə şivələrdə cümlə üzvlərinin düzəni (sırası) pozulur və cümlə üzvlərinin (xüsusilə mübtəda, xəbər, təyin) inversiyası baş verir. Xəbər cümlənin əvvəlində, bəzən mübtəda, tamamlıq cümlənin sonunda, təyin təyin olunandan, zərflik xəbərdən sonra gəlir. "İltisaqi quruluşun sərt qanunlarına əsaslanan bu sıra təkcə ədəbi dillərdə deyil, həm də dialektlərə aiddir. Şifahi nitqdə, eləcə də dialekt nitqində isə dilə məxsus başqa modellər kimi, söz sırası da transformasiyaya uğrayır, müxtəlif inversiyalar meydana çıxır" (M. Cəfərzadə, 1990, 154). Bu da Azərbaycan dili şivələri üçün xarakterikdir.

1. Xəbər mübtədadan əvvəl gəlir. Məsələn: Mən *onun uşağını tutdum oldu* ***kirvəm*** (Borçalı); *Mən qoja kişiyəm, neynirəm* ***mən*** *özgə şeyləri* (Qazax); *Axşam aynabəndə yatmışdı* ***Sima*** (Şəki); *Yayda da kürk giyirdi* ***hampalar*** (Şəki); *Eyzən də^dəsinoxşö:r o* ***gədə*** **(**Gədəbəy); *Unnan so:ra qaynıyır* ***su*** **(**Ağdaş); *Axşam yaman yağırdı* ***yağış*** (Zəngilan); *Gitdi* ***Usman*** *udun qırmağa meşəyə (*Quba); *Kö:şənimizi basırdi* ***su*** **(**Salyan); *Yağı artında qaladi* ***torta*** **(**Dərbənd); *Gəlib suva* ***cənəvər*** (Dərbənd); *Beşdi qazın altındakı* ***cücə*** **(**Çəmbərək); *Toxuşdi xanun arabasıynan* ***tacir arabası*** (Bakı); *Yaxşı xörəx' bişirif* ***nənəm*** *(*Qubadlı) və s.

2. Tamamlıq xəbərdən sonra işlənir. Məsələn: *Beş-beş manat göndərəjəklər* ***saŋa*** **(**Borçalı); *İstədi qırsın, qırammadı* ***heyvannarı*** (Qazax); *Pulava tökəllər* ***xırdasını*** **(**Borçalı); *Bir dənə aynə qayıtdıra bilmədim* ***atama*** *(*Şəki); *Çox quraxsıdıfsıŋız* ***Dilşadı*** (Şəki); *So:ra biz sıyırdıx* ***onu*** (Ağdaş); *Hələ kimi adam malın yiməz, qalar* ***üzgiyə*** **(**Quba); *Dört yaşınnan səggiz yaşınacan baxçada saxlıyırdım* ***uşax*** *(*Salyan); *Çalınmış üti yığallər* ***gəbələrə*** (Dərbənd); *Moşinna götürəllə* ***gelini*** **(**Dərbənd); *Siz də tez çalıfsınız* ***otu*** **(**Çəmbərək); *Alır* ***armudi,*** *verir* ***padşaha*** *(*Bakı); *Kərəntiynən çalırlar* ***otu*** (Qubadlı) və s.

3.Təyin təyin olunandan sonra gəlir. Məsələn: *Atasi, anasi ülüb, uşağ* ***yazığ*** *yetim qalub* (Quba); *Əlsayıb* ***qoççağ*** *bĭra nə yaxçı pıç qoyıb, adə*! (Salyan); *Kasıf* ***yazıx*** *heş toya gedə bilərdi* (Ağdaş); *Uşağ* ***yazığ*** *bilmeydi neyləsin* **(**Dərbənd); *Gəlcəyinə pozdu soydamızı Qulu* ***fitnəkar*** *(*Çəmbərək); *Nənəm* ***irəhmətdix',*** *haqqına, bizim üsdümüzdə çox əziyyətdər çəkif* (Qubadlı) və s.

4. Zərflik xəbərdən sonra, cümlənin sonunda işlənir. Bu sintaktik xüsusiyyət əksər şivələrimiz üçün xarakterikdir.

Tərzi-hərəkət zərfliyi: *Xəlvirəx' umuru şey olor* ***armıt kimi xoş iyli*** *(*Qazax); *Dumru yemiş dilix'-dilix' olor* ***yeməli*** (Qazax); *Xoşbax yeşiyillər,* ***kefi kök*** (Şəki); *Yol ge:r* ***tö:şiyə-***

tö:şiyə (Şəki); *Orda şoru dəydirirsən* ***doyuncax*** (Ağdaş); *İki əlnən dərir, tökür döşdüyə* ***tez-tez*** (Biləsuvar); *Bir də gördüm gəlir* ***pörtmüş halda*** (Qubadlı) və s.

Zaman zərfliyi: *İkinci Şıxlı məx'təvi açılıf* ***min səkkiz yüz doxsan ikinci ildə*** *(*Qazax); *Deyirik kin, tuşumda filan şey gördüm bu* ***gejə*** *(*Borçalı); *Maşinnər gəliy* ***həyindi*** (Şəki); *Sən də mi tüşəccəxsin yola* ***bü:n*** *(*Gədəbəy); *Bizim bu küçiyə Qəbələ küçəsi deyərdilər* ***keşmişdə*** **(**Göyçay); *Bax əyağı başmaq tapmazzı, corap tapmazzı* ***onda*** (Göyçay); *Də:rman qalxoççılara işdi:r* ***hindi*** *(*Biləsubar); *Olar kəndə gəldi* ***beşdə*** (Dərbənd); Mal *nobatına mən gedəsiyəm* ***sabah*** (Qubadlı) və s.

Yer zərfliyi: *Qəribi axlamax tutdu* ***burda*** **(**Çəmbərək); *Yayda məhlə-məhlə tüşördüx' bu* ***dağlara*** (Qazax); *Çırnoyli su tökülör* ***qəyadən*** **(**Borçalı); *Un-unbir adam gidiy* ***qız öynə*** (Şəki); *Ot bişmağa gidəciyəm* ***baxciyə*** (Şəki); *Su apardı, köşdük, düşdük* ***şorana*** (Ağdaş); *Mən nağarajam, bı otı nə otdıjax* ***qapıdan*** **(**Ucar); *Gitdi Usman udun qırmağa* ***meşəyə (****Quba); *Mən aparıban səpdim buğdanı* ***yərə*** **(**Quba); *Xörək yiyənnən so:ra nar, heyva gəldi* ***ortalığa*** ***(****Biləsuvar); *Yuadı quyunı aparıb* ***bulağda*** **(**Dərbənd); *Bu üç nəfər çıxır* ***bayra*** *(*Bakı); *Öyrəli mən də getmişdim* ***irəyona*** (Qubadlı) və s.

Səbəb-məqsəd zərfliyi: *Ulax Kürdən kalnan haravıya qoşuf Qarayazıdan odun gətire:rix'* ***odun qalamaxçın*** *(*Qazax); *Canavarrar ütələnellər* ***yeməx'dən ötrü*** *(*Qazax); *İkisi də getdilər* ***su doldurmağa*** (Şəki); *Gidər dəryadan* ***balıx tutmağa*** (Şəki); *Məhlə-bajada göyərti əkirik bir lək, iki lək* ***xörəyə-zada görə*** *(*Ağdaş); *Sə:r-sə:r gedillər* ***pammığ dərməyə*** (Sabirabad); *Bırnımın ücü göynü:r* ***uşaxdan ötrü*** (Qubadlı) və s.

Kəmiyyət zərfliyi: *Fəsəliyi də qatdama kimi yayırıx* ***dört dənə, beş dənə*** (Borçalı); *Su tökürük* ***iki dəfə*** (Ağdaş); *Bizə də göndərmişdilər* ***birəz*** (Qubadlı); *Otdux söhbət etdix'* ***bir qədər (****Sisyan) və s.

Azərbaycan dili şivələrində cümlə daxilində bəzən III növ təyini söz birləşməsinin tərəfləri arasında da inversiya baş verir, yəni III növ təyini söz birləşməsinin tərəflərinin sırası pozulur. Məsələn: *Hindi* ***halı qolxozun*** *olduxca çox yaxşıdı*[i] (Salyan); ***Əvi*** *yıxılsın* ***pis adamın*** *(*Zəngilan) və s.

Şivələrdə feili xəbər III növ təyini söz birləşməsinin ortasında da işlənə bilir (M. Cəfərzadə, 1990, s. 162). Məsələn: *Bunların baxdıx güllərinə* (Gəncə); Həsənin yaxçidi bağı[i], öyi (Abşeron) və s.

SADƏ CÜMLƏ

Ədəbi dildə olduğu kimi Azərbaycan dili şivələrində də sadə cümlənin növləri özünü göstərir. Bu baxımdan sadə cümlənin növləri iki aspektdə təsnif edilir:

-məqsəd və intonasiyaya görə sadə cümlənin növləri: sual cümləsi;

- cümlə üzvlərini iştirakına görə sadə cümlənin növləri;
- həmcins üzvlü sadə cümlələr;
- qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər və əlavələr.

Məqsəd Və İntonasiyaya Görə Sadə Cümlənin Növləri: Sual Cümləsi

Şivələrdə məqsəd və intonasiyaya görə sadə cümlənin növlərinin (nəqli cümlə, sual cümləsi, əmr cümləsi, nida cümləsi) hər birinə rast gəlinsə də, sual cümləsi öz dialektoloji xüsusiyyətinə görə seçilir. Məhz buna görə də şivələrimizdə işlənən məqsəd və intonasiyaya görə sadə cümlənin növlərindən yalnız sual cümləsindən bəhs etməyi məqsədəuyğun hesab edirik.

Sual cümləsi. Şivələrdə sual cümləsi üç üsulla düzəlir (ədəbi dildə də belədir): sual intonasiyası ilə, sual ədatları ilə, sual əvəzlikləri ilə.

Sual intonasiyası ilə düzələn sual cümləsi. Sual intonasiyası ilə düzələn cümlə cənub, şərq qrupu (Quba və Dərbənd şivələri istisna olmaqla) və keçid şivələri kimi Cəbrayıl (M. Cəfərzadə, 1990, s.110), Qubadlı, Şəki şivələri üçün daha xarakterikdir. Məsələn: *A bala dədəngil əvdədi?* (Qubadlı); *Atan öydədü:?* (Bakı); *Əmin getmişdi soğan satmağa?* (Meğri); *Sa: ağaş lazım döyi?* (Şəki) və s. Bununla yanaşı Quba şivəsində sual intonasiyası ilə düzələn sual cümləsinə də rast gəlinir. Məsələn: *Ağariza, mən gidə varam, mənniğ iş var?*

Sual ədatları ilə düzələn sual cümləsi. *-mı^4, niyə, bəs* sual ədatları ilə düzələn sual cümləsinin işlənməsi əsasən qərb qrupu şivələri üçün səciyyəvidir. Keçid şivələrində, eləcə də şimal qrupu, Quba və Dərbənd şivələrində də sual ədatı ilə düzələn sual cümləsinə rast gəlinir (M. Cəfərzadə, 1990, s.111). Qubadlı şivəsində həm də **nəyavız** sual ədatı ilə də sual cümləsi əmələ gəlir. Məsələn: ***Bəs** sizə xavar vermiyiflər?* (Qubadlı); ***Nəyavız** sən toya getmisəŋ?* (Qubadlı); *Bavan da öydədi**mi**?* (Ağdaş); *Süzün həyət burdan büyükdi**mi**?* (Quba); *Dədən gəldi**mi** çöldən?* (Gədəbəy); *Buqqədir adamı ho öy tutar**mı**?* (Şəki); ***Bəs** yuxuyu niyə yozmadıŋ* (Borçalı); *Çovannar yaylağa çıxajax**mı**?* (Çəmbərək) və s.

Sual əvəzlikləri ilə düzələn sual cümləsi. Şivələrdə sual əvəzlikləri ilə düzələn cümlə tipi geniş şəkildə işlənir. Məsələn: *Bı **nə** qayım parçadı*? (Göyçay); *Bı qədər suyı qızzırıf **nə eləməy** issi:rsən?* (Zərdab); ***Nə tə:r** oldu naxoşuz?* (Meğri); *Sən **havax** məni endirersəŋ?* (Qazax); ***Hancarı** öy isdiyirsən?* (Çəmbərək) və s.

Cümlə Üzvlərini İştirakına Görə Sadə Cümlənin Növləri

Ədəbi dildə cümlə üzvlərinin iştirakına görə sadə cümlənin iki növü var: cüttərkibli sadə cümlələr, təktərkibli sadə cümlələr. Azərbaycan dili şivələrində də, ədəbi dildə olduğu kimi, həm cüttərkibli sadə cümlələr, həm təktərkibli sadə cümlələr işlənir.

Cüttərkibli sadə cümlələr mübtəda və xəbərin iştirakı əsasında formalaşır. Şivələrimizdə mübtəda və xəbərin iştirakı əsasında əmələ gələn cüttərkibli sadə cümlələr

geniş şəkildə əksini tapır. Əlavə olaraq qeyd edə bilərik ki, mübtədası buraxılmış sadə cümlələr şivələrimiz üçün xarakterik olsa da, xəbəri buraxılmış sadə cümlələrə də rast gəlinir.

Mübtədası buraxılmış cüttərkibli sadə cümlələr: *Çağırdı cama:tın ümumi iclasın* (Zaqatala); *Çətin dərddər qörmiyəsən* (Zaqatala); *Dağa təx'cə qalxajaxdım* (Çəmbərək); *Çəltiyi höysürürük, sarığ unu suya* (Ağdaş); *Üç aydı xəsdiyəm, bir işin yəsi döyləm* (Ağdaş) və s.

Xəbəri buraxılmış cüttərkibli sadə cümlələr. Şivələrdə xəbərin buraxılmasına tez-tez rast gəlinir. Bu sintaktik hadisə gah ixtisarla, gah da üslubi məqamlarla bağlı olur (M. Cəfərzadə, 1990, s.116). Məsələn: *Gəlmişəm mə: pıl* (İmişli); *Holar Şekiyə, mən burya* (Zaqatala); *Gəldim, kişi qapıda* (Tovuz); *Qapısında bir sürü qoyunı, üş-dörd malı* (Ağdaş).*

Təktərkibli sadə cümlələr şivələrimizdə geniş yayılmışdır və aşağıdakı növlərinə rast gəlinir:

1.Şəxssiz cümlələr.
2.Ümumi şəxsli cümlələr.
3.Qeyri-müəyyən şəxsli cümlələr.

Şəxssiz cümlələr

Azərbaycan dili şivələrində şəxssiz cümlələrin xəbərləri həm adlarla, həm də feillərlə ifadə olunur. Bu baxımdan şəxssiz cümlələri ismi xəbərli şəxssiz cümlələr, feili xəbərli şəxssiz cümlələr kimi qruplaşdırmaq olar.

İsmi xəbərli şəxssiz cümlələr: *Onda gündüz idi, özü də səhər* (Sabirabad); *Axşam qü̃lubda briqadirlərin iclası[i] idi* (Şirvan); *Qaranquşun gələn vaxtıdı* (Şəki); *Savaxdan bəri yaman istidi* (Qazax) və s.

***Nümunələr** M. Cəfərzadənin "Azərbaycan dilinin dialekt sintaksisi" monoqrafiyasından (Bakı,1990, s.116) götürülüb.

Feili xəbərli şəxssiz cümlələr: *Aran-saram yadımda qalıb* (Salyan); *Eşdə yaman qarandıxdı* (Şəki); *Bi:l bərh yağış oldu* (Qazax); *Barama dərilməğə üş-dorccə gün qalmışdı* (Meğri) və s.

Ümumi şəxsli cümlələr

Şivələrimizdə ümumi şəxsli cümlələr geniş şəkildə işlənir. Ümumi şəxsli cümlələr atalar sözlərində geniş surətdə işlənir. Bu tipli cümlələrin xəbəri feillə ifadə olunur. Məsələn: *Çəpərüyi mö:kəm tut, qo:şui oğri tutma* (Salyan); *Ağacı[i] əkəllər, barın yeməgdən örki* (Sabirabad); *Acı dindirmə, toxu tərpətmə* (Şəki); *Uzax yerin döyməcini balnan döyəllər* (Şəki); *Qoyunu qoyun əğına çəkəllər, keçiyi keçi* (Qazax) və s.

Qeyri-müəyyən şəxsli cümlələr

Qeyri-müəyyən şəxsli cümlələrə şivələrimizdə geniş şəkildə rast gəlinir. Məsələn: *So:ra deyiblər, gəlün, qaçağun* (Sabirabad); *Onu tököllər nehriyə, çalxaliyillər, onnan boşaldıllar, yağın götürüllər* (Sabirabad); *Gelini gəlivəni apardılar* (Şəki); *Burda taxıldan savayın*

qardalı, pambıx, bosdan da əkellər (Qazax); *Ayını ya kəlləsinnən, ya da döşünün arasınnan nişan alallar həmməşə* (Meğri) və s.

Həmcins üzvlü sadə cümlələr

Şivələrdə cümlə üzvlərinin iştirakına görə sadə cümlənin növlərində həmcins üzvlü sadə cümlələr xüsusi yer tutsa da, cümlə üzvləri işlənmə dərəcəsinə görə fərqlənir. Belə ki, həmcins xəbər, mübtəda və tamamlıqlar digər cümlə üzvlərinə nisbətən daha çox yayılmışdır.

Həmcins mübtədalar. Şivələrdə həmcins mübtədalar əsasən cümlənin əvvəlində gəlir. Məsələn: ***Çiriş, çaşır, xavaz** cana xeyirdi* (Meğri); ***Malımız, qoyŭnumuz** gələ yaylaxda qalerdi* (Qazax) və s.

Şivələrdə həmcins mübtədalar xəbərdən sonra cümlənin sonunda işlənir: *Kəntdə çox işdəner: **qənt, yağ, şəkər, parça*** (Borçalı); *Bəlgəverməyə gələr **tayfanın ağsaqqalı, ağbirçəyi, oğlanın anası, bayıssı < bacısı*** (Şahbuz) və s.

Həmcins mübtədalı cümlələrdə xəbər vəzifəsində iştirak edən söz hər mübtədadan sonra işlənir. Məsələn: ***Gilənar da var, hayva da var, armıt da var*** (Qazax); *Cedir **üzüy alır, şirin alır, qənd alır, yaylığ alır, beş metrı ətləz alır*** (Ordubad) və s.

Eyni zamanda həmcins mübtədalar cümlənin ortasında da işlənir. Məsələn: *Tuvutda **ərix', hülü, nar** ulmey* (Meğri); *Bizim bı meşələrdə qaragilə, ağyemişan, **əppəx'li, qırmızıyemişan,***

***həmənsür** isdədiyin qədərdi* (Şahbuz); *Təbrizə girhəgirdə **dadaşım fağır, Kəlbəy Mürşüt, bir də mən** tutuldux* (Meğri) və s.

Üçüncü növ təyini söz birləşməsi ilə ifadə olunan həmcins mübtədaların birinci tərəfi yalnız bir dəfə işlənir. Ondan sonra gələn üçüncü növ təyini söz birləşməsində birinc tərəf buraxılır. Məsələn: ***Kəndin qoyunu, quzusu, mal-heyvanı** yayı obada qalır* (Şahbuz); *Çovannarın **yapıncısı, çommağı** dəyənin yan tərəfinə qoyulmuşdu* (Çəmbərək); *Biz kəndə çatanda **qaçaxların atları, silahları** əllərinnən alınmışdı* (Basarkeçər) və s.

Həmcins xəbərlər. Şivələrimizdə həmcins xəbərlər sadalama intonasiyası əsasında biri digərini tamamlayır, fikrin dəqiq ifadəsini təmin edir. Həmcins xəbərlər həm ismi, həm də feili xəbərlə ifadə olunur.

İsmi xəbərli həmcins xəbərli cümlələr. Bu tipdən olan cümlələr şivələrdə az işlənir. Məsələn: *Biri **balaja** –aş loyvasıdı, biri yekə **loyvadı** – atdı loyva* (Borçalı); *Biri **topa-topa – qızıl havardı**, biri **nəzikdi -qara havar*** (Göyçay) və s.

Feili xəbərli həmcins xəbərli cümlələr. Şivələrdə feili xəbərli həmcins xəbərli cümlələrə daha çox təsadüf edilir. Bu da iş-hərəkətin təsvirinin geniş və hərtərəfli ilə verilməsi ilə bağlıdır (M.Şirəliyev, 1967, s. 313). Məsələn: *Sülöysün uşax a:nda-bua:nda **gəzər**, gəlif sufrıya uzaxdan **baxar*** (Borçalı); *Gün vırır, torpax **xəklənir, avılır*** (Şahbuz); *Biz qondara **tanımanıx, bilmənıx*** (Şahbuz) və s.

Həmcins feili xəbərli cümlələrdə çox vaxt mübtəda işlənmir. Məsələn: *Südü **sağıram**, süzgəcnən **süzürəm, malalıyıram,** boylum bir əzdən olur dələmə* (Şahbuz); *Ged düələri **çulla, qatarra,** götür gəl* (Bakı); *Şamdani **açdi, gəldi** oturdi süfrənin başında başdadi xörəg yeməgə* (Bakı); *Qoşa:rux haravıya, aparerıx dən **üyüdö:rüx', gətirerix' çörəx' pişirerix', yerix'*** (Qazax); *Tutdarı **silkərıx, qeynədərıx, süzərıx**, doşab bişirərıx* (Ordubad); *İrəli kömürdən*

dolduracağdılar, aparacağdılar, satacağdılar*, bir tə:r dolanacağdılar* (Karvansaray); *Dədəmnən qalanı* ***satecem, yeyecem,*** *həylənçi adamlara yavıncı düşmücem* (Meğri) və s.

Şivələrimizdə ədəbi dildən fərqli olaraq həmcins xəbərlərdə ortaq şəkilçilərin tam surətdə işlədilir, ixtisar olunmur (Qərb qrupu şivələri, 1967, s. 174). Məsələn: *Gederdix' yataxlarını* ***tike:rdix', hazırre:rdıx*** (Ağstafa); *Daŋüzü* ***qalxdıx, vardıx*** *çırpıya* ***getdik, getdik*** *bir harava çırpı* ***qırdıx, gətdik*** (Borçalı); *Qoşa:rux haravıya, aparerıx dən* ***üyüdö:rüx', gətirerix'*** *çörəx'* ***pişirerix', yerix'*** (Qazax); *Bizim uşaxlar da indi içəridə* ***yiyellər, içellər, kef elellər*** (Meğri); *Tutdarı* ***silkərıx, qeynədərıx, süzərıx****, doşab bişirərıx (*Ordubad); *Gəlirik öymüzə,* ***yuxliyurux, yatırıx*** *gejə* (Qax) və s.

Bununla yanaşı bəzən həmcins ismi xəbərlər şəkilçisiz işlənir, yəni ismi xəbər vəzifəsində iştirak edən söz xəbərlik şəkilçisi qəbul etmir. Məsələn*: Baxırdın hamısı* ***keçəl, irgənci*** (Ağdaş) və s.

Tabesizlik bağlayıcısı olan həmcins xəbərli cümlələr az işlənir. Məsələn: *Nə* ***oxiyir****, nə* ***işdiyir****, helə sə:rdə axşamacan veyl-veyl gəzir* (Bakı) və s.

Şivələrdə bəzən həmcins xəbərlərin birincisi işlənir, ikincisi buraxılır. Məsələn: *Özümi də*

bədbəxt elədim, *qızı da* (Bakı); *Bu uzun ağaşdara qələmə də* ***derix',*** *barançı da* (Tovuz); *Oa bir dənə ulama* ***qayırdıx,*** *ujuna da bir dəmir* (Ağdaş); *Nə bu gün* ***gəlləm****, nə saba:* (Quba); *Qızyetəri də* ***gətirdim,*** *bajısını da* (Basarkeçər); *İrəvanda Nəsivi də* ***ö:rdüm****, Şorcal Mustafı: da (*Basarkeçər) və s. Keçid şivələrində bəz hallarda həmcins xəbərlərdən birincisi işlənmir. Məsələn: *Birin qoyunçuya, birin əkinçiyə* ***vermişdi*** (Ağdaş); *Nə qoyunnan, nə maldan südü* ***sağırıx*** **(**Göyçay) və s. Şivələrimizdə həmcins xəbərlərin birincisi təsdiqdə işləndikdə, ikincisi inkarda işlənir. Məsələn: *Ağıllı adamlar özünə yer* ***qayırdı,*** *mə:m kimisi* ***yox*** **(**Göyçay); *So:uqdan* ***zərəl olar*** *adama, istidən* ***yox*** ***(****Muğan*)*; *Sədirdən kağız gətirsən quzularıŋı* ***verəjəm,*** *gətirməsən* ***yox*** **(**Çəmbərək) və s.

Həmcins tamamlıqlar. Tamamlıq cümlənin xəbəri ilə bağlı olduğu üçün həmcins tamamlıqlar da cümlədə bilavasitə xəbərlə bağlıdır. Həmcins tamamlıqlı cümlələrdə çox vaxt mübtəda işlənmir. Məsələn: ***Hümbətəlini, Te:miri, sizin Məhəmmədi*** *bilə əsgər apardıla (*Meğri); ***Malın, dövlətin, varın*** *töker, qaçer qoyer gede Firəngisdana* (Meğri); *İləridə gəlini* ***atnanan da, haraveynan da*** *aparerdılar* (Qazax); ***Törpü, cağ, nərdiyan*** *salırdıx, qo:rdux çardığımız çardağın üsdünə* (Ağdaş); *Küçük yatanda* ***davğa, qatığaşı, avdıx*** *yiyəllər* (Babək); ***Çamaxnan*** *əliyirdix', so:ra da boylum* ***xəlbirnən*** *təmizdiyirdix' (*Şahbuz); *Savax tezdən dururam,* ***əlimi, üzümü*** *yuyuf, çörəx' yiyif, gedirəm qalxoz işinə (*Qax) və s.

Naxçıvan qrupu şivələrində həmcins tamamlıqlar sadalanır; xəbərlər isə tamamlıqların sayı qədər təkrarlanır. Məsələn: *Onnan getdi* ***qartof əkərıx, bamador əkərıx, badımcan əkərıx, pəxla əkərıx, onnan so:ra soğan əkərıx, qarpız əkərıx*** *(*Ordubad); *Kərdidə* ***soğan əkirik, səniz əkirik, kavar əkirik*** *(*Babək); *Şətəynən* ***cacıx yığırıx, uşqun yığırıx, çiriş yığırıx, çaşır yığırıx, somu yığırıx*** **(**Şahbuz) və s.

Həmcins tamamlıqlar üçüncü növ təyini söz birləşməsi ilə ifadə ediləndə üçüncü növ təyini söz birləşməsinin birinci tərəfi yalnız bir dəfə, ilk təyini söz birləşməsində işlənir, ondan sonra gələn söz birləşməsində birinc tərəf buraxılır. Məsələn: ***Bambılın uzunu*** *da olor,* ***dəyirmisi*** *də* (Borçalı); *Bu Daş Salahlıdan bu kətdən bir öylü kişi gətirellər* ***buların əppəyini, suyunu*** *qayırmaxçun* (Qazax) və s.

Həmcins tamamlıqlı cümlələrdə mübtədanın işləndiyi hallara da rast gəlinir. *Məsələn:*

Paxaçı ***südnən, yağnan, şəkərnən, yumurtoynan*** *pişir (*Barana); *Kalvay Qasım* ***qoyunları, quzuları*** *bir dərəyə yığdı, savahın açılmasını gözlədi* (Çəmbərək); *Pompul* ***hipopda, çöl töüxlarında*** *olur* (Borçalı) və s.

Həmcins təyinlər. Şivələrimizdə həmcins təyinlər az işlənir və təyin olunan sözdən əvvəl gəlir. Məsələn: *Erannı Əlmıradın* ***bir qərə, bir qırmızı, bir də bir göy*** *atı var* idi (Meğri); *Nəbi mə:llim* ***alçax, yoğun, sifətdi, dolu, bığlı*** *bir adam idi* (Meğri); *Süfrəyə* ***daddi[i], ləzzətdi*** *yeməklər düzüldü, hamı[i] başdadı[i] yeməyi (*Babək) və s.

Həmcins zərfliklər. Zərfliyin hər bir növü cümlənin həmcins üzvü ola bilir və cümlədə xəbərlə bağlı olur. Şivələrdə həmcins zərfliklərə az təsadüf edilir və işlənmə yeri sərbəstdir, yəni cümlənin hər yerində işlənə bilir.

Həmcins tərzi-hərəkət zərflikləri. Cənub qrupu şivələrində həmcins tərzi – hərəkət zərfliyi ədəbi dildən fərqli olaraq feili xəbərdən sonra cümlənin sonunda işlənir. Məsələn: *Oxçulula dəğ-daşda qaldıla* ***gəzinə-gəzinə, deyinə-deyinə*** *(*Meğri); *Hindi lampoçkalar yanır* ***gözəl, yaxşı*** (Şərur) və s.

Həmcins zaman zərflikləri: *Nənəm* ***axşam, sə:r, günorta*** *qaçey Mirvarigilə* (Meğri); *Tülkidi* ***qaçan yerdə****, canavardı genə* ***qaçan yerdə*** *vurmıxış* (Ağdaş) və s.

Həmcins yer zərflikləri. Şivələrimizdə həmcins yer zərflikləri az işlənir və xəbərlər yer zərfliklərin sayı qədər işlənir. Məsələn: *Nügədidən vardı[i] xuzayun.* ***Bakidən*** *gələrdi,* ***Ursyətdən*** *gələrdi* (Quba) və s.

Həmcins kəmiyyət zərflikləri: *Qoyun, nə bilim,* **on il - om beş il** *yaşar* (Qazax) və s.

Azərbaycan dili şivələrində həm də həmcins üzvlərin arasında **nə, ya, gah//gəhsi, həm//həmi// hamu** tabesizlik bağlayıcıları işlənir. Məsələn: *Ya üzü başa düşədü, ya büyüglərə qulaq asadu (*Quba); *Gəhsi çaler, gəhsi çalmerdi* (Borçalı); *Həmi qahımın, həmi yadın, nəzəri bırda yana (*Naxçıvan); *Nə oxiyar, nə işdi:r* (Bakı); *Kətxudadan, ya qlavadan, ya pristavdan məsəl dursaydıx şikayətbazlığa ərzə verərdih qoburnata* (Culfa) və s.

Qrammatik Cəhətdən Cümlə Üzvləri İlə Bağlı Olmayan Sözlər Və Əlavələr

Sadə cümləyə daxil sintaktik məsələlərdən birini də qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər təşkil edir. Şivələrimizdə qrammatik cəhətdən cümlə üzvlərinin iki növü özünü göstərir:

1.Xitab.

2.Ara sözlər.

Xitab

Şivələrimizdə xitaba az rast gəlinir. Bunun da əsas səbəbi iki şəxsin üz-üzə durub danışması, bir də bunların bir-birinin adını çəkməyə ehtiyacın törətməməsidir (M.Şirəliyev, 1967, s.309). Məsələn: ***Ağız,*** *mən suye:dirəm, sən öyə muğat ol* (Borçalı); ***Əşi,*** *sən bir dayan, sədir danışır* (Çəmbərək); ***Ay ji****, çörəx' ver* (Sabirabad); ***Ayə,*** *bəri gə! (*Şamaxı); ***Ay ci:,*** *bırda otginən* (Göyçay) və s.

Ara Sözlər

Azərbaycan dili şivələrində ara sözlərə geniş şəkildə rast gəlinir. Şivələrdə işlənən ara sözlərin bir hissəsi ədəbi dillə eyniyyət təşkil etsə də (əlbəttə, nəhayət, şübhəsiz, deyəsən, bəlkə və s.), bir hissəsi fonetik (gua, mutlax, gərəy, doğurdan, doğrisi) və leksik (təhərinnən, illah, məxləs, boylum, intəhası və s.) cəhətdən fərqli formalarda işlənir və ara sözlərini mənaca aşağırakı kimi qruplaşdırmaq olar:

Fikrin gerçəkliyini bildirən ara sözlər: Bu tipdən olan ara sözləri fikrin həqiqiliyini, zəruriliyini, gerçəkliyini göstərir.

Əttöbə *- "doğrusu".* Bu ara sözü şərq qrupu şivələri üçün xarakterikdir. Məsələ***n:*** ***Əttöbə,*** *mə:m bu işdən xəbərin yoxdu (*Bakı) və s.

Afamasir*- "sanki, elə bil".* Bu ara sözünə Salyan şivəsində rast gəlinir. Məsələn: ***Afamasir****, it uşağı yiyir (*Salyan) və s.

Tapar*- "deyəsən".* Ara sözü kimi **tapar** Balakən, Qax, Şəki, Zaqatala şivələrində işlə-nir (M. Cəfərzadə, 1990, s. 147). Məsələn: *Məmmədin evə gəlməməsinnən Əlinin xəbəri yaxdu,* ***tapar*** **(**Balakən); *Yoldaşım məni çox gözlədi,* ***tapar*** (Qax); ***Tapar,*** *işdən gəlmiyifdi hələ* (Şəki) və s.

Gavar*- "gərək ki", "deyəsən".* Bakı, Quba, Şamaxı, Cəlilabad şivələrində ***gavar*** ara sözü vəzifəsində işlənir. Məsələn: *Əli,* ***gavar,*** *kəndə gedib* (Bakı); ***Gavar,*** *Mö:lüd kişi şə:rə gidmağa hazırraşdı (*Quba); ***Gavar,*** *onu zirdəss (həbs) elədilər* (Cəlilabad) və s.

Fərəzə - Kürdəmir, Şamaxı, Ağsu, Zərdab şivələrində "guya, özlüyündə" (M. Cəfərzadə, 1990, s. 147), Şəki, Qazax, Zərdab şivələrində "məsələn, misal üçün", Ağsu şivəsində "məsələn, misal üçün", "guya, guya ki", Şirvan, Tovuz şivələrində "guya, guya ki" mənalarını bildirən ara sözü vəzifəsində iştirak edir.

Məsələn, misal üçün vəzifəsində: ***Fərəzə,*** *o kət belə deyir, bu kət də alahi cür de:r* (Ağsu); ***Fərəzə,*** *sən deyəsi ki, Sumanın əlinnən iş gəlmir, işi-peşəsi qapı-qapı gəzif qiybət qırmaxdı (*Zərdab); ***Fərəzə,*** *bu işi bilmirsən, girişmə* (Qazax) və s.

Guya, guya ki vəzifəsində: *Özünü elə aparır ki,* ***fərəzə,*** *bütün kitabı əzbərdən bilir* (Şirvan); ***Fərəzə,*** *sən adamsan* (Tovuz) və s.

Guya, özlüyündə vəzifəsində: ***Fərəzə,*** *üş-dört gün də gözzəyib məni* (Şamaxı); ***Fərəzə,*** *deyəsi ki, köçəcəm kətdən* (Kürdəmir) və s.

Eşgar – "şübhəsiz". Bu ara sözə Beyləqan, Zəngilan, İmişli şivələrində rast gəlinir" (M. Cəfərzadə, 1990, s. 148). Məsələn: ***Eşgar,*** *bını Həsənalı eliyif* (Zəngilan); ***Eşgar,*** *mə:sulumuz yaxşıdı (*Beyləqan) və s.

Səki*-* "guya". Ara söz kimi **səki** Bərdə, Cəbrayıl, Gədəbəy, Şərur şivələrində işlənir. Məsələn: ***Səki*** *mən də:si, o da onnan sonra küsəsi mənnən* (Gədəbəy); *Gəldilər şəklimi çəkdilər,* ***səki*** *kinoya verjəx'lər (*Bərdə) və s.

Bəyəvar –"bəlkə". Bu ara sözə Muğan qrupu şivələrində rast gəlinir (M. Cəfərzadə,

1990, s. 148). Məsələn: *Axşam, **bəyəvər,** sizə gəldim* (Salyan); ***Bəyəvar**, Kürə gedib çimməgə* (Şirvan) və s.

Nitq hissələri arasındakı münasibəti bildirən ara sözlər: Bu ara sözləri bir fikrin digər fikirlə qarşılıqlı əlaqəsini göstərir və fikrin bitdiyini, yekunlaşdığını, ümumiləşdiyini bildirir.

***İncəvara//incəfara*- "**xoşbəxtlikdən, çox şükür". Bu ara sözü qərb qrupu şivələrində işlək olsa da, əksər şivələrdə işlənir. Məsələn: ***İncəvara,** Məhişi orda tapdım* (Ağdam); ***İncəvara,** traxdorun altınnan qızı salamat qutardıx* (Çəmbərək) və s.

Həki- "nəhayət, axır ki". Bu ara söz Qazax şivəsi üçün səciyyəvidir. Məsələn: ***Həki,** gəlif çıxdıŋ (*Qazax) və s.

Məxləs- "xülasə, əlqərəz". Ara söz kimi Bakı, Bərdə, Öyçay, Meğri, Şamaxı, Şərur şivələrində məxləs formasında (ADDL, 2007, s. 349), Lənkəran şivəsində məlxəs formasında (ADDL, 2007, s. 350) işlənir. Məsələn: ***Məxləs** nə demək isdi:rsən (*Şamaxı); ***Məxləs**, kəndə çatdıq (*Şərur); ***Məxləs,** Nəbi bu kətdən çıxdı getdi oyana* (Meğri); *Səfərimiz çox uzun çəkdi, **məxləs** geri qayıtdıx* (Bərdə) və s.

Fikrin mənbəyini bildirən ara sözlər:

Bu ara sözləri cümlədə ifadə olunan fikrin mənbəyini bildirir.

Sənin aləmincə- "səncə". Qərbi Azərbaycan və Naxçıvan qrupu şivələri üçün bu ara söz səciyyəvidir. Məsələn: ***Sənin aləmincə,** bu iş belədi?* (Naxçıvan); *Bu iş, **sənin aləmincə,** Vəli dayı eliyif, eləmi?* (Çəmbərək) və s.

Mə:lən (mənə gələn)- "məncə". Bu ara söz keçid şivələri və şərq qrupu şivələri üçün səciyyəvidir (M. Cəfərzadə, 1990, s. 150). Məsələn: ***Mə:lən**, pammığ olarınkınnan yaxşıdı*[i] (Ağdaş); ***Mə:lən,** o da gedəcək (*Göyçay) və s.

Mənim vadıma – "mənə görə". Ara söz kimi Qərbi Azərbaycanın Çəmbərək şivəsində işlənir. Məsələn: ***Mənim vadıma,** cahamatın gözünnən düşməx'dənsə, başıŋı götürüf geŋiməx' da: yaxşıdı* (Çəmbərək) və s.

Mən bilən//mən biləsi- "məncə, mənə görə". Bu ara söz şivələrimizdə geniş şəkildə işlənir. Məsələn: ***Mən biləsi,** qaçaxlar kəndə gecə vaxdı gəlibmiş* (Çəmbərək); ***Mən bilən**, oların məhləsi o birisi dəlmədədi* (Gəncə); *İmişdidə, **mən bilən,** həylə adam yoxdu* (İmişli).

Sən bilən//sən biləsi- "səncə, sənə görə". Bu ara sözə əsasən Çəmbərək, Basarkeçər şivələrində rast gəlinir. Məsələn: ***Sən biləsi,** nə səfsəx' məŋsil bol olu (*Çəmbərək) və s.

Dinləyicinin diqqətini cəlb etmək məqsədi ilə işlədilən ara sözlər:

Sözbelə - "deyək ki", "məsələn". Bu ara sözə İmişli şivəsində "deyək ki" (M. Cəfərzadə, 1990, s. 152) və Qazax şivəsində "məsələn" (ADDL, 2007, s. 445) kimi işləndiyinə rast gəlinir. Məsələn: *Ağajı atırıx qoyuna, **sözbelə,** oa salavey deyirik* (İmişli); ***Sözbelə,** mən sənin pis işiŋi görüf örtmüşəm üstünü (*Qazax) və s.

Sözgəlimi//sözgəlişi - "deyək ki". Bu ara sözə qərb qrupu şivələrində rast gəlinir. Məsələn: ***Sözgəlişi,*** *Məsmə arvad gəlinnərinnən yola getmir, bəsoğlannarı hara baxır?* (Çəmbərək); ***Sözgəlimi****, mənim oğlum çoxdu, sənin tək* (Füzuli) və s.

Təşbeh//təşbehən//təşbeyin- "düyək ki, tutaq ki". Bu ara söz daha çox şərq qrupu şivələri üçün xarakterikdir (M. Cəfərzadə, 1990, s. 152). Məsələn: ***Təşbeh****, mə:m beşi olardı*^{i}*-gücümə görə* (İmişli); ***Təşbehən****, bir öküz sə: vardı*^{i}*, biri mə:n, olurduğ ortaq* (Ağsu); ***Təşbeyin,*** *durub gedirdüg dərzinin yanna* (Şamaxı) və s.

Məsələ//məsələ//məsəliçün – "deyək ki, tutaq ki". Ara söz kimi Naxçıvan və Şəki şivələrində işlənir (M. Cəfərzadə, 1990, s. 152). Məsələn: *Diyar,* ***məsələ*** *beş mata* (Şəki); *Kətxudadan, ya qlavadan, ya pristavdan,* ***məsəl,*** *dursaydıx şikayətbazlığa ərzə veririx' qoburnata (*Culfa); ***Məsəliçün,*** *Əlinin oğli Həsənbin qızını issiyir* (Ordubad) və s.

Bununla yanaşı Azərbayca dili şivələrində söhbətin uzandığını hiss etdikdə, başqasının sözünü kəsib, söhbətə müdaxilə etdikdə müəyyən ara sözlər işlədilir (M. Cəfərzadə, 1990, s. 152-153).

Söhbətin uzandığını hiss etdikdə işlədilən ara sözlər: ***Başıŋızı ağrıtmıyım,*** *atası gələnnən soŋra ot-ələfi qapıdan yığışdırdılr (*Basarkeçər); ***Nə başıŋı ağrıdım****, ajdıxda çox əziyətdər çəx'dix'* (Çəmbərək); ***Sözümün canı var,*** *gəldüg mının öynə* (Şamaxı); ***O dəlinin sözü olmasın****, hər şey əlimizdən çıxdı* (Çəmbərək) və s.

Başqasının sözünü kəsib, söhbətə müdaxilə etdikdə işlədilən ara sözlər: ***Sözün quvatı***^{i}*, bizim yer də quraq oldı*^{i}*, o yil (*Ağsu); ***Sözüŋün quvvatı,*** *dedix'ləriŋiziŋ hamısı düz çıxdı (*Çəmbərək); ***Sözüŋ arasında isdədix'ləriŋ dursun,*** *mən savah getməliyəm, gedim atdarın yəhərrərini yoxluyum (*Basarkeçər) və s.

Əlavələr

Azərbaycan dili şivələrində cümlədə işlənməsi bir o qədər də xarakterik deyil. Bununla belə şivələrdə cümlə üzvlərindən mübtədanın, tamamlığın əlavəsi daha çox işlək olsa da, xəbərin, zərfliyin əlavəsinə də rast gəlinir.

Mübtədanın əlavəsi. Ədəbi dildə olduğu kimi, şivələrimizdə də cümlə üzvü kimi mübtədanı dəqiqləşdirmək, izah etmək məqsədilə əlavələr işlənir. Məsələn: *O maşın getmişdi, göy maşın (*Cəbrayıl); *Cəbiş Karımof atmış beşındadı, çobandı* (Şahbuz); *Bizzərdə olurdu topu-dolu açıx, üssü gülavatınnan işdənmiş başmax* **(**Ağdaş); və s.

Xəbərin əlavəsi. Cümlədə xəbəri dəqiqləşdirmək üçün xəbərin əlavəsi işlənir. Məsələn: *Səviz pencərdi də-göy pencər (*Culfa); *Bu sa:tdarım öyə gələn heylə mə:m qızımdı, qalxozza yaxşı sağınçıdı (*Ağdaş); və s.

Tamamlığın əlavəsi. *Bınnan so:ra alax vuraca:x-pambıxda olannarı* (Naxçıvan); *Hənirtini eşidən qaçax Söyün İdris kişiyə-Kalvay Qasımın oğluna zəndlə baxdı* (Çəmbərək); *Torvaya süzülür, qayyıdıf onu qoyurux qava, bir ağ ləyənə-zada* (Ağdaş); və s.

Təyinin əlavəsi. *Mınnan irəli səlimli öylər olardı, torpaxlı (*Ucar) və s.

Zərfliyin əlavəsi. Şivələrdə zərfliyin aşağıdakı növlərinin əlavəsinə az rast gəlinir.

Zaman zərfliyinin əlavəsi. *İnnən belə, ya:nı ki dərs vaxdı yetişəndə, kitabları camaxodana qoyma (*Göyçay); *Bəyaxdan qışda, illa ki, hər yağanda dərəni our (*Göyçay).

Yer zərfliyinin əlavəsi. *Pammığı sulamaxçun çaydan gəlir suyŭmuz- Əbrəqunus – Əlincə çayınnan* (Naxçıvan); *Yumurtdanı ələkdə qo:rsan, timsala yeşikdə qo:rsan, quru yerdə yerdə çala qayırırsan ora qo:rsan, so:ra to:ğu bassırırsan* (Zərdab) və s.

Kəmiyyət zərfliyinin əlavəsi. *Mən gedibən oqqarta o:vırıram, ta yoruluncan, güjdən düşüncən (*Göyçay) və s.

Səbəb-məqsəd zərfliyinin əlavəsi. *İlan do:şanı udur başdıyır ağaja dolanmağa, başdıyır əritməyə do:şanı bəli* (Ağdaş) və s.

MÜRƏKKƏB CÜMLƏ

Azərbaycan dili şivələrində cümlənin quqruluşca növlərindən biri də mürəkkəb cümlədir. Şivələrimizdə mürəkkəb cümlələr sadə cümlələrə nisbətən azlıq təşkil edir. “... mürəkkəb cümlələr daha çox monoloji nitqdə təsadüf olunur. Aparılan müşahidələr göstərir ki, şivələrdə ən çox işlənən tamamlıq və şərt budaq cümləlıəridir. Bunlardan sonra zaman, yer və səbəb budaq cümləlıəridir. Ən çox işlənən mürəkkəb cümlələr iki komponentdən, bəzən də 3-4 komponentdən ibarət olur” (M.Məmmədli, 2019, s. 275-276).

Ədəbi dildə olduğu kimi şivələrimizdə də mürəkkəb cümlələr iki yerə bölünür:

1. Tabesiz mürəkkəb cümlələr.
2. Tabeli mürəkkəb cümlələr.

Tabesiz Mürəkkəb Cümlələr

Şivələrimizdə tabesiz mürəkkəb cümlələr işlənmə tezliyinə görə tabeli mürəkkəb cümlələrdən fərqlənir və tabesiz mürəkkəb cümlələr əmələ gəlməsinə görə bağlayıcısız tabesiz mürəkkəb cümlə və bağlayıcılı tabesiz mürəkkəb cümlə olmaqla iki yerə bölünür. Həm də bağlayıcısız tabesiz mürəkkəb cümlə bağlayıcılı tabesiz mürəkkəb cümlədən çoxluq təşkil edir.

Bağlayıcısız tabesiz mürəkkəb cümlə. Bu tipdən olan mürəkkəb cümlənin əmələ gəlməsində iştirak edən sadə cümlələr intonasiya ilə bağlanır. Məsələn: *Bir tə:rnən qız gündə bir tor toxiyirdi, qoca oni satirdi, oniynən də dolanırdılar (*Bakı); *O, dağdan keçəndə uşdi, bir sağ tikəsi ələ gəlmədi* (Şahbuz); *Bı ayqax nə qədər söz deyir, Şa:bbas gülmür* (Babək); *Pəlmə götürüldi, ulduz oldi, hava oldi xoş* (Salyan); *Burda üzüm yaxşı ola bilər, sonra ola bilər gənə, buğda, əkin də yaxşı olar* (Borçalı); *Keçmişdə kotanımız olordu, ulağĭmız olordu, öküzŭmüz olordu, əkerdix', piçerdix'* (Qazax); *Gəldi bizə, mən də ununla gitdim (*Quba); *Mən isdiyirəm tezdəşdirəm toy eliyəm, sən isdiyirsəŋ gejix'dirəsəŋ* (Çəmbərək); *Çörəyi qonax yemədi, külfət mə:təl qaldı (*Meğri); *Biz kəndə çatanda bərx' yağış yağırdı, küləy əsirdi* (Qubadlı) və s.

Bağlayıcılı tabesiz mürəkkəb cümlə. Şivələrdə bu tipdən olan tabesiz mürəkkəb cümlələr **və, amma// əmmə//əmə, ancaq//ancax//əncax, lakin, ya, ya da, həmi, həmi də, gah//gax, gah da//gax da, nə, nə də, ara** tabesizlik bağlayıcılarının iştirakı əsasında əmələ

gəlir. Məsələn: *Mən özüm xələfli tayfasınnanam, əmə Abdullayof Nəcəf diməmməddi tayfasınnandı* (Culfa); *Qambay da biçir, ot maşını da biçir,əlnən də biçirlə*r (Salyan); *Mən tez xəbər tutdum, amman sən gəlib çıxmadun* (Quba); *Bunu həmi mən əx'mişəm, həmi də qonşumuz* (Şahbuz); *Ara ot çalırıx, ara ot ta:lıyır camahat dağdakı sərənələrdə* (Karvansaray); *Getdim, ama öydə olmadi* (Bakı); *İyirmi tarixdə qeyitdix kəndə, amma kə̃tdə kə̃tdix' qalmamışdı (*Meğri); *Gax biz gedirıx, gax da olar gəlir* (Qubadlı) və s.

Tabesiz Mürəkkəb Cümlələr Arasında Məna Əlaqələri

Şivələrimizdə tabesiz mürəkkəb cümlələr arasında aşağıdakı məna əlaqələri müşahidə olunmuşdu.

1.Birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlə.
2. Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə.
3. Ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlə
4. Zaman əlaqəli tabesiz mürəkkəb cümlə.
5. Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlə.
6. Qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə.
7. Bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlə.

Birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlə: *Burda üzüm yaxşı ola bilər, sonra ola bilər gənə, buğda, əkin də yaxşı olar* (Borçalı); *Siftədən qurdu vərillər, dö:rük, səpirik,yaxşı yer qayırırıx, tərəjə yayıf yarpa:n və:ririk (*Ağdaş) və s.

Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə: *Beş nəfər ailəmiz var: üçü oğlandı*^{i}, *biri qız, biri özim (*Salyan); *Biz üç adamıx: bir bu qoja kĭ şidi, bĭ ri də sənsən, bĭ ri də mənəm (*Qazax); *Üş dənə oğlum var: ikisi burdadı, biri də Ağdaşda* (Ağdaş) və s.

Ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlə: *Yuvaş-yuvaş gəldi otağın qapısına, səs elədi, cuğab verən olmadi (*Bakı); *Avar döşənir, üstünnən palçığ suvanır* (Sabirabad); *Xanım çörəx'dən,* xörə*x'dən qoydu, qonax yedi, yıxıldı, yatdı (*Qazax); *So:na kotannar o:rdu da: iki ağızzı, üç ağızzı olara gəl qoşurux, özümüzzə tuturux kotanın dəstəyinnən* (Ağdaş) və s.

Zaman əlaqəli tabesiz mürəkkəb cümlə: *Qambay da biçir, ot maşını da biçir, əlnən də biçirlə*r (Salyan); *Dülgər nö:bə çəkir, o biriləri yatır* (Şahbuz); *İki adam boğuşadu, mən buları*^{i} *tanımıdam* (Quba); *Uşaxlar çalıb oynuyurdu, mən də olara baxırdım* (Qubadlı) və s.

Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlə: *Qabağlar torın gözi iriydi, ilan balığı*^{i} *tordan çıxırdı*^{i} *(*Salyan); *Şoş yolu quru olar, maşın irahat gedər* (Borçalı); *Gəldi bizə, mən də ununla gitdim (*Quba); *Babam yığışdı gəldi Nüyədiyə, bəylər Ernəziri ona kə̃t yeri verdilər (*Meğri); *Bıyıl quraxlıx geşdi, mənsilimiz az oldu* (Qubadlı) və s.

Qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə: *Mən vaxtında dedim, o qulağ asmadı*^{i} (Salyan); *Ged, əmə deynən gəlsün* (Şirvan); *Əhmədin dalınca idaraya getdim, amma o orada da olmadı* (Şahbuz); *Mən sə:rdən burda durmuşam, uşağlar hələ gəlib çıxmiyiblər* (Quba); *Mən gedib-eləmədim, kişicə:z getdi* (Ağdaş) və s.

Bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlə: *Aylədən asılıdı, qağa atıya da deyəllər, qardaşa da deyəllər (*Borçalı); *Kitdim yanna, ya dimədi ki, düzəltə bilmərəm, ya da dimədi ki,*

kid yəründə işdə (Quba); *Nə işimmar, nə ağrıyıram, gedəmmijəm, sən get* (Ağdaş) və s.

Tabeli Mürəkkəb Cümlələr

Azərbaycan dili şivələrində tabeli mürəkkəb cümlələr öz inkişafına ümumxalq Azərbaycan dilinin sayəsində nail olmuşdur. Bu baxımdan M.Cəfərzadənin fikri diqqəti cəlb edir: "Dialekt və şivələrdəki tabeli mürəkkəb cümlələrin bir hissəsi ümumxalq Azərbaycan dilinə məxsusdur. Ədəbi dilin, xüsusən böyük yazı ənənəsi olan dillərin mühafizəkarlığı məlumdur. Ümumxalq dili isə bu baxımdan çox çevikdir. Xüsusən budaqlanmanın çox sürətlə getdiyi indiki mərhələdə ümumxalq dilinin sintaktik quruluşu fasiləsiz inkişaf edir. Ümumxalq dilində yaranan yeni strukturlar yazılı ədəbi dilə tədricən, həm də çox gec daxil olur. Bir-biri ilə sıx təmasda olan dialekt və şivələr isə bərabər inkişaf edir. Ümumxalq dili ilə əlaqəsi zəif olan dialektlər-məsələn, Dərbənd dialekti müstəsna ola bilər. Elə bu mənada dialekt və şivələrin sintaksisi yazılı ədəbi dili həmişə qabaqlayır" (M. Cəfərzadə, 1990, s. 215).

Şivələrdə ümumxalq danışıq dilinə xas tabeli mürəkkəb cümlələrin quruluşu öz xüsusiyyəti ilə fərqlənir. Eyni zamanda onu da əlavə edək ki, tabeli mürəkkəb cümlələrin şivələrimizdə həm bağlayıcısız, həm də bağlayıcılı növlərinə rast gəlinir. Bununla belə şivələrdə bağlayıcısız tabeli mürəkkəb cümlələr bağlayıcılı tabeli mürəkkəb cümlələrdən daha geniş işləkliliyə malikdir.

Azərbaycan dili şivələrində tabeli mürəkkəb cümlələrin aşağıdakı növləri müşahidə olunur.

1.Mübtəda budaq cümləsi.
2. Xəbər budaq cümləsi.
3. Tamamlıq budaq cümləsi.
4. Təyin budaq cümləsi.
5. Tərzi-hərəkət budaq cümləsi.
6. Zaman budaq cümləsi.
7. Yer budaq cümləsi.
8. Kəmiyyət budaq cümləsi.
9. Səbəb budaq cümləsi.
10. Məqsəd budaq cümləsi
11. Şərt budaq cümləsi.
12. Qarşılıq-güzəşt budaq cümləsi.

Mübtəda Budaq Cümləsi

Şivələrimizdə mübtəda budaq cümləsinin ədəbi dildə olduğu kimi iki tipi müşahidə olunur: a) baş cümlədən əvvəl gələnlər; b) baş cümlədən sonra gələnlər.

a) baş cümlədən əvvəl gələnlər. Mübtəda budaq cümləsinin bu tipində budaq cümlə baş cümlədən əvvəl gəlir və budaq cümlə baş cümləyə **var, ol** sözləri (M.Məmmədli, 2019, s. 277), **-sa, - sə** şərt şəkilçisi ilə və ya **kim, kim ki, hər kim, hər kəs** bağlayıcı sözlərlə bağlanır. Məsələn: *Kim bu quyya düşsə, o qoçaqdır* (Bakı); *Kimin sağını yoxdu, o, ağartıdan korrux çəkir* (Qubadlı); *Hər kəs güjdü olardı, o, pəhlivan olardı (*Şahbuz); *Kim ombeş kilo duri pammığ yığsa, om ma:t pıl, iki kilo bığda, əmək günüsin də alacağ (*Salyan); *Hər kim ki oruş tuter, namaz qıler, o qazaner* (Meğri); *Kim yaxşi işli:rsə, yaxşi də yaşi:r* (Şəki) və s.

Şəki şivəsində bu tipdən olan mübtəda budaq cümləsində -sa, sə şərt şəkilçisi düşür və budaq cümlə baş cümləyə şəkilçisiz bağlanır (M.İslamov, 1968, s. 171). Məsələn: *Hər kəs gələr, o da aparar* (Şəki) və s.

b) baş cümlədən sonra gələnlər. Bu tipdən olan mübtəda budaq cümləsində budaq cümlə baş cümləyə **ki** bağlayıcısı ilə bağlanır. Məsələn: *Yadıma düşmür ki, saŋa nə demişəm* (Qubadlı); *Hamısına mə:şurdı ki, Əli qalxozda yaxçi işdi:r (*Bakı); *Bazarın hamısına mə:lumdu ki, bəyaxdam kətçilər dənin putun beş ma:ta verillərdi* (Ağdaş); *Heş mənim yadıma düşmerdi ki, durabaya qolbağa girsin* (Meğri); *Aydındı ki, məni arana- dağa salmıyassıŋız, irazılaşıf varıf gedəsiŋiz* (Çəmbərək); *Xeylax vaxdiydi ki, yağış üzü görmüydux* (Şəki); *Məlumdu ki, u süzdən qabağ çatacağ şə:rə* (Quba) və s.

Şivələrdə mübtəda budaq cümləsində budaq cümlə baş cümlədən sonra gələrək budaq cümlə baş intonasiya ilə bağlanır. Məsələn: *Dört-beş ildi, güdükçü işdi:rəm* (Ağdaş); *Taraz on doqquz ildir, mən bağçada işdi:rəm* (Salyan); *Sədirliyə tafşırıldı, təqəyit alannara odun da versin* (Meğri); *Yoldaşlarıma aydındı, nə cəvirnən (əziyyətnən) tütün bejərmişəm* (Çəmbərək); *Beş ildi, kəndimizdə ilıxtırıx işığı yaniy* (Şəki) və s.

Xəbər Budaq Cümləsi

Şivələrdə xəbər budaq cümləsində budaq cümlə baş cümləyə **ki** (şivələrdə **kin, kın, kun** variantı da işlənir) bağlayıcısı və ya intonasiya ilə bağlanır və baş cümlənin **o, bu** işarə əvəzliyi ilə ifadə olunan xəbəri izah edir. Xəbər budaq cümləsinin budaq cümlənin baş cümləyə **ki** bağlayıcısı ilə bağlanması tipi şivələrdə geniş yayılmışdır.

Ədəbi dildə olduğu kimi şivələrdə də xəbər budaq cümləsinin iki növünə rast gəlinir: a) baş cümlədən əvvəl gələnlər; b) baş cümlədən sonra gələnlər.

a) baş cümlədən əvvəl gələnlər. Xəbər budaq cümləsinin bu tipində budaq cümlə baş cümlədən əvvəl gəlir; budaq cümlə baş cümləyə **-sa, - sə** şərt şəkilçisi ilə və ya intonasiya ilə bağlanır. Məsələn: *Kimin pılı çoxdusa, devran onundu (*Qubadlı) və s.

b) baş cümlədən sonra gələnlər. Xəbər budaq cümləsinin bu tipində budaq cümlə baş cümləyə **ki (**dialekt variantı: **kin**) bağlayıcısı ilə bağlanır. Məsələn: *Maraxlısı bıdı ki, öz aybını görmür, ona-mına lağ edir (*Qubadlı); *Yaxşısı*^{i} *budı*^{i} *ki, buları*^{i} *ek (*Bakı); *Salamatı odu kun, belə bir majalda öyünnən çıxmıyasan* (Ucar); *Buğdanın şərti odur kin, yeri sələsovlayasan* (Babək); *Onın dediyi bıdı kin, yaxşı işdiyək* (Sabirabad); *Bizim fix'rimiz odu ki, siznən qaham olax (*Meğri); *Fikrim odu ki, dam tike:m, daş yığmışam, ağaş yığmışam* (Karvansaray); *Adamı yandıran odu ki, bir balacə şey də gəlif saŋa bö:hlux eliyi (*Şəki); *Mə:m isdədigim budu ki, pisluğ ulmasun (*Quba) və s.

Naxçıvan qrupu şivələrində digər şivələrdən fərqli olaraq baş cümlədəki **o** işarə əvəzliyi və **ötrü, üçün, görə, yana** qoşmaları ifadə olunan mürəkkəb xəbəri izah edən xəbər budaq cümləsin daha çox rast gəlinir (Naxçıvan qrupu şivələri, 1962, s. 188). Məsələn: *Paltar çəngəli onunçundi ki, paltar asasan* (Culfa); *O da onnan ötrüdü ki, küləş paltarı yeməsin, dağıtmasın* (Şahbuz); *Şirin su onnan yanadı kin, üzümləri şirinnəşdirir (*Culfa) və s.

Şivələrdə bağlayıcısız xəbər budaq cümləsinədə rast gəlinir. Məsələn: Mə:mki odı, yüngülayağ hər işə baxım (Salyan); *Yaxşısı budu, səni öyləndirəm, əliŋi başıŋa yığam* (Çəmbərək); *Əhmədinki odu ki, axşama kimi otüruf kitav oxusun (*Şəki) və s.

Tamamlıq Budaq Cümləsi

Tamamlıq budq cümləsi şivələrdə işləkliyinə görə xüsusi yer tutur və işlənmə yerinə görə iki tipdən ibarətdir: a) baş cümlədən əvvəl gələnlər; b) baş cümlədən sonra gələnlər.

a) baş cümlədən əvvəl gələnlər. Baş cümlədən əvvəl gələn tamamlıq budaq cümləsində budaq cümlə baş cümləyə **-sa,-sə** şərt şəkilçisi və ya **kim, hər kim, ha:sı ki, nə ki** bağlayıcı sözlər vasitəsilə bağlanır. Məsələn: *Kimnən işi keçirsə, ona yaltaxlanır* (Qubadlı); *Hası*[i] *ki gül aşdı*[i]*, ona nsu verməzlər* (Bakı); *Qarabağ tərəfə kim getsə, onu götür mənim yanıma* (Sabirabad); *Kim yerini sürdürməx' isdəsə, onnan tıraxdırın səlyarkasının da pulunu alacam, sohra deməyin kin, demədi (*Şahbuz); *Sandıxda hər nə var, çıxardıf qava:mıza töhdülər* (Şəki) və s.

Şəki şivəsində bu tipdən olan mübtəda budaq cümləsində budaq cümlə baş cümləyə intonasiya ilə- bağlayıcısız bağlanır. Məsələn: *Sözünə qəro:l qoy, xayiş eliyirəm* (Şəki) və s.

b) baş cümlədən sonra gələnlər. Bu tipdən olan tamamlıq budaq cümləsində budaq cümlə baş cümləyə **ki** (dialekt variantı: **kin**) bağlayıcısı vasitəsilə bağlanır. Məsələn: *Biz inanırıx ki, işlərimiz yaxşı gedejex'* (Qubadlı); *Ayıldı*[i] *gördi ki, genə həmeşəki kimi xöregden yi:b* (Bakı); *Qız bir gejə yuxuda görür ki, camahat munun atasının əlinnən zara gəlir* (Ağdaş); *Ona mən yüz kərənnərnən demişəm ki, get oxu* (Şərur); *Bizə deyirdi kin, biz işdiyirıx, biz qazanırıx, ağalar yeyir, bu düz də:l* (Şahbuz); *O boylum ma: gəlib dedi ki, dəmir tökülüb, körpünü düzəldillər (*Babək); *Bir nəfər dedi ki, mən gedirəm Kürün qıfrağîna* (Sabirabad); *Ular bilillər ki, mən həylənçi işə qərişmirəm* (Meğri); *O gün də demişəm, indi də de:rəm kin, ırazılığı varsa, heş nə də:mmərix' (*Karvansaray); *Yeşdi kişilər diyi ki, bir zaman bura su olufdu (*Şəki); *Diyədülər ki, güyəmiş çəpər düzəldib quyunnarı*[i] *saldular* (Quba); *Boylum de:rdi kin, qızı verərəm oğluna* (Qazax) və s.

Qərbi Azərbaycanın Çəmbərək şivəsində bu tipdən olan tamamlıq budaq cümləsində baş cümlə "demək" feili ifadə olunanda xəbər təkrarlanır. Məsələn: *Cijim de:r-de:r kin, teccə:lsiŋ, işim var* (Çəmbərək) və s.

Şivələrdə tamamlıq budaq cümləsində budaq cümlənin baş cümlədən sonra gələn tipi həm də intonasiya ilə bağlanır: Məsələn: *Belə baxıram, bavalarımızda dəlləh olan olufdu* (Ağdaş); *Mən issirəm, siz bizə qonağ gələsüz (*Şirvan); *Deyillə, yani Sultam-Səlməni bir qızınnan bir oğlan tikip* (Meğri); *Tükançı hamıya xavar verif, çoxlu mal gəlif təzə* (Çəmbərək); *Biz görmüşüx', qavırmalıx öyəşdən, azmannan olar, erkəx'dən yaxcı olmaz (*Şahbuz); *Mən ona söz de:rəm, o anqut qalıf, cavaf vermer heç (*Borçalı) və s.

Təyin Budaq Cümləsi

Şivələrdə təyin budaq cümləsi geniş surətdə işlənir və aşağıdakı növlərdən ibarətdir.

a) baş cümlədən sonra gələnlər. Bu tipdən olan təyin budaq cümləsində budaq cümlə baş cümləyə **ki** (dialekt variantı: **kin**) bağlayıcısı vasitəsilə bağlanır və budaq cümlə baş cümlədə **o, bu, elə, belə, həmən, həmin** (*işarə əvəzliklərinin dialekt variantları da daxil olmaqla*) işarə əvəzliyi ilə ifadə olunan təyini izah edir. Məsələn: *İçəridə elə bir səs-küy vardı ki, ağız də:ni qulağ eşitmirdi* (Qubadlı); *Mən una helə sözzər dedim ki, lap xoşîna gəldi (*Bakı); *Unda elə bağlar oluf ki, gəzməhnən qurtarmazzı (*Ağdaş); *Elə zərəlxor heyvandı ki, boğda buğum eliyən kimi dorğiyir* (Ordubad); *Mənim bi hayatım var ki, nə ağajdar disön əkmişəm* (Biləsuvar); *Dölçülər o qoyunnarı sağer ki, olar ovursaxdı –balalarə ölüp (*Meğri);

*Elə qəlvi dam tik kini, aynaxana (işıqlı) olsun (*Çəmbərək); *Bu iş elə işdi ki, hər adəm başərməz (*Şəki); *Elə quyun ular ki, mayali dört də duğar, beş də duğar, duqquz da duğar (*Quba) və s.

b) ***şivələrdə təyin budaq cümləsində baş cümlədə təyin vəzifəsində işlənən elə sözü buraxılır*** və budaq cümlə baş cümləyə **ki (kin)** bağlayıcısı ilə bağlanır. Məsələn: *Daş var kin, yonğarı yaxşı götürür (*Şahbuz*); İnəx' var, bir vedrə süd vere:r (*Karvansaray) və s.

c) ***şivələrdə bu tipdən olan təyin budaq cümləsində budaq cümlə baş cümləyə intonasiya ilə də bağlanır***. Bu tipli cümlədə elə "qəlib" sözü işlədilir də bilir, işlədilmir də. Məsələn: *Elə bəylər var idi, heş səni vecdinə almazzı* (Ağdaş); *Gərək elə yerdə yatmıyasan, alta: su çıxsın (*Babək); *Adam var, çox danışır* (Şahbuz); *Günün o güni olsun, oğlu:n toyĭna gələg* (Salyan); *Siz haəmaən aədaəmlaərsız, bir vaəx vaor idi təpiyi:zi quymişdiz xırtdeyimize* (Meğri); *Elə iş gör, hamı ırazı qalsın* (Çəmbərək); *Elə kağız yaz, daşdan keşsin (*Şəki); *Bizim bu kətdə bəylər vardı, ildə iki adam onun qapısında gərəx' pulsuz ona qulluğ eliyəyədi (*Qazax) və s.

ç) şivələrdə "təyin budaq cümləsi və ya baş cümlə təkrarlanır" (M.Məmmədli, 2019, s.279). Məsələn: *Arvad var ki, bir saci bir il işdədər; arvad var ki, bir saci bir həftə işdədər* (Quba); *Quzu var, bozarıf yeyləsidi, quzu var, kəməcərdi* (Çəmbərək); *Elə yer var ki, qajın əni iki metr olar, elə yer var ki, qajın əni bir metr olar* (Qazax) və s.

Tərzi-Hərəkət Budaq Cümləsi

Şivələrimizdə tərzi-hərəkət budaq cümləsinin müxtəlif tipləri müşahidə olunur:

a) ***budaq cümlə baş cümlədən sonra gəlir*** və budaq cümlə baş cümləyə **ki (**dialekt variantı: **kin**) bağlayıcısı ilə bağlanır. Budaq cümlə baş cümlədə **elə, belə, elə bir** sözləri ilə ifadə olunan tərzi-hərəkət zərfliyini izah edir. Məsələn: *Üzümə helə bozardı ki, dedi:mə peşman oldum (*Qubadlı); *Şə:rdən gələn bizə elə danışdıi ki, lap mə:mçün lezet eledi (*Bakı); *Elə də oluf ki, bö:y balıx beş-altı torda biri çıxıfdı (*Ağdaş); *Həmən maşını belə hiss elədıx kin, maşının bi təkəri bi qızıldı (*Culfa); *İndi iş belə oldu ki, Niyar xanım ağladı-ağladı, yatdı aquşqada* (Şahbuz); *Orda (Kilit kəndində) həylə danışıllar ki, biz başa düşmürük, heç kəs başa düşmür* (Babək); *Balığ əlimnən elə siçrədi ki, lap suya düşdi (*Biləsuvar); *Muxdar xalao:lum elə danışer ki, bişmiş toyuğun gülməği tuter* (Meğri); *Qara qoynu elə otarır ki, dağdan gələndə saz (kök, gümrah) olur* (Çəmbərək); *Zoddu-zoddu danışma, qavağına elə daş dığırrıyallar ki, heş xavarıŋ da olmaz* (Tovuz) və s.

Şivələrdə bu tipdən olan tərzi- hərəkət budaq cümləsində budaq cümlə baş cümləyə intonasiya ilə də bağlanır. Məsələn: *Onı elə eliyirik, vala unı kimi yumyumşağ olır* (Zərdab); *Filankəs filankəsi elə qışqırdı, ünü ə:ləmə yetdi* (Şahbuz); *Quru çürəyi elə yiyer, nə tə:r kişmişi yiyəllər (*Meğri); *İslam elə qaçe:r, yıxılsa dığırranar ça: düşər* (Çəmbərək); *Biyil almalar elə gətirmişdi, putaxları yerə deyir* (Şəki) və s.

Çəmbərək şivəsində bağlayıcısız tərzi-hərəkət budaq cümləsinin "qəlib" vəzifəsində iştirak edən işarə əvəzliyi və baş cümlənin xəbəri təkrarlanır (Ş.Kərimov, 2004, s. 245). Məsələn: *Sel çaynan ele:dir, ele:dir, qa:ları yerinnən qoparda-qoparda* (Çəmbərək) və s.

b) baş cümlənin tərkibində elə, belə, həylə işarə əvəzliyi, budaq cümlənin əvvəlində **elə bil, guya, deyəsən** (dialekt variantı: **də:sən**) biri iştirak edir. Məsələn: *Elə bərx' ge:nif ki,*

*elə bil qış gəlif (*Qubadlı); *Əhmədin üz-gözü elə qaralmışdı ki, elə bil tulambardan çıxıb* (Babək) və s.

c) ***budaq cümlə baş cümlədən əvvəl gəlir.*** Tərzi – hərəkət budaq cümləsinin bu tipinə Şahbuz, Şəki şivələrində təsadüf edilir. Şahbuz rayon şivələrində belə cümlələr baş cümləyə **necə, nətəri, nətə:ri, nətərin** bağlayıcı söz, **-sa, -sə** şəkilçisi ilə bağlanır. Məsələn: *Gədə nətərin gəlmişdisə, eləcə də qəyitdi (*Şahbuz); *Sən nətəri demisənsə, mən də elə eləmişəm* (Şəki) və s.

Zaman Budaq Cümləsi

Şivələrdə zaman budaq cümləsi geniş şəkildə işlənir və iki tipi müşahdə olunur: a) baş cümlədən əvvəl gələnlər; b) baş cümlədən sonra gələnlər.

a) baş cümlədən əvvəl gələnlər. Zaman budaq cümləsinin bu tipinə şivələrdə daha çox rast gəlinir və budaq cümlənin əvvəlində **elə ki, nə vaxt (**şivələrdə **nə vax, havax** forması da işlənir), **o vaxt ki, haçan** bağlayıcı sözlər iştirak edir. Bu bağlayıcı sözlər vasitəsi ilə budaq cümlə baş cümləyə bağlanır. Məsələn: *Elə ki quyrux doğdu, havalar sərinnəşir* (Qubadlı); *O vaxt ki sən bizə gəlmişdün ha, gerek ki Ka:milin on yaşı olardı* (Bakı); *Ova haçan getsön, mə: də de (*Sabirabad); *O vaxt ki pammığ yetişdi, yığıb normasın doldurur (*Biləsuvar); *Elə ki payız düşdi, qoyın başdiyir bala verməgə (*Şirvan); *Na^{ə} va^{ə}x ma^{ə}n qa^{o}pıda^{ə}n dilla^{ə}nsa^{ə}m, qa^{o}ını unda^{ə} a^{o}çın* (Meğri); *Havax gün qızır, teccə sorunur palçıx, yollar qufquru quruyur (*Çəmbərək); *Elə ki yağış yağdı, su çoxalır* (Şəki) və s.

Şivələrimizdə zaman budaq cümləsinin bu tipində "qəlib" söz kimi **elə ki, nə vaxt (**şivələrdə **nəvax** forması da işlənir), **o vaxt ki** sözləri işlənmir. Məsələn: *Mart ki oldu, əvdə bir adam tapılmaz, hammısı işləməyə gedər (*Şahbuz); *Ayın ki qulağı dik oldu, yağmaz (*Culfa); *Xörəy içəridə yeyilirdi kin, əmim bir də xapaxap içəri girdi (*Çəmbərək); *Haravıyı yığıf sarımışdıx ki, bir yel qofdu, ə:m yığmamış olsax başarmazdıx* (Karvansaray) və s.

Şivələrdə zaman budaq cümləsinin bu tipində budaq cümlənin əvvəlində **nə vaxt** (dialekt variantı: **nəvax**), **nə qədər** bağlayıcı sözün işlənmə və budaq cümlənin baş cümləyə **-sa, -sə** şəkilçisi ilə bağlanma formasına təsadüf edilir. Məsələn: *Nəvax gəlsən, məhlədə gözziyəjəm səni (*Ağdaş); *Nə qədər da:va olurdusa, yaralıları ora gətirirlərdi* (Ucar); *Nə vaxt getdimsə, evdə görə bilmədim (*Sabirabad); *Havax sənnən soruşsam, sən də qoyma* (Şəki) və s.

Keçid şivələrində zaman budaq cümləsinin bu tipinə **sa, -sə** şəkilçisi işlənmədən budaq cümlənin əvvəlində **nə vaxt** (dialekt variantı: **nəvax**), **nə qədər, elə ki (**A. Vəliyev, 1975, s. 112**)**, Naxçıvanın Çeşməbasar kənd şivəsində **o vaxtdı^{i} (**Naxçıvan qrupu şivələri, 1962, s. 190**)**, Şəki şivəsində **havax, navax (**M.İslamov, 1968, s.174) bağlayici sözlərin iştirakı ilə əsasında düzələn formasına təsadüf edilir. Məsələn: *Elə ki xamır ajıyır, so:ra kündəliyirix', yayırıx dördəyağın üssünə, aparıf yapırıx (*Ağdaş); *O vaxtdı^{i} ki, zad oldı^{i} a:, dava oldı^{i,} demək onda gəlmişik (*Babək); *Havax qüvvəsi düşür, qızı nişanniyir, toy eliyir* (Şəki) və s.

Qərb qrupu şivələrində zaman budaq cümləsinin baş cümləsində "qəlib" söz işlənmir və budaq cümlə baş cümləyə intonasiya ilə bağlanır. Məsələn: *Üzümlər ta: mamızdamır, birəzdən yiylijəx' (*Tovuz); *Yağarrıx bu ayatan yağdı, taxıl gö^{ə} :rər (*Qazax) və s.

b) baş cümlədən sonra gələnlər. Zaman budaq cümləsinin bu tipində budaq cümlə baş cümlədən sonra gəlir və budaq cümlə baş cümləyə **ki** bağlayıcısı ilə bağlanır. Bu vaxt baş cümlənin əvvəlində **o vaxt** (dialekt variantı: **o vax**), **o vədə, o zaman, onda** bağlayıcı sözlər

işlənir. Məsələn: *O vax gəldim çatdım ki, hər işi görüf qutarıflar* (Qubadlı); *Onda ki quyrux doğecax, onnan so:ra dəy issi görmecesiz* (Meğri) və s.

Yer Budaq Cümləsi

Şivələrdə yer budaq cümləsinin əmələ gəlməsi əsasən ədəbi dilə oxşayır. Belə ki, şivələrdə də, ədəbi dildə olduğu kimi, yer budaq cümləsində budaq cümlə baş cümlədən əvvəl gəlir və budaq cümlənin əvvəlində **hara, harda, hardan, o yerlərdə, o yerə, hara ki, o yerdə ki, o yerlərdə ki, hər yerdə (harda** bağlayıcı sözün dialekt variantı**)** bağlayıcı sözlərdən biri, baş cümlənin əvvəlində isə **ora, orda, ordan** işarə əvəzliklərindən bir işlənir. Məsələn: *Hara ki arat elənif, orda taxıl yaxşı gəlif (*Qubadlı); *Hər yerdə tüsti çıxdı, orda gedib sümsinəcek* (Bakı); *Harda ki, issi çoxdu, orda qurdu şaxlıyırsan* (Ağdaş); *Harda ki işdiyən yaxşı işdiyib, pammığ bax, belənçik olur* (Biləsuvar); *Max'ruza hara ki geder, bir dava qaldırer orda (*Meğri); *Hardan isdi:rsən, hordan sür* (Şəki) və s.

Şivələrdə yer budaq cümləsində budaq cümlə baş cümləyə bağlayıcı sözlərlə yanaşı, **-sa, -sə** şəkilçisi ilə də bağlanır. Məsələn: *Mən hara getsəm, siz zə ora gəlün* (Göyçay); *Hardan diyirsən, ordan tutum* (Sabirabad); *Haᵊrdə ki əx'saᵊn bu səvzini, elə urdaᵊ daᵊ ulı (*Meğri); *Kefiŋ hardan tussa, ordan dur çal, üş-dört maşın ot çıxsıŋ* (Çəmbərək); *Damcı hara tökülürsə, ora şirvaldı <divarla yağış damcısı tökülən yerin arası> (*Şəki) və s.

Şivələrdə yer budaq cümləsində budaq cümlənin əvvəlində **harda** bağlayıcı sözlə yanaşı, **-sa, -sə** şəkilçisi işlənsə də, baş cümlədə qarşılığı kimi işarə əvəzliyi işlənmir. Məsələn: *Harada göllər varsa, göllər dərmannanır (*Şərur); *Hara gedirəmsə, dalımca gəlir* (Muğan); *Harda gözə varsa, daş-qəyəsin, kol-kosun artdayıb biçənəx' elərix' (*Şahbuz) və s.

Kəmiyyət Budaq Cümləsi

Şivələrdə kəmiyyət budaq cümləsi az işlənir və iki tipi müşahidə olunur: a) baş cümlədən əvvəl gələnlər; b) baş cümlədən sonra gələnlər.

a) baş cümlədən əvvəl gələnlər. Kəmiyyət budaq cümləsinin bu tipində budaq cümlə baş cümlədən əvvəl gəlir və budaq cümlə baş cümləyə **-sa, -sə** şərt şəkilçisi ilə və ya intonasiya ilə bağlanır. Eyni zamanda budaq cümlənin əvvəlində **nə qədər (**dialekt variantı: **nə qədir, nə xərtə, nə xərtənə**) bağlayıcı söz, baş cümlənin tərkibində **bir o qədər, o qədər (**dialekt variantı: **o qədir, oqqədər, oqqədərnə, oğərtə, o xərtə, o xərtənə**) sözlər işlənir. Məsələn: *Nə qədir demişdin, o qədir də yığmışam* (Qubadlı); *Nə qədər demişdünsə, bir o qədər də aldım* (Bakı); *Nəqəddərə çox olsa, oqqədərə xoşdu* (Zərdab); *Hər bir iççiyə nə qədrə yer düşür, o iççi başdi:r işdəməgə (*Sabirabad); *Bıqqədənə xayış eləmax olmaz ki, mən eliyirəm, Mırat xəyiş eliyir* (Meğri); *Harava nəqqədər tussa, yığ aparnan* (Çəmbərək); *Nə qədər kin dalında durmuşam, heş kimnən qorxun olmasın (*Şahbuz); *O qədər isdədi ki, axırda verdim (*Şəki); *Duzdan oğərtə helliyifsəŋ ki, qırməməköy oluf, yiməx' olmur (*Tovuz) və s.

b) baş cümlədən sonra gələnlər. Kəmiyyət budaq cümləsinin bu tipində baş cümlə əvvəl, budaq cümlə sonra işlənir və budaq cümlə baş cümləyə **ki** (dialekt variantı:**kin**) bağlayıcısı ilə bağlanır. Məsələn: *Gejə-gündüz oqqədəri iştəmişəm ki, uşaxlar doyunca yesin* (Ağdaş); *Çörəyi bozbaşa o qədər doğradın kin, tıxlama oldu (*Babək); *Oqqəddər danışır ki, başın ağrıyır (*Şərur); *Oxada pammığ yığmışam ki, gəl görəsən* (Biləsuvar); *Baydanı o xərtənə doldurdun kin, çalxalandı, töküldü* (Şahbuz) və s.

Səbəb Budaq Cümləsi

Səbəb budaq cümləsinə şivələrdə az rast gəlinir. Bu budaq cümlədə budaq cümlə əvvəl, baş cümlə sonra gəlir və həm **ki** (dialekt variantı:**kin**) bağlayıcısı ilə, həm də intonasiya ilə budaq cümlə baş cümləyə bağlanır. Məsələn: *Yaxşı bejərmişix' deyin, yaxşı da mənsil yığdıx (*Qubadlı); *Günnərin bir günü şə:rdən çıxıb gedətdi ki, özünə bir parça çörek qazansun* (Bakı); *Qorxuşdux ki, bunlar bizi qıracağlar* (Zərdab); *Gicitikanı dağ yerində bədənə vurullar yel olan yerə kin, yel olmasın, sağalsın (*Şahbuz); *Bir-iki yaş məni so:ra yazdılar, ona görə ki kağız verəndə mənnən iki-üş yaş xırda qardaşi̇̃ma mənnən çox yaş verdilər* (Babək); *Qora suyu onnan yana verilir kin, üzüm yekəlməyə başdasın* (Culfa); *İndi günüz qalxozda adam tapılmaz, hamısı işdi:r* (Şərur); *Mənim ağlamağım onnan ötəridi ki, belə yoldaşı*[i] *mən tapbıyəcəm* (Sabirabad); *Bu turpağ u qədər şirindü ki, biz duymiyaduğ turpağdan* (Quba); *Bir az hündürələx'dən danış kin, qulağım ağır eşider (*Qazax) və s.

Məqsəd Budaq Cümləsi

Məqsəd budaq cümləsi şivələrdə geniş şəkildə işlənir və budaq cümlə baş cümlədən sonra gəlir. Ədəbi dildə olduğu kimi şivələrdə də məqsəd budaq cümləsində budaq cümlə baş cümləyə **ki** (dialekt variantı: **kin**) bağlayıcısı ilə və bəzən də bağlayıcısız bağlanır. Məsələn: *Simenti atıflar kin, su buroyu oymasın* (Qazax); *Miçəkgən qururdular ki, ditdi uşa: yeməsin* (Qubadlı); *Odun, çırpı gətirdik kin, ojaxda, təndirdə yandırax* (Ağdaş); *Taxdadan qəhəl tikirüg ki, qurt-quş basmasun* (Salyan); *Körpə quzuyu anasınıŋ yanna qatırıx kin, əmliy (*anasının yanında böyüyən quzu) *olsuŋ, bir acca yekələndə kəsəx' (*Çəmbərək); *Selin qorxusunnan kənarda öy tikdi ki, sel tutmasın (*Şəki); *Arvasın tut, tərəzi düz olsun (*Borçalı) və s.

Şivələrdə məqsəd budaq cümləsində budaq cümlənin baş cümlədən əvvəl işlənməsi də müşahidə olunur. Məqsəd budaq cümləsinin bu tipində baş cümlədə "qəlib" kimi **ona görə, ondan ötrü** (dialekt variantı: **onnan ötrü**), **o:nçün, onnan yana** sözləri iştirak edir. Məsələn: *O:nçün tez gedirəm kin, isdiyə düşmüyüm (*Qubadlı); *Onnan yana mən gederəm ki, diyerəm lazım ollam orda birdən* (Meğri) və s.

Şərt Budaq Cümləsi

Şivələrdə şərt budaq cümləsinə geniş şəkildə rast gəlinir. Ədəbi dildə olduğu kimi, şivələrdə də şərt budaq cümləsində budaq cümlə baş cümlədən əvvəl gəlir və budaq cümlənin əvvəlində **əgər** (dialekt variantı: **ə:m, ə:r, əyəm, əgəm, əgəmləri**), **hərgah, şayət** bağlayıcı sözləri və **-sa,-sə** şərt şəkilçisi ilə, eləcə də bağlayıcı sözlər işlənmədən **-sa,-sə** şərt şəkilçisi ilə bağlanır. Məsələn: *Ə:m aşseydi, hamımız şil-küt olardıx* (Qubadlı); *Arvad di:r gedim ərimə deim, görüm ixtiyar verirsə, içəri buraxım (*Göyçay); *Kim orda əkin əkibsə, yoxsul daşın atıp* (Göyçay); *Cəhəni buzov yesə, bir həfdə dolana bilər (*Babək); *Əgər atnan sürmüş olsoğ, əzzəl toxmın səpirüg* (Salyan); *Əgəm yanı*[i] *sən cəzə-fəzə eləsön, bu işi iki abam ayırd eliyər* (Salyan); *Əyər mən lazım olsa, ça:rarsan* (Şəki); *Əgəm düz disöv, səni dügmicağam* (Quba); *Şa:yət əvəndinə boyunduruğun deşiginə keçməsə, boyunduruğun tən yari̇̃sınnan əvəndə üçün göz qoyuruğ* (Sabirabad); *Bı gədə Mığrıya gessə, od-yəlovdu öz işin düzəldəcax* (Meğri); *Quzuya yaxşı baxılsa, hərəsi bir erkəy olar payızatana* (Çəmbərək); *Xəmir yaxcı acımasa, qalının içi lığırs olur* (Şahbuz); *Özdərinə nə bölsələr, saŋa da verməlidi* (Şəki); *Qoyuna*

gücümüz çatmasa, süfrə bişirağ gidağ (Quba); *Barxana çox olsa, qonağ üçün yaxşı olar (*Qazax) və s.

Şivələrdə rast gəlinən şərt budaq cümləsində həm də budaq cümlə **indiki, madam ki, bir halda ki** bağlayıcı sözləri və intonasiya ilə bağlanır: Məsələn: *İndiki gedirsən, uşa:da apar, ona əyin-baş al* (Qubadlı); *Hərgah hazırramason, boynımı vurduracaqdı* (Bakı) və s.

Keçid şivələrində şərt budaq cümləsinin tərkibində yer dəyişmələr də baş verə bilir. Məsələn: *Alma yaxşı gətirif, uşaxlar qoysa* (Göyçay) və s.

Şivələrdə şərt budaq cümləsində bəzən **-sa,-sə** şərt şəkilçisi işlənmir və budaq cümlə baş cümləyə intonasiya ilə bağlanır. Məsələn: *Əgər mən görmüşəm, qoy mən danışım, sən bax* (Şahbuz); *Kimin xoşu gəlir, boğma isdəkanda içir* (Babək); *Əgər getdün, aşağı başda otı*[i] (Sabirabad); *Əgər yığmısan, gösdər* (Muğan); *Əyəm gədələ bü yün gəlmədilə, deməx, başdarı qazalıdı (*Meğri); *Ot var, hamı çalajax, yoxdu, boş qalajax (*Karvansaray); *Gün var, taxılı sərəjəm qurudajax, yoxdu, sərmiyəjəm* (Çəmbərək); *Damın atmaların atax, carçısını döşəməx' bir əvnəlix' işdi (*Şahbuz); *Əgər aton şə:rə gitdi, mənə də diyərsən (*Quba) və s.

Naxçıvan qrupu şivələrində şərt budaq cümləsində -sa,-sə şəkilçisinin əvəzinə qeyri-qəti gələcək zaman şəkilçisi işlənir, yəni qeyri-qəti gələcək zaman şəkilçisi şərt məzmunu ifadə edir (Naxçıvan qrupu şivələri, 1962, s. 192). Məsələn: *Həmin yığardın, bir yaxşı məx'təb binası çıxardın (*Şahbuz) və s.

Çəmbərək və Karvansaray şivələrində şərt budaq cümləsində -sa,-sə şəkilçisinin əvəzinə şühudi keçmiş zaman şəkilçisi işlənir, yəni şühudi keçmiş zaman şəkilçisi şərt məzmunu ifadə edir (Ş.Kərimov, 2004, s. 246). Məsələn: *Əzvər getdimi, mütləx düzəldif gələjəx' bütün işdəri (*Çəmbərək); *Vəli getdimi, onu bil ki, gətirəcəy* (Karvansaray) və s.

Şərur rayonun Yengicə kənd şivəsində şərt budaq cümləsində budaq cümlənin baş cümlədən sonra gəlmə tipinə rast gəlinir və budaq cümlə baş cümləyə intonasiya ilə bağlanır. Məsələn: *Bizim bı kətdərdə bı illəri pambıx çox olardı, yağınnıx olmıyardı* (Şərur) və s.

Qərb qrupu və Şahbuz şivələrində şərt budaq cümləsində budaq cümlə baş cümləyə -sa,-sə şərt şəkilçisinin əvəzinə, feilin xəbər və arzu şəklinin əlamətləri ilə bağlanır. Məsələn: *İkicə həfdə bına axşamnar bir avış arpa verəydin, həmi əti çox olardı, həmi də kin özünü su kimi basardı* (Şahbuz); *Ona fındıx tökördülər, kimin fındığı fındığı artıx çıxerdi, o qlava olordu* (Borçalı); *O məni* q*oa gedəm öz işimi işdeyəm, çox yaxşı olar (*Qazax) və s.

Qarşılıq-Güzəşt Budaq Cümləsi

Şivələrdə işlənən qarşılıq-güzəşt budaq cümləsi az işlənir və budaq cümlə baş cümlədən əvvəl gəlir. Bu baxımdan qarşılıq-güzəşt budaq cümləsini iki yerə bölmək olar

1. Bu budaq cümləsində budaq cümlə baş cümləyə **nə qədər** (dialekt variantı: **nağada, nəqqəddər, nəxərtə**) bağlayıcı sözü, **-sa,-sə** şərt şəkilçisi və **da də** ədatı ilə və **nə qədər (**dialekt variantı: **nağada, nəqqəddər, nəxərtə**) bağlayıcı sözü ilə bağlanır. Məsələn: *O:çular so:ra nəqqətər gəzirlərsə də, u: tapa bilmədilər* (Göyçay); *Yaşı*[i] *çox olsa da, özü cavan görünür* (Şəki); *Nəqqəddər sənnən acığı*[i] *gəlsə də, getdün yanna, işün düzəldər (*Şirvan); *Qoyun quyruxdan nəxərtə nabıt olsa da, savdalaşıp almaxda oddu Te:mir* (Meğri) və s.

2. Qarşılıq -güzəşt budaq cümləsində budaq cümlə baş cümləyə **-sa,-sə** şərt şəkilçisi və **da də** ədatı iştirak etmədən yalnız **nə qədər** (dialekt variantı: **nağada, nəqqəddər, nəxərtə)** bağlayıcı sözü ilə bağlanır. Məsələn: *Nə qədər dedim, genə getdi, sözümə baxmadı* (Qubadlı); *Nağada əlləşdilər, çamadannan başdari çıxmadi* (Bakı); *Çoban nə qədər elədi, şir onnarnan qalmadı* (Göyçay); *Çoban nə qədər açıxlanıbsa itə, it qayıtmayıb* (Babək); *Mən nə qədər dabrıdım, çata bilmədim (*Sabirabad); *Nə qədər dedim, genə getdi, sözümə baxmadı*

(Qubadlı); *Nağada əlləşdilər, çamadannan başdari çıxmadi* (Bakı); *Dəğ-daşı nəxərtə ələx'-fələx' eliyillə, əxdərillə, geçinin yaralısın tapbılla (*Meğri); *Nə qədər tumarradım, sağmağa imkan vermədi (*Şahbuz); *Nə qədər yarvardım, sözümə baxmadı* (Şəki) və s.

L E K S İ K O L O G İ Y A

Yeni dövrün, yeni elmi dünyagörüşünün formalaşması, elmi tərəqqi ilə bağlı Azərbaycan ədəbi dili misilsiz dərəcədə inkişaf etmiş və zənginləşmişdir. Dilin ictimai determinasiyası, quruluşu ilə yanaşı, hər bir dilin mövcudluğu və inkişafı bilavasitə dilin təzahür formaları ilə (ədəbi dil, dialekt, xalq danışıq dili) bağlıdır. Ümumxalq dili məhz dilin bu təzahür formalarının qarşılıqlı təsiri əsasında inkişaf edir. Məhz buna görə də dilin hərtərəfli öyrənilməsi üçün ədəbi dil, dialektlər və xalq danışıq dili ayrı-ayrılıqda və eləcə də qarşılıqlı şəkildə tədqiq edilməlidir.

Ədəbi dil, dilin təzahür formaları linqvistikada öz həllini tapmayan mürəkkəb problemlərdən biridir. Dilçilikdə ədəbi dilin əsas parametrlərini müəyyənləşdirmək üçün dəfələrlə təşəbbüs göstərilmişdir. Lakin bu fenomenlərin çətinikləri və eləcə də ədəbi dilin müxtəlif xüsusiyyətləri tədqiqatçıları ədəbi dilin hərtərəfli araşdırılmasına imkan verməmişdir. Müxtəlif tədqiqatlarda ədəbi dil anlayışının ayrı-ayrı mövjud əlamətlərinə diqqət yetirilmişdir. Eyni zamanda əhəmiyyəti heç də az olmayan bəzi əlamətlər diqqətdən yayınmışdır.

Ümumiyyətlə, bütün bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

a) ədəbi dil yazılı dil kimi götürülmüşdür (A. Чикабова, 1953, с.116; Р.Будагов, 1961,с.6).

b) ədəbi dil deyəndə bədii dil əsas götürülmüşdür (Л.Булаховский, 1952, с.3; К .Горбачевич, 1973, с. 21).

j) bir qrup tədqiqatçılar isə, ədəbi dil deyəndə dövlət dili anlamışlar (Т.Дегтерева, 1963, с.165-166; A. Məhərrəmov, 1963, s.5).

Ədəbi dil termini dilçilikdə beynəlmiləl termini kimi işlənmir. Bu halda F.P.Filin yazır: "Ümumiyyətlə, ədəbi dil rus dilində "lieratumıy əzık", ukrayna dilində "literatumaə mo- va", belarus dilində "literatuma mova", fransız dilində "langel littraire", ingilis dilində "literaru language", rumın dilində "limba literare", polyak dilində "cezyk litearjki", alman dilində "sjhriftsprajhe literatursprajhe", çex dilində "spisovny cazyk", bolqar dilində "knicoven ezik", serboxorvat dilində "knicnevi ezik" (kncezvni cezık), italyan dilində "lingua litteraria" və s. Bütün bu terminlər bir mənanı - yazı, kitab dili mənasını bildirir (**Ф.Филин**, 1973, s.11).

Ədəbi dil anlayışı dilçilər tərəfindən dönə-dönə izah edilsə də, onlar arasında fikir eyniliyinə rast gəlmək olmur. Çünki tədqiqatçıların bir qrupu «ədəbi dil» deyəndə yazılı dili, bir qrupu isə bədii dili anlamışdır. Elə buna görə də ədəbi dil anlayışı müxtəlif cür izah edilmişdir.

Ədəbi dillə bağlı öz fikrini söyləyən müəlliflərdən biri L.V.Şerbadır. Onun fikrincə, ədəbi dilin əsasında monoloq durur(**Л .Щерба**,1957, s.115).

Monoloq müəyyən məqsədlə deyilən məlumatlara, şifahi xalq ədəbiyyatının müxtəlif canrlarına, eləcə də dialektdə danışanlara məxsusdur. Ədəbi dildə monoloq yox, vasitəli nitq, ümumiyyətlə, ünsiyyət müxtəlif növlərdə özünü göstərir.

L.V. Şerba yazır ki, "Ədəbi dil - hamıya, özünə və başqalarına, dialekt isə müəyyən qrup adamlara xidmət edir" (**Л .Щерба**, 1939, s.20). Müəllifin bu fikri ədəbi dilin əsasında monoloqun durmasını, bir növ, inkar edir. A.S.Çikabova "ədəbi dil" anlayışından bəhs

edərkən onun yalnız yazılı formada mövjud olduğu qənaətinə gəlir və ədəbi dilin şifahi formasını, bir növ inkar edir: "Ədəbi dil" dilçilikdə nəinki bədii ədəbiyyatın, həmçinin elmi tədqiqatların, siyasi traktatların, jurnal və qəzetlərin dilinə, bir sözlə, yazılı dilə (kursiv mənimdir - İ.B.) deyilir" (А. Чикабова, 1953, s.116).

A.S.Çikabovanın bu mülahizəsi sonralar başqa tədqiqatçılar tərəfindən davam etdirilmiş və «ədəbi dil» yalnız yazılı dildir» fikrinə gəlib çıxmışlar. Lakin bu fikir geniş şəkildə yayılmamışdır. P.İ.Avanesov ədəbi dili yazılı dil kimi qəbul edənlərə qarşı çıxaraq yazır: "Ədəbi dil anlayışını təyin etmək üçün əvvəl onu yazı dilindən ayırmaq vacibdir. Düzdür, ədəbi dil eyni zamanda yazı dilidir. Lakin ədəbi dil özünün yazı formasından başqa, şifahi formasına da malikdir" (**Р. Аванесов**, 1955, s.3). Ədəbi dil anlayışı getdikcə dolaşdırılmışdır. Hətta ədəbi dil deyəndə təkcə dövlət dili başa düşmüşlər (Т.Дегтерева, 1963, s.165- 166). Bu da onunla əlaqədardır ki, müəyyən tarixi səbəblərlə bağlı olaraq başqa xalqların dili müəyyən dövlət idarələrində işlədilmiş və o dildə danışmayan xalqın ədəbi dili səviyyəsinə qaldırılmışdır.

Bir qrup tədqiqatçılar ədəbi dil deyəndə bədii ədəbiyyatın dilini - bədii dili başa düşmüşlər və yalnız "ədəbi dilin tarixini şairlərin, yazıçıların yaradıjılıq çərçivəsi ilə məhdudlaşdırmışlar" (Ə.Dəmirçizadə, 1967, s.13). Belə tədqiqatçılardan olan A.L.Bulaxovski yazır ki, ədəbi dil həm də bədii ədəbiyyatın dilidir (Л.Булаховский, 1954, s.3).

Bədii ədəbiyyatın dilində xalq danışıq dili ünsürlərinə, dialektizmlərə, vulqar və jarqonlara geniş şəkildə rast gəlirik. Lakin ədəbi dildə bu o qədər də üstünlük təşkil etmir. Eyni zamanda bədii ədəbiyyatın dilində məcazi mənalı sözlər, omonimlər, sinonimlər, bədi təkrirlər əsas yer tutur. Elmi-texniki, ictimai-siyasi terminlərə bədii dildə, necə deyərlər, rast gəlinmir. Deməli, bədii ədəbiyyatın dili - bədii dil, heç də ədəbi dil deyil, yalnız onun bir qoludur. Ədəbi dillə bağlı geniş tədqiqat aparan müəlliflərdən biri də P.A.Budaqovdur. O, ədəbi dilin ümumxalq dili əsasında yarandığını elmi dəlillərlə əsaslandırır (Р.Будагов, 1961, s.5). R.A.Budaqov ədəbi dilin ümumxalq danışıq dili üzərində seçmə əməliyyatı aparmaqla yarandığını qeyd etsə də, onu yazılı normalarla mümkün olduğunu göstərir.

K.S.Qorbaçeviç "ədəbi dil"lə "bədii ədəbiyyatın dili"nin eyniyyət təşkil etdiyini göstərsə də, «bədii ədəbiyyatın dili»ni xüsusi bir "ədəbi dil"hesab edir (**К .Горбачевич**, 1973, s.21). Dilçilikdə ədəbi dilin banisi, yaradıcısı haqqında da fikir söynəlilmişdir. Məhz bunun nəticəsidir ki, ayrı-ayrı tarixi şəxsiyyətləri ədəbi dilin banisi hesab etmişlər. Bu fikirdə olan müəlliflərdən V.V.Vinoqradovu göstərə bilərik. O, "A.S.Puşkin –Основоположник русского литературного языка" kitabında rus ədəbi dilinin banisi kimi XIX əsrin görkəmli rus şairi A.S.Puşkini götürmüşdür. Sonradan belə bir fikir Azərbaycan dilçiliyində də özünü göstərmişdir. S.Murtuzayev "M.F.Axundov müasir Azərbaycan ədəbi dilinin banisidir" məqaləsində Azərbaycan dramaturgiyasının banisi M.F. Axundovu Azərbaycan ədəbi dilinin yaradıcısı hesab edir.

Qeyd etmək lazımdır ki, ədəbi dilin yaradıcılannı ayrı-ayrı şəxslərlə bağlamaq doğru deyil. Doğrudur, ədəbi dilin inkişafında, onun zənginləşməsində, ədəbi dillə xalq danışıq dilinin bir-birinə yaxınlaşmasında A. S.Puşkinin, M.F. Axundovun xüsusi rolu olmuşdur. Deməli, bir nəfər şair, yaxud yazıçı ədəbi dil yarada bilməz. Yalnız onun inkişafını sürətləndirə bilər. Ədəbi dil cəmiyyətin iqtisadi-sosial inkişafı ilə bağlı ümumxalq dili üzərində seçmə və əvəzetmə prinsipi əsasında yaranır və xalqın ünsiyyət formasına çevrilir.

Ə.Dəmirçizadə Azərbayjan dili materialları əsasında «ədəbi dil» məfhumunu izah etmiş, onun formalaşmasının mahiyyətni araşdırmış, dilçiliyimiz üçün maraqlı əhəmiyyət kəsb edən

nəticələrə gəlmişdir. O, ədəbi dilin əsasında ümumxalq dili dayandığına əsaslanıb ədəbi dili belə izah edir: "Ədəbi dil ümumxalq dili üzərində seçmə, əvəzetmə prinsipi əsasında əməliyyat aparma yolu ilə düzəlir. Məsələn: ədəbi dilin lüğət tərkibinin təşkili üçün ümumxalq dilinin lüğət tərkibindəki sözlər seçilir, ümumxalq dilindən müəyyən sözlər ədəbi dilin lüğət tərkibinə qəbul olunur, digər sözlər isə ədəbi dil üçün məqbul sayılmır" (Ə. Dəmirçizadə, 1958, s.6-7).

Ədəbi dilin formalaşmasında yazının böyük rolu olmuşdur və uzun müddət bəzi xalqlar başqa xalqın ədəbi dilindən istifadə etmiş, bədii əsərlər ana dilində yox, başqa xalqların dilində yaranmışdır. Məsələn, orta əsrlərdə ərəb və fars dilləri türk dilli xalqların, latın dili isə Avropa xalqlarının yazılı dili olmuşdur. Lakin bu o deməк deyildir ki, bu dövrlərdə (Azərbaycanda bu, əsasən, IX-XII əsrlərdə özünü göstərir) başqa xalqın yazısından, yəni dilindən istifadə edən xalqın öz ana dili - xalq danışıq dili olmamışdır. Bu fikirdə olmaq tamamilə yanlışdır. Məhz A.Məhərrəmov millətin təşəkkülündə əvvəlki dövrdə mövjud olan ədəbi dili bu aspektdə izah etməyə çalışmış, ədəbi dili yazılı hesab etmiş, başqa xalqların dilini (azərbaycanlılar üçün ərəb və fars dilini) ədəbi dil kimi qəbul etmişdir (A. Məhərrəmov, 1963,s.5).

Ümumi milli dillərin təşəkkül etdiyi dövrdəki ədəbi dili A.Məhərrəmov başqa aspektdə izah edir. O, millətin formalaşmasını ədəbi dilə böyük təsir göstərdiyini nzərə alıb ədəbi dili izah edir, onun yazılı və şifahi növləri olmaqla artıq səlisləşdyini, formalaşdığını göstərir: "Ümumi milli dillər təşəkkül edən dövrlərdə ədəbi dil ümumi milli dilin işlənmiş, səlisləşmiş və təkmilləşmiş formasıdır. Ümumi milli ədəbi dil, yazılı və şifahi növləri ilə millətin mədəni həyatına, onun bütün ictimai fəaliyyətinə xidmət edən bir dildir" (A. Məhərrəmov, 1963,s.5).

A.Axundov ədəbi dil məsələsinə toxunaraq ədəbi dilin düzəldilməsi (müəllif "süni" terminini işlədir) qənaətinə gəlir. O, ədəbi dili dəyişən bir dil kimi göstərir: "Ədəbi dilə verilən izahlardakı norma, işlənmiş forma, qanunlaşdırma kimi əlamətlər göstərir ki, ədəbi dil müəyyən dərəcədə süni səciyyə daşıyır. Deməli, ədəbi dilə təsir göstərmək, onu dəyişmək mümkündür. Əslində, ictimai, mədəni mühitin dəyişməsi ədəbi dilə çox vaxt öz ciddi təsirini göstərir. Bu cəhətdən Azərbaycan ədəbi dilinin tarixi səciyyəvi misal ola bilər" (A. Axundov, 2006, s.109).

Ədəbi dil xalq danışıq dili ilə bağlı meydana çıxır. Ümumxalq dili olmadan ədəbi dil inkişafdan qalar. Məhz buna görə də xalq danışıq dili üzərində seçmə əməliyyatı aparılır, geniş xalq kütləsinə çatdırılır. Həmin seçmə əməliyyatı xalq danışıq dilinin aşağıdakı sistemləri üzərində aparılır.

1. Xalq danışıq dilinin fonetik sistemində seçmə əməliyyatı aparılır. Çünki danışıq səsləri xalq danışıq dilində külli miqdardadır. Bunun üçün danışıq səsləri içərisində səs variantlarına xüsusi fikir verilir. Ədəbi dil üçün əhəmiyyətli olan, tələffüzdə öz aydınlığı ilə fərqlənən fonemlər ədəbi dilə gətirilir. Məsələn: "ələh, ələx', ələk" sözlərinə nəzər salaq. Göründüyü kimi, bu sözlərin son samitləri bir-birindən fərqlənsə də, üçü də eyni funksiyanı yerinə yetirir, lakin "k" samiti məqbul sayıldığı üçün ədəbi dilə gətirilmiş, "x' ", "h" samitləri danışıq dilində qalmışdır.

2. Xalq danışıq dilinin qrammatik quruluşunda seçmə işi aparılır. Bu vaxt danışıq dilində, o cümlədən dialektlərdə işlənən şəkilçilərdən ədəbi dilin daxili qayda-qanunlarına tabe olanlar götürülür. Müxtəlif dialekt variantları nəzərə alınmır. Məsələn, ismin cəm şəkilçisi Quba və Azərbaycan dilinin qərb qrupu dialektlərində -dar, -dər, -nar, -rar, -rər, -zar,-zər formasında işlənirsə, ədəbi dilə dilin daxili qayda-qanynlarına uyğun olaraq -lar, -lər

forması qəbul edilmişdir. İndiki zaman şəkilçisi Qazax dialektində -er//-er, -or//ör formasında özünü göstərirsə, ədəbi dildə -ır, -ir, -ur, -ür forması qəbul edilmişdir.

3. Xalq danışıq dilinin lüğət tərkibi zəngin bir xəzinədir. Bunun üçün də xalq danışıq dilinin lüğət tərkibində də seçmə əməliyyatı aparılır. Hamı üçün aydın olan, anlaşılan, fikrin izahında dəqiqlik əmələ gətirən söz və terminlər götürülür, ədəbi dilin lüğət tərkibinə daxil edilir. Bu sahədə yazıçılarımızın böyük əməyi vardır. Onlar xalq danışıq dilindən və dialektlərdən götürdükləri söz və terminləri birinci növbədə öz əsərlərində işlədir, sonra onu cilalayaraq ədəbi dilin ixtiyarına verir və ədəbi dili zənginləşdirir.

4. Xalq danışıq dilində işlənən sabit söz birləşmələrinin də üzərində seçmə əməliyyatı aparılaraq ədəbi dilə gətirilir və onun frazeologiyası zənginləşdirilir.

Ədəbi dilin xarakter cəhətləri aşağıdakılardır:

Şifahi və yazılı dil ədəbi dilin əsas formalarıdır. Məhz ədəbi dilin iki əsas forması var: a) şifahi ədəbi dil; b) yazılı ədəbi dil. Lakin bu və ya digər alimlər “.. .ədəbi dil dedikdə ancaq yazılı dil anlamışlar, şifahi ədəbi dilin də ola biləcəyini ağıllarına belə gətirməmişlər. Buna görə də ədəbi dil və onun inkişafı dedikdə ancaq yazılı sənədlərin, yazılı ədəbiyyatın və nəhayət, kitabların (yazılı daşların) dilini tədqiq etməkdən uzağa getməmişlər” (Ə. Dəmirçizadə, 1958, s.51).

Azərbaycan ədəbi dilinin tarixi qədim köklərlə bağlıdır. Ona görə də, hələ yazı meydana gəlməzdən əvvəl insanlar şifahi dil vasitəsi ilə ünsiyyətdə olmuşlar. Belə ki, şifahi dil eşitmə vasitəsilə dərk olunan ədəbi dildir. Ə.Dəmirçizadə qeyd edir ki, “Azərbaycan ədəbi dilinin şifahi qolu yazılı qolundan əvvəl, təqribən VIII-X əsrlərdə formalaşmışdır” (Ə. Dəmirçizadə, 1958, s.75).

Şifahi ədəbi dildən müasir dövrdə məktəblərdə, kino və teatrlarda, radio və televizorlarda, yığıncaq və disputlarda, ailədə, məişətdə istifadə olunur.

Ədəbi dilin ən geniş yayılmış forması yazılı ədəbi dildir. Bir növ, ədəbi dilin əsas məziyyəti onun yazılı formada təşəkkül tapmasıdır. “Ədəbi dil - nisbi mənada - ümumiləşdirilmiş və normalaşdırılmış bir dildir. Belə ümumiləşmə, normalaşma isə əvvəljə şifahi yolla aparılır və nəticədə şifahi ədəbi dil yaranmış olur; sonra isə məhz belə şifahi ədəbi dil yazıya köçürüldükdə onun üzərində bir az da yazı tələblərinə uyğun əməliyyat aparılır, beləliklə də, ədəbi dil yazıda sabitləşir və qanunlaşır. Bununla da yazılı ədəbi dilin əsası qoyulmuş olur” (Ə. Dəmirçizadə, 1958, s.51).

Yazılı ədəbi dil şifahi ədəbi dildən sonra meydana gəlib onun əsasında yaransa da, şifahi ədəbi dilə nisbətən davamlı, daha çox qoruyucudur. Dilin bu forması təkcə dilimizin inkişafı üçün geniş zəmin yaratmır. Eyni zamanda o, yazılı ədəbiyyatımızın yaranması və inkişaf etməsi üçün, ədəbi dillə danışıq dilinin arasındakı dialektik vəhdətin artması üçün geniş imkanlar yaradır. Aparılan tədqiqatlardan aydın olur ki, Azərbaycan yazılı ədəbi dilinin tarixi XIII əsrdən Həsənoğlu ilə başlayır. Lakin yazılı ədəbi dilimizin kökləri IX-XII əsrlərə gedib çıxır. Q.Kazımov yazır: “...VI-VIII əsrlərdə tam təşəkkül tapan Azərbaycan şifahi ədəbi dili IX- XII əsrlərdə yazılı ədəbi dil kimi təşəkkülünü başa çatdırmışdır” (Q. Kazımov, 2003, s.544).

Norma ədəbi dilin əsas xüsusiyyətlərindən biridir. Ümumxalq dilindən, o cümlədən müəyyən zərurət üzündən başqa dillərdən ədəbi dilin lüğət tərkibinə gətirilən hər bir leksik vahid ədəbi dilin normalarına tabe olunur, sonra jəmiyyətin ixtiyarına verilir. Norma ədəbi dilin daxili qayda-qanunları ilə üzvü şəkildə bağlıdır. Ədəbi dilin lüğət tərkibindəki sözlər, qrammatik formalar, fonetik hadisələr və qanunlar, xüsusilə ahəng qanunu dilin daxili

inkişaf qanunlarına tabe olmasa, bunlar ədəbi dilin normalarına da tabe olmur, ədəbi dilin normalarından kənarda qalır. Çünki bu normalar ədəbi dilin inkişafı ilə bağlıdır.

Ədəbi dilin özünəməxsus əlamətləri vardır. Həmin əlamətlər aşağıdakılardır:

1. Ədəbi dil ictimai həyatın bütün sahələrində istifadə olunur. Radio və televiziyada, ali və orta məktəblərdə, qəzet və jurnallarda, kino və teatrlarda, rəsmi söhbətlərdə ədəbi dil şifahi və yazılı ünsiyyət forması kimi çıxış edir.
2. Ədəbi dil xalqın bütün kütləsinə eyni formada xidmət edir.
3. Ədəbi dil fonetik, orfoepik, leksik, qrammatik, üslubi normalara malikdir.
4. Ədəbi dil zəngin lüğət tərkibinə, frazeologizmlərə, terminlərə malikdir.
5. Ədəbi dil bədii dillə sıx surətdə əlaqədardır. Lakin bir-birinin eyni deyildir.
6. Ədəbi dil xalq danışıq dili əsasında yaransa da, nə onunla bir-birinin əksini, nə də bir-biri ilə eyniyyət təşkil edir.

Ədəbi dilin zənginləşməsində dialekt və şivələr tarixən mühüm amil yerində çıxış etmiş və öz təsirini müəyyən qədər bu gün də göstərir. Eyni ərazidə yaşayan xalqlar müəyyən ərazi bölgüsü ilə sərhədlərlə feodalizmdə bir- birindən ayrılmış, özünün msütəqil dövlət quruluşu, adət-ənənəsi ilə biri digərindən fərqlənmişdir. F.Köçərli yazır: «Azərbayjan türklərinin danışdığı dilin şivəsi çox isə də, binası, kökü birdir. Belə ki, hər mahalın xalqı başqa bir şivədə və qeyri bir ləhcədə danışıb qonuşur. Hər məhəl və məskənin özünə məxsus istilahları və sözləri vardır. Qarabağ və Qazax əhalisi bir cürə, Şəki xalqı özgə bir cürə, Şirvan, Salyan, Bakı və Quba adamları başqa bir sayaqda, İrəvan, Naxçıvan, Təbriz, Xoy, Maku vilayətlərinin əhalsi qeyri bir şivə üzrə danışırlara (F. Köçərli, 1978, s.77). Deməli, eyni xalqın danışığında da müəyyən fərqlər meydana gəlmişdir ki, bu dialekt adlanır. Dialektləri səjiyyələndirən əsas jəhətlərdən biri onun yazıya malik olmamasıdır.

Bir dilin bir neçə dialekti var. Bu da onların mürəkkəbliyi ilə bağlıdır. Çünki bu və ya digər feodalın ərazisindəki dil (dialekt) yalnız həmin ərazidə yaşayanlara xidmət etmişdir. Elə buna görə də bir dilin bir neçə dialekti yaranmışdır. Dialektlər arasında fərq bilavasitə onun fonetik sistemində, qrammatik quruluşunda və lüğət tərkibində özünü göstərir.

Dialekt və şivələr öz lüğət tərkibinin əhatəliyi ilə diqqəti cəlb edir. Dialektlərin lüğət tərkibindəki leksik vahidlər həm də müəyyən qədər xalqın tarixini, onun keçib gəldiyi inkişaf yolunu özündə cəmləşdirir və qoruyub saxlayır. Burada müxtəlif dövrləri xarakterizə edən istənilən sayda sözə təsadüf etmək mümkündür. Hətta dialektlərimizdə qəbilə quruluşuna aid sözlərə belə təsadüf edilir (M. İslamov, 1968, s.179).

A.Axundov dialektlərin özünəməxsus xüsusiyyətlərə malik olduğunu göstərərək yazır: “Dilin dialektlərə bölünməsi iki cür olur:

1) eyni mənşə mənsubiyyətinə malik tayfa dilləri vahid xalq dili yarandıqdan sonra öz müstəqilliyini itirir və inkişaflarını eyni bir dilin müxtəlif dialekt və şivələri kimi davam etdirir;

2) vahid xalq dili müxtəlif dil xarici amillərin təsiri ilə öz müstəqilliyini itirir və müxtəlif dialekt və şivələrə bölünür. Bu yollar bir-biri ilə qarşı-qarşıya dursa da, biri digərini inkar etmir. Belə ki, dialektlərin inteqrasiyasından (birləşməsindən) sonra yaranan xalq dili, müxtəlif səbəblər üzündən diferensiasiya hadisəsinə uğraya bilir. Yaxud, əksinə diferensiasiya hadisəsi nəticəsində ümumxalq dilindən yaranan dialektlər müxtəlif səbəblərdən təzədən ümumxalq dili əsasında birləşə bilir” (A.Axundov, 2006, s.109-110).

Ədəbi dil inkişaf etdikcə dialekt və şivələr öz sferasını daraldır. Belə ki, hər bir “...yerli dialektlər kapitalizm dövründə milli dilə qarışaraq öz varlığını itirir” (**Р. Аванесов**, 1954, s. 8).

Dilin tərkib hissələrindən olan dialekt və ədəbi dil həm fonetik sisteminə, qrammatik quruluşuna və həm də lüğət tərkibinə görə bir-birindən fərqlənir. V. Jirmunski dialektlə ədəbi dil arasındakı fərqləri sosioloji funksiyaya görə yarandığını qeyd etmişdir (**В. Жирмунский**, 1936, s.17).

A.S.Çikobova həmin fərqləri dolayı yolla izah etmişdir: yəni müəllif ədəbi dilin altı xüsusiyyətini göstərir ki, bu da ədəbi dilin dialektlərdən ayrıldığını əyani şəkildə əks etdirir:

Ədəbi dil, bir qayda olaraq, bir olur. Lakin istənilən dildə dialektlər (şivələr) bir neçə dənə olur. Müxtəlif dialekt danışığı ədəbi dilə qarşı qoyulur: yazılı dil onun (ədəbi dilin - İ.B.) gücünü təyin edir.

2. Ədəbi dil müəyyən bir dialektin əsasında yaranır.
3. Ədəbi dilin inkişafı dialektin inkişafı ilə uyğun gəlmir, ancaq ədəbi dil dialektdən qidalanır.
4. Ədəbi dilin zənginləşməsinin nisbətən ikinci dərəcəli, lakin heç də az əhəmiyyəti olmayan mənbəyi dialektlərdir. Dialektlərin başlıca əlaməti ədəbi dillə olan əlaqəsidir.
5. Ədəbi dil mədəniyyətin məhsulu və eyni zamanda mədəni inkişafın alətidir.
6. Ədəbi dil məxsus olduğu ərazi dialektlərinin əsasında yaranıb, bir qayda olaraq, həmin xalqa və millətə xidmət edir (A. Çikabova, 1953, s.117-120).

M.Şirəliyev tədqiqatında dialektlə ədəbi dilin fərqlənməsinin altı fərqləndirici əlamətini göstərmişdir.

1. Dialekt və şivələrimizin lüğət tərkibində keçmiş ictimai quruluş, həyat, məişət, adət, təsərrüfat və s. ilə bağlı olan bir çox arxaik sözlərə rast gəlirik ki, bunları müasir dilimizdə görə bilmirik.
2. Dialekt və şivələrimizin lüğət tərkibində rayonun iqtisadiyyatı ilə bağlı bir çox təsərrüfat, maldarlıq terminləri işlənir ki, bunlara ədəbi dildə təsadüf edilmir.
3. Dialekt və şivələrimizin lüğət tərkibində növ anlayışı bildirən sözlərin ümumiləşdirici anlayışları bildirən sözlərə nisbətən çoxluğudur.
4. Dialekt və şivələrimizin lüğət tərkibində yeni təsərrüfat forması ilə əlaqədar olaraq bir sıra yeni sözlərə təsadüf edilir ki, bunlar morfoloji və sintaktik yolla əmələ gəlmişdir.
5. Dialekt və şivələrimizin lüğət tərkibində bir çox terminoloji səciyyə daşımayan sözlərə rast gəlirik ki, bunlar ya ədəbi dildə işlənmir, ya da başqa mənalarda işlənir.
6. Dialekt və şivəlrimizdə alınma sözlərin işlədilməsi də, ədəbi dildən bir sıra cəhətlərdən fərqlənir. Qafqaz-İber dillərindən alınan sözlər dialekt və şivələrimizdə daha qabarıq şəkildə özünü göstərir. Ərəb, fars və rus dillərindən alınan sözlər dialekt və şivələrimizdə ədəbi dilə nisbətən daha çox dəyişikliyə məruz qalır (M. Şirəliyev, 1967, s.324).

Göründüyü kimi, müəllif ədəbi dillə dialektlərin fərqini lüğət tərkibi və alınmalarla əlaqələndirir.

A.Axundov dialektlərlə ədəbi dilin fərqləndiyini müəyyən prinsiplərlə (3 prinsiplə) bağlayır və göstərir ki, bu üç prinsip əsasında ədəbi dillə dialekt qarşı-qarşıya durur və biri digərindən ciddi surətdə fərqlənir; mahiyyətcə, vəzifəcə, inkişaf tempinə görə (A.Axundov, s. 112).

Ədəbi dillə dialekt və şivələrin fərqi əyani şəkildə göstərir ki, ədəbi dilin inkişaf yolu, təşəkkülü, dialektlərdən tam surətdə ayrı olmasa da, müstəqil, inkişaf tempinə malikdir. Ədəbi dilin formalaşmasında, onun lüğət tərkibinin inkişafında yazılı dilin müstəsna əhəmiyyəti vardır. Bunu dialektlər barəsində demək olmaz. Dialektlərdə fonetik hadisə - səs əvəzləmələri, səs düşümü, yerdəyişmə müxtəlif formada özünü göstərir. Bu, ədəbi dildə yalnız vahid

formada sabitləşmişdir. Məhəlli dialektlər xalq danışıq dilinin bir qolunu təşkil edir və onun tərkib hissələrindən biridir. Halbuki, ədəbi dil xalq danışıq dilindən əmələ gəlir. Yazı meydana gələnədək insanlar bir-biri ilə şifahi formada ünsiyyət saxlamışlar. Yazı meydana gələndən sonra da geniş xalq kütləsi ondan uzaq olmuşdur. O, hakim sinfin əlinə keçmişdir. Xalq, obrazlı ifadə ilə desək, buna (yazıya) uzaqdan tamaşa etmişdir. Məhz buna görə də insanlar şifahi formada bir-birilə ünsiyyət saxlamışlar. Bununla yanaşı dialektlər ədəbi dildən işlənmə dairəsinə görə də fərqlənir. Dialekt və şivələr müəyyən ərazidə yaşayan xalqın ünsiyyət forması kimi məhdud dairəni əhatə edirsə, ədəbi dil bütün xalq kütləsinə xidmət etdiyi üçün geniş dairəni əhatə edir.

Ədəbi dil, aydındır ki, vahid olur. Onun ədəbi normaları mövjuddur və bu normalar, necə deyərlər, nəzarət altındadır. İctimai inkişafla bağlı olaraq o normalarda dəyişikliklər aparılır. Lakin dialekt çoxdur. Bir ədəbi dilin bir neçə dialekti olur. Həmin dialektlər arasında da bir-birinin əksini təşkil etmə xüsusiyyəti özünü göstərir: çünki dialektlərin lüğət tərkibi heç vaxt eyni ola bilmir. Ədəbi dil günü-gündən inkişaf edir. Onun lüğət tərkibi yeni-yeni söz və ifadələrlə zənginləşir. Lakin dialektlər tənəzzülə doğru gedir. Dialekt fərqləri aradan çıxır, dialektlərin bədii ədəbiyyatda işlənməsi azalır. Dialektlə ədəbi dilin fərqli cəhətlərindən biri də dialektin dialoq, ədəbi dilin monoloq nitqi olmasıdır. Digər tərəfdən terminoloji baxımdan da dilin bu iki tərkib üzvləri arasında fərq vardır. Çünki dialektlərdə hər əşyanın ən kiçik hissəciyini adına belə rast gəlmək olar. Ədəbi dildə isə bu ümumi şəkildə işlənir. Azərbaycan dilinin şivələri ilə ədəbi dilinin münasibətinə gəldikdə onu əlavə edə bilərik ki, bu, bir neçə yüzilliklərin məhsuludur. Azərbaycan xalq danışıq dilinin təşəkkülündən tutmuş Azərbaycan milli ədəbi dilinin formalaşdığı dövrə qədər və eləcə də milli dilimizin təşəkkülü dövründə də Azərbaycan dilinin dialektləri yaxından iştirak etmişdir. Azərbaycan milli ədəbi dilinin formalaşmasını və onun zənginləşməsinin bir dialektlə bağlayıb, onu əsas mənbə götürmək doğru deyildir. Azərbaycan ədəbi dilinin formalaşmasında və onun inkişafında təkcə bir şivə materialları yox, bir çox dialekt və şivə materialı yaxından iştirak edir. “Deməli, bütün əlaqədar dialektlər (şivələr) Azərbaycan milli ədəbi dilinin formalaşmasında əsas mənbələrdən biri kimi iştirak edib qüvvətli təsir göstərmiş, milli təşəkkül mərhələsində isə onların iştirakı və təsiri daha intensiv olmuşdur. Lakin bu iştirak və təsir təkjə milli dil dövründə yox, daha əvvəllərdən - xalq dilinin ilk təşəkkül mərhələsindən başlanmışdır” (M. Cahangirov, 1978, s. 128). Bu zaman dialekt və şivələrdən gələn sözlər birinci növbədə xalq danışıq dilinə keçir. Ümumxalq səciyyəsi qazandıqdan, ədəbi dilin vahid normalarına uyğunlaşdıqdan sonra ədəbi dildə vətəndaşlıq hüququ qazanır. Onu da qeyd etmək lazımdır ki, ədəbi dil də öz növbəsində dialektlərə təsir edir. Həmin təsir nəticəsində dialektlərdə, o cümlədən Azərbaycan dili şivələrində söz və terminlər geniş yer tutur. Ədəbi dilin güjlü təsiri ilə bağlı olaraq dialekt və şivələr ədəbi dilin daxilində əriyib yavaş-yavaş aradan çıxır. Cəmiyyətin, mədəniyyətin, elmin inkişafı nəticəsində ədəbi dil ilə dialektlər arasındakı fərq itir. Xüsusilə kəndə mədəniyyət ayaq açdıqca, elm və texnikanın son nailiyyətlərinə kənd əhaləsi yiyələndikcə ədəbi dillə dialektlər arasındakı fərqlər aradan qalxır. Bu deyilənlərdən aşağıdakı nəticəyə gəlmək olur ki, dialektlər, əsasən, bu məsələləri əhatə edir.

1. Azərbaycan dilinin dialektləri həmin dilin, yəni ğmumxalq Azərbaycan dilinin yaranmasından əvvəlki düvrə təsadğf edir. Azərbaycanda dilin dialekt üzvlənməsi ümumxalq Azərbaycan dilinin yaranmasından əvvəlki düvrə təsadüf edir (A.Axundov, 2006, s.271).

2. Dialekt və şivələr yalnız şifahi formada fəaliyyət göstərir. Onun yazısı yoxdur.

3.Dialekt və şivələrin özünəməxsus fonetik sistemi, morfoloji və sintaktik quruluşu,

lüğət tərkibi vardır.

4. Hər bir dilin bir neçə dialekti olur və bunlar da bir-birindən fərqlənir.

5. Dialekt və şivələr dilin və cəmiyyətin inkişaf prosesi ilə bağlıdır. Yəni o, tarixi kateqoriyadır. Müəyyən dövrlərdə yarandığı kimi, müəyyən bir tarixi şəraitdə də aradan çıxacaq. Bunu ədəbi dilin bugünkü inkişaf səviyyəsi göstərir.

Azərbaycan dilçiliyində xalq danışıq dili ilə dialektlərin fərqi məsələsinə toxunulmuşdur. Ə.Dəmirçizadə bu fərqi belə şərh edir: “Vahid xalq yarandığı zaman ümumxalq dili yaranır; ümumxalq dili müxtəlif şivə, ləhcə, dialekt kimi qollara malik olsa da, ümumxalq üçün vahid olur. Hətta müxtəlif şivə, dialekt və ya ləhcədə danışan adamlar ümumxalq dili vasitəsilə ünsiyyətdə olurlar; şivə, dialekt və ya ləhcə isə məhəlli olur və məhdud dairə xaricinə çıxmır” (Ə. Dəmirçizadə, 1962, s.7).

Göründüyü kimi, Ə.Dəmirçizadə dialekti xalq danışıq dilinin bir qolu hesab etməklə yanaşı axırmjmın daha geniş anlayış olduğunu, xalqın bütün kütləsinə eyni səviyyədə xidmət etdiyini göstərir. Halbuki dialekt müəyyən ərazi daxilində fəaliyyət göstərir. Xalq danışıq dili dialektlərdən öz funksiyaları baxımından fərqlənir. Xalq danışıq dili xalq kütləsinin bütün üzvləri tərəfindən qəbul edilmiş ünsiyyət vasitəsidir. Onların üzərində əməliyyat aparılaraq jilalanır, ədəbi dilin normalarına uyğunlaşdırılır və ədəbi dilin müxtəlif üslublarında iştirak edir. Bu proses ədəbi dildə dilin bütün dövrlərində özünü göstərsə də, XX əsrin 40-60-cı illərində bu dil hadisəsi daha da genişlənmişdir. Yəni xalq danışıq dili ədəbi dilin zənginləşməsində əsas mənbə rolunu həmişə oynamışdır, indi də aparıcı qüvvəyə malikdir. Dialektlərdə isə vəziyyət tamam bambaşqadır. Bu milli dilin inkişaf prosesində müəyyən təsirə düşərək “milli dil ilə qarışır və onda möhkəmlənir. Buradan belə görünür ki, dialekt leksikası dilin inkişafı zamanı xalq dilinə, millətin əmələ gəlməsi zamanı isə milli dilin inkişafına kömək edir”(A.Ефимов, 1954, s. 159). Lakin dialektlərdən ədəbi dilə keçən sözlər o vaxt dayandırılır ki, onların xalq danışıq dilində qarşılığı mövcuddur. Digər tərəfdən dialektlərin, xalq danışıq dilinə nisbətən, ədəbi dilə təsiri XX əsrin 50-ci illərindən sonra zəifləmiş, bir mənbə rolunu (XIX əsrlə müqayisədə) azaltmışdır.

Məlumdur ki, xalq danışıq dili dialektlərdən tam surətdə ayrılır və biri-birinin əksini təşkil edir. Dilin bu iki formasının hər biri müstəqil inkişaf yolu keçmişdir. Məhz buna görə də dialektlə xalq danışıq dili aşağıdakı xüsusiyyətlərinə görə bir-birindən fərqlənir.

1. Fonetik sisteminə görə;
2. Qrammatik quruluşuna görə;
3. Lüğət tərkibinə görə;
4. Davamlılığına görə;
5. Kəmiyyətinə görə.

Hər bir xalq danışıq dilində fonetik, leksik, qrammatik fərqləri aydın hiss edilən dialektlər var. “...Azərbaycan dilinin dialekt fərqləri əsasən xalqın etnik etnik tərkibində iştirak etmiş tayfaların dil xğsusiyyətlərinə gürə mğəyyənləşir” (E.Əzizov, 1999, s. 77).

Hər bir dialektin ayrıja ümumxalq dili yoxdur. Cünki dialektlər ümumxalq dili əsasında yaranır. Ümumxalq dili formalaşarkən geniş dairədə işlənməyən, qeyri-fəal tayfa dil elementləri məhəlli dialektin fərqləndirici əlaməti kimi yaşayır (E.Əzizov, 1999, s. 76-77). Lakin müəyyən cəhətlərinə görə xalq danışıq dili ilə dialektlər arasındakı kiçik oxşarlıq vardır. Bunlar da aşağıdakılardır:

1) Xalq danışıq dilində elə sözlər vardır ki, ədəbi dilə gətirmək olmur. Belə sözlər dialektlərdə də vardır. Ancaq dialektlərdə bu daha çoxdur.

2) Xalq danışıq dili və dialektlərin leksikası, frazeologiyası öz üslubi xüsusiyyətlərinə görə ədəbi dilin leksik və frazeoloji normalarına uyğun gəlmir. Biz bununla heç də xalq danışıq dili ilə dialektlər arasında da eynilik işarəsi qoymaq fikrində deyilik. Onlar dilin ayrı-ayrı təzahür formalarıdır. Xalq danışıq dilinin sintaksisi öz xüsusiyyətlərinə görə dilin təzahür formaları içərisində seçilir. Burada cümlənin vokativ formasına, sözlərin sərbəstliyinə, sözlərin rabitəsizliyinə, söz buraxmalarına, cümlə təkrarlarına, Azərbaycan dilində ki bağlayıcısı ilə əmələ gələn mürəkkəb cümlələrə rast gəlinir.

XIX əsrdən milli dil kimi formalaşan Azərbaycan dili uzun inkişaf prosesi keçmiş, lüğət tərkibi yeni söz və ifadələrlə zənginləşmiş, zamanla ayaqlaşmayan köhnəlmiş sözlər, dilimizin daxili qayda-qanunları ilə uyğunlaşmayan terminlər dilin lüğət tərkibindən çıxmışdır. Aydın olur ki, hər hansı bir dilin lüğət tərkibinin zənginləşməsində dilin daxili inkişaf qanunları müəyyənedici rola malikdir. Azərbaycan ədəbi dili XIX əsrin əvvəllərindən başlayaraq xalq danışıq dilinin qarşılıqlı təsiri ilə durmadan artıb zənginləşir.

Müasir Azərbaycan Ədəbi Dilinin Lüğət Tərkibinin Zənginləşməsinin Mənbə Və Yolları

Müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibinin zənginləşməsi ilə bağlı tədqiqatlar XX əsrin 40-50-ci illərindən aparılmağa başlamışdır. 1945-ci ildə S.Cəfərovun "Dilimizin lüğət tərkibi və inkişaf yollarına dair"(S.Cəfərov, 1945), 1953-cü ildə İ.Hacıyevin "Sovet hakimiyyəti illərində Azərbaycan dilinin lüğət tərkibindəki dəyişikliklər haqqında bəzi qeydlər"(İ.Hacıyev, 1953), 1958-ci ildə F.Zeynalovun "Sovet dövründə Azərbaycan dilində ictimai və siyasi sözlərin əmələ gəlməsinə dair bəzi qeydlər"(F.Zeynalov, 1958) məqalələri çap olunmuşdur.

İ.Hacıyev sovet dövründə Azərbayjan ədəbi dilinin lüğət tərkibində yeni sözlərin üç yolla əmələ gəldiyini göstərir:

1) morfoloji yolla əmələ gələn yeni sözlər;
2) sintaktik yolla əmələ gələn yeni sözlər;
3) leksik və kalka yolu ilə əmələ gələn yeni sözlər (İ.Hajıyev, 1953, s.44).

S.Cəfərovun fikrincə, Azərbaycan ədəbi dilinin lüğət tərkibində baş verən dəyişikliklər, dilin lüğət tərkibinin inkişafı və zənginləşməsi beş yolla həyata keçirilir.

1. Ayrı-ayrı ləhcələrdən gələn sözlər;
2. Dildə mövcud olan sözlər;
3. Rus və Avropa dillərindən daxil olan sözlər;
4. Rus, Avropa və ana dili resursları hesabına yaranan sözlər;
5. Dildən çıxan sözlər (S.Cəfərov, 1945,s.18-19).

S.Jəfərov sonra bu məsələyə təkrar qayıtmış, "Azərbayjan dilində söz yaradıjılığı" kitabında ədəbi dilimizin zənginləşməsi yollarından bəhs etmişdir (S. Cəfərov, 1960).

S.Jəfərovun "Müasir Azərbayjan dili" kitabının bir bölməsi söz yaradıcılığına həsr olunmuşdur (S. Cəfərov, 1970,s.141-229).

S.Cəfərov müasir Azərbaycan ədəbi dilinin zənginləşməsini "Söz yaradıcılığı" adı altında araşdırır və dilimizdə söz yaradıcılığı prosesinin üç yolla baş veridiyini göstərir: "Azərbaycan dilinin söz yaradıcılığı prosesini və bu proses əsasında yaranan leksik vahidləri (sözləri) onun öz daxili inkişaf qanunlarına əsasən aşağıdakı kimi qruplaşdırmaq olar: sözlərin leksik yolla əmələ gəlmə prosesi; sözlərin morfoloji yolla əmələ gəlmə prosesi; sözlərin

sintaktik yolla əmələ gəlmə prosesi. Dilimizin söz yaradıjılığı prosesinə məxsus hər üç yol, öz inkişaf tarixi etibarı ilə bir-birinə bağlı olub, biri digərinin yaranmasında və inkişafında çox böyük rol oynamışdır"(S. Cəfərov, 1970,s.142) Leksik yolla sözlərin yaranmasının isə altı üsulunu göstərir:

1) şivə və dialektlər hesabına söz artımı;
2) başqa dillərin leksikası hesabına söz artımı;
3) yeni məna kəsb etmək hesabına söz artımı;
4) fonetik tərkibin dəyişməsi hesabına söz artımı;
5) düzəltmə sözlərin sadə söz yerinə keçməsi hesabına söz artımı;
6) mürəkkəb sözlərin sadələşməsi hesabına söz artımı (S. Cəfərov, 1970, s.143-160). N.Məmmədov bütün dillərin lüğət tərkibinin iki mənbə hesabına zənginləşdiyini göstərir:"Adətən, hər bir dilin lüğət tərkibi iki mənbə hesabına zənginləşir: dilin daxili imkanları hesabına yaranan sözlər; başqa dillərdən alman sözlər" (N. Məmmədov, 1971,s.84).

Müasir Azərbaycan ədəbi dilinin (sovet dövrü) lüğət tərkibinin zənginləşməsi XX əsrin 50- ci illərində xüsusi tədqiqat obyekti olmuş və ilk dəfə dilimizin lüğt tərkibinin zənginləşməsi ilə bağlı monoqrafik tədqiqatı A.Aslanov araşdırmışdır (A.Aslanov, 1954). Müəllif dissertasiyanın üçüncü fəslində ədəbi dilimizin lüğət tərkibinin zənginləşməsinin mənbə və üsullarından ayrıca bəhs etmişdir (A.Aslanov, 1954, s.64-148).

A. Aslanov Azərbaycan ədəbi dilinin zənginləşməsinin mənbə və üsullarım elmi şəkildə izah edir və hər bir mənbənin ədəbi dildə tutduğu yeri aydınlaşdırır. Müəllifin qənaətinə görə, müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibi aşağıdakı mənbə və üsullarla zənginləşir:

I mənbə: Dilimizin öz ehtiyatı (daxili imkanları) üsulları:

1.Xalq danışıq dilindən və yerli dialekt və şivələrdən söz və terminlərin alınması üsulları;

2.Söz yaradıjılığı üsulları:

a) sözdüzəldici şəkilçilərin sözlərə qoşulması ilə;
b) mürəkkəb sözlərin və leksik birləşmələrin düzəldilməsi üsulları ilə;
c) kalka üsulu ilə.

II mənbə: Rus dili (A.Aslanov, 1954, s.65).

Yuxarıdakı bölgüdən aydın olur ki, müəllif semantik üsulla ədəbi dilimizin zənginləşməsini dilin daxili imkanlarına aid etmir. Lakin o, "Söz və ifadələrin dəyişməsi" başlığında ədəbi dilin elm və texnikanın inkişafı ilə bağlı zənginləşdiyini, dildə olan sözlərdən bəzilərinin dildən çıxmasını, bəzilərinin isə öz semantik sferasının genişləndiyini qeyd etmişdir (A.Aslanov, 1954, s.41-56).

Azərbaycan dlinin lüğət tərkibinin zənginləşməsinin mənbə və üsullarından bəhs edən ilk kitabı 1958-ci ildə N.Məmmədov "Dilin lüğət tərkibinin zənginləşməsinin mənbə və üsullarına dair" kitabı çap olunbmuşdur (N. Məmmədov, 1958). N.Məmmədov yazır ki, Azərbaycan dili lüğət tərkibinin mənbə və üsullarından danışarkən iki cəhəti nəzərə almaq lazımdır:

1.Dilin daxili vəsaiti.

2.Başqa dillərdən alman sözlər (N. Məmmədov, 1958 s.8-12).

N.Məmmədov yazır: "Azərbaycan dili lüğət tərkibinin zənginləşməsini birinci və əsas mənbəni dilimizin daxili vəsaiti təşkil edir. Bu mənbədən danışarkən: a) leksik yolla yaranan sözlər; b) morfoloji yolla yaranan sözlər; c) oxşarlıq (kalka) yolu ilə yaranan sözlər nəzərə

almmalıdır"(N. Məmmədov, 1958, s.5). "Leksik yolla yaranan sözlər" dedikdə N.Məmmədov ümumxalq danışıq dilindən götürülən sözləri nəzərdə tutur (N. Məmmədov, 1958,s. 8-12).

A.Məhərrəmov müasir Azərbaycan ədəbi dili lüğət tərkibinin sovet dövrünü araşdırmış və dilin lüğət tərkibinin zənginləşməsinin iki mənbə əsasında baş verdiyini göstərir: "Sovet dövründə ədəbi dil keçmiş dövrlərdən fərqli olaraq, iki əsas mənbə hesabına öz lüğət tərkibini zənginləşdirir və genişləndirir. Bunlardan biri və əsası daxili mənbə - Azərbaycan danışıq xalq dili* və yerli dialektlərdir. İkinjisi isə rus dili mənbəyidir" (A. Məhərrəmov, 1961, s.17).

Daha sonra ədəbi dilimizin lüğət tərkibinin zənginləşməsini konkret dil nümunələri ilə aşağıdakı yarımbaşlıqlar altında izah edir:

1.Ümumxalq Azərbaycan danışıq dili və yerli dialektlər mənbəyi.

2.Sözdüzəldci şəkilçilər vasitəsilə.

3.Birləşmə və tərkiblər vasitəsilə.

4.Sözlərin mənalarının genişlənməsi və dəyişməsi yolu ilə.

5.Ərəb, fars sözləri hesabına.

6.Rus dili hesabına ədəbi dilin lüğət tərkibinin zənginləşməsi (A. Məhərrəmov, 1961, s.17- 30). M.Hüseynzadə 1954-cü ildə nəşr etdirdiyi "Müasir Azərbaycan dili" dərs vəsaitində dilimizdə yeni sözlərin yaranmasından bəhs edərək dilin lüğət tərkibinin zənginləşməsinin üç yolla yarandığını göstərir:

1.Ümumxalq danışıq dilindən alınan sadə sözlər.

2.Ümumxalq danışıq dilindən alınıb müxtəlif sözdüzəldici şəkilçilər artırmaqla əmələ gələn yeni şəkilli, yeni məzmunlu sözlər.

3.Söz birləşmələri vasitəsilə əmələ gələn yeni sözlər.

Dilin lüğət tərkibinin alınma sözlər hesabına zənginləşməsini iki yerə bölür: gəlmə və alınma sözlər, rus dilindən və rus dili vasitəsilə başqa dillərdən keçən sözlər (M.Hüseynzadə, 1954, s.23-24).

N.Məmmədov və A.Axundovun «Dilçiliyə giriş» dərsliyinin beşinji fəslində "Lüğət tərkibinin inkişaf yolları" adı altında dilin lüğət tərkibinin zənginləşməsindən bəhs edilmişdir. Əsərdə göstərilir ki, dilin lüğət tərkibi iki mənbə əsasında zənginləşir:

1) dilin daxili vəsaiti hesabıan yaranan sözlər;

2) başqa dillərdən gələn sözlər, yəni alınma sözlər (N. Məmmədov, A.Axundov, 1980,s.111-132).

N.Məmmədov A.Axundovla birgə yazdığı "Dilçiliyə giriş" əsərində Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsindən bəhs edərək yazır: "Dilin lüğət tərkibinin zənginləşmə-sinin

----

*İfadə əsərdə olduğu kimi verilir.

birinji və əsas mənbəyini dilin daxili vəsaiti təşkil edir. Bu mənbədən danışarkən:

a) leksik yolla;

b) morfoloci
yolla;

c) sintaktik
yolla;

ç) kalka (yamsılama) yolu ilə yaranan sözlər nəzərə alınmalıdır"(N. Məmmədov, A.Axundov, 1980, 45, s.111).

A.Qurbanov XX əsr materialları əsasında Azərbaycan dili lüğət tərkibinin

zənginləşməsinin mənbələrindən bəhs etmişdir. A.Qurbanov "Müasir Azərbaycan ədəbi dili" kitabının "Derivatologiya" bölməsində müasir Azərbaycan ədəbi dili lüğət tərkibinin zənginləşməsinin mənbələrindən bəhs edərkən göstərir ki, XX əsrdə Azərbaycan ədəbi dili lüğət tərkibinin zənginləşməsində iki mənbədən istifadə edilmiş və hazırda da bunlardan istifadə olunur: birincisi, dilimizin daxili imkanları, ikincisi başqa dillərin vasitələri (A. Qurbanov, 2003, s.428). Müasir Azərbaycan ədəbi dili lüğət tərkibinin zənginləşməsinin əsas mənbəyini dilin daxili imkanları təşkil edir. A.Qurbanov ədəbi dilin lüğət tərkibinin daxili imkanlar hesabına zənginləşməsini iki yolla baş verdiyini göstərir: birincisi, yeni söz və ifadə yaradılmaqla, ikincisi, dialekt və şivələrdən söz və ifadə götürülməklə (A. Qurbanov, 2003, s.429). Müəllifin fikrincə, dildə yeni söz və ifadələrin yaradılması ilə lüğət tərkibinin zənginləşməsi dörd yolla: leksik yolla, semantik yolla, morfoloji yolla, sintaktik yolla baş verir (A. Qurbanov, 2003, s.429-430).

1978-ci ildə "Elm" nəşriyyatında nəşr edilən "Müasir Azərbaycan dili" (I cild) kitabının "Leksikologiya" bölməsində müasir Azərbaycan dili lüğət tərkibinin iki yolla zənginləşdiyi göstərilir:

1.Müasir Azərbayjan dilinin daxili imkanları hesabına;

2. Alınma sözlər hesabına (MAD, 1978, s.231).

Müasir Azərbaycan dili lüğət tərkibinin daxili imkanları hesabına zənginləşməsinin özü də müxtəlif yollarla baş verir:

1.Sözdüzəltmə;

2.Azərbaycan dilinin öz sözlərindən istifadə yolu ilə yaranan sözlər;

3.Sözlərin mənaca inkişafı nəticəsində yaranan sözlər;

1. Ümumxalq dili və dialekt sözlərindən istifadə yolu ilə yaranan sözlər;

2. Kalka yolu ilə yaranan sözlər (MAD, 1978,s.231).

N.Xudiyev "Azərbaycan ədəbi dilinin sovet dövrü" dərs vəsaitində sovet dövrü Azərbaycan ədəbi dili lüğət tərkibini araşdıraraq, terminologiya, orfoqrafiya, orfoepiya, lüğət tərkibinin inkişafı ilə yanaşı, müasir Azərbayjan ədəbi dili lüğət tərkibinin zənginləşməsini də tədqiqata cəlb etmiş və Azərbaycan ədəbi dili lüğət tərkibinin iki yolla (1.daxili imkanları hesabına; 2.başqa dillərdən alınmalar hesabına) zənginləşdiyini göstərmişdir (N.Xudiyev, 1989, s. 150-151). Eyni zamandan N.Xudiyev əsərinin III fəslində ("Ədəbi dilin lüğət tərkibinin daxili imkanlar hesabına zənginləşməsi") dilimizin daxili imkanlar hesabına zənginləşməsindən, IV fəslində ("Ədəbi dilin lüğət tərkibinin alınmalar hesabına zənginləşməsi") dilimizin başqa dillərdən keçən sözlər hesabına zənginləşməsindən, V fəslində ("Ədəbi dilin lüğət tərkibinin tərcümə ədəbiyyatı hesabına zənginləşməsi") təıcümə yolu ilə ədəbi dilimizin lüğət tərkibinin zənginləşməsindən bəhs etmişdir (N.Xudiyev, 1989, s.150-370). N.Xudiyev dilin daxili imkanlar hesabına zənginləşməsi deyəndə yeni sözlərin yaranmasını, sözlərin semantik inkişafını, ədəbi dili zənginləşdirən leksik dialektizimləri, kalka yolu ilə ədəbi dili zənginləşdirən sözləri və Azərbaycan ədəbi dilinin zənginləşməsində iştirak edən sözləri nəzərdə tutur (N.Xudiyev, 1989, s.151-221) və qeyd edir ki, "Ədəbi dilin zənginləşməsində məna dəyişkənliyinə uğrayan sözlərin, dialektizmlərin, habelə kalka yolu ilə yaranan leksik vahidlərin və xalq dili əsasında yaranmış bir çox sabit birləşmələrin hər biri, dilin daxili inkişafı bu amillərin təsir gücündən və əhatəsindən asılıdır" (N.Xudiyev, 1989, s.151).

Müasir Azərbayjan ədəbi dili lüğət tərkibinin daxili imkanlar hesabına zənginləşməsinə dair ilk monoqrafik və sistemli tədqiqat işini dilçiliyimizdə R.İ.İsrafilova aparmışdır

(R.İsrafilova, 1971). Müəllif doğru olaraq dilin daxili imkanlarını əsas mənbə, alınmaları köməkçi mənbə hesab edir (Rİsrafilova, 1971, s.8)

R. İsrafilova dilin lüğət tərkibinin daxili imkanlar hesabına zənginləşməsini yeddi qrupa bölür ki, bunlar da aşağıdakılardır:

1. Azərbaycan dilinin öz sözlərindən istifadə yolu ilə yaranan sözlər;
2. Sözlərin mənaca inkişafı nəticəsində yaranan sözlər;
3. Ümumxalq dili və dialekt sözlərdən istifadə yolu ilə yaranan sözlər;
4. Tərcümə yolu ilə yaranan sözlər;
5. Kalka yolu ilə yaranan sözlər;
6. Alınma sözlərdən yaranan sözlər;
7. Sözdüzəltmə yolu ilə yaranan sözlər (R.İsrafilova, 1971,s.217).

R.İsrafilova Azərbaycan dili lüğət tərkibinin zənginləşməsi yollarına bir daha qayıdaraq göstərmişdir ki, müasir Azərbaycan dili iki yolla zənginləşir. Bunlardan birincisi, dilin daxili imkanları, ikincisi alınma sözlərdir (R.İsrafilova, 1971, s.230-231). Əlavə olaraq qeyd edək ki, R.İsrafilova son tədqiqatında dilin daxili imkanları hesabına ədəbi dilimizin zənginləşməsindən bəhs edərək onun beş yolunu göstərmiş və buraya "tərcümə yolu ilə yaranan sözlər"lə "alınma sözlərdən yaranan sözlər"i daxil etməyərək göstərir: "Azərbaycan dili daxili imkanlar hesabına aşağıdakı yollarla zənginləşir:

1.Sözdüzəltmə.
2.Azərbaycan dilinin öz sözlərindən istifadə yolu ilə yaranan sözlər.
3. Sözlərin mənaca inkişafı nəticəsində yaranan sözlər.
4.Ümumxalq dili və dialekt sözlərindən istifadə yolu ilə yaranan sözlər.
5.Kalka yolu ilə yaranan sözlər"(R.İsrafilova, 1971,s.231).

M.Şirəliyev və M.Rəhimov sovet dövründə Azərbaycan ədəbi dilinin lüğət tərkibinin inkişafından, ədəbi dilin zənginləşməsindən bəhs etmişlər. Onlar da digər tədqiqatçılar kimi, ədəbi dilin zənginləşməsinin iki mənbəyini göstərmişlər və Azərbaycan dili materialları əsasında belə qənaətə gəlirlər ki, Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı və zənginləşməsi Azərbaycan dilini öz sözləri, ərəb və fars dilləri, rus dili və rus dili vasitəsi ilə baş vermişdir (M.Şiraliev, M.Raqimov, 1973, s.254).

Daha sonra ədəbi dilin zənginləşməsində dilin daxili imkanlarını əsas mənbə olduğunu qeyd edərək dilin daxili imkanlar hesabına dörd yolla zənginləşdiyini göstərirlər:

1. Dialekt və şivələrdən gələn sözlər.
2. Köhnə sözlərin mənalarının genişlənməsi ilə yaranan sözlər.
3. Məhsuldar şəkilçilərin əsasında yaranan yeni mənalı sözlər.
4. İki və daha artıq sözlərin birləşməsi yolu ilə yaranan sözlər (М.Ширалиев, М. Рагимов, 1973, s.254-259).

Azərbaycan ədəbi dili inkişaf etdikjə, onun lüğət tərkibi zənginləşdikjə geniş, fəlsəfi fikirlər ifadə etmək qüdrəti artır. Onun lüğət tərkibindəki işlənən sözlərin bir qruppu dilin daxili imkanları əsasında yaranır, xalq danışıq dilindən və dialektlərindən sözlər (geniş miqyasda) götürülür, qohum olan və qohum olmayan dillərdən sözlər keçir.

Müasir Azərbaycan ədəbi dilinin belə inkişaf prosesi əyani şəkildə göstərir ki, ədəbi dilimizin zənginləşməsi iki mənbə ilə bağlıdır. Həmin mənbələrin hər birinin də özünəməxsus zənginləşmə yolları vardır. Biz də ənənəvi bölgüdən çıxış edərək bu qənaətə gəlirik ki,

müasir Azərbaycan ədəbi dili aşağıdakı mənbə və yollarla zənginləşir:

I mənbə: Azərbayjan xalq danışıq dili.

Bunun özü də bir neçə yolla öz əksini tapır.

a) morfoloji yolla;

b) sintaktik yolla;

c) semantik yolla;

ç) dialektlərdən sözlərin keçməsi yolu ilə;

d) frazeoloji yolla;

II mənbə: Başqa dillər.

a) ərəb və fars dillərindən keçən sözlər;

b) rus dilindən keçən sözlər;

c) rus dili vasitəsilə Avropa dillərindən keçən sözlər;

ç) Avropa dillərindən keçən sözlər.

XIX əsrdən sonra, yəni milli Azərbaycan dilinin formalaşmasından sonra Azərbaycan ədəbi dilinə xalq danışıq dili öz müsbət təsirini daha da genişləndirdi. XVII-XVIII əsrlərdə Qurbani, Abbas Tufarqanlı kimi aşıq şeiri üslubunda yazan şairlər və M.H. Vaqif kimi sənətkarlar tərəfindən qoyulan ənənə XIX əsrdə M.F.Axundzadə, Q.Zakir və başqa Azərbaycan ədibləri tərəfindən davam etdirilmişdir. Bu hadisə - ədəbi dilimizə xalq danışıq dilinin təsiri 1920-30-cu illərdə, eləcə də XX əsrin 50-60-cı illərində genişlənmişdir. Məhz bunun nəticəsidir ki, XIX əsrin sonlarında Azərbayjan ədəbi dilində vaxtilə işlədilən, lakin xalqın artan tələbatını ödəyə bilməyən ərəb və fars sözlərinin yerini xalq danışıq dilini söz və ifadələri almış, ərəb və fars dili Azərbaycan ədəbi dilini zənginləşdirən bir mənbə kimi inkişafdan qalmışdır.

Azərbaycanmın Rusiya tərəfindən işlağından sonra Azərbaycan ədəbi dilinin zənginləşməsində ikinci mənbəni rus dili oynamağa başladı. Bu, həm də Avropa sözlərinin dilimizə gəlməsi üçün geniş imkanlar yaratdı. Bu sahədə Rusiyanın mərkəzlərində təhsil alan, rus və Avropa mədəniyyətinə yaxından bələd olan Azərbaycan ziyalılarının və o jümlədən milli mətbuatımızın «ilk qaranquşum olan "Əkinçi" qəzetinin, 1906-cı ildə nəşrə başlayan "Molla Nəsrəddin" jurnalmm böyük rolu olmuşdur. Bütün bunlar xalq danışıq dilinin Azərbaycan ədəbi dilinə təsiri üçün geniş imkanlar yaratdı. Xalq danışıq dilində yeni söz yaratmaq imkanları öz rəngarəngliyi ilə diqqəti jəlb edir. Belə sözlərin ədəbi dilə keçib onun lüğət tərkibini zənginləşdirməsi dilimizin öz qanunauyğunluğu ilə bağlıdır.

Müasir Azərbaycan Ədəbi Dilinin Lüğət Tərkibinin Dialekt Süzləri Hesabına Zənginləşməsi

Dilin inkişafı, zənginliyi cəmiyyətin inkişafı ilə üzvğ şəkildə bağlıdır. Ədəbi dilin zənginləşməsi müxtəlif mənbələr hesabına baş verir ki, bunlardan biri və başlıjası dilin daxili imkanlarıdır. Dilin daxili imkanları içərisində dialekt və şivələr xüsusi yer tutur. Dialekt və şivələrdə işlənən sözlərin - dialekt leksikasmm özünəməxsus xüsusiyyətləri vardır. Azərbaycan dili dialekt və şivələrində qədim dövrlə bağlı sözlərə rast gəlinir ki, onlar dilimizin müəyyən dövrlərində işlək olmuşdur. Həmin sözlər müasir ədəbi dilimiz üçün

arxaikləşmişdir. Məsələn, yaşırmaq, tuş, ozan, irişmək və s.

M.Şirəliyev yazır: “Dialekt və şivələrimizin lüğət tərkibi uzun əsrlərin məhsulu olduğundan burada Azərbaycan xalqının keçmiş olduğu dövrləri əks etdirən sözlərə təsadüf edirik. Qəbilə, tayfa dövrü ilə bağlı bir sıra tayfa adlarına, qohumluq əlaqələrini bildirən sözlərə indi də dialekt və şivələrimizin lüğət tərkibində rast gəlirik” (M. Şirəliyev, 1967, s.325). Eyni zamanda “Dialekt və şivələrimizin lüğət tərkibində növ anlayışını bildirən sözlərin ümumiləşdiriji anlayışları bildirən sözlərə nisbətən çoxluğudur. Məsələn, ədəbi dildə yağış anlayışını bildirən ümumiləşdirici yağış sözü işlənirsə, dialekt və şivələrimizdə bunun bütün növləri qeyd olunur, məsələn: 1) ağ yağış; 2) dolu yağış; 3) gülşad yağış; 4) sısdı yağış (Muğ.) Yazda kotana qoşulan öküzlərin sırasını bildirən adlar belə göstərilir: birinci cüt: xərəzən, ikinci cüt: qaraqayış, üçüncü cüt: hörük (Bor.) və s.” (M. Şirəliyev, 1967, s.324).

Dialekt sözlərin dilin milliliyini qoruyub saxlayır. “Hər hansı bir dil onu yaradan xalqın tarixi ilə sıx surətdə əlaqədadır. Məhz buna görə də dildə, onun lüğət tərkibində bu və ya digər xalqın tarixini, yadellilərə qarşı mübarizəsini, adət-ənənələrini, məişət tərzini və s. əks etdirən yüzlərcə söz vardır. Bu cəhətdən dialekt və şivələr daha zəngin materiala malikdir, çünki dialekt və şivələrdə qədim dövrlərin izləri, arxaik sözlər ədəbi dilə nisbətən uzun zaman qorunub saxlanır. Digər tərəfdən, dialekt leksikası başqa dillərin təsirinə az məruz qalır, öz «saflığını» demək olar ki, mühafizə edib saxlaya bilir” (R.Rüstəmov 1961, 283 səh.).

Ədəbi dilimizi zənginləşdirən dialekt sözlərin üslubi roluna da toxunulmuşdur. Ə.Dəmirçizadə yazır: “...sözlərdə (dialekt sözlərində - İ.B.) belə qanuniləşmiş hüdud (fonetik və morfoloji dialektizmlərdə olan orfoqrafiya və qrammatik qaydalar kimi - İ.B.) daha çox şərti və qeyri-müəyyən olduğundan qarşılıqlı təsir dilin lüğət tərkibində daha çox baş verir və şivə sözlərinin hesabına sinonimlərin miqdarı artır və ya sinonimlər məqamında şivə sözlərinin işlədilməsinə yol verilmir. Belə bir cəhəti də qeyd edək ki, ədəbi dildə işlədilən sözlərin, hətta əjnəbi-almma sözlərin ümumi ədəbi dildən danışıq dilinə və onun müxtəlif qollarına keçməsi imkanları, xüsusən indiki şəraitdə, daha çoxdur; buna nisbətən ləhcə, dialekt və şivə sözlərinin ədəbi dilə köçürülməsi üçün keçən əsrlərə nisbətən (XX əsrdən əvvəlki əsrlər nəzərdə tutulur - İ.B.) indi şərait daha əlverişli olsa da, həmin sözlərin ümumi ədəbi dilə köçürülməsi getdikcə ciddi şərtlər əsasında məhdudlaşır. Belə hal tamamilə qanunidir; ədəbi dilin bu və ya digər sahəsi hər cəhətdən formalaşmışsa, onun sonrakı inkişafı ilə bağlı olaraq danışıq dilinin ləhcə, dialekt və ya şivə kimi qollarından bu və ya digər dil vahidini alıb işlətmək üçün ciddi şərtlərlə qarşılaşdığımız halda, ədəbi dilin hələ formalaşmamış və yaxud yenicə formalaşmış bir sahəsinin yaradılmasında və ya tam formalaşmasında belə qollardan nisbətən daha geniş dairdə istifadəyə yol verilir” (Ə. Dəmirçizadə, 1962, s.88).

Bədii əsərlərdə istər yazıçının dilində, istərsə də surətlərin dilində dialekt sözləri işlədilir. Surətlərin dilində işlədilən dialekt sözləri əsərə yerli kolorit verir, obrazın dünyagörüşünü, səviyyəsini, düşüncə tərzini müəyyənləşdirir. Bu sözlərin bir qismi ədəbi dilə gətirilir. Çünki dialekt və şivələrimizdə işlədilən belə sözlərə ədəbi dilin ehtiyajı vardır. A.Aslanov bədii əsərlərdə dialektizmlərin yeri məsələsini izah edərkən yazır: “.ədəbi dilin lüğətcə zənginləşməsində dialektlərin də müəyyən rolu vardır. Dialektlərdə olan bir çox sözlər ədəbi dilə daxil olur, ümumişlək sözlərə çevrilir. İndi ədəbi dilimizdə işlətdiyimiz, ilğım, qaysaq, vağam, vağamlamaq, tərəcə və s. kimi sözlər vaxtı ilə yalnız müəyyən dialektə aid olunubdur. Sonralar isə mətbuat və bədii əsərlər vasitəsilə ədəbi dilə daxil olmuşdur” (A.Aslanov, 1971, s.61).

T.Əfəndiyeva dialektləri Azərbaycan ədəbi dili lüğət tərkibinin zənginləşdirən əsas mənbə hesab etməyərək belə qənaətə gəlir ki, müasir dilimiz üçün dialektlər artıq lüğət tərkibini zənginləşdirən əsas mənbə kimi çıxış etmir. Milli dil formalaşdığı dövrdə diaektlərdən ən vajib və xarakter söz və ifadələr artıq seçilib lüğət tərkibinə daxil edilmişdir (T. Əfəndiyeva, 1980, s. 150). Müasir Azərbaycan ədəbi dili zənginləşdirən və işləklilik qazanan dialekt sözlərini T.Əfəndiyeva şərti dialektizmlər adlandırır: "Ədəbi dilimizə keçib sabitləşmiş dialktizmləri şərti dialektizmlər adlandırmaq olar. Məsələn: sayrışan, mürkü, sısqa, ürkək, ərk, işarmaq, totuq, vüqar, ilqar, qayıq, burma, bərli-bəzəkli, ötüşmək, alaqaranlıq, şütümək, girdə, güləş üzlü, qımışmaq, duruş və s. Bu sözlər vaxtilə dialektizm olmuş, lakin bütün xalq tərəfindən qəbul ediləndən bəri ədəbi dilin sərənjamına keçmişdir. Əlbəttə, bunların ədəbi dilə keçməsi bədii üslub vasitəsilə mümkün olmuşdur. Bu və ya digər sənətkar tərəfindən müəyyən üslubi məqamla bağlı bədii əsərə gətirilmiş bu dialektizmlər get-gedə bədii dildə ümumi şəkil almağa başlamışdır. Yəni digər yazıçıların da üsubuna keçmiş, sabitləşmiş və xəlqiləşmişdir" (T.Əfəndiyeva, 1980, s. 155). T.Əfəndiyevanm vüqar, ilqar sözlərini ədəbi dilimizi zənginləşdirən dialektizm götürməsi doğru deyil. Çünki vüqar ərəb mənşəli söz olub "öz heysiyyətini, mənliyini yüksək tutmaq; təmkin, ağırlıq, ciddiyyət, başıujalıq" mənasını bildirir (ADİL, I c., 1964, s.379). İlqar isə ərəb dilində işlənən "ilqar" sözündən əmələ gəlmişdir (ADİL, II c., 1980, s.386) və səs fərqləşməsi (dissimilyasiya) fonetik hadisəsi nəticəsində "iqrar" "ilqar" formasında ədəbi dilimizdə sabitləşmişdir. Dialektlərdə isə "hörmət" mənasında işlənir (ADİL, II c., 1980, s.386).

Müasir Azərbayjan ədəbi dilinin inkişaf prosesi, lüğət tərkibinin zənginliyi sübut və təsdiq edir ki, şivələrdən gələn sözlərin - dialektizmlərin mühüm və əvəzedilməz rolu vardır. Dilimizin tarixi, onun müasir dövrdəki vəziyyəti, inkişaf prosesi göstərir ki, ədəbi dilimizin milliliyinin qorunub saxlanılmasında, yersiz alınmaların dilimizə gəlməsinin qarşısının alınmasında əsas yeri dialekt və şivələrimizdə işlənən sözlər tutur.

Müasir Azərbayjan ədəbi dilində rast gəldiyimiz bir çox terminoloji səciyyə daşıyan sözlərə yalnız dialektlərimizdə rast gələ bilərik. Bu baxımdan əkinçilik, maldarlıq, bostançılıq, bağçılıq, ipəkçilik və s. sahələrə aid kifayət qədər söz və ifadələr dialektlərdə işlənməkdədir. Belə sözlər təsərrüfatın ayrı-ayrı sahələrindəki alət və iş proseslərinin adını və onun hissələrini çox dəqiq və incəliyi ilə əks etdirməklə yanaşı, həm də yığcamlıq, lakoniklik yaradır. Məhz ədəbi dilin zənginləşməsinə yaxından kömək edən yazıçı və şairlər belə bir mənbəyə göz yummamalı və cəsarətlə həmin mənbədə işlənən sözləri götürüb bədii dilə gətirərək ona işləklilik xüsusiyyəti verməlidirlər.

Azərbaycan ədəbi dilinin zənginləşməsinin bir qolunu təşkil edən bütün dialekt və şivələr eyni əhəmiyyətə malikdir. Yəni bu prosesdə bir-iki dialekt yox, dilin bütün dialekt və şivələri iştirak edir, ədəbi dilə söz və ifadələr verir. Belə ki, əgər atçılıqla bağlı ədəbi dil üçün gərəkli olan söz və ifadələr əsasən Qazax-Qarabağ şivələrindən gəlirsə, neft və dənizçiliklə bağlı söz və terminlər Bakı şivəsində, bağçılıqla bağlı söz və terminlər Quba şivəsindən gəlir. Belə söz və terminlər üç yolla ədəbi dilimizə gələrək vətəndaşlıq hüququ qazanır:

1. Bədii üslub vasitəsilə;

2.Elmi üslub vasitəsi ilə;

3.Publisistik üslub vasitəsilə.

Bu baxımdan müasir Azərbaycan ədəbi dilin lüğət tərkibini zənginləşdirən aşağıdakı dialektizmlər daha səciyyəvidir.

Axtarma. Bu söz Füzuli, Xaçmaz, Qusar şivələrində "üzlü pendir" mənasında işlənir

(ADDL,2007, s.17). B.Əhmədov yazır: "...bəzi rayonlarda (məsələn, Füzuli rayonunda) üzlü pendiri belə adlandırırlar. Borçalı dərəsində hər cür üzlü pendirə yox, motalda saxlanılan və üstünə soğ südü tökülmüş pendirə axtarma deyirlər (soğ südü soğulma ərəfəsində sağılan ən yağlı süddür). Belə pendiri əziz qonaqlar üçün başqa motalların arasında gizlədir, sonra tapıb seçmək üçün axtarış aparırlarmış. Adı da buradandır" (B.Əhmədov, 1999, s.35).

Aroy. Paltar sabunla və yuyucu maddələrlə yuyularkən çirkli su əmələ gəlir. Şşivələrimizdə "Çirkli su"yu ifadə edən "aroy" sözü vardır. Aroy sözü Gəncə, Qərbi Azərbaycanın Zəngibasar şivələrində "paltar yuyulduqdan sonra qalan çirkli su", "murdar su" mənasında işlənir (ADDL, 2007, s.26). Bu söz eyni mənada Göyçə şivələrində də işlənir.

"Azərbayjan dilinin izahlı lüğət"ndə bu söz məhəlli (dialekt - İ.B.) söz kimi həm aro, həm də aroy formasında verilir və "paltar yuyulduqdan sonra qalan çirkli su", "çirkab" mənalar daşıdığı göstərilir (ADİL, I c., 1964, s.124).

Arsala. Əti yeyilən heyvanın ayrı-ayrı əzaları vardır. Onlardan biri də budun aşağı hissəsidir. Müasir Azərbaycan ədəbi dilində həmin hissəni adlandıran xüsusi söz yoxdur. Həmin hissəyə ya bud deyilir, ya da budun aşağı hissəsi. Halbuki Qazax, Şəmkir şivələrində "heyvan budunun aşağı hissəsi" mənasında işlənən "arsala" sözü vardır ki (ADDL,2007, s.26), ədəbi dilə gətirilə bilər. Arsala sözü həmin mənada Göyçənin Çəmbərək şivəsində həm də asala fonetik formasında işlənir (ADDL,2007, s.26). Arsala sözü eyni mənada Göyçənin Çəmbərək şivəsinə daxil olan Toxluca kəndində işlənmişdir.

1964-jü ildə nəşr olunan "Azərbayjan dilinin dialektoloji lüğət"ində arsala sözünün "əti yeyəilən heyvanın budu" mənasında işləndiyi göstərilmişdir (ADDL, 1964,s.41).

Aşqara. Azərbayan məişətində işlədilən sözlərdən biri "aşqara"dır. Azərbaycanın milli xörəklərindən biri olan aşın yanına bir qayda olaraq aşqara qoyulur. Məhz elə buna görə də "aşqara" sözü ədəbi dilimizdə öz yerini ala bilmişdir.

Aşqara Oğuz şivəsində "xuruş, plovun qarası" mənasında işlənir (ADDL,2007, s.27). Aşqara sözünün sinonimi kimi Bakı, Şamaxı, İsmayıllı, Kürdəmir, Mingəçevir, Salyan şivələrində "xuruş" (plovda) mənasında qara sözü də işlənir (ADDL, 2007,s.278). "Azərbayjan dilinin dialektoloci lüğəti'nin 1964-jü il nəşrində "qara" sözünün Bakı, Şamaxı və İsmayıllı şivələrində "plovda yeyilən və müxtəlif şeylərdən hazırlanan xuruş" mənasında işləndiyi göstərilmişdir (ADDL, 1964, s. 112). B.Əhmədov aşqara sözünün etimologiyası haqqında yazır: "Aşqara plovun üstünə qoyulan xuruşu bildirir. Birinci (yəni "aş" sözü) plov mənasındadır. Qara komponenti isə qovurmaq sözünün təhrif olunmuş formasıdır. Deməli, aşqara etimoloji baxımdan "plov qovurması" (plov üçün hazırlanmış qovurma) deməkdir. Burada qara sözünün rəng anlamı ilə əlaqəsi yoxdur" (B.Əhmədov, 1999, s.38). Aşqara sözünün ikinci komponenti qara həm də ayrılıqda Bakı, Şamaxı, İsmayıllı, Kürdəmir, Mingəçevir, Salyan şivələrində "xuruş" (plovda) mənasını bildirir (ADDL,2007, s.278).

Atılama. Sərinləşdirici içki kimi su ilə qatığın qarışığından hazırlanan mayedən istifadə edilir və bu sərinləşdirici içkiyə bəzən ayran, bəzən də ovduq deyilir. Əslində ayran və ovduq ayrı-ayrı içkilərdir. Ayran "yağı alınıb su qarışdırılmış qatıq" mənasındadır (ADİL, I, 1964, s.78). Ovduq isə fars mənşəli söz olub, "ayran" mənasını bildirir (ADİL,III,1983, s.432). və ayran sözünün sinonimi kimi işlədilir. Ayran həm də nəhrədə çalxalanmış qaymağm yağı alınandan sonra qalan ağ rəngli mayedir. Bu sözlərin müqabilində Gədəbəy, Şəki şivələrində suya qatılmış qatıq mənasında işlənən atılama sözü işlədilir. Bu sözə eyni mənada Qərbi Azərbayjanın Göyçə şivələrində rast gəlinir.

"Atılama" sözü "Azərbayjan dilinin dialektoloji lüğəti" nin 1964-cü il nəşrində "avdığ",

“suda çalınmış qatıq” mənasında Qazax, Qəbələ, Kəlbəcər şivələrində işləndiyi göstərilir (ADDL, 1964, s.43). 2007-ci ildə nəşr olunan “Azərbaycan dilinin dialektoloji lüğəti” ndə bu sözün yalnız Gədəbəy və Şəki şivələrində “ovduq” (su ilə qatığın qarışığından hazırlanmış sərinləşdirici içki) mənasında işləndiyi göstərilir” (ADDL,2007, s.28). Qatıqla suyun qarışığından əmələ gələn sərinləşdirici içki atılama adlanır və məişətimizdə işlənir. Ədəbi dildə işlətməyə ehtiyaj duyulur. Atılama sözü izahlı lüğətdə atlama formasında “su qatılaraq duru hala salınmış qatıq”, “ayran” kimi izah edilir (ADİL, I, 1964, s.141). Məsələn: Yayın atlaması,qışın umacı (Atalar sözü).

Avazımaq. Bu söz Bakı, Şamaxı, Kürdəmir şivələrində “avazımağ”, Gəncə, Qazax, Gədəbəy şivələrində “avazımax” fonetik formalarında işlənir və “rəngi qaçmaq”, “solmaq”, “soluxmaq” mənasım bildirir (ADDL,2007, s.29). 1964-cü ildə nəşr olunan “Azərbayjan dilinin dialektoloji lüğəti” ndə bu sözün yalnız Gəncə dialektində işləndiyi göstərilmişdir (ADDL, 1964, s. 15). “Azərbaycan dilinin izahlı lüğəti” ndə göstərilir ki, avazımaq “rəngi qaçmaq”, “rəngi solmaq” kimi mənalar ifadə edir (ADİL, I, 1964, s.29). Məsələn: Cəlalzadə Dəmirovun avazımış sifətinə bax dı (S.Rəhimov). B.Əhmədov yazır ki, avazımaq sözünün əsli ağ kəlməsi ilə bağlıdır, ağ rəng bildirən sifətdir, az sözü isə miqdar bildirir: ağaz (yəni azca ağ) sözü -ı şəkilçisi vasitəsilə bərk-i-mək qəlibi üzrə feilə çevrilib “rəngin azca ağarması” deməkdir (B.Əhmədov, 1999, s.6).

Ayranaşı. Müasir Azərbaycan dilində dovğa sözü işlədilir və bu “ayran, göyərti və düyüdən bişirilən xörək” kimi izah edilir (ADİL, II, 1980, s,122). “Dovğa”nın sinonimi kimi dilimizdə ayranaşı sözü də işlədilir. “Azərbaycan dilinin izahlı lüğəti’ndə ayranaşı dialekt sözü kimi verilir və ayrançilo sözü ilə eyniişlədirilərək “ayranda bişirilən aş” kimi mənalandırılır (ADİL, I, 1964, s.78). Əslində “ayranaşı” sözünün mənası düzgün verilməyib. Belə ki, ayranaşı sözü iki komponentdən ibarətdir: ayran və aş. Bu sözün tərkibindəki aş sözü qədim türk dilində xörək mənasında işlənir. Məhz ayranaşı “ayrandan hazırlanan xörək” mənası verir. Amma ümumilikdə ayranaşı “ayranda bişirilən aş” demək deyil. “Ayranaşı” “ayrandan (həm də qatıqdan) göyərti ilə düyüdən bişirilən xörək” deməkdir. Ayranaşı dialekt sözü kimi Qərbi Azərbaycanın Ağbaba, Zəngibasar şivələrində (ADDL,2007, s.31), eləcə də Göyçə şivələrində “dovğa” sözünün sinonimi kimi işlənir. Məhz ayranaşı dialekt sözü kimi ədəbi dilin lüğət tərkibini zənginləşdirir və artıq məişətimizdə geniş şəkildə işlədilir.

Axtaçı. Bərdə şivəsində işlənən axtaçı “heyvanları axtalayan adam” mənasım ifadə edir (ADDL,2007, s.17). “Azərbaycan dilinin izahlı lüğəti’ndə bu söz “at və başqa heyvanları axtalayan adam” kimi izah edilir (ADİL, I, 1964, s.151).

Axtaçı axta sözü əsasında əmələ gəlib. Axta “erkəklik vəziləri kəsilib çıxardılmış, xayası burulmuş” mənasım bildirir (ADİL, I, 1964, s.150).

Axta sözü ilə bağlı B.Əhmədov yazır: “Axta, fars dilində də işlədilir və məsdər forması da (axtən) var. Ona görə də onu alınma hesab etmək ilk baxışda təbii görünür. Amma bizim dilimizdə də (Azərbaycan dilində - İ.B.) onun məsdər forması olub, özü də ğ ilə (ağtarmaq) yazılıb. Qaynaqlarda bu kəlmənin burmaq (qabaqlar heyvanın müvafiq orqanım burmaqla erkəkliyini məhv ediblər), cırmaq, kəsmək, yarmaq, içini boşaltmaq kimi bir neçə mənası qeydə alınıb. Axta sözünün qədim və əsil (hərfi) mənası “astar tərəfi üz tərəfə çevirmək” deməkdir” (B.Əhmədov, 1999, s.35).

Alacalanmaq. Bu söz Qərbi Azərbayjanın Qarakilsə (Sisyan) şivəsində alacallammax fonetik formasında işlənir və “böyümək, genişlənmək” (gözə aid) mənasını ifadə edir (ADDL, 2007, s. 18). Alacalanmaq qorxu, vahimə, həyəcan nəticəsində gözdə əmələ gələn dəyişikliyi

əks etdirir. "Azərbaycan dilinin izahlı lüğəti'ndə alacalanmaq "ala-bula rəng almaq, ala-bula olmaq, rəngarəng olmaq" formasında işləndiyi göstərilir (ADİL, I, 1964, s.86). Məsələn: Verdiyevin gözü alacalandı, dili söz tutmadı (Mir Cəlal).

Alapaça. Bu sözə Azərbaycan dilinin keçid şivələrinə daxil olan Ağdaş şivəsində rast gəlinir. Alapaça Ağdaş şivəsində «paçanın arası ağ at» mənasını bildirir (ADDL,2007, s.20). "Azərbaycan dilinin izahlı lüğəti'ndə göstərilir ki, alapaça sözü "paçasının arası ağ kəhər və ya kürən at" mənasını ifadə edir (ADİL, I, 1964, s.85). "Koroğlu" dastanının obrazlarından biri olan Gizir oğlu Mustafa bəyin atının adı "Alapaça"dır.

Alapaça sözü "qarışıq rəngli, tükünün bir hissəsi ağ, o biri hissəsi başqa rəngdə olan" mənasında işlənən ala (ADİL, I, 1964, s.82) və "bədənin və ya iki qıçın arasındakı hissəsi" mənasında işlənən fars mənşəli paça (ADİL,III,1983s.489) sözlərinin birləşməsindən əmələ gəlmişdir.

Albuxara. Albuxara müasir ədəbi dilimizdə geniş şəkildə işlənir və artıq ümumişlək sözlərimizdən biridir. Albuxara Təbriz şivəsində "gavalı", "balaca gavalı" mənasında işlənir (ADDL, 2007, s.21; M.Məmmədli, 2007, s. 203). "Azərbaycan dilinin izahlı lüğəti'ndə albuxara "qurudulmuş Buxara gavalısı" kimi izah edilir (ADİL, I, 1964, s.87). Məsələn: (Şagird) yerdə əyləşib ət doğramağa, məğzibadam, badımcan, albuxara təmizləməyə məşğul idi (Ə.Haqverdiyev). Fikrimizcə, albuxara qədim Azərbaycan dilində "qırmızı" mənasında işlənən al sözü ilə Buxara sözünün birləşməsindən yaranmışdır.

Alışma. Bu söz Qazax, Ağdam, Cəbrayıl, Şəmkir, Tovuz şivələrində "bir neçə adamın şərikli (qoyun, mal və s.) müəyyən bir şeyi alıb bölüşməsi" mənasında işlənir (ADDL, 2007, s.22). Məsələn: [Bəxti:] Ay balam, mənim öz ətim ola-ola niyə qoja inəyə alışma olum (S.Rəhimov).

Alışma 1964-cü ildə nəşr olunan "Azərbaycan dilinin dialektoloji lüğəti'ndə (ADDL,1964, s.33), "Azərbaycan dilinin izahlı lüğəti"ndə (ADİL, I, 1964, s.92) "bir neçə adamın şərikli qoyun və ya mal kəsməsi" mənasında işləndiyi göstərilir.

Alışma Qərbi Azərbayjan şivələrində də həmin mənada işlənir.

Anadil. Qazax şivəsində anadil "quş adı" mənasında işlənir (ADDL,2007, s.23). 1964-cü ildə nəşr olunan dialektoloji lüğətdə anadil "gözəl səsli bir quş" kimi izah edilmişdir (ADDL,1964, s.36).

Qarayazı meşəsində anadil adlı bir quş var.
Mənim sevdalı qəlbimtək asılmışdır ayağından
Yolum düşsün Salahlıya, o qəbirə diz çöküm bir də
Anam Məhbubu yad ilə öpüm solğun yanağından.
Aman tale! Nə möhnətmiş onun dərdi, mənim dərdim...
Bahar fəslində ayrıldı qızılgül öz budağından
(S.Vurğun. Seçilmiş əsərləri, I j., 1976, s.283).

Anac. Bu söz Quba, Şamaxı, İsmayıllı şivələrində anac, Gənjə, Qazax, Şuşa şivələrində anaş formasında işlənərək "qocalmış, qartalmış toyuq" mənasını bildirir (ADDL,1964,s.36). Anac müasir Azərbaycan ədəbi dilində heyvanlara aid olaraq "dəfələrlə bala doğub, yaxud bala yetişdirib qartalmış", "iri, yekə, güclü, qüvvətli" mənalarını bildirir (ADİL, I, 1964, s.106).

Göygöl şivəsində anaş fonetik formasında anac sözü "hər işdən baş çıxaran, hər bcjlik və əməl bilən" mənasını bildirir (ADDL,2007, s.24).

Armax. Şəmkir şivəsində işlənən armax sözü "həvəskar, həvəsli" mənalarını bildirir

(ADDL,2007,s.26). 1964-cü ildə nəşr olunan dialektoloji lüğətdə armax "xoşlayan, sevən, həvəsli" kimi izah edilmişdir (ADDL,1964, s.40).

Atlandırma. Azərbaycan dilinin etnoqrafik leksikasına daxil olan leksik vahidlərdən biri də atlandırma sözüdür. Bu söz Şəmkir şivəsində atdandırma formasında "kənd toylarında atlılar ata minən zaman zurna ilə çalınan hava (marş)" mənasında işlənir (ADDL, 2007,s.27). Atlandırma "Azərbaycan dilinin izahlı lüğəti'ndə "Kənd toylarında gəlini bəy evinə aparmaq üçün ata mindirdikdə və atlılar ata mindikdə zurna ilə çalıan havanın adı" mənasında işləndiyi göstərilmişdir (ADİL, I, 1964, s. 141-142). B.Əhmədov atlandırma sözünün etimologiyası barədə yazır: "Keçmişdə gəlini atasının evindən ər evinə atla aparırdılar. Buna "gəlin atlandı" deyirdilər. Həmin mərasim zurnada ifa olunan xüsusi hava ilə müşayiət edildiyindən, musiqi havası da atlandırma adlandırılmışdır. İndi məna bir qədər dəyişib: gəlini maşınla aparırlar, lakin havanın adı yenə atlandırma kimi qalmaqdadır" (B. Əhmədov, 1999, s.33).

"Atlandırma" havasının adı indi "Vağzalı" adı ilə adlandırılır. Ancaq "atlandırma" sözündə millilik daha qabarıq şəkildə özünü göstərir.

Ayaqçı. Müasir dövrdə müəssisə və təşkilatlarda kuryer vəzifəsində işləyənlər var. Onların vəzifəsi işlədiyi müəssisə və təşkilatların sənədlərini lazımi təşkilatlara çatdırmaqdır. Kuryer mənşəcə fransız dilinə mənsub olub "idarə kağızlarını aparıb paylayan işçi" mənasını bildirir (ADİL,III,1983, s.121).

Dilin milliliyi əsasən lüğət tərkibinin öz sözlərinin çoxluğu ilə bağlıdır. Azərbaycan dili də dünyanın zəngin dillərindən biridir. Bu baxımdan kuryer sözünün qarışılığı kimi və həmin mənanı ifadə edən şivələrimizdə ayaqçı sözü vardır. Ayaqçı "idarədə müəyyən kağız və sənədləri aparıb gətirən, müəyyən iş icra etmək üçün göndərilən adam" mənasını bildirir. Məsələn: İdarənin ayaqçısı qaçaraq Şirzada yaxınlaşdı (M.İbrahimov). Ayaqçı ayaxçi və əyaxçı formalarında Lənkəran, Ağdam şivələrində "qapı-qapı gəzib mal alıb satan, çərçi" (ADDL,1964, s.25), Lənkəran və Bərdə şivələrində "xeyirdə və şərdə xidmət edən adam" (ADDL,1964, s.25), Salyan və Qazax şivələrində "idarə xidmətçisi" (ADDL,1964, s.25) mənalarında işlənir.

"Azərbaycan dilinin izahlı lüğəti'ndə ayaqçı həm dialekt, həm də köhnəlmiş söz kimi "qapı- qapı gəzib mal satan adam", "çərçi", qədim süz kimi "keçmişdə qədəh gəzdirən, şərab paylayan", "saqi" mənaları ilə yanaşı, "kağız paylayan, kuryer" mənasında işləndiyi göstərilir (ADİL, I, 1964, s.72). Ayaqçı sözü haqqında M.Şirəliyev yazır: " Məlum olduğu ğzrə ayaqçı sözü də arxaik süzlərdən olub, mənasını get-gedə daraltmışdır. XI əsrdə yazılmış Mahmud Kaşğarinin lüğətində ayaqçı formasında bu süz "gildən qab-qacaq qayıran, kuzəçi" mənasında işlənir. Azərbaycanda sovet hakimiyyətindən əvvəl isə ayaqçı sözü iki mənada işlənmişdir:

1) qapı-qapı gəzib mal alıb satan;

2) xeyirdə və şərdə xidmət edən adam. Hal-hazırda isə bu söz mənasını daraldaraq ancaq idarə kuryeri mənasında işlənir" (M. Şirəliyev, 1967, s.340).

Bu baxımdan kuryer sözünü ayaqçı sözü tam əhatəliyi ilə əvəz edə bilir və bu söz ədəbi dilimizin lüğət tərkibini zənginləşdirən dialektizmlərdən biridir.

Bələn. Bu söz dialektizm kimi "Azərbaycan dilinin izahlı lüğəti'ndə əksini tapmış və "dağ döşündə tala" mənası verdiyi göstərilmişdir (ADİL, I, 1964, s.245). Bələn sözünə şifahi xalq ədəbiyyatında rast gəlirik: Eyvaz Koroğluynan bərabər qoyunları hayladı, bələndən aşırdı ("Koroğlu" dastanı). "Bələn" sözü coğrafi termin olmaqla Azərbaycanın dilinin Gəncə, Qazax, Şəmkir, Tovuz şivələrində, Qərbi Azərbaycanın Qarakilsə şivəsində "dağ aşırımı" mənasını ifadə edir (ADDL, 2007, s.49). "Azərbaycan dilinin dialektololi lüğəti'nin 1964-cü

il nəşrində bələn sözünün yalnız Qazax şivəsində işləndiyi və “dağın döşündən başlayan xırda aşırım” mənasını bildirdiyi göstərilmişdir (ADDL, 1964, s.69).

Bələn sözü həm də Azərbayjan dilinin Borçalı və Cəbrayıl şivələrində “hündür yer, təpə” mənasında işlənir (ADDL,2007, s.50).

Fikrimizcə, bələn sözü coğrafi termin kimi ədəbi dilimizdə işlənmək hüququ qazana bilər. **Boğazdaşmaq**. Kənd təsərrüfatında bir neçə termin var ki, xalq danışıq dilindən, şivələrdən götürülmüşdür və Azərbaycan ədəbi dilində işləklilik hüququ qazanmıqdır. Bu da onunla bağlıdır ki, şivələrdə işlənən sözlər ifadənin daha dəqiq verə bilir və çoxkomponentli terminlərin işlənməsinin qarşısını alır. Dilimizdə taxıla aid “sünbüllənmək”, “sünbül çıxarmaq ərəfəsində olmaq” termini işlədilir. Birincisi, “sünbüllənmək” ayrı bir proseslə bağlı olur, digər tərəfdən “sünbül çıxarmaq ərəfəsində olmaq” çoxkomponentli termindir. Azərbaycan dilinin Füzuli şivəsində “boğazdaşmax” sözü vardır (ADDL, 2007, s.60). Fikrimizcə, taxılın “sünbül çıxarmaq ərəfəsində olmağ”ını bildirmək üçün “boğazdaşmaq” sözünü götürüb ədəbi dilimizdə işlədə bilərik. Belə ki, boğazdaşmaq fikrin dəqiqliyinə daha imkan yaradır.

Boylu. Müasir Azərbaycan dilində hamilə sözü işlənir. Bu söz mənşəcə ərəb dilinə mənsub olub “hamiləlik vəziyyətində olan”, “ikicanlı, boylu, boyu- dolu” mənalarında işlənir (ADİL, IV, 1987, s.355). Hamilə sözünün qanşılığı kimi Şəki, Ağcabədi, Ağdam, Bərdə, Yardımlı (ADDL,2007,s.62), eləcə də Qərbi Azərbaycanın Göyçə şivələrində “boylu” sözü işlədilir. Bu söz “Azərbaycan dilinin izahlı lüğəti’ndə danışıq dilinə mənsub söz kimi əksini tapmışdır (ADİL,I, s.303). Xalq danışıq dilində “ikicanlılıq, hamiləlik” mənasında işlənən boyluluq (ADİL,I,1964, s.303) elə boylu sözü əsasında əmələ gəlmişdir. Boylu sözündə Azərbaycan dilinə məxsus sözlərə verilən xüsusiyyətlər tam əksini tapır. Məhz bu baxımdan hamilə sözünün əvəzinə boylu sözünün işlədilməsi dilimizin həm zənginləşməsinə, həm də təmizlənməsinə xidmət edə bilər.

Bulğur. Müasir Azərbaycan dilində “yarma” sözü vardır. Yarma “dingdə döyülmüş dən”, “yarmadan bişirilmiş sıyıq xörək” mənasında işlənir (ADİL, II, 1980, s.505). Lakin iri dənəli yarmalar da vardır ki, buğdadan alınır və bu, yarmadan tamamilə fərqlənir. Bu cür yarmalar Qərbi Azərbaycanm Ağbaba, Qarakilsə şivələrində bulğur adlandırılır (ADDL, 2007,s.66). Bulğur İraq-türkman ləhcəsində burğul formasında işlənir (İraq-türkman,2004, s.350). Müasir türk dilində də bulğur tipli yarmalar geniş istehsal edilir və belə yarmadan Azərbaycan məişətində istifadə edilir. Buna görə də bulğur sözü müasir Azərbaycan dilinin lüğət tərkibini zənginləşdirən söz kimi dilimizdə işlədilir.

Burxac. Azərbaycan dilində müxtəlif hidroterminlərdən istifadə edilir. Bu hidroterminlərin bəziləri çoxkomponentli sözlərdən ibarət olur və bu da Azərbaycan dilində terminlərə məxsus xüsusiyyətlərə uyğun gəlmir. Azərbaycan dilində çayda su müxtəlif formalarda axır: gah yavaş, gah sürətli. Sürətli axan yerlərə “çayda suyun iti axan yeri” deyilir. Halbuki Azərbaycan dilinin Şəmkir şivəsində (ADDL, 2007, s.67), eləcə də Qərbi Azərbaycanm Göyçə şivələrində bu, burxac termini ilə ifadə edilir. Məhz burxac sözü hidrotermini kimi ədəbi dilimizə gətirilə bilər. Burxac “burulmaq” sözü əsasında yaranmışdır.

Bölmə. Müasir Azərbayjan ədəbi dilində nəlbəki sözü geniş şəkildə işlənir. Nəlbəki “stəkan, fincan altına qoyulan müxtəlif ölçülü çini və ya şüşə qab” mənasını bildirir (ADİL, III, 1983, s.465). Bununla yanaşı Azərbaycan dilinin Gəncə, Qazax, Şəki, Cəbrayıl, Şəmkir, Zaqatala, Zəngilan şivələrində, Qərbi Azərbaycanm Ağbaba, Qarakilsə, Gürcüstanın Bolnisi, Borçalı şivələrində (ADDL, 2007, s.64), eləcə də Qərbi Azərbaycanın Göyçə şivələrində “nəlbəki” sözünün qarşılığı kimi bölmə sözü işlədilir. Azərbaycan dili şivələrində geniş bir

dairədə işlədilən bölmə sözü ədəbi dildə nəlbəki sözünün qarşılığı kimi işlənmək hüququna malikdir və ədəbi dilimizi zənginləşdirir.

Bordamaq. Müasir Azərbaycan ədəbi dilində heyvanlara aid "kökəltmək", "bəsləmək" sözü işlədilir. Bu sözləri həm insanlara, həm də heyvanlara aid etmək olur. Lakin Gədəbəy, Qərbi Azərbaycanın Basarkeçər (ADDL,2007,s.61), Çəmbərək şivələrində "kökəltmək", "bəsləmək" mənasında birbaş heyvanlara aid bordamaq sözü vardır. Məhz buna görə də bordamaq sözü ədəbi dilimizi dialektizm kimi zənginləşdirir. Bordamaq sözünə mənaca yaxın olan müxtəlif qrammatik formada Gəncə, Qazax, Şuşa, Qərbi Azərbaycanın Basarkeçər şivələrində "kökəldilmiş", "bəslənmiş" mənasında bordax (ADDL,2007, s.61), Qazax, Tərtər, Qərbi Azərbaycanın Çəmbərək şivələrində "kökəltmək", "bəsləmək" mənasında bordaxlamax (ADDL, 2007, s.61) sözləri işlənir.

"Azərbaycan dilinin izahlı lüğəti'ndə "bəslənmək, yaxşı yedirilib kökəldilmək" (ev heyvanları haqqında) mənasını bildirən bordamaq, eləcə də bordaqlamaq, bordaqlama, bordaqlanmaq sözləri verilmişdir və bu süzlər ədəbi dilimizdə işlədilir(ADİL, I, 1964, s.308).

Cığğığa. Qadının bəzək şeylərinin müxtəlif adları olur. Azərbaycan dilində qadının bəzək əşyalarından biri də cığcığa adlanır. Cığcığa Gəncə, Culfa və Şərur şivələrində işlənir və cığcığa "bəzək şeyləri" mənasında işlənir (ADDL, 2007,s.75). Qərbi Azərbaycanın Zəngibasar şivəsində cığcığa sözünə ciyciyə fonetik formasında rast gəlinir.

Cığcığa etnoqrafik sözdür və ədəbi dildə "gəlin gedən qızların başına salınan qızıl parıltılı bəzək şeyi" mənasını bildirir (ADİL, IV, 1987, s.485). Məsələn: Gəlinin və yengələrin duvaqları aşağı salındı, üzlərinə duvağın üstündən cığcığa taxılmışdı (Y.V. Çəmənzəminli). Bu əşyadan müasir dövrdə də istifadə edilir. Məhz cığcığa sözü zərgərlik termini kimi ədəbi dilimizin lüğət tərkibini zənginləşdirir.

Çağ. Ayaq müxtəlif oynaqlardan ibarətdir və onların hər birinin özünəməxsus anatomik funksiyası vardır. Lakin bu oynaqlardan biri barmaqları ayaq pəncəsi ilə birləşdirməyə xidmət edir. Bu oynaq Azərbaycan dilinin Daşkəsən və Göygöl şivələrində çağ adlanır və "barmaqların ayaq pəncəsi ilə birləşdiyi oynaq" mənasını bildirir (ADDL, 2007, s.70). Fikrimizcə, çağ bir anatomik termin kimi ədəbi dilimizdə işlədilə bilər.

Çal. Azərbaycan dilində işlənən oroterminlərdən biri "çal" sözüdür. "Çal" sözü Azərbaycan ədəbi dilinə keçən dialektizmlərdən biridir. Bu söz Azərbaycan dilinin Qazax, Göygöl şivələrində "dağ döşü", "yamac" mənasında işlənir (ADDL,2007, s.86). "Azərbaycan dilinin izahlı lüğəti'ndə çal sözü "bitkisi az olan və ya heç olmayan", "boz" mənaları daşıdığı göstərilir (ADİL,IV,1987, s.412). Türk dillərində çal sözü toponimlərin tərkibində "təpə, daşlıq, yer", "kiçik dağ", "bitkisi az olan boz" mənasında işlənir: Qoşaçal, Çalbayır, Çaldağ ,Qaraçal, Çalburun (İ. Bayramov, 2000, s.59).

Çeşdək. Heyvandarlıqda, o **c**ümlədən qoyunçuluqda müxtəlif sağım növü vardır. Bunlardan biri səhər tezdən qoyunların sağına aparılma prosesidir. Bu prosesi bildirən Qərbi Azərbay- **c**anm Basarkeçər şivəsində "səhər sağını" mənasında işlənən çeşdək sözü vardır (ADDL, 2007, s.92). Bu söz ədəbi dilimizdə işlənə bilər.

Çöpük. Yun həm keyfiyətli, həm də keyfiyyətsiz hissələrdən ibarətdir. Keyfiyyətli hissə yaxşı darandığı halda, keyfiyyətsiz hissə çətinliklə daranır. Qazax, Ağdam, Basarkeçər, Gədəbəy, Xocavənd, Zaqatala şivələrində çöpüx' (ədəbi dildə çöpük - İ.B.) sözü işlənir və "yorğan-döşəyin içərisində işlənib xarab olmuş yun", "yun daranarkən darağın dişlərində qalan yararsız hissə" mənalarını bildirir (ADDL, 2007, s. 106). "Yunun darana bilməyən keyfiyyətsiz hissəsi" mənasını bildirən çopux sözü Oğuz və Zaqatala şivələrində işlənir

(ADDL,2007, s.105). Eyni zamanda Şəki şivəsində "yorğan-döşəyin içərisindəki işlənib xarab olmuş yun" mənasında "çöpix' " sözünə rast gəlinir (ADDL, 2007, s.106). Fikrimizcə, **çöpük** sözü ədəbi dilə gətirilə bilər.

Çor. Azərbayjanda kənd təsərrüfatının pambıqçılıq, üzümçülük sahəsi xğsusi yer tutur. Üzümlərdə müxtəlif xəstəliklər vardır. Onlardan geniş yayılanı "çor" xəstəliyidir. Bu söz Cəbrayıl, Şərur şivələrində işlənir və "üzüm tənəklərinə, meyvə ağajlarına düşən xəstəlik" mənasını bildirir (ADDL, 2007,s.105). Çor sözü "Azərbaycan dilinin izahlı lüğəti"ndə, əsasən "pambıqda, bəzən də başqa bitkilərdə xəstəlik" kimi mənalandırılmışdır ADİL, IV, 1987, s.447). Dialekt sözü kimi çor sözü müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibini zənginləşdirmişdir.

Çuğul. Tikintidə müxtəlif alətlərdən istifadə edilir. Bənnalar tikdikləri evin divarına xüsusi fikir verir. Əgər bina simmetrik baxımdan düz olmazsa, divarda əyrilik əmələ gələr və axırda zay olar, uçar. Buna görə də bənnalar divarın düzlüyünü yoxlamaq üçün sivri uclu, ipə bərkidilmiş əşyadan istifadə edir ki, buna çuğul deyilir. Çuğul sözü Göyçay, Oğuz, Salyan, Tovuz, Qərbi Azərbaycanın Basarkeçər şivələrində "divarın düzlüyünü yoxlamaq üçün istifadə edilən alət" mənasında işlədilir (ADDL, 2007, s.107).

Çiləkən. Axar suyun qabağına müxtəlif əşyalar yığılır. Bəzi ərazilərdə axar suyun qabağına yıığlan əşyalar "çör-çöp, zir-zibil" adlandırılır. Lakin bu sözlərin heç biri axar suyun qabağına yığılanları düzgün ifadə edə bilmir. Belə ki, çör-çöp, zir-zibil müxtəlif yerlərdə olur. Azərbaycan dilinin Qazax, Cəbrayıl, Oğuz, Tovuz, Zəngilan, Qərbi Azərbaycanın Çəmbərək şivələrində "axar suyun qabağına yığılan çör-çöp, zir-zibil" (ADDL, 2007, s. 101), "çaylarda və ya su arxlarında suyun axmasına mane olan çör-çöp, mane" (İ. Bayramov, 1999, s.72) mənasmda çiləkən sözü işlənir. Məsələn: Ayə, yuxarıdan sür, arabanı çiləkənə vurub döndərərsən (İ.Şıxlı).

Daban. Ümumişlək söz olaraq daban "insan və heyvan ayağının dal hissəsi", "ayağa geyilən şeylərin arxa hissəsi" mənalarında işlənir (ADİL, II, 1980, s.8). "Azərbaycan dilinin izahlı lüğəti'ndə daban həm də dialekt sözü kimi "dəyirmanın üst daşını yuxarı qaldırmaq üçün dirəklərdən düzəldilən qurğu" mənasında işləndiyi göstərilmişdir (ADİL, II, 1980, s.8). Daban sözü Azərbaycan dilinin Qazax, Qərbi Azərbaycanın Qarakilsə şivələrində "dəyirman daşının işini nizamlayan dəmir hissə" mənasında işlənir (ADDL,2007, s.109). 1964-cü ildə nəşr olunan "Azərbaycan dilinin dialektoloji lüğəti'ndə daban sözünün Qazax, Tovuz, Qərbi Azərbaycanın Qafan şivələrində "dəyirmanda unu müntəzəm üyütmək üçün daşı eyni vəziyyətdə saxlayan dəmir hissə" mənasını bildirdiyi göstərilmişdir (ADDL,1964,s.160). "Dəyirman daşının işini nizamlayan dəmir hissə" mənasında işlənən daban sözü dialektizm kimi ədəbi dilimizi zənginləşdirir.

Dabanyarpağı. İstər üzüm tənəyində, istərsə tütündə dib hissədə yarpaq əmələ gəlir. Belə yarpaq Salyan şivəsində dabanyarpağı adlanır və "tənəyin dib hissəsində əmələ gələn yarpaq" mənasını bildirir (ADDL, 2007, s.109). Bu sözə eyni mənada Qərbi Azərbaycanın Çəmbərək şivəsində də rast gəlinir. Məhz dabanyarpağı sözü ədəbi dilimizdə işlədilə və dialekt sözü kimi lüğət tərkibində işləklilik qazana bilər.

Dağavar. Müasir Azərbaycan ədəbi dilində dağlıq əraziyə nisbətən uyğun gələn ərazi dağətəyi adlanır. Dağətəyi "dağın düzənliyə qovuşan maili tərəflərində yerləşən" mənasını bildirir (ADİL, II, 1980, s.13). Həmin məfhumu, yəni dağlıq və ya dağətəyi ərazini aydın şəkildə tamlıqla ifadə edən dialekt sözü vardır. Bu, dağavar sözüdür. Dağavar sözü "dağlıq" mənasında Qazax, Gürcüstanın Borçalı şivələrində, "dağətəyi" mənasında, Bərdə şivəsində

işlənir (ADDL,2007, s.110). 1964-cü ildə çap olunmuş "Azərbaycan dilinin dialektoloji lüğəti'ndə dağavar sözünün Qazax şivəsində "dağlıq (yer)" mənasında işləndiyi göstərilmişdir (ADDL,1964, s.163).

Dağçı. Müasir Azərbaycan dilinin morfoloji yolla söz düzəldən şəkilçilərdən biri -çı şəkilçisidir. Dağçı dağ sözünə -çı şəkilçisinin artırılması yolu ilə əmələ gəlmişdir. Dağçı sözü Qazax şivəsində işlənir və "yay mövsümündə dağda yaşayan adam" mənasını bildirir (ADDL, 2007, s.111). "Azərbaycan dilinin dialektoloji lüğəti'nin 1964-cü il nəşrində dağçı sözünün Qazax şivəsində "binə vaxtı dağda yaşayan adam" anlamında işləndiyi göstərilmişdir (ADDL, 1964, s.164). Əlavə olaraq onu qeyd edək ki, Qərbi Azərbaycanın Zəngi basar şivəsində dağçı sözü "dağlıq ərazidə yerləşən kəndlərdə yaşayan adam" mənasında işlənir. Qazax şivəsində "yay mövsümündə dağda yaşayan adam" mənasını bildirən dağçı sözü ədəbi dilimizin lüğət tərkibində işlənmək hüququ qazanmışdır.

Damdançıxma. Azərbaycan dilində heyvanlar, onların balaları ümumi şəkildə adlandırılır. Lakin xalq danışıq dilində, ayrı-ayrı şivələrimizdə heyvanlara, o cümlədən iribuynuzlulara yaşlarına görə adlar verilir. Belə adlardan biri "damdançıxma"dır. Bu söz Qazax, Şamaxı, Kəlbəcər, Tovuz şivələrində (ADDL, 2007, s.114), o cümlədən Göyçə şivələrində işlənir. Damdançıxma Şamaxı şivəsində "inəyin ikiillik erkək balası", Qazax və Tovuz şivələrində "inəyin birillik balası", "buğaya gələn üçillik inək", Kəlbəcər şivəsində "camışın ikiillik balası" mənalarını bildirir (ADDL, 2007, s.114).

Davar. Azərbaycan dilində işlənən "qoyun" sözü Təbriz şivəsində davar sözü ilə ifadə olunur (ADDL, 2007, s.120; M.Məmmədli, 2008, s.207). Bu söz eyni formada və mənada Göyçə şivələrində də işlədilir. Davar sözü ədəbi dilə gətirilərək qoyun sözünün sinonimi kimi işləklilik qazanmışdır.

Dəbbələmək. Azərbaycan dilində işlənən frazeoloji söz birləşmələrinin xüsusiyyətlərindən biri qarşılığının bir sözlə verilməsidir. Azərbaycan dilində "sözündən qaçmaq", "sözündən dönmək" frazeoloji birləşməsi işlədilir. Bu frazeoloji birləşməni bir sözlə - dəbbələmək sözü ilə ifadə etmək olur. Dəbbələmək Qazax, Beyləqan, Göyçay, Kürdəmir, Masallı, Ucar, Qərbi Azərbaycanın Çəmbərək, Qarakilsə şivələrində "sözündən qaçmaq" mənasında işlənir (ADDL, 2007, s.122). "Azərbaycan dilinin izahlı lüğəti'ndə dəbbələmək "razı olduğu və haqqında sazişə gəldiyi şeydən imtina etmək", "sözündən dönmək, qaçmaq" kimi izah edilmişdir (ADİL, II, 1980, s.54).

Döllək. Müasir Azərbaycan ədəbi dilində -laq, -lək şəkilçisi vardır və bu şəkilçilər məkan mənası bildirən sözlər düzəldir. Mövcud qrammatika kitablarında hər iki şəiklçi göstərilsə də, yalnız -laq şəkilçisi ilə düzələn sözlərə aid nümunələr verilir. Apardığımız araşdırmalardan belə qənaətə gəlirik ki, dilimizdə -lək şəkilçisi ilə düzələn söz vardır. Bu, Qərbi Azərbaycanın Çəmbərək şivəsində işlənən döllək sözüdür. Döllək döl götürülən yer deməkdir və bus öz döl sözündən əmələ gəlmişdir. Döl sözü müasir ədəbi dilimizdə geniş şəkildə işlənir və "rüşeym, maya", "cins", məcazi mənada "nəsil" mənalarını bildirir (ADİL, II, 1980, s.147). Bu söz XVI əsrdə Şah İsmayıl Xətainin dilində də işlənmişdir:

Quzuladı qoyunlar, töküldü döllər.

Fikrimizcə, -lək şəkilçisi ilə düzələn döllək sözü ədəbi dilimizdə işləklilik hüququ qazana bilər.

Əlavə olaraq qeyd edək ki, İmişli, Ağdam, Qərbi Azərbaycanın Qarakilsə şivəsində "döllək" sözünə rast gəlinir. Döllək Qarakilsə şivəsində "qoyunu doğuzduran adam", İmişli şivəsində "yeni doğmuş qoyun", Ağdam şivəsində isə "təzə yeməyə başlayan quzu sürüsü"

mənalarında işlənir (ADDL, 2007, s.142).

Döyməc. Azərbaycan kulinariyası zəngindir və yemək növlərinin müxtəlifliyi ilə diqqəti cəlb edir. Azərbaycan etnoqrafiyasının bir sahəsini təşkil edən xörək adlarının bir qrupu dialekt sözləri ilə ifadə olunur. Kulinariyamızda yer tuta biləcək belə xörək adlarından biri döyməc adlanır. Döyməc şivələrimizdə “yağa doğranmış isti çörək”, “yağ doğramacı” mənasını bildirir (ADDL, 2007, s.144). Döyməc sözü İmişli şivəsində “döğməc”, Gədəbəy şivəsində “döymənc”, “döyməş”, Qazax və Gədəbəy şivələrində “döymənc”, Gəncə, Şuşa və Gədəbəy şivələrində “döyməş”, Ağdam, Qubadlı, Qərbi Azərbaycanın İrəvan və Qarakilsə şivələrində “döyməc” formalarında işlənir (ADDL,2007, s.142-144).

Döyməc sözü Şəki, Oğuz şivələrində “meyvəni (alça, zoğal, alma, gavalı və s.) döyüb əzərək hazırlanmış yemək” mənasım bildirir (ADDL, 2007, s.144). 1964-cü ildə nəşr olunmuş “Azərbaycan dilinin dialektoloji lüğəti” kitabında döyməc sözü döymənc (Qazax), döyməş (Gəncə, Şuşa), döyməc (Qubadlı), döyməcə (Ağdam) formalarında “yağla qarışdırılmış doğranmış isti çörək” mənasında işləndiyi göstərilir (ADDL, 1964, s.200). “Azərbaycan dilinin izahlı lüğəti’ndə döyməc sözü dialekt sözü kimi verilir və “yaş meyvənin döyülməsi ilə hazırlanan yemək”, “doğranmış çörək və pendiri qarışdırıb yağda qovurmaqla hazırlanan yemək” kimi mənalarındırılır (ADİL, II, 1980, s.146). Məsələn: Gün uzun, külfət oruc,düyməc ilə keçmir əməl (M.Ə.Möcüz).

Dişəmək. Azərbaycan dilində uşağın diş çıxarmasına dişəmək deyilir. Dişəmək sözü Gəncə, Füzuli, Cəbrayıl (ADDL, 2007, s.137), Qərbi Azərbaycanın Çəmbərək şivələrində işlənir və “dişini dəyişmək” mənasını bildirir.Dişəmək müasir Azərbaycan ədəbi dilində “dəyirman daşını dişə ilə kələ-kötür etmək” mənası ilə yanaşı (Məsələn: Qoja ikiağızlı yonğu çəkici ilə daş dişəyirdi (S.Rəhimov), “ağzı diş-diş olan alətləri itiləmək”, “yaş yeddiyə çatanda diş tökmək” mənalarında da işlənir (ADİL, II, 1980, s.118).

Dişləmə. Azərbaycanda çaydan çox istifadə edilir. Yalnız qəndlə və ya başqa şirniyyatla içilən çaylar ya adi çay, ya da acı çay adlandırılır. Bu cür içilən çaylar Ağdam, Şuşa şivələrində tisdəmə (ADDL,2007, s.499), Qərbi Azərbaycanın Çəmbərək şivəsində dişdəmə adlanır. Fikrimizcə, dişləmə sözü ədəbi dildə rahat işlənilə bilər. Bu söz Azərbaycan dilinin qrammatik qaydalarına tam cavab verir. Belə ki, dişləmə sözü dişlə feilinə -mə leksik şəkilçisinin artırılması ilə əmələ gəlmişdir. “Azərbaycan dilinin izahlı lüğəti’ndə dişləmə feili isim kimi verilir və “dişləmə çay” söz birləşməsinin tərkibində “kiçik qənd parçası və ya şirni ilə içilən çay”, “acı çay” mənasında işləndiyi göstərilmişdir (ADİL, II, 1980, s.119). Məsələn: Dustaqların hərəsinə bir yekə qara çörək ilə bir stəkan dişləmə çay gətirirdilər (C.Məmmədquluzadə).

Elti. Azərbaycan dilində qohumluq terminləri əsasən milli xüsusiyyətlərə malikdir. Dilimizdə bir qrup qohumluq terminləri var ki, şivələrdən götürülmüşdür. Belə terminlərdən biri elti sözüdür. Elti şivələrimizdə geniş şəkildə işlənir. Bu söz Quba, Qazax, Şəki, Ağdam, Ağdaş, Göyçay, İmişli, Ağdərə, Şabran, Goranboy, Kürdəmir, Qax, Mingəçevir, Tərtər, Ucar, Gürcüstanın Borçalı şivələrində “iki qardaşın arvadları” mənasını bildirir (ADDL,2007, s.151). Tovuz şivəsində erti formasında da rast gəlinir (ADDL, 2007, s.151). “Azərbaycan dilinin izahlı lüğəti’ndə elti “qardaş arvadlarının bir-birinə olan qohumluq münasibəti” kimi izah edilmişdir (ADİL, II, 1980, s.204). Məsələn: Şərəfnisə: Nəyi gizlətmişəm, ay elti? (H.Mehdi). «Elti “gəlindaş” (bu söz çox işlədilib) deməkdir, “kənardan gətirilən” anlamını verir” (B.Əhmədov, 1999, s.137).

Eydirmək. Sağmal inəklərin özəlliklərindən biri də çox süd verməléridir. Bunun üçün

onların əmcəklərini təmizləmək, sığallamaq vacib şərtlərdəndir. Bu əməliyyat bəzən inəyi azca öz balasına - buzova əmizdirməklə də həyata keçirilir. Bu əməliyyat şivələrimizdə eydirmək sözü ilə ifadə olunur (ADDL, 2007, s.152). Eydirmək Qazax, Ağcabədi, Ağdam, Göyçay, Kürdəmir, Mingəçevir, Şəmkir, Zəngilan, Gürcüstanın Borçalı şivələrində (ADDL,2007, s.152), eləcə də Qərbi Azərbaycanın Çəmbərək şivəsində işlənir. Cəbrayıl şivəsində bu sözə “sağımdan qabaq heyvanın əmcəklərini sığallamaq və ya buzova azacıq əmizdirmək” mənasında evdiməx' formasında rast gəlinir (ADDL, 2007, s.152). Eydirmək “Azərbaycan dilinin izahlı lüğəti’ndə “inəyi sağmazdan əvvəl onun əmcəklərini südlə dolsun deyə, iki barmaqla sıxmaq və ya balasına azca əmizdirmək” kimi izah edilmişdir (ADİL, II, 1980, s.192). Məsələn: Ruqiyyə inəkləri eydirirdi, mən də sağırdım (A. Divanbəyoğlu).

B.Əhmədov yazır: “Eydirmək, tələsdirmək, yumşaltmaq, oxşamaq, əmizdirmək, tumar çəkmək, sığallamaq kimi müxtəlif mənalara malikdir. Ehtimal ki, sonuncu mənalar ey (yey, yəni yaxşı) sözü ilə bağlıdır. Deməli, yaxşı mənasını əks etdirən ey kəlməsi ilə tələsmək mənasını əks etdirən ey sözü omonim sözlər olub, tələsmək yerinə evmək, tələsən əvəzinə evək sözləri də işlədilib. Eydirməyin “tələsmək” mənası bununla bağlıdır və ey (yey) kəlməsinə dəxli yoxdur” (B.Əhmədov, 1999, s.136).

Eymənmək. Azərbaycan dili zəngin lüğət ehtiyatına malikdir. Məhz bunun nəticəsidir ki, hər bir məfhumun, hərəkətin, hadisələrin adı dilimizdə vardır. Məlumdur ki, insan birdən-birə gözlənilməz hadisələrlə rastlaşanda qorxur, obrazlı ifadə ilə desək, tükü biz-biz olur. Qorxudan insan vahimələnir. Lakin elə anlar da olur ki, insan, necə deyərlər, qismən qorxur, tükü ürpəşir. Belə qorxmağı “qorxmaq” sözü ilə ifadə etmək məntiqi baxımdan düz deyil. Bu baxımdan yüngülvari qorxmağı ifadə etmək üçün dialekt və şivələrimizdə işlənən eymənmək sözü vardır. Eymənmək sözü “qorxmaq”, “ehtiyat etmək” mənasında Qazax, Cəbrayıl, Gədəbəy, Mingəçevir, Oğuz, Tovuz, Qərbi Azərbaycanın Ağbaba, Gürcüstamn Borçalı (ADDL,2007, s. 153), eləcə də Qərbi Azərbaycanın Çəmbərək şivələrində eyməmməx' formasında işlənir. Bu söz şivələrimizdə, həm də diksinmək mənasını bildirir (ADDL,1964, s.210). “Azərbaycan dilinin izahlı lüğəti’ndə də eymənmək sözü “qorxmaq, vahiməyə düşmək, xoflanmaq” kimi mənalandırılır (ADİL, II, 1980, s.193). Məsələn: Əhməd ətrafına baxdıqca minlərjə insan görür kimi eymənirdi (Ə.Vəliyev).

Eymənmək sözünün etimologiyası ilə bağlı B. Əhmədov yazır: “Eymənmək qorxmaq, ehtiyat etmək, çəkinmək anlamlarında işlənir və mənbələrdə ayman, eymən, aym formalarında yazılıb. Sözün kökü “ay”dır, mənası qorxu deməkdir. Mənbələrdə aya “опасаться”, ayat “qorxut” mənalarında işlədilib. Deməli, eymən sözü ay-a-man kimi olub və formasını dəyişərək eymən şəklini kəsb edib” (B.Əhmədov, 1999, s.137).

Eşik. Azərbaycan dili şivələində işlənən leksik vahidlərdən biri də eşik sözüdür. Bu söz Naxçıvan, Oğuz, Tərtər, Zaqatala, Qərbi Azərbaycanın Böyük Qarakilsə və Çəmbərək şivələrində “həyət” mənasında işlənir (ADDL, 2007, s.151). Müasir Azərbaycan ədəbi dilində “binanın və s.-nin xarici” mənası ilə yanaşı, “eşik, həyət, çöl, dışarı, kənar, açıq yer” mənasını bildirən bayır sözü işlədilir (ADİL, II, 1980, s.184). Fikrimizcə, “həyət, çöl, bayır” mənasını bildirən eşik sözü ədəbi dilimizin lüğət tərkibini zənginləşdirir və bayır sözünün sinonimi kimi dilimizdə geniş şəkildə işlədilir. Eşik sözü ev-eşik mürəkkəb sözün tərkibində də əksini tapır.

Əlçim. Azərbaycan dilinin Cəlilabad, Füzuli, Göyçay, Kürdəmir, Lənkəran, Masallı, Oğuz, Salyan, Yardımlı, Ucar, Qərbi Azərbaycanın Qarakilsə şivələrində əlçim sözü işlənir və bu söz “əl boyda təmiz daranmış yun” mənasını ifadə edir (ADDL,2007, s.157). “Azərbaycan

dilinin izahlı lüğəti’ndə əlçim sözü ilə yanaşı, əlçin sözünün də işləndiyi göstərilir. Hər iki söz “bir dəfədə əldə tutulub cəhrədə ip halına gətirilə bilən qədər (yun)” mənasını bildirir (ADİL, II, 1980, s.270). B.Əhmədov yazır: “... cəhrədə ip əyirərkən əldə tutulan yun dəstəsinə əlçim deyilir. Burada çim “tutam”, “dəstə” mənasını verən müstəqil sözdür (şəkilçi deyil). Həmin kəlmə otun kökü ilə torpağın birləşməsindən ibarət dəstə mənasında da işlədilir (şırımın dəhnəsinə çim qoyurlar). Çimdik sözü də buradandır. “İki barmağın tutumu” deməkdir. Deməli, əlçim “bir əl tutumu anlamını verir” (B.Əhmədov, 1999, s.141). Məsələn: Gah yun darağının qoyununa yığılmış əlçimlərə, hərdənbir də cəhrənin tağalağına çox diqqətlə baxırdı (Ə.Vəliyev).

Ərəmik. Azərbaycan dilində qadınlara aid “doğmayan”, “qısır” sözü ilə yanaşı ərəmik sözü də işlənir. Ərəmik dilimizdə heyvandarlıq termini kimi “doğmayan, uzun müddət qısır qalan” mənanı bildirir. Ərəmik həm də qadınlara məxsus söz kimi məjazi mənada “doğmayan, sonsuz” mənasında işlənir (ADİL, II, 1980, s.283). Məsələn: Maro yasavul Kəlbəlinin ərəmik arvadı Göyərçinə uyuşmuşdu (S. Rəhimov). Ərəmik dialektizm olaraq İmişli, Yardımlı, Salyan şivələrində ərəmig, Şəki, Qazax, Cəbrayıl, İmişli, Mingəçevir, Tovuz, Qərbi Azərbayjanın Qarakilsə, Gürcüstanm Borçalı şivələrində ərəmix' formalarında işlənərək “doğmayan”, “qısır” mənalarını ifadə edir (ADDL,2007, s. 164). Fikrimizcə, ərəmik “doğmayan”, “qısır” sözlərinə nisbətən daha konkret mənaya malikdir və ədəbi dilimizdə yerini tuta biləjək. Belə ki, doğmayan, qısır sözləri həm insanlara, həm heyvanlarla bağlı işlədilirsə, ərəmik sözü yalnız insanlara - qadınlara aid olaraq işlədilə bilər. Ərəmik sözü Qazax şivəsində “doğmaq qabiliyyətini itirmək” mənasında işlənən ərəmix'ləməx' (ədəbi dilin qaydalarına uyğun ərəmikləmək- İ.B.) sözündə də öz izini qoruyub saxlamışdır (ADDL,2007,, s.164).B.Əhmədov ərəmik sözünün mənası barədə yazır: “... dilimizdə mənaja yaxın olan qısır və ərəmik sözləri var. Ərəmik ər (kişi) sözü ilə bağlıdır: ərdən yarımayan (heç vaxt doğmayan) deməkdir. Mənbələrdə ərəm sözü var və «hələ doğmamış deməkdir” (B.Əhmədov, 1999, s.143-144).

Gənəşmək. Müasir Azərbay**c**an ədəbi dilində “ne**c**ə hərəkət etmək, bir işi ne**c**ə görmək haqqında biri ilə məsləhət etmək, onun rəyini soruşmaq, məsləhət almaq üçün müra**j**iət etmək” mənasında ərəb mənşəli məsləhət sözündən əmələ gələn məsləhətləşmək sözü vardır (ADİL,III, 1983, s.304). Məsləhətləşmək sözünün qarışılığı kimi Azərbay**c**an dili şivələrində gənəşmək sözü işlədilir. Gənəşmək “məsləhətləşmək” mənasında Qazax, Ağdam, Bərdə, Füzuli, Şəmkir, Tərtər, Yevlax, Gürcüstanm Borçalı şivələrində işlənir (ADDL,2007, s.178). Məsələn: An**c**aq xahiş eləyirəm, bu barədə naçalnik ə gənəşməyin (Ə.Vəliyev).Bu söz “Gənəşikli don gen olar” atalar sözündə də öz izini qoruyub saxlamışdır.

Gənəşmək eyni mənada geneşme formasında qırğız dilində işlənir. “Azərbaycan dilinin izahlı lüğəti’ndə gənəşmək danışıq dilinə mənsub söz olaraq göstərilir və “birinin rəyini bilmək üçün onunla məsləhətləşmək, məsləhət üçün birinə müraciət etmək” mənasını bildirir (ADİL,III, 1983,s. 156). Gənəşmək eyni mənada Ağdam, Gürcüstanm Borçalı şivələrində ganaşmax, Tovuz şivəsində ge^əşməx', Qazax, Gədəbəy, Şəmkir, həm də Tovuz şivələrində gə^əşməx' fonetik formalarında işlənir (ADDL, 2007, s.174-178).

Gəzdək. Azərbaycan dilində işlənən ortoterminlərin əksəriyyəti dilimizin daxili imkanları əsasında yaranmışdır və bu yolla dilimizin lüğət tərkibi zənginləşmişdir. Belə sözlərdən biri gəzdək oroterminidir. Gəzdək Qazax, Qərbi Azərbaycanın Çəmbərək şivələrində “aşırım”, “dağ keçidi” mənasını bildirir (ADDL, 2007, s.180). “Azərbaycan dilinin izahlı lüğəti’ndə gəzdək “dağ təpəsində çökək yer” mənasında işləndiyi göstərilmişdir

(AD İL, III, 1983, s.149).

Gəzyazma. Azərbaycan dili şivələrində işlənən heyvandarlıq terminlərdən biri gəzyazma sözüdür. Gəzyazma Qazax , Şəmkir, Tovuz, Qərbi Azərbaycanın Basarkeçər şivələrində işlənir və "ilk buğayagəlmə vaxtını ötürən mal düyəsi" mənasını bildirir (ADDL,2007, s.180). Bu söz heyvandarlıq termini kimi ədəbi dilimizin lüğət tərkibini zənginləşdirmişdir.

Hoyxurmaq. Qış vaxtı bəzən əllər ağızdan çıxan hava vasitəsilə qızdırılır. Bu, Oğuz şivəsində hoyxurmax sözü ilə ifadə olunur və "üşüyən zaman əlləri nəfəslə qızdırmaq" mənasını bildirir (ADDL, 2007, s.209). Hoyxurmaq eyni mənada Qərbi Azərbaycanın Çəmbərək şivəsində işlənir.

Xaral. Bu söz ədəbi dilimizə Muğan qrupu şivələrində keçmişdir və "iri torba (kisə), bardan" mənasını bildirir. Məsələn:Telli arvad ovcundakı pambığı xarala atdı (M. İbrahimov).

İlğım. Müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibinə ilğım sözünün gətirilməsi görkəmli Azərbaycan şairi S.Vurğunun adı ilə bağlıdır. Belə ki, ədəbi dilimizdə ilk dəfə ilğım sözünü S.Vurğun işlətmişdir:

Müğan dastanında əks olunmadı,
O yerdə gördüyüm gözəl bir
səhnə Sonralar bildim ki, «ilğımdır»
adı,
Düşsün şeirimizin söz
xəzinəsinə (S.Vurğun).

İlğım Qazax, Şirvan, İmişli, Kürdəmir, Saatlı, Sabirabad şivələrində "sərab" (ADDL,2007, s.232) və ədəbi dilimizdə dialekt sözü kimi "quru (susuz) çöllərdə buxarın yerə yayılıb uzaqdan su kimi görünməsi hadisəsi" mənasında işlənir (ADİL, II, 1980, s.386). İmişli şivəsində ilğım sözünə həm də ilğın fonetik formasında rast gəlinir (ADDL,2007, s.232). B. Əhmədov yazır ki, ilğım, ılıq, ılıtmaq kəlmələri ilə qohumdur, isti anlamını verən ılı sözü olub, ondan da ilğım (ılğım) əmələ gəlib (B.Əhmədov, 1999, s.152).

İlkinə. Bu söz Bakı, Salyan şivələrində (ADDL,2007, s.233), Qərbi Azərbaycanın Çəmbərək şivəsində ilk dəfə sözünün qarşılığı kimi işlənir. 1964-cü ildə nəşr olunan "Azərbayan dilinin dialektoloji lüğəti'ndə ilkinə sözünün "ilk dəfə" mənasında yalnız Qazax şivəsində işləndiyi göstərilmişdir (ADDL, 1964, s.234). Fikrimizcə,iİlkinə sözü ədəbi dildə ilk dəfə sözünün sinonimi kimi işləklilik qazanmışdır.

İnaq. İnaq sözü tibbi termin kimi işlənir və "uşaqlarda qırtlağın iltihabı" xəstəliyinin adını bildirir (ADİL, II, 1980, s.398). İnaq sözü Bakı, Salyan, İmişli, Lənkəran şivələrində inağ, Füzuli, İmişli, Mingəçevir, Zəngilan şivələrində inax formalarında işlənərək "xəstəlik adı" mənasını bildirir (ADDL, 2007, s.234).

İsmarış. Müasir Azərbaycan ədəbi dilində son dövrdə geniş şəkildə işlənən dialekt sözlərindən biri ismarış sözüdür. İsmarış "sifariş", "xəbər" mənasında Qazax, Salyan, Tovuz (ADDL,2007, s.237), eləcə də Qərbi Azərbaycanın Çəmbərək şivələrində işlənir. Bu sözə folklor materiallarında da rast gəlinir. Məsələn: Aşıq sazla dediyi kimi, sözlə də Məhbub xanımın ismarışını Koroğluya yetirdi ("Koroğlu" dastanı).

İsmarlamaq. İsmarış sözü əsasında formalaşan ismarramax (ədəbi dildə ismarlamaq) dialekt sözü də ədəbi dilimizdə son dövrdə geniş işləklilik qazanmışdır. İsmarlamaq sözü Qazax şivəsində, Tovuz, Qərbi Azərbaycanın Çəmbərək, Karvansaray şivələrində "sifariş,

xəbər göndərmək" mənasında işlənir (ADDL,2007, s.237).

"Azərbaycan dilinin izahlı lüğəti'ndə ismarlamaq "tapşırıq", "sifariş etmək", "bir şeyi etməyi tapşırmaq" kimi mənalar daşıdığı göstərilmişdir (ADİL, II, 1980, s.425). Məsələn: Bir söz ismarlamış bəlkə yar eli;

Nədən anlaşılmaz quşların dili (Ə.Cavad).

Həsən qulluqçunu çağırdı, çay ismarladı (Y.V.Çəmənzəminli).

Həm ismarış, həm ismarlamaq müasir Azərbaycan ədəbi dilində geniş şəkildə işlənir.

Kəltən. Azərbaycan dilinin lüğət tərkibində daş, kəsək sözləri ilə yanaşı kəltən sözü də vardır. Kəltən Qazax, Şəmkir, Tərtər, Qərbi Azərbaycanın Basarkeçər (ADDL, 2007, s.248),Çəmbərək şivələrində "kəsək" mənasında işlənir. "Azərbaycan dilinin izahlı lüğəti'ndə kəltən "iri kəsək" kimi izah edilmişdir (ADİL, III, 1983, s.44). Kəltən mənaca daş və kəsək sözlərindən fərqlənir. Kəltən nəmli torpağın daşlaşmış formasıdır. Məhz bu söz dialektizm kimi ədəbi dilimizin lüğət tərkibdini zənginləşdirir. Məsələn:Dişli malalar iri kəltənləri əzib xırdalayır. Əkbər kəltəni Məşədi Hüseynin kəlləsinə çırpmaq istəyəndə Müslüm qoymadı (Mir Cəlal).

Kəsmət. Qazax, Göyçay, Mingəçevir, U**c**ar şivələrində kəsmət sözü işlənir və bu söz "pensiya", "qiymət" mənasını bildirir (ADDL, 2007, s.252). Pensiya latın mənşəli sözdür. Fikrimizcə, şivələrimizdə "pensiya" mənasında işlənən kəsmət sözü ədəbi dilimizdə işlənə bilər.

Kiriməк. Azərbaycan dilinin müxtəlif şivələrində işlədilən sözlərdən biri kirimək sözüdür. Bu sözə Şəki, Cəbrayıl, Ağdam, Laçın, Mingəçevir, Salyan, Şəmkir, Tərtər, Tovuz, Ucar, Yevlax, Qərbi Azərbaycanın Hamamlı, Gürcüstanın Borçalı (ADDL,2007, s.255), eləcə də Qərbi Azərbaycanın Çəmbərək şivələrində rast gəlinitr. Şivələrimizdə kirimək iki məna ifadə edir: 1) susmaq, sakit olmaq; 2) kəsmək, dayanmaq (ADDL, 2007, s.255). "Azərbaycan dilinin dialektoloji lüğəti'nin 1964-cü il nəşrində kirimək sözünün Gəncə və Ağdam şivələrində yalnız bir mənada- "susmaq" mənasında işləndiyi göstərilmişdir (ADDL, 1964, s.262). Kirimək sözü ədəbi dildə "səsini kəsmək, susmaq, dinməmək", "rahatlanmaq, ovunmaq, sakitləşmək" kimi mənalar daşıyır (ADİL, III, 1983, s.71).

Ölüsü ölən kiridi, yaşa gələn kirimədi (Atalar sözü).

Şirin sözlərinin çox müstaqıyam,
Danışmayıb kiriməyin nədəndir?
(M.P.Vaqil)

"Azərbaycan dilinin izahlı lüğəti"ndə kirimək sözü ilə yanaşı kirimişcə, kiritmə, kiritmək sözləri də verilmişdir(ADİL, III, 1983, s.71).

Kök. Müasir Azərbaycan ədəbi dilində omonim sözlərdən olan kök sözünün bir mənası da "nəsil, əsil-nəsəb, mənşə" mənası bildirməsidir (ADİL, III, 1983, s.102). Bu mənada kök sözü nəsil sözünün sinonimi funksiyasını daşıyır. Kök sözü Bakı, Qazax,Göygöl, Salyan (ADDL,2007, s.260), Qərbi Azərbaycanın Çəmbərək şivələrində "nəsil" mənasında işlənir. Məhz əsl Azərbaycan sözü kimi kök sözü bu mənada dilimizin lüğət tərkibini zənginləşdirir. Məsələn: Mənim ki başımın tükləri ömrümdə qıvrım olmamışdır... nəslimizdə, kökümüzdə də olmamışdır (S.Rəhimov).

Qarağaşa. Qərbi Azərbaycannın Çəmbərək şivəsində işlənən qarağaşa "iş-güc", "qələbəlik, səs-küy", "yığnaq" mənalarında işlənir. Məsələn: Evin hər bir qarağaşası tökülüb üstümə (Ə.Abbasov); Paşa bəyin sal daş döşənmiş, sulanıb süpürülmüş həyəti qarağaşalı idi

(Ə. Vəliyev).

Zəngilan şivəsində bu süzə "səs-kğy" mənasında qarqaşa fonetik formasında rast gəlinir (ADDL, 2007, s.283).

Qarağaşa "Azərbaycan dilinin izahlı lüğəti"ndə danışıq dilinə mənsub söz kimi qarğaşa formasında "qalmaqal, dava, səs-küy" mənası bildirdiyi göstərilmişdir (ADİL, I, 1964, s.435). Eyni zamanda qarğaşa sözündən qarğaşalıq sözü əmələ gəlib, "qarışıqlıq, hərc- mərclik", "səs-küy, haray, çaxnaşma, araqarışma" mənasını ifadə edir (ADİL, I, 1964, s.435). Məsələn: İclasda qarğaşalıq daha da şiddətləndi (Mir Cəlal).

Qərzək. Bu söz "təzə qozun, fındığın, pambığın üst qabığı" mənasını bildirir (ADİL, I, 1980, 485). Məsələn: Talıb və Qaraca pambığı maşının xortumuna doğru yığır, xortum bir əcdaha nəfəsilə çirkli- qərzəkli pambığı sorur, gül kimi təmizləyib tor anbarına tökürdü (S.Əhmədov). Yetişmiş qozaların qərzəkləri saralır və ağzı açılaraq içərisindəki qozalar yerə tökülməyə başlayır (Axundzadə).

Qıy. Müasir Azərbaycan dilində "dağın ən yüksək nöqtəsi, təpəsi" mənasında ərəb mənşəli zirvə sözü işlədilir (ADİL, II, 1980, s.349). Bu sözün qarşılığı kimi Zəngilan, Qərbi Azərbaycanın Çəmbərək, Qarakilsə şivələrində "zirvə" mənasında qıy sözü işlənir (ADDL, 2007, s.304). Məsələn: Dünən Qızıl qayanın qıyına çxmışdım (Çəmbərək). Dağın qıyından aşan dağ keçisini görən kimi Hüsenəlinin tüfəngi açıldı (Zəngilan). Qıy sözü zirvə sözünün sinonimi kimi işlənərək ədəbi dilimizin lüğət tərkibini zənginləşdirir.

Qurama. Müasir Azərbaycan ədəbi dilində qurama sözü işlədilir (ADİL, I, 1964, s.576). Qurama iki məna ifadə edir: 1) xırda-xırda və rəngbərəng parçalardan calanıb tikilmiş, yaxud düzəldilmiş; 2) özündən quraşdırılmış söz; uydurma (ADİL, I, 1964, s.576). İkinci mənada işlənən qurama sözü Cəbrayıl, Salyan, Yardımlı, Oğuz şivələrində işlənir və "uydurma", "yalan" mənalarını bildirir (ADDL, 2007, s.315). Qurama dialektizm kimi ədəbi dilimizi zənginləşdirmişdir. Məsələn: Yusif Qəhrəmanın bu vəziyyətə düşməsindən istifadə edərək, daha bir çox quramalar və əlavələr etməyə cəhd edirdi (Ə.Vəliyev).

Qurdeşənək. Tibdə bir neçə dəri xəstəliyi vardır. Onlardan biri dəridə əmələ gələn səpkilərdir. Bu xəstəlik təkcə səpkilərdən ibarət olmur. Dəri parça-parça qızartılardan ibarət olur. Belə dəri xəstəliyi xalq arasında qurdeşənək adlanır. Qurdeşənək sözü Qərbi Azərbaycanın Hamamlı, Gürcüstanın Başkeçid və Borçalı şivələrində "dəridə əmələ gələn xəstəlik" mənasında işlənir (ADDL,2007,s.316). "Azərbaycan dilinin izahlı lüğəti'ndə bu söz qurdeşənəyi formasında "bədən ətinin parza-parza qızarmasından ibarət xəstəlik" mənasında işləndiyi güstərilmişdir(ADİL, I, 1964, s.579-580).

Qabarmaq. Şərur, Qərbi Azərbaycanın Zəngibasar, Çəmbərək şivələrində qabarmaq sözü vardır və o, "cavab qaytarmaq", "üzə ağ olmaq" mənasını bildirir (ADDL, 2007, s.272). "Azərbaycan dilinin izahlı lüğəti"ndə qabarmaq sözünün bir mənası da "acıqlanmaq, sərt söz demək" mənası daşıdığı göstərilmişdir (ADİL, I, 1964, s.385). "Üzə ağ olmaq", "cavab qaytarmaq", "sərt söz demək" frazeoloji birləşmələrdir. Bu frazeoloji birləşmələrin ifadə etdiyi obrazlılıq qabarmaq sözü ilə ifadə oluna bilər. Belə ki, "frazeoljci söz birləşmələri çox zaman bu və ya digər tək sözün ekvivalenti, onun sinonimii kimi işlənir" (A. Qurbanov, 2003, s.361). Elə bu baxımdan qabarmaq dialekt sözü ədəbi dilimizin lüğət tərkibini zənginləşdirir. Məsələn: Göyərçin Xudaverdini götürüb qapıdan jəld çıxaraq, Maroya qabardı (S.Rəhimov).

Qanıq. Qazax, İmişli, Kürdəmir, Mingəçevir, Şəmkir, Tovuz, Ucar, Qərbi Azərbaycanın Basarkeçər şivələrində qanıx (ədəbi dildə qanıq) sözü işlənir və bu söz "qana həris", "qana susamış" mənasını ifadə edir (ADDL, 2007, s.277). Eyni zamanda Qazax,

Gədəbəy, Qərbi Azərbaycanın Basarkeçər (ADDL,2007, s.277), Çəmbərək şivələrində "qana susamaq" mənasında işlənən qanıxmax (ədəbi dildə qanıqmaq) sözü də qanıx sözü ilə bağlıdır. Daha doğrusu, hər iki sözün kökü "qan"la bağlıdır. "Azərbaycan dilinin izahlı lüğəti'ndə qanıq sözü "qana yerikləyən, qana susamış, qana həris", "sərt, azğın, bəd, quduz kimi it", qanıqmaq sözü "alışmaq, dadanmaq", "qana susamaq, gözü qızmaq" kimi izah edilmişdir (ADİL, I, 1964, s.417).

Qanqırmaq. Müasir Azərbaycan ədəbi dilində burmaq sözü həm də "dala qatlayıb çevirmək, qanırmaq" mənasında işlənir (ADİL, I, 1964, s.328). Məsələn: Gədələr Qədim dayının qollarım burdular (S.Rəhimov). Əslində burmaq sözü "dala qatlayıb çevirmək" mənasını tam əks etdirmir. "Dala qatlayıb çevirmək" mənası Qazax, Gədəbəy, Tovuz, Qərbi Azərbaycanın Çəmbərək şivələrində işlənən qanqırmaq (ədəbi dildə qonırmaq formasındadır) sözü ilə daha dəqiq ifadə edilir (ADDL, 2007, s.277). Məsələn: Yenə bir-birinə yanaşdılar, bu dəfə başlarını qanırıb, peysərlərini bir-birinə sürtüb, ayrıldılar (Y.V.Çəmənzəminli).

Qaradiş. Erkək qoyunlar müxtəlif yaşdan ibarət olur və hər bir yaşa uyğun olaraq xalqımız ad verib. Erkək qoyunların bəzilərinin 3 və daha çox yaşları olur. Ordubad, Beyləqan, Biləsuvar, Culfa, Füzuli, Kürdəmir, Şərur, Tərtər, Qərbi Azərbaycanın Ağbaba, Basarkeçər, Qarakilsə şivələrində 3-dən yuxarı yaşı olan erkək qoyuna "qaradiş" deyilir (ADDL, 2007, s.279). Fikrimizcə, qaradiş heyvandarlıq termini kimi ədəbi dilimizdə işlədilə bilər və bununla da dilimizin lüğət tərkibini zənginləşdirər

Qasqa. Müasir Azərbaycan ədəbi dilində alın sözü vardır və o "kəllənin qabaqdan üst tərəfi, göz və qaşların üstünə düşən hissəsi" mənasını bildirir (ADİL, I, 1964, s.91). Qazax, Şəki, Balakən, Xaçmaz, Mingəçevir, Şəmkir, Tovuz, Zaqatala, Gürcüstanın Borçalı şivələrində "alın" mənasında qaşqa sözü işlədilir (ADDL, 2007, s.285). Qaşqa sözü, fikrimizcə, qaş (insanın gözləri üstündə uzanan qövs şəkilli tüklərdən ibarət hissə) sözü əsasında formalaşmışdır. "Azərbaycan dilinin izahlı lüğəti"ndə göstərilir ki, qaşqa "alının tam ortası" mənasında işlənir (ADİL, I, 1964, s.457). Fikrimizcə, qaşqa alın sözünün sinonimi kimi ədəbi dilimizdə işlənə bilər.

Qaşqa eyni zamanda "mal-qaranın, xüsusilə də at, inək və öküz kimi iri ev heyvanlarının alnındakı ağ ləkə" mənasında da işlənir (ADİL, I, 1964, s.457). Məsələn: Həyətdə bağlanmış qəmər madyanın yanında sarı qaşqa bir qulun kişnəyib sıçrayırdı (Ə.Vəliyev). Qaşqa sözünün etimologiyası haqqında B.Əhmədov yazır: "Qaşqa, həm də təpəl, ağıtma kəlmələri ilə ifadə edilib, "ağ ləkə" kimi açıqlanıb. Anadolu türklərində qaşqa yerinə akıtma işlədilir. Deməli, ağ sözü ilə bağlıdır. Sözün sinonimi təpəldir. Qaş və təpə (kəllə) məsafəcə bir-birinə yaxın olur. Görünür, qaşqa (təpəl) atın (heyvanın) təpəsində olan "ağ ləkə" deməkdir" (B.Əhmədov, 1999, s.86).

Qaş. Qaş söz çoxmənalı olmaqla həm də coğrafi termindir və joğrafi termini kimi "dağın, dərənin, təpənin qabaq tərəfi, təpədən aşağı yeri" mənasını bildirir (ADİL, I, 1964, s.456). Qaş sözü orotermin olaraq dialekt sözü kimi ədəbi dilimizə keçib lüğət tərkibini zənginləşdirmişdir. Bu söz əsasən Azərbaycan dilinin qərb qrupu şivələrində işlənir. Qaş sözü Qazax, Daşkəsən, Gədəbəy, Qərbi Azərbaycanın Basarkeçər, Hamamlı, Qarakilsə şivələrində işlənərək "dağın, təpənin hündür yeri" mənasım bildirir (ADDL,2007, s.285). Məsələn: Təpənin lətif otlarla döşənmiş seyrək ağajlı qaşı ilə yeriyirdim (A.Şaiq). "Qaş mənbələrdə hündür, yuxarı mənalarında qeydə alınıb. "Qaş qaralanda", "üzük qaşı", "dağın qaşı" birləşmələri də buna sübutdur. Görünür, qaş bədənin yuxarı hissəsində olduğundan belə adlanıb" (B.Əhmədov,1999, s.86).

Ları. Zoologiyada toyuq cinsi mənasında ları sözü işlənir. Ları Gəncə, Şamaxı, Ağdam, Bərdə, Gədəbəy, Salyan, Lənkəran, Şahbuz şivələrində "toyuq cinsi", "döyşükən toyuq və ya xoruz" mənalarım bildirir (ADDL, 2007, s.323). Məsələn: At arabasının dalınca gedən qoca, enlikürək, qarasaqqal kişi bir əlində ları xoruz, bir əlində də bir torba zoğal qurusu aparır (Mir Cəlal). "Azərbaycan dilinin izahlı lüğəti'ndə ları "uzunqıçlı, uzunboğazlı toyuq və xoruz jinsi" kimi izah edilmişdir (ADİL, III, 1983, s.226).

Lavaşa. Meyvələrdən müxtəlif yeməklər və başqa şeylər hazırlanır. Eyni zamanda alça, zoğal və b. meyvələr bişirilərək qurudulur, turşu hazırlanır və ondan yeməklərdə istifadə olunur. Bu, lavaşa adlanır (ADDL,2007, s.324). Lavaşa Gəncə, Ağdam, Qubadlı, Salyan, Zəngilan şivələrində işlənir (ADDL,2007, s.324). Lavaşa sözünə Ordubad, Şəki, Gəncə, Cəbrayıl, Göyçay şivələrində lavaş formasında rast gəlinir (ADDL,2007, s.324)."Azərbaycan dilinin izahlı lüğəti'ndə lavaşa "lavaşana" formasında «turş giləmeyvə mətindən hazırlanan, xörəyə qatılan turşu növü» kimi izah edilmişdir (ADİL, III, 1983, s.219). Bu söz Quba, Şamaxı şivələrində də lavaşana formasında işlənir (ADDL,2007, s.324).

Mavrı. Azərbaycan dilində bu və ya digər heyvan balası bir leksik vahidlə ifadə olunur. Məsələn, qoyun balası - quzu, inək balası -buzov, toyuq balası - jüjə və s. Pişiyin balası isə "pişik balası" söz birləşməsi ilə ifadə olunur. Halbuki Azərbaycan dilinin cənub qrupu şivələrinə daxil olan Şahbuz, Şərur, Zəngilan, Qərbi Azərbaycanın Qarakilsə (Sisyan) şivələrində "pişik balası" mavrı sözü ilə ifadə olunur (ADDL, 2007, s.347) və bu sözə - "mavrı"ya Kəlbəcər şivəsində mavru fonetik formasında rast gəlinir (ADDL, 2007, s.347). Hər hansı heyvanın balası bir sözlə ifadə oluna bildiyinə əsaslanıb bu qənaətə gəlirik ki, ədəbi dilimizdə pişiyin balası "pişik balası" sözü ilə yox, mavrı sözü ilə ifadə edilə bilər və mavrı bu baxımdan ədəbi dilimizi zənginləşdirər. Məsələn: Mənzili Paşa bəyin alt mərtəbədəki soyuq otaqlarından biri, ailəsi Paşa bəyin sarı pişikləri ilə mavrıları, varidatı bir dəst yorğan-döşəklə iki dəst dəyişək və iki jüt çustdu (Ə. Vəliyev).

Nohur. Qərbi Azərbaycanın Çəmbərək, Basarkeçər şivələrində gölməçə nohur sözü ilə ifadə edilir. Bu söz ədəbi dilimizdə işləklilik qazanmış, ümumişlək söz kimi müasir Azərbaycan ədəbi dilində sabitləşmişdir və "güclü yağışdan, seldən sonra su yığılmış çökək gölməçə yer" mənasını bildirir (ADİL,III,1983, s.424). Məsələn: Səhər, dan yeri ağaran kimi Mürşüd qalxıb geyindi və yaxındakı nohura gedib əl-üzünü yudu (Y.Şirvan).

Navalça. Bakı şivəsində navalça sözü var. O, "yağış suyunun axıb getməsi üçün evin üstündə dəmirdən düzəldilən nov" mənasını bildirir (ADDL, 2007, s.370). "Azərbayjan dilinin izahlı lüğəti'ndə navalça "yağış, qar suyunun axması üçün damların kənarına qoyulan boru" kimi izah edilmişdir (ADİL,III,1983,s,381). Məsələn:

Quşlar uçur yuvasına pırıl-pırıl,
Şırıldayır navalçalar şırıl-şırıl.
(M.Müşfiq).

Eşik divardan asılı duran navalça, ən naşı adamın çaldığı dəf kimi, qeyri-müntəzəm bir səslə dınqıldadı (H.Mehdi).

Oğursaq. Heyvandarlıqdan məlumdur ki, inəyi, qoyunu sağmaq üçün ilk növbədə balası əmizdirilir və yanına bağlanır. Balası yanında olanda heyvan sağılmağa şərait yaradır, daha doğrusu, sağılır, sağınçını incitmir. Balası ölmüş heyvanlar sağmağa qoymurlar, yavaş-yavaş quruyurlar. Lakin elə heyvanlar olur ki, balası ölsə də, sağılır. Ədəbi dildə belə heyvanları adlandırmaq üçün xüsusi termin yoxdur. Şivələrimizdə həmin növdən olan heyvanları adlandırmaq üçün xüsusi söz vardır. Bu, oğursaq sözüdür. "Balası ölmüş, lakin

sağılan heyvan" mənasında işlənən oğursaq Qazax, Ağdam, Cəbrayıl, Gədəbəy, İmişli, Qubadlı, Tovuz, Şəmkir, Zəngilan, Qərbi Azərbaycanın Basarkeçər, Qarakilsə şivələrində işlənir (ADDL, 2007, s.380). Oğursaq sözü Füzuli şivəsində o:ursax, Meğri şivəsində ovursax, Salyan şivəsində o:rsağ, Xocavənd şivəsində o:rsax fonetik formalarında işlənir(ADDL, 2007 s.382-384). "Azərbaycan dilinin izahlı lüğəti'ndə oğursaq dialekt sözü kimi "balası öldükdən sonra süd verən inək" kimi izah edilmişdir (ADİL, III, 1983, s.436).

Otuxmaq. Müasir Azərbaycan dilinin lüğət tərkibini zənginləşdirən leksik vahidlərdən biri də otuxmaq sözüdür. Otuxmaq "ot yeməyə başlamaq" (ot yeyən körpə heyvanlar haqqında) mənasını bildirir və " Azərbaycan dilinin izahlı lüğəti"ndə otuxmaq süzğnğn dilektizm olduğu güstərilmişdir (ADİL,III,1983, s.454). Otuxmaq Şamaxı, Kürdəmir, Yardımlı şivələrində otuxmağ, Qazax, Şəki, Bakı, Cəbrayıl, Şərur, Gədəbəy, İmişli, Tərtər, Tovuz, Çəmbərək, Karvansaray, Qarakilsə şivələrində otuxmaq formalarında işlənir (ADDL, 2007, s.383).İmişli şivəsində işlənən otuxma (ot yeməyə başlamış) sözü də (ADDL,2007, s.383) otuxmaq sözü əsasında yaranmışdır.

Ögəc. Azərbaycan dilində heyvanlar, o cümlədən qoyunlar yaşlarına görə adlandırılır. Bu baxımdan H.Sarabski yazırdı: "Toğlu birillik, şişək ikillik, ögəc üçillik olardı" (ADİL,III,1983, s.464). Ögəc süzğnə üyəc fonetik formasında "Koroğlu" dastanında rast gəlinir:

Əylən deyim Qıratın qiymətini,
Səksən min sərkərdə,mala da verma!
Səksən min ağ tüklü qəmər öyəcə,
Səksən min xəzinə pula da verma!
(«Koroğlu» dastanı).

Ögəc dialect sözü olub ədəbi dilimizin lüğət tərkibini zənginləşdirir. Ögəc"Azərbaycan dilinin dialektoloji lüğəti"ndə "iki-üç illik erkək qoyun" (ADDL,2007, s.386), "Azərbaycan dilinin izahlı lüğəti'ndə "üçyaşar erkək qoyun" (ADİL, III, 1983, s.464)

mənasında işləndiyi göstərilmişdir. Ögəc Bakı və Salyan şivələrində ögəc, Ordubad, Cəbrayıl, Xocavənd şivələrində öəc, Qazax, Ordubad, Qərbi Azərbaycanın Basarkeçər şivələrində öəç, Cəbrayıl, Qərbi Azərbaycanın Çəmbərək şivələrində öəş, Ordubad, Şəki şivələrində öyəc, Ordubad, Culfa şivələrində öyəç, Ağdam şivəsində öyəş fonetikformalarında işlənir (ADDL,2007, s.386-389).

Öləzimək. Öləzimək işıqla, alovla bağlı sözdür və Tovuz, Salyan, Qərbi Azərbaycanın Qarakilsə (ADDL, 2007, s.387), Çəmbərək şivələrində işlənir və "zəifləmək", "sönmək" mənalarını bildirir. "Azərbaycan dilinin izahlı lüğəti"ndə dialekt sözü olaraq öləzimək sözünün mənası "alovu sönməyə, közərməyə başlamaq", "işarmaq", "közərmək" kimi verilmişdir (ADİL,III,1983, s.464). Məsələn: Karvansaranın bir tərəfində qalanmış ocaq gah yanır, gah da öləziyirdi (Ə.Vəliyev). **Perikmək.** Ağdam, Cəbrayıl, Qərbi Azərbaycanm Çəmbərək, Meğri şivələrində "didərgin düşmək" mənasında perikmək sözüi şlənir (ADDL, 2007, s.395).

Dialektizm kimi perikmək ədəbidilimizi zənginləşdirir. Belə ki, "perikmək ifadəsi "didərgin düşmək", "evindən-eşiyindən, yerindən-yurdundan uzaq düşmək", "yerindən-yurdundan olmaq" frazeoloji birləşməni dəqiqliklə ifadə edənl eksik vahiddir. Məsələn: Ev-eşikdən perikmisən (Ə. V əliyev).

Salmaçay.Bəllidir ki,Azərbaycan mətbəxində çay xüsusi yer tutur və azərbaycanlılar çaydan çox istifadə edir. "Şirinçay" ifadəsi geniş yayılmışdır. Əslində "şirinçay"

sözbirləşməsindəki “şirin” sözü fars mənşəlidir. Dilimizin öz sözlərindən istifadə etməklə dilin milliliyini qorumaq lazımdır. Şəki, Cəbrayıl, Culfa, Göyçay, Qax, Şərur, Zəngilan, Qərbi Azərbaycanın Basarkeçər (ADDL,2007, s.418), Çəmbərək şivələrində şirinçaya “salmaçay”deyilir. Fikrimizcə, şirin çay əvəzinə “salma çay” ifadəsindən istifadə edilə bilər.

Sayrışmaq. Müasir Azərbaycan ədəbi dilini zənginləşdirən dialektizmlərdən biri də sayrışmaq sözüdür. Sayrışmaq “hərəkət etmək, bərq vurmaq” mənasını bildirir.

Bakının sayrışan ulduzlarından,
Çadrasız, boyasız türk qızlarından,
Salam gətirmişəm hüzuruna mən Bu gündən, gələjək qərinələrdən.
(S.Vurğun).

Ədəbi dildə sayrışmaq bir nezə məna ifadə edir (ADİL,IV,1987, s.18).:

a) titrək, zəif işıq saçmaq, parlamaq, şəfəq burax, qaçışmaq mənasında: Gecə idi, güydə ulduzlar sayrışırdı (S.Rəhman);

b) bəlirmək, gürğnmək mənasında: Sənin güzlərinmi gənclik zağında; Yoxsa nərgizlərin sayrışıb oynar? (M.Mğşfiq)

Sifdəmək. Bu söz Şərur şivəsində “əti sümükdən ayırmaq” mənasında işlənir (ADDL,2007, s.436). Sifdəmək sözünə eyni mənada Qərbi Azərbaycanm Çəmbərək şivəsində də rast gəlinir.

Simsar. Azərbaycan dilində qohumluq termini müxtəlif sözlərlə ifadə olunur: ata, ana, bacı, qardaş, baba, dayı, xala, əmi arvadı, xala uşağı və s. Elə qohumluq əlaqələri vardır ki, bu yaxınlıq yox, müəyyən qədər uzaq qohumluq əlaqəsini bildirir. Uzaq qohumluq əlaqəsi Qazax, Gəncə, Şəki, Cəlilabad, Gədəbəy, Göyçay, Kəlbəjər, Kürdəmir, Qəbələ, Mingəçevir, Salyan, Zaqatala (ADDL, 2007, s.438), Qərbi Azərbaycanm Çəmbərək, Zəngibasar şivələrində işlənən simsar sözü ilə ifadə edilir və bu baxımdan simsar həm ümumişlək söz, həm də qohumluq termini kimi ədəbi dilimizdə sabitləşmişdir və ümumişlək söz kimi işləklilik qazanmışdır.

Sucuq. Azərbaycanın milli kulinariyasında şirniyyatlar da xüsusi yer tutur. Belə şirniyyatlardan biri də qoz və şirin xəmirdən hazırlanan “sucuq”dur. Sucuq Ordubad, Gürcüstanm Bolnisi (ADDL, 2007, s.446), Qərbi Azərbaycanın Zəngibasar şivələrində işlənir və “xörək adı” kimi mənalandırılır (ADDL, 2007, s.446). Şivələrdə sucux fonetik formasında əksini tapır. Sucuq ədəbi dildə “içərisinə fındıq, qoz, şabalıd və s. doldurulmuş kolbasa şəkilli şirniyyat növü” mənasında işlənir (ADİL,IV,1987, s.114). Məsələn:

İçində şabalıd, fındıqla üzüm,
Qozlu sujuqlardan beş-altı düzüm.
(H.K.Sanılı)

Suç. Müasir Azərbaycan ədəbi dilində “günah” sözü geniş şəkildə işlənir. Günah fars mənşəli söz olub “dini-əxlaqi normaların pozulması, dinə qəbahət sayılan”, “cəzalanmalı hərəkət”, “təqsir”, “nöqsan”, “çatışmazlıq” mənalarında işlənir (ADİL, IV, 1987, s.213). Halbuki Azərbaycan dilinin Cəbrayıl, Gədəbəy, Qax, Tovuz, Zaqatala, Qərbi Azərbaycanın Çəmbərək şivələrində “günah, təqsir” mənasında suç sözü işlənir (ADDL, 2007, s.446). Suç sözü günah sözünün qarşılığı kimi işlədilmişdir və İraq-türkmən ləhcəsində də “günah” mənasını bildirir (İraq-türkman, 2004, s.394). “Azərbaycan dilinin izahlı lüğəti”ndə suç sözü köhnəlmiş söz kimi verilmişdir (ADİL,IV,1987, IV, s.114). Əslində suç ümumişlək söz kimi işlənərək müasir Azərbaycan ədəbi dilində sabitləşmişdir. Məsələn:

[Xəyyam:] İçsə o, bir suçumu bizim içməmiz;

Qorxusu yox, sən də gəl iç, ey əziz! (H.Cavid).

Suç sözünə Qazax, Ağcabədi, Qərbi Azərbayjanın Çəmbərək şivələrində "duruxmaq", "utanmaq", "günahkarlığı biruzə ver" mənalarında işlənən suçuxmaq sözündə də rast gəlinir (ADDL, 2007, s.446) və suçux(maq) suç sözu əsasında əmələ gəlmişdir.

Suvat. Müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibində "göl və çaydan su götürmək, mal- qara suvarmaq üçün düzəldilən yer" mənasında suvat sözü işlənir. Məsələn: Uşaqlarla getmişdik Qaronun dərəsinə... Çəpişləri tökmüşdüm suvata (C.Bərgüşadlı).

Suvat həm də "qış vaxtı su götürmək üçün və yaxud mal-qaranı suvarmaq üçün buzun üzərində açılmış deşik yer" mənasını bildirir (İ. Bayramov, 1999, s.71). Suvat eyni mənada Tovuz şivəsində suad, Qazax, İmişli, Kürdəmir, Zərdab, Gürcüstanın Borçalı şivələrində suat fonetik formalarında işlənir (ADDL, 2007, s.445). "Azərbaycan dilinin izahlı lüğəti'ndə suvat "çaydan, arxdan və s.-dən su götürülən, habelə malların su içdikləri dayaz yer" kimi izah edilmişdir (ADİL, IV, 1987, s.110).

Şaxımaq. Bu söz günlə bağlı olub "bərk qızdırmaq, yandırmaq" mənasını bildirir. Məsələn: Qarabağın isti günü şaxıdıqca az qala ağızlarda dili də qurudurdu (Ə.Vəliyev).Ədəbi dilimizdə sabitləşən şaxımaq "güclü təsir etmək", "vurmaq" kimi izah edilir (ADİL,IV,1987, s.502).

Tap. MüasirAzərbaycan ədəbi dilinə şivələrdən bir neçə orotermin keçərək ədəbi dilimizin lüğət tərkibini zənginləşdirmişdir. Ehtiyac duyulan dialekt sözlərdən biri də tap sözüdür. Tap sözü Füzuli, Goranboy, Qax, Şəmkir, Tərtər, Qərbi Azərbaycanın Qarakilsə (ADDL, 2007, s.480), Çəmbərək şivələrində "dağlıq yerdə kiçik düzənlik" mənasında işlənir. Tap Azərbaycan toponimlərinin tərkibində "yastı, düz sahə, təpədə dğzənlik yer" mənasını bildirir: Koroğlu tapı, Köçəri tapı, Ağıllının tapı (İ. Bayramov, 2000, s.53).

Tar. Omonim söz kimi tar Azərbaycan dili şivələrində "toyuqların axşamlar üstündə yatdığı ağac", "küləyin bir yerə topladığı qar yığını" mənalarını bildirir (ADDL, 2007, s.481). Tar "toyuqların axşamlar üstündə yatdığı ağac" mənasında Qazax, Ağdam, Ağdərə, Gədəbəy, Şuşa, Tovuz, Qərbi Azərbaycanm Basarkeçər, Çəmbərək, Qarakilsə, Gürcüstamn Borçalı, "qar yığını" mənasında Qazax, Ağcabədi, Ağdərə, Cəbrayıl, Daşkəsən, Gədəbəy, Şəmkir, Şuşa, Qərbi Azərbaycanm Basarkeçər, Çəmbərək, Gürcüstanın Başkeçid, Borçalı şivələrində işlənir (ADDL, 2007, s.481). Tar sözü "ev quşlarının üstündə durub gecələməsi üçün hinə qoyulan ağac" və "üst-üstə dərəyə yağıb yığılmış qalın qar yığını" (ADİL, IV, 1987, s.137) mənalarında ədəbi dildə sabitləşmiş və dilimizin lüğət tərkibini zənginləşdirmişdir. Məsələn: Tardakı xoruz qanadlarını şaqqıldayıb banladı (S.Rəhimov).

Elə ki, əsnədi çovuğunla külək Çöldə tar bağlayıb qar çıxdı dizə (S.Vurğun).

Təntimək. Azərbay**c**an dili şivələrində təntimək iki mənada işlənir. Bu söz təntimax fonetik formasında Şəki şivəsində "tələsmək", "çaşmaq", "özünü itirmək", "nə edə**c**əyini bilməmək", Beyləqan, Qax, Zəngilan, Zəmbərək şivələrində "çaşmaq", "özünü itirmək", "nə edə**j**əyini bilməmək" mənalarını bildirir (ADDL, 2007, s.491). "Azərbay**c**an dilinin izahlı lüğəti'ndə təntimək danışıq dilinə məxsus söz kimi "tələsmək", "darıxmaq", "hövsələsini itirmək", "tələsməkdən canı sıxılmaq" mənasını verdiyi göstərilmişdir (ADİL,IV,1987, s.165). Məsələn:

Baş çatlayır istidən;
Göydən yerə od yağır Dəvələr də təntiyib Yeriyir ağır-ağır.
(B.Vahabzadə).

Təpimək. Bu və ya digər yaş əşyaların quruması müxtəlif olur: tam qurumaq, yarımçıq qurumaq, bir qədər qurumaq və s. Hər hansı bir əşyanın - sulu torpağın, paltarın yarımçıq quruması əşyanın suyunun çəkilməsi nəticəsində baş verir. Belə qurumanı Azərbaycan dilinin şivələrində işlənən təpimək sözü ilə ifadə etmək olur. Təpimək Gədəbəy, Kürdəmir, Yevlax, Zəngilan (ADDL, 2007, s.492), Qərbi Azərbaycanın Çəmbərək şivələrində təpiməx' formasında işlənir və "bir qədər qurumaq" mənasını ifadə edir. "Azərbaycan dilinin izahlı lüğəti" ndə təpimək "qurumaq, qupquru olmaq, suyu çəkilmək" kimi mənalandırılmışdır (ADİL, IV, 1987, s.166). Məsələn: Gecə külək əsdiyi üçün yol təpimiş, sahə qurumuşdu (Ə.Vəliyev).

Tərəcə. Bu söz "pambığı qurutmaq üçün qamışdan qayırılmış əşya" mənasım bildirir. Məsələn: Pambığı havada qurutmaqdan ötrü qamışdan tərəcələr hazırlanacaq (Ə.Vəliyev). "Azərbaycan dilinin izahlı lüğəti"ndə tərəcə "üstünə barama qurdu buraxmaq və ya üstündə pambıq, meyvə qurutmaq üçün qamış, qarğı və s. dən hörgü" mənasında işləndiyi göstərilir (ADİL, IV, 1987, s.169). Məsələn: Bütün manqalarda pambığı havalarda qurutmaqdan ötrü hər yığıcı üçün qamışdan bir səyyar tərəcə hazırlanmışdır (Ə.Vəliyev).

Tərəzilər. Səma cisimlərinin bir hissəsi Azərbaycan dilinə məxsus sözlərlə ifadə olunur: dan ulduzu, ülkər və s. Səma cisimlərindən biri böyük ayı bürcüdür. Bu ulduz xalq arasında yeddi qardaş ulduzu, Qazax, Şəmkir, Tovuz şivələrində tərəzilər adlanır (ADDL, 2007, s.493).

Bəllidir ki, on iki bürc var. Bürclərdən biri də "tərəzilər"dir. Ulduz adı kimi şivələrimizdə işlənən tərəzilər artıq ümumişlək funksiya kəsb edərək ədəbi dilimizin lüğət tərkibini zənginləşdirmişdir.

Tərlik. Tərlik sözü "yəhərin altından atın belinə qoyulan keçə parçası" mənasında Şamaxı, Bakı, İmişli, Salyan, Şərur şivələrində tərrig, Qazax, Ağdam, Bərdə (ADDL, 2007, s.493), Qərbi Azərbayanın Çəmbərək şivələrində tərrix' formalarında işlənir. Tərlik "xüsusi dərialtı vəzilərin ifraz etdiyi şəffaf maye'mənasmda işlənən tər sözünə -lik şəkilçisi artırılması yolu ilə düzəlmişdir. Məsələn: Cəmil tərliyi Qaşqanın üstünə atıb onu həyətdən çıxardı (Q.Musayev). Azərbaycan dilində tərlik "yəhər altından atm belinə qoyulan keçə parçası" mənası ilə yanaşı, "keçmişdə yaşlı kişilərin papaq altından qoyduqları nazik parçadan tikilmiş baş geyimi" və "iç tərəfdən ayaqqabının altma yapışdırılan nazik dəri, parça, karton" mənalarım bildirir (ADİL, IV, 1987, s.171). Məsələn: Molla əmmaməsini yenə minbərin üst pilləsinə qoymuş, başında tərlik, yerə oturmuşdu (A.Makulu).

Toxtamaq. Bu söz şivələrimizdə iki mənada işlənir. Toxdamax fonetik formasında Azərbaycan dilinin Şəki, Zəngilan, Qərbi Azərbaycamn Çəmbərək şivələrində "sakitləşmək", "özünə gəlmək", "özünü ələ almaq" mənasını, Ağdam, Bərdə, Kürdəmir, Qərbi Azərbaycanın Çəmbərək, Qarakilsə şivələrində "dayanmaq", "bir yerə çatıb durmaq" mənasım bildirir (ADDL, 2007, s.500). Dialektoloji lüğətin 1964-cü il nəşrində toxtamaq sözünün Ağdam şivəsində "çatmaq, yetişmək" mənası bildirdiyi verilmişdir (ADDL, 1964, s.386). Toxtamaq hər iki mənada (1."dayanmaq, dözmək, səbr etmək, duruxmaq", "sakit olmaq, özünü saxlamaq, özünü ələ almaq"; 2. "bir yerə gəlib çatmaq, yetişmək", "çatıb dayanmaq") "Azərbaycan dilinin izahlı lüğəti'ndə əksini tapmışdır (ADİL,IV,1987, s. 202-203). Toxtamaq dialektizm kimi ədəbi dilimizdə sabitləşmişdir. Məsələn: İsa burada toxdayıb, bir az təşvişlə arvadı Güllüyə baxdı ki, bunun da səbəbi vardı (Ə.Əbülhəsən). Ədəbi dilimizdə işlənən toxtatma, toxtatmaq sözləri də toxtamaq sözü ilə bağlıdır.

Tıncıxmaq. Azərbaycan dilinin Ağjabədi, Xaçmaz, Qax, Oğuz, Zəngilan, Qərbi Azərbaycanm Ağbaba (ADDL, 2007, s.496), Çəmbərək şivələrində "ürəyi darıxmaq, hava çatmamaq, təngnəfəs olmaq, boğulmaq", "nəfəsi tutulmaq, az-az, çətinliklə nəfəs almaq" mənasım bildirən tınjıxmaq sözü işlənir. Məsələn: Qiyas tövşüdü, nəfəsi tıncıxdı (S.Azəri). Şəki şivəsində tıncıxmaq "bezmək, təngə gəlmək" mənasında işlənir (ADDL, 2007, s.496). "Azərbaycan dilinin izahlı lüğəti'ndə göstərilir ki, tıncıxmaq məhəlli (dialekt -İ.B.) söz kimi "çətinliklə nəfəs almaq, nəfəsi təng olmaq" mənasını bildirir (ADİL, IV, 1987, s.190). Məsələn: Əsgərin nəfəsi tıncıxdı,artıq dayana bilməyib, Kosa ilə danışmağa girişmək qərarına gəldi (S.Rəhimov).

Üçəm. Heyvandarlığın bir sahəsini təşkil edən qoyunçuluqda bala verməyə xğsusi əhəmiyyət verilir. Qoyunlar iki bala verdiyi kimi, üç bala da verə bilir. Bir dəfəyə bir qoyun üç bala doğursa, belə qoyun üçəm adlanır. Üçəm sözü Ordubad, Qazax, Naxçıvan, Ağdam, Şirvan, Gədəbəy, Kürdəmir şivələrində işlənir və "bir dəfəyə üç bala doğmuş qoyun, keçi" mənasımı bildirir (ADDL, 2007, s.523). Üçəm heyvandarlıq termini kimi işlənir və ədəbi dili zənginləşdirir. Bu söz "Azərbaycan dilinin izahlı lüğəti"ndə məhəlli (dialekt - İ.B.) söz kimi "bir dəfədə üç bala doğan heyvan (əsasən qoyun haqqında)" mənasını bildirdiyi göstərilmişdir (ADİL, IV, 1987, s.263). Məsələn: Həmişə əlləri cibində olan javan çoban təklif edirdi ki, ... üçəm qoyunlar yaxın yerlərdə otlarsa, hər yüz qoyundan orta hesabla iki yüz quzu almaq olar (Ə.Vəliyev).

Vağanımaq. Taxılı vaxtında biçmək məhsuldarlığı artırır, itkinin qabağını alır. Lakin elə olur ki, taxılın biçilmə vaxtı mğəyyən səbəblərdən ötüb keçir. Şivələrimizdə taxıla aid olub, "yetişib ötmək", "biçilmə vaxtı keçmək" mənasını ifadə edən vağanımaq sözü vardır və bu sözə Bərdə, Cəbrayıl, Daşkəsən, Gədəbəy, Kürdəmir, Mingəçevir, Şəmkir, Zəngilan şivələrində işlənir (ADDL, 2007, s.529). Məsələn: Vağanımış taxıla od düşsə, bütün məhsul məhv olduğu kimi, pambığa sovka daraşsa, insanın zəhməti əlində qalar (Ə.Vəliyev). Eyni zamanda taxılın biçilmə vaxtının ötüb keçməsi ilə bağlı İmişli, Kürdəmir, Saatlı, Salyan, Ucar şivələrində vağam, Şəki şivəsində vağamnamax, Füzuli şivəsində vağan, vağannatmax, Oğuz şivəsində vağan, vağnamax, Qərbi Azərbaycanm Qarakilsə şivəsində vağən sözləri işlənir (ADDL, 2007, s.529).

Yastana. Azərbaycan dili şivələrində ədəbi dilə gətirilə biləjək, ehtiyaj duyulan terminlər vardır. Belə terminlərdən biri də yasdana sözüdür. Yastana sözü "dağda düzənlik" mənasında Qazax, Ağjabədi, Cəbrayıl, Daşkəsən, Füzuli, Gədəbəy, Göygöl (ADDL, 2007, s.542), Qərbi Azərbaycanın Çəmbərək şivələrində işlənir. Yasdana sözünə Şabran, Qərbi Azərbaycanın Qarakilsə şivələrində yasdan fonetik formasında rast gəlinir (ADDL, 2007, s.542). Yastana 1964-cü ildə çap olunan "Azərbaycan dilinin dialektoloji lüğəti"ndə "yasd(t)ana" formasında "düzən, düzənlik", "dağ döşündə düz sahə" mənalarında işləndiyi göstərilmişdir (ADDL, 1964, s.241). "Azərbaycan dilinin izahlı lüğəti'ndə yasdana yastan (a) formasında dialekt süzğ kimi "dağda, təpədə, dikdirdə, qayalıqda, yastı, düz yer" kimi izah edilmişdir (ADİL, IV, 1987, s.508). Məsələn: Nəbinin qoyun sürüsü arxacın üst tərəfindəki yastana toplanmışdı ("Qazaq Nəbi" dastanı); Gülü qızı güllü-çiçəkli bir yastanda dəfn elədik (Ə.Vəliyev). Yastana Azərbaycan toponimlərinin formalaşmasında da iştirak edir (İ.Bayramov, 2000, s.39).

Azərbaycan Dili Şivələrində Qədim Türk Sözləri

Dilin və xalqın tarixinin öyrənilməsində dialektologiya xüsusi yer tutur. Eyni zamanda dil tarixinin elmi baxımdan araşdırılmasında, müəyyən sözlərin inkişaf tarixini, işlənmə məqamlarının müəyyənləşdirilməsində dialekt və şivələr əsas mənbələrdən biridir. Ə.Dəmirçizadə yazır: “Azərbaycan dilinin tarixini öyrənərkən yazılı mənbələrlə yanaşı olaraq janlı dilin, xüsusən şivələrin verdiyi faktlar da olduqja mühümdür. Məlum olduğu üzrə, şivələr bu və ya digər şəkildə ya ümumxalq dilindən əvvəlki qəbilə dillərinin izini, xüsusiyyətini müəyyən dərəjədə özündə saxlayır, ya ümumxalq dili əmələ gəldikdən sonra bu və ya digər şəkildə məhdud feodallıqlarla əlaqədar olaraq bir sıra xüsusiyyətlər, fərqli əlamətlər kəsb edib, ümumxalq dilinin qolları halında formalaşmış olur, ya da tək-tək hallarda olsa da, çarpazlaşma nətij əsində məğlub olmuş başqa bir dilin xüsusiyyətini özündə saxlayan bir dil izi kimi fərqlənərək müəyyən tarixi müddətdə yaşayır. Buna görə də hər hansı bir dilin tarixini öyrənərkən, xüsusən müəyyən dövrlərin yazılı mənbələrində təsadüf olunan bir sıra xüsusiyyətləri aydınlaşdırmaq üçün şivə materialları ilə yazılı mənbələrin materiallarını tutuşdurmaq zəruridir” (Ə. Dəmirçizadə, 1979, s.40).

Yazılı dilin formalaşmasında dialekt materiallarına xüsusi fikir verilməlidir. Müxtəlif yazılı materiallarda əksini tapmış elə leksik vahidlər var ki, onlara bu gün yalnız dialekt və şivələrdə rast gəlinir. Bu da yazılı dilimizin fonetik, qrammatik və leksik xüsusiyyətlərinin düzgün araşdırılmasını təmin edir. Həm də yazılı abidələr dialekt leksikasının öyrənilməsi üçün əsas mənbələrdəndir.

Yazılı mənbələrdə elə səslərə, morfemlərə, leksik vahidlərə rast gəlinir ki, onlar müasir ədəbi dilimizdə işlənməsələr də, şivələrimizdə qalmaqdadır. Məsələn: sağır nun - ŋ səsi tarixən dilimizdə işlənmişdir: Alar sabah Dirsə xan qalqubanı yerindən uru turıb, qırq yigidin boyma alub, Bayandar xanıq söhbətinə gəlürdi (KDQ,1988, s.34). Qalqubanı xan Bayındır yerindən turmış, bir yerə ağ otağ, bir yerə qızıl otağ, bir yerə qara otağ dikdirmiş. “Oğullıları ağ otağa, qızluyı qızıl otağa, oğlı-qızı olmıyanı qara otağa qondırıŋ, qara keçə altına döşəŋ, qara qoyun yəxnisindən önünə gətürüŋ; yersə-yesün, yeməzsə, tursun-getsün. Anuŋ kim oğlı-qızı olmıya, təŋri-təala anı qarğayıbdur, biz dəxi qarğarız” - demiş (KDQ, 1988,s.35). E.Əzizov yazır: “Velyar q (sağır nun - İ.B.) türk dillərinin, eləcə də Azərbaycan dilinin qədim samitlərindəndir. Türk dillərinin qədim yazılı abidələrində və Azərbaycan ədəbi dili nümunələrində bu samit söz ortası və söz sonu mövqelərində həm söz köklərində, həm də şəkilçilərdə işlənmişdir” (E. Əzizov, 1999, s.107). 1929-cu ildə qəbul edilmiş latın qrafikalı Azərbaycan əlifbasında ŋ müstəqil hərf kimi əksini tapmışdır. H.Mirzəzadə yazır ki, ŋ səsi XX əsrin otuzunju illərinədək yazıda imlasını saxlasa da, yeni əlifbanın qəbulundan sonra (1939-cu ildə qəbul edilmiş kiril qrafikalı Azərbaycan əlifbası nəzərdə tutulur - İ.B.) əlifbadan çıxarılmışdır (H.Mirzəzadə, 1990, s.23). Bu gün ŋ səsi Azərbaycan dilinin qərb qrupu şivələrində işlənir. M.Şirəliyev yazır: “Dilarxası sonor burun səsi olan sağır ŋ (velyar n) ədəbi dil və başqa dialektlərdən fərqli olaraq, qərb qrupu dialekt və şivələrində daha geniş yayılmışdır. Bu səsə söz köklərində və şəkilçilərdə (ikinji şəxs mənsubiyyətin yiyəlik halı, xəbərlik) rast gəlirik” (Qərb qrupu şivələri, 1967, s.30).

Tarixən ismin təsirlik halında saitlə bitən sözlər -yı, -yi, -yu, -yü şəkilçisini qəbul etmişdir. Buna “Kitabi-Dədə Qorqud” dastanında rast gəlinir: Üç kişi sağ yanından, üç kişi sol yanından dəmür zəncirlə buğayı tutmışlardı (KDQ, 1988, s.36). “XVIII əsrə qədər mövcud olan yazılı materialların dilində səsli ilə (saitlə - İ.B.) bitən isimlər təsirlik hal şəkilçidən əvvəl bitişdirici n səsi ilə yanaşı y səsi də qəbul etmişdir. XVIII əsrdən sonra y ilə n ünsürlərinin

tənasübü tamamilə dəyişmişdir. Ədəbi yazı dilində n ünsürü y -ya nisbətən üstünlük almışdır. Başqa süzlə desək, getdikcə ədəbi dilimizdə n qrammatik bir ünsür kimi sabitləşmişdir" (H.Mirzəzadə, 1990, s.44).

İsmin təsirlik halında -yı -yi, -yu, -yü şəkilçisinin işlənməsi Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrində qorunub saxlanmışdır. "Bu xüsusiyyət dilimizin Qazax, Borçalı, Tovuz, Şəmkir, Daşkəsən, Gədəbəy, Xanlar (Göygöl-İ.B.), Goranboy şivələrində yayılmışdır: qapıyı, dəriyi, quzuyu, sürüyü (Qaz.). -yi, -yı, -yu, -yü şəkilçisi Azərbaycan dilinin Göyçə (Basarkeçər, Çəmbərək), Karvansaray (İcevan), Böyük Qarakilsə (Kirovakan), Zəngibasar (Masis) şivələri üçün də (bu ərazilər Qərbi Azərbaycan ərazisində yerləşir - İ.B.) səciyyəvidir" (E. Əzizov, 1999, s.172).

Azərbaycan dilinin yazılı mənbələrində işlənmiş - q, - qız; -ğ, -ğız, -v, -vuz; -y, -yız mənsubiyyət şəkilçiləri Azərbaycan dili şivələrində qalmaqdadır (E. Əzizov, 1999, s.183-189).

Azərbaycan dili şivələrində kifayət qədər qədim sözlər qorunub saxlanmışdır və bu sözlər ədəbi dilimizin inkişaf mərhələlərini, onların ilkin variantlarını müəyyənləşdirməsinə geniş imkanlar yaradır. Ə.Dəmirçizadə yazır: "Ayrı-ayrı sözlərin əslini, quruluşunu, etimolojisini aydınlaşdırmaq işində də şivələr bu və ya digər vəziyyətdə əsaslı material verə bilir. Məsələn, vaxtilə Azərbaycan dilində, xüsusilə yazılı mənbələrdə "dustaq" sözü «tutsaq» şəklində işlənilmişdir ki, bunun "tut-maq" feilindən düzəldiyini əsaslandırmaq üçün həmin mənada qərbi GürCüstan rayonlarındakı Azərbaycan şivələrində «tutuq» söznün işlənməsi bizə kömək edir. Yaxud "Dədə Qorqud" dastanlarında "tez»", "cəld" mənasında işlənmiş "becid" sözünə biz Bakı şivəsində rast gəlirik. Belə bir fakt isə həm bu sözün Bakı şivəsinə rus dilindəki «becit» sözündən keçmə olduğunu düşünənlərin səhv etdiklərini, həm də min il bundan əvvəl dilimizdə işlənmiş bir söz olduğunu təsdiq edir" (Ə,Dəmirzizadə, 1979, s.41).

Şivələr dilin ən yaxşı və etibarlı qoruyucusudur. Məhz tarixən ədəbi dilimizdə işlək olan sözlər bu gün arxikləşərək dialektlərimizdə qalır və işlənir. E. Əzizov bununla bağlı yazır: "Azərbaycan dili dialekt leksikasının mühüm bir hissəsini arxaik sözlər təşkil edir. Dialekt leksikasında arxaik sözlər deyərkən biz vaxtilə Azərbaycan yazılı abidələrində işlənmiş, sonradan isə ədəbi dilimiz üçün arxaikləşmiş, lakin şivələrin lüğət tərkibində saxlanmış sözləri nəzərdə tuturuq. Məlumdur ki, arxaizm adlandırılan bu və ya digər sözün konkret bir dilin əvvəlki dövrlərinə aid yazılı mənbələrində işlənməsi əsas şərtdir. Müəyyən bir sözün yazılı abidələrdə işlənməsi həmin sözün qədimliyinə, mğasir şivələrdə işlənməsi isə bu sözün tarixən Azərbaycan dilinə mənsubluğuna dəlalət edir" (E.Əzizov, 1999, s.222- 223). Azərbaycan dili şivələri cəmiyyətin və dilin inkişafı ilə sıx bağlıdır. Yəni dildə baş verən dəyişiklik şivələrdə də əksini tapır. Məhz "Dialekt və şivələrimizin lüğət tərkibi uzun əsrlərin məhsulu olduğundan burada Azərbaycan xalqının keçmiş olduğu dövrləri əks etdirən sözlərə təsadüf edirik. Qəbilə, tayfa dövrü ilə bağlı bir sıra tayfa adlarına, qohumluq əlaqələrini bildirən sözlərə indi də dialekt və şivələrimizin lüğət tərkibində rast gəlirik" (M. Şirəliyev, 1967, s.325).

Azərbaycan dilinin milliliyinin qorunub saxlanmasında, ərəb, fars sözlərinin yersiz olaraq ədəbi dilimizə gəlməsinin qarşısının alınmasında dialekt və şivələrimiz əvvəzsiz rol oynamışdır. R.Rüstəmov yazır: "Hər hansı bir dil onu yaradan xalqın tarixi ilə sıxı surətdə əlaqədardır. Məhz buna görə də dildə, onun lüğət tərkibində bu və ya digər xalqın tarixini, yadellilərə qarşı mübarizəsini, adət və ənənələrini, məişət tərzini və s. əks etdirən yüzlərcə söz vardır. Bu cəhətdən dialekt və şivələr daha zəngin materiala malikdir; çünki dialekt və

şivələrdə qədim dövrlərin izləri, arxaik sözlər ədəbi dilə nisbətən uzun zaman qorunub saxlanır. Digər tərəfdən, dialekt leksikası başqa dillərin təsirinə az məruz qalır, öz "saflığını", demək olar ki, mühafizə edib saxlaya bilir. Buna görədir ki, canlı danışıq dilini, dialekt və şivələrimizin leksikasını öyrənmək, buradakı sözlərin etimologiyasını müəyyənləşdirmək, toponimik adları tədqiq etmək, qədim dövrlərin qalıqlarını meydana çıxarmaq mühüm məsələlərdən biridir" (R.Rüstəmov, 1961, s.197).

E. Əzizovun əsərində K.Musayevdən gətirilmiş sitatda göstərilir ki, Azərbaycan ədəbi dili XIX əsrədək fars ədəbi dilinin, eləcə də daha çox bu dilin vasitəsilə ərəb dilinin güjlü təsirinə məruz qalmışdır. Bunu Azərbaycan dilinin xalis türk sözlərini çoxlu İran və ərəb alınmalarının əvəz etdiyi leksikası barədə də söyləmək olar. Türk leksikası əsas etibarilə, Azərbaycan dialekt və şivələrində daha çox saxlanmışdır ki, burada türk abidələri və başqa türk dilləri üçün səjiyyəvi olan sözlər var (E.Əzizov, 1999, s.222).

Arxaizmlər dilin ən qədim dövrlərində işlənmiş sözlər əsasında yaranmışdır və onlar ədəbi dildə müəyyən zaman daxilində işlənsə də, müasir ədəbi dildə işləklilikdən qalmışlar. Bu sözlər əsasən heç bir məna dəyişikliyinə uğramadan ilkin formada olduğu kimi, ya da müəyyən fonetik dəyişikliyə uğrayaraq dialekt və şivələrimizdə işlənir. Ə.Tanrıverdi yazır: "Müasir ədəbi dilimiz baxımından arxaizm hesab olunan sözlərin bir qismi şivələrimizdə eynilə və ya müəyyən fonetik dəyişmələrlə işlənməkdədir. Məsələn, al-hiylə, ayıtmaq- demək, söyləmək, arı-təmiz, börk-papaq, qutlu-uğurlu, yağı-düşmən, yaşırmaq-gizlətmək, yazı-çöl, güz-payız, suç-günah, düş//duş//tuş -yuxu, sayru-xəstə və s. kimi sözlər yazılı abidələrimizdə tez-tez təkrarlanan vahidlərdəndir. Maraqlıdır ki, qeyd etdiyimiz arxaizmlərin əksəriyyəti şivələrimizdə də intensivliyi ilə fərqlənir. Sözlərin dildə işlənmə tarixini, onların tam köhnəlmiş və ya sıradan çıxmış olduğunu, eləcə də bir sıra sözlərin ilkin formasının müəyyənləşdirilməsində şivə leksikasının rolu əvəzedilməzdir" (Ə. Tanrıverdi, 2010, s. 110). Azərbaycan dili tarixinin leksik tərkibinin öyrənilməsində ana dillı tarixi mənbələr, klassik şairlərin əsərləri ilə yanaşı, Azərbaycan dilinin dialekt və şivə leksikasının rolu əvəzedilməzdir (Ə. Tanrıverdi, 2010, s.110).

Azərbaycan dili tarixinin leksik tərkibinin öyrənilməsində ana dillı tarixi mənbələr, klassik şairlərin əsərləri ilə yanaşı, Azərbaycan dili şivələri də mühüm əhəmiyyət kəsb edir. Şivələrimizdə qədim türk sözlərinin bir qismi olduğu kimi, bir qismi müxtəlif fonetik dəyişikliyə uğramış formada işlədilir. Bu sözlər müasir Azərbaycan ədəbi dili üçün arxaikləşmiş olsalar da, dialekt və şivələrimizdə indi də işlənməkdədir. Azərbaycan dili şivələrində öz izini qoruyub saxlayan qədim türk sözləri qədim dövr türk dilli abidələrdə, XIII-XVIII əsrdə Azərbaycan dilində yazıb yaradan şairlərin əsərlərində rast gəlinir və bu sözlər dilimizin tarixi haqqında obyektiv təsəvvür yaradır.

Al. Bakı, Qazax, Ağcabədi, Cəbrayıl, Füzuli şivələrində al sözünə rast gəlinir və "yalan", "hiylə" mənalarım bildirir: Məni al dilə tutma, nə sözün var mərdana denən (ADDL, 2007, s.18). Qərbi Azərbaycanın Basarkeçər şivəsində al "hiyləgər, yalançı" mənasım bildirir (Z. Vəliyev, 1954, s.204; 11, s.18). Qədim türk dilində al "hiylə" mənasında işlənmişdir (DTS, 1969, s.31). V.V.Radlovun lüğətində qədim türk dilində al sözünün "hiylə", "kələk", "bijlik" mənalarında işləndiyi göstərilmişdir (**В.Радлов**, I, 1893, 1914, s.349).

Al "Kitabi-Dədə Qorqud" dastanında, Nəsimidə eyni mənada işlənmiqdir:

Namərd tayın al eyləmiş (KDQ, 1988, s.125).

Al ilə ala gözlərin aldadı aldı könlümü,
Alini gör nə al edər, kimsə irişməz alinə (İ.Nəsimi)

Bakı, Qazax və Qarabağ şivələrində eyni şəkil və mənada işlənən bu söz Ə.Vəliyevin "Budağım xatirələrin'də "qoymaq" köməkçi feili ilə işlənərək "hiylə işlətmək", "kələk gəlmək" mənasında verilmişdir" (V.Mursaquliyev, 1975, s.67). Məsələn:Laçm məkəməsi məni ala qoydu (Ə.Vəliyev). Müasir Azərbaycan ədəbi dilində "qəsdən yayındırmaq", "başım tovlamaq", "yoldan çıxarmaq", "yalan danışmaq", "əsli olmayan bir şeyi doğru bir şey kimi göstərmək", "sözünün üstündə durmamaq", "xəyanət etmək" mənalarında aldatmaq sözü işlənir (ADİL, I, 1964, s.88). Belə bir qənaətə gəlirik ki, aldatmaq qədim türk dilində "yalan, hiylə, bijlik, xəyanətkar" mənasında işlənən al sözü əsasında yaranmışdır. "Azərbaycan dilinin izahlı lüğəti"ndə al köhnəlmiş söz kimi verilmiş və "hiylə, məkr, yalan" mənasında işləndiyi göstərilmişdir (ADİL, I, 1964, s.82).

Arğalı. Bu söz Qazax, Naxçıvan, Ordubad, Julfa, Zəngilan şivələrində "vəhşi qoç" mənasında işlənir. Məsələn: Arğalı yaman bicdi, onu hələm-hələm vurmağ olmur (ADDL, 2007, s.25). 1964-jü ildə çap olunmuş "Azərbaycan dilinin dialektoloci lüğəti'ndə arğalı sözünün Qazax şivəsində həm də "keçi" mənasında işləndiyi göstərilmişdir (ADDL, 1964, s.39). Arğalı Qazax şivəsində "görünüşlü, yaraşıqlı buynuzlu (inək)" (ADDL, 1964, s.39), "yaraşıqlı, gözəxoş (inək)" (ADDL, 2007, s.25) mənasım da bildirir. Arğalı qədim türk dilində arqar formasında "dağ qoçu" mənasında işlənmişdir. Məsələn: Çağrı alip arquna münüp arqar yetər (DTS,1969, s.54).

Arı. Bu söz Azərbaycan dilinin Qərb qrupu (Qazax, Ağdam, Füzuli, Göyçə, Şəmkir, Tovuz), cənub qrupu (Şahbuz) şivələrində "təmiz" mənasında işlənir (ADDL, 2007, s.25). Arı Bakı və Xaçmaz şivələrində ari formasında "təmiz, saf' mənasım ifadə edir (ADDL, 2007, s.26). İmişli şivəsində "təmizlənmək", "bəzənmək", "yuyunmaq" mənalarında işlənən arımmağ, Quba, Qazax, Şəki, Xaçmaz şivələrində "təmizləmək" mənasında işlənən arıtdamağ və arıtdamax (ADDL, 2007, s.26) sözlərinin tərkibində də arı "təmiz" mənasım bildirir. Bu söz qədim türk dillərində müxtəlif fonetik (aru, arı, ari) variantlarında "təmiz", "pak", "saf', "xalis" mənalarında işlənmişdir (G.Sevortən, 1974, s. 184-185). Müasir Azərbaycan ədəbi dilində "cıbz, sısqa, zəif, cansız, ətsiz-yağsız" mənasında işlənən arıq (ADİL, I, 1964, s.123) qədim dilimizdə işlənmiş arı süzğndən əmələ gəlmişdir. Arı sözünə "Kitabi-Dədə Qorqud" dastanında rast gəlinir: Ari sudan abdəst aldılar(KDQ, 1988, s.50). XIV-XVI əsrlərdə eyni mənada arı sözü geniş şəkildə işlənmişdir:

Napak olan nə bilür sənin qədrü, qiymətün,
Zatində adəmin dəxi ari göhər gərək (Nəsimi)
Hər dəmbədəm ol özün əridir,
Heç olmaz onun kimi arıdür (Ş.İ.Xətai)
Nəşəyi-danişin müfərruhu-can,
Ari ol kefiyyətdən əhli-cəhan (M.Füzuli)[1]

Arı "təmiz" mənasında Azərbaycan dili şivələri ilə yanaşı, türk dillərində - türk, qırğız, tatar, qaraçay, balqar, xakas, tuva dillərində də işlənir (**Э.Севортян**, 1974, s.185).

Aş. Aş sözü Qərbi Azərbay**canın** Basarkeçər şivəsində "əriştə" (ADDL, 2007, s.27), Çəmbərək, Zəngibasar, Kalinino şivələrində "plov" mənalarında işlənir. Aş "Kitabi-Dədə Qorqud" dastanında "xörək, yemək, bişmiş" mənasında (Dədə Qorqud döndi, Oğuza gəldi. Aydır: "Buqlu qoja ilə Yapağlu qocayı Dəpəgözə verüŋ, aşın pişürsün"! - dedi), M.Kaşğarinin "Divanü-lüğat it-türk" əsərində "yemək" aş mənasında (M.Kaşğari, I, 2006, s.147) işlənmişdir. Aş türk dillərində "yemək", "plov", "şorba", "çörək", "taxıl" mənalarım bildirir

[1] Nümunələr- M.Cavadovamn "Şah İsmayıl Xətainin leksikası" (Bakı, 1977) əsərindən (s. 76-77) götürülmüşdür-

(**Э.Севортян**, 1974, s.210-211).

Azərbaycan atalar sözünün tərkibində aş "yemək" mənasında işlənmişdir: Aş daşanda çömçə baha olar. Aşın cuyuqluğu (duruluğu - İ.B.) dənin yoxsulluğundandır.

B. Əhmədov aş sözünün etimologiyası ilə bağlı yazır: "Bütün yeməklərin ümumi adı aş olub. İndi məna daralıb, söz, əsasən, plov mənasında işlədilir. Amma aşpaz, qatıqaşı, aşxana, ayranaşı kimi sözlərdə qədim məna qalmaqdadır (qatıqaşı heç də plov demək deyil. Aşpaz heç də təkcə plov bişirməklə məhdudlaşmır və s.). "Nə tökərsən aşına..." deyimi də aş sözünün qədim mənası ilə bağlıdır. Müasir tatar dilində aş sözü qədim mənasını saxlaya bilib: aşamlıq (пища), aşarqa кушать), aşatırqa (кормить), aşqazanı (mədə, qursaq), tamır azıq (kökü yeyilən, kökü meyvəli), aşyaylıq (süfrə) kimi kəlmələr bunu sübut edir. Türk dillərinin bəzilərində qazan əvəzinə aşac işlədilir. Aş sözü rus dilinə də keçib, onlarda aşat məsdəri var, кушать deməkdir" (B.Əhmədov, 1999, s.37).

İraq-türkman ləhcəsində aş "yemək" mənasını bildirir (İraq-türkman, 2004, s.345) və bu ləhcədə "aşbaz" mənasında işlənən aşçı süzğnğn (İraq-türkman, 2004, s.345) tərkibində aş qədim mənasını qoruyub saxlamışdır.

Aş erməni dilinə də keçib. Belə ki, erməni dilində "xörək" mənasında işlənən caş sözü qədim türk dilində işlənən aş sözünün fonetik variantıdır.

E. Əzizov yazır ki, Azərbaycan dilinin Arpaçay kəndləri (Türkiyə) şivələrində aş sözü "yemək, xörək" mənasında işlənir (E.Əzizov, 1999, s.231). Ə.Tanrıverdi aş sözünün şivələrdə izi ilə bağlı yazır ki, "aş" sözü Qərb ləhcəsində müstəqil şəkildə yox, mürəkkəb söz daxilində (aş-daş) hər cür xörək mənasında işlənir. Məsələn, arvat, aşdan-daşdan nəyiq var, gət yə:x'. Deməli, müasir dilimizdə semantik daralma ilə işlənən "aş" sözü dialekt və şivələrimizdə ilkin semantikasını saxlamaqdadır (Ə. Tanrıverdi, 2002, s.76-77).

Ağırlamax. Azərbaycan dilinin Cəbrayıl, Göygöl, Şəmkir şivələrində (ADDL, 2002, s.14), Qərbi Azərbaycanın Çəmbərək şivəsinə daxil olan Toxluca kənd şivəsində ağırramax "qonağı hörmətlə qəbul etmək" mənasında işlənir: Onlar qonağı həmişə yaxşı ağırrıyırlar. Ağırlamaq "Kitabi-Dədə Qorqud" dastanında "əzizləmək" mənasını bildirir: Ol anı yedirər-içirər, ağırlar-əzizlər, göndərər (KDQ, 1988, s.33).

"Azərbaycan dilinin izahlı lüğəti'ndə ağırlamaq "əzizləmək" mənasında danışıq dilinə məxsus söz kimi göstərilir (ADİL, I, 1964, s.47). Ağırlamaq qədim türk dilində "əzizləmək" mənasında geniş şəkildə işlənmişdir və "Древнетюркский словарь"da ağırla formasında verilmişdir (**ДТС**, 1969, s.19).

Azman. Azərbaycan dili şivələrində azman sözü işlənir. Azman Bakı, Ordubad, Şamaxı, Beyləqan, Cəbrayıl, Füzuli, Qərbi Azərbaycanın Qarakilsə şivələrində "altıillik qoyun", Ordubad,Zəngilan şivələrində"dördillik qoyun", Ağdam, Füzuli, Gülcüstanın Borçalı şivələrində "qojalmış qoyun, keçi" mənalarını bildirir (ADDL, 2007, s.32). Azman sözüXojavənd şivəsində əzman formasında "beşillik qoyun" mənasında işlənir (ADDL, 2007,s.168).

Qədim türk dilində azman "burulmuş qoyun" mənasında işlənmişdir (ДТС, 1969,s.73). B.Əhmədov azman sözünün etimologiyası haqqında yazır: "Bu söz (azman - İ.B.) aşıb- daşan, normaya sığmayan mənalarında işlənir. Sözün bir mənası da yaşlı, nəhəng heyvan deməkdir (6 yaşlı keçiyə azman deyirik). Sözün kökü əslində aşmaq məsdəri ilə bağlıdır. Aşmaq isə daş (dişarı) kəlməsinin formaca dəyişməsi zəminində yaranıb. Daş (dış) - kənar, kənara çıxmaq, xaric ("iç"in əksi) deməkdir. Deməli, azman (əsli: aşman, daşman, dışman) - normadan çox kənara çıxmaqla bağlıdır (-man şəkilçisi həmişə çoxluq bildirir: qocaman, ataman və s.)"

(B.Əhmədov, 1999, s.15).

Bağır. Qazax, Quba, Şəki, Ağdam, Cəlilabad, Füzuli, Kürdəmir şivələrində bağır "ürək, qəlb" mənasını ifadə edir: Qorxudan onun bağrı yarıldı (ADDL,2007, s.35). Bağır qədim Azərbaycan dilində işlək söz olmuş, "ürək, qəlb" mənasında işlənmişdir: Yalŋuzca oğul görünməz, bağrım yanar (KDQ); Ey Füzuli, ol sənəm əfğanına rəhm eyləməz, Daşə bənzər bağrı, təsir eyləməz əfğan ona (M.Füzuli); Edən qan qönçə tək bağrım lələ-abidar olmuş (Nəbati). H.Mirzəzadə yazır ki, ürək, qəlb sözünün sinonimi olan bu sözə (bağır sözünə - İ.B.) Füzulidə daha çox rast gəlmək olar. Bu gün mənaca daha daralmış, bağrım partlayır, bağrına basdı ifadələrində janlı danışıq dilində təsadüf edilir (H.Mirzəzadə, 1957, s.170). "Bağrına basmaq", "bağrı daş" frazeoloji birləşmələrində bağır "ürək, qəlb" mənasını bildirərək ilkin mənasını qoruyub saxlamışdır. Gəncə, Qazax, Şəki, Kürdəmir, Qax, Mingəçevir, Şəmkir, Şuşa şivələrində bağır "qaraciyər" mənasını ifadə edir. Bağır kavavı yaxşı olur (ADDL, 2007, s.35).

Qərbi Azərbaycanm Çəmbərək şivəsində "qarabağır", yəni qaraciyər, "ağbağır", yəni ağciyər sözlərinin tərkibində bağır sözü işlənmişdir. Qarabağır və ağbağır sözlərinin tərkibində işlənən "qara" və "ağ" leksemləri, rəng mənasını bildirir. Həqiqətən, "qarabağır'ın rəngi qara rəngə, "ağbağır'ın rəngi ağ rəngə bənzəyir. Bağır sözü türk dillərində "ürək", "qaraciyər", "sinə", "qoyun" mənalarını bildirir (DTS, 1969, s.78).

Bayınmaq. Bu sözə Qərbi Azərbaycanm Meğri şivəsində bayımmax formasında rast gəlinir və "varlanmaq", "yarımaq, xoşbəxt olmaq" mənalarını bildirir (ADDL, 2007, s.44;, s.419). Ə.Əliyev bu sözün Meğri şivəsində həm də boyımmax formasında "varlanmaq, düvlətlənmək", "vəzifə və rütbəcə yüksəlmək, xoşbəxt olmaq" mənalarında işləndiyini güstərir (Ə. Əliyev, 2003, s.419). Meğri şivəsində işlənən bayındırmax sözü də "varlandırmaq", "mənfəətləndirmək" mənasında işlənir: İşləyib bizi bayındıracaxsan (ADDL, 2007, s.44). "Kitabi-Dədə Qorqud" dastanında bu söz bayımaq formasında "dövlətlənmək, zəngin olmaq" mənasında işlənmişdir. Məsələn: Qadir Tənri verməyincə ər bayımaz (KDQ, 1988, s.31).

Qədim türk dilində "varlı", "səxavətli" mənasında bay sözü işlənmişdir (**ДТС** 1969, s.78). Eyni zamanda qədim Azərbaycan dilində bay sözü "varlı", "zəngin", "dövlətli" mənasını bildirmişdir və bunu Nəsiminin, Xətainin əsərlərində aydın görmək olar.

Bay ilə yoxsul bənəm, yolçu ilə yol bənəm (Nəsimi)
Ey xublar içində tələti-hüsn ilə bay olan (Ş.İ.Xətai)

Bu qənaətə gəlirik ki, Meğri şivəsində işlənən bayınmax, bayındırmax qədim türk dilində "varlı", "zəngin" mənasında işlənmiş bay sözü əsasında formalaşmışdır.

Bejid. Bu söz Bakı, Şamaxı, Ordubad şivələrində "tələsik", "təcili", "yeyin" mənalarında işlənir: Bir az becid gəlin, yoldaşlara çatax (ADDL, 2007, s.45).

"Kitabi-Dədə Qorqud" dastanında becid "tez, jəld" mənasını ifadə etmişdir: Qaŋlı qoca aydır: "... Oğul, sən mala becid ol yığ, mən saŋa qız arayı gedəyim!" - dedi (KDQ,1988, s.85). Becid sözü müxtəlif fonetik tərkibdə türk dillərinin dialektləri üçün xarakterikdir (E. Əzizov, 1999, s.232-233). E. Əzizov qeyd edir ki, bejid sözünün başqa oğuz dillərindəki vəziyyətini, müasir Azərbaycan dili şivələrində işlənmə dairəsini və dilimizin yazılı abidələrində seyrək halda müşahidə olunmasını nəzərə alaraq, belə nəticəyə gəlmək olar ki, bu söz ədəbi dilin işlək lüğət vahidi ola bilməmiş, dilimizin inkişafının bütün dövrlərində, demək olar ki, dialekt sözü olaraq qalmışdır (E. Əzizov, 1999, s.233).

Bədöy. Bu söz Azərbaycan dilinin Qazax şivəsində "sağlam, qaçağan, güclü at"

mənasını bildirir (ADDL, 1964, s.68). Bədöy Şahbuz şivəsində bədəv formasında “qaçağan at” mənasında, Bakı, Ordubad, Göyçay şivələrində bədöy formasında eyni mənada işlənir (ADDL, 2007, s.48). Quba şivəsində bədo şəklində “cins, yaxşı, güclü, dəli at” mənasını ifadə edir (R.Rüstəmov, 1961, s.232). Şivələrimizdə müxtəlif formalarda işlənən bədöy sözünə “Kitabi-Dədə Qorqud” dastanında bədəvi şəklində rast gəlinir: Bədəvi atınıq boynın qucaqladı, yerə düşdi (KDQ, 1988, s.37); Bədəvi atın oynatdı, qarşu gəldi (KDQ, 1988, s.69). “Azərbaycan dilinin izahlı lüğəti”ndə həm bədöv, həm də bədöy şəklində verilərək bu sözün “sağlam, qaçağan və köhlən at” mənasında işləndiyi göstərilmişdir (ADİL, I, 1964, s.238).

Mən aşıq Alı dayı,
Süz deyər Alı dayı.
Könlü bədöv istəyən,
Vaxtında alı dayı (Bayatı)
Qoyun bədöylər kişnəsin,
Misri qılınclar işləsin.
(“Koroğlu” dastanı)

B.Əhmədov bədöv fonetik formasını əsas götürərək yazır ki, “ən yaxşı at **c**inslərindən biri bədöv at adlanır. Bu bədəvi (köçəri) ərəblərin yetişdirdikləri **c**insdir. Atın adı bədəvi sözü ilə bağlıdır, yəni “köçəri ərəblərə məxsus olan at” deməkdir” (B.Əhmədov, 1999, s.52).

Bozlamaq. Bu söz bozdamax formasında Azərbay**c**an dilinin Gən**c**ə, Füzuli, İmişli, Qax, Mingəçevir, Şəmkir, Qərbi Azərbaycanm Qarakilsə şivələrində işlənir (ADDL, 2007, s.63). Bu söz Füzuli, İmişli, Qax, Mingəçevir, Qərbi Azərbaycanm Qarakilsə şivələrində “oxşaya- oxşaya ağlamaq” (Kişi başdadı bozdamağa), Gəncə , Şəmkir şivələrində “u**c**adan oxumaq və çalmaq” (Vəli dayı, bir yaxşı “Koroğlu” havası bozda görəx') mənasını bildirir (ADDL, 2007, s.63). 1964-**c**ü ildə çap olunmuş “Azərbaycan dilinin dialektoloji lüğəti”ndə bozdamax sözü ilə yanaşı bozzamax sözü verilmiş və bozzamax sözünün Şamaxı şivəsində “u**c**adan oxumaq, çalmaq” mənasında işləndiyi göstərilmişdir (ADDL, 1964, s.84). Bozlamaq sözü qədim türk dilində işlənsə də, bu gün yalnız şivələrdə qalmışdır.

Bozdamax qədim türk dilində işlənən bozlamaq sözünün dialekt variantıdır. Qədim türk dilində bozlamaq dəvəyə aid edilərək,“bağırmaq, qışqırmaq” mənasında işlənmişdir (**ДТС**, 1969, s. 115). “Kitabi-Dədə Qorqud” dastanında bozlamaq sözünə bozlamaq, bozlatmaq, bozlaşmaq, bozlaşdırmaq qrammatik formalarında rast gəlmək olur.

1) bozlamaq. Baybörə bəg, niyə ağlayub bozlarsan (KDQ, 1988, s.52); Mərə qız, nə ağlarsan- bozlarsan, “ağa” deyu, Yandı bağrım, göynədi içim (KDQ, 1988, s.61).

2) bozlatmaq. Bozlatmaq həm heyvanlara (Dəvələrin bozlatdılar, Qaraqucda Qazlıq atlarını kişnətdilər (KDQ, 1988, s.123), həm insanlara (“Baba”-deyü ağlatdılar, “ana” deyü bozlatdılar (KDQ, 1088, s.71) aid olaraq işlədilmişdir. Bozlatmaq heyvana - dəvəyə aid işlənildikdə “böyürtmək”, insana aid işlədildikdə “ağlatmaq” mənasını ifadə edir (“KDQ’un izahlı lüğəti, 1999, s.38).

3) bozlaşmaq. Uşun qoca “Oğul, oğul!” - deyü ağca yüzlü anasilə ağlaşdılar, bozlaşdılar (KDQ, 1988, s.110).

4) bozlaşdırmaq. Qızıl dəvə gördügündə bozlaşdıran! (KDQ, 1988, s.44) “Kitabi-Dədə Qorqud” dastanında işlədilən bozlaşdırmaq “uca səslə ağlaşdırmaq” mənasını bildirir (“KDQ”un izahlı lüğəti, 1999, s.38).

Bozlamaq Qərbi Azərbaycanm Çəmbərək şivəsində bozdamax formasında “danlamaq” və “qarşılamaq” mənalarında işlənir (ADDL, 2007, s.63).

R.Rüstəmov yazır: "Ehtimal ki, bu feilin (bozla feilinin- İ.B.) kökü Bakı dialektində, Salyan və başqa rayon şivələrində həyasız, utanmaz, abırsız (məc.) mənalarında işlənən boz sifətidir. Türk dilinin bir sıra şivələrində bozla, bozula feili bağırmaq (dəvəyə aiddir), fəryad etmək (məc. insana aiddir) mənalarında işlənir" (R. Rüstəmov, 1965, s.80). Ə.Tanrıverdi yazır ki, "Dastan"da ("Kitabi Dədə Qorqud" dastanında - İ.B.) insan və heyvanla bağlı olaraq işlənmiş, "bozlamaq" sözü Qərb ləhcəsində yalnız insanla bağlı olaraq işlənə bilir. Məsələn: Saŋa ağlıyıf bozdamax yaraşmır; Nə:ağlıf bozdüyursan" (Ə. Tanrıverdi, 2002, s.120). "Türk dillərinin qədim yazılı abidələrində müşahidə olunan bu söz (bozlamaq sözü - İ.B.) qırğız dilində bozda -bağırmaq, böyürmək, çağatay dilində boz-ağlamaq, ağlaya-ağlaya fəryad etmək mənalarında işlənir"(V.Mursaquliyev, 1975, s.68).

Cılasın. Bu söz Qərbi Azərbaycanın Çəmbərək şivəsində "igid, qoçaq", "qorxmaz", "bacarıqlı" mənalarında işlənir. Cılasın sözünə "Kitabi-Dədə Qorqud" dastanında "qoçaq", "igid" mənasında cilasun formasında təsadüf olunur: Yetişmiş bir cılasun oğlı vardı (KDQ, 1988, s.85); Qanlı qoca aydır: "Oğul, sən qız istəməzmişsən, bir cılasun bahadır istəyirmişsən, anuŋ arqasmda yeyəsən-içəsən, xoş keçəsən!" (KDQ). Cılasun yigidlərlə Qaragünə oğlu Dəli Budaq soldan dəqdi (KDQ, 1988, s.50).

Çözmək. Bu söz Azərbaycan dilinin Tovuz şivəsində "açmaq", "sap, ip açmaq" mənasında işlənir (Qərb qrupu şivələri, 1967, s.187). Çözmək sözünə eyni mənada "Kitabi-Dədə Qorqud" dastanında rast gəlinir: Qazana bu söz xoş gəldi. Atından endi, çobanıŋ əllərin çözdi (KDQ, 1988, s.46). Çözmək "açmaq, uzatmaq" mənasında Ağdam, Cəbrayıl, Culfa, Göygöl, Şahbuz, Qərbi Azərbaycanın Çəmbərək, Meğri, Gürcüstanm Borçalı şivələrində çözdəməx', Yardımlı şivəsində çözdəməg (ADDL, 2007, s.107) sözlərinin, eləcə də Qərbi Azərbaycanın Çəmbərək şivəsində "açıb tökmək" mənasında işlənən çözələmək sözünün tərkibində də qalmışdır.

Da:mi. Azərbaycan dilinin Quba, Şamaxı, Göyçay, Ağsu, Sabirabad şivələrində işlənən da:mı "cəhənnəm" mənasını bildirir: Da:mi kimi od tökülür, issidi (ADDL, 2007, s.114). Qədim türk dilində cəhənnəm mənasında tamu sözü işlənmişdir. Fikrimizcə, şivələrimizdə işlənən da:mı tamu sözünün fonetik variantıdır. Bu söz qədim Azərbaycan dilində də "cəhənnəm" mənasında işlənmişdir.

Damulər odum yandıransən;
Sirləri açub utandıransən. (Ş.İ.Xətai)
Firqətin damu tək əzabə dönmüş,
Didarın jənnətül məvayə, Pəri (M.P.Vaqif)

Da:mı sözü Şuşa şivəsində "əzab" mənasını bildirir (E. Əzizov, 1999,s.252).

Dadax. Azərbaycan dilinin Şəki, Gəncə şivələrində dadax sözü işlənir (ADDL, 2007, s.109). Dadax Şəki şivəsində "ayaq" (Qoyunun dadaxlarını bir asmışdıx, başını bir), Gəncə şivəsində "uşağın ilk addımı, ilk yerişi" mənasını bildirir (ADDL, 2007, s.109). Qədim türk dilində "ayaq" mənasında adaq sözü işlənmişdir: Adaq berti iki yorığu üçün, yerimək üçün Allah iki ayaq verdi" (**ДТС** 1969, s.8).

Fikrimizcə, şivələrimizdə işlənən dadax, elə adaq sözünün dialekt variantıdır. Adaq sözünə ayaq mənasında Orxon-Yenisey yazılı abidələrində adak formasında rast gəlinir (Ə.Rəcəbli, Y.Məmmədov, 1993,, s.345).

Danna. Bu söz "sabah" mənasında Bakı, Göyçay, Mingəçevir (ADDL, 2007, s.116), Qərbi Azərbaycanın Meğri (Ə.Əliyev, 2003,,s.427) şivələrində işlənir: Mə:m sizə gəlməyim dannıya qaldı. Bu süzə Göyçay şivəsində eyni mənada dannarı fonetik formasında da rast

gəlinir (ADDL, 2007, s.116).“Kitabi-Dədə Qorqud” dastanında danna sözünə “sabah” mənası bildirən tan, Xətainin “Dəhnamə” əsərində dan formasında rast gəlinir.

Anam kişi, qızım kişi,
Ala taŋla yeriŋdən turı gəldiŋ
Oğulı tutdurduŋmı? (KDQ, 1988, s.91)
Qol etdi mənə ki, dan atan çağ,
Bülbül budağə qonub ötən çağ.
(Ş.İ.Xətai)

Azərbaycan ədəbi dilində dan sözü işlənir və “günün doğmasına azca qalmış havanın işıqlanması, sabah açılarkən günəşin üfüqdə ilk ağarması” mənasını ifadə edir (ADİL, II, 1980, s.31). Məsələn:

Sübh xəbərini gətirəndə dan;
Yorğun dost gözləri halsız qapandı.
(M.Dilbazi)

Şivələrimizdə işlənən danna dan (“Kitabi-Dədə Qorqud” dastanında tan) sözünün dialekt variantıdır. Dan “dan atmaq”, “dan atmamış”, “dan yeli”, ”dan yeri”, “dan yeri ağarmaq”, “dan yeri qızarmaq”, “dan yeri sökülmək”, “dan üzü” süz birləşmələrinin tərkibində öz ilkin mənasını qoruyub saxlamışdır.

M. Cavadova yazır ki, dan sözü Nəsimidə danla şəklində, “Sühədanamə”də “gecənin müəyyən bir hissəsi” mənasında dan, “sabah” mənasında danla, “Əsrarnamə”də dan atmaq frazeoloji birləşmənin tərkibində dan “sökülmək”, yəni “səhər açılmağa başlamaq” mənasında işlənir (M. Cavadova, 1977, s.79-80). Qərbi Azərbaycanın Çəmbərək şivəsində dan “səhər tezdən” mənasında “dan üzü” birləşməsinin tərkibində işlənmişdir və “dan üzü”, “sabahının açılması” mənasını bildirir.

Dışğarı. Azərbaycan dilinin Ağdam şivəsində dişğarı sözünə rast gəlinir və “bayır”, “çöl” mənasını bildirir: Otur evdə dişğarıya çıxma, so:xdu (ADDL, 2007, s.137) . Bu söz Şuşa şivəsində tişarı (ADDL, 2007, s.499), Qərbi Azərbaycanm Çəmbərək şivəsində tışğarı formasında “bayır”, “çöl”, “eşik” mənasında işlənir. “Kitabi-Dədə Qorqud” dastanında dişğarı sözünə “çöl”, “bayır”, “eşik” mənasında, tişarı, tışra, M.Füzulinin dilində tişra şəklində təsadüf olunur: Haman məni qapudan tışarı eylə, dedi; Səgrək məst oldu. Tışra ayaq yoluna çıqdı (KDQ, 1988, s. 110); Tən evinə tışradan barğəm möhnət çəkir (M.Füzuli).Dışğarı «Əsramamə»də daşqaru şəklində işlədilmişdir:

Dört yanım basdı torpağ ol zaman,
Daşqaru çıxmağa bulmadı aman.
Daşqaru çıxdı bəhri-dərdü bəla,
Başı-gözü para-para mübtəla (X.Təbrizi.“Əsrarnamə”)

“Əsrarnamə”də dışğarı sözünə həm də daşqaru, dəşxaru formalarında rast gəlinir (Ş.Xəlilov, 1988, s.181). H.Mirzəzadə qeyd edir ki, “çöl”, “bayır”, “evin xarici” mənasında işlənən tış, dış sözü XVIII əsrə qədər dışqaru tərzində işlənmişdir (H.Mirzəzadə, 1957, s. 171). Qərbi Azərbaycanm Çəmbərək şivəsində “kənarlaşdırmaq”, “uzaqlaşdırmaq” mənasında işlənən dışdamax sözünün kökündə də dış sözü dayanır.

Döşürmək. Bu söz Azərbaycan dilinin Göygöl şivəsində “acgözlüklə yemək” mənasım ifadə edir: Gör nə döşüröy no:luf dana? (ADDL, 2007, s.144). Döşürməx' Tovuz, Şəmkir, Gürcüstanm Borçalı, Bolnisi şivələrində “yığmaq” (Ay uşax get çör- çöp döşür), Qazax şivəsində döşürümməx' formasında heyvanlara aid olaraq “həvəssiz otlamaq” mənasında

işlənir (ADDL, 1964, s.203). Döşürmək "Kitabi-Dədə Qorqud" dastanında "yığmaq", "dənləmək" mənasında əksini tapmışdır: Böylə digəc qırq incə qız yayıldılar, Tağ çiçəki döşürdilər (KDQ). "Kitabi-Dədə Qorqud" dastanında "yığmaq, dənləmək" mənasında işlənən döşürmək Qərbi Azərbaycanın Çəmbərək şivəsində döyşürməx formasında işlənir (ADDL, 2007, s.144).

XIII-XVI əsr ədəbi dilimizdə döşürmək sözünə rast gəlinir:

Məgər kim ol zamanda bir haramı
Dərüb döşirmişdi çox hərami (Dastan - Əhməd Hərami)
Hər bir çiçək üstə qondu zənbur,
Döşürməyə çıxdı danəsin mur (Ş.İ.Xətai)

E. Əzizov qeyd edir ki, döşürmək Cənubi Azərbaycan şivələrində işlənmişdir və fikrini M. Şəhriyarın əsərindən gətirdiyi aşağıdakı nümunə ilə əsaslandırır (E. Əzizov, 1999, s.240).

Gözlər asılı yox nə qaraltı, nə də bir səs,
Batmış qulağım, gör nə döşürməkdədi darı (M.Şəhriyar)

E. Əzizov fikrinə davam edərək yazır: "Döşürmək sözünün "yığmaq, dənləmək" mənalarından və M.Şəhriyarın "Batmış qulağım, gön nə döşürməkdədi darı" misrasından belə nəticəyə gəlmək olar ki, "Qulağı darı dəlir" məsələnin əsli "Qulağı darı dərir" olmuşdur. Həmin məsəldəki dərir "yığır" sözü dissimilyasiya hadisəsinə uğramışdır: dərir > dəlir" (E. Əzizov, 1999, s.241). Döşürmək sözünün qədim Azərbaycan dilində, eləcə də digər qədim türk dillərində işləndiyini rus türkoloqlarından L.Budaqov, V.V.Radlov da göstərmişdir (M. Cavadova, 1977, s.90).

M.Cavadova R.Rüstəmova istinad edərək yazır: "Son zamanlara qədər belə güman edilirdi ki, döşür feili Azərbaycan dilinə mənsub söz deyildir. Bu söz başqa bir türk dilindən keçmədir. Lakin faktlardan aydın olur ki, döşürmək feili Azərbaycan dilinə yad deyil və çox ehtimal ki, Azərbaycan dilinin keçmiş dövlərində işlək olmuşdur" (M. Cavadova, 1977, s.90). Yuxarıda qeyd olunanlardan tam aydın olur ki, döşürmək Azərbaycan dilinə mənsub sözdür.

Duzdax. Qərbi Azərbaycanın Zəngibasar şivəsində duzdax sözünə təsadüf olunur və bu söz "tələ" mənasını bildirir: Duzdax təliyə de:rix' biz (ADDL, 2007, s.146). Qədim türk dilində tələ mənasında həm tuzağ, həm də tuzaq sözləri işlənmişdir: Qəza birlə ilinür tuzağqa elik "bir qəza nəticəsində dağkeçisi tələyə düşür" ; quş tuzaq (q)a meŋ üçün ilinür "quş tələyə yem üçün düşür" (**ДТС** 1969, s.594). Zəngibasar şivəsində işlədilən duzdax, qədim türk dilində tuzağ və tuzaq sözünün fonetik variantıdır.

Duş. Qazax, İmişli, Gədəbəy, Tovuz, Gürcüstanın Borçalı şivələrində "yuxu", "röya" tuş (Tuşun düzdüyü yozmağındadı) (ADDL, 2007, s.508), Zaqatala şivəsində düş (Axşam bir yaxşı düş gördüm) sözü ilə ifadə olunur (ADDL, 2007, s.149). "Kitabi-Dədə Qorqud" dastanında duş sözü düş formasında eyni mənada işlənmişdir: Bilürmisin, qarındaşım Qaragünə düşimdə nə göründi? (KDQ). Qədim türk dilində tüş şəklində işlənərək "yuxu görmə", "yuxu" mənasını bildirmişdir: Uyqudun soŋ tüşta körgənin oğuz qağanqa biltürdi "yuxudan sonra Oğuz kağana dedi ki, onu yuxuda görüb" (DTS, 1969, s.599). Azərbaycan ədəbi dil nümuələrində duş və düş fonetik şəkillərində "yuxu" mənasında işlənmişdir.

Xəyalımdır mənim ya düşdə gördüm,
Bihəmdullah jəmalm uştə gördüm.
(Xətai)
Adəm ol duşun həvlindən oyanub və xuruşə gəlüb ussi getdi (Şühədənamə).

"Əsrarnamə"nin dilində də "yuxu, rüya", "yuxu gürmə" mənasında duş süzğnə rast gəlinir (Ş.Xəlilov, 1988, s.181).

Er. Ağdam, Bərdə, Şuşa, Tərtər (ADDL, 2007, s. 151), Qərbi Azərbaycamn Çəmbərək şivələrində er sözü "tez" (vaxt mənasında - İ.B.), "tezdən", "səhər tezdən" mənasını bildirir: Bir az er gəlseydin, tapardın onu. Bu söz "sübhdən, tezdən", "səhər tezdən", "daha tezdən" mənalarında işlənən ertə (ADİL, II, 1980, s.212) sözündə öz izini qoruyub saxlamışdır. Yəni ertə "er" sözü əsasında formalaşıb. Bu baxımdan ertə sözünün etimologiyası ilə bağlı B. Əhmədovun fikri maraqlıdır: "… "bazar ertəsi" deyirik. Sonrakı mənasında işlədilən ərt (yert) sözü olub. Tuva dilində sabah yerinə "erten" işlədilir. "Tez" mənasım verən ertə kəlməsi də mövcuddur, bunların heç bir qohumluğu yoxdur, omonim sözlərdir. İkinci söz erkən kəlməsi ilə qohumdur (sözün kökü "er" kəlməsidir). "Bazar ertəsi" ifadəsinin mənası "bazar keçdikdən sonra (bazardan sonrakı gün) deməkdir" (B.Əhmədov, 1999, s.138). Bayram Əhmədov ertə sözünün etimologiyası ilə bağlı A.T.Kaydarova istinadən göstərir ki, "...sonralar qapalı hejalılıqdan açıq hejalılığa doğru dəyişmə qanunu ilə ertan < erta < ertə yolu keçilmişdir. Bizə görə bu fikir düz sayılmalıdır. Ertə sözü ertan<er+tan kimi iki hissədən ibarətdir" (B.B Əhmədov, 1990, s.19).

Erkəc. Bu sözə Salyan şivəsində ergəc, Ağdam, Culfa, Ordubad şivələrində erkəş fonetik formalarında da rast gəlinir (ADDL, 2007, s.151). Qazax, Ordubad, Culfa, Kürdəmir, Tovuz, Qərbi Azərbaycanın Qarakilsə şivələrində erkəc "sürünün qabağını çəkən yaşlı erkək keçi" mənasında işlənir: Erkəci sür qaba:, sürünün qaba:ın çəx'sin (ADDL, 2007, s.151). "Azərbaycan dilinin izahlı lüğəti'ndə erkəc "erkək keçi, təkə" kimi mənaya malik olduğu göstərilmişdir (ADİL, II, 1980, s.211). Məsələn: Qoyunlar güneylərdə gərnəşir, keçilər həmərsin kollarının başını dişləyir,boynu qumrovlu erkəclər arabir səs eləyir (Ə. Vəliyev). Erkəc qədim türk dilində "keçi" mənasında işlənmişdir: Erkəc eti em bolur, keçi əti müalicə vasitəsidir (**ДТС**, 1969, s.179).

Ey. Müasir türk dilində "yaxşı" mənasında iyi sözü işlənir. Azərbaycan dilinin Qazax, Kürdəmir, Gürcüstamn Borçalı şivələrində həmin sözün - iyi sözünün ifadə etdiyi mənaya uyğun olaraq ey sözünə rast gəlinir: Mənim kefim eydi (ADDL, 2007, s.152). Eyni zamanda Ordubad, Şamaxı, Cəbrayıl, Gədəbəy, Göyçay, Göygöl, İmişli, Qərbi Azərbaycanın Meğri şivələrində "yaxşı" yey (ADDL, 2007, .549), İraq-türkman ləhcəsində eyi (İraq-türkman, 2004, s.358) sözü ilə ifadə olunur. Fikrimizcə, Azərbaycan dili şivələrində "yaxşı" mənasında işlənən ey və yey sözləri türk dilində eyni mənada işlənən iyi sözünün fonetik variantıdır. **Ey** H.Cavidin əsərində yaxşı mənasında işlənmişdir:

Bir eylik yapsan issiz yurduna,
Səadət pərisi gülümsər sana. (H.Cavid).

Azərbaycan dilinin Quba və Ordubad şivələrində "yaxşı" yeg sözü ilə ifadə olunur: Mənim bir dusdum vardı, sənnən yeg olmasun, Bakı sə:rində (ADDL, 2007, s.545). Qədim türk dilində də yeg "yaxşı" mənasım bildirmişdir: bu at anda yeg "bu at o atdan yaxşıdır" (**ДТС**, 1969, s.252). Qədim türk dilində "yaxşı" mənasını bildirən yeg "Əsrarnamə"də yek formasında işlənmişdir (Ş.Xəlilov, 1988, s.182)

Əl. Quba şivəsində rast gəlinən əl "tərəf" mənasım bildirir (R.Rüstəmov, 1961, s.242). Əl qədim Azərbaycan sözüdür və "Kitabi-Dədə Qorqud" dastanında eyni mənada işlənmişdir: Saqım ələ baqduğımda qartaşım Qaragünəyi gördim, baş kəsübdür, qan dökıpdır (KDQ, 1988, s.68); Solum ələ baqduğmda tayım Urızı gördim (KDQ, 1988, s.69).

Əsrük. Bu söz Qazax şivəsində əsrüx' formasında “sərxoş” mənasım ifadə edir (ADDL, 2007, s.165). Əsrük VII əsr ədəbi abidəsi olan “Kitabi-Dədə Qorqud” dastanında, eləcə də XIV-XVI əsr Azərbaycan ədəbi dilində “sərxoş’mənasmda işlənmişdir.

Ol şərabdan içən əsrük olur (KDQ, 1988, s.80).
Qəmzədən misri qılınc vermişsən əsrük türkə kim,
Qan bəhasız necə qan etmək dilərsən, etməgil (İ.Nəsimi)
Şər ilən gər tutsalar əsrük sözünə etibar (M.Füzuli)[1]

Əsrük sözünə eyni mənada qədim türk dilində həm esrük, həm də esürük formalarında rast gəlinir (**ДТС**, 1969, s.184).

Əsrük Dərbəndin Cimikənd şivəsində “sərxoşluq” mənasında işlənən əsirmeg, əsirmeglig sözünün tərkibində öz izini qoruyub saxlamışdır (Dərbənd dialekti, 2009, s.319).

Xatın. Azərbaycan dilinin Şəki, Dərbənd, Gürcüstamn Borçalı şivələrində “qadın, arvad” mənasında xatın sözü işlənir (ADDL, 2007, s.217). Məsələn: Ərəvin bi gözəl xatını varıydı.

Bu sözə İraq-türkmən ləhcəsində həm xatın, həm də xatun formalarında rast gəlinir (İraq-türkman, 2004, s.368). Azərbaycan dilinin Dərbənd şivəsində xatın sözü “qadın” mənasında “xatın kişi” söz birləşməsinin tərkibində işlənir: Biri var ər kişi, biri də var xatın kişi (Dərbənd dialekti, 2009, s.327). Qax şivəsində bu sözə xatınşi formasında rast gəlinir (ADDL, 2007,s.217). Şivələrimizdə işlənən xatın sözü “Kitabi-Dədə Qorqud” dastanında xatun formasında “arvad”, “həyat yoldaşı”, “qadın, xanım” mənalarında işlənmişdir: Böylə digəc Dərsə xan xatınına cavab verrnədi (KDQ, 1988, s.38);Qısırca yengə derlər bir xatun vardı, aŋa ayıtdılar (KDQ, 1988, s.64);Qara qaurma edib, qırq bəg qızına ilətüŋ. Hər kim yedi, ol degil. Hər kim yemədi, ol Qazan xatunudır (KDQ, 1988, s.47).

Qədim türk dillərində xatun sözü işlənmişdir və bu söz “qadın, xanım”, “tanınmış nəsildən olan qadın” mənalarım bildirmişdir (**ДТС**, 1969, s.637).

Orxon-Yenisey abidələrində xatın sözünə katın formasında rast gəlirik (Ə. Rəcəbov, Y. Məmmədov, 1993, s.367). Xatın sözü Burla xatun, Balaxatın antroponimlərinin formalaşmasında iştirak etmişdir və “xanım” mənasım bildirir.

İlişmək. Azərbaycan dilinin Ordubad şivəsində ilişməx' sözünə rast gəlinir ki, bu da “çatmaq” mənasım bildirir: Sənin atun mə:m atıma ilişmədi (ADDL, 2007, s.232). “Kitabi-Dədə Qorqud” dastanında “çatdırmaq” mənasında ilətmək, irmək sözləri işlənmişdir: Kafət aydır: “.. .Qıyma-qıyma ağ ətindən çəkün, qara qaurma bişürüb, qırq bəg qızına ilətüŋ” - dedi (KDQ, 1988, s.46); Beyrək aydır: “Yoldaşlarımı çıqarmaymnca, hasarı almaymınca murada irməzəm! - dedi” (KDQ).

Tarixi mənbələrdə “çatmaq” mənası irişmək sözü ilə ifadə olunmuşdur:

İki can idik birləşdik,
Məhəbbət qapısım açdıq,
Şükür didarə irişdik,
Dədəm, xoş gəldin, xoş gəldin.
(Xətai)
Tez iriş, vəqtdür, ey canum canı,
Qoymagil qəsd edə bu məlun bana.
(Yusif Məddah. “Vərqa və Gülşah”)

H.Mirzəzadə yazır ki, “çatmaq”, “yetişmək” mənasında irişmək feilinə XIV-XVIII

[1] Misallar E.Əzizovun “Azərbaycan dilinin tarixi dialektologiyası” (Bakı, 1999) kitabından (s.243) götürülmüşdür.

əsrlərin yazılarında rast gəlinir (H.Mirzəzadə, 1953, s.67). Lakin M.Cavadovamn fikrincə, "irişmək" feilinə yalnız XIV-XVIII əsr yazılarında deyil, XIX əsrdə də təsadüf olunur (M. Cavadova, 1977, s.92).

İrişmək feili qədim türk və cağatay dillərində də "çatmaq", "yetişmək", "dəymək" mənalarında işlənmişdir (M. Cavadova, 1977, s.92). Ordubad şivəsində "çatmaq" mənasında işlənən ilişməx' qədim türk dilində eyni mənada işlənən irişmək sözünün fonetik variantıdır.

İraq. Quba şivəsində bu söz irağ formasında "uzaq" mənasını bildirir (R.Rüstəmov, 1961, s.243). Bu sözə "Kitabi-Dədə Qorqud" dastanında eyni mənada rast gəlinir: Bərə çoban, irağından - yaqınıŋdan bərü gəlgil (KDQ, 1988, s.43). Qədim Azərbaycan sözü kimi iraq müasir Azərbaycan dilində də geniş şəkildə işlənir.

İraq sözünün etimologiyası ilə bağlı B.Əhmədov yazır: "Uzaq mənasında işlədilmiş (gözdən uzaq, könüldən iraq deyirik) bu söz (iraq - İ.B.) ira (удалиться) feilindən q şəkilçisini artırmaqla əmələ gəlib. Dilimizdə r-z əvəzlənməsinin geniş yayıldığını nəzərə alsaq, demək olar ki, elə uzaq sözünün özü də iraq kəlməsinin dəyişmiş formasıdır. Sözün ilkin kökü ir (ur) sözüdür" (B.Əhmədov, 1999, s.154).

Kəndi. Qazax, Şəki, Qərbi Azərbaycanın Basarkeçər şivələrində bu söz "öz" mənasında işlənir (ADDL, 2007, s.249) və kəndi sözü "Azərbaycan dilinin izahlı lüğəti"ndə köhnəlmiş söz kimi verilmişdir (ADİL,III,1983, s.49). Qərbi Azərbaycanın Çəmbərək şivəsində işlənən kəndigəlmə sözünün tərkibindəki kəndi sözü də "öz" mənasını bildirir. "Kitabi- Dədə Qorqud" dastanında kəndi sözünə kəndü formasında eyni mənada rast gəlinir: Oğul, qız diləməzsən, kəndünə bir hampa istəmişsən (KDQ, 1988, s.55).

Kəndi XVI əsr Azərbaycan şeir dilində də işlənmişdir:

Mən dərvişəm - deyə, köksün gərərsən,
Həqqi zikr etməyə dilin varmıdır?
Kəndini görsənə eldə ararsan!
Halın hal etməyə halın varmıdır?
(Ş.İ.Xətai)

Kəndi qədm türk dilində "öz" mənasında işlənmişdir (ДТС, 1969,s.298).

Kərə. Kərə sözü Quba (R.Rüstəmov, 1961, s.248), Qərbi Azərbaycanın Çəmbərək şivələrində "dəfə" mənasında işlənir. Bu sözə "Kitabi-Dədə Qorqud" dastanında kərrə formasına eyni mənanada rast gəlinir. Məsələn: Xanlar xanı xan Bayındır yıldə bir kərrə toy edib Oğuz bəglərini qonaqlardı (KDQ, 1988, s.34).

Küz. Şivələrimizdə işlənən qədim sözlərdən biri küz sözüdür. Küz Bakı, Ordubad, Ağcabədi, Ağdam, Bərdə, Biləsuvar, Cəbrayıl, Cəlilabad, İmişli, Kürdəmir, Şərur, Yardımlı, Laçın, Saatlı, Salyan, Şəmkir, Tovuz, Zəngilan, Zərdab, Qərbi Azərbaycanın Basarkeçər, Qarakilsə, Meğri şivələrində "payız" mənasını bildirir: Taxıl səfdiŋ küzdə sula, küzdə sulamadıŋ buzda sula (ADDL, 2007, s.271). Qədim türk dilində küz "payız" mənasını ifadə etmişdir: Küz keligi yazın belgürər, "payızın gəlişi yazdan bəllidir" (ДТС 1969, s.331).

M.Kaşğarinin "Divanü lüğat-it türk" əsərində küz "payız fəsli", "sonbahar" mənasında işlənmişdir (M. Kaşğari I, 2006, s.341). Orxon-Yenisey abidələrində küz sözünə eyni mənada rast gəlinir (Ə. Rəcəbov, Y. Məmmədov, 1993, s.364). Şivələrimizdə "payız" mənasında işlənən küz sözü İraq-türkmən ləhcəsində (İraq-türkman, 2004, s.364), "Kitabi-Dədə Qorqud" dastanında eyni mənada - "payız" mənasında güz formasında işlənmişdir.

Yana-yana qarlar yağsa, yaza qalmaz,
Yaprağlu göğçə çəmən güzə qalmaz.

(KDQ, 1988, s.31)

Qazax şivəsində "payız otlağı" mənasında işlənən küzdəx', Füzuli şivəsində "payızlıq" mənasında işlənən küzdüx' sözlərinin (ADDL, 2007, s.271) tərkibindəki küz və "Kitabi- Dədə Qorqud" dastanında "payızlıq" mənasını bildirən güzin sözünün tərkibindəki güz sözü də payız mənasında işlənmişdir. Məsələn: Bir yazın, bir güzin buğayla buğrayı savaşdırarlardı (KDQ, 1988, s.36).

E. Əzizov şivələrimizdə "quzu salınan yer" mənasında işlənən güz//küz//kuz sözünü də mənşəcə "payız" mənasını verən küz sözü ilə bağlayır (E.Əzizov, 1999, s.249). B.Əhmədov yazır: "Küz Anadolu türklərində "gün düşməyən yer" kimi başa düşülür, bizdə payız anlamında işlədilir. Güman etmək olar ki, gü-n və gü-z eyni kökə malikdir. -z şəkilçisinin sözə əks (mənfi) məna verməsi faktları məlumdur: Güd və güd -a-z, ud və ud- u-z. Deməli, gü-z sözündəki -z şəkilçisi -siz şəkilçisi ilə qohumdur (yağ-sız...). Güz elə gün-süz deməkdir" (B.Əhmədov, 1999, s.188).

Qaxınc. Quba şivəsində işlənən qaxınc "tənə etmə, üzə vurma, başa qaxılan söz" mənalarını bildirir (R.Rüstəmov, 1961, s.235). Bu sözə eyni mənada Qərbi Azərbayjanın Çəmbərək şivəsində də rast gəlinir. "Kitabi-Dədə Qorqud" dastanında qaxınc sözü "Salur Qazanın evi yağmalandığı boyı bəyan edər" boyunda qaqınc və qaxınc formalarında eyni mənada işlənmişdir: Qazan fikir eylədi, aydır: "Əgər çobanla varacaq olursam, Qalın oğuz bəgləri bənim başıma qaqınc qaxarlar" (KDQ, 1988, s.46); Beyrək buŋaldı. Aydır: "Bu qıza basılacaq olursam, Qalın Oğuz içində başuma qaxınc, yüzimə toxınc edərlər", - dedi (KDQ, 1988, s.85).

Qırım. Bu söz Quba, Qazax, Ordubad, Şamaxı, Şəki, Ağcabədi, Cəbrayıl, Füzuli, Göyçay, İmişli, Kürdəmir, Mingəçevir, Oğuz şivələrində "xasiyyət", "meyl, həvəs", "fikir", "məqsəd" (ADDL,2007, s.301), Qərbi Azərbaycanın Çəmbərək şivəsində "meyl", "həvəs", "mövqe" mənasında işlənir. Xətainin "Dəhnamə" əsərində qırım sözünə rast gəlinir:

Baxdım ki, munun qırımı özgə,
Mənimlə alım-verimi özgə.
(Ş.İ.Xətai)

R.Rüstəmov Xətainin "Dəhnamə" əsərində işlənən qırım sözünün «meyl», "həvəs" mənasında (R.Rüstəmov, 1961, s.237), M.Cavadova "forma", "şəkil" mənasında (M. Cavadova, 1977, s.134) işləndiyini göstərir. B.Əhmədovun fikrincə, qırım "hərəkət", "həvəs", "manera" mənalarında işlədilir və sözün əsli qılmaq feili ilə bağlıdır, rəftar deməkdir (B.Əhmədov, 1999, s.91-92).

Qulan. Bu söz Quba şivəsində "ikiyaşar dişi at" mənasında işlənir (R.Rüstəmov, 1961, s.238). Qərbi Azərbaycanın Çəmbərək şivəsində "at balası" mənamda qulun sözü vardır. "Kitabi-Dədə Qorqud" dastanında həm qulun, həm də qulan sözünə rast gəlinir. Hər iki formada işlənən söz "at balası" mənasını bildirir: Atı olanın qulunu olar. Hey, ana! Ərəbi atlar olan yerdə, Bir qulum olmazmı olur? Sən sağ ol, qadın ana! Babam sağ olsun (KDQ, 1988, s.47); Gənəz yerlər çəmənlərin qulan bilür (KDQ, 1988, s.32).

Oxranmaq. Qazax, Gədəbəy, Ağdam, Ağdərə, Gürcüstanın Başkeçid, Borçalı (ADDL, 2007, s.381), Qərbi Azərbaycanın Çəmbərək şivələrində oxrammax, yenə Qazax, İsmayıllı, Gürcüstanm Borçalı, Başkeçid şivələrində oxrannamax sözünə rast gəlirik (ADDL, 2007, s.381). Hər iki söz ata aid olub "astadan kişnəmək" mənasını ifadə edir. Qədim türk dilində atın kişnəməsi oqra sözü ilə ifadə olunmuşdur: at oqradı "at kişnədi" (ДТС, 1969, s.369). Azərbaycan dilin şivələrində işlənən oxranmax (həm də oxrannamax) sözü ilə qədim türk

dilində eyni mənada işlənən oqra sözü mənşəcə eynidir. Oxranmaq Azərbaycan dilinə uyğunlaşdırılmışdır. Bu söz "Kitabi-Dədə Qorqud" dastanında oğra formasında "kişnəmək" mənasında işlənmişdir.

Bədəvi atlar issini görüb oğradıqda Saqalı uzun tat əri baŋladıqda (KDQ,1988, s.37)

Eyni zamanda oxrammax sözü Cəbrayıl, Qərbi Azərbaycanın Çəmbərək şivəsində "ağlamaq", Gürcüstanm Başkeçid, Borçalı şivələrində məcazi məna kəsb edərək "boş- boşuna gülmək" mənalarını ifadə edir (ADDL, 2007, s.381).

Örənə. Şəki, Zaqatala şivələrində örənə sözü işlənir və bu söz "xaraba, viranəlik" mənasını bildirir: Qozun alt tərəfi örənədi (ADDL, 2007, s.388). Örənə sözü qədim türk dilində işlərənək "xarabalıq, uçulmuş divar" mənasını bildirmişdir (В.Радлов, I, 1893, s.1299). Örənə sözü örən formasında Qərbi Azərbaycanın Qızılörən, Ağörən, Azərbaycanın Örənqala toponimlərinin əmələ gəlməsində iştirak etmişdir.

Sapand. Bu sözə Quba şivəsində rast gəlinir və "yundan toxunan və içərisinə qoyulub atılan uzun qollu silah" mənasını daşıyır (R.Rüstəmov, 1961, s.260). Quba şivəsində sapand formasında işlənən bu sözə "Kitabi-Dədə Qorqud" dastanında sapan formasında rast gəlinir: Ərənlər əvrəni Qaraçuq çoban sapanıŋ ayasına taş qodı, atdı (KDQ, 1988, s.43); Çoban bu yığnağı görcək ibrət aldı. Geri döndi. Sapan taşına tutdu (KDQ, 1988, s.98). "Sapand"ın "mənbələrdə bir variantı sapatan kimi verilib. Sap (sıq) isə daş-kəsək anlamında işlədilən bir kəlmə olub. Deməli, sapatan (sapand) "daşatan" deməkdir" (B. Əhmədov, 1999, s.245).

Sayrı. Bu sözə İmişli, Qərbi Azərbaycanın Basarkeçər, Hamamlı, Gürcüstanın Borçalı şivələrində rast gəlinir və "xəstə" mənasını bildirir (ADDL, 2007, s.422). Azərbaycan dili şivələrində işlənən sayrı "Kitabi-Dədə Qorqud" dastanında sayru formasında eyni mənada işlənmişdir: Ol obada bir yaxşı-xub yigit sayru düşmüş idi (KDQ, 1988, s.79).

Atalar sözlərində, Xətaidə, Qurbanidə sayrı, Nəsimidə, Füzulidə sayru formalarında rast gəlinir:

Sağ vaxtı nə idi, sayrı vaxtı nə ola (Atalar sözü)
Qurbanı der: könlüm bundan sayrıdır,
Nə etmişəm, yarım məndən ayrıdır.
(Qurbani)
Düşdü qəmdən sayru, zar oldu könül (Nəsimi)
Səndən necə kim, can ayrı düşdi,
Tən ya çürüdi, ya sayrı düşdi.
(Ş.İ.Xətai)
Sayruya düşvardır həmrəylik etmək sən ilən (M.Füzuli)

Saz. Azərbaycan dilinin Şəki, Oğuz şivələrində qədim türk sözü olan saz sözünə rast gəlinir və "qamış", "qamışlıq" mənasında işlənir: Donquzun meyli sazaydı, it də qo:du saldı saza (ADDL, 2007, s.422). Saz "Kitabi-Dədə Qorqud" dastanında da eyni mənada işlənmişdir: Beyrəgiŋ qorqusından qaçdı, özini Tana sazına saldı (KDQ, 1988, s.66).

Sığır. Azərbaycan dili şivələrində işlənən sığır heyvandarlıqla bağlı olub iki məna bildirir: Birincisi, inək mənasında, ikincisi, naxır. Sığır "inək" mənasında Ağdam, Cəbrayıl, Göyçay, İsmayıllı, Qax, Şuşa, Qərbi Azərbaccanın Qafan, Qarakilsə şivələrində, "naxır" mənasında, Şəki, Qax, Qərbi Azərbaycanın Qarakilsə şivələrində işlənir: Həmid kişinün malı çoxsa da, hamısı sığırdı (ADDL, 2007, s.432). İraq-türkmən ləhcəsində sığır "söngə, buğa, kəl, öküz" mənalarını bildirir (İraq-türkman, 2004, s.393). Sığır "Kitabi-Dədə Qorqud" dastanında "inək" mənasında işlənmişdir: Gördi kim, oğrı köpək, yekə tana evini bir-birinə

qatmış- tauq komasına, sığır tamına dönmüş (KDQ, 1988, s.33). Lakin "Kitabi-Dədə Qorqud'un izahlı lüğəti'ndə göstərilir ki, dastanda işlənən sığır maral mənasını bildirmişdir ("KDQ'un izahlı lüğəti, 1999, s.158). Sığır sözünə "Kitabi-Dədə Qorqud" dastanında "mal otaran" mənasında işlənən sığırtmac sözündə də rast gəlinir: Məgər bir sığırtmacları vardı (KDQ, 1988, s.120).

Şülən. Təbriz, Oğuz şivələrində "böyük qonaqlıq" mənasını bildirən şilən sözü işlənir (ADDL, 2007, s.466). "Kitabi-Dədə Qorqud" dastanında şülən sözünə rast gəlinir. Dastanda rast gəlinən şülən "yemək-içmək", "ziyafət", "böyük şənlik məclisi" mənalarında işlənmişdir:

Ağ ayılda ağca qoyun sorar olsam, şülən kimüŋ?
Qaralı-göglü otağı sorar olsam, kölgə kimüŋ?
(KDQ, 1988, s.61)
Ağ ayılda ağja qoyum sorar olsaq,
Ağam Beyrəgiŋ şüləniydi.
Ağam Beyrək gedəli şülənim yoq.
(KDQ, 1988, s.61)

E. Əzizov yazır: "Kitabi-Dədə Qorqud"da şülən yeməyi ifadəsi "Toyda (düyündə) verilən yemək" mənasında da işlənmişdir" (E.Əzizov, 1999, s.256). E. Əzizov şülən sözünün daşıdığı mənanı izah edərək yazır: "Kitabi-Dədə Qorqud"da təsvir olunan oğuz elinin adətinə görə, şülən zamanı qoyun (ağca qoyun), toy, qonaqlıq üçün isə atdan ayğır, dəvədən buğra, qoyundan qoç kəsilir. Bu, bir daha şülən sözünün adi qonaqlıq mənasında olmadığını, daha çox qədim bir adət və mərasimlə bağlı olan və bütün xalqa verilən ümumi ziyafət mənasında işləndiyini göstərir. Orxan Saiq Gökyay şülən sözünün aşağıdakı mənalarını verir: Sultanların və bəylərin çəkdiyi süfrə, bütün xalq üçün hazırlanmış yemək, əsgərə və xalqa verilən ümumi ziyafət; ümumi qurban yeməyi" (E.Əzizov, 1999, s.257). Şülən Qarabağ şivələrində "müftə bol yemək", "malını dağıtmaq, malını paylamaq, yeyib dağıtmaq", Gədəbəy rayonunun Şınıx zonasında "müftə yemək", "yeyib dağıtmaq", Göyçayın Bığır şivəsində şilan formasında "bol, bolluq" mənalarını bildirir (E.Əzizov, 1999, s.258).

B.Əhmədov şülən sözünün etimologiyasını izah edərək yazır: "Bu söz (şülən -İ.B.) "Dədə Qorqud"da, Aşıq Ələsgərdə və s. mənbələrdə işlədilib. İndiki dillə desək, banket, ziyafət deməkdir. Əslində xalqa verilən qonaqlıq olub, kasıbları doydurmaq üçün onlara şadlıq məclisləri düzəldiblər. Qərb şivələrində şülən əvəzinə indi lejan kəlməsi işlədilir. Salyan rayonunda lej forması da mövcuddur. Qazaxda deyirlər: "Bostanda qarpız lejan olub", yəni boldur, çoxdur. Şül sözü bol deməkdir, -ən şəkilçisi ehtimal ki, ərənlər sözündəki -"ən"-lə eynidir, çoxluq bildirir. Belədirsə, şülən sözü "çox bol" mənasım verir" (B. Əhmədov, 1999, s.321).

Tov. Dərbənd şivəsində tov "dağ" mənasında işlənir: Tov yerinnən gələdi (ADDL, 2007, s.504; Dərbənd dialekti, 2009, s.363). Qədim türk dilində bu sözə eyni mənada tav formasında rast gəlinir (Q.Qeybullaev, 1991, s.483). "Dağ" mənasım bildirən tov sözü müxtəlif fonetik dəyişikliklə qumuq dilində tov, qazax dilində tau, türkmən dilində too, tuu, qırğız dilində too formalarında işlənir (Э.Мурзаев, 1984, s.537-554).

Tovlamaq. Qərbi Azərbaycamn Çəmbərək şivəsində "aldatmaq" mənasında toylamax sözünə rast gəlinir. Toylamax tovlamaq sözünün dialekt variantıdır. Bu söz Azərbaycan ədəbi dil materiallarında da eyni mənam bildirmişdir:

Züleyxa aydır: Mən mal alub neyləyim?
Tacir olam, ya ulusu toylayım?

(Xətib Təbrizi. "Yusif və Züleyxa")

"Tovlamaq, ədəbi dilimizdə iki məna bildirir: 1) hərəkət etdirmək; 2) dilə tutmaq, aldatmaq. Dialektlərdə (Qazax, Şamaxı...) sözün eşmək, burmaq mənası da var. Mənbələrdə "meşalka" anlamını verən tuqlavic, "vertetğ" mənasında işlədilən "tuqlandırğa" sözləri vardır. Deməli, sözün hərəkət və eşməklə bağlı mənları əslində dolamaq kəlməsi ilə əlaqədardır. Dolamaq təhrif nəticəsində tovlamaq şəklinə düşüb. Mənbələrdə yalan, hiylə mənasım verən tev sözü də qeydə alnıb, tovlamaq (əsli: tevləmək) sözü "hiylə yolu ilə qarşıdakım özünə tabe etmək" deməkdir" (B. Əhmədov, 1999, s.272).

Tuğ. Ağsu, İmişli, Şuşa, Zərdab şivələrində rast gəlinən tuğ "bayraq" mənasım bildirir: Meydana hər dəsdə öz tuğuynan gəlmişdi (ADDL, 2007, s.506). Bu söz eyni mənada qədim türk dilində işlənmişdir (ДТС, 1969, s.584). "Kitabi-Dədə Qorqud" dastanında tuğ sözü "bayraq" mənasında əksini tapır: Qazan bəgüq qartaşı kafəriq tuğilə sanjağı qılıjladı, yerə saldı (KDQ, 1988, s.50).

Tükənmək. Qərbi Azərbaycanın Çəmbərək şivəsində tükənməx' sözü işlənir və bu söz "işlənib qurtarmaq" mənasım bildirir. Eyni zamanda "bitib tükənmək" birləşməsində tükənmək ilkin mənasım qoruyub saxlamışdır. Tükənmək sözünə eyni mənada "Kitabi- Dədə Qorqud" dastanında rast gəlinir: Sayılmaqla Oğuz bəgləri tükənsə olmaz (KDQ, 1988, s.50). Müasir Azərbaycan ədəbi dilində işləklilik qazanan, ümumişlək söz olan tükənmək "qurtarmaq, bitmək, tamamilə işlənib qurtarmaq, daha qalmamaq" mənalarım bildirir (ADİL,IV,1987, s.217). Məsələn: Kənddən çıxdıqlarının onuncu günü Səriyyə xala yeməklərinin tükənməyə başladığını hiss etdi (M.İbrahimov).

Uçmaq. Qədim türk dilində işlənən uçmaq "cənnət" mənasını bildirir (ДТС, 1969, s.604). Bu feil Şamaxı şivəsində uzmağ formasında eyni mənada işlənir (ADDL, 2007, s.515). Uçmaq "Kitabi-Dədə Qorqud'un, Xətainin dilində "cənnət", "behişt" mənasında işlənmişdir.

Ağ saqqallu baban yeri uçmaq olsun!
(KDQ,s.41)
Oldur bu gecə ki, əhli iman,
Uçmaq ilə cavidan qavışdı (Ş.İ.Xətai)

Uruğ. ''Nəsil, tayfa" Bakı, Şamaxı, Ağdam, Şuşa şivələrində uruğ-turuğ (11,s.520), Biləsuvar, Göyçay, Qax, Sabirabad şivələrində uruğ (ADDL, 2007, s.519), Qərbi Azərbaycanın Meğri şivəsində urıx, urux (ADDL, 2007, s.519-520; Ə.Əliyev, 2003, s.479) sözləri ilə ifadə olunur. E. Əzizov yazır ki, Azərbaycan dilinin Mehri (Meğri) rayonu şivələrində urux///urıx sözü adətən mal-heyvan nəsli, bəzən isə insan nəsli mənasında işlənir. Həmin şivədə bu sözün insan nəsli ilə bağlı olan bir atalar sözü var: Uruğum olsun, Urumda olsun (E. Əzizov, 1999, s.255). Uruğ sözü "tayfa, nəsil" mənasında Ağsu, Kürdəmir, Oğuz, Ucar şivələrində urux-turux, Bakı, Şamaxı, Ağdaş, Şuşa şivələrində uruğ-turuğ mürəkkəb sözünün tərkibində qalmışdır (ADDL, 2007, s.520). Uruğ qədim türk dilində "nəsil" mənasını bildirmişdir (ДТС, 1969, s.615). Orxon-Yenisey abidələrində uruğ sözü "qəbilə, boy, nəsil, soy " mənasında işlənmişdir (Ə. Rəcəbov, Y. Məmmədov, 1993, s.381).

Ulaşmaq. Bu söz İmişli, Kürdəmir, Mingəçevir şivələrində işlənir və "qarışmaq", "qoşulmaq" mənasını bildirir: Bizim inəy ulaşıb o biri kəndin malına; Uşağı qoyma ulaşsın pis adama (ADDL, 2007, s.517). Ulaşmaq qədim türk dilində eyni mənada işlənmişdir: bir neŋ birgə ulaşdi "bir şey başqasına qoşuldu" (ДТС, 1969, s.609). VII əsr abidəsi olan "Kitabi-Dədə Qorqud"da ulaşmaq sözünə rast gəlinir. Dastanda işlənən ulaşmaq "qovuşmaq" mənasını bildirir. Ulaşuban sular taşsa, dəŋiz tolmaz (KDQ, 1988, s.31). Ulaşmaq

"Əsrarnamə»nin dilində "yetişmək, zatmaq, birləşmək, qovuşmaq, yaxınlaşmaq" (Ş.Xəlilov, 1988, s.182), Xətainin "Dəhnamə" poemasında "çatmaq, yetişmək, qovuşmaq" (M. Cavadova, 1977, s.94) mənalarında əksini tapmışdır:

Xoş yoldur o kim ulaşa ba yar;
Mənzur ola ona ruyi-dildar (Ş.İ.Xətai)

Ün. Qərbi Azərbaycanın Çəmbərək şivəsində ün sözü "səs" mənasını bildirir. Azərbaycan dilinin Göyçay keçid şivəsində "səs" mənasında in sözü işlənir: Mənim inim ona çətin çatar (ADDL, 2007, s.234). Bizcə, in qədim türk dilində "səs" mənasını ifadə edən ün sözünün (ДТС, 1969, s.625) fonetik variantıdır. "səs" mənasında ün sözünə "Kitabi-Dədə Qorqud" dastanında rast gəlinir: Ünümi aŋlaŋ bəglər, sözüm dinləŋ, bəglər! (KDQ, 1988, s.42).

Orxon-Yenisey yazılı abidələrində ün sözü eyni mənada işlənmişdir (Ə. Rəcəbov, Y. Məmmədov, 1993, s.382). Ün sözünə digər yazılı abidələrdə də rast gəlinir:

Qulağına ağlamaq üni girdi,
Uru durub qarşu təcil varur imdi.
(Əli. "Qisseyi-Yusif')

"Əsrarnamə"də ün "səs,səda" mənasında işlənmişdir (Ş.Xəlilov, 1988, s.182).

Müasir Azərbaycan ədəbi dilində işlənən inləmək sözünün tərkibindəki "in" də ün sözünün qədim variant olmaqla səs mənasını bildirir.

Yanşaq. Dərbənd, Quba, Şamaxı şivələrində "çoxdanışan" mənasında işlənən yanşaq sözü vardır (ADDL, 2007, s.540). Folklor ədəbiyyamda yanşaq aşıq sözünün qarşılığı kimi də işlənmişdir. "Yansaq" sözünün "aşıq" mənası Azərbaycan dilinin Dərbəndin Tabasaran şivəsində saxlanmışdır və Tabasaran şivəsində yanşağ formasında işlənir (Dərbənd dialekti, 2009, s.368). Yanşaq sözünə Quba şivəsində "çox danışmaq" mənasında yanşağlamağ, Şamaxı şivəsində "çərənçilik, zəvzəklik" mənasında yanşağlığ, İsmayıllı şivəsində "boş-boşuna çox danışmaq" mənasında yanşamağ, Cəlilabad şivəsində yanşaməy, Şəki, Ordubad, Ağcabədi, Ağdam, Cəbrayıl, Qax, Zaqatala, Qərbi Azərbaycanın Qarakilsə, Meğri şivələrində "çoxdanışan" mənasında yanşax fonetik formalarında rast gəlinir (ADDL, 2007, s.540). "Çoxdanışan" Qax və Zaqatala şivələrində yamşax sözü ilə ifadə olunur (ADDL, 2007, s.539). Qədim türk dilində yanşaq "çoxdanışan", "boş-boş danışan" mənasını bildirmişdir (ДТС, 1969, s.235).

Yaşırmaq. "Gizlətmək" mənasında Bakı şivəsində yaşırmağ, Şəki, Ağdam, Bərdə şivələrində yaşırmax sözü işlənir (ADDL, 2007, s.543). Bu sözə qədim türk dilində eyni mənada rast gəlinir (ДТС, 1969, s.247). Yasırmaq sözü "gizlətmək" mənasında Azərbayjan ədəbi dilində XVIII əsrə qədər işlənmişdir:

Alp ərən ərdən adın yaşurmaq eyb olur (KDQ, 1988, s.102).
Əhli-nəzərdən yaşurma, aç yüzüni gəl (Nəsimi)
Zülf arasında yaşur yüzüni tökkəc dildə ab,
Kim, yağış yağsa yaşunur bulut içrə afitab (Hidayət)
Vaqif, bir kimsə ki, bizdən yaşına,
Yəqin bil ki, bizdən olmaz aşına (M.P.Vaqif)

Yayaq. Bu söz Azərbaycan dilinin Qazax, Ordubad, Gürcüstanın Borçalı şivələrində yayax formasında "piyada" mənasını bildirir: Yayax getsək yorularıx, gəlin maşına minək (ADDL, 2007, s.543). Yayax sözünə Dərbənd şivəsində eyni mənada yayağ fonetik formasında rast gəlinir (ADDL, 2007, s.543). "Müasir Azərbaycan dilində və onun əksər

dialekt və şivələrində piyada sözü işləndiyi halda, qərb qrupunda (Borçalınm Ağaməmmədli kənd şivəsində) yəyax formasında rast gəlmək olur" (ADDL, 2007, s. 188). Bu söz "Kitabi-Dədə Qorqud" dastanında yayaq formasında işlənmişdir: Kafirin yanınca yayaq yürür deyəyinmi? (KDQ, 1988, s.75).

Yayaq müasir Azərbaycan ədəbi dilində işlənməsə də, əksər türk dillərində, o cümlədən özbək dilində (əev), türk dilində yayan//yaya, türk dilinin Trapezund dialektində yayak, qaqauz dilində yayan, noqay dilində əəv, başqırd dilində ygyau, tatar dilində jgəu, qazax, qaraqalpaq dillərində jaəu, uyğur dilində yayaq, qırğız dilində jöö, tuva dilində çadaq formalarında "piyada" mənasında işlənir (Т.Гараев, 1979, s.97). Müasir Azərbaycan dilində işlənən ayaq yayaq sözündən səs əvəzlənməsi əsasında formalaşmışdır. Qədim Azərbaycan dilində yəyax sözü yayan formasında "piyada, ayaqla" mənasında işlənmişdir (T.Hacıyev, K.Vəliyev, 1983, s.186).

Yazı. Qazax, Ordubad, Ağdam, Cəbrayıl, Füzuli, Laçın, Oğuz, Şahbuz, Tərtər, Zəngilan şivələrində "çöl, səhra, düzənlik" mənasında yazı sözü işlənir: Yazıdan çayacan yağış məni döydü (ADDL, 2007, s.544). Yazı İraq-türkmən ləhcəsində işlənərək "çöl, bayır", "kənar" mənalarını bildirir (İraq-türkman, 2004, s.404).

Yazı qədim türk dilində "çöl", "düzənlik" mənalarını bildirmişdir: Yazıda böri ulisa evda it bağırı tartışur "çöldə canavar ulasa, evdə itin bağırı çatlar" (ДТС, 1969, s.251). Orxon-Yenisey abidələrində yazı sözünün "çöl, səhra" mənası verdiyi göstərilir (Ə. Rəcəbov, Y. Məmmədov, 1993, s.358).

Yazı qədim Azərbacjan ədəbi dilində, eləcə də şifahi xalq ədəbiyyatında işlənmişdir:

Bir dəxi kimsə yazı yerdə yoldaş qoyıb qaçmıya - dedi.
(KDQ)

Tağ ilə həm yazı bənəm, bən küli-dövran olmışam.
(İ.Nəsimi)

Gah yazı kəsib gedərdi yola,
Gah yel aparırdı onu kola.
(Ş.İ.Xətai)

Adəm yedi gün və yedi gecə dağlar İlən yazıyı gəzüb anı bulmağda idi.
("Sühədənamə")

Yazı quşu, yaban aşı (Atalar sözü)

Yazı Azərbaycanın Ağyazı, Qarayazı toponimlərinin tərkibində işlənərək "çöl" mənasını bildirir.

Yemiş. Bu sözə Azərbaycan dilinin Dərbənd və Tabasaran şivələrində "meyvə" mənasında rast gəlinir: Yemişi teregdən çöpləmağ diyədi (ADDL, 2007, s.547; Dərbənd dialekti, 2009, s.369). Yemiş Qərbi Azərbaycanın Zəngibasar şivəsində "bayram yemişi" söz birləşməsinin tərkibində də "meyvə" anlamını ifadə edir. Belə ki, Zəngibasarda Novruz bayramında qoz, fındıq və kişmişdən hazırlanan xonça "bayram yemişi" adlanırdı.

Qədim türk dilində yemiş "meyvə" mənasında işlənmişdir (ДТС, 1969, s.255). Azərbaycan atalar sözünün tərkibində yemiş "meyvə" mənasında işlənmişdir: Ağacın yemişini ye, qabığını soyma.

Yoğurt. Dərbənd şivəsində "qatıq" yuğurt sözü ilə ifadə olunur (ADDL, s.552; Dərbənd dialekti, 2009, s.369). Qədim türk dilində yoğurt eyni mənada işlənir (ДТС, 1969, s.270). Yoğurt "qatıq" sözü müasir türk dilində işlək leksik vahiddir. Bu söz Azərbaycan ədəbi dili tarixində işlənmişdir: Əlin-yuzin yumadan toquz bozlamac ilən bir küvlək yoğurd gəvəzələr,

toyunca tıqa-basa yeyər; Ağ çıqarıb qara giyən qızlar. Bağır kibi ögnəndə yoğurtdan nə var? (KDQ, 1988, s.72);

Gəldi bəydən muştucu bir gündə dört,
Bəy sizə yazdırdı bir köklük yoğurt (Nəsimi)
Didim: əmu, səndə heç yoğurt var?
Didi bala, bir qədər qurut var (Sukuhi)

Əlavə edək ki, yoğurt ərzaq məhsulu kimi müasir Azərbaycan məişətinə artıq daxil olub və ağartı məhsullarından birinin adı olaraq yoğurt sözü də işləklilik qazanıb.

Tayfa Və Nəsil Mənasını İfadə Edən Sözlər

Azərbaycan dili şivələrində tayfa adlarını ifadə edən xüsusi sözlər işlənməkdədir. Məsələn: *basmax (*Tovuz)- "nəsil, tayfa", *com* (İmişli, Kürdəmir, Salyan, Şirvan)- "tayfa, nəsil", *co:ğa* (Daşkəsən, Gədəbəy, Goranboy, Göyçay, Göygöl, Kürdəmir, Qazax, Mingəçevir, Oğuz, Şamaxı, Şirvan)- "nəsil, tayfa", *coyğa* (Daşkəsən, Goranboy)- "nəsil, tayfa", *göbəx'* (Təbriz)- "tayfa", *xıms* (Qazax)- "nəsil, tayfa", *kök* (Bakı, Çəmbərək, Göygöl, Qazax, Salyan)- "nəsil", *oymağ* (Göyçay, Sabirabad, Zərdab), *oymax* (Qazax, Mingəçevir, Oğuz, Tovuz, Şəki, Təbriz, Ucar)- "nəsil, tayfa", *tirə* (Ağdam, Gədəbəy, İmişli, Qarakilsə, Qazax, Qubadlı, Laçın, Sabirabad, Şəmkir, Tovuz) - "nəsil", "tayfa", toxum (Dərbənd, Qazax) - "nəsil, tayfa", *urluğ* (Dərbənd)- "nəsil, tayfa", cey (Şahbuz)- "tayfa, nəsil" və s.

Qohumluq Münasibətlərini Bildirən Sözlər

Şivələrimizdə qohumluq münasibəti bildirən sözlər üç yerə bölmək olar: a) qan qohumluğunu bildirən sözlər; b) nigahla bağlı yaranan qohumluğunu bildirən sözlər; c) qohumluqla bağlı insan anlayışı bildirən sözlər.

a) qan qohumluğunu bildirən sözlər: *aba* (Gədəbəy, Quba, Ordubad, Zəngilan)- "ata", *aba* (Cəbrayıl, Qax, Təbriz, Şəmkir)- "ana", *abay* (Qax)- xala, *abay* (Çəmbərək)- "bacı", ağababa (Təbriz)-"baba", *ağbajı* (Gəncə)-"dayıarvadı", *aqqa* (Saatlı, Zərdab)- "ata", *baba* (Başkeçid,Təbriz, Füzuli)-"ata", *bada* (Zaqatala)-"əmiarvadı, əmidostu", *bayı* (Cəbrayıl)- "ana", *baylı* (Ucar)- "ana", *bıjı* (Borçalı, Qazax) - "bacı, bacıcığaz", *büvü* (Başkeçid, İmişli, Qazax, Şəmkir, Tovuz) - "əmi və ya arvadı", *cancanı* (Ordubad, Şərur, Zəngibasar) – "qardaş arvadı", *çiçə* (Şərur)- "əmi və ya arvadı", *dadaş* (Zəngilan)- "ata", *dadaş* (Ordubad)- "böyük qardaş", *əngə* (Meğri)- "valideyn", *ərəzən* (Culfa)- "sonbeşik, axırıncı övlad", *xıdıl* (Qax)- "qardaşoğlu, bacıoğlu, qardaşqızı, bacıqızı", "nəvə", *tirə* (Ağdam, Gədəbəy, İmişli, Qarakilsə, Qazax, Qubadlı, Laçın, Sabirabad, Şəmkir, Tovuz) - "qohum-əqrabavə" və s.

b) nigahla bağlı yaranan qohumluğunu bildirən sözlər: *baca* (Balakən)- "bacanaq", *başyoldaşı* (Kürdəmir, Qazax, Şamaxı, Şəmkir)- "həyat yoldaşı, arvad", *elti* (Ağdam, Ağdaş, Ağdərə, Borçalı, Çəmbərək, Goranboy, Göyçay, İmişli, Kürdəmir, Quba, Qax, Qazax, Mingəçevir, Tərtər, Şabran, Şəki, Ucar)- "iki qardaşın arvadları", *gelmacı* (Qax)- "gəlinbacı", *gev* (Culfa)- "kürəkən", *göy* (Çəmbərək)- "kürəkən", *hüvər* (Şabran)- "yeznə", *pətə (*Qax)- "xala" və s.

c) qohumluqla bağlı insan anlayışı bildirən sözlər: *adaxculğa* (Gədəbəy)- "qohum", *alğay-calğay* (Xaçmaz)- "qohum-qardaş", *bajılıx* - "ögey bacı" (Ağdam, Şuşa, Tərtər), "rəfiqə" (Çəmbərək), *culaşa* (Şəmkir)- "qohum", *dayılıx* (Şuşa)- "ögey dayı" və s.

Terminoloji Səciyyə Daşıyan Sözlər

Azərbaycan dili şivələrində işlənən terminoloji səciyyə daşıyan sözlər dilimizin müxtəlif tarixi dövrlərin izlərini özündə əks etdirir. Q.Hacıyeva yazır:"Müxtəlif tarixi dövrlərdə Azərbaycanda cəmiyyətin sosial mədəni həyatını əks etdirən müxtəlif sahələrə aid yaranmış terminlər vaxtı ilə cəmiyyət həyatının müxtəlif sahələrindəki sənayedə, kənd təsərrüfatında, sənətkarlıqda olan inkişafını dialektlərdə mühafizə edərək tarixin izlərini bu günə kimi yaşatmaqdadır. Azərbaycan dilinin dialekt leksikasının mühüm bir hissəsini tarixi etnoqrafik mədəniyyətimizlə bağlı leksik vahidlər təşkil edir" (Q.Hacıyeva, 2017, s.180).

M.Hüseynova yazır ki, Azərbaycan dilində işlənən yemək və içki adları ilə türk yazılı abidələrə, *dialektoloji materiallara* (kursiv bizimdir-İ.B.) söykənməklə bu leksik vahidlərin (Azərbaycan dilində işlənən yemək və içki adları nəzərdə tutulur-İ.B.) müştərək olaraq türk xalqlarının etnik tarixlərindəki rolu aydınlaşdırılır, qəbilə-tayfa dillərinə məxsus qədim dil faktları üzə çıxarılır, innovasiyaları öyrənilir, türk dili dialektlərinin qarşılıqlı əlaqəsinin bəzi tarixi məqamları araşdırılır, tarixi kontaktlarına aydınlıq gətirilir (M.Hüseynova, 2018, s.3). Azərbaycan dili şivələrində terminoloji səciyyə daşıyan sözləri aşağıdakı kimi qruplaşdırmaq olar:

Geyimə aid terminlər: *abır* (Salyan) - "paltar", *badış* (Salyan)- "nazik corab", *bahar*ı (Biləsuvar, Şuşa)- "qısa qollu qadın paltarı", *bürüncəx'* (Göyçay)- yapıncı, *bürüşmə* (Ordubad)- "yundan toxunma kişi paltarı", *büzmə* (Kəlbəcər)- "qadın üst paltarı", *canəvi* (Laçın)- "qolsuz, isti köynək", *cannığ* (İsmayıllı, Salyan, Şamaxı)- "sırıqlı", *cərgəgül* (Bakı "qadın baş bəzəyi", *cürcənə* (Cəbrayıl, İmişli)- "yundan toxunmuş yapıncıya oxşar kişi geyimi", *dabi* (Sabirabad)- "sırıqlı", *eşməx'* (Kəlbəcər)- " qolsuz, bəzəkli qadın geyimi adı", *giəcəx'* (Tovuz)- "paltar", gecəgiyən (Dərbənd)- "gecə yatanda başa qoyulan papaq"; *sürütmə* (Təbriz)- "ev ayaqqabısı"; *cılıqqa* (Meğri)- "kişi geyimi" və s.

Yeməyə aid terminlər: *avırtmac* (Ordubad)-"xörək adı", *ayranaşı* (Ağbaba, Çəmbərək, Masallı, Zəngibasar)-"dovğa", *bağlama* (Kürdəmir)- "balqabaqdan hazırlanan xörək", "qozdan hazırlanan xörək", *basdıx* (Ordubad, İrəvan, Zəngibasar)- "un, doşab və qozdan hazırlanan çərəz", *başəyax* (Borçalı, Cəbrayıl, Çəmbərək, Gəncə, Qazax, Tərtər, Tovuz)- "kəlləpaça", *bəyismat* (Ordubad)- "kömbə şəklində bişirilmiş çörək", *bozdamaş* (Goranboy)- "doğramac", *buğlama* (Basarkeçər, Borçalı) - "soyutma kartof", *bürcəh* (Oğuz) - "duru xörək adı", *çalvadar* (Oğuz)- "yemək adı", *əlho:ud* (Ağcabədi)- "xörək adı", *haquy* (Zaqatala) - "xəşil", *halvaxudur* (Dərbənd)- "xörək adı", *kakə* (Zaqatala)- "xəmir xörəklərdən birinin adı", *gürzə* (Bakı, Dərbənd)- "düşbərənin bir növü", *baliyə* (Təbriz)- "qatıxla bişirilən şirin yemək"; *bulamaş* (Meğri)- "yemək adı" və s.

Bitkiçiliyə aid terminlər: *acıqıcı* (Cəbrayıl, Zəngilan) -"vəzəri", *acıqouğ* (Salyan)-"bitki adı", *alaqutı* (Quba)-"gicitkan", *atqulançarı* (Qazax)- "qulançar (yeyilən yabanı bitki)", *badamcan* (Kəlbəcər)- "bağlarda bitən cır ərik", *başxozar* (Başkeçid)- "xırmanda əzilmiş sünbül", *bəcəli* (Lobya)- "lobya", *cancul* (Başkeçid, Borçalı, Hamamlı)- "gavalı növü adı".

Bağçılığa aid terminlər

almanın növləri: *ağ tabağ, ağ şafran, qəndabi, qəndi sinab, qızıl əhməd, quzgürən, güg turş, şafran, şirvan gözəli* (Quba); *ağ alma, qırmızı alma, daş alama* (Babək); *əkbəri, dərəği//darağı, ovlağı, sultanı* (Ordubad); *şirvan alması* (Muğan) və s.

armudun növləri: *abasbeyi, ağ armud, ağ tala, qorxmazı*[i], *keçmuxan, suli tala, yanğıci armud* (Quba); *qaratuluğ* (Bakı); *adamboğan armıd, qızıl armıd, payız armıdı* (Babək); *şəkəri, sinə armıt, qış armutu* (Ordubad) və s.

başqa meyvə növləri: *albuxara gavali, qara gavali, əlçə gavali, əxtə gavali* (Quba); *cavalı* (Babək); *ağ gilas, qərə gilas, Əbrəşi gilas* (Ordubad); *albuxara, əlçə, əzgil, qərə incir, ətdi hülü, yarma hülü* (Meğri); *qığ ərix', məşdəli ərix'* (Naxçıvan); *güşdi* (Babək, Ordubad)- "şaftalı növü", *əğ nazlı* (Ordubad); *mələs alça* (Muğan); *quşüzümü, mələs nar* (Qubadlı) və s.

Heyvandarlığa aid terminlər: *ağıl* (Balakən, Biləsuvar, Cəbrayıl, Zəngilan)-"yayda malqara saxlamaq üçün ətrafı hasarlanmış üstü açıq yer", *ağzıyuxarı* (Zərdab)- "körpə quzuları saxlamaq üçün yer", *çaxu* (Balakən)- "doğar qoyun", *almacıl* (Qazax)- "balasını tanımayan, əmizdirməyən qoyun", *almaz* (Bərdə)-"balasını əmməyən qoyun", *arğalı* (Culfa, Qazax, Naxçıvan, Ordubad, Zəngilan)- "vəhşi qoç", *banısdan* (Ağsu)- "qoyun-quzu saxlamaq üçün üstü örtülü yür, tövlə", *bayıl* (Salyan)- "arxac (heyvanların yatdığı yer)", *baytal* (Quba)- "ikiyaşar maydan", *bədəv* (Şahbuz)- "qaçağan at", *bordax* (Basarkeçər, Çəmbərək, Gəncə, Qazax, Şuşa)- "kökəldilmiş, bəslənmiş", *kalça* (Gəncə, Qazax, Şəmkir, Tovuz)- "camışın bir yaşa qədər olan erkək balası", *qomuşdügə* (Dərbənd)- "iki-üç yaşar camış düyəsi"; *barata* (Meğri)- "qurd yemiş heyvandan tapılan qalıqlar" və s.

Atçılığa aid terminlər:

yerişlərinə görə at adları: *addımli, qədəmli, pəçağ, dörd əyağ, çaparağ* (Bakı); *yorğa* (Bakı, Çəmbərək); *dördəm* (Çəmbərək) və s.

yaşlarına və cinsinə görə at adları: *baytal* "dişi at", *qulan* "iki yaşlı dişi at", *qulun* "bir yaşlı dişi at", *day* "iki yaşlı erkək at", *madyan* "dişi at" (Bakı); *maydan* (Bakı, Çəmbərək)- "dişi at" və s.

atçılıqda istifadə edilən alətlərin adları: *yəhərqaş, yəhərqaş xurcun* (Kürdəmir)- "yəhərin qaşına keçirilən iki gözlü balaca xurcun"; *yəhər, yüyən, üzəngi* (əksər şivələrdə işlənir) və s.

Məişətə aid terminlər: *acxəmrə* (Göyçay, Lerik, Kürdəmir, Salyan)- "xəmir mayası", *acıtma* (Biləsuvar)-"fətir", *açardili* (Quba)-"qıfıl", *ağlovçə* (Dərbənd)-"dəstəli tava", *alınnığ* (Salyan)-"alına bağlanan yaylıq, kiçik kəlağayı", *altdığ* (İmişli)- "cəhrənin hissəsi", *ambırça* (Meğri)- "kiçik dağarcıq", *astamur* (Zaqatala)-"ərsin", *atdandırma* (Şəmkir)-"kənd toylarında ata minən zaman zurna ilə çalınan hava (marş)", *avsar* (Füzuli)-"dəvənin noxtası", *ayaxlı* (Qazax)- "yuxayayan", *badax* (Zaqatala)- "mis qab", *badiçə* (Oğuz)- "mis piyalə", *badi* (Quba)- "saxsı nimçə", *bölmə* (Ağbaba, Bolnisi, Borçalı, Cəbrayıl, Çəmbərək, Gəncə, Qax, Qarakilsə, Qazax, Şəki, Şəmkir, Zaqatala, Zəngilan)- "nəlbəki", *cəbə* (Təbriz) - "xurcun",

cöəcə (Tovuz)- "mis piyalə, mis kasa", *güdil* (Cəlilabad)- "səhəng"; bəsdi (Meğri)- "kiçik saxsı küpə"; və s.

Kənd təsərrüfatına aid terminlər: *advoy* (Hamamlı) - "kərəntinin ağzını naziltmək üçün alət", *ağsaqqal* (Salyan)- "saman yığmaq üçün alət",, *ambıl* (Kəlbəcər)-"xışa qoşulmuş öküzlərin birinci cütü", *calı* (Şəki, Zaqatala)- "cağa, laydıra keçirilən barmaqlıq", *hodax* (Basarkeçər Bərdə, Gədəbəy, Qadakilsə)- "kotana qoşulmuş öküzləri sürən cütçü"; *alaqıran* (Dərbənd)- "kətmən"; *əgribel* (Lənkəran)- "kətmən", *ələklər* (Meğri)- "kiçik kətmən" və s.

Ölçü vahidlərinə aid terminlər: *giri* (Biləsuvar, Cəlilabad, Kəlbəcər, Şirvan)- "yeddi pud yarımlıq ölçü vahidi", *hoqqa* (Culfa, Naxçıvan)- "bir kiloqram", *xalvar* (Bakı, Laçın, Ordubad)- "keçmiş çəki vahidi, 10 pud", *isdil* - "100 qramlıq çəki vahidi" (Ağdam, Füzuli), "300 qramlıq çəki vahidi" (Çəmbərək, Qax), "500 qramlıq çəki vahidi" (Qazax) və s.

Baramaçılığa və ipəkçiliyə aid terminlər: *uluyə yuxlamax, uludan durmax* (Şəki)- "barama qurdunun axırıncı yuxudan durması"; *küm* (Cəlilabad)- "baramaqurdu bəsləmək üçün hörülmüş üstüörtülü yer"; *kümdar* (Füzuli, Şəki) - "baramaçı, baramaqurdu bəsləyən"; *cabal* (Göyçay, Xaçmaz, Qax, Şəki, Zaqatala)- "çəkil, cır tut ağacı", *künə* (Meğri)- "yarpağı yeyilmiş tut ağacı budaqları"; *susda* (Babək) - "baş barama", *kəmərbəsdə* (Naxçıvan)- "keyfiyyətli barama", *qaraçıxar* (Qubadlı)- "əzik barama" və s.

Əkinçiliyə aid terminlər: *axı* (Balakən) - "meşəlik və ya kolluq yerləri təmizləyərək düzəldilmiş əkin sahəsi"; *çala* (Kürdəmir, Şəki) - "lək, çəltik ləki"; *bafa* (Cəbrayıl, Füzuli, Şəmkir, Tovuz)- "bir neçə çəngədən ibarət biçilmiş taxıl və ya ot bağlamsı"; *qaj* (Oğuz)- "əkilmiş sahədə şırımlar arasında qalmış xam yer, şumlanmamış yer"; *quğar* (Dərbənd)- "şum"; örən (Meğri)- "ilk dəfə sürülən əkin sahəsi";

Arıçılığa aid terminlər: *arılıx* (Şahbuz)- "arıxana, arı səbətləri qoyulan yer"; *beçə* (Çəmbərək)- "arı ailəsində ayrılan arı"; *manana* (Çəmbərək)- "şirə"; *pətəx'* (Basarkeçər, Çəmbərək, Meğri)- "içərisində arı ailəsi olan dar və uzun səbət"; *dirəcən* (Ordubad)- "sarı, cır çöl arısı", *şah veçə* "birinci bala", *orta veçə* "ikinci bala", *kora// koraveçə* "üçüncü bala" (Qubadlı);

Pambıqçılığa aid terminlər: *ikiqulağ* "pambığın təzə cücərən vaxtı", *qoza, çiyid, gülolma, partlama* "qozaların çılması", *malalama* "yumşaltma", *şırimlama* "suvarmaq üçün kiçik arxların çəkilməsi", *kətmənləmək* "dibini boşaltmaq", *seyrəltmək* (Muğan qrupu, 1955, s. 205).

Terminoloji Səciyyə Daşımayan Sözlər

Şivələrimizin lüğət tərkibində elə sözlərə rast gəlinir ki, bunlar ya ədəbi dildə işlənmir və ya başqa mənalar ifadə edir (M.Şirəliyev, 1967, s. 339). Belə sözləriə aid aşağıdakıları nümunə göstərmək olar.

Peşə-sənətə aid sözlər: *atıcılıx* (Qazax)-"keçəçilik", çalıcı (Zaqatala)- "çalğıçı", *çəmçi* (Naxçıvan)- "alaqdərən", *çəpkeş* (Kürdəmir, Salyan) - "avarçəkən", *dağıdıcı* (Şuşa) - "poçtalyon", *dölləx'* (Qarakilsə)- "qoyun doğuzduran adam", *əbəçi* (Cəlilabad, Lerik, Yardımlı, İmişli, Sabirabad, Zəngilan)- "mamaça, mama", *gəzən* (Təbriz) - "başmaqçılıqda

işlədilən alət”, *hadıxçı* (Bərdə, İmişli, Tərtər) - “mamaça”, *xaqay* (Dərbənd) - “çay puçalı”, *irzəvan* (Meğri) - “çoban köməkçisi”, *işgil* (Qax)- “kəmərin qaşı” və s.

Zaman anlayışlarına aid sözlər:

Həftənin günlərini bildirən sözlər: *adına* (Çəmbərək, Gədəbəy, Gəncə, Qazax, Lənkəran, Salyan, Şəki, Şəmkir, Tovuz, Zəngilan) - “cümə axşamı”, *xas* (Ağbaba, Gədəbəy, Göygöl, Qax, Qazax, Mingəçevir, Şəki, Tovuz), *nas//nəs//nərs//xas* (Dərbənd)- “çərşənbə axşamı”, *qiçig hacilə// qiçig hacilər// qiçig hacılar* (Dərbənd) - “bazar ertəsi”, *xas* (Gədəbəy, Tovuz)- “bazar günü”, *duz* (Meğri) - “bazar ertəsi” və s.

Ay anlayışını bildirən sözlər: *boz ay* (Çəmbərək, Qazax, Naxçıvan, Şəmkir, Tərtər, Tovuz) - “qışın son ayı”, *camışqıran* (Borçalı, Qazax) - “yazın ilk üç günü”, *çömçəqurutmaz* (Ağdam)- “payızın son ayı”, *qurtqarışan* (Dərbənd) - “yanvar”, *quyruqdoğan (Çəmbərək, Dərbənd), torşidoğan//torşiduğan//turşuduğan* (Dərbənd) - “avqust ayının ikinci yarısı”, *ceyran kölgəyə gələn gələn ay* (Muğan) - “payızın ikinci ayı”, *çilləbeçə* (Meğri)- “qışın son ayının ilk beş günü” və s.

Günün vaxtlarını bildirən sözlər: *gün çeşdə qalxan vaxt* (Çəmbərək)- “ səhər saat 10-11 radələri”; *ikindi* (Borçalı, Çəmbərək, Karvansaray, Xaçmaz, Quba)- “axşam üstü, günbatan vaxtı” və s.

AZƏRBAYCAN DİLİ ŞİVƏLƏRİNDƏ SÖZÜN MƏNA NÖVLƏRİ

Azərbaycan dili şivələrinin lüğət tərkibində sözün məna növləri həm zənginliyi, həm də rəngarəngliyi ilə xüsusi yer tutur. Bunların bir hissəsi dilimizin müəyyən tarixi dövlərində işlənərək şivələrdə qalsa da, ədəbi dildə işlənmir, bir hissəsi isə müxtəlif fonetik tərkibdə yeni mənalarda işlənir. Dialekt leksikası üzərində müşahidələrə əsasən bu qənaətə gəlmək olur ki, şivələrdə sözün mənaca üç növü özünü göstərir: omonomlər, sinonimlər, antonimlər.

Omonomlər

Şivələrdə omonimlər xüsusi lay təşkil edir. Bu baxımdan S.Behbudovun “Azərbaycan dili şivələrinin omonimlər lüğəti” əsəri xüsusi əhəmiiyətə malikdir. Omonimlər iki, üç və daha çox komponentdən ibarət olur: a) iki sözdən ibarət omonimlər; b) üç sözdən ibarət omonimlər; c) dörd və daha çox sözdən ibarət omonimlər;

a) iki **sözdən ibarət** ***omonimlər:***

aba

aba (Quba, Dərbənd, Zəngilan, Gədəbəy, Ordubadlı)-“ata”;
aba (Zəngilan)-“ana”;

basıx

basıx (Qazax)- “tapdanma nəticəsində çəpərin üstündən salınmış keçid”;
basıx (Qazax, Gəncə)- “ iş heyvanlarının belində əmələ gələn yara”.

b) üç **sözdən ibarət** ***omonimlər:***

əyağaltı

əyağaltı (İmişli, Gəncə, Laçın, Kürdəmir, Saatlı, Sabirabad, Salyan)- “pilləkən”;

əyağaltı (Salyan)- " balaca kətil";
əyağaltı (Bakı, Salyan)- "astana, kandar";
düymə
düymə (İrəvan)- "cəftə keçirilən həlqə";
düymə (Bərdə)-"başı yumru mıx";
düymə (Cəbrayıl, Füzuli)- "tumurcuq".

c) dörd və daha çox* sözdən ibarət *omonimlər:
kəm
kəm (Quba, Şamaxı, Zaqatala)- "heyvan xəstəliyi";
kəm (Ordubad)- "sağanaq";
kəm (Hamamlı)- "vəl";
kəm (Cəlilabad)- "xəlbir".
kahal
kahal (Qubadlı)- "göz həkimi";
kahal (Bakı, Dərbənd, Göyçay, Hamamlı)- "tənbəl";
kahal (Balakən, Qax)- "kütbeyin, qaradinməz";
kahal (Zəngilan)- "ləng, ağır";
kahal (Mingəçevir, Şəki, Zəngilan)- "könülsüz, həvəssiz".
bəlgə

bəlgə **(**Qazax, Zəngilan, Kəlbəcər, Gəncə, Oğuz, Ordubad,Tovuz, Şəmkir)- "evlənən oğlan tərəfindən qız evinə göndərilən birinci nişan ";

bəlgə **(**Ağdam, Bakı, Cəbrayıl, Cəlilabad, İsmayıllı, İmişli, Kürdəmir, Naxçıvan, Saatlı, Sabirabad, Salyan, Şahbuz, Şirvan)- "ağac döyüşündə müdafiə olunmaq üçün qola sarınan qlın parça, sarğı ";

bəlgə **(**Bakı)- "şaftalı qaxı ";

bəlgə **(**Biləsuvar, Qusar, Göyçay, Salyan, Xaçmaz)- "bəhanə, səbəb ";

bəlgə **(**Ağdaş, Qəbələ, Qusar, Salyan, Ucar)- "əkin yerlərinin hüdudunu bildirən nişan, mərz";

bəlgə **(**Ağcabədi, Beyləqan, Şuşa)- "gön aşılamaq üçün nar qabığı və yarpağından hazırlanmış maddə ";

bəlgə **(**Bakı, İmişli, Saatlı, Sabirabad, Salyan)- "dəlil, əsas, sənəd";

bəlgə **(**İmişli, Kürdəmir)- "batmamaq üçün balıq torunun yan iplərinə bağlanan qamış ";

bəlgə **(**Cəbrayıl)- "dəriyə, paltara güvə düşməmək üçün yarpağından istifadə edilən bitki";

bəlgə **(**Qusar)- "kələk, hiylə ";

bəlgə **(**Bakı, İmişli, Yevlax, Saatlı)- "təndirə çörək yaparkən və ya taqxıl biçərkən qola dolanan parça";

bəlgə **(**İmişli)- "balıq tutarkən qarmağa taxılan əşya ";

bəlgə (Cəbrayıl, Kəlbəcər, Şəmkir, Yevlax)- "vasitəçi";

Şivələrdə ən çox isim və feil nitq hissələrinin omonimləri işlənir. Bu baxımdan omonimləri qrammatik xüsusiyyətinə görə iki yerə bölmək olar:

1. Eyni nitq hissəsindən ibarət olan omonimlər.
2. Müxtəlif nitq hissələrindən ibarət olan omonimlər.

Eyni nitq hissəsindən ibarət olan omonimlər. Bu tipdən olan omonimləri aşağıdakı

kimi təsnif etmək olar.

***a) isimdən ibarət omonimlər*:**

badax

badax (Xaçmaz, Quba,Qusar)- camış balası;

badax (Zaqatala)- mis qab;

badax (Gəncə, İmişli, Qazax) - uzağa qaçmamaq üçün quşların, heyvanların ayaqlarınan bağlanan ip.

adax

adax (Qazax) - badalaq;

adax (Hamamlı, Kürdəmir)- dayaq.

ağrnağız

ağrnağız (Baskeçər) –qısa söhbət;

ağnağız (Qazax, Şuşa, Tovuz) - eytiyac üçün üyüdülən azacıq taxıl.

çala

çala (Kürdəmir, Şəki)- lək, çəltik ləki;

çala (Basarkeçər)- biçənək;

çala (Qazax)- tarla düşərgəsi;

çala (Bakı, Yardımlı, Saatlı, Zəngibasar)- dərə;

çala (Şirvan)- yer, sahə;

çala (Ordubad)- təndir;

çala (Zəngibasar)- doğuşdan əvvəl heyvanın ifraz etdiyi selik;

çala (Çəmbərək)- çuxur .

b) sifətdən ibarət omonimlər:

abdal (Cəbrayıl, Füzuli, Saatlı)- avara, sərsəri- *abdal* (Şahbuz)- qanacaqsız, mərifətsiz;

adamcıl (Şəmkir)- arif, adamtanıyan- *adamcıl* (Cəbrayıl)- insan qanına həris olan, adama hücum edən;

çıxdaş (Bərdə)- nimdaş, köhnə- *çıxdaş* (Ağcabədi)- yunun darana bilməyən feyfiyyətsi hissəsi;

dəbbə (Ağdam, Borçalı, Qazax, Yevlax)- lovğa- *dəbbə* (Füzuli, Qazax)- sözündən qaçan, şərti pozan- *dəbbə* (Hamamlı)- inadkar, höcət;

doydax (Mingəçevir, Şuşa)-ağılsız, ağıldan yüngül, sarsaq –*doydax* (Çəmbərək)- arıq- *doydax* (Lənkəran)- uzun (Boyca) ;

həşəri (Zəngilan)- forslu –*həşəri* (Gəncə) - dalaşqan, davakar- *həşəri* (Ağdam) - həyasız, çığır-bağır salan və s.

c)zərfdən ibarət omonimlər:

anqərib (Cəlilabad, Salyan)- azacıq, az *anqərib* (Salyan)- tezvə s.

***ç) feildən ibarət omonimlər*:**

addandırmax (Gəncə)- nişanlamaq, nişan taxmaq- *addandırmax* (Gəncə, Füzuli)- ad-sanlı etmək, şöhrətləndirmək, şöhrətə çatdırmaq;

barranmax (Qazax, Tovuz)- kiflənmək- *barranmax* (Ağdam, Bərdə, Çəmbərək, Şuşa)- xəstəlik nəticəsində ağızda ərp əmələ gəlmək;

carramax (Çəmbərək, Gəncə, Qazax, Mingəçevir, Şamaxı, Şəmkir, Tovuz, Ucar)- yuyandan sonra pak etmək <arxda, çayda>- *carramax* (Gəncə, Qazax)- əndərmək;

çalmax (Basarkeçər, Cəbrayıl, Göyçay, Mingəçevir, Şəki, Zəngilan)- süpürmək- *çalmax* (Cəbrayıl, İsmayıllı)- oğurlamaq, xəlvət götürmək- *çalmax* (Ağdam, Böyük Qarakilsə, Cəbrayıl, Çəmbərək, Salyan, Gədəbəy)- mayalamaq <südü>- *çalmax* (Cəbrayıl, Çəmbərək)- döymək, vurmaq- *çalmax* (Salyan)- oxşamaq, bənzəmək- *çalmax* (Salyan)- eşitmək, xəbər tutmaq və s.

Müxtəlif nitq hissələrindən ibarət olan omonimlər.

a)isim+sifət: *afat* (Qazax)- tufan, çovğun- *afat* (Şəki)- qoçaq, diribaş, zirək;

ağcavaz (Qubadlı)- soyuqdəymı- *ağcavaz* (Şəki)- ağımtıl, ağ təhər;

barata (Naxçıvan)- "palçıq layı" -*barata* (Cəbrayıl)- "köhnə";

calğa (Cəbrayıl, Zəngilan)- küm və ya çovustanda orta dirəklərin haçasına qoyulan uzun ağac, tir- *calğa* (Şamaxı)- arıq;

danqa (Hamamlı)- mal aşığı- *danqa* (Naxçıvan, Şərur)- lovğa, ədəbaz;

xəkə (Goranboy, Laçın, Ucar)- çay puçalı- *xəkə* (Qazax)- kimsəsiz, sahibsiz və s.

b) isim+zərf: *ağzıyuxarı* (Salyan, Ucar, Zərdab)- körpə quzular saxlanılan yer- *ağzıyuxarı* (Cəbrayıl, Füzuli, Zəngilan)- üzuyuxarı, başıyuxarı;

1) *arpa-buğda* (Tabasaran)- göy qurşağı, qövsi -qüzeh - 2) *arpa-buğda* (Qazax, Şamaxı, Şəmkir)- növbə ilə oəlan və qız doğma;

bigir (Bakı)- güc, qüvvə- *bigir* (Cəbrayıl, Meğri)- birlikdə, bir yerdə;

ciloy (Tovuz)- arabaya əlavə qoşulan bir cüt öküz"- *ciloy* (Borçalı, Daşkəsən)- bir az, bir qədər, azacıq və s.

b)isim+ədat: *axır* (Bakı)- üzüm şirəsi üçün içərisi yonulmuş bütöv daş- *axır* (Zəngilan) - axı;

dənə (Lənkəran)- günəbaxan tumu- *dənə* (Cəlilabad, İmişli, Saatlı)- da, də;

b)sifət+zərf: *bekara* (Ağdam, Bərdə, Cəbrayıl, Kəlbəcər, Şuşa)- pis, sarsaq- *bekara* (Ağdam, Ağcabədi, Bərdə, Cəbrayıl, Saatlı, Şuşa)- azacıq, bir az;

binəli (Şuşa)- möhkəm, etibarlı -*binəli* (cəbrayıl, Şuşa, Zəngilan)- daimi, həmişəlik;

hül (Cəlilabad)- yalan- *hül* (Ağdaş, Cəbrayıl, Gədəbəy, Qazax)- yuxarı və s.

zərf+zərf: *dördəm* (Tovuz)- dördqat- *dördəm* (Cəbrayıl, Qazax, Meğri, Salyan, Tovuz)- dördnala <at qaçışı>;

hüröyün (Çəmbərək)- bol, həddindən artıq- *hüröyün* (Qazax, Tovuz)- ərköyün;

xap (Qazax, Şəmkir) - tamam, büsbütün- *xap* (Qazax, Zəngilan) - qəflətən, birdən;

zol (Cəbrayıl, Quba, Kəlbəcər, Göyçay, Mingəçevir)- düz, birbaşa- *zol* (Şəki)- yarpaq yeyərkən baramaqurdunun əmələ gətirdiyi sıra, cərgə, zolaq və s.

zərf+qoşma: *qabağa* (Dərbənd)- əvvəl- *qabağa* (Çəmbərək, Dərbənd)- əvvəl, irəli"

çağlı (Dərbənd)- qədər, böyüklükdə*çağlı* (Dərbənd)- kimi və s.

ədat+qoşma: *dağı* (Dərbənd)- daha- *dağı* (Dərbənd)- başqa, qeyri və s.

Sinonimlər

Şivələrimizdə sinonimlər aşağıdakı yollarlla əmələ gəlir.

1.Dialektizmlərdən və qədim türk sözlərindən əmələ gələn sinonimlər: *sırxana ~sığırxana* (Borçal)- kənddən kənarda mal saxlanılan yer; *vəqyə ~ tuş* (Borçalı)// *vağyə* ~ tuş

(Dərbənd)- yuxu; *naxoş ~ sayrı* (Qazax)- xəstə; *şiş~qıy* (Meğri)- təpə, yal və s.

2.Dialekt sözlərdən əmələ gələn sinonimlər: *qıxmıx~yonğu* (Çəmbərək, Qazax)- ağac qırıntısı; *güzə~zəllə* (Dağ Borçalısı)- xəsis; *qıymaz~göy* (Çəmbərək)- xəsis; *yeznə~göy* (Çəmbərək, Şəki)- kürəkən; *yavalammax~künsüməx'~co:ytmax~çöfləmməx'~sümələmməx'* (Çəmbərək) - işsiz, boş-boş gəzmək; *qılıqal~şinnix'* (Meğri)- səs-küy; əbəçi *~hadıxçı~mamaçı* (Qubadlı)- uşaq tutan qadın; *işgil ~mandal~mori~sürmə* (Naxçıvan)- qapı cəftəsi və s.

3.Ədəbi dil və dialekt sözlərindən əmələ gələn sinonimlər: *önlüx'~ ətəx'cilix'* (Qazax)- önlük; *xəsis~misqi~qeymez~malyeməz~simic* (Quba)- xəsis; *gilas~ba:lı~bəhli* (Şəki)- gilas; *a^{o}ğızlıx ~ rahatı* (Meğri)- qıf; *ormannıx ~ qalınnıx~ şəllix~ şəllix'~ınırrıx* (Qubadlı)- kolluq; *düz ~ley* (Naxçıvan)- düzənlik; *pis ~yaman~yava* (Təbriz)- pis"və s.

Antonimlər

Şivələrimizdə həm ədəbi dildə işlənən sözlər, həm də ayrı-ayrı şivələrdə işlənən antonimlər sözlər təşkil edir.

1.Yalnız şivələrdə işlənən sözlərdən əmələ gələn antonimlər: *beybut* (Dərbənd) - qatlanmayan bıçaq~ *çaqqu* (Dərbənd)- qatlanan bıcaq; *qarabağır* (Çəmbərək, Dərbənd) - qaraciyər~ *ağbağır* (Çəmbərək, Dərbənd)- ağciyər; *gurramax* (Çəmbərək, Karvansaray)- çoxalmaq ~ *soğulmax* (Çəmbərək, Karvansaray)- kəsilmək, azalmaq; *güdil* (Lerik)- gödək ~ *tül* (Təbriz)- uzun, *kal* (Çəmbərək)- yetişməmiş <meyv> ~ *lalıx* (Qubadlı)- çox yetişmiş ; *uzuno:xor* (Quba)- "çox uzun" ~ *gudul* (Quba)- "gödək", *də̃t* (Meğri)- "uzun <adam> ~ *xıra* (Borçalı, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Mingəçevir, Salyan)- qısaboylu <adam>, *xıpı^{i}* (Şirvan)// *xırpa//xirpə* (Sabirabad) - alçaq boylu, gödək <adam>~ *uzunhoqar//uzundraz (Sabirabad)//huzunhoxar* (Salyan)- "çox uzun<adam>" və s.

2. Şivələrdə və ədəbi dildə işlənən sözlərdən əmələ gələn antonimlər: uzundraz (Çəmbərək)- uzun <adam> ~ gödə*x'* (Çəmbərək)- gödək <adam> və s.

3. Dialektizmlərdən və qədim türk sözlərindən əmələ gələn antonimlər: *dızdağ* (Dərbənd)- arıq <qoyun> ~ *səmiz* (Dərbənd)- kök <qoyun>; *dükcə* (Bakı)- balaca *~azman* (Bakı)- böyük; *yava* (Təbriz)- pis~ *ey* (Borçalı, Kürdəmir, Qazax)- yaxşı və s.

F R A Z E L O G İ Y A

Azərbaycan Dili Frazeologiyasının Tədqiqi Tarixi Haqqında

Azərbaycan dilinin şivələri fonetik, leksik, morfoloji, sintaksis cəhətdən araşdırılsa da, şivələrin frazeologiyası ayrıca olaraq tədqiqata cəlb edilməmişdir. Şivələrlə bağlı yazılan fəlsəfə və elmlər doktoru dissertasiyalarında, şivələrə aid yazılmış monoqrafiyalarda, Azərbaycan dialektologiyasına aid dərslik və dərs vəsaitlərində şivələrin frazeologiyasından bəhs edilməmişdir. Əlavə olaraq qeyd edək ki, şivələrimizin frazeologiyasına dair Sefi Behbudovun “Azərbaycan dili şivələrinin frazeologiya lüğəti” (Bakı, 2011) kitabından başqa, ayrıca olaraq elə bir əsər yazılmamışdır.

Azərbaycan dilinin frazeologiyasının tədqiqinə XX əsrin 50-ci illərindən sonraya təsadüf edilir. M.Hüseynzadənin “Müasir Azərbaycan dili” (1954), S.Cəfərovun “Müasir Azərbaycan dilinin leksikası” (1958), Ə.Dəmirçizadənin “Azərbaycan dilinin üslubiyyatı” (1962), A.Qurbanovun “Azərbaycan dilinin frazeologiyası” (1963) kitablarında Azərbaycan dilinin frazeologiyasından bəhs edilmişdir. 1958-ci ildə S.Murtuzayev “M.F.Axundovun komediyalarının frazeologiyası” mövzusunda, 1967-ci ildə N.Rəhimzadə “Azərbaycan dilində idiomatik ifadələr” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişlər. N.Rəhimzadə Azərbaycan dilində işlənən frazeoloji vahidləri, *ideomatik ifadələr* termini adı ilə araşdırmışdır. 1961-ci ildə “Müasir Azərbaycan dilində söz birləşmələri” kitabı nəşr olunmuşdur; kitab iki hissədən ibarətdir. Birinci hissə sərbəst söz birləşmələrinə, ikinci hissə sabit söz birləşmələrinə həsr edilmişdir. Sabit söz birləşmələri bölməsini H.Bayramov yazmışdır. Burada Azərbaycan dilində işlənən frazeoloji birləşmələr “sabit söz birləşmələri” adı altında araşdırılmış və frazeoloji birləşmələr ismi sabit söz birləşmələri, feili sabit söz birləşmələri, zərf sabit birləşmələr, ara söz vəzifəsində işlədilən sabit birləşmələr, sual bildirən sabit birləşmələr kimi qruplaşdırılır. Eyni zamanda sabit birləşmələri mənaca “frazeoloji birikmələr”, “frazeoloji bitişmələr”, “frazeoloji birləşmələr”, “sabit birləşmə səciyyəli terminlər” adı altında təsnif edilir (H.Bayramov, 1961, s.101-139). 1978-ci ildə H.Bayramovun “Azərbaycan dili frazeologiyasının əsasları” monoqrafiyası çap olunub. Əsərdə Azərbaycan dili frazeologiyasının ümumi məsələləri, Azərbaycan dili frazeologiyasının quruluşu, Azərbaycan dili frazeologiyasının məna xüsusiyyətləri izah edilir.

1996-cı ildə M.Mirzəliyeva “Türk dilləri frazeologiyasının nəzəri problemləri” mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və 2009-cu ildə həmin dissertasiya əsasında “Türk dillərinin frazeologiyası” adlı əsəri çap olunmuşdur. Əsərdə “frazeoloji vahidlərin dili sistemində yerini müəyyənləşdirilməsi üçün onların mövcudluğunu şərtləndirən linqvistik amillər aşkarlanır, oğuz köklü türk dilləri əsasında frazeoloji vahidlərin əmələ gəlmə tarixi və prinsipləri, eləcə də inkişaf yolları izlənilir”.

Azərbaycan dilinin frazeoloji vahidləri ali məktəb tələbələri üçün yazılmış S.Cəfərovun “Müasir Azərbaycan dili (leksika)” (1970), A.Qurbanovun “Müasir Azərbaycan ədəbi dili” (1986), H.Həsənovun “Müasir Azərbaycan dilinin leksikası” (1987), B.Xəlilovun “Müasir Azərbaycan dilinin leksikologiyası” (2008) dərsliklərində, eləcə də 1978-ci ildə “Elm” nəşriyyatının çap etdiyi “Müasir Azərbaycan dili” kitabında (I cild, fonetika, əlifba, orfoqrafiya, orfoepiya, leksikologiya), İ.Bayramovun “Müasir Azərbaycan ədəbi dilinin zənginləşməsi yolları” (1999) dərs vəsaitində bəhs edilmişdir.

Xalq Frazeologiyası

"Frazeologiya" mənşəcə yunan sözüdür. Pharasis (ifadə, ibarə) və logos (elm) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Bu termin dildə olan frazeoloji söz birləşmələrinin cəmini bildirir. Dilin lüğət tərkibində frazeoloji söz birləşmələri xüsusi lay təşkil edir. Bu baxımdan xalq danışıq dilinin frazeologiyası xüsusi əhəmiyyətə malikdir. İngilis tədqiqatçısı L.P.Smitin dediyi kimi: "Bizim ən yaxşı söz birləşmələrimiz canlı, obrazlı ifadələrimiz təkcə kitab-xanalarda deyil, emalatxanalarda, mətbəxlərdə yaranmışdır". Xalqın yaratdığı obrazlı ifadələr frazeologiyanın əsasını təşkil edir. Xalq danışıq dilinin frazeologiyası ədəbi dilin frazeologiyasını zənginləşdirir. Bu cür söz birləşmələrinə ədəbi dilə xas olan frazeoloji vahidlər (ictimai-siyasi, kitab frazeologiyası, frazeoloji terminlər və s.) və xalq danışıq dilinin frazeoloji söz birləşmələri daxildir. Lakin belə bir bölgü şərti xarakter daşıyır. Bunlar arasında elə bir ciddi fərq yoxdur. Çünki xalq danışıq frazeologiyası ədəbi dilin frazeologiyasını zənginləşdirdiyi kimi, ədəbi dilə məxsus frazeoloji söz birləşmələri də xalq danışıq dilinə keçir. Beləliklə, ədəbi dillə xalq danışıq dili arasındakı kiçik fərqlər aradan çıxır və ədəbi dillə xalq danışıq dili bir-birinə yaxınlaşır.

Xalq danışıq frazeologiyasında hər bir millətin öz adət-ənənəsi, milli xüsusiyyətləri və həmin xalqın keçdiyi inkişaf yolu öz izlərini qoruyub saxlayır. Belə bir xüsusiyyət Azərbaycan dilində də vardır. Məsələn, vaxtilə bəzi frazeoloji birləşmələr həqiqi mənalarda işlənərək Azərbaycan xalqının həyat tərzi ilə bağlı olmuşdur. Lakin sonralar məcaziləşərək frazeoloji söz birləşməsinə çevrilmişdir. Müasir Azərbaycan ədəbi dilində sabitləşmiş **"xoruzunu qoltuğuna vermək", "gözdən pərdə asmaq", "başmaq seyrinə çıxmaq", "hamam suyu ilə özünə dost tutmaq", "qazan asmaq"** kimi frazeoloji söz birləşmələri buna canlı misal ola bilər.

Hər bir dil öz leksik, qrammatik quruluşuna, frazeoloji tərkibinə görə başqa dil ailələrindən fərqlənir. Bununla yanaşı "... dilin milli xüsusiyyəti, onun koloriti frazeologiyada çox aydın surətdə özünü göstərir" (Ə.Ə.Orucov). Məhz bunun nəticəsidir ki, frazeoloji söz birləşmələrini, xüsusilə xalq danışıq dilində, şivələrdə işlənənləri olduğu kimi, sözbəsöz başqa dilə tərcümə etmək olmur. Bunun üçün frazeoloji söz birləşməsinin həmin dildəki ya qarşılığı tapılır, ya da həmin mənanı ifadə edən, yəni ona yaxın məna bildirən frazeoloji söz birləşməsindən istifadə olunur.

Azərbaycan xalq danışıq dilinin frazeoloji söz birləşməsinin leksik tərkibi sabitdir. Həmin frazeoloji vahidlərdə işlənən sözləri çox vaxt ədəbi dilə, xüsusi ilə kitab dilinə xas olan sözlərlə əvəz etmək olmur. Əvəz olunarkən mənasızlıq yaranır.

Məsələn: **tökmək** feili ilə **calamaq** feili, **baş** sözü ilə **beyin** ismi bir-biri ilə sinonimik cərgə əmələ gətirir. **Tökmək** (*dil tökmək*), **baş** (*baş çıxmaq, başa düşmək, baş aparmaq* və s.) sözlərinin əmələ gətirdiyi frazeoloji söz birləşmələrində onların sinonimlərini işlətmək olmur. Məsələn: *dil tökmək – dil calamaq, başa çıxmaq – beyinə çıxmaq, başa düşmək – beyinə düşmək.*

Aydındır ki, xalq danışıq dilinə və şivələrimizə məxsus frazeoloji söz birləşmələrini bir sözlə əvəz etmək olur. Həmin söz frazeoloji söz birləşməsinin sinoniminə çevrilir. Məsələn: *əldən-ayaqdan düşmək – yorulmaq, dili gödək – günahkar, əl-ayağı oynamaq – sevinmək* və s. Lakin həmin sözlər frazeoloji söz birləşmələrinin ekvi-valentinə çevrilsələr də, onlardakı obrazlılığı, yığcamlığı, ekspressivliyi əks etdirə bilmirlər. Buradan aydın olur ki, ekspressivlik, məcazilik, obrazlılıq Azərbaycan xalq danışıq dilinin frazeologiyasının, ümumilikdə frazeoloji söz birləşmələrinin səciyyəvi xüsusiyyətlərindən biridir.

Frazeoloji söz birləşmələrində inversiya hadisəsi də özünü göstərir. Bu da bilavasitə, poetik dilin, xalq danışıq dilinin spesifik xüsusiyyəti ilə bağlıdır. Frazeoloji vahidlərin tərkibi məsələsinə fikir verərkən xalq danışıq dili frazeologiyası ilə müasir Azərbaycan ədəbi dilinin frazeologiyası arasındakı fərqi aydın görmək olar. Əgər ədəbi dilin frazeoloji vahidlər sisteminə sabit söz birləşmələri, yazıçı və şairlər, eləcə də dövlət xadimləri tərəfindən yaradılan obrazlı ifadələr, zərb-məsəllər, atalar sözləri daxildirsə, xalq danışıq dilinin frazeologiyasına, əksinə, ədəbi dildə yaranan ifadələr daxil deyildir. Aydın bir həqiqətdir ki, danışıq dilinin frazeoloji söz birləşmələri ilə yazıçı və şairlərin, həm də dövlət xadimlərinin yaratdığı ifadələr, zərb-məsəllər bir-birindən fərqlənir. Çünki xalq danışıq dilinin frazeoloji vahidlərinin ilk yaradıcısı bəlli olmur. Yəni bilinmir ki, *"ayağından çəkmək", "gözü ayağının altını görməmək", "gözü ayağının altını seçməmək", "barmaq hesabı", "kefi kök", "gözü su içməmək", dil otu yemək"* və s. frazeoloji vahidləri kim nə vaxt yaradıb. Lakin yazıçı və şairlər tərəfindən yaradılan obrazlı ifadələrin (bunlar ədəbi dilin frazeologiyasına daxildir) müəllifi bəlli olur. Məsələn, *"daş zindan göstərmək"* frazeoloji söz birləşməsinin müəllifi S.Vurğundur.

Xalq danışıq dilinin frazeoloji vahidləri ədəbi-bədii dili zənginləşdirdiyi kimi, ayrı-ayrı ədiblər tərəfindən yeni frazeoloji ifadələrin yaranmasında da əsas mənbə rolunu oynayır. Bunlar ədəbi dildə xalq danışıq dilinə mənsub olan frazeoloji vahidlərin sinonimlərinə çevrilir. Məsələn, Azərbaycan xalq danışıq dilində uzun əsrlərdən bəri işlənən "kefi kök" frazeoloji ifadəsindən istifadə edərək Ə.Haqverdiyev yenisini yaratmışdır. **Səlim bəy – Sən öləsən, bu saat kefim belə kökdür, heç bilmirəm dünyada bəy kimdi, xan kimdi. Bu saat kefim mavə-raünnəh havası çalır.** Buradakı *"kefi mavəraünnəh havası çalmaq"* frazeoloji söz birləşməsini Ə.Haqverdiyev *"kefi kök"* frazeoloji vahidinin əsasında yaratmışdır. Xalq danışıq dilində işlənən frazeoloji söz birləşmələri bədii dilə gətirilərkən yazıçı tərəfindən ixtisarlar, dəyişmələr (bəzi sözlər sinonimləri ilə əvəz edilir) aparılır.Xalq danışıq dilinə aid olan frazeoloji söz birləşmələri geniş xalq kütləsinə xidmət edib, bütün üslublarda işlənirsə, yazıçı və şairlərin yaratdığı frazeoloji vahidlər yalnız həmin müəllifin öz əsərində işlənir.

Ədəbi dilin frazeologiyası ilə xalq danışıq dilinin frazeologiyasının fərqli cəhətlərindən biri də frazeoloji səciyyə daşıyan terminlərlə bağlıdır. Müasir Azərbaycan ədəbi dilində bəzi terminlər frazeoloji səciyyə daşıdığı halda, xalq danışıq dilində belə frazeoloji söz birləşmələrinə rast gəlmək olmur. Çünki dilimizdəki bu cür sabit söz birləşmələrinin də çoxu rus dili vasitəsilə başqa dillərdən alınaraq kalka üsulu ilə yaradılmışdır. Həm də bunlar Azərbaycan dilinin özündə düzələn termin səciyyəli frazeoloji vahidlər deyildir.

Azərbaycan dili şivələrində işlənən frazeoloji vahidlərin tərkibində dilimizin qədim qatını əks etdirən şivələrə rast gəlinir. Bu leksik vahidlər dillərimizin tarixini özündə yaşadır. Q.Kazımov yazır: "Gəngəş gürməg, qutdan düşməx′, qurdu ulamax, qazığa keşməx′, qadı-qadı danışmax kimi ifadələr uzaq keçmişlərin yadigarıdır. Gəngəs sözü şumer dilindəki uqken sözünün (uq – xalq, nəsil, ailə, ken – gənəşmək, məsləhətləşmək) ikinci komponenti ilə bağlıdır; qut sözü "Avesta"dan gələn, güc, qüvvə, ürək, can, ruh mənasında olan bir sözdür; qurd – türklərin ən qədim totemidir; qazıq/qazuq - ən qədim (fironlar dövrünün) cəza alətidir, dörd qazığı yerə çalıb, insanın əllərini, ayaqlarını ona bağlayıb istədikləri cəzanı vermişlər – "Dastani – Əhməd Hərami"də işlənmişdir; qadı sözü qazı sözünün dz diffuz samitinin birinci komponentinin saxlanması ilə tələffüz edilən sözdür – qadı-qadı danışmax – şəriət qazıları kimi danışmaq mənasında lovğalanmaq mənasına qədər genişlənmişdir" (Q.Kazımov, 2011, s.6-7).

Azərbaycan Dili Şivələri Frazeologiyasının Qrammatik Təsnifi

Frazeoloji vahidlərin əksəriyyəti nominativ mənalı sözlərin birləşməsindən formalaşaraq yaranmışdır. Frazeoloji vahidlər cümlə üzvləri yerində işlənir. Eyni zamanda frazeoloji vahidlər, eləcə də şivələrimizdə işlənən frazeoloji vahidlər cümlədə alqış, qarğış məzmunları bildirir. Bu tipli frazeoloji vahidlər cümlədə xüsusi nitq hissələri – nida, ara sözləri vəzifəsində işlənir.

Müasir Azərbaycan ədəbi dilinin frazeologiyasının zənginləşdirilməsində əsas mənbələrdən biri dialekt frazeologiyasıdır. Dialekt frazeologiyası qrammatik baxımdan nitq hissələrinin iştirakına görə bir-birindən fərqlənir.

Dialekt frazeologiyasını nitq hissələrinin iştirakına görə iki yerə bölmək olar:

1.İsmi frazeoloji vahidlər.

2.Feili frazeoloji vahidlər.

İsmi Frazeoloji Vahidlər

Azərbaycan dili şivələrində işlənən frazeoloji vahidlərin bir hissəsi isim, sifət, say və əvəzlik nitq hissəsi əsasında formalaşmışdır. Bu tip frazeoloji vahidlər ismi frazeoloji vahidlər adlanır. İsmi frazeoloji vahidlər aşağıdakı yollarla yaranır:

1) birinci tərəfi sifət, ikinci tərəfi isimlə ifadə olunan frazeoloji vahidlər**:** *ağ torpax* **(**Yevlax**)** – məhsuldar, münbit yer**,** *ağ yağış* (Ağdam, Cəlilabad) – leysan, iri giləli yağış, *ağ yel* (Cəbrayıl) – isti külək, *ağır adam* (əksər şivələrdə**)** – zəhmli, ciddi (adam), *ağzı əfsanə* (İmişli) – bacarıqsız, əlindən iş gəlməyən**,** *bicə yerə* (Bakı) – nahaq yerə, *boz ay* (Cəbrayıl, Çəmbərək, Naxçıvan, Şəmkir, Şuşa) – qışın son ayı, *egili vax* (Şərur) – qaranlıq düşməmiş, qaranlıqlaşmamış**,** *qara xəbər* (Çəmbərək) – ölüm xəbəri, *qara yer* (Ağsu, Cəbrayıl, Çəmbərək, Füzuli, Naxçıvan) – qəbir, məzar, *peyğəmbəri toy* (Ağcabədi) – çalğısız toy, *yağlı gün* (Gəncə) – isti hava, qızmar gün və s.

2) hər iki tərəfi sifətlə ifadə olunan ismi frazeoloji vahidlər**:** *ağır əyaxlı* (Cəbrayıl, Zəngilan, Füzuli) – hamilə və s.

3) III növ təyini söz birləşməsi konstruksiyası əsasında formalaşan ismi frazeoloji vahidlər: *ağzının yeli* (Meğri) – hikkə, əda, iddia, *başının yiyəsi* (Qax) - ər, kişi, *dələkeyin dərzisi* (İmişli) – naşı, iş bacarmayan, *gözünün ağı-qarası* (əksər şivələrdə) – ailənin yeganə, tək bir övladı, *iki daşın arasında* (Biləsuvar, Cəbrayıl, Şərur) – tələsik, çox namünasib vaxtda, *ilin oniki ayı* (Çəmbərək)- daimi, həmişə və s.

4) birinci tərəfi isim, ikinci tərəfi sifətlə ifadə olunan ismi frazeoloji vahidlər: *başı kəsiy* (İmişli) – yetim, *üzü sulu* (Çəmbərək) – rüsvay olmamış, hörmətdən düşməmiş və s.

5) ikinci növ təyini söz birləşməsi konstruksiyası əsasında əmələ gələn ismi frazeoloji vahidlər: *buz baltası* (əksər şivələrdə) – möhkəm, sağlam, *camaat ayağı* (Şuşa) – adambaşına, adam hesabı, *keçi keçi ayağına, qoyun qoyun ayağına* (Çəmbərək) – hərənin öz hesabı, öz günahı, öz əməli, *çoban yarması* (Şahbuz) – dolu, *baş yoldaşı* (Cəbrayıl, Çəmbərək, Gəncə, Qazax, Kürdəmir, Şamaxı, Şəmkir, Zəngibasar) – həyat yoldaşı (qadın), *düşmən çəpəri* (əksər şivələrdə) – oğlan, *ər adamı* (Mingəçevir) – həyat yoldaşı, *gün dağa dirənən vaxdı* (Ağdam) – axşam çağı, *günbatan vaxtı, it kökündə* (əksər şivələrdə) – çox pis halda, pis vəziyyətdə, *zəhər tuluğu* (əksər şivələrdə) – acıdil və s.

6) hər iki tərəfi isimlə ifadə olunan ismi frazeoloji vahidlər: *bomba pabax* (Ordubad) – tüklü və yekə şiş papaq, *qarnı burnunda* (Cəbrayıl, Çəmbərək) – hamilə (qadın haqqında).

7) feili bağlama formalı ismi frazeoloji vahidlər: cüt çölə çıxanda (Qazax) – yaz əkini vaxtı, *girəvə düşəndə* (Göyçay, Şəki) – fürsət düşəndə, imkan olanda, *işığ açılanda* (Dərbənd) – işıqlaşanda, səhər açılanda və s.

Feili Frazeoloji Vahidlər

Əsas tərəfi feillə ifadə olunan və hal, hərəkət, proses bildirən frazeoloji vahidərə feili frazeoloji vahidlər deyilir. Feili frazeoloji vahidlərin komponentlərinin əksəriyyəti öz əsas mənalrını itirərək məcazi məna kəsb etməyə başlamışdır. Azərbaycan dili şivələrində feili frazeoloji vahidlər zənginliyi ilə seçilir. Bunun da əsas səbəbi dilimizdə feilin aparıcı mövqeyi və bilavasitə dilimizin milliliyini əks etdirməsi ilə bağlıdır.

Şivələrimizin feili frazeoloji vahidlərin formalaşmasında köməkçi feillər əsas yer tutur. Dialekt feili frazeologiyasının əmələ gəlməsinin özünə məxsus morfoloji xüsusiyyətlərə malikdir. Azərbaycan dili şivələrinə məxsus feili frazeoloji vahidlərin tərkibi azı iki və daha artıq sözdən ibarət olur. Buna görə də şivələrimizdə işlənən feili frazeoloji vahidləri morfoloji xüsusiyyətlərinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Birinci tərəfi isim, ikinci tərəfi feildən ibarət olan feili frazeoloji vahidlər. Məsələn: *ad açmax* (Salyan) – ad-san çıxarmaq, *ağuz olmaq* (Qubadlı) – çox yetişmək, *bayram gəzməg* (Kürdəmir) – şənlik keçirmək, *bel tutmağ* (Dərbənd) – güləşmək, *can atmax* (Cəbrayıl, Zəngilan) – həvəs göstərmək, *daban asmax* (Ağcabədi) – getmək, *dəfi döməx′* (Cəbrayıl, Şuşa) – halı dəyişmək, *dəstana qoymax* (Ağdam) – dilə-dişə salmaq, *dönərgəsi dömməx′* (Çəmbərək)-işi tərs gətirmək və s.

2. Birinci tərəfi mürəkkəb söz, ikinci tərəfi feildən ibarət feili frazeoloji vahidlər. Məsələn: *dilə-tavaziya tutmax* (Cəbrayıl) – yola gətirmək, *el-qol bağlamax* (Şəki) – bir adama xidmət göstərmək, *əfçi-əfçi danışmax* (Çəmbərək, Gədəbəy, Qazax) – boş-boş, mənasız danışmaq, *əl-qolu bağlanmax* (Cəbrayıl, Qubadlı, Tovuz, Zərdab) - həvəsdən düşmək, *əldən-ayaqdan düşmək (*Beyləqan, Füzuli, Cəbrayıl, Zəngilan) – yorulmaq, *haq-hesabı kəsmək* (Cəbrayıl) – küsmək, araları dəymək, *özünü xora-xoşa qoymax* (Qarabağ) – özünü hamıdan üstün tutmaq, *ozan-qazan olmax* (Ağcabədi) – başı şişmək, *ozana-ozana gəzmək* (Quba) – boş-boş gəzmək, *adax-çeçəx eləməx* (Gədəbəy) – ilk addım atmaq və s.

Dialekt frazeologiyası, "xüsusilə feili frazeologiya üzrə aparılmış müşahidələr göstərir ki, köməkçi feil vəzifəsinə keçən feillər də frazeoloji söz birləşmələrinin yaranmasında bilavasitə iştirak edir. Həmin feillərlə sözlər arasında struktur əlaqə itir və feili frazeoloji söz birləşməsinə daxil olaraq ədəbi dilimizi zənginləşdirir" (İ.Bayramov, 1999,s.84-85).

Azərbaycan dili şivələrində feili frazeoloji vahidlərin əmələ gəlməsində aşağıdakı köməkçi feillər geniş yayılmışdır .

Eləmək köməkçi feili əsasında düzələn feili frazeoloji vahidlər: *adax-çeçəx eləməx′* (Gədəbəy) – ilk addımı atmaq, yeriməyə başlamaq, *ağnağaz eləməx′* (Cəbrayıl) – xəbərçilik eləmək, qandırmaq, *axmurdamağ eleməg* (Dərbənd) – gileylənmək, giley-güzar eləmək, *alacəngəş eləməx′* (Çəmbərək) – işi başdansovdu görmək, *alaxırman eləməx′* (Basarkeçər) – sütül buğdadan qovurğa qovurmaq, *aram eləməg* (Cəlilabad) – sakitləşmək, *basqınçax eleməx′* (Qazax) – anlamaq, başa düşmək, *beddam eləməx′* (Cəbrayıl, Çəmbərək, Şuşa) – biabır eləmək, rüsvay eləmək, *bəcid eləməx'* (Qarakilsə) – israr etmək, təkid etmək, *boğaz eləməx′* (Cəbrayıl, Qubadlı, Füzuli) – bezdirmək, təngə gətirmək, *canxırd eləməx′* (Qarakilsə) – yaxşı qurtarmaq, xilas olmaq, *əkəliy eləməx′* (Qazax, Yevlax) – böyüklük eləmək, *göəzəlix*

eləməx' (Goranboy) – acgözlük eləmək, *haydarağ eləməx'* (Basarkeçər, Çəmbərək) – biabır etmək, *kalafir eləməx'* (Ağbaba) – oğurlamaq, *cəvəhliy eləməx* (Hamamlı) – uzunçuluq eləmək, çərənləmək və s.

Vermək köməkçi feili və formalaşan frazeoloji vahidlər: *acı-qıcı verməg* (Salyan) – acıq vermək, hirsləndirmək, *acıx vermək* (əksər şivələrdə) – hirsləndirmək, alığını verməx' (Soğanlıq) – abrını almaq, biabır etmək, *alımını ətəyinə verməx'* (Şərur) – abrını almaq, danlamaq, *bərəm verməx'* (Ağdaş) – özünü eşitməzliyə vurmaq, *bığır vərmeg* (Bakı) – qüvvət vermək, kömək olmaq, imdadına çatmaq, *əlinə çöp vermək* (Salyan, Cəlilabad) – aldatmaq, *əngə verməx'* (Cəbrayıl, Çəmbərək, Füzuli) – çərənçilik etmək, boş-boş danışmaq, *faraş verməx'* (Xocavənd) – kömək olmaq, kömək etmək və s.

Gəlmək feilinin iştirakı ilə formalaşan frazeoloji vahidlər. Məsələn: *bab gəlməx'* (Ağdam, Qarakilsə, Şuşa) – udmaq, qalib gəlmək, *badalağ gəlməx'* (Gədəbəy) – kələk gəlmək, aldatmaq, *dabalağ gəlmək* (Cəlilabad, Quba) – kələk gəlmək, hiylə işlətmək, *dalafa gəlməx'* (Çəmbərək, Qarakilsə, Qazax, Şəmkir, Zəngibasar) – ciftləşmək (heyvana, ata, qatıra aid), *dan gəlməx'* (Borçalı, Çəmbərək, Qazax, Kürdəmir, Ordubad, Şəmkir, Zəngibasar) – qəribə gəlmək, təəccüblü görünmək, *qac gəlmeg* (Bakı) – düşmən olmaq, *pes gəlməx'* (Cəbrayıl, Füzuli, Naxçıvan, Zəngilan) – bağışlamaq, *tələbə gəlməg* (Şamaxı) – ciftləşmək (ata aid), *təpbəcə gəlməx'* (Çəmbərək, Gədəbəy, Şuşa) – hədə-qorxu gəlmək, hədələmək, qorxutmaq, *tırpan gəlmək* (Zəngibasar) – talamaq, qarət etmək, *usana gəlməx'* (Şərur) – usanmaq, bezmək və s.

Açılmax feilinin iştirakı ilə formalaşan frazeoloji vahidlər: *eynağı açılmax* (İmişli) – halı yaxşılaşmaq, sağalmağa başlamaq, *eyni açılmax* (Cəbrayıl, Çəmbərək, Qarakilsə, Soğanlıq) – əhvalı yaxşılaşmaq, sevinmək, şad olmaq, *ucu açılmax* (Goranboy, Tərtər) – gəlməyə başlamaq, *üstü açılmax* (Basarkeçər, Çəmbərək, Qazax, Tovuz, Gədəbəy) – faş olmaq, ortaya çıxmaq və s.

Qalmaq feilinin iştirakı əsasında əmələ gələn frazeoloji vahidlər: *başı boş qalmax* (Qazax, Tovuz) – qocalıb evdə qalmaq, ərə gedə bilməmək, *hapan qalmax* (Tovuz) – boş qalmaq, *həmli qalmax* (Cəbrayıl, Qazax) – uşağa qalmaq, *qamaca qalmaq* (Zaqatala) – sovxaya qalmaq (qarğış mənasında işlədilir), *şivənə qalmax* (Ordubad) – sovxaya qalmaq, sahibsiz qalmaq (paltara aid), *tafdaxda qalmax* (Soğanlıq) - ərə getməmək, qocalıb qarımaq., *tafdaxda qalmax* (Çəmbərək) - ayaq altda qalmaq və s.

Olmaq köməkçi feili ilə formalaşan feiliu frazeoloji vahidlər: *ağcavaz olmax* (Cəbrayıl) – donmaq, *ağbağır olmax* (Şəmkir) – qorxmaq, ürəyi düşmək, *alacəngənəfəs olmax* (Şahbuz) – təngənəfəs olmaq, alage:x olmax (Cəbrayıl) – yorulmaq, əldən düşmək, ayıl-mayıl olmax (Qazax) – heyran olmaq, *bay olmax* (Qazax, Zəngibasar) –xoşbəxt olmaq, xoş günə çıxmaq, *bəhəm olmağ* (Bakı, Şəki) – dəbə düşmək, *bəhim olmax* (Qax) – rast gəlmək, *urcah olmax* (Çəmbərək)-rastlaşmaq, *betaraf olmax* (Qazax) – xarab olmaq, puça çıxmaq, *binist olmağ* (Yardımlı) – yurd salmaq, *binnət olmax* (Cəbrayıl, Füzuli) – yaranmaq, mövcud olmaq, *ceybir olmax* (Göygöl) - əlbir olmaq, *kökür olmax* (Basarkeçər, Borçalı, Hamamlı, Qazax) – yorulmaq, əldən düşmək, *qac ulmağ* (Quba, Xaçmaz) – düşmən olmaq, *qağ ulmağ* (Dərbənd) – məəttəl qalmaq, özünü itirmək, *qərəqulağ olməg* (Yardımlı) – vaxt keçirmək, başını qarışdırmaq, *lalığ olmax* (Naxçıvan) – bezmək, yorulmaq, *ləliy olmax* (Başkeçid, Naxçıvan, Şərur) – yorulmaq, əldən düşmək və s.

Qoymaq köməkçi feili əsasında formalaşan feili frazeoloji vahidlər: *ala qoymax* (Laçın) – aldatmaq, hiylə gəlmək, *barmağa qoymağ* (Saatlı) – seçmək, təyin etmək, *çüy qoymağ* (İmişli, Salyan) – ara vurmaq, ara qızışdırmaq, *girə qoymax* (Kürdəmir) – dilə tutmaq, tovlamaq, *həliyə qoymağ* (Salyan) – get-gələ salmaq, süründürmək, *xəkə qoymax* (Basarkeçər) – yekunlaşdırmaq, qurtarmaq, *özünü xora-xoşa qoymax* (Qarabağ) – özünü hamıdan üstün tutmaq, başqasını bəyənməmək, *ilan kimi qabıx qoymax* (Cəbrayıl, Füzuli) – günün altında işləməkdən qaralmaq, *kalapa qoymax* (Meğri) – korlamaq, puça çıxarmaq, *kərəvəngi qoymax* (Qarakilsə) – intizarda qoymaq, *kopara qoymax* (Zəngilan) - əkin sahəsi arasında nişan qoymaq, *selbesel qoymağ* (Bakı) – səliqə-səhmana salmamaq və s.

Çıxmaq feilinin iştirakı ilə əmələ gələn feili frazeoloji vahidlər. Məsələn: *cıbrıxdan çıxmax* (Cəbrayıl, Qubadlı, Laçın) – susuzluqdan yanıb puça çıxmaq, *cinbata çıxmax* (Çəmbərək, Qazax) – itmək, *danqartağı çıxmax* (Çəmbərək) – arıqlamaq, *dansığı çıxmax* (Cəbrayıl, Şuşa) – sırtılmaq, üzü bərkimək və s.

Salmaq köməkçi feili ilə düzələn feili frazeoloji vahidlər: *abırdan salmax* (əksər şivələrdə) – rüsvay etmək, bərk danlamaq, *abra salmax* (əksər şivələrdə) – səliqəyə salmaq, *balaqancala salmax* (Zəngilan) – hay-küy qoparmaq, qarışıqlıq salmaq, *beçəxor salmax* (Lənkəran) – uşaq tələf etmək, *çək-çəvirə salmax* (Cəbrayıl, Çəmbərək) – sınamaq, bərkə-boşa çəkmək, *çəlçö:rə salmax* (Basarkeçər, Cəbrayıl) – süründürmək, get-gələ salmaq, *darhadara salmax* (Bərdə, Şamaxı) – faş eləmək, yaymaq, *qaçarğa salmax* (Cəbrayıl, Şahbuz) – didərgin salmaq, *qınqılıx salmax* (Çəmbərək, Qarakilsə) – hay-küy salmaq, səs-küy eləmək, *layığma salmax* (Qax) – biabır etmək, *ləjdix′ salmax* (Gəncə, Goranboy) – düşmənçilik salmaq, *pərəndəlix′ salmax* (Ağdam) – qarışıqlıq salmaq, aranı qarışdırmaq, *səs salmax* (Cəbrayıl, Füzuli) – şayiə yaymaq, *tapı salmax* (Zəngilan) – kökə bişirmək və s.

Düşmək köməkçi feilinin iştirakı ilə formalaşan feili frazeoloji vahidlər: *aşa düşməg* (İmişli) – yaxşılaşmaq, sağalmağa başlamaq, *aşığ düşmağ* (Dərbənd) – sevmək, aşiq olmaq, *avala tüşməx′* (Qazax) – çətinliyə düşmək, çətinliklə üzləşmək, *yolun ağına düşməx′ //yolun ağzına tüşməx′ (*Kəlbəcər) – yola düşmək, getmək, *batarğana düşməx′* (Cəbrayıl, Zəngilan) – itmək, yoxa çıxmaq, *bədrax düşməx′* (Oğuz) – didərgin düşmək, yoxa çıxmaq, *dabandıya düşməg* (Qax, Zaqatala) – mövsümü işdən ixtisara düşmək, *dadamal düşməx′* (Cəbrayıl, Gəncə, Göygöl, Şərur) – dadanmaq, öyrəşmək, *ə:ğı tüşməx′* (Ağdərə) – yola düşmək, *qeyinə düşmağ* (Dərbənd, Tabasaran) – çətinliklə rastlaşmaq, dara düşmək, *qıfxırıx düşməx′* (Cəbrayıl, Zəngilan) – hay-küy qopmaq, *ovsamya tüşməğ* (Salyan) – yerinə düşmək, etdiyi yaxşılığın qarşılığını görmək, *sağ düşməx′* (Ağdaş) – inanmaq və s.

Azmax feilinin iştirakı ilə formalaşan frazeoloji vahidlər: *azığı azmax* (Zəngilan) – veyllənmək, boş-boş gəzmək, *yolunu azmax* (Çəmbərək) – səhv hərəkətlər etmək və s.

Ayırmax **f**eilinin iştirakı əsasında formalaşan frazeoloji vahidlər: bağanağını ayırmax (Qazax, Şuşa) – parçalamaq, iki hissəyə ayırmaq.

Dialekt Frazeologiyasının Semantikası

Azərbaycan dili şivələrində işlənən frazeoloji vahidlər məna zənginliyi ilə seçilir və ədəbi dilimizin frazeologiyasının zənginləşdirilməsində əsas mənbələrdən biri kimi iştirak edir. Şivələrimizdə işlənən frazeoloji vahidlərin semantikasından bəhs etmək bir neçə cəhətdən əhəmiyyətə malikdir:

1. Azərbaycan dili şivələrində işlənən frazeoloji vahidlər dilimizin frazeologiyasında xüsusi lay təşkil etdiyi müəyyənləşir.

2. Şivələrimizdə işlənən frazeoloji vahidlər dilin potensial imkanlarını üzə çıxarır və ədəbi dilimizin frazeologiyasının zənginləşməsində onların rolunu göstərir.

3. Şivələrimizdə işlənən frazeoloji vahidlərdən ərazidə yaşayanların istifadə etmələrini göstərir.

Azərbaycan dili şivələrində işlənən frazeoloji vahidləri semantika səviyyələrinə görə aşağıdakı qruplara bölmək olar:

1. Çoxmənalı frazeoloji vahidlər.
2. Omonim frazeoloji vahidlər.
3. Sinonim frazeoloji vahidlər.
4. Antonim frazeoloji vahidlər.

Çoxmənalı frazeoloji vahidlər

Dilin inkişafı nəticəsində dildə çoxmənalılıq yaranır. Çoxmənalılıq təkmənalı sözlərdən əmələ gəlir. Çoxmənalılıq leksik vahidlərlə yanaşı frazeoloji vahidlərdə də özünü göstərir. "... çoxmənalı frazeoloji vahidlərin sonrakı mənaları onun ilk mənası ilə bu və ya digər şəkildə bağlı olur (H.Bayramov, 1978, s.159). Azərbaycan dili şivələrində çoxmənalı frazeoloji vahidlər iki formada müşahidə olunur: a) eyni fonetik tərkibli çoxmənalı frazeoloji vahidlər; b) müxtəlif fonetik tərkibli çoxmənalı frazeoloji vahidlər

Eyni fonetik tərkibli çoxmənalı frazeoloji vahidlər: *ayı çıxmaq* (Zəngilan, Gədəbəy). Bu frazeoloji vahid çoxmənalı xüsusiyyətə malikdir və iki məna bildirir: 1) pisləşmək; 2) zay olmaq, puça çıxmaq. Yağış belə yağsa, pambığın *ayı çıxdı*. 2.Arvadın *ayı çıxıf,* dirilən döy (Gədəbəy) (S.Behbudov, 2016, s.36).

alığını almax (Çəmbərək**)** – danlamaq, tənbeh etmək; alığını almax_(Şəki) – işi görüb sona çatdırmaq, işi görüb qurtarmaq; *Bab gəlməx* (Ağdam, Qarakilsə, Şuşa) – 1) qalib gəlmək, udmaq; 2) cavabını vermək, öhdəsindən gəlmək. Sən ma: *bab gələmməssən* (Ağdam); Ona bir *bab gəldi* ki, nə tə:r (Qarakilsə; S.Behbudov, 2011, s.37). Birinci cümlədə işlənən *bab gəlməx* frazeoloji vahidi "qalib gəlmək, udmaq" mənasında, ikinci cümlədə işlənən *bab gəlməx* frazeoloji vahidi "cavabını vermək, öhdəsindən gəlmək" mənasını bildirir.

*Çənəsi pendir kəsməməx (*İmişli) – 1) əlindən bir iş gəlməmək; 2) sözünün kəsəri olmamaq.

Dığat tutmax frazeoloji vahidi Yardımlı şivəsində işlənir. Çoxmənalı xüsusiyyətə malikdir. Bu frazeoloji vahid 2 mənada işlənir:

1. İrad tutmaq, nöqsan axtarmaq;
2. Öyrənmək, fikir vermək (S.Behbudov, 2011, s.81).

Dil bulamax frazeoloji vahidi Füzuli və Şirvan şivələrində işlənir. Çoxmənalı frazeoloji vahiddir və 2 məna bildirir.

1. Xahiş etmək.
2. Baş qoşmaq, əl bulamaq.

Məsələn: kişiyə bir *dil bula*, məni yaxşı işə düzəltsin (Füzuli); sənə *dil bulasam*, burdan bir yollux gedərsən (Şirvan; S.Behbudov, 2011,s.83).

Əfərdası kəsilməx' çoxmənalı frazeoloji vahiddir. Bu frazeoloji vahid Cəbrayıl, Zəngilan şivələrində "gücdən, taqətdən düşmək" mənasında, Qərbi Azərbaycanın Ağbaba şivəsində "gözləməkdən yorulmaq" mənasında işlənir. Məsələn: Dədəm inəyi o qədər döydü ki, lap *əfərdası kəsildi* (Zəngilan); Səni gözləməxdən uşaxların *əfərdası kəsilif* (S.Behbudov,

2011,s.90). I cümlədə *əfərdası kəsildi* "gücdən düşdü", "taqətdən düşdü" mənasında, II cümlədə "gözləməkdən yoruldu" mənasında işlənmişdir.

Əmrazıya çatmağ Yardımlı şivəsində işlənir və çoxmənalı xüsusiyyətə malik olmaqla 2 məna bildirir:

1. Boya-başa çatmaq.
2. Yetişmək (S.Behbudov, 2011,s.99).

Heyrə eləməg Qərbi Azərbaycanın Meğri şivəsində işlənən frazeoloji vahiddir. Frazeoloji vahid çoxmənalı xüsusiyyətə malikdir və aşağıdakı mənaları ifadə edir:

1. Doydurmaq.
2. Varlandırmaq, var-dövlətə çatdırmaq (S.Behbudov, 2011,s.126).

Xapan qalmax frazeoloji vahidi Şahbuz,Şuşa, Şərur, Qərbi Azərbaycanın Hamamlı şivələrində işlənir və çoxmənalı xüsusiyyətə malikdir (S.Behbudov, 2011, s.132).

Xapan qalmax "tək, yalqız qalmaq"; "sahibsiz qalmaq" mənalarında işlənir. Məsələn: Gözüm də bi yannan tutuldu, evdə *xapan qalmışam* (Şərur); Yazığın heç kəsi yoxdu, öydə *xapan qalıf* (Şuşa).

Xapan qalmax frazeoloji vahidi birinci cümlədə "tək, yalqız" mənasında, ikinci cümlədə "sahibsiz qalmaq" mənasında işlənir.

Partdamıya düşməx′ frazeoloji vahidi çoxmənalılıq xüsusiyyətinə malikdir. *Partdamıya düşməx′* Şuşa şivəsində "qəfildən xəstələnib ölümcül vəziyyətə düşmək", Cəbrayıl, Zəngilan şivələrində "çox yeməkdən halı pisləşmək", "vəziyyəti xarablaşmaq" mənasını bildirir (S.Behbudov, 2011, s.200).

Azərbaycan dilinin Dərbənd şivəsində işlənən *pencəriyə gidmağ* frazeoloji vahidi çoxmənalı xüsusiyyətə malikdir və iki mənada işlənir:

1. Nişanlısı ilə görüşə getmək.
2. Gərdəyə girmək, gəlinin yanına getmək (S.Behbudov, 2011,s.201).

Salıx verməx Azərbaycan dilinin Borçalı, Çəmbərək, Gədəbəy, Qazax, Şəmkir, və Tovuz şivələrində çoxmənalı frazeoloji vahid kimi işlənir. Bu frazeoloji vahid iki mənanı ifadə edir.

1.Nişan vermək.
2.Xəbər vermək.

Uşaxdan bir *salıx verən* yoxdu **(**Qazax); Bir adam gəlmişdi. Məmmədin öyünü soruşdu, mən də *salıx verdim,* getdi (Şəmkir). *Salıx vermək* birinci cümlədə "xəbər vermək", ikinci cümlədə "nişan vermək" mənasında işlənmişdir (S.Behbudov, 2011, s.211).

Müxtəlif fonetik tərkibli çoxmənalı frazeoloji vahidlər. Azərbaycan dili şivələrində işlənən çoxmənalı frazeoloji vahidlərin bir qrupunu da müxtəlif fonetik tərkibli frazeoloji vahidlər təşkil edir. Bu tipdən olan frazeoloji vahidlər ya frazeoloji vahidin tərkibində müəyyən səsə, ya da sözlərin müxtəlifliyinə görə fərqlənir.

Məsələn: *əmraziyə gəlmək* **(**Bakı, Kürdəmir, Salyan) - *ərsəyə gəlməx* (Qarakilsə, Qazax, Naxçıvan, Şərur). Hər iki fonetik formada işlənən göstərilən frazeoloji vahid çoxmənalı xüsusiyyətə malik olmaqla 2 məna ifadə edir: 1) boya-başa çatmaq; 2) yetişmək. Məsələn: Hər meyvə öz vaxtında *əmraziyə gələr* (Salyan); Ağəz, bu şağ (uşağ) lap böyüyüb *əmraziyə gəlib ki*? (Bakı); Pambıx burda doxsan üş gündə *ərsiyə gəlir* (Naxçıvan) (S.Behbudov, 2011, s.99-100).

Omonim Frazeoloji Vahidlər

Ədəbi dilin frazeoloji tərkiblərinin tam aydınlaşmasında şivələrin omonim frazeoloji vahidləri xüsusi əhəmiyyət kəsb edir. Omonim frazeoloji vahidlər hələ Azərbaycan dilçiliyində tam surətdə araşdırılmadığından çox vaxt çoxmənalı frazeoloji vahidlərlə qarışdırılır. Bu birinci növbədə həmin söz birləşmələrinin fonetik tərkibcə eyni olmasıdır. Lakin bunların hər birinin özünəməxsus xüsusiyyətləri olduğundan onların arasında eynilik işarəsi qoymaq olmaz. Bunların fərqi mətn daxilində qabarıq surətdə diqqəti cəlb edir (İ.Bayramov, 1999, s.94). Omonim frazeoloji vahidləri eyni səs tərkibinə və qrammatik quruluşuna malik olan sərbəst söz birləşmələri əsasında formalaşır. Yəni bu tipdən olan sərbəst söz birləşmələrinin məcaziləşməsi nəticəsində frazeoloji xüsusiyyət qazanır. Məsələn: *quyu qazmaq, üzü sulu, əl vermək, dil tərpətmək, ağız açamaq* frazeoloji vahidləri sərbəst söz birləşmələrinin məcazlaşması, mücərrədləşməsi nəticəsində yaranmışdır.

Omonim frazeloji vahidlərlə çoxmənalı frazeloji vahidlərin arasında olan fərqi xalq danışıq dilində işlənən və ədəbi dilimizin frazeologiyasını zənginləşdirən frazeoloji materiallar əsasında müəyyən etdik.

1. Çoxmənalı frazeoloji vahidlərin arasında məna yaxınlığı mövcud olduğu halda **(***boynuna düşmək, yola aparmaq*), omonim frazeoloji vahidlərin arasında məna yaxınlığı olmur (*üz vermək, gözü kəlləsinə çıxmaq* və s.).

2. Omonim frazeoloji vahidlərin müəyyən bir variantının sinonim frazeoloji vahidi tapılır. Əgər fonetik tərkibcə uyğun olan frazeoloji söz birləşmələrinin sinonimləri arasında bir yaxınlıq (mənaları arasında) özünü göstərirsə, onda həmin frazeoloji vahidlər çoxmənalı frazeoloji vahiddir. Yox, mənaları arasında fərq özünü göstərmirsə, onda omonim frazeoloji vahiddir.

3. Omonim frazeoloji söz birləşmələri sərbəst söz birləşmələri ilə sinonimlik cərgə əmələ gətirir. Məsələn: *quyu qazmaq* (frazeoloji vahid) – *quyu qazmaq* (sərbəst söz birləşməsi); *əl tutmaq* (frazeoloji söz birləşməsi) - *əl tutmaq* (sərbəst söz birləşməsi); *gözü ayağının altını görməmək* (frazeoloji söz birləşməsi) – *gözü ayağının altını görməmək* (sərbəst söz birləşməsi). Lakin belə bir xüsusiyyəti çoxmənalı frazeoloji vahidlərdə görmək olmur.

3. Frazeoloji omonimlər çoxmənalı frazeoloji vahidlərdən mənalarına görə də fərqlənir. Frazeoloji omonimlər arasında məna yaxınlığı olmadığı halda, çoxmənalı frazeoloji vahidlər arasında müəyyən bir əlaqə, bağlılıq özünü göstərir. Məsələn**:** *can almaq* ifadəsi mətn daxilində müəyyən mənalarda işlənməsinə baxmayaraq, mənaları arasında bir bağlılıq vardır. Lakin biz bunu *gözü ayağının altını seçməmək* omonim frazeoloji vahidində görmürük.

1. I tərəfi ismin adlıq halda işlənən sözlə feilin birləşməsindən əmələ gələn omonim frazeoloji vahidlər:

Şivələrimizdə omonim frazeoloji vahidlər adlıq halda işlənən isimlə feilin birləşməsindən əmələ gələrək müxtəlif mənalar bildirir.

Ağız açmağ Şəki və Dərbənd şivələrində yas mərasimində “ağı demək”, Ağdaş şivəsində “xaniş etmək” mənasını bildirir. Məsələn:

1.Yasda xatunlar *ağız açədi* (Dərbənd).

2. Usuva bir *ağız aç* gör bir borc verərmi (Ağdaş; S.Behbudov, 2011,s.20).

Bin tutmax (Füzuli) – düzəlmək, baş tutmaq.

Bin tutmax (Füzuli) – bir yerdə məkan salmaq, oturaq həyat keçirmək.

Boğaz eləməx′ (Cəbrayıl, Qubadlı, Füzuli) – bezdirmək, təngə gətirmək, boğaza yöğmaq.

Boğaz eləməx′ (Cəmbərək) – özündən asılı etmək.

Baş-göz eləməx' (Çəmbərək, Qazax, Tovuz, Gəncə, Gədəbəy) – evləndirmək.

Baş-göz eləməx' (Şəki,Qax,Zaqatala) – döymək, azişdirmək**.**

Dalamırt eləmək (Gədəbəy, Mingəçevir) – yüngülvari yemək.

Dalamırt eləmək **(**Yardımlı) – korlamaq, zay eləmək.

Əl gəzdirməx omonim xüsusiyyətə malik frazeoloji vahiddir. Bu frazeoloji vahid 2 mənada işlənir. Ağstafa, Şəmkir şivələrində "özünə bəzək-düzək vermək", Qazax, Tovuz, Şəmkir şivələrində "oğurlamaq, oğurluq etmək" mənasını bildirir.

Əl gəzdirməx (Ağstafa, Şəmkir) – bəzənmək, özünə bəzək-düzək vermək. Gedəm özümə bir *əl gəzdirem* (Ağstafa).

Əl gəzdirməx **(**Qazax, Tovuz, Şəmkir) – Gejə bosdana yaxsıja *əl gəzdiriflər,* nə var aparıflar (Şəmkir; S.Behbudov, 2011,s.91-92).

Əli daş altında olmax omonim frazeoloji vahid xüsusiyyətinə malikdir. Bu frazeoloji vahid Borçalı şivəsində "qazana bilməmək", Çəmbərək şivəsində "çətin vəziyyətdə olmaq", "nəzarət altında olmaq" mənasında işlənir.

Qazana bilməmək mənasında: Uşağın *əli daş altındadı,* öyə bir şey gətirmir. (Borçalı; S.Behbudov, 2011,s.95).

Çətin vəziyyətdə olmaq, nəzarət altında olmaq mənasında***:*** *Əlin daş altındaydı,* görmürdün? (Çəmbərək).

Pələsəng eləməx' **(**Gədəbəy, Qazax) – dağıtmaq.

Pələsəng eləməx' **(**Qazax) – yormaq, əldən düşmək.

Pələsəx' vırmax (Qarakilsə) – zarafatlaşmaq, çərənləşmək.

Pələsəx' vurmax **(**Cəbrayıl, Zəngilan) – qaynaşmaq, çoxalmaq.

2. I tərəfi ismin təsirlik hal şəkilçili sözlə feilin birləşməsindən əmələ gələn omonim frazeoloji vahidlər:

Ağzı açılmax (Cəbrayıl) – deyinməyə başlamaq, öz-özünə söylənməyə başlamaq.

Ağzı açılmax (Qazax, Tovuz) – kütləvi şəkildə gəlməyə başlamaq.

Eyni açılmax (Çəmbərək**)** – halı yaxşılaşmaq.

Eyni açılmax (Cəbrayıl, Qarakilsə) – sevinmək, şad olmaq.

İçini çəkməx' frazeoloji vahidi omonim xüsusiyyətə malik olmaqla iki məna bildirir:

İçini çəkməx' (Şəki) – dərindən nəfəs almaq, köks ötürmək

İçini çəkməx' (Çəmbərək) - təndirdən çıxarılmış çörəyi soyutmaq. Məsələn:

Ciyim içini çəkdi, nəysə deməx istədi (Şəki).

Çörəyi təndirdən təzəcə çıxartmışam, qoy içini çəksin, sonra apararsan (Çəmbərək).

İçini çəkməx' frazeoloji vahidi birinci cümlədə "dərindən nəfəs almaq, köks ötürmək" mənasında (S.Behbudov, 2011, s.136), ikinci cümlədə "təndirdən çıxarılmış çörəyi soyutmaq" mənasında işlənmişdir.

3. I tərəfi ismin yönlük halında işlənən sözlə feilin birləşməsindən əmələ gələn omonim frazeoloji vahidlər:

Gözünə durmax Cəbrayıl, Qubadlı, Zəngilan şivələrində gözünə durmax frazeoloji vahidi 2 mənada işlənir.

1.Qarğış tökmək (nankor, yaxşılığı qiymətləndirməyən adam haqqında).

2.Çətinlik çəkmək, narahat olmaq.

Məsələn: Sa: verdiyim çörəx *göza: dursun* (Zəngilan). Piyada irayona getməx *gözümə durur* (Cəbrayıl) (S.Behbudov, 2011,s.117).

Gözünə durmax frazeoloji vahidi 2-ci mənada "çətinlik çəkmək", "narahat olmaq" mənasında Qərbi Azərbaycanın Çəmbərək şivəsində də işlənir.

Sinonim Frazeoloji Vahidlər

Azərbaycan dili şivələrində sinonim frazeoloji vahidlər aşağıdakı yollarla yaranır:

1.Frazeoloji vahidlərin tərkibindəki sözləri feilləri başqa sözlə əvəz etməklə yaranan sinonim frazeoloji vahidlər:

Ağlına duz bağlamax – ağlına duz verməx (Cəbrayıl, Füzuli) – başına ağıl qoymaq.

Ayağına çıxmax – ayağına yazmax (Zəngilan, Qubadlı) – bir işi (günahı) birinin hesabına yazmaq.

Baş açmax – baş çıxarmax (Çəmbərək, Qazax, Tovuz, Zəngibasar, Şəmkir, Kəlbəcər, Masallı) – anlamaq, başa düşmək.

Başı qaçmağ (Cəlilabad) – *başı caymağ* (Cəlilabad) – ağlını itirmək.

Cımbat olmax (Ağbaba, Ağdaş) – *cunbata//cinbata çıxmax* (Çəmbərək, Qazax) – itmək, yoxa çıxmaq (insana aid).

Çimir almax – çimir eləməx, çimir vurmax (Qazax,Gədəbəy, Göyçay, Şəmkir, Tovuz) – azacıq yatmaq, mürgüləmək.

Qahmar çıxmaq (Cəbrayıl, Qazax, Salyan, Şəmkir, Tərtər, Tovuz, Zəngilan) – *qahmar durmax* (Cəbrayıl) – tərəfini saxlamaq.

2.Müxtəlif leksik tərkibə malik frazeoloji vahidlər əsasında əmələ gələn sinonim frazeoloji vahidlər:

Ağzına pambıq tıxamax (Cəbrayıl, Qubadlı, Zəngilan) – *ağzına qovut almax* (Çəmbərək) -susmaq, danışmamaq.

Anasını ağlar qoymax (Şəmkir, Çəmbərək) – *anasını ağlatmax* (Çəmbərək, Zəngilan) - divan tutmaq, cəzalandırmaq.

Abrını almax (Beyləqan, Çəmbərək, Tovuz) – *ağ yuyub qara sərməg* (Salyan) – biabır etmək, danlamaq.

Başına at təpməx′ (Cəbrayıl, Soğanlıq, Şəki) – *başı çaşmax* (Cəlilabad) - səfehləmək, axmaq-axmaq danışmaq. Məsələn:Elə bil gədənin *başına at təpif*, danışığına fikir vermiy (Şəki) (S.Behbudov, 2011,s.43); Kişinin *başı çaşıb* diyəsən (S.Behbudov, 2011,s.43).

Başında qoz sındırmax – başında turp əkməx′ (Bərdə, Qazax, Gəncə, Şəmkir, Zəngilan, Zəngibasar) – incitmək, əziyyət vermək;

İt qatığı çaldırmax (Çəmbərək) – incitmək, əziyyət vermək;

Betaraf olmax (Qazax) – xarab olmaq, puça çıxmaq-*beyosay olmax* (Qazax) – xarab olmaq, puça çıxmaq;

Boğazına torpaq yığmax (Qazax) – bitkinin (əsasən kartof kolunun) dibinə torpaq yığmaq, torpaq doldurmaq-*boğazını doldurmax* (Çəmbərək, Göygöl) – bitkinin (əsasən kartof kolunun) dibinə torpaq yığmaq, torpaq doldurmaq;

Daban döyməx′ (Cəbrayıl, Füzuli, Qubadlı) – çox gedib-gəlmək-*qapının cəftəsini çıxarmax* (Çəmbərək) – çox gedib-gəlmək;

Dabanı yerə dəyməməx′ (Borçalı, Cəbrayıl) – səhərdən axşama kimi işləmək, boş dayanmamaq-*dabanı yer üzü görməməx′* (Borçalı, Cəbrayıl) – səhərdən axşama kimi işləmək, boş dayanmamaq;

Mas vırmağ (Kürdəmir, Sabirabad, Ucar, Şirvan) – lağa qoymaq, ələ salmaq, dolamaq-*məlləngə eləməg* (Şamaxı) – lağa qoymaq, ələ salmaq, dolamaq.

3. Frazeoloji vahidlərin tərkibində işlənən isimlərin dəyişdirilməsi yolu ilə yaranan sinonim frazeoloji vahidlər:

Basalağ olmağ – iç olmağ (Bakı) – sözləşəndə, mübahisə edəndə bir-birinə cavab verə bilməyib susmaq;

Baş ağartmax – saç ağartmax (Bakı, Bərdə, Çəmbərək, Qazax, Tovuz, Gəncə) – bir işdə çalışıb təcrübə qazanmaq;

Baş-beynini aparmax – baş-qulağını aparmax (Bərdə, Çəmbərək, Gəncə, Qazax, Salyan, Şəmkir) – dəng eləmək, zəhləsini tökmək;

Başı başlara dəyməx (Cəbrayıl) – həyat təcrübəsinə malik olmaq, görüb götürmək-*başı daşdan-daşa dəymək* (Basarkeçər, Çəmbərək, Qazax) – həyat təcrübəsinə malik olmaq, görüb götürmək;

Dağallağ eləmək (Füzuli, Salyan, Şəmkir) – oyunun qaydasını pozmaq, oyunda ara qarışdırmaq- *cıxallıx eləməx* (Çəmbərək) – oyunun qaydasını pozmaq, oyunda ara qarışdırmaq;

Dəfərgəsi dönməx′ (Cəbrayıl, Zəngilan) – bəxti gətirməmək-*dönərgəsi dönməx′* (Çəmbərək) – bəxti gətirməmək;

Eynağı açılmax (İmişli) – halı yaxşılaşmağa başlamaq-*eyni açılmax* (Çəmbərək) – halı yaxşılaşmağa başlamaq.

Antonim Frazeoloji Vahidlər

Azərbaycan dili şivələrində işlənən frazeoloji vahidlərin mənaca növlərindən birini də antonim frazeoloji vahidlər təşkil edir. "Antonimlik təkcə özünü leksikada yox, həm də frazeologiyada göstərir. Frazeoloji antonimlər leksik antonimlərdən sonra yaranmışdır" (İ.Bayramov, 1999,s.110).

Azərbaycan dili şivələrində antonim frazeoloji vahidlər aşağıdakı yollarla yaranır:

1. Eyni leksik tərkibli antonim frazeoloji vahidlər.
2. Müxtəlif leksik tərkibli antonim frazeoloji vahidlər.

1. Eyni leksik tərkibli antonim frazeoloji vahidlər:

Başda gəzdirmək (Çəmbərək) – hörmət etmək, xatirini əziz tutmaq. Məsələn: Dediyimi etsəydin səni başımda gəzdirərdim;

Başda gəzdirmag (Quba) – süründürmək, get-gələ salmaq. Məsələn: Bir işimiz düşdü ona, o da bizi başda gəzdirədi (S.Behbudov, 2011,s.42).

2. Müxtəlif leksik tərkibli antonim frazeoloji vahidlər:

Komponentləri müxtəlif leksik tərkibdən ibarət sözlərin birləşməsi əsasında antonom frazeoloji vahidlər əmələ gəlir. Məsələn:

Dabanı yerə dəyməmək (Borçalı, Cəbrayıl) – səhərdən axşama işləmək, dincəlməmək-*damağ eləməx* (İsmayıllı) – dincəlmək, yorğunluğunu almaq;

Həfsələsi çatmamax (Cəbrayıl, Naxçıvan, Zəngilan) – dözə bilməmək-*həfsələsini basmax* (Cəbrayıl, Qubadlı, Naxçıvan) – dözmək, özünü ələ almaq;

Ləliy olmax (Başkeçid, Çəmbərək, Naxçıvan, Şərur) – *təlix-təlix olmax* (Qazax, Zəngibasar, Zəngilan) – yorulmaq, əldən düşmək, çox iş görmək;

Palçıx ətdəməx' (Cəbrayıl, Füzuli) – ləng iş görmək, tələsməmək;

Ağzına pambıx tıxamax (Cəbrayıl, Qubadlı, Zəngilan) – susmaq, danışmamaq;

Ağzını açmax (Laçın) – danışmağa, deyinməyə başlamaq;

Cəvəhliy eləməx' (Hamamlı) – uzunçuluq etmək, çərənləmək - *çeynətükürrüy eləmağ* (Oğuz) – çərənçinlik eləmək, çox danışmaq-*Cınqırını çıxarmamax* (Cəbrayıl, Çəmbərək, Naxçıvan) – susmaq, səsini çıxarmamaq;

Tımxırığını sallamax (Tovuz) – qaş-qabağını tökmək, üz-gözünü turşutmaq-*tınqılığı durmax* (Hamamlı) – kefi durmaq.

L E K S İ K O Q R A F İ Y A

Azərbaycan dili qədim lüğətçilik tarixinə malikdir. Dilimizin lüğətçilik tarixi XI əsr ədəbi abidəsi kimi Mahmud Kaşğarinin "Divani-lüğət-it türk" əsəri ilə başlayır. Bu lüğət digər türk dilləri ilə yanaşı Azərbaycan dilinin qədim tarixini özündə əks etdirir. "İbn-Mühənna lüğəti" (XIII əsr), 4 cildlik 8 hissədən ibarət V.V.Radlovun "Опыт словаря тюркских наречий" (1899-1901), L.Z.Budaqovun "Сравнительный словарь турецко-татарских наречий" (1869-1871), Hüsyn Kazım Qədrinin "Türk dillərinin iştiqaqi və müqayisəli lüğəti", o cümlədən S.M.Qənizadənin "Rusca-türkcə lüğət", Ü.Hacıbəylinin "Rusca-türkcə lüğət və türkcə-rusca lüğət", Q.Qarabəyovun "Türkcədən ruscaya lüğət" və s. bu kimi lüğətlər Azərbaycan lüğətçilinin tarixində xüsusi yer tutur.

Azərbaycan diinin dialektoloji lüğətinin tarixi XX əsrin 30 - cu illərindən başlayır. Dialektoloji lüğət linqvistik lüğətlərin bir növü olaraq leksikoqrafiyada mühüm və əhəmiyyətli yer tutur və spesiflikliyi ilə fərqlənir. Dialektoloji lüğət təkcə dialekt və şivələrin lüğət tərkibini təkcə özündə əks etdirmir. Eyni zamanda dilin inkişaf tarixi, dilin lüğət tərkibində baş verən dəyişikliklər haqqında tam təsəvvür yaradır. Dialektoloji lüğətdə ədəbi dildə işlənməyən və ya müxtəlif fonetik, leksik, qrammatik əlamətlərə malik leksik, frazeoloji vahidlər əksini tapır.

Indiyə kimi çap olunmuş Azərbaycan dilinin dialektoloji lüğətlərini məzmun və xarakterinə görə beş yerə bölmək olar:

1. Dilin bütün şivələrini əhatə edən dialektoloji lüğət.
2. Dilin şivələrinin müəyyən bir qrupunu əhatə edən dialektoloji lüğət.
3. Konkret bir şivəni əhatə edən dialektoloji lüğət.
4. Şivələrin omonimlər lüğəti.
5. Şivələrin frazeoloji lüğəti.

Dilin Bütün Şivələrini Əhatə Edən Dialektoloji Lüğət

Azərbaycan dilinin bütü şivələrini əhatə edən dialektoloji lüğətlərin tarixi XX əsrin 30-cu illərinə təsadüf edir. Belə bir lüğətin tərtibinə 1924-cü ildə Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin etnoqrafiya bölməsi başlamışdır. Toplanmış dialektoloji materiallar əsasında N.Aşmarin, Ə.Haqverdiyev, A.Zifeld, V.Xuluflu, B.Çobanzadə və İ.Həsənovun iştirakı ilə 2 cildlik "Azərbaycan türk xalq şivələri lüğəti" çap olunmuşdur. "Lüğət"in **A** hərfini əhatə edən I cildi 1930-cu ildə, **B** hərfini əhatə edən II cildi 1931-ci ildə Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun nəşriyyatında nəşr edilmişdir.

"Azərbaycan türk xalq şivələri lüğəti"ndə Azərbaycan dilinin göstərilən 22 şivəsinin materialı əksini tapmışdır: Ağdam (A), Ağdaş (Adş), Bakı (B), Borçalı (Bç), Cəbrayıl (C),

Dərbənd (D), İran Azərbaycanı (İraz), İrəvan (İ), Qarabağ (Q), Quba (Qb), Qazax (Qz), Lənkəran (L), Naxçıvan (N), Ordubad (O), Kürdüstan (K; Zəngəzur –İ.B.), Gəncə (G), Göyçay (Gç), Salyan (S), Zaqatala (Z), Şəki (Ş), Şəmkir (Şmk), Şamaxı (Şmx).

"Lüğət"də Azərbaycan dili şivəsində işlənən sözün həm rusca, həm də almanca tərcüməsi verilmişdir. Məsələn:

Alabəzək//alabezeg (B), alabezəg (S) - rəngbərəngala-bula. - Пестрый, окрашенный неравномерно в разные цвета.- Bunt, buntscheckig gefärbt.

O nədi, ağız, Sonanın qızı a l a b ə z ə k bir tuman geyif toyəəlmişdi (toya gəlmişdi; K) (ATXŞL,I,1930, s. 128).

Alaçarpo//alaçalpo (Şmk, S), alaçalpoy (Kz).- Yağış ilə bir yerdə yağan kar. –Снежная буря (при переходе от зимы к весне).- Der Schneesturm in der Übergangszeit vom Winter zum Frühling.

-Dünən mən öyəqayıdanda bərk a l a ç a l p o y d u (Q) (ATXŞL,I,1930, s. 130).

Barıngülü - sarı rəngli, gözəl qoxulu çiçək.- Назв. желтого ароматичного цветка.- Die Benennug einer gelben aromatischen Blumen. Bacımnan birgə barıngülü əkmişik (L) (ATXŞL,II,1931, s. 54).

Azərbaycan dili şivələrində sözlərin tərkibində **"q"** və ya **"x"** samitləri ilə deyilən sözlər "Lüğət"də **"k"** samiti ilə verilir ki, bu da Türkiyə türkcəsinin təsiri ilə bağlı idi. Bu fonetik hadisə həm də XX əsrin 30-cu illərin dil qaydalarını özündə əks etdirir. Məsələn: aksul, aktarış, aktarmak, akşam akşamlık (ATXŞL, I, 1930, s. 124-126), barınmak, bandaklamak, barmaklık (ATXŞL, II, 1931, s. 56-57). "Lüğət"də bəzi şivə sözlərinin izahı ilə bağlı atalar sözlərindən, bayatılardan, tapmacalardan, şairlərdən nümunələr verilmişdir. Məsələn:

Aktarmak//axdarmağ (B), axtarmax (Q, Qz) – 1) aramaq, tapmağa çalışmaq, təhərri.- Искать, разыскивать.- Suchen, nachforschen.

- A x t a r a n tapar (a.s.)

- Bir qara tük yox başında, qaşında.
Bir qızı var ərdə əlli yaşında,
A x t a r ı r birini doqquz yaşında
Eşitmişəm bizim kişi evlənir!
(Əli Razi).

-Gör milətiŋiŋ dərdini, a x t a r m a davasın,
Əl çəkmə yetimin başına, kəsmə sədasın...
(Sabir).

- Apardı tatar məni,
Qul elər satar məni.
Yarım vəfalı olsa,
A x t a r ı b tapar məni
(bay).
(ATXŞL,I,1930, s. 124).

Bununla yanaşı "Lüğət"də verilən bəzi şivə sözlərinin hansı şivədə işləndiyi və ya almancaya tərcüməsi göstərilməmişdir. Məsələn:

Alacəhrə - sərçə boyda rəngbərəng köçəri quş.-Синица.- Die Meise (ATXŞL,I,1930, s. 130).

Barışdırıçılık – barışdırmağa çalışma, sazişlik.- Пиримиренчество.- Пиримируенец

(ATXŞL,I,1930, s. 54).

"Azərbaycan türk xalq şivələri lüğəti" dilektoloji lüğət olaraq ilk təcrübə kimi xüsusi əhəmiyyətə kəsb edir.

1 940-cı ildən sonra Azərbaycan dili şivələrinin öyrənilməsi bir sistem halını almış, elmi şəkildə araşdırmalar aparılmağa başlanmışdır. "Azərbaycan dilinin Muğan qrupu şivələri" (1955), M.Ş.Şirəliyevin "Bakı dialekti" (1957), R.Ə.Rüstəmovun "Quba dialekti" (`961), "Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri" (1962) kitabları, A.H.Vəliyevin "Ağdaş şivələrinin leksikasına dair" (1960) məqaləsi "Azərbaycan dialektologiyasına aid materiallar (Göyçay şivələrinin leksikası; 1960)" kitabı çap olunmuşdur. İ.Ə.Hacıyev "İsmayıllı rayonun şivələri" (1948), B.M.İbrahimov "Mərəzə rayon şivələri" (1949), P.D.Ağayev "Azərbaycan dilinin Qarabağ dialekti (Ağdam rayon şivələri; 1951), A.Ə.Hüseynov "Vartaşen (Oğuz – İ.B.) rayonunun şivələri" (1952), H.H.Cəfərov "Tovuz rayon şivələri" (1954), V.T.Cangidze "Azərbaycan dilinin Qazax dialektinin Dmanisi şivələrinin xüsusiyyətləri" (1955), K.T.Ramazanov "Azərbaycan dilinin Salyan dialekti" (1955), İ.M.Məmmədov "Azərbaycan dilinin Qaryagin (Füzuli- İ.B.) şivələri" (1958), T.B.Həmzəyev "Ordubad dialekti" (1959), M.İ.İslamov "Nuxa (Şəki-İ.B.) dialekti " (1961), Ə.Cəfərli "Qazax dialekti" (1961) mövzularında dissertasiya müdafiə etmişlər (ADDL, 1964, s. 6).

Azərbaycan dili şivəlrinin öyrənilməsi məqsədilə XX əsrin 40-50 - ci illərində dialektoloji ekspedisiyalar təşkil edilmişdir: "... 1940-cı ildən 1956-cı ilədək olan 16 il ərzində respublikamızın rayonlarına 15-dən artıq dialektoloji ekspedisiya təşkil edilmişdir. Bu ekspedisiyalar zamanı təxminən 500-ə qədər kəndin şivəsi öyrənilmişdir" (M.Qasımov, 1957, s. 207).

Aparılan tədqiqatların nəticəsi olaraq 1958-ci ildən Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Azərbaycan dialektologiyası şöbəsi Azərbaycan şivələrini əhatə edən dialektoloji lüğətin hazırlanmasına başlamışlar. Nəhayət, 1964-cü ildə bircildlik "Azərbaycan dilinin dialektoloji lüğəti" çap olunmuşdur. "Lüğət"in hazırlanmasında M.Ş.Şirəliyev, R.Ə.Rüstəmov, A.H.Vəliyev, Q.M,Həsənov, B.M.Tağıyev iştirak etmişlər. "Lüğət"də Azərbaycan dili şivəsində işlənən sözün rusca tərcüməsi də verilmişdir. Məsələn:

ABATDIDI (Qubadlı), is.- içinə yağ, şor, pendir və başqa ağartı qoyulan isti çörək- горячий хлеб с сыром, маслом, творогом или прочими молочными продуктами. – *Əhməd bu gün isti çörəkdən a b t d ı d ı qayırıb məni qonax çağırmışdı* (ADDL, 1964, s. 15).

BADIŞ (Salyan), is.- nazik corab-тонкие чулки.- *B a d ı ş nazik coraba deyillər* (ADDL, 1964, s. 51).

BOYGÖRMƏ (Naxçıvan), is.- gəlinin görüşünə getmə - смотрины (невесты). - *Anam b o y g ö r m ə y ə gedib* (ADDL, 1964, s. 85).

QANIXMAX (Qazax), f.- qana susamaq, qana hərisləşmək- кровожадничать.- *Bu de:llər gənə yaman q a n ı x ı f* (ADDL, 1964, s.110).

QOLTURMAC (Əli Bayramlı (Şirvan-İ.B.), z.- çal-çqrpaz- скрещенно.- Q o l t u r m a c bağlanan iplər açılmadı[i] (ADDL, 1964, s. 146).

Bu lüğətdə Azərbaycan Respublikasının bütün şivələri, eləcə də Dərbənd, Qərbaycanın Amasiya, Meğri, İrəvan, Kirovakan, Qafan, Vedi, Gürcüstanın Bolnisi, Marneuli, Dmanisi, Axalsxi şivələrinin materialları əksini tapmışdır. Cənubi Azərbaycan şivələrinin dialektoloji materialları "Cənubi Azərbaycan" dialekt bölgüsü adı altında "Lüğət"ə daxil edilmişdir.

1964- cü ildə çap olunmuş “Azərbaycan dilinin dialektoloji lüğəti”ndə, 2007-ci ildə çap olunmuş “Azərbaycan dilinin dialektoloji lüğəti”ndə Zəngəzur şivəsi adı altında ayrıca material verilmişdir. Məsələn:

QAVSARA (Zəngəzur), is.- pətəkdən çıxmış bir neçə arınə yığmaq üçün ayı gilası ağacı qabığından toxunmuş səbət- улей, лозовый плетеный улей. - *Dünən meşədə bir neçə q a v s r a qayırdım (*ADDL, 1964, s. 104-105).

QIMZAMAQ (Zəngəzur), f.- qaldırmaq – поднимать.- *Mən dolı çuvalı q ı m z ı y a billəm* (ADDL, 1964, s. 136).

TOZANQI (Zəngəzur), s.- seyrək, narın (qar)- редкий, мелкий (снег).- Bu axşam bir t o z a n q ı qar yağıb (ADDL, 1964, s. 384).

KONTAYLIĞ (Zəngəzur) – sözə baxmama.-Onun elə kontaylığ peşəsidi (ADDL, 2007, s. 258).

TOZANQI (Qarakilsə, Zəngəzur) –toz şəklində yağan; narın (qar). – Bu axşam bir tozanqı qar yağıb, gəl görəsən (Zəngəzur),

◊Tozanq düşmək (Zəngəzur) – toz şəklində qar yağmaq (ADDL, 2007, s. 505).

Fikrimizcə, Azərbaycan dili şivələrinin təsnifinə ayrıca Zəngəzur şivəsi daxil edilə bilər. Belə ki, XIX əsrdə, XX əsrin əvvəllərində Azərbaycanın inzibati ərazi vahidlərindən biri də Zəngəzur qəzası olmuşdur. Eyni zamanda “Zəngəzur toponimləri” elmi dövriyyədə yetərincə işlədilir.

Zəngəzur şivəsinə Laçın, Qubadlı, Kəlbəcər, Zəngilan, Qərbi Azərbaycanın Meğri, Qafan, Sisyan, Gorus şivələri daxil edilə bilər.

XX əsrin 60-cı illərindən sonra Azərbaycan dili şivələrinin öyrənilməsi genişlənmiş, dialektologiya sahəsində elmi əhəmiyyət kəsb edən nailiyyətlər əldə edilmişdir. Keçən dövr ərzində dialektologiya ilə bağlı dissertasiyalar müdafiə edilmiş, monoqrafiyalar, kitabçalar, məqalələr yazılmış, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dialektologiyası şöbəsi 1960-1990-cı illərdə ekspedisiyalar təşkil etmişdir. Eyni zamanda “1966-1968-ci illərdə lüğət üçün xüsusi ekspedisiyalar təşkil olunmuşdur. Belə ki, 1966-cı ildə şöbənin (dialektologiya şöbəsinin- İ.B.) baş elmi işçiləri B.M.Tağıyev və Q.M.Həsənov Ermənistanın Basarkeçər, Hamamlı, Çəmbərək rayonlarından, 1968-ci ildə K.T.Ramazanov Azərbaycanın Ucar, Z.Ə.Xasıyev Kürdəmir, R.Ə.Kərimov isə Oğuz rayonlarından material toplamışlar” (ADL, I, 1999, s. V). Bunların nəticəsi olaraq yeni dialektoloji lüğət hazırlanmış və 1999-2003-cü illərdə Türk Dil Kurumun rəhbərliyi ilə Ankarada 2 cilddən ibarət “Azərbaycan dialektoloji lüğəti” (I cild, 1999; II cild 2003) çap olunmuşdur. 2 cildlik “Azərbaycan dialektoloji lüğəti”ni M.Ş.Şirəliyev, M.İ.İslamov, K.T.Ramazanov, B.M.Tağıyev, Ə.Q.Ağayev, S.M.Behbudov, H.X.Məmmədov, Q.M.Həsənov, Ə.İ.Əiyev Z.Ə.Xasiyev, T.M.Əhmədov tərtib etmişlər. Bu lüğətə 1964-cü ildə çap olunmuş lüğətin söz-ləri daxil edilmişdir. “Lüğət” çapa hazırlanarkən sözlərin mənasına yenidən nəzər salınmış, bəzi sözlərin mənası dəqiqləşdirilmiş, şivələrdə işlənən ifadələr, frazeoloji vahidlər lüğətə daxil edilmişdir. Ümumilikdə “Lüğət”də 20 minə yaxın söz və ifadə əksini tapır. “Lüğət”ə şivələrimizdə işlənən, ədəbi dildə təsdüf olunmayan sözlər, fonetik tərkibcə ədəbi dildəki ilə eyni, mənaca tam fərqli, ya da əlavə mənası olan sözlər daxil edilmişdir. Həm də şivələrdə işlənən çoxmənalı və omonim sözlər ayrıca olaraq göstərilir.

“Lüğət”də sözlərin qarşısında işləndiyi şivə və mənası göstərilir və cümlədə işlənmə forması verilir. Məsələn:

AĞCAVAZA (Qazax) – solğun, rəngi açmış.- *Telli uşaxlıxdan elə ağcavaza şeydi*

(ADL,I, 1999, s.4).

AĞLAMAX (Çəmbərək)- nəmlənmək, yaş olmaq.- *Badval ağlıyıf, içəri girmo:lmur* (ADL,I, 1999, s.5).

ALAÇULA (Bakı) - başdansovma.- *Yeri alaçula işdiyib* (ADL,I, 1999, s.5).

CƏFƏR (Naxçıvan) - su sözmək üçün daş.- *O su süzülən daş cəfər adlanır* (ADL,I, 1999, s.95).

DƏRGƏ (Kürdəmir) – çay üzərində ağacdan düzəlmiş keçid (körpü).- *Dərgadan qoyun-quzu keçmir, ama adam keçir* (ADL,I, 1999, s.135).

DÖRYASDIĞI (İsmayıllı) – böyük balış. *–Bu döryasdöğı həddinnən artıq bö:ydi* (ADL,I, 1999, s.135).

HOYSAR (Karvansaray) – bıçaq.- *Hoysarnan kəsif əlini gədə* (ADL,I, 1999, s.135).

XOTMALAMAX (Goranboy, Qazax, Şuşa).- çalınmış otu topa-topa yığmaq, qotmanlamaq.- *Otu kərəntiynən çalerdıx, onnan otu xotmale:rdıx* (Qazax; ADL,I, 1999, s.252)

2007-ci ildə Azərbaycan dili şivələrini tam özündə əks etdirən “Azərbaycan dilinin dialektoloji lüğəti” çap olunmuşdur. “Lüğət”də 1924-2004-cü illərdə Azərbaycan Respublikasının Ağcabədi, Ağdam, Ağdaş, Ağdərə, Ağstafa, Ağsu, Astara, Bakı, Balakən, Beyləqan, Bərdə, Biləsuvar, Cəbrayıl, Cəlilabad, Culfa, Daşkəsən, Füzuli, Gədəbəy, Gəncə, Goranboy, Göyçay, Göygöl, Xaçmaz, Xocalı, Xocavənd, Xudat, İmişli, İsamayıllı, Kəlbəcər, Kürdəmir, Qax, Qazax, Qazıməmməd, Qəbələ, Quba, Qubadlı, Qusar, Laçın, Lerik, Lənkəran, Masallı, Mərəzə, Mingəçevir, Naxçıvan, Neftçala, Oğuz, Ordubad, Saatlı, Sabirabad, Salyan, Şabran, Şahbuz, Şamaxı, Şəki, Şəmkir Şirvan, Şuşa, Tərtər, Tovuz, Ucar, Yardımlı, Yevlax,Zaqatala, Zəngilan, Zərdab, Qərbi Azərbaycanın Ağbaba, Barana, Basarkeçər, Böyük Qarakilsə, Çəmbərək, Əzizbəyov, Hamamlı, Karvansaray, Qafan, Qarakisə, Meğri, Verdi, İrəvan, Zəngibasar, Gürcüstanın Axalsxi, Başkeçid, Bolnisi, Borçalı, Qaradabani, Loqodexi, Telavi, Dağıstanın Dərbənd, Tabasaran, Cənubi Azərbaycanın Astara, Ərdəbil, Marağa, Təbriz, Zəncan şivələrindən toplanmış materiallar əsasında tərtib edilmişdir (ADDL, 2007, s.6). Bu lüğətə 28 mindən çox Azərbaycan dili şivələrində işlənən, ədəbi dildə təsadüf olunmayan sözlər, fonetik tərkibcə ədəbi dildəki ilə eyni, mənaca ya tam fərqli, ya da əlavə əlavə mənası olan leksik və frazeoloji vahidlər daxil edilmişdir. “Lüğət”də verilən şivə sözünün qarşısında sözün işləndiyi şivə göstərilir və sözün mənası izah edilir. Həmin sözün cümlə daxilində işlənmə forması da göstərilir. Məsələn:

ADAXÇULĞA (Gədəbəy) – qohum.- *Bılar hissə-hissə yaşıyı:llarmış, soŋra adağçulğa oluf birrəşeflər* (ADDL, 2007, s.12).

AĞANƏNƏ (Ordubad) – nənə; atanın anası.- *Atanın anasına bizlər ağanənə deyərıx* (ADDL, 2007, s.13).

BOZARANTI (Gəncə) –səhər alaqaranlığı.- *Hələ bozarantıdı, göz – gözü görmür* (ADDL, 2007, s.63).

DƏRGÜL (Naxçıvan, Təbriz) – itburnu.- *Dərgüli yığıp gətirip dəmli:p içillə* (Təbriz; ADDL, 2007, s.127).

DIVIR (Ağdam, Ağdaş, Basarkeçər, Bolnisi, Gədəbəy, Gəncə, Qazax, Mingəçevir, Şəmkir, Tovuz) – dıbır.- *Keçi balası bir idən keçənnən soŋra olor dıvır (*Qazax); *-Dıvır sürünün qava:nde:dir <qabağında gedir> (*Basarkeçər); - *Bı dıvıra mərgi dəysin* (Ağdam; ADDL, 2007, s.132).

Dilin Şivələrinin Müəyyən Bir Qrupunu Əhatə Edən Dialektoloji Lüğət

Müəyyən bir qrupun şivələrinin lüğət tərlibini özündə əks etdirən dialektoloji lüğətin çapı da şivələrin leksikoqrafiyasında xüsusi yer tutur. Belə bir lüğət ilk də fə 1979 – cu ildə Tokiyoda K.Haneda və Ə.Gəncəli tərəfindən Təbriz dialektinin lüğəti tərtib olunmuşdur (M.Məmmədli, 2019, s.298).

1998-ci ildə Mədəd Çobanovun "Borçalı şivələrinin leksikası" əsərində Azərbaycan dilinin qərb qrupu şivələrinə daxil olan Borçalı şivəsinin Bolnisi rayon şivələrinin leksem və frazemlər lüğəti, omonimlərin, sinonimlərin, antonimlərin lüğəti verilmişdir. Əsərdə Bolnisi rayonunun 25 kənd şivəsinin materialı əksini tapmışdır. Lüğətdə əksini tapan dialektizmin aid olduğu şivə, mənası, cümlə içərisndə işlənməsi verilmişdir. Məsələn:

BASALAX (Darbaz, Dəmirli) - nəsil; - Siziŋ basalax kənddə çoxdur, də:n (Darb.; M.Çobanov, 1998, s. 4)

QIYĞACIMAQ (Darbaz, Dəmirli, Qaratikan, Babakişilər) – büdrəmək, işə düşmək ;- Ağı qıyğacıyana təpix′ vurmazlar (Atalar sözü; M.Çobanov, 1998, s. 7)

2009-cu ildə Əziz Əlkəkbərlinin "Qərbi Azərbaycnın dialektoloji lüğəti" I kitab adı ilə İrəvan Çuxuru adı altında Vedibasar, Gərnibasar, Zəngibasar və İrəvan şəhəri şivələrinin lüğətinə həsr edilmişdir. "Lüğət"də İrəvan Çuxuru şivələrini əhatə edən 2523 leksik və frazeloji vahidin izahı verilmişdir. Sözlərin hansı şivəyə aid olduğu əsasən göstərilmir, yalnız sözün mənası izah edilir və həmin söz cümlə daxilində işlədilir. Məsələn:

ATMA- evin, damın üstünü örtmək üçün divarların üstündən atılan ağac.- *Hörgü başa çatdıxdan sora usdalar evin atmalarını atdılar* (Ə.Ələkbərli, 2009, s.13).

BALAXANA- evin üstündə əlavə tikilən balkonlu otaq.- *Deyilənə görə, balaxana yayda sərin olur* (Ə.Ələkbərli, 2009, s.15).

CƏBƏLLİK- cəngəllik, kol-kosluq.- *O, xeyli müddət cəbəllihdə dolaşıb qaldı* (Ə.Ələkbərli, 2009, s.29).

2011-ci ildə İbrahim Bayramovun "Qərbi Azərbaycan şivələrinin leksikası" əsəri çap olunmuşdur. Bu əsərdə Qərbi Azərbaycan şivələrinin lüğətinə dair nümunələr də verilmişdir. Əsərdə verilən sözün mənası izah edilir və işləndiyi şivə və ya şivələr göstərilir. Eyni zamanda Qərbi Azərbaycan şivələrində işlənən sözlərin arealı da verilmişdir. Məsələn:

Ağızdan (Çəmbərək) - əzbər (İ.Bayramov, 2011, s. 36).

Bölmə (Ağbaba, Basarkeçər, Çəmbərək, Qarakilsə) – nəlbəki

Bu söz eyni mənada Gəncə, Qazax, Şəki dialektlərində, Cəbrayıl, Qax, Şəmkir, Zaqatala, Zəngilan, Gürcüstanın Bolnisi, Borçalı şivələrində də işlənir (İ.Bayramov, 2011, s. 73).

Cəvərə (Dərələyəz, Meğri) - xırda səbət, toxunma səbət

Cəvərə Culfa, Ordubad, Zəngilan dialekt və şivələrində "toxunma səbət" mənasında işlənir və Kəlbəcər şivəsində eyni mənada *cəvaran* fonetik formasında rast gəlinir (İ.Bayramov, 2011, s. 73).

2013-cü ildə Könül Səmədovanın "Şimal-Qərb qrupu dialekt sözlərinin lüğəti və arealları" lüğəti çap olunmuşdur. "Lüğət" Şəki, Qax, Zaqatala və Balakən rayonu şivələrini materialları əsasında tərtib edilmişdir. Bu lüğətdə Şəki, Qax, Zaqatala və ya Balakən rayon şivəsində işlənən söz və ifadənin qarşısında mənası, işləndiyi şivənin adı və bəzi hallarda arealı cədvəl formasında göstərilir. Məsələn:

Söz və ifadə	Mənası	Şimal-Qərb	Arealı

		bölgəsinin rayonları	
Afanax	yüngül,zəif	Qax	
Altıaçıx	talvar	Şəki	
Canna	pis, yararsız	Zaqatala	Ağdaş,Bərdə, Gəncə,Göyçay, İmişli,Zərdab, Kürdəmir
Carcur	kiçik	Balakən	
Dişəmax	dişli kəsici alətlər	Şəki	Kürdəmir, Qafan, Sabirabad Salyan Şərur
Düng	kötük	Zaqatala	
Hancəri	necə?	Balakən,Şəki	Gədəbəy, Tovuz, Goranboy Qazax, Karvansaray

(K.Səmədova, 2013, s.6, 12, 21, 29)

2014-cü ildə Aslan Bayramov və Arzu Bayramovanın "Ağbaba şivəsi sözlüyü" nəşr olunmuşdur. Bu lüğət Qərbi Azərbaycanın Ağbaba mahalının (Amasiya rayonunun) şivələrində əksini tapan leksik və frazeoloji dialektizmləri özündə əks etdirir. Burada 42 kəndin şivəsinə aid sözlər əhtə olunmuşdur. "Lüğət"də Ağbaba (Amasiya rayonu) mahalının kəndlərində işlənən, əsasən, ədəbi dildə işlənməyən və ya ədəbi dildən fonetik cəhətdə fərqlənən sözlərin nitq hissələrinə mənsubluğu göstərilir, mənası izah edilir və cümlə daxilində işlənməsi verilir. Məsələn:

Acıtma (i)- təndirin külündə bişirilən çörək.- Təndirə acıtma salginən, uşaxlar yesin, məhtəvə gedəcəx′lər (A.Bayramov, A.Bayramova, 2014, s.20).

Bordax (sif.) - kökəldilmiş, bəslənmiş.- Bordax malın əti çox olor (A.Bayramov, A.Bayramova, 2014, s.45).

Havarramax (f) - köməyə çağırmaq.- Havarradı qonum-qonşuyu, nahaxdan başımıza tökdü, ləçər (A.Bayramov, A.Bayramova, 2014, s.105).

Dilin şivələrinin müəyyən bir qrupunu əhatə edən dialektoloji lüğətdən biri də 2017-ci ildə Əbülfəz Quliyev və Nuray Əliyevanın müəllifliyi ilə çap edilmiş "Naxçıvan dialekt və şivələrinin lüğəti"dir. "Lüğət"də Naxçıvan şivələrini əhatə edən Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarının şivələrinin materialları əksini tapmışdır. Hər bir dialektizmin qarşısında şivənin adı, sözün mənası və cümlədə işlənmə forması göstərilmişdir. Məsələn:

AĞLOVÇA (Böyükdüz, Düdəngə, Hacıvar, Teyvaz, Tumbul) – tava.- Ağlovça tavıya diyərx′, o biri irayonnarda apılca da deyillər ona (Ə. Quliyev, N. Əliyeva, 2017, s.19).

BOZDAMAC (Sədərək, Şahbuz, Şərur) - sac üstündə bişirilən çörək.- Bozdamacı sajda pişiririx′ (Ə. Quliyev, N. Əliyeva, 2017, s.47).

HEŞAN (Babək, Şahbuz, Şərur) - döymək üçün xırmanda açılıb sərilmiş taxıl dırzləri.- Heşan dağıtmayın, hava dolur, yağacax (Ə. Quliyev, N. Əliyeva, 2017, s.120).

İLİŞİXʹ (Naxçıvan) - əlaqə, bağlılıq, asılılıq.- Onnan heş bir ilişiyim yoxdu (Ə. Quliyev, N. Əliyeva, 2017, s.140).

Konkret Bir Şivəni Əhatə Edən Dialektoloji Lüğət

Bu tipdən olan lüğət konkret bir şivəyə - bir kəndin şivəsinə həs olunan dialektoloji lüğətdir. Belə bir lüğət ilk dəfə 1999-cu ildə V.Vüqarlının tərtib etdiyi "Soğanlıq kənd şivəsinin lüğəti"dir (M.Məmmədli, 2019, s. 298).

Sərdar Zeynal və Elşad Abışovun "Tivi şivəsinin izahlı lüğəti" (2019) Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Tivi kənd şivəsinə həsr olunub. "Lüğət"də Tivi şivəsində işlənən sözün nitq hissəsinə aidliyi göstərilir, mənası izah edilir, cümlə daxilində işlənməsi verilir. Məsələn:

ALAQAPI (isim) - Evlərin böyük küçə qapısı, darvaza. Qonağı alaqapıdan ötürüb geri qayıtdı (S.Zeynal, E.Abışov, 2019, s. 15).

BADAMCA (isim) – Qayalarda bitib kiçik çiçəklər açan cır, vəhşi badam. Xətayi qurumuş badamca odunlarını yığıb bir ocaq qaladı (S.Zeynal, E.Abışov, 2019, s. 19).

DƏMDƏMƏKİ (sifət) – Öz hərəkətində, sözündə, fikrində sabit olmayan, dediyinin məsuliyyətini hiss etməyən. Dəmdəməki adamın sözünə etibar etmək olmaz (S.Zeynal, E.Abışov, 2019, s. 43).

QARPINMAQ (feil) - Atın və ya ulağın ağız atıb bədəninin qaşınan yerlərini dişləməsi, qapması. Elə ki, otdan yük gətirən ulağın yükünü açıb palanın aldım, dayanmadan qarpınmağa başlayacaq (S.Zeynal, E.Abışov, 2019, s. 93).

QƏZİLLƏMƏK (feil) - Aldatmaq, tovlamaq, yalan satmaq, başdan eləmək, inandırıb yola salmaq. Baba nəvələrini qəzilləyib aradan çıxdı (S.Zeynal, E.Abışov, 2019, s. 96).

"Lüğət"də şivə sözlərinin cümlə daxilində işlənmısinə aid nümunələr şivədə olduğu kimi verməklə yanaşı, C.Məmmədquluzadənin, M.Ə.Sabirin, Ə.Haqverdiyevin, Ə.Vəliyevin, Mir Cəlalın, S.Vurğunun, H.Cavidin, S.Zeynalın və başqa ədiblərin əsərlərindən, eləcə də atalar sözlərdən, bayatılardan, sayaçı sözlərdən misallar gətirilmişdir.

Şivələrin Omonimlər Lüğəti

Azərbaycan dili şivələrinin lüğət tərkibində omonim sözlər xüsusi lay təşkil edir və zənginliyi ilə diqqəti cəlb edir. İlk dəfə şivələrimizdə işlənən omonim sözləri özündə əks etdirən Sefi Behbudovun "Azərbaycan dili şivələrinin omonimlər lüğəti" 2003-cü ildə çap olunmuşdur. "Lüğət"də omonim sözlərin aydınlığı üçün hər bir sözün qarşısında rum rəqəmləri ilə işarələnir. Omonim sözlərdən sonra aid olduğu nitq hissəsi, sözün mənası, işləndiyi şivə göstərilir. Daha sonra omonim sözün işləndiyi cümlə verilir. Məsələn:

AVŞAR I is. - kiçik xəncər (Qarakilsə).- *O, həmişə özüynən avşar gəzdirərdi.*

AVŞAR II sif.- südlü, südü çox olan (Füzuli).- *Avşar qoyundu* (S. Behbudov, 2003, s. 15).

BIDAMAX I f.- tut yarpağını xırda-xırda doğramaq (Zəngilan).- *Yarpa: bıda, ver qurda .*

BIDAMAX II f.- döymək, əzişdirmək (Zəngilan,Füzuli,Cəbrayıl).- *Yaman ora-bura bılancıdır, heş tutux vermir (*Cəbrayıl).

BIDAMAX III f.- ağacın yarpaqlarını qoparıb heyvana vermək (Zəngilan).- *Palıd*

*yarpa:nnan bıdıyın, verin qoyuna (*S. Behbudov,2003, s. 28-27).

Şivələrin Frazeoloji Lüğəti

Dialektoloji lüğətin bir növü də frazeoloji lüğətdir. Azərbaycan dili şivələrinin frazelogiyasını əks etdirən lüğət Sefi Behbudov tərəfindən "Azərbaycan dili şivələrinin frazelogiya lüğəti" 2011-ci ildə çap olunmuşdur. Bu lüğətiin şivələrimizin lüğət tərkibinin öyrənilməsində xüsusi əhəmiyyəti vardır. Müəllifin özünün qeyd etdiyi kimi "İlk dəfə hazırlanan indiyə kimi çap olunmuş monoqrafiyalardan, ayrı-ayrı məqalələrdən, namizədlik dissertasiyalarından, "Azərbaycan dili şivələrinin antologiyası"ndan (mətnlər, əlyazması), V.Vüqarlının "Soğanlıq kənd şivəsinin lüğəti"ndən və müəllifin öz şəxsi müşahidəsi zamanı topladığı materiallar əsasında yazılmışdır" (S.Behbudov, 2011, s. 9). "Lüğət"də frazeoloji vahidlərin ikinci tərəfi omonimlərlə ifadə edilib məna bildirdikdə birinci sözdən başqa digərləri yan-yana mötərizədə (**abrını almax (verməx′)**, frazeoloji ifadələrin tərkibindəki birinci söz tək və cəm halda və ya ismin müxtəlif hallarında işləndikdə, sinonimlərlə ifadə edildikdə onlardan biri mötərizədə (**arası (araları) dəyməx′),** omonim frazeoloji vahidlər ayrı-ayrı yuvalarda qarşısında Roma rəqəmləri ilə (**dalına keşməx′ I - başını əkmək; dalına keşməx′ II – bir şeyi alıb geri qaytarmamaq),** sinonim frazeoloji vahidlər "bax" sözü ilə (**gözünə təpməx′ - bax gözünə basmax**), frazeoloji vahidlərin tərkibindəki sözlərin fonetik variantlılığı olduqda paralellik (//) işarəsi ilə (**ağzına qovut// qoyut//qo:t almax**) verilir (S.Behbudov, 2011, s. 11-13) .

"Lüğət"də əksini tapan frazeoloji vahidin qarşısında işləndiyi şivənin adı, mənası və cümlə daxilində işlənmə forması misallarla verilir. Məsələn:

ABRA MİDİRMƏX′ (Cəbrayıl, Füzuli) **-** səliqə-sahman yaratmaq, lazımi qaydaya salmaq**.-** *Buralar tamam əldən getmişdi, təzəlix'cən abıra mindirmişix'* (Cəbrayıl; S.Behbudov, 2011, s. 16**).**

ACI-GUCİ VERMƏG (Salyan) **-** acıq vermək, hirsləndirmək.- *O:n sözünə fikir verma, sə:* acı *– güci verir (*S.Behbudov, 2011, s. 16).

ÇİN QURMAX (Zəngilan) - bir birinin üstünə yığmaq, qalamaq.- *Əli gətdiyi odunnarı qəpidə çin quruf* (S.Behbudov, 2011, s. 70).

ƏLİ BINALMAĞ (İsmayıllı) – boşalmaq, süsləşmək.- *Elə sıxdı ki, bir də gördüm bının əli bınaldı* (S.Behbudov, 2011, s. 95).

SÖZ YARADICILIĞI

Azərbaycan dili şivələrinin lüğət tərkibinidə söz yaradıcılığı 3 üsulla əmələ gəlir:

1.Leksik üsulla söz yaradıcılığı.

2.Morfoloji üsulla söz yaradıcılığı.

3. Sintaktik üsulla söz yaradıcılığı.

Leksik Üsulla Söz Yaradıcılığı

Azərbaycan dili şivələrinin lüğət tərkibində leksik yolla yaranan sözlər xüsusi yer tutur. Şivələrimizddə leksik üsulla söz yaradıcılığı 2 yolla baş verir:

1. Şivələrimizin daxili imkanları hesabına.

2. Alınma sözlər hesabına.

Şivələrimizin daxili imkanları hesabına. Azərbaycan dili şivələrində leksik üsulla söz yaradıcılığında şivələrin daxili imkanları əsas yer tutur və aparıcı mövqeyə malikdir. Belə sözlər fonetik tərkibcə ədəbi dildə işlənən sözlərə oxşasa da, semantik cəhətdən bir-birindən tam surətdə fərqlənir. Leksik üsulla söz yaradıcılığında iştirak edən sözlər Azərbaycan dilinin öz sözləridir və dilin tarixi ilə üzvi şəkildə bağlıdır. Şivələrimizin leksik üsulla söz yaradıcılığına aid aşağıdakı nümunələri göstərmək olar.

Ağız. Bu söz Şəki, Zaqatala şivələrində "qaramalın doğandan sonra ilk südü", Ağdaş, Qax, Şəki, Zərdab şivələrində "yeni doğan qaramalın ilk südündən bişirilən yemək (pendir kimi olur)" mənalarını bildirir (ADDL, 2007, s. 15). Ədəbi dildə *ağız* "insan və heyvanların üzlərinin alt tərəfində, alt və üst çənələrin arasında yerləşən yeyib-içməyə və səs çıxarmağa məxsus üzv" mənasını ifadə edir.

Axı. Balakən şivəsində "meşəlik və ya kolluq yerləri təmizləyərək düzəldilmiş əkin sahəsi", Ordubad şivsində "kirvə" mənasında işlənir (ADDL, 2007, s. 17). Ədəbi dildə *axı* ədat kimi "əvvəlki fikri əsaslandırmaq yaxud bir şeyi sübut etmək, ifadəni gücləndirmək üçün söylənir, bəzən etiraz, narazılıq, məzəmmət, bəzən də xahiş, təkid " mənasını bildirir.

Beş. İsmayıllı, Dərbənd, Şamaxı şivələrində "çırpı, ağacın nazik budaqları", Tovuz şivəsində "uşaq oyunu adı" mənasında işlənir (ADDL, 2007, s. 47). Ədəbi dildə *beş* "dörddən sonra gələn ədəd" mənasını bildirir.

Göz. Qazax, Tovuz şivələrində "pay, hissə, şərikli, alınıb kəsilmiş heyvanın şəriklər arasında bölünən hissələr", Çəmbərək şivəsində "bataqlıq" mənalarını bildirir (ADDL, 2007, s. 187). Bu söz ədəbi dildə "insan və heyvnda görmə orqanı" mənasını ifadə edir.

Qala. Salyan şivəsində "böyük səhəng" mənasında işlənir (ADDL, 2007, s. 275). Azərbaycan ədəbi dilində *qala* "düşmənə müqavimət göstərmək üçün möhkəm müdafiə tikililəri və vasitələri olan itehkam" mənasını bildirir.

Qalın. Bu söz Cəbrayıl, Qarakilsə, Naxçıvan, İrəvan, Zəngilan, Zərdab şivələrində "sacda bişirilən çörək" mənasında ifadə edir (ADDL, 2007, 275). Azərbaycan dilində qalın "yoğun", "sıx" mənalarında işlənir.

Alınma sözlər hesabına. Azərbaycan dili şivələrinin lüğət tərkibində alınma sözlər xüsusi yer tutur. Şivələrimizə alınma sözlər ədəbi dil vasitəsi ilə keçir və bu zərurət nəticəsində baş verir. Alınma sözlərin əksəriyyəti şivələrimizdə fonetik cəhətdən dəyişikliyə uğramış formada işlənir. Məsələn: *əftix'* (aptek mənasında), *akuşka* (okno mənasında), *yaranal* (general mənasında) və s. Azərbaycan dili şivələrində işlənən alınma sözləri mənbəyinə görə aşağıdakı kimi təsnif etmək olar.

1) ərəb-fars mənşəli sözlər; 2) rus mənşəli sözlər; 3) Avropa mənşəli sözlər; 4) Qafqaz mənşəli sözlər, 5) tat dilinə məxsus sözlər.

1.*Ərəb-fars mənşəli sözlər.* Azərbaycan dili şivələrində ərəb-fars sözləri geniş işləkliyə malikdir və bütün şivələrdə təsadüf olunur. Məsələn: *badiyan* (Dmanisi) – nanə, *zərdə*

(Dmanisi) - kök, *bafa* (Dmanisi) - dərz, *loxma* (Dmanisi) - tikə, *parça* (çörəyə aid), *qazıya* (Dmanisi) – hadisə, *qəfə* (Təbriz)– qəhvə, *səndəl (*Təbriz) – stul, *hampa (*Təbriz) - həmpə <yoldaş mənası bildirir, *şirdan* (Dərbənd) - qurşaq, *şəhdi* (Dərbənd) – gavalının bir növü, *alaf* (Dərbənd, Çəmbərək, Qazax) – mala verilən ot, *məxləsər* (Bakı) – müxtəsər, *hafisət (*Muğan) – yaddaş və s.

2.*Rus mənşəli sözlər.* Rus dilində işlənən sözlər şivələrimizə keçərək fonetik dəyişmələrlə işlənir. Məsələn: *avışqa (*Çəmbərək, Dmanisi) - pəncərə, *badval (*Çəmbərək, Dmanisi) – zirzəmi, *möşöy* (Dmanisi), - kisə, torba, *traxdır* (Çəmbərək, Qazax) - traktor, *jaqet* (Borçalı) – jaket, *simit* (Borçalı, Çəmbərək) - sement, *paduşqa (*Çəmbərək) - yastıq, *isgan (*Bakı, Şamaxı) - stəkan, *uşqulə* (Dərbənd) – məktəb, *astarçik (*Dərbənd) - baş çoban, *pridaça* (Dərbənd) - veriliş və s.

3. *Avropa mənşəli sözlər*. Şivələrimizdə Avropa mənşəli sözlər az işlənir. Məsələn: *naylon* (Təbriz) –leylon, *tilfun* (Təbriz) // *telfun* (Çəmbərək, Qazax) - telefon, *fitbol* (Təbriz) - futbol, *televizyon* (Təbriz) // *tilvizor* (Basarkeçər, Çəmbərək) - `televizor, *tiyatır* (Quba) - teatr və s.

4. *Qafqaz mənşəli sözlər.*

-gürcü dilinə məxsus sözlər. Gürcü dilinə məxsus sözlər Gürcüstsnın Borçalı şivələrində özünü göstərir. Məsələn: *berzən* (Dmanisi) - yunan, *qoqu* (Dmanisi) - qız, *cigilə* (Dmanisi) - qadın baş örtüyü, *syxeni (*Borçalı) – evin damı, *cacur* (Borçalı)- ərik və s.

-İber-Qafqaz dillərinə (ləzgi, avar, saxur, udin dilləri) məxsus sözlər. İber-Qafqaz dilləri ilə (ləzgi, avar, saxur, udin dilləri) əlaqəsi nəticəsində Azərbaycan dilinin şimal - qərb, eyni zamanda Dərbənd şivələrində bu dillərə məxsus sözlər də işlənir. Məsələn: *adiy* (Zaqatala) -ana, *beteley* (Balakən, Zaqatala) - əmi arvadı, *vidar (*Zaqatala) - kiçik dağ cığırı, *qoçer (*Balakən) – kəkil, *səpəl (*Qax) - murdar, *xayma (*Qax) - böyük palaz və s.

-tat dilinə məxsus sözlər. Dərbəndin Zidyan, Zidyan qazmaları, Calğan, Yeni Calğan kəndlərində azərbaycanlılarla tatların əlaqə və münasibətlərin nəticəsində Dərbənd şivəsində müəyyən qədər tat dilinə məxsus sözlər işlənməkdədir. Məsələn: *rişbaba// rüşbaba* - üzüm növü, *rüş//riş* - saqqal, *qüşbənd* - qoyun, *kələxuvəgi* - gəlinin sağdışı, *xürş* - ağız (Dərbənd, 2009, s. 293).

Morfoloji Üsulla Söz Yaradıcılığı

Azərbaycan dili şivələrində morfoloji üsulla söz yaradıcılığı iki formada özünü göstərir: 1) ad düzəldən şəkilçilər; 2) feil düzəldən şəkilçilər.

Ad düzəldən şəkilçilər

–çı, -çi,-çu,-çü. Bu şəkilçisinin iştirakı ilə şivələrimizdə müəyyən peşə, sənət, vəzifə, adət məşğuliyyət və s. mənası bildirən sözlər əmələ gətirir. Məsələn: *ətçi* (Bakı) –qəssab, *cızdığçı* (Ağcabədi) – cızdaq ilə sümüklü ətdən hazırlanan yemək hazırlayan, *culfaçı* (Şəki) – yun şal, şalvar, pencək toxuyan, *çağırıççı* (Qazax, Tərtər) – kuryer, toya adam çağıran, *çaxnaxçı* (Gəncə,Gğygöl) - aravuran, araqarışdıran, *çapo:ulçu* (Laçın) –qarətçi, *çinəçi* (Ağcabədi, Bərdə, Salyan) –muzdla iş görən, *güdüx'çü* (Çəmbərək) – pusquda duran, *sığırçı* (Ağstafa, Barana, Kəlbəcər, Qax, Qazax, Şəki, Şəmkir) – naxırçı, *dağçı* (Qazax) – yayda dağda yaşayan adam, *əbəçi* (Cəlilabad, Lerik, Yardımlı, İmişli, Sabirabad, Zəngilan) –mama,

mamaça, *sıraçı* (Basarkeçər) – növbə ilə camaat malını otaran, *əmmərəçu* (Salyan) – göyərti əkmək üçün ayrılmış sahə (Neftçala və Salyan şivələrində "ləklərin arasındakı kiçik, ensiz su arxı" mənasında işlənən *əmmərə* sözündən əmələ gəlib), toyçu (Ağdam, Qazax, Şərur) - toyda musiqi çalan, çalğıçı, yançı (Bərdə, Borçalı, Çəmbərək, Xocavənd, Kürdəmir, Qax, Qarakilsə, Qazax, Quba, Tovuz) – köməkçi və s.

-lıq,-lik,-luq,-lük. Bu şəkilçi Azərbaycan dili şivələrində *-lıx, -lix′, -lux, -lüx′, -lığ, -lig, -luğ, -lük, -dıx, -dix′, -dux, -düx′, -dığ,-dig,-duğ, -dük, -nıx,-nix′,-nux, -nüx′, -nığ, -nig,-nuğ, -nük, -rıx,-rix′,-rux, -rüx′, -rığ,-rig, -ruğ, -rük, -zıx,-zix′,-zux, -züx′,-zığ, -zig,-zuğ, -zük* fonetik variantlarda özünü göstərir. Bu şəkilçi şivələrimizdə qohumluq, peşə, sənət, əşya adı, insan xarakterini bildirən sözlər əmələ gətirir. Məsələn: *nənəlik* (Bərdə, Lənkəran, Tərtər) -ögey ana, *bacılıx* (Çəmbərək)- rəfiqə, *şatırrıx* (Bakı, İrəvan) – çörəkyapma, çörəkbişirmə sənəti (Bakı, İrəvan şivələrində "çörək yapan" mənasında işlənən *şatır* sözündən əmələ gəlib), *sinəlik* (Ağcabədi) –kişi və ya qadın alt köynəyinin sinəsinə əlavə edlən parça, *qabağluğ* *(*Dərbənd) –qadınların alınlarına bağladıqları bəzəkli əşya, *danqazdığ* (Masallı, Ordubad, Salyan) – dikbaşlıq, lovğlıq, *qıtmırlıx* (Təbriz) -xəsislik, *acılığ* (Bakı) – sıx tikanlı bitki, *aclığ* (Xaçmaz) - yeni məhsul çıxmamış üyüdülən taxıl və s.

–lı, -li,-lu,-lü. Azərbaycan dili şivələrində adlardan isim düzəldən şəkilçilərdən biri də *-lı, -li,-lu,-lü* şəkilçisidir və şivələrimizdə həm də *-dı*^{4}, *-nı*^{4}, *-rı*^{4}, *-tı, -nu, -dü* fonetik variantlarında müşahidə olunur. Bu şəkilçi əşya adı, məkan mənası bildirən sözlər əmələ gətirir. Məsələn: *acıtmalı* (Göyçay) –çörək, *dadaxlı (*Şəki) – ayaqlı, *ərişdəl*i (Qazax, Tovuz) - ərişdə ilə hazırlanan xörək adı, *xamralı (*Ağcabədi, Ağdam, Ağdərə, Bolnisi, Borçalı, Cəbrayıl, Çəmbərək, Goranboy, Göyçay, Qazax, Tərtər, Tovuz) – sacda bişirilən qalın çörək, *axımlı* (Dərbənd) – evin damında yağış suyunu axıtmaq üçün düzəldilən yer, *irəməli* (Qazax, Tovuz) – su çıxmayan yer və s.

-çılıq, -çilik, -çuluq,- çülük, -çılıx, -çilix′, -çulux,- çülüx′, -çılığ, -çuluğ, -çılıx,-çilix′, -çilik,-çilig,-çilih,-çiliy. Adlardan qohumluq, peşə, sənət mənası bildirən sözlər düzəldir. Məsələn: *qahımçılıx* (Zəngilan) qohumçuluq < qohumluq, *çəpərçilix′* (Zəngilan) – çəpərçilik < çəpər düzəldən, *başmaxçılıx* (Təbriz) –ayaqqabı sənəti ilə məşğul olan, *barmaxçılıx* (Ağdaş, Göyçy) – qaşsız üzük, *üzməkçilik* (Ağdaş, Göyçy) - üzgüçülük, *qabağçılığ* (Dərbənd) – qadınların alınlarına bağladıqları bəzəkli əşya, *çənəçuluğ* (Dərbənd) – çinədan, *höjətçilix′* (Çəmbərək) – tərslik, *obaçılığ* (Biləsuvar) –köçərilik və s.

–acaq, -əcək, -cax, -acax, -ajax, - acax, -əcəx′, -acax, -əcəx′, -cəx′, -əcəx, -acax, -əcək, - cəx′, -cək, -əcəg. Bu şəkilçi əşya mənası bildirən sözlər əmələ gətirir. Məsələn:

çapacax (Ağdam, Çəmbərək, Goranboy, Qazax, Mingəçevir, Şəki, Şəmkir, Tovuz, Zaqatala), *çapaçağ* (Göyçay, Salyan, İmişli, Şamaxı) - ət çapan, ət doğrayan alət, *çıxacax* (Basarkeçər) – pilləkən, *əkənəcək* (Culfa, Çəmbərək) -əkin sahəsi, əkin yeri, *keçənəcək* (İmişli) – yaşayış, güzəran, *olajax* (Çəmbərək) –çobanların yaylaqda qaldığı yer, otaq, *tutacax//tutajax* (Çəmbərək) – isti qabı, qazanı götürmək üçün istifadə edilən parça, *yonajax* (Qazax, Göygöl) – atın dırnağını yonmaq üçün işlədilən alət, kəsər və s.

- anaq, -ənək, -anax, - ənəx′, -anağ, -ənəg. Əsasən feillərdən məkan anlayışı, eyni zamanda xəstəlik, bitki adı bildirən sözlər düzəldir. Məsələn: *çökənəx′* (Zaqatala) - çökək, *əkənəx′* (Çəmbərək, Qazax, Yardımlı) - əkin sahəsi, əkin yeri, *sızanax* (Çəmbərək, Karvansaray) –yara, *eşənəx′* (Çəmbərək, Karvansaray) – eşilmiş yer, *eşənəx′* (Çəmbərək) – xəstəlik adı (dəri xəstəliyi), *sızanağ (*Şamaxı) –yeməli yabanı bitki və s.

–ma,- mə. Azərbaycan dili şivələrində də -ma, -mə şəkilçisi feildən isim əmələ gətirir və

geniş şəkildə işləkliliyə malikdir. Məsələn: *düzmə* (Quba) - sapa düzülmüş qax, *geymə* (Basarkeçər, Borçalı, Cəbrayıl, Göyçay, Qazax, Ordubad) – yarımpalto, *ikiləmə* (Füzuli, Mingəçevir, Oğuz, Tovuz, Zaqatala) – ikinci şum, *sürütmə* (Çəmbərək, Qafan, Qazax Mingəçevir, Şəki) - qoşqu heyvanları vasitəsilə (indi mexaniki vasitələrlə də olur) sürüyüb gətirilmiş əşya (ağac, ot, odun), *alışma* (Basarkeçər, Çəmbərək, Qazax, Gədəbəy, Tovuz) - kəsilərək əti bölüşdürülən heyvan əti, *gözəmə* (Qazax) – ağzı bağlanmış taxılla dolu çuval, *gəzmə* (Dərbənd) – gözətçi, *yolma* (Meğri) – dəridən yolunan yun, *qablama* (Quba) -qazança, *bulama* (Təbriz) – yemək adı, *qablama* (Təbriz) – qab adı, *dişdəmə* (Çəmbərək) - qəndlə içilən çay və s.

-alğa,-əlgə, -əlyə. Qeyri-məhsuldar şəkilçidir və feildən isim əmələ gətirir. Məsələn: *tutalğa* - nişanlı (Meğri), əsas, dəlil (Ağcabədi, Bərdə, Şuşa, Tərtər), *yatalğa* -yatmaq, gecələmək yeri (Çəmbərək, Karvansaray), heyvanların gecələdiyi yer (Bərdə Şuşa, Tovuz), *qonalğa* (İmişli) – qonaqlıq (qədim türk dilində "qonaq" mənasını ifadə edən *qon(maq)* feilindən isim əmələ gəlib), *duralğa* (Çəmbərək) - dayanmaq yeri, *düşəlgə* (Şəki) – hədiyyə, *dönəlgə* (Çəmbərək), *dönəlyə* (Gədəbəy, Qazax) –bəxt, tale, *dönəlgə* (Bərdə, Kürdəmir, Şuşa) – döngə, *görəlgə* (Çəmbərək) - gəlini ilk dəfə görmək üçün düzəldilmiş ziyafət və s .

–ar, -ər, -işlənən r. Qeyri-məhsuldar şəkilçidir və feildən isim düzəldir. Məsələn: *qaynar* (Borçalı, Qazax, Tovuz) – paltar yumaq üçün qızdırılmış su, *qoşar* (Şərur)- qoşqu camışı, *çalxar* (Laçın, Meğri, Naxçıvan) –tuluq, *bişər* (Çəmbərək) -xörək və s.

-in. Feildən isim düzəldən qeyri-məhsuldar şəkilçidir. Məsələn: *sağın* (Qafan, Şəki) – sağılan heyvan və s.

–ax, -əx′,-x, - x′. Şivələrimizdə omonim şəkilçilərdən biridir. Feildən əşya mənası bildirən isim əmələ gətirir. Məsələn: *kəsəx′* (Təbriz, Şahbuz) -bıçaq, *qalax* - belin ağac hissəsi (Təbriz), peyin topası (Çəmbərək, Təbriz), *süzəx′* (Çəmbərək, Karvansaray) – aşsüzən, *çatax* (Şəki) -bir-birinə bitişik göy meyvə, *gözəx′* (Zəngilan) - gözək <çuval ağzı bağlamaq üçün toxunmuş nazik ip (Çəmbərək, Gədəbəy, Qazax, Tovuz şivələrində "toxumaq, hörmək" mənasında işlənən gözə(mək) feilindən əmələ gəlib) və s.

–ası. Qeyri -məhsuldar şəkilçidir və feildən isim əmələ gətirir. Məsələn: *çalası* (Ağcabədi, Ağdam, Borçalı, Böyük Qarakilsə, Çəmbərək, Daşkəsən, Dərbənd, Füzuli, Gədəbəy, Goranboy, Göyçay, Göygöl, Kəlbəcər, Qax, Qarakilsə, Qazax, Tovuz, Salyan, Şərur, Zaqatala, Zəngibasar) - qatıq mayası

– maz. Qeyri-məhsuldar şəkilçidir və əsasən qərb qrupu şivələrində işlənir. Məsələn: axmaz (Qazax, Şəmkir) – gölməçə, axmayan su.

–ıx, -ik, -ux, -ük, -üx′, -x′, -ğ,-k. Azərbaycan dili şivələrində işlənən məhsuldar şəkilçilərdən biridir və feillərdən isim düzəldir. Məsələn: *qatıx* (Ordubad) – uzun müddət saxlanmaq üçün qovrulmuş ət, *sarmaşıx* (Göyçay) – yabanı bitki, *yatıx* (Qazax)- xəstəlik, *batıx* – dərə (Zəngibasar), çökək (Şəki), *yetix′* (Çəmbərək, Şəki) - bələd, *tüşüx′* – ölü doğulmuş uşaq (Zəngibasar) və s.

-ı, -i, -u, -ü. Bu şəkilçi feildən isim düzəldir. Məsələn: *yaxı* – çörək növü (Təbriz), yaxıla bilən maddə < dərman (Çəmbərək), *bişi* (Ağsu, Çəmbərək, Kürdəmir, Lənkəran), *pişi* (Çəmbərək) –yağ, yumurta, süd və şəkər tozu qarışdırılmış xəmirdən bişirilmiş çörək, *buru* (Cəbrayıl, Çəmbərək, Gəncə, Zəngilan) – qarın ağrısı, sancı və s.

-mac, -məc. Bu şəkilçi şivələrimizdə həmdə -maş, -bac formasında özünü göstərir. -*mac, -məc* şəkilçisi feildən isim əmələ gətirir. Məsələn: *bozartmac* (Zəngilan) – xörək adı, *şütəməc* (Zəngilan) –oyun adı, *addamac* (Çəmbərək, Zəngilan) –çaydan keçmək üçün suyun

içinə qoyulan daşlar, *yaxmac* (Bərdə, Biləsuvar, Çəmbərək) -üstünə yağ çəkilmiş çörək parçası, *döyməc* – meyvənin qabda əzməklə hazırlanmış yemək (Şəki), ərinmiş yağa doğranaraq hazırlanan yemək (Çəmbərək), *yörtməc* (Şəki) –yelləncək, *tutmac* (Ağcabədi, Göyçay, İmişli, Quba, Oğuz, Şamaxı, Ucar) - xörək adı, *burmaş // burmanc* (Çəmbərək, Karvansaray) –axtalanmış qoyun, *tıxlamac // tıxlamanc* (Çəmbərək, Karvansaray) – çoxlu çörək doğranmış xörək və s.

Feil düzəldən şəkilçilər

-ra, -rə. İsim, sifət nitq hissələrinə qoşularaq düzəltmə feil əmələ gətirir. Məsələn: *açarramağ* (Xaçmaz)- qıfıllamaq, *qaynarramax* (Qax, Şərur, Yardımlı)- paltar və ya qab-qacağı qaynar su ilə yumaq, *qaysarramax* (Zərdab)- tərləyəndən sonra soyuq dəymək, *peşarrramax* (Qarakisə)- yığımdan sonra ağacda qalan meyvələri dərmək, *sulğarramax* (Şəmkir)- hündürləşmək, boyu uzanmaq, *tağarramax* (Borçalı)-tağarla ölçmək, *çilqirrə* (Quba) - çəngləmək, *ağırramax* (Çəmbərək)-əzizləmək və s.

-la, -lə. Şivələrimizdə işlənən adlardan feil düzəldən məhsuldar şəkilçidir. Məsələn: *adaxlamax* (Daşkəsən, Füzuli) – ilk addım atmaq, *cumbullamax* (Şəki)- qoma-qoma qoparmaq, *çağalaxlamax* (Ağcabədi)- çəyirdəkləmək, *cücələməx'* (Tərtər)- cücə çıxarmaq, *cüjüx'ləməx'* (Goranboy)- tağda körpə, xırda xiyar əmələ gətirmək, *irtməx'ləməx'* (Çəmbərək,Qazax) – tutmaq, yaxalamaq, *qadağlamağ* (Dərbənd) - *mıxlamaq*, mıx vurmaq, *tapıllamax* (Borçalı, Çəmbərək, Qazax) - otu bir yerə toplamaq, *yarıxlamax* (Cəbrayıl) – yarıq-yarıq etmək,*silələməx'* (Cəbrayıl, Çəmbərək, Şəki) - ağızbaağız doldurmaq və s.

-lan, -lən. Şivələrimizdə işlənən məhsuldar şəkilçilərdən biridir və adlardan feil əmələ gətirir. Məsələn: *kümöyüllənmək* (Ağdaş, Mingəçevir) - qurdlamaq, kümöyül qurdu düşmək, *küvərlənmək* (Ağdaş, Göyçay) - avaralanmaq, *övlənmək* (Dərbənd) - ərə getmək, *dimrix'lənməx'* (Qazax, Tovuz) – iriləşmək, cana gəlmək, qüvvətlənmək, *qırtmıxlanmax* (Cəbrayıl, Şuşa) – toplanmaq, üzünə tor gəlmək və s.

-lam, -ləm. Şivələrimizdə leksik şəkilçi kimi işlənən -lan, -lən şəkilçisinin variantıdır və adlardan feil əmələ gətirir. Məsələn: *eyməlləmməx'* (Cəbrayıl, Kürdəmir)-genişlənmək, genəlmək, *səmələmməx'* (Gəncə, Tovuz)- avaralanmaq, işsiz gəzmək və s.

-laş, -ləş, -daş, -dəş. Məhsuldar şəkilçi olub adlardan feil əmələ gətirir. Məsələn: *gaplaşmax* (Borçalı) - söhbətyləşmək, *xamalaşmax* (Xaçmaz)- qocalmaq, *pərgallaşmax* (Şəki)- gümrahlaşmaq, *yollaşmax* (Çəmbərək, Gədəbəy, Zəngilan)- razılaşmaq, razılığa gəlmək, *qağlaşmaq* (Quba) - keyləşmək, maymaqlaşmaq, *korşdaşmaq* (Göyçay) - kütləşmək, korşalmaq, kəsərdən düşmək, *beyitdəşmək* (Cəbrayıl, Şuşa) – deyişmək, mübahisə etmək, *pərtdəşmək* (Çəmbərək, Göyçay) - sözləşmək, araları dəymək, bir-biri ilə mübahisə həticəsində incimək və s.

-a, -ə. Qeyri-məhsuldar şıkilçidir və adlardan feil düzəldir. Məsələn: *diləmək* (Dərbənd, Şəki)- istəyib nişanlamaq, *tişəmək* (Çəmbərək)- yeni diş çıxartmaq, *dişəmək* (Cəbrayıl, Gəncə) - süd dişlərini tökmək, diş çıxartmaq, *gözəmək* (Cəbrayıl, Çəmbərək) - iri torbanın, xurcunun, çuvalın ağzını xüsusi formada tikmək, xurcun, çuval, torbanın ağızlarının kənarlarındakı gözlərə (ilməklərə) ip keçirtməklə sırımaq və s.

-ı,-i,-u,-ü. Qeyri-məhsuldar şəkilçidir və adlardan feil əmələ gətirir. Məsələn: *dadımax* (Ağdam)- dad vermək, xarab olmaq, *örəniməx'* (Cəbrayıl, Qazax) - otsuzlaşmaq, *vağanımax* (Daşkəsən, Qazax, Şuşa) - biçilmə vaxtı ötüb keçmək və s.

-ıx,-ix', -ux,-üx'. Bu şəkilçi şivələrimizdə geniş şəkildə işlənmir və qeyri-məsuldar

şəkilçi kimi adlardan feil əmələ gətirir. Məsələn: *qanıxmax* (Qazax) - qana susamış, *otuxmax* (Cəbrayıl, Çəmbərək, Daşkəsən, Gədəbəy, Qazax, Tovuz) – ot yeməyə başlamaq, ilk dəfə ot yeməyə başlamaq, *üzüx'məx'* (Cəbrayıl, Çəmbərək, Qazax) - görsənmək, görünmək, yaxınlaşmaq və s.

-sı,-si,-su,-sü. Qeyri- məhsuldar şəkilçidir və adlardan feil düzəldir. Məsələn: *qaxsımax* (Qazax)- azca qurumaq, qax kimi qurumaq, *qoxsumax* (Qazax) –iylənmək, qoxmaq, *yelinsiməx'* (Çəmbərək, Qazax) – dolub şişmək, yelini böyümək, südlə yelini dolmaq, *tamsımax* (Çəmbərək, Qazax) – tamına baxmaq, dadını öyrənmək, *quraxsımax* (Qazax) – susuzluqdan qurumaq, quruyub tökülmək və s.

-ar, -ər. Qeyri - məhsuldar şəkilçidir və çox az miqdarda sözlər əmələ gətirir. Məsələn: *dişərmax* (Şəki), *dişərməg* (Kürdəmir, Qafan, Sabirabad, Salyan, Şərur) – cücərmək, göyərmək və s.

Sintaktik Üsulla Söz Yaradıcılığı

Azərbaycan dili şivələrində sintaktik üsulla sözlər aşağıdakı üsullarla yaranır:

1. Müxtəlif mənalı sözlərin birləşməsindən əmələ gələn mürəkkəb sözlər. Məsələn: *acxəmrə* (Göyçay, Lerik, Kürdəmir, Salyan) – xəmir mayası, *açar dili* (Quba) – qıfıl, *adax-çeçəx'* (Gədəbəy) – uşağın ilk addımı, *elçiplov* (Lənkəran) – toydan bir gün sonra oğlan evindən qız evinə göndərilən plov, *gelinsərçə* (Qax) – şanapipik, *gülbacı* (Yardımlı) – qardaşarvadı, *taxtasuat* (Salyan) -su götürmək və mal-qaranı suvarmaq üçün çay sahilində düzəldilmiş keçid, *ilanqarışqa* (Şuşa) – nazik, uzun qarışqa, *başyoldaş* (Qazax) –həyat yoldaşı, *cücəgöz* (Ucar) - xırdagöz, *dalda-dama* (Bakı) –xəlvət, gizli, *darqursax* (Basarkeçər, Borçalı, Çəmbərək, Gədəbəy, Gəncə, Kürdəmir, Qazax, Mingəçevir, Şəki) - səbirsiz, kəmhövsələ, *gickəsəmə (*Bakı) -səfeh, ağılsız, *yuvasuqor* (Dərbənd) – boş, işsiz, *yuvakor* (Zaqatala) – bacarıqsız, *qurğağ* (Dərbənd) – su çıxmayan, *dömbek* (Dərbənd) -qozbel və s.

2. *Birinci tərəfi ismin adlıq və yönlük halında, ikinci tərəfi* ***-ma, -mə*** *şəkilçisi ilə düzələn isimdən əmələ gələn mürəkkəb sözlər*: Məsələn: *cızadolma* (Çəmbərək) – uşaq oyununun adı, *cizagirmə* (Goranboy, Şuşa, Yevlax) – uşaq oyun adı, *ciyarçəx'mə* (Borçalı) – içalat, *göyəvurma* (Ağcabədi) – divardan asılan xalça üzərinə vurulan tikmə və s.

3. *İki sadə sözün iştirakı əsasında əmələ gələn mürəkkəb sözlər.* Məsələn: *cızdıx çörək* (Tərtər) - cızdaq çörək, *cız-kəmər* (Şəmkir) – uşaq oyunu adı, *daraöbaş* (Dərbənd) - şanapipik, *sığır buğa* (Qazax) – ikiyaşar kəl, *yayköynəx'* (Oğuz) –kofta, *yazbuğa* (Qazax, Tovuz) – yaz vaxtı buğa həddinə çatacaq ikiyaşar qaramal, *gədəqız* (Qax) - bacarıqsız, fərsiz, *piypalan* (Çəmbərək) - yağlı, *qılbaldır* (Çəmbərək, Karvansaray) - nazik qılça, *dıbırçəlləg (*Salyan) - alçaq boylu kök (adam) və s.

4. *İkinci növ təyini söz birləşməsi konstruksiysı əsasında əmələ gələn mürəkkəb sözlər.* Məsələn: *çaqqalbaşı* (Ağcabədi) - çubuqları bir neçə dəfə kəsilmiş hər hansı bir ağacın toppuzlaşmış baş hissəsi, *çaqqalçarığı* (Göygöl) – çarıq, çeyil otundan toxunmuş oyuncaq, *çalağançardağı* (Zəngilan) - uşaq oyun adı, *çapığotu* (Ağdam, Tovuz) – dərman bitkisi adı, *dabanyarpağı* (Salyan) – tənəyin dib tərəfində əmələgələn yarpaq, *cücəgözü // cüjəgözü* (Ağcabədi) - parça, *ekiztayı* (Ağcabədi, Çəmbərək, Tərtər) - əkiz doğulmuş uşaqların hər biri, *sacarası* (Qafan) – iki sacın arasına qoyulub közdə bişirilən çörək, *sacüsdü* (Qazax) – sacda tələsik bişirilən çörək, *qoyngözü* (Karvansaray) –kol, *yazbaşı (*Dərbənd) - arıq və s.

5. *Birinci tərəfi müəyyən leksik məna bildirməyən, ikinci tərəfi məna bildirən sözün birləşməsindən əmələ gələn sözlər*. Məsələn: *çalçamır* (Gədəbəy) – palçıq, *çalçidar* (Gədəbəy) – dolaşıq, sözgəzdirən, *həndür-hündür* (Bakı) – çala-çuxur və s.

6. *İki feilin birləşməsindən əmələ gələn mürəkkəb sözlər*. Məsələn: *çalkeçir* (Kürdəmir, Mingəçevir) – məhəccər, *çalgeçir* (Meğri) – xəbərçi, sözgəzdirən, *çalkeçirt* (Şahbuz) – qarmaq, *gəldigedər* (Ordubad) – şadara, *gəlgəl* (Göyçay, Kürdəmir, Şamaxı, Şirvan) - su qabı və s.

7. *Birinci tərəfi isim, ikinci tərəfi feili sifətdən əmələ gələn mürəkkəb sözlər.* Məsələn: *çanaxyaran* (Şəmkir) – yabanı bitki adı, *çaydaçapan* (İsmayıllı, Oğuz) –quş adı, *çobanaldadan* (Cabrayıl, Çəmbərək, Yardımlı) // *çobanyaldadan* (Basarkeçər, Çəmbərək, Borçalı) – quş adı, *danaqıran* (Ağcabədi, Basarkeçər, Borçalı, Cəbrayıl, Çəmbərək, Füzuli, Göyçay, Qazax, Zaqatala) –novruzgülü, *gecəgəzən* (Dərbənd, Xaçmaz, Quba) - yarasa, *sərimsağdögən* (Dərbənd), *sərimsaxdö:ən* (Çəmbərək)–həvəngdəstə, *sığırboğan* (Borçalı, Qazax) –üçyaşar camış, *danaqıran* (Çəmbərək)-yabanı ot növü, *gəlinboğan* (Ağstafa, Borçalı, Gədəbəy, Qazax, Şəmkir, Tovuz) – qoyun mədəsinin bir hissəsi, *suyatan, sukəsən* (Dərbənd) - sucaq (yer), *ağızaçən* (Dərbənd) – ağı deyən (qadın), *arağirən* (Dərbənd) - aravuran, xəbərçi, *halaypozan* (Quba) – quvvətli, güclü, *gəlinpüfləməz* (Meğri) – tezyanan (odun)və s.

8. *Səs təqlidi sözlərin təkrarından əmələ gələn mürəkkəb sözlər*. Məsələn: *çırçır* (Qazax)- şəlalə, *çırtçırt* (İmişli) – quş adı, *çirçirə* (Qax) - qığılcım, *sülsül* (Quba) –çovdar, *sürsürə* (Qax) - sırsıra, *şap-şap* (Bakı, Cəlilabad, Lənkəran) – ev ayaqqabısı, evdə geyilən dabanı əzik köhnə ayaqqabı, *şar-şar* (Mingəçevir) – şəlalə, *tarax-tarax* (Oğuz) – hop-hop, şanapipik, *zığzığ* (Qax, Oğuz, Tovuz, Zaqatala) – alabaxta, quş adı, *mısmısı* (Çəmbərək)- yabanı ot növü və s.

9. *Eyni sözün təkrarından əmələ gələn mürəkkəb sözlər.* Məsələn: *maça-maça* (Bakı) – aşıqla oynanılan uşaq oyunun adı, *saqqa-saqqa (*Bərdə) – uşaq oyunun adı, *şır-şır* (Salyan) – dava-dalaş, *gəlin-gəlin (*Bakı, Muğan, Şamaxı) – uşaq oyun adı və s.

10. *İsimlə feilin birləşməsindən əmələ gələn sözlər*. Məsələn: *elköşdü* (Ağdərə) – uşaq oyunun adı, *halaygəldi* (Ağdam) - uşaq oyunun adı, *paltarkesdi* (Bakı), *paltarkesdi (*Çəmbərək) - ərə gedəcək qız üçün toy paltarı tikilmək münasibətilə keçirilən mərasim, yığıncaq, *yelapardı* (Qazax, Tovuz) – nazik və yağlı çörək növü, *yeryığdı* (İmişli) – toy adətinin adı, *yolbasar* (Bərdə, İrəvan) –yol düzəldən, asfaltbasan maşın və s.

11. *Sifət və ismin birləşməsindən əmələ gələn sözlər*. Məsələn: *enniyarpax* (Şəmkir) –iri damcılı yağış, *əsilağac* (Çəmbərək) – uşaq oyun adı, *əyriqulağ* (Cəlilabad) - əqrəbin bir növü, *göybuynuz* (Tovuz) – üçillik camış düyəsi, *ağbuynuz* (Çəmbərək) - ağacın qurumuş budaqları, *sarısərçə* (Göyçay) – sarıköynək, *uca dağlar* (Zəngilan) – uşaq oyun adı, *uzunburun* (Dərbənd) – ağcaqanad, *qaradiş* (Çəmbərək) - ikiillik erkək qoyun, *sarısaçax* (Borçalı) - irigiləli ağ üzüm, *qaraqulağ* (Quba) –bayquş, *qarayaz* (Quba) –bahar, *aladil* (Çəmbərək) - yalançı, *zəvərqarın* (Çəmbərək) –dolu bədənli, kök, *zağarqarın (*Quba) - yekəqarın, ağgüz (Quba) – yaxşılıq bilməyən, pisxasiyyətli və s.

12. *Üç sözün birləşməsindən əmələ gələn sözlər*. Məsələn: *hacımənəbax* (Bakı) – nazik parça növü, *hajbəribax* (Bərdə, Goranboy) – ipək parça növü, *papaxköçdüqaç* (Lənkəran, Salyan) - uşaq oyun adı və s.

13. *Ayrılıqda məna bildirməyən sözlərədən əmələ gələn sözlər*. Məsələn: *kələ-külə (*Ordubad) –çınqıllıq, daşlıq, *xırna-hırna* (Qazax)- düşmənçilik və s.

14. *Say və ismin birləşməsindən əmələ gələn mürəkkəb sözlər.* Məsələn: *üçgül* (Qazax) -

üçkünc, üçbucaq şəkilli, *üçillik* (Ucar) –uşaq oyun adı, *beşdaş* (Ağdam, Bakı, Bərdə, Çəmbərək, Kürdəmir, Şamaxı, Şuşa, Zəngilan) – beş xırda daşla oynanılan uşaq oyun adı, *yeddigəlin* (Qax, Oğuz) – mədəcik, *yeddirəng* (Lənkəran) - quş adı, *yeddilöyün* (Qax, Ordubad) –qarışıq, müxtəlif şirniyyat, *yeddiləvün//yeddilövün* (Ordubad) – xonça, şirni, *qırxkötük, qırxkömbə (*Dərbənd) - zaman adlarını bildirən sözlər, *dördayağ* (Quba) – yuxayayan, *yeddigəlin* (Meğri) -mal və heyvan qarnının bir hissəsi və s.

15. İsimlə sifətin birləşməsindən əmələ gələn sözlər. Məsələn: *çənəçürüx′* (Cəbrayıl, Füzuli) - çoxdanışan, *əliyuxa* (Ağdam, Oğuz, Şuşa) – kasıb, yoxsul, *zatıqırığ (*Bakı), *zatıqırıx* (Çəmbərək) – nəsli məlum olmayan və s.

16. İki sifətin irləşməsindən əmələ gələn mürəkkəb sözlər. Məsələn: *alayılıx* (Qazax) – ılıq, *uzunho:xar* (Quba, Sabirabad), *uzunhoqqar* (Çəmbərək) – uzunboylu, çox uzun və s.

17. Köməkçi feilin iştirakı əsasında əmələ gələn sözlər. Məsələn: *adax-çeçəx′ eləməx′* (Gədəbəy) –ilk addım atmaq, *danaboynu eləmək* (Füzuli)- birisinin boynunu güclə əymək, *çənə-bazar eləməx′* (Qazax) – mübahisə etmək, *qaroy olmax* (Çəmbərək, Tovuz) – kor olmaq, *toxdax olmax* (Çəmbərək) – təmkinli olmaq, *şüşə atmax* (Füzuli) – döyülmüş taxılı kürəklə sovurmaq, təmizləmək, *pəl vurmax* (Borçalı, Cəbrayıl) – mane olmaq, müəyyən bir işin düzəlməsinə mane olma, *çənə vurmax (*Çəmbərək) – boş-boşuna danışmaq və s.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan dilində

"KDQ"un izahlı lüğəti, 1999 –"Kitabi-Dədə Qorqud" un izahlı lüğəti, Bakı: Elm, 1999, 204 səh.

A. Bayramov, 2000- Bayramov A. Oğuz elindən- Oğuz dilindən, Bakı: Elm və təhsil, 2000, 250 səh.

A. Bayramov, A. Bayramova, 2014- Bayramov A.Ə., Bayramova A.A. Ağbaba şivəsi sözlüyü, Bakı: "AM963" MMC-nin mətbəəsi, 2014, 280 səh.

A. Bayramov, A. Bayramova, 2014- Bayramov A.Ə., Bayramova A.A. Azərbaycan dilinin Ağbaba şivəsi, Bakı: Elm və təhsil, 2020, 628 səh.

A. Vəliyev, 1961-Vəliyev A.H. Azərbaycan dilinin dialekt və şivələrinin monoqrafik tədqiqinə dair // S.M.Kirov ad. ADU-nun elmi əsərləri, № 1, 1961, s.73-81

A. Vəliyev, 1967-Vəliyev A.H. Ağdaş keçid şivələrində sait fonemlər sistemi haqqında bəzi qeydlər// ADU-nun elmi əsərləri, dil və ədəbiyyat ser., № 3, 1967, səh.39-45.

A. Vəliyev, 1975- Vəliyev A.H. Azərbaycan dialektologiyası (Keçid şivələrin morfologiyası və sintaksisi), tədris vəsaiti, Bakı: ADU nəşri, 1975, 118 səh.

A. Vəliyev, 2005- Vəliyev A.H. Azərbaycan dilinin keçid şivələğ, Bakı: Elm, 2005, 335 səh.

A.Axundov, 1984 – Axundov A. Azərbaycan dilinin fonetikası. Ali məktəb üçün vəsait, Bakı: Maarif, 1984, 392 səh.

A.Axundov, 2006- Axundov A. Ümumi dilçilik (Dilçiliyin tarixi, nəzəriyyəsi və metodları) Bakı:: Şərq-Qərb, 2006, 280 səh.

A.Aslanov, 1954- Aslanov A.Ə.. Sovet dövründə Azərbaycan ədəbi dilinin lüğət tərkibinin zənginləşməsi, fil.elm.nam.almaq üçün təqdim edilmiş dis., Bakı, 1954

A.Aslanov, 1970- Aslanov A. Dialektizmlər. Azərbaycan dilinin bədii üslubiyyatı (oçerklər), Bakı: Elm, 1970, s.61-66.

A.Hüseynov, 1970- Hüseynov A.Ə. Şimal-qərb şivələrində qoşmalar // V.İ.Lenin adına ADPİ-nin elmi əsərləri, №6, XI seriya, 1970, s. 44-46

A.Hüseynov, 1979- Hüseynov A.Ə. Azərbaycan dialektologiyası (dərs vəsaiti), Bakı: APİ nəşri, 1979, 89 səh.

A.Qurbanov, 2003-Qurbanov A. Müasir Azərbaycan ədəbi dili, I c., Bakı: Nurlan, 2003, 450 səh.

A.Qurbanov, 2007- Qurbanov A. Qərbi Azərbaycanın Cucikənd şivəsi, Bakı: CBS, 2007, 112 səh.

A.Məhərrəmov, 1961-Məhərrəmov A. Azərbaycan ədəbi dilinin sovet dövrü, Bakı: APİ, 1961, 85 səh.

A.Məhərrəmov, 1963- Məhərrəmov A. Ədəbi dili nədir? (Qiyabiçilər üçün vəsait), Bakı: APİ, 1963, 18 səh.

ADDL, 1964-Azərbaycan dilinin dialektoloji lüğəti, bircildlik, Bakı: Azərb.SSR EA, 1964, 479 səh.

ADDL, 2007- Azərbaycan dilinin dialektoloji lüğəti, Bakı: Şərq-Qərb, 2007, 568 səh.

ADİL, I, 1966 –Azərbaycan dilinin izahlı lüğəti, I c., Bakı: Azərb.SSR EA, 1966, 595 səh.

ADİL, II, 1980 - Azərbaycan dilinin izahlı lüğəti, II c., Bakı: Elm, 1980, 576 səh.

ADİL, III, 1983- Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı: Elm, 1983, 555 səh.
ADİL, IV, 1987 Azərbaycan dilinin izahlı lüğəti, IV c., Bakı: Elm, 1987, 544 səh.
ADQ, I, 1960 - Azərbaycan dilinin qrammatikası, I hissə (Morfologiya), Bakı: Azərbaycan EA nəşri, 1960, 324 səh.
ADL, I, 1999 - Azərbaycan dialektoloji lüğəti, I c., (A-L), Ankara: Türk Dil Qurumu KılıçaslanMatbaaçılık Ltd, 1999, 374 səh.
ATXŞL, I, 1930- Azərbaycan türk xalq şivələri lüğəti, I, (A hərfi), Bakı: Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun nəşriyyatı, 1930, 250 səh.
ATXŞL, II, 1931- Azərbaycan türk xalq şivələri lüğəti, II, (B hərfi), Bakı: Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun nəşriyyatı, 1931, 259 səh.
B. Əsgərov, 2001- Əsgərov B. Ağbabada qalan izlər, Bakı: Nurlan, 2001, 202 səh.
B.A.Əhmədov, 1999 –Əhmədov B.A. Azərbaycan dilinin qısa etimoloji lüğəti, Bakı: Mütərcim, 1999, 376 səh.
B.B.Əhmədov, 1979- Əhmədov B.B**.** Dialektologiyadan çalışma və tapşırıqlar (morfologiya və sintaksis), metodik vəsait, Bakı: APİ,1979, 57 səh.
B.B.Əhmədov, 1987- Əhmədov B.B. Azərbaycan dili şivələrində söz yaradıcılığı, Bakı: APİ, 1987.
B.B.Əhmədov, 1990 - Əhmədov B.B. Azərbaycan dili söz yaradıcılığında sadələşmə meyli. Şivə materialları əsasında (dərs vəsaiti), Bakı: APİ, 1990, 91 səh.
B.B.Əhmədov, **1990**-Əhmədov B.B. Azərbaycan dilində leksika məsələləri (şivələrdə söz yaradıcılığı), Bakı: Maarif, 1990, 140 səh.
B.B.Əhmədov, 1994- Əhmədov B.B. Azərbaycan dili şivələrində fono-semantik söz yaradıcılığı (dərs vəsaiti), Bakı: Bakı Universiteti nəşriyyatı, 1994, 200 səh.
B.Xəlilov, I, 2000 - Xəlilov B.Ə. Müasir Azərbaycan dilinin morfologiyası, I hissə, Bakı: Elm, 2000, 280 səh.
B.Sadıqov, 1977- Sadıqov B. Azərbaycan dilinin tarixi qrammatikasından xüsusi kurs: Dialekt və şivə materialları əsasında, Bakı: APİ nəşri, 1977, 103 səh.
Dərbənd dialekti, 2009- Azərbaycan dilinin Dərbənd dialekti, Bakı: Elm, 2009, 448 səh.
E.Əzizov, 1972 – Əzizov E. Ahəng qanunu və Azərbaycan dili quruluşunda onun yeri haqqında // ADU-nun elmi əsərləri, dil və ədəbiyyat seriyası, 1972, №5, s. 50-55
E.Əzizov, 1973 – Əzizov E. Azərbaycan dili dialekt və şivələrində saitlər ahənginin bəzi xüsusiyyətləri // ADU-nun elmi əsərləri, dil və ədəbiyyat seriyası, 1973, №2, s. 16-21
E.Əzizov, 1988- Əzizov E. Azərbaycan dialektologiyası proqramı, Bakı: ADU, 1988, 9 səh.
E.Əzizov, 1995- Əzizov E. Söz xəzinəsi. Söz haqqında araşdırmalar, Bakı: Maarif, 1995, 128 səh.
E.Əzizov, 1999 – Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı (dərs vəsaiti), Bakı: Bakı Universiteti nəşriyyatı, 1999, 354 səh.
Ə.Dəmirçizadə, 1947-Dəmirçizadə Ə. Azərbaycan dilçiliyi inqilab meyvəsidir // Azərbaycan SSR EA Xəbərləri, 1947, № 10, s. 161-171
Ə.Dəmirçizadə, 1958- Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin inkişaf yolları, Bakı: Azərb. SSR Siyasi və elmi bilikləri yayan cəmiyyət, 1958, 1958, 44 səh.
Ə.Dəmirçizadə, 1962- Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı, ali məktəblər üçün dərs vəsaiti, Bakı: Azərbaycan Dövlət Tədris-Pedaqoji Ədəbiyyatı, 1962, 272 səh.

Ə.Dəmirçizadə, 1967- Dəmirçizadə Ə. Azəri ədəbi dil tarixi (giriş), Bakı: APİ, 1967, 86 səh.
Ə.Dəmirçizadə, 1979- Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi (dərslik), Bakı: Maarif, 1979, 268 səh.
Ə.Ələkbərli, 2000- Ələkbərli Ə. Qərbi Azərbaycan, I c., Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları), Bakı: Ağrıdağ, 2000, 664 səh.
Ə.Ələkbərli, 2002-Ələkbərli Ə. Qərbi Azərbaycan, II c., Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları (Zəngibasar, Qəmərli və Ellər rayonları), Bakı: Ağrıdağ, 2002, 736 səh.
Ə.Ələkbərli, 2009- Ələkbəli Ə. Qərbi Azərbaycanın dialektoloji lüğəti, I kitab, İrəvan Çuxuru (Vedibasar, Gərnibasar, Zəngibasar və İrəvan şəhəri), Bakı: Ağrıdağ, 2009, 192 səh.
Ə.Əliyev, 2003-Əliyev Ə. Azərbaycan dilinin Meğri şivələri,Bakı: Elm,2003,580 səh.
Ə.Quliyev, N.Əliyeva, 2017- Quliyev Ə.A., Əliyeva N.Y. Naxçıvan dialekt və şivələrin lüğəti, Naxçıvan: "Əcəmi" nəşriyyatı, 2017, 296 səh.
Ə.Rəcəbov, Y.Məmmədov, 1993- Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri, Bakı: Yazıçı, 1993, 400 səh.
Ə.Tanrıverdi, 2002- Tanrıverdi Ə. "Kitabi-Dədə Qorqud" və Qərb ləhcəsi, Bakı: "Təhsil" Elm İstehsalat Mərkəzi, 2002, 171 səh.
Ə.Tanrıverdi, 2010- Tanrıverdi Ə. Azərbaycan dilinin tarixi qrammatikası, Bakı: Elm və təhsil, 2010, 458 səh.
F.Köçərli, 1978-Köçərli F. Azərbaycan ədəbiyyatı, I c., Bakı: Elm, 1978, 600 səh.
F.Zeynalov, 1958-Zeynalov F.R. Sovet dövründə Azərbaycan dilində ictimai və siyasi sözlərin əmələ gəlməsinə dair bəzi qeydlər // ADU-nun filoloji fakültəsinin əsərləri, Bakı, 1958, s.105-110.
G.Vəliyeva, 1987 – Vəliyeva G.Q. Canlı müşahidə // Türk dillərinə dair etimoloji və tarixi morfoloji tədqiqlər (Elmi əsərlərin tematik məcmuəsi), Azərbaycan Dövlət Universiteti, 1987, s. 82-84
H. Rəhimoğlu, 1997- Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar, Bakı: Azərnəşr, 1997, 260 səh.
H.Bayramov, 1978 - Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları (dərs vəsaiti), Bakı: Maarif, 1978, 176 səh.
H.Mirzəyev, 2003- Mizrzəyev H.İ.. Dərələyəz mzhalının toponimləri və şivə sözləri, Bakı: Ağrıdağ, 2003, 360 səh.
H.Mirzəyev,, 1986- Mizrzəyev H.İ. Azərbaycan dilində feil, Bakı:Maarif, 1986, 320 səh.
H.Mirzəzadə, 1953-Mizrzəzadə H.İ. Azərbaycan dilinin tarixi qrammatikasına aid materiallar: Fonetika, morfologiya, Bakı: ADU, 1953, 100 səh.
H.Mirzəzadə, 1957- Mizrzəzadə H.İ. Füzuli dilinin leksik tərkibi haqqında // Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əsərləri, dilçilik seriyası, XIII c., 1957, s.161-183.
H.Mirzəzadə, 1990- Mizrzəzadə H.İ. Azərbaycan dilinin tarixi qrammatikası (dərslik), II nəşri, Bakı: Azərbaycan Universiteti, 1990, 376 səh.
İ.Bayramov, 1999- Bayramov İ.M. Müasir Azərbaycan ədəbi dilinin zənginləşməsi yolları (dərs vəsaiti), Bakı: ADPU, 1999, 127 səh.
İ.Bayramov, 2000-Bayramov İ. Qərbi azərbaycan toponimlərinin tərkibində işlənən söz və coğrafi terminlər lüğəti, Bakı: Elm, , 2000, 106 səh.

İ.Bayramov, 2002-Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri, Bakı: Elm, 2002, 696 səh.

İ.Bayramov, 2005- Bayramov İ. Qərbi Azərbaycanın toponimlər sistemi, Bakı: Elm, 2005, 432 səh.

İ.Bayramov, 2011- Bayramov İ. Azərbaycan dilinin dialekt leksikası (dərs vəsaiti),Bakı: Elm və təhsil, 2011, 120 səh.

İ.Bayramov, 2011- Bayramov İ. Qərbi Azərbaycan şivələrinin leksikası (dərs vəsaiti),Bakı: Elm və təhsil, 2011, 440 səh.

İ.Hacıyeva, 1953- Hacıyev İ.Ə. Sovet hakimiyyəti illərində Azərbaycan dilinin lüğət

İ.Kazımov, 2014– Kazımov İ. Mahmud Kaşğari "Divan"i və çağdaş türk dilləri, Bakı:2014, 224 səh.

İ.M.Məmmədov 196 - Məmmədov İ.M. Azərbaycan dilinin Ermənistan qrupu şivələrində bir qrup feillər//M.F.Axundov adına APDİ-nin professor-müəllim heyətinin 1967-ci ilə aid elmi-tədqiqat işlərinin yekunlarına həsr olunmuş elmi sessiyasının materialları, Bakı, 1968, s.36-38

İ.M.Məmmədov 1965 - Məmmədov İ.M. Ermənistan SSR-də Azərbaycan şivələrində isim düzəldən qeyri-məhsuldar şəkilçilər//M.F.Axundov adına APDİ-nin professor-müəllim heyətinin elmi konfransda etdikləri məruzələrin tezisləri. Bakı, 1965, s.35-38

İ.M.Məmmədov 1966 - Məmmədov İ.M. Azərbaycan dilinin Ermənistan qrup şivələrinin bəzi fonetik xüsusiyyətləri//Azərbaycan Pedaqoji Dillər İnstitutunun elm əsərləri. Dil və ədəbiyyat seriyası, 1966, № 2, s. 69-105

İ.M.Məmmədov 1967 - Məmmədov İ.M. Azərbaycan dilinin Ermənistan qrup şivələrində sifətlər//M.F.Axundov adına APDİ-nin professor-müəllim heyətinin 1965-ci il elmi işlərinin yekununa həsr edilmiş elmi konfransının materialları, Bakı, 1967, s.137-138

İ.M.Məmmədov 1969 - Məmmədov İ.M. Azəri dilinin Ermənistan qrupu dialekt və şivələrində bəzi sözlər haqqında//M.F.Axundov adına APDİ-nin professor-müəllim heyətinin 1968-ci ildə elmi-tədqiqat işlərinin yekunlarına həsr olunmuş elmi sessiyasının materialları, Bakı, 1969, s.25-27

İ.M.Məmmədov 1972 - Məmmədov İ.M. Ermənistan SSR ərazisində Azərbaycan dili şivlərəində arxaizmlər/Тезисы докладов X научной сессии, посвещеной итогом научно-исследоватеlъских работ республики координируемым АН Азербайджанской ССР проблемам естественных и общественных наук за 1972 год Баку, 15-16 мая, 1973 г., Баку, Елм, 1973, с.77-79

İraq-Türkman, 2004-İraq-Türkman ləhcəsi,Bakı: Elm,2004, 432 səh.

İrəvan əyaləti, 1996-İrəvan əyalətinin icmal dəftəri (Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: akad. Z.Bünyatov və H.Məmmədov (Qaramanlı), Bakı: 1996, 184 səh.

K.Ramazanov, 1953- Ramazanov K. Noraşen rayonu (Şərur rayonu – İ.B.) şivələrinin bəzi xarakter morfoloji xüsusiyyətləri//Azərbaycan SSR EA Ədəbiyyat və Dil İnsititutunun əsərləri, V c., 1953, s.123-129

K.Səmədova, 2013 - Səmədova K.İ.Şimal-Qərb qrupu dialekt sözlərinin lüğəti və arealları (Şəki, Qax, Zaqatala, Balakən), (Şəki-Zaqatala bölgəsi şivələrinin materialları əsasında), Bakı: Elm və təhsil, 2013, 92 səh.

KDQ, 1977 - Kitabi - Dədə Qorqud (Tərtib edən: H.Araslı), Bakı: Gənclik, 1977, 183 səh.

KDQ, 1988 - Kitabi - Dədə Qorqud (Tərtib edənlər: F.Zeynalov, S.Əlizadə), Bakı: Yazıçı, 1988, 265 səh.

Q. Hacıyeva, 2017- Hacıyeva Q Azərbaycan dilinin Naxçıvan qrupu şivələrinin Güney Azərbaycan və Şərqi Anadolu şivələri ilə fonetik və leksik müqayisəsi (dərs vəsaiti), Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2017, 328 səh.

Q.Kazımov, 2003- Kazımov Q. Azərbaycan dilinin tarixi (Ən qədim dövrlərdən XIII əsrə qədər), Bakı: Təhsil, 2003, 584 səh.

Q.Kazımov,2011- Kazımov Q.Ş. Azərbaycan dili dialekt və şivələrinin lüğəti. **S.Behbudov. Azərbaycan dili şivələrinin frazeoloji lüğəti, Bakı, Elm və təhsil**, 2011, s.3-7.

Qərb qrupu şivələri, 1967-Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, I c., Bakı: Azərb.SSR EA, 1967, 281 səh.

M. Cəfərzadə, 1990- Cəfərzadə M. Azərbaycan dilinin dialekt sintaksisi, Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1990, 349 səh.

M. Çobanov, 1972- Çobanov M. Gürcüstan alimləri Azərbaycan dilinin şivələrini tədqiq edirlər // ADU-nun elmi əsərləri, Dil və ədəbiyyat ser., № 5, 1972, s. 104-106

M. Çobanov, 1998- Çobanov M. Borçalı şivələrinin leksikası, II c., Bakı: Təhsil, 1998, 64 səh.

M. Məmmədli, 2003- Məmmədli M.Ə. Azərbaycan dili şivələrində ismin qrammatik kateqoriyaları, Bakı:Elm, 2003, 264 səh.

M. Məmmədli, 2008- Məmmədli M.Ə. Azərbaycan dilinin Təbriz dialekti (dərs vəsaiti), Bakı: "Zərdabi LTD" MMC, 2008, 240 səh.

M. Nəzərova, 1999- Nəzərova M. Məmmədağa Şirəliyev və Azərbaycan türkologiyasının problemləri, Bakı: Elm, 1999, 116 səh.

M. Şirəliyev, 1941-Şirəliyev M. Azərbaycan dialektologiyası, I h., Bakı, 1941, 72 səh.

M. Şirəliyev, 1949 - Şirəliyev M.Ş. Naxçıvan dialekti (Ümumi qeydlər) // Azərbaycan SSR EA Xəbərləri, 1949, № 5, 76-92

M. Şirəliyev, 1957- Şirəliyev M. Bakı dialektı: II nəşri, Bakı: Azərb. SSR EA nəşriyyatı, 1957, 227 səh.

M. Şirəliyev, 1963-Şirəliyev M. Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Azərbaycan dialektologiyası şöbəsinin 1961-ci ildə Gədəbəy və Daşkəsən rayonlarında keçirdiyi dialektoloji ekspedisiyanın yekunları//Dilçilik məcmuəsi, Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əsərləri, XVII c., Bakı, 1963, s.124-128

M. Şirəliyev, 1967- Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları (Ali məktəb tələbələri üçün dərs vəsaiti), II nəşri, Bakı: Maarif, 1967, 421 səh.

M.Cahangirov, 1978-Cahangirovв M. Azərbaycan milli ədəbi dilinin təşəkkülü, Bakı: Elm, 1978, 235 səh.

M.Cavadova, 1977 -Cavadova M. Şah İsmayıl Xətainin leksikası ("Dəhnamə" poeması üzrə), Bakı: Elm, 1977, 216 səh.

M.Hüseynova, 2018- Hüseynova M. Azərbaycan dilinin yemək və içki adlarının tarixi-etimoloji lüğəti, Bakı: ADPU, 2018, 196 səh.

M.Hüseynova, 2020- Hüseynova M. Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası, Bakı: ADPU, 2020, 600 səh.

M.Hüseynzadə, 1954 - Hüseynzadə M. H. Müasir Azərbaycan dili: Leksika, fonetika, morfologiya (dərs vəsaiti), Bakı: ADU, 1954, 244 səh.

M.Hüseynzadə, 1983 – Hüseynzadə M. H. Müasir Azərbaycan dili, III hissə, Morfologiya, Bakı: Maarif, 1983, 319 səh.
M.İslamov ADDA, 1990 – İslamov M.İ., Ağayev Ə.Q., Behbudov S.M., Əhmədov T.M., Məmmədov N.X., Tağıyev B.M., Xasıyev Z.Ə. Azərbaycan dilinin dialektoloji atlası, Bakı: Elm, 1990, 284 səh.
M.İslamov, 1968 – İslamov M.İ. Azərbaycan dilinin Nuxa dialekti, Bakı: Azərbaycan EA nəşri, 1968, 275 səh.
M.İslamov, 1986 – İslamov M.İ. Türk dillərində əvəzliklər (Azərbaycan dili dialekt və şivələrinin materialları əsasında), Bakı: Elm, 1986, 204 səh.
M.Kaşğari, I 2006-Kaşğari M. Divanü Lüğat-it-türk, I c.,., Bakı: Ozan , 2006, 512 səh.
M.Qasımov, 1957- Qasımov M. Ş. Sovet dövründə Azərbaycan dialektologiyasının inkişafı// Nizami adına Ədəbiyyat və Dil İnstitutu, X c., 1957, s.197-210.
M.Məmmədli, 2011 – Məmmədli M. Azərbaycan dialektologiyasına dair mühazirələr (metodik vəsait), Bakı: "Zərdabi LTD" MMC, 2011, 104 səh.
M.Məmmədli, 2019- Məmmədli M.Ə. Azərbaycan dialektologiyası, Bakı: "Zərdabi Nəşr" MMC, 2019, 352 səh.
M.Rəhimov, 1965- Rəhimov M.Ş. Azərbaycan dilində feil şəkilllərinin formalaşması tarixi, Bakı: Azərbaycan EA nəşri, 1965, 267 səh.
M.Yusifov, 1984 – Yusifov M. Oğuz qrupu türk dillərinin fonetikası, Bakı: Elm,1984, 152 səh.
MAD, II, 1980 - Müasir Azərbaycan dili (Morfologiya), II c., Bakı: Elm, 1980, 510 səh.
Muğan qrupu şivələri, 1955 – Azərbaycan dilinin Muğan qrupu şivələri, Bakı: Azərbaycan EA nəşri, 1955, 262 səh.
N.Aşmarin, 1924- Aşmarin N.İ. Lüğət üçün Azərbaycan türk şivələrinin toplanmasına dair // Maarif və mədəniyyət, 1924, № 1, c.33-34.
N.Əliyeva, 2012- Əliyeva N. Azərbaycan dilinin Şahbuz şivələri, Bakı: Elm və təhsil, 2012, 192 səh.
N.Xudiyev, 1989-Xudiyev N. Azərbaycan ədəbi dilinin sovet dövrü (dərs vəsaiti), Bakı: Maarif, , 1989, 402 səh.
N.Məmmədov, 1958-Məmmədov N. Dilin lüğət tərkibinin zənginləşməsinin mənbə və üsullarına dair, Bakı: ADU, 1958, 36 səh.
N.Məmmədov, 1971- Məmmədov N. Azərbaycan dilçiliyinin nəzəri əsasları (dərs vəsaiti), Bakı: Maarif, 1971, 368 səh.
N.Məmmədov, A. Axundov, 1980- Məmmədov N., Axundov A. Dilçiliyə giriş (dərslik), Bakı: Maarif, 1980, 315 səh.
Naxçıvan qrupu şivələri, 1962 – Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, Bakı: Azərbaycan EA nəşri, 1962, 327 səh.
Naxçıvan qrupu şivələri, 1962- Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri, Bakı: Azərb. SSR EA nəşriyyatı, 1962, 327 səh.
Naxçıvan sancağı, 1997- Naxçıvan sancağının müfəssəl dəftəri (Giriş və tərcümə müəllifləri: akad. Z.Bünyatov və H. Məmmədov (Qaramanlı), Bakı: Sabah, 1997, 336 səh.
Oğuz qrupu, 1986 – Oğuz qrupu türk dillərinin müqayisəli qrammatikası (II hissə, Morfologiya), Bakı: Elm, 1986, 134 səh.
R. Abbasova, 2006- Abbasova R. Azərbaycan diliin Qubadlı şivələri, Bakı: "Çinar-Çap" nəşriyyatı, 2006, 204 səh.

R.İsrafilova, 1971-İsrafilova R.İ. Sovet dövründə Azərbaycan dili lüğət tərkibinin daxili imkanlar hesabına zənginləşməsi və lüğətlərdə onun əks olunması, fil.elm.nam.almaq üçün təqdim edilmiş dis., Bakı, 1971

R.Kərimov, 1973- Kərimov R. Şamxor şivələrində köməkçi nitq hissələri //S.M.Kirov adına ADU- nun elmi əsərləri, dil və ədəbiyyat seriyası, 1973, №1, s. 70-76

R.Rüstəmov, 1961-Rüstəmov R. Quba dialekti, 1961, 283 səh.

R.Rüstəmov, 1965- Rüstəmov R.. Azərbayca dili dialekt və şivələrində feil, Bakı: Azərb. SSR EA, 1965, 320 səh.

R.Süleymanov, 1953- Süleymanov R.Ordubad və Culfa rayonları şivələrinin leksik xüsusiyyətləri //Azərbaycan SSR EA Ədəbiyyat və Dil İnstitutunun əsərləri, V cild 1953, s.130-141

S. Behbudov, 2003- Behbudov S.M. Azərbaycan dili şivələrinin omonimlər lüğəti, Bakı: Nurlan, 2003, 206 səh.

S.Behbudov, 2011- Behbudov S.M. Azərbaycan dili şivələrinin frazelogiya lüğəti, Bakı: Elm və təhsil, 2011, 292 səh.

S.Cəfərov, 1945-Cəfərov S. Dilimizin lüğət tərkinin inkişaf yollarına dair //Azərbaycan məktəbi, №1, 1945, s.15-19.

S.Cəfərov, 1960- Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı, Bakı: ADU, 1960, 204 səh.

S.Cəfərov, 1970- Cəfərov S. Müasir Azərbaycan dili: II hissə, Leksika (dərslik), Bakı: Maarif, 1970, 236 səh.

S.Sadıqova, 2018 – Sadıqova S. Azərbaycan ədəbi dilinin arxaik morfemləri (Qərbi azərbaycan şivələri ilə müqayisədə), Bakı: ADPU, 2018, 205 səh.

S.Zeynal, E.Abışov, 2019 - Zeynal S., Abışov E. Tivi şivəsinin izahlı lüğəti, Bakı: Elm və təhsil, 2019, 164 səh.

Ş. Kərimov, 2004- Kərimov Ş. Azərbaycan dilinin Çənbərək və Karvansaray şivələri, Bakı: Nurlan, 2004, 362 səh.

Ş. Məmmədov, 2004 - Məmmədov Ş. X. Azərbaycan dilinin Yardımlı şivələri (avtoreferat), Bakı, 2004, 26 səh.

Ş.Xəlilov, 1988-Xəlilov Ş.X. « Əsrarnamə»nin dili,Bakı: Elm,1988, 188 səh.

T. Hacıyev, 1960- Hacıyev T. Cəbrayıl şivələrinin fonetikası//S.M.Kirov adına ADU-nun elmi əsərləri, ictimai elmlər seriyası, 1960, s.3-15

T. Hacıyev, K.Vəliyev, 1983-Hacıyev T.İ., Vəliyev K.N. Azərbaycan dili tarixi. Oçerklər və materiallar, Bakı: Maarif, 1983, 187 səh.

T.Əfəndiyeva, 1980-Əfəndiyeva T. Azərbaycan dilinin leksik üslubiyyatı (Bədii üslub), Bakı: Elm, 1980, 251 səh.

tərkibindəki dəyişikliklər haqqında bəzi qeydlər // Azərbaycan məktəbi, №1, 1953, s.37-44.

V.Mursaquliyev, 1975- Mursaquliyev V. Ədəbi dil və dialekt arxaizmlərinə dair // Azərb. SSR Азярб. ССР Ali və Orta İxtisas Təhsili Nazirliyinin elmi əsərləri, dil və ədəbiyyat ser., , №2, 1975, s.67-71.

V.Mursaquliyev, 1975-Mursaquliyev V. Azərbaycan sovet şeirində dialektizmlərin rolu// Azərbaycan SSR EA Xəbərləri, Ədəbiyyat, dil və İncəsənət ser., 1975, № 2, s.64-72.

V.Mursaquliyev, 1979- Mursaquliyev. V.Azərbaycan sovet dramlarında dialektizm-lər//Azərb. SSR Ali və Orta ixtisas Təhsil Nazirliyinin ilmi əsərləri, Dil və Ədəbiyyat

seriyası, 1979, № 2, s.55-59.
Y. Məmmədov, 1979 - Məmmədov Y. Orxon-Yenisey abidələrində adlar (isim, sifət, say, əvəzlik), dərs vəsaiti, Bakı: APİ nəşri, 1979, 112 səh.
Y.Camalov,1978 - Camalov Y. Ermənistan SSR ərazisindəki Azərbaycan şivələrinin ismin halları//Azərb. SSR EA Xəbərləri, ədəbiyyat, dil və incəsənət seriyası, 1978, №4, s.65-67
Y.Camalov,1979- Camalov Y. Ermənistan SSR ərazisindəki Azərbaycan şivələrində ismin hallarının sintaksisi//Azərb. SSR EA Xəbərləri, ədəbiyyat, dil və incəsənət seriyası, 1979, №4, s.108-112
Z.Vəliyev, 1954-Vəliyev Z. Basarkeçər rayonu şivələri, fil. elm. namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya, İrəvan, 1954, 296 səh.
MAD, 1978 - Müasir Azərbaycan dili (Fonetika, əlifba, orfoqrafiya, orfoepiya, leksikologiya), I c., Bakı: Elm, 1978, 324 səh.

Türk dilində

Erdal Karaman, 2011 – Erdal Karaman. Ermenistan Türklerinin ağızları: incelem – Metn – Dizin ve Sözlük, İstanbul, 2011 506 səh.

Рус дилиндя

А. Бабазаде,1939- Бабазаде. А. Изучение айрумского говора азербайджанского языка// SSRİ EA, Azərbaycan filalının xəbərləri, № 3, 1939, с. 79-80
А. Велиев, 1966- Велиев. А. К проблем переходного говора в азербайджанском языка // Вопросы диалектологии тюркских языков, т. IV, Баку, 1966, стр.58-65.
А. Чикабова, 1953- Чикабова А.С. Введение в языкознание, ч.I, М., 1953
А. Шарифов, 1936- Шарифов. А.М. К итогам Шемахинской лингвистической экспедиции АЗФАН-а // Известия Азербайджанского филиала АН СССР, 1936, № 2, с. 55-59
А.Велиев,1966 -Велиев А.Г. О диалектологической работе в Азгосуниверситете// Вопросы диалектологии тюркских языков, Труды Института Литературы и Языка им Низами, т. XII, 1958, с.123-124
А.Ефимов, 1954-Ефимов А.И. О языке художественных произведений, М., 1954.
В. Жирмунский, 1936-Жирмунский В. Национальный язык и социальные диалекты, Л., 1936.
В.В.Радлов, 1905 – Радлов В.В. Опыт словаря тюркских наречий, т III, ч. I, СПб, 1905, 1260 стр.
В.Джангидзе, 1965 –Джангидзе В.Т. Дманисский говор Казахского диалекта Азербайджанского языка, Баку: Изд.ство. АН Азерб. ССР, 1965, 154 стр.
В.Радлов, 1899 - Радлов В.В. Словаря тюркских наречий, т.II, ч.1-2, СПб, 1899, 1814 стр.
В.Радлов, I, 1893-Радлов В.В. Опыт словаря тюркский наречий, т.I, ч.1-2, СПб, 1893, 1914 стр.
Г.Багиров, 1966 - Багиров Г.А. Говоры Азербайджанский языка Сисианского района Армянской ССР, автореф. дис… канд. филол. Наук, Баку, 1966, 25 стр.
Г.Гейбуллаев, 1991-Гейбуллаев Г. К этногенезу азербайджанцев, т.I, Баку: Элм, 1991, 552 стр.
ДТС, 1969-Древнетюркский словарь, Л.:Наука, 1969, 676 стр.
К .Горбачевич, 1973- Горбачевич К.С. Нормы современного литературного языка, М., 1973.

Л .Щерба, 1939-Щерба Л.В. Современный русский язык // Русский язык в школе, 1939, № 4

Л.Булаховский 1952-Булаховский Л.А. Курс руского литературного языка, т. I, Киев, 1952, 447 стр.

Л.Булаховский, 1954-Булаховский Л.А. Введение в языкознание, ч.II, М., 1954.

Л.Щерба, 1957-Щерба Л.В. Современный русский язык. В его кн: Избр. работы по русскому языку, М., 1957.

М.Ширалиев, 1941-Ширалиев М.А. К вопросы об изучении и классификации азербайджанских диалектов// Известия Азербайджанского филиала АН СССР, 1941, № 4, 17-24

М.Ширалиев, 1960- Ширалиев М.А. Проблема диалектного членения языка// Вопросы диалектологии тюркских языков, т. II, Баку, 1960, с.96-102.

М.Ширалиев, 1983- Ширалиев М.Ш. Диалекты и говоры азербайджанского языка, Баку: Элм, 1983, 197 стр.

М.Ширалиев, М. Рагимов, 1973-Ширалиев М.Ш., Рагимов М.Ш. Азербайджанский язык //Закономерности развития литературных языков народов СССР в советскую эпоху (внутри-структурное развитие старописьменных языков), М.:Наука, 1973, с.222-272.

Н.Баскаков, 1964- Баскаков. Н.А. Карапапахи, или терекеме, и изучение их языка (из материалов по азербайджанском диалектам Армении)// Краткие сообщения Института народов Азии (сборник памяти Е.Э.Бертелса), № 65, М.1964, с. 25-31

Р. Аванесов, 1954-Аванесов Р.И. Общенародный язык и местные диалекты, М., 1954

Р.Аванесов, 1955-Аванесов Р.Н. Литературный язык и его отношениях к системе общенародного языка. – Открыток расширенное заседание ученого совета, 13-16 июня 1955. Тезисы и докладов и выступлений, М., 1955.

Р.Будагов, 1961-Будагов Р.А. Литературнык языки и языковые стили, М., 1961.

Р.Будагов, 1961-Будагов Р.А. Проблемы изучения романских литературных языков, М., 1961.

С.Бехбудов, 1966- Бехбудов. С. Зангеланский говор Азербайджанского языка, автореферат, Баку, 1966, 25 стр.

Т.Гаджиев, 1962 – Гаджиев Т. Джебраильский говор азербайджанского языка, автореф. дис. канд.филол. наук, Баку, 1962, 21 стр.

Т.Гараев, 1979-Гараев Т.А. Общетюркская лексика западных диалектов и говоров азербайджанского языка // Азярб.ССР ЕА хябярляри, ядябиййат, дил вя инъясянят серийасы, №4, 1979, с.97-101.

Т.Дегтерева, 1963-Дегтерева Т.А. Становление норм литературного языка, М., 1963.

Ф.Бабаев, 1988 - Бабаев Ф.С. Азербайджанские говоры Масиского района Армянского ССР, автореф. дис… канд. филол. Наук, Баку, 1988, 29 стр.

Ф.Филин, 1973-Филин Ф.П. Что такое литературный язык // Вопросы Языкознание, 1973, № 3

Э.Мурзаев, 1984-Мурзаев Э.М. Словарь народных географических терминов, М.:Мысль, 1984, 653 стр.

Э.Севортян, 1974- Севортян Э.В. Этимологический словарь тюркских языков (Общетюркские и межтюркские основы на гласные), М.:Наука, 1974, 767 стр.

Dialektoloji Mətnlər

Şərq şivələri

Hekayə

No:xanı kəndində bir nalbənd olur. Bir nəfər Saray kəndinnən ati gətirir nallatmağa. At bədnal olur. Bu hərçi bağliyir at diyammır; so:ra bu ati gətirir dilinnən bağliyir; so:ra ati nalliyir. Mıxı^{i} vıranda, at çapaliyir, doli qırılır. Bir neçə keçir mınun üssünnən. Oğlan taza toy eliyibmiş. Qaynatası xəbər göndərir o:nçun, gəlsün mənə komeg elesün, taxılı pĭçeg. Bu oğlan da gəlir. Daha bu kĭşĭnin yanna gəlmir, başdiyir bir tərəfdən pĭçmege. Kĭşĭ çağırır ki, gəl çöreg yeyeg. Oğlan da gəlir eyləşir, hindi isdi:r ki, qeynatasi ilə söhbet edə, bir qədər açıla. *Kĭşĭdən* xəbər alır:

-Ay əmi !

Di:r:-Qado^{i} alım nə diəsən?

Oğlan di:r:

-Nə meyvədü güli yox, nə heyvandu dili yox ?

Kĭşĭ cavab vərür:

-Qado^{i} alım, əncil ağacudu güli yox, saraylınun atıdu dili yox.

Oğlan mĭnı eşidən kimi, acıq eli:r, çıxır gedir.

(Bakı, Masazır kəndi.

Mənbə: Şirəliyev M. Bakı dialektı: II nəşri, Bakı: Azərb. SSR EA nəşriyyatı, 1957, s.219)

Əmir Çupan

Əmir çupanın ixtilatınnan biləmədəm, Əmir çupanin.

Buanda bir xarman var. Urada ulardı bir-iki yekə adam vardı bir. Yaxşı ircbərdi dört qomuşuynan birgə. U axşam ulanda utuz sabu yükliyib arabıya (u qabağısi nükərdi, biz qazağ diyüdüg una) u düşib qabağına apareyduğ axşam utuz sabu buğda arabeynan. Sura u Əmir çupan boy sürüp pencərədən baxıb una (bələ büyig pencərələri uleydi unun), tapança – iki tapança, xincal, bilə ikigözdü tüfeng, bir belə yük üzüni arabasında, baxıb ki, nə övliya kişidi diyitdi... Bu diyitdi unundi, u diyitdi bunundi, taxta tramdi diyitdi. Nə övliya adamdı üzüni çarxinə əziyyət vəritdi. Əmir Çupan hələ diyitdi una, u kişiyə. Bizdə ədətdi tapança, xincal, tüfəng gütərmeg ədətdi.

Çəltik ekeydig. U çux zəhmətdi şeydi. Çala kəseydig. Bax uni bu furmu bələ, bələ kəseydig, burda su uleydi. U suvun içində biteydi. Çux zəhmətdi şeydi. Bələ küp diyən şey ulardı, küpdiyən şey. Uni (çəltiyi) tükərdig una. Unnan sura çaxartıb... u urda cücərərdi. Cücərəndə suvun kəsərdig. Bir az qoruyanda su vərərdig. Pastayannı unda su ulsun gərəg, belə su ulsun gərəg. Uni mayda ekeydig. Bu sa:t unun indi biçən vaxtıdı. Biz bicmeydig uni, başqa çağrısaydıq ayrı adamlar gəleydi biçmağa, bizi adam bilmeydi uni biçmağa. Ular biçip bələ tup-tup bağlayib getirib xarmanda dügeydig, ding daşi diyeydüg. Biri də vardı su. Sunan da dügmağ uleydi, ayağnan dda dügmağ uleydi, bir də daşnan.

(Dərbənd rayonu Qaradağlı kəndi Yaqub Xıdırbegov Xıdırbeg oğlu, 71 yaşında

Mənbə: Azərbaycan dilinin Dərbənd dialekti, Bakı:Elm, 2009, s.372)

Alpan kəndi

Ağıllı kərpiç

Keçmişdə Həriyolla addı[i] bir kişinün iki uğli vardi. Birinün adı[i] Əhəd, u birsinün adı[i] Vəhəd olmiş. Buların atasĭnın çux varı[i] – düləti olmiş.

Günnərin birində Həriyolla Əhədi üləndirədi. Bir az keçmiş Vəhədi də ü:ləndirədi. İki qərdeş atasĭnın sağlığında bir yərdə yaşıyıtdılar. Atası[i] ülən kimi Əhədnən Vəhədin arvatdarı[i] di:b:

- Bu nə süzdür, biz bir yərdə yaşiyə bilmiduğ. Bizi ayırun.

Qərdeşdər də arvaddarĭnun süzünnən çixmağ isdəməyib, ata malĭnı[i] üvin tən urtasĭna tüküb paylamağa başdadılar. Bu vaxt irəfin altinnən bir kərpiç çixib urtaya düşdi, dilə gəlib didi:

-Süz nöçün ayrula varsuz. Vaxtilə mən də atavuz kimi dülətdi adam idim. Sora məni üldürüb süzün üvü:zün dalında basdırmışdılar. Süzün üvləri təzə tikəndə məni basdıran yərdə kərpiç kəsdilər. U vaxd məni də kərpic kəsib süzün bariyə quydular. U vaxtdan bu sata kimi bu baridəyəm. Adam arvada inanub qərdeşdən ayrulmaz.

Qərdeşdər bu süzdəri işidib, ayrilmiyib bir yərdə yaşamağa başdadılar.

(**Mənbə:** R.Rüstəmov. Quba dialekti, Bakı, 1961, s.213)

Nağıl

Bir dənə Zəringar xanım vardı[i]. Bı Zəringar xanım çox yaman aşığ idi. O and kimindi ki, bı and məni üçün olsun, hansı aşığ məni bağlasa, mən ona gedəcəm. Ancağ hansı[i] aşığ da bağlamasa, qırx tamam olanda, salacam zindana, gündə bir çörəg verəcəm. Qırx tamam olanda, aşığlar məni bağlaya bilməsə, qırxının da boynın vırdıracaôm.

Hə, bĭnı diyənnən so:ra bı aşığlığ bilənnər dedi ki, gedib onı[i] bağlıyacam və alacağam. So:ra otuz doqqızı[i] da kimi aşığ kimdi, hamsĭnın zəncirrədi, yıxdı[i] böyri üstə. Qırx tamam olanda, bınnarın boynı[i] vırĭlacağdı. Bĭni so:rışan aşığlar aşığlığ bilən aşığlar də qaçdı[i] gizləndi ki, bizim də boynımız vırĭlacağ. Bı səfər bı hər yerə kağız yazdı[i] göndərdi ki, kim aşığdırsa, gəlsin heç bir aşığ tapılmad. Ancağ Dərbət[c] tərəfindən bir cavan oğlan gedib, Qarabağda Abdagülal mə:ləsində məkdəbdə oxıyırdı[i].

Bı səfər məkdəb bağlanan zamanda həmin oğlan getmişdi. Dərbət[c] şə:rinə öz kətdərinə. Orda sorışdı[i] ki, kətdə nə var, nə yox, itənnən qalannan? So:ra didi: Zəringar xanım neçədi? Bĭna cavab verdilər ki, Zəringar xanım otuz doqqız aşığı vırıb bəndə, nə öldürmir, nə də ki, bıraxmır. Qırx tamam olanda ya məni bağlasın, ona gedim, ya da bıların boynın vıracağam. Ona görə bĭranı[i] tanımır. Həmən oğlan Qarabağda oxıyan zaman...

Bir yoldaşı[i] sorışdı[i] ki, sən nə üçün tələsirsən ki, məkdəbdən tez çıxağ gedək? Didi, ona görə ki, mən günortadan so:ra aşığdan aşığlığ dərsi alıram, molla bilməsin, bilsə, məni də dögüb öldürər. Ona görə o oğlan bĭni dimədi heç yerdə. Odır ki, Dərbət[c] şə:rinə gəldi.Ona dedilər. Zəringar xanım aşığları belənçig eləyib. Həmən Valehin söhbəti bĭnın yadĭna düşdi. Didi, bəs onda didi Zəringar xanĭma xəbər verün, Qarabağda Abdalgülal mə:ləsində bir dənə Valeh addi aşığ var, ona kağız yazsın, o gəldi bəlgəm.

Bu xəbəri verən kimi, Zəringar xanım öz kənizi Alçaqızı göndərdi bazara. Didi: Ged, görginən, Qarabağ tərəfə atdıdan, dərbətdidən, yolçıdan Qarabağ tərəfə kim getsə, onı[i] gətir mənim yanĭma. Getdi bı bazara, gördi ki, iki dənə atdıdı[i] çörəgdən paprosdn aldılar. Miniblər atı[i] gedməgə. Didi: Atdılar, yavaş gedün. Gəldi, çatdı[i]. Bı çatan zamanda didi: Qocan

oğlannar, hardan gəlib, hara gedirsüz?

Didi: Biz alverə gedməg istiyirük Qarabağ tərəfə heyvan almağa. Didi: Onda zəhmət çəgün gedək, bizim Zəringar xanımın bir-iki kəlmə səniynən sözi var. Getdi Zəringar xanĭmın yanĭna bılar. Zəringar xanım sorışdı[i] ki, hardan gəlib, hayana gedirsüz?

Didi: Xanım, biz Qarabağa Abdadgülal mə:ləsinə gedirüg. Didi: Mənim bir dənə paketim var, oni verərsüz a:şığ Valeh var, ona. Həmin paketi alıb, apardi verdi aşığ Valehə...

(Sabirabad rayonu, Kolanı kəndi

Mənbə: Azərbaycan dilinin Muğan qrupu şivələri, Bakı:Azərb. SSR Elmlər Akademiyası nəşriyyatı, 1955, s.229-230)

Qərb şivələri

Dəli Alı

Dəli Alı çovan oluf. Mirzə bəy Qazıyovuŋ çobanıydı. Bu nə tə:r olursa, Dəli Alıdan gedif Mirzə bə: qandırellar. Mirzə bəy de:r: - Atdarĭmı yəhərreyiŋ. Atdarı yəhərrədir. Mirzə bəy miner Quşçu kəndinə:ler (kəndinə gəlir). Alı da qoyŭnu arxaşda çinar var, orda yatızdırmışdı. Mirzə bəy də, Alı da çinara söykəner. Çovanın biri Alıya de:r: -Kimsə atnan gəler, də:sən, qavaxdə:lən (qabaqda gələn) Mirzəyə oxşor. Alı da çovana de:r: -"Ayə, qavağe:t. Alı da tüəngini çiyn ĭ nə keç ĭ rer, Mirzəniŋ qavağına͡ e:der. Mirzə atınıŋ başını çaker, əylənər. Mirzə bəy sərkərinə salam verer. Sərkər de:r ki. Burda bir Mirzə bəy var, o da sənsən. Də:ndə de:r:- Ayə köpö:ğlu, Mirzə bəy mənəm, bə sən özünü niyə Mirzə bəy ad-dandırersan. Mirzə bəy gənə sərkəri Alıya sö:r. Üçümçü səfər söyəndə Alı tüəngi üzünö:türör. Tüəngi üzün͡ "ö:türən kimi tüəng açıler. Açılan kimi güllə Mirzə bəyi atın dalınnan yerə yıxer. Dəli Alı qardaşını, başsını yöt ŭrör, atını sə:rder qaçer. Dəli Alı onnan (o vaxtdan) qaçağ olor.

Onnan Dəli Alı çox addandı, iyid oldu. Mən getdim onun Qarasuçulu kəndinə. O kəndə qonağ oldum. Getdim orda bir adamnan xavar aldım. Alĭnın öyŭnü maŋa görkəzdilər. Onun meytər başınnan toyluy͡ ətdix'. Belə baxand ͡ ö:rdüm qırx erkəy at bu tərəfdə, qırx üryə də o tərəfdə bağlanıf. On kəhər, on at qaradı, on at xallı göy atdı. On at Qarabağın hayva sarı, yal-quyruğu ağ at. Onnan Dəli Alı qaçağ oldu. Soŋra Alıyı öz nökəri öldürdü.

(Qazax rayonu Ağköynək kəndi, İmamqulu Molla oğlu Əliyev, 121 yaş

Mənbə: Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, Bakı, 1967, s.253)

Kötüy əhvalatı

Şah vaxdilə dünyöyü geşt eliyəndə gördü kü, bir körpü qırağında bir şaxs mayıf adam oturuf diləner. Elə oldu kü, gəzmyə çıxanda bu korun ədəti beleydi ki, bu kəlməsurat belə danışırdı. Bu de:rdi həməşə ya mabud versin. Mahmud də:ni Şah oğlu Şah Abbas eşitdi. Eşidif dəndə harava sürənə dedi bir dayan. Dedi bir ged o kora deynən niyə mabud versin. Mahmut bu də:ndə dedi: - Ey qul, şaha denən Mahmudun köŋluna möhübbət sal, maŋa xarşdıx verisin. Şaha bu sözü haravaçı dedi. Məŋzilinə çatıf qayıdıf gəlif. Gələn vəzir vək ĭ linə əmr çatırdı. Dedi fılan körpünün qulağında bir mayıf kor oturuf, onu mən Şah Abbas olam, mə:m vaxdımda elə müstahaxlar olmasın. Şah öz tədbirinnən bir fikir qiyqusun͡ əlif, bu savax tezdən duruf haravasını hazırre:f minif. Şah bir kötüyün içini oyduruf qızılnan dolduruf. Munu bir kimsə bilməzdən haravasına qoyuf, sürdürüf korun həmən otduğu yerə. Gənə kor başdadı o sözdəri deməyə. Elə bu sözdəri də:ndə həmən kötüyü apar onun yanna qoy. Apardı

haravaçı kötüyü qoydu onun yanĭna. Şah oğlu dedi bu kötüx′dəki qızıl munun nüyədən, kötüycəsinətən yetəjəx′.

Munnan soŋra bir neçə haravaçı gəldi. Gələndə gördülər ki, korun yanında kötüx′ var. Dediələr ki, al bu səniŋ beş şa:n, bizə bu kötüyü ver. Kötüyü qaldırıf haravasına qoydu getdi öyŭnə. Gəldi öyŭnə çay var, ay nənə? Nənəsi dedi:

-Odun yoxdu, busa:t qayırram, həmən kötüyü gətdi, baltanın altına qoydu, çilix′lədi. Çilix′liyəndə gördü kü, qızıl töküldü. Ay nənə, ay nənə, bury͡əl, bizimki qazammadıx qarşı͡ yəldi. Yığışdırax qızılı. Üş gün munnan soŋra şahın həmən yolonan gənə getməyi oldu. Gedif gördü kü, kor həmən körpünün üstündə oturuf. İndi başdadı get o kora deynən kötüyü ninədi. Şaha de:r:- Kötüyü üş-dörd şa:ya verdim apardı. Şah burdan tüşdü getdi həmən korun yanĭna.

Dedi: Ey kor, bir də səni bu körpünün gözündə görəm, başıŋ fərmandı. O nə sözdü ki, də:m ki, ya Allah sən qullara ver, qullar da maŋa versin. Dedi:-Kor sən bil ki, saŋa mabud veriler neyləsin. Mahmud bir də körpünün qulağına çıxma, xəz ĭ nədən bu qədər qızıl verdim, Allah saŋa vermədi, başqasına verdi.

(Borçalı, Kosalı kəndi, Kərim Kərim oğlu Alıyev, 68 yaş, savadsız

Mənbə: Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, Bakı, 1967, s.276-277).

Söhbət

Niqalay vaxdı nöüt tabbırdıx. Sonra dəvədə tuluxnan dəvəçilər nöüt gətirirdi. Dəvənin belində gəzdirirdi kəndin aralarında. Derdilər: - Ay nöüt alan. Ona da çıra tabbırdıx, qara çıra. Pambıx tabbırdıx kı, ona piltə qayrax. Əysidən qayırırdıx piltiyi, oda vermirdi ışıx. Nöüt qaraydı, tapılmırdı ağ nöüt. Yandırırdıx öydə qara çırıyı. Dama dolurdu xıs.Yoxuydu otax indiki kimi. Görü'mürdü öydə adam xısdan. Bajaları çimmiznən basırırdıx souğ olduğunnan. Soŋra bajanın çimmizini açırdıx kı, xıs daransın yatax. Təx'cə-təx'cə adamın balaja otağı olardı pə:nin başında, puxarısı olardı.

Gərmədən qalardılar, ağsaqqal kişilər gap elərdilər yığılıf. Belə-belə günnər keçirərdix' pis. Naçaxlıyannarımız aylarnan-illərnən yatardı. Naçağa heş kimnən köməx' ölmazdı. Özü sağalsa sağalardı, sağalmasa yox.

İndi nə var kı. ləmpüşgə yanır, ağ otax, hər şey bol. Bu gördüyünüz binalar onda nəzirdi.Qazma damlar varıydı, bir yanına mal bağlıyırdıx, bir yanda olurdux özümüz.

Onnan danışım üç usdaydıx biz. Soŋra birini inciner qavıl eləmədi çıxardı. Yoldaşınna örəjəx'səŋ bunu dedi mana. İnciner ırayonnan gəldi yoxladı üç günnən bir də. Əştərəx' örürdüx' yoldaşdarınnan. İnciner bənirdi örüyü. Səməndiydi birqadamız da. Daşı Kəmətdən gətirirdilər. Birinci daşıydı daş əmə. Ləngimirdi işimiz, yaxçı gedirdi laf. Örüyü qutarannan soŋra ölçdü inciner əğını da, başını da. Qurtaranda irəyqom da gəlmişdi maraxlandığınnan.Səmənd balıx gətimişdi dəngizdən. Qonaxlığ elədix' ollara.

(Qərbi Azərbaqycan, Göyçə mahalı, Toxluca kəndi, Çobanov Əbdüləli, 74 yaşlı, savadsız

Mənbə: Ş. Kərimov Azərbaycan dilinin Çənbərək və Karvansaray şivələri, Bakı: Nurlan, 2004, s.285).

Şimal –qərb şivələri

Taxıl əkini

Çəltiyin toxumunu təmizdiyif tavaxlarıx, içində suluf şey, heş bir şey ola bilməz.Tökərix′ istılata yaxşı yerə. Elə yerə ki. Nəm çəhməsin, ca:nəməsin, göyərməsin.

Sonra unu çekif yığırıx bir meşuğa, ağzını bağliyirıx. Sora unu göl qazırıx belə yerdən, suyu dolduruf gölə salırıx, meşuğu u:n içinə. Beş gün, altı gün qalır, sora çıxardırıx tökürüx′ gölün qırağına təmiz yerə, süpürüf orda üsdünü bassırrıx, sora ta:ki gözdü:rüx′ o çərtir. Çərtənnən sora aparıf səpirix′.

Bu öyü təşvey tut. Bir tirə bir yannan, bir tirə də o üzünnən çəkirix′. Boyu neçə metroysa, çəkif ayağa çıxannan sora belə-belə ləh bo:rux, başa çıxırıx. Ləh bo:ğuf so:ra içini təmizdiyif çəltiyi səpirix′. Çəltiyi də səpirix′ dəyənə qədər suyun içində olsun gərəx′. Beccə gün, onca gün su olmadısa, baş açan vaxdısa, puç olur çəltix′.

Orağnan biçillər, əlnən bafa bağliyillər, penciyə vurullar, sora daşıyıllartayə vurullar. Malatırqaynan da döyüf gətĭrillər isqılata.

Keşmişdə bir kötüx′ qayrıllardı ağaşdan, ya kəl, ya bir cüt öküz qoşullardı, kötüynən döyüllərdi. Xırman qayrıllar, təmizdi:llər yerin. Taya:n bafalarnı sirkəliyillərdi, sora döyüllərdi, dəni tökülənnən sora küləşini yavaynan çağardıllardı. Sora əlnən so:rullardı yığıf. Harası təmissə, yaxşıysa, unnan ayrıllardı toxumu, olmadiysə tavaxliyillərdi.

Arpanı, buğdanı kəpəx′ səpəndə iki yayın üzünü görsün. Səpəndə bir yayın üzünü görsün kəpəx′, biçəndə bir yayın. Köhnə vaxtda əkirdix′ kəlnən, xışnan. Yayda şum eli:rdix′, əkirdix′, payızda səpirdix′. Birinci, ikinci ayında səpirdix′ qutarırdıx əlnən. Sulağı suluyurdux, dəmyəni dəmyə əkirdix′. Yazdada güləmbir vururdux, yağınnığ olanda vurmurdux. Yay girdi biçirdix′. Sora da vəl qoşulardı, vəlnən döyüllərdi, şanaynan so:rullardı. Sonra şadarıya vuruf dənəvər atıf təmizdiyillərdi.

Sünbülü əldə seçəllərdi dənə-dənə tayadan. Tayadan seçif toxum qayrallardı. Sünbülü döyəllərdi, təmizliyəllərdi, ayrıca toxum səpəllərdi. Unnan aldıxlarını toxum qayrallardı. Sünbül seçif alīnan toxuma axda toxum deyillər.

(Şəki rayonu Böyük Dəhnə kəndi, Möhsün Məmmədkərim oğlu Rəhimov, 70 yaş

Mənbə: M.İslamov. Azərbaycan dilinin Nuxa dialekti, Bakı:Azərb. SSR EA nəşriyyatı, 1968, s. 226-227).

Kəndimiz

Ülüsü kənti dağların arasında, Kurmuk çeyinin Ağceylə birəşdığı yerdə yerrəşiy. Kəntin çox qədimi tarixi var. Ho dağlardan Yezdi, Yarpızbasan, Uzun sırt, Qoç bərə, Qoç yatax, Kötüklü və ayrılrını qorkazmax olar. Dağlarda çoxlu ramramaylar var. Holardan Qomanın qırıldav, Sutokulanın qırıldav, Çeytokulan qırıldav var. Kəntdən beş vest yuxarda bivestə qədər yerdən isdi su çıxıp axıy. Dağın içində cərgəynən yeddi həmməm olupdu. Holardan altısını sel basıp, biri qalıpdı. Ho dağın içində Oğlanbulax – Qızıbulax da var. Honnan savayı buz kimi suyu olan Beşbulax, Səngərbulax da var. Kəntdə bir neçə tarixi abidə var. Ulu korpunu, Sumu qalasını, Qalaçanı misal qorkazmax olar. Ulu korpunun yeşi məlum doqul. Digilənə görə korpu yumurta sarısıynan tikilipdi. Honun yanındakı təzə korpu hər il üçüy. Ulu korpunun bir daşı da tərpənmirdi.

Ramratay/qırıldav – şəlalə.

(Qax rayonu, İlisu kəndi, toplayanı Həsənova Nərmin

Mənbə: M. Məmmədli. Azərbaycan dialektologiyası, Bakı, 2019, s.348)

Şərq şivələri

Söhbət

Bizim tərəflərdə mayın axırrarı köç yeylağa çıxır. Həmşə köç vaxdı havalar korranır. Bir də görürsənki, axmağisdadan yağış başdadı. Dala qayıtmiyəcəysən ki. Üs-başın isdanır, əyağların lıdır palçığa batır, hələ qoyunnarı demirəm.Boğaz qoyunnar yolda balaleyir, körğə quzularnan yol getməy çətin olur. Bəzən dağ yamajdarı qədəmə kimi olur, onu çıxmağ asan olur. Qoyunnarnan bir yerdə mal-qara da gedir. At, inəy, gomuş da aparıllar. Körpə buzo, xotəy tez-tez yorulur. Çox yorulanda biz də dincəliroy, atdarı yançidar eleyib otdamağa bıraxır, qoyunnarı cağannığa bıraxırığ. Yeylağa çatan alaçığ qurur, yeni həyata başderoğ. Qışdağda olduğu kimi toyuğları əliyə, malları pəyiyə salmırığ. Gecələr olar çöldə yatıllar.Sabah obaşdannan mallar da, qoyunnar da sağılır, quzular bıraxılır, çobannar da qoyunu otdamağa aparıllar.

(İsmayıllı rayonu Cülyan kəndi, Toplayanı: Orucova Fidan Rasim qızı

Mənbə: M. Məmmədli. Azərbaycan dialektologiyası, Bakı, 2019, s.345)

Keçid şivələr

Söhbət

Ə, Səlum, sən axşam miyə heç bildün nə dedun? Amma mən sənu sözlərunnan heç incumədum. Çünku sənu hamu yaxşı tanıyur. Miyə indiyə kimu heylə söz deyən olmıyub. Gör ha! Sən nə dedun? Guyah hər ilun yay ayləru bizum meşələrdə çoxlu ağaclar tələf edurlər. Sədrun bunnan heç xəbəru olmıyub. İndu da mənum o meşədən çoxli ağac kəsdiyumu sən danışırsan. Sizə kim bunu deyub? Kim siyə bu işlərin haqqınu-hesabınu verub? Yaxşu, işun, sözün var idu miyə deyəydun da. Gedub nə içun sədrə deyursan. Sən bilursan daynasu gun mənum bu işlərdən çoxli xəbərum olacağ? Çünku heylə təzə eşitmişdum. Bundan eybi yoxdi. Heylə sən üstəlik bir də deyirmuşsan ki, Dünyamun sədrun sözunə baxmır. İstədiyu yerlərun hamusuna özü icazəsuz gedur. Arabalaru yerundə saxlamur. Olaru istədiyu yerlərə nə vaxt isdəsə özü aparur. Mənu rüsvay etmusan, bu nədu? Nə danuşmusan? Miyə arabə lazum olan kimu sədrun özünnan isdiyuram. Hamunun yanunda mənu rüsvay etdun. İndu də görürsan ki, mən bağa geduram. Dayi (daha) da çoxli danışacağsan. Bildun indu sən nə qədər işlərun yiyəsi olmusan? İndu miyə nə dedun hamusuna inanan deyuləm. Çünku dayi nə qədər varundur danışmusan. Eybu yoxdur. Vaxt gələcək yalanlarunun üsti açılacağ. Onda özün biyabur olacaxsan. Siyə yaxşuca hiybərə Səlum deyurlər. Ağzuna nə gəldu danışmusan. Hamu indu inanub ki, Dünyamun çoxlu oğurluq edub, hamu elyə bilur. Dayi mən nə diyə bilərəm. Sağ olun. Sənun sözlərun, işun heylə olar. Əmun oğli Səmədun da ağzi sənun kimu çoxli danışub. Hamusuna sən dimusan. İndu də mənim meşiyə getdiyumu görirsan. Dayi da çoxli danışacağsan. Əyə yaxşi işun yoxdur, başqa işlərunan məşğul ol da. Bu nədu sən eliyursan? Heç kişiluyuna yaraşurmu? Allahun meşəsu, qolxozun arabəsu, siyə nə olub ki, düşmisən qapi-qapi danışursan? İndu da gedurəm. Get danuş nə qədərun var, get danuş. Miyə heç kimun sözü kar eləməz. Amma qonşuyuğ, yaxşi iş eləmursan.

Səlum çox pərt olur, deyur: - Dünyamun, sənu canun içun, balalarımun canı içun mən bularu hiç yerə danışmamuşam. Burax bu sözləru, siyə yalannan deyublər. Aramuzu vurmağ istəyurlar. Gələjəm sizə, buları siyə kim deyub öyrənəjəm.Sora hamsunun cavabın verəjəm.

(Zərdab rayonu Əlvənd kəndi, Əbdülhüseyn Əbdül oğlu, 75 yaşında, 1962

Mənbə: M.Məmmədli. Azərbaycan dialektologiyası, Bakı, 2019, 337-338)

Cənub şivələri

Toy adəti

Axi bıra kimin dö:l. Elə var ki, oğlan qızı görmir. Elə ki gördülə söüşdülə elçi göndərillə. Sözikeçən, annıaçıx əğsəqqəllər yığışılla evdən gedillə elçilığa. Bi qismət yi:lənnən so:ra söz açılıri. Ay Cabbar dayı, bülüsən nəyə gəlmişux sə:n evua. Bülmürəm. Elçilığa gəlmişux. Maşalla qız da böüyüp, oğlan da böüyüp. Oğlan əsil nəsəb yerin adamıdi, qız da əsil yerin qızıdi. Bis sənnən xa:ş eli:rux bizim qəlbimizi sındırmayasan. Qızıvi verəsən Həsən dayın oğluna. Qabaxca nəm-nüm eli:r. So:ra əğsəqqəllər hərəsi bi yannan di:r: Ə kişi, yaxşı adamdıla, Allah mübarəx' eləsin. Orda razılaşılla. Nişan di:rux, nişan aparılla. Cümə ahşamı nişan aparu:x. Nə istisən bizdən qızıvun nişanna, nə istisən? Dillən görax nə istisən? Döt dana qoyın isti:rəm, 2 meşok un isti:rəm, 5 kəllə qət isti:rəm, 5 kirvənkə çay isti:rəm. Onın nə lazımdı hammısın sənnən isti:rəm. Cümə ahşamı oğlan öyünnən bı əşyalar o vəx maşın yox iydi, camahatın başında gedirdi. Qəndi, çayi düzüllə mejmeyilərə, qoyılla cəvan uşaxların başna, bizim dil xanəndə vıra-vıra gedillə qız öynə. Qız öyündə o aparılan şeyləri yi:llə, içillə, diyillə, gülüllə. Kəbin o gün kəsiliri bizzə. Nişan aparılan gün qız öyində kəbin kəsiliri. Oğlan bı öyə gəlib gedəndə qeyinanasıynan, baldızıynanmı, bı xanəbadəynən məhrəm olsun. Kəbin kəsillənnən so:ra oğlan diyirdi ki, toyımı eli:b qızi aparacağam. Oğlan əyə dö:lətdi yerin oğlı olseydi, kətdə nəqəd adam var toya çağırılla. Həsən ağa:n oğlinin toyidi öydə bi də var, iksi də var gəlsin toya. İkü:n gedisən o toya orda yeməx' yoxdi. Aşıx çalır, ça:rır, çay içilir. Üçiminci diyən gün orda yeməx' vardi. Gedisən, yi:sən, içisən, ətdimi, plo:dimi-oları yi:llə toyı elillə, camahat dağılır gediri.

(Təbriz, İsmi-Kəmər kəndindən, Abbas Şərifzadə, 71 yaşında, savadsız.

Mənbə:M.Məmmədli. Azərbaycan dialektologiyası, Bakı, 2019, 332).

Çatı Məmməd

Bizim bı Qışdax dərəsində illap çoxdannan Məmməd addı bir kişi varmış. Uzunarax, arıx bir kişi olduğunnan ona Çatı Məmməd də:rmişdər. Bı kişinin bir cürə də xəsiyəti varımış bir söz desəŋ, bir iş buyursan ağlına batdı-batmadı, kefinə düşməsə inat bir damarı varıdı, ona kin tüşdü vır boynunu onu eləməzmiş. Özü də tıntınmış. R əvəzinə q də:rmiş. Qurut əvəzinə ququt də:ndə hammı gülərmiş. Genə bir günüsü kənd cahılları görür kün, bıdırana Çatı Məmmət gəlir. De:llər: “Sən öl yaxcı oldu. Çatı Məmmədi danışdırağın kefimiz kökəlsin”. Çatı Məmmət gəlir, ahıllar onnan hal-xoş eliyir. Biri de:r kin, a Məmməd əmı, nolar kin, bircə kərəm qurut də:sən. Oğlan nə qədən yavlarır, Çatı Məmmət tırraşır, demir. Cahılların biri cibinnən pul çıxardıp de:r: “Çatı Məmmət bircə yol qurut desən, ma:t sənındı”.

Çatı Məmmət ola:n üzünə bozarır: “Ə, mənnən nə issiyirsən, nə ququt de:rəm, nə də mã:tı issiyirəm”.

İndinin özündə də Qışdax dərəsində bı timsal olupdu. Birisi işə gõŋulu olmuyanda də:r: “Qardaş, bi:rsən nə var, Çatı Məmmət demiş, nə ququt de:rəm, nə də mã:tı issiyirəm.”

(Mamedov Cabbar Hüseyn oğlu (74 yaşında, orta təhsilli), Aşağı Qışlaq kəndi.

Mənbə: N.Əliyeva. Azərbaycan dilinin Şahbuz şivələri, Bakı, 2012, s.171).

Naxırçı qızĭnın kou:lu əpbəyi' issər

Bəyoğlu bəy avdan qəyirdirdi. Həfsələsi tükənmişdi, möggəm də susamışdı. Yolu bir kəndin bulağının başınnan tüşdü. Baxdı bir qız su doldurur. Atın cilavın bıraxdı, atı da susamışdı. Bəyoğlu bəy atdan düşdü, əl-üzün yudu. Dübara sənəyin dolduran qıza baxdı, gördü gözəl, qəşşəx', göyçəx', yerri-yataxlı bir qızdı. Qızdan su issədi. Qız parçı doldurup ona verdi. Bəyoğlu bəy suyu işdi, ürəyində öz-özünə dedi: "Vallah, Allah-tala mənim qismətimə böyün bı qızı çıxardıp. Bını aparacam".

Oğlan ata mindi, qızı da tərkinə alıp imaratına gəldi. Əvləndi bınnan boylum yaşadılar.

Amancax bəyoğlu bəy görür kün, bı qız heş yaxcı əmølləşmir. Günbəgün, günü-günnən irəli gəlməhdən geri gedir. Həkim, loğman gətizdirdi, baxıllar, deyillər, bının heş bir naxoşduğu zadı yoxdu. Bı xüfət eliyir. Günnərin birində bəyoğlu bəy əvə qəyidəndə nə görsə yaxcıdı? Baxır kin, naxırçı qızı əvin həyətinin hər buşqağına bir əppəx' qoyup, əlĭnə bir ağaş götürüp, çiyninə bir həybə salıp oha-oha diyə-diyə ağacı yerə döyür, göyə qavzıyır, gəlip əpbəx' qoyduğu yerə çatanda çağırır: "Ay Gülpəri xala, naxır əpbəyin gəkgə, gə inəyi apar, xalxın çəpərinə tüşər".

Bəyoğlu bəy barmağın tişdədi, dedi: Hə, deməx' naxırçı qızının koũ:lu naxır əpbəyi issər.

Hümbətov Hüseyn Bürcəli oğlu

(83 yaşında, natamam orta təhsilli, Güney Qışlaq kəndi

Mənbə: N.Əliyeva. Azərbaycan dilinin Şahbuz şivələri, Bakı, 2012, s.173).

Pətəx'li haqqında rəvayət

"Pətəx'li" delən dağ bizim bı Badamlı kəndinin kəfşənindədi. Yekə bi dağdı. Kənardan baxanda adama elə görünürkün, dağın döşündə xeyləx' pətəx' var, arılar da kı vızhavızla işdiyir. Sən dağa yavışladıxcan arılar səndən uzaxlaşır. Gethaget, görürsən kin, nə arı var bırda, nə də pətəx'. Hamsı daşdı. Bax bı haxda qocalarımız bizə danışardılar. Onnar dərdilər ki, bir zamanlar varrı bir şəxsin saysız-hesabsız arısı varmış. Arının gətrən vaxdında belə bir hadisə baş verir. Aran kəntdərdən birində bir əvin təx'-madar bir əvladı varmış. Bı oğlan günü-günnən sozalmağa başdıyır. Həkimlər – təbiblər belə derlər kin, bı oğlanı sağaltsa – sağaltsa təzə çiçəx' balı sağaldar. Gəlirlər, arıçıya salam verib mətləblərini dellər. Arıçı göy, nırqız olduğunnan heş onnarı ağıra kimi danışmağa qoymuyub and-aman eləyir kin, bəs and bı, müsaf bı, bı il balın ili dəil. Ata və oğul kor-peşiman qayıdıllar əvlərinə, amma arıların nəfəsi balın ətri oğlana düşür. Sabah açılır, gün çırtır, amma arıçının qulağına vızıltısı gəlmir. Qalxır yerindən görür nə tas var, nə hamam. Ha ora baxır, ha bıra baxır, birdən gözdəri dağın döşündəki arılara, pətəx'lərə sataşır. Get ki, gedəsən, gəlib dağa çıxır, nə görsə yaxşıdır, görür bütün arılar daşa dönüb, daşdılar. Bı xəsis arıçı o qədər geri dönüb bı dağa qəyidir kin, bağrı çatdıyıb ölür. Həmin günnən sora bı dağa "Pətəx'li" deyiblər, arıçılar da bı niyyətə gəliblər kin, arı haram götürmədiyi kimin, yalan da səvməz.

(Şahbuz rayonu Badamlı kəndi, İbrahim Əliyev 78 yaşında, savadsız.

Mənbə:M.Məmmədli. Azərbaycan dialektologiyası, Bakı, 2019, 334).

Zəngəzur şivələri

Mənim qatır əx′valatım

Biz Erendeydix. Duz aparerdix Xochanda, Zəngilanda, Xannıxda saterdix-başımızı bir tə:r dolandırerdix. Bir qələ gederdix Xochana. Qərəçilər qabağınnan addamışdıx ərəzin bu tayına. Üş-dört ağaş mənzili getmişdix, Təxi xanın atdıları töküldülər üsdümüzə bizim. Aldılar bizim qatırrarı, qışın günü paltarımızı soyundurdular, hətdah çarıxlarımızı çığatdılar. Boş qeyitdix gəldix, genə addadıx Eran taya. Kəlbə Mir Haşım seyid idi. Onu da götürdux gəldix. Onun qatırın seyit olduğunnan verdilər, mənim qatırımı vermədilər, hətdah istədilər özümü də öldürsünnər. ordan genə boş qeyitdim gəldim Qulana. So:ra əmir Ərşət xan gəlip Təği xanın əv-eşiyini odddadı. Dedilər ki, qatırrarı verelləDurdum iki çürəx′ bağladım dəsmala, getdim Eranda Vinə kəndinə - Əmirin yanına. Dedi Əmir: “Qatırı mən faytona qoşecəm, vermerəm.” So:ra yalvar-yapış elədim, qatırın əvəzinnən yana bir ayrı qatır verdi mõ. Onu da tümbətüm Hacı xan tutdu əlimnən aldı.

O vədələr qatırı olmuyan əv çətin ötüşerdi. İndi aman nə var, maşın yenişə də dızler, yoxşa da.

(Qərbi Azərbaycan Meğri rayonu Aldərə kəndi, İbrahimov Mirzəsəlim, 83 yaş, savadsız

Mənbə: Əliyev Ə. Azərbaycan dilinin Meğri şivələri, Bakı: Elm, 2003, s.509).

Üzdü qonax

Gələndə Kərim əvə gördü bir qonax var: salamlaşdı qonağınan. Oturdu döşəyçədə. Geşdi günnər, dolandı həftələr, getmədi qonax öz əvinə. Qiyamat qofdu Kərimin başına. Dedi

xəlvətcə arvadına ki, bı zalım oğlı havağatan boğaz ortağı olajax? Qazancım ancax ki, ikimizi dolandırır. Tacir dəyiləm, qəssəf dəyiləm, neyliyim mən başı bəlalı. Bir gün Kərim pişiyi tutuf sığallıya-sığallıya qonağa eşitdirməy üçün dedi:

Pişiyim, pişiyim mavrəsər,
Çölə çıxma yel əsər,
Qonax bı gün bizdədi,
Saba: yola tələsər.

Bı sözdəri eşidən qonax həmin pişiyi tutuf belə dedi sığallıya-sığallıya:

Pişiyim, pişiyim mavrəsər,
Çölə çıxma yel əsər,
Qonax bı yıl bırdadı,
Gələn il də sərasər.

Kərimnən arvadı eşidəndə qonağın bı mahnısın əlləri yerdən-göydən üzüldü. Qonax çox yekəpəridi, güj – zad çatası dəyildi. Kərim onu zornan da qava bilməzdi. Bir gün dedi arvadına Kərim ki, ay arvad, gəl bir gün yalannan əvin aynoynun yığışdırıb əvdən çıxax, bir əz uzaxlaşax, görəy bı nadürüs oğlu çıxıb gedərmi öz xaravasına. Belə də elədilər. Duruf olan-olmazdan şələlənif, köşdüylərini qonağa bildirif düşdülər yola. Üş-dört gün qaldılar yaxın kəttə qohumları əvində, so:ra qayıtdılar genə öz əvlərinə. Gördülər yoxdu qonax, gedifdi. Kərim dedi, ay arvad, şükür haqqa kafir oğlu yaxca əkildi başımızdan. Dur o uruset xoruzunu gətir kəsif yeyəy, xoruzu kefi köy kəsif bişirdilər. Kərim dedi, ay arvad oynuyax yeyəy, yoxsam yeyəy oynuyax?

Arvat dedi: - ay kişi, elə çox əziyyətdər çəkmişiy, bir doyuncan oynuyax, so:ra yeyəy.

(Laçın rayonu, Qoşasu kəndi, Əsədova Mənsumə Məşədibaba qızı, 83 yaşında

Mənbə: M.Məmmədli. Azərbaycan dialektologiyası, Bakı, 2019, s.342)



İbrahim Məhəmməd oğlu Bayramov 25 yanvar 1954-cü ildə indi Ermənistan adlanan Qərbi Azərbaycanın Göyçə mahalının Toxluca kəndində anadan olmuşdur. 1971-ci ildə Toxluca kənd orta məktəbini, 1975-ci ildə Ermənistan Dövlət Pedaqoji İnstitunun filologiya fakültəsinin Azərbaycan bölməsini fərqlənmə diplomu ilə bitirmişdir. 1975-1988-ci illərdə Toxluca kənd orta məktəbdə Azərbaycan dili və ədəbiyyatı müəllimi, 1987-1988-ci ildə Toxluca kənd orta məktəbinin direktoru işləmişdir. 1977-1981-ci illərdə AMEA Nəsimi adına Dilçilik İnstitutunun aspiranturasında oxumuşdur. 1989-1993-cü illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstititunda (indiki Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında) baş laborant, 1993-1995-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) "Azərbaycan dilinin onomalogiyası" elmi-tədqiqat laboratoriyasının kiçik elmi işçisi vəzifəsində çalışmışdır. 1995-ci ildən ADPU-nun Müasir Azərbaycan dili kafedrasında işləyir və həmin kafedranın professorudur. 2003-2021-ci illərdə ADPU-nun Magistratura və doktorantura şöbəsinin müdiri işləmiş, eyni zamanda 2005-2007-ci illərdə Tədris metodika şöbəsinin müdiri, 2004-2007-ci illərdə Elmi Şurasının Elmi katibi vəzifələrini də yerinə yetirmişdir. Hal-hazırda ADPU-nun Elmi-təşkilati şöbəsinin müdiridir.

1986-cı ildə "Müasir Azərbaycan ədəbi dilinin xalq danışıq dili hesabına zənginləşməsi yolları (leksika və frazeologiya)" mövzusunda namizədlik dissertasiyası, 2007-ci ildə "Ermənistanın türk mənşəli toponimlərinin tarixi-linqvistik təhlili" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 2013-cü ildə professor elmi adını almışdır.

2009-2016-cı illərdə ADPU-nun nəzdində fəaliyyət göstərmiş Dissertasiya Şurasının, 2013-2016-cı illərdə Azərbaycan Respublikasının Prezidentinin yanında Ali Attestasiya Komissiyasının nəzdində fəaliyyət göstərmiş filologiya ixtisası üzrə ekspert komissiyasının üzvü olmuşdur.

Prof. İ.M.Bayramov Azərbaycan dialektologiyası sahəsində tədqiqatlar aparır. Onun Azərbaycan dialektologiyasına həsr edilmiş "Azərbaycan dilinin dialekt leksikası" (2011), "Azərbaycan dialektologiyasının əsasları" (2015), "Azərbaycan dili şivələrinin fonetikası" (2016), " Azərbaycan dili şivələrinin morfologiyası" (2019), "Azərbaycan dialektologiyası (frazeologiya, leksikoqrafiya, söz yaradıcılığı)" (2019), "Azərbaycan dili şivələrinin sintaksisi" (2020), "Azərbaycan dili şivələrinin leksikologiyası" (2020), " Türk dillərinin müqayisəsi (şivə və dədbi dil materialları əsasında) (f.ü.f.d. A.Bədəlova ilə birlikdə)" (2020) əsərləri çap olunmuşdur. Bununla yanaşı İ.Bayramov Qərbi Azərbaycan şivələrini də tədqiq etmiş və bununla bağlı "Qərbi Azərbaycan şivələrini leksikası" (2011) kitabı nəşr olunmuşdur. Prof.İ.M.Bayramovun indi Ermənistan adlanan Qərbi Azərbaycan toponimləri ilə bağlı "Qərbi Azərbaycan toponimlərinin tərkibində işlənən söz və coğrafi terminlər" (2000), "Qərbi Azərbaycanın türk mənşəli toponimləri" (2002), "Qərbi Azərbaycanın topnimlər sistemi" (2005), "Tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti" (2012), "Həqiqətin onomastikası" (t.ü.f.d. Nazim Mustafa ilə birlikdə) (2021) kitabları nəşr olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 17 dekabr 2021-ci il tarixli Sərəncamı ilə prof. İ.M.Bayramova Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi münasibətilə "Əməkdar müəllim" fəxri adı verilmişdir.

İKSAD Publishing House

ISBN: 978-625-8377-30-9